AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
FİLOLOGİYA FAKÜLTƏSİ

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 101 illiyinə həsr olunmuş



"AZƏRBAYCAN FİLOLOGİYASINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ"

mövzusunda

RESPUBLİKA ELMİ KONFRANSININ

M A T E R İ A L L A R I

BAKI - 2024

TƏŞKİLAT KOMİTƏSİ

Sədr:

Elçin Məmmədov	BDU-nun Filologiya fakültəsinin dekanı

Üzvlər:

Mehriban Əlizadə	BDU-nun Filologiya fakültəsinin elmi işlər üzrə dekan müavini
Ülviyyə Hüseynova	BDU-nun Filologiya fakültəsinin tədris işləri üzrə dekan müavini
Anar Fərəcov	BDU-nun Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini
Ramil Bayramov	BDU-nun Filologiya fakültəsinin Türkoloji araşdırmalar ETL-in kiçik elmi işçisi
Pərvin Eyvazov	BDU-nun Filologiya fakültəsinin Türkoloji araşdırmalar ETL-in kiçik elmi işçisi
Aygün Zəkiyeva	BDU-nun Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının böyük laborantı

Proqram komitəsi

Sədr:

Nərgiz Paşayeva	BDU-nun Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü

Üzvlər:

Nizami Cəfərov	BDU-nun Filologiya fakültəsinin Ümumi dilçilik kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü
Ədibə Paşayeva	BDU-nun Filologiya fakültəsinin Rus ədəbiyyatı tarixi kafedrasının müdiri
Səhər Orucova	BDU-nun Filologiya fakültəsinin Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri
Cəlil Nağıyev	BDU-nun Filologiya fakültəsinin Dünya ədəbiyyatı kafedrasının müdiri
Tofiq Hacıyev	BDU-nun Filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasının müdiri
Lalə Quliyeva	BDU-nun Filologiya fakültəsinin Rus dilçiliyi kafedrasının müdiri
Mətanət Abdullayeva	BDU-nun Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri
Məhərrəm Məmmədov	BDU-nun Filologiya fakültəsinin Türkologiya kafedrasının müdiri
Mikayıl Cəfərov	BDU-nun Filologiya fakültəsinin Rus dili (Təbiət fakültələri üzrə) kafedrasının müdiri
Tahir Əliyev	BDU-nun Filologiya fakültəsinin Rus dili (Humanitar fakültələr üzrə) kafedrasının müdiri
Abbas Abbasov	BDU-nun Filologiya fakültəsinin İngilis dili (Təbiət fakültələri üzrə) kafedrasının müdiri
Bəylər Hacıyev	BDU-nun Filologiya fakültəsinin İngilis dili (Humanitar fakültələr üzrə) kafedrasının müdiri
Elmira Fərəcullayeva	BDU-nun Filologiya fakültəsinin Alman və fransız dilləri kafedrasının müdiri
Elbrus Əzizov	BDU-nun Filologiya fakültəsinin Türkologiya kafedrasının professoru
Sənubər Abdullayeva	BDU-nun Filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasının professoru
Vaqif Verdiyev	BDU-nun Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru
Rəhilə Quliyeva	BDU-nun Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti
Məti Bayramlı	BDU-nun Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti
Məhəmməd Məmmədov	BDU-nun Filologiya fakültəsinin Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti
Teymur Kərimli	AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü
Muxtar İmanov	AMEA-nın Folklor İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü
Nadir Məmmədli	AMEA-nın İ.Nəsimi adına Dilçilik İnstitutunun direktoru
Yadigar Əliyev	Gəncə Dövlət Universitetinin Azərbaycan dili kafedrasının professoru
Sərxan Xavəri	AMEA-nın Rəyasət Heyətinin elmi katibi

MÜNDƏRİCAT

AZƏRBAYCAN FİLOLOGİYASINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

Sona Məmmədova. Misralara sığmayan Lider - Heydər Əliyev 7
Nurçin Bəşirli. Heydər Əliyev və Azərbaycan dili 12
Zəhra Hüseynova. Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazı 15

DİLÇİLİK

İlhamə Hacıyeva. Nitqin texniki elementləri (intonasiya) 20
Микаил Джафаров, Азиза Фейзиева. Символические и образные средства языка в газетных заголовках. 26
Əhəd Cavadov. Tam orta təhsil səviyyəsində dil qaydalarına dair məzmun standartlarının reallaşma vasitələri 30
Fikrət Əlizadə. Cümlə leksik-qrammatik konstruksiyalar yaradan vasitə kimi 35
İslam Vəliyev. XIII-XVI əsrlər Azərbaycan yazılı abidələrinin dilində feili sifət kateqoriyası 40
Məhbubə Qurbanova, İradə Şəmsizadə. "Ana dili" – Azərbaycan dili dərsliklərinin tarixinə bir nəzər 44
Rəna Mahmudova. İlk Azərbaycan dili dərslikləri və dərs vəsaitlərinin yaranma tarixi 49
Rəhilə Quliyeva. Frazeoloji birləşmələrin didaktik-tərbiyəvi xüsusiyyətləri 53
Saidə Mustafayeva. Azərbaycan dilinin tədrisi məsələləri 1990-cı illərin metodik əsərlərində 57
Səbinə Süleymanova. Konsept və konseptual metaforla bağlı koqnitiv dilçiliyin əsas nəzəriyyələri 62
Təranə Şükürlü. Türkmən dilində fonemlərin səciyyəvi xüsusiyyətləri 67
Sürəyya Cəfərova. Asemantik köklü bəzi düzəltmə isimlər haqqında 70
Mətanət Qocayeva. Otto Yespersen ingilis dili haqqında 73
Гюнай Бабаева. Фреймовые отличия и оптимизация межкультурной прагматики (в гендерном дискурсе Азербайджанского, русского и английского языков) 77
Roya Abdurahmanova. Dildə bir nitq hissəsindən digərinə keçid hadisəsinə fərqli aspektdən nəzəri yanaşmalar 82
Sevil Hümmətova. Nitq etiketi nitq mədəniyyətinin vacib komponenti kimi 87
Фарах Мамедова. Прагматика как предмет лингвистического исследования 91
Səbinə Vəliyeva. Dildə kəmiyyət anlayışının təzahürü 94
İradə Kərimova. Müasir Azərbaycan ədəbi dilinin qrammatik normaları (məktəb qrammatikası) 98
Lalə Mikayılzadə. Azərbaycan dilində paremik vahidlər 103
Pərvin Bayramova. Bilinqvizm və onun mahiyyəti 108
Ramil Bayramov. Ayrım dialektində sual əvəzliklərinin işlənmə məqamları 112
Sura Pənahlı. Dil sistemində mədəniyyətin linqvokulturoloji təqdimatı 117
Vəfa Allahverdiyeva. Dünyanin dil mənzərəsində etik konseptlərin mahiyyəti və özünəməxsusluğu 121
Pərvin Eyvazov. Professor Bəkir Çobanzadənin ismin kəmiyyət və mənsubiyyət kateqoriyalarına dair görüşləri 126
Ləman Şahəlizadə. Türk dillərində olan sözlərlə fransız dilində olan sözlərin oxşar cəhətləri 130
Наиля Мамедова. Взаимосвязь морфологии с грамматикой 135
Könül Eyvazova. Yenisey abidələrində hərəkət bildirən sözlərin türk və Azərbaycan dillərinin şivələrində izləri 140
Kubra Əlizadə. Azərbaycan dilində söz və morfem sərhədlərini siqnal edən ifadə vasitələri 146
Ülkər Əfəndiyeva. Orta Asiya qıpçaq dillərində qadın baş geyim adlarının leksik təhlili 149
Ülviyyə İbrahimova. Mövlud Süleymanlının povestlərində frazeologizmlər ("Şanapipik" povesti əsasında) 154
Səmra Həsənzadə. Dialekt anlayışının təzahür formalarına sosiolinqvistik yanaşma 159
Tairə Axundova. Bədii mətn müasir tərcüməşünaslığın obyekti kimi 164
Günay Əliyeva. Müxtəlifsistemli dillərdə onomasik vahid komponentli sabit birləşmələrin fonetik xüsusiyyətləri 167
Firuzə Kərimova. Konversiya müasir ingilis dilində söz yaradıcılığının üsulu kimi 170
Əfsanə Baxşəliyeva. Sosial şəbəkələrdə "dost və düşmən" konseptli ifadələr 173

Aynurə Süleymanova. Orta məktəblərdə oxu vərdişlərinin inkişafına verilən başlıca tələblər.....178
Aysu Ağayeva. Mətn dilçiliyində nidalar.....181
Arzu Quliyeva. Hüseyn Cavidin dilində türk dilinə məxsus fonetik xüsusiyyətlər.....185
Gülmirə Əliyeva. Turfan abidələrinin təsnifi və tədqiqi tarixi.....190
Nəzrin Baxşalıyeva. M.F.Axundzadənin əsərlərinin dilində monoloji və dialoji nitqin cümlə strukturu.....195
Nuray Fətiyeva. Türk dilində qadın geyim adlarının semantik xüsusiyyətləri.....199
Nüşabə Şərifli. Zərfin yeni təlim üsulları ilə tədrisi.....203
Səidə Tağızadə. Toponimlərin leksik-semantik xüsusiyyətləri (Mirzə İbrahimovun "Pərvanə" romanı əsasında).....208
Sevda Sadıqova. Emosional konsept linqvokulturologiyanın obyekti kimi.....213
Şirin Cəfərli. Rəng komponentli frazeoloji vahidlərin antropoloji xüsusiyyətləri və rənglərin rəmzi mənası.....216
Shen Youqi. The lacuna of "religion" in Chinese language culture.....221
Шен Юци. Лакуны «цвета» в системе китайского и русского языков.....225
Ванг Юхонг. Рассказ А.П.Чехова «Смерть чиновника» в переводе на китайский язык: анализ лексических несоответствий.....229
Wang Yuhong. Translation of A.P.Chekhov's works into Chinese: a brief overview.....235
Lamiyə Cəfərova. Mürəkkəb məzmunlu sadə cümlələrdə feili tərkibli xüsusiləşmə və bədii xitabların rolu.....238
Ellada Mahmudova. Semantik cəhətin omonim səciyyəli nitq hissələrinin müəyyənləşməsində rolu.....242
Vüsalə Rizvanova. Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərində əvəzliklər.....247
Nuridə İsmayılova. "Kitabi-Dədə Qorqud" abidəsində işlənmiş zərflərin quruluşca növləri haqqında.....250
Nəcibə Qurbanova. Qrammatikanın hissələrinin yaranma ardıcıllığı.....253
Zəhraxanım Rəhimova. Meğri şivələri və türk dillərində əvəzliklər.....257
Məlahət Cəlilova. Kütləvi informasiya vasitələrində orfoqrafik səhvlər.....261
Zərintac Şükürzadə. Əşyaların adlandırılmasında təfəkkürün təsiri.....265
Yeganə İsgəndərova. Qərbi Azərbaycan şivələrinin leksikasına dair müxtəsər qeydlər.....269

ƏDƏBİYYATŞÜNASLIQ

Эльмира Фараджуллаева. Бунин и Банин.....272
Азельма Гасанова. Банин и ее дневник-роман «Я выбрала …опиум» в историческом контексте.....275
Gilə Hüseynli. Ceyms Coysun "Sənətkarın gənclik portreti" əsərində modernist tərbiyə romanının xüsusiyyətləri.....281
Nuranə Nuriyeva. ABŞ ədəbiyyatında oriyentalizm: Qərb konsepsiyaları.....285
Nüşabə Əlizadə. Nəsrullah Mərdaninin "Setiq-e Soxən" mənzum təzkirəsi.....291
Vüsalə Nəsibova. "Kitabi-Dədə Qorqud"un türkmən variantının "Bamsı Beyrək" boyunda dastan motivləri 295
Arif Əsədov. ABŞ ədəbiyyatının Azərbaycan ədəbiyyatşünaslığında tədqiqi və tədrisi məsələləri.....300
Vüsalə Mirzəyeva. Müasir latınamerikan romanı: yeni tipli mədəni şüur forması kimi.....306
Elmira Süleymanova, Mətanət Allahverdiyeva. Viktor Hüqonun əsərlərində Şərq motivləri.....311
Mətanət Allahverdiyeva, Elnarə Yunusova. Müdrik kəlamlar və dünya xalqlarının atalar sözləri arasındakı oxşar xarakteristikalar.....315
Filiz Demirci. F.S.Fitsceraldın "Nəvazişli gecə" və P.Safanın "Doqquzuncu cərrahiyyə palatası" romanlarının psixoloji aspektdən müqayisəsi.....320
Gülşən Zeynalova (Mənsim). Azərbaycan tənqidində ədəbi icmal janrı.....325
İlahə Əhmədova. Magik realizm ünsürlərinin sosial mövzulu əsərlərdə yeri və rolu (Qaraqanın "Mələk" romanı əsasında).....329
İlahə Səfərzadə. Elçin Hüseynbəylinin hekayə yaradıcılığında qadın və cəmiyyət məsələsi.....334
Jalə Nağıyeva. "Manas" dastanında qədim türk mədəniyyəti.....337
Məleykə Mirzəli. Türkmən şeirinin günəşi - Məhtimqulu Fəraqi.....340
Gülyaz Hümmətzadə. Azərbaycan nağıllarında qadın obrazı.....345
Hülya Ağasıyeva. Hüseyn Cavidin "Şeyx Sənan" faciəsində mühit və konflikt.....350
Fidan Abdullayeva. Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixinin inkişafında rolu və pedaqoji-metodiki fəaliyyəti.....356
Aliyə Allahverdiyeva. Postmodern spektrdə çənlibel metaforası.....361
Aysel Ağabalayeva. Ədəbiyyatın psixologiya elmi ilə münasibəti.....368

Aysel Həsənova. "Sərvət-i fünun" ədəbiyyatı və Xalid Ziya Uşaqlıgil.....371
Cəmilə Azər qızı Seyid. Əli bəy Hüseynzadənin yeni mədəniyyət konsepsiyasının əsas tezisləri.....376
Fidan Vahid. Mövzu palitrası, tarixi duyum və janr özəllikləri.....379
Ləman Əliyeva. Cümhuriyyət dövrü və Əziz Nesin.....384
Kamil Əliyev. Akutaqava novellalarının ideya məzmunu.....389
Madər Əliyeva. Cəlil Məmmədquluzadənin yaradıcılığında əlifba məsələsi.....395
Sevinc Vəliyeva. Əliqulu Qəmküsarın felyetonlarında əsas tənqid hədəfləri.....398
Nərmin Qasımzadə. Uşaq ədəbiyyatında mətbuatın yeri: dünən və bu gün.....402
Nigar İsmayılova. Frans Kafka əsərlərinin tərcümə problemləri.....407
Nigar İsmayılova. Frans Kafkanın ekzistensializmi.....412
Nübar Məmmədova. "Qoca və dəniz" əsərinin fəlsəfi qavrayışı, ədəbiyyat dərsliyində yeri.....417
Dünya Şəmilova. Qövsi Təbrizi poeziyasında quran qissələrinin fəlsəfi interpretasiyası.....421
Sərvanə Fərəcova (Dağtumas). Bədii ədəbiyyatda psixogenealoji elementlər.....427
Aysu Məmmədzadə. Fransız şərqşünas Fransua Jorjonun Əhməd Ağaoğlunun Azərbaycanda modernizm hərəkatında rolu haqqında bəzi fikirləri.....430
Ayna Əhmədli. Hüseyn Cavidin "Peyğəmbər" əsərində sufizim.....436
Aysu İmanlı. Azərbaycanda memuar ədəbiyyatı: mövzular, meyillər və onun mədəni əhəmiyyəti.....442
Aytac Salahlı. Nağıllarda ögey ana obrazı.....445
Səyahət Məhərrəmova. Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı" əsəri tarixi-fəlsəfi roman kontekstində.....447
Zəhra Həsənova. Türk inancında yada daşı.....452
Müqəddəs Salahlı. Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" dramı: ideası və obrazlar aləmi.....457
Çiçək Hüseynova. Əbdürrəhim bəy Haqverdiyev dramaturgiyasının mövzusu və ideyası.....461
Aysun Hüseynzadə. Cəfər Cabbarlının yaradıcılığında qadın obrazları.....465
Nazilə Əzizli. Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanında paralel dünya və mistika.....469
Nuranə İbişova. Dostoyevskinin "Cinayət və cəza" əsərində fəlsəfi və psixoloji məqamlar.....474

AZƏRBAYCAN FİLOLOGİYASINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

MİSRALARA SIĞMAYAN LİDER - HEYDƏR ƏLİYEV

Sona Məmmədova*

Abstract

Heydar Aliyev, a leader who does not fit into verses

The article talks about the special value that Heydar Aliyev, a genius leader and great personality, gave to literature, as well as writers and poets, and the irreplaceable role of the Heydar Aliyev phenomenon in Azerbaijani literature. Heydar Aliyev is a person with an inimitable memory, strong logic, brilliant speech ability, and universal thinking.

Heydar Aliyev has a unique concept of the literary-historical process, unlike anyone else. He valued literature in the context of its centuries-old traditions, based on the principles of historicity, and gave special value to the role of literary and artistic traditions in the course of historical-social processes.

If we summarize the ideas in the article about Heydar Aliyev's irreplaceable role in Azerbaijani literature, we can note that Heydar Aliyev used the luminaries of fiction to introduce Azerbaijan to the world, and valued literature as a factor that unites the Turkic peoples. His thoughts on the 1300th anniversaries of "Kitabi-Dade Gorgud", 1000th of "Manas", 600th of Nasimi, and 500th of Fuzuli serve to unite the Turks of the world.

Keywords: *Heydar Aliyev phenomenon, Heydar Aliyev's literary views, Heydar Aliyev and literature, Heydar Aliyev in literary publications, Heydar Aliyev's legacy*.

Giriş. “Yaşamaq yanmaqdır, yanasan gərək, Həyatın mənası yalnız ondadır. Şam əgər yanmırsa, yaşamır demək, Onun da həyatı yanmağındadır”. Böyük lider, dahi şəxsiyyət, ömrünü xalqının işıqlı gələcəyi üçün şam kimi əridən Heydər Əliyevi təsvir etmək üçün bundan təsirli və qüvvətli ifadələr tapmaq düşünürəm ki, çətindir.

Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmiş, bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparmışdır.

Deyirlər, dahi şəxsiyyətlərin dünyaya gəliş zamanı onların özü kimi sirli və heyrətamiz olur. Bəlkə, elə buna görədir ki, dahi rəhbər təbiətin yeni-yeni oyandığı, ətraf-mühitin cənnətə çevrildiyi, insanın ruhunu oxşayan bir fəsildə-yaz fəslində dünyaya göz açıb. Qışın gətirdiyi əzab-əziyyəti özü ilə aparan yaz fəsli kimi ulu öndər Heydər Əliyev də Azərbaycan xalqının illərdir yaşadığı məşəqqətli, çox ağır və göz yaşı ilə zəngin tarixi bir keçmişini işıqlı sabaha çıxardı.

Ulu öndər Heydər Əliyev 10 may 1923-cü ildə Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanın 1960-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixinin otuz beş illik bir dövrü Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

O, bütün bu illərdə Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Bu illər ərzində Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş onun adı ilə bağlıdır.

Əsas hissə. Hər hansı bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli-mənəvi

* ***Mingəçevir Dövlət Universiteti, müəllim. Elek.poçt: sona.meherremova123@gmail.com.***

dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Hər hansı bir ölkədə xalqın milli-mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir.

Ümummilli liderimiz Heydər Əliyev həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, Ulu Öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi: "Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Ədəbiyyat həmişə zamanın güzgüsü olub. Hər hansı dövrdə gedən proseslər, baş verən olaylar yazıçı, şair qələmində öz əksini tapıb nəsillərə ötürülüb. Bu mənada, istənilən hadisənin təfərrüatına varılmasında o, bir tarixçi qədər əhəmiyyətli rol oynayır. Yəni ədəbiyyat və tarix yeganə sahələrdir ki, onların büllurlaşan guşə daşında zamanın obrazı görünə bilir. Ədəbiyyatda bu missiyanın layiqli daşıyıcısı olmaq prioritetini digər sahələrə nisbətən poeziya daha çox nümayiş etdirir. Operativliyinə və baş verən proseslərə ilkin reaksiya göstərdiyinə görə. Bu mənada, hər hansı dövrdəki yenilik axtarışlarını bilmək ilk növbədə, həmin dövrün poeziyasını tədqiqdən başlayır. Səbəb bu ki, zaman necə dəyişir və mən necə dəyişirəm sualına ilkin cavabı poeziya verir. Digər tərəfdən, mənəvi tərəqqidə diriliyi təmin edən strategiyanı hazırlamaq həmişə poeziyanın payına düşüb.

Tarix boyu ədəbiyyat qüdrətli siyasi xadimlərin diqqət mərkəzində olmuşdur. Onların bir qrupu dünya ədəbiyyatından əsərlər mütaliə etməyi, digər qrupu şeir həvəskarı olmuş və məclislərdə həmin şeirləri söyləməyi sevmişlər. Heydər Əliyev də məhz həmin dövlət xadimlərindən olmuşdur. O, güclü siyasətçi, eyni zamanda Azərbaycan ədəbiyyatını, Azərbaycan mədəniyyətini yüksək zirvələrə daşımaq üçün bütün gücünü əsirgəməyən şəxslərdən olmuşdur. Ulu öndərin ədəbiyyata sevgisi, bəlkə də, təhsil aldığı ixtisasla da bağlı idi. Ümummilli lider ixtisasca tarixçi idi. Və buna görə də ədəbiyyata tarix konteksindən yanaşırdı.

Heydər Əliyevin Azərbaycan ədəbiyyatı üçün əvəzsiz xidmətlərini 2 istiqamət üzrə araşdıra bilərik:

1. Klassik irsə verdiyi dəyər;
2. Müasir ədəbiyyatımızın himayədarı və təəssübkeşi kimi.

1. Heydər Əliyevin klassik irsə verdiyi dəyər. Hələ qədimlərdən əcdadlarımız sözə böyük qiymət vermiş, etmiş, hətta sözün dəyərini müəyyənləşdirməyə uyğun məfhum tapa bilməmişlər. Şairlər, yazarlar, alimlər, filosoflar öz duyğu və düşüncələrini sözlə çatdırmış, bəşəriyyətin elmi və mədəni uğurları da sözlə nəsildən-nəsilə ötürülmüşdür. Söz keçmişimizi yaşadaraq bugünə çatdıran və bugünümüzlə gələcəyimiz arasında ünsiyyət yaradan qasiddir. Sözün məqam və dərəcəsi bəzən qılıncdan üstün sayılmış, qılıncın həll edə bilmədiyi müşkülü söz həll etmişdir. Məhz buna görədir ki, ulu öndərimiz ədəbiyyatın, bədii sözün dəyərini yaxşı bilir. "Söz var ki, kəsər savaşı. Söz də var kəsdirər başı",-deyən dövrünün görkəmli siyasi və ədəbi xadimi Şah İsmayil Xətai kimi sözün bədii-fəlsəfi imkanından, təsir gücündən məharətlə istifadə etmişdir.

Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyası Azərbaycan Respublikasının mədəniyyət proqramının əsas tərkib hissələrindən biri idi. Onun da zəminində ümumtürk qayəsi dayanırdı. Böyük mütəfəkkir ən qlobal problemlərin qoyuluşunda məhz ümumtürk qayəsindən çıxış edir, bilavasitə ona istinadən fikir yürüdürdü. Onun ədəbiyyat tarixinə, ayrı-ayrı ədəbi şəxsiyyətlərə, ədəbi mərhələlərə və mərhələ yaratmış abidələrə münasibətinin guşə daşında məhz türkçülük idealları dayanırdı.

Türk dünyası yazıçılarının III qurultayındakı (6 noyabr 1996) nitqində demişdir: "Türkdilli xalqlar qədim, çoxəsrlik tarixi boyu Avrasiya qitəsinin böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Qədim tarix boyu cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə,döyüşlərlə,təcavüzlərlə rastlaşmışdır. Ancaq xalqlarımızın dərin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmış və bugünkü günlərə gətirib çıxarmışdur. Biz öz tarixi köklərimizlə milli köklərimizlə, mənəvi dəyərlərimizlə, böyük tariximizlə fəxr edə bilərik" [3, s. 53]. Məhz Ümummilli liderin düzgün, tarixin gedişatını nəzərə alaraq düşünülmüş siyasəti sayəsində "Kitabi-Dədə Qorqud"

eposunun 1300 illik, dahi şair M.Füzulinin 500 illik yubileyləri ümumdünya miqyasında elm, mədəniyyət, söz sənəti, təfəkkür bayramı kimi təntənə ilə keçirildi, təkcə Azərbaycanı yox, türk birliyini dünyada tanıtdı.

H.Əliyev mülahizələrinin birində demişdir: "Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim hissiyyatları oyatmağa çalışmışlar, milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan gəlir". Ədəbiyyatın qüdrətinə belə inam, hər şeydən öncə H.Əliyevin bədii-mənəvi sərvətlərimizə tükənməz məhəbbətindən irəli gəlirdi. Çünki onun fikrincə Azərbaycan xalqının tarixi də, fəlsəfəsi də ən aydın və parlaq şəkildə məhz bədii ədəbiyyatda öz əksini tapmışdır. Şərq ədəbiyyatı o cümlədən Azərbaycan klassik irsi özündə onlarla elmi ehtiva edən bütöv bir sistemdir. H.Əliyev yazırdı: "Tarixin bir-birinə qovuşdurduğu əsrlər bir çox xalqların oğul və qızlarını qızğın məhəbbətlə tərənnüm edən Nizami dühasının ölməz əsərlərini, Füzulinin insanpərvərlik və xeyirxahlıq dolu misralarını, Nəsiminin fəlsəfi fikirlə zəngin lirikasını, Xaqaninin məhəbbət və iztirab tərənnüm edən poemalarını, Vidadi və Vaqifin xalq yaradıcılığı çeşməsindən qidalanan ölməz şeirlərini bizə gətirib çatdırmışdır. Tarix tələbkar ittihamçıdır. Hökmdarlar, saray əyanları, zülmkarlar unudulub getmişlər. Azərbaycanın böyük mütəfəkkir və humanist şairlərinin təravətdən düşməyən misraları isə bu gün də öz hikməti və insanpərvərlik ruhu ilə dünyanı heyran qoyur. Onlar xalqın azadlığı və səadəti haqqında öz dərin fikirlərini va sönməz arzularını əsrlərdən, nadanlıq, dini fanatizm, milli əsarət və ictimai ədalətsizlik zülmətindən keçirərək nəsillərə bəxş etmişlər".

Azərbaycan klassik irsi hər zaman Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Elə bunun nəticəsidir ki, Azərbaycanda mürəkkəb ictimai-tarixi dövrdə-1994-cü ildə Məhəmməd Füzulinin 500 illik yubileyinin dünya miqyasında qeyd olunması uğrunda fəal çalışmışdır. Heydər Əliyev Füzuli yubileyinin keçirilməsinə böyük önəm verərək bu tədbiri "Azərbaycan xalqını dünyaya bir daha tanıtmaq hadisəsi" kimi qiymətləndirirdi: "Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik.

Dahi Füzulinin 500 illik yubileyinin keçirilməsi böyük mütəfəkkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən qiymətdir".

2. Heydər Əliyev müasir ədəbiyyatımızın himayədarı və təəssübkeşi kimi. Tarix xalqın aynasıdır. Ancaq Heydər Əliyev tarixə müasirlik konteksində yanaşaraq həmin dövrün yazıçı və şairlərinə yüksək dəyər vermişdir. Onların rifahının yaxşılaşdırılması üçün əlindən gələn dəstəyi əsirgəməmişdir. Ümumiyyətlə, söyləyə bilərik ki, Heydər Əliyev yaradıcılığında tarixilik və müasirlik vəhdət təşkil etmişdir.

Heydər Əliyev ədəbiyyat vasitəsilə milli-özünüdərk prinsiplərini dərinləşdirmək istəyirdi. Buna görə də dahi rəhbər ədəbiyyatımızda öz sözünü demiş klassiklərimizin və müasir yazıçılarımızın yubileylərini keçirir və daim onlarla maraqlanırdı. Eyni zamanda qeyd edə bilərik ki, ümummilli liderin ədəbiyyatla bağlı ən müstəsna qərarlarından biri romantizm ədəbi cərəyanının nümayəndəsi Hüseyn Cavidin cənazəsinin Azərbaycana gətirilməsi ilə bağlı idi. 1982-ci ildə H.Cavidin cənazəsini uzaq Sibirdən gətirməsi və doğma Naxçıvan torpağında dəfn etdirməsi, içərisində bu gün Cavidlərin birgə uyuduğu möhtəşəm məqbərənin tikilməsi Heydər Əliyevin böyük qəhrəmanlığı, misilsiz rəşadəti, təkcə Cavidə deyil, ümumən Azərbaycan ədəbiyyatına, bədii-ictimai fikrinə tarixi ehtiramı idi. O, 1995-ci ildə, Hüseyn Cavidin məqbərəsinin və ev muzeyinin yaradılmasına həsr edilmiş müşavirədə demişdir: "Bilirsiniz ki, Hüseyn Cavidin həyatı, yaradıcılığı Azərbaycan üçün nə qədər dəyərli, əhəmiyyətli olub, onun qoyduğu ədəbi-mənəvi irs bizim üçün nə qədər əhəmiyyətli və gərəklidir. Eyni zamanda onun həyatı faciəli olubdur. Ancaq bu faciəli dövrlər onun yaradıcılığını Azərbaycan xalqının qəlbindən çıxara bilməyib, yaşadıbdır".

Yeni dövr bədii fikrimizin Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Süleyman Rüstəm, Qabil, Məmməd Araz, Mirvarid Dilbazi və başqaları kimi onlarla

nümayəndələrinin dövlət səviyyəsində yubileylərinin keçirilməsi, aparılan tədqiqat-təbliğat işləri həmin sənətkarların xalqa daha yaxından tanıdılması ilə bir sırada, həm də azərbaycançılıq ideyasının geniş miqyasda yayılmasına və dərindən mənimsədilməsinə xidmət etmişdir.

H.Əliyevin ən çox sevdiyi şeirlərdən biri Səməd Vurğunun "Azərbaycan" şeiri idi. O, bu şeiri söyləyərkən həmişə doluxsunurdu, bu şeirdəki dərin vətənpərvərlik, şeiriyyət onu vəcdə gətirirdi. O deyirdi: "Səməd Vurğunun "Azərbaycan" şeiri dillərdə əzbər olubdur. Bilirsiniz, o qısa sözlərdə o qədər dərin mənalar var ki, həmin sözləri hər bir insan dilinə gətirib, təkrar edərkən öz xalqına, ölkəsinə bir daha öz məhəbbətini, sevgisini, sədaqətini ifadə edir".

Tarixdən məlumdur ki, AYB-nin VII qurultayı 1981-ci ilin 12-13 iyun günlərinə təsadüf edir. Arxiv sənədlərində yer alan qeydlərə görə Balaş Azəroğlu, Hüseyn Abbaszadə, Cabir Novruz və Süleyman Rüstəmə sədrlik həvalə olunan həmin qurultayda B.Azəroğlu, M.İbrahimov, Z.Xəlil, Ə.Vəliyev, İ.Şıxlı, Anar, Ə.Əylisli, B.Vahabzadə və başqaları məruzə ediblər. Həmin dövrdə Azərbaycan partiya təşkilatının rəhbəri, Mərkəzi Komitənin birinci katibi Heydər Əliyevin artıq ənənəyə çevrilmiş qurultaylarda iştirak etməsi bu dəfə sadəcə ünsiyyətlə məhdudlaşmır. O, geniş və konkret məzmunlu nitqində yazıçı sözünü, yazıçı mövqeyini ölkənin həyatı ilə bağlayan mühüm məqamları işıqlandırır, açıqlayırdı.

Bəllidir ki, Sovetlər Birliyi dağıldıqdan sonra dövlət müstəqilliyimizin ilk illərində Azərbaycan Yazıçılar Birliyi müəyyən çətinliklər yaşayıb. Lakin Heydər Əliyevin təmənnasız qayğısı Birliyi problemlərin əlindən xilas edib.

Qeyd edək ki, Azərbaycan Yazıçılar Birliyinin tarixində 1997-ci ilin oktyabr ayında keçirilən X qurultayı ədəbi-mədəni həyatımızda ən yaddaqalan hadisə kimi dəyərləndirilir. Hələ o zaman sıralarında 600-ə yaxın üzvü birləşdirən AYB-nin 1997-ci il qurultayı müstəqillik dövründə ilk qurultay idi. Böyük bir nasir, şair, tənqidçi, ədəbiyyatşünas ordusunu özündə birləşdirən AYB müstəqillik, milli azadlıq və sərbəstlik şəraitində ilk qurultayı ərəfəsində dövlətin böyük qayğısını gördü. Heydər Əliyev gərgin iş rejimində olmasına baxmayaraq bu qurultayda iştirak etdi. Bunun nəticəsində deyə bilərik ki, dahi rəhbər daima yazıçı və şairlərin yanında olmuşdur. Heç təsadüfi deyildir ki, Heydər Əliyev AYB-nin fəxri üzvü seçilmişdir. Bu dahi rəhbərə olan sevginin və hörmətin təzahürü idi.

Nəticə və elmi yenilik. Heydər Əliyevin irsi milli sərvətimizdir. Onun tariximiz, cəmiyyət həyatı, iqtisadiyyat, siyasət, diplomatiya, ədəbiyyat mədəniyyət və mənəviyyat, adət-ənənələr haqqındakı məqalə, çıxış və məruzələri konseptual xarakter daşıyır. Dahi rəhbərin Azərbaycan və dünya ədəbiyyatı, xüsusilə dərindən bildiyi rus ədəbiyyatı, söz sənəti və ana dili haqqında dedikləri yüksək ədəbi-nəzəri və tarixi dəyərə malikdir.

Heydər Əliyev hər zaman ədəbi söz ustalarına, bəstəkarlara yüksək dəyər vermişdir. Bunun nəticəsidir ki, elə ən gözəl bəstələr də, şeirlər də, poemalar da dahi rəhbərin adı ilə bağlıdır. Rəfiq Zəkanın "Heydər məscidi" (1996), Fikrət Qocanın "Rəhbərdi, xalqa rəhbərdi" (1994), Baba Vəziroğlunun "Xalq Heydər söyləyəcək", Musa Urudun "Haqqın var yaşamağa" (1993), Yusif Nəğməkarın "El atası", Xıdır Alovlunun "Bir əlində Qanun, birində Quran" (1996), Fəxrəddin Məmmədovun "Heydər baba, Tanrı səni saxlasın" (1996), Həmid Abbasın "Qayıdışın mübarək" (1997), "Alqış" (1999), Həmid Abbasın "Qayıdışın mübarək" (1997), "Alqış" (1999), Alqayıtın "Heydər baba gəlməliydi" (1997), Qabilin "Əyilməz uca başın" (1998), Nərmin Hacıyevanın "Heydər baba" (1998), Sədnik Paşayevin "Vətənə qayıt" (1999), Nəriman Həsənzadənin "Bu dözüm dərdə də şərəf, şan verir" (1999), "Əbədiyyət" (2003), Nəbi Xəzrinin "Ölməz insana" (2003), Valeh Mirzənin "O parlaq bir günəş idi" (2005), Vüqar Əhmədin "Babadır" (2003), Oqtay Rzanın "Adlı, ünvanlı misralar" (2013)və s. kimi şeirlərində Heydər Əliyev dühası, əməlləri özünü sənətdə dərk edən, yaşayan, davam edən gerçəklik olaraq mənalanır. Həmçinin yazılan saysız-hesabsız ədəbi əsərlərin hər biri ədəbiyyatın Heydər Əliyev fenomeninə olan mənəvi borc və amalının nəticəsi idi.

"Mən həyatda yalnız üç şeyə arxalanmışam: Yaradanıma, zəhmətimə və bir də xalqıma", – demişdi çıxışlarının birində Heydər Əliyev. Xalqın dəyərləri, dünəni, keçmişi onun üçün dövləti idarəetmə strukturunun episentrində dayanan amillər idi. Həm çıxışlarında, həm də şair-yazıçılarla olan görüşlərində bu məqama diqqət yönəltməyi sevir, qələm əhlini, ziyalıları bu məqama həssas

yanaşmağa çağırırdı. Məsələn, Söhrab Tahir müasir Azərbaycan ədəbiyyatında ən iri həcmli poetik əsər hesab edilən "Ata" poema-eposunun ön sözündə yazır: "Çoxdandır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız xalqımızın varlığı, mənşəyi, yaşadığı ərazi, qədim həyat tərzi, dili və qəhrəmanlıqları ilə maraqlanır, bəziləri isə mənə bu haqda məktub yazır, bu sahədə ortalığa ciddi suallar qoyurdular. Azərbaycanda istiqlal hərəkatı başlarkən bu mövzuda böyük bir əsər yazmaq imkanı reallaşdı. Bir gün yas məclisində Moskvadan yenicə qayıtmış elimizin ağsaqqalı, böyük rəhbər Heydər Əliyev xalqımızın tarixinin müxtəlif dövrlərindən söhbət açaraq üzünü mənə tutub məclisdə oturan alim və yazıçılara xitabən dedi: "Bu xalqın tarixini siz yazmasanız, bəs kim yazacaq?!"

Məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycan ədəbiyyatındakı xidmətləri iki istiqamət üzrə araşdırılmışdır. Həmin istiqamətlər üzrə geniş və müfəssəl məlumatlar əks olunmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala. Bakı: Elm və təhsil, 2018, 400 s.
2. Hacıyev İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası: ictimai-siyasi ədəbiyyat. Bakı: Elm, 2003, 164 s.
3. Heydər Əliyev dünyanın gözü ilə. Bakı: Təhsil, 2003, 148 s.
4. Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı: Təhsil, 2001, 440 s.
5. Kərimov İ. Heydər Əliyev: sənət, sənətkarlar və sənətkarlar haqqında. Bakı: Elm, 2005, 208 s.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİ

Nurçin Bəşirli*

Abstract

Heydar Aliyev and the Azerbaijani language

The survival and development of every language depends on its people. The role of the valuable children of the nation is great in the development, enrichment and advancement of the language.

In the last years of the 20th century, we see how much the Azerbaijani language has developed not only in language, but also in our daily life. From the end of the 60s and the beginning of the 70s of the last century, there was a struggle for the development of the Azerbaijani language.

In a word, the Azerbaijani language is considered a perfect, rich and emotional language.

Certain experience shows that great political figures and heads of state play a special role in the development of the language of the people, in the promotion of the ideas of independence and state principles. Undoubtedly, from this point of view, the name of Heydar Aliyev occupies its rightful place among the geniuses of history.

Keywords: *Heydar Aliyev, Azerbaijani language, state, development, politics.*

Giriş. Hər bir dilin yaşaması və inkişaf etməsi onun xalqından asılıdır. Dilin inkişafında, zənginləşməsində və yüksəlişində xalqın dəyərli övladlarının rolu böyükdür.

XX əsrin son illəri ərzində Azərbaycan dilinin nə qədər inkişaf etdiyini yalnız dildə deyil, gündəlik həyatımızda da görürük. Keçən əsrin 60-cı illərinin sonu və 70-ci illərinin əvvəllərindən Azərbaycan dilinin inkişafı uğrunda mübarizə gedirdi

Bir sözlə, Azərbaycan dili mükəmməl, zəngin, emosional bir dil hesab olunur.

Müəyyən təcrübə göstərir ki, böyük siyasi xadimlər, dövlət başçıları xalqın dilinin inkişafında, müstəqillik ideyalarının, dövlət ənənələrinin təbliğində xüsusi rol oynayırlar. Şübhəsiz ki, bu baxımdan Heydər Əliyevin adı da tarixin dahiləri arasında öz layiqli yerini tutmaqdadır.

Dövlət dili

Maraqlı sual meydana çıxır. Dövlət dili dedikdə nə başa düşülür? *Dövlət dili* – Hər hansısa dövlətin konstitusiya ilə qəbul olunmuş rəsmi dili. Bəzi ölkələri çıxmaqla qeyd etməliyik ki, dövlət dili həmin xalqın adı ilə adlandırılır.

Dil bildiyimiz kimi həm ünsiyyət vasitəsi, həm də ictimai hadisədir. İctimai hadisə olduğu üçün hər zaman mühüm yerdə dayanmışdır. Dil inkişafa şüurlu müdaxilə kimi təsvir edilir. Azərbaycan dili də qədim türk dillərindən olub 700 ildən çox müddətdir ki, xalqımıza xidmət göstərir.

Dil həm də siyasi müstəvidə də dayanır, yəni o siyasi mövqedədir. Bu da dil və siyasət probleminin milli azadlıq və müstəqillik uğrunda mübarizələrin kəskinləşdiyini indiki zamanda xüsusilə diqqət mərkəzində olan problemlərdəndir [1, s. 16].

Bütün siyasi xadimlər kimi Azərbaycan Respublikasının prezidenti Ümummilli lider Heydər Əliyev də öz xalqının mədəniyyətinə, inkişafına, ədəbiyyatına, irəliyə getməsinə böyük diqqət yetirmişdir. Heydər Əliyev öz mənsub olduğu xalqın dili ilə yaxından maraqlanmış, Azərbaycan dili haqqında müxtəlif fikirlər söyləmiş, qərarlar qəbul etmişdir.

Dahi prezidentimiz, ictimai və siyasi dövlət xadimi olan Heydər Əliyev hərtərəfli fəaliyyət göstərirdi. Əsasən dilçilik, dil və siyasət, dil və konstitusiya, dil və dövlət, dil və tarix, dil və millət və s. kimi mühüm məsələlər onun əsas obyekt mərkəzi idi.

Müasir dövrdə çox az siyasi xadim tapılar ki, öz dövlətinin, xalqının mədəniyyəti, ədəbiyyatı və s. ilə dərindən məşğul olsun. Heydər Əliyevin dil doktrinasında dilə münasibət dövlət problemi ilə eyni yerdə yəni ilk pillədədir.

* ***Bakı Qızlar Universiteti, bakalavriat. Elek.poçt: nurchinbesir00@gmail.com. Elmi rəhbər:*** *B/m. Aygün Hüseynova;* ***rəyçi:*** *Dos. Yeganə Hacıyeva.*

Ümummilli Lider Heydər Əliyevin hələ sovet dövrü Azərbaycannında xidmət etdiyi vaxtdan Azərbaycan dili dövlət dili elan olunmusdur (1978) və bunda Ulu Öndərimizin yeri əvəzolunmazdır. Düzdür bu qərar belə çox riskli qərar idi, çünki o dövrki vəziyyətə uyğun olaraq qərar qəbul edildiyi anda Azərbaycan dilinə keçmək mərkəzə meydan oxumaq idi. Lakin böyük dövlət adamı olan Ulu Öndər hakimiyyətə gəldiyi ilk onillik də çıxışlarını cəsarətlə öz doğma dilində səsləndirmiş, artıq qorxmamalı olduğumuzu, onun öz himayəsi altında olduğumuzu göstərmişdir.

Heydər Əliyev hər zaman öz dilini yüksəklərə qaldırmaq istəmiş, onu böyük dilləri arasında görmək istəmişdir. Lakin rus dilinin mövqeyinin güclü olması Heydər Əliyevi narahat edirdi. Azərbaycan KP-nın qurultayları, MK-nın plenumları rus dilində keçirilirdi. Ulu Öndər anlayırdı ki, Azərbaycan dilinin sıxışdırılıb tamamilə dildən çıxarılması, yalnız məişət dili səviyyəsinə enməsi istənilirdi. Ruslaşdırma siyasətini görən Heydər Əliyev universitetlərdə Azərbaycan dili və ədəbiyyatının tələbə qəbulunun sayını artırdı, imtahanların ana dilində aparılmasını məcbur etdi.

Ulu Öndərin dil haqqındakı qəti mövqeyi onun həm dilimizi yüksəklərdə görmək istəməsi, həm də dilimizin nə qədər zəngin olduğunu bilməsindən irəli gəlirdi. Ölkə prezidentinin dilimizə verdiyi yüksək dəyər yarım əsrdən uzun müddətdir ki, dövlət işlərində öz layiqli mövqeyini tutmaqdadır.

Qeyd edək ki, 1984-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan da ilk dəfə dörd cildlik "Müasir Azərbaycan dili" adlı ali məktəb dərsliyi çap edildi. Hətta bu dərsliyin müəllifləri Respublika Dovlət Mükafatına layiq görüldülər. Bu yalnız mükafat olaraq məhdudlaşmırdı, həm də Azərbaycan gəncliyinə, Azərbaycan müəllimlərinə, Azərbaycanın gələcəyinə qayğı idi. Bundan sonra Azərbaycan təhsili sürətlə inkişaf etməyə başladı.

Əvvəlki dövrdə Milli Məclis də ana dili hqqında qərar qəbul edilmişdir. Dilimizin adı dəyişdirilərək " türk dili" kimi təsdiq olunmuşdur. Lakin Heydər Əliyev bu qanunda tələblərin ciddi şəkildə pozulduğunu öyrənir. Dəfələrlə qeyd etdiyi kimi, dil məsələsində yalnız bir dəstə insanın qərarı qəbul edilə bilməz. 1995-ci il Konstitusiya layihəsində komissiyaya 1400- dən artıq təklif verilmişdir, bunlardan yalnız 18-i ana dilinin " türk dili " olması fikrini məqbul saymışdır.

Bunu qeyd edək ki, Azərbaycan müstəqillik qazandıqdan sonra dil məsələsi siyasi müzakirələr obyektinə çevrildi və bir sıra məsələlər meydana çıxdı.

1. Ana dilinin sosial-siyasi mövqeyi məsələsi
2. Ana dilinin adı məsələsi
3. Əlifba məsələsi

Müxtəlif ölkələr həmişəki kimi ölkəmizə müdaxilələr edir, Azərbaycan dilinin dövlət dili olmasını qəbul edə bilmirdilər. Azərbaycan isə öz vahid xalqını bir araya yığmış, müxtəlif etnosları birləşdirmiş, öz dilinə muxtariyyət vermişdir. Bu etnoslara kürd, axıska türkü, talış, ləzgi, tat və s. aiddir. Lakin bu xalqların dillərində məktəb, universitet və ya başqa müəssisə açılması Heydər Əliyevin mövqeyinə qarşı çıxmaq idi. Əvvəl dövlətin başına olanlar bu məsələni ciddiyə almamış, bəlkə də heç məsələni aydın şəkildə dərk etməmişdir.

Böyük Liderin hakimiyyətə gəldiyi ilk gündən yetirdiyi dil siyasəti bir məqsəd üzərində cəmlənmişdir. ***Azərbaycan dilini inkişaf etdirmək!***

Heydər Əliyev bir çıxışının sonunda belə deyir: "… Mən bununla öz sözümü qurtarıram. Ancaq iki kəlmə onu demək istəyirəm ki, mən bu danışdığımız dili – buna hansı dil deyirsiniz deyin- çox gözəl dil hesab edirəm. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Qrammatika sahəsində həddindən artıq böyük nailiyyətlərimiz var. Şəxsən mən bu dili sevirəm"

Heydər Əliyev çıxışını bitirdikdən sonra, dilçilər, şair və yazıçılar, professorlar, elm adamları çıxış etdilər. Çıxışlardan sonra edilən müzakirələr də Konstitusiyaya yeni variantların artırılması təklifləri irəli sürüldü.

1. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir.
2. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan türk dilidir. (Azərbaycan türkcəsidir)
3. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. (Azərbaycan türkcəsidir)
4. Azərbaycan Respublikasının dövlət dili türk dilidir.

Nəzərə alınan müzakirələr bir gün sonra Prezident Aparatında davam etdi. Müzakirələrin aparılması prosesində Heydər Əliyevin obyektiv mövqe tutduğunu söyləmək olar. Müxtəlif fikirlər irəli sürüldü, hərkəs öz fikrini gizlətmədən söylədi. Düzdür, bir-birinə zidd olan bir çox fikir ortaya çıxdı. Lakin fikir mübadiləsi səmərəli yolla aparıldı.

Çoxsaylı tələblər əsasında 1992-ci ildə dövlət dili Azərbaycan dili olan dilimizin adı "türk dili" olaraq dəyişdirildi. Lakin 1995-ci il noyabr ayının 12-də dövlət dilinin adı "Azərbaycan dili" olaraq dəyişdirildi. Çünki hansı tərəfdən baxılsa, "türk dili ifadəsi" düzgün deyildir. Hər iki konstitusiyada 1978-ci il Azərbaycan SSRİ Konstitusiyasına və 1995-ci il Azərbaycan Respublikasının konstitusiyasının 21-ci maddəsinə əsasən Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dili idi. Bu iki Konstitusiyada Heydər Əliyevin əvəzsiz rolu olmuşdur.

Heydər Əliyev dil məsələsinə xüsusi diqqət yetirirdi. Dilə dövlət siyasətinin bir hissəsi kimi yanaşırdı. O, məhz ana dilini siyasi bir iş səviyyəsində gördüyü üçün 2001-ci ildə fərman imzaladı. 9 avqust "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi" günü kimi əlamətdar günlərə əlavə edildi. 2002-ci il sentyabr ayında isə "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanun qüvvəyə mindi. Bu da Ulu Öndərin ana dilimizin inkişafı ilə bağlı mühüm qərarlardan biri idi.

Heydər Əliyevin dil haqqındakı görüşləri, düşüncələri bu gündə siyasi baxışlara uyğun, həm də ardıcıl və uzaqgörənliklə aparılır. Bunlardan əlavə Heydər Əliyev öz xalqının maddi rifahını gücləndirməklə yanaşı həm iqtisadiyyatına, ümummədəni tərəqqisini gücləndirmək üçün də səy göstərmiş və ölkəsinin inkişaf etmiş ölkələr arasında görmək üçün səy göstərmişdir.

Dövlət dilimiz çox çətinliklə seçilsə də, burada bir məsələ meydana çıxır. Dövlət dilimizin Azərbaycan dili seçildiyi üçün biz yalnız Azərbaycan dilindəmi danışmalıyıq? Xeyr, hər hansı işdə, qarşılıqlı ünsiyyətdə, ticarətdə, sənətdə insanlar dil seçməkdə azaddırlar. Lakin dövlət işlərində, idarələrdə, siyasi işlərdə mütləq şəkildə ana dilimizdən istifadə edilməlidir. Dövlət dilini dövlət məmurları, siyasi işçilər, vəzifəli şəxslərin bilməsi vacibdir.

Xalqımızın mədəniyyətinin, elminin inkişafında əlifbanın da xüsusi rolu vardır. Xalqımız İslam dini yaranıb, yayılandan ərəb əlifbası ilə oxuyub yazmışlar. Lakin əsrlər boyu baş verən müxtəlif proseslər nəticəsində 1929-cu ildə latın qrafikasına keçirildi.

Doğrudur ədəbiyyatımızdan , tariximizdən bildiyimiz kimi əlifbanın dəyişilməsi barədə Mirzə Fətəli Axundzadə layihə irəli sürüb, lakin layihəsi qəbul edilməmişdi. Sonradan qəbul edilən Azərbaycan əlifbası Heydər Əliyevin təşəbbüsü ilə dövlət əlifbasına çevrildi.

Nəticə. Ana dilimiz - Azərbaycan dili bizim sərvətimiz, xalqımızın varlığının təsdiqi, Ulu Öndərimizin bizə qoyub getdiyi misilsiz bir miras, xəzinədir. Biz Böyük Liderin bizə qoyub getdiyi siyasi xəttə bu gün də sadiqik. Prezident İlham Əliyev bu irsə böyük həssaslıqla yanaşır, daha da inkişaf etməsinə səy göstərir.

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev: Azərbaycan dili və Azərbaycançılıq. Bakı: Elm və Təhsil, 2023, 256 s.
2. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Təhsil, 1997, 288 s.
3. Multikulturalizmə giriş: Ali məktəblər üçün dərslik. Bakı: Şərq Qərb, 2019, 431 s.
4. Sadıqlı A.Ə. Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili. Bakı: Mütərcim, 2011, 180 s.
5. Sevinc Dadaşova. Heydər Əliyev və Azərbaycan dili. (Heydər Əliyev və Azərbaycan dili mövzusunda yazılmış məqalələr toplusu). Bakı: Zərdabi Nəşr, 2023, 664 s.

AZƏRBAYCAN ƏDƏBİYYATINDA HEYDƏR ƏLİYEV OBRAZI

Zəhra Hüseynova*

Abstract

The image of Heydar Aliyev created in Azerbaijani literature is of special importance among the relations between Heydar Aliyev and Azerbaijani literature. In the article, the image of the great leader in lyrical, epic and dramatic artistic examples is systematized and included in the analysis. The history of the image of Heydar Aliyev in Azerbaijani literature coincides with the 90s of the 20th century. The image of the leader who was invited to power by the people's resolute demand in the literature is also notable for the fact that he has salvific characteristics.

Keywords: *Heydar Aliyev, leader, savior, image of Heydar Aliyev.*

Giriş. Azərbaycan ədəbiyyatında şəxsiyyət problemi həmişə aktual olmuşdur. Ədəbiyyat və şəxsiyyət məsələsi bütün hallarda böyük ədəbiyyatın taleyi ilə bağlı məsələlərin həllində mühüm amillərdən biri kimi çıxış etmişdir. İlk növbədə ədəbiyyat konkret dövr üçün və ya ümumiyyətlə ictimai-estetik ideal baxımından xüsusilə fərqlənən, epoxa, məktəb yaratmış görkəmli siyasi və ədəbi şəxsiyyətləri vəsf və ya təqdim edərək əbədiləşdirmişdir. Böyük ümummilli ideallar şəxsiyyətlərin fonunda, ədəbiyyatın rübabında ilhamla səsləndirilmişdir.

Bu halda ədəbiyyat şəxsiyyətə bir növ borcunu qaytarmışdır. Demək olar ki, Azərbaycan ədəbiyyatının əksər növlərində və janrlarında görkəmli dövlət xadimi Heydər Əliyev haqqında yüksək ideya-bədii səviyyədə yaddaqalan təsirli əsərlər meydana çıxmışdır. Azərbaycan poeziyası Ulu Öndəri müstəqil dövlətçiliyin rəmzi kimi ürəklə vəsf etmişdir.Heydər Əliyevin hakimiyyətə qayıdışı poeziyada böyük coşğu, sevgi ilə tərənnüm predmetinə çevrildi. Xalq şairi Məmməd Araz yazırdı: "Prezidentin müdrikliyi ondaydı ki, o, özünü itirmədi, gecikmədi, xalqın sərvaxtlığı ondaydı ki, o, qəfildən ayağa qalxdı və çevikliyini saxladı. Yoxsa Azərbaycan dövləti, milli müstəqilliyimiz, gələcəyimiz darmadağın ola bilərdi" [2, s. 100].

Əsas hissə. Mirvarid Dilbazi "Qurtardın bölümdən Azərbaycanı" şeirində Heydər Əliyevin Azərbaycana, hakimiyyətə qayıdışını alqışlayır. Bunu vətən və millət miqyasında fədailik adlandırırdı. Bütün hallarda xilaskar obrazı Heydər Əliyevin adı ilə yanaşı idi. Nəsrdə Heydər Əliyev epoxasının çətin və şərəfli yolu bədii lövhələr, səciyyəvi hadisələr, düşünülmüş obrazlar vasitəsilə təsvir edilmişdir. Azərbaycan dramaturgiyası və teatrı Heydər Əliyev obrazını ən çətin məqamlarda xalqa rəhbərlik etmiş qüdrətli xilaskar, müstəqil dövlətin əsaslarını yaradan və gələcəyinə yollar açan görkəmli dövlət xadimi kimi səhnəyə çıxarmışdır.

Azərbaycan ədəbiyyatının görkəmli simalarının yaradıcılığında Heydər Əliyevin bədii obrazı xalqımızın ən yüksək milli dövlətçilik ideallarını təsvir və tərənnüm etməyə xidmət göstərir. Poeziyada biz Heydər Əliyevin bədii obrazına hələ istiqlaliyyət dönəmindən əvvəl də rast gəlirik. Sovet hakimiyyəti illərində Azərbaycan yazıçıları Heydər Əliyevin simasında mənsub olduğu xalqın milli iftixar mənbəyi olan, ölkəni tanıdan və inkişaf etdirən görkəmli dövlət xadiminin obrazını canlandırmışlar. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında isə Heydər Əliyevin xilaskar obrazı yaradılmış, böyük ədəbiyyat onun milli dövlətçiliyin qorunub saxlanılmasında və möhkəmləndirilməsindəki rolunu bədii sözün bütün vüsəti ilə təsvir və tərənnüm etməyə səfərbər olmuşdur.

Heydər Əliyev yenidən siyasi hakimiyyətə gəldikdən sonra isə siyasi lirika müstəqil dövlətin və xalqın sabahına böyük inam duyğuları ifadə etmiş, qəhrəmanlıq notları üstündə köklənmişdir. Xalq şairi Zəlimxan Yaqubun ilhamlı və sərrast misraları xalqın həmin dövrdəki sarsılmaz inamını bütün ruhu ilə ifadə edir:

"Qoy səsi guruldasın bu gün altı qitədə,
Odur məndən ötəri ATƏTdə, BMTdə!

* ***Azərbaycan Dillər Universiteti, bakalavriat. Elek.poçt: zehrahuseynova6584@gmail.com. Elmi rəhbər**: Dos. Mehriban Mövlamova.*

Gəlib, o kişi gəlib!
Xalqın xeyrinə sarı çarxın gərdişi gəlib.
Millətinə, xalqına birləş deyir, qalx deyir!
Öz xalqına güvənir, haqq danışır, haqq deyir.
Əlli milyona çatmış Azərbaycan dünyası,
"Qurtuluş nəğməsi"ni oxuyur bir himn kimi!
Bir səslə,bir avazla
"Heydər" deyir, "Xalq" deyir" [2, s. 33]

Zəlimxan Yaqubun Heydər Əliyevə həsr olunmuş "Görən torpaq bilirmi? şeirində onun xalqa, millətə, vətənə olan bağlılığı bədii boyalarla diqqətə çatdırılmışdır. Bir sözlə, Ulu Öndər əbədiyyətə qovuşsa da, onun Azərbaycan xalqına olan misilsiz xidmətləri əbədi olaraq yaşayacaqdır.

"Durna qatarı kimi
Arzusu səf-səf oldu,
Qibləsi xalqa doğru, Millətə tərəf oldu,
Uyuduğu torpağa əbədi
şərəf oldu,
Bu yurda arxa, dayaq
Bu xalqa rəhbər yatır,
Görən torpaq bilirmi
Qoynunda Heydər yatır?" [4]

Heydər Əliyev mövzusu ədəbiyyatda Azərbaycan xalqının siyasi və millimənəvi təkamülü, azadlıq və dirçəlişi məsələləri ilə üzvi surətdə əlaqədar olub, ümummilli idealların əks etdirilməsinə meydan açmışdır. Heydər Əliyev yenidən siyasi hakimiyyətə gəldikdən sonra isə siyasi lirika müstəqil dövlətin və xalqın sabahına böyük inam duyğuları ifadə etmiş, qəhrəmanlıq notları üstündə köklənmişdir. Əbədiyyətə köçməsi ilə Ulu Öndərə həsr olunmuş şeirlər sırasına yeni ədəbi janrda yazılan şeirlər- elegiyalar daxil olur. Əbədiyyət nəğməsi – "Xalq Heydər söyləyəcək" epitafiyası (Baba Vəziroğlu) həmin zaman qələmə alınır:

"Sən elə bir zirvəsən, küləklər neyləyəcək,
Dünənim, bu günümsən, səninlədir gələcək!
Nə qədər Azərbaycan, nə qədər bu millət var,
Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!
Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!" [2, s. 34]

Baba Vəziroğlunun "Xalq Heydər söyləyəcək" şeir-nəğməsini də "Heydər Əliyevə oda" hesab eləmək olar. Şair böyük siyasətçiyə milli idealı, dövlətçilik təfəkkürünün güzgüsündə nəzər yetirir. Onun millətin dirçəlişi, xilası və nicatı naminə gördüyü işlərin mahiyyətini üzə çıxarır. Xalq, vətən miqyasında mənəvi vəhdət, tamlıq və bütövlük naminə yaşanan rəhbər ömrü Heydər Əliyev şəxsiyyəti üçün səciyyəvi keyfiyyət olaraq mənalanır.

Heydər Əliyev xalqı və dövləti qorumağın, uca tutmağın, onun milli kimlik və mənlik qürurunun gizləndiyi, məqamların nələrdə, hansı dəyərlərdə ehtiva olunduğunu bilirdi. "Ən çox sevdiyin şair kimdir?" sualına Şəhriyar, "Ən çox sevdiyin şeir hansıdır?" sualına isə Səməd Vurğunun "Azərbaycan" şeiri deyə cavab vermişdir. Əslində, "Azərbaycan" deyə cavab vermişdi Heydər Əliyev. Çünki onların hər ikisi böyük öndər üçün Azərbaycan demək idi. Onun Şəhriyar sevgisi də, Səməd Vurğunun "Azərbaycan" şeirinə kövrəlib ağlaması da, Hüseyn Cavidin nəşinin vətənə qaytarılma fədakarlığı, onlarla şairimizə qoydurduğu abidələr, keçirtdiyi yubiley tədbirlərinin də əsas xətti millətə yönəlik olan sevginin gücünə söykənirdi.

Azərbaycan bədii nəsrində Heydər Əliyev obrazı müstəqillik uğrunda və milli dövlətçiliyin möhkəmləndirilməsi yollarındakı çətin və şərəfli mübarizənin fonunda canlandırılmışdır. Elmira Axundovanın "Heydər Əliyev: şəxsiyyət və zaman" adlı Respublika Dövlət Mükafatına layiq görülmüş 6 cildlik roman-tədqiqatı görkəmli dövlət xadiminin keşməkeşli həyatı və mübarizəsinin mükəmməl sənədli-bədii epopeyasıdır. Eyni zamanda Elmira Axundova "Naşirin ölümü" və "Şüşə saray" romanlarında da Heydər Əliyevin təkrarsız obrazını yaratmağa müvəffəq olmuşdur. Hüseynbala

Mirələmovla Viktor Andriyanovun dünyanın bir çox dillərində nəşr olunmuş "Heydər Əliyev" kitabı Ulu Öndərə həsr olunmuş ciddi və əhəmiyyətli bir əsərdir. Bu, böyük ömrün böyük romanıdır.

Azərbaycan dramaturgiyasında Heydər Əliyev mövzusu iki əsrin qovşağında ölkəmizdə cərəyan edən dinamik hadisələrin əsasında görkəmli dövlət xadiminin həyatından alınmış ibrətamiz dramatik hadisələrin səhnələşdirilməsi yolu ilə real şəkildə əks etdirilir. Hidayətin İrəvan Azərbaycan teatrında tamaşaya qoyulmuş "Burdan min atlı keçdi" pyesi həm də Ulu Öndər Heydər Əliyevin bədii obrazını səhnədə canlandıran ilk və əhəmiyyətli dram əsəri kimi mədəniyyət tariximizin hadisəsinə çevrilmişdir.Aqşin Babayevin "Xilaskar" tamaşasında da Heydər Əliyevin simasında xilaskarlığa gedən yolun dərsləri və şərəfi öz əksini tapmışdır. İftixar Piriyevin "Qurtuluş dastanı" dramı Ulu Öndərin mübarizə yolunun realist mahiyyətini açmaqla bərabər, həm də romantik ruhunu da ifadə edir.

Belə bir fikir də var ki, xalq sevdiyi qəhrəmanlar haqqında nəğmələr qoşur, əfsanələr yaradır, nağıllar, lətifələr söyləyir. Xalq yaradıcılığının, folklorun hədəfində real qəhrəmanlara, tarixi şəxsiyyətlərə ümumxalq sevgisi durur. Heydər Əliyev haqqında ilk əfsanələr hələ gəncliyindən, sovet təhlükəsizlik orqanlarında çalışdığı zamanlardan dolaşmağa başlayır. Elmira Axundova "Heydər Əliyev: şəxsiyyət və zaman" çoxcildlik roman-tədqiqatında bu məqama diqqət çəkir. "Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarındakı işi barədə mənə bir çox sensasiyalı, lakin əslində əfsanə olan əhvalatları eşitmək və oxumaq müyəssər olmuşdur" [1, s. 105].

Heydər Əliyevin xalq arasında əfsanəvi obrazı daha geniş miqyasda respublikaya rəhbərlik etməyə başladığı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildiyi dövrdən yayılır. Xalq yaradıcılığında "ədalətli şah", qüdrətli ölkə başçısı obrazına həmişə rəğbət ifadə olunmuşdur. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Heydər Əliyev xalqın yaddaşında məhz bu imiclə qalmış, müxtəlif "olmuş əhvalatlar"da, "canlı lətifələr"də obrazlaşmışdır.Uzun illər ərzində xalqın şüuruna Heydər Əliyev obrazı elə bu şəkildə də hakim kəsilmişdir. "Eyhamlı zarafatlar"dan birində deyildiyi kimi. "Respublika Prezidenti Heydər Əliyev müxtəlif görüşlərdə yığıncaqlarda çıxış edərkən hərdən çox incə, eyhamlı zarafat edərdi. Ulu Öndərə ümumxalq sevgisini ifadə etməklə yanaşı, "Canlı lətifələr, əhvalatlar, deyimlər" kitabı həm də yazı ədəbiyyatı, bədii nəsr nümunəsidir. Heydər Əliyev obrazının dürüst reallığa, tarixi həqiqətə tam uyğun əks olunmasında yazıçı sənətkarlığı mühüm rol oynayır. Heydər Əliyevin həyatı başdan-başa mənalı əhvalatlardan ibarətdir.

Bu gün Heydər Əliyevin mütəfəkkir obrazı haqqında düşünərkən, yazıçılar o illərdəki rəsmi parad mənzərələrini, "keçici bayraq" nümayişlərini, hər cür qələbə görüntülərini də dərk etməyə, tarixi proseslərin eyni bir şəxsiyyətin iradəsi və idarəsi altında cəmləşmiş görünən və görünməz tərəflərinə nüfuz etməyə çalışırlar.

Heç şübhəsiz ki, Heydər Əliyev fenomenini yetirən onun böyük sevgisidir — həyat sevgisi! Xalq sevgisi! Millət sevgisi! Biliyə elmə mədəniyyətə bəşəriyyətə sevgisi!

Heydər Əliyev demişdir: "Bəzən məndən soruşurlar ki, bu qədər gərgin işləri aparmağım necə mümkün olubdur. Hər bir insanın ilhamverici qüvvəsi var. Mənə ilham verən ən böyük qüvvə Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir, Azərbaycanın gələcəyidir" [5].

Heydər Əliyev bütün ağır və çətin işlərin içərisində xalqın gələcəyi hesab etdiyi uşaqlara da zaman ayırır, onların qayğı və problemləri ilə, uğurları ilə maraqlanırdı ki, bu da əslində onun mənəvi əxlaqi dəyərlərə söykənən siyasi kursunun, Azərbaycan ideyasının tərkib hissəsi kimi dəyərlənir. Heydər Əliyevin ənənə halını almış, hər il qeyd olunan Uşaqların Beynəlxalq Televiziya va Radio Günü, Uşaqların Beynəlxalq Müdafiə Günü tədbirlərində, Şəhid övladları və kimsəsiz uşaqlar üçün təşkil olunan Novruz və Yeni il şənliklərindəki dərin məzmunlu çıxışlarını nəzərdən keçirdikcə onun bu sahədəki çoxyönlü işlərinə şahidlik etmiş oluruq. Uşaqlara, yeniyetmələrə xitabla başlayan bu çıxışlar əslində Heydər Əliyevin gələcək nəslin tərbiyəsində, kamil şəxsiyyətlərin yetişməsində, azad və müstəqil Azərbaycanın idarəçiliyinin layiqli davamçılara ötürülməsi sahəsində gördüyü proqram xarakterli işlərin ifadəsi idi. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, bizim xalqımız, Azərbaycan xalqı, millətimiz, yəni hər bir Azərbaycan övladı bütün xarici və daxili aləmi ilə çox gözəldir. Mən bu gözəlliyi bu gün sizdə görürəm. Sizin hər biriniz özünəməxsus Azərbaycan gözəlliyinin nümunəsisiniz. Qızlar gözəl Azərbaycan qadını, gözəl Azərbaycan anası, gözəl Azərbaycan qızının nümunəsidir. Oğlanlar mərd, qoçaq, güclü, qüdrətli, cəsur Azərbaycan oğlanlarının

nümunəsidir. Bunları görəndə vətənini sevən, xalqını sevən hər bir azərbaycanlı biganə qala bilməz. Onun yalnız və yalnız bir hissiyyatı, sevinc hissiyyatı, xalqına, millətinə, ölkəsinə məhəbbət hissiyyatı ola bilər. Bax bu hissiyyatları mən indi burada sizinlə keçirirəm".

Bu çıxışların hamısında balalara, təmiz və ülvi varlıqlara dərin sevgi və ehtiram ilə yanaşı, istedadlarına, qabiliyyət və kamallarına bir etimad və əminlik əks olunurdu. Bu arxayınçılıq və əminliyi şərtləndirən amillər onların idman, incəsənət – musiqi, rəqs və rəsm sahəsindəki bacarıqları və uğurları ilə yanaşı, həm də elm və təhsildə, olimpiadalarda əldə etdikləri nailiyyətlər idi. Uşaqlara xoşbəxt gələcəkli, problemi olmayan bir dövlət ərmağan etmək istəyən Ulu Öndər onlarla olan hər görüşündə mövcud problemləri də vurğulayır, böyüklərin onların həll olunması üçün cidd-cəhdlə çalışdıqlarını deyirdi. O, istər ədalətsiz müharibədən əziyyət çəkən, yurd-yuvalarını itirən məcburi köçkün uşaqlarının, valideynlərini itirmiş şəhid övladlarının, çadırlarda doğulan, böyüyən, elə orada təhsil almağa məhkum edilmiş azyaşlıların problemlərindən ürək ağrısı ilə danışır. Ancaq bütün bunların aradan qaldırılacağını, onlara işıqlı, azad və firavan Azərbaycan vəd edirdi.

Heydər Əliyevin uşaq ədəbiyyatındakı obrazına işıq saldıqda göz önündə xilaskar, varlığı ümid və nicat vəd edən, Azərbaycanın özünəqədərki milli dövlətçilik, idarəçilik təcrübəsini bir daha nümayiş və təsdiq etdirən, təkcə həmfikirlərinə deyil, həm də opponentlərinə qəbul etdirən bir şəxsiyyət, xalqının qəhrəmanı, müdrik lider, milli öndər, millət atası kimi görünür. Heydər Əliyevin obrazına daha çox poeziyada rast gəlirik.

Milli öndər haqqında uşaqlar üçür saysız-hesabsız şeirlər yazılmışdır. Nəbi Xəzri "İradə möcüzəsi", Valeh Mirzə "Ruhu canımızdadı", Şövkət Məmmədbəyli "Yaşayacaqdı", Ələmdar Quluzadə "Heydər baba, Öndər baba", "Vətənləşən vətəndaş", Aygün Bal "Heydərin davamçısı gərək ki, Heydər olsun", Bəhlul Ataxanlı "Dünyanın Heydər oğlu", İlqar Dağlaroğlu "Heydər baba", Aynur Hüseynova "Körpələr babası sən, Heydər baba", Səmid Mövsümov "Qayəsi nur, özü də nur", Samir Səyyadoğlu "Haqqımızdır öyünmək", Əkbər Qoşalı "Ümidsiz ha deyilik", Rafiq Yusifoğlu "Rəhbərin heykəli", "Ulu Öndər", Nəriman Hüseyn "Nur övlad", Fərid Ağamirzəyev "Heydər baba", Oqtay Zəngilanlı "Ulu Heydər", "Millət atası", "Bir millət, iki dövlət" və adını çəkmədiyimiz yüzlərlə şeirdə Ulu Öndərin portretinə müxtəlif yöndən işıq tutulur. İstedadlı şair Ələmdar Quluzadə şeirində lirik qəhrəman bu dünyanın yaddaşına Azərbaycan yaza bildiyi üçün, vətən torpağında Heydərbaba boyda dağ olduğu üçün, tarix qarşısında başıuca, üzüağ olduğu üçün öyülür. Bu şeirlərdə müşahidə etdiyimiz maraqlı dilemmalara diqqət yönəltmək istəyərdim. Bədii nümunələrdə Heydər Əliyevdən həm tarixin və zamanın yetirdiyi, həm də tarixin özünü yaradan, onu idarə edən, yönləndirən kimi danışılır. Elə söykənən, elin söykəndiyi, yol açan, özü yol olan, xalqdan güc alan, xalqın güc aldığı, genetik yaddaşın, tarixi təcrübənin yetirdiyi və özü nümunəyə, məktəbə çevrilən, vətənin həm əsgəri, həm generalı... Bu dilemmalar bəzən eyni şeirdə bəzən də ayrı-ayrı, tam fərqli nümunələrdə özünü göstərir:

"Çağdaş Azərbaycan ölməz əsəri,
Vətənə məhəbbət tək amalıydı" [2, s. 300].
Heydər, öz yurdunun sadiq əsgəri,
Türkün ən qüdrətli generalıydı" [2, s. 300].

"Qəlbini bürüyüb Azərbaycana,
Qəlbinə bürüyüb Azərbaycanı" [2, s. 300].

"Sən tarixi yaza-yaza
Özün də tarix oldun"
Yollar açan qəhrəmanlar,
Özü də bir yol olanlar " [2, s. 300].

Heydər Əliyevin bədii obrazına nəsr əsərlərində də müraciət olunmuşdur. Sevinc Nuruqızının "Danışan ilmələr" hekayəsi uşaqların təsadüfi və maraqlı görüşləri, dialoqları üzərində qurulub. Heydər Əliyevin uşaq ədəbiyyatında görünən obrazı güclü və suveren dövlət qurmağı bacaran, Azərbaycanın əbədiliyini təmin edən, vətənə tuşlanan zərbələrə sinə gərən, 7-dən 77-yə hər kəsin qayğısını şəxsi problemi hesab edən "Heydər baba" kimi görünür.

Nəticə və elmi yenilik. Şəksizdir ki, enerjisini tarixdən alan və gələcəyə ötürən Ulu Öndərin həyat salnaməsini əks etdirən bədii əsərlər bundan sonra da qələmə alınacaq, gələcəyinə inamla baxdığı Azərbaycan balalarının mənəvi tərbiyəsində mühüm rol oynayacaqdır.

Bütün bunlarla bərabər, Azərbaycan ədəbiyyatı, yazıçı və şairlərimiz Heydər Əliyev mövzusunda daha parlaq əsərlər yaratmaq üçün özlərini daha çox səfərbər etməlidirlər. Görkəmli dövlət xadimi Heydər Əliyevin bədii obrazı Azərbaycan xalqının son yarım əsrə yaxın tarixdə keçdiyi inkişaf və təkamül yolunun bütün çətinliklərini və mübarizəsini, böyük nailiyyətlərini özündə əks etdirir. Bu mənada Heydər Əliyevin obrazı Azərbaycanın dünəni, bu günü və sabahının ədəbiyyatdakı bədii inikası ilə bilavasitə bağlıdır. Azərbaycan yazıçı və şairləri böyük dövlət xadimi və qüdrətli şəxsiyyət Heydər Əliyevin ən möhtəşəm bədii obrazını yaratmaq üçün daim yeni yaradıcılıq axtarışında olmalıdırlar. Bu, Azərbaycan ədəbiyyatının yüksək amalı və şərəfli borcudur.

Sonda onu qeyd edək ki, görkəmli dövlət xadimi Heydər Əliyevin bədii obrazını yaratmaq xalqımızın qəlbində Azərbaycana möhtəşəm heykəl ucaltmaq deməkdir. Ədəbiyyatda Heydər Əliyevin bədii obrazı geniş mənada bədii düşüncədə müasir Azərbaycanın obrazını əks etdirir.

İstifadə edilmiş ədəbiyyat

1. Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman, Bakı: Ozan, I cild, 2007
2. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Monoqrafiya. Bakı: Elm və təhsil, 2018, 400 s.
3. Zəlimxan Yaqub. Seçilmiş əsərləri, 13 cilddə, 11-ci cild. Bakı: Şərq-Qərb 2013, 234 s.

İnternet resurslar:

4. https://www.facebook.com/100063788347360/posts/389311671175217/
5. https://science.gov.az/az/news/open/17043

DİLÇİLİK

NİTQİN TEXNİKİ ELEMENTLƏRİ (İNTONASİYA)

İlhamə Hacıyeva*

Abstract
Technical Elements of Speech (Intonation)

Intonation is a complex linguistic phenomenon that arises as a result of the interaction of several components. Intonation is the unity of elements acting together in spoken language. In addition to expressing his opinion clearly and appropriately, the speaker must be able to present it in an attractive, effective, emotional form, using convincing and effective language that can penetrate the heart and mind of the listener. Various emotional states are expressed through intonation shades - fear, concern, prejudice, grief, pride, nervousness, horror, disdain, admiration, disappointment, anxiety, joy, delight, shame, bitterness, doubt, arrogance, etc.

Keywords: *intonation, prosodic elements, expressiveness in speech, harmony, pause, stress, logical stress, intonation function.*

Giriş. İntonasiya bir neçə komponentin qarşılıqlı təsiri nəticəsində yaranan mürəkkəb dil hadisədir, bunlardan səsin əsas tonunun tezliyi (melodik komponent); intensivlik (dinamik komponent); müddət və ya temp (müvəqqəti komponent); tembrni göstərə bilərik. İntonasiya ünsiyyət silahı kimi dilin tərəflərindən biridir. O, ünsiyyətin xüsusiyyətləri ilə, gerçəkliyin və ya mətnin konteksti ilə müəyyən edilir və leksik tərkiblə qrammatik cümlə quruluşunun vəhdətində üzə çıxır.

İntonasiya nitq səsinin ikinci xəttini, superseqmental səviyyəsini təşkil edir. Bir tərəfdən vurğu (prosodiya), digər tərəfdən melodiya, temp, pauzalar və tembr vasitəsilə formalaşan bu ikinci səviyyəli nitq səsi mürəkkəb quruluşa malikdir və müxtəlif funksiyalar yerinə yetirir. Dilçi-alim N.Hacıyeva yazır: "İntonasiya dilin söyləm qatında fəaliyyət göstərənbir sırs prosodik ünsürlərin toplusudur. İntonasiyanın tərkibinitəşkil edən prosodik elementlər (akustik komponentlər)bunlardır:melodiya, intensivlık, pauza, temp, tembr, ritm, diapazon. İntonasiyanın bu və ya digər funksiyası həmin akustik vahidlərdən biri, ikisi ilə fəaliyyət göstərir [7, s. 138]. İntonasiya fonetik aspektdə səslərin fonemik xüsusiyyətlərinə təsir etməyən əsas tonda, intensivlikdə və müddətdə kəmiyyət dəyişikliklərini ifadə edir."İntonasiya nitqin tərtibatında ən mühüm amillərdən biri, "müəyyən bir dilin ən xarakterik xüsusiyyətidir, bunu xarici dil nitqini dərk edərkən bəzi məna çalarlarının tanış olmayan intonasiya ilə ötürüldüyünü söyləməyə imkan verən müşahidələr təsdiqləyir. Qeyri-doğma dildə ifadənin düzgün olmayan intonasiya nümunəsi, şübhəsiz ki, başqasının nitqinin qavranılmasında maneələr, özününkülərin formalaşmasında çətinliklər və ünsiyyət prosesində pozuntular yaradır" [10]. Müxtəlif situasiyalarda fərqli danışmağımıza baxmayaraq (gündəlik dildə yanıltmaclar ayrı bir tərzdə deyilirsə, hesabat oxumaq isə başqa bir tərz), hər bir insanın intonasiyası fərdi, demək olar ki, barmaq izi kimidir.

Aktuallığı. Nitqdə ifadəlilik yaradan vasitələr nitq mədəniyyətində başlıca amillərdən sayılır. İfadəlilk həm də ifadəli oxumaq, yaxşı və aydın ifadə etmək deməkdir. Bu, dilin söz xəzinəsinə, onun qayda-qanunlarına yaxşı bələdlik, fikrin ifadəsində onlardan məqsədəuyğun istifadə edə bilmək bacarığı və səriştəsi ilə bağlıdır. onu da qeyd etməliyik ki, hazırda Azərbaycan dilində işgqzar və akademik kommunukasiya fənnini tədris edən müəllimlərin təkmilləşdirilməsinə böyük ehtiyac var; xüsusilə də onların ədəbi tələffüzü orfoepik tələblərdən aşağıdır. Tələbələrin nitqinin zəngin olmamasının səbəblərindən ən başlıcası da yeni müəllim nəslii ilə bağlıdır. Nitqdə ifadəlilik yaradan vasitələrə diqqətin yönəldilməsi bu problemin həllində nəzəri cəhətdən əhəmiyyətli ola bilər.

* ***Bakı Dövlət Universiteti, Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müdiri, filologiya üzrə elmlər doktoru, professor. Elek.poçt: ilhame.haciyeva1964@mail.ru.***

Əsas hissə. Natiq fikrini aydın, məqsədəuyğun ifadə etməklə yanaşı, onu cəzbedici, təsirli, emosional bir formada verməyi, dinləyicinin qəlbinə, zehninə nüfuz edə biləcək inandırıcı və təsirli dil vasitələrindən istifadə etməyi bacarmalıdır. Parlaq, kəskin, orijinal, ifadəli nitq dinləyicilərin hisslərinə təsir edir, marağını artırır, diqqətini cəlb edir, irəli sürülən fikirlərin məzmununu yaxşı dərk etməyə kömək göstərir. Görkəmli ədib M.İbrahimov yazır: "Pis dil çox yüksək ideyaların və dərin fikirlərin təsirini öldürə bilər… Sözün yerini, qədir-qiymətini bilməyən adama heç kəs hörmət etməz. Əksinə, o adam ki, söz qədri biləndir, hamı onun fikrinə qulaq asmaq istəyir, dediyinin üstündə düşünür" [6, s. 120]. Tələbələr ona görə bir sıra müəllim – natiqin mühazirələrindən razılıq edirlər ki, onların danışığı həm aydın, məzmunlu, güclü məntiq, tutarlı söz, ifadə, cümlələrdən ibarətdir, həm də ifadəli, təsirli, emosionaldır. Nitqdə ifadəlilik yaradan əsas vasitələrdən biri intonasiyadır. Belə ki, natiqlik sənətində məntiqli danışığa daha çox əhəmiyyət verilir. Belə danışıq vasitəsilə natiq fikrini, mətnin məzmununu dəqiq və aydın şəkildə dinləyiciyə çatdırmaqla, onun ağlına, düşüncəsinə təsir etmiş olur. Lakin məzmunun çatdırılması mühazirəçinin yeganə məqsədi deyildir. Əgər danışan təkcə məntiqi qanunauyğunluğu əsas götürsə, başqa sözlə, danışığa fikrin ancaq ifadə forması kimi baxsa, nitq boyasız rəsm əsəri kimi təsirsiz olar və sönük çıxar. Nitq ancaq emosional boya kəsb etdikdə təsirli olur, dinləyicini daha çox maraqlandırır. Məlumdur ki, danışan eyni zamanda müsahibinin qəlbinə, hisslərinə təsir etmək, onda müxtəlif emosiyalar oyatmaq, dinləyiciləri nəyəsə sövq etmək, nədənsə çəkindirmək və s. kimi məqsədləri də qarşısıya qoyur. Belə hallarda nitq rəngarəng ifadə çalarları kəsb edir, emosional boyalarla müşayiət olunur. İntonasiya baxımından zəngin olan nitq həvəslə dinlənilir. Dinləyicilər belə mühazirələrdən xüsusilə zövq alırlar. İntonasiya baxımından düzgün qurulmuş nitq diqqəti daim səfərbər edir, nəzərdə tutulmuş fikrin dinləyiciyə asan çatmasına şərait yaradar. Əksinə, intonasiya çalarından məhrum olan nitq, monotonluq, süstlük, həddindən artıq sürətlə və ya yavaş danışıq, diksiyanın pozulması və s. dinləyicini yorur, bəzən hətta əsəbləşdirir. Dinləyicilər bu cür natiqin mühazirəsindən, necə deyərlər, tez yaxa qurtarmağa çalışırlar. Sözlərin, ifadə və cümlələrin mənaları ilə səslənməsi arasında ahəngdarlığın təmin edilməsi üçün istfadə olunan fonetik imkan və vasitələr fonetik üslubi vasitələr adlanır. Bu üslubi vasitələrin dildə mühüm əhəmiyyətinin olduğunu qeyd edən Ə.Dəmirçizadə onun həm nəzəri, həm də əməli əhəmiyyətini önə çəkmiş və üslubiyyatın zəruri bir bəhsi kimi təqdim etmişdir [1].

İntonasiya şerin də həyati gücünü təmin edir. Sözün ifadə tərzinə, işlənmə məqamına, estetik mahiyyətinə həssaslıq poetik intonasiyaya yeni mövqedən yanaşma meyli formalaşdırır. Hər bir konkret əsərə, onun dil strukturuna uyğun münasib intonasiya qurmaq natiqdən həm istedad, həm də poetik cəsarət tələb edir.

İntonasiyaya bir çox təriflər verilib, onlardan biri də aşağıda qeyd etdiyimiz tərifdir:

"İntonasiya — nitqin ahəngi (səsin yüksəlməsi və ya alçalması), ritmi (vurğulu və vurğusuz nisbəti, əlaqəsi), nitqin tempi və ya sürəti (sürətlə və yavaş tələffüzü), intensivliyi (nəfəsalmanın güclənməsi və ya zəifləməsi), məntiqi vurğusu, tembri kimi hadisələrin məcmusuna deyilir".

"İntonasiya — melodika, ritm, pauza, temp və tembr kimi akustik vahidlərin vəhdətidir. Hər dilin özünəməxsus intonasiyası var və onun düzgün mənimsənilməsi xarici dilin öyrənilməsinin ən mühüm şərtlərindən biridir" [2].

İntonasiya çalarları vasitəsilə müxtəlif emosional vəziyyətlər- qorxu, qayğı, qərəz, qəm, məğrurluq, əsəbilik, dəhşət, etinasızlıq, məftunluq, məyusluq, nigaranlıq, sevinc, coşğunluq, həya, acıq, şübhə, təkəbbür və s. ifadə olunur. Danışan avazlanmanın bu çalarlarından məqsədinə müvafiq şəkildə istifadə etməlidir.

Yenə o bağ olaydı, yenə yığışaraq siz
O bağa köçəydiniz.
Biz də muradımızca fələkdən kam alaydıq,
Sizə qonşu olaydıq.
Yenə o bağ olaydı, səni tez-tez görəydim,
Qələmə söz verəydim.
Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham…

Yazaydım səhər, axşam.
Arzuya bax, sevgilim, tellərindən incəmi?
Söylə, ürəyincəmi?
Yenə o bağ olaydı, yenə sizə gələydik,
Danışaydıq, güləydik.
Ürkək baxışlarınla ruhumu dindirəydin,
Məni sevindirəydin.
Arzuya bax, sevgilim, tellərindən incəmi?
Söylə, ürəyincəmi?

M.Müşfiqin "Yenə o bağ olaydı" şeirindən götürülmüş bu parça canlı bir məhəbbət lövhəsidir. Oxucu bu canlı tablonun gözəlliyinə heyran qalır, onun qəlbi xoş duyğularla dolur. Mahir ifaçı intonasiya vasitəsilə bu tablonu daha da canlandırır, ona əlavə çalarlar, rənglər verir. Sevənlər o bağda ən xoş anlarını keçirərək, yenə də o bağı arzulayır və o mənalı yay axşamlarını bütün gözəlliyi ilə dinləyici gözü önündə canlandırır.

Ahəngdarlıq həm danışıq, həm də oxu prosesi ilə bilavasitə əlaqədar olan ən xarakterik tələffüz hadisəsidir. Ünsiyyət prosesində danışan məqsədinə müvafiq şəkildə nitqinə müxtəlif səs tərtibatı verir. Başqa sözlə, danışıq prosesində təfəkkür fəaliyyətinin nəticəsi olan nitq rəngarəng intonasiya çalarına, boyalara malik olur. "Ahəngdarlıq isə natiqin işini asanlaşdırır və müəyyən nizama salır. Ahəngdarlıq natiqin əməyini yüngülləşdirir, onun rahat işləməsi üçün yüngüllük gətirir. Ahəngdarlıq həyatın bütün sahələrində özünü göstərir. Məsələn: nəbzin vurması, əsgərlərin yerişi, quşların uçuşu və s. Ahəngdarlıq təbiətin, cəmiyyətin inkişafında da daimi yer tutur: Dildə, rəqsdə, sənətdə belə müəyyən bir ahəng var ki, bu da müəyyən bir qanuna və nizama tabedir. Biz rəqsdə dinamik hərəkətləri, dildə nitq ünsürlərini görürük. Nəzmdəki ahəng nitq ünsürlərinin müvazinətli təkrarından doğur. Nitq də belədir. Nitq müəyyən hissələrə bölünməklə bərabər, müəyyən bir nizam ilə təkrar edilirsə, ahəng təsiri yaranacaqdır. Əgər mənzum misralar mütəmadi olaraq uzanan mənsur bir parça ilə yanaşı qoyulursa, müvazinət, nizam, ahəng görünməyə bilər. Lakin eyni misralar bir ölçüdə olmaqla bərabər, müəyyən pauzalar (fasilələr) və durğularla davam edərsə, səslərin bu nizamlı əlaqəsindən mütləq ahəng doğacaqdır" [9].

İntonasiya nitqdə elə incə emosional münasibətlər yaradır ki, heç bir formal əlamət onu yarada bilməz.İntonasiya cümlənin, ifadənin, ayrıca götürülmüş sözün təsir qüvvəsini nəinki artırar, onun əslində ifadə etdiyi mənanı təhrif edə, ya da tamamilə əks mənada başa düşülməsinə səbəb ola bilər.

İntonasiya vasitəsilə adi fikri ifadə edən ən "nəzakətli" sözlərlə dinləyicinin qəlbinə dəymək olar. Məsələn, buyurun oturun,bağışlayın, üzr istəyirəm, xoş gəlmişsiniz, bəli, əhsən, təşəkkür edirəm və s. kimi nəzakət və hörmət mənasını ifadə edən sözlər, bəzi məqamlarda rişxənd, istehza, hiddət, qəzəb, kinayə, etiraz və s. bildirən intonasiya boyaları ilə də işlədilə bilər. Fransız fonetiki Qrammonun dediyi kimi, "cümlələri əmələ gətirən sözlər onun yalnız skeletidir", bu skeletə hərəkət və həyat verən intonasiyadır". İntonasiya müəyyən bir məzmunun özünəmüvafiq forma ilə ifadə olunması vasitələrindən ən başlıcasıdır.

"Söz təkrarları da intonasiya keyfiyyətlərinin üslubi poetik əlamətləridir. Bədii forma və fonoloji ifadə üsulu kimi o, bədii qayəni mükəmməl şəkildə tamamlayır, poetik məzmunu gözəl ritm və ifadə qəliblərində təqdim edir. İntonasiyanın yaratdığı təbiilik və şirinlik lirik şeirin komponentlərinə və üzvlərinə dərin təsirini göstərir. Təsadüfü defil ki, biz intonasiya göstəricisini əsas tutub şeirlərin vəznini, ölçülərini, misradaxili bölgüləri və s. bir-birindən ayırd edə birik" [8, s. 149].

İntonasiya dedikdə şifahi nitqdə birgə fəaliyyət göstərən ünsürlərin vəhdəti nəzərdə tutulur. Nitq intonasiyasının səs vasitələri aşağıdakılardır:

1. Səsin gücü. Bu nitqin dinamikasını yaradır, vurğu ilə ifadə olunur.
2. Səsin istiqaməti. Bu, bu nitqin melodikasını əmələ gətirir. Melodika səsin tonunun qalxıb enməsi ilə yaranır.
3. Səsin sürəti. Bu, nitqin temp və ritmini yaradaraq, səslənmənin davamlılığı və fasilə ilə ifadə olunur.

Bu ünsürlər nitqin texniki cəhətləri, nitq mədəniyyətinin əsas bölmələrindən biri olub, danışıq və oxuda ifadəliliyin yaranmasına xidmət edir.

Vurğu intonasiyanın əsas ünsürlərindəndir. Dilçilik ədəbiyyatında onun üç növündən – söz vurğusu, məntiqi vurğu və həyəcanlı vurğudan bəhs olunur.

Söz vurğusu nitqdə əsasən, iki vəzifəni yerinə yetirir:

1. Sözlərdə forma gözəlliyi yaradır.
2. Sözlərdə yeni məna əmələ gətirir.

Bunlardan birincisi fonetik, ikincisi, fonosemantik vəzifədir.Vurğu öz yerində deyiləndə söz tam, dəqiq, səlis, təbii, ürəyəyatan olur, ən optimal fonetik şəklini alır. Əks halda, sözlər bayağılaşır, süni deyim yaranır, sözlər öz axarından uzaqlaşır, məna anlaşılmır.Sözlərdə vurğunun qüsurlu tələffüzü nitqin gözəlliyinə xələl gətirir, onun təbii gücünü azaldır, nəzərdə tutulan fikir, ideya, məqsəd dinləyiciyə istənilən səviyyədə çatmır.

Vurğu öz yerində deyiləndə söz tam, dəqiq, səlis, təbii, ürəyəyatan formasını, ən optimal fonetik şəklini alır. əks halda, sözlər bayağılaşır, öz axarından uzaqlaşır, süni deyim yaranır, məna anlaşılmır. Şifahi nitq üzərində müşahidələr göstərir ki, vurğu səhv vurulanda həm sözlərin, həm də bütövlükdə cümlələrin mənası dolaşır [5].

Azərbaycan dili sözlərində vurğu dilin təbiətinə uyğun olaraq (iltisaqiliyin bir əlaməti kimi) əsasən, son heca üzərinə düşür. Dilimizə məxsus sözlərin tələffüzündə (bəzi istisnalar nəzərə alınmazsa, məsələn:oxu, daha, bütün, arzu, isim, sifət və s. kimi tələffüz forması) ümumən, qüsura yol verilmir. Bu sahədə ədəbi tələffüzdən uzaqlaşma halları daha çox alınma sözlərin, terminlərin deyilişində özünü göstərir. Məsələn, te′xnikum, o′pera, o′rden, ka′fedra, ma′rşal, de′fis, a′bzas, para′qraf, sino′nim, psixoloji, benzin, manevr, epi′loq, mono′loq, fi′rma, sığorta, ko′mpleks və s. Hər hansı bir alınma sözün, terminin deyilişində yol verilən qüsurlar mühazirəçinin nitqinə xələl gətirir, onun effektini azaldır. "...Çıxış zamanı yaranan ilk təəssürat, natiqin auditoriyada davranışı (duruşu, hərəkəti) "bədən dili" və nitq texnikasından (səs, intonasiya, vurğudan və c.) istifadə qaydaları ritorikanın həll etməli oldiğu vacib məsələlərdəndir [2, s. 166].

Cümlələri təşkil edən sözlərin hecaları vurğuya görə fərqli olduğu kimi, cümlənin də müəyyən bir sözü başqalarına nisbətən güclü deyilir. Qüvvətli deyilən həmin söz cümlənin mənaca fərqlənən, diqqəti cəlb edən, danışanın məqsədini qabarıqlaşdıran bir fonetik vahid kimi çıxış edir.Cümlədə belə sözün o biri sözlərə nisbətən güclü deyilişi məntiqi vurğu adlanır. Məntiqi vurğu cümlədə hər dəfə yeni söz üzərinə düşdükdə xüsusi məna çaları əmələ gəlir.

Məntiqi vurğuya riayət etməyin natiqin ifadəli oxusunda, danışığında, mühazirlərində, söhbətlərində praktik əhəmiyyəti böyükdür. Danışan bu vurğu vasitəsilə oxuduğu hər hansı bir mətndə, eləcə də ifadə etdiyi fikirdə müəyyən məqamı dinləyiciyə xüsusi tonla çatdırmağa çalışır. Bu zaman onun nəzərdə tutduğu məqsəd, fikir dinləyiciyə tam, aydın və dəqiq çatdırılır.Məsələn, N.Kəsəmənlinin S.Rüstəmin "Olan olub.." şeirinin bir bəndinə nəzər salaq.

Olan olub, keçən keçib bəlkə də,
İndi daha kövrəlməyin yeri yox.
Ömrüm boyu belə gəlib mənimki,
Əvvəlindən biri vardı, biri yox.

Bu şeir parçasının sözlərini eyni tonla, eyni vurğu ilə oxumaq ifadəliliyi təhrif etmək, şeirin bədiiliyini söndürmək deməkdir. Çünki "olan olub, keçən keçib" ifadəsində pleonazm şeirə xüsusi rəng qatır, ondan sonrakı söz xüsusi vurğu ilə deyiləndə misranın bədiiliyi artır, məna dinləyiciyə daha dəqiq çatır, eşidənin hissi coşur, ürəyi riqqətə gəlir. Buna görə də həmin şeirdəki sözləri nəzərə çarpacaq bir şəkildə tələffüz etmək və ondakı mənanı dinləyiciyə dəqiq çatdırmaq lazımdır ki, bu da məntiqi vurğu vasitəsilə mümkün olur. Əgər sözləri növbə ilə məntiqi vurğu altında desək, onda şeir əvvəlki təbiiliyini, gözəlliyini itirər, bu bədii parça da adi söz yığını səviyyəsinə düşər.

Həyəcanlı vurğu. Nitqin emosionallığını artıran vasitələrdən biri də həyəcanlı (emfatik) vurğudur. Məntiqi vurğu ilə danışan şəxsin əvvəlcədən xüsusiləşmiş halda nəzərdə tutduğu məna ifadə olunur. Hmin məna həyacanlı vurğu ilə daha ifadəli olunur.Vurğunun bu növü, əsasən, danışanın daxili hisslərinin, həyəcanının səslərlə ifadəsidir. Bu zaman sözün bir səsi--saiti, yaxud samiti daha

gərgin, daha güclü, uzadılaraq tələffüz olunur. Bunun ən bariz nümunələrinin "Vaqif" pyesində Qacarla Vaqifin mükalimsində görmək olar. Cümləni həyəcanlı vurğu ilə söyləməklə sözlərin şifahi nitqdə nə qədər yeni-yeni əlamətlər qazandığının şahidi oluruq. "Off" nidasının yaratdığı təsirə, məna çalarına diqqət edək:

Vəzir: "Of... məndə olsaydı bundakı hünər..."

Misradakı "of" nidasının samiti həyəcanlı vurğu ilə deyildikdə (off) samit qoşalaşdığından sözdə yeni (sətiraltı) məna çaları yaranır.

Müşahidələr göstərir ki, Azərbaycan dilində əsasən, "r, s, ş, y, z, v, m" samitləri daha çox belə effekt yaradır. Hətta ikihecalı sözlərdə də tələffüz zamanı həmin səslər qoşalaşaraq həyəcanlı vurğunu əmələ gətirir. Məs:yavaş (yavaşş), azar(azzar), hamı(hammı) çox qəşəng(qəşşəng) dedim. Lap ürəyimdən tikan çıxdı. Çox gözəl (gözzəl) iş görmüsən.Bu cümlələrdə "qəşəng" sözündəki "ş", gözəl sözündəki "z" səslərinin qoşa tələffüzü fikrin, mənanın daha dolğun, emosional ifadəsi üçün bir vasitəyə çevrilir.

"Tələffüzün asanlığını, rəvanlığını təmin edən üslubi fonetik imkanlar sırasında dilin səs tərkibi, qəni dildə olan səslərin məxrəc baxımından növləri, xüsusi qeyd olunur. Azərbaycan dilində samitlərin çoxu cingiltilidir: Samitlər miqdarca və ahəngdar qoşalıq təşkil edir" [5, s. 92]

Intonasiyanın digər ünsürü fasilədir. Nitq müəyyən fasilələrə malikdir. Tələffüz məqsədilə danışıq və oxu prosesində özünü göstərən tənəffüs aktı fasilə yaxud pauza adlanır. Nitq zamanı zəruri fizioloji tələbatın nəticəsi kimi baş verən tənəffüs-fasilə həm danışanın, həm də dinləyənin nitq orqanlarının müəyyən sakitliyi, rahatlığıdır və fikrin davam etdirilməsinə ilk hazırlıq mərhələsidir.

Əruz vəznində yazılmış əsərlərdə, xüsusən qəzəllərdə fasilə təfllələrini (təqtləri) gözləmək mütləq lazımdır. Hər bir təqtdən sonra edilən qısa və ya davamlı fasilə nitqdə xüsusi ritm yaradır. Məsələn: Qamu bimarinə canan/dəvayi-dərd edər ehsan,// Neçin qılmaz/mənə dərman/, məni bimar o sanmazmı?// (Füzuli) Kipriyin xəncərdir/, qaşların kaman// Yıxdığın acizə/ verməzsən aman,// Dedilər//, cəlladsan/, etməzdim güman,// Salacaqdır məni/ qana gözlərin,// (Ə.Vahid) [7, s. 111].

Tələffüz prosesində nəfəs və səsin düzgün tənzim edilməsi mühüm şərtlərdəndir.Xüsusən, nəfəs almağa düzgün əməl olunmaması nitq zamanı darıxmaya, təngnəfəsliyə, diksiyanın pozulmasına və s. kimi hallara gətirib çıxarır. Buna yol verməmək üçün birinci növbədə normal fasiləyə əməl olunmalıdır. "Tələffüz prosesində nəfəs və səsin düzgün tənzimlənməsi vəcib şərtlərdəndir. Əsasən sə nəfəsalmaya düzgün əməl olunmazsa, nitq zamanı darıxma, diksiyanın pozulması, təngənəfəslik və digər mənfi hallara gətirib çıxarır" [4, s. 87].

Nitq fasiləsində normal tənəffüsün böyük rolu vardır. Tənəffüs iki funksiyanı yerinə yetirir.O həm insan həyatı üçün zəruri şərt, həm də nitqi yaradan başlıca vasitədir.Həyat üçün lazım olan tənəffüs aşağıdakı ardıcıllığa malikdir: nəfəsalma, nəfəsvermə və fasilə. Nəfəsalma tənəffüsdə ən aktiv prosesdir. Bu prosesdən sonra dərhal hərəkətverici əzələlərin gərginliyi azalır, onlar sakit vəziyyətə gəlir və yeni nəfəsalmaya qədər bu vəziyyətdə qalır .

Nitqin fasiləsi həm məntiqi, həm də psixoloji funksiya daşıyır. Məntiqi fasilə nitqi məntiqi məna daşıyan hissələrə bölməklə onun dəqiqliyini, düzgünlüyünü, aydınlığını təmin edir. Danışan bu fasilənin köməyi ilə ifadə edəcəyi fikri dinləyicinin diqqətinə çatdırır, bəzən nitqdə yaranan dolaşıqlığı aradan qaldırır. Bu prosesdə vahid məna bütövlüyündə birləşən qruplar həm ayrılır, həm də birləşir.Buna görə də ona əlaqələndirici, yaxud birləşdirici fasilə də deyilir. Məsələn: *Çalış, Arif kimi tənbəl olma.*Burada bölgü bildirən fasilə ("çalış" sözündən sonra) fikrin düzgün ifadə olunmasına xidmət edir.Yaxud *Oxusan, əlaçı olarsan c*ümləsində məntiqi fasilə ("oxusan" sözündən sonra) cümlənin iki hissəsini (oxusan və əlaçı olarsan) vahid bir məna bütövlüyündə birləşdirir.

Nəticə. Beləliklə, dilimizin fonetik siseminə aid qaydalar nitqin anlaşıqlı, gözəl, ifadəli almasmı şərtləndirən vasitələrdir. Nitqdə ədəbi tələffüz normalarına düzgün riayət olunması, danışıqda fasilə və durğu işarələri, intonasiya, vurğu, tembr, ritm və s.kimi səs, tələffüz nitqin ahəngdarlığına imkan yaradır, məzmunun daha aydın başa düşülməsinə səbəb olur.

İfadəlilk həm də ifadəli oxumaq, yaxşı və aydın ifadə etmək deməkdir. Bu, dilin söz xəzinəsinə, onun qayda-qanunlarına yaxşı bələdlik, fikrin ifadəsində onlardan məqsədəuyğun istifadə edə bilmək bacarığı və səriştəsi ilə bağlıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962
2. Hacıyeva İ., Seyidova S., Məmmədova N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı: Füyuzat, 2021
3. Hacıyeva N. Azərbaycan dilində fonetik vahidlərin üslubi xüsusiyyətləri. Bakı: Elm və təhsil, 2016
4. Eminli B.İ., Paşayeva G.B. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı: Sumqayıt, 2021
5. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 2010
6. İbrahimov M.Xəlqilik və realizm cəbhəsindən. Bakı, 1961
7. Hüseynov S. Nitq mədəniyyəti. Bakı, 2010
8. Hüseynov M. Səsin poeziyası. Bakı, 2010.
9. https://melumatlar.az/blog/18405/nitq-prosesinde-teleffuz-intonasiya-ve-orfoepiyanin-rolu
10. https://media.nosu.ru › 2020/04›
11. https://az.wikipedia.org/wiki

.

СИМВОЛИЧЕСКИЕ И ОБРАЗНЫЕ СРЕДСТВА ЯЗЫКА В ГАЗЕТНЫХ ЗАГОЛОВКАХ

Микаил Джафаров[*], Азиза Фейзиева[†]

Abstract

Symbolic and figurative language means in newspaper headlines

Headlines are an important attribute of newspaper articles. They are structurally and semantically different. This is conditioned by the characteristics of the expressed information. Headings are similar in structure to words, phrases and sentences. The headlines of newspaper articles serve to realize the informational and propaganda functions, which are the main functions of the periodical press. Both of these functions are directed to the solution of important social and political tasks.

Keywords: *language of periodical press, headline of newspaper article, mass media, periodical press.*

Xülasə

Qəzet sərlövhələrində dilin simvolik və obrazlı vasitələri

Sərlövhələr qəzet məqalələrinin vacib atributudur. Onlar struktur və mənaca müxtəlifdir. Bu da ifadə olunan informasiyanın xüsusiyyətləri ilə şərtlənir. Sərlövhələr quruluşca söz, söz birləşməsi və cümlələrə bənzəyir. Qəzet məqalələrinin sərlövhələri dövri mətbuatın əsas funksiyası olan informasiya və təbliğ-təşviqat funksiyalarının reallaşdırılmasına xidmət edir. Bu funksiyaların hər ikisi vacib ictimai-siyasi vəzifələrin həllinə yönəldilir.

Açar sözlər: *dövri mətbuatın dili, qəzet məqaləsinin sərlövhəsi, kütləvi informasiya vasitələri, dövri mətbuat.*

Вступление. В последние годы на всех континентах земного шара происходят бурные события. Сообщения о них передаются в основном средствами массовой информации, в том числе и периодической печати. При этом с целью достижения оперативности сообщений в газетах используются компактно оформленные заголовочные комплексы, в которых обычно концентрируется суть информации.

В статье рассматриваются заголовки русскоязычных газет Азербайджана за последние годы («Бакинский рабочий», «Азербайджанские известия», «Каспий», «Эхо»). Знаменательно, что периодическая печать с особым почтением писала и продолжает писать о жизни и деятельности Общенационального лидера Азербайджана Гейдара Алиева. В связи с этим хочется особо отметить инициативу газеты «Азербайджанские известия» в связи с помещением портрета великого государственного деятеля рядом с названием самой газеты в сопровождении его мудрого изречения о суверенитете Азербайджана: «Наша независимость незыблема, необратима и вечна» (Гейдар Алиев).

В последнее время сообщения республиканских СМИ становятся более привлекательными, что связано с тем, что в нашем регионе в условиях относительного затишья происходят позитивные события (вывод Российских миротворческих сил, заселение населённых пунктов в Карабахе, возвращение Азербайджану нескольких сёл и т. п.). И радостные вести об этих событиях занимают ключевые позиции в периодической печати, в том числе на страницах газет. В этой ситуации особую значимость приобретают заголовки газетных статей.

Заголовок является неотъемлемой частью газетных публикаций. Ведь именно на него читатели обращают внимание в первую очередь. Чаще всего читатель выбирает понравившуюся ему статью по яркому, эффектному, красочно оформленному заголовку. Как отмечает Э. А. Лазарева: «Заголовок является первым сигналом, побуждающим нас читать

[*] ***Бакинский государственный университет, заведующий кафедрой русского языка (факультет естественных наук), доктор филологических наук, профессор. Электронная почта: mikayilctferov@mfil.ru.***

[†] ***Бакинский государственный университет, старший лаборант. Электронная почта: azizafeyziyeva@mail.ru.***

материал или отложить в сторону. Исследования психологов показывают, что около 80% читателей уделяют внимание на заголовок» (7, с. 3). Заголовки помогают читателю ориентироваться в обширном газетном материале, дают возможность судить о наиболее важных и интересных статьях, информациях.

А.П. Бессонов писал, что заголовок - «это своего рода вывеска, и чем она красочнее, тем больше гарантии, что материал будет прочитан» (2 с. 3). Традиционно газетный заголовок является объектом лингвистических исследований, где основное внимание уделяется изучению заголовков с точки зрения его структуры, синтаксической природы, функционального развития, семантики, стиля, проявления закона экономии языковых средств. Прежде всего следует отметить, что форма и структура газетного заголовка варьируется. Название газетной статьи может быть представлено единичным заголовком (например, Парадокс (Касп. 15. 02. 20, с. 14), но могут также присутствовать дополнительные, вспомогательные элементы, предшествующие тексту статьи. Это - «шапка», собственно заголовок, подзаголовок и рубрика.

Стремление в кратчайший срок сообщить о свежих новостях не может не найти отражения и в характере коммуникативных задач, и в речевом их воплощении. Однако эта исторически изначальная функция газеты постепенно оттесняется другой - **агитационно - пропагандитской** или иначе - **воздействующей.**

В наше время, когда массовый читатель обладает высоким уровнем образования и культуры, сами средства и характер выразительности оказываются иными, чем несколько десятков лет назад. В том и состоит стилистическое мастерство пишущего, чтобы исходя из требований конкретной коммуникации, выбрать наилучшие в данном контексте языковые средства воздействия на читателя. Обслуживая повседневные потребности массовой коммуникации, газетный материал раньше других источников отражает в себе перемены в языковых вкусах современников, изменения в социальной, политической, экономической, научно – технической сферах жизни. «Только изменяясь и прогрессируя, язык в состоянии обслуживать постепенно возрастающие потребности общества в новых номинациях, выполнять свои общественные функции» (10, с. 358). Поэтому «без материалов, извлечённых из газет, сейчас становится всё более невозможным изучение языка в целом, определение его общих норм и актуальных стилистических разветвлений» (3, с. 267).

Анализируя язык СМИ, в том числе и периодической печати, следует иметь в виду, что он является составной частью «вечно юного и вечно подвижного языка» (Гумбольт). Важно также помнить, что газетный материал оформляется с участием многих лиц, а именно журналистов – профессионалов, обычных людей, представителей многих профессий и социальных прослоек. Именно в силу этого обстоятельства язык газеты может быть представлен как коллективный язык современников. В то же время каждая статья и любой газетный материал в известной степени отражает лексико – стилистическое своеобразие авторской речи. И это вполне закономерно, так как «за каждым текстом стоит языковая личность, владеющая системой языка» (5, с. 27). В этом можно убедиться ознакомившись с разнообразием материалов на газетной полосе, которое обусловлено тем, что «в разные эпохи интеллектуально - духовной деятельности людей на первый план выдвигаются различные базисные категории, в значительной мере определяющие стиль мышления своего времени» (7, с. 3).

Анализ многочисленных газетных статей и их заголовков позволяет убедиться в том, что в этой сфере слова как наименования явлений окружающей действительности имеют возможность реализовать свои различные значения и оттенки значения. При этом, по словам В.В. Виноградова, «в одном и том же значении обобщается и объединяется общественное понимание разных предметов или явлений, действий, качеств» (3 с. 163). В то же время мы становимся свидетелями того, что наряду с узуальным значением некоторые слова обнаруживают и частные смысловые оттенки. Это значит, что говорящий (пишущий)прибегает к этому стилю тогда, когда он имеет целью, с одной стороны, передать какую-то информацию, причём передать возможно более быстро и доходчиво, а с другой, - вызвать у адресата

(массового читателя или слушателя) определённое отношение к сообщаемому. Поэтому автор не просто передаёт факты, но и в явной форме выражает к ним своё отношение, стремясь убедить адресата в своей правоте. Отсюда общее свойство газетно - публицистического стиля - его яркая эмоциональная окрашенность, не характерная, ни для научного, ни для официально-делового стиля. (6, с. 150 -151).

Анализ многочисленных заголовков газетного материала свидетельствует о том, что желание авторов малыми средствами передать как можно больше информации приводит к тому, что в некоторых случаях лексические единицы употребляются с дополнительными значениями. Таким образом происходит семантическое обогащение смыслового потенциала отдельных слов. Такого рода процессы встречаются читателями с одобрением, так как они (случаи семантического приращения) способствуют удобству передачи и восприятия информации. Здесь возникает вопрос о том, как осуществляется сам процесс семантического приращения в различных группах лексических единиц и как он влияет на содержание заголовочного комплекса.

Общеизвестно, что великий государственный деятель, занимавший в своё время высокий пост в Советском Союзе, всегда был доступен для журналистов и отвечал на их вопросы. Поэтому работники СМИ всегда писали и пишут о нём как об искреннем человеке, о дальновидном государственном деятеле. Многочисленные материалы о Гейдаре Алиева на страницах периодической печати, подтверждают сказанное.

Исходя из этого, можно с уверенностью сказать, что пресса занимает одно из важнейших мест в культурной и политической жизни страны, помогая людям ориентироваться в окружающей действительности.

Иногда в заголовок статьи выводится языковая конструкция, в которой утверждается та или иная истина, имеющая отношение к определённым социальным явлениям: Верные друзья - главное богатство (Межпарламентский союз также поддерживает позицию Азербайджана) (Бак. р. 3.02. 24, с. 1, 3); Теория без практики мертва (Отечественных студентов ждут перемены) (Бак. р. 2. 02, 24, с. 11); Справедливость превыше всего (зачинщики Ходжалинского геноцида должны предстать перед правосудием и понести суровое наказание) (Бак. р. 26.02. 22, с. 1) В последнем заголовочном комплексе автор настойчиво пишет о необходимости справедливого решения международных конфликтов, в том числе и Ходжалинской трагедии. Автор с надеждой говорит о наказании виновников преступления. Зачастую в заголовки включаются слова с символическим или переносным значением: «Хиросима Кавказа» встаёт из руин (Генеральный секретарь Межпарламентского союза посетил Агдам) (Бак. р. 3, 02. 24, с. 2); В данном заголовке раскрывается символическое значение названия японского города Хиросима, которому уподобляется город Агдам, превращённый армянскими захватчиками в развалины. В газетном заголовке слово **Хиросима** значительно усиливает экспрессию всей статьи и придаёт самому заголовку привлекательность. Так что удачно подобранный заголовок во многом способствует запоминанию данного газетного сообщения, а также его воздействию на восприятие описываемых фактов.

В газетных заголовках зачастую употребляются в переносном значении и термины из социальной сферы. К примеру, слово **пионер** в заголовке «Выборы для пионеров возрождения» в яркой форме выражает отношение к людям, положившим начало возрождения освобождённых от врагов азербайджанских земель в Карабахе. Об этом мы узнали из подзаголовка «Избирательные бюллетени переданы в освобождённые от оккупации регионы» (Бак. р., 1. 02. 24, с. 1, 3).

Значительный интерес представляют случаи употребления спортивных терминов в политической и социальной сферах. Так, например, термины **мат, старт, финиш** используются для обозначения тех или иных явлений и ситуаций, сложившихся во взаимоотношениях между странами и государственными деятелями. Ср.: Браво, Азербайджан (Коллективный **мат** Брюсселю, Страсбургу и Парижу) (Бак. р. 27.01. 24, с. 1-4). В данном подзаголовке слово **мат** применено для обозначения безвыходного положения, неудачного

завершения попытки Европейских стран навязать Азербайджанской Республике неприемлемые для неё условия. Переносное употребление термина **старт** наблюдается в заголовке «На старте летающие гимнасты» (Бак. р. 31.01. 24, с.8) Здесь он обозначает начальный момент какой - либо деятельности.

Аналогичные процессы наблюдаются в среде функционирования медицинских терминов типа **пульс**. Ср. На пульсе времени (Ираклий Гогава: Отсутствие Азербайджана в ПАСЕ затрагивает интересы всего Южного Кавказа) (Бак. р., 23. 02. 24, с. 5) . Случаи переносного употребления терминологической лексики из лингвистической сферы, например, термины **акцент, пауза** Ср.: С **акцентом** на будущее (Прогрессивная молодёжь с уверенностью идёт на президентские выборы) (Бак. р. 1, 02, 24, с.4). В переносном употреблении встречаются также научно-техническая терминология. Так, например, термин железнодорожного транспорта **локомотив** применяется в социальной сфере для обозначения ведущих сил общества. Ср.: **Локомотив** прогрессирующего общества (Молодёжь широко представлена в органах юстиции (Бак. р. 24.01. 24, с.2).

Образцы газетных заголовок с фразеологическими единицами свидетельствуют о том, что эти обороты могут использоваться в определённых стилистических целях как без изменений, так и в трансформированном виде, с иным смысловым значением, обновлённой структурой или новыми экспрессивно - стилистическими качествами. Ср.: Шила в мешке не утаишь (Бак. р., 25.01. 24, с.5): Путеводная звезда (Бак. р., 23.01.24, с. 1,4); С чистого листа (Посол Азербайджана вручил верительные грамоты Президенту Молдовы) (Бак. р., 24. 01. 24, с. 2); Экологи бьют тревогу (Бак. р., 1., 02, 24, с.1,2); Ход конём (бак. р., 31. 01. 24, с. 1,5); По велению сердца (Бак. р., 31. 01. 24, с 1, 3); Не велика потеря (Бак. р., 26. 01.24, с.2); Холодный душ для Иревана (Бак. р., 27. 01. 24, с. 5); Трещит по швам (Азерб. Изв., 1.10. 19, с. 3); Лёд тронулся (Каспий, 3. 10. 19, с.8); Армянин в футляре (Бак. р., 26. 01.24, с.4); Победа нам к лицу (Бак. р., 17. 02. 24, с. 1, 8).

Выводы. Анализ вербальных средств заголовков республиканских русскоязычных газет показал, что ресурсы газетно - публицистического стиля являются неотъемлемой частью общенародного языка, который будучи динамической системой постоянно развивается и совершенствуется. Эти процессы охватывают все участки литературного языка, в том числе и газетно - публицистический стиль.

Новизна нашей работы заключается в том, что путём структурно- семантического анализа заголовков русскоязычных газет нами выявлены особенности формирования функционального потенциала заголовочных комплексов, а также расширения символического и образного употребления лексического материала в названиях статей.

Использованная литература

1. Анненков А. К. Теория газетного заголовка. М., 2013, 167 с.
2. Бессонов А. П. Газетный заголовок. Л., 1958,. 62 с.
3. Виноградов В.В. Основные типы лексических значений слова // Избранные труды. Лексикология и лексикография М.: Наука, 1977, с. 163.
4. Горданов А. И. Составление заголовков. М., 2014, 368 с.
5. Караулов Ю. Н. Русский язык и языковая личность. М., Наука, 1987, 264 с.
6. Костомаров В. Г. Газета вчера, сегодня, завтра. М., 2013, 387 с.
7. Лазарева Э.А. Заголовок в газете. Изд-во Уральск. ун-та, 1989, 96 с.
8. Мельник Г. Заголовок в газете. СПБ., 2016, 294 с.
9. Солганик Г.Я. Лексика современной газеты// Язык и стиль массовой информации и пропаганды. М.,1980.
10. Тихонов А. Н. Синхрония и диахрония в словообразовании // Актуальные проблемы русского словообразования. Вып. 1. Самарканд 1972.

TAM ORTA TƏHSİL SƏVİYYƏSİNDƏ DİL QAYDALARINA DAİR MƏZMUN STANDARTLARININ REALLAŞMA VASİTƏLƏRİ

Əhəd Cavadov*

Abstract

Means of implementation of the content standards regarding language regulations at the level of secondary education

A student who completes upper secondary education should acquire a number of skills, be critical and creative in what he listens to and reads. He should express his active attitude to the happenings in social and political life, social and cultural events, and be interested in innovations. A student who improves his knowledge and skills at the level of his potential capabilities should be able to communicate in a foreign language, value the rights and freedoms of citizens, and be sensitive and tolerant to universal events.

The article describes the characteristics of separate main and sub-standards, and shows the means of implementation of the given language rules. After brief information about the styles of Azerbaijani literary language, language rules for each style are given. A way is chosen according to the character of each style, tasks corresponding to the text are used.

As a result of the research, it is determined that the standards are in the form of results and combine knowledge and activity. The knowledge component reflects what will be taught, and the action component reflects how to demonstrate what has been learned.

Keywords: *complete secondary education, language rules, content lines, basic and substandards, means of realization.*

Giriş. "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" adlı dövlət sənədində (8) tam orta təhsili başa vurmuş şagirdlərdən ümumi təlim nəticələri üzrə bir sıra bacarıqlara yiyələnmək tələb olunur.

Şagird dinlədiklərinə və oxuduqlarına tənqidi və yaradıcı münasibət bildirir, həmçinin onları yeni məlumatlarla zənginləşdirir, nitqin müxtəlif formalarından yerinə görə istifadə etməyi , fikirlərini yazılı formada ifadə edərək yaradıcı yazılar (esse, müşahidə və təəssürat xarakterli yazılar) yazmağı bacarır. O, ictimai həyatda baş verən hadisələrə və sosial-mədəni sahələrdəki yeniliklərə münasibət bildirir, maraq dairəsinə uyğun materiallar toplayır, onları sistemləşdirir, təhlil və tətbiq etməyi bacarır.

Şagird informasiya-kommunikasiya texnologiyalarından öz həyati fəaliyyətinin təşkili üçün istifadə edir, problemləri qiymətləndirib, onların həlli yollarında optimal qərarlar qəbul edir. O, potensial imkanları səviyyəsində bilik və bacarıqlarını təkmilləşdirir və beləliklə, onun mədəni-intellektual səviyyəsi yüksəlir. İnsan əməyini, vətəndaşların hüquq və azadlıqlarını dəyərləndirməyi bacarmaqla yanaşı, ümumbəşəri dəyərlərə həssas və tolerant münasibət bildirmək də onun borcudur. Şagird xarici dildə ünsiyyət saxlamağı bacarmalı, icraçılıq, təşkilatçılıq ilə bağlı funksiyaları yerinə yetirməklə liderlik xüsusiyyətləri qazandığını nümayiş etdirməlidir. Nəhayət, o, ana dilində yazılı və şifahi nitq mədəniyyətinə yiyələnir, xalqının ədəbi, tarixi və coğrafi xüsusiyyətləri, görkəmli şəxsiyyətlər, habelə əks qüvvələr haqqında ətraflı məlumatlar əldə edir.

"Ümumi orta təhsil səviyyəsində məzmun səviyyəsi üzrə məzmun standartları"nda "Azərbaycan dili" (Dövlət dili kimi) fənni üzrə şagirdin dinlədiyi mətnin məzmununu izah etməsi, ona münasibət bildirməsi, şüurlu və ifadəli oxu bacarıqlarını nümayiş etdirməsi, müxtəlif formalı rabitəli mətnlər qurub təqdim etməsi, öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə etməsi, nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif mənbələrdən istifadə etməsi, tərcümə bacarığını nümayiş etdirməsi vurğulanır (4.s.16).

* ***Bakı Dövlət Universiteti, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: ehed_cavadov@mail.ru.***

Əsas hissə. Tam orta təhsil səviyyəsində məzmun standartları 10 və 11-ci sinifləri əhatə edir. 10-cu sinfin sonunda şagirdin KİV-dən dinlədiyi mətnləri şərh etməsi, fikirlərini real həyatla müqayisə etməsi,nitqində dil vahidlərindən, yardımçı vasitələrdən (atalar sözü, məsəllər və sitatlar) məqsədyönlü istifadə etməsi, fikirlərini müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlərlə ifadə etməsi, oxuduğu mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə, mətnləri üslubuna görə fərqləndirməsi, müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazması və təkmilləşdirməsi, müxtəlif tərtibat formasına uyğun yazılış və durğu işarələri qaydalarına əməl etməsi və müxtəlif əməli yazılar (rəy, məruzə) yazması tələb olunur (5. s.10).

Məzmun xətləri üzrə əsas və alt standartlar isə dörd əsas standart və onlardan qaynaqlanan on yeddi alt standart şəklində təqdim olunur. Əsas standartlar *dinləyib-anlama, danışma,oxu və yazı* hissələrindən ibarətdir. İlk üç standart daha çox şifahi nitqlə bağlanır, mətn üzrə işlə əlaqələnir, yalnız sonuncu standart ("Yazı" standartı) yazılı nitqi əhatə edir. Bu standarta görə, şagird rabitəli nitq vərdişlərinə yiyələndiyini nümayiş etdirməlidir (4.1.). Bu alt standartın özü dörd alt standarta ayrılır: müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazmaq (4.1.1.), mətni tipinə (nəqli, təsviri, mühakimə) uyğun olaraq təkmilləşdirmək (4.1.2.), mətnin tərtibat formasına uyğun yazılış və durğu işarələri qaydalarına əməl etmək (4.1.3) və müxtəlif əməli yazılar (rəy, məruzə) yazmaq (4.1.4.)

Dərslikdə (6) verilən ilk dil qaydası dilin ünsiyyət vasitəsi olması və cəmiyyətdə formalaşması ilə bağlıdır. Müəllim bu qaydanı mənimsətmək üçün dərslikdəki "Cəmi 40 söz" mətnindən istifadə etməlidir. Mətnin məzmunundan bəlli olur ki, Amala və Kamala adlı qızlar vəhşilər arasında yaşamış, insanlar arasına düşəndən sonra cəmi 40 söz öyrənə bilmişlər. "Hər şey su ilə başladı" mətnində görmə, eşitmə və danışma qabiliyyətindən məhrum olan Helen Adams Kellerin gərgin çalışma yolu ilə uğur qazanmasından bəhs olunur; belə ki, o, tarixə ilk ali təhsilli adam kimi düşür. Bu iki mətni müəllim Eyler-Venn diaqramından istifadə yolu ilə daha yaxşı mənimsədə bilər.

Növbəti dil qaydası dilin yeganə ünsiyyət vasitəsi olmadığı, irsi və irqi cəhətlərlə bağlı olub-olmaması haqqındadır. "Bəşəriyyətin yaddaşı- yazı" mətni yazının tarixi haqqında ətraflı məlumat verir, ilk yazı nümunələrindən danışılır. Klaster -şaxələndirmə üsulu ilə bu mətn və yazının növləri (əşyəvi, şəkli (piktoqrafik), fikri (ideoqrafik), hərfi (fonoqrafik) öyrədilir. Dərslikdə verilən çalışma və tapşırıqlar şagirdlərin müstəqil fəaliyyəti üçün nəzərdə tutulmuşdur. Məsələn, 30-cu tapşırıqda deyilir: "İctimai yerlərdə, yol kənarlarında gördüyünüz, dərsliklərdə rast gəldiyiniz şərti işarələri, kimya, fizika, riyaziyyat dərslərində istifadə etdiyiniz düsturları ideoqrafik və piktoqrafik yazı olmaqla qruplaşdırın. Fikirlərinizi əsaslandırın" (6.s.40). Tapşırığa dair verilən nümunə onun reallaşmasına xidmət edir:

** F=ma (Qüvvənin bərabər olduğu kəmiyyətləri ifadə edir) (ideoqrafik yazı);*

** Şirniyyat mağazasının üstündə çəkilmiş tort şəkli (piktoqrafik yazı)*

Dil və nitq haqqında verilən dil qaydası onların bir-birinə olan münasibətləri (nitqin dildən törəməsi, müxtəlif formalarda təzahür etməsi) və hər bir dilin konkret qayda-qanunlara tabe olması haqqındadır. Burada Azərbaycan dilinin fonetik, leksik və qrammatik normalarından danışılır. Bu dil qaydası verilən konkret qrammatik tapşırıqlarla reallaşır: *Hansı cümlələrdə fonetik norma pozulmuşdur? Hansı sözlərdə vurğu düzgün qoyulmamışdır? Qrammatik normanın pozulduğu halları müəyyənləşdirin* və b. k.

Azərbaycan ədəbi dilinin üslubları haqqında yığcam məlumatdan sonra ***bədii üslub***a dair dil qaydaları verilir, onun obrazlı nitq forması olması, nəzm və nəsr şəklində təzahür etməsi, bu üslubda sözün məcazi mənada işlənməsi, bədii təsvir və ifadə vasitələrindən istifadə edilməsi, xalq danışıq dilinə yaxın olması barədə məlumat verilir.

Verilən dil qaydasını reallaşdırmaq üçün C.Cabbarlının "Yaşar" pyesi və M.İbrahimovun "Böyük dayaq" romanından Azərbaycan kəndinin gələcəyinə həsr olunmuş hissələr müqayisə edilir, şagirdlərdə obrazlı nitq haqqında təsəvvür formalaşdırılır.

Bədii üslubun şeir, nəsr və dramaturgiya formasında təzahürü də bura əlavə edilir, yuxarıdakı bədii ədəbiyyat nümunələri S.Vurğunun "Muğan" poemasından götürülmüş ixtiyari bəndlərlə müqayisə olunur.

Elmi üsluba dair dil qaydalarında bu üslubun xarakterik cəhətləri və onun əsas göstəricisi qeyd

olunur. Bu dil qaydasını reallaşdırmaq üçün elmi üsluba dair mətnlərin təkcə terminlərdən ibarət olmamasına diqqət yetirilməlidir. Bu zaman dilin qrammatik quruluşunu bilmək, terminləri digər sözlərlə əlaqələndirmək, eyni terminin müxtəlif elm sahələrində işlədilməsinə fikir verilməlidir.

Elmi üslubda yazılan əsərlərinin dilinin ağırlığı, burada qrafik, düstur, mürəkkəb cümlə tipləri və ara sözlərdən istifadə qeyd olunur. Burada sözün çoxmənalılığına yer verilmir.

Mətnə aid tapşırıqlardan istifadə yolu ilə buna nail olmaq mümkündür. Məsələn, *morfologiya* həm dilçilikdə, həm də biologiyada, *kök* isə dilçilk, biologiya və riyaziyyatda termin kimi işlənir. Bəzən danışıqda işlənən söz və ifadələrin bəziləri termin kimi işlənir; *İrinləmək, ağrı, qarın* kimi danışıqda işlənən sözlər cərrahlıqda termin kimi işlənir. O cümlədən danışıqda özünə yer tutan *dəniz, çay, boğaz* sözləri coğrafiya, *səs, ahəng, kök isə* dilçilik terminləri kimi fəaliyyət göstərir .

Dərslikdə verilmiş ayrı-ayrı mətn parçalarının elmi mətn olduğunu sübut edən cəhətlərə diqqət yetirmək tələb olunur.

Ümummilli lider H.Ə.Əliyevin imzaladığı "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasını Qanunu, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu, Müzəffər Ali Baş Komandan, Prezident İ.H.Əliyevin imzaladığı "Xəzər dənizinin ətraf mühitinin mühafizəsi haqqında " Çərçivə Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu və digər materiallar ***rəsmi-işgüzar üslub***a aid dil qaydalarını reallaşdırmağa hazırlıq üçün nəzərdə tutulur.

Publisistik üsluba dair dil qaydalarında bu üslubun əsasını hamı üçün anlaşıqlılığı olması, leksikasının mənası aydın olan söz və ifadələr təşkil etməsi, xalq dilinə yaxınlığından danışılır. Bildiyimiz kimi, bu üslubun iki - şifahi və yazılı forması vardır. Yazılı formaya qəzet və jurnalların, şifahiyə isə televiziya, radio və s.-in dili daxildir.

Şagirdlərə tövsiyə olunur ki, publisistik üslubda mətn seçərkən bir sıra qaydalara riayət etsinlər. Bura müraciət olunan mövzuların müəyyənləşdirilməsi və seçilən mövzunun aktuallığı, dilinin anlaşıqlı, sadə olması, hamı tərəfindən başa düşülməsi daxildir.

Xalq dilinə, ümumxalq dilinə yaxınlığı etibarilə publisistik üslub bədii üslubla müqayisə olunur. Bədii və publisistik üsluba dair verilmiş mətnlərin müqayisəsi yolu onları birləşdirən cəhətlər meydana çıxarılır; hər iki üslubda işlənən söz birləşmələrinin elmi üslubda istifadə olunma imkanları araşdırılır. Dil qaydalarının reallaşma mexanizmi çərçivəsində qəzet və jurnallardan publisistik üslubda olan mətnin seçilib verilən plan üzrə tədqiq olunması tələb olunur: *mövzunun müəyyənləşdirilməsi və aktuallığı, dilinin anlaşıqlı, sadə olması, abzaslar və fikirlər arasında məntiqi əlaqə, sözçülükdən uzaqlılıq, ədəbi dil normalarının tələblərinə əməl edilməsi,qoyulan problemlə bağlı dəqiq faktların araşdırılması və təqdimi, çətin anlaşılan sözlərdən, terminlərdən, məcazi mənalı sözlərdən istifadə dərəcəsi.*

Konkret mətnlərin müqayisəsi yolu ilə onların bədii, yoxsa publisistik üslubda olması meydana çıxarılır və bunun nəticəsində növbəti dil qaydası reallaşır: *Bədii üslubdan fərqli olaraq, publisistik üslubda , adətən, terminlərdən, dialekt və loru sözlərdən istifadəyə yol verilmir.*

İnsanın gündəlik həyatında istifadə etdilən dil ədəbi dilin **məişət üslub**una aiddir. Bu üslub o birilərindən fərqli olaraq, ancaq şifahi şəkildə mövcud olur. Əsas əlaməti sərbəstlik və təbiilik olan bu üslub da başqa üslublar kimi, ədəbi dilin qayda-qanunları ilə nizamlanır. Üslubun sərbəstliyini isə hər bir şəxsin istədiyi kimi danışması, hər bir sözü, ifadəni deyə bilməsi kimi mənalandırmaüq olmaz. Bu üslubdan bəhrələnən yazıçı və şairlərin əsərlərində üsluba məxsus söz və ifadələrdən istifadə olunur, burada sərbəst nitq ünsürləri əsərin dilini sadələşdirir və anlaşıqlı edir.

Rəsmi-işgüzar üsluba dair dil qaydalarında bu üslubun dilinin rəsmi- işgüzar sənədlərin dili olması, fikrin (informasiyanın) müəyyən standart formalarda və yığcam şəkildə idadə olunması göstərilir. Bu üslubda artıq sözlər, obrazlı ifadələr və fərdi nitq ünsürlərindən qaçmaq xarakterik haldır. Rəsmi-işgüzar üslubun lüğət tərkibi yığcam və məhdud, normalılığı isə möhkəmdir.

Bu dil qaydasının reallaşması üçün dərslikdə verilən sənədlərdən biri 10 aprel 1918-ci ildə ümummilli liderimiz H.Ə.Əliyev tərəfimdən imzalanmış "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunudur (6, s. 138-141). Qanun 32 maddədən ibarətdir və 7 fəsildir. Qanunun 1-ci fəsli "Ümumi müddəalar" adlanır.Bura iki maddə daxildir: tarix və mədəniyyət

abidələrinin qorunması; nitq və mədəniyyət abidələrinin anlayışı və təsnifatı (memarlıq ənənələri, tarixi abidələr, sənədli abidələr, incəsənət abidələri, qoruqlar, abidələrin mühafizə zonası). Sonrakı fəsillər də bu şəkildə davam etdirilir. Dərsliyin həcminə müvafiq olaraq,Qanundan 3-cü və 7-ci fəsillər təqdim olunur. Beləliklə, qanunla tanışlıq rəsmi üslubla bağlı verilən dil qaydasının birinci qismini reallaşdırır.

Dərslikdə ***məruzə*** hazırlamaq üçün plan təqdim olunur (6. s.166). Bura məruzənin mövzusu, qoyulan problemlərin müəyyənləşdirilməsi, mövzuya aid ədəbiyyat toplamaq, məruzənin planını tutmaq, məruzəni hazırlamaq, məruzənin edilməsi, müzakirəsi və son söz daxil edilir. Bu planın reallaşması üçün filologiya üzrə fəlsəfə doktoru Nərgiz Cabbarlının məruzəsi nümunə kimi təqdim olunur. "Çağdaş dövrün romanı" adlanan bu məruzə "Müasir Azərbaycan romanının dil və üslub xüsusiyyətləri" mövzusundadır. Mövzuya aid ədəbiyyat verilir, məruzənin planı təqdim olunur. Sonra plana uyğun olaraq "Giriş", "Əsas hissə" və "Nəticə" ixtisarla verilir. Girişdə müasir dövrdə roman janrına çox müraciət olunduğu göstərilir, bunun müsbət və mənfi cəhətləri qeyd olunur. Əsas hissədə mövzu və qaldırılan problemlər üzrə dərc edilən romanlar , o cümlədən Qarabağa dair romanlar haqqında məlumat verilir, ikincilərin öndə olduğu vurğulanır.

Nəticə və elmi yenilik. Beləliklə, məqalədə X-XI *siniflər*də təhsilalanların bilik və bacarıq səviyyələrinə qoyulmuş dövlət tələbi olan *məzmun standartları* və onların reallaşması üsulları araşdırılır. Bu standartlar nəticə şəklində olub, konkret olaraq özündə mənimsəniləcək biliyi və fəaliyyəti birləşdirir. Bilik komponentində nəyin öyrədiləcəyi, fəaliyyət komponentində isə öyrənilənin necə nümayiş etdiriləcəyi əks olunur.

Əsas standartlar bir neçə sinifdə və hətta bütün orta təhsil pilləsi ərzində eyni formada tətbiq olunmalıdır. Sinifdən- sinfə keçdikcə əhatə olunan bilik və bacarıqların miqyası *alt standarlar* vasitəsilə müəyyənləşdirilir. Bunlar əsas standartlarda ifadə olunmuş fikrin müəyyən hissəsini təşkil edir. Bu həm də sinifdən-sinfə biliyin və fəaliyyətin monitorinqini keçirməyə imkan verir. Məlumdur ki, Azərbaycan dili təliminin məqsəd və vəzifələrinə uyğun olaraq, məzmun xətləri təhsilin bütün pilləri üzrə aşağıdakı kimi təyin edilmişdir:1) dinləyib - anlama və danışma; 2) oxu; 3) yazı; 4) dil qaydaları.

Sonuncu standartın tələbinə görə, X-XI sinif şagirdləri yaş həddinə uyğun yiyələndikləri zəruri fonetik, leksik, qrammatik bilikləri ümumiləşdirir və onlardan fəaliyyət komponenti kimi istifadə edirlər. Onlar seçdikləri dil faktlarını qruplaşdıraraq təqdim edir,dinlədikləri fikri anladığını nümayiş etdirirlər. Bununla yanaşı, şagirdlər rabitəli şifahi və yazılı nitq bacarıqlarına malik olduqlarını, qarşılaşdığı sözlərin mənasını mənimsədiklərini, oxu və yazı texnikası vərdişlərinə yiyələndiklərini, fonetik, leksik, morfoloji, sintaktik və orfoqrafik qaydaları, tam bildiklərini nümayiş etdirir, orfoqrafiya və durğu işarələri qaydalarını gözləməklə müxtəlif növ yazılı çalışmaları (imla, ifadə, esse,hekayə, inşa) yerinə yetirirlər.

Tədqiqat nəticəsində müəyyənləşdirilmişdir ki, *tam orta təhsil səviyyəsi*ndə məzmun standartlarının tələblərinə uyğun olaraq, şagirdlər "Azərbaycan dili" fənni üzrə danışanın fikrinə münasibət bildirir, öz fikirlərini sərbəst və ardıcıl və rabitəli şəkildə ifadə edir; düzgün, sürətli, şüurlu, ifadəli oxuyur; irihəcmli rabitəli mətnlər qurur; lüğətlərdən, məlumat kitablarından və elektron resurslardan sərbəst şəkildə istifadə edir; Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndikləri məlumatları müxtəlif formalarda təqdim edir; rabitəli yazılı və şifahi nitqində fonetik, leksik, qrammatik qaydalara yiyələndiyini nümayiş etdirirlər.

"Azərbaycan dili"(dövlət dili kimi) fənni üzrə şagird dinlədiyi fikirləri anladığını nümayiş etdirir; müşahidə etdiyi əşya və hadisələri təsvir edir; irihəcmli mətnləri düzgün və sürətlə oxuyur, məzmununu izah edir; söz birləşməsi və cümlə modellərindən irihəcmli şifahi və yazılı mətnlər qurur; dialoqlarda zəruri nitq etiketlərinə yiyələndiyini nümayiş etdirir; məlumat xarakterli irihəcmli mətnləri lüğət vasitəsilə tərcümə edir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifdəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı, 23 may, 2012-ci il.

2. Bektaşi S., Hüseynova Y. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı: Şərq-Qərb, 2017, 192 s.
3. Cavadova S.. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı: Şərq-Qərb, 2018, 176 s.
4. Qəhrəmanov A. Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim kursunun iştirakçıları üçün təlim materialı. Bakı, 2012 (abdullaqehreman@gmail.com)
5. Hacıyev T.,Bektaşi S. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Azərbaycan dili (tədris dili) fənni üzrə dərslik. Bakı: Şərq-Qərb, 2018, 200 s.
6. Hacıyev T., Bektaşi S., Hüseynova Y. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Azərbaycan dili (tədris dili) fənni üzrə dərslik. Bakı: Şərq-Qərb, 2017, 208 s.
7. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 5 sentyabr, 2009 cu il
8. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun saylı qərarı ilə təsdiq edilmişdir.

CÜMLƏ LEKSİK-QRAMMATİK KONSTRUKSIYALAR YARADAN VASİTƏ KİMİ

Fikrət Əlizadə*

Abstract

Sentence as a tool that creates lexıco-grammatıcal constructıons

Each idea is reflected in a sentence, which is synthetic - syntactic material. Analytical - lexical-grammatical tools form the sentence. Separately, they form parts of ideas. As a whole, they create completeness as elements of ideas.

When an idea is resolved in a sentence, new lexical-grammatical constructions are created, and this increases a person's experience by enriching his way of thinking, speech material, and acquiring new types of words.

Of course, thoughts arising from spontaneous, internal speech enter the language as a new concept in the form of a word, either individually or collectively - a dull, nominative sentence, that is, a word.

A number of different lexical constructions find their place within the sentence. The simplest of these are free word combinations. Of course, fixed phrases are also used at this point. Later, complex words and double words expand the range of understanding. Sometimes, due to the lack of words for a new concept, the sentence loses its predicative character and becomes a word.

Keywords: *sentence, lexical-grammatical constructions, word combination, compound word, conversion.*

Giriş. Bəşəriyyətin uşaqlıq çağı olan ibtidai icma quruluşu dövründə insanlar bir-birini başa düşmək üçün öncə işarəvi – qeyri-verbal dillə yanaşı, nida və yamsılamalardan istifadə edərək ünsiyyətə girirdilər. Lakin sonrakı formasiyalarda anlayış daşıyıcısı, müəyyən məna verən söz oldu.
Qeyd etmək lazımdır ki, fikir materialı dildə formalaşmazdan öncə daxili və zahiri (xarici) nitq vasitəsilə üzə çıxır.

Neyrolinqvistik baxımdan, hazırkı və keçmiş real, həmçinin irreal situativ qıcıqlar fikri formalaşdırdığı kimi, daxili nitqdə də əvvəlcə ən vacib informativ vahid olan predikatlar yaranır. Zahiri (xarici) nitqə keçdikdə isə onlar müxtəlif qeyri-predikat elementlərlə ifadə olunurlar ki,bunlar ənənəvi-formal sintaksisdə cümlə üzvləri, funksional sintaksisdə isə aktantlar, yəni hərəkətin, əsas məlumatın icrasına yardım edən vasitələr kimi səslənərək üzə çıxır.

Göründüyü kimi, beyində səssiz yaranan daxili nitqdə predikatlar özünə yer tapdığı halda, səsli ifadəni əks etdirən zahiri nitqdə predikatları informativ dolğun etmək aktantların payına düşür.
Bir sıra hallarda nitqə uyğunlaşdırılan ifadələr məhz cümlədə öz həllini tapır. Ona görə ki Orfoqrafiya lüğətindəki leksik vahidlərdən fərqli olaraq, cümlə canlı nitqin qənaət prinsipinə əsaslanır, bəzi sözləri, bəzən ifadələri, bir növ, redaktə edərək, yenicəsinə təqdim edir. Nəticədə, bütün dil yarusları ilə birlikdə yeni cümlə törəmələri əmələ gəlir. Cümlə, faktiki olaraq, bir sıra hallarda derivatoloji vasitə kimi çıxış edir, orfoqrafik lüğətə yeni leksik vahidlər gətirir.

Bəzən cümlə analitik cəhətdən parçalanmır, özü bütövlükdə sintetik material olaraq qalıb, donuq vəziyyət alır, predikativliyini itirərək, substantivləşir və mürəkkəb sözə çevrilir.

Məlum olduğu kimi, insan fikrinin tədrici bitkinliyini təmin edən cümlədir.Yəni bütün ünsiyyət materialı məhz burada gerçəkləşir, yəni bir sıra leksik-qrammatik konstruksiyalar öz formal həllini cümlədə tapır. Nəticədə, söz birləşmələri, mürəkkəb sözlər, qoşa sözlər,cümlə sözlər və s. yaranır.

Əsas hissə. İnsan fikrinin dil/nitq materialı olan cümlə iki planda – birinci növbədə, predikativ – məlumatverici, ikinci planda isə, nominativ – adlandırma mövqeyindən çıxış edir.

Cümlə mətn sintaksisinin yaranmasına qədər ən böyük dil vahidi hesab olunmuşdur. Şifahi sintaksisin dinamikasını əks etdirən, aktual üzvlənmə vahidi olan söyləm anlayışı məsələnin qoyuluşuna təsir etdi. Aydın oldu ki, söyləm həcmcə cümlədən genişdir və cümlə tam söyləniləsi fikrin

* ***Bakı Dövlət Universiteti, Azərbaycan dilçiliyi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: 0504111351@mail.ru***.

bir parçasıdır [3, s. 3]. Burada fikir materialları – leksik-semantik hissəciklər müəyyən bir formada analitik anlaşılası informativ materialları bir yerə toplaya, cəm (cümlə) edərək, vahid, sintez olunmuş sintetik informasiya yaradır.

Təbii ki, insanın fikri məhz cümlədə öz əksini tapır. Əslində cümlədə işlənən leksik vahidlər sonradan yarana biləcək yeni söz birlikləri yaradır. Bir növ, cümlə öz daxilində sərbəst və sabit söz birləşmələri, düzəltmə söz, mürəkkəb söz, qoşa sözlər, elliptik ifadələrin peyda olmasına səbəb olur. Hətta iltisaqi dilə xas olmayan konstruksiyaya rəvac verir: bütöv cümlə subsltantivləşərək inkorporativ–ilhaq yolu ilə mürəkkəb sözə çevrilir [3, s. 3].

Göstərilənlər əsasən canlı danışıq nümunələri qismində izlənilmişdir.

Cümlə tərkibində sərbəst söz birləşmələrinin yaranması təbii haldır.Məsələn:

Mənə təmiz su verin. = “təmiz su”

Kitab bilik mənbəyidir. = “bilik mənbəyi”

Onun işə münasibəti təqdirəlayiqdir. = “onun işə münasibəti”

Yayda dənizə getmək sağlamlıq üçün vacibdir. = “yayda dənizə getmək”

Cümlə sabit söz birləşmələrinin (frazeologizmlərin) yaranması üçün də bir mənbədir.

Sabit söz birləşmələrinin bir qismi gerçəklikdən məlum olan hadisə, proseslərə istinadlıdır. Adətən belə söz birləşmələrinin çoxu neqativ mənada olduğu üçün ibrət məqsədi daşıyır və onların mənası çoxmənalı sözlərdəki kimi başqa “ünvana” proyeksiyalanaraq məcaziləşir. Bu halda həmin birləşmələrin həqiqi mənası məcazi mənada işlədilir. Məsələn:

göz çıxarmaq, əl kəsmək, ayaq kəsmək, baş kəsmək, ev yıxmaq, atasının evinə od vurmaq (=qoymaq), başına at təpmək...

Həqiqi mənada:

Rövşən atası Alı kişinin gözü çıxarılandan sonra onu Koroğlu deyə, çağırmağa başladılar.

Uşaq bıçaqla əlini kəsdi.

Qatil çox baş kəsdi

Ekskavator son zərbəsi ilə evi yıxdı.

Ermənilər Rasimin atasının evinə od vurdular.

Neçə il qabaq atla oynayanda ehtiyansızlıq edən Eldarın başına at təpdi. O vaxtdan huş-başı yerində deyil.

Məcazi mənada:

Bu adam hər yerdən əlimi kəsib;

Sabir evindən sevmədiyi adamın ayağını kəsdi;

O, pambıqla baş kəsir;

Ev yıxmaq mərdiməzarlıqdır;

Qədir İbrahimə elə söz dedi ki,sanki atasının evinə od vurdu;

Sənə nə olub, başına at təpib?

Tam məcazi mənalı frazeologizmlər konkret deyil, mücərrəd təfəkkür məhsulu olaraq, aşağı təbəqənin, yəni sırf xalqın düşüncə tərzini, situativ təcrübəsini, geniş fantyaziyasını əks etdirir. Məs.: qanı qaralmaq, başa salmaq, huşunu itirmək, dərd çəkmək və s.

Müdirin qanı qara idi;

Müəllimin borcu şagirdə dərsi yaxşı başa salmaqdır;

Yaralı əsgər huşunu itirdi;

Samirə xanım xaricdə yaşayan oğluna görə dərd çəkirdi.

Vurğulamaq lazımdır ki, isimlər feillərdən çox olduğu üçün feillər üzərinə böyük ağlrlıq düşür. Bu səbəbdən feillər öz konkret mənasını ismə görə güzəştə getməli , yeni, lakin artıq məcazi mənada iştirak etməli olurlar.

Bu frazeologizmlərə diqqətlə yanaşdıqda müəyyən qədər həqiqəti əks etdirən məqamlar özünü göstərir. İnsan əsəbiləşəndə onun qanı qatılaşdığına görə tünd görünür (qanıqara), sanki daxıl üçün qab tapıb, oraya pul salmağa oxşatma (başasalma), nəyinsə itkisi (huşitirmə) və kənarda olanı özünə tərəf çəkmə (dərdçəkmə), bir növ, gerçəkliklə səsləşir.

Cümlə daxilində mürəkkəb quruluşlu sözlər yaranır. Bu da aşağıda göstərilənlərin vasitəsilə əmələ gəlir:

1) I növ təyini söz birləşməsi hesabına:

O heç vaxt doymur, həmişə **ac göz**lərlə adama baxır. = acgöz

Həmin mürəkkəb sözün komponentləri inversiyaya uğradıqda isə o,qeyri-təyini söz birləşməsinə çevrilir:

Onun **gözü** həmişə **ac**dır = gözüac

Az da olsa, buna oxşar bir qisim ikivariantlı inversiv komponentli mürəkkəb sözlər var:

acıdil=diliacı; təmizqəlbli = qəlbitəmiz; gülərüz=üzügülər

Qeyd etmək lazımdır ki,adətən bu cür mürəkkəb sözlər birvariantlı olur:

acgöz=**gözüac**a antonim olan **gözütox** inversiyaya uğramır, yəni **toxgöz** variantı alınmır.

2) ll növ təyini söz birləşməsi hesabına:

Bu çiçək lap **it**in **burnu**na oxşayır. = itburnu

Ayağın qəlibindən onun forması alınır ki, bu da sanki **ayağın qabına** oxşayır. = ayaqqabı

Bu bitki **quş**un çörəyi – **əppəyidir.** = quşəppəyi

Onun alt dodağı **at dodağ**ına oxşayır = atdodaq

Sonuncu variantda isə ll-lll növ təyini söz birləşməsinə bağlı **atın dodağı = at dodağı** komponentlərindəki qrammatik şəkilçilərini itirmişlər.

Bəzi halarda omofonları da yaradan cümlədir:

Bunlar **müxtəlif sistemli** dillərdir. = müxtəlifsistemli dillər

Belə xasiyyət onun **özünə məxsus**dur. = özünəməxsus əda

Qoşa sözlərin yaranmasına da cümlə səbəbkar olur:

O, **ata və anası** ilə bir evdə yaşayır. = ata-ana

Bizim **bacı, qardaş** (=**qardaş, bacı**) bir-biri ilə çox mehribandırlar. = bacı-qardaş=qardaş-bacı

Situasiya təcrübəsinə əsasən cümlədə daha çox şifahi nitqə xas olan qənaət prinsipindən istifadə olunur. Nəticədə, elliptik cümlələr əmələ gəlir:

Kül başına olsun (=tökülsün) = kül başına

Allaha şükür olsun = Allaha şükür

Qızım **ər**(evin)**ə getdi** = ərə getmək

Mən **siz(**in eviniz**)ə** gələcəyəm. = sizə gəlmək

Qonaqlı/q/ (yerinə)/**ğ/a getmək** = qonaqlığa getmək

Anan (atan...) **sənə qurbam** olsun! = sənə qurban

Şifahi nitqdə daşlaşmış ibarələrə həyat vəsiqəsi verən cümlələrdir:

Mən səni **gözümün üstündə** saxlayacağam.

Gözüm üstə yerin var. = göz/üm üstə

Mənə aid /nə/ qulluq varsa,de,edim. = mənə aid /nə/ qulluq

Gözün aydın olsun, oğlumuz Qarabağ döyüşlərindən sağ-salamat qayıdıb!

= gözünaydın /=gözaydınlığı

Göründüyü kimi,elliptik variantlar məhz cümlədən törəyir.

Bəzən cümlədə elliptik yolla mürəkkəb söz formalaşır:

Günün aydın olsun. = günaydın

Cümlənin xəbər qütbünün – predikativ hissəsinin inkorporativ şəkildə mürəkkəb sözə çevrilməsi də mümkündür.Əlbəttə, belə bir konsruksiya iltisaqi Azərbaycan dilinə xas olmasa da, derivatoloji cəhətdən yeni söz yaranmasında söz qıtlığı bü cür konstruksiyanın yaranmasına gətirib-çıxarır və bunlar iki cür – kontakt və distant şəkildə yaranır:

Toydan sonra Zərifə və həyat yoldaşı atasıgilə gedərək ora **ayaq açdılar**. = ayaqaçdı

Toy günü rəfiqələri qızın əlinə **xına yaxdı.** = xınayaxdı

Sərhədə "**atəşi kəs**" əmri gəldi. = atəşkəs

İki/nin **üst**/ün/**ə gəl** iki,eləyər dörd. = üstəgəl

XX əsrin əvvəllərində əsgərlər tüfəngi ön tərəfdən barıtlı kapsulla doldururmuşlar. Bizim milli məkanda müraciət, görünür,belə olub: "Dayan, qoy bir bu tüfəngi doldurum". = dayandoldurum

Övlada həsrət gənc ailə arzulayır ki, uşaq doğulsun, bu həyatda qalsın-dursun. = Dursun

Həmin planda Dayandur adı da öz təsdiqini tapa bilir.

Göstərilən konstruklsiyalar kontakt şəkildə, bir-birindən əxz yolu ilə əmələ gəlmişlər.

Bəzən bütöv cümlə substantivləşir, sanki donur:

Geniş paltar geymiş xanıma otaq, hətta küçə darısqal gəldiyinə görə o, güman ki,"küçə mənə dar gəlir" demişdir. Belə olduqda yeni parça adı alınmışdır. = küçəmənədargəlir

Eləcə bunaoxşar nümunələr kimi bəzi parça adları da müəyyən situativ gerçəkliyə, fərqli əlamətlərə görə yeni sözə meyil olmadan hacımənəbax, alışdım-yandım şəklində dilə vəsiqə alıb. Yəni bütöv cümlə transformasiyaya uğrayaraq, cümlə-söz kimi formalaşıb [3, s. 29].

Cümlə-sözlər bir və ya iki cümlə arasından qoparaq, distant şəkildə də törəyə bilər:

Mütləq **al**dığının əvəzini **ver** / Malı **al**, pulunu **ver.** = alver

Köhnə kitabları **götür**, təzələri onların yerinə **qoy**. = götür-qoy

Almaq istədiyini əvvəl **gör**, sonra **götür**. = gör-götür

Bəzən xəbər qrammatik əlamətləri ilə birlikdə xüsusi ad kimi işlənir:

Sevindik (antroponim); **Basarkeçər, Ərimgəldi** (toponim) [3, s. 29].

Az da olsa, bir qisim şəxs adları cümlənin qrammatik şəkilçili, qoşmalı konstruksiyalarından bəhrələnərək peyda olur:

Bağdagül, Aləmdə, Ayla və s.

Bir sıra hallarda cümlə məzmunundan nəticə çıxarılaraq, mahiyyətə uyğun söz işlədilir və bu, artıq cümlə xaricində yaranan ekspressiv söz olur:

Ermənilər **ona çörək verənin qənimidir**. = nankor= alçaq

Qədir necə də **kobuddur**. = ayı= heyvan

Nə cür adam olasan ki, **adicə hesabı bilməyəsən**? = taxtabaş; balqabaq = küt

Atalar sözünə diqqət yetirdikdə bunlarda fikir yığcamlığı özünə cəlb edir. Nəzərə almaq lazımdır ki, həmin yığcamlığa səbəb müəyyən kontekstdaxili ifadələr, öncə mürəkkəb ifadələr olmuşdur. Cümlələr cilanana-cilanana sadə forma almışdır:

Kim işləmirsə,o heç bir tikə çörək də dişləməz

= **İşləməyəm dişləməz** [2, s. 139].

Paltar tikəndə o yan-bu yanını yüz dəfə ölç və bir dəfə biç.

=**Yüz ölç, bir biç**. [2, s. 38]

Aslan aslandır = Onun erkəyi də, dişisi də təhlükəlidir

= Aslanın erkəyi, dişisi olmaz

= **Aslanın nə erkəyi, nə dişisi?!** [2, s. 38]

Bəzən tabeli mürəkkəb cümlədən yeni konstruksiya meydana çıxır:

Elə **san ki**, o, ağlını itirib.

Sanki o, ağlını itirib [4, s. 131].

Tamamlıq budaq cümləsinin baş cümləsində işlənən san feili xəbərlə ki bağlayıcısı ikinci – sadə cümlədə birikmə nəticəsində sanki formasına düşərək, ara sözə çevrilir.

Tabesiz mürəkkəb cümlədə də belə hala rast gəlmək mümkündür:

Sən demə,(mən deyəcəyəm) o, çox pis adam imiş [4, s. 78].

Sən demə (=**Demə**), o, çox pis adam imiş [4, s. 79].

İkinci cümlədə sən demə ara sözə çevrildiyindən cümlə quruluşu sadələşir.

Sadə və ya mürəkkəb cümlə daxilində nəinki apelyativ, həmçinin onimik cümlə-sözlər yarana bilər.

Çalış, həyatda **sevil**.

Sevil Cəfər Cabbarlının yaratdığı obrazlardan biridir.

Sabah hörmətli qonağımız **gəlir**.

Bu il **gəlir** çox olacaq.

Bu uşağı bizə **Allah verdi**.

Allahverdi Səlimin nəvəsidir.

Məlumdur ki, Orfoqrafiya lüğətində vurğusu fərqli sözlər – omoqraflar fərqləndirilmədən bir formada verilir. Məlumdur ki, belə sözlərin isim və sifət olmasına görə vurğusu dəyişir. Bu isə ancaq cümlə daxilində dəqiq ifadəsini tapa bilər:

Yaxşı tanıdığın o gənc **narkOtik** (isim) qəbul edir.

Narkotİk (sifət) vasitələrdən istifadə etməyin!

O, **akadEmik**dir (isim)

Tələbənin **akademİk** (sifət) borcu var idi.

Lakin müstəsna hallara, yəni eyni nitq hissəsinə – ismə aid omoqraflara da rast gəlmək mümkündür:

Raket **orbitƏ** (isim) qalıxdı

Orbit (isim) dişləri təmizləyən keyfiyyətli saqqızdır.

Ümumiyyətlə,orfoqrafiyanı,orfoepiyanı sahmanlayan cümlədə sözlərin keçmişi ilə indisi arasında fərqlər aydınca hiss olunur. Əvvəllər ayrı yazılan can sağlığı, baş sağlığı sözləri hazırda bir sintaqm altında, qovuşuq deyildiyi üçün bitişik yazılır:

Sənin **canın sağ** olsun. İnsan üçün **can**ın/ın **sağlığı** bir nemətdir = cansağlığı

Başın sağ olsun. = başsağlığı

Cümlə abreviaturların – mürəkkəb adların forma alması üçün ümdə rol oynayır. Bunların həm yazılışını, həm də tələffüzünü təmin edir:

Bakı Dövlət Universiteti = BDU [bedeu və ya bedu], Azərbaycan Milli Elmlər Akademiyası = AMEA [amea], Azərnəşr və s.

Nəticə və elmi yenilik. Hər bir fikir sintetik – sintaktik material olan cümlədə öz əksini taparaq reallaşır. Cümləni formalaşdıran isə analitik – fonoleksik-qrammatik vasitələrdir. Obrazlı deyilərsə, cümlədənkənar mövqedə – lüğətdə qalıb işlənməyən "çiy" leksik vahidlər məhz cümlədə püxtələşərək dolğun fikir yaradır və bu zaman müxtəlif münasibətdə olan yeni leksik konstruksiyalar formalaşır.

Sərbəst, sabit söz birləsmələrin, mürəkkəb sözlərin, qosa sözlərin, predikativ frazeologizmlərin hamısını törədən cümlədir. Bəzən konteksti, hətta mətni formalasdıran cümlələr toplusu yeni leksik-qrammatik konstruksiyalar yaradır. Qeyd etmək yerinə düşər ki, zərb məsəllər birbasa mətndən qopmuş önəmli, ibrətamiz fikir parçalarıdır.

Fikir cümlədə həllini tapdıqda yeni leksik-qrammatik konstruksiyalar yaranır və bu, insanın düşüncə tərzini, nitq materialını zənginləşdirərək yeni tip sözlərə,ifadələrə yiyələndirməklə onun təcrübəsini artırır.

Cümlənin leksik-qrammatik konsruksiyalar yaradan vasitə kimi tədqiqi dilçilikdə ilk addımdır.

İstifadə edilmiş ədəbiyyat

1. Adilov M.İ., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri lüğəti. Bakı: Elm və təhsil, 2020, 656 s.
2. Atalar sözü. Bakı: Öndər, 2004, 264 s.
3. Əlizadə F.F.Azərbaycan dilində cümlə tipli sözlər. The XXXI İnternational Scientific Symposium "Turkic World and National Unity". The 29th October 2022, Andijan,Uzbekistan. https://elger-etm.com (səh. 29-31)
4. Hacıyev T.M. Tabeli mürəkkəb cümlənin təkamülü (sadə cümləyə transformasiya). Bakı: MBM, 2012, 160 s.

XIII-XVI ƏSRLƏR AZƏRBAYCAN YAZILI ABİDƏLƏRİNİN DİLİNDƏ FEİLİ SİFƏT KATEQORİYASI

İslam Vəliyev*

Abstract

XIII-XVI centuries of Azerbaijani written monuments verb adjective category in language

The verb adjective category has long been one of the controversial problems in Turkological literature due to its dual nature. The verb adjective category in the language of Azerbaijani written monuments, starting from ancient times to modern times, has attracted attention with its richness and versatility. Formal signs related to this category in the language of written sources related to the Azerbaijani language of the 13th-16th centuries have undergone slight changes almost until the present period. In the language of the studied written materials -an, -an; -acag, -acag; -ar, -ası, -asi; -dı, -diği, -duğü, -dugü; - ır, -ir; -maz, -mez; -mish, -mish; -malı, -mali, etc. morphological indicators are recorded as adjectives. Suffixes belonging to the verb adjective category have preserved their meaning characteristics and stability in the modern Azerbaijani language.

Keywords: *Ancient, modern, category, suffix, Azerbaijan, sources.*

Giriş. Müasir Azərbaycan dilində olduğu kimi, XIII-XVI əsərlərə aid yazılı abidələrin dilində də feilin təsriflənməyən formalarından biri olan feili sifət özündə feillik əlamətləri ilə yanaşı sifətin xüsusiyyətlərini də daşıyır və əşyanın hərəkətlə bağlı əlamətini göstərir. Daha doğrusu, feili sifətlər təsirili, təsirsiz, təsdiq və inkar aspektində olur, məna növlərinə və zaman məzmununa görə fərqlənir, həm də idarə edən kateqoriyadır (yönlük, təsirlik, yerlik və çıxışlıq hallarında idarə edə bilir), ərz anlayışı və feillər kimi iş, hal, hərəkət və proses bildirir. Feili sifətlərdə həm də sifətlər kimi təyin etmə xüsusiyyəti (hərəkətlə bağlı əlamət kimi) özünü göstərir, substantivləşə bilir, dərəcə əlamətləri qəbul etmir, özündən əvvəl işlənən sözlərlə birlikdə tərkib yaradır və s. Hər hansı bir sifətin, o cümlədən feldən düzələn sifətin semantikası, yəni əlamət və keyfiyyəti ifadə etməsi daimidir, həm leksik, həm də qrammatik səciyyə daşıyır, feili sifətin semantikası isə (predmeti hərəkət və proseslə əlaqələndirmə) müvəqqətidir, qrammatik – sintaktik səciyyəlidir.

Məna və vəzifə etibarı ilə hələ qədim zamanlardan formalaşmağa və sistem halına düşməyə başlamış feili sifət Azərbaycan dilinin qrammatik quruluşunda mühüm mövqeyə malikdir. Azərbaycan dilinin təşəkkül dövründən başlayaraq ədəbi-bədii əsərlərin dilində feilə məxsus kök və şəkilçi morfemlərin üzvi bağlılığı nəticəsində yaranmış, etimoloji-tarixi baxımından məruz qalmış feili sifətlər öz zənginliyi və çoxcəhətliyi ilə diqqəti cəlb edir.

Tarixən də şəxsə, zamana, kəmiyyətə görə tam dəyişmə paradiqmasına malik olmayan feili sifətlər qrammatik cəhətdən atributiv səciyyə daşımış, özünün daxili inkişaf qanunauyğunluğu əsasında formalaşmışdır. Feili sifət ilk yazılı abidələrimizin dilində atributiv, məzmun daşımaqla bərabər, predikativ mahiyyətdə olmuş, cümlənin feili xəbəri vəzifəsini icra etmişdir. Daha doğrusu bu kateqoriya sintaktik mahiyyətcə qədimdən müasirliyə doğru böyük inkişaf yolu keçmişdir.

İstər türk dillərinə, istərsə də Azərbaycan dilinə aid feili sifət kateqoriyası ilə bağlı zəngin elmi ədəbiyyata rast gəlinir. Əksər türkoloji ədəbiyyatda feili sifət kateqoriyasının təbiətini aydınlaşdırmaq məqsədi qarşıya qoyulur, feili sifətlərin adlara və feillərə münasibətini müəyyənləşdirməyə meyl göstərilir.

Əsas hissə. İlk türkoloji ədəbiyyat kimi "Altay dili qrammatikası"nın müəllifləri feili sifətləri feilin təsriflənən formalarından fərqləndirərək bu kateqoriyaya daxil olan sözləri təkcə atributiv deyil, həm də hallana bilən formalar hesab etmişlər (16, s. 68). M.Kazımbəy isə feili sifəti semantik məzmunca iki növə: a) hərəkət bildirən; b) hal (vəziyyət) bildirən ayıraraq ikincinin sifətə yaxınlaşdığını göstərmişdir (14, s. 271).

N.A.Baskakov "Qaraqalpaq dili" kitabında feili sifətləri cümlədə əsasən xəbər və təyin olan

* ***Bakı Dövlət Universiteti, Türkologiya kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: islamvaliyev@bsu.edu.az.***

atributiv-təyini formalar kimi (2, s. 243), A.N.Kononov isə müasir özbək dilinə həsr etdiyi kitabında funksionallıq baxımından isimlərə uyğun gələn fei forması kimi səciyyələndirmişdir (15, s. 232).

Bəzi Türk dillərinə aid tədqiqatlarda feili sifəti ayrıca bir nitq hissəsi kimi götürməyi məqsədəuyğun saymışlar (25, 8; 4, 27; 13, 104; 126). Feili sifətləri feili ad termini ilə adlandırmış L.M.Xaritonov yakut dilində onların işləndiyi zaman özlərinin ad əlamətlərini itirərək xalis feil formaları (təsriflənən şəkillər) kimi çıxış etdiyini göstərmişdir (10, s. 223). L.A.Pakrovskayanın "Qaqauz dilinin qrammatikası" (22, s. 230), K.A.Musayevin "Karaim dilinin qrammatikası" (19, s. 302) kitablarında feili sifət kateqoriyasının vəziyyətini təsvir etməkdən daha çox, feili sifətlərin adlara və feillərə münasibətinin dərəcəsi müəyyənləşdirilir. Beləliklə, türkoloji ədəbiyyatda həm feilə, həm də sifətə aid əlamətləri ifadə etidiyi nəzərə alınaraq bu kateqoriya müxtəlif terminlərlə adlandırılmışdır: "Глагольные имена, глагольные именные формы, отглагольные имена, причастные, неличные формы глагола" və s. (21, 51-57; 3, 142-143; 24, 135-142; 15, 238-239).

Azərbaycan dilçiliyndə bu kateqoriyanın tədqiqatçıları da feili sifətlərdə həm feilə, həm də sifətə məxsus əlamətlər gördükləri üçün feili sifət terminini "ismi-fail" (iş görənin adı) və **"ismi-məful"** (görülən işin adı) kimi izah etmişlər. "Axtaran tapar, əkilən biçilər" ifadələrində **axtaran** sözü iş görənin adını (yəni **"ismi-fail"**i), **əkilən** sözü isə üzərində icra olunmuş əşyanın adını (**"ismi-məful"**i) bildirir (9,185; 20, 364-378; 28, 267-271; 5, 75-80; 1, 8; 17, 220-316; 25, 359-361; 23, 590-595; 11, 255-268).

Ə.Dəmirçizadənin "Kitabi-Dədə Qorqud" dastanlarının dili" əsərində feili sifətlərdən "Sözdüzəldici şəkilçilər bölməsində feillərə birləşdirilən şəkilçilər" başlığı altında söhbət açılır. Feili isim, feili sifət və feildən sifət düzəldən şəkilçilərdən eyni bölmədə danışılır (7, s. 65-66).

M.Ergin "Dədə Qorqud" abidəsində müşahidə olunan feili sifətləri "partisiplər" adı altında vermiş, bu kateqoriyaya aid olan formal əlamətləri qeydə almışdır (8, s. 165-169).

XIII-XVI əsrlərə aid yazılı materialların dilində çox qədim dövrlərin məhsulu olan feili sifət şəkilçiləri istər məna və istərsə də vəzifəcə müasir dilimizlə müqayisədə əsaslı dəyişikliyə məruz qalmamışdir. XIII-XVI əsrlər Azərbaycan yazılı abidələrinin dilində aşağıdakı morfoloji göstəricilər: **-an; - dıq; -mış; -ar; -maz; -ır; -acaq; -ası; -malı; -dacı** feili sifəti ifadə etmişdir. Həmin şəkilçiləri üç prinsip əsasında a) funksionallığa görə, b) qrammatik mənasına görə, c) tarixən fəallığına görə təhllil etmək daha məqsədəuyğundur. Funksionallıq baxımından Azərbaycan dilinin bütün inkişaf mərhələlərində əsl feili sifət formaları iki morfoloji göstərici: **-an** və **-dıq** seçilər. Həm zaman və şəkil kateqoriyalarının, həm də feili sifət formaları sayılan digər qrammatik şəkilçilər isə müştərək xarakter daşıyir. Tarixi-etimoloji baxımından bu şəkilçilər də ümumxalq Azərbaycan dilinin təşəkkülünə qədərki dövrlərdə ancaq feili sifət kateqoriyasını bildirmiş, sonrakı dövrlərdə şəxs kateqoriyasının tam formalaşıb morfoloji məzmun kəsb etməsi, yəni şəxs əvəzliklərinin şəkilçiyə çevrilməsi prosesində həmin şəkilçilərin qrammatik vəzifəsində keyfiyyət dəyişikliyi baş vermişdir.

XIII-XVI əsrlərə aid yazılı mənbələrin faktları əsasında feili sifət şəkilçilərinin tarixi mənzərəsini nəzərdən keçirək:

-an forması. Ən məhsuldar və işlək şəkilçilərdən biri kimi, **-an** forması müxtəlif məna növlü, təsirli və təsirsiz feillərə birləşərək iş görəni "görülən işlə" təyin edir: Qalxıbanı yerindən **duran** yigit, yelisi qara atın bütün **minən** yigit (KDQ, 137); Ayıdır dünyada **qalan** kişinin (DƏH,18); Qamu yerdə halları oldur **bilən,** Dəxi cümlə dərtlüyə dərman **verən** (S.Fəqih, 67); Heybət alur bunları **görən** kişi (Y.Məddah,135); Sən məgər tup **oynayan** çabüksəvarım bolğasan (Kişvəri, 84); Sağ **gəzən** düşmənlərin bu bəndə tək bimar ola (Xətai, 1, 51).

-an şəkilçili feili sifətlər substantivləşərək hal, mənsubiyyət, şəxs və kəmiyyət şəkilçiləri qəbul etmişdir: **Qaçanın** qovmadı, aman **deyənin** öldürmədi (KDQ, 102); Amin, amin **deyənlər** bidar görsün! (KDQ, 66); Oları qan qaşanırdı **görənlər** (DƏH, 17); Yaş dola hər **eşidənün** gözləri (S.Fəqih, 55); Şükr **edənlərə** həqq yəvlaq bəqa (Y.Məddah, 48); **Yazana** qılma cəfanı, cəfa **yazana** gərək (Q.Bürh., 23); Sözün bir **söyləyənlər** gerçək ərdür (Xətai, I, 81).

-dıq forması. Tarixən XIII-XVI əsrlər yazılı mənbələrinin dilində aktivliyi ilə seçilən əsil feili sifət formalarından biri **-dıq** şəkilçisidir. Qədim zamanlardan indiyədək şəxsə görə dəyişən və keçmiş zaman mənası ifadə edən bu feili sifət şəkilçisi müasir dövrdə üçüncü şəxsin təkinə aid olan - **diyi, -**

dığı formasında işlənməkdədir. Nümunələrə diqqət yetirək: **Atdığı** daş yerə düşməzdi (KDQ, 37); Üç ilədək daşın **düşdüyü** yerin otu bitməzdi (KDQ, 37); Gerü, **gəldigi** yola əzm etdi (DƏH, 25); **Gəldügi** yola gerü döndü çəri (Y.Məddah,144); Züleyxa **geydügi** cəvahir dondadır (S.Fəqih, 90); Ayağı **basdığı** yerlərə yüzüm döşədi zər (Q.Bürh., 46).

Əksər hallarda **-dığı, -diyi** şəkilçisi şəxslər üzrə mənsubiyyət əlamətini qəbul edərək geniş miqyasda fəaliyyət göstərmişdir: Ox **atdığım** yerləri, cida **oynatdığım** yerləri göstərəyin, -- dedi (KDQ,70); Göz açuban **gördüyün,** könül verib **sevdiyin** Baybecan qızı Banuçiçək... (KDQ, 55); Bən **gördüyüm** duş təbirin andan sorgil (Q.Əli, 99); Çərx əlindən **gördügüm** cövrü cəfa (DƏH, 38); Ya Züleyxa, sən **dedigün** olmıya (S.Fəqih, 92); Dil necə deyə **sevdügümüzü** səni dildən (Q.Bürh., 35); Mən **sevdigim** ol səbzxət, al qəbadür (Kişvəri, 13); Oğlan sözləb nə **gördügün** aydur imdi (Q.Əli, 85); Sizə **gəldigimiz** eyb etməyəsiz (DƏH, 38).

- dığı şəkilçili feili sifətlər hal şəkilçiləri ilə də işlənmişdir: Yad **etmədügini** hələ bən yad edisərəm (Q.Bürh., 30); **Dedügündən** daxı gögçək başladı (S.Fəqih, 90); **Verdügünə** çün şükr, ya rəbbinə (Y.Məddah,112); **Sevdigümdən** yalaram ol yaranı, çox sevdügüm (Kişvəri, 60).

- dığı feili sifət şəkilçisi də **- an** forması kimi dilimizin sonrakı inkişaf mərhələlərində öz məhsuldarlığını qoruyaraq müasir dövrə kimi saxlaya bilmişdir.

- mış forması. Oğuz qrupu türk dilləri üçün səciyyəvi sayılan **- mış** formalı fe'li sifət şəkilçisi **- an** şəkilçisi ilə müqayisədə az müşahidə olunur. **-mış** şəkilçili feili sifət "Əşyanın vaxtı ilə, keçmişdə aldığı və ya düşdüyü vəziyyətin bitməsi, sabitləşməsi ilə əlamətləndirildiyini bildirir" (18, s. 167-170). Bu şəkilçinin feili sifətin qrammatik göstəricisi kimi qeyri-məhsuldarlığı **-mış** şəkilçisinin iki funksiyada çıxış etməsi ilə bağlı olmuşdur. Məlumdur ki, **-mış** şəkilçisi yazılı abidələrimizin dilində nəqli keçmiş zaman anlayışı da ifadə etmişdir. XIII-XVI əsrlər Azərbaycan abidələrinin dilində müşahidə olunan **-mış** şəkilçili feili sifətlərə nümunələr: Mənim dəxi içində bir əqli **şaşmış,** biligi **yetmiş** qoca babam var (KDQ, 41); Qıraq yerdə **tikilmiş** otaqların ol zalım yıxdırdı ola qardaş (KDQ, 115); Gedərkən irdilər bir xoş araya, İkən gögçək **yapılmış** bir saraya (DƏH, 19); Vərqa atası **yetilmiş** pir idi (Y.Məddah, 120); Ol **tutulmuş** dili dönər bülbülə (S.Fəqih, 73); Navəkin peykanlarudur oda **yanmış** könlümə (Kişvəri, 47).

-ır forması. XIII-XVI əsrlər ədəbi-bədii nümunələrin dilində müasir dildəki vəziyyətdən fərqli xüsüsiyyətlərdən biri **-ır** indiki zaman şəkilçisinin feili sifət əlaməti kimi işlənməsidir. O qədər də aktiv olmayan **-ır** şəkilçili feili sifət **-an** və **-dığı** şəkilçisinin sinonimi kimi özünü göstərmişdir: Onlar **görünür** yerə varcaq qırq yigidin pusuya qoydu (KDQ, 25); **Yatır** yerdə Bəkili dutun! (KDQ, 125); Göz **yetişür** yerə ildi ol cəvan (12, s. 164); **Gəzir** ayağum yoxdur (ŞÜH., 37 a); **Uyur** fitnəni oyatdurmazam (ŞÜH., 172 a)

-arforması. Qədim dövrlərdən başlayaraq feili sifət kateqoriyasının ən fəal formalarından biri qeyri-qəti gələcək zaman məzmunlu **-ar** şəkilçisidir: **Görər** gözüm aydını oğul, tutar belim qüvvəti oğul (KDQ, 67); Yıxılsın oğuz elləri, mənə **yarar** qız bulaymadım, baba, -- dedi (KDQ, 93); Andumu mən **yanar** odə salmazam (S.Fəqih, 92); Zira **axar** suya, sanasın ki, şəkər düşər (Q.Bürh., 41); Eylə ki **ağlar** gözüm səndən irağ irməz əcəb (Kişvəri, 99).

Müasir dövrdə **-ar** şəkilçisi feili sifət yaratmaq baxımından arxaikləşməyə doğru gedir. S.Cəfərovun fikrincə, **-ar** şəkilçisi müaslr dilimizdə hətta öz feili sifət əmələgətirmək xüsusiyyətini itirərək təmamilə feil köklərindən isim əmələ gətirən bir şəkilçi yerinə keçmək üzrədir (6, s. 97).

-ası forması. Omonim şəkilçilərindən sayılan **-ası** feili sifət əlaməti feilin lazım şəklinin və qəti-gələcək zamanının məzmununu da ifadə etmişdir. Azərbaycan xalq dilinin ilk təşəkkül dövrlərindən müşahidə olunan və qrammatik funksiyaca şaxələnən **-ası** şəkilçisi sonrakı dövrlərdə aktivliyini itirmişdir: Sən **varası** kafir degil, qalxıbanı yerimdən durayım (KDQ, 73); Odə **yanası** könlüm üçün bilimədüm (Q.Bürh., 40); Hərgiz özü bu yüzümə **baxası** bilməz (Q.Bürh., 37); Bilməzəm kim, neylədim bu **qan olası** könlümə (Kişvəri, 7).

XVIII əsrə qədər yazılı mənbələrinin dilində az işlənən **-ası** şəkilçili feili sifət forması sonrakı dövrlərdə sabit şəkil almışdır. Həmin dövrə kimi isə **-ası** əsasən gələcək zaman şəkilçisi olaraq fəaliyyət göstərmişdir (18, 169-170; 27, 314).

-dacı forması. XIII əsr yazılı abidəsi Qul Əlinin "Qisseyi Yusif" poemasının dilində qəti-

gələcək zaman şəkilçisi ilə omonimlik təşkil edən **-dacı** şəkilçili feili sifətlər təyin rolunda çıxış etmiş və əksər hallarda substantivləşmişdir. Məsələn: Ol quyudan çıqaruban **satıldacı.** Bəd əz an zindanlara **saldacı** (30); **Aldacı** qol batil işə dəği nedər? (79); Ol hasidlər xidmətinə **gəldəcidir,** Nədamətlə peşman heyran **oldacıdır** (30).

Qədim türk yazılı abidələrin dilində işlənən **-taçı** şəkilçisinin (23, s. 594) fonetik variantı olan **-dacı** XIII-XVI əsrlərə aid Azərbaycan yazılı abidələrinin dili üçün xarakterik olmamışdır.

Nəticə. Beləliklə, XIII-XVI əsərlər ədəbi-bədii materialların dilində feili sifət dəyişməyə az meyilli feil formalarından biri kimi feilin xüsusi tipli şəxsiz forması olub feillik əlamətləri ilə yanaşı ismə məxsus əlamətlərə də malik olmuş, qrammatik mənasına, vəzifəcə feilin şəxsə görə dəyişməyən digər növlərindən fərqlənmişdir. Nəticədə uzun müddət feili sifət feillə sifət arasında mövqe tutan xüsusi tipli bir kateqoriya kimi işlənmişdir.

İxtisarlar və mənbələr

KQD – "Kitabi-Dədə Qorqud" (tərtib edəni H.Araslı). Bakı, 1978
Q.Əli – Qul Əli. Qisseyi-Yusif (çapa hazırlayan, lüğət və şərhin müəllifləri E.Əlibəyzadə, Ə.Hüseyni). Bakı, 1995
DƏH – Dastani-Əhməd Hərami (ön söz, tərtib və lüğət Ə.Səfərlinindir). Bakı,1978 Y.Məddah – C.V.Qəhrəmanov, Z.T.Hacıyeva. Yusif Məddah "Vərqa və Gülşah" (mətn və qrammatik oçerk). Bakı, 1988
S.Fəqih – Z.Hacıyeva. Suli Fəqih "Yusmf və Züleyxa". Bakı, 1991
Q.Bürh – Qazi Bürhanəddin. Divan (tərtib edəni Ə.Səfərli). Bakı, 1988
Kişvəri – Kişvəri. Əsərləri (tərtib edən, ön söz, şərh və lüğətin müəliifi C.Qəhrəmanov).
Bakı,1984
Xətai, I – Şah İsmayıl Xətai. Əsərləri, I cild (tərtib edəni Ə.Məmmədov). Bakı,1975 Şüha – Şühədanamə. N.Füzuli adına Əlyazmaları İnstitutu, D-535 (15659)

İstifadə edilmiş ədəbiyyat

1. Абилов А.С. Причастные обороты в современном азербайджанском языке. А.К.Д, Баку, 1962
2. Баскаков Н.А. Каракалпакский язык, II. М., 1952
3. Батманов И.А., Арагачи З.Б., Бабушкин Т.Ф. Современная и древнея Енисеика. Фрунзе, 1962
4. Боровоков А. Учебник уйгурского языка. Л., 1935
5. Cavadov Ə.M. Müasir Azərbaycan dilində feili sifətlər. Azərbaycan EA "Xəbərləri" (ictimai elmlər seriyası), 1959, №6
6. Cafarov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, 1960
7. Dəmirçizadə Ə. "Kitabi- Dədə Qorqud" dastanlarının dili. Baki, 1999
8. Ergin M. "Dede Korkut kitabı", II, İndeks-qramer, Ankara, 1963
9. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı,1973
10. Харитонов Л.Н. Современный якутский язык. Фонетика и морфология. Якустк, 1947
11. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası, II hissə. Bakı, 2007
12. Xəlilov Ş.X "Əsrarnamə"nin dili. Bakı, 1988
13. Жуманиезов Р. Узбек тилида сифатдош. Тил ва Адабиет Института асарларн Тошкент,1949
14. Казымбек М.А Общая грамматика турецко-татарского языка. Казань,1846
15. Кононов А.Н Грамматика современного узбекского литературного языка. М.-Л., 1960
16. Грамматика алтайского языка. Казань, 1869
17. Mirzəyev H. Azərbaycan dilində fel. Bakı, 1986
18. Mirzəzadə H. Azərbaycan dillinin tarixi qrammatikası. Bakı, 1990
19. Мусаев К.А Грамматика краимского языка. М., 1964
20. Müasir Azərbaycan dili, II hissə, Bakı, 1980
21. Насилов Б.М Язык Орхоно-Енисейских памятников. М., 1960
22. Покровская Л.А Грамматика гагаузкого языка. М., 1964
23. Rəcəbov Ə.Ə. Qədim türk yazısı abidələrinin dili, I hissə. Bakı, 2006
24. Щербак А.М Грамматический очерк язык тюркских текстов X-XIII вв. из Восточного Туркестана. М.-Л.,1961
25. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2000
26. Трояняский А. Краткая татарская грамматика. Казань, 1860
27. Tanrıverdi Ə. Azərbaycan dilinin qrammatikası. Bakı, 2017
28. Zeynalov F.R Türk dillərinin müqayisəli qrammatikası, II hissə. Bakı, 2008

"ANA DİLİ" – AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİNİN TARİXİNƏ BİR NƏZƏR

Məhbubə Qurbanova[*], İradə Şəmsizadə[†]

Abstract

The article talks about paying special attention to the study of the Azerbaijani language in the Caucasus in the XIX century, preparing special textbooks for the study of this language for both Azerbaijani and other nationalities, primarily Russian students.

The works of the Azerbaijani intelligentsia, who worked hard in the work of compiling a textbook in a new way, are mentioned. "The language of the Fatherland" (written by A.O.Chernyayevsky, Valibeyov S.H.) of the textbook and R.It is said that afandiyev's textbook has been used in Azerbaijani schools for a long time.

It is noted that these textbooks play a great role in the development of Azerbaijani intellectuals, poets and writers, as well as educational and cultural figures of the late XIX and early XX centuries.

Keywords: *native language, textbook, literary language, Shusha, specialist.*

"Ana dili gözəldir, ülvidir, doğma, həm də müqəddəsdir. Lakin o, mücərrəd anlayış deyil. Bütün dillər o dillərin sahibləri üçün ana dilidir". ***Yusif Seyidov***

Hər xalqın öz dili var. Bu, ana dilidir. Insan dünyaya gəldiyi ilk gündən ana dili onun canına, qanına, beyninə və ürəyinə ana südü və ana laylası ilə keçir. Ana dili ölkəmizdə ta qədim zamanlardan bu günə qədər iki istiqamətdə tədris olunub. Bir öz vətəndaşlarımıza, bir də digər millətlərdən olub bu dili öyrənmək istəyənlərə.

Ana dili - Azərbaycan dili - XIX əsrdə təkcə Azərbaycanda, Qafqazda deyil, bütün yaxın Şərqdə geniş yayılmış və həmin ərazilərdə yaşayan müxtəlif xalqların bu dili bilməsi, başa düşməsi, danışması böyük fərəhverici bir əhəmiyyət daşıyırdı. Qafqazda olmuş səyyahların, alim və yazıçıların bu dili öyrənməyə çalışması ona böyük əhəmiyyət verməsi məlumdur. Bunun nəticəsi idi ki, Azərbaycan dili ayrıça bir fənn kimi Qafqazın Tiflis, Dərbənd, Kutaisi və s. şəhərlərində dövlət məktəblərinin tədris planına daxil edilmişdi. Digər millətlərin, ilk növbədə isə rus şagirdlərinin Azərbaycan dilini öyrənməsinə xüsusi fikir verilirdi [7, s. 239].

XIX əsrin sonu və XX əsrin əvvəllərində yeni fəaliyyətə başlayan məktəblərdə uşaqların hansı dərsliklərlə təhsil alması dövrün maarifçilərini həmişə düşündürmüş və mühüm problemlərdən biri olmuşdur. Azərbaycanın görkəmli maarifpərvərləri Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Məmməd Tağı Sidqi, Sultan Məcid Qənizadə, Firudin bəy Köçərli, Haşım bəy Vəzirov, Rəşid bəy Əfəndiyev, Mahmud bəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Abbas Səhhət və başqaları məktəblərdə ana dilində keyfiyyətli dərsliklərin olmasını istəyirdilər. Həsən bəy Zərdabi yazırdı: "Uşaqların yaşlarına və bilik səviyyəsinə uyğun olan dərs kitabları yoxdur. Uşaqlar şairlərin kitablarını oxuyurlar. Bunlar ana dili təliminə yaramır. Ona görə dərs kitabları yaratmaq lazımdır. Heç olmazsa, başqa xalqlarda mövcud olan dərs kitablarından istifadə və tərcümə etməklə onları hazırlayaq" [5, s. 233].

Azərbaycan dilinin tədrisinə aid ilk dərsliklər yaratmaq işində Tiflis qəza məktəbi və gimnaziyası müəllimlərinin xeyli rolu olmuşdur.

Məlum olduğu kimi, XIX əsrdə Tiflis Qafqazın inzibati mərkəzi olmaqla, həm də elmi mərkəzi idi. Digər millətlərin qabaqcıl nümayəndələri kimi Azərbaycanın da Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh, Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli, M.Ə.Sabir, Əliqulu Qəmküsar və digər maarifpərvər oğulları burada elmi-pedaqoji, bədii-publisistik fəaliyyət

[*] ***Bakı Dövlət Universiteti, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: mehbubequrbanova53@gmail.com***

[†] ***Bakı Dövlət Universiteti, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: irade.shemsizade@mail.ru***

göstərmişlər. Onlar bir tərəfdən Tiflisdəki dövlət məktəblərində Azərbaycan dilindən dərs deyir, digər tərəfdən də dərsliklər tərtib edir, yeni dərsliklərə rəylər verir və beləliklə də Azərbaycan dilinin tədrisini yaxşılaşdırmaq uğrunda əllərindən gələni edirdilər.

Beləliklə, XIX əsrin 30-cu illərində Azərbaycan dilində dərslik və tədris vəsaiti nəşr etmək sahəsində ilk addımlar atıldı. Doğrudur, bu vaxt meydana gələn dərslik və dərs vəsaitlərinin əsas məqsədi digər millətlərdən olan şagirdlərin Azərbaycan dilini öyrənməsini asanlaşdırmaq idi. Bununla bərabər göstərilən dərsliklərin tərtibi və nəşri bir tərəfdən Azərbaycan dili tədrisinin həyati əhəmiyyətini göstərir, digər tərəfdən də azərbaycanlı uşaqlar üçün yeni üsullu dərsliklərin yaranmasına təsir edir, əlverişli zəmin hazırlanırdı. Azərbaycanda və bütün Qafqazda dövlət məktəblərinin meydana gəlməsi və Azərbaycan dilinin bir fənn kimi tədris edilməsi bu dildə müvafiq dərsliklərin yaradılmasına şərait yaratdı.

Azərbaycan dilində yeni üsulla dərslik tərtib etmək sahəsində ilk təşəbbüs görkəmli mütəfəkkir və pedaqoq Mirzə Fətəli Axundova məxşusdur.

M.F.Axundov 1836-cı ildən Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi təyin olunur. Onun müəllimlik etdiyi bu məktəb XIX əsrin I yarısında Zaqafqaziyada məşhur olan nüfuzlu bir tədris ocağı idi. Bu məktəbdə rus, gürcü müəllimlərlə çiyin-çiyinə çalışan müəllim M.F.Axundov az müddət içərisində öz pedaqoji istedadı ilə fərqlənir. o, həmin pedaqoji kollektivdə beynəlmiləlçi maarif xadimi kimi formalaşır. Qəza məktəblərinin, eləcə də Tiflis qəza məktəbinin açılması, bu məktəbdə M.F.Axundovun bir müəllim kimi çalışması və tatar (Azərbaycan) dilindən dərs deməsi həyati zərurətin nəticəsində mümkün olmuşdur.

M.F.Axundovu düşündürən məsələlərdən biri də yeni üsulla dərsliklərin yaradılması idi. O, Tiflis qəza məktəbində işləyərkən yazırdı: "... hər yerdə qəza məktəbləri açıldığı zaman, hökumət başqa fənlərlə bərabər həmin məktəblərdə Azərbaycan dilinin öyrədilməsini də lazım bildi. Lakin bu dildə dərs kitabları olmadığına görə böyük çətinliklər meydana çıxdı" [1, s. 127]. O 1836-1840-cı illərdə Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi işləyərkən ana dili dərsliyi yazmağa başlamış, lakin sonralar müəllimlik vəzifəsindən azad olunması ilə əlaqədar bu işi davam etdirməmişdir.

M.F.Axundovun 1839-cu ildə tərtib etməyə başladığı "Əlifba" dərsliyi savad təlimi məsələsinə həsr edilmişdir. Burada əsas məqsəd savad təlimini asanlaşdırmaq və bu təlimin müddətini qısaltmaq idi. Onun təlim-tərbiyə barədə görüşləri dövründəki maarifçilərdən fərqli olaraq, nəsihətamiz xarakter daşımırdı. Bu görüşlər özünün konkretliyi, inandırıcılığı ilə fərqlənirdi. Uşağın ailədə tərbiyəsi problemi onu məşğul edən vacib pedaqoji problemlərdən biri olmuşdur. M.F.Axundov müəyyən müddət müəllimlik etdikdən sonra, tədris prosesində ərəb əlifbasının törətdiyi çətinlikləri əməli surətdə görmüş və həmin əlifbanı yeniləşdirmək, islah etmək üçün bir sıra tədbirlərə əl atmışdır. O öz fəlsəfi əsərlərinin birində belə yazmışdır: "Ərəblər ... bizim şan və şövkətimizi bərbad etdilər, vətənimizi elə xarabdan da xarab etdilər ki, bu günə qədər azad etmək mümkün olmasın. Buna əlavə olaraq bizim boynumuza elə bir yazı da bağladılar ki, onun sayəsində ümumən müyəssər olan savadı əldə etmək bizim üçün işlərin ən çətini olmuşdur".

Mətbəə yoxluğu üzündən yazılan dərslik və dərs vəsaitləri çox zaman işıq üzü görmürdü. Azərbaycan ərazisində ilk mətbəə 1830-cu ildə Şuşada yaradılmışdır. Əlyazması şəklində olan ana dilində dərsliklərə Sankt-Peterburq, Tiflis, Bakı, İrəvan şəhərlərindəki dövlət arxivlərində, eləcə də elmi müəssisələrin arxivlərində də rast gəlinmişdir.

"Türki-Əlifbey («Татарский букварь») və "Təmsillər və hekayələr" kitabı 1839-cu ildə Tiflisdə çap edilən ilk dərsliklərimiz sırasındadır. Hər iki dərsliyin müəllifi Qafqaz məktəblər direktoru vəzifəsini icra edən Nikolay Dementyevdir. Səs üsulu ilə tərtib edilmiş bu dərslikdən Qafqazda, o cümlədən Azərbaycandakı dövlət məktəblərində istifadə edilmişdir. Bu əlifba dərsliyi rus və qeyri türk dilində təhsil alanlar üçün nəzərdə tutulmuşdur. "Təmsillər və Hekayələr" dərs vəsaiti İrəvan Dövlət Ədəbiyyat və İncəsənət muzeyində yazıçı Sundukovun şəxsi arxivində 552 nömrəli katolaqda saxlanılır. "Türki-Əlifbey" - (Татарский букварь) dərsliyinə 1967-ci ildə İrəvan Dövlət Ədəbiyyat və İncəsənət muzeyində Rüfət Lətif oğlu Hüseynzadə rast gəlmiş və bu barədə ilk dəfə olaraq Əlifba dərsliyinin fotosurəti ilə birlikdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Gənc müəllim" qəzetində (1 sentyabr, 1970-ci il) geniş məqalə ilə məlumat vermişdir" [5, s. 236].

Nikolay Dementyev tərəfindən tərtib edilən vəsaitin hazırlanmasında o vaxtlar Tiflisdə yaşayan Azərbaycanlı ziyalıları, ilk növbədə Mirzə Fətəli Axundov yaxından iştirak etmişdir. Belə ki, Nikolay Dementyev Azərbaycan dilini yaxşı bilmirdi və özünün etiraf etdiyi kimi, oxu kitabına daxil edilən təmsil və povestlərin əksəriyyəti "fars müntəxəbatı"ndan götürülmüşdür. Çox güman ki, dərslikdə yer alan materialları bu dili yaxşı bilənlər Azərbaycan dilinə tərcümə etmişlər. Bu tərcüməni isə şübhəsiz Mirzə Fətəli Axundov etmişdir. Çünki onun əlifba dərsliyi yazmaqda ilk təşəbbüsü və bacarığı olmuşdur.

XIX əsrin ortalarına doğru Azərbaycan dilində dərslik tərtibi xeyli genişləndi. Bu vaxt meydana gələn dərsliklər içərisində Qazan Universitetinin professoru Mirzə Kazımbəyin "Türk-tatar dilinin qrammatikası" (1839) və Tiflis gimnaziyasının Azərbaycan və Fars dilləri müəllimi A.Z.Budaqovun "Türk-Tatar dilinin əlifbası"(l844) Tiflis gimnaziyasının müəllimləri Mirzə Şəfi Vazeh və İ.Qriqoryevin "Kitabi-türki" (1855) adlı dərslikləri xüsusi yer tuturdu.

Geniş biliyə və istedada malik olan Mirzə Kazımbəyin 1839-cu ildə nəşr etdirdiyi "Türk-tatar dilinin qrammatikası" dərsliyi özünün elmiliyi ilə o dövrdə tərtib və nəşr olunmuş bütün dərsliklərdən çox üstün olmuş və pedaqoqların, dilçilərin diqqətini cəlb etmişdir. Təkcə onu qeyd etmək lazımdır ki, 1830-1840-cı illərdə tərtib edilən dərsliklər Peterburq Elmlər Akademiyasına rəyə göndərilərkən, mütəxəssislər hər dəfə M.Kazımbəyin bu dərsliyinin üstünlüyünü qeyd edir, ana dilinin tədrisində bu kitabdan istifadə edilməsini məsləhət görürdülər.

Qafqaz, o cümlədən Azərbaycandakı dövlət məktəblərində Azərbaycan dilinin tədrisi üçün M. Kazımbəyin kitabına olan ehtiyac nəticəsində bu kitab 1846-cı ildə Peterburqda yenidən nəşr edilərək Qafqaz məktəblərinin istifadəsinə verilmişdir.

1854-cü ildə Şamaxı qəza məktəbinin əsaslı kitabxanasında saxlanılan dərsliklərin siyahısında professor Kazımbəyin həmin kitabı aşkar olmuşdur. Məlum olmuşdur ki, Demidov mükafatına layiq görülmüş bu kitabdan Azərbaycan dilinin tədrisi işində dəyərli bir vəsait kimi geniş istifadə edilmişdir.

S.Ə.Şirvani XIX əsrin 60-cı illərində "türki-lisanında – ana dilimizdə "Rəbiül-ətfal" adlanan bir ana dili dərsliyi tərtib etmişdir.

L.M.Lazarevin 1866-cı ildə çap etdirdiyi "Türk dillərinin müqayisəli müntəxəbatı" (Osmanlı və Azərbaycan ləhcələri) adlı dərsliyi ana dilinin tədrisinin inkişaf tarixini izləmək baxımından mühüm əhəmiyyət kəsb edir.

XIX əsrin II yarısında Azərbaycanın mədəni həyatında baş verən mühüm hadisələrdən biri də "Vətən dili" dərsliyinin nəşr olunmasıdır. Bu dərsliyin ana dilinə aid dərsliklər işərisində xüsusi mövqeyi var, çünki bu dərslik ilk növbədə dərslik dilinin əsasını qoydu. XX əsrin əvvələrində böyük maarifçilərimizin ibtidai siniflər üçün yazdıqları dərsliklər məhz "Vətən dili"nin təsiri altında yazılmağa başladı.

Qafqaz Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin müdiri Aleksandr Osipoviç Çernyayevski 1882-ci ildə iki cilddən ibarət ana dilində "Vətən dili" dərsliyi yazdı. Bu dərsliyin I cildi 1882-ci ildə, II cildi 1888-ci ildə Səfərəli bəy Vəlibəyovla birlikdə yazıldı [5, s. 238].

Bu dərslik artıq azərbaycanlılar üçün yazılmışdır. Azərbaycan ziyalılarının böyük bir nəsli bu dərslik üzrə savada yiyələnmişdir.

XIX əsrdə Azərbaycanda və bütövlükdə Qafqazdakı dövlət məktəblərində təhsil alan məktəblilərin bütöv bir nəsli həmin kitablardan Azərbaycan dilini öyrənmişlər.

Bu kitabın tərtibində yaxından iştirak edənlərdən biri də görkəmli müəllim və şair Həsənəliağa xan (Qaradağski) Qaradağlıdır. Həsənəliağa xan Qaradağlı tərtib olunacaq ana dili dərsliyinə daxil etmək üçün uşaq şerləri və hekayələri yazıb öz öhdəsinə götürmüş Şuşada açdığı məktəbdə bu şer və hekayələri təcrübədən keçirmiş və bunları müəlliflərə göndərmişdir. Həmin materialların bir çoxu Çernyayevski və Vəlibəyovun "Vətən dili" dərsliyinə daxil edilmişdir. "Vətən dili" kitabı uşaqlarda qiraət vərdişləri yaradır; kitabda dərc olunmuş mətnlər, atalar sözü və tapmacalar məzmunlu və tərbiyəvi cəhətdən çox faydalı parçalardır. Həsənəliağa xan Qaradağski 1873-cü ildən Tiflisdə, 1878-ci ildən isə Şuşada maarif və mədəniyyət sahəsində fəaliyyət göstərmişdir [3, s. 12].

Akademik T.İ. Hacıyev qeyd edir ki, "bizim bu gün işlətdiyimiz ədəbi dil norması "Vətən dili"nin və onun yolunu gedən XX əsrin əvvələrindəki dərsliklərin dil normasının üstündə durur. Bu

gün tarixi xidmətləri unudulmuş, yalnız pedaqoji tariximizlə məşğul olan beş-üç mütəxəssisin yaddaşında yaşayan "Vətən dili"nin nəşri günümüzün bir mədəni hadisəsidir. Bu mənada filologiya elmləri namizədi Vüqar Qaradağlı tarixi iş görmüşdür. O, "Vətən dili"nin tənqidi mətnini çapa hazırlamışdır. Bu o deməkdir ki, bu çapdan mütəxəssislər – filoloqlar, tədris-təhsil tarixçiləri, metodislər orijinal kimi istifadə edə biləcəklər [3, s. 9].

Akademik Vasim Məmmədəliyev "Vətən dili" dərsliyinin yeni nəşrinə yazdığı rəydə qeyd edir: "Cəsarətlə demək olar ki, "Vətən dili" dərsliyi həm tarixi baxımdan, həm də struktur, məzmun, konsepsiya baxımından sonrakı dövrlərdə yaranmış Azərbaycan dərsliklərinin bünövrəsini təşkil edir". 19-cu əsrin II yarısında yaranmış "Vətən dili" kitabı 40 ilə yaxın bir müddət ərzində bir neçə nəsil ziyalıların yetişməsində böyük rol oynamışdır [3, s. 6].

Daha sonralar 1856-cı ildən başlayaraq 30 il İrəvan dövlət məktəblərində Azərbaycan dili müəllimi kimi pedaqoji fəaliyyət göstərən Mirzə Ələkbər Elxanov 1880-ci ildə "Azərbaycan dili əlifbası" adlı dərslik yazmışdır. Mirzə Ələkbər Elxanov 1828-ci ildə Uluxanlı kəndində anadan olmuş, İrəvan şəhərindəki baş məscid nəzdindəki ruhani məktəbini bitirmiş, sonra isə rus dilini öyrənmiş, 1856-cı ildə Tiflis gimnaziyasında imtahan verərək Azərbaycan dili müəllimi adını almışdı. Onun Uluxanlı kənd məktəbinin açılmasında böyük rolu olmuşdur. Mənbələrdə yazılır ki, M.Ə. Elxanovun səs üsulu ilə tərtib etdiyi "Tatar (Azərbaycan) dili əlifbası" dərsliyi XIX yüzilliyin 80-ci illərində Rusiya Xalq Maarif Nazirliyində müzakirə edilərək bəyənilmiş və çapa tövsiyə edilmişdir (5, s. 239).

1890-cı illərdə Bakıda müəllimlik edən Nəriman Nərimanov gənc nəslin təlim tərbiyəsi məsələləri ilə, ilk növbədə isə ana dili məsələləri ilə yaxından məşğul olmuş və bu sahədə zəngin irs qoymuşdur. Nəriman Nərimanov düzgün və asan oxuyub yazmağa kömək edən, uşaqlara ana dilini və onun qayda-qanunlarını yaxşı öyrədən, dövrün tələblərinə cavab verə biləcək dərslik tərtib etmək kimi çətin, məsul vəzifəyə girişmiş və "Türk-Azərbaycan dilinin müxtəsər "sərfi nəhfi" adlı kitabını 1899-cu ildə Bakıda çap etdirmişdir.

Çoxcəhətli yaradıcılıq sahəsinə malik F.Köçərli həm də ədəbiyyat, ana dili tarixini yaradanlardandır. Onun məktəb və maarif sahəsində də böyük xidmətləri olmuşdur.

O, 1912-ci ildə "Balalara hədiyyə" adlı dərslik yaratmış, bir sıra dərsliklərə təhlillər vermişdir.

Məlum olduğu kimi XX əsrin əvvələrində dərslik, dərs vəsaitləri və qiraət kitablarının olmaması çətinliyindən yaxa qurtarmaq üçün mütərəqqi ziyalılar müxtəlif üsullara əl atırdılar. Dərsliklər yaradırdılar, balalar üçün yararlı tərcümələr edirdilər [2, s. 160].

Göründüyü kimi ana dilində dərsliklərin sayı getdikcə çoxalmış, ildən ilə, dövrdən-dövrə təkmilləşərək bu günki günlərimizədək gəlib çatmışdır.

Rəşid bəy Əfəndiyevinin pedaqoji fəaliyyətində diqqəti cəlb edən cəhətlərindən biri onun ana dilində dərsliklər tərtib etməsidir. Rəşid bəy hələ Qori Müəllimlər Seminariyasında oxuyarkən, yeni Azərbaycan məktəbi yaratmağı qarşısına məqsəd qoymuş və ana dilində mükəmməl dərslik yaratmaq haqqında düşünürdü.

Rəşid bəy yaradacağı xalq məktəblərində şagirdlərə ana dilini öyrətməyi əsas götürürdü. Buna görə də o, seminariyanı qurtarıb kənddə müəllimlik etdiyi vaxt Çernyayevskinin "Vətən dili" dərsliyini təcrübədən keçirib onun bütün müsbət və mənfi cəhətlərini aşkar etmiş və 1898-ci ildə "Uşaq bağçası" adlı əlifba kitabını yazmış və bu kitab ilk dəfə 1898-ci ildə İstanbulda çap edilmişdir.

Bu kitab təkcə Qafqaz məktəblərində deyil, Şimali Qafqaz və Orta Asiyadakı müsəlman məktəblərinin inkişafında da mühüm rol oynamışdır. "Uşaq bağçası" kitabına daxil edilmiş şer parçalarının bir hissəsi müəllif tərəfindən rus şairlərinin əsərlərindən tərcümə edilmişdir.

Rəşid bəy Əfəndiyevin ikinci məşhur dərsliyi "Bəsirət-ül-Ətfal" kitabıdır (Fərasətli uşaqlar). Rəşid bəy 1900-cü ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə müəllim təyin olunarkən, bu şöbənin tələbələri üçün Azərbaycan dilində mükəmməl bir kitab yox idi. Buna görə də o, Tiflisdə işlərkən tərtib etdiyi ədəbi qiraət kitabını 1901-ci ildə 2 min tirajla "Bəsirət-ül-ətfal" adı ilə Bakıda nəşr etdirmişdir [5, s. 241].

Müəllif bu kitabda da savad təlimi, oxu texnikasını inkişaf etdirmək məsələləri ilə yanaşı, həm də onların tərbiyə edilməsinə, əxlaqına təsir etməyə xüsusi fikir vermişdir.

Rəşid bəy Əfəndiyev "Bəsirət-ül-Ətfal" kitabına rus klassiklərinin bəzi əsərlərinin tərcümələri

ilə bərabər, özünün məişətimizdə olan nöqsanları göstərən, xeyirxahlıq, yoldaşlıq və əxlaqi sifətlər aşılayan şer, hekayə və rəvayətlərini də daxil etmişdir. Bu şer, hekayə və rəvayətlərdə vətənin təbiətini sevmək, xalqın məişətini bilmək, məktəbə getmək, elm öyrənmək və s. məsələlər ön planda qoyulmuşdur.

Rəşid bəy Əfəndiyevin "Bəsirət-üt-Ətfal" kitabında kənd təsərrüfatı, təbiət və coğrafiyaya aid bir sıra məlumatlar da verilmişdir. Kitabın sonunda Azərbaycan dilinin imla qaydaları, ədəbiyyat tarixi və ədəbiyyatşünaslığa aid bir sıra məlumatlar da vardır. Kitabın son hissəsindəki məsələlər içərisində Rəşid bəyin ərəb əlifbasının Azərbaycan dilinin imla qaydalarına uyğun gəlməməsi haqqında tənqidi qeydləri də nəzəri cəlb edir. "Bəsirət-ül-Ətfal" əsərinin ən yaxşı cəhətlərindən biri də uşaqlara məktub, ərizə və başqa əməli yazılar öyrətmək üçün nümunələr verilməsidir.

XX əsr qabaqcıl Azərbaycan ədəbiyyatının əsas məsələlərindən biri də maarifpərvərlik olmuşdur. Realist ədəbiyyatın bir çox qabaqcıl nümayəndələri xalqın, vətənin geriliyini maarif və mədəniyyətin olmamasında görərək köhnəliyə qarşı hər cür mübarizə aparmışlar. "Molla Nəsrəddin" ədəbi məktəbinin əsas xəttində maarif və mədəniyyət uğrunda mübarizə mühüm yer tuturdu. Buna gərə də C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, M.S.Ordubadi və s. başqa yazarların yaradıcılığında mövzu cəhətdən bir yaxınlıq var idi (4, s. 78-79).

Ü.Hacıbəyovun maarif və mədəniyyətin inkişafı uğrunda mübarizəyə həsr olunmuş publisist mğqalələrində ana dilində məktəblərin açılması, dərs kitabı və dərs ləvazimatının məzmunlu və mükəmməl olması, məktəblərin metodiki və pedaqoji prinsiplərlə işləməsi və s. məsələlərə xüsusi əhəmiyyət verirdi. O, ana dilində məktəblərin açılmasına, düzgün təlim prosesinə diqqət yetirməyin vacib olduğunu qeyd edirdi.

Bu məqsədlə Rəşid bəy Əfəndiyev 1902-ci ildə İstanbuldan Tiflisə ilk dəfə ərəb əlifbasının sadə şriftini gətirmişdir. Bu, Azərbaycan nəşriyyatının inkişafında Rəşid bəyin mühüm xidmətlərindən biridir (5, s. 242).

Rəşid bəy Əfəndiyevin göstərilən dərslikləri uzun müddət Azərbaycan məktəblərində geniş miqyasda istifadə edilmiş və Azərbaycan gənclərinin bütöv bir nəsli bu kitablardan təlim və tərbiyə almışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Axundov M.F. Əsərləri. III cild. Bakı: Azərnəşr, 1963.
2. Bəktaşi İ. Firidunbəy Köçərlinin yaradıcılıq yolu. Bakı: Yazıçı, 1985, 184 s.
3. Çernyayev A.Q. "Vətən dili". Fonetik transliterasiya və tərtib edəni Vüqar Qaradağlı. II nəşr. Bakı: Elm və təhsil, 2018.
4. Abasov A. Yazıçı Üzeyir bəy Hacıbəyov. Bakı: Elm və təhsil, 2019, 328 s.
5. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti. Bakı, 2020.
6. Abdullayeva M., Mahmudova R. Yusif Seyidov yaradıcılığından seçmələr. Bakı: Turxan NPB, 2016.

İLK AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİ VƏ DƏRS VƏSAİTLƏRİNİN YARANMA TARİXİ

Rəna Mahmudova*

Abstract

History of the first Azerbaijani language textbooks and teaching materials

The article "The first grammar textbooks" talks about the first grammar books of the Azerbaijani language that were created in the XVII-XIX centuries. The first grammar books written by Mirza Kazim bey and the İtalian traveler and writer Pietro della Valle are mentioned. İnformation is given about both works.

Keywords: *textbook, scientific grammar, Azerbaijani language, emergency schools, Italian language, turkology.*

İlk qrammatika dərslikləri. Azərbaycan dili tədrisinin əsas problemlərindən biri də qrammatika dərslikləri idi. Orta əsrlərdə bu məsələ ilə bağlı tədqiqat işləri aparılsa da, ana dilinə aid ilk dərsliklər XIX əsrdən yazılmağa başlandı. "Qrammatika" yunan sözü olub, mənası dilin quruluşu haqqında elm deməkdir. Bir elm kimi qrammatika yunanlarda meydana gəlmişdir. Qrammatikanın banisi Aristotel sayılır. "Qrammatika" termini ilk dəfə Əflatunun **"Kratil"** əsərində işlənmişdir. Lakin o zaman bu termin müasir mənada deyildi. Terminin müasir mənası sonralar tədricən dəqiqləşdirilmişdir. Qrammatikanın vəzifəsi ana dilində danışmaq qaydalarını öyrətməkdir.

M.V.Lomonosov yazırdı: "Qrammatikasız oratoriya kütdür, poeziya pəltəkdir, fəlsəfə əsassızdır, tarix xoşagəlməzdir, hüquqşünaslıq şübhəlidir".

Eramızın II əsrindən başlayaraq Azərbaycanda ilkin savad təlimi verən məktəblər olmuşdur. Bu məktəblər XIX əsrə qədər öz fəaliyyətini davam etdirmişlər. Həmin məktəblərdə bir sıra elmi və bədii əlyazmalardan dərslik kimi istifadə edilmişdir. XVII əsrdə yaşamış Saib Təbrizinin yazdığı kitablar uzun müddət məktəblərdə dərslik kimi işlənmişdir. Sonrakı dövrlərdə Azərbaycanın məktəb və mədrəsələrində Sədinin **"Gülüstan" və "Bustan", "Tarixi-Nadir", "Cameyi-Abbas"** və başqa kitablar dərslik və dərs vəsaiti kimi istifadə olunmuşdur. Bunlar şagirdlərin yaş səviyyəsinə uyğun olmasa da, ilk milli dərsliklər hesab olunur.

XIX əsrdə Azərbaycanda və Zaqafqaziyanın bir sıra şəhərlərində təsis edilən dövlət məktəblərində Azərbaycan dilinin müstəqil bir fənn kimi tədris edilməsi, bu dilin bütün Qafqazda böyük rol oynaması ana dilində ilk dərsliklərin və dərs vəsaitlərinin (əlifba, oxu kitabı, sərf-nəhv) meydana gəlməsinə şərait yaratdı. XIX əsrdə Azərbaycan dilinə aid yazılmış dərsliklər və dərs vəsaitlərindən görünür ki, bu dövrə aid qrammatika əsərlərinin əksəriyyəti rus dilində yazılıb və Azərbaycan dilini ruslara öyrətmək məqsədi daşıyıb. Azərbaycan dili müstəqil bir fənn kimi Tiflisdə, İrəvanda, Dərbənddə, Qoridə və başqa bir sıra şəhərlərdə açılan məktəblərdə tədris planlarına daxil edilmişdi. Digər millətlərdən olan şagirdlərin bu dili öyrənməsinə xüsusi fikir verilirdi. Bu səbəbdən də bu dilin tədrisi ilə məşğul olan müəllimlər Azərbaycan dilinə aid bir sıra dərsliklər və dərs vəsaitləri yazıb nəşr etdirmişlər. Bu dövrdə Mirzə Kazımbəyin, Mirzə Məhəmməd Əfşarın, A.O.Çernyayevskinin, Nəriman Nərimanovun, L.M.Lazarevin, M.Ə.Vəzirovun, S.M.Qənizadənin ana dilinə aid rus dilində yazdıqları dərsliklər ilk qrammatika dərslikləri hesab oluna bilər. Bu dərsliklər Azərbaycan dilinin inkişafında çox böyük rol oynamışdır.

İndi "Azərbaycan dili adı ilə buraxılan dərsliklər 1950-ci illərə qədər **"Qrammatika", "Sərf-nəhv", "Türkcə-sərf-nəhv", "Türk qrameri", "Azərbaycan dilinin qrammatikası"** və s. adlarla buraxılırdı.

XIX əsrin ortalarına doğru Azərbaycan dilinin tədrisi sahəsində elmi-pedaqoji tələblərə müvafiq yeni dərsliklər meydana gəldi. İlk qrammatika dərsliyimiz XIX əsrin əvvəllərində Mirzə

* ***Bakı Dövlət Universiteti, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: ranamahmudova@bsu.edu.az.***

Kazımbəy tərəfindən yazılmışdır. **“Türk-tatar dilinin ümumi qrammatikası”** adlandırılan bu əsər Azərbaycan dilinin ilk orijinal qrammatikasıdır.

Mirzə Kazımbəy Azərbaycan dilinin elmi qrammatikasının ilk yaradıcısı hesab olunur. Şəxsiyyəti ilə qürur duyduğumuz Mirzə Kazımbəy Kazan Universitetində Şərq dilləri kafedrasının müdiri, Sankt-Peterburq Universitetində Şərq dilləri fakültəsinin ilk dekanı, 8 dil bilən azərbaycanlı mütəfəkkirdir. O, Azərbaycandan uzaqda yaşasa da, doğma vətəni ilə əlaqəsini heç vaxt kəsməmiş, həmişə əlaqə saxlamışdır. Doğma Azərbaycan dilinin tədqiqində, öyrənilməsində, elmi qrammatikasının yaradılmasında əvəzsiz xidmətləri olmuşdur. Mirzə Kazımbəy elm aləmində şərqşünas, dilçi, türkoloq, tarixçi, hüquqşünas, siyasətçi, Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatını tədqiq edən, islamın və hüquq elminin böyük bilicisi kimi tanınmışdır.

“Türk-tatar dilinin ümumi qrammatikası” əsəri Mirzə Kazımbəyə dünya şöhrəti gətirən bir əsərdir. Türk xalqlarının dillərinin qrammatik təhlilinə həsr olunmuş bu əsər, eyni zamanda, bu dilləri öyrənmək üçün olduqca asan və kamil bir dərs vəsaitidir. Uzun illər boyu bu dərs vəsaitindən Rusiya və Avropanın universitetilərində yeganə dərs vəsaiti kimi istifadə olunmuşdur. Dərslik 1839 və 1846-cı illərdə iki dəfə nəşr edilmişdir.

Mirzə Kazımbəy Kazanda yaşadığı iyrimi ildən artıq müddətdə son dərəcə elmi və pedaqoji fəaliyyət göstərmişdir. Onun Azərbaycan dilinin öyrənilməsi sahəsində tədqiqatları xüsusi qeyd olunmalıdır.

1839-cu ildə Peterburqda nəşr olunan “Türk-tatar dilinin ümumi qrammatikası” əsərində Mirzə Kazımbəy türk-tatar dilində danışan xalqların ləhcələri arasında müqayisə aparmış, onlar arasında fərqli və oxşar cəhətlər olduğunu göstərmişdir. Sonralar həmin əsər üzərində təkmilləşdirmə işləri aparan Mirzə Kazımbəy “Türk-tatar dilinin ümumi qrammatikası” adı ilə 1846-cı ildə Kazanda yenidən nəşr etdirmişdir.

Mirzə Kazımbəy göstərirdi ki, Azərbaycan türklərinin dili türk dilinə aiddir, ancaq bəzi cəhətlərinə görə başqa türk ləhcələrindən fərqlənir.

“Adərbican-tatar dili Rusiyanın Zaqafqaziya ərazilərində işlədilən türk ləhcəsidir. Bu dil ölkənin (Adərbican) öz adı ilə adlanır. Təbriz (Tavrız) şəhəri bu ölkənin paytaxtı hesab olunurdu”.

Rusiya alimi, akademik B.Dorn yazırdı ki, bu vaxta qədər heç kimə məlum olmayan, ilk dəfə Mirzə Kazımbəy tərəfindən aydınlaşdıran “Adərbijan ləhcəsi” Qafqaz məktəbləri üçün də maraqlıdır (çox mühüm faktdır). Mirzə Kazımbəy burada vahid Azərbaycanda yaşayan millətin türk dilini “Azərbaycan ləhcəsi” adlandırmaqla eyni soy kökə, dilə, mədəniyyətə bağlı bir millətin bütövlüyündən çıxış etmişdir.

Heydər Hüseynov yazırdı: Onu da qeyd etmək lazımdır ki, ilk dəfə olaraq Mirzə Kazımbəy “Azərbaycan dili” istilahını elmi cəhətdən əsaslandırmış və tədqiq etmişdir.

Ağamusa Axundov “Ümumi dilçilik” kitabında yazır ki, “Türk-tatar dili qrammatikası” əsəri yalnız Azərbaycan dilçiliyində deyil, bütün türkologiyada yeni bir hadisə idi. Həmin əsərdə Azərbaycan dili ilk dəfə Avropa qrammatikaları dəbində təqdim edilmişdir.

“Türk-tatar dilinin ümumi qrammatikası” dərsliyi 556 səhifədən ibarətdir və rus dilində yazılmışdır. Giriş və üç bölmədən ibarət olan bu dərslikdə əlifba, səslərin tələffüzü, saitlərin növləri, isim, sifət, ismin quruluşca növləri, say, əvəzlik, feil, qoşma, zərf, bağlayıcı, nida haqqında məlumat verilir və sözlərin uzlaşması, sözlərin bağlanması, cümlə quruluşunun sistemindən danışılır. Mirzə Kazımbəy ilk dəfə olaraq burada Azərbaycan dilinin sintaktik quruluşunu sistem şəklində təqdim etmişdir.

Burada əlifbadan tutmuş, nitq hissələri və dilçiliyn ən vacib problemləri əks olunmuşdur. Ən mükəmməli odur ki, müəllif bu dərsliyi o dövr üçün müasir sayılan metodika əsasında işləmiş, gələcək tədqiqatlar üçün baza formalaşdırmışdır.

Bu dərslik o dövrdə yaranan bütün dərsliklərdən üstün olub və dünya şərqşünaslarının diqqətini cəlb etmişdir. Mirzə Kazımbəyin bu əsəri Rusiya Türkologiya elmində dönüş yaratmışdır. Azərbaycanda fəaliyyət göstərən qəza məktəblərində də Azərbaycan dilinin tədrisində bu dərslikdən istifadə olunub.

"Türk-tatar dilinin ümumi qrammatikası" dərsliyi Azərbaycan dilini öyrənənlər üçün böyük bir hədiyyə idi. Böyük alimin, mütəfəkkirin, şərqşünasın Azərbaycan dilinin ilk elmi qrammatikasını tərtib etməsi, onu nəşr etdirməsi, xarici dillərə tərcümə etməsi və daim onu təbliğ etməsi onun vətən qarşısında göstərdiyi çox böyük və misilsiz bir xidmət idi.

Bu dərslik 178 il sonra görkəmli dilçi alim İdris Abbasov tərəfindən 2017-ci ildə ana dilimizə tərcümə olunmuşdur.

Tədqiqatçı alim, professor İdris Abbasov 2017-ci ildə bu əsərə, "Mirzə Kazımbəy. Türk-tatar dili qrammatikası". "Tərcümə, tədqiq və şərh" adını verməkdə tam haqlıdır. Çünki tərcümə yalnız "quru" çevirmə deyil, tədqiqat və şərhlərlə zəngindir.

Belə bir xəzinənin, dilçilik elmimiz üçün müstəsna əhəmiyyəti olan bu nadir əsərin, ana dilimizin ilk elmi qrammatikasının 178 il sonra Azərbaycan dilinə tərcümə olunması təəssüf doğurur. Mirzə Kazımbəy bu əsəri ilə yeni istiqamətli dilçiliyimizin əsasını qoymuş, Azərbaycan dilçiliyində ilk müqayisəli elmi-qrammatika yaradaraq, Azərbaycan dilinin orijinallığını "ilk dəfə" Avropa türkoloqlarının nəzərinə çatdırmışdır.

Mirzə Kazımbəyin filologiya sahəsindəki səmərəli yaradıcılığı, xüsusən Azərbaycan dili elmi qrammatikasına aid tədqiqləri və digər əsərləri həm türkoloqlar üçün, həm də Azərbaycan alimləri üçün ilk mötəbər mənbə, faydalı bir örnək olmuşdur.

"Türk-tatar dilinin ümumi qrammatikası" çap edildikdən 40-50 il sonra yazılmış Mirzə Məhəmməd Əfşarın **"Fənni-sərfü-türki"** əsəri milli dildə ilk mükəmməl qrammatika kitabı olmaq etibarı ilə bizim üçün əhəmiyyətli sayıla bilər.

Nəriman Nərimanovun **"Türk-Azərbaycan dilinin müxtəsər sərfi-nəhvi"**ndə ayrı-ayrı terminlər üzrə azərbaycanlaşdırma meylləri xüsusi əhəmiyyət daşıyır.

Lakin onlardan heç biri əhatəlilik və elmi təhlil dərinliyi cəhətdən Mirzə Kazımbəyin "Qrammatika"sından üstün sayıla bilməz.

MİrzəFətəli Axundov yazırdı ki, qrammatika qaydalarını asanlaşdırmaq, sadələşdirmək vaxtı gəlib çatmışdır. Yeni qaydalar əsasında qrammatika kitabları tərtib etmək lazımdır. Mirzə Fətəli Axundova görə, yeni əlifba ana dilini yaxşı öyrənmək və inkişaf etdirmək üçün ən mühüm amildir. Ana dili ümumi tərəqqinin açarıdır, ancaq onunla elm və biliyə yiyələnmək olar.

Son araşdırmalar göstərdi ki, dilimizin qrammatikasının tarixi daha qədimlərə gedib çıxır. Xədicə Heydərovanın "XVII əsr Azərbaycan dilinin qrammatikası" adlı məqaləsində qeyd olunur ki, ilk qrammatika kitabı italyan səyyahı və ədibi **Pietro della Vallenin** yeddi kitabdan ibarət "La qrammatika turca" əsəridir.

Pietro della Valle yüksək təhsil görmüş, səyyah, Şərq ölkələri üzrə ekspert, hüquqşünas, ədib və fransız əsilli bir şəxsdir. Valle ivrit, latın, ərəb, fars, türk dillərini bilirdi və eyni zamanda gözəl şeirlər yazırdı. Onun əsərlərinin əksəriyyəti məktublardan ibarət səyahətnamə şəklindədir. Onun bir çox əsərləri, məktubları, şeirləri Romada çap olunub. Lakin çox təəssüf ki, "La qrammatika turca" ("Türk dilinin qrammatikası") əsəri işıq üzü görməyib.

Əsər Vatikan arxivində saxlanılır. Birinci Şah Abbasın dövründəki Azərbaycan dilini əks etdirir. Bu əsər bir daha sübut edir ki, Azərbaycan dilinin qrammatikası daha qədimdən tədqiqata cəlb olunmuş, dilimizin XVII əsrdə belə elmi qrammatikası yaranmışdır.

"Türk dilinin qrammatikası" Pietro della Vallenin çoxcəhətli yaradıcılığında nəşr olunmamış bir əsər kimi tarixin arxivində qalmışdır. Onu İtalyan şərqşünası Ettori Rossi elm ictimaiyyətinə tanıtsa da, əlyazmanın çapına təşəbbüs etməyib. XX əsrdə ilk dəfə 1935-ci ildə Ettori Rossi Şərqşünasların konqresində əsər haqqında məlumat verir və əsəri yüksək qiymətləndirir. Lakin heç vaxt əlyazmanın çap olunması haqqında təşəbbüs etmir.

Pietro della Valle 1617-1623-cü illər arasında Səfəvilər dövlətinə missioner kimi Vatikandan göndərilir. Valle, ilk dəfə saraya daxil olanda Şah Abbas ona təmiz türk dilində "xoş gəldin" demişdir. O, şahın sarayında 1623-cü ilin fevralına qədər olmuşdur.

Pietro della Valle 1614-cü ildə İstambula gəlir və orada bu əsəri yazır. Təqribən bir il ərzində İstambulda qalaraq türk dilini öyrənməyə başlayır. Həmin əsəri 1620-ci ilin sentyabrın 8-də İsfahanda yazıb başa çatdırır. Pietro della Vallenin qələmə aldığı "Türk dilinin qrammatikası" əsəri Səfəvilər

dövlətində türk mənşəli qızılbaşların danışdığı dilin qrammatikasıdır. Valle qeyd edir ki, sarayda və daha savadlılar arasında məhz bu dildə danışılırdı.

Valle "Şərq türklərinin (azərbaycanlıların) tələffüz forması daha təbii və orijinaldır"-deyir. 1643-cü ildə İtaliyaya qayıdan Pietro əsər haqqında Roma senzurasına məlumat verir, lakin əsər yenə də nəşr olunmur. Onun ölümündən sonra əsər onun varisinə verilir. O isə öz növbəsində əsəri Papa XI Klimenteyə təqdim edir. Papa XI Klimente bu əsəri və müəllifin digər səkkiz əsərini Vatikan Apostol kitabxanasına verir. "Qrammatika" kitabı 1900-cü ilə qədər diqqətdən kənarda qalır.

2017-ci ildə keçirilmiş Beynəlxalq Türk Dili tədrisi konfransında bu qrammatika kitabı haqqında məlumat verilir. Burada göstərilir ki, Pietro della Valle kitabını türk dili dərsliyi kimi tərtib etmişdir.

Azərbaycan dilinin ilk orijinal qrammatikalarından sayılan bu kitabı italyan dilindən Azərbaycan dilinə professor İdris Abbasov və filologiya üzrə fəlsəfə doktoru Günel Bayramova çeviriblər.

Akademik Nizami Cəfərov Pietro della Vallenin "Türk dilinin qrammatikası" əsərinin dilimizə tərcümə olunmasını yüksək qiymətləndirir və qeyd edir ki, bu əsər Azərbaycan dilçiliyində tərcümə, tədqiq və şərhin sintezindən ibarət ikinci böyük əsərdir. Dörd yüz il sonra işıq üzü görən bu əsər Azərbaycan dilinin tarixən beynəlxalq dil, ünsiyyət vasitəsi olması faktını bir daha sübut edir.

"Türk dilinin qrammatikası" əsəri yeddi kitabdan ibarətdir. Girişdə türk dilini öyrənməyin əhəmiyyətindən bəhs edir, üç dili müqayisə edir.

38 səhifədən ibarət olan birinci kitabın əvvəlində türk dilinin fonetikası, səslərin tələffüzü və əlifbanın quruluşu verilir. Saitlərin tələffüz xüsusiyyətləri izah edilir.

İkinci kitab 60 səhifədən çoxdur. Burada isim, sifət və saydan bəhs edilir. Sifətin üstünlük və müqayisə dərəcəsi haqqında məlumat verilir. "Bil" feilindən danışılır: bilmək, bil, biliş. Valle burada rəqəmlərə, hesablamalara və əbcəd hesabına diqqət yetirir.

Üçüncü kitab çox qısa olub, 11 səhifədən ibarətdir. Əvəzliklərin növləri haqqında əyani misallarla nümunələr verilir. Valle sadə və mürəkkəb əvəzliklərin üzərində dayanır. O, sadə dedikdə mən, sən, biz, siz və s., düzəltmə dedikdə mənim, sənin, bizim və s. kimi əvəzlikləri nəzərdə tutur. İşarə və nisbi əvəzliklərə sadə əvəzliyin bir növü kimi baxır, düzəltmə əvəzliklər və yiyəlik əvəzliklərindən bəhs edir.

Dördüncü kitab 50 səhifədir, feillərə həsr olunub. "maq", "mək" şəkilçili məsdərlərdən çoxlu misallar gətirir.

Beşinci kitab 34 səhifədən ibarət olub feillərin inkarı, icbar növ, köməkçi feillər, indiki zaman haqqında məlumat verilir.

Altıncı kitabda (30 səhifə) zərf, nida və şəkilçilər təhlil edilir.

Yeddinci kitab (40 səhifə) cümlə quruluşu haqqındadır. Bu kitab türkologiya, Azərbaycan dilçiliyi və dünya şərqşünaslığında xüsusi əhəmiyyəti olan vəsaitdir.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov İ. Mirzə Kazımbəy. Türk tatar dilinin ümumi qrammatikası, 1846 (tərcümə, tədqiq və şərh), Bakı, 2017
2. Abbasov İ, Günel Bayramova. Pietro della Valle. "Türk dilinin qrammatikası" əsəri (Azərbaycan dilinin orijinal qrammatikası, 1620 (tərcümə, tədqiq və şərh), Bakı, 2020
3. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, 1966
4. Fərhad Ağazədinin pedaqoji görüşləri. Bakı, 1987
5. Mərdanov M. Azərbaycanın təhsil tarixi, I cild, Bakı, 2011
6. Seyidov Y. Yazıçı və dil. Bakı, 1979
7. https//azertag.az
8. https//edebiyyatqazeti/az

FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN DİDAKTİK-TƏRBİYƏVİ XÜSUSIYYƏTLƏRİ

Rəhilə Quliyeva*

Abstract

Didactic-educational features of phraseological combinations

İn the article, phraseological combinations used in the Azerbaijani language are analyzed didactically. It is shown that the phraseological combinations, which are considered to be the expression of the national thought of the people, contain the traditions, worldview, everyday life, culture and overall educational characteristics of the people to which they belong. Such theoretical ideas are based on specific linguistic facts. Also, the educational importance of phraseological combinations and their role in speech development are discussed during teaching in secondary schools.

Key words: *Azerbaijani language, phraseological combinations, didactics, educational feature, national thought.*

Giriş. Azərbaycan dilində "Frazeoloji birləşmələr" mövzusu geniş tədqiqat obyektinə çevrilmiş və bu mövzuda kifayət qədər əsərlər yazılmışdır. Dilçiliyin Frazeologiya bəhsi o qədər sirli, maraqlı sahədir ki, bu mövzuya dair nə qədər əsərlər yazılsa da, frazeoloji birləşmələri daha dərindən araşdırmağa ehtiyac duyulur. Belə ki, frazeologizmlər hər bir xalqın yaşam tərzi, dünyagörüşü, milli adət-ənənələri, dünyaya, ətraf mühitə münasibəti, milli-mənəvi dəyərlərini əks etdirən dil vahidləridir. Eyni zamanda, hər bir millətin, xalqın bütün tarixi, istəkləri, arzuları onun dilində öz əksini tapır. Dil xalqın dəyəridir, varlığıdır. Mərhum akademik Ağamusa Axundov yazırdı: "Dil xalqın mənəvi sərvətidir, bu cəhətdən tamamilə təbiidir ki, hər bir dil mənsub olduğu xalqın tarixi ilə qırılmaz tellərlə bağlıdır. Dil elə bir güzgüdür ki, xalqın tarixi, dünyagörüşü, adət-ənənələri, mədəniyyəti öz əksini həmin güzgüdə tapır" (1, s. 232).

Frazeologizmlər işlənmə dairəsinə, rəngarəng məna çalarlarına görə dil vahidləri içərisində özünəməxsus yer tutur. Frazeologizmlər dilin lüğət tərkibinin zənginləşməsində də xüsusi rol oynayır. Frazeologizmlər fikri dəqiq, qısa idiomatik tərzdə ifadə etdiyi üçün dilin zənginliyinin göstəriciləri hesab olunurlar. Türk dillərində, o cümlədən Azərbaycan dilində frazeoloji birləşmələrin təşəkkül tarixi çox qədimdir. Bu dil vahidləri nəsildən-nəslə keçərək dövrümüzə qədər gəlib çatmışdır. Frazeoloji birləşmələrin yaranma mənbəyi də maraqlıdır. Dilimizdə frazeoloji birləşmələrin əsas yaranma mənbəyi kimi şifahi xalq ədəbiyyatımızı göstərə bilərik. Məsələn, ***dost tutmaq, kündə tutmaq, xörək asmaq, qazan asmaq*** və s. kimi nümunələr xalq danışıq dili əsasında yaranmışdır. Orxon-Yenisey abidələrində, "Kitabi-Dədə Qorqud" dastanlarında, ta qədim dövrdən bəri klassiklərimizin əsərlərində işlənən frazeoloji birləşmələr göstərir ki, dilimizin frazeologiyası qədim tarixə malikdir. Göstərdiyimiz mənbələrdə işlənən frazeologizmlər ayrı-ayrı müəlliflər, mütəxəssislər tərəfindən tədqiq edilib incələnmişdir. Akademik Afad Qurbanovun bu məsələyə dair fikirləri maraqlıdır. Müəllif yaranma və işlənmə xüsusiyyətlərinə görə frazeoloji vahidləri iki növə ayırır: Ümumi və xüsusi frazeoloji vahidlər. Afad Qurbanova görə ümumi frazeoloji vahidlər müxtəlif üslublarda, bir çox məqamlarda işlənə bildiyi halda, xüsusi frazeologizmlər məhdud şəkildə işlənir və müəllif fikrini əsaslandırmaq üçün maraqlı nümunələr göstərir. Məsələn, ***gözü götürmək*** ümumi, Səməd Vurğunun "Vaqif" dramında işlətdiyi "***Qoymayın tez olun, tutun Eldarı! Ona da göstərin daş zindanları!*** "- misrasındakı "***daş zindanları göstərmək***" - ***həbs etmək*** mənasında işlənən frazeoloji birləşmə xüsusi frazeoloji vahiddir. Şairin yaratdığı xüsusi frazeoloji vahidlər yüksək obrazlılığa malikdir (8, s. 323).

Əsas hissə. Azərbaycan dilçiliyində frazeologiyaya aid tədqiqat əsərlərində, dərsliklərdə frazeoloji birləşmə növlərinin təsnifatı müxtəlif şəkildə öz əksini tapmış və bu sahədə mübahisələr hələ də davam edir. Lakin frazeoloji birləşmə növləri kimi atalar sözləri, məsəllər, hikmətli sözlər, rəvayətli ifadələr, qanadlı ifadələr və s. əksər tədqiqatçılar tərəfindən məqbul sayılır. Akademik Tofiq Hacıyev

* ***Bakı Dövlət Universiteti, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: dr.guliyeva@mail.ru.***

yazırdı: “Dil lövhə yaratmaq üçün söz sənətkarının fırçasıdır, söz isə xarakteri, mənənviyyatı tam aydınlığı ilə canlandırmaq üçün onun boyalarıdır” (6). Azərbaycan Texniki Universitetinin dosenti Həbib Mirzəyev yazır: “Frazeoloji vahidlərin rolu və funksiyası isə daha tutumludur. O, özlüyündə bütöv bir obrazlı bədii lövhədir, poetik təfəkkürün məhsuludur. O, yaranışından xalqın yaddaşından süzülüb gələn cilalı deyim vasitəsidir” (7, s. 207). Müəllif daha sonra hər bir frazeoloji vahidin Hüseyn Arif şeirlərindəki psixoloji vəziyyətə yeni ovqat bəxş etməsini, mətnin obrazlı dayağına çevrilib poetik özül rolu oynadığını konkret faktlarla, nümunələrlə sübut edir. Müəllif haqlı olaraq qeyd edir ki, dilin bədii təsvir və ifadə imkanlarını özündə birləşdirən frazeoloji dil faktları şeir dilində estetik tələbin bütün meyarlarını özündə ehtiva edir. Onlar bədiiliyin sınaqdan çıxmış ölçüləri ilə qavranıldığı üçün üslubi effekt yaradıcılığında fəal rol oynayırlar.

Qeyd etmək lazımdır ki, dilçilik ədəbiyyatında frazeoloji vahidlərin bir sıra xarakterik xüsusiyyətləri geniş şəkildə açıqlanıb, dil üçün, nitq üçün ümdə əhəmiyyəti geniş şəkildə izah edilib. Məsələn, frazeoloji vahidlər emosionallıq, ekspressivlik, bədii forma mədəniyyəti yaradır, üslubi-poetik xüsusiyyətlərə malik olur, xəlqilik prinsipini özündə təcəssüm etdirir, fikrin düzgün ifadə olunmasına kömək edir. Bütün deyilən cəhətlərlə yanaşı, frazeoloji birləşmələr tərbiyəvi-didaktik xüsusiyyətlərə də malikdir.

Hər bir fənnin özünəməxsus konkret və ümumi-didaktik vəzifələri vardır. Azərbaycan dili təliminin də konkret və ümumi-didaktik vəzifələrinə aşagıdakılar daxildir.

Pedaqoji ədəbiyyatda, metodiki əsərlərdə göstərilir: Azərbaycan dili dərsliklərində şagirdləri vətənpərvərlik, milli iftixar, əməyə məhəbbət, dostluq, yoldaşlıq və s. ruhda tərbiyələndirmək üçün ən yaxşı vasitə çalışma mətnlərinin və təhlil üçün cümlələrin seçilməsinə diqqət yetirməkdir. Müəllim elə mətnlər, elə cümlələr seçməlidir ki, bunlar həm dil faktları ilə zəngin olsun, həm də şagirdlərin tərbiyəsinə bu və ya digər cəhətdən müsbət təsir göstərə bilsin. “Azərbaycan dili fənninin ümumi-didaktik vəzifələrindən biri şagirdləri həyata əməli cəhətdən hazırlamaqdır” (4, s. 38).

Frazeologiyaya aid dil vahidlərinin müxtəlif tədqiqatçılar tərəfindən müxtəlif bölgüsü verilmişdir. Frazeologiya bəhsinin əsas tədqiqatçılarından biri görkəmli dilçi alim Səlim Cəfərov haqlı olaraq yazırdı: “Ümumiyyətlə, frazeologiya az öyrənildiyindən onun əsas tədqiq obyektini təşkil edən söz birləşmələri üçün də vahid, konkret termin hələ yaradılmamışdır. Odur ki, bu birləşmələr, tərkib hissələrinə bölünməyən söz birləşmələri, idiomatik ifadələr, leksik söz birləşmələri, idiomlar, frazemlər və s. kimi çoxlu terminlərlə adlandırılır” (5, s. 88). Bununla belə müəllif yazır: “Frazeologiya bəhsində öyrənilən sabit söz birləşmələrinin aşağıdakı növləri vardır: idiomlar; ibarələr; hikmətli sözlər; atalar sözləri; zərbi-məsəllər və tapmacalar” (5, s. 89). Səlim Cəfərov frazeoloji birləşmələrin quruluşca söz birləşmələri və cümlələr şəklində olduğunu qeyd edir. Akademik Afad Qurbanov isə qeyd edir ki, frazeologiyanı təşkil edən birləşmə və ifadələrin bir sıra dilçilər tərəfindən müxtəlif adlarla verilməsi, terminin qeyri-dəqiqliyi frazeologiya məsələlərinin tədqiqində müəyyən çətinliklər əmələ gətirir. Müəllif öz əsərində frazeologiyaya daxil olan hər bir ifadəni, ibarəni, idiomu, birləşməni frazeoloji vahid adlandırır və frazeoloji vahidlərin tiplərini, növlərini aydınlaşdırır. Afad Qurbanov Azərbaycan dilinin frazeologiyasını iki böyük qrupa bölür: 1) frazeoloji/sabit/söz birləşmələri; 2) frazeoloji / sabit / ifadə və ibarələr. Müəllif frazeoloji / sabit / söz birləşmələrinə söz birləşməsi şəklində olanları - ***bənd olmaq, üz çevrimək, yaddan çıxarmaq, özünü itirmək*** və s. tipli birləşmələri daxil edir və qeyd edir ki, bunlar eyni zamanda sabit söz birləşməsi adlandır. Frazeoloji ifadə və ibarələrə isə atalar sözləri, məsəllər, hikmətli sözləri və s. daxil edir. Eyni zamanda, müəllif qeyd edir ki, frazeoloji ifadə və ibarələr sintaktik vəzifələrinə görə, əsasən, cümlə olur.

Biz də akademik Afad Qurbanovun bölgüsünü məqbul hesab edir, söz birləşməsi şəklində olan birləşmələrdən başqa, digər birləşmələri frazeoloji vahidlər adlandırmağı məqbul hesab edir və belə birləşmələrin aşağıdakı növlərinin didaktik-tərbiyəvi xüsusiyyətlərini nəzərə çatdırmağı məqsədəuyğun hesab edirik. Frazeoloji vahidlərə ifadə və ibarələrə atalar sözləri, hikmətli ifadələr, zərbi-məsəlləri aid edirlər. Fikrimizcə, bu sıraya rəvayətli ifadələri, qanadlı misraları da əlavə etmək olar. Məlumdur ki, bütün dil dərsləri ədəbiyyat fənni ilə inteqrasiya şəraitində tədris edilir. Hər bir mövzunun tədrisində konkret, həm də ümumi vəzifələr yerinə yetirilir. Frazeoloji vahidlərin tədrisi zamanı mövzunun nəzəri məsələrinin öyrədilməsi konkret didaktik vəzifələrin yerinə yetirilməsidirsə,

vətən, el, vətənpərvərlik, bilik, ağıl,əmək və s. məzmunda mənimsədilən frazeoloji vahidlərin təlimi prosesində ümumi didaktik vəzifələr yerinə yetirilir. Beləliklə, frazeoloji vahidlərin bir çox didaktik-tərbiyəvi xüsusiyyətləri vardır ki, gənclərimizin tərbiyəsində, onların mənəviyyatının zənginləşməsində, milli-mənəvi dəyərlər zəminində tərbiyə olunmasında böyük əhəmiyyət kəsb edir.

Azərbaycan dili frazeologiyasının inkişafında şifahi xalq yaradıcılığı ilə bərabər, klassiklərimizin, şair və yazıçıların, filosofların yaratdıqları dərin mənalı ifadələr xüsusi yer tutur və belə frazeologizmlər həm də insanların mənəviyyatca zənginləşməsində mühüm rol oynayır. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Vətən, el-oba, torpaq haqqında yaranan frazeoloji vahidlər. Məsələn:

1. Torpaqdan ayrılanlar bir gün düşər torpağa,

Xalqa söykən hər zaman düşməyəsən ayağa. (Saib Təbrizi)

2. Vətən əcdadımızın mədfənidir,

Vətən övladımızın məskənidir. (Abdulla Şaiq)

3. Bayraqları bayraq yapan üstündəki qandır,

Torpaq, əgər uğrunda ölən varsa, vatandır. (Midhət Camal Kuntay)

4. Vətənə gəldim, imana gəldim. (Atalar sözü)
5. El bir olsa, zərbi kərən sındırar. (Aşıq Abbas)
6. Vətən mənə oğul desə, nə dərdim,

Mamır olub qayasında bitərdim. (Məmməd Araz)

7. Torpağı əkib-becərməsən, qorumağa dəyməz,

Qorumasan, əkib-becərməyə dəyməz. (Dədə Qorqud)

Nümunələrdə verilmiş hikmətli ifadələr, qanadlı misralar vasitəsilə insanlara didaktik-tərbiyəvi xüsusiyyətlər aşılanır.

2) İnsanın böyüklüyü, qüdrəti, ləyaqəti, əxlaqı, sədaqəti və s. haqqında:

1. Yer üzünün əşrəfi insandır. (Səməd Vurğun)
2. İnsan var, ilk dəfə görsən də onu,
   Unuda bilmirsən ömrün uzunu. (Səməd Vurğun)
3. Soyuq məzara da zinətdir insan. (Səməd Vurğun)
4. İnsan var, yanında olsan, bir kərə

Tamam unudular, dərdin, məlalın. (Bəxtiyar Vahabzadə)

İnsan haqqındakı frazeoloji vahidlər yaradılışın ən alisinin insan olduğunu nəzərə çatdırır.

3) Elm, əmək, sənət haqqında yaranan frazeoloji vahidlər-hikmətli ifadələr, qanadlı misralar:

1. Elmdir əhli sənətin hünəri

Elmsiz sənətin nədir dəyəri?! (Seyid Əzim Şirvani)

2. Elmlə, biliklə başqa cür heç kəs,
   Heç kəsə üstünlük eyləyə bilməz. (Nizami Gəncəvi)
3. İş insanın cövhəridir. (Atalar sözü)
4. İşləməyən dişləməz. (Atalar sözü)
5. Əmək insanı ucaldır. (Atalar sözü)
6. Əlimi öyrətdim bu sənətə
   Bir gün sənə əl açıb, düşməyim xəcalətə. (Nizami Gəncəvi)
7. Bu günün işini sabaha qoyma. (Atalar sözü)

4) Dostluq, birlik haqqında:

1. Dost dar gündə tanınar. (Atalar sözü)
2. Dost başa baxar, düşmən ayağa. (Atalar sözü)
3. Dost dosta tən gərək,

Tən olmasa, gen gərək. (Atalar sözü)

4. Birlik harda, dirilik orda. (Atalar sözü)

5) Söz və dil haqqında;

1. Söz var dağa çıxarar, söz var dağdan endirər. (Atalar sözü)
2. Dil var ilanı yuvasından çıxarar. (Atalar sözü)

3. Sözün də su kimi lətafəti var. (Nizami Gəncəvi)
4. İnsanın süsü(bəzəyi) ağlı, düşüncəsidir,

Ağlın, düşüncənin süsü dildir,
Dilin süsü sözlərdir (Yusif Balasaqunlu).

5. Ver sözə ehya ki tutduqca səni xabi-əcəl

Edə hər saət ol uyqudan səni bidar söz (Füzuli)

6) Kin, paxıllıq, tənbəlliyin insanın həyatına mənfi təsiri haqqında:

1. Kim ki paxıllıq tozunu silsə, ürəyindən əgər,

Gozlərində yer üzü tazə gülüstanə dönər (Sahib Təbrizi).

2. Kim evdə oturub ruzi gözləsə

Axırda o dönüb olar hörümçək (Sədi Şirazi).

Mərdlik, igidlik, valideyn, ana müqəddəsliyi, həqiqət, ağıl və bilik, arzu, sevgi və s. haqqında mövcud olan, yaranan frazeoloji vahidlərin insanların mənəvi cəhətdən zənginləşməsində, estetik baxışlarının inkişafında önəmli rolu vardır. Frazeoloji vahidlər adlandırılan rəvayətli ifadələr də didaktik-tərbiyəvi xüsusiyyətlərə malikdir. Orta məktəblərin V sinif Azərbaycan dili dərsliyində verilən "Şeirin qol-qabırğasını sındırma" rəvayətli ifadəsi şagirdlərdə şeirə sevgi hissi yaratmaqla yanaşı, şeirin mənasını dərk etmək, şeiri düzgün oxumaqla nitqlərini inkişaf etdirmək kimi vacib bacarıqlar da formalaşdırır. "Şeirin qol-qabırğasını sındırma" ifadəsinin meydana çıxması ilə bağlı rəvayəti oxumaqla şagirdlər məşhur şair Sədi Şirazinin həyat və yaradıcılığı ilə, ifadənin yaranma mənbəyi ilə tanış olur və anlayırlar ki, şeiri düzgün tələffüz etmədikdə onun mənası, məzmunu da anlaşılmaz olur.

Frazeoloji vahidlər istər danışıq üslubunda, istər bədii üslubda bir çox üslubi çalarlara malikdir. Məsələn: Səməd Vurğunun "***Göylərə baş çəkir Göyəzən dağı***" misrasında dağın göylərə baş çəkməsi ifadəsi dağın əzəmətini nəzərə çatdırmaq üçün şairin istifadə etdiyi üslubi priyomdur.

Frazeoloji vahidlər obrazlı, emosional, ifadəli dil vahidləri olduğu üçün əksəriyyət üslublarda, əsasən də bədii üslubda geniş istifadə olunur. Dilçilik ədəbiyyatında göstərilir ki, frazeoloji vahidlər müxtəlif anlayışları sözlərdən daha təsirli, daha obrazlı ifadə edirlər və dilin emosionallığını, ekspressivliyini əks etdirirlər. Frazeoloji vahidlər hər bir xalqın adət-ənənələrini, mədəniyyyətini, həyat tərzini göstərdiyi üçün onun tədqiqi və tədrisi böyük əhəmiyyət kəsb edir. Bu haqda A.Babayevin fikri daha maraqlıdır: "Hər hansı xalqın frazeologizmlərini öyrənməklə, biz həmin xalqın mədəniyyəti, tarixi, həyat və yaşayış tərzi ilə yaxından tanış oluruq" (3, s. 32). "Bu və ya digər frazeologizmlərin etimoloji tərəfinin də öyrənilməsi, mənimsədilməsi xalqların mədəniyyətini və məişətini başa düşməyə kömək edir" (9). Frazeoloji vahidlər daha çox milli və didaktik-tərbiyəvi xüsusiyyətlərə malik olduğu üçün onun tədqiq və tədris edilməsi prioritet mövzu və məsələlərdən biri olmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Axundov A. Seçilmiş əsərləri. Bakı: Elm və təhsil, 2012
2. Azərbaycan dili. V sinif üçün dərslik, Bakı, 2020, s. 54
3. Babayev A. Dilçiliyə giriş. Bakı, 1992, s. 32
4. Balıyev H, Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2019, s. 38
5. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı, 2007, s. 88-89
6. Hacıyev T. Yazıçı dili və ideya bədii təhlil. Bakı, 1979, s. 78
7. Mirzəyev H. Frazeoloji vahidlərin poetik mətndə yaratdığı folklor nəfəsi. "Ağamusa Axundov və Azərbaycan filologiyası" Beynəlxalq Elmi Konfransın materialları. Bakı, 24-24 aprel, 2017, s. 207
8. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Bakı, 1985, s. 323

Rus dilində

9. Толстой Н.И. Фразеологическая одиница и слово. Минск, 1991, стр. 23

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ MƏSƏLƏLƏRİ 1990-cı İLLƏRİN METODİK ƏSƏRLƏRİNDƏ

Saidə Mustafayeva*

Abstract

Teaching Issues of the Azerbaijani Language in the Methodological Works of the 1990s

The article discusses methodological works written in the 1990s on the Azerbaijani language and the teaching of linguistics, highlighting the problems and their solutions. It also covers interactive reforms in science and education within the country, emphasizing the recognition and teaching of the language and addressing the fundamental scientific and methodological aspects of writing textbooks covering linguistics branches.

Methodological works by scholars such as M. Huseynov's "On the Teaching of Azerbaijani Language Stress Marks," "Teaching Azerbaijani Orthographic Rules," "Teaching Syntactic Relationships," "On Some Issues of Teaching Simple Sentences," "Teaching Specific Articulations of Azerbaijani Speech," and "On Teaching Phonetic Rules," as well as H. Ballyev's "Methodology of Azerbaijani Language Teaching and Speech Development," "Practical Works on Methodology of Teaching Azerbaijani Language," "Methodology of Teaching Azerbaijani Language in Secondary Schools," and works by V. Gurbanov, E. Abbasov, and other scholars, highlight the scientific foundations of the methodology of teaching Azerbaijani language, its relation to other fields of science, and methodological ideas they have developed for works to be conducted in the directions of orthography, grammar, and speech development.

Keywords: *Azerbaijani language, education, work, methodology, teaching process.*

Giriş. Müstəqil Azərbaycan dövlətinin qazandığı uğurlar Respublikamızı dünyada tanıtdığı kimi, bizi, həm də xarici dövlətlərin maraq dairəsinə daxil edir.

Azərbaycan vətəndaşlarının ən müqəddəs vəzifəsi Azərbaycan Dövlətinin dilində mükəmməl şəkildə danışmaq, yazmaq və oxumaqdır. Uşaq və gənclərimizdə ana dilimizin incəliklərindən ustalıqla istifadə etmək bacarığını formalaşdırmaq isə müqəddəs peşə sahibi olan müəllimlərin üzərinə düşür. Sözsüz ki, vətənini, dilini və peşəsini sevən, işini məsuliyyətlə, peşəkar səviyyədə yerinə yetirən hər bir müəllim vəzifəsini də layiqli şəkildə həyata keçirəcəkdir. Nəticədə isə, Azərbaycan dilini və xalqımızın milli-mənəvi dəyərlərini mükəm-məl şəkildə anlayan, bilən hər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı ölkəmizi dünyada layiqincə təmsil edə biləcəkdir.

Məlumdur ki, metodika dərsliklərində tez-tez rast gəldiyimiz bir termin var. Bu "metodologiya" terminidir. Şagirdlər tərəfindən anlaşilması bir az çətin olan həmin termin, yəni "metodologiya" nədir? - metodologiya hər hansı bir elmin siyasi əsası olmaqla metodlar sisteminin doktrinasıdır.

Deməli, "metodologiya" elmin siyasi əsasını bildirir. Nəticə isə budur ki, hər hansısa bir elmin metodologiyası onun siyasi məqsədləri üzərində qurulur.

Sözsüz ki, ölkəmiz öz müstəqilliyini yenidən qazandıqdan sonra idarəçiliyindən başlamış dərsliklərdəki nümunələrə qədər hər birinin məqsədi azərbaycançılıq ideologiyasını əks etdirirməyə başladı ki, bu da təhsilimizə çox ciddi təsir göstərdi. Ümumtəhsil səviyyəsində Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan tarixi fənlərinin tədrisinə ayrılan dərs saatlarının artırılması ilə nəticələndi ki, bu da, həmin istiqamətdə araşdırmaların aparılmasını aktual edir.

Azərbaycan dili 1995-ci ildə ümumxalq referendumu ilə qəbul olunmuş konstitusiya əsasında yenidən, yəni müstəqil dövlətin dili kimi elan edildi.

"Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konsitutsiya Aktının 1991-ci il 18 oktyabr ayında qəbulu ilə Azərbaycanın süverinliyi bərpa olundu.

Azərbaycan müstəqillik əldə etdikdən sonra bir sıra həm daxili, həm də beynəlxalq əhəmiyyətli tarixi fərmanlar qəbul etdi. Həmin fərmanlardan biri, Azərbaycan dili haqqında ilk qanun 22 dekabr

* ***Bakı Dövlət Universiteti, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: mustafayeva-saida@mail.ru.***

1992-ci ildə qəbul olundu. Bu qanunda Azərbaycan Respublikasının dövlət dilinin türk dili olduğu öz əksini tapırdı.

1995-ci ilin 12 noyabrında referendum yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konsitutsiyanın 21-ci maddəsində yazılır:

"I Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

II Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir" (11. 21.maddə)

Bununla da, həqiqi mənasında, Azərbaycan dili xalqın milli sərvəti kimi qiymətləndirilir, onun mükəmməl öyrənilməsi və gələcək nəsillərə ötürülməsi isə Azərbaycan vətəndaşlarının qarşısında bir tələb kimi qoyulurdu.

Bu istiqamətdə işlər davam etdirilərək, Azərbaycan dilinin tətbiqi və latın qrafikalı əlifbaya keçməklə bağlı Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi istiqamətində qərarlar qəbul edilir. Həmin qərarlardan biri də 18 iyun 2001-ci il tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında"kı fərmandır. Fərmanda göstərilir ki, "Azərbaycan dili bu gün dərin fikirlərin ən incə çalarına-dək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik bir dillərdəndir".

Azərbaycan dili ilə bu dilin daşıyıcısı olan xalqın-Azərbaycan xalqının tarixi əlaqəli halda işıqlandırılır. "Neçə-neçə böyük mədəniyyətin yaradıcısı olan xalqımızın tarixi qədər onun dilinin təşəkkül tarixi də olduqca dərindir" [9, s. 319].

Tədris sahəsində də bir sıra ciddi addımlar atıldı. Həm ana dilinin tədrisinə ciddi nəzarət olunur, həm də tədrisin səmərəliliyinin təşkili məqsədilə elmi metodik ədəbiyyatlar hazırlanır, özəl ali təhsil müəssisələri açılaraq mütəxəssislərin hazırlanması işi sürətləndirilirdi.

1992-ci ildə "Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün Azərbaycan dili proqramı" hazırlanaraq çap edilir. Həmin proqramı əvvəlkilərdən fərqləndirən isə Azərbaycan dilindən sistematik kursun V sinifdən başlayıb XI sinflə yekunlaşması idi. Daha əvvəlki proqramlarda həmin sistematik kurs IV-VIII sinifləri əhatə edirdi.

Yeni hazırlanan proqramlardan irəli gələn tələblərin nəticəsi olaraq Ana dilinin təlimi məsələsinə də ciddi qayğı göstərilir, onun üsul və vasitələri metodika elminin inkişafı ilə əlaqələnirdi. Bu məqsədlə də, Azərbaycan dili təliminə aid ye-niyeni metodik əsərlər, dilçiyin şöbələrinə daxil olan mövzuların tədrisi yollarından bəhs edən metodik vəsait və göstərişlər çap edilirdi. Bu sahədə fəaliyyət göstərən metodis alimlərdən biri prof. H.Balıyev idi. O, elmi əsərlərinin çoxunu Azərbaycan dilinin təlimi məsələsinə həsr etmişdir. Həmin əsərlər siyahısına də "Azərbaycan dili təlimi və nitq inkişafı metodikası" (1994-cü il), "Azərbaycan dilinin tədrisi metodikasına dair praktik işlər" (1992-ci il), "Orta məktəbdə Azərbaycan dili bölmələrinin tədrisinə dair" (1995-ci il), "Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası" (1996-cı il) və "Azərbaycan dilinin tədrisi metodikası" (1997-ci il) daxildir. Həmin metodik əsər və dərsliklərdə Azərbaycan dili təlimini asanlıqla həyata keçirmək üçün lazım olan metod, üsul və vasitələr öz əksini tapır. Müəllifin 1996-cı ildə nəşr olunan "Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası" dərsliyindəki materiallar 1988-ci il nəşrindən fərqli olaraq altı fəslə bölünür: 1. Azərbaycan dili tədrisi metodikası elmi; 2. Azərbaycan dili dərslərini təşkili və quruluşuna verilən tələblər; 3. Azərbaycan dili təliminin qanunları, prinsipləri, metodları və vasitələri; 4. Orfoqrafiya təlimi; 5. Azərbaycan dili dərs-lərində nitq inkişafı və üslubiyyatüzrə görüləcək işlərin məzmunu və təşkili meto-dikası; 6. Azərbaycan dilindən məktəb kursunun əsas bölmələrinin tədrisi metodikası [5, s. 4-360].

Ali təhsil müəssisələrinin Filologiya fakültəsində "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə təhsil alan tələbələri üçün tərtib olunan bu dərslikdə müasir təhsilin konkretliyi, təlim üçün vacib olan tələblərə uyğunluq prinsipləri nəzərə alınmış, hər fəslin mühazirə məqsədilə hazırlanmış mətnində istiqamətləndirici suallar verilmişdir.

Dərslikdə Azərbaycan dilinin tədrisi metodikası elminin mövzusu, əsas vəzifələri, inkişaf qanunauyğunluqları, tədqiqat metodları, Azərbaycan dili proqramları və dərslikləri məsələlərinə tarixi aspektdən aydınlıq gətirildikdən sonra, Azərbaycan dili tədrisinin məqsəd və vəzifələrindən bəhs olunur.

Professor həmin əsərində də əvvəlcə ana dili təliminin məktəbdə mövqeyi və fənnin əhəmiyyəti haqqında müxtəlif alimlərin elmi fikirlərini nəzərdən keçirərək, Azərbaycan dili təliminin qarşısında duran ümumi və konkret didaktik vəzifələri izah edir. "Azərbaycan dili fənninin orta məktəblərdə əsas tədris fənlərindən biri olduğunu qeyd edən müəllif, bu fənnin şagirdlərin ümumi dünyagörüşünün və elmi səviyyəsinin yüksəldilməsinə, onların əsl insan tərbiyəsi ilə yetişməsinə, həyata, məişətə əməli cəhətdən hazırlamağa kömək etmək və onların təfəkkürünü, müstəqilliyini inkişaf etdirmək olduğunu vurğulayır. Ümumi vəzifələri bu cür qeyd etdikdən sonra konkret didaktik vəzifələri sıralayır: 1. Şagirdlərin nitqini və təfəkkürünü inkişaf etdirmək, onları tam savadlı, ədəbi dilə mükəmməl yiyələnmiş mədəni adamlar kimi yetişdirmək; 2. Şagirdlərə Azərbaycan dilindən əsas bölmələrlə bağlı müəyyən həcmdə bilik və bacarıqlar vermək; 3. Şagirdlərin düzgün tələffüz, ifadəli oxu vərdişlərini, rabitəli nitq vərdişlərinin inkişaf etdirmək; 4. Şagirdlərdə orfoqrafiya və durgu işarələri üzrə möhkəm vərdişlər aşılamaq.

Müəllifin də bəhs etdiyi kimi, Azərbaycan dili dərslərinin təşkili heç də yalnız dilçiliyin şöbələrinə daxil olan mövzuların öyrədilməsini nəzərdə tutmur, həm də bu dil vasitəsilə uşaq və gənclərimizə milli mənəvi dəyərlərimizi mənimsətmək yolu ilə onları nitqi, təfəkkürü inkişaf etmiş bir vətəndaş kimi yetişdirmək olduğu aydın şəkildə göstərilir.

Alim orta məktəbdə Azərbaycan dili bölmələrinin tədrisində bir növ sistemliliyin qorunmasının tərəfdarı kimi çıxış edir. Biz bunu müəllifin metodik əsərinin hər birində görürük. "Fonetika təlimi"nə aid mövzuların tədrisi yollarından bəhs edən müəllif, öncə təlim zamanı, şagirdlərin səs və hərfi fərqləndirmək, saitləri və samitləri növlərinə görə təhlil etmək, sait və samitlərin tələffüz qaydalarını bil-məklə danışıqda və oxuda bu qaydaları gözləyə bilmək, sözləri hecalara ayırıb sətirdən-sətrə düzgun keçirə bilmək, sözlərdə ahəng qanununun olub-olmamasını, sözlərdəki vurğunun yerini müəyyənləşdirməyi bacarmaq [4, s. 3-60] kimi vərdiş-lərə yiyələndikdən sonra digər bölmələrin keçilməsinin tədris edənlərin bilmə-sinin vacibliyini qeyd edir. Lakin alim, poqramda dilçiliyin bölməsinin tədrisi məqsədilə ayrılmış saatların yetərsiz olduğunu, yəni bu zaman çərçivəsində dilə aid məfhumları mənimsətməyin mümkün olduğu halda, bu istiqamətdəkii bacarıq və vərdişlərin mümkünsüzlüyü fikrini irəli sürür.

Təlim zamanı səs və hərfin müəyyənləşdirilməsi, sait və samitlərin yaranma və təsnifi məsələsinin tədris üsul və metodlarını göstərən alim səslərin tələffüzü üzrə praktik işlərin aparılması qaydalarından bəhs edərkən maraqlı bir metod təklif edir: "Saitlərin tədrisi il bağlı yazı və tələffüz qaydalarını praktik şəkildə öyrətmək məsləhətdir. Saitlərin tələffüzündə həm keyfiyyət, həm də kəmiyyət də-yişiklikləri müşahidə edilir. Kəmiyyət dəyişikliyi dedikdə, bəzi saitlərin uzun və ya nisbətən qısa deyilməsi, keyfiyyət dəyişikliyi dedikdə isə bu səsin başqa səslə əvəzlənməsi və ya hər hansı səsin artırılıb, yaxud tələffüzdən düşməsi nəzərdə tu-tulur. Proqram və dərsliklərimizdə də saitlərin uzanması və qoşa saitlərin tələffüzü ilə əlaqədar qaydaların öyrədilməsi nəzərdə tutulur. Aşağıdakı tələffüz qaydalarını da məhz saitlərin tədrisi zamanı öyrətmək zəruridir.

1. Dilimizə rus dilindən keçmiş bəzi sözlərdə vurğusuz o saiti a kimi deyilir (samovar-samavar, kolxoz-kalxoz və b.k.)

2. Orada-burada sözlərindən birinci "a" saiti tələffüzdən düşür (burada-burda).

3. Yanaşı gələn saitlərin arasına tələffüz zamanı bir samit səs artırılır (şair- şayir)

4. Bəzi sözlərdə y samitindən əvvəlki açıq ə saiti i, a saiti isə ı saitinə çevrilir (işləyir-işliyir, başlayır-başlıyir və b.k.)" [2, s. 346-349]ş

Saitlərin təsnifinin ardınca samitlətin spesifik xüsusiyyətlərinin, ahəng qanunu, vurğu və hecanın tədrisi prosesində çalışmalardan, bir də sxemlərdən geniş şəkildə istifadəsini məsləhət görür. Alim fonetika bölməsinin tədrisinin orfoqrafik və orfoepik bacarıqların praktik yolla mənimsədilməsindəki əhəmiyyətinə diqqəti cəlb edərək, həmin bölmənin dilçiliyin digər, leksika, mirfologiya və sintaksis bölmələri ilə əlaqəli mənimsədilməsinin vacib olduğunu nəzərə çatdırır.

Azərbaycan dili təliminin nitq inkişafındakı rolunun əhəmiyyətindən bəhs edən metodist alim leksika və frazeologiya təlimində sözlərin həqiqi, həm də məcazi mənalarının və məna qruplarının müqayiəli şəkildə öyrədilməsinin zəruri-liyini, eyni zamanda da, həmin prosesdə çalışmalardan da geniş istifadə edilməli olunduğu göstərilir. Leksik söz qruplarının öyrədilməsi zamanı ədəbi

nümunələrə müraciət edilməsi bir növ ədəbiyyat fənni ilə inteqrasiyanın yaradılması imkanı verir ki, bu da nitqin zənginləşdirilməsində xüsusi əhəmiyyət daşıyır [3, s. 32-36].

Azəarbaycan dilinin tədrisinə dair əsərləri ilə seçilən, klassik metodikanın nümayəndəsi M.Həsənov 90-cı illərində "Azərbaycan dili durğu işarələrimin tədrisinə dair", "Azərbaycan dili orfoqrafiya qaydalarının tədrisi" [6], "Sintaktik əlaqələrin tədrisi", "Sadə cümlənin tədrisinin bəzi məsələlərinə dair", "Azərbay-can dilinin spesifik danışıq səslərinin tədrisi", "Fonetik qaydaların tədrisinə dair" elmi-metodik əsərləri ilə tədrisimizin inkişafına böyük tövfələr vermişdir.

Professor M.Həsənov Sadə cümlə tədrisinin ümumi məsələlərinin izahı ilə başladığı "Sadə cümlənin tədrisinin bəzi məsələlərinə dair" adlı metodik əsərində, mübtəda və xitab münasibətlərinin öyrədilməsi, adlıq cümlənin tədrisi, yarımçıq cümlənin tədrisi bölmələri üzrə sadə cümlənin yaranma, formalaşma, genişlənmə və ixtisar formalarının tədrisi yollarını aydın bir şəkildə izah edərək, onlara aid çoxlu sayda nümunələr, çalışmalar təqdim edir [8, s. 355-379].

Alim digər bir əsərində, "Fonetik qaydaların tədrisinə dair" adlı metodik vəsaitində saitlər, samitlər, vurğu və digər fonetik qanunların tədrisi yollarından bəhs edərkən, belə bir qənaətə gəlir ki, "Sözün səs və hərf tərkibinin düzgün öyrədilməsi yalnız fonetikanın deyil, orfoepiya və orfoqrafiyanın möhkəm mənimsənilməsi üçün zəmin yaradır və bu təlimdə mühüm bir prinsipin – bölmələr və mövzulararası əlaqə prinsipinin gözlənilməsini də təmin edir" [7, s. 273].

Müstəqillik illərində özünün elm-metodik fəaliyyəti ilə seçilən alim Vaqif Qurbanov ana dili təlimi zamanı həyata keçirilməsi vacib olan bir sıra mühüm metodik fikirlər irəli sürmüşdür: 1. Dil vahidləri arasındakı əlaqələrdir ki, bunlar metodika üçün də əsasdır; 2. Dildaxili inteqrasiyanı dilçilər görə bilmirlər, meto-distlər bunu görməyə, yaratmağa borcludur; 3. Nitq inkişafı dil təliminin ali məq-sədidir; 4. Dil normalarınım dil təlimində vasitələridir; 5. Dilin hər bir şöbəsinə dair didaktil məzmun, yəni bilik, bacarıq və vırdişlərin aşılanması XI sinifdə başa çatmalıdır; 6.Dil təlimində inteqrasiya nəzəri və təcrübi olmaqla iki cür baş ver-məlidir; 7. Dildə ən böyük ümumilikdə belədir, dil insanlar arasında ən böyük ün-siyyət vasitəsidir.; 8. Dil təlimindən gözlənənlər nitq mədəniyyətinə çevrilməlidir; 9. Testologiya biliyə, hazfizəyə əsaslanır; vərdişə, qabiliyyətə yox [10, s. 7].

Metodist alimin bu sahədə xüsusi olaraq diqqət ayırdığı məsələ ana dili təlimdə inteqrasiya mövzusudur. V.Qurbanov, demək olar ki, əsərlərinin bir çoxunda həmin məsələyə toxunmuşdur. Alimin hazırladığı dərsliklərdə Azərbaycan dili**,** savad təlimi, oxu və yazı təlimi və nitq inkişafı üzrə iş sahəsində böyük əhəmiyyəti olan fikirlər də öz əksini tapmışdır

Azərbaycan dili təlimi problemlərinin araşdırlması istiqamətində sistemli tədqiqatlar aparan Ənvər Abbasov 1996-cı ildə "Azərbaycan dili dərsliklərinin nəzəri problemləri", 1997-ci ildə "Azərbaycan Respublikasl Konsitutsiyası və Azərbaycan dili təliminin inkişaf istiqamətləri", 1998-ci ildə "Azərbaycan dili proqramlarının xüsusiyyətləri", 1999-cu ildə, Azərbaycan dilçiliyi şöbələrinin rus bölmələrindəki tədrisinidən bəhs edən "Təlimi rus dilində olan məktəblər üçün Azərbaycan dili dərsliklərinin nəzəri problemləri" [1] və digər bu kimi elmi-metodik əsərləri daxildir.

Metodist alimin rəhbərliyi və müəllifliyi ilə ilk təhsil standartları hazırlanmış və həmin məzmun standartları təlimi həm Azərbaycan, həm də qeyri-Azərbaycan dilli olan məktəblər üçün nəzərdə tutulmuşdur.

Nəticə. Dövlətimizin 1990-cı, yəni müstəqilliyini yenidən elan etdiyi illərdə dilimi-zin tədrisinin geniş arenada tətbiqi, təhsilimizdəki yeniliklər bu sahəni əhatə edən bir elm kimi metoldikanın qarşısında da ciddi tələblər qoymuşdur. Bu səbəbdən də, Azərbaycan dilinin tədrisi üzrə yeni tədris proqramı, dərsliklər və təlimin düzgün təşkili məqsədilə metodik əsərlər yazılmağa başlayır. Həmin əsərlərdə dilçiliyin şöbələrinin tədrisi ilə bağlı müxtəlif problemlərə toxunulur və onların həlli yolları izah edilir, dilin dərk edilməsi, öyrədilməsi, sevdirilməsi üsulları, dilin öyrədilməsindəki milli ruh, əsas elmi-metodik cəhətlər izah olunur. Metodist alimlərdən M.Həsənov, H.Balıyev və digərlərinin həmin dövrü əhatə edən əsərlərində dilçiliyin fonetika, leksika, morfologiya, sintaksis bölmələrinə daxil olan mövzuların tədrisindəki çətinliklər, onların aradan qaldırılması, mövzuların əlaqəli tədrisi, nitq inkişafı üzrə aparılması nəzərdə tutulan işlər və onların həlli yollarının göstərilməsi haqqındakı elmi-metodik fikir və mülahifələr öz əksini tapır. Ölkə daxilində elm və təhsil sahəsində interaktiv mahiyyətli islahatların aparılması Azərbaycan dilinin dövlətin formalaşmasında, xalqın milli-mənəvi dəyərlərinin

qorunmasında, uşaq və yeniyetmələrin vətənpərvər bir övlad kimi yetişib xalqımızı layiqincə təmsil etməsində əsaslı rol oynadı.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Ə.M. Təlimi rus dilində olan məktəblər üçün Azərbaycan dili dərsliklərinin nəzəri problemləri. Bakı: ETPEİ, 1999, 13 s.
2. Balıyev H.B. Azərbaycan dilinin tədrisi metodikasına dair praktik işlər. Bakı: ADPU, 1992, 164 s.
3. Balıyev H.B. Azərbaycan dili təlimi və nitq inkişafı metodikası. Bakı: ADPU, 1994, 188 s.
4. Balıyev H.B. Orta məktəbdə Azərbaycan dili bölmələrinin tədrisinə dair. Bakı: ADPU, 1995, 68 s.
5. Balıyev H.B. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı:ADPU, 1996, 380 s.
6. Həsənov M.S.Azərbaycan dili orfoqrafiya qaydalarının tədrisi. Seçilmiş əsərləri, II cild, Bakı: ADPU, 2012, s. 211-245
7. Həsənov M.S. Fonetik qaydaların tədrisinə dair. Seçilmiş əsərləri, II cild, Bakı: ADPU, 2012, s. 270-293
8. Həsənov M.S. Sadə cümlənin tədrisinin bəzi məsələlərinə dair. Seçilmiş əsərləri, III cild, Bakı: ADPU, 2013, s. 355-379
9. Qurbanov V.T. Dil təliminin nəzəri problemləri / https://www.google.ru/search?q=Qurbanov (11.01.2021)
10. Məmmədova.A .G. Ana dilinin tədrisi tarixi. Bakı: Mürtəcim, 2015, 324 s.

KONSEPT VƏ KONSEPTUAL METAFORLA BAĞLI KOQNİTİV DİLÇİLİYİN ƏSAS NƏZƏRİYYƏLƏRİ

Səbinə Süleymanova*

Abstract

Basic theories of cognitive linguistics regarding concept and conceptual metaphor

Cognitive linguistics offers valuable insights into the interaction between language, cognition, and culture. By examining the dynamic nature of concepts and the broad influence of conceptual metaphors, cognitive linguists shed light on the fundamental mechanisms underlying human thought and communication. Cognitive linguistics encompasses a variety of theories that illuminate the nature and function of conceptual metaphors: prototype theory, descriptive schemes, conceptual integration or mixing theory, theory of linguistic relativity, theory of embodied cognition, theory of constructive operations, theory of psychic spaces, concept of cognitive grammar, theory of construction grammar, cognitive theory of metaphor, theory of cultural models.

These theories and concepts within cognitive linguistics provide a theoretical framework for understanding the cognitive mechanisms underlying concept formation, conceptualization. By elucidating the cognitive processes that underlie language and thought, cognitive linguistics helps us understand how humans construct meaning and manage the complexities of conceptual representation.

Keywords: *prototype theory, descriptive schemes, conceptual integration or mixing theory, theory of linguistic relativity, theory of embodied cognition.*

Giriş. Koqnitiv dilçilik konseptlərin və konseptual metaforların öyrənilməsi ilə kəsişən müxtəlif nəzəriyyə və anlayışları əhatə edir. Koqnitiv dilçilik daxilindəki bu nəzəriyyələr və konsepsiyalar konseptin formalaşması, konseptuallaşdırma və metaforik əsaslandırmanın əsasını təşkil edən idrak mexanizmlərini başa düşmək üçün nəzəri çərçivə təmin edir. Dilin və düşüncənin əsasını təşkil edən idrak proseslərini aydınlaşdırmaqla koqnitiv dilçilik insanların mənanı necə qurduğunu və konseptual təmsilin mürəkkəbliklərini necə idarə etdiyini başa düşməyimizə kömək edir.

Koqnitiv dilçilik dil, idrak və mədəniyyət arasındakı qarşılıqlı əlaqə haqqında dəyərli fikirlər təqdim edir. Konseptlərin dinamik təbiətini və konseptual metaforların geniş təsirini araşdıraraq, koqnitiv dilçilər insan düşüncəsi və ünsiyyətinin əsasını təşkil edən fundamental mexanizmlərə işıq salırlar.

Əsas hissə. Məqalədə ilk dəfə olaraq konseptual metaforların təbiətini və funksiyasını işıqlandıran müxtəlif nəzəriyyələr təsvir olunur: *prototip nəzəriyyəsi, təsvir sxemləri, konseptual inteqrasiya və ya qarışdırma nəzəriyyəsi, linqvistik nisbilik nəzəriyyəsi, təcəssüm olunmuş idrak nəzəriyyəsi, konstruktiv əməliyyatlar nəzəriyyəsi, psixi fəzalar nəzəriyyəsi, koqnitiv qrammatika konsepsiyası, tikinti qrammatikası nəzəriyyəsi, metaforun koqnitiv nəzəriyyəsi*, *mədəni modellər nəzəriyyəsi*.

Koqnitiv dilçilikdə təməl nəzəriyyələrdən biri kateqoriyal konseptlərin əsas xüsusiyyətlərini nümunə göstərən prototip nümunələr ətrafında təşkil edildiyini irəli sürən *prototip nəzəriyyəsidir* [7, s. 22] və ya *prototip semantikası nəzəriyyəsidir* [10, s. 27]. Bu nəzəriyyəyə görə, anlayışlar zəruri və kafi şərtlərlə deyil, mərkəzi prototipə bənzərliyi ilə müəyyən edilir. Prototiplər kateqoriyanın ən xarakterik xüsusiyyətlərini özündə cəmləşdirən mərkəzi nümunələrdir və kateqoriyaya üzvlük bu prototiplərə oxşarlıq dərəcəsi ilə müəyyən edilir. Məsələn, "*quş*" konseptinin qanadlar, lələklər və uçma qabiliyyəti kimi ümumi xüsusiyyətləri paylaşan birəbitdən quşu və ya sərçələr kimi prototip quşların ətrafında cəmləndiyini göstərir. Beləliklə, "*quş*" kateqoriyasının prototipinə qanadlar, lələklər və uçmaq qabiliyyəti kimi xüsusiyyətlər daxil ola bilər, xüsusi quş növləri isə prototiplik dərəcələri ilə fərqlənir.

Dil, linqvistik ifadələrin altında yatan mürəkkəb koqnitiv prosesləri əks etdirən, insan şüuruna açılan bir pəncərə vəzifəsini yerinə yetirir. Dilçilik, psixologiya və nevrologiyanın kəsişməsində olan

Bakı Slavyan Universiteti, Ümumi dilçilik kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: bextever1@mail.ru.

bir sahə olan koqnitiv dilçilik dilin insan idrakını necə formalaşdırdığını və əks etdirdiyini araşdırır. Koqnitiv dilçiliyin mərkəzi yeri "konsept" və "konseptual metafor" anlayışlarıdır ki, bu da dildən istifadə və anlamanın əsasını təşkil edən koqnitiv mexanizmləri işıqlandırır [11].

Koqnitiv dilçilər konseptlərin statik varlıqlar deyil, təcəssüm olunmuş təcrübələr və mədəni kontekstlərin təsir ilə formalaşan dinamik konstruksiyalar olduğunu təklif edirlər. Məsələn, "*zaman*" konsepti linqvistik ifadələrə və temporal qavrayışla əlaqəli linqvistik proseslərə təsir edərək mədəniyyətlər arasında fərqli şəkildə konseptuallaşdırıla bilər [6, 1-28].

Konseptlərin dinamik mahiyyətini dərk etmək dil və idrakın mürəkkəbliyini açmaq üçün vacibdir.

1980-ci illərdə Lakoff və Conson tərəfindən irəli sürülən konseptual metafor nəzəriyyəsi metaforun sadəcə bir dil vasitəsi olmadığını, həm də düşüncənin əsas mexanizmi olduğunu irəli sürür. Bu nəzəriyyəyə görə, mücərrəd anlayışlar konkret anlayışlar üzərindən metaforik xəritələr vasitəsilə başa düşülür və ifadə edilir. Məsələn, "*sevgi bir səyahətdir*" metaforu mücərrəd məfhum olan məhəbbətin konkretlik ifadə edən səyahət baxımından necə konseptuallaşdırıldığını, bizim romantik münasibət anlayışımızı və ifadəmizi formalaşdırdığını göstərir.

Bundan əlavə, koqnitiv dilçilik konseptuallaşdırmanın və dil istifadəsinin formalaşmasında təcəssümün rolunu vurğulayır. Təcəssüm olunmuş idrak nəzəriyyəsi idrak proseslərinin konseptual təsvirlərə təsir edən bədən hissləri ilə sensorimotor təcrübələrə əsaslandığını göstərir [5]. Məsələn, "yuxarı yaxşıdır" metaforu arzu olunan obyektlərə və ya məqsədlərə çatmaq üçün yuxarıya yönəlməyin konkretləşmiş təcrübəsindən qaynaqlana bilər. Nəticədə, "yaxşılıq" anlayışı müxtəlif kontekstlərdə dil istifadəsinə və idrak prosesinə təsir edən "yuxarı" məkan istiqaməti ilə əlaqələndirilir.

Koqnitiv dilçilik özünün fənlərarası yanaşması ilə dil, idrak və mədəniyyət arasındakı mürəkkəb əlaqəni başa düşmək üçün dərin çərçivə təmin edir. Onun əsas konsepsiyalarından biri olan konseptual metafor nəzəriyyəsi mücərrəd anlayışların necə qurulduğu və dərk edildiyi ilə bağlı ənənəvi təsəvvürlərdə inqilab edir. Koqnitiv dilçilik mücərrəd sahələrin metaforik xəritələr vasitəsilə konkret təcrübi sahələrə əsaslandığını irəli sürərək, insan düşüncəsinin təbiətinə nüanslı perspektiv təklif edir.

Məsələn, "*sevgi səyahətdir*" metaforunu nəzərdən keçirək. Bu məcazda məhəbbətin mücərrəd məfhumu ayrı-ayrı fərdlərin müxtəlif çətinliklər və mərhələlərlə qarşılaşaraq birgə yola çıxdıqları konkret səyahət kimi başa düşülür və ifadə olunur. Bu metaforik xəritələşdirmə fərdlərə mürəkkəb emosional təcrübələri tanış və əlaqəli şərtlərlə konseptuallaşdırmağa və ünsiyyət qurmağa imkan verir.

Elmi nöqteyi-nəzərdən, koqnitiv dilçilik müxtəlif idrak hadisələri, o cümlədən dilin mənimsənilməsi, konseptual emal və qərarların qəbulu ilə bağlı əvəzolunmaz fikirlər təklif edir. Koqnitiv dilçilik dildən istifadənin əsasını təşkil edən idrak mexanizmlərini tədqiq etməklə, insan idrakının kateqoriyalara ayırma, nəticə çıxarma və yaddaşın bərpası kimi fundamental aspektlərinə işıq salır.

Məsələn, koqnitiv dilçilikdə aparılan tədqiqatlar konseptual metaforların düşünmə və qərar qəbuletmə proseslərini necə formalaşdırdığını ortaya qoydu. Şəxslər müzakirələr və danışıqları çərçivəyə salmaq üçün "*arqument müharibədir*" kimi metaforlara istinad edə, onların münaqişələrin həllinə və problemin həllinə yanaşmalarına təsir edə bilər.

Konseptual metaforların idrak və davranışı necə formalaşdırdığını başa düşməklə, pedaqoqlar tədrisi asanlaşdırmaq üçün daha effektiv tədris materialları hazırlaya bilərlər. Eynilə, koqnitiv dilçilikdən əldə edilən fikirlər təbii dili daha insana bənzər şəkildə başa düşmək və yaratmaq qabiliyyətinə malik AI sistemlərinin inkişafına məlumat verə bilər. Məsələn, konseptual metafor biliyi ilə proqramlaşdırılmış süni intellekt *chatbotları* istifadəçilərlə daha mənalı və kontekstdə uyğun söhbətlər apara bilər, istifadəçi təcrübəsini və qarşılıqlı əlaqəni artırır.

Empirik tədqiqatlar və praktik tətbiqlər vasitəsilə koqnitiv dilçilik dilin insan idrakını necə formalaşdırdığı və əks etdirdiyi haqqında biliklərimizi genişləndirməyə davam edir, kəşflər üçün yeni yollar açır.

Koqnitiv dilçilikdə digər təsirli konsepsiya abstrakt anlayışların konseptuallaşdırılmasını strukturlaşdıran sensorimotor təcrübələrin təkrarlanan nümunələri olan *təsvir sxemləridir* [2, s. 7-45]. Saxlama, yol və güc dinamikası kimi təsvir sxemləri metaforik xəritələr üçün koqnitiv tikinti bloklarını

təmin edir və bizə mücərrəd sahələri konkret, təcəssüm olunmuş təcrübələr baxımından anlamağa imkan verir. Məsələn, fiziki məkanda saxlanma təcrübələrindən əldə edilən saxlanmanın təsvir sxemi, mücərrəd anlayışların konteynerlərin içərisində və ya xaricində yerləşən varlıqlar kimi metaforik konseptuallaşdırıldığı "aşiq" və ya "zamandan kənar" kimi metaforik ifadələrin əsasını təşkil edir.

Şəkil sxemləri mücərrəd sahələr haqqında anlamaq və düşünmək üçün idrak əsasını təmin edən sensor-motor təcrübələrin təkrarlanan nümunələridir. Məsələn, məkan tutma təcrübələrindən əldə edilən mühafizənin təsvir sxemi daxilolma və qapalılıq kimi mücərrəd anlayışların əsasını təşkil edir.

Bundan əlavə, *konseptual inteqrasiya və ya qarışdırma nəzəriyyəsi* konseptual metaforların fərqli konseptual sahələrin inteqrasiyası vasitəsilə necə meydana gəldiyini aydınlaşdırır [3, s. 117]. Konseptual inteqrasiya nəzəriyyəsinə görə, metaforik xəritələr elementlərin mənbə sahəsindən hədəf domenə seçmə proyeksiyasını əhatə edir, yeni anlayışlar verən yeni konseptual qarışıqlar yaradır. Məsələn, "*sevgi bir səyahətdir*" konseptual metaforunda *sevgi* və *səyahət* sahələrindən olan elementlər birləşdirilir və burada sevgi münasibətləri yollar, təyinatlar və maneələrlə metaforik səyahətlər kimi konseptuallaşdırılır. "*Sevgi bir səyahətdir*" və "*sevgi döyüş meydanıdır*" kimi məhəbbət üçün metaforların mədəni variasiyaları romantik münasibətlərə və emosional təcrübələrə münasibətdə mədəni fərqləri əks etdirir.

Bundan əlavə, *konseptual inteqrasiya və ya qarışdırma anlayışı* konseptual metaforların necə qurulduğunu və şərh edildiyini başa düşməkdə həlledici rol oynayır [4, s. 14]. *Konseptual qarışdırma nəzəriyyəsi* iddia edir ki, mürəkkəb idrak prosesləri yeni mənalar və anlayışlar yaratmaq üçün müxtəlif psixi məkanlardan çoxsaylı konseptual girişlərin inteqrasiyasını nəzərdə tutur. Məsələn, "vaxt puldur" məcazi ifadəsi zaman və iqtisadi əməliyyatlar anlayışlarını birləşdirərək, pul kimi vaxtın xərclənə, qənaət edilə və ya sərf edilə bilən qiymətli resurs olduğu fikrini çatdırır.

Konseptual inteqrasiya və ya qarışdırma nəzəriyyəsi fərdlərin yeni mənalar və anlayışlar yaratmaq üçün çoxsaylı konseptual girişləri necə birləşdirdiyini araşdırır [4, s. 22]. Konseptual inteqrasiya elementlərin giriş məkanlarından qarışıq məkana seçmə proyeksiyasını əhatə edir ki, burada yaranan mənalar və strukturlar yaradıcı konseptual birləşmə yolu ilə yaranır. Məsələn, yumor və metaforda gözlənilməz və ya yumoristik şərhlər yaratmaq üçün fərqli anlayışlar qarışdırılır.

Koqnitiv dilçilikdə digər əhəmiyyətli konsepsiya dilin düşüncə və qavrayışı formalaşdırdığını irəli sürən Sapir-Uorf fərziyyəsi kimi də tanınan *linqvistik nisbilik nəzəriyyəsidir* [12, s. 134; s 212]. Bu nəzəriyyə, dilin quruluşu və kateqoriyalarının danışanların ətrafdakı dünyanı konseptuallaşdırma və təsnifatına təsir etdiyini irəli sürür. *Linqvistik nisbilik nəzəriyyəsinə* görə, dil quruluşu və lüğətdəki fərqlər dil birlikləri arasında idrak proseslərində və dünyagörüşündə fərqliliklərə səbəb olur. Məsələn, *keçmiş və gələcək zaman* arasındakı fərqi qrammatik olaraq qeyd edən dillər danışanların vaxtı xətti və fərqli kimi qəbul etmələrinə səbəb ola bilər, halbuki belə qrammatik işarələri olmayan dillər zamanın daha vahid və ya dövri görünüşünü inkişaf etdirə bilər. *Gələcək və gələcək olmayan hadisələri* qrammatik cəhətdən fərqləndirən dillər danışanların müvəqqəti oriyentasiyasına və planlaşdırma davranışlarına təsir göstərə bilər.

Koqnitiv linqvistik nəzəriyyələr konseptual metaforun təcəssüm olunmuş təbiətini və konseptual sistemlərin formalaşmasında bədən təcrübələrinin rolunu vurğulayır. Təcəssüm olunmuş idrak mücərrəd anlayışların bədən hərəkətləri, hisslər və emosiyalar kimi sensorimotor təcrübələrə əsaslandığını bildirir. Məsələn, "yuxarı yaxşıdır, aşağı pisdir" metaforik ifadəsi müsbət emosiyalarla əlaqəli fiziki yüksəliş və duruş təcrübələrindən irəli gələ bilər.

Təcəssüm olunmuş idrak nəzəriyyəsi idrakın bədən təcrübələri və sensorimotor proseslərə əsaslandığını iddia edərək, konseptuallaşdırmanın və mənanın qurulmasının təcəssüm olunmuş təbiətini vurğulayır [1, s. 619]. Təcəssüm olunmuş idrak nəzəriyyəsinə görə, mücərrəd anlayışlar metaforik olaraq konkret bədən təcrübələrində əsaslandırılır və bədən hissləri idrak proseslərinin formalaşmasında həlledici rol oynayır. Məsələn, "isti hisslər" və ya "soyuq ürəkli" kimi *istilik* və *məhəbbət* arasındakı metaforik assosiasiya fiziki istiliyin təcəssüm olunmuş təcrübəsini emosional vəziyyətlərə metaforik şəkildə əks etdirir.

Konstruktiv əməliyyatlar nəzəriyyəsi konseptuallaşdırmanın dinamik xarakterini və konseptual kateqoriyaların çevikliyini vurğulayır [8, s. 42]. Bu nəzəriyyəyə görə, fərdlər kontekst faktorlarından,

koqnitiv məqsədlərdən və kommunikativ məqsədlərdən asılı olaraq situasiyaları və hadisələri müxtəlif yollarla şərh edir və ya konseptuallaşdırırlar. Məsələn, "*dostluq*" anlayışı müxtəlif mədəni kontekstlərdə fərqli şəkildə şərh oluna bilər ki, bu da sosial normalarda və şəxsiyyətlərarası münasibətlərdə dəyişikliklərə səbəb olur.

Psixi fəzalar nəzəriyyəsi fərdlərin konseptual məlumatı strukturlaşdırmaq və təşkil etmək üçün zehni təmsillər və ya boşluqlar yaratdığını irəli sürür. Zehni məkanlar mücərrəd anlayışları dərk etmək və varlıqlar arasındakı əlaqələr haqqında əsaslandırmaq üçün idrak çərçivəsi kimi xidmət edir. Məsələn, fərziyyə ssenarilərini müzakirə edərkən fərdlər zehni olaraq fərqli mümkün dünyalar üçün fərqli məkanlar qura, müqayisə və nəticə çıxarmağı asanlaşdıra bilərlər.

Üstəlik, *koqnitiv qrammatika konsepsiyası* dil strukturlarının idrak prosesləri və konseptuallaşdırmaları əks etdirməsini təklif edir, dil istifadəsində məna konstruksiyasının vacibliyini vurğulayır. Koqnitiv qrammatika qrammatikanı konseptual əlaqələri və kateqoriyaları kodlayan simvolik sistem kimi təhlil edir, qrammatik strukturlar təşkilatın və kateqoriyaların idrak nümunələrini əks etdirir. Məsələn, zamanın qrammatik kateqoriyası keçmiş, indiki və gələcək zaman sahələri arasında konseptual fərqləri əks etdirə bilər.

Üstəlik, *tikinti qrammatikası nəzəriyyəsi* təklif edir ki, linqvistik bilik həm sintaktik strukturları, həm də onlarla əlaqəli semantik şərhləri əhatə edən forma-məna qoşalaşmaları və ya konstruksiyalar baxımından təmsil olunur. Konstruksiyalar dil istifadəsində qanunauyğunluqları əks etdirən mücərrəd şablonlardır, danışanlara geniş diapazonlu dil ifadələrini yaratmağa və qavramağa imkan verir. Məsələn, "Feil-İsim" konstruksiyası təsirli feillərin sintaktik nümunəsini, ardınca onların birbaşa obyektlərini, məsələn, "axşam yeməyi yeyin" və ya "kitab oxuyun" əhatə edir.

Metaforun koqnitiv nəzəriyyəsi metaforik dilə daha konkret sahələr üzərində xəritəçəkmə vasitəsilə mücərrəd anlayışların başa düşülməsi üçün əsas mexanizm kimi baxır. Bu nəzəriyyəyə görə, konseptual metaforlar bizim mücərrəd anlayışları konkret, təcəssüm olunmuş təcrübələrə uyğunlaşdırmaqla anlayışımızı strukturlaşdırır.

Nəhayət, *mədəni modellər nəzəriyyəsi* fərdlərin onların idrak proseslərini və konseptuallaşdırmalarını formalaşdıran ortaq mədəni çərçivələri və ya modelləri mənimsəmələrini təklif edir [9, s. 88]. Mədəniyyət modelləri mədəni normaları, dəyərləri və inancları əhatə edir, fərdlərin ətrafdakı dünyanı necə qavramasına və şərh etməsinə təsir edir. Məsələn, ailənin mədəni modelləri, gender rolları və sosial iyerarxiya fərdlərin mədəni mühitdə qavrayış və qarşılıqlı əlaqəsini formalaşdırır. Qonaqpərvərliyin mədəni modelləri müxtəlif cəmiyyətlərdə fərqli ola bilər ki, bu da qonaq-ev sahibi qarşılıqlı əlaqəsi ilə bağlı fərqli təcrübələrə və gözləntilərə səbəb olur.

Nəticə və elmi yenilik. Məqalədə ilk dəfə olaraq konseptual metaforların təbiətini və funksiyasını işıqlandıran müxtəlif nəzəriyyələr təsvir olunur: *prototip nəzəriyyəsi, təsvir sxemləri, konseptual inteqrasiya və ya qarışdırma nəzəriyyəsi, linqvistik nisbilik nəzəriyyəsi, təcəssüm olunmuş idrak nəzəriyyəsi, konstruktiv əməliyyatlar nəzəriyyəsi, psixi fəzalar nəzəriyyəsi, koqnitiv qrammatika konsepsiyası, tikinti qrammatikası nəzəriyyəsi, metaforun koqnitiv nəzəriyyəsi*, *mədəni modellər nəzəriyyəsi*.

Koqnitiv dilçilikdəki bu nəzəriyyələr və konsepsiyalar dil, idrak, mədəniyyət və konseptual sistemlərin və metaforik düşüncələrin formalaşdırılmasında təcəssüm olunmuş təcrübə arasında mürəkkəb qarşılıqlı əlaqəni işıqlandırır. Konseptual metafor və linqvistik təmsilin altında yatan idrak mexanizmlərini tədqiq etməklə, koqnitiv dilçilik insan düşüncəsinin və ünsiyyətinin təbiəti haqqında dəyərli fikirlər təklif edir.

Ümumiyyətlə, koqnitiv dilçilik insan idrakının, dilinin və mədəniyyətinin təbiətini araşdırmaq üçün zəngin nəzəri çərçivə təklif edir. Konseptual quruluş, metaforik düşüncə və linqvistik ifadə arasındakı qarşılıqlı əlaqəni araşdıraraq, koqnitiv dilçilik insanın konseptuallaşdırılması və ünsiyyətinin əsasında duran mürəkkəb mexanizmlərə işıq salır. Koqnitiv dilçilik bir çox fənlərdən olan fikirləri birləşdirərək, insan dilini və idrakını öyrənmək, fənlərarası əməkdaşlığı və innovativ tədqiqat metodologiyalarını təşviq etmək üçün vahid yanaşma təklif edir.

İstifadə edilmiş ədəbiyyat

1. Barsalou L. W. Grounded Cognition. //Annual Review of Psychology, 2008, Volume 59, p. 617-645.
2. Johnson M. The Body in the Mind: The Bodily Basis of Meaning, Imagination, and Reason. Chicago: University of Chicago Press, 1987, 233 p.
3. Fauconnier G., Turner M. Conceptual Integration Networks //Cognitive Science, 1998, Volume 22(İssue 2), p. 133-187.
4. Fauconnier G., Turner M. The Way We Think: Conceptual Blending and the Mind's Hidden Complexities. New York: Basic Books. 2002, 464p.
5. Kövecses Z. Metaphor in Culture: Universality and Variation. Cambridge University Press, 2005, 314 p.
6. Lakoff G., Johnson M. Metaphors We Live By. Chicago: University of Chicago Press, 1980, 242p.
7. Lakoff G. Women, Fire, and Dangerous Things: What Categories Reveal about the Mind. Chicago: University of Chicago Press, 1987, 614p.
8. Langacker R. W. Foundations of Cognitive Grammar: Theoretical Prerequisites. Stanford : Stanford University Press, 1987, 516 p.
9. Quinn N. Finding Culture in Talk: A Collection of Methods. New York: Palgrave Macmillan, 2011, 277 p.
10. Rosch E. Principles of categorization // E. Rosch & B. B. Lloyd (Eds.), Cognition and categorization. Lawrence Erlbaum Associates. 1978. Pp. 27–48.
11. Steen G. J., et al. A Method for Linguistic Metaphor Identification: From MIP to MIPVU. Amsterdam: John Benjamins Publishing Company, 2010, 238 p.
12. Whorf B. L. Language, Thought, and Reality: Selected Writings of Benjamin Lee Whorf. Cambridge: MIT Press, 2012, 442p.

TÜRKMƏN DİLİNDƏ FONEMLƏRİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Təranə Şükürlü*

Abstract

Characteristic features of phonemes in the Turkmen language

Turkmen language is one of the Oghuz languages with ancient traditions like Azerbaijani and Turkic languages. The rich traditions of the ancient Oguz language are preserved in each of these languages. However, the differentiation of these languages from the point of view of the territory, from the point of view of facing social, political and social events, has led to the occurrence of differences in their certain phonetic, lexical, and grammatical composition. Such differences have led to the occurrence of unique characteristics in the norms of these languages.

Keywords: *vowel, Turkmen language, norm, long vowels, phoneme.*

Giriş: Türkmən dili Azərbaycan və türk dilləri kimi qədim ənənələrə malik Oğuz dillərindən biridir. Qədim Oğuz dilinin zəngin ənənələri bu dillərin hər birində varisliklə saxlanılır. Ancaq bu dillərin ərazi baxımından, sosial, siyasi-ictimai hadisələrlə üzləşməsi baxımından diferensiallaşması onların müəyyən fonetik, leksik, qrammatik tərkibində fərqlənmələrin baş verməsinə səbəb olmuşdur. Bu cür fərqlənmələr isə bu dillərin normalarında özünəməxsus əlamətlərin baş verməsinə gətirib çıxarmışdır.

Elmi yenilik: Türkmən dilinin normalaşmasında xalq dilinin və xalq dili qaynaqlarından qidalanan ədəbiyyatın mühüm rolu olmuşdur.

2000-ci ildən yeni latın əlifbası Turkmən dilinin bütün sahələrində rəsmi qaydada işlənməyə başlamışdır.

Əsas hissə: Latın əsaslı müasir türkmən əlifbasında 30 işarə vardır: *Aa, Bb, Çç, Dd, Ee, Ää, Ff, Gg, Hh, İi, Jj, Žž, Kk, Ll, Mm, Nn, Ññ, Oo, Öö, Pp, Rr, Ss, Şş, Tt, Ww, Yy, Ýý, Üü, Zz.*

Türkmən dilində Azərbaycan dilində olduğu kimi 9 sait səs vardır. *a, ı, o, u, e, ə, i, ö, ü.* Türkmən dilində a saiti Azərbaycan və türk dillərində olduğu kimi intensiv işlənir: *adağ, adağlamak, ağalık, ağartmak, ağaççılık, ağarmak, ağartmak, ağırlaşmak, ağrımak* və s.

Türkmən dilində *ı* saiti türk dilindəki kimi söz başında işlədilir: *ıklamak, ınam, ınanç, ınaclık, ısıtma, ısnat, ıssı, ızlamak, ısnısık* və s.

Türkmən dilindəki sözönü *ı* saiti Azərbaycan dilindəki *i* saitinin mövqeyində işlənir. Yəni Azərbaycan dilində türkmən dilindəkindən fərqli olaraq söz başında *ı* yox *i* işlənir: *işıq, inanc, incəlik, isitmə, isnad, isti* və s.

O saiti də türkmən dilində Azərbaycan dilindəki kimi işlənir: *ovsar, ovsun, oyatmak, oyun, oynak, ovurt, otağ, oturumlu, otuz, otuzluk.*

Türkmən dilindəki *u* saiti də işləkliyinə görə Azərbaycan və türk dillərindən fərqlənmir: *uğramak, uğur, unlamak, urmak, ulus, utanç, uvuuldamak, uçma* və s.

Türkmən dilində *e* saiti türk dilində olduğu kimi intensivdir. Azərbaycan dilindəkindən fərqli olaraq türkmən dilində *e* saitinin həm birinci, həm də ikinci hecada işlənməsinə rast gəlmək olur: *eger, eye, egsilmek, egirme, elek, ekmek, elleşmek* və s. [1, s. 67]

Türkmən dilində *e* saiti çox vaxt Azərbaycan dilindəki *ə* saitinin adekvatı kimi işlənir: *əgər, əyişmək, əyirmə, ələk, əlləşmək* və s.

Türkmən dilində *e* saiti türk dilindəki kimi intensiv olsa da bu dildə *ə* saitinin də norma kimi işlənməsinə rast gəlmək olur. Göründüyü kimi, türkmən dilində genetik *e* saiti öz qədimliyini saxlasa da nitq prosesi *ə* səsinin də inkişafına təsir etmişdir. Türkmən dilində *ə* səsinin işlənməsini aşağıdakı kimi sözlərdə müşahidə etmək olur: *ləll, bəşim, bəş, bəşlik, bəşinci, ər, ərlik, ədim, ədimlik, ədişmek, ədinmek, ədik* və s.

Ə səsi daha çox ərəb-fars alınmalarında işlənir: *əhtimal, əhtleşmek, əlem, ətiyaç, əşgər, əşgərlik*

* ***AMEA İ.Nəsimi adına Dilçilik İnstitutu, aparıcı elmi işçi, filologiya üzrə fəlsəfə doktoru, dosent. Elek.poçt: taranaelm@mail.ru.***

və s.

İ saiti türkmən dilində Azərbaycan və türk dillərində olduğu kimi intensiv işlənir: *ikidilli, igleşmek, ideşmak, ilerlemek, ilginç, ilişdirmek, ilçilik, irişme, incelmek* və s.

Ö saiti Türkmən dilində Azərbaycan və türk dillərində olduğu kimi işlənir. *O* saiti kimi ikinci hecada norma olmur: *ödemek, ökdelik, ölmek, ölçmek, ölüşmek, önmek, örtülmek, övsümek, özelenmek, ötürmek* və s.

Ü saitinin işlənməsində də Azərbaycan və türk dillərindən ciddi fərq görünmür: *üflemek, ürkek, ütülmek, üstünde, üstünlük, ürküşmek, üzüşmek, üzərlik, üzdürmek, üzümçilik* və s.

Türkmən dilində *u-a* sırası üzrə formalaşmış aşağıdakı kimi sözləri misal göstərmək olar: *burav, çuval, duman, qullamak, putak, utanç, tussak* və s.

Türkmən dilində *u-u* sırasının aşağıdakı sözlərdə işləndiyi müşahidə edilir: *buyurık, buldurmak, bulut, bulutlu.*

Türkmən dilində bəzi sözlərdə belə sıraya təsadüf edilsə də bu ümumi deyildir, çünki ilk hecasında *o* səsi işlənən sözlərin hamısının ikinci hecasında *ı* saiti işlənməsinə təsadüf edilmir, məsələn, *dokluk, doyım, qorku, odun, oqul, sovuk* sözləri *o-u* sırası ilə uyğunlaşdığından onların *o-ı* variantı ümumi norma kimi işlənmir. Olsa-olsa bu cür ardıcıllıq nitq sərbəstliyi üzrə ifadə olunan lokal ərazilərdə işlənə bilər [1, s. 78].

Türkmən dilində *o-u* sırasını saxlayan aşağıdakı kimi nümunələr vardır: *bozuk, tovuk, boyun, tovuş* (səs), *boyunturuk, doqru, dokluk, doyumlık, qorxu, qorxuluk, lokquldu.*

Türkmən dilində *o-a* ardıcıllığına aşağıdakı kimi sözlərdə təsadüf edilir: *qoşmak, qonak, qovqa, bozlatmak, oyanmak, oyatmak, oynamak.*

Türkmən dilində *u-a* sırası üzrə formalaşmış aşağıdakı kimi sözləri misal göstərmək olar: *burav, çuval, duman, qullamak.*

E saiti türkmən dilində ikinci hecada indiki zaman formasının ifadəsində rast gəlmək olur: *qelyər, qoryər, dinleyər, işleyər* və s.

Türkmən dilində *i-ə* sırasına aid aşağıdakı kimi nümunələri misal göstərmək olar: *bilyər* (türkm.) *bilər, ikilən-üçlən* (türkm.) *ikilən* (üçlən), *ikicək* (türkm.)

Türkmən dilində *ü-e* sırasına aşağıdakı kimi sözlərin tərkibində rast gəlmək olur: *çüylemek, düvme, qüneş.*

Türkmən dilində *ə- ə* sırasına *əqə* və *əqəlik* (xəbərdarlıq, çəkinmək) kimi sözlərdə rast gəlmək olur. Türkmən dilində *ə* saitinin zəif də olsa sıralanmağa meylli olması bu saitin mövqeyinin artmasına nümunə sayıla bilər.

Türkmən dilində *i-i* sırasını aşağıdakı nümunələrdə görmək olur: *bitişik, birinci, birincilik, bildiriş, qirrik* (darqursaqlıq), *qizlin, qizlinlik, dilim, dikilmek, qiriş, şindi, tikinçi* (tikintiçi) və s.

Türkmən dilində söz sonu kar *t, k* samiti ilə bitirsə ona kar samitlə başlayan şəkilçi yox, cingiltili samitlə başlayan şəkilçi qoşulur: *akıt-akıtdırmak, alış-alışdırmak, artı-arıtdırmaq, barış-barışdırmak, açış-açışdırmak, bak-bakdırmak.*

Türkmən dilində türk və qaqauz dillərindəkindən fərqli olaraq təhlil olunan sözlərin normasında müəyyən qədər özünəməxsusluq vardır. Belə ki, türk və qaqauz dillərində həmin sözlərin daxilində bir samit işləndiyi halda, türkmən dilində qoşa samit işlənir. Tərkibində *k* samiti işlənən sözlər də Azərbaycan dilindən fərqli olaraq qoşa samitlər *kq* tələffüzü ilə normalaşmışdır: *çakqal, sakqal, dokquz, sakqız. Yeddi* və *səkkiz* sözləri isə Azərbaycan dilindəkindən fərqli olaraq *yedi* və *sekiz* şəklində işlənir.

Türkmən dilində *m* samiti də sonor olduğu üçün söz əvvəlində az işlənir. İşlənmə səbəbi isə onun daha çox kipləşmə əlamətinə görədir: *men* (mən), *murt* (bığ), *munca* (bunca), *meniz* (bəniz), *menzemek* (bənzəmək), *molaşmak* (möləşmək), *moncuk* (muncuq), *mımıldamak* (mızıldamak), *mırlamak* (mırıldamak), *mıňňıldamak* (mınqıldamak) və s.

Türkmən dilində samitlərin təkamülü prosesi Azərbaycan dilindəkinə yaxın olmaqla türk dili samitlərindən fərqlənir. Dilin aqlütinativ quruluşu struktur sabitliyi daha çox saxlamağa meylli olduğuna görə hətta, bu dillərdə yazılı ənənələrdə daimi kütləvilik olmasa da belə dildaxili strukturda ciddi dəyişiklik baş verməmişdir. Bir dilin daxilində baş verən dəyişikliklər isə dialekt

fərqlənməsindən çox da kənara çıxmamışdır.

Türkmən dilində *b* samiti *p* samitinin yumşaq (cingiltili) refleksi kimi formalaşmışdır: *baba, badam, bağlamak, bağlatmak, bağçılık, bacı, bakmak, balık, balıkçı, barmak, batmak, başmak, basmarlamak* və s.

Türkmən dilində *b* samitinin novlu variantı olan *v* səsi formalaşmış olsa da dilin aqlütinativlik tələbinə görə bu səs müstəqil sözlərdən daha çox təqlidi sözlərin əvvəlində işlənir: *vızıldamak, vızırdamak; vızırdı, vızzıldaşmak, vaqırdı, vaqlatmak, vasırdamak, vazzıldı, vazlatmak*.

Türkmən dilində Azərbaycan dilindəkindən fərqli olaraq sözün əvvəlində həm *k*, həm də *q* səsi intensiv işlənir. *Q* səsi söz başındakı intensivliyinə görə türkmən dili türk dilinin mövqeyini üstələyir. Söz əvvəlində *k* və *q* samitlərinin müstəqil fonem kimi işlənməsini aşağıdakı nümunələrdən görmək olar: *kakmak, kaka, kaşık, kovuşmak, kulak, kılmak, kırk, kırkayak, kovum.*

Türkmən dilində *y* samiti də sərbəst fonem kimi işlənir: *yavan, yavsırmak, yaqınlık, yaqış, yakalamak, yakalık, yakın, yakındı, yakmak, yalanmak, yaltaklamak, yamanlaşmak* və s.

Türkmən dilində dilortası tələffüz yerində *g* samiti formalaşmadığı üçün Azərbaycan və türk dilləri ilə müqayisə də həmin samitin yerini *q* samiti tutur: *qel-qet, qelin-qız, qelinlik, qemirmek, qemrici.*

Türkmən dilində dil-diş *d* samiti də sabit normaya uyğun işlədilir: *davan, dabramak, dağatmak, bağlı, dolaş, dana, daran, daraltmak, damak, dayı, daşarı, daşlamak, deqmek, demirçi, demrev, derek, deniz, deşilmek* və s.

D samiti özündən sonra *e, i, o, ö, ü* saitləri işlənən bəzi hallarda Azərbaycan dilindəki *t* samitini əvəz edir: *depe* (təpə), *depilmek* (təpilmək)

Azərbaycan dilində olduğu kimi, türkmən dilində də c səsinə daha çox təqlidi sözlərin və təqlidilik üzrə formalaşmış sözlərin əvvəlində rast gəlmək olur. Bu hal, əlbəttə ki, türk dillərinin aqlütinativliyi ilə bağlıdır. Bir daha qeyd etmək yerinə düşər ki, türk dillərində kipləşən kar samitlər sözönü söz yaradıcılığında fəal iştirak etdiyi halda, cingiltili - novlu samitlər söz əvvəlində təqlidi sözlərin yaranmasında fəal olur, eyni zamanda sözün sonrakı hecalarında aqlütinasiyanın funksionallaşmasında intensivləşir.

Türkmən dilində *f* samiti formalaşmadığı üçün sözün əvvəlində həmin səsin yerinə p samiti işlədilir: *pahır* (paxır), *parahat* (farağat).

Nəticə. Türkmən dilində fonemlərin təkamülü prosesi Azərbaycan dilindəkinə yaxın olmaqla türk dili samitlərindən fərqlənir. Dilin aqlütinativ quruluşu struktur sabitliyi daha çox saxlamağa meylli olduğuna görə hətta, bu dillərdə yazılı ənənələrdə daimi kütləvilik olmasa da belə dildaxili strukturda ciddi dəyişiklik baş verməmişdir. Bir dilin daxilində baş verən dəyişikliklər isə dialekt fərqlənməsindən çox da kənara çıxmamışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Грамматика туркменского языка. Ч. 1. Фонетика и морфология / под ред. Н.А.Баскакова.– Ашхабад: Ылым,–1970.–503 с.

ASEMANTİK KÖKLÜ BƏZİ DÜZƏLTMƏ İSİMLƏR HAQQINDA

Sürəyya Cəfərova*

Abstract

About some fixed nouns with asemantic roots

Although some of the words in the vocabulary of the Azerbaijani language are formative words, they are considered a simple lexical unit in terms of modern language laws. The reason for this is that the root in such words is in an asemantic state. The change of the words according to the grammatical structure has followed a phonetically rising line. The development from monosyllabic, polysyllabic, root word to agglutinative is reflected in lexical units.

In general, there are a lot of fixed nouns with asemantic roots, as well as other similar parts of speech in the Azerbaijani language.

Keywords: *asemantic root, suffix, lexical unit, vocabulary composition.*

Azərbaycan dilinin lüğət tərkibindəki sözlərin bir qismi şəkilcə düzəltmə sözlər olsa da, müasir dil qanunları baxımından, sadə leksik vahid hesab olunur. Buna səbəb belə sözlərdə kökün asemantik vəziyyətdə olmasıdır. Dilin tarixi inkişafı ərzində sözlər də mənaca, fonetik və qrammatik quruluş baxımından, müəyyən dəyişmələrə məruz qalır. Sözlərdə gedən belə dəyişmələrdən biri də onların qrammatik quruluş yönümündən təkamülüdür. Sözlərin qrammatik quruluşca dəyişməsi fonetik cəhətdən yüksələn xəttlə getmişdir: təkhecalılıqdan çoxhecalılığa, kök-sözlükdən aqqültünativliyə doğru inkişaf. Bir çox leksik vahidlərdən I aqqlütinasiya mərhələsi başa çatmış, söz II, III və s. aqqlütinasiya mərhələlərini yaşayır: *il – ilmə –ilmə-k-ilmək-lik.*

Azərbaycan dilçiliyində asemantik köklü düzəltmə sözlər haqqında S.Cəfərovun, V.Aslanovun, Y.Məmmədovun, Q.Bağırovun, A.Məmmədovun, H.Mirzəyevin, M.Yusifovun, F.Cəlilovun və başqalarının tədqiqat əsərləri, monoqrafiya və məqalələri vardır.

Bu məqalədə kökləri asemantikləşmiş bəzi düzəltmə isimlərdən bəhs olunur.

İlmək sözü bu sözün kökü asemantik şəkildədir. Sözün «ilgək» sinonim idə vardır. ***İl*** kökünün müasir türk ədəbi dilləri və dialektlərinin bəzilərində *asmaq, keçirmək, geyindirmək* mənasında işləndiyi qeyd olunur (12, s. 344). "Kitabi-Dədə Qorqud" dastanlarında "*il*" feli "*deşmək*" mənasında işlənmişdir. Məsələn, *qılınc urdılar, kəsmədi, sügüylə sancdılar, ilmədi* (səh.99). B.Serebrekkinov *mak* şəkilçisindən danışarkən *ma* hissəsinin isim düzəldən "*k*"-nın isə modallıq ifadə edən şəkilçi olduğunu göstərir (11, s. 10). B.Serebrennikovun bu fikrini Azərbaycan dilində *ilmə* şəklinin mövcudluğu təsdiq edir. Tədqiqatçı Y.məmmədov arxaik ***il*** kökünün qədim türk qaynaqlarında omonim vəziyyətdə iki mənada qeyd oldunduğunu göstərir: 1. *Ön, qabaq, qarşı* (ik, illəri və s.) *sancmaq, deşmək, düymələmək* (9, s. 63).

Deməli, *ilmək* sözünün kökü olan *il* feilindən sonralar *ilmə, ilgək, ilişmək, ilişdirmək* kimi leksik vahidlər yaranmışdır.

Alov sözü. Kökün mənşəcə *yal* feili ilə əlaqədardır. *Yal, yan, yax*, (yandırıb yaxmaq) kimi semantik derivatları vardır. *Yal* sözü qədim mənbələrdə «alışmaq, *alovlanmaq, yanmaq*» mənasında qeyd olunur (4, s. 227).

Yal feilinin qayıdış növü "*yalınmaq*" şəklinə Nəsiminin dilində də təsadüf edilir.

Narı-cəhimə girübən yarın yanında yalına (8, s. 47).

Bundan başqa, Nəsiminin dilində "*yaxmaq*" feili də ayrılıqda işlənməklə *yanmaq* mənası verir.

Məşuqə hər nə qılsa rəvadur mühibbinə

İlla firaq oduna yaqmaq rəva dəgül (8, s. 545)

Müasir Azərbaycan dilində *yaxmaq* feili göstərilən mənada yalnız «yandırıb yaxmaq» şəklində işlənilə bilər, o da məcazi mənada.

Gəncə Dövlət Universiteti, Azərbaycan dili kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: s.ceferova@mail.ru.

Azərbaycan canlı danışıq dilində çox vaxt "*alov"* əvəzində *yaloy*. Bu halda sözün kökü "*yal*" nəzərə çarpır. Məlumdur ki, saitlə başlanan bir sıra sözlər tarixən "*y*" anlautu ilə işlənmişdir: *yigid-igid, yılqı-ilxı, yüz-üz* və s. "*Yalov*" sözü də *alov* şəklinə düşmüşdür.

Örkən sözü. Tarixi mənbələrdə "*orğan"* (4, s. 388) "*urğan*" (12, s. 602), "orğan" (5, s. 59) kimi qeyd olunur. Sözün kökü *or, ör* elementləri ilə bağlıdır. A.Məmmədov *or, ör* köklərinin qədim türk dillərində *örtük, hündürlük, uzunluq* mənaları verdiyini göstərir (9, s. 12). Deməli, *ör* feilindən sonralar *ört, örtük, örpək, örmək, örkən, örgü, örük* və s. sözlər düzəlmişdir. Bunlardan, *örgü, örük* sözləri «*h*» anlautu ilə işlənir. "*Örkən*" sözünün sonundakı *ğan, kən* şəkilçisi, çox güman ki, sifət düzəldən şəkilçidir, tarixi inkişaf prosesində söz daimi substantivləşməyə məruz qalmışdır. (*Örkən sarığı*) (*ip-örkən*).

Tanış sözü. Müasir Azərbaycan dilində bu isim sadə söz kimi işlənir. S.Cəfərov *iş* sözdüzəldici şəkilçisinin feilin qarşılıq növ şəkilçisinin *ş* variantı olduğunu da qeyd edir. Və *ş* variantının həm də isimdüzəldən şəkilçi kimi bir neçə sözdə qaldığını bildirir. Həmin sözlərdən biri də *tanış* sözüdür (2, s. 100). *Tanı* feilindən vaxtı ilə *tanıq* (şahid) sözü düzəlmişdir, hazırda bu söz arxaikləşmişdir. "Kitabi-Dədə Qorqud" dastanlarında bu söz *şahid* mənasında işlənmişdir. Məsələn: *Ərş tanığ olsun. Kürsü tanığ olsun. Yer tanığ olsun* (11, s. 195).

Nəsiminin şeirlərində də *tanıq* sözünə təsadüf edilir:

Həq tanıqdur sözümə kim, həq dərəm (8, s. 336).

Qədim türk sözlüyündə *tanıq* sözü şahid kimi şərh olunur (4, s. 532).

Yoxuş sözü. Müasir Azərbaycan dilində sadə söz kimi anlaşılsa da, tarixən düzəltmə söz olmuşdur. Sözün kökü hazırda məna müstəqilliyini itirmişdir. V.Aslanov *yoxuş* sözünün kökü ilə yuxarı sözünün kökünün eyni olduğunu və *yüksəlmək, çıxmaş, hündür* mənalarını verdiyini qeyd edir (1, s. 87).

Yuxarı sözünün ikinci tərəfindəki "*arı//qarı*" elementinin isə qədim yönlük hal şəkilçisi olması türkologi mənbələrdən də məlumdur. Omonimdən yuxarı sözünün yönlük hal şəkilçisi qəbul etmədən də hərəkət feilləri ilə işləndikdə istiqamət məzmununu daşıması sübut edir. Məsələn: *yuxarı//yuxarıya qalxmaq, çıxmaq.*

Dayça, daylaq sözləri. Müasir Azərbaycan dilində asemantik köklü isimdir. Sözün kökü *daydır*. Mənası *at balası* deməkdir. Klassiklərin dilində də bu mənada işlənmişdir.

Daylar tülədi, buraxdı yalı
Kişnər çalağan qulun misalı (Ş.İ.Xətai)
Qarabağda nə day qaldı, nə dana
Bu gün – sabat hərə qabar bir yana (Q.Q.Zakir)

Dayça sözündəki *ça* şəkilçisi sözdüzəldici şəkilçi olmaqla yanaşı həm də kiçiltmə məzmunu daşıyır.

Üzəngi sözü. Türk dillərində müxtəlif fonetik variantlarda işlənir. *Üzənge, üzenqi, üzənqi, uzunqu* və s. Bu söz etimoloji cəhətdən *üzmək* feili ilə bağlıdır. (Ayağını yerdən üzmək). Müasir türk dilli dialektlərdən *üzgi* sözü "*nərdivan*" mənasında işlənir (12, s.64). *An, ən* feili sifət şəkilçisi əşya bildirən söz yarada bilir. (Məsələn, *vintburan, qalxan, əlüzyuyan* və s.) feili sifətdən sonra "*gi*" şəkilçisi ilə isim düzəlmişdir. (*Üzəngi*). Müasir Azərbaycan dilində bu şəkilçi ilə feili sifətdən yox, feildən isim düzəlir. Məsələn: (*sərgi, vergi*).

Ümumiyyətlə, asemantik köklü düzəltmə isimlər, eləcə də buna bənzər başqa nitq hissələri müasir Azərbaycan dilində çoxdur və həmin sözlərin elmi şəkildə araşdırılması tarixi leksikologiya, həm də müasir dil baxımından gərəkli və vacibdir.

İstifadə edilmiş ədəbiyyat

1. Асланов В. О путях установления первичных корней слов с непродиктивными аффиксами в тюркских языках (на материале Азербайджанского языка). Azərbaycan dilçiliyi məsələləri məcuməsi. Bakı, 1967.
2. Cəfərov S. Azərbaycan dilinin söz yaradıcılığı. Bakı, 1960.
3. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı, 2007.
4. Древнекюркскиз словарь. Л., 1969.

5. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, 2007.
6. Kazımov Q. Müasir Azərbaycan dili. Bakı, 2010.
7. “Kitabi-Dədə Qorqud” dastanları. B., 1988.
8. Qəhrəmanov C. “Nəsimi divanı”nın leksikası. Bakı, 1970.
9. Məmmədov A. Теорические проблемы восстановления первичных корней в тюркских языках. “Azərbaycan filologiyası məsələləri” məcmuəsi Bakı, 1984.
10. Məmmədov Y. Müstəqilliyi itirən köklərin çoxhecalılığa doğru inkişafı haqqında. Azərbaycan filologiya məsələləri məcmuəsi. Bakı, 1984.
11. Серебренников Б.О происхождении некоторых аффиксов в тюркских языках. «Советская тюркология». Б., 1982. № 4.
12. Этимологические словарь тюркских яызков. Т.1. М., 1974.

OTTO YESPERSEN İNGİLİS DİLİ HAQQINDA

Mətanət Qocayeva*

Abstract

Otto Jespersen about the english language

O.Jespersen, an outstanding philologist, wrote many works exploring all levels of the English language from a diachronic and synchronic point of view, deeply studying the evolution of the English language. The scientist's works, devoted to the phonetic and grammatical system of the English language, the composition of the vocabulary, remain valuable today. O.Jespersen assessed the transformation of English from a historically synthetic language into an analytical one as an important event in the development of the language. He highly appreciated the phonetic and grammatical structure of the English language, its rich vocabulary and noted that these aspects played an important role in its transformation into a world language. In the article, O.Jespersen's comparative studies on the aspects that distinguish the English language from other Germanic languages were approached from a diachronic point of view, and the special features acquired by the scientist during the evolution of the English language were discussed, and based on specific examples from his works.

Keywords: *evolutionary history, synthetic language, analytical language, diachronic approach, synchronic approach.*

Giriş. Müasir ingilis dilinin təkamül tarixi, onun keçmiş olduğu inkişaf mərhələləri bu dili tarixi aspektdən öyrənən alimlər üçün hər zaman maraq, mübahisə və müzakirə mənbəyi olmuşdur. Çünki ingilis dilinin formalaşma və təkmilləşmiş dilə çevrilmə tarixi çox zəngindir. Bəzən tədqiqatçılar bu dili "işğallar dövrünün dili" [2, s. 2] adlandırırlar. Tarixən az dil tapılar ki, ingilis dili qədər yadelli işğallarına davam gətirərək öz milli dil varlığını qoruyub saxlaya bilsin, assimilyasiya edərək tarixin səhnəsini tərk etməsin. Çünki ingilis dili əsrlərlə latın, yunan, skandinav və fransız dillərinin təsirinə məruz qalmış, bu dillər hesabına orfoqrafik, fonetik, qrammatik və lüğət fondu cəhətdən yenilənmiş, zənginləşmiş bir dilə çevrilmişdir. Lakin ingilis dili nə qədər dəyişikliklərə məruz qalsa da, yenə də bir xalqın milli dili olma statusunu qorumuş, zamanın irəliləyən dövrlərində Britaniya adalarının sərhədlərini aşaraq qlobal dilə çevrilmişdir.

Məhz ingilis dilinin qeyd olunan xüsusiyyətlərinin diaxronik aspektdən tədqiq olunması tanınmış danimarkalı alim O.Yespersenin elmi yaradıcılığının ana xəttini təşkil etmişdir. Qədim German dilləri ailəsinin bir üzvü olan ingilis dili Ulu German dilindən miras qalmış zəngin şəkilçi sistemi, mürəkkəb qrammatik quruluşu, çoxşaxəli qrammatik hal, cins və s. kateqoriyalara malik olan bir dil olmuşdur. O.Yespersen qədim ingilis dilini daxili quruluşuna, tələffüz oxşarlığına görə müasir alman dilinin "əkiz tayı" hesab etmişdir. Lakin təkamülünün sonrakı dövrlərində ingilis dili şəkilçilərini itirərək analitik dilə çevrildi, onun daxili sistemi sadələşdi, bir çox fonetik yenilənmələr, Böyük Sait Səs Dəyişməsi hadisəsi ilə ingilis dilinin tələffüzü tamamilə fərqli şəkil aldı. O.Yespersen mükəmməl dil mütəxəssisi kimi, ingilis dilində baş verən qlobal dəyişikliklərin hansı səbəblərdən və zərurətdən yaranması məsələlərini tədqiq etmiş və öz təhlillərini bir çox elmi əsərlərində ifadə etmişdir. Sözügedən məqalədə O.Yespersenin ingilis dili ilə bağlı apardığı tədqiqatlardan bəhs olunmuş, onun ingilis dilinə aid qeyd etdiyi şəxsi fikirləri diqqətə alınmışdır. Bu baxımdan, məqalə üçün seçilmiş mövzunu aktual hesab etmək olar.

Əsas hissə. Otto Yespersen XIX-XX əsrlərdə yaşamış görkəmli, tanınmış dilçi alimlərdən biridir. O, 1860-cı ildə Danimarkada Yutlandda anadan olmuş və hüquqşünaslar ailəsində böyümüşdür. O.Yespersen 1943-cü ildə vəfat etmişdir. Bəzən onun haqqında danışarkən, mütəxəssislər onu iki əsrin görkəmli alimi kimi dəyərləndirirlər. Valideynləri onun ailə ənənəsini davam etdirərək hüquqşünas olmasını istəsələr də, o, daha çox dilçilik elminə həvəs göstərmişdir. Gənc yaşlarından O.Yespersen Danimarkalı tanınmış alim Rasmus Raskın yaradıcılığının təsiri altında dilçilik elmi ilə maraqlanmağa başlayır [3]. Sonralar təhsilini Oksford və Kopenhagen universitetlərində davam etdirən O.Yespersen ingilis dili üzrə kamil bir mütəxəssis kimi yetişir. Xüsusilə, O.Yespersen ingilis dilinin qrammatik quruluşunun dəyişməsini, onun sintetik şəkilçili dildən analitik dilə çevrilməsinin səbəblərini tarixi baxımdan araşdırmışdır. O, alman, ispan, fransız və s. Avropa dillərini öyrənmiş, ingilis dilini dərindən mənimsəyərək demək olar, bütün elmi fəaliyyətini ingilis dilinin diaxronik və sinxronik aspektlərdən tədqiq olunmasına həsr etmişdir. O.Yespersenin ingilis dilinin qrammatik quruluşu ilə bağlı apardığı səmərəli, ardıcıl araşdırmalar gələcəkdə bu sahədə tədqiqat aparanlar üçün alimin əsl töhfəsi olmuşdur. Alim müxtəlif illərdə yazdığı "Growth and Structure of the English Language"(İngilis dilinin təkamülü və quruluşu), "The Philosophy of Grammar"(Qrammatikanın fəlsəfəsi), "Language: its Nature,

* *Azərbaycan Dillər Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent. Elek.poçt: qocayeva-m@bk.ru.*

Development and Origin" (Dil:onun təbiəti, inkişafı və mənşəyi),"Essentials of English Grammar"(İngilis dili qrammatikasının əsasları), "A Modern English Grammar on Historical Principles" (Tarixi prinsiplərə əsaslanan ingilis dilinin müasir qrammatikası) və s. əsərlərində ingilis dilinin təkamül tarixini ictimai-siyasi amillərin dilə təsiri əsasında araşdırmış, tarixən dildə baş verən dərin dəyişikliklərin yaranmasının linqvistik və ekstralinqvistik səbəblərini göstərməklə ingilis dilinin inkişaf dövrlərini tarixi faktlar zəminində təhlil etmişdir. O, ingilis dilinin xarici dil kimi öyrənilməsi və tədrisinə dair araşdırmalar aparmış və bununla bağlı əsərlər yazmışdır. Alim hər zaman əlavə xarici dil öyrənməyin faydalarını öz elmi-pedaqoji fəaliyyətində təbliğ etmişdir.

İngilis dilinin keçdiyi təkamül mərhələlərini və hər mərhələyə uyğun olaraq dildə baş verən fonetik, qrammatik dəyişiklikləri diaxronik olaraq tədqiq edən tanınmış alim H.Suit hələ 1873-cü ildə ingilis dilinin səs sisteminin inkişaf tarixinə dair mühazirə oxuyarkən o, ingilis dilinin təkamül dövrünü üç əsas mərhələyə bölmüşdür: Qədim dövr (Old English), Orta dövr (Middle English) və Müasir dövr (Modern English). Hər bir dövr özünə xas olan morfoloji əlamətlərlə fərqlənir və H.Suitin apardığı bölgü ingilis dilinin fərqli dövrlərə uyğun olan morfoloji sisteminə əsaslanmışdır, yəni alimin apardığı bölgüdə hər dövrə müvafiq olaraq dilin daxili qrammatik sisteminin vəziyyəti önəm daşımışdır. Bu təsnifə əsasən ingilis dili ilk dövrdə şəkilçili, orta dövrdə şəkilçilərin dil sistemində mövqeyinin zəiflədiyi və müasir dövr ingilis dilinin şəkilçilərdən azad analitik dilə çevrildiyi kimi səciyyələndirilmişdir. H.Suitin irəli sürdüyü dövrləşmə prinsipi alimlər tərəfindən birmənalı olaraq qarşılanmış və hazırda da alimin işlətdiyi Old English və ya Anglo-Saxson English, Middle English, Modern English terminləri dilçilikdə geniş şəkildə işlədilməkdədir. O.Yespersen məhz H.Suit tərəfindən irəli sürülmüş dövrləşmə prinsiplərinə əsaslanaraq ingilis dilinin təkamül tarixini linqvistik və ekstralinqvistik amillərin təsiri altında hansı inkişaf istiqamətində və hansı səbəblərdən dilin daxili quruluşunun bu dərəcədə dəyişikliklərə uğramasını elmi-məntiqi və tarixi faktlara istinad edərək araşdırmışdır. Alim ingilis dilinin inkişaf dövründə sintetik dildən analitik dilə çevrilməsində həm dildaxili, həm də dildənkənar amillərin təsirini bir çox səbəblərlə əlaqələndirmişdir.

O.Yespersen eramızın V əsrindən başlayaraq Anqlo, Sakson və Yut tayfalarının Britaniya adalarını istila edərək orada məskunlaşmaları ilə əsası qoyulan ingilis dilinin tayfa dili səviyyəsindən dünyəvi bir dilə çevrilməsini dilin təkamülündə böyük bir sıçrayış olduğunu qeyd edərək, bu səviyyənin qazanılmasında həm dilin öz daxilində gedən dəyişiklikləri, həm də bilavasitə dildə baş verən dəyişikliklərə səbəb olan və onlara təkan verən ekstralinqvistik faktorların rolunun danılmaz olduğunu qeyd etmişdir.

O.Yespersen ilk milli ədəbi dil (vernacular language)olaraq işlədilmiş ingilis dilinin formalaşmasında dilin, dilin aid olduğu insanların yaşayıb yaratdıqları, inkişaf etdikləri tarixi mühiti, orada baş verən hadisələrin dilə təsirini əsas götürmüşdür. İngilis dili təkamülünün V-IX əsrlərini əhatə edən qədim dövrdə yalnız orfoqrafik, fonetik və qrammatik cəhətdən formalaşma dövrü keçirmişdir. Bu dövr ingilis dili zəngin dil olmamışdır. Çünki Britaniya adalarında yenicə formalaşmağa başlayan ingilis dili heç bir digər dillə bir araya gəlməmişdir, bütün german dilləri kimi o da, şəkilçili, lüğət tərkibi german dillərinə məxsus təbiət, qohumluq əlaqələri, məişət məzmunlu doğma sözlərdən ibarət olmuşdur.

O.Yespersen ingilis dilinin təkamül tarixini ilkin dövrlərindən araşdıran alim kimi 1905-ci ildə yazdığı " The Growth and Structure of the English Language" (İngilis dilinin təkamülü və quruluşu) adlı əsərində ingilis dili haqqında belə yazırdı: "Dillər də insanlar kimi müxtəlif və mürəkkəb xarakterlidir, onları bir söz və ya bir ifadə ilə təsvir etmək olmur. Lakin mən ingilis dili haqqında nə zaman düşünürəmsə və ya onu başqa dillərlə müqayisə edirəmsə, hər zaman ağlıma belə bir fikir gəlir ki, sözün müsbət və ifadəli mənasında bu dil əsl kişi xarakterli dildir, o, ahıl bir kişinin dilidir, bu dildə uşağa və ya qadına məxsus çox az nəsə var" [4, s. 2].

Qeyd edək ki, O.Yespersen adı qeyd olunan əsərində ingilis dilinin təkamül tarixini V əsrdən başlayaraq tədqiq etməklə, ingilis dilinin formalaşmasını, təkmil dilə çevrilməsini diaxronik baxımdan təhlil etmişdir. İngilis dilinin əl yazısı mexanizmindən bəhs edən O.Yespersen qeyd edir ki, ingilis dilində yazan hətta qadın olduqda belə, bu, başqa bir dildə yazan kişi yazısını adama xatırladır. Necə ki, dilin özünün xüsusiyyəti bir ağıllı kişini xatırladırsa, onun yazı üslubu da, daha çox kişilər üçün səciyyəvidir.

İngilis dilində samit və sait səslərin tələffüzündən bəhs edən alim, bu səslərin aydın, simmetrik şəkildə tələffüz olunduğunu qeyd etmişdir. Cingiltili samitin qarşılığı olaraq kar samitlərin səliqəli düzülüşü dildə bir harmoniya yaradır. Rus dilindən və bəzi digər dillərdən fərqli olaraq ingilis dilində yumşalma hadisəsi, habelə səslərin modifikasiyası dilin fonetik sistemində geniş yayılmamışdır. Sait səslərin tələffüzündən, onların diftonqlaşmasından bəhs edən O.Yespersen ingilis dilini digər German dillərindən, hətta qədim ingilis dilindən fərqləndirən cəhətin məhz saitlərin aydın və müstəqil tələffüz olunması olduğunu qeyd etmişdir. Alim ingilis dilində [e] sait səsin sözlərin sonunda işlədilməklə saitlərin uzun tələffüz olunmasına və ya diftonqlaşmasına səbəb olması hadisəsinin məhz ingilis dilinə xas olduğunu qeyd edərək, ingilis dilinin tələffüz sisteminin daha mükəmməl olduğunu qeyd etmişdir [4, s. 6].

"Tarixən universal qrammatik nəzəriyyə yaradılmasına cəhd olunsa da, hər bir dil xüsusi daxili quruluşu ilə fərdi xarakterlidir" [5, s. 47] yazan O.Yespersen ingilis dilini digər dillərlə müqayisə edərək, bu dilin " kişi xarakteri ilə daha konkret" bir dil olduğunu vurğulamışdır [4, s. 7]. O, ingilis dilinin belə bir təbiətə malik olmasını dilin bəzi xüsusiyyətlərinə istinad edərək əsaslandırırdı. Hər şeydən əvvəl alim ingilis dilinin analitik dil kimi çoxsaylı şəkilçi morfemlərdən azad olmasını dilin təkamülündə qazandığı ən mühüm müsbət hal kimi, dilin inkişaf səviyyəsini müəyyən edən bir kriteriya kimi dəyərləndirmişdir. O, dilin sintetik dildən analitik dilə çevrilməsini dilin inkişaf tendesiyasında yüksəliş kimi qiymətləndirərək ingilis dilinin qrammatik quruluşunu digər Hind-Avropa dillərindən yüksək səviyyədə durduğunu qeyd etmişdir. Alimə görə, ingilis dilində analitik formalar hesabına hər cür qrammatik mənanı qısa və konkret ifadə etmək mümkündür. O.Yespersen ingilis dilini alman dili ilə müqayisə edərək, çoxsaylı şəkilçilərin dilin daxili quruluşunu nə qədər mürəkkəbləşdirdiyini qeyd edir. Lakin ingilis dili qrammatik üzlaşma yaradan şəkilçilərdən azad bir dildir. O.Yespersen bunu konkret alman dilində nümunə üzərində belə izah edir: alle diejenigen wilden tiere, die dort leben cümləsində zərfdən başqa bütün sözlər isim cəmdə olduğuna görə cəm şəkilçisini qəbul etmişlər. Lakin bu cümlənin ingilis variantında – All the wild animals that live there – Orada yaşayan bütün vəhşi heyvanlar birləşməsində qrammatik uzlaşmanı əks etdirən şəkilçi morfem yoxdur [4, s. 8]. Alim Hind-Avropa dillərinin qrammatik quruluşunu tədqiq edən və sintetik dildən analitik dilə doğru inkişafı dillərin qrammatik sisteminin tənəzzül etməsi kimi dəyərləndirən alimlərin mövqeyini qəti olaraq tənqid etmişdir. O.Yespersen ingilis dilinin tarixən sintetik dildən analitik dilə çevrilməsini "İnkişaf nəzəriyyəsi"ndə(the Theory of Progress) belə qiymətləndirmişdir: "İngilis dilinin qrammatik sistemi qısa, yığcam analitik formalarla digər dillərə nisbətən daha da inkişaf etmiş bir səviyyəyə çatmışdır. Bəlkə də bu səbəbdən, bu gün ingilis dili ümumişlək dilə çevrilmişdir" [1, s. 3].

O.Yespersen ingilis dilinin diaxronik olaraq sintetik şəkilçili dildən analitik formalarla zəngin dilə çevrilməsi prosesinin başlanmasında skandinav dillərinin rolunu xüsusi olaraq vurğulamışdır. Çünki bu dillər eyni soydan olan yaxın dillər olduğuna görə ingilis dilinin ilkin olaraq şəkilçi sisteminin iflas etməsində alim skandinav dillərinin, xüsusilə qədim norveç dilinin (Old Norse) mühüm təsiri olduğunu qeyd etmişdir. X əsrdən başlayan bu proses təkamülün sonrakı mərhələlərində daha da genişləndi, orta dövrdə artıq ingilis dili getdikcə müasir ingilis dilinə bənzəyən dilə çevrilməyə başladı. O.Yespersen ingilis dilinin analitizmə meyl etməsini dilin yüksək qrammatik quruluşa malik olması kimi qiymətləndirməklə ingilis dilinin mənimsənilməsi üçün onun nə qədər yatımlı, rahat dilə çevrildiyini qeyd etmişdir. Ümumiyyətlə, O.Yespersen istənilən dilin analitizmə meyl edərək inkişaf yolu seçməsini yüksək dəyərləndirərək, analitik dil quruluşunu hər zaman sintetik dildən üstün tutmuşdur. Məsələn, o, ingilis dilində deyiləcək fikrin qısa və konkret ifadə olunmasını vurğulamaqla ingilis xalqının da düşüncə tərzinin belə formalaşdığını qeyd etmişdir. Alim ingilis dilinin işlədilmə imkanlarını digər dillərlə belə müqayisə etmişdir: məsələn, ingilis dilində qısaltmaların işlənməsi və fikrin əlavə sözə ehtiyac olmadan ifadə olunması cümlənin quruluş və məzmununa heç bir xələl gətirmir. Məsələn, While fighting in Germany he was taken a prisoner – Almaniyada döyüşərkən o, əsir götürüldü cümləsində while fighting bağlayıcılı birləşməsi while he was fighting zaman budaq cümləsinin qısaldılmış formasıdır. Və yaxud ingilis dilində "thank you" ifadəsi əvəzinə "thanks" işlədilməsi heç bir dil normasını pozmur. İngilis dilində cümlə modellərini alman, fransız və danimarka dilləri ilə müqayisə edən O.Yespersen ingilis dilində onların daha yığcam, konkret formada ifadə olunmasını dilin geniş işlədilmə imkanlarına malik olması ilə əlaqələndirir. Məsələn, He wouldn't answer when spoken to, Once at home, he forgot his fears, We had no idea what to do cümlələrində budaq cümlələrin transformasiyası hesabına tabeli mürəkkəb cümlələr sadə cümləyə çevrilmişdir: when spoken to = when he was spoken to; once at home = once(when) he was at home; what to do = what we should do və s. O.Yespersen ingilislərin mübaliğəli, ifadəli nitqdən uzaq olduqlarını, daha dəqiq, məntiqli danışdıqlarını bu tip cümlələrlə ifadə edir, məsələn: Glad to see you (I am glad to see you əvəzinə) – Sizi görməyimə şadam; Fine (It is fine əvəzinə) – Əla, gözəl; Not bad (It is not bad yerinə) – Pis deyil [4, s. 8] və s.

İngilis dilini tayfa səviyyəli dil olduğu dövrlərdən başlayaraq tədqiq edən O.Yespersen onun inkişafında orta dövrü ən məhsuldar dəyişikliklərin baş verdiyi mərhələ hesab etmişdir. Bu dövr XI-XV əsrləri əhatə etməklə ingilis dilini radikal şəkildə dəyişdirən dildaxili və dilxarici faktlarla zəngin bir dövrdür. Bu dövrdə ingilis dili latın, skandinav və Norman fransız dillərinin təsiri ilə dilin bütün səviyyələrində dərin dəyişikliklərə uğradı, zəngin şəkilçi sistemini, qrammatik cins kateqoriyasını itirdi. Morfoloji əlamətlərdən məhrum olan ingilis dilində sərbəst söz sırası sabit söz sırası ilə əvəz olundu. İngilis dili adı qeyd olunan dillərdən alınmış sözlər hesabına zəngin bir dilə çevrildi, dildə antonim, omonim və sinonim sözlərin sayı xeyli artmış oldu. Analitik formalar, köməkçi nitq hissələri qrammatik mənaları ifadə etməyə başladı. İngilis dilinin qrammatik sistemi olduqca sadələşdi. Məhz O.Yespersen ingilis dilinin ölkə sərhədlərini aşaraq dünya dilinə çevrilməsini həm İngiltərə dövlətinin apardığı xarici siyasətdə, həm də dilin çox zəngin lüğət fonduna və analitik dil kimi

qrammatik sisteminin mənimsənilməsinin digər dillərə nisbətdə daha rahat, sadə olmasında görürdü. O, ingilis dilinin bütün qitələrdə yayılmasını, müxtəlif dillərdə danışan insanların ortaq dil (lingua franca) kimi ingilis dilindən istifadə etməsini, habelə ingilis dili əsasında picin (bəzən pidgin də yazılır), kreole dillərin yaranmasını dilə xas olan üstün cəhətlərin təzahürü kimi qiymətləndirirdi.

O.Yespersenin yazdığı əsərlər bu gün də dilçilik elmində öz dəyərini qoruyub saxlamaqdadır. Bu əsərlərə istinad edən hər bir tədqiqatçı O.Yespersenin ingilis dili ilə bağlı apardığı araşdırmaların və verdiyi təhlilərin elmi-praktik baxımdan nə qədər dəyərli olduğunun şahidi ola bilərlər. Alimin özündən sonra miras qalmış zəngin elmi külliyatı bu gün gənc tədqiqatçılar üçün əsl elm mənbəyidir. Ingilis dilinin təkamül tarixinin və qrammatik sisteminin öyrənilməsində O.Yespersenin xidmətləri danılmazdır.

Nəticə və elmi yenilik. Təqdim olunan məqalədə qısa olsa da, O.Yespersenin ingilis dili ilə bağlı apardığı tədqiqatlarından bəhs olunmuş və alimin dünyəvi dil kimi ingilis dilinə aid mülahizələri xüsusi olaraq vurğulanmışdır. Qeyd olunan fikirlər, alimin əsərlərinə istinad olunaraq aparılan araşdırmalar belə bir nəticəyə gəlməyə əsas verir ki, O.Yespersenin ingilis dilinə aid apardığı geniş həcmli araşdırmalar, onun əsərləri təkcə ingilis dilinin diaxronik və sinxronik aspektlərdən öyrənilməsinə deyil, eyni zamanda, dilçilik elminin yeni tədqiqatlarla zənginləşməsinə alimin böyük töhfəsidir.

Məqalədə bəhs olunmuş mövzunun ilk dəfə olaraq tədqiqata cəlb olunduğuna, habelə araşdırmaların orijinal olaraq O.Yespersenin əsərlərinə istinad olunaraq aparıldığına görə onu işin elmi yeniliyi olaraq nəzərə almaq olar.

İstifadə edilmiş ədəbiyyat

1. Causes of Grammatical Changes in the History of the English Language. www.margaliti.com/... 4 p.
2. Chechel, E. Lectures on the History of English. www.academia.edu./... 40 p.
3. Early life. O.H.Jespersen. www.en.m.wikipedia.org/wiki/Otto...
4. Jespersen, O. Growth and Structure of the English Language. Leipzig 1905. 267 p. www.forgottenbooks.com/
5. Jespersen, O. The Philosophy of Grammar. Norton and Company, New York, 1965. 354 p.

ФРЕЙМОВЫЕ ОТЛИЧИЯ И ОПТИМИЗАЦИЯ МЕЖКУЛЬТУРНОЙ ПРАГМАТИКИ (В ГЕНДЕРНОМ ДИСКУРСЕ АЗЕРБАЙДЖАНСКОГО, РУССКОГО И АНГЛИЙСКОГО ЯЗЫКОВ)

Гюнай Бабаева*

Abstract

In linguistics, the term 'frame' is used to refer to the knowledge structure that organises our understanding and interpretation of the world. Frames are a network of related concepts, experiences, knowledge and associations that help us navigate our environment and understand semantic information. Frames include basic elements such as concepts, facts, properties, events and the relationships between them. They also contain expectations, scenarios, and patterns that help us fill in gaps in information and draw inferences based on existing knowledge. Frames help us to map new information to existing knowledge and reconstruct implicit information based on context. They play an important role in language comprehension, communication process and our overall view of the world.

Keywords: *frame, intercultural pragmatics, gender, language, culture, man, woman.*

Оптимизация межкультурной прагматики в гендерном дискурсе азербайджанского, русского и английского языков включают в себя ряд подходов и стратегий, направленных на улучшение коммуникации и понимания между культурами:

- *Изучение культурных особенностей*: осознание культурных норм, ценностей и стереотипов, связанных с гендерным дискурсом в разных культурах, поможет избегать недоразумений и конфликтов.
- *Уважение культурных различий*: важно проявлять уважение к различиям в гендерных ролях и ожиданиях в каждой культуре.
- *Языковая адаптация*: важно учитывать особенности каждого языка и его гендерного дискурса.
- *Контекстуальная адаптация*: важно учитывать контекст и ситуацию, в которой происходит общение. Культурные нормы и ожидания могут различаться в формальном и неформальном общении, в разных сферах жизни и деятельности.
- *Открытость и готовность к обучению*: важно быть открытым к новым знаниям и опыту. Готовность к изучению и пониманию различий поможет развивать межкультурные коммуникативные навыки.
- *Сознательность и рефлексия*: надо быть осознанным и самокритичным в своем собственном поведении и в использовании языка [6, 77-78].

Каждая культура имеет свои уникальные особенности и нормы, и не существует универсального подхода к оптимизации межкультурной прагматики. Однако, с помощью изучения, уважения и гибкости можно улучшить способность эффективно коммуницировать в гендерном дискурсе на азербайджанском, русском и английском языках.

Фреймовые отличия могут проявляться в разных аспектах межкультурной прагматики, таких как коммуникация, восприятие и оценка ситуации, принятие решений и т.д. Например, в некоторых культурах может быть более распространено использование косвенных выражений и подразумеваемых значений, в то время как в других культурах предпочитают более ясное и прямое общение.

Для оптимизации межкультурной прагматики необходимо учитывать эти фреймовые отличия и адаптировать свой язык и поведение в соответствии с культурой собеседника. Необходимо также быть внимательным к невербальным сигналам и культурным кодам, чтобы не допустить недопонимания. Важно не применять свой собственный фрейм при

* ***доцент, доктор философии по филологическим наукам, заведующий кафедрой иностранных языков БСУ. электронная почта: gunasha79@mail.ru.***

интерпретации информаций из другой культуры и не пытаться принудительно навязывать свои ценности и стереотипы.

Оптимизация межкультурной прагматики также может включать использование универсальных фреймов, которые понятны для людей из разных культур. Например, использование понятий "человек" или "человечность" может быть более универсальным, чем использование понятий, которые связаны с определенными культурными нормами или стереотипами.

В гендерном дискурсе азербайджанского, русского и английского языков существуют определенные фреймовые отличия, которые могут привести к различным проблемам в межкультурной коммуникации. В гендерном дискурсе азербайджанского, русского и английского языков могут быть заметны следующие фреймовые отличия:

1. ***Фреймовые отличия в использовании языка***

Язык также может отражать культурные фреймы.

В азербайджанском языке нет различий в грамматике между мужским и женским родом. Но существует отличительный гендерный признак, который отображает социальную роль женщины и мужчины в обществе. Например, для указания на профессии и должности мужчины и женщины в азербайджанском языке используются различные слова. Это отражает социокультурную роль мужчин и женщин в азербайджанском обществе.

Азербайджанский язык имеет свои уникальные фреймы, связанные с гендерным дискурсом, которые отличаются от русского и английского языков. Например, в азербайджанском языке существует слово «gözəl», используемое в описании женской красоты. Однако, данное слово не используется в описаниия мужской красоты. Это свидетельствует о том, что в азербайджанском языке существуют различия в стандартах красоты для мужчин и женщин.

Русский язык также имеет свои гендерные признаки. Для указания на профессии и должности мужчин и женщин в русском языке используется одно слово в мужском роде. Однако существуют исключения, где для указания на женскую профессию используются отдельные слова, такие как "повариха" или "программистка". Также в русском языке существуют многие слова, которые имеют женские и мужские формы, например, "учитель" и "учительница". Это может приводить к различным фреймовым отличиям в интерпретации ролей мужчин и женщин в русском обществе.

В русском языке присутствует множественное число, которое может быть использовано для обращения к группе людей, что может быть непривычно для носителей языков, не имеющих подобной грамматической категории. В русском языке гендерные роли также выражаются через грамматические формы, например, через различия в склонении и спряжении глаголов. Также в русском языке существуют различные формы обращения, которые выражают уровень уважения и дистанции между говорящими [1, 34].

В английском языке для описания поведения женщин часто используют существительные вместо глагола. В английском языке гендерные роли выражаются в основном через лексические средства, например, через использование местоимений "he" и "she". В английском языке также существуют различные формы обращения, но они не так явно выражены, как в русском или в азербайджанском языках.

2. Фреймовые отличия в определении гендерных ролей

Культурные фреймы определяют, какие роли мужчин и женщин должны играть в обществе. В Азербайджане, России и Англии могут быть различные представления о том, что считается мужским или женским поведением или их ролью в обществе.

- *Фрейм «индивидуальность»*

В азербайджанской культуре в большем приоритете коллективные интересы, а индивидуальные обычно отступают на задний план. В азербайджанской культуре традиционно выделяются четкие гендерные роли, в которых мужчина в семье должен быть защитником и сильным, а женщина - заботливой и домашней. В азербайджанской культуре часто считается,

что женщины должны быть более скромными и сдержанными, в то время как мужчины могут проявлять более агрессивное поведение.

В русской культуре тоже больше ценится коллективизм, однако, индивидуальные интересы могут быть более выраженными. В русской культуре также есть определенные гендерные роли, однако, они не столь жестко закреплены. В русской культуре традиционно считается, что мужчины должны быть защитниками женщин и детей, а женщины должны быть заботливыми и уметь ухаживать за домом [1, 34].

В английской культуре же в приоритете больше индивидуальность, и гендерные роли не являются такими жесткими и обязательными. В английской культуре также существуют стереотипы о том, какие черты характера являются мужскими и женскими. Например, в английской культуре часто считается, что мужчины должны быть более уверенными и амбициозными, в то время как женщины должны быть более эмоционально выражены [3, 55].

- *Фрейм «семья»*

Фреймы (представления, стереотипы) семьи и брака могут существенно отличаться в различных культурах. Культурные нормы, религия, исторические традиции и обычаи могут сильно повлиять на то, как воспринимается институт семьи и брака в каждом обществе. В разных культурах могут существовать различные представления о том, что означает быть женатым или замужем, и какие роли и обязанности связаны с браком.

Касательно азербайджанской культуры, можно сказать, что во многих традиционных семьях и даже среди молодых поколений существует более консервативное и уважительное отношение к семейным традициям и браку. Важные аспекты в азербайджанской культуре могут включать:

- *Семейные ценности*: Семья в азербайджанской культуре часто считается основой общества, и семейные связи имеют высокую степень значимости.
- *Аранжированные браки*: В некоторых традиционных азербайджанских семьях аранжированные браки могут быть распространены, особенно в сельских областях. Это означает, что родители или старшие члены семьи могут принимать решение в выборе подходящей пары для своего чада.
- *Роль гендеров*: В классической азербайджанской культуре распределение ролей между мужчинами и женщинами довольно традиционное. Обычно мужчина воспринимается как обеспечивающий и защищающий член семьи, а женщина как заботливая матерь и домохозяйка. Однако современное общество и городское население могут менять эту динамику, и гендерные роли становятся более равноправными.
- *Расширенные семьи*: В азербайджанской культуре расширенные семьи (с родственниками по обеим линиям) часто имеют большое значение. Семейные связи бывают очень крепкими, и члены семьи могут оказывать поддержку и помощь друг другу.

Но надо отметить, что культура постоянно эволюционирует, и в современных городских обществах традиции могут меняться и смягчаться под влиянием глобализации, образования и смешения различных культурных аспектов. Молодые поколения в Азербайджане и в других странах тоже часто выражают свои собственные представления о семье и браке, которые могут быть более современными и свободными.

Семейные и брачные фреймы, представления и стереотипы могут различаться в разных культурах, включая Великобританию (Англию). Некоторые общие черты, которые были характерны для традиционной британской культуры:

- *Семейные ценности*: В Великобритании семейные ценности традиционно считаются важными. Семья рассматривается как основа общества, и поддержание тесных семейных уз между членами семьи является приоритетом.
- *Атомизация*: Традиционный образ семьи в Англии предполагает небольшую "атомизированную" семью, состоящую из родителей и их детей. Однако, такие семьи с каждым поколением становятся все менее распространенными.

- *Равноправие*: В семейных отношениях в Англии считается важным поддерживать равноправие между партнерами. Традиционно, роль мужчины и женщины в семье были четко разграничены, но с течением времени эти роли стали меняться, и многие стремятся к более равным отношениям.
- *Брачные традиции*: Брак считается важным событием в жизни многих людей в Англии. Хотя ритуалы могут различаться в зависимости от религиозных и культурных факторов, обычно свадебная церемония и вечеринка следуют после заключения брака.
- *Многокультурное общество*: Современная Англия представляет собой многокультурное общество, и это отражается на представлениях о семье и браке. Культурные различия влияют на традиции, обычаи и ожидания в отношении семейных и брачных отношений.
- *Распределение ролей*: В современной Англии тенденция к тому, чтобы роли в семье были более гибкими и основывались на интересах и способностях каждого партнера. Это может означать равномерное распределение обязанностей в домашних делах, воспитании детей и финансовых обязательствах.
- *Развитие образования и карьеры*: Семейные и брачные стереотипы в Великобритании также связаны с развитием образования и карьеры. Современные семьи стремятся поддерживать образование и независимость своих членов, включая женщин, которые становятся более активными в рабочей деятельности [4, 66-67].

В английской культуре фреймы связаны с индивидуализмом и самовыражением. В английском языке также есть фреймы, связанные с гендерными ролями, например, "мужской кодекс" или "женское достоинство". В английской культуре фрейм «семья» может включать в себя различные формы семейных отношений, включая однополые браки.

В русской культуре фрейм «семья» часто связан с браком и уходом за детьми. В русском языке существует фрейм "материнство", который активно используется для описания женской роли в обществе. Фреймы семьи и брака в России и для русских людей имеют свои уникальные особенности, которые обусловлены историческими, культурными и социальными факторами [5, 12]. Важно отметить, что Россия является многокультурной страной с разнообразными традициями и верованиями, и каждая семья может придерживаться своих собственных фреймов.

- *Семейные ценности*: В российской культуре семья обычно играет важную роль в жизни общества. Большинство россиян ценят традиционные семейные ценности, такие как взаимная поддержка, верность, уважение к старшим и забота о детях. Семейные связи и близкие отношения между родственниками традиционно считались важными.
- *Роль мужчины и женщины*: В традиционных русских семьях мужчину обычно рассматривают, как главу семейства, который должен обеспечивать материальной поддержкой свою семью, а женщина обычно отвечает за ведение домашнего хозяйства и воспитание детей. Однако ситуация меняется, и современные российские семьи становятся более равноправными, где роли могут быть распределены в зависимости от личных предпочтений и обстоятельств.
- *Брак и свадьба*: Брак считается важным общественным событием, и свадебные традиции различались в разных регионах России. Обычно свадебные церемонии проводились согласно религиозным обрядам или гражданским законам. Особенно в деревнях и маленьких городах традиции и обычаи были более консервативными.
- *Многопоколенческие семьи*: В России не редкость многопоколенческие семьи, где родители, дети и даже бабушки с дедушками жили вместе. Это было связано с традицией ухода за пожилыми родственниками и укреплением семейных уз.
- *Значение детей*: Дети играют важную роль в российской семье, и у большинства российских семей сохранилось стремление иметь детей. Воспитание детей часто основывалось на принципах уважения к старшим, дисциплине и традиционных ценностях.

- *Религиозные влияния*: Религиозные традиции также могут повлиять на фреймы семьи и брака в России. Например, православные христиане часто придерживались своих обрядов и традиций, влияющие на структуру семьи и отношения внутри нее.

Важно помнить, что семейные фреймы могут сильно различаться даже внутри одной страны, и современное общество постепенно меняется, влияя на традиции и обычаи в семейной жизни россиян.

3. Фреймовые отличия в коммуникации

При общении на разных языках важно понимать фреймовые отличия и учитывать их при выборе языковых средств и форм общения. Для оптимизации межкультурной прагматики необходимо учитывать культурные особенности каждого языка и стремиться к сбалансированному и уважительному общению, учитывая социальные и культурные факторы, влияющие на взаимодействие между людьми.

- *Фрейм «женщина»*

В азербайджанской культуре, где доминирует патриархальная система, мужчина часто воспринимается как более компетентный и авторитетный, чем женщина. Это может привести к тому, что женщины используют более косвенные и вежливые стратегии коммуникации, чтобы не вызывать недовольства или нарушить социальные нормы.

В русской культуре, где традиционно большое значение придается роли матери и семьи, женщины используют стратегии, которые усиливают их роль в качестве заботливых матерей [8, 68].

В англоязычной культуре, где более распространены индивидуалистические ценности, женщины могут использовать более прямые и убедительные стратегии коммуникации, чтобы выразить свои идеи и точки зрения.

В заключение можно сказать, что фреймовые отличия и оптимизация гендера в межкультурной прагматике являются важными аспектами, требующих дальнейших исследований и обсуждений. Фреймовые отличия относятся к различиям в системах представлений, стереотипах и когнитивных схемах, которые сформированы у людей в разных культурах. Эти отличия могут привести к недопониманию, конфликтам и препятствовать успешному межкультурному взаимодействию. Поэтому исследование и понимание этих фреймовых отличий поможет улучшить коммуникацию и сотрудничество между представителями разных культур.

Литература

1. Дубовая, Т.А. Проблема несовместимости лексических единиц в терминах лексической семантики и семантики фреймов / Т.А. Дубовая // Лингвистическая мозаика: наблюдения, поиски, открытия. - Волгоград, 1998.
2. Минский, М. Фреймы для представления знаний / М. Минский. - М.: Энергия, 1979.
3. Рогачева, Ю.Н. Репрезентация фрейма «память» в современном английском языке [Текст] / Ю.Н. Рогачева. - Дис канд. филол. наук: Рукопись. - Белгород, 2003. - 182 с.
4. Ромашина, О.Ю. Формирование фрейма эмоционального звучания и его репрезентация в глагольных лексемах современного английского языка / О.Ю. Ромашина: дис канд. филол. наук: - Белгород, 2004.
5. Старостина, Е.В. Фреймовый анализ русских глаголов поведения (на материале ассоциативных реакций) [Текст] / Е.В. Старостина. - Автореф. дис канд. филол. наук. -Саратов, 2004. - 23 с.
6. Уланова, С.Б. Фрейм как структура репрезентации знаний / С.Б. Уланова // Когнитивные аспекты языковой категоризации: сб. науч. тр. / отв. ред. Л. А. Манерко. - Рязань: Рязан. гос. пед. ун-т им. С. А. Есенина, 2000.
7. Филлмор, Ч. Фреймы и семантика понимания / Ч. Филлмор // Новое в зарубежной лингвистике. - М., 1988.
8. Хантимиров, С.М. Фреймовая структура семантики слова [Текст] / С.М. Хантими-ров // Вопр. филологических наук. - 2005. - № 2. - с. 67-69.

DİLDƏ BİR NİTQ HİSSƏSİNDƏN DİGƏRİNƏ KEÇİD HADİSƏSİNƏ FƏRQLİ ASPEKTDƏN NƏZƏRİ YANAŞMALAR

Roya Abdurahmanova*

Abstract

The present article is devoted to the transformation from one part of speech to another in linguistics. The article also deals with the investigation of the study of new word forms from various parts of speech, such as nouns, adjectives, verbs, and so on. The extended information about this linguistic phenomenon is provided in the article. The role of transformation in the formation of the language is undeniable, and it is important while expressing the language correctly. All human languages are likely to have this linguistic phenomenon as well. The transformation has been proven to enrich the vocabulary of the language and can be considered a high-yielding way of word-forming in present-day English as well. Based on different sources, the author comments on one and the same linguistic phenomenon such as transformation, transposition, and conversion, and so on.

Keywords: *transposition, conversion, transformation, parts of speech, syntactic, morphological.*

Giriş. Müasir dövrdə dünyada gedən proseslər bütün sahələrə təsir etdiyi kimi dilçilik sahəsinə də təsir etmişdir. Zaman keçdikcə dil inkişaf edir və onun bütün səviyyələrində dəyişikliklər müşahidə olunmağa başlayır. Dilin başlıca funksiyası insanlar arasında ünsiyyət vasitəsi olmaqdır və dildə baş verən bütün dəyişikliklər də məhz ünsiyyəti daha rahat və əlverişli şəkildə həyata keçirməkdən ibarət olmalıdır. Dildə gedən proseslərin bir qismi nitq hissələri ilə bağlı olur. Nitq hissələrinin təsnifi ilə bağlı problemlərdən biri də sözlərin bir nitq hissəsindən digər nitq hissəsinə keçididir. Ənənəvi olaraq nitq hissələri üç prinsipə əsasən bölünür: 1) Sözün leksik–semantik nöqteyi nəzərindən, 2) morfoloji nöqteyi nəzərindən və 3) sintaktik əlamətləri nöqteyi nəzərindən. Bu zaman qrammatik forma və sintaktik funksiya nəzərə alınır. Nitq hissələri bu prinsiplərlə təsnif olunur. Təsnif olunmuş nitq hissələri isə özü-özlüyündə leksik-semantik qruplara bölünür. Lakin, leksik semantik prinsip köməkçi nitq hissəsinə deyil, əsas nitq hissəsinə aiddir. Çünki köməkçi nitq hissəsi nin leksik mənası olmur. Onlar qrammatik məna daşıyırlar və qoşma, bağlayıcı, ədad və s. söz siniflərinə ayrılırlar.

Söz sinifinin yəni əsas nitq hissəsinin morfoloji sintaktik xüsusiyyətləri vardır. Məhz bu xüsusiyyətlərinə görə nitq hissələri bir birindən fərqlənirlər. Bu zaman həm sözdüzəltmə, həm də sözdəyişmə məsələlərinə diqqət yetirilir. Bundan əlavə nitq hissələrinin mübtəda, tamamlıq, xəbər, təyin və s. kimi sintaktik funksiyaları da nəzərə alınmalıdır.

Hər bir dilçi alim müxtəlif dil hadisələrinə fərqli tərif verir və hətta bəzən eyni bir dil hadisəsi haqqında zidd fikirlər səsləndirilir. Dilçilikdə müşahidə belə proseslərdən biri də məqaləmizin mövzusu olan bir nitq hissəsindən digərinə keçid hadisəsinə bir-birindən fərqli nəzəri yanaşmalardır.

Sözlərin bir nitq hissəsindən digər nitq hissəsinə keçid prosesinə dair müxtəlif tədqiqat işləri aparılmış və fərqli aspektən yanaşılaraq bu proses fərqli terminlərlə ifadə olunmuşdur. Keçid prosesinə dair morfoloji aspektdən aparılan tədqiqatlar dilçilikdə üstünlük təşkil etmişdir. Çünki bu zaman hər hansı bir nitq hissəsinin morfoloji göstəricisi digərinə keçir və bu səbəbdəndir ki, nitq hissələri arasındakı keçid prosesi əsasən morfoloji olaraq şərtləndirilir. Dilçilikdə nitq hissələri təsnif edilərkən sintaktik prinsipə çox vaxt daha aşağı mövqe kimi münasibət göstərilir belə ki, təqdim olunmuş mətndəki cümlədə nitq hissələrinin sintaktik vəzifəsi, yəni ismin, mübtəda və tamamlıq sintaktik funksiyası, və ya sifətin, sayın təyin funksiyası, feilin isə xəbər sintaktik vəzifəsini icra etməsi bu prinsipi ikinci dərəcəli edir. Halbuki, dilin fonteik, semantik və sintaktik səviyyələrində də oxşar dil hadisələri mövcuddur. Təəccüblü deyil ki, dilin səs, tərkib və sonluqlarının öyrənilməsi nəticəsində dilçilikdə keçid nəzəriyyəsi yaranmışdır [1, s. 5].

* *Azərbaycan Dillər Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent. Elek.poçt: abdurr.roya@adu.edu.az.*

Nitq hissələrindən bir-birinə keçid və keçidlilik məsələsi diqqət mərkəzində olan məsələdir. Əvvəllər bu anlayışlar eyniləşdirilirdi. Bunların fərqləndirilməsi daim diqqət mərkəzində olmuşdur. Lakin, son zamanlar bu mövzuya diqqət daha da artmışdır. Kateqorial əlamətlərin dəyişiminə keçid, bu cür dəyişmə qabiliyyəti isə keçidlilik adlanır. Buna görə, onlar arasında cins-növ münasibətləri ortaya çıxır.

Əsas hissə. Keçid prosesi sadə bir proses deyil. Bu həm aktual, həm də ümumi linqvistik problemdir. Bununla bağlı bir sıra nəziriyyələr mövcuddur. Dilçilikdə qədimdən bəri dilin maddi formasının tarixi araşdırılarkən keçid nəzəriyyəsi daim göz önündə olmuşdur. Bu nəzəriyyə dilin vəziyyəti və inkşafı ilə bağlıdır. Ferdinand de Sössür bu prosesi qeyri-müəyyən hadisə hesab edərək onu nitqə şamil edir. O, bunu nitqin manifesti kimi izah edir [2, s. 411-431].

İngilis dili olduqca məhsuldar dil olduğuna görə müxtəlif sözyaratma üsulları ilə leksikonuna yeni sözlər daxil edir. Şəkilçilər vasitəsilə sözdüzəltmə və mürəkkəb sözyaratma ilə dilə yeni sözlərin yardılması leksikləşmiş hal hesab edilir. Bununla belə sözyaratmanın məhsuldar forması olan konversiya kimi digər üsullar son dövrlərdə daha çox məhsuldarlıq qazanmışdır. Hələ 1985-ci ildə G.Kanon qeyd etmişdir ki, konversiya gələcəkdə daha çox aktivlik qazanacaq və ingilis dilində meydana gələn sözlərin böyük bir hissəsini yaradacaqdır [3, s. 415].

Məqalədə bir nitq hissəsindən digərinə keçid hadisəsi barədə olan fərqli fikirlər təhilil olunmağa cəhd edilir. Bu dilçilikdə olduqca maraqlı və cəlbedici hadisədir çünki bu dil hadisəsi geniş fəaliyyət sahəsinə malikdir. Məqalənin obyekti nitq hissələri arasında olan keçid prosesi, predmeti isə keçid hadisəsinə verilən adlardır. Qarşıya qoyulan məqsəd isə bir nitq hissəsindən digər bir nitq hissəsinə keçid prosesinə olan müxtəlif sintaktik yanaşmaları təhlil etmək və fərqlilikləri aşkara çıxarmaqdır. Bu məqsəddən aşağıdakı vəzifələr irəli gəlir:

Mözuya dair müxtəlif dilçilərin görüşlərini araşdırmaq;

Mövcud görüşlər arasında daha geniş yayılanını müəyyən etmək;

Təqdim edilən terminlərin mahiyyətini anlamaq;

Dil sisteminə asimmetrikliyin xas olması aydın məsələdir. Bu özünü daha çox semantik-funksional çarpazlaşmada göstərir. Bu asimmetrikliyin müxtəlif dil səviyyələrinə nüfuz edir, lakin daha mürəkkəb hal alan qrammatik asimmetrliklikdir. Bu da özünü bir nitq hissəsinə mənsub olan sözlərin digər nitq hissəsinə keçməsində daha aydın göstərir və daha mürəkkəb xarakterə malik olur. Buna görə də tədqiqatçıların daha çox diqqətini çəkmişdir və müxtəlif terminlərlə adlandırılmışdır: Transpozisiya [4], konversiya [5; 6; 7], derivasiya [8]transkateqoriyalaşma [9], substitusiya [10, s. 49-56] və transformasiya [11], Y.A.Vaxek [12], Y.S.Stepanov [13], L.A.Novikov [14] və b. bu prosesi transformasiya olaraq adlandırmışlar.

Yuxarıda qeyd olunan terminlər müxtəlif olduğu kimi onların mənalarında da müxtəliflik var. Transpozisya nəzəriyyəsi özündə təkcə keçid prosesini deyil, eyni zamanda bir funksiyanın müxtəlif formaları vasitəsi ilə ifadə olunmasını, eləcə də bir formanın müxtəlif funksiyalarda işlədilə bilinməsini göstərir.

Ş.Balli, L.Tenyer, A.Seşe transpozisya nəzəriyyəsinin əsasını qoyan müəlliflər hesab olunurlar [4; 15; 16]. Lakin, əvəllər bu sahədə Ş.Balli və L.Tenyer daha mühüm işlər görmüşlər [4; 15]. Transpozisyanın əmələ gəlmə yollarını funksional baxımdan ilk dəfə analtik quruluşlu dillərdə Ş.Balli təhlil etmişdir. O, bu çevrilmənin qrammatik tərəflərinin təhlilinə xüsusi diqqət yetirmişdir. Bu zaman semantik təbiət də nəzərə alınmışdır. Lakin, müəllif bu prosesin semantik və qrammatik təbiəti arasında fərqləri göstərməmişdir. Bütün nöqsanlarına baxmayaraq, onun araşdırması bu sahədə mühüm addım hesab olunur. Ş.Balli hesab edir ki, işarələr özlərinin katiqoriyalarında qapanıb qalmırlar. O, qeyd edir ki, əgər bu belə olsa idi, onlar nitq tələbatının ödənilməsində çox məhdud ifadə mənbəyi olaraq xidmət edərdilər, amma bu keçidlər sayəsində məna, azadlıq qazanır, ifadələr zənginləşərək yeni məna çalarları əldə edir. Müəllif tranpozisyanı araşdırarkən onun üç hissədən ibarət layihəsini hazırlamışdır. Ş.Balli bu sxemin birincisini transpozisiyaya məruz qalan işarəyə, ikincisini yeni kateqoriyanı ifadə edən işarəyə, üçüncüsünü isə transpozisiyanın köməyi ilə yenidən yaranan işarənin transpozisyaya həsr etmişdir [4].

Transpozisiya faktlarının təhlili zamanı L.Tenyer Ş.Ballinin sxemindən istifadə etmişdir. Bu zaman o, transpozisiya terminini transiliyasiya termini ilə əvəz etmişdir. O, Ş.Ballidən fərqli olaraq transpazisiyanın iki səviyyəsinin mövcudluğunu qeyd etmişdir. Bunlar isə təbii olaraq morfologiya və sintaksislə bağlıdır [15].

Transpozisiyanın əsasında duran keçid nəzəriyyəsi özü də keçidin vəziyyətini və inkşaf tarixini ehtiva edir. Dil vahidlərinin strukturca yəni quruluş baxımından dəyişməsi, dilin inkşafı zamanı keçid vəziyyəti transformasiya adlanır.

Transpozisiya səs və qrafik tərkibini dəyişmədən təqdim olunmuş ifadəni bir nitq hissəsindən digərinə keçididir. Bunun mahiyyəti isə müxtəlif siniflərin elementləri arasında funksional və semantik baxımdan dövriyyə mexanizimindən və işarəyə xarakterik olmayan kommunikativ mövqeyə keçməsinin məcmusudur. Dilçilikdə mövcud keçid prosesini transpozisiya adlandıran alimlərə O.M.Kim, V.M.Qak və başqalarını göstərmək olar [17; 18, s. 67-72].

Transpozisiyada mövcüd olan dinamik keçidin növləri tarixi prosesləri əks etdirməklə yanaşı sinxron dil normalarını da ehtiva edərək çağdaş dilçilkdə baş verən dinamik hadisələri əks etdirir.

Transpozisiya adı verilən bu proses eyni zamanda Y. Rubinçik tərəfindən eyni terminlə vurğulanaraq bu prosesi heç bir söz düzəldici şəçilki olmadan baş verdiyini qeyd etmişdir [19].

V.Koduxov bu barədə tədqiqat aparərkən qeyd etmişdir ki, sinkretizm halı vahidlərin maddi və formal birliyi kimi bir çox qiymət və funksiyaya sahibdirlər. Leksik və morfoloji ommonimliyi müəllif sinkretizmin ən parlaq nümunəsi hesab edir. Bu hadisəni V.Koduxov semantik növün qeyri-müəyyənliyi hesab edir. O qeyd edir ki, mənalar eyni formalarda aşkar olunduğu təqdirdə bu dil hadisəsi ortaya çıxır. Bunun nəticəsində də vəziyyətin aralıq keçidi sinkretizm keçidindən fərqlənir. Çünki burada dil vahidi formal və semantik ifadə edilməzliyin və qeyri-müəyyənliyin olmasıdır. Bu proses zamanı dil vahidinin, forma və mənanın müxtəlif kateqoriyalarının uyğunlaşdırılması baş verir [1, s. 5-16].

Transpozisiya hadisəsini səciyyələndirən R.Qaysina bu prosesin üç növünü fərqləndirir: funksiyanın transpozisyası, formanın tanspozisiyası və mənanın transpozisiyaı. Substantivləşməyə gəldikdə, funksiyanın transpozisiyası sözügedən hadisənin sintaktik tipinə uyğun gəlir, çünki bu, müxtəlif nitq hissələrinə məxsus sözlərin ikili sintaktik funksiyanı yerinə yetirməsindən ibarətdir. Formanın transpozisiyası morfoloji substantivləşməyə uyğun gəlir və sözün səs cildinin başqa nitq hissəsinin mənasını qazanmasından və həmin nitq hissəsi kimi fəaliyyət göstərmək imkanından ibarətdir [20].

Müxtəlif müəlliflər mövcud dil hadisəsinə fərqli adlar vermişlər: Bunlardan ən məşhuru transpozisiya və konversiyadır. Qrammatik keçidi digər keçidlərdən fərqləndirən cəhət onun bir nitq hissəsindən digərinə keçməsidir. Bu məsələ özündə aşağıdakıları ehtiva edir:

1) Başlanğıc və sonrakı münasibətlər arasında olan münasibətlərin funksional xarakteri
2) Başlanğıc vahidin leksik-qrammatik təsnifi
3) Sonrakı vahidin leksik-qrammatik təsnifi

Qeyd olunmalıdır ki, bu hadisələr keçid prosesində baş tutur və substantivləşmə ilə üzvi şəkildə bağlıdır. Bu prosesin nəticəsində mütləq və nisbi növlər fərqləndirilir. Mütləq substantivləşmə zamanı mprfoloji əlamtələrlə yanaşı sintaktik əlamətlər də nəzərə alınır. Nisbi substantivləşmə zamanı sadəcə olaraq söz formasının təbiəti dəyişir. Sözlərin bir nitq hissəsindən digərinə keçid prosesi terminaloji cəhətdən müxtəlif cür adlandırılmışdır. Bu prosesi terminaloji cəhətdən Q.Sokolova həm konversiya həm də transpozisiya adlandırmışdır. O yazır: “Hər bir sözün müəyyən təsir dairəsi vardır. Dil sistemində isim həm əşya, həm də əlamət mənasını eyni zamanda verə bilməz. Əgər onda konkret əşya mənası varsa, demək onda əlamət mənası yoxdur [21, s. 7].

Müasir ingilis dlində şəkilçisiz söz yaratmanın ən məhsuldar nönü konversiya hesab edilir. Bəzi müəlliflər konversiyanı dil hadisəsi kimi həm morfologiyaya həm də sintaksisə şamil olunmasını düzgün hesab edirlər. Onlar bunu sözün morfoloji baxımdan formasını dəyişdirməklə sintaktik baxımdan isə funksiyasını dəyişdirməklə əsaslandırırlar [22, s. 7]

Konversiya dilçilik ədəbiyyatında morfoloji, morfoloji-sintaktik, qrammatik, qrammatik-leksik, qrammatik-semantik hadisə olaraq nəzərdən keçirilir. Konversiya hadisəsi zəngin qrammatik və semantik xüsusiyyətlərə malikdir.

Dildə dinamiklik daima özünü göstərir. Bu da transpozisiya prosesində özünü göstərir. Eyni zamanda müxtəlif nitq hissələrinə aid sözlərin ismə keçməsində də bu dinamiklik baş qaldırır.

Substantivləşmə isim olmayan nitq hissəsinin keçid prosesi nəticəsində ismə çevrilməsidir. Substantivləşmə bir proses kimi morfoloji və sintaktik tiplərə ayrılır. Bunun nəticəsində də dil substantivləşməsi və nitq substantivləşməsi yaranır. Dil substantivləşməsi prosesin dar yəni morfoloji mənada qəbuludur. Nitq substantivləşməsi isə geniş və yaxud sintaktik mənada prosesin qəbuludur. Bu eyni zamanda funksional substantivləşmə adlanır. Substantivləşmə dilçilikdə həm dil, həm də nitq nöqteyi nəzərindən araşdırılır.

Substantivləşmənin tədqiqi çox əvvəldən başlayır. Lakin, günümüzdə substantiveşmə prosesinin müxtəlif nitq hissələrini və dil səviyyələrini əhatə etməsinə baxmayaraq, əvvəllər bu proses yalnız sifətlərin və feili sifətlərin isimləşməsi kimi tədqiq olunmuşdur [23].

Dilin tarixi inkişaf mərhələsinin ilk dövründə sinkretizm ayrılmazlıq qovuşmazlıq mənasında işlədilmişdir. Məşhur dilçilər arasında bu prosesi V.Vinoqradov və A.Şerba da bu mövzudan kənarda qalmamış və öz tövhələrini dilçiliyin bu sahəsinə yönəltmişlər. Adları qeyd olunan müəlliflər bu prosesi transpozisiya adlandıranlarla razılaşmışlar. Öz sələflərindən fərqli olaraq, tədqiqatçılar keçidin müasir növünü hibridləşmə kimi qələmə vermişlər. Transformasiya dedikdə, V.Vinoqradov və A.Şerba şəklini dəyişmə, bir haldan başqa bir hala düşmə, başqa şəkilə düşmə kimi izah etmişlər. Müəlliflər transpozisiya terminində daha fərqli yanaşaraq onu köçürmə, köçürülmə və yerdəyişmə adlandırmışlar. Hibridləşmə terminini isə qoşalaşdırma və cütləşdirmə nəticəsində əldə edilən anlayışları ifadə etmək üçün yaradılan termin kimi göstərmişlər [24; 25].

Nəticə və elmi yenilik. Məqalədə çağdaş dilçilik ədəbiyyatında nitq hissələri arasındakı keçid dil və nitq hadisəsi kimi birlikdə təhlil olunmuşdur. Demək olar ki, bütün qrammatik kateqoriyalar bir söz formasından bir neçəsinə keçid ala bilər. Bu hadisə digər sözyaratma növləri ilə müqayisədə daha uyumludur və hüdüları məhdud deyil. Bütün bu qeyd olunanlar bir nitq hissəsindən digərinə keçidin əhatə dairəsini hüdüdsuz edir.

Mövcud dilçilik hadisəsinə dair bir çox müəlliflər kifayət qədər araşdırmalar aparmışlar. Bu araşdırmaların çoxluğuna baxmayaraq onlarda ortaq məxrəcə gəlmək mümkün olmuşdur. Məqalədə daha çox diqqət çəkən məsələ eyni dilçilik hadisəsinin müxtəlif terminlərlə adlandırılmasıdır: Transpozisiya, konversiya, derivasiya, transkateqoriyalaşma, substitusiya, transformasiya və s. Müasir dilçilikdə qeyd olunan terminlərin içərisindən daha çox "Konversiya" terminə müraciət olunur. Substantivləşmə transpozisiyanın və ya konversiyanın növlərindən biri hesab edilir. Sonuncu fikir ilə razılaşan alimlərin sayı çoxluq təşkil edir. Biz isə bu dil hadisəsini bir daha konversiyanın növü kimi qəbul edirik və o dil vahidinin bir sinifdən digər sinifə keçmə hadisəsi kimi başa düşülür.

Nitq hissəsləri arasındakı keçidlər sayəsində məna azadlıq qazanır, ifadələr zənginləşərək yeni məna çalarları əldə edir. Bu keçidlər dilin inkşaf tarixi zamanı, müxtəlif növ və formalarda üzə çıxır. Mövcud dil hadisəsi məxsus olduğu dilin lüğət tərkibində zənginlik yaradır.

İstifadə edilmiş ədəbiyyat

1. Кодухов В.И. Семантическая переходность как лингивистическое понятие/ Семантика переходности . Л. : ЛГПИ им. А.И.Герцена, 1977, с.5-16.
2. Соссюр, Фердинанд де. Курс общей лингвистики (перев. А.М.Сухотина) / Москва: Изд-во URSS, – 2004. – 256 с.
3. CANNON, G. "Functional Shift in English." *Linguistics*. 23:.1985, 415 p.
4. Балли Ш. Обшая лингвистика и вопросы французского языка. М.: Изд-во литературы на иностранных языках, 1995, 416 с,
5. Смирницкий А. И. Так называемая конверсия и чередование звуков в английском языке// иностранный язык в школе, 1953 №5 с.14-19

6. Məmmədov B. Müxtəlif sistemli dillərdə feili sifətlərin substantivləşməsi məsələsinə dair // Azərb. Pedaqoji Dillər İnstitutunun elmi əsərləri. Dil və ədəbiyyat seriyası, №1, Bakı, 1971, s. 66-71 38.
7. Axundov A. Azərbaycan dilində konversiya // Dil və Ədəbiyyat. 2 cilddə, I c.,, Bakı, 2003, s. 328-331
8. Курилович Е. Деривация лексическая и деривция синтакчисеская /Очерки по лингивистике. М.: 1962, с. 57-70
9. Борте Л.В. Взаимодействие в сфере основных грамматических классов слов современного русского языка: Автореф. Дис. Докт. Филол. Наук. Днепропетровск, 1986, 32 с.
10. Лукин М. Ф. Критерии перехода частей речи в современнрм русском языке //Филологические науки, №3, 1986, с. 49-56
11. Мигрин В.Н. Очерки по теории процессов переходности в русском языке. Белъцъ: 1971, 199 с.
12. Вахек Й. А. Лингвистический словарь Пражской школы. М.: Прогресс, 1964, 349 с.
13. Степанова М. Д. Словообразование современного немецкого языка. М.: Издательство Литературы на иностранных языках, 1953, 375 с.
14. Новиков Л. А. Семантика русского языка. М.: Высшая школа, 1982, 271 с.
15. Теньер Л., Основы структурного синтаксиса. М., «Прогресс», (Перевод с французского И.М.Богуславского, Л.И.Лухт, Б.П.Нарумова, С.Л.Сахно.) 1988.
16. Сеше А.Программа и методы теоретической лингвистики: Психология языка. Пер. с фр. Изд. 2 Albert Sechehaye "Programme et méthodes de la linguistique théorique". (In Russian). URSS. 2010. 264 с
17. Ким О. М. Транспозиция на уровне частей речи и явление омонимии в современном русском языке. Ташкент: Фан, 1978, 227 с.
18. Гак В.Г. Сопоставительная лексикология, М.: Междунар отношения, 177.-266 с.
19. Рубинчик Ю.А. Грамматика современного персидского литературного языка. М.: Восточная литература РАН, 2001,600 с.
20. Гайсина Р.М. Межкатегориалъный переход понятия и обогащение лексики: Учебное пособие. Уфа: Изд-во Башкирского государственного университета, 1985, 80 с.
21. Соколова Г,Г, Транспозиция прилагательных в существительных: (пособиепо лексикологии французкого языка).М.: Высшая школа,1973,1975 с.
22. Zahraa Adnan Fadhil Al-Murib Conversion in English, Najaf, Iraq Education and Linguistics Research Vol. 7, No. 1, 2021
doi:10.5296/elr.v7i1.18624 URL: https://doi.org/10.5296/elr.v7i1.18624
23. Sadıqova, Y.M. Çağdaş İngilis və Azərbaycan dillərində substantivləşmə: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2012. – 44 s.
24. Виноградов В. В. Грамматика русского языка: в 2-х т. Т. 1, М.:Издательство Академии Наук СССР, 1960, 716 с.
25. Щерба Л.В. Языковая система и речевая деятельность. Л., 1974,

NİTQ ETİKETİ NİTQ MƏDƏNİYYƏTİNİN VACİB KOMPONENTİ KİMİ

Sevil Hümmətova*

Abstract

Speech etiquette as an important component of speech culture

Ethical issues of speech require proper observance of rules of polite behavior and ethical norms. Ethics includes polite speech and moral norms that regulate people's attitude towards each other within a certain society. Polite behavior, actions, and behavior are considered to be the main and main components of our national spirituality and culture. Without mastering the cultural features and qualities of speech, it is impossible to participate in the ethical-cultural communication process.

It is the anticipation of the rules of etiquette in oral and written speech that characterizes the efficiency of speech with a certain purpose and the ability to express it correctly. Behavioral and speech skills should be inculcated in a person from a young age in order to use the rules of etiquette that are considered important to be observed in speech. In daily life experience, these skills should become a habit and should be applied in any situation.

Keywords: *speech etiquette, speech culture, norm, etiquette, communication.*

Giriş. Bu gün "mədəniyyət" anlayışı ilə bağlı hər bir mövzu son dərəcə aktualdır. Görünüş mədəniyyəti, əqli əmək mədəniyyəti, davranış mədəniyyəti, ünsiyyət, nitq mədəniyyətini bura aid edə bilərik.

İnsanın formalaşmasında, şəxsiyyət kimi yetişməsində nitq və ünsiyyət mədəniyyəti böyük əhəmiyyət kəsb edir. İnsanın bir şəxsiyyət kimi mədəniyyəti daha parlaq və ən dəqiq şəkildə nitqində ifadə olunur. İnsan həyatı nitqsiz qeyri-mümkündür. İnsanın təhsilindən və yaşından asılı olmayaraq, nitq etiketi və nitq mədəniyyəti haqqında biliklər xoş təəssürat yaratmağa, əlaqələr qurmağa və tərbiyəli insana xas olan qızıl qaydalara məhəl qoymayan insanlar üzərində üstünlük əldə etməyə kömək edir. İnsan haqqında təsəvvür, bir qayda olaraq, onunla ünsiyyət zamanı, yəni kommunikativ mühitdə formalaşır. Ona görə də müasir cəmiyyətdə ünsiyyət mədəniyyətinin tərbiyəsi onun prioritet istiqamətlərindən biridir.

Mədəniyyətin geniş anlaşılması, qeyd edildiyi kimi, ünsiyyət mədəniyyəti, nitq davranışı mədəniyyəti adlandırılanları əhatə edir. Ona sahib olmaq üçün nitq etiketinin mahiyyətini dərk etmək vacibdir. Müasir dövrdə nitq etiketi normalarının öyrənilməsi konkret ünsiyyət aktında uğur əldə etməyə yönəlmiş praktik məqsədə çevrilir.

Nitq etiketi insanın cəmiyyətdə uğurlu fəaliyyəti və özünü dərk etməsi üçün mühüm rol oynayır. Nitq etiketinin fəal qorunub saxlanmasına, yəni dil və nitq materialının toplanmasına, öyrənilməsinə, təsvirinə, elmi biliklərin geniş yayılmasına, müasir cəmiyyətdə ən yaxşı milli adət-ənənələrin və xeyirxah davranış formalarının yetişdirilməsinə böyük ehtiyac var. Nitq etiketi dil səviyyəsini və nəticədə ümumi insan mədəniyyətinin səviyyəsini əks etdirən güzgüdür. Buna görə nitq etiketi formullarının qorunması və fəal istifadəsi problemi getdikcə aktuallaşır və nitq etiketi problemi günümüzün ən aktual mövzularından birinə çevrilir.

Əsas hissə. Nitq mədəniyyəti mürəkkəb və çoxmənalı anlayışdır. Bu, bir tərəfdən xüsusi bir elmi fəndir, digər tərəfdən isə hər bir insanın müəyyən biliklərinin, nitq bacarıqlarının və nitq vərdişlərinin məcmusudur. Bu cür bilik, bacarıq və vərdişlər nə qədər çox olarsa, nitq mədəniyyətinin səviyyəsi də bir o qədər yüksək olar. Nitq mədəniyyətinin əsas anlayışı "norma"dır. Norma dilin inkişafının müəyyən mərhələsində qəbul edilmiş sözün istifadə, əmələ gəlmə, tələffüz, cümlənin qurulması və s. qaydalarıdır. Norma obyektiv xarakter daşıyır: heç kim tərəfindən icad edilmir, dil qanunlarından qaynaqlanır. Norma tənzimləyici xarakter daşıyır: ədəbi dildə danışanların hamısını ona əməl etməyə məcbur edir. Faktiki olaraq, istənilən bir dilin qrammatikası, lüğəti, dərsliyi həmin dilin normalaşdırılmasıdır. Bu o deməkdir ki, nitq mədəniyyəti erkən uşaqlıqdan öyrədilir və dilin tədrisi

* ***Bakı Slavyan Universiteti, pedaqogika üzrə fəlsəfə doktoru, dosent. Elek.poçt: sevil1966@bk.ru.***

prosesində məktəbdə mümkün səhvlər aradan qaldırılmalıdır. Amma təəssüf ki, şagirdlər, hətta məktəb məzunları heç də həmişə düzgün danışa və yaza bilmirlər.

Ədəbi dildə tələffüz, eləcə də sözlərin seçimi və qrammatik formalardan istifadə müəyyən qayda və normalara tabedir [8, s. 400]. Düzgün, vahid tələffüz ilə insanlar bir-birlərini daha tez başa düşür, bu insanlar arasında ünsiyyəti asanlaşdırır, ona görə də tələffüzünə nəzarət etməli, səsləri, onların birləşmələrini düzgün tələffüz etməli, vurğulanmış hecaları düzgün vurğulamalı, yəni ədəbi dildə qurulmuş tələffüz normalarına riayət edilməlidir. Tələffüz normaları dəyişməz qalmır.

Nitq etiketi müəyyən mədəniyyətdə qəbul edilən ifadələrin formasına, məzmununa, qaydasına, xarakterinə və situasiya uyğunluğuna dair tələblər toplusudur.

Nitq etiketi üzrə tanınmış tədqiqatçı N.İ.Formanovskaya nitq etiketinə belə bir tərif verir: "Nitq etiketi dedikdə nitq davranışının tənzimləyici qaydaları, həmsöhbətlər arasında əlaqə yaratmaq, seçilmiş tonallıqda əlaqəni qorumaq və kəsmək üçün cəmiyyət tərəfindən qəbul edilmiş və təyin edilmiş milli spesifik stereotip, sabit ünsiyyət formulları sistemi başa düşülür" [5, s. 372]. Nitq etiketinə, xüsusilə, insanların vidalaşmaq üçün işlətdiyi söz və ifadələr, xahişlər, üzrxahlıqlar, müxtəlif situasiyalarda qəbul edilən müraciət formaları, nəzakətli nitqi xarakterizə edən intonasiya xüsusiyyətləri və s. aid edilir. Nitq etiketinin öyrənilməsi dilçilik, mədəniyyət nəzəriyyəsi və tarixi, etnoqrafiya, regionşünaslıq, psixologiya və digər humanitar elmlərin kəsişməsində xüsusi yer tutur.

Ara-sıra "Etiket", "İşgüzar etiket", "Diplomatik etiket", "İşgüzar ünsiyyət etiketi" və s. adlı kursların açıldığı barədə elanlar, mesajlar və reklamlar verilir. Bu, insanların müəyyən bir vəziyyətdə necə davranmağı, şifahi və onun vasitəsilə işgüzar, dostluq və s. əlaqələrini necə düzgün qurmağı və saxlamağı bilmək ehtiyacı ilə əlaqədardır [3, s. 117].

Mədəniyyət anlayışı geniş mənada, sözsüz ki, ünsiyyət mədəniyyətini, nitq davranışı mədəniyyətini ehtiva edir. Ona sahib olmaq üçün nitq etiketinin mahiyyətini dərk etmək vacibdir.

Ünsiyyətdə insanlar bir-birinə bu və ya digər məlumatları, müəyyən fikirləri ötürür, nəyisə çatdırır, nəyəsə həvəsləndirir, nəyəsə təşviq edir, nəyisə soruşur, müəyyən nitq hərəkətlərini yerinə yetirirlər. Ancaq məntiqi və mənalı məlumat mübadiləsinə keçməzdən əvvəl şifahi əlaqəyə girmək lazımdır və bu da müəyyən qaydalara uyğun olaraq həyata keçirilir. Biz həmin qaydalara vərdiş etdiyimiz üçün, demək olar ki, onlara diqqət yetirmirik. Nəzərə çarpan isə, məhz yazılmamış qaydaların pozulması olur: Satıcı alıcıya "sən" deyə müraciət etdi, tanışı görüş zamanı salam vermədi, kiməsə xidmətə görə təşəkkür edilmədi, kimsə xətasına görə üzr istəmədi və s. Bir qayda olaraq, nitq davranışı normalarına bu cür əməl edilməməsi inciklikliyə səbəb olur, hətta kollektivdə mübahisəyə çevrilir və ya qarşıdurma ilə nəticələnir. Buna görə də şifahi əlaqəyə girməyi, nitq kontaktını qurmağı bacarmaq və bu cür əlaqələri saxlamaq qaydalarına diqqət yetirmək vacibdir – çünki bunlarsız işgüzar münasibətlər mümkün deyil [6, s. 23]. Aydındır ki, ünsiyyət və nitq davranışı normalarından xəbərdar olmaq, onları dərk etmək hər kəs üçün, xüsusən də nitqlə bağlı peşə sahibləri üçün faydalıdır. Bunlar müəllimlər, həkimlər, hüquqşünaslar, xidmət işçiləri, iş adamları və hətta valideynlərdir.

Nitq davranışı qaydaları nitq etiketi ilə tənzimlənir. Nitq etiketi əlaqə qurmaq və əlaqəni saxlamaq vəziyyətində istifadə olunan sabit ifadələr sistemi ilə dildə və nitqdə formalaşır. Bunlar müraciət, salamlaşma, vidalaşma, üzr istəmə, minnətdarlıq, təbrik, arzu, rəğbət, başsağlığı, razılıq, iltifat, tərif, dəvət, təklif, məsləhət istəmə və bir çox başqa hallardır. Nitq etiketi həmsöhbətə qarşı xoşniyyətli münasibəti ifadə edən hər şeyi əhatə edir ki, bu da əlverişli ünsiyyət mühiti yarada bilər. Zəngin dil vasitələrinin toplusu nitq situasiyasına uyğun və ünvan sahibi üçün əlverişli olan "sən" və ya "siz" ünsiyyət formasını seçməyə, səmimi, rahat və ya əksinə, söhbətin rəsmi danışıq tonunu təyin etməyə imkan verir.

Xüsusilə vurğulamaq lazımdır ki, nitq etiketində danışan və onun adresatı haqqında, onların bir-birini tanıyıb-tanımamaları, yaşa, rəsmi mövqeyə görə bərabərlik/bərabərsizlik münasibətləri, onların şəxsi münasibətləri (tanış olduqları təqdirdə), ünsiyyətin hansı şəraitdə (rəsmi və ya qeyri-rəsmi) baş verdiyi barədə sosial məlumatlar ötürülür və s.

Beləliklə, nitq etiketinin ən uyğun ifadəsinin seçimi ünsiyyətə giriş qaydalarını (və sənətini) təşkil edir.

Nitq mədəniyyəti dil haqqında elmin insanların müxtəlif ünsiyyət şərtlərindən asılı olaraq dil normalarına uyğunluq və nitqdə dilin ifadəli vasitələrindən istifadənin məqsədəuyğunluğu məsələlərini həll edən bölməsidir [1, s. 152].

Nitq mədəniyyətində iki cəhəti fərqləndirmək lazım gəlir: 1) nitqin düzgünlüyü; 2) nitq məharəti.

Nitqin düzgünlüyü dedikdə, müasir ədəbi dilin dil normalarına riayət edilməsi başa düşülür. Danışanlar və yazanlar norma baxımından nitqi düzgün (norma) və ya yanlış (səhv) kimi qiymətləndirirlər. Müasir ədəbi dillərdə fonetik, leksik-frazeoloji, söz yaradıcılığı, morfoloji, sintaktik, üslubi normaları qeyd etmək olar.

Fonetik normalar ədəbi dilin səslərinin düzgün tələffüzü, sözlərdə vurğunun düzgün qoyuluşu və düzgün intonasiyaya riayət olunması normalarıdır.

Leksik-frazeoloji normalar sözlərin və frazeoloji vahidlərin özünəməxsus leksik mənasında istifadə normaları və cümlədə sözlərin və frazeoloji vahidlərin digər sözlərlə birləşməsi normalarıdır. Sözlərin və frazeoloji vahidlərin istifadə normaları və birləşmə normaları leksika və frazeologiyada öyrənilir və lüğətlərdə öz əksini tapır.

Morfoloji normalar ad bildirən nitq hissələrinin, əvəzliklərin, feli sifətlərin hallanması zamanı və fellərin dəyişməsi zamanı sözdəyişdirmə normalarıdır.

Sintaktik normalar sintaktik konstruksiyaların – söz birləşmələrinin və cümlələrin qurulması üçün normalardır.

Üslubi normalar müəyyən funksional üsluba xas olan dil vasitələrindən istifadə etmək bacarığıdır [4, s. 97].

Nitq məharəti, dil normalarına riayət etməklə, fikir və münasibətləri ifadə etmək üçün mümkün variantlardan ən uğurlu olanını seçmək bacarığıdır.

Nitq məharəti nöqteyi-nəzərindən danışanlar və yazanlar bir-birlərinin nitqini iki cür qiymətləndirirlər: daha pis, daha yaxşı.

Görkəmli yazıçıların bədii əsərləri nitq ustalığının bariz nümunəsidir. Onların qaralama ilə işləməsi, əsərlərinin səhifələrini yenidən yazması, yəni əvvəlki versiyalar əsasında yeni variantları yaratması mətnlərin ifadəliliyini yaxşılaşdırmağa yönəlmiş əziyyətli, böyük zəhmət tələb edən işlərdən danışır.

Dil vasitələrinin uğursuz seçimi şifahi nitqdə və yazıda üslubi çatışmazlıqların təzahürünə səbəb olur [7, s. 311].

Həmçinin ünsiyyət mədəniyyətində normativ tələffüz böyük rol oynayır. Bu sahədə normadan hər hansı kənarlaşma dinləyicinin diqqətini ifadənin məzmunundan yayındırır, düzgün qavramasına mane olur, narazılıq hissi yaradır, bir növ səliqəsizlik təəssüratı bağışlayır. Ədəbi tələffüz və vurğu səsli nitqin ən mühüm komponentləridir.

İstənilən xalqın dili onun sözdə təcəssüm olunmuş tarixi yaddaşıdır. Xalqın minillik mənəvi mədəniyyəti, məişəti dildə, onun şifahi və yazılı formalarında, müxtəlif janrlı abidələrdə özünəməxsus və bənzərsiz şəkildə əks olunur. Və buna görə də dil mədəniyyəti, söz mədəniyyəti bir çox nəsillər arasında ayrılmaz bir əlaqə kimi meydana çıxır [2, s. 253].

Ana dili millətin ruhudur, onun ilkin və ən bariz əlamətidir. Dildə və dil vasitəsi ilə milli psixologiya, xalqın xarakteri, təfəkkür tərzi, bədii yaradıcılığın orijinal unikallığı, təkrarolunmazlığı, əxlaqi durumu və mənəviyyatı kimi mühüm xüsusiyyət və əlamətlər üzə çıxır.

Nəticə. "Nitq etiketi" anlayışının məzmunu həmsöhbətlə nəzakətli ünsiyyəti nəzərdə tutan konkret situasiyalarda nitq davranışının cəmiyyət tərəfindən qəbul edilmiş qaydalarını əks etdirir. Nitq etiketi nitq mədəniyyətinin ən mühüm hissəsidir və kommunikativ, tənzimləyici, idraki, estetik, etik və tərbiyəvi funksiyaları yerinə yetirir.

Təhsil və sosiallaşma prosesində insan şəxsiyyətə çevrilərək dili getdikcə daha mükəmməl mənimsəyir, başqaları ilə münasibətlərin etik normalarını, o cümlədən nitq münasibətlərini öyrənir, başqa sözlə, ünsiyyət mədəniyyətinə yiyələnir. Bunun üçün ünsiyyət vəziyyətini idarə etməyi bacarmaq, digər insanların gözləntilərini təmin etmək, dil daşıyıcılarının şüurunda formalaşan "model" üçün səy göstərmək, danışanın və ya dinləyənin kommunikativ rollarının qaydalarına uyğun hərəkət

etmək, mətni üslub normalarına uyğun qurmaq, şifahi və yazılı ünsiyyət formalarına sahib olmaq vacib şərtlərdəndir.

Ailə, məktəb, media nitq mədəniyyətinə, adət-ənənələrimizə, danışıq tərzimizə, mimikamıza, jestlərə, yazılı ünsiyyətə, nitq etiketinə daha çox diqqət yetirməlidir. Söz düzgün istifadə edilməli olan çox güclü bir silahdır.

Ümumi qəbul edilmiş nitq etiket formullarının əsas məqsədi həmsöhbətin ləyaqətini tanımaq və ona hörmət göstərməkdir. Nitq etiketi formalarına yiyələnmək bütövlükdə düzgün nitq davranışının tərbiyə olunmasını əhatə edir, şüurda müsbət keyfiyyətlərin möhkəm təməlinin qoyulmasını nəzərdə tutur, insanda yüksək mənəvi mədəniyyətin formalaşmasına töhfə verir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı: ADPU nəşriyyatı, 2014, 278 s.
2. Cəfərov N., Mərdanova S., Qəribli A. Azərbaycan nitq mədəniyyəti. Bakı: Şərq-Qərb, 2018, 304 s.
3. Cəfərov V. Diplomatik etiket və nitq mədəniyyəti. Bakı: AzTU-nun mətbəəsi, 2009, 175 s.
4. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003, 159 s.
5. Hüseynov S., Qaracayeva E. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Elm və təhsil, 2016, 408 s.
6. Qarayeva H. Azərbaycan dilində nitq etiketlərinin öyrədilməsi məsələləri. Bakı: Təhsil, 1999, 100 s.
7. Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika. Bakı: "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014, 400 s.
8. Yusifov M. Nitq mədəniyyəti. Bakı: Elm və təhsil, 2019, 432 s.

ПРАГМАТИКА КАК ПРЕДМЕТ ЛИНГВИСТИЧЕСКОГО ИССЛЕДОВАНИЯ

Фарах Мамедова*

Abstract

Pragmatics as a subject of linguistic research

The article provides information about one of the fields of linguistics - pragmatics. Various opinions of scientists on the content of pragmatics and its connection with other sciences are given. Pragmatics studies ways to extract more meaning from a so-called statement. The relevance of pragmatic research is due to the fact that they are of particular interest to those who deal with the effectiveness of speech, the effectiveness of public relations, advertising and translation. For successful communication, both the speaker and the listener must have a common pragmatic and cognitive area of knowledge. This area arises from a general conceptual picture of the world. Each social, professional, age, gender and ethnic group has its own conceptual picture of the world. And since each object of reality is assimilated differently by representatives of this group, it is verbalized differently in language. The scientific novelty of the article is to conduct a pragmatic analysis using the example of synonyms and loanwords.

Keywords: *pragmatics, meaning, the effectiveness of speech, a common pragmatic and cognitive area of knowledge.*

Введение. Истоки прагматики связаны с философскими концепциями Ч. Пирса, У. Джеймса, Д. Дьюна, Ч. Морриса (конец XIX-начало XX века). Понятие прагматики появилось в научных работах по семиотике, целью которых является изучение знаковых структур, в том числе участников ситуаций в динамическом, процессуальном аспекте. Термин «прагматика» впервые был введен в научную литературу американским исследователем Чарльзом Уильямом Моррисом. Ч. Моррис, развивая идеи Ч.Пирса, предложил разделить семиотику, науку о знаках, на три части:

-синтактику, изучающую отношение знаков друг к другу;

- семантику, изучающую отношение знаков к объектам;

- прагматику, которая изучает отношение пользователей к знакам.

Прагматика изучает отношения между языковыми формами и теми, кто их использует, исследуя значения, которые выражают говорящие. “Это также исследование контекстуального значения. Прагматика изучает способы извлечения большего смысла из так называемого утверждения. Прагматика изучает относительную дистанцию” [1, s.324].

Актуальность прагматических исследований связано с тем, что они представляют особый интерес для тех, кто занимается эффективностью речи, эффективностью общественных отношений (public relationship), рекламы и перевода.

Основная часть. Прагматические исследования основное внимание уделяют адресату (тому, кто передает информацию). Используя языковые средства, он реализует свои цели через информационную структуру текста (тему и рему) и дискурса. «Поскольку интерпретаторами большинства знаков являются живые организмы, основная характеристика прагматики состоит в том, чтобы указать, что знаки связаны со всеми психологическими, биологическими и социологическими проявлениями, наблюдаемыми во время их функционирования» [3, с. 63].

Адресант должен выбрать нужные слова из своего словарного запаса. Затем на синтаксическом уровне он должен продолжить комбинацию синтагм, чтобы решить, использовать ли их на текстовом уровне. «На характер стратегического выбора влияют психологические, социальные, культурные и другие экстралингвистические факторы» [2].

Многие аспекты предметной области, охватываемые термином «прагматика», появились в риторике уже в античный греко-римский период. Как отмечает Ю.С. Степанов, «прагматика,

* ***Бакинского государственного университета, доктор философии по филологическим наукам, доцент кафедры английского языка для факультетов гуманитарных наук. Электронная почта: faraxdoc86@mail.ru.***

как и традиционная стилистика и более древняя риторика, занимается теми же вопросами: это выбор языковых средств из репертуара, доступных для лучшего, более точного или красивого выражения собственного мнения или собственного чувства» [4, с. 325-332].

Прагматика как одна из дисциплин лингвистики изучает совокупность соотношений между составляющими коммуникативного прагматического контекста речевого (текстового) общения и единицами языковой системы. Этот *контекст* формируют *коммуниканты, время, место и условия общения*, которые в определенной степени взаимодействуют друг с другом. Прагматика связана с такими понятиями, как *коммуникативные намерения (интенции, иллокуции), ожидания, эффекты (перлокуции), стратегии и тактики, принципы и условности, распределение ролей различного характера между коммуникантами*.

В качестве примера прагматического анализа можно привести такой ряд синонимов. Участников национально-освободительного движения мы можем обозначить по-разному: *мятежниками, бунтарями, революционерами, повстанцами; сепаратистами; террористами; борцами*. Каждое слово отражает разное отношение к происходящему; для кого-то один и тот же человек может быть революционером, солдатом, а для кого-то террористом: “в Армении против азербайджанского солдата возбуждено уголовное дело. Военный эксперт Азер Байрамов отмечает, что состав уголовного дела указывает на намерение выдать нашего *солдата* (Руслана Панахова) за *террориста* и обмануть международное сообщество” (“Xəzər xəbər” verlişi, 29.02.2024). Последнее слово в синонимическом ряду – *борец* - нейтрально, оно не выражает никакого отношения. Следовательно, носители языка используют синонимические слова в разных контекстах, чтобы выразить разное отношение. Таким образом, лингвистическая прагматика представляет особый интерес для тех, кто занимается эффективностью речи, эффективностью общественных отношений (public relationship), рекламы и перевода.

Выбор слова обусловлен контекстом. Пользователи языка должны обладать определенными знаниями контекста, чтобы они могли точнее использовать лингвистический знак. Для успешного общения и говорящий, и слушатель должны иметь общую прагматическую и когнитивную область знаний. Эта область возникает с общей концептуальной картиной мира. Каждая социальная, профессиональная, возрастная, половая и этническая группа имеет свою концептуальную картину мира. И поскольку каждый объект действительности по-разному усваивается представителями этой группы, он по-разному вербализуется в языке.

Содержание слов, их значение могут зависеть от контекста, а могут и не зависеть:

1. Прагматический и синтаксический аспекты зависят от контекста (они характеризуют слово с точки зрения неязыковых факторов).

2. Семантический и сигматический аспекты, с другой стороны, выражают контекстно-независимое содержание (указывают на языковые особенности слова).

Другой вопрос, представляющий интерес для лингвопрагматики, заключается в том, как предыдущий когнитивный и коммуникативный опыт участников диалога адаптируется друг к другу. Эти адаптации должны иметь общие точки выхода (*пресуппозиции*). Например, чтобы проверить, имеет ли собеседник высшее образование, в речи могут намеренно использоваться выражения, относящиеся к другому языку: *sorry, noblesse oblige, sapient sat, mea culpa, omnia mea mecum porto* и т. д. В противном случае возникает непонимание, коммуникативная неудача или конфликт. Некоторые ученые, например Д. Спербер, Д. Уилсон, А. Кашер считают, что прагматика – это общие когнитивные принципы, задействованные в интерпретации слов. То есть прагматика считается отраслью когнитивной лингвистики. А. Кашер отмечает, что основная задача прагматики – «показать, как соотносится прагматическая теория и общая психологическая концепция, объясняющая природу человеческого мышления».

Таким образом, большинство лингвистов считают, что прагматика не имеет четких границ и состоит в первую очередь из вопросов, связанных с коммуникативной ситуацией. Некоторые из них предполагают, что именно рецептор, воспринимающий информацию (в устном или письменном дискурсе), играет большую роль в прагматике.

Другие ученые, напротив, считают когнитивную теорию частью прагматики. Так что D. Фершуэрен определяет прагматику как *науку, изучающую когнитивные, социальные и культурные аспекты языка и коммуникации* [6]. Д. Ньютс выдвинул свою собственную когнитивно-прагматическую теорию, в которой он отмечает, что когнитивный и прагматический аспекты не следует противопоставлять, они дополняют друг друга, эти два аспекта являются двумя разными сторонами одного и того же явления [5].

Прагматическое отношение носителей языка прослеживается и в выборе национальных (или уже давно освоенных) или *заимствованных* слов. Основным источником заимствований в английском языке остается французский язык. За последние 30 лет количество заимствований из скандинавских языков резко сократилось. Новой тенденцией можно считать рост заимствований из африканских и азиатских языков, особенно японского. Новые приобретения касаются следующих областей: 1) культура: *cinematheque, discotheque, anti-roman* (из французского); 2) общественно - политическая жизнь: *ayatollah* (из арабского) - имя религиозного лидера в Иране; 3) повседневная жизнь (еда, спорт, одежда): *petit dejeuner* (фр.)- небольшой завтрак; 4) научно - техническая область: *biogeocoenosis* (из рус.) - экологическая система. Среди заимствованных слов есть также *варваризмы*. Например: *dolče vita* (с итальянского); *gonzo* (из итальянского) дикий, сумасшедший. К варваризмам близки ксенизмы (отражают специфический быт страны): *gyro* (из греч.) вид бутерброда (жареное мясо на хлебе); *zazen* (из японского) вид медитации, используемый в дзен-буддизме; *kung fu* (из китайского) вид борьбы в спорте.

В то время как варваризмы являются синонимами, ксенизмы не являются синонимами, они просто обозначают события и объекты, существующие в какой-то стране (=экзотизмы). Хотя количество ксенизмов невелико, степень новизны в них больше. В английском языке также мало ассимилированных современных заимствованных слов. В основном это заимствования из идиша или русского языка, например, *nudzh* или *nudge* – “надоедливый человек”. Усвоено под влиянием английского слова to *nudge* – «толкать». Заимствованные слова из языка идиш представлены в словарях в основном как сленг. Например: *yenta* – ”ябеда“, *zoftig* – ”немного полная женщина“; *glitch* - ”дефект в программе". Самым популярным сленговым заимствованием из идиша является слово to *schlep* – “тянуть, ползти”. Например: I Land have to shlep around to the office. В настоящее время заимствованные слова практически не заменяют исконные английские слова. Заимствованные слова не только обогащают словарный состав языка, но и изменяют стилистический оттенок лексических единиц, формируют синонимические и омонимические отношения.

Заключение и научная новизна. Прагматика является областью исследований в семиотике и лингвистике, изучающей функционирование языковых знаков в речи. Четких границ прагматики не существует. Она включает в себя ряд вопросов, связанных с говорящим субъектом, адресатом, их взаимодействием в процессе общения, ситуацией общения. Научной новизной статьи является проведение прагматического анализа на примере синонимов и заимствованных слов.

Список использованной литературы

1. Veysəlli F. Semiotika. Bakı: Mütərcim, 2010, 332 s.
2. Кузнецов, А. М. Изменения лексических значений под воздействием контекстно-прагматических факторов // Прагматика и семантика: сб. науч. ст. Москва: ИНИОН, 1991. - с. 93-117.
3. Моррис Ч. У основания теории знаков// Семиотика: сб. переводов под ред. Ю.С. Степанова. Москва: Радуга, 1983, с. 37-90.
4. Степанов Ю. С. В поисках прагматики (проблема субъекта) // Известия АН СССР. Серия лит-ры и языка. 1981. Т. 40, № 4, с. 325-332.
5. Nuyts J. Aspects of a cognitive-pragmatic theory of language: on cognition, functionalism, and grammar. Amsterdam: John Benjamins Publishing Company, 1992, 399 p.
6. Verschueren J. Handbook of pragmatics. Amsterdam: John Benjamins Publishing Company, 1995, 658 p.

DİLDƏ KƏMİYYƏT ANLAYIŞININ TƏZAHÜRÜ

Səbinə Vəliyeva*

Abstract

Manifestation of the concept of quantity in language

A quantity category may appear or disappear. Often, the appearance of grammatical quantitative signs is associated with the grammaticalization of numbers. Number is a grammatical category that expresses quantity and can be reflected in nouns and pronouns in most cases. In addition to the grammatical definition of number in world languages, it can be expressed using words such as "many" or numbers. Quantification may exist in language, but may only be expressed by certain types of words, or expressed at will. The author analyzes the reflection of the quantitative aspect of the world in natural language. The features of expressing quantitative relations at various language levels, from phonetic to syntactic, are considered.

Keywords: *thinking, language, quantity, level, category, quantitative characteristics.*

Giriş. İnsanın şifahi biliklərinin ümumi strukturunu müəyyən fəlsəfi və dil kateqoriyaları kimi təsəvvür etmək olar. Bu kateqoriyalardan biri qlobal kəmiyyət kateqoriyasıdır. Ontoloji kəmiyyət iki alt kateqoriyanı məsələ olaraq ortaya qoyur: sayıla bilən və ölçülə bilən şeylər. Bununla yanaşı, kəmiyyət idrak kateqoriyası olaraq dörd əsası əhatə edir: sayma, ölçmə, hesablama və qiymətləndirmə. Linqvistik ifadə cəhətdən isə kəmiyyət anlayışı qrammatik və leksik vahidlərə bölünür. Kəmiyyət fərqi real varlıq obyektlərinə xas olub, əşyalar (obyektlər), proseslər, xüsusiyyətlər, hadisələr, yəni onlar varlığın ontologiyasına daxil olaraq insan tərəfindən dərk edilir və nitqdə ifadə olunur. Reallıq və nitq arasında insanın idrakı dayanaraq kəmiyyətin şifahi ifadə üsullarına əhəmiyyətli dərəcədə təsir göstərir. Bir kateqoriyanın nəzərdən keçirilməsi digər bilik kateqoriyalarının öyrənilməsi üçün başlanğıc nöqtəsi ola bilər.

Əsas hissə. Kəmiyyət kateqoriyası müasir insanın təfəkküründün ən geniş və çoxşaxəli kateqoriyalarından biri olub, onun tədqiqi müxtəlif sahələr üzrə, o cümlədən dilçilik sahəsinin tədqiqatçılar üçün davamlı olaraq maraq doğurur.

Ümumilikdə varlığın kəmiyyəti haqqında biliyindən danışsaq, onda ən azı üç səviyyəni ayırd edə bilərik: empirik, eksperimental və nəzəri.

Kəmiyyətin nəzəri və empirik biliklərini təhlil etmək, ilk növbədə, dəqiq elmlərin, xüsusən riyaziyyatın xüsusi sahələrinin, həmçinin fəlsəfənin, məntiqin, psixologiyanın vəzifəsidir. Kəmiyyət anlayışlarının formalaşması sahəsində empirik bilik prosesi Jan Piaget tərəfindən dərindən öyrənilmişdir. Piajet hesab edir ki, "çox", "az", "bərabər", "daha çox", "az" sözləri təkcə kəmiyyəti deyil, həm də keyfiyyətin qiymətləndirməsini ifadə edir. Onlar təxmini, analitik olmayan, empirik olaraq bilinən kəmiyyət terminləridir. Piaget eksperimental olaraq sübut etmişdir ki, bütün təxmini-qiymətləndirmədə idrak kompleksləri üçün məkan münasibətlərinin, zaman fərqlərinin müqayisəsinə əsaslanmaq böyük əhəmiyyət kəsb edir [3, 127].

Kəmiyyət haqqında elmi biliklərin ən ümumi məzmunu V.Panfilovun məşhur tərifləridən birində öz əksini tapmışdır: "Kəmiyyət anlayışı kateqorial olaraq bir şeyin mövcudluğunun miqdarıdır. Məhz müqayisə nəticəsində (o cümlədən sayma, ölçmə, hesablama) təqribən ("daha çox", "daha az", "təxminən bərabər", "az", "çox az" dəyərləri olan düsturlarda) və ya demək olar ki, tam olaraq (ədədlərdə, bərabərliklərdə) ifadə edilə bilər" (2, 56).

Bu tərifdən göründüyü kimi, kəmiyyət həmişə dəqiq ölçmə, hesablama və hesablanma üçün münasib olmur. Kəmiyyət əməliyyatları o zaman əsas olur ki, orada bu anlayış riyazi düsturlarla yerinə yetirilib, rəqəmlər və simvollarla ifadə olunsun. Bu əsasda onlar dəqiq və birmənalı olur. Lakin təbii dil kəmiyyətləri manipulyasiya edilməyə başlayan kimi, cisim və hadisələr dünyası, ideya və anlayışlar, xassələr və keyfiyyətlər, insan hissləri və düşüncələri, təəssürat və proqnozlar, hərəkətlər və

* ***Bakı Dövlət Universiteti, Azərbaycan dilçiliyi kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: nasibali2011@mail.ru.***

pis əməllər kəmiyyət qiymətləndirməsinin obyektinə çevrilir, bu zaman isə sistem və dəqiq ölçmələr sarsılır.

Ən çətin məsələlərdən biri linqvistik vasitələrlə ifadə olunan kəmiyyətin tipologiyasıdır. Dilçilikdə kəmiyyəti sistemləşdirməyə bir sıra cəhdlər edilmişdir, lakin onların hamısı müxtəlif meyarlara əsaslanmış və buna görə də bu kateqoriyanın sərhədlərinin müəyyən edilməsində obyektiv çətinliklər yaranmışdır.

Kəmiyyətin linqvistik təsvirinin əsasını təşkil edən əlamətlər və münasibətlərin müxtəlifliyi arasında ən çox yayılmışları bunlardır: təklik və çoxluq, parçalanma və parçalanmama, ümumilik və paylanma, müəyyənlik və qeyri-müəyyənlik, dəqiqlik və yaxınlıq, nizam və nizamsızlıq, diskretlik və davamlılıq, genişlik və intensivlik, münasibətlər "daha çox" - "az".

Bir çox tədqiqatlarda kəmiyyətlərin adlandırılması təbii olaraq insan hisslərinin ümumiləşdirilmiş nəticəsi kimi meydana çıxmışdır. Çox vaxt kəmiyyətin qiymətləndirməsinə vizual olaraq qəbul edilən müxtəlif fəza münasibətləri, məsələn, hesablanmış obyektlərin cərgəsinin uzunluğu, onların fəzada yerləşdirilməsinin sıxlığı, təkrar hərəkətlər üçün müddət və çoxluğun müvəqqəti əlaqələri təsir göstərir. Çox vaxt "çox" < az" qiymətləndirməsi vizual olaraq qəbul edilən obyektin (obyektlərin) təsiri altında yaranır.

Eyni zamanda, təklik və çoxluq məfhumunu həm cisimlərə, həm də hərəkət və hadisələrə münasibətdə təkliyin və ya çoxluğun ifadəsi kimi şərh etmək olar.

Kəmiyyət daxilində mərkəzi ziddiyyətlərdən biri ekstensiv və intensiv kəmiyyətdir; ekstensiv kəmiyyət cisimlərin məkan və zamandakı miqyası ilə, intensiv kəmiyyət isə obyektin daxili xassələrinin inkişaf dərəcəsi ilə bağlıdır.

Kəmiyyət xarici və daxili ola bilər - ayrı-ayrı vahidlər və eyni vahidin hissələri kimi hesablana bilər. Bu parametr, demək olar ki, yalnız parçalanmış əşyaların miqdarı üçün məna kəsb edir. Başqa bir əhəmiyyətli ziddiyyət ümumi və paylayıcı kəmiyyət arasındadır, aralarındakı fərq "hamısı" və "hamı" əvəzliklərini də qeyd edə bilərik (hər şey ümumidir, hər kəs paylayıcıdır).

Kəmiyyəti ifadə etmək üçün təbii dildə mövcud olan vasitələri nəzərdən keçirməyə davam edək. Ondan başlayaq ki, dünya mənzərəsinin kəmiyyət tərəfi dildə müxtəlif səviyyəli vahidlərlə - fonetikadan sintaksisə qədər izah olunur. Hər bir dil səviyyəsi müəyyən kateqoriya sistemi yaradır və onların hər biri özünəməxsus şəkildə kəmiyyət kateqoriyasına uyğun gəlir.

Fonetik səviyyədə qeyd olunan kəmiyyət qiymətləndirmələrini ifadə etmək üçün ən vacib vasitə prosodiyadır, müvafiq şifahi formalarda saitlərin simvolik uzadılması və ya qısaldılması ilə fonetik səviyyədə qeyd olunur. Məs.: Belə **uzun** maşındı! Yolu **uzun** sürdük. Maşın **sürətlə** gedir.

Prosodiya nitq seqmentlərinin bütün səviyyələrində (heca, söz, fraza, sintaqma, mətn) nitqdə həyata keçirilən və semantik-fərqləndirici rola malik olan fonetik vasitələrin sistemidir. "Prosodiya" termini çox vaxt intonasiya anlayışı ilə sinonim şəklində işlədilir. Hər iki termin dilin supraseqmental vasitələrinin funksional sistemini təyin etmək üçün istifadə edilir.

E.V.Paduçeva sözün ilkin lüğət semantikasına təsir edən prosodik dəyişikliklərin nümunələrlə müəyyən etmişdir. İfadə planı haqqında danışarkən o, cümlədə iki vurğu mövqeyini fərqləndirir: əsas fraza vurğu, enən, rematik və ikinci dərəcəli, artan, tematik. Səth strukturunda rematik vurğunun yerdəyişməsi kəmiyyət ifadəsinin şərhində komponentin vəziyyətini dəyişə bilər. Məs.: Sərnişinlərin az hissəsi sağ qaldı. Vurğu bir neçə yerdə fərqli məqamlarda işlədilərək kəmiyyət dəyişikliyi əmələ gətirib: Bir neçə sərnişin sağ qaldı. Sərnişinlərdən bir neçəsi sağ qaldı; vurğu sağ qaldı: yəni, az sayda sərnişin sağ qaldı (2, 89).

Morfoloji səviyyədə kəmiyyət ayrı-ayrı morfemlərdə (çox, az, az-çox, çoxlu, xeyli, bir az, bir qədər), sayın qrammatik kateqoriyasında, sifətin müqayisə dərəcəsində, şəxs, qeyri-müəyyən şəxs, təyini əvəzliklərdə, zaman kateqoriyasında, habelə nitq hissələri sistemindən istifadə etməklə ifadə oluna bilər. Bundan başqa kəmiyyət əlaqələrini ifadəsinə, ilk növbədə, azalan və artan bir sıra formantlar, sözyaratma vasitələri və növləri daxildir (5, 12).

Leksik-semantik səviyyədə kəmiyyət və kəmiyyət-keyfiyyət semantikası çox müxtəlif və mürəkkəbdir. Əslində, "kəmiyyət kateqoriyası dilin bütün semantik sferasına nüfuz edir". Dünyanın

linqvistik mənzərəsinin qurulmasının komponentlərdən biri olan kəmiyyət ən vacib semantik və leksik universal kimi tanınır.

Kəmiyyət xarakter olaraq bir sıra məqamları özündə ifadə edir:

1) kəmiyyət göstəricisi kimi - bir, iki, bir neçə, bir neçə, çox və s.;
2) həcm göstəricisi kimi - böyük, kiçik və s ;
3) qüvvətləndirici kimi - çox, daha çox və s.;
4) məkan göstəricisi kimi - uzaq, yaxın;
5) zaman göstəricisi kimi – uzun müddət, uzun müddət deyil, bir dəfəlik, həmişəlik.

Kəmiyyət mənaları bütün nitq hissələrinə xasdır, bu səviyyədə mərkəzi kəmiyyət kateqoriyasını sırf kəmiyyət funksiyasını yerinə yetirən rəqəmlər həyata keçirir. İngilis və rus dillərinin lüğətində bir neçə qrup sözlər qeyd etmək olar ki, onların tərkib hissələrinə mütləq şəkildə kəmiyyət sözləri daxildir. Bu qruplara real dünyada obyektlərin fiziki xüsusiyyətlərini adlandırmaq üçün əsas parametrlərin adları (hündürlük, uzunluq, en, qalınlıq, çəki, ölçü, həcm, kəmiyyət, temperatur, yaş və s.), süni seqmentlər (dəqiqə, saat, il, ay, metr, verst, hektar, litr, qram, kiloqram, addım, barmaq, dirsək, yumruq, baş, çimdik, ovuc, çanta, barel, butulka, qutu, fincan, və s.); ölçmə və saymanın şifahi lüğəti (artırmaq, azaltmaq, ölçmək, hesablamaq, təyin etmək, toplamaq, çıxmaq (çıxmaq), çoxaltmaq, bölmək, bölüşdürmək, genişləndirmək, dərinləşdirmək, daraltmaq, kökəlmək, arıqlamaq və s.); sərbəst ifadələr və kəmiyyət mənası olan sözlərin frazeoloji birləşmələri (əsgərlər birliyi, bir damla səbr, tavan kimi hündürlük, iki blok uzaqlıqda, yemək üçün bir funt duz) daxildir.

Kəmiyyəti ifadə etməkdə kəmiyyət əvəzlikləri-şərti (hər, hamısı, hər hansı, hərə, hamı, bütün, biz, siz, mən, sən, bəzi, bəzisi, biri, birisi və s.), kəmiyyət sifətləri (böyük, kiçik, hündür, alçaq, dərin, dayaz, qalın, nazik, uzun, qısa, yaxın, uzaq, gənc, köhnə, yüngül, ağır, güclü, zəif, quru, yaş, gur, sakit və s.), kəmiyyət və zaman zərfləri (həmişə, bəzən, tez-tez, nadir hallarda, adətən, bir dəfə, bütünlüklə, tamamilə və s.) xüsusi rol oynayır.

Kəmiyyəti ifadə edən leksik vasitələrlə yanaşı əsas nitq hissələrinə aid olan kəmiyyət mənalı müxtəlif sözlər də daxildir: determinantlar (artikil olan dillərdə bu, o kimi sözlər); məntiqi münasibət və əməllərin mənasını ifadə edən ön sözlər: toplama, çıxma, vurma, bölmə, kəmiyyət həddi, kəmiyyət müqayisəsi; məhdudiyyət dəyərlərinə malik hissəciklər, kiçiklik, dəqiqlik, təqribi bərabərlik və s. Bir çox kəmiyyət sözləri də var ki, burada kəmiyyət qiymətləndirməsi ilə yanaşı, kəmiyyəti emosional olaraq ifadə edilməklə qüvvətləndirici nitq hissəsinə aid olan sözləri əhatə edir (dəhşətli, qorxulu).

Sintaktik səviyyədə kəmiyyət semantikası söz sırasının semantik potensialı, müxtəlif əlaqə növləri vasitəsilə ifadə oluna bilər. Məs.: söz birləşmələrində - söz sırası, bir cümlədə - subyekt və predikat arasında koordinasiya.

Kəmiyyətin ötürülməsinin sintaktik üsullarından biri də təkrarlar və ya sözün ikiqat artırılması (gündən-günə, təkrar-təkrar, ağ-ağ, isti-isti, çoxdan; gözlədi-gözlədi), sadalamadır. Kəmiyyət mənalarını gücləndirmək və ya aydınlaşdırmaq üçün cümlənin semantikasına sintaktik kəmiyyət ifadə edən sözlərdən (zərf kəmiyyəti-adverbiallardan) istifadə olunur.

Kəmiyyət xüsusiyyətlərini ifadə edən vasitələrdən biri aspektuallıq kateqoriyasıdır. Kəmiyyət aspekti "tezlik", "müddət" və "intensivlik"i əhatə edir. Feillə ifadə olunan hərəkətin təkrar-təkrar təkrarlanması bu felin əmələ gətirdiyi konstruksiyanın semantik mürəkkəbliyindən xəbər verir.

"Hərəkətin kəmiyyəti" felləri kəmiyyət mənalı sözlərlə birləşdirərək sintaktik vasitələrlə həyata keçirilə bilər.

Bu sözlərə xüsusi zərflər daxildir: "iki dəfə", "üç dəfə", "ilk dəfə", "ikinci dəfə", "çox", "az", "dəfələrlə", "bir az", "bu qədər çox" və s.

Müəyyən bir kəmiyyətin dəyəri "say+ dəfə" (bir neçə dəfə, dəfələrlə, iki dəfə) birləşməsi ilə ötürülür. Kəmiyyətin göstərilməsi, hərəkətlərin sayının böyük və ya kiçik olmasını müəyyən edir.

Kəmiyyət əlaqələri təkcə hadisələrin və ya hərəkətlərin çoxluğunu təsvir edərək deyil, həm də modal qiymətləndirmə sferasında da müşahidə oluna bilər. Modal kəmiyyət təsvir edilən hadisənin müxtəlif ehtimal dərəcələrinə işarə edən modal-qiymətləndirici sözlərdən istifadə etməklə həyata keçirilir (müq. yəqin ki, bəlkə, yəqin, ola bilər, ola bilər ki, açıq-aydın, görünür, görünür ki, mütləq, mütləq ki)

Dünya dilləri ən çox qrammatik kəmiyyət formalarını yaratmaq üçün affikslərdən (söz kökünə şəkilçi əlavə etməklə) istifadə edir. Əslində bəzi dillərdə başqa mexanizmlər də mövcuddur: söz kökünü dəyişdirmək və ya tamamilə fərqli bir sözdən istifadə etmək (məsələn «человек» — «люди»). Çox vaxt əsas sözdə kəmiyyətin göstərilməsi mütləq asılı sözdə (və ya feildə) əks olunmalıdır; buna isə sintaktik uzlaşma deyilir.

Kəmiyyət kateqoriyası görünə və ya "yoxa çıxa" bilər. Çox vaxt qrammatik kəmiyyət işarələrinin görünüşü rəqəmlərin qrammatikləşməsi ilə əlaqələndirilir.

Kəmiyyəti ifadə edib göstərən say qrammatik kateqoriya olub, əksər hallarda isim və əvəzliklərdə öz əksini tapa bilir. Dünya dillərində ədədin qrammatik təyini ilə yanaşı, "çox" və ya rəqəmlər kimi sözlərdən istifadə etməklə ifadə etmək olur. Kəmiyyət dildə mövcud ola bilər, lakin yalnız müəyyən söz növləri ilə ifadə edilə bilər və ya istəyə görə də ifadə edilir.

Müasir Azərbaycan dilində kəmiyyət koteqoriya üzrə meydana çıxır. Beləi ki, bu koteqoriyanın əsas ifadə vasitəsi –lar,-lər şəkilçisidir. Bu koteqoriyanın məzmununda təklik və cəmlik anlayışları ifadə olunur. Kəmiyyətdə cəmlik bildirmək funksiyası bir neçə şəkilçi üzərinə düşə bilir: -lar,-lər, -lıq, lı, -q,-k, -ıq,-ik,-uk,-ük, -ız,-iz,-uz,-üz.

Nəticə. Sonda qeyd edək ki, dil sisteminin inteqral təsviri çərçivəsində qarşılaşdığı kəmiyyət və onun xüsusiyyətlərinin müxtəlifliyi dilin çox müxtəlif və ziddiyyətli olduğunu göstərir. Müvafiq olaraq, dünyanın kəmiyyət mənzərəsi müxtəlif və çoxşaxəlidir, onun tam təsviri yalnız müxtəlif kəmiyyət dəyərləri və onların ifadə vasitələri arasındakı əlaqəni nəzərə almaqla mümkündür.

İstifadə edilmiş ədəbiyyat

1. Məmmədəli Qıpçaq. Kəmiyyət anlayışının dildə ifadəsi (tarixi-tipoloji tədqiqat). Bakı: "Elm", 2000, 453 s
2. Падучева, Е.В. Семантика количества и ее отражение в просодии [Текст] / Е.В. Падучева // Логический анализ языка. Квантитативный аспект языка. - М.: Индрик, 2005. - С. 652-667.
3. Панфилов, В.З. Философские проблемы языкознания [Текст] / В.З. Панфилов. - М.: Наука, 1977. - 160 с.
4. Пиаже Ж. Генетический аспект языка и мышления . Москва, 1984. с. 335.
5. Рябцева, Н.К. Размер и количество в языковой картине мира [Текст] / Н.К. Рябцева // Логический анализ языка. Языки пространств. - М., 2000. - С. 108-116.

MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN QRAMMATİK NORMALARI (MƏKTƏB QRAMMATİKASI)

İradə Kərimova*

Abstract

Grammatical norms of the modern Azerbaijan literary language (school grammar)

The article examines grammar (high school grammar), which is one of the main divisions of linguistics. Also, textbook problems that still exist in secondary schools are studied.

National Leader Heydar Aliyev said, "Education is an important area of the life and activity of every state, country, society. Society cannot develop without education" aphorism is especially mentioned in the article.

In the article, the head of the country Mr. Ilham Aliyev said about the Azerbaijani language, "The Azerbaijani language is so rich that it does not need any foreign words. I want to say once again that we have preserved our language for centuries. We must protect it today. We must ensure the purity of the Azerbaijani language" valuable ideas were reflected.

It is studied that the word grammar was used for the first time in the work of the Greek philosopher Platon (Plato) called "Cratylus". In the sense of letter, writing, science, it means "science of letters", "writing art". In the sense of letter, writing, science, it means "science of letters", "writing art". During the era of Aristotle (384-322 BC), it was used in the sense of reading, writing, literacy, and by Dionysus of Thrace, its meaning was further expanded to mean learning the rules of speaking in the native language.

The article examines the most serious issues of the textbook problem in Azerbaijan's secondary educational institutions, which have been the subject of discussions at various levels for several years, but have not yet been resolved.

As a result, the article examines the solutions to the mentioned problems and shows some ways out.

Keywords: *Modern Azerbaijan language, grammar, grammar rules, education expert, textbook problem.*

Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. **Ümummilli Lider Heydər Əliyev**

Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Azərbaycan dili! Bu gün iftixar hissi ilə deyə bilərik ki, sovet hakimiyyəti illərində biz Azərbaycan dilini qoruduq, saxladıq və inkişaf etdirdik. Azərbaycan dili indi çox yüksək səviyyədə, onun qrammatik quruluşu, başqa sahələri yüksək səviyyədə olan bir dildir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir (1, s. 51).

Ölkə başçısı Cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik.

Müasir Azərbaycan ədəbi dilinin əsas bölmələrindən biri qrammatikadır. Qrammatikada sözlərin formaca dəyişməsi və cümlədə birləşməsi qaydaları öyrənilir. Qrammatika sözlərin dəyişməsi və onların cümlədə birləşməsi qaydalarının məcmusudur. Qrammatika bizə nitqimizi düzgün qurmaq, fikrimizi səlis və aydın ifadə edə bilmək, sözləri cümlədə necə dəyişdirmək və işlətmək, onları bir-biri ilə necə əlaqələndirmək, hansı ardıcıllıqla düzmək və s. qayda-qanunlarını öyrədir.

Qeyd etməliyik ki, qrammatika sözü ilk dəfə e.ə. yunan alimi – filosofu Əflatunun (Platon) "Kratil" adlı əsərində işlənmişdir. Hərf, yazı, elm mənasında "hərf haqqında elm", "yazı sənəti" deməkdir. Bu, Ərəstun dövründə (e.ə 384-322) oxumaq, yazmaq, savad mənasında işlədilmiş,

* ***Bakı Dövlət Universiteti, "Azərbaycan dilinin tətbiqi məsələləri" ETL-in böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: iradakerimova920@gmail.com.***

frakiyalı Dionis tərəfindən mənası daha da genişləndirilərək – ana dilində danışmaq qaydalarını öyrənmək mənasını ifadə etmişdir. Qrammatika sözü dilçilik termini kimi iki mənada:

1) dilin qrammatik quruluşu mənasında. Dilin qrammatik quruluşu cümlədə sözlərin dəyişməsi və birləşməsinin məcmüsüdür.

2) dilin qrammatik quruluşundan bəhs edən elm mənasında işlədilir. Bu mənada qrammatika cümlədə sözlərin dəyişməsi və birləşməsi qaydalarından bəhs edən elmdir.

Qrammatika müəyyən bir qrup tərəfindən hazırlanmayıb, o dili istifadə edən insanların zaman keçdikcə lazımlı qaydaları yaratmalarından və ya mövcud olan qaydaları dilin inkişafına dəyişdirmələrindən meydana gəlib.

Qrammatik məna isə sözün hansı nitq hissəsi, hansı cümlə üzvü olması, hansı qrammatik əlamətlərə malik olmasını bildirir. Qrammatik məna ayrı-ayrı sözlər deyil, böyük söz qruplarına aid olan ümumiləşmiş, müəyyənləşmiş mənadır.

Qeyd etmək lazımdır ki, bu təbii normalaşma prinsipi, əlbəttə ki, doğma dilin öz təbiətindən, xüsusi sistemindən və dil ümumiliyini gözləmək qayğısından götürülmüşdür.

Qrammatik norma dilin quruluşuna, onun nitq prosesindəki fəaliyyətinə aiddir. Bura sintaktik əlaqə formaları, şəkilçilərin ardıcıllığı, sözlərin cümlədə sıralanması, cümlə üzvlərinin dəqiq yeri, mənsubiyyət, hal, dərəcə, zaman, şəxs və sairə kimi qrammatik kateqoriyaların ədəbi dildə gözlənilməsi ilə bağlı qaydalar daxildir. Qrammatik norma nitqdə sözlər və cümlələr arasındakı əlaqələrin düzgün qurulmasını tənzimləyir. Ədəbi dilimizin qrammatik norması ümumxalq dilinin qrammatik quruluşunu əks etdirir və onun əsasında qurulmuşdur. Sözlər və cümlələr arasındakı əlaqə düzgün qurulmadıqda qrammatik səhvlər meydana çıxır ki, nitq mədəniyyəti məhz bu tipli səhvləri aşkara çıxarır. Ədəbi dilimizin qrammatik norması ümumxalq dilinin qrammatik quruluşunu əks etdirir və onun əsasında qurulmuşdur. Sözlər və cümlələr arasındakı əlaqə düzgün qurulmadıqda qrammatik səhvlər meydana çıxır ki, nitq mədəniyyəti məhz bu tipli səhvləri aşkara çıxarır və onların aradan qaldırılmasına xidmət göstərir.

Azərbaycan dilinin qrammatik quruluşunun tədqiqi keçən əsrin ortalarından başlanmışdır. Dilimizin morfoloji və sintaktik quruluşunun tədqiqi sahəsində qiymətli dərsliklər, dərs vəsaitlərinin müəllifləri Ə.Dəmirçizadə, M.Şirəliyev, M.Hüseynzadə, Ə.Abdullayev, Z.Budaqova, Y.Seyidov və başqa alimlərimizin olduqca böyük rolu olmuşdur. Qeyd etməliyik ki, dilin qrammatik quruluşu bir neçə istiqamətdə öyrənilir:

1. Tarixi qrammatika
2. Müqayisəli qramma
3. Tarixi-müqayisəli qrammatika
4. Təsviri qrammatika
5. Məktəb qrammatikası

Məktəb qrammatikası ümumtəhsil məktəblərində öyrədilən, tədris edilən qrammatikadır. Burada yığcam şəkildə dilin qrammatik quruluşunun hamı tərəfindən qəbul edilən mühüm müddəaları əhatə olunur. Məktəb qrammatikası xüsusi proqram əsasında yazılır və onu dəyişmək, istənilən mübahisəli məsələləri dərsliyə daxil etmək olmaz. İlk məktəb dərsliklərinin yaradılmasında Ə.Dəmirçizadə, M.Şirəliyev, M.Hüseynzadə, Ə.Abdullayev, Z.Budaqova, S.Cəfərov, Y.Seyidov və başqa dilçi alimlərin əməyini xüsusilə qeyd etmək lazımdır.

Azərbaycan övladlarının, Azərbaycan xalqının maariflənməsi, onları dünyanın ən öncül xalqları sırasında görmək istəyən şəxsiyyətlərdən biri də orta məktəblər üçün kamil dərsliklərin hazırlanıb nəşr edilməsinə çalışan, uzun illər dərslik müəllifi kimi fəaliyyət göstərən, türk dünyasının görkəmli alimi, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, "Şöhrət" ordenli, Türkiyə Cümhuriyyəti Atatürk Kültür Dil və Tarix Yüksək Qurumunun fəxri üzvü akademik Tofiq Hacıyevdir.

Tofiq Hacıyevin fikrincə, dili qəliz, başa düşülməsi çətin, ifadəsi ağır olan mətnlərin və elmi fikirlərin şagirdlər tərəfindən qavranılması bugünkü təcrübəmizdən də görünür ki, verilən mürəkkəb və başa düşülməsi çətin olan elmi cümlələr içərisində əriyir, itib batır, şagirdin öyrənmək istədiyi elmi məlumatı dərk etmək onun üçün ağır bir işgəncəyə çevrilir. Alim dərsliklərin dilinin iki cəhətinə diqqət yetirməyi tövsiyə edərək yazır: "Bu dərsliklərin dilinə iki cəhətdən fikir verməliyik. Əlbəttə, birinci

növbədə, dəqiqliyə, sərrastlığa, səlisliyə və aydınlığa... Uşaqlar üçün ana dili dərsliklərində bu cəhətə də diqqət yetirmək lazımdır: unutmamalıyıq ki, uşaqlar dərsliyə ana laylasının birbaşa müşayiətindən gəlirlər. Yəni onlarda poetik əhvali-ruhiyyə, nəğmə və nağıl dilinin sehri hakim olur... Bu dərsliklərdə dilin emosionallığına təkcə şeir və hekayələrdə yox, müəllif mətnlərində də fikir vermək lazımdır" (2, s. 72-79).

Son illər orta məktəblərdəki təhsilin yetərli olmadığı, proqramların ağırlaşdırılması geniş müzakirə olunur. Ümumtəhsil məktəblərinin müəllimləri dərsliyin keyfiyyətindən əlavə, özlərinə və şagirdlərə qarşı tələbkar olaraq, şagirdlərdə müstəqil oyrənmə, araşdırma vərdişləri yaratmağa nail olmağa çalışmalıdırlar. Azərbaycan dilinin tədrisi metodikasında Azərbaycan dili dərsliklərinin özünəməxsus cəhətləri barədə danışılır. Şagirdlərin bilik, bacarıq, münasibət və səriştələrinin formalaşdırılmasındakı rolu və əhəmiyyətindən bəhs olunur. Şagirdlərin bilik, bacarıq, münasibət və səriştələrinin formalaşması həm müəllimdən, həm valideyndən, həm də şagirdin özündən asılıdır. Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov "525"-ci qəzetə açıqlamasında parlamentdə bununla bağlı müzakirlər aparıldığını qeyd edərək deyib ki, Azərbaycanın orta ümumtəhsil müəssisələrində movcud olan dərslik problemi neçə illərdən bəri ən müxtəlif səviyyələrdə müzakirələrə yol açan, lakin hələ də həllini tapmayan ən ciddi məsələlərdəndir. Bu problemlər müəllim və şagirdlərlə yanaşı, valideynləri də ciddi şəkildə narahat edir. Valideynlərin iddiasına görə, dərsliklər o qədər mürəkkəb yazılır ki, uşaqlar kitablarda verilən mətnləri oxuyub qavraya bilmirlər, bu səbəbdən də uşaqları repetitor yanına qoymağa məcbur olurlar. Heç kəsə sirr deyil ki, bu gün hətta ibtidai sinif şagirdləri də repetitorlara üz tuturlar. Mütəxəssislər isə bildirirlər ki, 10-15 il əvvəl təhsil sektorunda şagirdin ev tapşırıqlarını həll etmək üçün müəllim yanına getməsinə ehtiyac yox idi, indi isə bu hal adiləşib.

Millət vəkili qeyd edir ki: "Aydın məsələdir ki, dərsliklərdəki bir çox problemlər hələ də aktual olaraq qalır. Bu məsələdə daha diqqətli olmalıyıq. Dərsliklərin yazılmasına sahələr üzrə ən bilikli və bacarıqlı kadrlar cəlb olunmalıdır. Kitabların redaktəsinə və korrektəsinə ciddi ehtiyacı var". Qeyd olunur ki, 2000-ci illərdən etibarən ümumtəhsil müəssisələrində təhsil alan şagirdlərə dərsliklər pulsuz verilir. Elə o zamandan da dərsliklərlə bağlı problemlər səngimək bilmir. Aparılan araşdırmalar göstərir ki, dərsliklər və dərs vəsaitləri hazırlanarkən onların dizayn və tərtibatının məntiqliyi, estetikliyi və müasirliyi məsələsi də xüsusi olaraq nəzərə alınmalıdır. Dərsliklərin hazırlanmasında sifarişçi qismində nəşriyyatlar iştirak edir. Qeyri-peşəkar müəlliflərin hazırladıqları dərsliklər elə qüsurlu şəkildə də məktəblərə yol tapır və bunun əziyyətini ilk növbədə şagirdlər çəkir (4, s. 2).

Millət vəkili Kamilə Əliyeva deyir ki, orta məktəb dərslikləri məzmun və keyfiyyət baxımdan yenilənməlidir: "Bu gün ölkənin orta ümümtəhsil məktəbləri üçün dərsliklərin çoxunu ali məktəb müəllimləri tərəfindən yazılır, hazırlanır. Bu səbəbdən də dərsliklər dərsliyə yox, monoqrafiyaya bənzəyir. Mövzuların izahı akademik səviyyədə verildiyi üçün şagirdlərin çoxu bunu nə başa düşə, nə də qavraya bilir. Dərsliklər yazılan zaman müəlliflər tərəfindən yaş senzi nəzərə alınmır. Onlar nəzərə almır ki, bu dərslikləri oxuyan şagirddir, akademik, professor yox. Orta məktəb dərsliklərinin ali məktəb tələbəsi səviyyəsində hazırlanması doğru deyil. Müəlliflər dərslik yazan zaman orta məktəb şagirdi ilə ali məktəb tələbəsi arasındakı fərqi nəzərə almalıdır. Orta məktəb dərsliyi şagirdin anlaya biləcəyi səviyyədə yazılmalıdır. Hesab edirəm ki, dərsliklər sırf orta məktəb müəllimləri tərəfindən yazılmalıdır. Orta məktəb dərsliklərini orta məktəb təhsili üzrə mütəxəssislər hazırlamalıdır. Sadə, anlaşılan dildə, şagirdlərin anlayacağı dildə. Fikrimcə, əlaqədar qurum tərəfindən bu istiqamətdə müvafiq addımlar atılmalı, problemin aradan qaldırılması istiqamətində lazımı işlər görülməlidir" (3, s. 1). Təhsil eksperti Kamran Əsədovun sözlərinə görə, "Avropa ölkələrinin dərsliklərinə baxsaq, maraqlı, rəngarəng mətnlərlə, şəkillərlə, yaradıcı tapşırıqlarla zəngin olduğunu görərik. Dərslik fikir laboratoriyasıdır, tapşırıqlarda əlavə göstərişlər olmalı, şagirdə seçim imkanı verilməlidir. Bizdə isə dərsliklərdə jarqon ifadələrə, vulqar cümlələrə yer verilir. Dərsliklərə bakalavr, magistr pilləsində keçilən mövzular daxil edilir. Dərsliklər yazılarkən bəzən elmi səhvlər də buraxılır. Apardığımız araşdırmalar göstərir ki, son illər ərzində Azərbaycanda dərsliklərin çəkisi, məzmunu ağırlaşdırılıb. Onlar şagirdlərin yaş xüsusiyyətlərinə və psixologiyalarına uyğun deyil. Hal-hazırda orta məktəb şagirdləri üçün nəzərdə tutulmuş dərs vəsaitləri və kitabları qavramaq, dərk etmək 6-17 yaşında olan

insanın beyninə görə deyil. İstifadə olunan kitabların proqramlaşdırılmasından belə məntiq çıxır ki, ilin sonunda məzun olmuş hər şagirdin elmi dərəcəsi olmalıdır. Çünki onlar demək olar ki, bakalavr, magistr pilləsində keçrilən eyni mövzuları mənimsəyiblər. Hesab edirəm ki, bu gün dərsliklər şagirdlər üçün yox, müəllimlər üçün yazılır. Çünki bu kitabları müəllimlər özü güclə qavrayıb başa düşür, o ki qaldı, şagirdlər...” (5, s. 1).

“İbtidai siniflərdə proqramın ağırlığı və çətinliyi şagirdlərin normadan artıq yüklənməsinə gətirib çıxarır”-deyə K.Əsədov vurğulayıb:“Dərsliklər o qədər çətindir ki, heç biz özümüz başa düşmürük, o ki qaldı, uşaqlar. Ev tapşırıqları həddindən artıq çox olur. Həm uşaq yorulur, həm də biz. Əvvəllər uşağın dərslərinə köməklik edirdik, lakin indi proqram çox çətindir. Etiraf edim ki, ibtidai siniflərdə dərs proqramı əvvəlki illərdə olduğu kimi ağırdır. Üstəlik müəllimlərin uşaqları sinifdənxaric oxu materialları ilə yükləməsi onları həddindən artıq yorur. Dərsliklər və əlavə oxu materialları, iş dəftərləri uşaqların beynini yormaqla yanaşı, çantanın ağırlığı onurğa sütunlarını da zədələyir. Ağır çantaları valideynlər belə daşımaqda çətinlik çəkirlər. 1 həftə ərzindəki I sinif kitablarını analiz etdim və qənaətə gəldim ki, belə ibtidai sinif kitabı olmaz! Biz bu kitablarla heç vaxt şəxsiyyət yetişdirə bilmərik. 2 aya yazılan dərslik əlbəttə ki, keyfiyyətli olmayacaq. Düşünürəm ki, Beynəlxalq standartların Azərbaycanda reallaşması artıq mümkün deyil. Orta məktəbin funksiyası şəxsiyyət yetişdirməkdir, amma bu kitabların heç biri şəxsiyyət yetişdirmir. Mənasız informasiya yükü şagirdin yaş xüsusiyyətinə uyğun deyil. Ev tapşırıqları həddindən artıq çoxdur. Əlbəttə ki, dərs yükü çox olduqda onların oyuna, əyləncəyə zamanı qalmır, ağır dərs yükünün altında əzilirlər. Mənəvi ehtiyaclarını ödəyə bilməyən uşaqlara isə dərs cəlbedici gəlmir, sadəcə, əzbərçilik edirlər” (5, s. 1).

Yuxarıda qeyd olunduğu kimi, ekspert hesab edir ki, ibtidai siniflərin tədris proqramı şagirdlərin yaş xüsusiyyətinə və yaş psixologiyasına uyğun deyil, buna görə də valideynlər müxtəlif yollarla övladlarını məktəblərdən yayındırır və onları repititorlara yönəldirlər.

Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllimi Ənvər Abbasov yazır: “Dərslik nə üçün lazımdır? Bu ritorik sual hər bir təhsil işçisini düşündürə bilər. Zamanın mövqeyindən çıxış edərək birmənalı şəkildə cavab veririk ki, dərslik bu günün məktəb təhsilində lazımlı komponentlərdən biridir. Çünki o, ilk olaraq, şagirdlərdə lazımi səriştələri formalaşdırmaq üçün zəruri hesab edilən minimum təlim materiallarını əhatə edir, öyrənilən bilik, bacarıq və vərdişlərə nail olmaq üçün haradan başlamağın və harada dayanmağın vacibliyini göstərir. Bundan əlavə, dərsliklər praktik fəaliyyət üçün istiqamətverici rol oynayır. Çalışma, tapşırıq və müstəqil iş üçün materiallar təqdim edir. Bu məsələyə xüsusilə Azərbaycan dili dərsliklərində başqa formada yanaşılır. Belə ki, təqdim olunan oxu mətnləri ilə əlaqəli çalışmalar sistemi hazırlanaraq uyğun paraqraflarda yerləşdirilir. Şagirdlər mətn üzrə işləməklə yanaşı, çalışmalar üzərində də fəaliyyətlərini davam etdirirlər. Beləliklə, sırf nitq vahidlərindən istifadə edərək müxtəlif əməliyyatları yerinə yetirir, nitq mədəniyyətinin inkişaf etdirilməsində irəliləyişlərə nail olurlar. Şagirdlərin bu fəaliyyəti təkcə məktəbdə tamamlanmadığından onun evdə davam etdirilməsi zərurəti yaranır. Bu zaman maraqlı tərəf kimi valideynlər də həmin işə qoşulmalı olurlar. Və çox hallarda da dərsliklər haqqında söhbətlər bu mərhələdən qaynaqlanır. Deməli, dərsliklər həm də valideyn zümrəsinin nəzər-diqqətini cəlb etməklə başqa resurslardan fərqlənir. O, əlaqələndirici bir rolda şagird, müəllim və valideyn üçbucağının mərkəzində dayanmış olur. Bu isə, əslində, o deməkdir ki, dərslik ən azı maraqlı olan tərəflərin əlaqələnməsində, koordinasiya olunmasında əsas amil kimi çıxış edir” (3, s. 1).

Elm və Təhsil Nazirliyindən Sputnik Azərbaycan-ın sorğusuna cavabda bildirilib ki, dövlət və bələdiyyə ümumi təhsil müəssisələri Nazirlik tərəfindən nəşr edilən kağız dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik vasitələrlə yerli təhsili idarəetmə orqanları tərəfindən təqdim olunan proqnoz tələbat əsasında təmin edilirlər. Mütəmadi olaraq dərsliklərin çatışmazlığı və bu kimi hallara dair edilmiş müraciətlər Regional Təhsil idarələri tərəfindən araşdırılaraq aradan qaldırılır.

Təhsil Nazirliyindən bildirilib ki, müvafiq standartlara və kurrikuluma uyğun hazırlanan dərsliklərdəki mövcud qüsurları aradan qaldırılması istiqamətində daim nazirlik tərəfindən müvafiq işlər görülür: “Təhsil Nazirliyi tərəfindən dərsliklərin tərtibində dil və yazı üslubunun şagirdin yaş səviyyəsinə uyğun olması, dil qaydalarına düzgün əməl edilməsi, habelə şagirdlərin söz ehtiyatı və nitq inkişafının nəzərə alınması, istifadə edilən yeni söz və terminlərin izahının verilməsi olduqca vacib

hesab edilir. Bu məsələ daim Təhsil Nazirliyi tərəfindən diqqətdə saxlanılır. Dərsliklər çap olunmazdan öncə müxtəlif meyarlar üzrə, o cümlədən dil və yazı üslubu meyarı üzrə də yoxlanılırlar. Əgər artıq çap edilən dərsliklərin dil və yazı üslubu, ağırlığın olması ilə bağlı haqlı fakt varsa, yaxud bu cür irad və təklif daxil olubsa, həmin fakt dərsliyin növbəti təkmilləşdirilməsi zamanı mütləq nəzərə alınır" (3, s. 1)

Azərbaycan ümumtəhsil orta məktəblərində tədris olunan dərsliklərin yeniləndiyi, təkmilləşdirildiyi qeyd edilsə də, hələ də çatışmazlıqlar ortaya çıxır. Yol verilmiş yanlış mətnlər, misallar və məsələlər məktəbliləri və valideynləri çıxılmaz vəziyyətdə qoyur. Azərbaycan Elm və Təhsil Nazirliyinə müraciət edilkdə isə dərsliklərdəki problemlərlə bağlı cavabdehlik daşımadıqlarını bildirirlər.

Bəs görəsən məktəblər dərslik problemindən hələ də niyə xilas ola bilmir? Qeyd etməliyik ki, Avropa ölkələrində təhsil orqanları və nazirliklər şagirdlərin hər sinif səviyyəsində əsas mövzuları mənimsəyə bilmələri və bacarıqları səviyyəsində dərslik yaradılır. Bu standartlar dərsliklərin təhsil məqsədlərinə uyğun olması üçün müəlliflər və naşirlər rəhbər rolunu oynayır. Hər bir dərsliyin hazırlanmasında fənn mütəxəssislərinin təcrübəsi dayanır. Bu müəlliflər təcrübəli pedaqoqlar, peşəkar mütəxəssislərdir. Onlar pedaqoji cəhətdən sağlam məzmunlu dərsliklər hazırlayırlar. Əlbəttə ki, respublikamızda da dərsliklərin (bütün fənlər nəzərdə tutulur) yaradılması zəhmətli prosesdən keçir və müəlliflər mürəkkəb anlayışları sadələşdirməyə çalışırlar.

Təhsilin daim inkişaf edən mənzərəsində dərsliklər canlı miras kimi dayanır. Müasir dövrün innovasiyası dərsliklərin aktual qalmasını təmin edir, yeni inkişafları və yeni dəyişiklikləri əks etdirməyə xidmət edir. Bu baxımdan, dərsliklərin mövcudluğu statik deyil, şagirdlərin ehtiyaclarına və müasir təhsilin tələblərinə uyğun olan dinamik təkamüldür.

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir (çıxışlar, fərmanlar. 29-cu cild, Bakı: Azərnəşr 2009, s. 51.
2. Tofiq Hacıyev. Ana dili dərsliklərinin dili haqqında. Dil Mədəniyyəti jurnalı VI. Bakı: Elm, 1985, səh. 72-79.
3. Azərbaycanın dərslik problemi: "Anlaşılmayan dildə yazılır..." Bakı: Təhsil.biz. 08.12.2021.
4. "Keyfiyyətsiz dərsliklər, savadsız məzunlar". 525-ci qəzet, 30.05.23.
5. Kamran Əsədov. "Dərslikləri heç biz özümüz başa düşmürük, o ki qaldı, uşaqlar". Modern.az. 24.01.2024.
6. Ənvər Abbasov. "Azərbaycan dili dərsliklərinə konseptual yanaşmalar". "Azərbaycan müəllimi" qəzeti, 03 iyul 2020.

AZƏRBAYCAN DİLİNDƏ PAREMİK VAHİDLƏR

Lalə Mikayılzadə*

Abstract

Paremic units in the Azerbaijan language

Proverbs are an artistic expression of folk wisdom, the people's mind, and the life experience of the people. Proverbs, which are the artistic expression of the results of historically verified life observations of people, have their own characteristics.

Proverbs are the wise words created by people and received as a life formula. Proverbs are considered universal characteristic genre of folklore and founded in folk art of all nations of the world. Being small volume, but rich, wise, moralizing in meaning is considered the main features of proverbs. There is a need for proverbs in our modern times, because proverbs are the brightest expression of the people's cultural values, national mentality, logical judgment, and philosophical thinking. Proverbs, which reflect our daily life and everyday life, cover the entire historical experience of the people. Proverbs are one of our national values. It is the moral duty of each of us to preserve national values and pass them on to future generations.

Keywords: *proverbs, sayings, folklore, allegorical, folk art, paremic units.*

Giriş. Xalq müdrikliyinin, xalq zəkasının, xalqın həyat təcrübəsinin bədii ifadəsini atalar sözləri və məsəllər təşkil edir. Xalqların tarixən sınaqdan çıxarmış həyat müşahidələrinin gəldiyi nəticələrin bədii ifadəsi olan atalar sözlərinin özünəməxsus xüsusiyyətləi var. Həyatda hər nə dəyişsə də həqiqət və hikmətləri əks etdirən atalar sözləri dəyişməz olaraq qalır və yaşayır.

Dünya xalqlarının hamısının şifahi xalq yaradıcılığında rast gəlinən atalar sözləri folklorun universal xarakterli janrlarından sayılır. Hər zamanın, hər xalqın, hər yerin özünəməxsus, yerli adət-ənənələrlə bağlı atalar sözləri olduğu kimi, bütün xalqlar üçün ümumi olan, universal səciyyə daşıyan atalar sözlərinin də olduğu danılmaz faktdır.Bu atalar sözlərinin ümumbəşəri olması və humanist səciyyə daşımasından xəbər verir [3, s. 123].

Atalar sözləri dərrakəli, mərifətli, ağıllı, fərasətli adamlar tərəfindən təsadüfən söylənilən yığcam formalı, zəngin məzmun çalarına malik, hər kəs tərəfindən bəyənilmiş və bütün tayfa və ya etnosun ümumi mənəvi dəyərinə çevrilmişdir. Atalar sözləri nəsildən-nəsilə keçərək şifahi xalq ədəbiyyatında özünəməxsus yer tutmuşdur.

Mövcud olan həqiqətlərin hər hansı bir şəkildə ifadə olunması həyatın müşahidə və sınaqlarından doğur. Başqa cür desək, atalar sözləri müşahidə və sınaq yolu ilə dərk olunmuş gerçəklərin bədii ifadə formasıdır [4, s. 230].

Atalar sözləri ulu babalarımızın müdriklik dəfinəsidir. Fikir cövhəri və hikmət inciləri olan atalar sözləri, el məsəlləridir ki, obrazlı təfəkkürün qida mənbəyi olaraq beyinlərə, zehinlərə təpər verir. Ruhumuzu yaşadan bu sözlərdən düşüncələrə ətir saçılır, güc-qüvvət gəlir.

Xalq arasında ibrətamiz ifadələr adı ilə də tanınan atalar sözlərində hökm qəti şəkildə təsdiqlənir. Mənaca bölünməz olan atalar sözləri dilin tarixi inkişafı nəticəsində yaranmış və bu dilin əski adət-ənənələrinə uyğun olaraq mürəkkəb frazeoloji sistemiylə bütövləşmişdir. Elə bu səbəbdən də atalar sözləri və zərbi-məsəllərdə sözlərin yerini dəyişmək, bir sözü yerindən oynatmaq o sözün sintaksisini pozub təsir gücünü azalda bilir. Demək olar ki, həmin tərkiblər milli düşüncə və milli dilin bir-birinə qarşılıqlı təsiri nəticəsində artıq qəlibləşmiş bir şəkil almışdır. Folklor və dilin sərhədində dayanan və xalqın milli düşüncə və təfəkkür səviyyəsini anlamaq baxımından dəyərli əhəmiyyəti olan bu tərkiblərdə alınmalar da yox dərəcəsindədir.

Əsas hissə. Atalar sözləri xalq fəlsəfəsinin dərinliyini özündə əks etdirir, simmetriyalı, ritmikdir. Az sözlərlə geniş mənalar ifadə eləmək qüdrətində olan bu xalq ifadələri, təkcə dilin gözəlliyinə xidmət eləmir. Həm də bir dili öyrənərkən o dildəki idiomlarla, frazeologizmlərlə yanaşı,

* ***AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, pedaqogika üzrə fəlsədə doktoru. Elek.poçt: lala-mak70@mail.ru.***

o dilin canlıdan canlı həmin paremik vahidlərini də bilmək gərək olur. Özlüyündə metaforadan ibarət olan məcazi məzmun üzərində qurulan, daha doğrusu, buna görə də heç hansı halda hərfi anlamda qavranmayan atalar sözləri bütün dövrlərdə milli təfəkkürlə sıx bağlanan bir sistem kimi xalq dilinin canlılığını bütün gücüylə göstərdi. Paremik vahidlərin tərtib edilməsi, elmi nəşri ilə bağlı olaraq dünya folklorşünaslığında, paremiologiyaya dair elmi ədəbiyyatlarda atalar sözlərinin təsnifinin bir neçə tipi göstərilir:

Əmək haqqında yaranmış atalar sözləri:

Burada əməyin insanın sağlamlığı və insan üçün şərəfli iş olması barədə yaranmış atalar sözlərindən bəhs edilir. Məsələn: "İş insanın cövhəridi", "İşləyən dəmir işıldar" , "Atlar işlər, ər öyünər", "Nə əkərsən onu da biçərsən" .

Vətən, dostluq, səadət haqqında yaranmış atalar sözləri:

Bura vətənpərvərlik, etibarlılıq mövzusunda yaranmış atalar sözləri daxildir. Məsələn: "El bir olsa dağ oynadar yerindən", "Elə arxalananın kürəyi yerə dəyməz", " El sevəni el sevər", "Dost yaman gündə tanınar", "Dostun atdığı daş baş yarmaz" və s.

Zülm, ədalət, qadın hüquqsuzluğu haqqında yaranan atalar sözləri:

Burada zülmə etiraz, azadlığa meyl barəsində yaranmış atalar sözlərindən bəhs edilir. Məslən: "Qulun qadını işlək olar", "Zor qapıdan girər, şər bacadan çıxar", "Ağaya ağ olan boynuna kəfən salar", "Ağa deyir sür dərəyə, sür dərəyə" və s.

Əxlaq-tərbiyə və gözəllik haqqında yaranmış atalar sözləri:

Atalar sözlərində gözəlliyin və yüksək əxlaq-tərbiyənin tərənnümü xüsusən yer almışdır. Məsələn: "Doğruya zaval yoxdur", "Vicdan ləkəsi silinməz", "Böyüyün qulluğunda kiçik dayanar", "Gözələ məhəbbət qəbahət olar", "Gözəllər məclisi rəvan keçər" və s.

Atalar sözləri xalq tərəfindən yaradılan və xalqın özünə həyat düsturu olaraq qəbul etdiyi hikmətli sözlərdir. Atalar sözlərinə mövzu müxtəlifliyi, bitmiş fikir, ümumiləşdirmə və nəticə kimi xüsusiyyətlər daxildir. Böyük əxlaqi-tərbiyəvi əhəmiyyət kəsb edən atalar sözləri xalqın həyatda sınanmış, müdrik və nəsihətli fikirlərinin təzahürüdür. Həcmcə kiçik olması, lakin mənaca hikmətli və nəsihətli olması atalar sözlərinin əsas xüsusiyyəti sayılır. Atalar sözləri həm həqiqi, həm də məcazi mənada işlənə bilir. Həqiqi mənada işlənənlərə misal olaraq aşağıdakı atalar sözlərini göstərmək olar: "Doğru söz acı olar", "İş insanın cövhəridir", "Yaxşı dost qardaşdan irəlidir", "Çıxan can geri qayıtmaz" və s.

Məcazi mənada işlənənlərə isə misal olaraq aşağıdakıları göstərmək olar:

"İlanın ağına da lənət, qarasına da", "Buynuzsuz qoçun qisası buynuzlu qoçda qalmaz", "Ağacı qurd içindən yeyər", "İslanmışın yağışdan nə qorxusu", "Qudurmuş köpəyin ömrü qırx gündür" və s.

Bundan əlavə atalar sözləri arasında alleqorik atalar sözləri də az deyil. Ən çox işlətdiyimiz bu ifadələr arasında məhz alleqorik atalar sözləri özünəməxsus yer tutur. Bu da onların epik əsərlərdən, nağıllardan, təmsillərdən yaranması ilə bağlıdır. Alleqorik atalar sözlərinə bu nümunələri göstərmək olar: "Ac ayı oynamaz", "Ala it çaqqalın dayısıdır", "İki qoçun başı bir qazanda qaynamaz", "Eşşək işlər, at yeyər", "İt hürər, karvan keçər", "Anasından qabağa düşən qulunu qurd yeyər", "Aslanın dişisi erkəyi olmaz", "Ac toyuq yuxusunda darı görər" və sair.

Azərbaycan atalar sözlərində işlədilmiş bədii təsvir ifadələri arasında geniş miqyasda işlənmiş kinayə və mübaliğəni göstərə bilərik.

Bizim gəlin bizdən qaçar,
Üzün tutar, qılçın açar,

Bu misalda kinayəni görə bilərik.

Boynum qıldan nazikdir. Bu nümunədə isə biz mübaliğənin çox üstün təsirini görə bilirik.

Şifahi xalq ədəbiyyatının əsas qolu olan atalar sözlərindən yazılı ədəbiyyatda da geniş istifadə olunmuşdur. Nəcəf bəy Vəzirovun "Daldan atılan daş topuğa dəyər", "Yağışdan çıxdıq yağmura düşdük", "Sonrakı peşmançılıq fayda verməz", Abbas Səhhətin "Yoxsulluq eyib deyil", Əbdürrəhim bəy Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" əsərlərinin adları buna əyani sübut ola bilər.

Azərbaycan folklorunda atalar sözlərinin həm nəzm formasında, həm də nəsr formasında olduğunun şahidi oluruq. Məsələn:
Hər nə yedin dadındır,
Hər nə verdin adındır,
Hər nə qaldı yadındır,

İgid odur atdan düşüb atlana,
İgid odur hər əzaba qatlana.

İgid ölər, adı qalar,
Müxənnətin nəyi qalar?

Sən ağa, mən ağa,
İnəkləri kim sağa?

Açaram sandığı,
Tökərəm pambığı.

Yüz ölç,
Bir biç.

Görünən dağa bələdçi lazım deyil.
Böyüksüz evdə xeyir-bərəkət olmaz.

Bu günün işini sabaha qoyma
İş insanın cövhəridir.
Kitab bilik mənbəyidir.

Dramatik və təhkiyə ünsürlərinin mövcudluğu mənsur atalar sözlərində diqqəti cəlb edən cəhətlərdəndir.
Yaxşılığa yamanlıq, kor eşşəyə samanlıq.
Dəmirsiniz, missiniz, hamınız bir cinssiniz.
Tısbağaya xalası, hər kəsə öz balası və s.

Atalar sözlərinin yaranmasında məcazların da rolu böyükdür. Atalar sözlərində məcazların demək olar ki, bütün növləri ilə – təşbeh, epitet, metonimiya, kinayə, sinekdoxa, təzad,mübaliğə və s. rastlaşa bilirik. Belə atalar sözlərinə misallar göstərə bilərik:

"İt hürər, karvan keçər"
"El elə sığar, ev evə sığmaz"
"At ölüb, itlərin bayramıdır"
"İlanın ağına da lənət, qarasına da"

Tərkibində məcaz olan belə atalar sözlərinə aid çox misallar gətirmək olar.
Atalar sözlərinin adı çox vaxt mənbələrdə zərbü-məsəllərlə qoşa çəkilir. "Atalar sözləri və məsəllər" ifadəsi ilə tez-tez rastlaşırıq.

S.Cəfərovun Müasir Azərbaycan dilinin leksikası kitabında " Atalar sözü və zərbü-məsəllər" adı altında başlıqlar vardır ki, Cəfərov bu başlıqlar haqqında ayrı-ayrılıqda ətraflı məlumat vermişdir. Müəllif qeyd etmişdir ki, zərbü-məsəlləri sadəcə məsəllər də adlandırırlar. Bunlar məna və qrammatik quruluşuna görə atalar sözlərinə çox yaxındır, hətta onları bir-birindən ayırmaq belə çətin olur. Zərbü-məsəlləri atalar sözlərindən fərqləndirən cəhət məsəllərdə fikrin nisbətən daha tam şəkildə ifadə olunması və bundan nəticə çıxarılmasıdır. Bundan başqa zərbü-məsəllər müəyyən bir hədəfi güdür və bu və ya digər şəxsin xüsusiyyətinə aid olması ilə fərqlənir.

Burada müəllifin "məsəllər müəyyən hədəfi güdür" fikrinə nəzər salsaq görərik ki, atalar sözlərini məsəllərdən ayıran əsas əlaməti də elə budur. Atalar sözləri zərbü-məsəllərdən fərqli olaraq

heç bir hədəf güdmür. Bu ifadələr ümumi hökm bildirir. Məsələn: “Halva, halva deməklə ağız şirin olmaz”, “İki qılınc bir qına sığmaz”, “Nə əkərsən onu da biçərsən”, “İşləməyən dişləməz”.

Bunlar atalar sözləri olaraq, heç bir konkret şəraitlə əlaqədar olmayıb, ümumiləşmiş hökmləri ifadə edirlər [8, s. 125] .

V.P.Jukov da öz növbəsində atalar sözləri və məsəlləri bitkin cümlə formasına malik hökmlər kimi qələmə vermişdir. Müəllif atalar sözlərinə eyni zamanda hərfi və obrazlı planı olan, və ya təkcə obrazlı planı olan yığcam xalq deyimləri kimi yanaşmışdır.

Jukov qeyd etmişdir ki, atalar sözlərinin ikiplanlı olması onları məsəllərdən fərqləndirir. Müəllif atalar sözləri və məsəllərin arasında ara vahidlərini də ayırmış və onları atalar sözləri və məsəllərin xüsusi bir tipi kimi qələmə vermişdir [9, s. 304] .

Belə ifadələr tərkibindəki sözlərin bir qisminin birbaşa, digər qisminin isə məcazi mənada olması ilə xarakterizə olunurlar. Məsələn: “Araz aşığından, Kür topuğundan”, “Ağıllı fikirləşincə, dəli çayı keçər”, “Dəliyə həmişə bayramdır”. Bu kimi atalar sözlərində məcazilik özünü göstərir. Təbii ki, bədii dil vasitəsi olan məcazların hesabına atalar sözlərindəki ifadələr daha da qüvvətli təsirə malik olur.

Qeyd etmək lazımdır ki, folklor o qədər zəngin bir mənəvi sərvətdir ki, heç bir xalqın mədəniyyət tarixini bunsuz təsəvvür etmək mümkün deyil. Yazılı ədəbiyyat yaranarkən folklor xalqın mənəvi ehtiyacını bütünlüklə ödəmişdir, müəllifli ədəbiyyatdan sonra da xalq öz yaradıcılığını fasiləsiz olaraq davam etdirmişdir.

Atalar sözlərinin toplanması XX əsrin birinci rübünə qədər onun nəşri və öyrənilməsi kortəbii səciyyə daşımış və ayrı-ayrı maraq sahiblərinin zövqünə uyğun şəkildə görülmüşdür. XVII-XVIII əsrlərdə yazıya köçürülən atalar sözlərinin həyat üzü görmələrində ziyalılarımızın böyük əməyi olduğunu da qeyd etmək lazımdır.

XIX əsrin sonlarında İbrahim Məhərrəmzadə, Məhəmmədəli Qəmərli, Muhəmməd ibn Əli Quli, Axundzadə Mirzə Əli ibn Hacı Molla Mustafa Əlbadkubeyn, XX əsrin əvvəllərində F.Köçərli və başqalarının folklor əsərlərində, xüsusən də onun ən dəyərli və kütləvi janrı olan atalar sözlərinin toplanması, nəşri və öyrənilməsi işində məxsusi xidmətləri olmuşdur. Bu sahədə Eynəlibəy Sultanovun da xidmətlərini xatırlatmaq yerinə düşərdi.

Atalar sözü və zərbi-məsəllərin toplanması və nəşri Azərbaycan ədəbiyyatı tarixində daha çox Hənəfi Zeynallı və Əbdülqasım Hüseynzadənin adı ilə bağlıdır. Bu müəlliflərdən H.Zeynallı atalar sözlərini toplayıb nəşr etdirməklə bahəm bu janrın elmi cəhətdən mahiyyətinin açılmasına daha çox əhəmiyyət vermiş, tədqiqatçı kimi ad qazanmışdır. Ə.Hüseynzadə isə böyük zəhmət hesabına dilimizdəki atalar sözlərini toplamış, ən əsası isə atalar sözü fondunun yaradılmasında əvəzedilməz fəaliyyət göstərmişdir.

Nəticə. Nəticə olaraq onu da qeyd etmək lazımdır ki, atalar sözləri xalqın mədəni dəyərlərinin, milli mentalitetinin ən qabarıq şəkildə ifadəsidir. Xalqın məntiqi mühakiməsini, bədii yaradıcılıq imkanlarını, fəlsəfi düşüncəsini, gündəlik həyat və məişətini əks etdirən atalar sözləri xalqın bütün tarixi təcrübəsini əhatə edir. Xalqın özünüifadə vasitəsi olan atalar sözlərini öyrənməklə hər hansı bir xalqı hərtərəfli tanımaq mümkündür. Necə deyərlər: “Məsləhətli don gen olar”.

Atalar sözləri ata-babalarımızın bizə gəlib çatan kəlamlarıdır. Atalar sözləri əsrlər boyu sınanmış, həyatın keşməkeşlərindən üzüağ, alnıaçıq çıxaraq indi də öz əhəmiyyətini itirməmişdir.

Atalar sözləri və məsəllər xalqımızın tarixinin bütün dövrlərini özündə əks etdirməyə qadir olmuşdur. Atalar sözlərinin müəllifi məlum olmasa da, onlar babalarımızın canlı səsini, nəfəsini özündə yaşadır.

Zəngin həyat təcrübəsi xalqın əsasında gəldiyi qənaətləri, dəfələrlə sınaqdan keçirilmiş həqiqətləri əks etdirən, dərin və yığcam mənaya malik olan atalar sözü və məsəllərə biz gündəlik həyatımızda geniş yer veririk. Əməksevərlik, mərdlik, vətənərvərlik, düzlük, humanizm və s. kimi gözəl keyfiyyətlər təbliğ edən atalar sözləri və məsəllərdən hər kəs, yeri gəldikcə öz nitqində istifadə edir.

Çağdaş dövrümüzdə də atalar sözlərininə ehtiyac duyulur, çünki atalar sözləri xalqın mədəni dəyərlərinin, milli mentalitetinin, məntiqi mühakiməsinin, fəlsəfi düşüncəsinin ən parlaq ifadəsidir. Gündəlik həyat və məişətimizi əks etdirən atalar sözləri xalqın bütün tarixi təcrübəsini əhatə edir. Atalar sözləri milli dəyərlərimizdəndir. Milli dəyərləri qoruyub gələcək nəsillərə ötürmək hər birimizin mənəvi borcudur.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasquliyev T.-İngilis atalar sözləri və məsəlləri və onların azərbaycanca, rusca qarşılıqları. Bakı: Elm, 1981, s.211
2. Abbaslı İ. Ön söz // Atalar sözü / tərtib edən: Məmmədvəli Qəmərli transliterasiya və sözlüyün müəllifi R. Xəlilov. Bakı, Səda 2003.s.6-22
3. Atalar sözü / tərtib edəni Hş Zeynallı, Bakı, Azərnəşr,1926, s.123
4. Atalar sözü /tərtib edəni: Ə. Hüseynzadə, Bakı: Azərnəşr,1938, s. 230
5. Atalar sözü /tərtib edəni: Ə. Hüseynzadə, Bakı: Azərnəşr, 1949, s. 311
6. Atalar sözləri/ tərtib edəni: M.V.Qəmərli transliterasiya və sözlüyün müəllifi R. Xəlilov, ön söz müəllifi İ.Abbaslı,elmi redaktoru H.İsmayılov. Bakı: Səda, 2003, s.565
7. Əlizadə Z. Azərbaycan atalar sözlərinin həyatı. Bakı: Yazıçı 1985, s. 245
8. Cəfərov.S. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Şərq-Qərb,2007, s. 125
9. Жуков В.П. Русская фразеология|. Лингвистика, Москва, 2006, s. 305

BİLİNQVİZM VƏ ONUN MAHİYYƏTİ

Pərvin Bayramova*

Abstract
Bilingualism and its essence

Every person uses language to communicate with others in the society in which they live. It is for this reason that the society and the language that ensures its existence are involved in research from various aspects. For that reason, human life and future seem impossible without language. Language acts as a social function.

At present, close relations between countries in the world are being established rapidly. Those relations are manifested at the political, social, economic, cultural and scientific levels and are constantly expanding. Globalization affects the comprehensive development of nations and leads to the expansion of relations in various fields. It goes without saying that languages play an important role in the existence and constant development of relations between nations. In such a situation, people should be able to freely use another language in addition to their own language. In recent times, the presence of people who can speak two languages fluently leads to further formation of international relations.

Key words: *bilingualism, society, language, individuals, bilingual person.*

Giriş. Dil yalnız insanın var olduğu mühitdə fəaliyyət göstərir və onun bütün əlaqələrinə təsir edir. Bu baxımdan cəmiyyət və onu yaşadan dil arasında sıx əlaqə vardır. Həmin səbəbdən insanın həyatı və gələcəyi dil olmadan mümkünsüz görünür. Dil sosial funksiya rolunda çıxış edir.

Hal-hazırda dünyada ölkələr arasında sıx münasibətlər qurulmaqdadır. Bu münasibətlər siyasi, sosial, iqtisadi, mədəni, elmi səviyyələrdə özünü göstərir və daim genişlənir. Qloballaşma xalqların hərtərəfli inkişafına təsir göstərir və müxtəlif sahələrdə əlaqələrin genişlənməsinə səbəb olur. Sözsüz ki, xalqlar arasında münasibətlərin mövcudluğu və daim inkişaf etdirilməsində dillər mühüm əhəmiyyət daşıyır. Belə vəziyyətdə insanlar öz dili ilə yanaşı digər bir dildən də sərbəst şəkildə istifadə edə bilməlidir. Son dövrlərdə iki dildə səlis şəkildə danışmağı bacaran insanların olması beynəlxalq münasibətlərin daha da formalaşmasına səbəb olur.

Əsas hissə. "*Dünyada 7000-dən çox dil var və dünya ölkələrinin əksəriyyəti çoxdilli və multikulturaldır. Birdilli ölkələrdə və əvvəllər linqvomədəni "təmizliyi" qorumağa meyilli olan və yeganə dövlət və rəsmi dilə malik ölkələrdə (məsələn, Avropanın əksər ölkələrində, o cümlədən Fransa, Almaniya, İngiltərə) qloballaşmanın təsiri artır və demək olar ki, artıb. Miqrasiya və əhali baxımından faktiki olaraq multikultural, çoxmillətli və çoxdilli olur*" (3, s. 129).

Deməli, son dövrlər baş verən miqrasiya halları da ikidilliliyin artmasına səbəb olur. Hətta zamanla birdilli hesab olunan ölkələr də indi ikidillilikdən azad ola bilmirlər.

Tədqiqatçılar ikidilliliklə bağlı xeyli sayda araşdırma aparsalar da bu günə qədər hələ də tam qənaətə gəlməyiblər. Qeyd edilə bilər ki, ikidillilik termini özlüyündə müxtəlif semantik mahiyyət kəsb etmir, ancaq onun əlamətlərini açıq şəkildə müəyyən etmək özlüyündə çətin məsələdir və demək olar ki, problemlidir. İkidillilik məsələsi ona görə problemli hesab olunur ki, o hər bir fərddə eyni şəkildə biruzə vermir, belə ki, onların nitqində müxtəlif formada müşahidə olunur. Sözsüz ki, araşdırmalar da göstərir ki, ikidillilik həm müsbət, həm də mənfi formada təzahür edir. "*Məlumdur ki, ikidilliliyin fərdin nitqi, koqnitiv inkişafı və mədəni şəxsiyyətinin formalaşması üçün müəyyən – həm mənfi, həm də müsbət nəticələri var. İkidilliliyi xarakterizə edərkən bir çox amilləri nəzərə almaq lazımdır. Birincisi, etnik-sosial mühit, müəyyən dillə əlaqəli sosial ünsiyyətin funksional sferaları və ikidilliliyin aktuallaşmasının kommunikativ situasiyalarıdır. Daha sonra bu, ikinci dilin mənimsənilməsi konteksti, bir dildən digər dilə keçid tezliyi, ikidillinin yaşı sosial-iqtisadi vəziyyəti, təhsili, o cümlədən* dildə olan səriştələri kimi ikidilli şəxsin faktiki şəxsiyyətdir" (3, s. 130).

* ***AMEA İ.Nəsimi adına Dilçilik İnstitutu, Nəzəri dilçilik şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: hesenova-88@mail.ru.***

Sosiolinqvistik aspektdən yanaşsaq ikidillilik müasir cəmiyyətin qaçılmaz və ortaq məsələsinə çevrilmişdir. İkidillilik məsələsinin qaçılmaz olmasına səbəb yeni kəşflərin, ixtiraların, beynəlxalq münasibətlərə ehtiyacın olması ilə bağlıdır. Bir sözlə, dil sadalanan əlaqələrdə mühüm rol oynayır. Tarixən cəmiyyətin həyatında baş verən istənilən dəyişikliklər dərhal dildə öz əksini tapır və dilin öz "süzgəcindən" keçərək cilalanır. Hər bir xalqın, millətin dilində onun tarixi, mədəni dəyərləri və özünü dolğun ifadə etməsini görə bilərik. Sosiolinqvistikada dil və cəmiyyət əlaqələri, onlar arasında sıx bağlılığın mövcudluğu araşdırılır.

Hər bir fərdin ən vacib bacarıqlarından biri ünsiyyət qabiliyyətidir. Dil və cəmiyyət arasında qarşılıqlı əlaqə vardır və onlar bir-birindən asılıdır. Dil şüura, şüur da dilə təsir göstərir, nəticədə dil sosial varlığa çevrilir. Dil ona görə sosial varlıq hesab olunur ki, o ictimai mühitdə baş verən hadisələri özündə əks etdirir və bu səbəbdən də cəmiyyətdə baş verən hər hansı hadisə dillə ifadə olunur. "İkidilli" sözünün mənşəyi latın dilindən gəlir. "Bi – ikiqat, lingua – isə dil mənasında işlədilir. Mənası iki dillilik deməkdir. Bilinqvizmlə yanaşı dilçilikdə "monolinqvizm" (təkdillilik) və "polilinqvizm" (çoxdillik) terminləri işlədilir. Monolinqvizm – mono – tək, lingua – dil deməkdir. Monolinqvizm təkdillilik deməkdir, monolinqvist təkdilli hesab olunan adamdır, yalnız doğma dilində (ana dilində) danışır. Polilinqvizm – poli – çox, lingua – dil deməkdir. Polilinqvizm çoxdillilik deməkdir və belə insanlar ikidən çox dildə danışırlar. "*Bir mövzu kimi ikidillilik tədqiqat ədəbiyyatında geniş şəkildə işıqlandırılmış və çoxsaylı alt mövzulara genişlənmişdir. Alt mövzulara misal olaraq ikidillilikdə koqnitiv inkişaf, ikidillilikdə mədəniyyət və şəxsiyyət, eləcə də ikidilli təhsil aiddir. 'Bi' iki deməkdir, ona görə də bu söz sadəcə olaraq ikidilliliyin iki dili bilməkdən ibarət olduğunu göstərir. Reallıqda ikidillilik anlayışı daha mürəkkəbdir*" (5, s. 13). Ümumiyyətlə, ikidilliliyə müxtəlif təriflər, izahlar, şərhlər verilmiş, qruplara bölünmüşdür. Hətta araşdırmaların əhatə dairəsi o qədər genişlənmişdir ki, bilinqvizim müxtəlif növlərə və alt qruplara bölünmüşdür.

Bəzən ikidillilik məsələsinə həm koqnitiv, həm də psixolinqvistik baxımdan yanaşılmışdır. "*İkidillilik məsələsinə koqnitiv-psixolinqvistik və sosial-mədəni tərəfdən baxılması (və yenidən nəzərdən keçirilməsi) bu fenomenin çoxölçülü olması, onun xassələrinin bir-biri ilə əlaqəli olması və bir-biri ilə bağlı olması səbəbindən aktual olaraq qalır*" (3, s. 128.).

İnsanların nitq fəaliyyətinin həyata keçirilməsi hər bir millətin özünü ifadə etməsi və təsdiqləməsi ilə bağlıdır. Nitq fəaliyyətinin nəticəsində insan milli xüsusiyyətlərini, ənənəvi dəyərlərini və əsl kimliyini ifadə edir. Ancaq bilinqvizm müxtəlif cəmiyyət nümayəndələrinə, eləcə də fərqli mədəni, siyasi görüşə malik insanlara imkan yaradır ki, öz aralarında ünsiyyətdə olsunlar, fikir mübadiləsi aparsınlar. Dilçilikdə mühüm amil hesab olunan ikidillilik məsələsi hal-hazırda iqtisadi, siyasi, elmi, ictimai mühitdə aktual olmaqla bərabər, eyni zamanda geniş yayılmışdır. Bundan başqa iki dildə ünsiyyət qurmağı bacaran insan elmi və ictimai fəaliyyətin daha geniş sahələrində fəaliyyət göstərə bilir.

Bilinqvizmin yaranması təsadüfi dil hadisəsi hesab oluna bilməz. Burada mədəni, iqtisadi, dini, ticari, eləcə də siyasi amillər mühüm əhəmiyyət kəsb edə bilir. Bilinqvizmin yaranması bir çox səbəblərlə bağlıdır. "*İkidilliliyin və bikulturalizmi yaradan əsas faktorlardan biri miqrasiyadır. Miqrasiya insanların öz ölkələrini tərk edərək xarici ölkəyə getməsi və bu ölkədə müvəqqəti və ya daimi məskunlaşmasıdır. Bu, ümumiyyətlə, iqtisadi, siyasi, mədəni, linqvistik və sosial səbəbləri olan kütləvi hadisə hesab olunur*" (4, s. 184). Digər ölkəyə gedən insan öz ana dili ilə yanaşı gəldiyi ölkənin də dilini öyrənir, nəticədə, o da bilinqvist hesab olunur.

Doğrudur, ikidillilik insanın fərdi nitq fəaliyyəti hesab oluna bilər. Hələ çox qədim zamanlardan müxtəlif millətlər, tayfalar bir-biri ilə əlaqədə olmuş, onların istifadə etdikləri dillər bir-birinə təsir göstərmişdir. Daha sonra bu təsirin dairəsi fərqli istiqamətə yönəlmiş, daha böyük təsirə və nüfuza malik olan tayfa, millət digərlərini, yəni özündən zəif olanları asılı vəziyyətə salmışdır. Bunun nəticəsində zəif, tabe olan tayfa, millətlər öz dili ilə bərabər nüfuzlu millətin, dövlətin də dilində danışmağa başlamışdır. Bundan sonra artıq cəmiyyətdə ikidillilik formalaşmışdır.

Bilinqvistik cəmiyyətdə şəxsin birinci dili onun doğma dili hesab olunur və o ilk növbədə həmin dildə danışır. Bu dil ana dili adlanır. Ola bilər ki, doğma dili ilə ikinci dili bilmə dərəcəsi eyni olmasın, ondan eyni səviyyədə istifadə olunmasın. Bəzən ikinci dildən istifadə olunarkən elə ola bilər

ki, dil istifadəçisi onu şifahi şəkildə yaxşı işlətsin yazılı səviyyəsi aşağı olsun. Dil daşıyıcılarının nitqində belə halların olması normal hesab oluna bilər.

Bəzən ikidilli şəxsin dil üslublarından fərqli istifadəsinin şahidi ola bilirik. Onun şifahi nitqi ilə yazılı nitqi arasında kəskin fərqliliyin olması onun hansından daha çox istifadə etməsindən asılıdır. Məsələn, rəsmi üslubdan istifadə edən şəxs ola bilər ki, bədii üslubda o qədər də uğurlu olmasın. İkidilli cəmiyyətlərdə təhsil fərqliliyi də müşahidə olunmaqdadır. İki dildə danışan şəxslərin təhsili, yəni tədris aldığı dil çox zaman ikinci dili olur, yəni doğma dili olmur. Belə hala adətən evdə valideynlərdən hər hansı birinin rus dilli olması ilə bağlı məqamlarda rast gələ bilərik. Məsələn, Azərbaycanda öz ana dili ilə bərabər rus dilini də yaxşı bilən şəxs çox zaman təhsilini rus dilində alır. İkidilliliyin yaranması müxtəlif fərdlərin ünsiyyət qurduğu məqamlarla sıx bağlıdır. Belə ki, müəyyən şəxslər vardır ki, işi ilə bağlı olaraq müxtəlif dil daşıyıcıları ilə ünsiyyətdə olurlar, nəticədə ikidillilik yaranır. Bundan başqa ata və ana fərqli millətlərin, dillərin daşıyıcıları olduqda doğulan uşaq hər iki dildə danışır ki, belə halda onlar ikidilli hesab olunur. Məsələn, ingilis vətəndaşı ilə ailə quran azərbaycanlının övladları həm ingilis, həm də Azərbaycan dilində danışacaqlar. Belə olan halda onlar ikidilli hesab olunur. İkidillilik anlayışı universal dil hadisəsi hesab olunur və bu baxımdan hər zaman dillə bağlı çoxsaylı tədqiqatların aparıcı xətti olmuşdur. Bilinqvist hesab olunan insan iki dildə düşünə bilir. Bəzən ikidillilik üstün hal hesab olunsa da onun da müəyyən çatışmazlıqları vardır. Məsələn, müəyyən məqamda insanın bir dildən digər dilə keçidi zamanı ünsiyyət prosesində dolaşıqlıq yaranır. Bəzi hallarda bir dildən digər dilə keçid zamanı qeyri-ixtiyarı hər iki dildən istifadə oluna bilir.

Bilinqvizm məsələsi iki dilin bir-birinə təsirinin nəticəsidir. Bilinqvist hesab olunan fərdlər hər iki dildə ünsiyyət qurmağı bacarsalar da, hər iki dili heç də eyni səviyyədə bilmirlər. İki dildən istifadə edən insan hər ikisini eyni dərəcədə bilmir. A.Qurbanov bu haqda yazır ki, "*ikidillilik prosesində xalqın bütün üzvləri və ya onun müəyyən qrupu fəal iştirak edə bilir. Bununla bərabər, ikinci dil bəzi şəxslər tərəfindən ya zəif, yaxud da ana dili səviyyəsində öyrənilə və işlədilə bilər*" (2, s. 265). Bir sözlə, bəzən elə hallar olur ki, insan öz doğma dilini digərindən daha yaxşı bilir və fikirlərini bu dildə mükəmməl ifadə edə bilir. Lakin bəzən elə hallara rast gəlinir ki, insanlar öz doğma dilini yox, ikinci dili daha yaxşı bilir və ondan istifadə edir. Məsələn, Azərbaycanda rus bölməsini bitirən elə şagirdlər vardır ki, onlar rus dilini daha yaxşı bilirlər.

Bilinqvizmlə bağlı araşdırmalar bir istiqamətli deyildir, belə ki, bu cür tədqiqatlar ilk növbədə linqvistik, daha sonra sosiolinqvistik, psixolinqvistik, psixoloji, pedaqoji, mədəni aspektlərlə sıx əlaqəlidir və buna görə də mürəkkəb proses hesab olunur. İkidilliliyin mürəkkəb proses olmasını şərtləndirən amillərdən biri də şəxsin, yəni ayrı-ayrı fərdlərin yaşı, mənimsəmə qabiliyyəti, dünyagörüşü, hər iki dildən necə istifadə edə bilməsi ilə bağlıdır və onun mürəkkəb proses olması buradan qaynaqlanır. İkidillilik adından da göründüyü kimi iki dildən istifadə etmək qabiliyyətinə məxsus şəxslərlə bağlıdır. "*Fərqli dilləri danışan insanlar iş, təhsil, evlilik, müharibə kimi müxtəlif səbəblərdən birlikdə yaşamaq məcburiyyətində qalıblar. Zamanla bir-biri ilə qarşılıqlı əlaqədə olan bu şəxslərin dilləri həm sözlər, həm də dil strukturları əsasında bir-birinə təsir göstərmişdir. Bu qarşılıqlı əlaqə birlikdə yaşamağın təbii nəticəsidir. Dillər arasındakı bu qarşılıqlı əlaqə və müxtəlif dillərə mənsub qrupların birgə yaşaması ikidillilik anlayışını ortaya çıxardı*" (1, s. 99).

Bilinqvizmlə bağlı araşdırmalarda dil biliyi və dildən istifadə olunması bəzən bir-biri ilə qarışdırılır, onlara eyni termin kimi baxılır. Belə ki, bəzən elə hallara da rast gəlmək mümkündür ki, insan neçə dildən istifadə etməyi bacarsa da onlardan ancaq biri onun üçün işlək olur. Onlar gündəlik həyatlarında daha çox bu dilə üstünlük verir ondan istifadə edir. Elə fərdlərə də rast gəlmək mümkündür ki, onlar çalışırlar ki, hər iki dildən eyni səviyyədə istifadə etsin, fikirlərini ifadə etsin. Ancaq bu onlar üçün əlçatan olmur, çünki müəyyən situasiyalarda o, özünə uyğun olanı, onu ünsiyyətdə təmin edəcək dili seçir. Deməli, dil biliyi ilə dildən istifadə arasında kəskin fərqlər vardır ki, bunları da bir-biri ilə qarışdırmaq olmaz.

Hər hansı bir fərdin bir dil haqqında biliyini müəyyən etmək üçün onun bu dillə bağlı bacarıqlarını müəyyən kateqoriyalara əsasən ölçürlər. "*Fərdin dil biliyi dörd əsas bacarıqlarının (danışma, dinləmə, oxuma və yazma) istifadəsindən asılı olaraq dəyişə bilər. Əgər fərd gündəlik həyatında dillərdən birini daha çox istifadə edirsə, o həmin dildə digər dildən daha səlis danışa bilər,*

lakin oxuyarkən və ya yazarkən başqa dilə keçə bilər. Yaxud başqa bir fərd ikinci dildə nə dinlədiyini nə oxuduğunu başa düşə bilər, lakin onun bu dildə danışıq və yazı bacarıqları çox inkişaf etməmiş ola bilər. Demək olar ki, bu şəxs passivdir və ikinci dildə qavrayış qabiliyyətinə malikdir" (1, s. 100). Deməli, ikidilli şəxs ola bilər ki, gündəlik həyatında bildiyi dillərindən birini daha çox istifadə edir, səlis danışır, amma yazarkən və ya oxuyarkən ikinci dildən istifadə edə bilər. Bəzən əksinə də ola bilər, yəni ikinci dildə yaxşı danışan adam, birinci dildə yaxşı oxuya, yaza bilir. Bu zaman belə bir sual yaranır ki, bilinqvist hesab olunan şəxslər hər iki dildən məharətlə istifadə edə bilsələr bu zaman onların linqvistik qabiliyyətləri yalnız bir dildə danışan insanlar kimi inkişaf edə bilməz. Məsələn, həm türk, həm də alman dilində danışa bilən ikidilli fərdin ana dili türk dili olarsa onun tək dilli kimi əsas dili türk dili olar. Belə fərdlər alman dilini bir dilli hesab olunan olunan alman kimi yaxşı bilməyə bilər. Buna səbəb iki dilli hesab olunan şəxslərin həmin dillərdən müxtəlif məqsədləri həyata keçirmək üçün istifadə etmələridir. "*İkidilli fərdlər hər iki dildən fərqli mühitlərdə istifadə etdikləri üçün çox vaxt hər iki dildə bərabər səviyyədə biliyə malik olmurlar. İkidilli fərd həmin sahədə hansı dildən səmərəli istifadə edirsə, onda daha geniş söz ehtiyatına malikdir. Məsələn, Avstraliyada yaşayan həm ərəb, həm də ingilis dillərini bilən ikidilli şəxs ingiliscə yalnız işdə və məktəbdə danışa bilir, evdə və dostları arasında ərəb dilində danışa bilir. Belə olan halda iş sahəsinə aid sözlərdə ingilis dili, ev işlərinə aid sözlərdə isə ərəb lüğəti üstünlük təşkil edəcək*" (1, s. 101).

Nəticə. Deməli, bilinqvist hesab olunan şəxslərin dil biliyi müəyyən situasiyalarla bağlıdır. Məsələn, azlıqların nümayəndəsi olan şəxs evdə valideynləri ilə ana dilində danışır, ətrafdakı insanlarla bu dildə ünsiyyət qurur. Daha sonra məktəbə, universitetə gedir, iş mühitinə qoşulur, belə olan halda o artıq ana dilindən istifadə edə bilmir, ikinci dildən daha çox istifadə etməyə başlayır. Belə vəziyyətdə o öz ana dilini yavaş-yavaş unutmağa başlayır. Məsələn, Azərbaycanda ana dili avar olan şəxslər ailədə, dostları ilə avar dilində danışsa da, rayondan şəhərə gəldikdə və ya ölkədən xaricə getdikdə istər-istəməz ana dilindən uzaqlaşmağa başlayacaq. Bu proses uzunmüddətli olduqda, demək olar ki, o, ana dilində biliyini itirməyə başlayır. Amma bəzi hallarda onun nitqində yenə də ana dilinin elementlərini müşahidə edə bilərik. Bilinqvizim cəmiyyətin dillə əlaqəsini özündə əks etdirən ən mühüm elementlərdən biridir. Bu baxımdan ikidilliliklə bağlı araşdırmalar hər zaman aktuallığını qoruyub saxlayır. Ona müxtəlif aspektlərdən yanaşılır və təhlil olunur. Məqalədə biz də aktual olan bu məsələnin sosial, iqtisadi, mədəni, eləcə də fərdi baxımdan aktuallıq kəsb etdiyinə aydınlıq gətirmişik.

İstifadə edilmiş ədəbiyyat

1) Bölükbaş, K.F, Hancer, B.F., Golynskaia A. Bilingualism: Theoretical discussions on definition and types. İnternational İnternational Journal of languages education and teaching. June 2019, Volume 7, İssue 2, p. 98-113. https://www.researchgate.net/publication/334567120_Iki_Dillilik_Tanimi_ve_Turleri_Uzerine_Kuramsal_Tartismalar
2) Qurbanov, A. Ümumi dilçilik. III cild (3 cilddə). Bakı: 2019, 512 s.
3) Shelestyuk, E. V. Linguocognitive and sociocultural aspects of bilingualism // Journal of Psycholinguistic. 2022. Issue 3. pp. 128-149. https://www.researchgate.net/publication/364178371_Linguocognitive_and_sociocultural_aspects_of_bilingualism
4) Süverdem, F. B., Ertek, B. İki Dillilik ve İki Kültürlülük: Göç, Kimlik ve Aidiyet. The Journal of International Lingual Social and Educational Sciences, 2020, 6 (2), 183-207. https://dergipark.org.tr/en/download/article-file/1397849
5) https://core.ac.uk/download/pdf/230948509.pdf

AYRIM DİALEKTİNDƏ SUAL ƏVƏZLİKLƏRİNİN İŞLƏNMƏ MƏQAMLARI

Ramil Bayramov*

Abstract

Points of use of interrogative pronouns in ayrim dialect

The article examines the processing points of interrogative pronouns used in the ayrim dialect, which has a unique place in the dialect system of the Azerbaijani language. First, information is given about the dialect lexicon and the nature of pronouns in general. Later, the characteristic aspects of the processing of interrogative pronouns used in dialects, especially in the dialect of ayrim, are justified by specific linguistic facts. The presented scientific ideas and considerations are strengthened by giving quotes from linguists whose works have notes on the current issue. İnterrogative pronouns used in ayrim dialect are given according to a certain system, examples corresponding to the divisions are presented and the relationship is stated. The conclusions reached during the research are systematized in the form of separate paragraphs in the conclusion part.

Keywords: *ayrim dialect, interrogative pronouns, points of use, distinctive feature.*

Giriş. Azərbaycan dilinin dialekt leksikası zəngin materiallarla doludur. Dilin istənilən bölməsinə uyğun faktların əldə edilməsi baxımından belə materiallar qiymətli mənbədir. Azərbaycan dilinin milli koloritini özündə ehtiva edən ayrım dialekti də dəyərli nümunələri yaşadan mühüm mənbələrdəndir. Bu dialektdə dildə öz işləkliyi ilə diqqət çəkən əvəzliklər, xüsusilə də sual əvəzlikləri özünəməxsus formalarda istifadə olunmaqdadır.

Dildə əvəzliklərin özünəməxsus yeri var. Onlar digər nitq hissələrini əvəz etmək kimi bir vəzifəni yerinə yetirir. Buna baxmayaraq, leksik vahid olaraq dilin morfoloji sistemində özünün xarakterik cəhətləri ilə digər nitq hissələrindən seçilir. Əvəz etdikləri nitq hissələrinin müəyyən xüsusiyyətlərini üzərinə götürsə də, tam olaraq həmin nitq hissəsinə çevrilmir və ya onun bütün leksik-qrammatik kateqorial keyfiyyətlərini ifadə etmir. Belə xüsusiyyətlərinə görə də əvəzliklərə dilçilik tarixində fərqli yanaşmalar mövcud olmuşdur. Bəzi hallarda müvafiq əvəzliklərin digər nitq hissələrinin tərkibində öyrənilməsi ilə bağlı fikirlər də dilçilik ədəbiyyatlarında yer almışdır.

Ədəbi dildə işlənən əvəzliklər vahid, sabitləşmiş sözlər kimi diqqət çəkir. Lakin ədəbi dildən fərqli olaraq dialektlərdə əvəzliklərin həm ədəbi dillə eyniyyət təşkil edənlərinə, həm fonetik dəyişmələrlə istifadə olunanlarına, həm də ədəbi dildə işlədilməyən variantlarına da rast gəlmək mümkündür. Başqa sözlə, "Azərbaycan dili dialekt və şivələri əvəzlik bildirən sözlərlə və ya müxtəlif əvəzlik formaları ilə çox zəngindir. Azərbaycan dilinin dialekt və şivələrində vaxtilə qədim türk dillərində işlənmiş və hazırda da bir sıra müasir türk dillərində işlənmiş və hazırda bir sıra müasir türk dillərində fəaliyyət göstərən, o cümlədən qıpçaq qrupu dilləri üçün səciyyəvi sayılan çoxlu əvəzlik formaları saxlanmışdır. Belə bir cəhət də maraqlıdır ki, qədim formaların bir qismi mürəkkəb əvəzliklərin tərkibində qalmışdır. Bununla belə Azərbaycan dili dialekt və şivələrində qədim türk yazılı abidələrində və müasir türk dillərində müşahidə olunmayan, onun özünəməxsus xüsusiyyətləri də vardır" (3, s. 5). Vurğulanan fikirləri tədqiqat sahəmiz olan Azərbaycan dilinin ayrım dialektinə də şamil etmək olar. Belə ki, ayrım dialektində də əvəzliklərin işlənmə tezliyi, xüsusilə fərqli formaların mövcudluğu diqqət çəkir. Lakin əvəzlik mövzusu geniş olduğundan biz bu yazımızda təkcə sual əvəzliklərindən bəhs etməyi qarşımıza məqsəd qoymuşuq. Əvəzliyin digər məna növlərindən də ayrıca bəhs edəcəyik. İndi isə ayrım dialektində sual əvəzliklərinin işlənmə məqamlarını müəyyən sistem üzrə təqdim etməyə çalışaq.

Əsas hissə. Əvvəlcə, qeyd edək ki, "Dialekt və şivələrimizdə işlənən sual əvəzliklərinin sayı müasir ədəbi dilimizdəkinə nisbətən daha çoxdur. Dialektlərdə müşahidə olunan sual əvəzliklərinin bir çoxuna müasir dilimizdə, eləcə də dilimizin tarixinin əvvəlki dövrlərində rast gəlmirik. Digər tərəfdən, dialektlərdəki sual əvəzliklərinin əksəriyyəti mürəkkəbdir" (3, s. 112). Dialektlərdə işlənən sual

* ***Bakı Dövlət Universiteti, Türkologiya kafedrası nəzdində "Türkoloji araşdırmalar" elmi tədqiqat laboratoriyası. Azərbaycan Dillər Universitetinin doktorantı, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: rbayramov924@gmail.com.***

əvəzlikləri ilə bağlı deyilən faktlar ayrım dialektinə də aiddir. Ayrım dialektində sual əvəzliklərinin fərqli formalarına rast gəlinir.

Ayrım dialektində ədəbi dillə eyni forma və anlamda işlənən sual əvəzlikləri. Bu sıraya daxil olan sual əvəzliklərindən kim əvəzliyini xüsusi olaraq göstərmək olar. Digər sual əvəzlikləri isə müəyyən fonetik dəyişmələrlə də olsa, fərqli işlənmə təəssüratı yaradır. Ona görə də bu hissədə yalnız kim əvəzliyindən qısaca bəhs edib fərqli forma və anlamı olanlara bir qədər geniş yer verəcəyik.

Kim sual əvəzliyi adətən ayrım dialektində də ədəbi dildə olduğu kimi işlənir. Ümumən, dialektoloqlar (1; 4 və s.) bu əvəzliyin əksər dialektlərdə ədəbi dildə işləndiyini qeyd edirlər. Lakin bəzi hallarda kim əvəzliyinin də fərqli məqamlarına rast gəlmək mümkündür. M.İslamov *kim* əvəzliyinin Şəki, Naxçıvan və Ordubad dialektlərində və uyğur dilində *çim* formasında işləndiyini vurğulayır (3, s. 113). Lakin bu hala biz ayrım dialektində hələ ki rast gəlməmişik. Fikrimizcə, əgər kim əvəzliyinin ayrım dialektində işlənən formalarını eksperimental fonetika laboratoriyasında yoxlasaq, fərqli səslənmələrin şahidi ola bilərik. Məsələn, bəzi hallarda belə tələffüzə rast gəlmək olur. Kimm bizmi? Kiim gələjəx', indimi gələjəx'. Laborator eksperimentdən sonra bu məsələyə yenidən qayıdacağıq.

Bir məsələni də xüsusi qeyd edək ki, kim əvəzliyinin təkrar işlənərək ədəbi dildən fərqli cəmlik bildirməsi diqqət çəkir. Bu variant ayrım dialektində də işlənir: A büvüŋ qadaŋ alsın, yasa *kim-kim* getmişdiŋiz?

Ədəbi dillə həm eyni, həm də fərqli forma və anlamda işlənən sual əvəzlikləri.

Nə. *Nə* sual əvəzliyi ayrım dialektində *nə üçün? niyə? nə səbəbə? nəyə görə? niyə?* kimi sual əvəzliklərinin mövqeyində işlənə bilir, lakin normal tələffüzlə deyil, uzun tələffüz olunmaqla həmin anlamları ifadə edir. Yaxud da nə əvəzliyinə y və ya ş samitlərinin əlavə edilməsi ilə əmələ gələn formaları ilə də göstərilən əvəzliklərin mövqeyində işlənir: – *nəə* [nə:] dərsiŋi oxumofsaŋ? *Nəəyşə* gəlmisəŋ? *Nəəşə* ki nənə, mən gəlmişdim axı? Bu tipli nümunələrin sayını çoxaltmaq mümkündür. *Nəəyşə, nəəşə* sual əvəzliklərindən bəhs edən M.İslamov onların daha çox Muğan qrupu şivələrində, qismən də Qərbi Azərbaycanın (İndiki qondarma Ermənistan) Sisyan və Krasnoselo rayon şivələrində işləndiyini vurğulayır (3, s. 123). Lakin qeyd edək ki, ayrım dialektində bu sual əvəzliklərinə daha çox rast gəlinir. Bunu ayrım dialektinin həmin vaxt araşdırılmaması və bu dialektə aid materialların, dil faktlarının kitab müəllifinin əlində olmaması ilə əlaqələndirmək olar. Bununla belə tədqiqatçı yazır ki, "*nəyşə//nəşə* sözünün də əsasında nə sual əvəzliyinin durduğu göz qabağındadır. Zənnimizcə, həmin sözün ikinci tərkib hissəsi yönlük halda işlənən iş sözüdür. Beləliklə, *nəyşə//nəşə* əvəzliyini belə tərkib hissələrinə ayırmaq olar: *nə+işə = nəşə//nəyşə*. Diqqət yetirsək, *nəyşə//nəşə* sözünün ifadə etdiyi mənanın da buna uyğun gəldiyini görərik: *nəşə//nəyşə gəldin – nəyə, nə üçün* gəldin" (3, s. 124). Tədqiqatçının bu fikirləri ilə razılaşırıq, ağlabatandır.

Nə sual əvəzliyi ayrım dialektində başqa sual əvəzliklərinin də mövqeyində işlənə bilir: O *nə* adamdır ki, mən ona salam verim. Burada *nə* sual əvəzliyi necə və hansı sual əvəzliyinin mövqeyində işlənmiş olur. Ə.Rəcəbli qeyd edir ki, "Qədim türk yazısı abidələrinin dilində *nə*? sual əvəzliyi *hansı, nə üçün, niyə* mənalarını da ifadə edir" **(**6, s. 499). Dilçi alim həmin abidələrdən nümunələrlə də bu fikri əsaslandırır. Həmçinin belə yazır: "Müasir türk dillərində sual əvəzliklərinin sayı artmışdır. Lakin buna baxmayaraq, müasir türk dillərinin sual əvəzliklərində aparıcı rolu qədim türk yazısı abidələrində təsbit edilmiş sual əvəzlikləri oynayır" (6, s. 499). Göründüyü kimi, qədim türk abidələrində mövcud olan xüsusiyyət ayrım dialektində mühafizə olunmaqdadır. N.Xudiyev də həmin məsələyə toxunaraq yazır: "Nə" əvəzliyi göytürk yazılarında çox vaxt hansı? Nə üçün? mənasında işlənmişdir. Məsələn: "Nə basınalım" (Ton. 39) – Nə üçün (niyə) məğlub olmalıyıq?

Qədim uyğur yazılarında yuxarıda verilənlərlə yanaşı, "nə" sual əvəzliyinin əsasında əmələ gələn "nəçük, nəçükin, nəgü, nətəğ, nətəgin" sual əvəzlikləri də işlənmişdir" (2, s. 114). Bu faktlar da ayrım dialektində işlənən həmin forma və anlamın daha qədim dövrlərə aid olduğunu təsdiqləyir. Bu məsələ ilə bağlı H.Mirzəzadənin də fikri maraq doğurur. Alim yazır ki, "... *nə necə* əvəzliyinin sinonimi kimi bəzən onu əvəz etmişdir. Lakin ədəbi dil materialları göstərir ki, bu əvəzlənmədən başqa *nə* omonim bir söz kimi eyni zamanda (yerinə görə) *hansı* əvəzliyinin də vəzifəsində işlənmişdir. Təxminən iki, üç əsrin ədəbi dilində bu xüsusiyyətə rast gələ bilərik. Buradan çıxış edərək deməliyik

ki, nə əvəzliyi necə məzmununda bir qədər az, hansı mənasında nisbətən çox istifadə edilmişdir" (5, s. 117). H.Mirzəzadənin bu qeydi ayrım dialektinə də aiddir. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, ayrım dialektində *nə* sual əvəzliyi necə və hansı əvəzliklərin mövqeyində işlənsə də, nə əvəzliyi hansı əvəzliyinin mövqeyində daha çox işlənə bilir: Nə heyvandır, ot da yeyir? Nə işdir, səŋ getmək istədiyiŋ? Birinci cümlədə işlənən nə əvəzliyini yalnız hansı əvəzliyinin mövqeyində düşünmək olarsa, ikinci cümlədəkini hər iki: hansı və necə əvəzliyinin mövqeyində də düşünmək mümkündür.

Nə əvəzliyindən sonra olmaq feili işlənərkən ayrım dialektində nə əvəzliyində işlənən sait dodaq ahənginə uyğun işlənir, yəni *ə* saiti *o* saiti kimi tələffüz edilir. Məsələn: ayə qadaŋ alem buşağın axırı ***noolajax***? ***Nooldu*** saŋa nəyşə gəlif çıxmadıŋ? A dərdiŋ alem bilmədimkin bejə maŋa ***nooldu***, durduğum yerdəjəyiz başımnan bir ağrı qofdukun, öldüm də ölümnən qayıtdım.

Onu da deyək ki, "na//nə əvəzliyi bir sıra mürəkkəb sual əvəzliklərinin əmələ gəlməsində əsas olmuş, bunun iştirakı ilə sual əvəzliklərinin bir çox formaları yaranmışdır" (3, s. 116). Məsələn, nə vaxt və nə qədər sual əvəzliklərinin ayrım dialektində işlənmə formalarına nəzər salaq. Adı çəkilən əvəzliklər müvafiq olaraq ayrım dialektində *ha vax, nə vax, nəxərtə, na xarta, nəxərtənə* kimi formalarda ifadə olunaraq həmin anlamları bildirir. Oğul, *havax // nəvax* evlənəjəŋ? *Nəxərtə // nəxərtənə* qız var, birini al gətir, mən də gəlin göröm dana. Bunlardan başqa nə əvəzliyinin iştirakı ilə yaranan *nə deyir* sualı ayrımlarda şəxslərə uyğun olaraq fərqli formalarda ifadə olunur: *nə dey? nə deysəŋ? nə dem?*

Digər dialektlərdə işlənən *nəmənə* sözü ayrım dialektində fərqli anlamda istifadə edilir. Etik olmadığı üçün həmin anlamı ifadə etməyi məqsədəuyğun hesab etmirik. Lakin bununla belə, M.İslamov həmin sözün elə sual əvəzliyi kimi Gədəbəy və Qazax şivələrində işləndiyini göstərir (3, s. 118), biz isə hələ ki bu fakta rast gəlməmişik. Həmçinin M.İslamovun haqqında bəhs etdiyi *nəŋ* əvəzlik variantın da hələ ki canlı şivədə işləndiyini eşitməmişik. Tədqiqatçı yazır ki, "Nəŋ. Öz mənasına bu söz müasir ədəbi dilimizdəki "niyə", "nə üçün", "nəyə görə" sual əvəzliklərinin müqabilində işlənir. Həm də buna Azərbaycan dilinin Gədəbəy-Ayrım şivəsində təsadüf olunur; məs.: - Oğul, nəŋ irəngin belə avazıdı; - Nəŋ qanın belə qaralıf qənə; - Nəŋ durufsaŋız orda, nəŋ gəlmeysiŋiz içəri" (3, s. 120-121). Qeyd edək ki, M.İslamovun göstərdiyi bu sözün mövqeyində biz ayrım dialektində işlənən *nəyŋüz, nəŋüz* əvəzliklərinə rast gəlirik. Ayrım dialektində aktivliyi ilə seçilən bu sözlər *nə üçün, niyə, nə səbəbə* sual əvəzliklərinin mövqeyində işlənir. Ataŋ *nəyŋüz* biz tərəflərə hərrəmmey/r və s. Qeyd edək ki, ayrı-ayrı ayrım kəndlərində bu sözün nisbətən fərqli formalarına da rast gəlmək olur. Deyək ki, Tovuzun ayrım kəndlərində bu söz *nöŋüz*, Qazaxın kəndlərində *nöyŋüz, nöŋüz*, Gədəbəyin ayrım kəndlərində isə *nəyŋüz, nəŋüz* formalarında işlənir.

Ayrım dialektində *nə* sual əvəzliyində kim əvəzliyində olduğu kimi təkrarlanaraq cəmlik bildirmə özünü göstərir. Məsələn, nənəŋ sa: *nə-nə* alıf gətirmişdi, qadaŋ alem?

Hay sözü də ayrım dialektində işlənir. *Hay*, nə deysəŋ? M.İslamov hay sözü lə bağlı belə yazır: "Sual bildirən sözdür. *Hay* sualı yalnız deyilən sözü yaxşı eşitmədikdə və ya başa düşmədikdə verilir və müasir ədəbi dilimizdə eyni məqsədlə verilən nə sual əvəzliyinin mənasına uyğun gəlir; məs.: - hay? Nə dediŋ; - hay, həncəri dersən? (Qaz.)" (3, s. 128). Bu söz ayrım dialektində aktivliyi ilə seçilir.

Ha sözü *nə* və *hansı* sual əvəzliklərinin mövqeyində işlənə bilir: *ha* tərəfə gedəjəysəŋ? M.Məmmədli yazır: "Dialektlərdə ha sual əvəzliyi "nə, hansı" mənalarında sabitləşmişdir; məs.: Ha tərəfə gedirsən? (Ş.). Ha əvəzliyi bir sıra sual əvəzliklərinin yaranmasında əsas olmuşdur: ha:y "nə", haŋa "hanı" (Qaz.), haçağ/haçan, haçax, havax, hağal (Q.), hancarı/hanjarı "hara, necə, nə üçün, niyə", havax, haysı (Cəb.) və s." (4, s. 219). Göründüyü kimi, *ha* sözü təkcə işlənmir, digər sözlərlə qrammatik cəhətdən əlaqələnərək bir neçə əvəzliyin formalaşmasında iştirak edir. Bu qəbildən olan əvəzliklərin bəzilərinə ayrılıqda nəzər salaq.

Ədəbi dildə *haraya, hara, haradan* kimi işlənən əvəzliklərin ayrım dialektində fərqli məqamlarına rast gəlirik: *haana, hayana, həyana, ha:nnan, hayannan*. *Haana (ha:na)* eydersəŋ? *Hayan / hayən / haan* gözəldi? *Hayana / həyana* gedersəŋ / hareydersən? *ha:nnan* gələrsəŋ? *hayannan* gələrsəŋ? N.Xudiyev bu əvəzliklə bağlı belə yazır: "Göytürk yazılarında işlənmiş "kantan" (haradan) əvəzliyi Azərbaycan dilində "hardan, haradan" formasında işlənsə də, klassik ədəbiyyatda bu əvəzliyin kandan, handa, xanda fonetik variantlarına da rast gəlinir. Oğuz ünsürlərini özündə daha çox qoruyub

saxlayan Qərb dialektində rast gəlinən "handa bir, handan-hana" ifadələrində də kantan əvəzliyinin fonetik variantları işlənmişdir" (2, s. 114). Bəli, handan-hana ifadəsi ayrım dialektində aktiv şəkildə istifadə edilir: Düyələr *hannan-hana* Qaltağın uxarı tərəflərində göründülər. Bunlardan başqa, *haradadır* əvəzliyi ayrımlarda *ha:nı* formasında işlənir: *haanı* uşax harə eyitti / hareytdi?

Necə sual əvəzliyi ayrım dialektində bir neçə formada işlənə bilir: ***Nətər*** – bu nətər oxumaxdı? ***Natar*** – natarısaŋ, ay əmoğlu? ***Nejə*** – nejədi vəziyyət? ***Nejəyəni*** – nejəyəni hələ hazır döyülsəŋ ki?

Hancarı, həncəri, hanjarı, hənjəri, nancarı, nəncəri. Əsasən, necə əvəzliyinin mövqeyində işlənən bu sözlər ayrım dialektində aktiv şəkildə istifadə olunmaqdadır: *Hancarısa*ŋ ağrıŋ alem? Qapıyı *hancarı* qayırıfsaŋ (bağlamısan), açıx qalıf?

Hancarı sual əvəzliyi fərqli məqamlarda işlənə bilir: *Hancarı*, sən indi bizə gəlməjəŋ? *Hancarı*, ağız, para yanıŋı çapıflar, ey!? *Hancarı / hancarı yanı,* o gün gəlməmişdimi? *Hancarı* sözü burada *necə* əvəzliyini, yaxud da *necə yəni* əvəzliklə ədatın birgə ifadə etdiyi mənanı bildirir. Bu nümunələrdə təəccüb də, sual da, münasibət (modallıq) da var. Bir də necə, nə cür sual əvəzliklərinin mövqeyində işlənir. Dərsdəriŋi *hancarı* oxuduŋ, qadaŋ alem?

Hancarı sual əvəzliyi Gədəbəy və Qazaxın bəzi ayrım kəndlərində *nancarı* / *nəncəri* kimi də işlənir.

M.İslamov bu söz barədə yazır: "Hancarı əvəzliyi qədim dövrlərdən başlayaraq XX əsrin əvvəllərinə kimi Azərbaycan ədəbi dilində işlənmişdir. Həm də bu söz qədim dövrlərdə daha çox qancaru, xancaru şəklində özünü göstərir" (3, s. 135). Göründüyü kimi, bu söz ayrım dialektində mühafizə edilən arxaik sözlərimizdəndir. Bu fikri biz klassik irsimizdən nümunələr verməklə də təsdiqləyə bilərik. Bu məsələ ilə bağlı İ.Bayramov qeyd edir ki, "Azərbaycan dili şivələrində işlənən hancarı // həncəri // hanjarı sual əvəzliyi XIV-XV əsrlərdə qancarı, xancaru formalarında işlənmişdir. Məsələn: Qancaru kim əzm qılsın sümmə vəhhüllahi gör (İ.Nəsimi), Xancaru gedirsən, ey xunxarə dilbər, xancarı? (Ş.İ.Xətai)" (1, s. 230). Buradan aydın olur ki, hazırda ayrım dialektində aktiv işləkliyə malik olan *hancarı* sözü ədəbi dilimizin əvvəlki dövr və mərhələlərində *qancaru* və *xancaru* kimi istifadə edilmişdir. Bu isə o deməkdir ki, q və x öz yerini h samitinə vermiş, ədəbi dildən çıxan həmin sözün fərqli tələffüz variantlarının *hancarı* forması ayrım dialektində qorunub saxlanmışdır. Yəni q – x – h fonetik keçidləri olmuşdur. Həm də onu deyək ki, nəinki, ayrım dialektində, digər dialektlərimizdə də, bu sözün qədim formalarına rast gəlinmir. Bu barədə M.İslamovun da qeydi var: "Maraqlıdır ki, Azərbaycan dilinin qədim dövrlərinə aid bədii yazılarda q//x ilə olan formanın işlənməsinə baxmayaraq, ümumiyyətlə, qədim dil faktlarını mühafizə edib saxlayan dialektlərdə nə isə, qancarı və xancarı şəkli qalmamışdır. Ancaq h işlənən formaya (hancarı) rast gəlirik" (3, s. 136).

Qeyd edək ki, *hancarı* sözü ayrım dialektində müxtəlif məqamlarda işlənərək fərqli anlamlar ifadə etsə də, bu söz daha çox ədəbi dildə işlənən *necə* və *nə cür* əvəzliklərinin mövqeyində və mənasında işlənir. H.Mirzəzadə yazır: "Qancaru, xancaru, hancarı. Keyfiyyət, əlamət məzmunlu sual əvəzliyi necə, nə cür-ün sinonimidir. Müasir dilimizdə, əsasən, arxaikləşmişdir, lakin Azərbaycanın qərb qrupu dialektlərində işlənir. Ədəbi dilimizdə XIX əsrin əvvəllərinə kimi işləndiyi müşahidə olunur" (5, s. 121).

Hancarı sözünün etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Həmin fikirlərə münasibət bildirən M.İslamov belə qənaətə gələrək yazır: "Hancarı sözünün ikinci hissəsi *carı (han+carı)* isə, fikrimizcə, nə H.Mirzəzadənin dediyi *cer<yer* sözündən, nə də Ə.Şükürovun göstərdiyi *yan+ca+ru* hissələrindən ibarət deyildir. Faktlar onu tamamilə başqa şəkildə izah etməyə imkan verir.

Məlumdur ki, qədim türk dillərində "vaxt", "zaman", "an" mənasını ifadə edən *çer* sözü mövcud olmuşdur. *Hancarı* sözündəki *carı* hissəsinin III şəxs mənsubiyyət şəkilçisi qəbul etmiş həmin *çer* sözü olduğunu ehtimal etmək olar; məsələn, *han+çer+i = hancarı*" (3, s. 138). Lakin daha sonra müəllif bu variantın az işləndiyini və daha qədim forma olduğunu ehtimal edir. Bizcə, bu sözlə bağlı belə fərqli fikirlərin olması təbiidir. Ona görə ki *hancarı* sözü dialektlərdə fərqli məqamlarda işlənir. Dialektlərdə *nə vaxt, haraya, necə, nə cür* kimi əvəzliklərin mövqeyində işlənən bu söz əgər *nə vaxt* mənasında işləndiyi məqamları nəzərə alsaq, onda M.İslamovun fikrini əsas götürmək olar, yox, əgər *haraya, hara* mənasında işlənərsə, onda isə H.Mirzəzadənin fikri ilə razılaşa bilərik. Nəzərə almalıyıq

ki, dialektlərimizdə, əsasən də, Qərb ləhcəsinin tərkibində mövcud olan ayrım dialektində hancarı sözünün vurğuladığımız mənalarına çox az hallarda rast gəlinir və ya heç rast gəlinmir. Bu sözün daha çox ifadə etdiyi məna *necə* və *nə cür* sözlərinin qarşılığıdır. Bu baxımdan düşünürük ki, bu sözün etimologiyası ilə bağlı dəqiq araşdırma aparmaq lazım gəlir. Bununla belə biz həmin sözü istifadə edən dialektə mənsub insanların təfəkkürü, dünyagörüşünün nəzərdən keçirilməsini, həmçinin daha qədim formanın saxlanılması kimi fikirlərin olmasını ehtimal edirik. Yəni ola bilər ki, konqnitivlik baxımından həmin söz müvafiq dialektdə danışanların təfəkküründə bu cür formalaşıb ifadə olunur, ola da bilər ki, bu forma və ya onun hissələrinin lap qədim dövrlərdə işləkliyi olub, lakin həmin variant hansısa bir yazılı abidədə günümüzə gəlib çatmayıb. Buna görə də əgər belə demək olarsa, haqqında danışılan sözün ehtimallarsız dəqiq elmi etomologiyası hələ ki yoxdur. Koqnitivlik baxımdan yanaşsaq, məsələyə müəyyən nəticələr əldə etmək mümkün olar. Lakin bu da tam olmayacaq. Çünki bu hansısa bir tarixi təkamül prosesi keçirən müəyyən faktlara əsaslanmanı tələb edir.

Ayrım dialektində qeyd olunanlardan başqa sual əvəzlikləri də işlənməkdədir. Məsələn:

ha:sı / hası. Bu əvəzliklər hansı sual əvəzliyinin mövqeyində işlənir: *hası* işdən kin xoşuŋ gəler, o işdən yapışginən. *Haası* gədiyi aparajaxlar?

Nağarersan / nağayrersan / nə iş görörsəŋ kimi əvəzliklər neynirsən, nə iş görürsən anlamını ifadə edir: *nağayrersan*, gəl gedəh dana.

Nujoldu / nijoldu / nejoldu – necə oldu, harda qaldı-nın mövqeyində işlənir. Ayə bu uşax *nejoldu*, gəlif çıxmadı? A bala, *nujolduŋ*, harda qaldıŋ, gəl çıxax gedəh dana.

Nüjelni – nüjelni (nə əcəb, nə səbəbə), sən bu gədeyi tanımersaŋ? Bu sözün işləndiyi cümlənin xəbəri inkarda olur.

Bu qəbildən olan əvəzliklərin sayını artırmaq da mümkündür. Araşdırmanın həcmini nəzərə alaraq göstərilənlərlə kifayətlənirik.

Nəticə. Mövcud mövzu üzərində araşdırma apararkən aşağıdakı nəticələr əldə olunmuşdur:

- mürəkkəb sual əvəzliklərinin əksəriyyətinin ana sözü nə sual əvəzliyidir.

- sual əvəzliklərinin əksəriyyəti ayrım dialektində fonetik dəyişikliklərlə işlənməkdədir. Lakin tamamilə fərqli formalar da az deyil. Həm də bu dialek ədəbi dildə işlənən müvafiq sual əvəzliklərinin qədim variantlarını da özündə mühafizə edir.

- tədqiqat göstərdi ki, ayrım dialektinə aid örnək göstərdiyimiz sual əvəzlikləri həmin dialektdə əksər hallarda öz ədəbi dildəki qarşılıqları ilə paralel şəkildə işlənməkdəkir.

- hancarı sözü ayrım dialektində müxtəlif məqamlarda işlənərək fərqli anlamlar ifadə etsə də, bu söz daha çox ədəbi dildə işlənən necə və nə cür əvəzliklərinin mövqeyində işlənməkdədir.

- araşdırma zamanı aydın oldu ki, ayrım dialektində işlənən bəzi sual əvəzliklərinin, xüsusilə də hancarı sözünün tarixi-etimoloji mahiyyətinin daha da dərindən araşdırılmasına ehtiyac duyulur.

İstifadə edilmiş ədəbiyyat

1. Bayramov, İ.M. Azərbaycan dialektologiyası. Ankara: İskad, 2022, 456 s.
2. Xudiyev N. Qədim türk yazılı abidələrinin dili. Bakı: Elm və təhsil, 2015, 596 s.
3. İslamov M.İ. Türk dillərində əvəzliklər. Bakı: Elm, 1986, 204 s.
4. Məmmədli M.Ə. Azərbaycan dialektologiyası. Bakı: Zərdabi Nəşr, 2019, 352 s.
5. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası (Dərslik). Bakı: ADU, 1990, 376 s.
6. Rəcəbli Ə.Ə. Qədim türk yazısı abidələrinin dili: [2 hissədə]. Bakı: Nurlan, h. 1. 2006, 648 s.

DİL SİSTEMİNDƏ MƏDƏNİYYƏTİN LİNQVOKULTUROLOJİ TƏQDİMATI

Sura Pənahlı*

Abstract

Linguistic presentation of culture in the language system

Culture reflects the outlook on life and worldview of each nation, the set of information, the laws of the formation of meanings and the system of principles, the peculiarities of concepts. The concept of culture includes not only conceptual but also semiotic aspects. The semiotic aspect means the preservation and functionalization of signs and texts, the creation of new signs and information. These mechanisms explain three important functions of culture: protective, communicative and creative functions. Culture is not only a mechanism of people's outlook and understanding of the world, but also a set of sign systems.

It is advisable to highlight the semiotic characteristics of a cultural sign against the background of the semiotic characteristics of an ordinary linguistic sign. This opposition is all the more significant for the two types of signification, since each of them is conceived in a certain opposition to the other.

The discourse features of the two types are adequate to the rest of the linguistic context.

Language is part of culture, an organic component of the total culturally expressive linguistic experience. Like any other phenomenon of language, culture has structural characteristics that appear at the moment of directed human activity.

Keywords: *set of information, concept of culture, laws of meaning creation, conceptual aspect, semiotic aspect, functionalization of information, people's outlook and understanding of the world, set of sign systems, theory of cultural semiotics, semiotic system.*

Giriş. Mədəniyyət hər hansı bir xalqın dünyanı dərk etmə və təsəvvür etmə forması kimi qəbul olunur. Mədəniyyət eyni zamanda konseptlərin prinsiplər sistemi, işarələrin mənalandırılması kimi də dərk edilir.

Bu mexanizmlər mədəniyyətin üç mühüm funksiyasını özündə ehtiva edir. Bunlar qoruyucu, kommunikativ və kreativ funksiyalardır. Beləliklə, mədəniyyət yalnız xalqın dünyagörüşü və dünyanı anlaması forması deyil, işarə sistemlərinin məcmusudur.

Rus alimi Y.M.Lotman mədəniyyəti semiotik sistemlərin "tarixən formalaşmış qovşağı" adlandırır. Lakin heç bir məhdudlaşdırılmış semiotik sistem nə qədər mükəmməl təşkil olunsa da, mədəniyyət adlandırıla bilməz. Mədəniyyət mexanizminin yaranması üçün bir biri ilə əlaqədar olan bir neçə semiotik sistem lazımdır [8, s. 34-37].

Əsas hissə. Dillərin heterogenliyinə meyl- hər bir mədəniyyətin səciyyəvi xüsusiyyətidir. Mədəniyyət mexanizmində informasiya müxtəlif kod sistemləri vasitəsilə ötürülür. Minimal olaraq mədəniyyət mexanizmində uyğun semiotik sistemlərin müəyyən bir qrupu mövcud olmalıdır. Minimal mədəni modeldə informasiyanın düzgün ötürülməsi üçün ən azı iki kodlaşma üsulu vacibdir [1, s. 53-57].

Mədəni informasiyanın aktivləşməsi üçün müəyyən aktiv dilin formalarından istifadə olunmalıdır. Məsələn, hər bir təbii dil ədəbi dil və danışıq dili formalarından ibarət olur. Foto "dili" və təbii dilin birləşməsindən kino dili yaranır. Müxtəlif dillərin bir mədəni fəzada birləşməsi zamanı iki meyl müşahidə olunur. Təcrid olunmuş heç bir semiotik sistem nə qədər mükəmməl təşkil olunsa da mədəniyyət mexanizmini yarada bilməz.

N.N.Boldırevin fikrincə, *mədəniyyət mexanizminin yaranması üçün ən azı iki semiotik sistem olmalıdır. Dilin heterogenliyinə istiqamətlənmə mədəniyyətin səciyyəvi xüsusiyyətidir. Minimal mədəni modeldə bir informasiyanın təqdimatı üçün ən azı iki müxtəlif kodlaşma sistemi mövcud olmalıdır. Mədəniyyət dilinin yaranması bir aktiv dilin parçalanması və ya iki fərqli dillərin birləşməsi nəticəsində baş verir. Məsələn, ədəbi təbii dil ədəbi dilə və danışıq dilinə bölünür* [3, s. 18-25].

* ***AMEA İ.Nəsimi adına Dilçilik İnstitutu, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: sara-1983@mail.ru.***

Müxtəlif dillərin bir mədəniyyətdə birləşməsi prosesində iki tendensiya müşahidə olunur. Bu tendensiyaların biri dillərin sayının çoxalmasına və müxtəlifliyinə, ikincisi isə eyniləşməyə, oxşarlığa, mədəniyyətin vahid təşkil olunmuş sistemə çevrilməsinə olan meyllərdir. Bu zaman mədəniyyət öz modelini formalaşdırır. Bəzən mədəniyyət bir dominant dil əsasında formalaşır. Məsələn, XX əsrin ikinci yarısında yazıya, şəkillərə, riyaziyyata əsaslanan mədəniyyətlər olmuşdur.

Mədəniyyətin inkişaf prosesi heç vaxt birstrukturlu olmamışdır. Mədəni dillər daima bir-biri ilə əlaqədardır. Bir dil sistemi digər dil sisteminin qanunlarını qəbul edir və öz dilinə uyğunlaşdırır.

Y.M.Lotman bu prosesi simfonik orkestrdə müxtəlif musiqi alətlərinin bir-birini əvəz etməsi ilə müqayisə etmişdir [8, s. 40-43]. Hər bir mədəni dilin tarixini təcrid olunmuş şəkildə yazmaq simfonik orkestrin ümumi ifasından hər hansı musiqi aləti çıxarmağa bənzəyir.

Koşarnaya qeyd edir ki, *mədəniyyət daima ətraf aləmlə münasibətdə olur, onu öz obrazına uyğun olaraq formalaşdırır. Mədəniyyətin xarici mühitlə əlaqəsi nə qədər çox olsa, o bir o qədər zəngin və rəngarəng olur. Xarici qüvvələr mədəniyyət mexanizminin daxili qanunlarını hərəkətə gətirir, lakin onları əvəz etmir* [7, s. 21-25].

Mədəniyyət yad mətnləri qəbul edərək öz mətnlərini yaradır. XVIII əsrdə rus mədəniyyəti çoxsaylı xarici mətnləri qəbul etmiş və rus həyat tərzinə uyğunlaşdırmışdı. Bundan əlavə, mədəniyyət daima öz-özü ilə dialoqda olur. Bu xüsusiyyət mədəniyyətə öz özəlliyini qorumağa öz strukturunu mürəkkəbləşdirməyə imkan yaradır.

Mədəniyyətin inkişaf tarixi ixtiyarı olub bir fazadan digərinə keçir. Bu baxımdan mədəniyyətin dövrləşməsi şərtidir. Lakin bəzən alimlər mədəniyyətin inkişaf prosesini əvvəldən xəbər verə bilirlər. Məsələn, alimlər Azərbaycan ədəbiyyatında xalq ruhunun milli dilin inkişafını ifadə edən M.P.Vaqif yaradıcılığının rüşeymlərinin daha əvvəlki dövrdə formalaşmağını qeyd edirlər [2, s. 23-25].

Y.M.Lotmanın fikrincə, *mədəniyyətin inkişafı bəzən tədricən, bəzən də partlayış formasında olur. Bu iki formanı bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir. Əgər elmi kəşf partlayışa bənzəyirsə, onun texniki reallaşması tədricən baş verir. Mədəniyyət ətraf aləmlə bilavasitə əlaqədardır. Mədəniyyət bu aləmi özünə tərəf çəkir və öz dilinin strukturuna uyğunlaşdırır* [8, 58-63].

Mədəniyyət- informasiya daşıyıcısı olub işarələr və işarələr sistemindən ibarətdir. Mədəniyyət dildə mənaların akkumulyatoru və generatoru rolunda çıxış edir. Bu proses insanın işarələri dərk və şərh etmək bacarığından asılıdır. Mədəniyyət sistem kimi öz tarixi təkamül prosesində hər dəfə yeniləşir və real aləmə münasibətini dəyişir. Mədəniyyət dərketmə obyekti kimi hər zaman dəyişir və hər dəfə yeni informasiya mənbəyinə çevrilir.

Dil və mədəniyyətin qarşılıqlı münasibəti problemi tam öz həllini tapmamışdır. Burada bir neçə yanaşma mövcuddur. Birinci yanaşmaya əsasən mədəniyyət dilə təsir edir. Dil ətraf aləmdəki dəyişiklikləri əks etdirir (Alefirenko N.F., Boldırev N.N.); [1, s. 30-38]; [3, s. 40-43].

İkinci yanaşmaya əsasən dil mədəniyyətə böyük təsir göstərir. (V.fon Humboldt, Sepir). Bu alimlərin əsərlərində dil mədəniyyətin ifadə forması kimi qəbul edilir [6, s. 57-60]; [9, s. 46-58].

Bəzi alimlər dili mədəniyyətin komponenti hesab edirlər. Y.M.Lotmanın fikrincə, *dil mədəniyyətin bir hissəsidir. Dil və mədəniyyət sosiumun həyat və fəaliyyətinin məhsuludur. Mədəniyyət maddi və mənəvi fəaliyyətin nəticələrini qəbul edərək, dil tərəfindən obyektivləşir. Bu zaman dil mədəniyyətin əsas funksiyalarının ifadəsinə çevrilir* [8, s. 41-44].

Bu funksiyalar ətraf aləmin dəyişməsi və yeniləşməsini, sosial mənalı informasiyanın və kommunikativliyin ifadəsini, dünya mənzərəsinin modelləşməsini, informasiyanın toplanmasını və qorunmasını, cəmiyyətdə insanların davranış formalarını emosional və adaptasiya faktorlarını özündə ehtiva edir.

Dil heterogen sistem olub, bir çox yarımsistemləri əhatə edir. Yarımsistem və ya dil səviyyəsi funksional vahidlər əsasında formalaşır. Y.M.Lotman qeyd edir ki, *ənənəvi olaraq dilin beş səviyyəsi haqqında yazırlar. Dil sisteminin funksional vahidləri və səviyyələri linqvokulturologiyada belə ifadə olunur. Sintaktik səviyyədə dil vahidi söz birləşməsi və cümlə, nitq vahidi söyləm qəbul olunur. Morfoloji səviyyədə dil vahidi söz forması, nitqdə də söz forması hesab olunur* [8, s. 70-74].

E.M.Vereşşaqinin fikrincə, *leksik-semantik səviyyədə dil vahidi söz, nitq vahidi leksik-semantik variant sayılır. Fonetik səviyyədə dil vahidi fonem, nitq vahidi isə səsdir. Linqvokulturologiya bu*

yarımsistemlər bir-biri ilə əlaqədardır. Bu baxımdan fonetik linqvokulturologiya, qrafik linqvokulturologiya, leksik-frazeoloji linqvokulturologiya, qrammatik linqvokulturologiya, linqvokulturoloji praqmatika kimi yarımsistemlər mövcuddur [5, s. 21-30].

Linqvomədəniyyətin yaranması bir çox Avropa alimlərinin adı ilə bağlıdır. Bu elmin əsasını alman dilçisi və filosofu V.fon Humboldtun nəzəriyyəsi təşkil edir. Alim yazırdı: *"Dilin öyrənilməsinin əsas prinsipi insan təfəkkürü və onun yaşadığı cəmiyyətin mədəniyyəti ilə sıx bağlıdır. Dil – xalqın ruhu, onun enerjisidir. Dildə xalqın mənəvi həyatı öz ifadəsini tapır. Hər hansı xalqın təfəkküründün özünəməxsusluğu dil formalarında ifadə olunur. Daxili forma dilin təşkil prinsipini özündə ehtiva edir. Xarici forma bu prinsipi ifadə edir. Hər bir dil özünəməxsus şəkildə ətraf aləmi əks və şərh edir"* [6, s. 102-108].

V.fon Humboldtun bu nəzəriyyəsini rus alimi N.F.Alefirenko inkişaf etdirmişdir. V.N.Teliya sözün daxili formasının təfəkkürlə və təfəkkürlə yaranan obrazla əlaqəsini şərh etmişdir [1, s. 28-33]; [10, s. 38-43].

Amerika alimi E.Sepir linqvistik nisbilik nəzəriyyəsini yaratmışlar. Bu nəzəriyyə linqvokulturologiyanın inkişafında xüsusi əhəmiyyətə malik olmuşdur. Bu nəzəriyyəyə əsasən dil strukturu ətraf mühitin dərkini və təfəkkür strukturunu müəyyənləşdirir. Linqvokulturologiyanın inkişafında rus alimi Y.Lotmanın mədəniyyətin semiotik nəzəriyyəsi də mühüm əhəmiyyətə malik olmuşdur [8, s. 50-52]; [9, s. 21-25].

Son dövrlərə qədər linqvokulturologiya dilçiliyin yeni bir istiqaməti hesab olunurdu. Lakin XXI əsrdə öz kateqoriyalarının və prinsiplərinin çox güclü inkişafına görə linqvokulturologiya artıq dilçiliyin bir sahəsi kimi deyil, müstəqil elm kimi öyrənilməyə başladı.

Bu inkişaf onunla əlaqədardır ki, XXI əsr dilçiliyində linqvokulturologiya müasir dilçiliyin yeni parasdiqmlərinə uyğunlaşdı.

Linqvokulturologiya dilçiliyin ümumi nəzəriyyəsinin, psixoloji və kulturoloji paradiqmlərinin inkişafına çox böyük təsir göstərə bildi.

Elmi biliklərin mental təqdimatı dünyanın dil mənzərəsinin dəyər dərketmə fəzasını şərtləndirir və linqvokulturologiyanın əsas predmetini təşkil edir. Bu isə mədəniyyətin əsas mahiyyəti ilə bilavasitə bağlıdır. Bu bağlılıq təfəkkürün, dilin və şüurun qarşılıqlı münasibəti ilə əlaqədardır.

Sosiallaşma nəticəsində insan mədəniyyətə uyğunlaşır, öz həyat təcrübəsini, maddi və mənəvi dəyərlərini inkişaf etdirir. Bu isə etnik konstantlar sisteminin yaranmasına səbəb olur.

Rasional dərketmə nəticəsində sözün məna vahidləri yaranır. Bu zaman ayrı-ayrı obyektlərin dərk olunması prosesi baş verir. Linqvokulturologiyanın obyekti dəyər-məna dərketməsi prosesinin nəticəsi olub, dil daşıyıcıları tərəfindən yaradılmış subyektiv obrazların və mənaların əksinə çevrilir. Hər bir dil daşıyıcısının dəyər-məna forması fundamental estetik və etnik anlayışların dərk edilməsidir.

Mənəvi dəyərlər mədəniyyət simvolları ilə – bədii mətnlər, incəsənət əsərləri, maddi mədəniyyət nümunələri ilə və dil ilə ifadə olunur. Dilin dəyər-məna fəzasını linqvokulturoloji kateqoriya ifadə edir.

Bu kateqoriyalar hansılardır və hansı dəyərləri ifadə edirlər?!

1. Vital dəyərlər: həyat, sağlamlıq, həyatın mənası, təbii mühit.
2. Sosial dəyərlər: sosial mövqe, sosial status, əməksevərlik, zənginlik, sənət, ailə, dözümlülük, cinslərin bərabərliyi.
3. Siyasi dəyərlər: söz azadlığı, vətəndaş azadlığı, qanun, vətəndaş sülhü.
4. Əxlaqi dəyərlər: xeyirxahlıq, nəciblik, məhəbbət, dostluq, borc, şərəf, tərbiyə.
5. Dini dəyərlər: Allah, ilahi, qanunlar, inanc, qurtuluş.
6. Estetik dəyərlər: gözəllik, ideal, üslub, harmoniya.

Dildə mənəvi dəyərlər ümumbəşəri, milli, sinfi, ailəvi, fərdi və şəxsi ola bilər.

Ümumbəşəri dəyərlər, çoxsaylı insanlar və bütün cəmiyyət tərəfindən əsasən qəbul olunan dəyərlərdir. Bu dəyərlər bütün dillərdə ifadə olunaraq, demək olar ki, bütün dinlərin əsasını təşkil edir. Bu əsas əxlaq normaları və dünya incəsənətinin nümunələridir. Ümumbəşəri dəyərlərdən fərqli olaraq milli dəyərlər hər bir xalqın özünəməxsusdur.

Azərbaycan vətəndaşı üçün milli dəyərlər Ana Vətən və Ana dilidir. Dil – fikrin ifadəsi, insana verilmiş ən böyük töhfədir. Dil – bütün mədəniyyətin daşıyıcısıdır. Qədim şərq mədəniyyətinin əsas ifadəsi bu xalqların dilləri idi.

Antik dövr mədəniyyəti qədim yunan dilinin inkişafı ilə bağlı idi. Dil dəyər – məna sistemi linqvokulturologiyanın əsasını təşkil edir. Dil – milli mədəniyyətin, psixologiya və fəlsəfənin güzgüsüdür. Xalqın tarixi və milli ruhunun ifadəsidir. XX əsrin 30-40-cı illərində Sepir-Uorf hipotezi məhz bu müddəaya – dil və mədəniyyətin vəhdətinə əsaslanırdı [9, s. 42-50].

Avropa dilçiliyində bu ideyaları V.fon Humboldt inkişaf etdirirdi. Alimin fikrincə, *dil – mədəniyyətin aynası, keçmiş mədəniyyətləri özündə tam əks etdirə bilən güzgüdür* [6, s. 70-72].

Dil – mədəniyyətin komponenti və əsas ifadə vasitəsidir. Lakin bununla bərabər dil – avtonom anlayışdır. Mədəniyyət və dilin müqayisəsi, xüsusilə, milli dil baxımından müqayisəsi funksional və daxili iyerarxik planda müəyyən izomorfizmə gətirib çıxarır.

Dil sisteminin və mədəniyyətin fərqli səviyyələri aşağıdakı paralel sıraların yaranmasına səbəb olur:

1) ədəbi dil – elitar mədəniyyət.
2) xalq dili – "üçüncü" mədəniyyət.
3) şivələr – xalq mədəniyyəti.
4) arqo – ənənəvi-professional mədəniyyət.

Hər iki sıraya aşağıdakı əlamətlər aid edilə bilər: 1) norma; 2) dialekt; 3) sistemin açıqlığı və ya qapalılığı; 4) stabillik – qeyri stabillik.

Hər bir dil və mədəniyyət forması xüsusi əlamətlərin vəhdəti ilə səciyyələnir: ədəbi dil – normalılıq, dialekt üstünlüyü, açıqlıq və stabillik ilə fərqlənir.

Nəticə. XIX əsrdən başlayaraq dil və mədəniyyətin vəhdəti problemi dilçilərin, filosofların, kulturoloqların diqqət mərkəzində olmuşdur. Bu nəzəriyyələr əsasən antropoloji problemlərə əsaslanmışdır.

XX əsr dilçiliyinin əsasını isə yalnız dil sistemi deyil, eyni zamanda diskurs təşkil etmişdir. Burada müxtəlif dil və diskurs vahidləri vasitəsilə dünyanın dil mənzərəsi ifadə olunur. Bu baxımdan V.N.Teliyanın nəzəriyyəsi diqqətəlayiqdir. Onun fikrincə, linqvokulturologiya digər kulturoloji elmlərdən fərqli olaraq canlı kommunikativ prosesləri etnik mentalitet və mədəniyyətlə sıx əlaqədə araşdırır [10, 22-23].

Beləliklə, dilin konseptosferi – mədəniyyətin konseptosferidir. Dil – mədəniyyətin aynasıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Алефиренко Н.Ф. Поэтическая энергия слова. Синергетика языка, сознании и культуры. – Москва: Akademia, 2002.
2. Араслы Г., М.П.Вагиф, Баку, 1958.
3. Болдырев Н.Н. Когнитивная семиотика: курс лекций. – Тамбов, 2001.
4. Вежбицкая А. Язык. Культура. Познание. – Москва: Русские словари, 1997.
5. Верещагин Е.М. Лингвострановедческая теория слова. – Москва: Русский язык, 1980.
6. Гумбольдт В. Язык и философия культуры. – Москва: Прогресс, 1985.
7. Кошарная С.А. Миф и язык. – Белгород: Изд.-во БГУ, 2002.
8. Лотман Ю.М. Семиосфера. СПб., Искусство, 2000.
9. Сепир Э. Избранные труды по языкознанию и культурологии. – Москва: Прогресс, 1993.
10. Телия В.Н. Основные постулаты лингвокультурологии. – Тамбов, 1999.
11. Хроленко А.Т. Лингвокультуроведение. – Курск: Крона, 2000.

DÜNYANIN DİL MƏNZƏRƏSİNDƏ ETİK KONSEPTLƏRİN MAHİYYƏTİ VƏ ÖZÜNƏMƏXSUSLUĞU

Vəfa Allahverdiyeva*

Abstract

The nature and specificity of ethical concepts in the language landscape of the world

Ethical concepts are a special type of cultural concepts determined by the representation in language of fragments of the worldview from a spiritual point of view, concentrated in antinomies that reflect the value attitude to the world. The ethical concept appears as a constant of mentality, a prototype of ethical ideas, a "cultural mass" of moral norms in human consciousness. The ethical conceptual sphere is understood as a set of concepts that includes the moral, cognitive, cultural and historical experience of the people.

The modification of ethical meanings is most characteristic of domestic, political and media discourses, while the core of ethical constants is constantly supported in religious, pedagogical discourses and classical works of art. It should be noted that the evaluation on the scale of good and evil is a characteristic feature of ethical concepts.

Keywords: *language, ethical concepts, linguoculturology, language landscape of the world, mentality.*

Giriş. Mövzunun aktuallığı dilçi alimlərin elmi paradiqmada xüsusi yer tutan etik konseptlərin linqvokultural təhlilinə davamlı marağı ilə bağlıdır. Etik kateqoriyanı əks etdirən dil vasitələrinin linqokulturoloji analizinə ehtiyac bu problemin dilçiliyimizdə yetərincə işlənilməməsi ilə əlaqələndirilir. Bu səpkidə tədqiqatlar cəmiyyətin müəyyən bir qisminin mənəvi cəhətdən kasıblaşma təhlükəsinin xüsusilə kəskin şəkildə dərk edildiyi bir dövrdə, sosial inkişafın müasir mərhələsində tələb olunur. Etik dəyərlər bizə özümüz və başqaları ilə harmoniyada yaşamağa, məqsəd və istəklərimizə çatmağa və cəmiyyətin daha ümumi rifahına töhfə verməyə kömək edir.

Dilin antroposentrikliyi ideyası müasir dilçilikdə əsas yer tutur. Antroposentrik paradiqma insanı birinci yerə gətirir və dil onun əsas xüsusiyyəti, ən mühüm komponenti hesab olunur. Bu paradiqma çərçivəsində tədqiqatçının maraqları idrak obyektlərindən subyektə keçir, yəni insan dildə, dil insanda təhlil edilir. Antroposentrik paradiqma nöqteyi-nəzərindən insan dünyanı özünü dərk etməklə, ondakı nəzəri və substantiv fəaliyyətini dərk etməklə tanıyır və bu ona şüurunda əşyaların antroposentrik nizamını yaratmaq hüququ verir ki, bu da onun mənəvi mahiyyətini, hərəkətlərinin motivlərini, dəyərlər iyerarxiyasını müəyyən edir.

Dil olduqca mürəkkəb və çoxşaxəli bir hadisədir. Müasir dilçilikdə dilə "mədəniyyətin məhsulu, onun mühüm tərkib hissəsi və mövcudluq şərti, mədəni kodları formalaşdıran amil" kimi baxılır.

Antroposentrik paradiqmanın formalaşması dilə dair problemlərin insana və onun mədəniyyətdəki yerinə yönəlməsinə səbəb oldu, çünki dil şəxsiyyəti bütün müxtəlifliyi ilə mədəniyyətin və mədəni ənənənin diqqət mərkəzindədir. Bütün dilçilik mədəni və tarixi məzmunla əhatə olunmuşdur, çünki onun predmeti mədəniyyətin şərti, əsası və məhsulu olan dildir.

Mədəniyyət və dil antroposentrik varlıqlardır, onlar insandadırlar, insana xidmət edirlər və insan olmadan onların heç bir mənası yoxdur. Mədəniyyət kommunikativ fəaliyyətə, dəyərə əsaslanan və simvolik bir təbiətə malikdir. Dil onunla sıx bağlı olması ilə yanaşı onun içərisində böyüyür, inkişaf edir və onu ifadə edir. Axı, bildiyimiz kimi, bir xalqın mədəniyyətinin bütün incəlikləri onun spesifik və bənzərsiz dilində öz əksini tapır, çünki o, dünyanı və onun içindəki insanı fərqli şəkildə fiksə edir.

Bu iki anlayış arasındakı əlaqə ideyası linqvokulturologiyada – dilçilik və mədəniyyətşünaslığın kəsişməsində yaranan və xalqın dildə əks olunan və möhkəmlənən

* ***Bakı Slavyan Universiteti, baş müəllim, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: vefabsu@mail.ru.***

mədəniyyətinin təzahürlərini öyrənən elmdə öz əksini tapmışdır. Linqvokulturologiya müasir dilçilikdə antroposentrik paradiqmanın məhsuludur.

Əsas hissə. Linqvokulturologiyanın kateqorial aparatının əsasını "dil şəxsiyyəti" və "konsept" terminləri təşkil edir. Dil şəxsiyyəti termini bir insana onun nitq fəaliyyəti qabiliyyəti nöqteyi-nəzərindən götürülmüş dil daşıyıcısı kimi istinad edir – mahiyyət etibarilə nitq şəxsiyyəti nəzərdə tutulur. Konsept insan şüurunda mədəniyyət məcmusu kimi müəyyən edilir. Onun formasında mədəniyyət insanın mental aləminə daxil olur və onun vasitəsilə adi bir insan mədəni dəyərlərin yaradıcısı olmadan, özü mədəniyyətə daxil olur və bəzi hallarda ona təsir edir.

Elmi metafora kimi yaranan və alimlərin fikrincə konseptual sərtliyi ilə seçilməyən "dünyanın dil mənzərəsi" termini müasir dilçilikdə geniş istifadə olunur. Dünyanın dil mənzərəsi dünya haqqında təsəvvürlərdir və bu təsəvvürlər dil vahidlərində və ilk növbədə, tam mənalı leksemlərdə ifadə olunur. Bu təsəvvürlər sistem təşkil edir və dildə ifadə olunan dünya haqqında bu təsəvvürlər sistemi milli xarakteri formalaşdırır və əvvəlcədən müəyyən edir. Dünyanın təsviri və ya dünyanın mənzərəsi insanın bütün mənəvi fəaliyyətinin nəticəsidir.

Dünyanın dil mənzərəsi bütövün bir hissəsi kimi dünyanın mənzərəsinə aiddir. O, müəyyən bir xalqın dünya haqqında təsəvvürlərini əks etdirir və "düşüncə dili"nin vahidlərini, yəni konseptləri əhatə edir. Dünyanın mənzərəsi müəyyən bir qrupun danışdığı mədəni dil vasitəsi ilə həyata keçirilir.

Dünyanın dil mənzərələrinin tipologiyası bir sıra dilçilər, o cümlədən E.S.Kubryakova, V.İ.Postovalova, B.A.Serebrennikov, Y.S.Stepanov, A.V.Ufimtseva və başqaları tərəfindən bir neçə meyarlara görə müəyyən edilir.

Beləliklə, subyektdən asılı olaraq dünyanın fərdi və kollektiv dil mənzərələri fərqləndirilir. Kollektiv dil mənzərəsi, öz növbəsində, dünyanın ərazi, sosial, yaş və peşəkar dil mənzərələrinə bölünür. Əks olunan obyektə görə dünya mənzərələri qlobal (mifoloji, dini, ümumelmi və s.) və yerli (bioloji, riyazi, kimyəvi və s.) dil mənzərələrinə bölünür. Göstərilən obyektin keyfiyyətinə görə dünya mənzərələri elmi və sadəlövh (adi bir insanın biliyi) dil mənzərələrinə bölünür. Göstərilən obyekt nöqteyi-nəzərindən, insanın qiymətləndirdiyi obyekt və hadisələrin bütün spektrini özündə cəmləşdirən dünyanın dəyərə əsaslanan dil mənzərəsi vurğulanır. Dünyanın dəyər dil mənzərəsinin əsası mənəvi və əxlaqi kateqoriyalarla təmsil olunur.

Koqnitiv dilçilərin fikrincə, dünyanın müasir dil mənzərəsi dünya mədəniyyətinin inkişafının məhsuludur. Hər bir dil dünyanı özünəməxsus şəkildə ayırır, yəni reallığın konseptuallaşdırılmasının xüsusi bir üsulu ilə xarakterizə olunur. Dil insanın dünya haqqında biliklərinin formalaşması və mövcudluğunun ən mühüm vasitəsi olmaqla, sözdə idrak fəaliyyətinin nəticələrini əks etdirir. Əgər dünya bir insan və onların qarşılıqlı təsirində reallıqdırsa, dünyanın mənzərəsi idrak şüurunun nəticəsidirsə, onda dünyanın dil mənzərəsi dil formasında qeydə alınan biliklərin toplusudur. Beləliklə, dünyanın dil mənzərəsi şəklində nümayiş olunan konseptual sistem etnosun mədəni təcrübəsinin dil işarələri şəklində translyasiyasıdır.

"Linqvokulturologiyada dünyanın mənzərəsi iqtisadi, siyasi, mədəni amillərdən asılı olaraq formalaşan dünya haqqında dildə ifadə olunan anlayış və təsəvvürlərin ayrılmaz məcmusudur" [4, s. 151]. Bununla belə, məlum olduğu kimi, sadalanan amillər daim dəyişir, dünyanın mənzərələri və onların dildə əks olunması qismən dəyişir.

Beləliklə, dünyanın dil mənzərəsi – tarixən müəyyən bir dil kollektivinin gündəlik şüurunda formalaşmış və dünya haqqında təsəvvürlərin dildə əks olunan məcmusu, dünyanı qavrayışın və onun təşkilinin müəyyən bir yolu, gerçəkliyin konseptuallaşdırılmasıdır. Hər bir təbii dilin dünyanın bənzərsiz bir dil mənzərəsinə uyğun olduğu hesab edilir.

Xalqın mənəvi mədəniyyəti, başqa cür desək mentalitet insan ruhunun elə incə sahələrində mövcuddur ki, onu dəqiq və birmənalı şəkildə müəyyən etmək mümkün deyil. Mədəniyyət dilinin əsas terminlərindən (məsələn, etik konseptlər olan həqiqət, tale, mərhəmət) danışarkən, haqlı olaraq qeyd etmək olar ki, onları çox az adam izah edə bilər və izah edildiyi təqdirdə, onların iki oxşar izahatına rast gəlinməyəcəkdir, baxmayaraq ki, bu konseptlər fəlsəfi və bədii mətnlərdə daim şərh olunur.

Dünyanın dil mənzərəsi eyni zamanda mentallığın (zehniyyətin) semantik vahidləri olan konseptlərdən təşkil olunan konseptsfer (konseptlərin məcmusu) toplusu kimi təqdim edilə bilər.

“Mentallıq (zehniyyət) dedikdə, insanlar tərəfindən dil ilə birlikdə qəbul edilən xalqın mənəvi təcrübəsini başa düşürük, mentalitet isə xalqın öz mənəvi quruluşunu dərk etməsidir. Üstəlik, bu fərq ayrı-ayrı konseptləri öyrənərkən fundamental əhəmiyyət kəsb etmir, çünki zehniyyətdə həqiqətən mövcud olanlar, xalqın mentalitetini yaradan dildə tanınır və qeydə alınır” [3, s. 135].

V.V.Kolesov yazır ki, “xüsusiyyətlərinə görə mentalitet etnik meyllərə və tarixi ənənələrə əsaslanan, konkret iqtisadi və siyasi şəraitdən asılı olmayaraq uzun müddət mövcud olan, öz dəyər prinsiplərində dünyanın sadəlövh-vahid mənzərəsidir” [2, s. 117]. Başqa sözlə deyə bilərik ki, mentalitet bir millətin dünyasının dəyər mənzərəsidir. Müəllif eyni zamanda qeyd edir ki, “mentalitet dil və tərbiyənin ortaqlığı əsasında cəmiyyətin hər bir fərdi üzvünün hiss, şüur və iradəsində təzahür edir və xalqın mənəvi mədəniyyətinin tərkib hissəsidir ki, bu da xalqın mövcud olduğu müəyyən bir ərazidə xalqın etnomental məkanını yaradır” [2, s. 205].

Yuxarıda qeyd edildiyi kimi, zehniyyətin (və mentalitetin) əsas vahidi konseptdir. Konsept prototip, arxetip, mental genotip, “insan şüurunda mədəniyyət haqqında təəssürat”dır. Etik konseptləri də məhz bu mənada başa düşmək lazımdır, çünki müxtəlif dövrlərin dilində etik konseptlərin verballaşdırılmasının tədqiqi onların prototipini, ilkin mənasını axtarmaq məqsədi daşıyırdı. Konseptlərin iyerarxiyası, onların sistemli münasibətləri dünyanın mənzərəsini təşkil edir. Konsept zonasına sözü müşayiət edən təsəvvürlər, biliklər, assosiasiyalar, təcrübələr daxildir. Konseptlər təkcə düşünülmür, həm də yaşanır, “onlar duyğuların, simpatiya və antipatiyaların, bəzən də qarşıdurmaların predmetidir” [5, s. 77]. Biz həmçinin hesab edirik ki, konseptin strukturuna onu “mədəniyyət faktına çevirən” hər şey, yəni etimologiya, “məzmununun əsas xüsusiyyətlərinə sıxılmış tarix”, assosiasiyalar, qiymətləndirmələr və s. daxildir.

Müasir dilçilikdə söz təkcə dil kateqoriyası kimi deyil, həm də mədəni konsept kimi qəbul edilir. Dünyanın dil mənzərəsinin vahidi kimi konseptin məzmunu həmişə milli xarakter daşıyır, yəni konkret bir linqvokultural cəmiyyətin mədəniyyətinin və dünyagörüşünün xüsusiyyətlərini əks etdirir və buna görə də hər hansı bir konseptin öyrənilməsi dünyanın dil mənzərəsinin yenidən qurulması üçün dəyərlidir.

Mədəniyyətin etnik və sosial növlərinə gəldikdə, müəyyən davranış və fəaliyyət formaları sisteminin vahidləri kimi, dünyanın dərk edilməsinin dəyər baxımından doymuş nümunələri kimi mədəni konseptlər özlərini göstərir. Mədəni konseptlər müvafiq mədəniyyətin unikallığını özündə cəmləşdirən kollektiv mənalı mental formasiyalardır. “Mədəniyyətin müxtəlif formalarda qeydə alınması çox vacibdir ki, bunlar arasında dil şüuru və kommunikativ davranış, yaxud dil və diskurs dilçilik üçün aktualdır” [1, s. 526].

Dünyanın hər bir dil mənzərəsində dünyanın mənzərəsindəki düyün nöqtələri adlandıran semantik yüklü sözlər (mədəni konseptlər, açar sözlər) toplusu var. Müvafiq mətnlər, dil stereotipləri və yeni mənalar yaradan mədəniyyət modeli dünyanın mədəni və dil mənzərəsinin lüğət tərkibini təşkil edir.

Mədəni konseptlər milliliyi ilə seçilir. Mədəni konseptlər dünyanın mənəvi inkişafı prosesində xalq şüurunu təşkil edən və istiqamətləndirən dil mentalitetinin dəyər sahəsinin əsas vahidləri kimi çıxış edir. Mədəni konseptlər mədəni məlumatların konseptual nüvəyə əlavə olunduğu mücərrəd anlayışların adlarıdır. Mədəniyyətin əsas konseptləri həm fərdi dil şəxsiyyəti, həm də bütövlükdə linqvomədəni birlik üçün ekzistensial əhəmiyyət kəsb edən dünya mənzərəsinin nüvə (əsas) vahidləridir.

Mədəni konseptlərin fəal öyrənilməsi elmi paradiqmanın ümumi antroposentrik istiqaməti ilə əlaqələndirilir və dünyanın sadəlövh mənzərəsində insan şüurunun müxtəlif aspektlərinin əks olunmasının universal qanunauyğunluqlarının aşkarlanmasına kömək edir. Mədəni konseptlər insan ilə onun yaşadığı reallıq arasında bir növ vasitəçi funksiyasını yerinə yetirir. Mədəni konseptlərin linqvomədəni təhlili bizə dilin konkret etnik qrupun dünyagörüşünə təsir dərəcəsini aydınlaşdırmağa imkan verir. Mədəni konseptlərin tədqiqi dünyanın milli dil mənzərəsinin modelləşdirilməsi üsuludur.

Mədəni konseptlər yalnız əvvəlki mədəni-tarixi təcrübə sayəsində yaranır ki, bu da xüsusilə mürəkkəb nitq-düşüncə sisteminin konstruksiyaları kimi mədəni konseptlərin yaranmasına səbəb olur. Konseptlərin vizual və şifahi təsviri nəticəsində ətraf aləmi dərk etməkdə bir növ hermenevtik dairə

formalaşır. Mədəni konseptlər, ilk növbədə, onların antroposentrikliyini – etnik şüurun daşıyıcısının mənəviyyatına, subyektivliyinə, sosiallığına və "şəxsi sferasına" yönəlmiş "xalqın ruhunu" əks etdirən mental varlıqlardır.

Beləliklə, mədəni konsepstlərdə təsbit edilmiş milli mentalitetin linqvistik ifadə üsullarının təhlili dil daşıyıcılarının malik olduğu düşüncə sisteminin daha dərindən öyrənilməsinə kömək edir. Məhz mədəni konseptlərdə xalqın dünyasının mənzərəsi – bu dildə danışanların ən ümumi dünyagörüşləri sistemi ifadə olunur. Reallığın dərk edilməsinin etnik xüsusiyyətlərini ən çox dil ifadə edir. Mədəni konseptlərin öyrənilməsi mənəvi mədəniyyətin aspektlərindən biri olan mədəniyyət obrazı kimi xalqın düşüncə tərzinin etnik xüsusiyyətlərini müəyyənləşdirməyə kömək edir. Xalqın mentaliteti məhz əsas mədəni konseptlər vasitəsilə əks olunur, bunun sayəsində bu dil mədəniyyətinin daşıyıcılarının ətraf aləm haqqında təsəvvürlərini yaratmaq mümkündür.

Etik konseptlər spesifikliyi dünyaya dəyər münasibətini əks etdirən antinomiyalarda cəmlənmiş mənəvi baxımdan dünya mənzərəsinin fraqmentlərinin dildə təmsil olunması ilə müəyyən edilmiş mədəni konseptlərin xüsusi bir növüdür.

Etik konsept mentalitetin konstantı (sabiti), etik təsəvvürlərin prototipi, insan şüurunda əxlaq normalarının "mədəni kütləsi" kimi meydana çıxır. Etik konseptsfer xalqın mənəvi, idraki, mədəni və tarixi təcrübəsini ehtiva edən konseptlər toplusu kimi başa düşülür.

Əsas (mental cəhətdən əhəmiyyətli) etik konseptlər bir-biri ilə sıx əlaqəli konseptsferi təşkil edir ki, burada ilahi, mənəvi aləmə aid olan *ekklesioloji, mütləq konseptləri* və ideala nail olmaq üçün zəruri olan insani keyfiyyətlər haqqında təsəvvürləri əks etdirən *xalis etik konseptləri* ayırmaq olar.

"Müqəddəslik" konstantı müxtəlif radiusların etik konseptlərini birləşdirir, çünki bütün fəzilətlərin "zirvəsi", davranışın ən yüksək mənəvi idealı, insanla insan arasındakı münasibətlərin nümunəsi insanla Tanrı arasındakı münasibətdir.

Etik konstantların semantik hissələri leksikada yer alır. Hər bir şifahi söz bir neçə mənaya malikdir ki, onlardan bəziləri Tanrı ilə insan arasındakı münasibətləri tənzimləyir, digərləri insan – insan münasibətləri səviyyəsində fəaliyyət göstərir, bəziləri isə insanın ətraf aləmlə əlaqəli davranış normalarını ehtiva edir.

Dominant etik konseptləri ehtiva edən etik mənalar, onların əsas verbalizatorlarının anlaşılmasındakı sosial və siyasi kataklizmlərin səbəb olduğu dəyişikliklərə baxmayaraq, müasir dil daşıyıcıları üçün "oxunulan" və mənalı olaraq qalır.

Etik mənaların modifikasiyası ən çox məişət, siyasi və media diskursları üçün xarakterikdir, etik konstantların özəyi isə dini, pedaqoji diskurslarda və klassik bədii əsərlərdə daim dəstəklənir.

Etik konseptlərin daxili formasını müəyyən etmək xüsusilə vacibdir, çünki bu proses tez-tez şifahi prosesdə "köhnəlmiş" konseptin etik dəyərini, onun əsas, ilkin mənasını aktuallaşdırır.

Qeyd edək ki, məhz xeyir və şər miqyasında qiymətləndirmə etik konseptlərin səciyyəvi xüsusiyyətidir.

Etik konseptlər arasında sözün daxili formasına müraciət etmək, o cümlədən hərfi mənanın axtarışı onların düzgün oxunması üçün zəruri şərtdir.

Tədqiqatımız üçün əsas tezis etik konseptləri mədəniyyət konstantları (sabitləri) kimi başa düşməkdir. Konstantı daim mövcud bir konsept kimi başa düşürük. Lakin fikrimizcə, etik konstant termininin aydınlaşdırılmasına ehtiyac duyulur: o, təməl ideyası əsrlər boyu dəyişməz qalan və millətin dəyər münasibətlərinin matrisini təşkil edən bir konseptdir. Mədəni konstanlar "xarici dünyadan əldə edilən təcrübənin təşkili və rasionallaşdırılması üçün bir vasitədir".

Konsept sözün modelidir, onun "skeleti"dir. Konseptsfer konseptlər toplusudur, xalqın nizamlı konseptlər toplusu, düşüncə üçün məlumat bazasıdır. Dil daşıyıcıları tərəfindən formalaşan və insanların yaddaşında saxlanılan konseptlər dilin konseptsferini təşkil edir, konsept sahələrinin birləşməsi konseptsferi təşkil edir.

Milli dilin konseptsferi millətin bütün mədəniyyəti – ədəbiyyatı, folkloru, elmi, təsviri sənəti qədər zəngindir, millətin bütün tarixi təcrübəsi ilə əlaqələndirilir.

Dəyər konseptsferinin əsasını insan və Tanrı, insan və insan, insan və məxluq, maddi dünya arasındakı münasibətlər sferalarını təşkil edən və müəyyən əşya və hadisələrin, yəni millətin bütün

dəyər konseptosferinin qiymətləndirilməsi vektorunu təyin edən etik konseptosfer təşkil edir. İnsan, siravi bir dil daşıyıcısı tərəfindən məntiqi olaraq təyin edilməsi çətin olan, lakin həqiqətən mövcud olan və insanın düşüncə və hərəkətlərinə çox vaxt "gizli" təsir göstərən etik dəyərləri rəhbər tutaraq yaşayır.

İnsanlar bir-biri ilə və təbiətlə daim qarşılıqlı əlaqədə olurlar, lakin onlar bu qarşılıqlı əlaqəni simvolik əhəmiyyət kəsb edən mücərrəd anlayışlarla öz münasibətləri vasitəsilə dərk edirlər: insan azadlıq və ədalət uğrunda mübarizə aparır, həqiqəti axtarır, ona xidmət edir, ümumi mənafe üçün özünü qurban verir, xeyirxahdır, yaxşılıq üçün çalışır və onu aldadan və ya ümidlərini doğruldan tale ilə mübarizə aparır.

Qeyd edək ki, etik konseptsfer, dünya haqqında təsəvvürlərin modelləşdirilməsi üçün əsas, matris olmaqla, antinomiyalar üzərində qurulur, çünki sonuncu reallıq və onun haqqında təsəvvürlərə nüfuz edir.

Mənəvi-etik kateqoriyalar mədəniyyətin sosial kateqoriyalarına aiddir. İstənilən milli mədəniyyətdə onlar "xeyir" – "şər" universal əsas aksioloji müxalifəti tərəfindən təşkil olunur. Beləliklə, mənəvi-etik konseptsfer hər hansı bir etnik qrupun dünyasının dəyər mənzərəsinin koqnitiv nüvəsidir. Mənəvi-etik konseptsfer ikili müxalifət tərəfindən formalaşır, onun qütbləri mənəvi-etik nizam mədəniyyətinin aksioloji kateqoriyaları – universal aksioloji kateqoriyaların hiponimləri olan "fəzilətlər" və "pisliklər"dir.

Nəticə. Etika insan mənəviyyatını əhatə edir, insanın mənəvi-əxlaqi dünyasını ehtiva edir. Bundan əlavə bu anlayış bütövlükdə ictimai həyata da aid edilir, çünki ictimai mühit özü də mənəvi-əxlaqi meyarlarla ölçülür. Ümumbəşəri etika yer üzündəki bütün insanların əməl edə biləcəyi dəyərlərdir, onlara riayət etməklə sülhə, harmoniyaya və xoşbəxtliyə nail olmaq olar. Etik dəyərlər mədəniyyətin müdafiə sistemidir. Etik konseptlər milli mentalitetin məhsulu və tərkib hissəsidir. Dünyanın etik dil mənzərəsi mədəniyyətin təməlini təşkil edən əsas etik konseptlərdə ifadə olunur və etnosun etik mədəniyyətini dil aspektində xarakterizə edir. Mədəniyyət nümayəndələrinin etik dəyərlərinin dil vasitəsilə ifadəsinin araşdırılması etik təfəkkür xüsusiyyətlərini, bütövlükdə etnosun milli xarakterini qiymətləndirməyə yol açır. Etik konseptsferi kollektiv şəkildə təmsil edən etik konstantlar (sabitlər) dünya haqqında təsəvvürlərin modelləşdirilməsi üçün əsasdır, mentalitetin təcəssümüdür, universal kosmik və digər antinomiyaları əks etdirir. Etik konseptsferin öyrənilməsinin mürəkkəbliyi öyrənilən obyektin spesifikliyi ilə bağlıdır. Etik konseptsfer dünyanın dəyər mənzərəsinin özəyi, dünyanın dil mənzərəsinin ən vacib hissəsidir.

İstifadə edilmiş ədəbiyyat

1. Верещагин Е.М., Костомаров В.Г. Язык и культура. М.: Индрик, 2005, 1040 с.
2. Колесов В.В. Язык и ментальность. СПб.: Петербургское востоковедение, 2004, 240 с.
3. Корнилов О.А. Языковые картины мира как производные национальных менталитетов. М.: Изд-во МГУ, 2003, 341 с.
4. Маслова В.А. Лингвокультурология. М.: Akademia, 2004, 208 с.
5. Прохоров Ю.Е. В поисках концепта. М.: Флинта: Наука, 2009, 176 с.

PROFESSOR BƏKİR ÇOBANZADƏNİN İSMİN KƏMİYYƏT VƏ MƏNSUBİYYƏT KATEQORİYALARINA DAİR GÖRÜŞLƏRİ

Pərvin Eyvazov*

Abstract

Professor Bekir Chobanzade's views on quantity and affiliation categories of the noun

Bekir Chobanzade's views on morphological categories, especially quantitative and affiliation categories are involved in the study. İt analyzes the scientist's attitude to the concept of quantity, including his views on the grammatical signs of this category. İt is noted that the author, taking into account some points, did not treat the morpheme *-lar, -lər* as a differential, but considered it a common word-changing suffix (general grammatical category). İn this regard, B.Chobanzade also touched on the use of the suffix in the sentence in accordance with the grammatical norms of the literary language integratively.

İn the study, the views of the linguist on the suffixes of affiliation, including on the concept of double affiliation, are given comparative with modern linguistic views. İt is noted that B.Chobanzade as indefinite pronouns are called in Azerbaijani linguistics, someone, someone, someone, etc. this group considered the morphemes *-i, -si* in words to be archaic suffixes of affiliation. At the same time, the author also commented on the use of the suffix *-sı*^{4} in the singular of the III person in the form *-yı*^{4} in some words that end in a vowel.

From the study it follows that Bekir Chobanzade speaking about morphological categories of the Azerbaijani language, including quantitative and signs of belonging, he studied suffix-forms not only from the point of view of description, but also from the historical direction, drew attention to the frequency of use of archaic indicators encountered in other Turkic languages.

Keywords: *B.Chobanzade, grammatical categories, quantity sign, affiliation category.*

Giriş. Sözdəyişdirici şəkilçilər dilimizin qrammatik quruluşunun milliliyini göstərən əsas vahidlərdir və onlar qrammatik kateqoriyalar fonunda təzahür edir. Qrammatik (morfoloji) kateqoriyalar qrammatik formanın sözdəyişdirici şəkilçilər vasitəsilə ifadəsi, "*iki və daha artıq qrammatik formanın birliyidir*" [8, s. 10]. B.Çobanzadənin elmi yaradıcılığında sözdəyişdirici şəkilçilər geniş şəkildə öyrənilsə də, bu dil vahidləri xüsusi olaraq onlar qrammatik kateqoriya başlığı altında təqdim olunmamışdır. Ancaq müəllifin şəkilçilərin şərhinə həsr olunmuş fikirləri, demək olar ki, morfoloji kateqoriyalar haqqındakı çağdaş nəzəri görüşlərlə səsləşir. Bu baxımdan alimin ismin kəmiyyət və mənsubiyyət kateqoriyalarının əlamətlərinə dair görüşləri mühüm elmi əhəmiyyətə malikdir.

1. Kəmiyyət kateqoriyasına dair fikirlər

Türk dillərində bu kateqoriyanın morfoloji əlaməti olan *-lar, -lər* şəkilçisi qədim yazılı abidələrin dilindən bu günə qədər işləkdir. Orxon-Yenisey kitabələrində bu morfemə bir qədər dar əhatədə - əsasən, canlı varlıqların adlarını bildirən isimlərdə rast gəlinsə də, "... *-lar*^{2} zaman keçdikcə qədim türk dilindəki işlənmə çərçivəsini qıraraq intensivlik sayəsində get-gedə öz əhatə dairəsini genişləndirmiş, bu genişlənmə isə onu sabitləşmə prosesinin tərkib hissəsinə çevirmişdir" [1, s. 19]. B.Çobanzadə bu morfemdən dildəki funksiyasına uyğun olaraq, ***ümumi sözdəyişdirici şəkilçi*** kimi bəhs etmişdir: "Ümumi sözdəyişdirici şəkilçilərdən biri *-lar, -lər* şəkilçiləridir. Bu şəkilçi məna etibarilə "cəm-çoxluq" mənasını ifadə edər: uşaq+**lar**, yoldaş+**lar**, biz+**lər**, gün+**lər**, bir+**lər**, yazdı+**lar**, kim+**lər**" [3, c. 5, s. 131]. Verilən nümunələrdən çıxış edərək burada bir məqama diqqət yetirmək lazımdır ki, bu da *-lar, -lər* şəkilçisinin adlardakı və feillərdəki funksiya müxtəlifliyi ilə bağlıdır: çünki o, formal olaraq bir neçə kateqoriyanın göstəricisi kimi qrammatik omonimliyə malikdir. Müəllif də həmin xüsusiyyəti nəzərə alaraq, *-lar, -lər* morfeminə diferensial yanaşmır: onu ümumi sözdəyişdirici şəkilçi (ümumi qrammatik kateqoriya) hesab edir. Bu baxımdan B.Çobanzadə

* ***Bakı Dövlət Universiteti, Türkologiya kafedrası nəzdində "Türkoloji araşdırmalar" elmi tədqiqat laboratoriyası. Elek.poçt: pervin.bdu@mail.ru.***

sözügedən şəkilçinin cümlədə ədəbi dilin qrammatik normalarına uyğun işlənməsinə də inteqrativ şəkildə toxunur. Məsələn, miqdar saylarından sonra gələn isimlərin kəmiyyət göstəricisi, mübtəda ilə xəbər arasında kəmiyyətə görə uzlaşmanın pozulması kimi hallar bura aiddir: "Ümumiyyətlə, türk ləhcələrində olduğu kibi, azəricədə də hər cəm mənası olan yerdə cəm şəkilçisini işlətmək lazım gəlməz. Bunu xüsusən say adlarından sonra gələn sözlər və feillər üçün söyləyə biləriz" [3, c. 5, s. 133].

-lar[2] cəm şəkilçisinin fonetik əlamətlərinə diqqət çəkən tədqiqatçı qeyd edir ki, başqa türkcələrdə, xüsusən, yakut-Altay, qazax-qırğız dillərində bu morfem ahəng qanununun tələbinə uyğun olaraq, müxtəlif şəkillərdə (*-lar, -lər, -lor, -lör, -dor, -dör* və s.) təzahür etsə də, Azərbaycan dilində yalnız iki formada işlənir [3, c. 5, s. 131]. Ümumən, bu şəkilçi türk dillərinin çoxunda uyğunluq təşkil etməsinə rəğmən, əsas fərq morfemdəki "l" səsinin assimilyasiyaya uğraması ilə müşahidə olunur ki, bu səs əvəzlənməsini müasir türk dillərinin materialları ilə M.Hüseynova və İ.Kazımov ətraflı göstərirlər [6, s. 381; 9, s. 85].

Bir məqamı da vurğulamaq lazımdır ki, türkoloji dilçilikdə kəmiyyət anlayışının formal əlamətlərini *–lar*[2] şəkilçisi ilə məhdudlaşdırmaq hallarına da təsadüf edilir. Lakin təkcə Azərbaycan dilinin materiallarına əsaslansaq, onun digər kateqoriyalar fonunda müxtəlif əlamətlərlə özünü göstərməsinin mümkünlüyündən danışmaq olar. Və biz də bu fikrə qatılırıq ki, "tarixi variantlılıq nümayiş etdirməsinə baxmayaraq, dilimizin tarixi inkişaf mərhələlərində -lar[2] dayanıqlılıq nümayiş etdirmiş və elə bu da kəmiyyət kateqoriyasının özünə bir sabitlik gətirmişdir" [1, s. 22]. Məsələ barəsində M.Qıpçağın "Kəmiyyət anlayışının dildə ifadəsi" adlı əsərində ətraflı məlumat verildiyindən məqalədə problem haqqında təkrar söz açmırıq.

2. Mənsubiyyət kateqoriyası haqqında baxışlar

Bu kateqoriyanın əsas xüsusiyyəti sözün öz lüğəvi mənasını və müstəqilliyini saxlayaraq şəkilçilərin köməyi ilə özündən kənardakı şəxs və kəmiyyəti də göstərməsidir: "Mənsubiyyət əlaqəsinin yaranması üçün sahib şəxs bildirən sözlər yiyəlik halda olur və mənsub əşya bildirən sözlər mənsubiyyət şəkilçisi qəbul edir" [10, s. 89]. Mənsubiyyət anlayışını əvəzliklərin içərisində "zəmiri-izafi" adı ilə təqdim edən N.Nərimanovdan [12, s. 36] və yiyəlik əvəzliklərinə daxil edən M.Kazımbəydən [7, s. 348] fərqli olaraq, B.Çobanzadə mənsubluq bildirən qrammatik şəkilçiləri ayrıca tədqiq etmiş və onları "mülki zəmirlər" adlandırmışdır. Tədqiqatçı yazır: "Türkcədə şəxslərə aid olub, sərflərimizdə "zəmir" adlanan sözlər də hind-Avropa dillərində, məsələn, ruscada ayrı olaraq sözlərin sonuna əlavə olunduğu zaman şəkilçi xidmətini görürlər, yəni damardan ayrı olaraq müstəqil mənaya malik deyildirlər. Bunlar da müfrəd və cəm şəkillərinə məxsus olmaq üzrə altı şəkilçidir: 1) -ım[4] 2)-ın[4] 3) –ı[4] 4) –ı(mız)[4] 5) –ı(nız)[4] 6) –ları[2]" [3, c. 5, s. 132]. "Azərbaycan dilinin qrammatikası"nda verilmiş N.Dmitriyevin bu kateqoriya ilə əlaqədar mövqeyində B.Çobanzadənin fikirləri ilə səsləşən bir məqam var ki, bu da mənsubiyyət şəkilçisi qəbul etmiş leksemlərdə (*evim, dəftərim*...) iki ünsürün öz əksini tapmasıdır: "1) söz köklərində **əşya** ifadə olunması; 2) mənsubiyyət əlamətləri ilə ifadə olunmuş **şəxs...** Məsələn, "evim" sözü yalnız şəxsə aid olan münasibət anlayışını bildirir" [14, s. 260].

"Türk dili" kitabında mənsubiyyət şəkilçilərinin şəxs əvəzliklərindən törədiyini bildirən B.Çobanzadə yazır: "... zəmir sözlərinin özləri də ***şəkilçi olaraq*** işlədilirlər. Bu surətdə **mən** sözündən -ım[4], **sən** sözündən -ın[4], **o** sözündən -ı[4] şəkilçiləri meydana gəlir" [2, c. 4, s. 163]. B.Serebrennikov və N.Hacıyevanın A.Şerbaka istinad etdikləri fikirdə göstərilir ki, "mənsubiyyət anlayışı ilə əhatə olunan bütün mənalar *mən-kişi-mən, biz-kişi-biz* tipli konstruksiyaların uzun və çox mürəkkəb semantik inkişafının nəticəsidir" [13, s. 125]. Belə ki, bu tərkibdə şəxs əvəzliklərinin təkrarlanması ilkin dövrdə predikativ birləşmələrin komponentləri arasında əlaqələrin yaranmasına xidmət göstərmiş və həmin konstruksiyalar türk dillərinin inkişaf tarixində əşyanın və ya şəxsin keyfiyyətini, yaxud hər hansı bir özəlliyini əks etdirmişdir. Yəni A.Şerbaka görə, yiyəlik hal əlamətinin ortaya çıxması ilə *mən-kişi-mən* konstruksiyasından *mənim kişim* modeli yaranmışdır. Ancaq bu baxışla razılaşmayan B.Serebrennikov və N.Hacıyevanın qənaətincə, mənsubiyyət kateqoriyasının göstəriciləri yiyəlik hal formasından daha erkən yaranmışdır: "Mənsubiyyət münasibəti tez-tez məkani münasibətlərin yenidən mənalandırılması nəticəsində yaranmışdır. Daha yaxında yerləşən "mənim", "mənim olan" kimi, daha uzaqda yerləşən

“mənim olmayan” və s. kimi düşünülmüşdür. Ona görə türk dillərində mənsubiyyət affiksləri ola bilsin ki, məkani indikatorların ilk rolunu ifa edən hansısa əvəzlik sözlərindən inkişaf etmişdir. Belə ki, atım əvvəlcə, mənə ən yaxın olan at mənasını ifadə edə bilərdi” [13, s. 126]. Demək ki, bu kateqoriyanın yaranmasında şəxs faktorunun rolu inkaredilməzdir.

B.Çobanzadə sonu saitlə bitən bəzi sözlərdə III şəxsin təkində ***-sı***[4] şəkilçisinin *-yı*[4] formasında işlənməsinə də münasibət bildirir. Morfemin tarixi inkişafını izləməklə ***su*** leksemində rast gəldiyi səs əvəzlənməsini izah edən müəllif doğru olaraq göstərir ki, *su* sözünün əski şəkli *sub* formasında olmuşdur. Məlumdur ki, türkcədə sözün əvvəl, orta və sonunda **b** səsinin **v** səsi ilə əvəzlənməsi hadisəsinə rast gəlinir: *sab-sav, ab-av, eb-ev, yabaş-yavaş, bar-var...* Hətta mənbələrdə *suvar*(maq) feilinin kökü suv(+ar) fonoforması ilə əlaqələndirilir [5, s. 211; 11, s. 298]. Bu münasibətlə müəllif yazır: “**Sub//suv** şəklini şimal türkcələrinin bir çoxunda görmək mümkün olduğu kimi, cənub türkcələrində də **savuk//sovuk** sözlərinə rast gəlinir. Lakin bu qrupda **soyuk** sözünə rast gəlindiyi kimi, **suy** sözünün də işləndiyini görürük. Necə ki, əski **eb** sözü cənubda **ev, öv** şəklinə düşmüşdür, şimalda **öy, üy** şəklindədir” [3, c. 5, s. 134]. Deməli, görkəmli türkoloq “suyu” leksemindəki “y” səsini şəkilçi deyil, tarixən kökün strukturuna bağlı olan morfem kimi xarakterizə edir: “Sərflərimizdə “şazz” (istisna), “müstəsna” olaraq göstərilən bu şəkildə dilimizin təkamül və tarixi nəzəri-etibara alındığı təqdirdə heç bir dürlü qaydadan tış bir şey yoxdur və əsas etibarilə damara aid olan y səsi şəkilçiyə yapışmışdır” [3, c. 5, s. 134]. Bu hadisənin hal şəkilçisi qəbul edərkən də (müqayisə üçün: *suyu daşımaq* – təsirlik hal*; dənizin suyu* – mənsubiyyət əlaməti) təkrarlandığını nəzərə alsaq, müəllifin haqlı mövqedə olduğunu düşünmək olar. Hətta M.Kazımbəy də *su* və *nə* sözlərinin ümumi qaydadan kənara çıxdığına diqqət çəkərək yazıda “s” (س) hərfi buraxılmaqla “y” (ى) hərfinin (anın suû), bəzən də yanlış olaraq *nəsi* formasının işləndiyini göstərir: anın suyu (انكسوى), Onun verməgə nəyi var (آنك ويرمكه نه‌ى و ار) [7, s. 347].

B.Çobanzadə Azərbaycan dilçiliyində qeyri-müəyyən əvəzliklər adlandırılan *kimi, kimisi, biri, birisi* və s. bu qrup sözlərdəki *–i, -si* morfemlərini arxaik mənsubiyyət şəkilçisi hesab edərək yazır: “Məful bih şəkilçisi olan **–i** bəzi sözlərdə bu surətlə cansızlanmışdır: **birisi, kibisi**... sözləri bunun kibidir. Çünki bunların yerinə **biri, kibi** olmaq lazım idi. Lakin burada söyləyənin bu sözlərin müəyyən tərkiblərdən ayrıldığını da unutmamalıdır: onların birisi” [2, c. 4, s. 133]. Dilçi alim bunu iki səbəblə əlaqələndirir: “1) Bu kibi sözlərdən bəzilərində əski şəkillərində bulunan son saitənin təsiri qalmışdır; 2) Bəzilərində isə **-i** şəkilçisi bir növ cansızlaşaraq, damara yapışmış və bu surətlə söyləyənin zehnində saitə ilə bitən bir damar kimi qəbul olunaraq, **-sı** şəkilçisi qəbul olunmuşdur” [3, c. 5, s.133].

Kimi, kimisi, biri, birisi, çoxu, çoxusu əvəzliklərinin quruluşu haqqında türkoloji dilçilikdəki fikirlər birmənalı deyildir. Məsələn, Y.Seyidov bu şəkilçilərin sözlərin (*kimi, biri, hərə*) tərkibində arxaikləşdiyini göstərərək həmin əvəzlikləri quruluşca sadə hesab edir [14, s. 99]. B.Serebrennikov və N.Hacıyeva bu əvəzliklərdəki şəkilçi morfemlərin hissəcik olduğunu qeyd edirlər: “... bütün hissəciklər gücləndirici vasitələrdir. Onların funksiyası qeyri-müəyyən əşyaların içindən birini, yəni danışana məlum olmayanlardan birini ayırmaqdır: Кто кричит? – *Kim qışqırır? və* Кто-то кричит – *Kimsə qışqırır*” [13, s. 190]. *Kimi* əvəzliyinin *“i”* leksik şəkilçisindən yarandığını qeyd edən Z.Şahbazovanın fikrincə, *kimisi* leksemi “**kimi** qeyri-müəyyən əvəzliyinin üzərinə **-si** mənsubiyyət şəkilçisi artırmaqla əmələ gəlir. Dilimizdə bir neçə dəfə mənsubiyyət şəkilçisi artırılmış sözə yenidən mənsubiyyət şəkilçisinin artırılması bir neçə sadə sözdə özünü göstərir. Məsələn: **birisi, çoxusu** və s.” [15, s. 141]. B.Xəlilov da eyni mövqedən çıxış edərək, ikiqat mənsubiyyət şəkilçili sözlərin, əsasən, qeyri-müəyyənlik məzmunu ilə bağlı olduğunu bildirir [4, s. 214].

Bu mənada, B.Çobanzadə haqlı olaraq *birisi, kimisi, çoxusu* və s. bu kimi əvəzliklərdə ardıcıl gələn iki şəkilçinin eyni kateqoriyaya aid olduğunu qeyd edir: “Türkcədə bir neçə sözlər vardır ki, həm –i//ı-, həm də -si//sı şəkilçilərini alırlar. Halbuki birincisinin gəldiyi, bulunduğu yerdə ikincisi fəzlə olmaq lazım gəlirdi: *həpisi=həp-i-si, birisi=bir-i-si, kimisi=kim+i+si, çoxusu=çox+u+su və s.*” [2, c. 4, s. 164]. Hətta türkoloji dilçilikdə ikiqat mənsubiyyət şəkilçilərinin türk dillərində intensivlik yaradan vasitələrdən biri olması da qeyd edilir [8, s. 59]. Göründüyü kimi, müəllifin təqdim etdiyi bu

əvəzliklərdə ikiqat mənsubiyyət şəkilçisinin olduğu şübhə doğurmur, əsasən, son şəkilçilər öz işləkliyini saxlayır.

Nəticə. Bəkir Çobanzadə Azərbaycan dilinin morfoloji kateqoriyalarından, o cümlədən kəmiyyət və mənsubiyyət əlamətlərindən söz açarkən, şəkilçi-formaları təkcə təsviri baxımından deyil, həm də tarixi yöndən araşdırmış, qarşılaşdığı arxaik göstəricilərin digər türk dillərində işləkliyinə də diqqət çəkmişdir. Alimin bu istiqamətdə əldə etdiyi elmi nəticələr bugün də öz elmi dəyərini qoruyub saxlayır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayeva, Q. XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik norma demokratizmi / Q.Abdullayeva – Bakı: Elm və təhsil, – 2019. – 252 s.
2. Çobanzadə, B. Seçilmiş əsərləri: [5 cilddə] / B.Çobanzadə. – Bakı: Şərq-Qərb, – c. 4. – 2007. – 200 s.
3. Çobanzadə, B. Seçilmiş əsərləri: [5 cilddə] / B.Çobanzadə. – Bakı: Şərq-Qərb, – c. 5. – 2007. – 264 s.
4. Xəlilov, B. Müasir Azərbaycan dilinin morfologiyası: [2 hissəli] / B.Xəlilov. – Bakı, – h. 1. – 2000. – 280 s.
5. Hacıeminoğlu, N. Türk Dilinde Yapı Bakımından Fiiller / N.Hacıeminoğlu. – Ankara: Kültür Bakanlığı Yayınları, –1991. – 280 s.
6. Hüseynova, M. Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası / M.Hüseynova. – Bakı: ADPU, – 2020. – 600 s.
7. Kazımbəy, M. Türk-tatar dilinin ümumi qrammatikası / Tərc., tədqiq və şərh ed. İ.Abbasov. – Bakı: Zərdabi LTD MMC, – 2017. – 1000 s.
8. Kazımov, İ. Türk dillərinin intensivlik qrammatikası / İ.Kazımov. – Bakı: Elm və təhsil, – 2022. – 236 s.
9. Kazımov, İ. Türk dillərinin müqayisəli morfologiyası / İ.Kazımov. – Bakı: Elm, – 2019. – 304 s.
10. Kazımov, Q. Seçilmiş əsərləri: [10 cilddə] / Q.Kazımov. – Bakı: Nurlan, – c. 9. – 2010. – 544 s.
11. Mirzəyev, H. Müasir Azərbaycan dilində feil / H.Mirzəyev. – Bakı: Elm, – 2006. – 546 s.
12. Nərimanov, N. Türk-Azərbaycan dilinin müxtəsər sərfi-nəhvi / Tərt. ed. İ.Qulusoy. – İstanbul: Sonçağ Akademi Yayınları, – 2019. – 128 s.
13. Serebrennikov, B. Türk dillərinin müqayisəli-tarixi qrammatikası / B.Serebrennikov, N.Hacıyeva. – Bakı: Səda, – 2002. – 382 s.
14. Seyidov, Y. Azərbaycan dilinin qrammatikası (morfologiya) / Y.Seyidov. – Bakı: BDU, – 2006. – 371 s.
15. Şahbazova, Z. Azərbaycan dilində əvəzliklər / Z.Şahbazova. – Bakı: Ulu, – 2007. – 336 s.

TÜRK DİLLƏRİNDƏ OLAN SÖZLƏRLƏ FRANSIZ DİLİNDƏ OLAN SÖZLƏRİN OXŞAR CƏHƏTLƏRİ

Ləman Şahəlizadə*

Abstract

Similarities between turkish and french words

The article provides information about the origin and classification of Turkic languages, the origin and history of the French language. Then the similarities between Turkish and French languages are discussed. It has been reported that Turkic languages are generally divided into four main groups, while French belongs to the Roman language family of Latin origin. In addition, in the section that examines the common points between the Turkish languages and the French language, it is stated that factors such as the history of the language, cultural interactions and language structure contribute to the similarities. However, it is emphasized that these similarities are limited and generally limited to borrowed words. As a result, it was stated that the similarities between Turkish languages and French are limited and both languages belong to different language families. This shows that both languages differ from each other in terms of history, culture and language structure.

Keywords: *Language structure, historical relationships, structural similarities, similar words, cultural interaction.*

Giriş. Müxtəlif quruluşlu və qohum olmayan, analitik və aqqlütinativ dil ailələrinə mənsub olan fransız və türk dilləri arasında qarşılıqlı əlaqələrin yaranması, dillərin bir-birinə qarşılıqlı təsiri, fransız dilində mövcud olan türk mənşəli sözlərin fransız dilinə keçdikdən sonra onlarda baş verən qrafik, semantik, morfoloji və fonetik uyğunlaşmalar, onların obyekt dilin linqvistik qanunlarını mənimsənilmə dərəcəsi, əhatə dairəsini genişləndirərək həmin dilin lügət bazasında ümümişlək söz kimi işlənməsi və ya sıradan çıxması kimi məsələlərin müqayisə yolu ilə tədqiq edilməsini ön plana çəkir. Türk dillərinin mənşəyi ümumiyyətlə Altay dil ailəsinə aid edilir. Altay dil ailəsi dünyadakı bir çox türk dillərini, həmçinin monqol, tunqus və bəzi digər dilləri özündə birləşdirən böyük dil ailəsidir. Altay dil ailəsi ümumi fonologiya, qrammatika və söz ehtiyatı kimi xüsusiyyətlərdə oxşarlıqları paylaşan dillər toplusu ilə müəyyən edilir. Türk dilləri ümumiyyətlə dörd əsas qrupa bölünür:

Oğuz dilləri: Türkiyə türkcəsi, azərbaycanca, türkməncə və qaqauzca kimi dilləri ehtiva edir.

Qıpçaq dilləri: Qazax, Qırğız, Qaraqalpaq, Tatar və Başqırd kimi dilləri əhatə edir.

Karluk dilləri: Özbək və Uyğur kimi dilləri əhatə edir.

Sibir türk dilləri: Yakut (Saxa) kimi dilləri ehtiva edir.

Türk dilləri, ümumiyyətlə, türk xalqlarının tarixi və mədəni mənşəyinə əsaslanan ortaq dil köklərinə malikdir. Bu dillərin genetik əlaqələri dilçilər tərəfindən müqayisəli linqvistik tədqiqatlar vasitəsilə müəyyən edilmişdir.

Türk dillərinin nə vaxt və necə yarandığı dəqiq bilinməsə də, türk dillərinin mənşəyi və tarixi ilə bağlı müxtəlif nəzəriyyələr mövcuddur. Bu nəzəriyyələr dilçilərin dil qohumluğu və dilin təkamülü ilə bağlı işlərinə əsaslanır [2, s. 7].

Türk dillərinin mənşəyi ilə bağlı ən çox yayılmış nəzəriyyələrdən biri də onların prototürk dili adlanan ata-baba dilinə söykənməsidir. Prototürk dili, ehtimal ki, Orta Asiyada yaşamış qədim türk xalqlarının danışdığı dil idi. Bu dövrə aid yazılı sənədlər demək olar ki, olmadığından prototürk dili haqqında qəti məlumat yoxdur. Türk dillərinin təkamülü və fərqliliyi Orta Asiyada müxtəlif türk boylarının köçləri və qarşılıqlı əlaqəsi nəticəsində baş vermiş ola bilər. Türk xalqlarının Orta Asiyadan köçü türk dillərinin müxtəlif coğrafi bölgələrə yayılmasına və zamanla bu dillərin bir-birindən ayrılmasına səbəb ola bilər. Türk dilləri tarix boyu müxtəlif sivilizasiyaların və mədəniyyətlərin təsiri altında olmuşdur. Bu qarşılıqlı əlaqələr türk dillərinin lüğət və qrammatikasında öz əksini tapa bilər. Məsələn, İslam dininin yayılması ilə türk dillərinə ərəb və fars mənşəli sözlər daxil ola bilər.

* ***Bakı Dövlət Universiteti, Alman və fransız dilləri kafedrasının müəllimi. Elek.poçt: aleman_56@yahoo.fr.***

Nəticə etibarı ilə türk dillərinin yaranma tarixi haqqında dəqiq məlumat yoxdur, lakin dilçilər və tarixçilər bu dillərin mənşəyi və təkamülü ilə bağlı müxtəlif nəzəriyyələr irəli sürmüşlər. Bu nəzəriyyələr, ümumiyyətlə, prototürk dilinə və Orta Asiyada qədim türk xalqlarının qarşılıqlı əlaqəsinə diqqət yetirir. Fransız dili latın dilinin bilavasitə qolu olan roman dilləri ailəsinə aiddir. Roman dilləri Latın dilinin müxtəlif Avropa dillərinə çevrildiyi bir dil qrupudur. Fransız dilinin mənşəyi Latın dilinin Vulqar Latın adlanan məşhur versiyasındadır. Fransız dilinin təkamülü Roma imperiyasının qərb hissəsinin dağılması və franklar kimi german tayfalarının Avropaya təsiri ilə formalaşmışdır. Bu dövrdə latın dilinin məşhur versiyaları franklar kimi german tayfalarının dili ilə qarşılıqlı əlaqədə olub, fransız dilinin erkən formalarını formalaşdırıb [2, s. 58].

Orta əsrlərdə fransız dili Fransa krallığının hakimiyyəti və mədəni təsiri altında çiçəkləndi. Fransanın siyasi və mədəni gücü fransız dilinin Avropada ədəbiyyat, hüquq, elm və diplomatiya dili kimi qəbul edilməsinə kömək etdi. Fransız dilinin müasir standart forması, xüsusilə XVII əsrdə Fransa kralı XIV Lüdovik tərəfindən orta əsr fransızlarının təkamülü və standartlaşdırılmasından sonra hazırlanmışdır. Bu, XIV Lüdovikin dövründə, Fransız akademiyasının dili standartlaşdırmaq və qorumaq səyləri ilə aydın oldu. Bu gün fransız dili rəsmi dil hesab edilən dünyanın bir çox ölkələrində danışılan və tədris olunan dildir. Fransız dilinin qlobal təsiri həm də fransız mədəniyyətinə, ədəbiyyatına, incəsənətinə və elminə dərin təsiri ilə tanınır. Fransız dilinin tarixi latın dilindən müasir fransızcaya qədər olan təkamülü əhatə edir.

Roma imperiyası dövrü: Latın dili Roma imperiyasının qərb hissəsində, indiki Fransanın olduğu bölgədə danışılırdı. Lakin, Romanın süqutu ilə latın dilinin bir çox fərqli variantları ortaya çıxdı.

Orta əsrlər dövrü: Orta əsrlərdə fransız dilinin erkən formaları orta əsr latın və orta əsr fransız dillərinə çevrildi. Fransızlar Fransa krallığının hakimiyyəti altında güclənməyə başladı və XI əsrdən etibarən yazılı sənədlərdə daha tez-tez görünməyə başladı.

Fransa kralı XIV. Lui dövrü: XVII əsrdə Fransa kralı XIV Lüdovik. XIV Lüdovikin hakimiyyəti dövründə fransız dilini standartlaşdırmaq və qorumaq üçün səylər göstərildi. Fransız akademiyasının yaradılması və dilin öyrənilməsi müasir standart fransız dilinin formalaşmasında mühüm rol oynamışdır.

Müasir dövr: Fransız dili XVIII və XIX əsrlərdə Avropada və bütün dünyada mühüm mədəni, ədəbi və diplomatik dilə çevrildi. Fransız dili Avropanın bir çox ölkələrində və dünyanın digər yerlərində rəsmi və ya ikinci dil hesab olunur.

Bu gün fransız dili bütün dünyada mühüm mövqeyə malik olan və bir çox ölkədə rəsmi dil və ya təhsil dili kimi qəbul edilən dildir. Fransız dili dünyada milyonlarla insan tərəfindən danışılır və beynəlxalq əlaqələr, biznes, mədəniyyət və təhsil sahələrində mühüm rol oynayır. Türk dilləri ilə fransız dilinin birləşdirici cəhətləri arasında bəzi vacib məqamlar ola bilər:

Tarixi qarşılıqlı əlaqələr: Türk xalqları ilə fransızlar arasında tarix boyu mədəni və ticarət əlaqələri olmuşdur. Bu qarşılıqlı təsirlər hər iki dildə ümumi sözlərin və dildə bəzi struktur oxşarlıqların yaranmasına səbəb ola bilər.

Dil quruluşu: Hər iki dil müəyyən linqvistik xüsusiyyətlərdə oxşarlıqlar göstərə bilər. Məsələn, fransız və türk dillərində cümlə strukturları bəzi hallarda oxşar ola bilər.

Bununla belə, türk dillərinin və fransızcanın mənşəyi fərqlidir və bu dillərin qrammatik quruluşu, söz ehtiyatı və səs sistemləri də fərqlidir. Buna görə də türk dilləri ilə fransız dilləri arasındakı oxşarlıqlar ümumiyyətlə məhduddur və xüsusilə alınma sözlər vasitəsilə ortaya çıxır. Türk dilləri ilə fransız dili arasında bəzi ümumi xüsusiyyətlər ola bilər, lakin hər iki dilin mənşəyi və tarixi fərqli olduğu üçün oxşarlıqlar məhdud ola bilər [2, s. 58]. Bununla belə, bəzi türk dilləri ilə fransız dilləri arasında oxşarlıqlara rast gəlmək olar:

Alınma sözlər: Hər iki dil başqa dillərdən söz götürür. Məsələn, fransız dilindəki "şapka" sözü türkcə "şapka" sözünə bənzəyir.

Struktur oxşarlıqları: Bəzi cümlə strukturları və ya qrammatik qaydalar oxşar ola bilər. Ancaq bu oxşarlıqlar çox vaxt məhduddur.

Mədəni qarşılıqlı əlaqə: Türk xalqları ilə fransızlar arasında tarix boyu mədəni əlaqələr olmuşdur. Bu qarşılıqlı əlaqələr dildə bəzi oxşarlıqlara səbəb ola bilər.

Buna görə də türk dilləri ilə fransız dili arasında ortaqlıqlar çox vaxt təsadüfi olur və ya dildəki alınma sözlərdən qaynaqlanır. Burada həm türk dillərində, həm də fransızca istifadə olunan 174 sözə baxaq:

Su - Eau	Anahtar - Clé	Pazartesi - Lundi
Süt - Lait	Kalem - Crayon	Salı - Mardi
Kahve - Café	Kitap - Livre	Çarşamba - Mercredi
Çay - Thé	Ev - Maison	Perşembe - Jeudi
Şarap - Vin	Araba - Voiture	Cuma - Vendredi
Bira - Bière	Elma - Pomme	Cumartesi - Samedi
Ekmek - Pain	Bilet - Billet	Pazar - Dimanche
Peynir - Fromage	Masa - Table	Bahçe - Jardin
Yağ - Beurre	Sandalye - Chaise	Park - Parc
Şeker - Sucre	Kapı - Porte	Meydan - Place
Tuz - Sel	Telefon - Téléphone	Market - Marché
Baharat - Épice	Bilgisayar - Ordinateur	Restoran - Restaurant
Zeytinyağı - Huile d'olive	Okul - École	Otobüs - Bus
Salça - Sauce	Çanta - Sac	Tren - Train
Makarna - Pâtes	Şemsiye - Parapluie	Uçak - Avion
Pilav - Riz	Yol - Route	Otomobil - Automobile
Sebze çorbası - Soupe de légumes	Gece - Nuit	Bisiklet - Vélo
	Yemek - Repas	Taksi - Taxi
Salata - Salade	Deniz - Mer	Havaalanı - Aéroport
Meyve suyu - Jus de fruit	Gözlük - Lunettes	Otel - Hôtel
Su - Eau	Televizyon - Télévision	Hastane - Hôpital
Bal - Miel	Film - Film	Eczane - Pharmacie
Kahvaltı - Petit déjeuner	Müzik - Musique	Banka - Banque
Öğle yemeği - Déjeuner	Gül - Rose	Postane - Poste
Akşam yemeği - Dîner	Kedi - Chat	Kütüphane - Bibliothèque
Tatlı - Dessert	Köpek - Chien	Sinema - Cinéma
Meyve - Fruit	Ayakkabı - Chaussure	Müze - Musée
Sebze - Légume	Gömlek - Chemise	Kilise - Église
Et - Viande	Pantolon - Pantalon	Cami - Mosquée
Balık - Poisson	Çorap - Chaussette	Sinagog - Synagogue
Tavuk - Poulet	Havlu - Serviette	Üniversite - Université
Süt - Lait	Küçük - Petit	Okul - École
Kahve - Café	Büyük - Grand	Hastane - Hôpital
Çay - Thé	Renk - Couleur	Polis - Police
Şarap - Vin	Kuş - Oiseau	İtfaiye - Pompiers
Ekmek - Pain	Balık - Poisson	Ordu - Armée
Peynir - Fromage	Kırmızı - Rouge	Doktor - Docteur
Yağ - Beurre	Yeşil - Vert	Hemşire - Infirmière
Şeker - Sucre	Sarı - Jaune	Avukat - Avocat
Tuz - Sel	Beyaz - Blanc	Öğrenci - Étudiant
Baharat - Épice	Siyah - Noir	Öğretmen - Enseignant
Zeytinyağı - Huile d'olive	Aşk - Amour	Sanat - Art
Salça - Sauce	Arkadaş - Ami	Tarih - Histoire
Makarna - Pâtes	Merhaba - Bonjour	Dil - Langue
Pilav - Riz	Evet - Oui	Müzik - Musique
Sebze çorbası - Soupe de légumes	Hayır - Non	Resim - Peinture
	Sabah - Matin	Dans - Danse
Salata - Salade	Akşam - Soir	Tiyatro - Théâtre

Meyve suyu - Jus de fruit	Yıl - Année	Sinema - Cinéma
Elma - Pomme	Ay - Lune	Opera - Opéra
Armut - Poire	Gün - Jour	Yemek - Repas
Portakal - Orange	Hafta - Semaine	Kahvaltı - Petit déjeuner
Mandalina - Mandarine	Ay - Mois	Öğle yemeği - Déjeuner
Üzüm - Raisin	Sene - An	Akşam yemeği - Dîner
Çilek - Fraise	Saat - Heure	Tatlı - Dessert
Kiraz - Cerise	Dakika - Minute	Meyve - Fruit
Ayva - Coing	Saniye - Seconde	Sebze - Légume
Kavun - Mel	Tavuk - Poulet	Et - Viande
		Balık - Poisson

Fransız dilində türk mənşəli sözlərin linqvistik xüsusiyyətləri ilə bağlı bir neçə məqam var:

1. Yazım və səslənənlik: Fransız dilində türk mənşəli sözlər genəlliklə yazım və səslənənlik baxımından fransız dilinin qaydalarına uyğunlaşdırılmışdır. Buna görə də türk mənşəli sözlərin fransız dilindəki yazımı və səslənənliyi fransızca dil qaydalarına uyğundur.

2. Morfologiya və qrammatika: Türk mənşəli sözlərin fransız dilindəki morfologiya və qrammatikası fransızca dil qaydalarına uyğun olaraq adaptasiya edilmişdir. Bu, məsələn, sözlərin müsəlman yazı əlifbasında yazılmasını, fransızca fonetik sistemlərinə uyğun söz səslənməsini və dilin sintaksis qaydalarına əlavə olunmasını tələb edir.

3. Sözlərin anlam tərəfdaşlığı: Bir çox türk mənşəli sözlər fransız dilində də anlam tərəfdaşlığı saxlayır. Məsələn, "şapka" (fr. chapeau) kimi, "kitap" (fr. livre), "kürək" (fr. kérosène) kimi sözlər fransız dilində də eyni və ya bənzər mənada istifadə olunur.

4. Mədəni təsir: Türk mənşəli sözlər fransız dilində nəzəriyyəvi və mədəni mənbələrə əsaslanan kəlimələrdir. Bu sözlər adətən tarixi, mədəni, və ya gündəlik həyatda istifadə olunan mətbuat və sənədlərdə yer alır. İstifadəsi, müasir mədəni və iqtisadi münasibətlərə də əks edilir.

Leksik bölgələr: Türk mənşəli sözlər fransız dilində müxtəlif ləqəbi və tətbiqi sahələrdə istifadə olunur. Bunlar məsələn, mədəniyyət, musiqi, kulinar, texnologiya və s. kimi ləqəbi bölgələrdə yer alır. Bu faktlar, fransız dilində türk mənşəli sözlərin linqvistik xüsusiyyətlərinə bir neçə nümunədir və bu sözlərin fransızca dil mühitində necə fəal olunduğunu göstərir [2, s. 79].

Türk dilləri ilə fransızca arasında çoxlu ümumi sözlər var. Türk dilləri ilə fransız dilləri arasında ümumi sözlərin sayı dəqiq müəyyən edilmiş rəqəm deyil. Bu sözlərin sayı dəqiq olmasa da, təqribən 1000-ə yaxın ola bilər. Bununla belə, türk dilləri ilə fransızca arasında bir çox söz oxşarlığı var. Bununla belə, tez-tez istifadə olunan və ümumi bilinən ümumi sözlərin sayı daha azdır. Bu ümumi sözlərin sayını dəqiq müəyyən etmək üçün hər iki dilin lüğətini ətraflı şəkildə müqayisə etmək lazımdır. Xüsusilə tarix boyu mədəni və kommersiya əlaqələrinin olduğu dövrlərdə bu iki dil arasında söz mübadiləsi olduqca geniş yayılmış şəkildə olmuşdur.

Məsələn, türk dilləri ilə fransızca arasında oxşar olan bəzi tez-tez işlənən sözlər bunlardır:

1. Anahtar - Clé
2. Kitap - Livre
3. Ev - Maison
4. Telefon - Téléphone
5. Okul - École
6. Restoran - Restaurant
7. Tren - Train
8. Otobüs - Bus
9. Masa - Table
10. Film - Film

Bu siyahıdakı sözlər həm türk dillərində, həm də fransızca oxşar və ya eyni mənaya malik sözlərdir. Bununla belə, dəqiq rəqəmi müəyyən etmək üçün daha əhatəli bir müqayisə lazımdır.

Dilçi alimlər türk dilləri ilə fransız dili arasında oxşar sözlər barədə müxtəlif fikirlər səsləndirirlər və bu mövzuda fərqli nəzəriyyələr irəli sürülür. İşlərinə və araşdırmalarına əsasən, bəzi

alimlər bu oxşarlığın tarixi, siyasi və mədəni əlaqələrdən irəli gəldiyini qeyd edirlər. Onlar türk və fransız xalqları arasında tarix boyu münasibətlərin olduğunu və bu münasibətlərin dilə də təsir etdiyini qeyd edirlər.

Bununla birlikdə, digər dilçi alimlər bu oxşarlığın təsadüfi olduğunu və dilin evolyusiyası nəticəsində ortaya çıxdığını səsləndirirlər. Onlar türk dilləri ilə fransız dilinin fərqli dil ağaclarına aid olduğunu və bu oxşarlığın sadəcə alınmış sözlərdən irəli gəldiyini iddia edirlər. Ən vacib nöqtələrdən biri, dilçilərin türk dilləri ilə fransız dili arasındakı oxşarlığın səbəblərinin mənşəyində və tarixində hansı fərqli proseslərin olduğunu anlamaq üçün dilin tədqiqatına əsasən mübahisələri davam etməsidir. Bu, dil tarixi və mədəni mənşəyimizi daha yaxından anlamağa kömək edir.

Nəticə olaraq qeyd edək ki, türk dillərinin Altay dil ailəsinə aid olduğu və bu dil ailəsinin Altay dillərinin fonologiyası, qrammatikası və söz ehtiyatında paylaşdığı xüsusiyyətləri vurğulanır. Fransız dilinin mənşəyi isə latın dilinə qayıdır. Əsrlər ərzində fransız dilinin inkişafı və standartlaşması haqqında məlumatlar verilir. Bu iki dil arasında bəzi ümumi xüsusiyyətlər var, lakin mənşələri və tarixləri fərqlidir. Yəni, onların ortaq olmasının səbəbləri təsadüfi və ya qarşılıqlı təsirə görə ortaya çıxır. Bu, iki fərqli dil ailəsinə aid olan dillərin bir-birindən alınmış və oxşar cəhətləri olan sözləri qarşılaşdırmaq olar. Bu tədqiqat, dilçilərə və müqayisəli linqvistik alətlərə əsasən, dilin inkişafı, tarixi və mədəni qarşılıqlı əlaqələri barədə məlumat vermək üçündür. Ümumilikdə bu mövzu iki dilin tarixi və mədəniyyət tarixi ilə bağlı məlumatların müqayisəli təhlili üçün önəmli bir tədqiqat sahəsidir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Elm Mərkəzi Azərbaycan və türk dillərində işlədilən fransız mənşəli sözlər / https://aem.az/index.php?newsid=300 (27.04.2024)
2. Yusifov M. Dillər arası müştərəklik və təfəkkür topologiyası Seçmə fənn üzrə dərslik. Bakı: Elm və təhsil, 2017, 184 s.

ВЗАИМОСВЯЗЬ МОРФОЛОГИИ С ГРАММАТИКОЙ

Наиля Мамедова*

Abstract

The relationship of morphology with grammar

This article is part of the lecture material on the course “Introduction to Linguistics” for students studying English. Taking into account this specificity, the article provides English linguistic terms and examples in English.

Morphology studies how words are created, structured, and changed. In this paper, we will consider the forms and functions of the smallest semantic units of the language, known as morphemes, and the most important morphological processes. According to a very general definition, words can be defined as grammatical units that function according to grammatical rules. Therefore, morphology is also called word grammar. Native speakers' knowledge of the grammatical properties of words exists independently of their knowledge of individual words. This knowledge can be applied to both familiar and unfamiliar words. The minimum number of morphemes in a word is exactly one. As for the maximum number of morphemes, there are no restrictions, at least theoretically.

Keywords: *morphology, morphemes, word classes, bound affixes, unical affixes.*

Введение. Данная статья является частью лекционного материала по курсу «Введение в языкознание» для студентов, изучающих английский язык. Учитывая данную специфику в статье даются английские лингвистические термины и примеры на английском языке.

Морфология изучает, как создаются, структурируются и изменяются слова. Когда Иоганн Вольфганг фон Гете в конце XVIII века ввел в обиход слово «*морфология*» (что означает «изучение формы») для обозначения новой науки, изучающей анатомию животных и растений, он, вероятно, не мог предвидеть, что лингвисты (А. Шлейхер) позже примут его термин для обозначения изучения строения слов. В данной работе мы рассмотрим формы и функции мельчайших смысловых единиц языка, известных как морфемы, и наиболее важные морфологические процессы.

Основная часть. Говорить о морфологии - значит говорить о словах и их “анатомии”. Морфология изучает внутреннюю структуру слов. Но что такое слово? Рассмотрим следующее предложение: *The students borrowed the books from the library?* Сколько слов в этом предложении? И как мы можем решить, что считать словом? Счет более эффективно работает со знаменательными (содержательными) словами, такими как *student, borrow, book* и *library*, чем с функциональными словами, такими как *the* и *from*, которые труднее представить. Кроме того, согласно очень общему определению, слова могут быть определены как грамматические единицы, функционирующие в соответствии с грамматическими правилами.

Поэтому *морфологию* также называют *грамматикой слов*. *Students, books и borrowed* отличаются от *student, book и borrow* тем, что содержат элементы *-s* или *-ed*. Эти элементы не являются словами, но изменяют значение слов «ученик», «книга» и «заимствование», добавляя грамматическую информацию, такую как [+множественное число] или [+прошедшее время], при условии, что они прикреплены в соответствующем месте: такие конструкции, как **stu-s-dent, *s-book* или **ed-borrow*, неприемлемы в английском языке.

Большинство словарей покажут нам, что *student и book* - это существительные, а *borrow* - глагол. Однако, если мы являемся носителями английского языка или владеем им в совершенстве, нам не нужно обращаться к какому-либо словарю, чтобы понять приведенное выше предложение. Мы просто воспользуемся тем, что лингвисты называют нашим *ментальным словарем*, или ментальной лексикой. Как и любой письменный словарь, наш

* ***Бакинского славянского университета, кафедры Общего языкознания, старший преподаватель. Электронная почта: nail636@mail.ru.***

ментальный словарь содержит информацию о значении слов в сочетании с информацией об их грамматических свойствах.

Сколько слов в предложении: *The students borrowed the books from the library?* Большинство носителей английского языка, вероятно, ответили бы шесть, потому что они посчитали бы функциональное слово *the* один раз, хотя оно встречается трижды. Однако другие люди, которым регулярно приходится составлять тексты с максимальным количеством слов в тексте, ответили бы восемь. Первая интерпретация соответствует тому, что лингвисты определяют как типы слов, то есть «конкретные слова», тогда как вторая интерпретация соответствует тому, что лингвисты определяют как словесные лексемы, то есть «вхождения слов». В нашем примере предложения *The students borrowed the books from the library* содержится всего шесть типов слов, а именно различные грамматические формы четырех знаменательных слов *student, borrow, book* и *library* и двух служебных слов *the* и *from,* но восемь лексем, поскольку служебное слово *the* встречается трижды. Слова отличаются от звуковых единиц, таких как фонемы и слоги, тем, что они несут в себе *смысл*. Они также отличаются от предложений тем, что хранятся в нашем ментальном словаре в виде лексических единиц, или *лексем*. Слова, за исключением предложений, обычно не составляются по требованию. Они могут быть грамматически *изменены* для составления грамматически правильных предложений, но их количество останется неизменным.

Носители английского и других языков могут легко создавать новые слова. При этом они следуют правилам, большинству из которых их никогда не учили. Эти правила являются частью языковой компетенции носителей языка. Лингвисты расходятся во мнениях относительно того, хранятся ли правила вместе с отдельными лексемами или отдельно. Поскольку мы знаем эти правила, независимо от того, где именно они хранятся, мы способны понимать устную и письменную речь, даже если в ней есть очевидные ошибки. Например, *danger beach* не является общепринятым выражением в английском языке, за исключением трех выражений: *danger area, danger list* или *danger money*, мы можем интерпретировать словосочетание *danger beach*, потому что знаем и распознаем грамматические правила сочетания слов, даже если они неправильно применяются.

Когда мы слышим знакомое нам слово, мы знаем, является ли оно существительным, глаголом, прилагательным или относится к другим классам слов, и как его можно использовать для построения более крупных конструкций. Мы также знаем, как можно изменить слово, если мы хотим, чтобы оно содержало определенную грамматическую информацию. Например, мы знаем, что обычное множественное число английских существительных образуется путем добавления окончания *-s*. Поэтому мы будем образовывать множественное число от слова *e-mail* - «электронная почта» - соответствующим образом (хотя существительное «*mail*» в основном используется в единственном числе), например, если мы хотим пожаловаться другу на то, что кто-то в данный момент заваливает нас электронными письмами (*flooding us with e-mails*). Мы также знаем, что глагол *e-mail* связан с глаголом *mail*. Из наших знаний о грамматических свойствах глаголов мы заключаем, что глагол *e-mail* также может использоваться в нескольких временных формах, в активных и пассивных конструкциях, а также в простой и прогрессирующей форме. Но работают ли наши знания также с незнакомыми или придуманными словами? Взгляните на следующие знакомые глаголы:

mail nail sail
mailed nailed sailed
mailing nailing sailing

Хотя вы, вероятно, никогда раньше не слышали придуманных глаголов *e-nail* или *e-sail* и имеете лишь смутное представление о том, что они могут означать, вы легко можете создать грамматически правильные формы, такие как *e-nailed и e-nailing, или e-sail и e-sailing*. Очевидно, что знания носителей языка о грамматических свойствах слов существуют независимо от их знания отдельных слов. Эти знания могут быть применимы как к знакомым, так и к незнакомым словам.

Однако наша способность создавать новые слова имеет свои пределы. Это соответствует важному различию между двумя группами классов слов. Первая группа содержит такие классы слов, как существительные (например, *student - студент*), глаголы (например, *borrow - заимствовать*), прилагательные (например, *new - новый*) и наречия (например, *quickly - быстро*). Эти классы слов называются *знаменательными/содержательными словами (content words).* Они также известны как *лексические классы (lexical classes).* Лексические классы обычно открыты, поскольку в них регулярно добавляются новые члены. Вторая группа содержит такие классы слов, как определители (например, *the*), предлоги (например, *from*), кванторы (например, *every*) и союзы (например, *and*). Эти классы слов называются *функциональными словами (function words).* Они также известны как *грамматические классы* (grammatical classes).

Классы слов (word classes)

ОТКРЫТЫЕ(OPEN)	**ЗАКРЫТЫЕ (CLOSED)**
Знаменательные слова	**служебные слова**
лексические классы	**грамматические классы**
student, borrow, new, quickly	*the, every, from , and*

Чтобы лучше понять, как образуются и видоизменяются слова, нам нужно поближе познакомиться с их *внутренней структурой*. Слова состоят не только из звуков, но и из мельчайших смысловых единиц. Лингвистическим термином, обозначающим любую наименьшую смысловую единицу языка, является ***морфема***.

Морфемы могут содержать не только *лексическую, но и грамматическую информацию*. Возьмем английское слово, состоящее из одной морфемы, например существительное *book*. Если мы хотим сказать, что конкретная книга является очень маленькой, мы можем превратить ее в мини-книгу (*minibook*), добавив «мини» в начале книги. Если мы хотим сказать о нескольких книгах или мини-книгах, мы можем добавить в конце этих существительных знак множественного числа -s. *Book, mini- и -s* (Книга, мини- и -s -) это *отдельные морфемы*. Морфема *mini-* используется для создания нового слова из существующего путем добавления лексической информации, в то время как морфема -s используется для добавления грамматической информации [+множественное число].

Сколько морфем может быть в слове? Минимальное количество морфем в слове - ровно одна, как в слове *book*. Что касается максимального количества морфем, то ограничений нет, по крайней мере теоретически. Например, современный немецкий - это язык, в котором в одном слове часто сочетается сравнительно большое количество морфем. Это часто высмеивалось носителями других языков, например, американским писателем Марком Твеном (1835-1910). В своем произведении “The Awful German Language” (“В ужасном немецком языке”) Твен делает все возможное, чтобы высмеять “тяжеловесную и мрачную немецкую систему нагромождения разнородных материалов”. “Ужасный немецкий язык” содержит многочисленные примеры из коллекции Твена немецких сложных существительных, таких как *Freundschajtsbezeigungen* («заявления о дружбе»), *Unabhangigkeitserklarungen* («декларации независимости») и *Generalstaatsverordnetenversammlungen* (сатирический перевод Твена: «Встречи представителей генеральных штатов’). Если бы Твен дожил до конца XX-го века, он, возможно, был бы в восторге от *Rindfleischetikettierungsuberwachungsaufgabenubertragungsgesetz* - изысканной кухни, предназначенной для приготовления блюд из овощей и фруктов. Это немецкое сложное существительное было введено властями земли Мекленбург-Передняя Померания в качестве названия для нового закона о проверке говядины и вошло в шорт-лист “Слова года” Немецкого языкового общества в 1999 году.

Но есть известные длинные слова и в английском тоже. Один из часто цитируемых примеров *antidisestablishmentarianism* - антидистабилизм. Особенно в английском языке СМИ, где даже целые фразы превращаются в слова с помощью творческого использования дефисов, как в *exmadam-now-action-movie-transsexual* - «эксмадам-теперь-боевик-транссексуал», одном из

многих журналистских неологизмов в онлайн-базе данных Отдела исследований и разработок по изучению английского языка (RDUES) Ливерпульского университета [1, с. 81].

Как мы видели выше, некоторые морфемы идентичны словам, таким как *mail*. Они могут сочетаться с другими морфемами или стоять отдельно. Поэтому эти морфемы называются *свободными морфемами (free morphemes)*. Другие морфемы, такие как окончания множественного числа или морфема *un-* /не- в таких словах, как *unkind*/ «недобрый», появляются только в сочетании со свободными морфемами и никогда сами по себе. Поэтому они называются *связанными морфемами* (*bound morphemes*). Все связанные морфемы являются *аффиксами*, то есть морфемами, которые присоединяются к другим морфемам. Аффиксы играют важную роль в различных *морфологических процессах*. С одной стороны, мы используем аффиксы для выражения грамматической информации, такой как [+множественное число], как в book ~ books. С другой стороны, мы используем аффиксы для создания новых слов. Например, существительное *reader* образовано от глагола *read* путем добавления аффикса *-er*. Взаимосвязь между морфемами в слове может быть представлена в виде древовидной диаграммы. N означает существительное, V означает глагол, а Af обозначает аффикс:

Как указывалось выше, существуют различные типы аффиксов с различными функциями. *Лексические или словообразовательные аффиксы* используются в *процессах словообразования*, т.е. для создания новых слов, тогда как *грамматические или словоизменительные аффиксы* используются во *флективных процессах, т.е. процессах, которые добавляют грамматическую информацию*. В современном английском языке классы аффиксов, как правило, закрыты. Конечно, никто не знает, как в английском языке будет формироваться множественное число или прошедшее время через 500 лет, или какие новые словообразовательные аффиксы будут продуктивными, т.е. способны образовывать новые слова в процессе словообразования, но в целом языки с большей вероятностью создают новые знаменательные слова, чем новые функциональные слова или новые аффиксы.

Некоторые связанные морфемы встречаются только в определенных словах. Например, *cran-* (клюква) и *huckle-* (черноплодная рябина) встречаются только в *cranberry* (клюкве) и *huckleberry* (черноплодной рябине). Такие морфемы называются *уникальными морфемами*. Можно задаться вопросом, почему названия ягод привлекают уникальные морфемы, ведь это происходит и в других языках, кроме английского. Например, немецкие существительные *Himbeere* («малина») и *Brombeere* («ежевика») содержат уникальные морфемы *Him-* и *Brom-*. В современном немецком языке есть поверхностное сходство с *Brom*, немецким выражением, обозначающим химический элемент *бром*, но это существительное не имеет ничего общего с *Brombere* и произносится по-другому. Многие уникальные морфемы диахронически развились из свободных морфем, которые мы сегодня больше не узнаем.

BOUND affixes
lexical or
derivational affixes
un-, mini-,
-ion, -ment
grammatical or
inflectional affixes
-s, -ing-, -est

Большинство лингвистов называют любую форму, к которой присоединяется аффикс, *основой*. Если из слова удалить все аффиксы, как словообразовательные, так и словоизменительные, то оставшаяся часть называется *корнем*. *Корни* - это всегда отдельные морфемы, которые не поддаются дальнейшему морфологическому анализу. В этой общепринятой терминологии слово «*speakers*» подразделяется на словоизменительный суффикс

-s и базовый «*speaker*», который сам по себе состоит из словообразовательного суффикса *-er* и корня «*speak*». Корень «*speak*» не поддается дальнейшему морфологическому анализу.

Часто основы, которые остаются после удаления только флективных аффиксов (например, маркеров множественного числа, таких как -s, или маркеров времени, таких как -ed), также называются основами. Таким образом, «Speaker» будет основой для «Speakers».

Как указывалось выше, аффиксы могут либо нести грамматическую информацию, либо способствовать образованию новых слов. Существуют различные виды аффиксов, в зависимости от того, где они присоединяются к основе. *Префиксы* (Prefixes) - это аффиксы, которые присоединяются к началу основы, такие как *anti-* в существительном *antihero* (антигерой), *dis-* в глаголе *disarm* (*разоружать*) или *un-* в прилагательном *unfair* (*несправедливый*). *Суффиксы* (*Suffixes*) присоединяются к окончанию основы, например, *-ness* (*sad-ness*), *-ing* (*weeping*-ing) или *-est* (*deep-est*). Большинство аффиксов английского языка - это *префиксы и суффиксы*.

Инфиксы (*Infixes*) вставляются в основу. Одним из немногих известных случаев употребления инфиксации в английском языке является фраза Элизы Дулиттл *absobloominglutely* (абсолютно+цветущий, вставленный посередине) в ее знаменитой песне “Wouldn't it be loverly” в мюзикле «Моя прекрасная леди», основанном на пьесе Бернарда Шоу «Пигмалион» [1, с. 84]. В английском языке для инфиксации используются чаще бранные слова. В отличие от “настоящих” аффиксов, эти *инфиксы являются не связанными морфемами, а свободными морфемами или сочетаниями морфе*м.

Циркумфиксы (*Circumfixes*) присоединяются как к началу, так и к концу основы. Следовательно, некоторые лингвисты предпочитают интерпретировать циркумфиксы как комбинацию префикса и суффикса. Типичным примером является немецкое причастие прошедшего времени. Многие немецкие глаголы образуют глагольную форму, присоединяя как префикс *ge-*, так и суффикс *-(e)t* или *-(e)n* к корню глагола, например, *sagen* («говорить») ~ *gesagt (ge-sag-1*) («сказал»), *fragen* (‘спрашивать») ~ *gefragt (ge-frag-t)* («спрашивать’) и *geben* ~ *gegeben (ge-geben)* (‘дано’).

В английском языке нет сокращений. Однако этот тип аффикса может возникать при заимствовании английских слов в другой язык. Например, немецкоговорящие пользователи компьютеров и Интернета настолько привыкли к английским глаголам, таким как *download*/»загрузить» и *upgrade*/»обновить», что воспринимают их как немецкие глаголы. В результате получаются смешанные формы, такие как *gedownloadet* (*ge-download-et*) («загруженный’) и *upgegradet (up-ge-grade-t*) (‘обновленный’). Эти процессы также могут интерпретироваться как комбинации префиксов
и суффиксов (ge-download-et) или даже в виде комбинаций инфиксации и суффиксации (*up-ge-grade-t*).

Заключение и научная новизна. Данная статья является частью лекционного материала по курсу «Введение в лингвистику» для студентов, изучающих английский язык. Учитывая эту специфику, в статье приводятся английские лингвистические термины и примеры на английском языке. Морфология изучает, как создаются, структурируются и изменяются слова. В статье были рассмотрены формы и функции морфем, а также некотоорые морфологические процессы. Аффиксы играют важную роль в различных морфологических процессах.

Использованная литература

1. Becker A., Beiswanger M. Introduction to English Linguistics. A. Francke Verlag Tübingen und Basel, 2006, 232 p.

YENİSEY ABİDƏLƏRİNDƏ HƏRƏKƏT BİLDİRƏN SÖZLƏRİN TÜRK VƏ AZƏRBAYCAN DİLLƏRİNİN ŞİVƏLƏRİNDƏ İZLƏRİ

Könül Eyvazova*

Abstract

The traces of the words denoting movement in the Yenisei monuments in the Turkish and Azerbaijani dialects

The Turkish and Azerbaijani dialects have many lexemes, including words denoting action, traces of which can be found in the deep layers of the language. From this point of view, although some of the verbs with action content, distinguished by their activity in the language of the ancient Turkish written monuments, especially the Yenisei monuments, after a certain stage of development passed to the archaic level in the vocabulary of Turkish, a group of them are currently used in various forms in modern Turkic languages and their dialects or have traces of the old ones. preserves. From this point of view, in the article, some of the lexemes denoting movement content in the Yenisei inscriptions are compared with the dialects of the modern Turkish and Azerbaijani languages.

The research conducted on the lexicon of the Yenisei monuments suggests that there are many lexical units included in the inscription, which serve to communicate at both the literary and dialect levels of modern Turkic languages. Thus, the observations made on the dialects of the Turkish and Azerbaijani languages form the conclusion that the words found in the Yenisei monuments in both Turkish dialects, which are similar in form and content, as well as denoting an areal action, are used in the living vernacular today. In this regard, the article provides information on the extent to which the words denoting action in the Yenisei inscriptions were used in other Turkic written monuments of the later periods and their variants in the dialects of both Turkic languages.

Keywords: *Yenisei monuments, Turkish language, Azerbaijani language, dialects, words denoting action, historical-comparative analysis.*

Giriş. Türk dillərinin fonetik, leksik və qrammatik quruluşu ən qədim dövrlərdən başlayaraq uzun tarixi inkişaf yolu keçmişdir. Bu inkişaf mərhələlərində türkcənin lüğət tərkibi cilalanmış, zənginləşmiş və öz normativ quruluşunu təkmilləşmişdir. Ad və əlamət ifadə edən leksik vahidlərlə yanaşı, türkcələrin lüğət tərkibinin mühüm bir hissəsini hərəkət bildirən sözlər təşkil edir. Türk dillərində, o cümlədə türk və Azərbaycan dillərinin şivələrində çox sayda leksemlər, o cümlədən hərəkət bildirən sözlər var ki, onların izlərinə dilin dərin qatlarında rast gəlmək mümkündür. Bu baxımdan qədim türk yazılı abidələri, xüsusilə də Yenisey abidələrinin dilində aktivliyi ilə seçilən hərəkət məzmunlu sözlərin – feillərin bir hissəsi müəyyən inkişaf mərhələsindən sonra türkcələrin söz varlığında arkaik plana keçsə də, bir qrupu hazırda müasir türk dilləri və onları dialektlərində müxtəlif şəkillərdə işlənir və ya əski izlərini qoruyub saxlayır.

Türk dillərində hərəkət bildirən sözlərin leksik-semantik baxımdan təsnifinə XX əsrin 50-ci illərindən başlanılmışdır ki, bu sahədə daha çox rus alimlərinin xidmətləri olmuşdur. 1947-ci ildə N.Veşşilova "Türk dilində hərəkət feilləri" adlı namizədlik dissertasiyasında hərəkət məzmunlu sözləri araşdırdığı kimi, N.K.Dmitriyev, Ə.R.Tenişev, A.A.Yuldaşev və b. alimlər də feilləri leksik-semantik aspektdən müxtəlif qruplara ayırmışlar. Bu sahədə ilk təşəbbüslərdən biri kimi N.K.Dmitriyev, V.M.Çistyakov və N.Z.Bakeyevanın tatar və rus dillərində feillərin semantikasının müqayisəli şəkildə öyrənilməsinə həsr edilmiş irihəcmli məqaləsində feillər dörd semantik qrupda təsnif edilmişdir: 1) hərəkət feilləri; 2) iş feilləri; 3) nitq feilləri; 4) təfəkkür feilləri [1, s. 49]. Həmçinin N.Z.Hacıyeva və A.A.Koklyanova "Türk dillərində nitq feilləri", A.A.Yuldaşev "Hissi qavrayış feilləri", Ə.R.Tenişev isə "Türk dillərində hərəkət feilləri" adlı əsərlərində hərəkət bildirən sözləri araşdırmış, hətta sonuncu müəllif bu qrup leksemləri iki qrupa ayırmışdır: a) ümumi mənalı hərəkət; b) xüsusi mənalı hərəkət.

Azərbaycan dilçiliyində isə hərəkət bildirən sözləri S.Rzayev, H.Quliyev, R.Xəlilov,

* ***Bakı Dövlət Universiteti, Türkologiya kafedrasının doktorantı. Elek.poçt: kenul.khalil93@mail.ru. Elmi rəhbər:*** *Prof. Məhərrəm Məmmədov.*

Z.İ.Budaqova, K.Musayev, Ə.Rəcəbli və b. tədqiq etmişlər. Z.İ.Budaqova hərəkət ifadə edən leksik vahidləri beş, K.Quliyev "Türk dillərində feilin semantikası" adlı monoqrafiyasında altı, Ə.Rəcəbli isə göytürk abidələri əsasında yeddi məna qrupuna bölmüşdür [20, s. 4, 5, 7, 9].

1. Yeni abidələrində iş-hərəkət məzmunlu feillərin müasir şivələrdə izləri

Yenisey abidələrində iş-hərəkət bildirən sözlər olduqca zəngindir. Bu leksemlər müasir türk dillərinin lüğət tərkibinin formalaşmasında mühüm rol oynamışdır. Abidənin dilində işlənən iş-hərəkət məzmunlu leksemlərin bir qismi müasir Azərbaycan dilində arxaikləşmiş, bir qismi isə fonetik və ya semantik dəyişikliyə uğramışdır. Məsələn: ***Barmaq*** - getmək, ***ağmaq*** - çıxmaq, yüksəlmək, ***ulğatmaq*** - yüksəlmək, ***karğanmak*** - ucalmaq, yüksəlmək (and içmək), ***banmaq*** – bağlamaq, ***azımaq*** - azmaq, yanılmaq, ***yarlıkamaq*** - buyurmaq, fərman vermək, ***əgirmək*** - qurban etmək, əyib yıxmaq, çevirmək, ***arıtmaq*** – axtarmaq, ***yoqlamaq*** - yüksəlmək, yüksəltmək, ***iltmək*** - aparmaq, keçmək, daşımaq, ***təgzinmək*** - gəzmək, dolaşmaq, səyahət etmək, ***udiş*** - təqib etmək, izləmək, ***eriglig*** – saxlamaq, eşinmək - sürüb getmək, minmək, ***yağılamaq*** - vuruşmaq, hücüm etmək, ***çəlig*** – dolaşmaq, ***tartışmaq*** - dartışmaq, çəkişmək, ***eşükə*** - sarımaq, dolamaq, bükmək, ***tapmaq*** - xidmət etmək və s.

Qeyd olunan bu leksemlərin bir hissəsinə müəyyən fonetik dəyişiklərlə müasir türk və Azərbaycan dillərinin şivələrində rast gəlmək mümkündür: ***adırmaq//adırılmaq*** - ayırmaq, ayrılmaq, ***tabmaq*** - tapmaq, əldə etmək, qazanmaq, ***alın*** – aldırmaq, ***azımaq*** - azmaq, yanılmaq, xəyanət etmək, ***kaçmaq*** - qaçmaq, uzaqlaşmaq, ***qılmaq*** - qılmaq, etmək, eləmək, ***kirmək*** - girmək, ***kəlürmək*** - gətirmək, ***tüşür***//tüsür - düşürmək, endirmək, ***yağımaq*** - düşmən olmaq, ***utmaq*** - udmaq, qalib gəlmək, ***kitmək*** -getmək, ***tikə bermək*** - tikmək, inşa etmək, ***təgmək*** - hücüm etmək, çatmaq, yetişmək, ***yaramaq*** - yaratmaq, düzəltmək, təşkil etmək, ***binmək*** - minmək, ***ekintmək*** - diz çökdürmək, ***tərmək*** - dərmək, toplamaq, ***kazğanmaq*** – qazanmaq, ***itmək*** - itələmək və s.

Barmaq - *getmək, yola düşmək*. Azərbaycan yazılı abidələrinin dilində daha çox *varmaq* fonetik variantında olan bu söz Yenisey abidələrində *barmaq* fonoformasında işlənmişdir. Məs.: *Səkkiz adaklığ barımığ üçün yılkı tükəti bardım, anta bökmədim, yıta, örünümig, karamığ azıdım.* "Səkkiz ayaqlı dövlətim üçün ilxı tükənənə qədər getdim, orada doymadım, əfsus, işığı, qaranlığı görmürəm" (Berqe abidəsi); *Urunu külig Tok Bögüt ərkinə kanım bəg erdəm üçün bən ərki bardım.* "Bayrağı məşhur Tök Bögü tərkinə atası bəy cəsur olduğu üçün mən ər" (Elegeş abidəsi)…

"Divanü lüğat-it-türk" əsərində də bu söz *barmaq* fonoformasındadır: O əwgə *bardı.* "O, evə vardı" [9, c. 2, s. 36]. M.Kaşğari *barmak* sözü haqqında qeyd edir ki, "Türk feillərinin quruluşu ərəb feillərinin quruluşuna bənzəyir. Belə ki, keçmiş zamanda *"bardı getdi"*, müzare şəkli isə "*barır gedər*" formasındadır. Məsdər şəklində həmin söz *barmak* "getmək" olur" [9, c. 2, s. 61]. Leksem "Kitabi-Dədə Qorqud" abidəsində *varmaq* fonetik variantında işlənir: *Məsləhət gördilər ki, Dədə Qorqud varsun* [14, s. 24].

Azərbaycan dilinin yazılı abidələrində *barmaq* sözü b>v hadisəsinə məruz qalaraq *varmaq* şəklində işlək olmuşdur: *Bu yola varmaq olmaz rəhnümasız* [5, s. 88]; *Heç kimsə onun yanına varmaz* [8, s. 237]; *Bizə qayğu cəri çəkdi, varalım cəng edərim. Can əgər getdisə, sən sağ ol, mana candan nə ğəm* [10, s. 51]; *Xəlqi dərüb qarşu vardı (*Qul Əli*). Varmaq həvəsini tərk qıldım, qurtulmağa şimdi razı buldum.* [8, s. 365]; *Varubanı ol arayə qondılar*. (Suli Fəqih); *Dərilüb bir yerdə ol şaghə varun*. (Mustafa Zərir); *Var ol üzü gül nigarə məndən, Zar ağla və söylə yarə məndən* [12, s. 96].

Sözügedən leksem müasir türk dilinin şivələrində də müşahidə olunur. Belə ki, türk ədəbi dilində *varmak* şəklində işlənən söz "barmaq" fonoformasında Konyanın Qaraçay, Başhöyük şivələrinin lüğət tərkibində yer alır. Söz Bolu şivəsində "nişan və paltarkəsdi mərasimlərində bişirilən çörək növü", İsparta şivəsində "əylənmək", İçəl şivəsində "toxunan kilimlərdə və xalçalarda istifadə olunan motiv" anlamında, ***bârmak*** şəklində (mənası: "bağırmaq") Qaziantep şivəsində ünsiyyətə xidmət etməkdədir (4).

Barmaq sözü Azərbaycan dilinin Qazax, Tovuz, Göygöl, Şəmkir, Borçalı şivələrində *varıf getmək* şəklində işlənir: *Döyrüş də varıf gedər* [14, s. 208].

Ağmaq - çıxmaq, yüksəlmək, qalxmaq. Yenisey abidələrinin dilində bir dəfə qeydə alınıb: *Ağışğa tonım.* "Dağa qalxmaq üçün donum" (Kemçik Çırğak abidəsi).

M.Kaşğarinin lüğətində də eyni fonetik tərkibdə işlənmişdir: *Ağdı kızıl bayraq.* "Qırmızı

bayraq qalxdı". *Ağdı bulıt kökrəyü.* "Gurultlu bulud qalxdı". "Kitabi-Dədə Qorqud" abidəsində də *ağmak* sözünə rast gəlinir*: Şahin pərvaza ağdı. Gögdən ildırım ağ - ban evimə şaqır gördüm* [11, s. 47]. Leksem sonrakı dövr yazılı abidələrimizdə də yer almış və müəyyən dövrlərdə işlək olmuşdur: *Kürsiyi - rəhmana ağdun gögdə ərşallahi gör* [18, s. 36]. *Şah buyurdu qamu dışra çıqdılar Ol çərinün çadırına ağdılar* (Yusif Məddah). *Ol məzlumun minacatı gögə qalxdı* [10, s. 141].

A.Məmmədovanın fikrincə, *ağmaq* sözünün ilk mənası "dağı aşmaq", "dağı qalxıb, onu aşıb keçmək" olmuş, sonralar mənasını müəyyən qədər dəyişmişdir [14, s. 141]. Dilimizdə işlənən *ağ eləmək* birləşməsində, həmçinin "əzizləmək, hörmət etmək" mənasında işlənən *ağırlamaq* sözünün kökündə "yüksək" mənası qorunmuşdur [15, s. 28].

Ağa lekmsemi də *ağmaq* (böyümək, qalxmaq, çıxmaq) sözünün köküdəki "ağ" fonoformasıdır. *Ağmaq* sözünün üzərinə türk dillərinin qədim ***-a*** şəkilçisi artırılmışdır. A.Axundovun fikrincə, sözün mənşəyi "özünü böyük aparmaq", "sözə baxmamaq" mənalarında işlənən *ağ olmaq* ifadəsi ilə əlaqədardır. *Ağ* sözü dilçiliyimizdə ərəb dilindəki "qulaq asmayan", "itaət etməyən", "inadcıl" sözü ilə əlaqələndirilir [16, s. 32].

Ədəbi dilimiz üçün *ağ* sözünün "yüksək" mənası arxaikləşmiş, sadəcə Füzuli şivəsində "çıxmaq, qalxmaq" (Qoyun dağa qalxdı) və "bir tərəfə əyilmək, qalxmaq" (yük haqqında) mənasında işlənir: *Qoymağınan yük ağmağ olsun* [6, s. 263; 2, s. 15]. Maraqlıdır ki, bu məzmun türk dili şivələrində öz izini büruzə verir. Belə ki, türk dilinin dialektlərində *ağmak* formasında rast gəlinən bu leksem Afyon, Qarahisar, Dənizli, Kütahya şivələrində "aşağı enmək, yük və tərəzidə tarazlığın pozularaq bir tərəfinin ağır gəlməsi", Dənizli, Biləcik, Əskişəhər, Kastamonu, Samsun şivələrində "aşmaq" (tepeyi aşmak), Əskişəhər şivəsində "yıldız kayması", Manisa, Maraş, Niğde şivələrində "toplaşmaq, yığımaq" (Yemeğe karıncalar ağmış), Kütahya şivəsində "günəşin batması" mənalarında işlənməkdədir (4).

Tərmək/tərilmək - Yenisey abidələrində *toplamaq, yığışmaq* mənalarında işlənmişdir: *Şoğur bitidim bin səkiz adaklığ barımın bağ eşimə tərdi bökmədim. Şoğur yazdım.* Min səkkiz ayaqlı dövlətimi (mal-qaramı), müttəfiq dostlarımı topladı, doymadım (Bay Bulun abidəsi).

"Divanü lüğat-it-türk" əsərində bu söz *tər//ter* variantlarında "dərmək, toplamaq, yığmaq" mənalarında işlənmişdir: Ol yarmak *tərdi.* "O, pul topladı". Ol tavar *terdi.* "O, mal yığdı" [9, c. 3, s. 178]. "Kitabi-Dədə Qorqud" abidəsində *tərmək* sözünün *dərmək* fonetik variantı qeydə alınmışdır: *Toksan tümən gənc oğuz söhbətinə dərilmişdi. Gördi kim, bir dərənin içində toz gah dərilür, gah tağılur* [14, s. 263]. Azərbaycan dilinin yazılı abidələrində də *tərmək* sözü daha çox *dərmək* fonoformasında işlənmişdir: Ögümiz, usımız, *dərəməyivüz* (Dəh). *Dərilib* bir arayə danışdılar. Qatına oğlanlərini *dərmişdi* (Suli Fəqih).

Şəmkir rayon şivələrində *dərilmək* sözü "yığılmaq" mənası ifadə edir: Ay camaat, bu adam burya hardan *dərildi* [2, s. 263]. Leksem həmin məzmunda *dermek* şəklində türk dilinin İstanbul, Kayseri, Muğla şivələrində "əkin-biçini toplamaq", Kırşehir şivəsində "toplamaq, nizamlamaq", Uşak şivələrində isə yalnız "toplamaq" mənalarında işlənməkədir (4). Türk ədəbi dilində bu leksem əsasında yaranmış "seçmək, sistemli şəkildə toplamaq, bir araya gətirmək" mənasında *derlemek* feili işlənir. Bu söz müasir Azərbaycan dilində "nəfəsini dərmək" və "meyvə dərmək" ifadələrində qalmışdır.

Kılmaq - qılmaq, etmək, eləmək. Yenisey abidələrinin dilində bu söz bir dəfə işlənmiş və köməkçi söz funksiyası daşımışdır: *Külüg tutuk içim kişi kıldı.* Böyük qardaşım Külüg (məşhur) tutuk (məni) adam etdi (II Barlıq abidəsi).

"Kitabi-Dədə Qorqud" abidəsində *kılmaq* sözü *qılmaq* fonoformasında işlənir: *Dilədi ki, oğlanı həlak* ***qılaydı.*** "Divanü lüğat-it-türk" əsərində də eyni fonetik tərkibdə müşahidə olunur: "Öç, kək kamuğ kişininq, Yalnquk üzə alım bil, Edhgülüküg uğança Əliginq bilə təlim kıl". - Bil ki, qisas başqasından alınacaq bir borc kimidir, Gücün yetən qədər qonağa, qəribə yaxşılıq elə [9, c. 1, s. 117]. *Kılmak* sözü Yenisey abidələrində məhdud işlənməsinə baxmayaraq, sonrakı dövr Azərbaycan yazılı abidələrində geniş şəkildə yer almışdır: *Bəzmi - vəslindən məniməhrum qıldı ruzigar* [10, s. 37]. *Səni görməgilə tədbir bolsa, gözüm çıqsun əgər təqsir qılsam* [10, s. 52]. *Məndən yeri var qılma çox toz* [8, s. 254]. *Gördüm ki, gəlür, rəvan yügürdüm baxdım yüzünə qılıb təbəssüm* [8, s. 283]. M.Füzulinin dilində, o cümlədən "Leyli və Məcnun" poemasında *qılmaq* sözünə çox təsadüf edilir. Bu dövrdə

qılmaq feili həm müstəqil, həm də köməkçi söz kimi işlənmişdir [15, s. 28].
Müasir Azərbaycan ədəbi dilində *çarə qılmaq, namaz qılmaq, səcdə qılmaq* kimi ifadələrdə işlənən leksem "kılmak" formasında türk ədəbi dilində (*etmək* mənasında) və onun Diyarbakır, Trakya, Uşak şivələrində aktiv müşahidə olunur (4).

İltmək - aparmaq, keçmək, daşımaq. Bu söz Yenisey abidələrində "keçmək" mənasında işlənmişdir: *On ay iltdi ögim, a kəlürti, ilimkə ərdəm üçün məni yerlədi.* On ay keçdi, anam məni dünyaya gətirdi. *Elimə igidlik üçün mən yerləşdim* (I Altın - Köl abidəsi).

M.Kaşğarinin "Divan"ında və "Kitabi-Dədə Qorqud" abidəsində bu söz *ilət* fonetik variantında, "götürmək", "çatdırmaq" mənaları ifadə etmişdir: *Qara qaurma bişürüb qırq bəg qızına ilətün* [11, s. 46]; - *Vardular kömləgi Banuçiçəyə ilətdilər* [8, s. 58]. Leksemin qədim türk lüğətində, o cümlədən digər türkdilli mənbələrdə *illet* şəklində işləndiyi göstərilir. Azərbaycan yazılı abidələrinin dilində də bu sözə *ilt, ilit, ilət* fonetik variantlarında rast gəlinir. Məs.: *Niyə gəldin, nə götürdün cəhanə; Nə iltərsən axirət cavidanə?* [8, s. 370]. *Sürə-sürə ilitirlər siratə; Neçələr sürüləsidir mədəd hey* [8, s. 383].

Fikrimizcə, Azərbaycan dilinin şivələrində "çatmaq, yetişmək" mənasında işlənən *ilişmək, irişməx* (Culfa, Ordubad, Şahbuz) sözlərinin kökü elə bu morfemlə əlaqəlidir (3, s. 168). Təxminən həmin məzmunda leksem "iletmek" şəklində Kayseri şivələrində "götürmək", Ərzurum şivələrində isə "gətirmək" mənalarında işlənir (4).

2. Hal-vəziyyət və təfəkkür bildirən sözlərin müasir şivələrdə izləri

Yenisey abidələrindəki hal-vəziyyət bildirən leksik vahidlər öz funksionallığı ilə seçilir. Bu sözlərin bir qismi arxaikləşmiş, bir qismi isə müəyyən fonetik dəyişikliklərlə müasir türk və Azərbaycan dillərində ədəbi dil və dialektlər səviyyəsində öz izini qoruyub saxlayır. Yenisey abidələrinin lüğət tərkibində təfəkkür bildirən feillərin də özünəməxsus yeri vardır. İş-hərəkət məzmunlu leksemlərlə müqayisədə sayca azlıq təşkil edən bu feillərin bir qismi müasir türkcədə arxaikləşmişdir: ***bitimək*** – yazmaq, ***esinmək*** - öyrənmək, ***bütmək*** - inanmaq, bitmək, ***tapmaq*** - sitayiş etmək, ***ögürmək*** - tərifləmək, düşündürmək və s.

Bökmək - doymaq. Bu hal-vəziyyət bildirən söz Yenisey abidələrinin dilində geniş şəkildə işlənir. Məs.: *Urı kadaşımka, üç künim, kız kadaşım, üç yançı, kalın kadaşımka bökmedim.* "Nəsil artıran yoldaşım, üç ardıcılım, qız yoldaşım, üç hərbi rəis çoxlu dostlarımdan doymadım" (Xerbis - Baarı abidəsi); *Kanım tülberi, kara bodun, külüg kadaşım, sizimə, el eşim ər, üküş ər, oğlan ər, küdəgülərim, kız- gəlinlərim, bökmədim.* "Xanımım...qara camaatdan, məşhur dostumdan, sizdən, el dostum ərdən, çoxlu igidlərdən, oğlan igiddən, kürəkənlərimdən, qız - gəlinlərimdən doymadım" (Uyuk Turan abidəsi); *Teqrikə künkə, yerdəki elimkə bökmədim. "*Göydəki gündən, yerdəki elimdən doymadım" (III Barlık abidəsi).

"Divanü lüğat-it-türk" əsərində həm *bök,* həm də *bük* fonetik variantında iki mənada işlənmişdir: 1. əyilərək yerə qapanmaq, gizlənmək; 2. bezmək, bıqmaq, gözü doymaq. Məs.: Ol tawarka *bükdi. O,* sərvət əlindən bezdi [9, c. 2, s. 46].

Sonrakı dövr yazılı abidələrində rast gəlinməyən *bökmək* sözü müasir dildə arxaikləşmişdir. Leksem "bökmek" şeklinde Qaziantep, Kırşehir şivələrində "dolmaq, daşmaq", həmçinin Qaziantepin Kilis şivəsində "çox qazanmaq", Ordu şivələrində isə "bükmək" mənalarında işlənir (4).

Katığlanmaq - möhkəmlənmək. Bu söz Yenisey abidələrində bir o qədər də işlək olmamışdır: *Kara bodunım, katığlanın.el törüsü ıdmış, yəta, sizə, elim, kanım. "*Qara xalqım, möhkəmlənin. El qanununu dağıtmış, əfsus, siz elim" (Elegeş abidəsi).

M.Kaşğarinin "Divan"ında *katığlanmaq* sözü semantik dəyişikliyə uğrayaraq "çabalamaq", "əlləşmək", "uğraşmaq" mənalarında işlənir: *Ər katığlandı. Adam əlləşdi, çabaladı*. Hətta leksem atalar sözünün tərkibində də yer almışdır: *Kiçikdə katığlansa, ulğadhu səwnür*. Kiçikkən çabalasa, əlləşsə, böyüyəndə sevinər [9, c. 2, s. 265]. *Katığlanmaq* sözü abidələrin dilində daha çox *katıq* formasında əlamət və keyfiyyət bildirən söz kimi "möhkəm", qatı", "bərk" mənalarında işlənir. Leksem "Kitabi-Dədə Qorqud" abiəsində də "qüvvətli, bərk" mənalarında *qatı* formasında işlənmişdir: *Qatı* möhkəm yay çəkərdi [11, s. 85].

Sonrakı dövr yazılı abidələrimizdə bu sözə katığ//qatığ//qatı fonetik variantlarında rast gəlinir;

Anın bağru *qatıdur,* çünki səngi - xarədən [19, s. 392]; Başımda *qatı* yar etdi sevda [8, s. 81].
Katıqlanmaq sözü müasir ədəbi dilimizdə arxaikləşmişdir. Leksemin kökü *qatığ* sözü isə *ğ* səs düşümü nəticəsində *qatı* formasında işlənir. Türk ədəbi dilində *katıklamak* şəklində "qatıq etmək", "çorbayı yoğurtlamak" anlamında yer alan bu leksem Trabzon şivəsində "az yemək", Sivas şivəsində "abartmak" (şişirtmək), Rizə şivəsində "dayanmaq, səbr etmək", Çorum şivəsində isə "həmcinsləri ilə münasibətdə olmaq" mənasında işlənir (4).

Iğlamaq - ağlamaq. Müasir Azərbaycan ədəbi dilində *ağlamaq* fonetik variantında işlənən bu söz Yenisey abidələrində *ığlamaq* fonoformasında qeydə alınmışdır: *Altun sona, yaş keyiki arıt, ığlat, uğlat udaçına barsım adıralu bardı, yıta.* Qızıl sona, cavan (körpə) keyikləri axtar, ağlat, hönkürt. Bacardığı üçün barsım ayrılaraq getdi (öldü), əfsus (I Altın - Köl abidəsi).
Qədim türk lüğətində *yığlamaq* şəklində işləndiyi göstərilmişdir [48, s. 266]. Seyfi Sarayinin "Gülüstan" əsərində də bu söz "yığla- < yığ+la- "ağlamak" şəklində işlənmişdir: *Ol səni urmak tiləsə yığlağıl* "O səni vurmak istərsə ağla". Əski uyğur türkcəsindən bəri dilimizdə mövcud olan bu söz müasir türk dillərində *yığla, ığla-* formalarında varlığını saxlayır [7, s. 241].

XVI əsr Azərbaycan yazılı abidəsi "Şeyx Səfi" təzkirəsində də bu söz *yığlamaq* variantında yer almışdır: *Yığlamaq yegdür o gülməkdən ki, bitəqrib ola*. Leksem Kərkük türkmanlarının dilində də müşahidə olunur: Qəmbər durdı baxdı, qəri saçın açıb, öz özün çalırı, naalə veriri, *yığlırı;* Oğlan türbənin başında öz - özin çalar, *yığlar,* gözünnən su yerinə qan gəli… (Arzı -Qəmbər). Bu söz qumuq dilində *yılamak* "ağlamaq" şəklində işlənir [6, s. 240].

Yenisey abidələrində "ağlamaq" mənasında işlənən *yığlamaq* sözünü eyni zamanda *sığtamaq* sözü ilə də əlaqələndirirlər. A.Məmmədovun qeyd etdiyinə görə, "Dilimizdə *ağlayıb-sıtqamaq* ifadəsinin olması müşahidə edilir. Sözönü *y-e* əvəzlənməsinin mümkünlüyü imkan verir ki, sığla->sığta-//sıxta- və yığla feilinin eyni yığ- kökündən yarandığını qeyd edək" [14, s. 216]. "Kitabi-Dədə Qorqud" abidəsində *ağlamaq və sıtqamaq* sözləri yanaşı işlənir: *Yolın qıyısun alıb oturdı, ağladı, sıqtadı* [6, s. 250].

Azərbaycan dilinin dialektlərində bu söz aşağıdakı fonetik variantlarda işlənmişdir: a) yığlamax - ağlamaq. (Qax, Şəki, Zaqatala); Yığlamağ - ağlamaq. (Dərbənd) [2, s. 550]. Bundan başqa *ağlamaq və sıtqamaq* sözləri yanaşı olaraq "ağlamaq, gözlərini sıxaraq yaş çıxarmaq" mənasında Bolnisi şivəsində işlənir: Az ağla-sıxda, onna sa: köməy olmaz [6, s. 250]. Bu leksem *ığmalak* qəlibində türk dilinin Samsun şivəsində "Kesilmiş süt dibe çökmek", *yığlamak* fonoformasında İzmir şivəsində "ağlamaq" mənasında işlənir (4).

Bitimək - Yenisey abidələrində "yazmaq, həkk etmək" mənalarında rast gəlinir: *Kırkız kanı bitimişsin Tuğrak bən. Qırğız xanı yazdığının Tuğrakam*. (Kemçik Qayabaşı abidəsi). *Şoğur bitidim bin səkiz adaklığ barımın bağ eşimə tərdi bökmədim. Şoğur yazdım*. Min səkkiz ayaqlı dövlətimi (səkkiz ayaqlı mal - qaramı). Müttəfiq dostlarımı topladı, doymadım. (Bay - Bulun abidəsi). Qədim türk lüğətində *kitab, yazı, sənəd* mənaları, eyni zamanda bu sözdən düzəlmiş *bitigəçi* forması da verilmişdir [5, s. 102].

"Divanü lüğat-it-türk" abidəsində *biti* sözünün iki mənası göstərilir: a) səmavi kitabların hər biri; 2) yazmaq: *Ol anqar bitik bititdi* deyilir ki, "O, ona kitab yazdırdı" deməkdir [9, c. 2, s. 313]. Maraqlıdır ki, Yenisey abidələrində bu sözün əlamət bildirən *bitigli* forması da işlənmişdir: *Anı bitigli Annın erti.* "Onu yazan Annın idi" (Kemçik Qayabaşı abidəsi). M.Kaşğarinin "Divan"ında, həmçinin bu sözün "kitab, yazı" mənalarında işlənən *bitik*, "əfsun, sehr, cadu" mənalarında işlənən *bitig* - ad bildirən şəkilləri də göstərilmişdir: *"Yel kovuz bitigi "* ifadəsi "cin çarpmasma qarşı əfsun, sehr, dua" deməkdir [9, c. 3, s. 162]; Bu *bitik* ol kişini okıtğan. Bu kitab adamı çox oxutdurur [9, c. 1, s. 210]; Ol əwgə *bitik* ötgürdi. O, evə məktub yolladı [9, c. 1, s. 266].

Bitik feili uyğur abidəsi olan "Irk Bitik" abidəsinin adında da keçir. "Qutadqu bilik"də isə *bitigçi* fonoformasında işlənmişdir [17, s. 31]. *Bitimək* təfəkkür feilindən düzələn *bitik//pitik* sözünə Azərbaycan yazılı abidələrində də rast gəlinir: *Yar göndərmiş bitik kim, Kişvərini öldürün; Xoşdiləm ki, bir nişani-istinalətdür mana* [10, s. 6].

"Azərbaycan dilinin izahlı lüğəti"ndə *bitik* "*(köhnə) məktub, dua yazılmış kağız parçası*" kimi verilmişdir (bax: lüğətin mobil versiyasına). *Biti//bıtı* feili hazırda müasir ədəbi dilimizdə işlənməsə də,

onu yalnız şifahi nitqdə, o cümlədən qərb, şimal-şərq, şimal dialektlərində bir-iki ifadənin tərkibində rast gəlmək olur. Məs: *yazı-bitik; dua-pitik; cadu-pitik*. F.Cəlilov göstərir ki, "*Bizcə, həmin feil türk mənşəli **biç** sözü ilə eyni kökdəndir. Bunu "yazı" sözünün bitik ~ biçik (türk-monqol) paralelliyi və rus dilindəki "неүамв" sözü də göstərir. Allomorfların yaranmasında fonetik dəyişmələr baş vermişdir: b>p; ı>i; i>ü*" [13, s. 34].

Feil "bitimek" şəklində Konya şivəsində "yaymaq" anlamında işlənir. Maraqlıdır ki, "məktub, yazı" anlamına gələn "bitik" leksemi türk dilinin şivələrində həm bu məzmunda, həm də fərqli anlamlarda geniş işlənir. Belə ki, Sivas, Konya, Kastamonu şivələrində "məktub", Çankırı və Kastamanonunun bəzi yerlərində "kitab", Vanın Erciş şivəsində "muska", Ispartanın Gevrin şivəsində "zərf", Dənizli şivəsində "bəxşiş" mənalarında, Ankarada "bir az, bir parça", Konyanın Ermənək şivəsində "məhsuldar", Afyon, Burdur, Manisa, Çanaqqala və s. şivələrdə isə "yapışıq, dolaşıq, donmuş, qatılaşmış" mənalarında işlənir (4).

Nəticə. Bir dilin tarixi inkişafını o dildə olan yazılı abidələrin yaranması dövründən başlayırlar. Dilin qədim leksik qatı tarixi məqamların açılmasına işıq salır, xalqın tarixinə, siyasi-iqtisadi, mədəni əlaqələrinə dair xüsusiyyətlər dilin leksikasında öz izlərini saxlayır. Bu baxımdan mühüm əhəmiyyətə malik Yenisey abidələrinin leksikası üzərində aparılmış araşdırma bizə onu göstərir ki, kitabədə yer almış çox sayda leksik vahidlər var ki, onlar müasir türk dillərinin həm ədəbi, həm dialektləri səviyyəsində ünsiyyətə xidmət edir. Belə ki, türk və Azərbaycan dillərinin şivələri üzərində aparılan müşahidələr belə qənaət formalaşdırır ki, hər iki türkcənin dialektlərində Yenisey abidələrində rast gəlinən, həm formaca və məzmunca bənzər, həm areal xarakterli hərəkət bildirən sözlər bu gün canlı xalq dilində işlənir. Dilin yalnız bir səviyyəsi üzərində apardığımız tarixi-müqayisəli təhlil onu deməyə əsas verir ki, müştərək köklərə malik türkcələrə məxsus qədim abidələrdə qeydə alınan hərəkət məzmunlu leksemlər öz işləkliyini dövrdən-dövrdən dəyişdirmiş, bir qismi zamanla arxaikləşsə də, bir hissəsi hazırda şivələrdə bu və ya digər dərəcədə öz izlərini qoruyub saxlayır.

İstifadə edilmiş ədəbiyyat

1. Allahverdiyeva A. Türkoloji dilçilikdə feillərin leksik-semantik baxımdan qruplaşdırılmasına dair / I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfransın materialları. Bakı: Elm və təhsil, 2016, s. 48-53.
2. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007, 566 s.
3. Azərbaycan dilinin Naxçıvan dialektoloji lüğəti. Bakı: Elm və təhsil, 2017, 304 s.
4. Büyük Türkçe Sözlük. Derleme Sözlüğü / Türk Dil Kurumu Sözlükleri. https://sozluk.gov.tr/ (14.05.2024).
5. Древнетюркских словарь. Под ред. В.М.Наделлева, Д.М.Насилова, З.Р.Тенишева, А.М.Щербака. Ленинград, 1969, 676 с.
6. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: Elm və təhsil, 2016, 348 s.
7. Gülensoy T. Altay Dillerindeki Akrabalık Adları Üzerine Notlar // TDAYB, 1973-1974, s. 283-318.
8. Xətayi Ş.İ. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 382 s.
9. Kaşğari. M. Divani-lüğat-it türk: 4 cilddə, I c. 512 s.; II c. 400 s.; III c. 400 s.; IV c. 752 s. Tərtib edən: f.e.d. R.Əskər. Bakı: Ozan, 2008.
10. Kişvəri. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 176 s.
11. Kitabi-Dədə Qorqud. Tərtib edən: H.Araslı. Bakı: Azərnəşr, 1962, 176 s.
12. Məhəmməd F. Seçilmiş əsərləri: 6 cilddə, II c. Bakı: Şərq-Qərb, 2005, 330 s.
13. Məhərrəmli B. Türk dillərində isim köklərində leksik-semantik inkişaf (müqayisəli-tarixi istiqamətdə). Bakı: Elm və təhsil, 2012, 418 s.
14. Məmmədova A. "Dədə Qorqud Kitabı"nın leksikası. Bakı: Nurlan, 2009, 176 s.
15. Məmmədov A. Tarixi yaddaş milli dil güzgüsündə (Qədim türk abidələrinin leksikası və Azərbaycan dili). Bakı: ADMİU-nun nəşriyyatı, 2015, 292 s.
16. Məmmədov Y. Orxon-Yenisey abidələrində adlar (isim, sifət, say, əvəzlik). I c. Bakı: APİ, 1979, 113 s.
17. Məmmədli M. Azərbaycan dilinin Təbriz dialekti. Bakı: Zərdabi LTD, 2007, 240 s.
18. Məmmədli M. Azərbaycan dialektologiyası. Bakı: "Zərdabi Nəşr" MMC, s. 2019, 352 s.
19. Nəsimi İ. Seçilmiş əsərləri: 2 cilddə. I cild. Bakı: Lider, 2004, 336 s.
20. Rəcəbli Ə. Göytürk dilində feilin semantikası. Bakı: Elm və təhsil, 2010, 68 s.

AZƏRBAYCAN DİLİNDƏ SÖZ VƏ MORFEM SƏRHƏDLƏRİNİ SİQNAL EDƏN İFADƏ VASİTƏLƏRİ

Kubra Əlizadə*

Abstract

Expressions in Azerbaijan language signals word and morpheme boundaries

In communicative speech, words and morphemes are arranged and formed in a chain, not separately, and form the meaningful sound flow of the speech act. However, phonemes, words, and morphemes can maintain their independence in the sound stream. It should be noted that N.S.Trubeskoy made a great contribution to the research in this area. According to this linguist, in addition to the phonological means that serve to distinguish meaningful units, each language has a number of other signs that help to delimit those units. In this regard, N.S.Trubeskoy specifically emphasizes the strict differentiation of meaning-making and delimitative (boundary) functions of language by phonological means. At the same time, separate sound complexes corresponding to certain units of meaning should be distinguished so that they do not mix with each other. On the other hand, in order to sufficiently distinguish these sound complexes from each other, these sound complexes must have "sound signs" arranged in a certain order.

Keywords: *morphemes, words, sound, speech, complexes.*

Giriş. Araşdırmalar göstərir ki, hər bir dildə məhdud sayda “nişanələr”, əlamətlər var ki, onlar da müəyyən qaydalarla məna daşıyıcıları olan səs komplekslərində birləşir. Və əksər hallarda biz onları səhvsiz olaraq bu və ya digər səs əlamətlərinin, yəni realizə olunan fonemin işləndiyi bütöv kontekstdən tanıyırıq və məna daşıyan bu səs kompleksi sözün və ya morfemin sonunda, o birisi isə başlanğıcında olur ki, bu da dinləyiciyə sözlərin, morfemlərin sərhəddini qavramağa imkan verir. Dildə bütün sərhədləmə vasitələri sərhəd siqnalları adlanır və onlar müxtəlif baxımdan, o cümlədən mənafərqləndirmə funksiyasına münasibət, sadə və mürəkkəb quruluşlu olması, sərhəddin olub-olmamasını göstərməsi, nəyin sərhəddini (söz, morfem, cümlə) göstərməsi baxımından təsnif edilir [3, s. 341].

Qeyd edildiyi kimi, ayrı-ayrı dillərdə müəyyən mənafərqləndirmə qarşılaşmaları mənalı vahidin (söz və morfemin) ya yalnız əvvəlində, ya da yalnız sonunda mümkündür və digər mövqelərdə o, neytrallaşır.

Belə ki, sözün və morfemin başlanğıcında və sonunda müvafiq qarşılaşmaların nişanlı üzvləri fonematik (mənafərqləndirən) xüsusiyyətlərindən başqa, həm də sərhəd siqnalı əlamətinə malik olur, yəni sözün əvvəlində, eləcə də sonunda gələn səs kompleksləri ikili funksiya yerinə yetirir: mənafərqləndirmə və söz və morfem səddini nişanlama, yaxud delimitativ funksiyaya malikdir.

Bununla belə, əgər hər hansı bir dildə aramsız səs axınının müəyyən bir nöqtəsində cümlə, söz və morfem sərhədinin olub-olmamasını işarə edən xüsusi fonoloji vahidlər varsa, həmin vahidlər yalnız yardımçı rol oynayırlar [3, s. 341].

Əsas hissə. Azərbaycan dilçiliyində “orfoepiya” və “orfofoniya” anlayışlarının fərqləndirilməsi bu dilin bir sıra orfofonik xüsusiyyətləri eksperiment yolu ilə aşkar edilmiş, üzə çıxarılmışdı: fonemlərin, xüsusilə qapalı saitlərin güclü reduksiyaya məruz qalması *(glümsüdü, slindi, yğışdılar, tmurcuxladı)*, vurğulu hecalardan əvvəl gələn saitlərin uzadılması *(şa:kir, tu:fan, sü:ni)*, sözlərin sonunda dodaq saitlərin delabializasiyaya uğraması, dodaqlanmanın itməsi *(görüşdi, uduzdı, sovuşdı)*, açıq saitlərdən [a] və [ə] vurğusuz hecada qapalı qarşılıqları ilə əvəz olunması *(işlıyir, başlıyır)*, sonantlar sözlərin sonunda, xüsusilə [r] və [l] sözlərin sonunda karlaşırlar *(nar, tural)*, kipləşən-partlayan kar samitlər söz sonunda vurğulu saitdən qabaq gəldikdə nəfəsli tələffüz olunurlar [5, s. 87-88].

Ümumi fonetikada işlənən aspirasiya termini (nəfəsləşmə) və onun dərəcəsi, əsasən vurğulu hecalarda təzahür edir. İngilis dilində olduğu kimi, Azərbaycan dilində də aspirasiya vurğulu hecalarda

* ***Azərbaycan Dillər Universiteti, dissertant. Elek.poçt: kubramammadova90@gmail.com. Elmi rəhbər:*** *Prof. Fəxrəddin Veysəlli.*

müşahidə edilir. Burada ifadə planı eyni olsa da, vurğunun lokallığı, yeri bu dillərdə müxtəlifdir. Belə ki, ingilis dilində aspirasiya sözün başlanğıcında, Azərbaycan dilində isə sözlərin sonunda olur. İngilis dilində nəfəsli və nəfəssiz başlanğıc söz cütlərində olduğu kimi, Azərbaycan dilində də söz sonunda gələn təkhecalı sözlərin sonunda işlənərək kipləşən-partlayan kar və cingiltili samitlərin mövqeyi sözlərin tanınmasında, onların sərhədlərinin siqnal edilməsində nişanlayıcı əlamət kimi çıxış edə bilir. Məsələn, "ad", "at" və ya yad/yat söz cütlərində [t] səslərinin aspirasiyası, fikrimizcə, sərhədləyici siqnal kimi çıxış edir. Bu da onunla izah edilə bilər ki, Azərbaycan dilində cingiltili kipləşən-partlayan samitlər söz sonu mövqedə karlaşır, kar kipləşən-partlayan samitin aspirasiya dərəcəsi artır və söz cütlərinin fərqlənməsi [t] səsinin aspirasiyası dərəcəsini çox olması ilə reallaşdığını demək olar [1, s. 235].

Azərbaycan dilində də nəfəsləşmənin dərəcəsi vurğulu hecada daha çox olur. Azərbaycan dilində isə vurğu sözün son hecasında olmasına baxmayaraq, hər iki vasitə eyni sərhədləmə funksiyası yerinə yetirir. Aspirasiya hadisəsi Azərbaycan dilində söz sonunu siqnal edir.

N.S.Trubeskaya görə, fonemin periferik mövqelərdə gəlməsi onların sərhəd siqnalları kimi çıxış etməsinə imkan verir [3, s. 345].

Periferik fonemlər o fonemlərdir ki, onlar məhdud distribusiyaya malik olur, fonem sisteminin mərkəzində duran fonemlərdən fərqlənir, oppozisiyalarda zəif iştirak edir. Tədqiqatlar göstərir ki, ingilis dilində [w, j, h, r, ʒ, ŋ] və Azərbaycan dilində isə [h, x, ɤ (ğ), ʒ, k] fonemləri periferik fonemlərdir [4, s. 14].

Azərbaycan dilində iki fonem periferik səciyyəlidir. Onlardan biri /ğ/ samiti, digəri isə /ı/ saitidir. Bu fonemlər söz başında işlənə bilmir. Bu dildə samitlərin kombinatorikasına gəlincə, A.Axundovun araşdırmaları göstərir ki, Azərbaycan dilində yalnız /n/ samiti heç bir samitlə yanaşı gələ bilmir. Bu dildə /l/ samiti /j/ samiti ilə morfem hüdudunda yanaşı işlənə bilir, /d/ samiti isə daha çox /p,f,t,k,g,x/ samitləri ilə morfem sərhədlərində yanaşı gələ bilir. Samitlərin saitlərdən əvvəl (CV) işlənməsinə gəlincə, Azərbaycan dili samitlərinin saitlərdən əvvəl işlənməsində elə bir məhdudiyyət yoxdur. Bu dildə yalnız /v,j,k,g,ğ/ samitləri bütün samitlərdən əvvəl işlənə bilmir. Konkret olaraq /v/ samiti yalnız /ö/ saitindən, /k/ samiti isə yalnız /ı/ saitindən əvvəl işlənmir, /j,ğ/ samitləri üç, /ğ/ samiti isə dörd saitdən əvvəl tələffüz edilir [1, s. 194-195].

Azərbaycan dilində [r] samiti periferik fonem kimi özünü göstərmir, baxmayaraq ki, xalis Azərbaycan dilinin sözlərində bu samit söz başında işlənmir. Bununla belə, Azərbaycan dilində [r] samiti kök və şəkilçili morfemlərdə, xüsusilə Azərbaycan dilinin şəkilçi morfemlərində kəmiyyətcə daha çox işlənir. Bununla yanaşı, Azərbaycan dilində alınma və törəmə sözlər daxil olmaqla [r] fonemi 700-dən artıq leksik vahidlərin əvvəlində işlənir [1, s. 144].

Azərbaycan dilinin ümumi fonetik xüsusiyyətinə görə kök və morfem qovuşuğunda, yəni iki morfem arasında iki sait səs yanaşı işlənə bilməz [1, s. 266].

Odur ki, saitlə bitən kök morfemlərə saitlə başlayan şəkilçi morfemlər artırıldıqda bu dilin fonetik tələbinə görə ya həmin saitlərdən biri düşməli ya da iki sait arasına samit artırılmalıdır. Səs artımı adlanan bu hadisədə üç samit [j,n,s] iştirak edir.

İki morfem qovuşuğunda [y] samitinin artırılması özünü üç halda göstərir: 1) isimlərin yönlük halında *(qapı+y+a)*; 2) feilləri indiki zaman formasında *(gözlə+y+ir)*; 3) *"su"* və *"nə"* morfemlərinin yiyəlik *(su-y-un, su+y+a, su+y+u)* yönlük və təsirlik hallarında: *nə+y+in, nə+y+ə, nə+y+i.*

İki morfem qovuşuğunda [n] samitinin artırılması isimlərin yiyəlik və təsirlik hallarında *(pəncərə+n+in, pəncərə+n+i)*, üçüncü şəxsin təkinin və cəminin mənsubiyyət şəkilçisini qəbul etmiş sözlərin müxtəlif hallarında, bu və o şəxs əvəzliklərinin sözdəyişdirici və sözdüzəldici morfemlər qəbul etdikdə özünü göstərir. Məsələn, *kitabı+n+da, kitablar+ın+da* və digər hal formaları; *bu+n+un* (sözdəyişdirici) *bu+n+suz* (sözdüzəldici); *o+n+dan* (sözdəyişdirici) *o+n+suz* (sözdüzəldici).

İki morfem qovuşuğunda [s] samitinin artırılması yalnız bir formada təzahür edir. Bu samit saitlə bitən isimlərin üçüncü şəxsin təkinin mənsubiyyət şəkilçisini qəbul etdikdə kök morfemdə şəkilçi morfem arasına artırılır: *qapı+s+ı (evin qapısı), qonşu+s+u (onun qonşusu)* və s.

Azərbaycan dilinin fonetik xüsusiyyəti üçün səciyyəvi olan bu səs artımı modeli tərkibində ikisaitli alınma sözlərdə də müşahidə edilir. Alınma sözlərdə iki sait arasına [y] samiti artırılır. Bu da,

fikrimizcə, bir növ, saitlərin səddini qeyd etməklə, həmin sözlərin hecalanmasını Azərbaycan dilinə uyğunlaşdırır: *zəif* [zə+y+if], *şair* [şa+y+ir], *poema* [po+y+ema] və s.

Digər bir səs artımı hadisəsi söz başında və söz sonunda baş verir ki, bu da Azərbaycan dilinin fonetik xüsusiyyətlərindən irəli gəlir. Məlum olduğu kimi, Azərbaycan dilinin sözlərində sözbaşında ikiüzvlü samit birləşməsinin və [r] samitinin işlənməsi halı mövcud deyildir. Odur ki, alınma sözlərdə ikiüzvülü samit birləşmələrinin (söz başında) əvvəlinə, yaxud ortasına sait artırılır: *stəkan* [ıstəkan], *rəndə* [irəndə], *rəng* [irəng], *şkaf* [şıkaf], *ştat* [şıtat], *flora* [fılora], *qrup* [qurup], *kran* [kıran] və s.

Azərbaycan dilində sözsonu mövqedə gələn ikiüzvülü samit birləşməsində samitlərdən biri əsasən ya novlu, ya da sonor (birinci) olur: *üst, alt, qurd, dörd, ört, qırx, torpaq*. Belə ki, alınma sözlərdə söz sonunda gələn ikiüzvülü samitlərdən birinci deyil, ikinci sonor olarsa, bu halda samitlər arasına sait artırılır: *dövr* [dövür], *sədr* [sədir], *hüsn* [hüsün], *meyl* [meyil] və s.

Azərbaycan dilində də müəyyən fonetik kontekstdə, əhatədə qlotal stop (xirtdək kipləşməsi) hadisəsi müşahidə edilir [1, s. 240].

Bu hadisə əsasən sonu kipləşən samitlə bitən təkhecalı örtüsüz qapalı hecalarda özünü aşağıdakı hallarda büruzə verir:

1) *at, a?t, ad, ək, ud, ət, it, öd, od, ot, üt* (kipləşən-partlayan)
2) *aç, a?ç, aç, iç, uç* (kipləşən-novlu)
3) *al – a?l, əl, il, öl, on, um* (kipləşən-süzülən)
4) *ar, a?r, ə?r* (kipləşən-titrək)

Bu hadisənin baş verməsində samitin kipləşən samit olması zəruridir. Bununla belə, qeyd edilən təkhecalı örtüsüz qapalı hecalı sözə şəkilçi morfem əlavə edildikdə, hecanın keyfiyyəti dəyişdikdə (açıq-qapalı) qlotal stop hadisəsi aradan qalxır. Məsələn, *ə-kin sahəsi, ə-tin qiyməti, i-tin yalı, o-tun kökü, ə-lin qabarı, a-çıq qapı günləri* və s.

Qlotal stop samiti ilə bir cəhəti də qeyd etmək yerinə düşərdi ki, ingilis dilində bu samit əsasən kipləşən-partlayan kar samitlər və kipləşən-novlu [ʧ] samiti əhatəsində baş verdiyi halda, Azərbaycan dilində kar kipləşən-partlayan [t,k] samitləri ilə yanaşı, cingiltili [d, ʤ, l, r] samitləri əhatəsində də baş verdiyi qeyd edilir [1, s. 240].

Beləliklə, sərhəd siqnallarının təhlili üzrə aparılan araşdırmalardan belə bir nəticə hasil etmək olar ki, dillər fonetik quruluş baxımından müxtəlif olduğu kimi, rabitəli danışıqda söz və morfemlərin sərhədlərini siqnal edən vasitələr də müxtəlif səpkilidir, eləcə də həmin vasitələr (seqment və prosodik) çoxcəhətli və rəngarəngdir. Başqa sözlə, dillər rabitəli danışıqda mənalı vahidlərinin sərhədləyici siqnalları baxımından bir-birindən çox fərqli cəhətlərə malikdir. Belə ki, bir qism dillərdə bu siqnallar əsasən morfemlərin arasındakı sərhəddi göstərir, başqa dillərdə sözlər arasındakı sərhəddi bildirir və s.

İstifadə edilmiş ədəbiyyat

1. Axundov A.A. Azərbaycan dilinin fonetikası. - Bakı: Maarif, -1988. -285 s.
2. Abdullayeva, G.A. Müasir Azərbaycan dili. [2 cild] (Morfologiya, sintaksis) / G.A.Abdullayeva. -Bakı: Elm və təhsil, -c. 2. -2013. -308 s.
3. Trubetskoy N.S. Fonologiyanın əsasları. (Almancadan tərcüməsi, "Ön söz və qeydlər" F.Yadigarındır). Bakı: Mütərcim, 2001, 380 s.
4. Təhməzova M.M. Çağdaş İngilis və Azərbaycan dillərində periferiya fonemlərinin qarşılıqlı-müqayisəli təhlili. Fil.elm.nam.diss. avtoreferatı. Bakı, 2004, 24 s.
5. Veysəlli F.Y. Fonetika və fonologiya məsələləri. Bakı: Maarif, 1993, 190 s.
6. pronunciationstudio.com
7. researchgate.net
8. Twirpx.com

ORTA ASİYA QIPÇAQ DİLLƏRİNDƏ QADIN BAŞ GEYİM ADLARININ LEKSİK TƏHLİLİ

Ülkər Əfəndiyeva*

Abstract

A lexical analysis of clothing names in Central Asian kipchak languages

Although household vocabulary in Turkic languages is a topic studied by many scholars, there are still unstudied issues in this field. Especially in the modern era, when Turkology is given great importance as a science, this topic is very relevant. By household lexicon, we mean the names of clothing and decorative items, household items, kitchen utensils, dishes and food. Taking into account the number and diversity of clothing names that are parts of the household lexicon in the Turkic peoples, the article presents only the names of various traditional women's headdresses of the Central Asian Kipchaks, that is, Kazakhs, Karakalpaks and Kyrgyz peoples. *Бөрік* (borik), *тақия* (takiya), *қасаба* (kasaba), *сәукеле* (saukele), *кимешек* (kimeshek), *жаулық* (jaulık) are lexically analyzed.

The presented article shows phonetically and lexically common and different aspects of the names of headdresses, which are mostly common to the Kazakh, Karakalpak and Kyrgyz peoples. The words we analyze are taken from modern lexicographic sources, literary dictionaries of these languages.

Keywords: *the Turkic languages, kipchak languages, lexica, word, clothing names.*

Giriş. Dilin leksik sisteminin hərtərəfli öyrənilməsi dilçilik elminin ən mühüm problemlərindən biridir. Məlum olduğu kimi hər bir dilin leksik tərkibində məişət əşyalarının adları xüsusi yer tutur. Məişət leksikası dilin leksik sisteminin ən koloritli hissəsidir ki, bu da təkcə dilçilər üçün deyil, həm də tarixçilər üçün müəyyən maraq doğurur, çünki yazılı abidələr olmadığı halda bu leksik vahidlər müəyyən bir xalqın keçmişdə yaşayış yerləri və həyat tərzinin xüsusiyyətləri, ətraf mühitə münasibəti haqqında məlumat verə bilir. Buna görə də, müəyyən bir dilin gündəlik lüğəti etnogenetik və linqvistik tədqiqatlar üçün qiymətli materialdır.

Hazırda qloballaşan dünyada müxtəlif xalqların maddi, məişət və mənəvi mədəniyyət sferasında etnik xüsusiyyətlər tədricən silinir. Lakin məişət əşyalarını bildirən sözlərdə onunla bağlı etnoqrafik spesifiklik maddi mədəniyyətin digər sahələrinə nisbətən daha uzun müddət davam edir. Eyni zamanda, onların bəziləri qorunub saxlanmış qədim türk leksik vahidlərini təmsil edir. Belə sözlərin tədqiqi müqayisəli leksikologiyanın əsas vəzifələrindən biri olan türk dillərinin lüğət tərkibinin semantik inkişafının yenidən qurulması üçün çox qiymətli material verir.

Bu məqalədə Orta Asiya qıpçaq dillərinin (yəni, qazax, qırğız və qaraqalpaq dilləri) məişət lüğətində baş geyimlərinin adlarının leksiko-semantik kateqoriyaları, baş geyim adlarının struktur tipləri, onların əmələ gəlmə üsulları təsvir edilmişdir. Orta Asiya qıpçaq dillərinin hər birində məişət leksikası mövzusunda müəyyən elmi tədqiqat işləri aparılsa da bu dillərin məişət leksikası müqayisəli şəkildə təhlil edilməmişdir ki, bu da bu tədqiqatın aktuallığını müəyyən edir.

Geyim adları məişət leksikasının ən zəngin tematik qruplarından biridir və qətiyyətlə demək olar ki, hər bir xalqın mədəniyyətinin ən böyük göstəricisidir. Geyim insanları cəmiyyətdəki digər qruplardan fərqləndirən bir vasitə kimi də fəaliyyət göstərir.

Ümumiyyətlə, türk xalqlarının geyimlərində rəngarənglik, müxtəliflik çox səciyyəvidir. Hər bir geyim əşyasının bir neçə növü olmuşdur. Türk xalqları ən qədimlərdən müxtəlif baş geyimləri, cürbəcür ayaqqabılar, köynəklər, şalvarlar, jiletlər geyinmiş, rəngarəng bəzək əşyalarından istifadə etmişlər. Türk geyim mədəniyyətinin ümumi dünya mədəniyyətinə danılmaz dərəcədə böyük bir təsiri olmuş və günümüzün geyimlərini ərsəyə gətirmişdir.

Orta Asiyanın qıpçaq xalqları, yəni, qazax, qırğız və qaraqalpaqların milli geyimləri də ən qədim dövrlərə dayanır və eynilə Azərbaycan xalqı kimi bu xalqlar da öz milli geyimlərini müxtəlif

* ***Bakı Dövlət Universiteti, Türkologiya kafedrasının doktorantı. Elek.poçt: ulker.efendiyeva@list.ru. Elmi rəhbər:*** *Prof. Elbrus Əzizov.*

bayramlarda, tədbirlərdə, toyda, nişanda geyinirlər. Milli geyimlər insanların cəmiyyətdəki statusu, ailə vəziyyəti və yaşı barədə məlumat verir. Orta Asiyada ənənəvi geyimlər, ümumiyyətlə, keçədən tikilirdi. Bu material hələ də Orta Asiyada geniş istifadə olunur, soyuq bölgələrdə isə yun material işlədilir. Bölgədə yunun bolluğu tarixən onu paltar hazırlamaq üçün asan material halına gətirmişdir. Həm kişi, həm də qadın geyimləri ənənəvi olaraq öz üslubunu sadə şalvar, xalat və ya paltardan götürürdü. Naxış qadınlar üçün paltar dizaynının vacib bir hissəsi idi [13].

Qıpçaq xalqları üst geyim, ayaqqabı, papaq hazırlayarkən əl istehsalı xammaldan — dəridən, keçədən, xəzdən istifadə edirdilər. İnsanın bədən üzvlərinə görə geyim baş geyimi, çiyin geyimi, bel geyimi və ayaqqabıya (баскиім, иық киім, белдік киім, аяқ киім) bölünür. İstifadə xüsusiyyətlərindən asılı olaraq gündəlik, dekorativ, fəsillərə görə isə qış, yaz və mövsümi geyimlərə bölünürlər.

Əsas hissə. Baş geyiminin tarixi hələ də sirr olaraq qalır. Qədim insanların azadlıqsevər varlıqlara, yəni quşlara heyran olduqlarına dair bir fərziyyə var. Rəvayətə görə, onlar yeni həyatın simvolu idi və göylə yeri birləşdirdi. Buna görə də insanlar yuvaya bənzər papaqlar taxmağa başladılar. Yeri gəlmişkən, bu konsepsiya paltarları bəzəyən quşlar və ləleklər şəklində bəzəklərlə təsdiqlənir [14].

Qıpçaq qadınları yaşından və ailə vəziyyətindən asılı olaraq fərqli baş geyimlərindən istifadə etmişlər. Onlar həm yay, həm də qış növlərinə bölünür.

Бөрік (börik) – kənarı heyvan dərisindən parça ilə tikilmiş, üstü bəzədilib təpəsinə bayquş tükü ilişdirilmiş, qızların da, oğlanların da geyindiyi qulaqsız papaq [6, s. 569].

Бөрік sözü əksər türk xalqları üçün ortaq leksik vahiddir. Bu leksemin etimologiyası haqqında alimlər müxtəlif fikirlər söyləmişlər. Görkəmli türkoloq N. K. Dmitriyev bu sözü *böri* "canavar" sözü ilə bağlayır. O, səbəb kimi bu baş geyiminin qurd dərisindən hazırlandığını göstərir [3, s. 530].

Böri sözü qazax dilində bir çox mənaları ifadə edən omonim bir sözdür. Qazax dilində bir mənası "canavar" deməkdir [3, s. 567].

Qazax dilində bu papağın da müxtəlif növləri vardır: *бұйра бөрік* (buyra börik) "xəz dəridən düzəldilən baş geyimi", *елтірі бөрік* (eltiri börik) *"eltiri* adlanan dəridən hazırlanan papağın bir növü", *(eltiri* doğulandan 2-3 gün sonra soyulan quzu dərisidir*), жанат бөрік* (janat börik) "yenot dərisindən düzələn papaq", *кәмшат бөрік* (kəmşat börik) "su samurunun dərisindən hazırlanapapaq", *түрме бөрік* (türme börik) "təpəsi ipək ilə üzlənmiş, ətrafı yuxarı bükülmüş şəkildə geyinilən papaq", *үкілі бөрік* (ükili börik) "təpəsinə bayquş tükü taxılan papaq", *шоқпыт бөрік* (şokpıt börik) "köhnə, yırtıq papaq", *шошақ бөрік* (şoşak börik) "təpəsi üçbucaq formada tikilən papağın bir növü" və s. [3, s. 570-572].

Burada xüsusi diqqəti *үкілі бөрік* deyilən baş geyiminə çəkmək istəyərdim. Qazaxlarda qız uşağının baş geyiminə bayquş lələyi sancmaq ənənəsi qədim inanclarla bağlı olan bir məsələdir. Qazaxlar hesab edirdilər ki, bayquş lələyinin sehrli gücü vardır və o, insanları bəlalardan, böhtanlardan, bəd nəzərlərdən, xəstəliklərdən qoruyur. *Eltiri* adlanan quzu dərisindən tikilmiş və təpə hissəsinə bayquş lələyi sancılmış bu baş geyimini qızlar kimi oğlanlar da istifadə edirdilər [11, s. 143].

Həmin papaq növü qaraqalpaq dilində də *бөрик* (börik) adlanır və eyni mənanı ifadə edir [4, s. 118].

Qırğızlar bu papaq növünü *бөрк* (börk)*, бөрүк* (börük) adlandırmışlar. *Суусар бөрк* (suusar börk) "sansar tükü ilə bəzədilmiş baş geyimi növü", *түргөн бөрк* (türqön börk) "kişilərin geyindiyi papaq növü" [5, s. 153].

E. V. Sevortyana görə, *"börik* sözü *bü+rük – bürük,* ya da *bürk – börk* "bürümək" feilindən düzələn törəmədir [12, s. 221-224].

Тақия (takiya)– qızlar üçün gözəl daş-qaşlarla bəzədilmiş baş geyimidir [10, s. 633]. *Takiyanın* bəzi növləri qalın, yumşaq parçalardan hazırlanır, onların arasına nazik yun və ya pambıq da vurulurdu. Takiya başı soyuqdan, küləkdən yaxşı qoruyub və at çapanda başdan uçub getməmişdir. Həmçinin baş geyimindəki naxışlar sahibinin statusundan, məşğuliyyətindən, hansı tayfaya və ya cinsə mənsubluğundan xəbər verirdi.

Qaraqalpaq dilində də *тақыя* (takıya) formasında işlənərək eyni mənanı verir. Bir başqa mənada isə *илме тақыя* (ilme takıya) söz birləşməsi şəklində işlənərək uşaq oyuncağının adını bildirir [4, s. 613].

Qırğızlar da bu baş geyimini *такыя*[takıya]adlandırmışlar. *Кыздын баары кылактап, такыясы булактап* (kızdın baarı kılaktap, takıyası bulaktap) "Qızların hamısı nazlanıb, *takıyası* yellənib" [5, s. 195].

Қасаба (kasaba) – Bir dəstə lələkdən tikilmiş, alının hər tərəfi qiymətli daşlarla, qızıl və gümüş bəzəklərlə bəzədilmiş, sağ tərəfindən 5-6 sıra üstü muncuq dolu saplar sallanan, qızlar üçün bəzəkli baş geyimidir. Qazax dilində bu söz "erkək qabanın başı", "sobanın altına qazan üçün qoyulan dəmir" mənalarını da ifadə edir [9, s. 414].

Keçmiş zamanların türk baş geyiminə, xüsusən də qıpçaq tayfasının geyiminə bənzəyir. Etnoqraf Özbekəli Jənibekovun fikrincə, *kasaba* sözü "lələ-cəvahirat" deməkdir. *Kasabanı* daha çox sultanların qızları geyinirdilər. Bəzən sultanların həyat yoldaşları da geyinmişlər. Onun bütün uzunluğu qızıl zolaqla bəzədilir və qızıl saplarla işlənir. Təzə gəlinlər *kasabanı* üstündəki bəzəkləri çıxarıb üzərindən yaylıq salaraq toydan sonra da geyinirlər. Qazax dilinin lüğət tərkibində қасабалы келiншек (kasabalı kelinşek) "qəsabəli gəlin", *қасабалы қалыңдық* (kasabalı kalındık)"qəsabəli kürəkən" ifadələrinin qorunub saxlanması buna sübutdur.

Kasaba yuvarlaq formada, boyun nahiyəsinə doğru girintili, dairəvi çalma şəklindədir. Daş-qaşlı saplarla işlənmiş, qızılı zolaqla örtülmüş, müxtəlif qaşlı ornamentlərlə bəzədilmişdir. *Kasabanın* tədqiqində etnoqraf alim Özbəkəli Canibəyovun böyük xidmətləri olmuşdur [15].

Сәукеле (səukele)– adət-ənənəyə görə qazax qızlarının nişanda geyindiyi, təpəsi hündür, qiymətli daşlarla bəzədilmiş baş geyimidir. Ağ, bahalı keçədən tikilir, tünd qırmızı məxmərlə örtülür, kənarı qunduz və kamşat dəriləri və rəngarəng muncuqlarla bəzədilib bədii naxışlarla işlənilir, kənarlarından mirvari muncuqlar sallanır [10, s. 95]. *Səukele* qıpçaq xalqlarının zəngin tarixi-mədəni irsi, keçmiş əsrlərin adət və ənənələri haqqında məlumat verir. Oğlan tərəfi nişan taxacaqları qıza *səukeleni* əvvəlcədən tikdirirlər. Bu papağın içindəki qiymətli daşlar, parça və bəzək əşyaları qız uşağının cəmiyyətdəki statusunu göstərir. *Saukele* qıpçaq xalqlarının qız-qadına münasibətinin əlamətidir. Ənənəyə görə *səukeleni* gəlin geyinir və onu başqasına geyinməyə vermir. Səukelenin uzunluğu bahalı parça ilə örtülmüş və qiymətli daşlarla bəzədilmişdir. Qiymətli daşın özü rəngli bahalı saplarla parçaya tikilir. Dəyirmi baş geyimi yuxarıya doğru incələşir, ən təpə hissəsinə isə bayquş tükü taxılır. Səukele üzərində bayquş tükü taxmaq sakların dövründən gələn ənənədir. *Səukele* mahir dərzi və tikişçilər tərəfindən hazırlanırdı. Adətən bir usta bir səukela hazırlamaq üçün bir il vaxt sərf edirdi [16].

Bu baş geyimi qaraqalpaq dilində də eyni mənada *сәукеле*(səukele) formasında işlədilmişdir [4, s. 571].

Qırğızlar bu baş geyimini müəyyən fonetik dəyişikliklərlə *шөкүлө* (şökülö)adlandırıblar [5, s. 413]. Bu papaq qazaxlarda olduğu kimi qırğız qadınlarının da konus şəklində tikilmiş xalq baş geyimidir. Bu papağın hündürlüyü təxminən 22-30 santimetrdir. Əvvəllər ağ keçədən tikilir, sonralar isə ortasına yun qoyulur, üstü isə müxtəlif parçalardan hazırlanır, içinə qunduz, tülkü, sansar və s. dəriləri kəsilib tikilir, tutuquşu, qırqovul, qarğa və ya bayquşun qanadları yuxarıya və ya yanlara yapışdırılırmış. Üstü müxtəlif daş-qaşlar, qızıl, ya da mirvari muncuqlarla bəzədilirmiş [1, s. 20].

Qazax dilində türk mənşəli sözlərdə işlədilən *s* samitinin qırğız dilində dəyişərək *ş* samiti ilə əvəzlənməsi halı *səukele* sözündə də öz əksini taparaq *şökülö* formasını almışdır. Qazax dilində ilk hecadakı *əu* diftonqu qırğız dilində *ö* saiti ilə əvəz edilmişdir.

Кимешек (kimeşek)– ağ parçadan hazırlanmış, onurğa və kürəyi örtən qadın milli baş örtüyü. Qadınların tək üzü açıq saxlayıb, baş və çiyinləri örtən baş geyimi. *Ақ жақты кимешекті қарт әжелер, қызыл жақты кимешекті келіншектер, сары жақты кимешекті орта жастағылар киеді.* (Ak jaktı kimeşekti kart əjeler, kızıl jaktı kimeşekti kelinşekter, sarı jaktı kimeşekti orta jastağılar kiyedi) "Ağ rəngli örtüyü yaşlı nənələr, qırmızı rəngli örtüyü yeni gəlinlər, sarı rəngli örtüyü orta yaşlılar geyinirlər". *Кимешек-жаулық* (kimeşek-jaulık) ifadəsi də işlədilir və yaylığın *kimeşek* növünü bildirir [8, s. 23].

Bu baş örtüyünün adı qaraqalpaq dilində də *киймешек* (kiymeşek) şəklində işlənir [4, s. 322].

Qırğızlar *kimeşek* yerinə ***элечек***(eleçek)deyirlər. Evli qadının ağ baş örtüyü mənasına gəlir [5, s. 450]. İlk baxışdan *kimeşek* və *eleçek* sözləri fərqli sözlər kimi görünsə də, fikrimizcə, bu sözlər eyni kökdən əmələ gəlmiş sözlərdir və *eleçek* sözünü *kimeşek* sözünün ilkin forması hesab etmək olar. Qaraqalpaq dilində *kiymeşek* deyilməyini də nəzərə alaraq *кийме элечек* > *киймелечек* > *кимешек* şəklində formalaşdığı qənaətinə gələ bilərik. Beləliklə, mənşəcə iki sözün, yəni *kiyme* və *eleçek* sözlərinin birləşməsindən əmələ gəlmişdir. Qırğız dilində sözün ortasında *ç* samiti ilə işlənən bir çox sözlərin qazax dilində *ş* samitinə keçməsi və bu iki sözün eyni mənanı ifadə etmələri buna dəlil ola bilər.

Kimeşek evli qaraqalpaq qadınının ənənəvi baş geyimlərindən biridir. 1950-ci illərdə kimeşək hələ də çox məşhur idi və əslində hər evdə bir ailə yadigarı olaraq saxlanılırdı. Qaraqalpaqlarda iki növ *kimeşek* olub: gənc qadınlar üçün *қызыл кимешек* (kızıl kimeşek) "qırmızı *kimeşek*" və yaşlı qadınlar üçün *ақ кимешек* (ak kimeşek) "ağ *kimeşek*". *Kızıl kimeşeki* gəlin özü tikməli idi. Alınan məlumatlara görə *kızıl kimeşek* ilk dəfə bəy evində baş tutan toy zamanı gəlinin başına qoyulurdu [17].

Жаулық (jaulık)– Ağ pambıqdan və ya ağ ipəkdən olan qadın baş geyimi; evli qadınların geydiyi baş geyimi; qadının başına salınan ağ rəngli yaylıq [7, s. 212]. Qazaxlarda yaylığın formalarından biri də ***күндік*** (kündik) adlanır [8, s.518].

Qaraqalpaq dilində bu söz *жаулық*(jaulık) şəklində ifadə olunur və "böyük ağ baş geyimi" mənasını verir [4, s. 238].

Qırğız dilində bu söz bir neçə fonetik dəyişiklik ilə *жоолук* (jooluk)şəklində ifadə olunur və iki mənanı ifadə edir: **1.** 1) şal, yaylıq; 2) qadın, arvad; *биринчи байлык - ден соолук, екинчи байлык - ак жоолук.* (birinçi baylık – den sooluk, yekinçi baylık – ak jooluk) "Birinci zənginlik can sağlığı, ikinci zənginlik namuslu qadındır". **2**. qurşaq, kəmər; *жигиттин баары бирдей баатыр болбойт, жоолугун көөдөсүнөн бууган менен*. (jiqittin baarı birdey baatır bolboyt, jooluqun köödösünön buuqan menen) "Oğlanların hamısı qurşağını belindən bağlamaqla eyni igid olmur". Qırğız dilində alınma olmayan sözlərin əvvəlində yazılan *j* samiti *c* səsi ilə ifadə olunur. Bu halda *жоолук* sözü "jooluk" şəklində yazılsa da "cooluk" kimi tələffüz edilir [5, s. 261].

Bu söz Azərbaycan dilində *yaylıq* şəklində işlədilir və üçüncü, ya da dördüncü parçadan ibarət olan baş örtüsü anlamına gəlir [2, s. 562].

Burada biz, sözün əvvəlində qazax və qaraqalpaq dilləri üçün səciyyəvi olan *j* samitinin qırğız dilində *c* səsi ilə, Azərbaycan dilində isə *y* səsi ilə ifadə olunduğunu görürük. Qazax, qaraqalpaq və Azərbaycan dilində ilk hecada işlədilən *a* saitinin qırğız dilində qoşa *o* saiti ilə, qazax, qaraqalpaq və Azərbaycan dilində ikinci hecada işlədilən *ı* saitinin isə qırğız dilində *u* saiti ilə əvəzləndiyini görürük. Bildiyimiz kimi türk dillərində sait səslərin ahəngi qorunur. Qırğız dilində qazax, qaraqalpaq və Azərbaycan dilindən fərqli olaraq dodaq ahənginin də saxlanıldığını görürük.

Göründüyü kimi, *yaylıq* sözü türk dilləri üçün ortaq leksik vahiddir və müxtəlif fonetik dəyişiliklərlə həm qıpçaq dillərində, həm də oğuz qrupuna məxsus olan Azərbaycan dilində işlədilir.

Yaylıq qədim zamanlardan bəri işlədilən qadın qadın baş örtüyüdür. Çin və fars yazılarında erkən saka və massaget tayfalarına mənsub qadınların başlarına yaylığa bənzər baş geyimi örtdüklərinə dair dəlillər var. Zaman keçdikcə hər xalqda özünəxas qadın örtüyü və onun özünəməxsus formaları yaranmışdır. Beləliklə, getdikcə yaylıq qadının başındakı örtükdən başqa həm də bəzək əşyasına çevrilmişdir. Orta Asiya xalqlarında yaylıqların çox sayda müxtəlif növləri formalaşmışdır. Məsələn, Qazaxıstan və Qırğızıstanda gənc subay qızlar qırmızı yaylıq, evli qadınlar isə ağ yaylıq örtmüşlər [17].

Nəticə və elmi yenilik. Bu məqalə Orta Asiya qıpçaq dillərində (qazax, qaraqalpaq və qırğız) qadın baş geyimlərinin terminologiyasının müqayisəli şəkildə tədqiq edildiyi ilk tədqiqatdır. Burada *бөрік* (börik), *тақия* (takiya), *қасаба* (kasaba), *сәукеле* (səukele), *кимешек* (kimeşek), *жаулық* (jaulık) sözlərinin təhlili aparılmış və gəlinən nəticə bu olmuşdur ki, bu baş geyim adları Orta Asiya qıpçaq dilləri üçün ortaq olsa da müxtəlif fonetik fərqləri də vardır. Bu fərqlər daha çox qazax və qırğız dillərində müşahidə edilir. Məsələn, qazax dilində *кимешек* (kimeşek) sözü qaraqalpaq dilində ***киймешек*** (kiymeşek), qırğız dilində *элечек* (eleçek) şəklində ifadə olunsa da bu sözlərin eyni

kökdən gəldiyi məqalədə göstərilmişdir. Məqalədə Azərbaycan dili ilə müqayisəyə də yer verilmiş və *жаулық* (jaulık) sözünün Azərbaycan dilində *yaylıq* şəklində işləndiyi göstərilmişdir.

Ümumi olaraq demək olar ki, Orta Asiya qıpçaq dilləri üçün qadın baş geyim adlarının əksəriyyəti ortaqdır, fonetik fərqlər isə çox azdır. Bu məqalədə bu baş geyim adları qazax, qaraqalpaq və qırğız dillərindən başqa geridə qalan digər türk dillərində əhatə olunmamışdır. Və baş geyim adlarının digər türk dillərində də müqayisəli şəkildə araşdırılması türkologiyanın önündə duran çox vacib məsələlərdən biridir. Müxtəlif türk dillərində geyim adlarını bu şəkildə müqayisə etməklə, hətta onları alınma sözlərin etimologiyası ilə tutuşdurmaqla xeyli nəticə çıxarmaq olar. Bu mövzunun araşdırılması həm türk dilləri, həm də Orta Asiya qıpçaq dillərinin geyimləri haqqında anlayışımızı xeyli artırar.

İstifadə edilmiş ədəbiyyat

1. Акматалиев Амантур Сейтаалы уулу. Кыргыздын кол өнөрчүлүгү. Бишкек 1996, 256 б.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, 4-cü cild. Bakı, “Şərq-Qərb”, 2006, 712 s.
3. Дмитриев Н. К. К вопросу о словарном составе гагаузского языка // Строй тюркских языков, Москва 1962, 659 с.
4. Каракалпакско-русский словарь, Москва государственное издательство иностранных и национальных словерей, Москва 1958, 888 б.
5. Киргизско-русский словарь, Москва, издательство Советская энциклопедия, 1965, 474 б.
6. Қазақ әдебі тілінің сөздігі. Он бес томдық. 3-том / Құраст. Б.Суйеркұлова, Т.Жанұзақ, О.Жұбаева және т.б. — Алматы, 2011. 3-том. — Б. — Б. — 744 б.
7. Қазақ әдебі тілінің сөздігі. Он бес томдық. 6-том / Құраст. Ж.Қоңыратбаева, Ғ.Қалыиев, Қ.Есенова және т.б. — Алматы, 2011. 6-том. — Ж. — Ж. — 752 б.
8. Қазақ әдебі тілінің сөздігі. Он бес томдық. 8-том / Құраст. Қ.Құдерінова, О.Жұбаева, М.Жолшаева және т.б. — Алматы 2011. 8-том — К. — Қ. — 744 б.
9. Қазақ әдебі тілінің сөздігі. Он бес томдық. 9-том / Құраст. Ә.Ыбырайым, А.Жаңабекова, Қ.Рысбергенова және т.б. — Алматы, 2011, 9-том. — К. — Қ. — 744 б.
10. Қазақ әдебі тілінің сөздігі. Он бес томдық. 13-том / Құраст. А.Фазылжанова, Н.Оңғарбаева, Қ.Ғабитханұлы және т.б. — Алматы, 2011. 13-том, — С. — Т. — 752 б.
11. Қазақ тілінің түсіндірме сөздігі. Жалпы редакциясын басқарған Т.Жанұзақов. – Алматы: Дайк-Пресс, 2008. – 965 б.
12. Севортян Э. В. Этимологический словарь тюркских языков: Общетюркские и межтюркские основы на букву"Б" /АН СССР.Ин-т языкознания. – Москва: Наука, 1978. – 349 с.
13. Қазақ, қырғыз, әзербайжан халықтарының ұлттық киімдері. https://www.youtube.com/watch?v=12JB5OddzKU (02.05.2024).
14. Гүлдана Мұқан. Қазақша такия: ұлттық бас киімнің тарихы. 06.11.2023, Bazaar (sayt). https://harpersbazaar.kz/qazaqsa-taqiya-ulttiq-bas-kiimnin-tarixi/
15. Қымбат Слямбек. Қасаба деген не? Massaget, 09.07.2021 https://massaget.kz/mangilik_el/shanyirak/salt-dastur/65598/
16. Қазақтың сәукелесі туралы қызықты деректер, Sputnik Қазақстан (sayt). 06.10.2021 https://sputnik.kz/20211006/qazaq-saukele-kyzyk-derekter-photo-18329770.html
17. Н.П. Лобачева, К истории среднеазиатского костюма: каракалпакский кимешек, Кунград (sayt). http://kungrad.com/history/etno/kim/

MÖVLUD SÜLEYMANLININ POVESTLƏRİNDƏ FRAZEOLOGİZMLƏR ("ŞANAPİPİK" POVESTİ ƏSASINDA)

Ülviyyə İbrahimova*

Abstract

Phraseologisms in the narratives of Movlud Suleymanli (Based on the "Shanapipik" narrative)

Phraseological expressions are word combinations or phrases that can figuratively express a word or concept as a whole. These expressions are more characteristic of the colloquial language; they are readily available in the language. The use of such expressions in the artistic language also creates artistic imagery, harmony, and shades in the works.

When studying the literary language of a writer, to pay less attention to his phraseology can lead to an underestimation of the writer's language and style and an incomplete study. The richness, historicity, and phraseological expressions of the vocabulary of the literary language of Azerbaijan are among the layers of deep meaning. Therefore, the study of phraseological expressions is important from the point of view of the study of folk memory in the writer's language. In the article, phraseologisms in the literary language of the Azerbaijani folk writer Movlud Suleymanli were studied and grouped by meaning.

Keywords: *phraseologisms, language, vocabulary composition, literary language, phraseology.*

Giriş. Məlumdur ki, dildə söz birləşmələri sərbəst və sabit olmaqla iki yerə bölünür. Bunlardan ikincisi, yəni sabit söz birləşmələri frazeoloji ifadələr adlandırılır.

Frazeoloji ifadələr bütövlükdə bir sözü, məfhumu məcazi anlamda ifadə edə bilən söz birləşməsi və ya ifadələrdir. Frazeoloji ifadənin tərəfləri elə birləşir ki, onları bir-birindən ayırmaq, hər hansısa sözü başqası ilə əvəz etmək və ya bu sözləri müstəqil mənada düşünmək mümkün olmur. Bu ifadələr daha çox xalq danışıq dilinə xasdır, dildə hazır şəkildə mövcud olur. "Milli mentallıq frazeologiyada verballaşır və bu ifadələrin semantik sahəsində milli şüurun ekspressiyası yatır. Milli şüurun müəyyən konseptlərlə bağlı təsəvvürünü verballaşdıran bu ifadələrin bədii dildə işlənməsi mətnin yalnız canlılığını və gözəlliyini təmin etmir, həm xalq danışıq dili ilə ədəbi dilin çulğalaşmasına, həm də idiomatik ifadələrin yazılı dilin yaddaşına köçməsinə xidmət edir" [1, s. 69]. Belə ifadələrin bədii dildə istifadəsi də əsərlərdə bədii obrazlılıq, ahəngdarlıq və özünəməxsus çalar yaradır.

"Dildə bu və ya başqa məna, yaxud məzmunu ifadə edən hər bir sabit birləşməyə, bölünməz ifadə və ibarələrə frazeoloji vahid deyilir" [8, s. 369]. Ədəbi dil faktından daha çox şifahi dil faktı hesab edilən frazeologizmlər "yazıçının dilini xalq dili ilə həmahəngləşdirir, sanki bədii əsərin milli ruhda canlanmasını şərtləndirir, məzmununun maraqlı qurulmasına, ideyasının daha təsirli olmasına kömək göstərir" [1, s. 70]. Bu isə oxucuda əsərə marağın yüksəlməsinə, oxucunun mütaliə etdiyi mətnə bağlanmasına səbəb olur.

Bəddi əsərlərdə frazeologizmlərdən məharətlə istifadə edən yazıçı həmsöhbəti ilə rəvan danışır, öz fikir və düşüncələrini, xalqın keçmişindən süzülüb gələn ifadə və cümlələrlə ifadə edə bilir.

"Frazeologizmlər özlərinin kommunikativ ifadə zənginliklərini saxlamaqla getdikcə saflaşır, obrazlılığı, ekspressivliyi, ifadəliliyi artırmaqla, nitqin səlisliyini, emosionallığını təmin edir" [13, s. 3]. Belə ki, xüsusi ekspressiyaya malik olan bu birləşmələr yazıçı dilini statik-texniki ifadəetmələrdən azad edir, ona emosional çalar və təbii təhkiyə gətirir.

Bir yazıçının ədəbi dilini tədqiq edərkən onun frazeologiyasına diqqət etməmək yazıçının dil və üslubunu lazımi qədər qiymətləndirməməyə və natamam öyrənməyə gətirib çıxara bilər. Ədəbi dilimizin lüğət tərkibinin zənginliyi, tarixiliyi, frazeoloji ifadələrin dərin məna qatları arasındadır. Odur ki yazıçı dilində xalq yaddaşının öyrənilməsi baxımından frazeoloji ifadələrin tədqiqi əhəmiyyətlidir.

Bakı Dövlət Universiteti, Azərbaycan dilçiliyi kafedrasının doktorantı. Elek.poçt: ulviyya.ibrahimova.rahman@gmail.com. Elmi rəhbər: Prof. Zemfira Şahbazova.

Əsas hissə. Ədəbiyyata XX əsrin 70-ci illərində qədəm qoyan mərhum Xalq yazçısı Mövlud Süleymanlının yazıçı üslubu orijinallığı ilə seçilir. Milli düşüncə və insan daxili aləminin mürəkəbliyini əks etdirən əsərlərində yazıçı bir-birindən fərqli və zəngin obrazlar vasitəsilə oxucuya həyatın reallıqlarını ədəbiyyatın fantastikası, mistikası ilə çatdırır. Yazıçı dünya müharibəsindən Vətən müharibəsinə, toy-bayramdan yasa, keçmişdən bu günə, bu gündən sabaha doğru uzanan mövzu arealı ilə oxucusunu düşünməyə vadar edir. Vətənini, milli kimliyini, varlığını, yaşamını, ölümünü, yaradılanı və yaradanı, keçmişi, gələcəyi düşünməyə.

Zəngin ədəbi dilə malik Mövlud Süleymanlı yaradıcılığından xalqımızın tarixi, etnoqrafiyası, folklor qaynağı, mənəvi-əxlaqi dəyərlərinin toplusu kimi bəhrələnmək mümkündür. Yazıçı qələmindən süzülən hər bir sətir onun ruhunu, hərarətini, qürurunu, sevincini, təəssüfünü, ümidini oxucuya çatdırır. "Frazeologiyanın bu və ya digər mədəni kodla əlaqələndirilməsi mədəni-milli mənliyin məzmununu təşkil edir" [7, s. 125]. Mövlud Süleymanlı yaradıcılığında da frazeologizmlər birbaşa xalq yaddaşının ifadəsidir.

Yazıçı bütün yaradıcılığında zəngin xalq ifadələri və deyimlərindən istifadə etmişdir. Təkcə "Şanapipik" povestində 70-dən çox belə ifadə müşahidə olunmaqdadır. Mövlud Süleymanlının ədəbi dili özünəxasdır, onun frazeologizmlərini də özünəxas hesab etmək olar.

Dildə frazeologizmlərin qrammatik strukturuna görə təsnifi mübahisəlidir. Belə ki, Səlim Cəfərov sabit söz birləşmələrinə idiomlar, ibarələr, hikmətli sözlər, atalar sözləri, zərbi-məsələr və tapmacaları aid etmişdir. Bir çox alimlər isə frazeologizmləri struktur-qrammatik cəhətdən iki qrupa ayırır. "Bölgünün birinci qrupunu söz birləşməsi şəklində olan frazeologizmlər, ikinci qrupunu isə cümlə şəklində olan frazeologizmlər təşkil edir" [11, s. 115]. İkinci qrupda "xalq dilində işlənən hikmətli sözlər, ideomatik ifadələr yer alır" [4, s. 191].

Mövlud Süleymanlının ədəbi dilində həm söz birləşməsi, həm də cümlə strukturunda frazeoloji ifadələr mövcuddur:

"Deyərlər, ***sərçəsi artıq ilin xatası var,*** *hər şeyi unutdu, bir bu qaldı huşunda"* [14, s. 35]; *"****Dərd dərdi gətirər****"* [14, s. 36] və s. Bu nümanələrdə işlənən ifadələr xalq rasında istifadə edilən deyimlərdir. Müəyyən mənada xalqın mifoloji təfəkkürü ilə bağlı olan bu deyimlər inancı bildirir. Xalq arasında hər şeyin çoxu kimi köçəri quşların da çox olması bir təhlükədən xəbər verir. Dünya müharibəsinə həsr olunan əsərdə davanın güllə-baranından qaçıb qurtulmaq istəyən quşlar bu kəndə üz tutmuş, kənd camaatının əkin sahələrindən qidalanmışlar. Elə buna görə də Telli qarı günahsız quşlarda bir günah axtarmış, öz çarəsizliyini dilə gətirmişdir.

Söz birləşməsi şəklində olan frazeologizmlərə aşağıdakıları misal göstərmək olar:

"Davadan maşınların gəlməyi heç cür Əbdülün ***ağlına sığışmırdı"*** [14, s. 19]; *"****Rastına çıxan*** *qocalar, qarılar da onun ardınca getdilər"* [14, s. 23] və s.

Frazeologizmlərin tərkib hissələrinə görə təsnifi isə, demək olar, bütün alimlər tərəfindən eyni cür qəbul edilib. "Əsas sözün qrammatik xüsusiyyətinə görə frazeologizmləri iki qrupa ayırmaq olar: a) ismi frazeologizmlər, b) feili frazeologizmlər" [6, s. 363].

Mövlud Süleymanlı yaradıcılığında ***ağlını başına yığmaq, bağrı çatlamaq, dişini qıcamaq, əl çəkməmək, fikrini dağıtmaq*** kimi feili, eyni zamanda ***qara kağız, üzü qara*** kimi ismi frazeologizmlər işlənməkdədir:

"Gəlsən, ay Sayalı, – dedi, sonra dönüb sərçələrin uçduğu səmti göstərdi, – ***əl çəkmir*** *qapıdan qırılmış, davanı bunlar gətirdi"* [14, s. 17]; *"Yaxşı, gedin işinizdə olun,* ***ağlınızı başınıza yığın,*** *bu gün-sabah hamı qayıdıb gələcək, üzlərinə çıxmağa üz-göz saxlayın özünüzdə*" [14, s. 31]; *"Qonşusu Sayalı arvad hay-həşirə gəlib çəpərdən baş uzatdı, gördü ki, Telli qarı göyə daş atır, arvadın* ***əli üzündə qaldı****, qorxulu-qorxulu səsləndi"* [14, s. 17].

Mövlud Süleymanlının bir çox əsəri kimi "Şanapipik" povesti də II Dünya müharibəsinə, həmin müharibənin xalqımızda açdığı yaralara həsr olunub. Bunun üçün də əsər boyu yuxarıda sadalanan nümunələrdən ***qara kağız*** dəfələrlə obrazlar tərəfindən xatırlanıb. "Ölüm xəbəri yazılmış məktub" [9, s. 183] mənasını bildirən bu ifadə obrazların kədərinin, hər an yaxınlarını itirmək qorxusunun əksidir. Əsərdə hadisələrin baş verdiyi kəndin bütün cavanları müharibəyə yollanıb. Kənddə yalnız döyüşmək

qabliyyətindən məhrum insanlar yaşayırlar. Müharibənin bitməsindən sonra əzizlərinin yolunu həsrətlə gözləyən kənd əhli özünü ən pis vəziyyətə – "qara kağız"a hazırlayıb.

Dildə işlənmə tezliyinə və anlaşıqlığına görə frazeologizmləri ümumi və xüsusi növlərə ayırmaq mümkündür. Ümumi frazeolgizmlərə ***könlünü almaq, özündən çıxmaq, yol gözləmək*** və s. kimi nümunələri aid etmək olar. Belə ifadələr anlaşıqlıdır, şifahi nitqdə tez-tez işlənir.

"Mən özüm dörd qardaş ***yolu gözləyriəm***" [14, s. 49]; *"Anna Korneyeva da azərbaycanca qırıq-qırıq cümlələrlə Telli qarını* ***başa salardı****, dolmuş gözləriylə gülümsəyə-gülümsəyə* ***könlünü alardı****"* [14, s. 23].

Xüsusi frazeologizmlərə isə daha az işlək olan ifadələr aiddir. "Frazeologiya elə bir alt sistemdir ki, dildə baş verən dəyişikliklərə digərlərindən daha az məruz qalır. Sabit ifadələrin bir hissəsi olaraq, nitqdə artıq sərbəst formada olmayan arxaik sözlər və söz formaları tez-tez istifadə olunmağa davam edir" [3, s. 29]. Mövlud Süleymanlı ədəbi dilində də ümumişlək olmayan, dildə az işlənən frazeologizmlərə rast gəlinir. Belə nümunələrdən biri ***qor bağlamaq*** ifadəsidir.

"Tonqal dilimlənə-dilimlənə yanırdı, bir parça palıd kötüyü ***qor bağlamışdı****, ipəklənib közərirdi"* [14, s. 22].

Bu frazeoloji vahidin frazeologiya lüğətlərində izahı yoxdur. Qor "ocaq və ya təndirdə odun yandıqdan sonra qalan xırda od parçaları, kül arasında işıldayan xırda kömür parçaları"dır [2, s. 181]. Nümnədə də kötüyün közərməsini ifadə etmək üçün işlənib.

Yazıçının dilində ***züy tutmaq*** frazeoloji vahidi işlənib ki, bu da iki cür anlaşıla bilər: "1) başqasının fikrini, sözünü ona xoş gəlmək xatirinə, yaltaqlanmaq məqsədilə təsdiq etmək; 2) bir səsi başqa bir səsə uyğunlaşdırmaq, ahəng yaratmaq" [9, s. 285]. Bu frazeoloji vahid "Şanapipik" povestində ikinci mənada anlaşılır:

"Uşaqlardan biri nağaraya vurdu, nağara gumbuldadı, nağaraçı səksənib günahkar-günahlkar dörd yanına boylandı, oturanların hamısı diksinən kimi olub dönüb baxdılar, təkcə zurnaçıyla ***züy tutan*** *tərpənmədi"* [14, s. 48].

Mövlud Süleymanlı sözləri sadəcə hərflər yığını, cümlələri sadəcə söz yığını kimi görmür. O bir rəssam kimi hər cümləyə, hər ifadəyə öz rəngini, öz dəsti-xəttini qatır. Dilin saysız-hesabsız qatları arasında qalan, az işlənən ifadələri tapıb oxucuya elə təqdim edir ki, oxucu əsəri hərfləmir, onunla söhbət edir.

"Aydın maşının dörd yanında ***dil deyib ağlayan*** *arvadlara baxdı, gördü ki, yox, dava qurtarmayıb, kəndə gələndən ilk dəfəydi ki, təzədən cəbhədə olmaq istədi"* [14, s. 30]. Bu nümunədə işlənən frazeoloji vahid dil demək frazeologizmi ilə bağlıdır: "dil demək – ağı demək; dil deyib ağlamaq – ağı demək"dir [5, s. 451-452]. Kəndin müharibəyə yollanan cavanlarından xəbər ala bilməyən kənd camaatı hər hər dəfə ümidsizliyə qapıldıqda ağı deyir, dil deyib ağlayır.

Mövlud Süleymanlı ədəbi dilində işlənən frazeologizmləri tərkib hissələrinin bildirdiyi məna cəhətən bir neçə qrupa ayırmaq mümkündür: insanın bədən üzvləri ilə bağlı – somatik, insana aid məfhumları bildirən sözlər, hərəkət və hadisəyə aid sözlər, onomastik vahidlər vasitəsilə yaranan və s. frazeologizmlər.

Ümumiyyətlə, dildə"frazeoloji birləşmələrə daxil olan nümunələrin çoxu somatik əlamət daşıyır" [10, s. 105]. Belə ifadələr insanın bədən üzvlərinin adlarından yaradılan frazeologizmlərdir. Məsələn, ***ağlı başında olmaq, ağlını başına yığmaq, ayaqları tutmaq, başa düşmək, başa salmaq, başı çıxmaq, baş-başa vermək, başına dönmək, başına oyun açmaq, burnunun ucu göynəmək, dişini qıcamaq, əl çəkməmək, əl eləmək, əl-ayağı yığılmaq, əli üzündə qalmaq, əl-qolunu ölçmək, göz gəzdirmək, gözdən itmək, gözləri önünə gəlmək, gözləri qabağına gəlmək, gözü yolda olmaq, gözünə dəymək, gözü olmaq, iliyinə işləmək, qulaqları səsdə olmaq, ürəyini açmaq, üz tutmaq*** və s. "Somatik frazeologizmlər etnik düşüncənin ifadəsi olub, alqış-qarğış tipli ifadələrdə də daha çox kodlaşıbdır" [12, s. 9].

"Arvad əvvəl ağlamsındı, sonra ***əl-qolunu ölçə-ölçə:*** *–* ***Qolun qurusun****, – dedi..."* [14, s. 18];*"Qəhərdənmi, nədənsə* ***səsi boğazında qaldı****"* [14, s. 23]; *"****Başına dönüm****, hara göndərdin uşağı, bu nə sözdü kənddə gəzir?"* [14, s. 24]; *"Nəsib kişi bayaqdan arabada necə oturmuşdusa, eləcə də sədrin* ***gözləri önünə gəldi****"* [14, s. 26].

Sadalananlardan əlavə, bədən üzvü ifadə etməyən, lakin insana aid məfhumları bildirən sözlər vasitəsilə yaranan frazeoloji vahidlərə də Mövlud Süleymanlı yaradıcılığında rast gəlmək mümkündür. Məsələn, ***fikrini dağıtmaq, hirsi soyumamaq, ağlına sığışmamaq, bağrı çatlamaq, huşu getmək, içini çəkmək, özündən çıxmaq, rəngi qaçmaq, yadına düşmək*** və s. Bu ifadələr insan ruhi halını bildirir.

*"Neçə ay idi, Telli qarı yox idi, Sayalı **özünə yer tapa bilmirdi**"* [14, s. 45]; *"Hər şey **huşundan çıxdı**, bircə sərçələr qaldı"* [14, s. 35]; *"İstəyirdi Sayalıya cavab versin, amma **hirsi soyumadığından** söz tapa bilmirdi, əlində bərk-bərk sıxdığı daşı hara gəldi atmaq istəyirdi ki, Sayalının səsini bir də eşitdi"* [14, s. 17]; *"Telli qarı gözümə birtəhər dəydi, – dedi, – elə bil **huşu gedir** arvadın"* [14, s. 18].

Dildə elə frazeoloji vahidlər də var ki, bunlar müəyyən təbiət hadisəsi və ya müəyyən bir hərəkətə, işə aid olur. Məsələn ***dünyanı başına yıxmaq, ev-eşiyini başına uçurmaq, qaş qaralmaq, aman verməmək, gün ağlamaq, qorxuya düşmək, quruyub qalmaq, yuxu aparmaq, yuxuya getmək*** və s.

*"Gün batmışdı, **qaş qaralhaqaraldaydı,** birdən-birə Əbdülə bu dərələr elə dərin göründü ki, bilmədi neyləsin..."* [14, s. 21]; *"Əbdül Ninnini xatırladı, sonra da Dilbəri, elə beləcə mürgüldü, hop-hopun səsini eşidə-eşidə **yuxuya getdi**"* [14, s. 22]; *"Əkin yerlərinin arasıyla ağara-ağara dolanan daş yolda bir maşın göründü, **quruyub qalan** camaata sarı yaxınlaşdı"* [14, s. 28].

Mövlud Süleymanlının "Şanapipik" povestində onomastik vahidlərlə əmələ gələn frazeoloji vahidlər də yer alıb: ***Allaha daş atmaq, üstünü Əzrayıl almaq*** və s. Bu frazeologizmlər xalqın inamı ilə bağlıdır.

*"Nə oğlu qalıb yadında, nə kənd qalıb yadında, işi **Allah daş atmaqdı**"* [16, s. 36]. Povestdə oğlunu müharibədə itirən və ümidsizcə onun yolunu gözləyən, oğlunun qara kağızını və ya yaşaması ilə bağlı bir xəbər almayan ana – Telli qarı sərçələri günahlandırır. Əsər boyu Teli qarının sərçələrə daş atmasını müşahidə edirik. Lakin bu cümlədə yazıçı Telli qarının, əslində, sərçələrin timsalında Allahı günahlandırdığını, yaradana şikayətini təsvir etmişdir.

*"Bir bağlı qapı açsanız, aaz, **Əzrayıl alıb üstümü**, canımı dişimə utub adam gözləyirəm, deyiləsi sözüm var Kamala..."* [14, s. 44]. Bu frazeoloji vahid insanın ölümə yaxın olduğunu, canını tapşırmaqda olduğunu bildirir. Nümunədəki cümlə isə Telli qarının son sözləri idi. Əsərin əvvəlində Allaha daş atan Telli qarını indi Əzrayıl ziyarət etmişdi.

Nəticə və elmi yenilik. Araşdırma nəticəsində aydın olur ki, frazeoloji vahidlərin ədəbi dilə gətirilməsi, bədiilik və obrazlılığa xismət edən vasitə kimi istifadəsi dili heç də ağırlaşdırmır. Bədii daha rəvan və oxunaqlı edir. Mövlud Süleymanlı yaradıcılığında da bir-birindən fərqli struktura və mən çalarlarına malik frazeologizmlərin istifadəsi onun dilin imkanlarından məharətlə faydalanmaq bacarığını nümayiş etdirir. Məqalədə yazıçının "Şanapipik" povestindəki frazeologizmlər ilk dəfə tədqiqata cəlb edilmişdir.

Yazıçının ədəbi dilində cümlə və söz birləşməsi strukturuna malik; ismi və feili; ümumi və xüsusi frazeoloji ifadələr onu daha da zənginləşdirib. Məqalədə yazıçının ədəbi dilindəki frazeologizmlər tərkib hissələrinin bildirdiyi mənaya görə 4 əsas qrupda təsnif edilib: 1)insanın bədən üzvləri ilə bağlı – somatik frazeologizmlər; 2) insana aid məfhumları bildirən sözlər vasitəsilə yaranan frazeologizmlər; 3) hərəkət və hadisə bildirən frazeologizmlər; 4) onomastik vahidlər vasitəsilə yaranan frazeologizmlər.

İstifadə edilmiş ədəbiyyat

1. Ağasiyeva M. Qantəmirin nəsr dili. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Sumqayıt, 2022, 134 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. III cild (4 cilddə). Bakı: Şərq–Qərb, 2006, 672 s.
3. Eminli B. Frazeologizmlər linqvokulturoloji aspektdə // Karaelmas Sosyal Bilimler Dergisi, Cilt 1, Sayı 1, Haziran 2023, s. 26–32
4. Əlizadə T., İmanova İ. Frazeoloji vahidlərin leksik-semantik xüsusiyyətləri // Filologiya məsələləri №1, 2024, s. 191–197
5. Həmidov İ., Qocayev M., Məmmədova R., Həmidova L. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı: TEAS Press Nəşriyyat evi, 2020, 1560 s.

6. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası, ali məktəb tələbələri üçün dərslik. Bakı: Nurlan, 2005, 452 s.
7. Kazımova R. İnsanı səciyyələndirən frazeoloji vahidlərin linqvokulturoloji müqayisəli analizi // İPƏK YOLU, No.4, 2021, s. 122–126
8. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild (2 cilddə). Bakı: 2019, 464 s.
9. Məhərrəmli Q., İsmayılov R. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı: Altun kitab, 2015, 288 s.
10. Məmmədova X. Azərbaycan dilinin dialekt və şivələrində frazeoloji birləşmələr // İPƏK YOLU, No.4, 2018, s. 104-107
11. Mirzəyeva A. Cümlə şəklində olan frazeologizmlər // İPƏK YOLU, No.2, 2018, s. 115–121
12. Nəbiyeva K. Azərbaycan qadın şairlərinin dilinin frazeologiyası (M.Dilbazi ə N.Rəfibəyli şeirləri əsasında). Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2017, 32 s.
13. Salayeva F. XX əsrin ikinci yarısında Azərbaycan dilçiliyində frazeologiya nəzəriyyəsinin inkişafı. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2013, 27 s.
14. Süleymanlı M. Seçilmiş əsərləri. Bakı: Şərq–Qərb, 2006, 480 s.

DİALEKT ANLAYIŞININ TƏZAHÜR FORMALARINA SOSİOLİNQVİSTİK YANAŞMA

Səmra Həsənzadə*

Abstract

Sociolinguistic approach to the manifestations of the concept of dialect

In the literature of linguistics, dialects are divided into two groups: regional and social. When looking at books on dialects, there is a tendency to distinguish between regional dialects - the types of language used as a means of communication for the local population in a certain area, and social dialects - the types of languages spoken by certain social groups of the population. Regional and social dialects, which are manifestations of the concept of dialect, are interpreted separately in the article, and they are treated as closely related concepts in terms of socio-historical factors. At the same time, the changes that occur in those concepts under the influence of geographical and social factors are determined and studied from a sociolinguistic point of view.

Keywords: *dialect, social dialect, regional dialect, variation, sociolinguistics.*

Giriş. Dialektləri, eyni zamanda dialektologiyanı öyrənməyə maraq dilçilikdə çox gec, təxminən XIX əsrdə yaranmışdır. Məlum olduğu kimi, linqvistik tədqiqatlar XVIII əsrin sonlarına qədər daha çox ədəbi dillərin formalaşması və dilin təkamülü problemlərinə yönəlmişdir. Çünki Antik dövrün dilçilik baxımından bu məsələlərə gətirdiyi nəzəriyyələr alimləri qane edəcək səviyyədə deyildi. Bu səbəbdən bu problemlərin həlli üçün əsrlər boyu böyük səylər sərf edilmişdir. Məşhur fransız dilçisi A.Meye çox doğru şəkildə ifadə etmişdir ki, "Dialektləri öyrənən elmi olmadan, xüsusən də tam və yaxşı təşkil olunmuş dil coğrafiyası (geographie linguistique) olmadan dil tarixi yaradıla bilməz" [12, s. 240]. XVIII əsrin qrammatikləri arasında belə bir tendensiya müşahidə olunurdu ki, daha qədim və yerli formalara nisbətən yazılı dil və yuxarı siniflərin dili olan standart dil (ədəbi dil) daha geniş əqli tələblərə malik idi və bunu xalqın savadsızlıq və diqqətsizlik dərəcəsindən qaynaqlanırdı. Yalnız bundan sonra dialektlərin və daha dar mənada şivələrin öyrənilməsinin vacibliyi dilçilər tərəfindən qəti şəkildə qəbul edildi. Həqiqətən, məsələn, fransız dili "dialekt" sözünü 1550-ci ildən tanısa da, "dialektologiya" termini ilk dəfə fransız dilində indiki mənası ilə 1881-ci ildə sözügedən elmin adı kimi istifadə edilmişdir. Qrimm qardaşlarının da daxil olduğu alman romantikləri başa düşürdülər ki, keçmiş mədəniyyətlər haqqında olan yazılar standart (ədəbi) alman dilində yazılmayıb, bununla belə onlar həmin məlumatları yerli şifahi nitq növlərində, xalq biliklərində tapa bilərlər.

Ümumi istifadədə, əlbəttə ki, dialekt, ümumiyyətlə, kəndli, fəhlə sinfi və ya nüfuzu olmayan digər qruplarla əlaqəli, standart olmayan, aşağı statuslu, çox vaxt köntöy dil formasıdır. Dialekt həm də tez-tez dil formalarına, xüsusən də yazılı forması olmayan dünyanın daha təcrid olunmuş yerlərində danışılanlara tətbiq olunan bir termindir. Və dialektlər də tez-tez düzgün və ya standart bir dil formasının aberrasiyaları kimi normadan bir növ sapma kimi qəbul edilir.

Əsas hissə. Dilçilik ədəbiyyatlarında dialektlər regional və sosial olmaqla iki qrupa ayrılır. Ümumiyyətlə, dialektləri öyrənən kitablara nəzər saldıqda regional dialektləri - müəyyən ərazidə yerli əhali üçün ünsiyyət vasitəsi kimi istifadə olunan dilin növlərini və sosial dialektləri - əhalinin müəyyən sosial qruplarının danışdığı dil növlərini ayırmaq adəti müşahidə olunur.

Regional dialekt coğrafi əsaslıdır. Bu o deməkdir ki, həmin dialekt coğrafi əraziyə görə fərqlənir. Fərqlər tələffüz, söz seçimi və sintaksis baxımından nəzərə çarpır. Regional təyini ilə yanaşı bəzi dilçilik ədəbiyyatlarında məhəlli, ərazi və ya yerli dialekt şəklində də rast gəlinir ki, bu da öz adı ilə dilin sosial deyil, coğrafi bölgüsünə daha çox şahidlik edir. Bununla belə, onu da qeyd etmək lazımdır ki, ərazi lokalizasiyası bu submilli dilin xarakterik xüsusiyyətlərindən yalnız biridir. Eyni zamanda, bu, həm də sosial dil müxtəlifliyidir, çünki yerli dialekt kifayət qədər sosial cəhətdən müəyyən edilmiş insanlar dairəsi tərəfindən danışılır. Təsadüfi deyil ki, V.M.Jirmunski vurğulayırdı ki,

* ***Bakı Dövlət Universiteti, Ümumi dilçilik kafedrasının doktorantı. Elek.poçt: semrahesenzade@yahoo.com. Elmi rəhbər:*** *Akad. Nizami Cəfərov.*

“Dialektlərin ərazi və sosial olaraq ənənəvi bölünməsi xəyalidir, hər hansı ərazi dialektologiyası dil reallığının özünə uyğun olaraq həm də sosial dialektologiya olmalıdır” [7, s. 23]. Dialektologiya sahəsinə yalnız ərazi dialektlərinin tədqiqi aid edilməsi və sosial dialektlər isə sosiolinqvistikanın predmeti hesab olunması da mahiyyətcə özünü doğrultmur. Hər şeydən əvvəl ona görə ki, eyni zamanda, əksər dil icmalarında müasir ərazi dialektləri də sosial dialektlərdir və bu onunla izah olunur ki, onlar yalnız kəndlilər və şəhər əhalisinin aşağı təbəqələri tərəfindən istifadə olunur. Nümunə kimi deyə bilərik ki, dialektlərin sosial vəziyyətinin aşağı olduğu Rusiya, İngiltərə, Fransada vəziyyət belədir. V.M.Buxarov hesab edir ki, “Dilin coğrafi əsasda dialektlərə bölünməsi eyni zamanda, linqvocəmiyyətin fəaliyyət maraqları və təmasları dialektlərin sərhədləri ilə üst-üstə düşməyən qruplara bölünməsi deməkdir. Buradan iki nəticə çıxır: birincisi, dialektin fərdin sosiallaşması prosesi ilə birbaşa əlaqəsi haqqında, ikincisi, cəmiyyətin kommunikativ ehtiyaclarının inkişafı dialektlərin və dialektlərin tətbiq sahələrinin həcminin dəyişməsi və daha geniş kommunikativ imkanlara malik yeni regionlararası dialektlərin yaranması ilə nəticələnir” [2, s. 38].

Regional dialektlərlə əlaqədar olaraq əsas nümunələrdən biri Çin picin ingilis dilidir. Çin picin ingilis dili 1849-cu ildə Amerikanın qərb sahillərində geniş yayıldı. Picin ingilis dilinin yayılmasında Çin tacirləri və dənizçiləri böyük rol oynadılar. Onlar təkcə mal və müxtəlif əşyalar daşımırdılar, həmçinin onlar yeni diyara yeni dil daşıdılar. Eyni zamanda deyə bilərik ki, o yerdə almanlar, fransızlar, ispanlar kimi müxtəlif millətlər var idi. Doğma insanlarla ünsiyyətdə olurdular və onların nitqi, səbəbkarı doğma danışanın nitqinə təsir edirdi. XIX əsrdə Picin ingilis dili Amerikanın qərb sahillərində çox məşhur idi.

Regional dialektdə dialekt dəyişikliyi bir-birini tamamlayan üç amildən təsirlənir: zaman, məkan və sosial-mədəniyyət. Bu ifadələr o deməkdir ki, hər bölgənin fərqli dialekti var. Bununla belə, “dialektlər arasında qarşılıqlı anlaşılan zəncir sayəsində hələ də bağlı olan müxtəlif bölgələrdən olan insanlar danışarkən bir-birlərini anlaya bilirlər. Bir kəndi digərindən fərqləndirən fərqlər daha böyük və ya kiçik ola bilər, lakin başladığımız nöqtədən nə qədər uzaqlaşsaq, dialekt bir o qədər fərqli olacaq” [3, s. 5]. Məsələn, belə bir nümunə göstərək ki, A kəndindən danışanlar B kəndinin insanları əla, F kəndindən olanları isə yaxşı başa düşərkən M kəndinin nitqini ancaq xeyli çətinliklə başa düşə bilər. Z kəndinin nitqindən isə, güman ki, heç nə başa düşülməyəcək. Digər tərəfdən, M kəndliləri, yəqin ki, F kəndinin nitqini yaxşı, A və Z kəndliləri isə ancaq çətinliklə başa düşəcəklər. Başqa cür ifadə ilə desək, coğrafi ərazinin kənarlarında olan dialektlər bir-birini başa düşməyə bilər, lakin onlar qarşılıqlı başa düşülmə zənciri ilə bağlanacaqlar. Heç bir nöqtədə tam fasilə yoxdur ki, coğrafi baxımdan bir-birinə bitişik dialektlər bir-birini başa düşmür, lakin linqvistik fərqlərin məcmu halında təsiri elə olacaqdır ki, coğrafi ayrılıq nə qədər çox olarsa, başa düşmək də bir o qədər çətinləşəcək.

Bu baxımdan, dilçilik ədəbiyyatlarında regional dialekt anlayışına üç səviyyədə baxmağın yəqinliyi önə sürülür: 1) milli variasiya; 2) beynəlxalq variasiya; 3) qitələrarası variasiya.

Milli variasiya eyni dildə və ölkədə mövcud olan, lakin fərqli bölgədə olan müxtəliflikdir. Bu dəyişikliyə misal olaraq, Azərbaycan dilinin Bakı, Şəki, Zaqatala və s. dialektlərini göstərmək olar.

Beynəlxalq variasiya dedikdə eyni bir dilin dünyanın fərqli ölkələrində istifadə olunmasındakı fərqliliklər nəzərdə tutulur. Və bu fərqliliklər özünü tələffüz, söz seçimi və sintaksis quruluşda göstərir. Məsələn, Britaniya ingiliscəsində “single parents” istifadə olunduğu halda, avstraliyalılar eyni birləşməni “solo parents”, yeni zelandiyalılar müvafiq olaraq “sole parents” birləşməsindən istifadə edir.

Və ən nəhayət, qitələrarası və ya bir çox dilçilik ədəbiyyatında “dialekt zəncirləri” kimi tanınan variasiyadır. “Dialekt zəncirləri bütün Avropada çox yayılmışdır. Bir zəncir İsveçrədən Avstriya və Almaniyaya, Hollandiya və Belçikaya alman, holland və flaman dillərinin bütün dialektlərini, digəri isə Portuqal, İspan, Katalan, Fransız və İtalyan dialektlərini birləşdirir. Norveç, İsveç və Danimarka dialektlərini birləşdirən Skandinaviya zənciri də var. Buna əsaslanaraq qonşu ərazilərdəki isveçlilər və norveçlilər Cənubi və Şimali İsveçdən olan isveçlilərdən daha asan ünsiyyət qura bilirlər” [8, s. 8].

Sosiolekt termin dilçilikdə nisbətən yaxınlarda – XX əsrin II yarısında yaranmışdır. O, iki hissədən – cəmiyyətə münasibət bildirən sosial hissədən və “dialekt” sözünün ikinci komponentindən

əmələ gəlir. Bu, mahiyyət etibarı ilə "sosial dialekt" ifadəsinin bir sözdən ibarət qısalmasıdır. Sosiolekt termini müxtəlif və bir-birinə bənzəməyən linqvistik formasiyaları təyin etmək üçün əlverişlidir, lakin onları birləşdirən ümumi xüsusiyyətə malikdir ki, bu formasiyalar sosial cəhətdən məhdud insan qruplarının kommunikativ ehtiyaclarına xidmət edir.

Sosiolekt ideyası üzrə araşdırmalar İngiltərə kimi ölkələrdə uzun illər qurulmuş, lakin bu sahə daha çox diqqəti cəlb edən dialektologiyanın sosial cəmiyyətlə bağlı müxtəlif dialektlərin öyrənilməsi qolunun inkişafı ilə başlamışdır. Bununla belə, dialektdən fərqli olaraq sosiolektin əsas missiyası insanın etnik mənsubiyyətindən, yaşından, cinsindən və s. asılı olmayaraq sosial qrupuna uyğun danışmasıdır. Müasir dilçilikdə sosial dialektlər "bu və ya digər sosial qrup və ya insanlar birliyinin istifadə etdiyi dilin çeşidləri (variantları) kimi qəbul edilir" [11, s. 8]. Aparıcı sosiolinqvist və filosof P.Trudgil tərəfindən sosial dialekt "coğrafi mənşəyindən çox, danışanların sosial mənşəyi ilə əlaqəli olduğu düşünülən müxtəliflikdir" şəklində müəyyən edilir [3, s. 7]. Məsələn, yuxarı sinif cəmiyyətindən olan insanlar daha yüksək çeşiddən, aşağı təbəqədən olan insanlar isə alt çeşiddən istifadə etməyə meyllidirlər.

Keçən əsrin ortalarından Almaniyada sosiolekt anlayışı geniş yayılıb. Q.Qlinz və M.Yilesen sosiolekti regional mənşəyə aid olmayan müəyyən bir ana dili danışan qrupuna xas olan linqvistik forma kimi müəyyən edirlər [4, s. 75; 6, s. 22]. Q.Heike, H.Steger, R.Vodak hesab edir ki, sosiolekt dil birliyindəki müəyyən qrup fərdlər üçün xarakterik olan dil sisteminin fərdi fərdlərüstü istifadəsidir [5, s. 78; 13, s. 353; 16, s. 255]. Alman sosiolinqvistikasında ilk dəfə olaraq linqvistik dəyişkənlik problemi nöqteyi-nəzərdən sosiolektin başa düşülməsini təqdim edən V.Steinig olmuşdur. O göstərirdi ki, "1) Sosiolekt komplekslə birləşən bir qrup fərdlərin linqvistik davranışını əks etdirir; 2) Müəyyən sosial qrup üzvünün linqvistik dəyişkənliyi təhlil edilərkən onun öz nitqinə subyektiv qiymət verməsi deyil, digər sosial qrupun nümayəndəsinin nöqteyi-nəzərindən onun nitqinin dəyişkənliyinin qiymətləndirilməsi birinci dərəcəlidir; 3) Sosiolektlər sosial-tarixi amilləri nəzərə alaraq ərazi dialektləri ilə sıx bağlıdırlar" [14, s. 14-15].

Amerika tədqiqatçılarının başa düşdüyü dialekt dilin sadəcə olaraq adi variantıdır, digər oxşar variantlardan bir sıra xüsusiyyətlərinə görə fərqlənir: fonetik, qrammatik və leksik. Mak Devid sosiolekti "müəyyən sosial qüvvələrin təsiri nəticəsində müəyyən etnik, dini və iqtisadi qruplar və müəyyən səviyyə və təhsil növü olan fərdlər qrupları üçün xarakterik olan, müəyyən linqvistik cəmiyyətdə qəbul edilən nitqin subvariantı" hesab edir [10, s. 365]. Müəllifin fikrincə, elə bir icma yoxdur ki, orada sosial dialektlər olmasın və yerli sinfi maneələr nə qədər az olarsa, nitq də daxil olmaqla, həqiqi sinfi fərqləri tapmaq bir o qədər çətindir.

Belə hesab olunur ki, dilin sosial diferensiasiyasının təhlilinin iki tərəfi var - obyektiv və subyektiv. Obyektiv tərəfə dil və nitqin sosial diferensiasiyasının faktiki müşahidə olunan obyektiv göstəriciləri daxildir. Subyektiv tərəfə müəyyən qrup üzvlərinin dil formalarına, sistemlərinə və alt sistemlərinə münasibətdə riayət etdikləri sosial münasibətləri, habelə bu qrupun dəyər yönümünü xarakterizə edən məlumatlar daxildir. Sosial münasibət və dəyər yönümünün bir-biri ilə sıx əlaqəli anlayışları arasındakı fərq ondadır ki, münasibət kollektivin bir-birinə zidd olan dil formalarına və sistemlərinə münasibətini ifadə edir, dəyər oriyentasiyası isə həmin kollektiv üçün qüvvədə olan normativ standartlara uyğun olaraq bu formaların seçilməsi meyarları ilə müəyyən seçim normalarına istiqamətlənmə ilə əlaqələndirilir. Məhz dəyər yönümlülük əsasında müəyyən sosial şəraitdə bu və ya digər dil formasının, bu və ya digər dil sisteminin və ya altsisteminin arzuolunan və ya arzuolunmazlığı, məqbul və ya qeyri-məqbul olması haqqında fikirlər formalaşır. Cəmiyyətin sosial diferensiasiyasının strukturuna təsir edən proseslər dilin sosial diferensiasiyasına da təsir edir. Beləliklə, əhalinin sosial-coğrafi mobilliyi ərazi dialektlərinin strukturunu əhəmiyyətli dərəcədə dəyişir, onların "sosiallaşmasına", yəni kənd əhalisinin müəyyən qruplarının sosial-ərazi dialektlərinə çevrilməsinə gətirib çıxarır. Bunu, xüsusən V.M.Jirmunskinin kəndlilərin yuxarı təbəqələrinin şəhərləşməsi və digər təbəqələrinin proletarlaşmasının səbəb olduğu Almaniyada sosial hərəkətlilik və sənayeləşmə proseslərinin dialektlərin quruluşuna təsiri ilə dialektin sosial bazasının daralması haqqında məlumatları sübut edir. Dilçi alim qeyd edir ki, "Dialekt strukturunun qeyri-sabitliyi onun

situasiya şərtiliyi ilə səciyyələnir. Həmkəndlilər arasında universal ünsiyyət vasitəsindən dialekt yalnız müəyyən vəziyyətlərlə məhdudlaşan ünsiyyət vasitəsinə çevrilir" [7, s. 214].

Sosial dialektlərin nümunəsi kimi Hindistanda tamil dilli kastanın Mudaliyar və İyenqar qrupları fərdi leksik fərqlərini qeyd etmək olar. İyenqar qrupu kasta iyerarxiyasında qeyri-brahman və ya Mudaliyar kastasından daha yüksək elmi və yüksək olan Brahman kastasının bir hissəsidir. Mudaliyarlar İyenqarların nitqində istifadə edilən şeylər üçün eyni sözlərin çoxunu istifadə edirlər. Bundan əlavə, A.Ağa fərqli nitqlərdən istifadənin "qrup daxili normadan kənara çıxmağı" əks etdirdiyinə istinad edərək göstərir ki, "Brahman olmayan kasta öz nitq tərzində Brahman terminlərindən istifadə edirsə, bu özünü yüksəltmək kimi görünür, halbuki Brahman kastasındakı insanlar Brahman olmayan kasta istifadə edə bilərlərsə, bu, alçaldıcı kimi qəbul edilir. Buna görə də, hansı kastaların sözlərindən istifadə edilməsindən asılı olaraq praqmatiklər dəyişir. Deməli, bu sistem sosial-sinif və sosial kontekstlə edilir" [1, s. 301].

Beləliklə, müasir cəmiyyətdə dilin sosial diferensiasiyasının yeni strukturu yaranmışdır ki, burada çoxdan istifadə olunan bir çox kateqoriyalar (məsələn, "dialekt" kimi) yeni məzmunla doldurulur. Buna söykənərək dilin sosial təbəqələşməsinin əsas vahidi kimi "sosiolekt" anlayışından da istifadə etmək müəyyən dərəcədə əsaslı görünür. "Sosiolekt" anlayışının tərifində müxtəlif ifadələrin olmasına baxmayaraq, belə nəticəyə gəlmək olar ki, sosiolekt ana dili danışanların müəyyən sosial qrupuna xas olan linqvistik variantdır. Sosial dialekt hətta birinci və ikinci - məkan və zamanla yanaşı üçüncü ölçü kimi də qəbul edilir" [9, s. 21]. Sosiolektin formalaşması, fəaliyyət göstərməsi və inkişafı cəmiyyətin tarixi inkişafı və sosial quruluşu ilə sıx əlaqədə baş verir. Sosial amillərin təsiri altında linqvistik nitq birliyi formalaşır. Sosiolekt A.D.Şvaytserdən sonra fərdlərin qruplaşması sosial və ya sosial-demoqrafik xüsusiyyətlərin ümumiliyinə əsaslanan və vahid nitq nümunələri toplusunu, yəni dildən istifadə nümunələrini ortaya qoyan nitq birliyi kimi başa düşülür və linqvistik birlik hesab olunur [15, s. 41].

Ümumiyyətlə, sosiolekt və ya sosial dialekt sosial-iqtisadi sinif, etnik qrup, yaş qrupu və s. kimi sosial qrupla əlaqəli dil müxtəlifliyidir. Sosiolektlər həm yerli icma ilə əlaqə quraraq xüsusi kommunikativ təcrübələrin passiv mənimsənilməsini, həm də aktiv öyrənməni və müəyyən qruplarla eyniləşdirməni nümayiş etdirmək üçün nitq və ya yazı formaları arasında seçimi əhatə edir. Və onu da qeyd etmək lazımdır ki, sosial dialektlərin elmi təsnifatı, terminoloji təyini və nomenklaturası məsələsinin dilçilikdə tam həllini tapmamasına və işlənməkdə davam etməsinə baxmayaraq, belə bir fikir söyləmək olar ki, sosiolinqvistikanın və xüsusən də sosiofonetikanın öyrənmə vahidi olan sosial dialekt sinfin, sosial qrupun dilidir. Və onun spesifikliyi dil sisteminin bütün səviyyələrində, o cümlədən tələffüzdə özünü göstərir. İstər ədəbi və ya standart dil, istər şifahi dil, istərsə də yerli dialekt olsun, sosiolekt kodlaşdırılmış normaya münasibətdə müəyyən variant kimi çıxış edirsə, o, konkret sosial-nitq və ya sosial-kommunikativ birlik çərçivəsində ümumi sosial xüsusiyyətlərin mövcudluğu ilə birləşən natiqlərin verilmiş qrupu daxilində şifahi ünsiyyət şəraitində istifadə olunan ünsiyyətin kodlaşdırılmamış norması kimi təqdim olunur.

Nəticə. Beləliklə, dialekt anlayışının təzahür formaları olan regional və sosial dialektlər sosial-tarixi amillər baxımından bir-biri ilə sıx bağlıdır. Və cəmiyyətin sosial diferensiyası prosesi özünü hər şeydən əvvəl dilin sosial diferensiyasında göstərir ki, nəticədə əhalinin sosial-coğrafi hərəkətliliyinin verdiyi təkanla regional dialektlərin strukturu əhəmiyyətli dərəcədə dəyişikliyə məruz qalır. Bir başqa deyişlə, kənd əhalisinin nitqi sosial-ərazi dialektlərə çevrilir. Buradan da "dialektlərin ərazi və sosial olaraq ənənəvi bölünməsi xəyalidir" tezisinin doğruluğuna gəlib çıxırıq.

İstifadə edilmiş ədəbiyyat

1. Agha A. Language and Social Relations. Cambridge: Cambridge University Press, 2007, 429 pg.
2. Бухаров В.М. Варианты норм произношения современного немецкого литературного языка. – Нижний Новгород, 1995, с. 38.
3. Chambers J.K., Trudgill P. Dialectology. 2 edition, London: Cambridge University Press, 1998, 201 pg.
4. Glinz H. Linguistische Grundbegriffe und Methodenüberblick. //Studienbücher zur Linguistik und Literaturwissenschaft. Band 1. – Frankfurt am Main, 1971, s.3 - 94.

5. Heike G. Sprachliche Kommunikation und linguistische Analyse. – Heidelberg, 1968, 158 s.
6. Jilesen M. Soziologie. Eine Einführung für Erzieherberufe, H. Stam GmbH, Köln-Porz, 1992. 378 s.
7. Жирмунский В.М. Проблема социальной дифференциации языка. //Язык и общество. Москва: Наука, 1968, 256 с.
8. Lestari, L., Sukova, H.M., Ramadani, A., & Harahap, W. Regional and Social Dialect. Riau: University of Lancang Kuning. 2016, 128 pg.
9. Macaulay R. The Social Art. Language und Ist Uses. Oxford: Oxford University Press, 1994, 24 p.
10. Макдэвид – мл. Диалектные и социальные различия в городском обществе. //Новое в лингвистике. – Вып. 7. Москва: Наука, 1975, С.363 – 382.
11. Маковский М.М. Английские социальные диалекты [онтология, структура, этимология]. Москва: Высшая школа, 1982, 135 с.
12. Meillet A. Linguistique historique et linguistique generale. Paris, Champion, 1982, 336 p.
13. Steger H. Soziolinguistik. Ansätze zur soziolinguistischen Theoriebildung. Wege der Forschung, Darmstadt, 1982, 355 s.
14. Steinig W. Soziolekt und soziale Rolle. – Hamburg.: Carl Winter, 1976, 324 s.
15. Швейцер А.Д. К разработке понятийного аппарата социолингвистики: Социально - лингвистические исследования. Москва: Наука, 1976, С.31 - 42
16. Wodak R., de Cilla R., Sprachpolitik in Mittel und Osteuropa. Wien: Passagen - Verlag, 1995, 304 s.

BƏDİİ MƏTN MÜASİR TƏRCÜMƏŞÜNASLIĞIN OBYEKTİ KİMİ

Tairə Axundova*

Abstract

Literary text as an object of modern translation

Literary texts are products of figurative language. Literary texts can be achieved by wordsmiths based on the skillful use of the figurative means of the language and their rich possibilities. The history, traditions, spirituality and psychology, dreams and ideals of an entire people live in meaningful works of art. In a work of art, the character lives surrounded by people and operates in a social environment. For this reason, the language of the image complements his thinking, individual character, reflects his attitude to the environment and society. Shiva elements, when used in the place of vulgar words, when born out of necessity, increase the naturalness of the image and the sweetness of its language.

Literary texts are more difficult to translate than other types of texts. Our article talks about these difficulties. This confusion mainly arises as a result of the translation of the linguistic and cultural characteristics of literary texts. Because the lexical layer reflecting cultural values is individual for each nation, it creates certain problems in the translation process.

Keywords: *text, literary, translation, linguculturalology, culture.*

Giriş. Müxtəlif etnik icmaların nümayəndələrinin nitq davranışı linqvomədəni xüsusiyyətləri ilə xarakterizə olunur. Müxtəlif sosial rollarla müəyyən edilən stereotipik situasiyalarda davranış ideyalar səviyyəsində insanın davranış mədəniyyətində təsbit olunur. Mənbələrdə bu fenomen şifahi və yazılı mətnin dərk edilməsinə maneələrdən biri kimi şərh edir. Müxtəlif mədəniyyətlərdən olan kommunikantlar mədəni davranış tərzinin xüsusiyyətləri və digər linqvomədəni icmaların üzvlərinin nitq davranışının xüsusiyyətləri ilə kifayət qədər tanış olmayanlar, ünsiyyətdə qarşılıqlı marağa baxmayaraq, adətən, bir-birlərini başa düşmürlər.

Əsas hissə. "Bədii əsərin əsas "tikinti materialı" sözdür; xatirə və müşahidə, təəssürat və düşüncə, fikir və duyğu sözlə, sözün daxili poetik imkanı ilə ifadə olunur. Nə bədii əsərin özü, nə bədii surət, nə də yazıçının sosial fikri, amalının ifadəsi sözsüz mümkün deyildir. Ona görə ki, ədəbiyyatın ilk ünsürü dildir, bu onun əsas alətidir və faktlarla, həyat hadisələri ilə birlikdə ədəbiyyatın materialıdır" [1, s. 56].

Müasir dövrdə filologiya elmində bədii mətn necə başa düşülür? Müxtəlif ölkələrin yazıçıları və ədəbiyyatşünasları dəfələrlə bədii və qeyri-bədii mətn, bədii və qeyri-bədii ədəbiyyat kimi anlayışları müəyyən etməyə çalışmışlar. Lakin bu anlayışların təfsiri ifadənin mürəkkəbliyinə görə hələ də dünya alimləri arasında müəyyən çətinliklər yaradır.

Mətn təsnifatlarının müxtəlifliyi bizə ən yaxın olan mətnlərin məntiqi (dünyanın məntiqi əks olunmasına əsaslanan və faktiki məlumatları çatdırmaq üçün nəzərdə tutulan) və dünyanın obrazlı əks olunmasına əsaslanan və müxtəlif növ məlumatların - intellektual, emosional, estetik - kompleks ötürülməsi üçün mövcud olan və həmçinin oxucuya emosional təsir funksiyasına malik olan bədii mətnlərə bölünməsini seçmək imkanı verir [4 s. 349]. Məntiqi mətnlər həmişə ünsiyyət məqsədilə, bədii mətnlər isə təsir etmək məqsədilə yazılır. Bu funksiya hər hansı hadisə və vəziyyətlərə münasibətin (həm emosional, həm də süurlu) formalaşmasına yönəlmişdir. Beləliklə, müəllif oxucunu sadəcə ağlamağa və ya güldürməyə çalışmır, bunu konkret səbəbdən edir. Məntiqi mətndən fərqli olaraq, bədii mətndəki məlumat təşbehlərin, epitetlərin, simvolların, metaforaların, mübaliğələrin, litotaların, hiperbolaların və digər müəllif vasitələrinin köməyi ilə həm açıq, həm də dolayısı ilə çatdırıla bilər. Mətnin ünvanlılıq dərəcəsi, mətndə danışan obrazın olması və oxucunun fəallıq dərəcəsi, əsərin yaradılmasında iştirakı böyük əhəmiyyət kəsb edir. Bədii mətnin xüsusiyyəti lirik qəhrəmanın olmasıdır. V.V.Vinoqradovun fikrincə, həmişə əsərdə mətnin daxili vəhdətini yaradan

* ***AMEA İ.Nəsimi adına Dilçilik İnstitutu, doktorant. Elek.poçt: taira.akhundova@gmail.com. Elmi rəhbər:*** *Fil.e.dok. Aynel Məşədiyeva.*

müəllif obrazı mövcuddur [2, s. 40]. Bədii mətn məntiqi mətndən fərqli olaraq, heç vaxt obyektiv deyil, müəllif mövqeyindən məhrumdur.

Şifahi işarəni və ya onun qrammatik üzünü tərcümə edərkən biz bədii əsərin mətnini tam çatdıra bilməyən hərfi tərcümə edirik. Bədii tərcümədə düşüncələr, obrazlar, duyğular çatdırılmalıdır. İ.A.Kaşkinin sözlərinə görə, "hər sözün arxasında ideoloji və bədii bütöv kimi bütün əsər dayanır" [3, s. 377].

Bundan başqa, bədii mətnin xarakterik cəhəti müəllifin bunu göstərmək istəyindən asılı olmayaraq, onun milli, mədəni və zaman şərtidir. Bədii mətn həmişə müəllifin təmsil etdiyi xalqın və onun dilinin xüsusiyyətlərini əks etdirir.

Dil ətraf aləmin qavranılmasında və əks olunmasında xalqın tarixən formalaşmış xüsusiyyətlərini özündə birləşdirir. Obrazlı əksetdirmə metaforaların, epitetlərin, müqayisələrin, metonimik nominasiyaların, okkazionalizmlərin iştirakı ilə özünü göstərir. Bəzi hallarda milli spesifiklik linqvistik formaların özlərində təsbit edilir.

Mətnin özünütəminetmə problemi milli-mədəni şərtlərlə bağlıdır, belə ki, hər hansı bir bədii əsər müəyyən bədii ənənələri bilmədən başa düşülə bilməz. Mətn hər zaman müvafiq mədəni səriştə səviyyəsinə malik oxucuya yönəlir. Axı bədii mətnin oxunması və tərcüməsi milli-mədəni stereotiplərdən, oxucunun fərdi xarakterindən, onun şəxsi qavrayışından, təcrübəsindən asılıdır.

Tərcüməçinin şəxsiyyəti tərcüməşünaslıq nəzəriyyəsində əsas fiqur olub və olaraq qalır. Hər hansı digər tərcümə növlərində olduğu kimi, bədii mətnin tərcüməçisi də iki rol oynayır: orijinal mətni qəbul edən və tərcümə edilmiş mətni göndərən. Tərcüməçiyə bir sıra xüsusi tələblər qoyulur.

Mətni orijinal dildə oxuyarkən tərcüməçi adi oxucudan fərqli olaraq, ona məlum olan mətnə başqa mədəniyyətin nümayəndəsinin gözü ilə baxmalı, həm məzmunun, həm də formanın aydınlıq dərəcəsini, qeyri-adiliyini qiymətləndirməlidir. Tərcüməçi müəllifin konsepsiyasını səhv başa düşürsə, heç bir realiyaları bilmirsə və ya eyhamları sezmirsə, o, istər-istəməz oxucunu lazımi məlumatlardan məhrum edir.

Bu vəziyyətdən qaçmaq üçün bədii ədəbiyyat tərcüməçisinin nəinki mənbə dilini, o cümlədən bu dildə danışan xalqın ədəbiyyatını, tarixini, mədəniyyətini bilməli, həm də müəllifin yaradıcılığı, baxış sistemi və estetik dəyərləri ilə tanış olmalıdır. O, həmçinin bu cür bədii cərəyan və onun prinsiplərinin hədəf dilin ölkəsində mövcud olub-olmadığını bilməlidir.

Tərcüməçinin funksiyaları son dərəcə mürəkkəbdir. Bədii tərcüməyə münasibətdə göndərəndən yox, mətni yaradandan danışmaq daha məqsədəuyğundur, bunun üçün o, ən azı tərcümə mətninin aid olduğu istiqamət çərçivəsində bədii yazı texnikasına yiyələnməlidi.

Hər hansı bir mətn bir neçə tərcümə variantının mümkünlüyünə imkan verdiyi üçün tərcüməçi müəllifin ona qoyduğu bütün şərhlərin mümkünlüyü ilə bədii tərcümə hazırlamalıdır. Tərcüməçi mətni oxuyarkən və onu yenidən qurarkən qarşısında duran vəzifələrin öhdəsindən düzgün gəlirsə, bədii tərcümədən danışmaq olar.

Bədii mətnlərin mənbə dildən hədəf dilə tərcümə prosesində mədəniyyət və dil arasındakı əlaqəni müəyyənləşdirmək və oxuculara çatdırmaq əsas hədəf kimi götürülür. Dill və mədəniyyətin qarşılıqlı əlaqəsinin nümunələrini nümayiş etdirmək, mətnlərdə mədəni işarələnmiş vahidləri (atalar sözləri, frazeoloji vahidlər, toponimlər, onimlər, metaforalar və s.) tapmaq, "xalq fəlsəfəsinin, tarixinin və bütövlükdə mənəvi mədəniyyətin əsrlər boyu sıxışdırılmış fenomenal aspektləri kimi" meydana çıxan sabit birləşmələri ekvivalentləri ilə tərcümə edib oxucuya çatdırmaq əsas vacib amillərdən sayılır.

Tərcümə prosesində bədii mətnlərindən mədəni işarələnmiş vahidləri və mədəni informasiyanı müəyyən etməyə və anlamağa yönəlmiş analitik fəaliyyətlərin öyrədilməsi problemi xüsusi aktuallıq kəsb edir. Tərcümədə maneələrdən biri isə onlarda linqvokulturoloji və linqvistik-regional vahidlərin ifadə etdiyi linqvokulturaların tərcümə məsələsidir.

Dil daşıyıcılarının mədəniyyətini, cəmiyyətin dil palitrasını əks etdirən linqvokulturoloji vahidlərin təmsili kiçik formalı bədii əsərlərdə müşahidə oluna bilər. Ədəbiyyatşünaslıqda və linqvokulturologiyada mövcud olan məlumatların təhlili göstərir ki, xarici mədəniyyətin konteksti ən bariz şəkildə kiçik nəsr formalarında, novella və hekayələrdə, povest və romanlarda özünü göstərir.

Hekayə və novellalar həddindən artıq yığcam, gündəlik həyat və qeyri-real vəziyyətlərin vəhdəti, bir hadisənin təsviri, sıxılmış gərgin süjet, təfərrüata diqqət, insanların şəxsi həyatının təsviri və mədəniyyət hadisəsi kimi xarakterizə olunurlar və mədəni fenomen kimi zəngin linqvokulturoloji potensiala malikdirlər.

1) Bədii mətnlərin tərcüməsi prosesində aşağıdakı amillər prioritet kimi götürülməlidir.:

• milli xüsusiyyətlər daşıyan leksik vahidlərin, onimlərin, toponimlərin bədii mətnlərdə tapılması, düzgün transliterasiya ilə təhlil olunması;

• atalar sözlərində və frazeoloji vahidlərdə əks olunan gizli mənanın təhlili və dərk edilərək doğru ekvivalenti ilə təhlil etmək;

• mənbə dildən hədəf dilə doğru çatdırmaq üçün mədəni linqvokulturoloji leksik vahidləri, milli konseptləri və mentaliteti əks etdirən leksik layı başa düşmək, üslubi vasitələri düzgün hədəf dilə doğru çatdırmaq;

• dildə əks olunan mədəni hadisələrin və faktların təsvirində səbəb-nəticə əlaqələrini düzgün müəyyən və tərcümə etmək;

• mətnlərdə olan linqvokulturoloji məlumatların toplamaq;

• bədii mətnlərində təsvir olunan mədəni hadisələrin və faktları mənbə dilin mədəni dəyərlərinə uyğun tərcümə etmək;

• bədii mətnlərdə təqdim olunan mədəni hədəf dilə uyğun təqdim etmək.

• hədəf dilin linqvokulturoloji paradiqmasına və kommunikativ strategiyasına xas olan dəyər sistemlərinin, davranış nümunələrinin və stereotiplərinin, norma və adətlərinin müəyyən edib tərcümə etmək;

• mədəni konnotasiyaları ehtiva edən lüğət əsasında kommunikativ situasiyanı qurmaq;

• yeni linqvomədəni informasiyaların və nitq davranışının stereotiplərinin hədəf dilə düzgün çatdırılması üçün dialoqların düzgün tərcüməsini aparmaq;

• milli-mədəni məna komponenti olan vahidlərin müxtəlif kommunikativ situasiyalarda istifadəsini təmin etmək.

Yerli və xarici alimlərin linqvokulturoloji tədqiqatlarının təhlili sonunda belə nəticəyə gəlinir ki, bədii mətnin mənbə dildən hədəf dilə tərcüməsi prosesində aşağıdakı kateqoriyalar əsas götürülür:

1) dünyanın linqvistik mənzərəsi;

2) linqvomədəni situasiya;

4) linqvokulturoloji sahə.

Hər bir kateqoriyanın xüsusiyyətlərini təqdim edək.

Müasir tərcüməşünaslıqda bədii mətnlərin tərcüməsi kimi əsas obyekt linqvokulturoloji amillər götürülür. Bədii mətnlərin mənbə dildən hədəf dilə tərcüməsində linqvokulturoloji leksik layın, xüsusilə mədəniyyətlə bağlı realilərin, ekzotik leksikanın oxucuya olduğu kimi çatdırılması tərcümə prosesinin əsas amili sayılır.

İstifadə edilmiş ədəbiyyat

1. Qurbanov A. Bədii mətnin linqvistik təhlili / A.Qurbanov. Bakı:Elm və təhsil, 2019, 552 s.
2. Виноградов В. Проблема автора в художественной литературе // Виноградов В.В. О теории художественной речи. - М., 1971.
3. Кашкин И.А. Для читателя-современника. – М.: Советский писатель, 1968.
4. Сдобников В.В., Петрова О.В. Теория перевода. – М.: Восток-Запад, 2006.

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ ONOMASİK VAHİD KOMPONENTLİ SABİT BİRLƏŞMƏLƏRİN FONETİK XÜSUSİYYƏTLƏRİ

Günay Əliyeva*

Abstract

Phonetic characteristics of fixed compounds with onomasic unit components in languages with different systems

It is worth noting that in languages with different systems, the onyms in stable compounds come together based on the principles of internal harmony, rhyme, and alliteration, and perform in a generalized sense. In metaphorical fixed combinations that contain special names-onymes, that name takes the main, central position, usually other speech units have to adapt to it phonetically. The main noticeable external poetic function of onomastic units in fixed combinations is manifested in the connection of words based on alliteration in a broad sense. They show that fixed compounds are characteristic of poetry due to their structure, often consisting of parallel verses. Usually only one of these parallel components is used as an onomastic unit. Alliteration related to it belongs only to that component. The other component and verse are alliterated based on another sound.

Keywords: *onomastic, uniform, stable, combination, phonetic.*

Müxtəlifsistemli dillər olan Azərbaycan və ingilis dillərində işlənən sabit birləşmələrin tərkibində onomastik vahidlərin-onimlərin iştirakına intensiv şəkildə rast gəlinir. Bildiyimiz kimi dildəki sabit birləşmələr məcazi və qeyri məcazi olaraq iki yerə bölünür. Bizim əsas məqsədimiz məcazi mənalı sabit birləşmələrin tərkibindəki onomastik vahidlərin fonetik xüsusityyətlərini təhlil etmək, araşdırmaqdır. Məcazi anlamlı sabit birləşmələrə atalar sözləri, məsəllər, frazeoloji birləşmələr, tapmacalar aiddir. İngilis dili ilə müqayisədə Azərbaycan dilindəki məcazi anlamlı sabit birləşmələrin tərkibində onomastik vahidlərə az rast gəlirik. İngilis dilində isə istər frazeoloji birləşmələrin, istərsə də atalar sözlər və məsəllərin tərkibində onimlər çox reallaşır.

Sabit birləşmələrin tərkibində ən çox rast gəlinən onomastik vahid antroponimlərdir. Məhz antroponimlərin işlənməsində assonans, alliterasiya kimi fonetik hadisələrə rast gəlinir.

Bəzən elə onomastik vahid komponentli sabit birləşmələrə rast gəlinir onlar müəyyən yazıçı tərəfindən yaradılır. Bəzən tərkibində onomastik vahid işlənən sabit birləşmələrin bədii əsərlərdə müxtəlif variantlarda rast gəlinir. "*Nadiri taxtda görüb, Süleymanı qundaqda*" atalar sözü yazışılar tərəfindən müxtəlif variantda çıxır. "*Makedoniyalı İsgəndəri taxtda görüb, İran şahı Daranı qundaqda"(C. Bərgüşad);* "*Nadiri taxtda görüb, Şah Abbası bələkdə*" (M. İbrahim).

Onomastikanın tədqiqat obyektlərindən olan antroponimlər-şəxs adları frazeologiyada da özünəməxsus yer tutur. Məlum olduğu kimi onomastik vahidlər dildə olan digər leksik vahidlərlə bərabər leksikanın tərkibinə daxil olaraq müxtəlif üslublarda istifadə olunur. Məcazi anlamlı sabit birləşmələrin tərkibində reallaşan şəxs adları, ləqəblər milli-ədəbi dilin müxtəlif üslublarında istifadə olunur. Sabit birləşmələrin tərkibindəki antroponimlər Azərbaycan və ingilis dillərinin milli ruhunu, obrazlılığını, ifadəliliyini, emosionallığını əks etdirir. Poetik-üslubu funksiya daşıyan bu vahidlərdən istifadə edilməsi ilk növbədə bədii əsərlərin dilinin obrazlılığını və ifadəliliyini təmin edir. S.Həbibova bildirir ki, məhz bu səbəbdən bədii əsərlərdə frazeoloji şəxs adları üslubi vasitə kimi geniş şəkildə işlənir. Məsələn, "*Gərək onun başına bir oyun açım Əsli və Kərəmi əzbərdən oxusun*"(Sabit Rəhman "Toy"), "*Qurban olum Məhəmmədin şəriətinə*" (C. Cabbarlı "Almaz"), "*Babalı Sərvərin boynuna*" (Ü.Hacıbəyov "O olmasın, bu olsun") və s." [4, s. 23]. Gördüyümüz kimi, bu ifadələrdə yazıçıların əsərlərdə işlətdiyi ifadələr və bu ifadələrin tərkibindəki onimlər artıq sabitləşmiş, xalq arasında deyim şəklində işlənməkdədir.

Araz aşığından, Kür topuğundan olmaq-heç bir dərdi, fikri, qayğısı olmayan, heç nəyi vecinə almayan adam haqqında işlədilən ifadə[1, s. 26]*; Xəzər dənizində gəmilərinmi batıb?* ; *"Araz axır,*

* ***Gəncə Dövlət Universiteti, dissertant. Elek.poçt: gunay-aliyeva_2019@mail.ru. Elmi rəhbər:*** *Fil.f.dok. Sevda Kazımova.*

gözün baxır"; "Araz! Altını da bilirəm, üstünü də; Araz həmişə kötük gətirməz; və s. və s. və bu kimi sabit deyimlərdə müxtəlif fonetik hadisələr özünü göstərir.

Müasir ingilis dilində də sabit birləşmələrin müəyyən bir layının tərkibində onimlərə rast gəlinir. Məsələn, *Serbonian bog – "Serbonian bog*- "Serbiya bataqlığı", çıxılmaz vəziyyət, çətin vəziyyət deməkdir. Bu ifadə Misirdə hal-hazırda qurumuş olan nəhəng Serbon (Sirbonis və ya Serbon) gölünün adından gəlir. Qum ilə örtülmüş, aldadıcı olan möhkəm yerə bənzəyirdi. Ancaq bu yer bataqlıq idi və belə bir bataqlığa girən ordu oradan çıxa bilmədi və məhv olmuşdu. Deməli ifadənin məcazi mənası buradan götürülmüşdür [7, s. 12].

"*Fear the Greeks bearing gifts" yaxud "Beware of Greeks Bearing Gifts*" (Düşmənin hədiyyəsindən də ehtiyat etmək lazımdır) [5, s. 160].

"*Can the Ethiopian change his skin or the leopard his spots?"* [5, s. 161] atalar sözlərinin mənası insanın və yaxud da hətta heyvanın öz xislətini, xasiyyətini dəyişməməsidir. Bu atalar sözü dilimizə ekvivalent üsulu ilə tərcümə olunur: "*Qozbeli qəbir də düzəltməz*" [5, s. 159].

Fonetik hadisə sayılan alliterasiya-samitlərin təkrarı sabit birləşmələrdə çox istifadə olunur.

"Fonetik-üslubi ifadə vasitələrindən biri alliterasiyadır. Alliterasiyanım türk xalq şeirində qədim poetik vasitə olduğu qedilir. Hər hansı bir dildə alliterasiyanın əmələ gəlməsi müəyyən linqvistik qanunlarla əlaqədardır. Alliterasiya özünü daha çox şeirdə ifadə etdiyi üçün onun mənşəyinin sintaktik paralelizmlə bağlı olduğunu qeyd edirlər. Şeirdə ahəng, misraların düzülüşü, bərabərlik və s. təkrarlardan və sintaktik paralelizmdən törəmişdir. Qrammatik qafiyələr də sintaktik paralelizmdən yaranmışdır. Qafiyə inkişaf edib təkmilləşdikcə alliterasiya zəifləmişdir" [3, s. 30].

Bəzən yazıçılar tərəfindən sabit birləşmələrə əlavə olunan onomastik vahidlər alliterasiya yaradır. N. Hacıyeva yazır: "Bu cür üçqat təkrarlılıq həmin ifadələrdə alliterasiya və assonans səviyyəsində ekspressivliyə gücləndirir. Məsələn: *Göyçə göyüm-göyüm göynədi, getdi, Ağdamda ağ gündən əsər qalmadı*" (Z.Yaqub "Göyçə dərdi").

"*Robbing Peter to pay Paul*" [p] (Əlinin papağını Vəlinin başına qoyur, Vəlinin papağını Əlinin) [5, s. 158]; *More know Tom Fool, than Tom Fool knows (axmaq); A shall be well, Jack will have Jill* (sevgili anlamında); *Never use a credit card to pay a debt—that is just robbing Peter to pay Paul!; When in Rome do as the Romans do;* Alman hesabı anlamında işlədilir. *An outing or entertainment paid for in this way is a Dutch treat and sharing the cost o f a meal in a restaurant is eating Dutch / going Dutch; A good Jack makes a good Jill*; [6, s. 135].

Məcazi anlamlı sabit birləşmələrin tərkibindəki onomastik vahidlərin nəzərə çarpan poetik funksiyası geniş mənada alliterasiya əsasında sözlərin əlaqələnməsində təzahür edir. E.Əlizadə bayatıda işlənmiş xarici alliterasiyalara nümunə olaraq gətirdiyi misallar paremioloji vahid yox, yalnız antroponim işlənmiş cümlələri göstərir ki, bu da yanlışdır [2, s. 44]. Paremiyalar sabit birləşmələrin bir növü olub xüsusi struktur quruluşa malik dil vahidləridir. Xarici alliterasiyaya biz bunları nümunə göstərə bilərik: *Xalq gedər quş gətirər, Xanalı bayquş gətirər; Tan nədir tanış nədir, Gülbahara gümüş nədir?; Dağda Düleyman, Suda Süleyman, Obada Osman* (Kərkükü tapmacaları) və s.

Məcazi mənalı sabit birləşmələrin öz strukturasına görə də poetik səciyyəli olduğunu, çox zaman paralel misralardan ibarət olduğunu, çox zaman isə paralel misralardan ibarət olduğunu göstərirlər. Adətən bu paralel komponentlərin yalnız birində antroponim işlənir və onunla bağlı alliterasiya da yalnız həmin komponentə məxsus olur, digər komponent isə başqa səs əsasında alliterasiyalaşır:

"Bizim evdə Yusif yatıb
Qulaqların qısıb yatıb...
Həsənağa xəstədi
Qolları qəfəsdədi...
Yengəmiz yetər oldu, günümüz betər oldu" [2, s. 43].

Sabit birləşmələrdə daxili alliterasiya öz mahiyyətinə, təsirlilik gücünə görə fərqlənir. Özlüyündə nə qədər qiymətli və maraqlı olsa da, sözlərin ilk səslərinin ahəng darlığı, eyniliyi çox tez nəzərə çarpır, bunların meydana çıxması və anlaşılması bir o qədər də çətinlik törətmir.

Əlaqədar dil vahidlərinin önündə və sonunda deyil, daxilindəki səslərin alliterasiyası daha maraqlıdır və daha böyük ahəngdarlıq yaradır.

Məcazi anlamlı sabit birləşmələrdə səs uyuşması da müşahidə olunur:

"*Əski eyib İsanındır; İsa ayrı, Musa ayrı; Adam gərək Ömərə də ağlasın, Əliyə də*".

Alliterasiya və assonans səs təkrarlarının bir növüdür. Assonans alliterasiyalaşan leksik vahidlərdə görünür. Assonans vurğulu hecalarda və saitlərin təkrarı ilə meydana çıxır. Bəzən dilçilikdə həm saitlərin, həm də samitlərin uyğun olduğu hadisə tam alliterasiya adlanır.

M.Adilov alliterasiya haqqında yazır: "...alliterasiya hadisəsini yalnız üslubi bir kateqoriya hesab etmək fikri natammadır. Məlumdur ki, Avropa dillərində o qədər də geniş yayılmayan alliterasiya, əsasən, bədii dildə, xüsusən poeziyada özünü göstərir və bu mənada həmin dillər üçün bu hadisəni üslubi bir hal saymaq təbiidir. Türk dillərində isə bu hadisə (alliterasiya) həm üslubi, həm qrammatik (morfoloji cəhətdən) tədqiiq olunmalı ümumi kateqoriyalardır" [1, s. 228].

M.Adilov alliterasiyanın türk şeir növünə aid olduğunu söyləmişdir. Araşdırma nəticəsində görürük ki, ingilis nəsr və nəzm əsərlərində Azərbaycan dili ilə müqayisədə alliterasiyaya az rast gəlinir.

Bəzən Azərbaycan dilindəki frazeoloji birləşmələrdə variantlar səs alliterasiyası –təkrarı vasitəsi ilə yaranır. N.Hacıyeva bu haqda yazır: "toy tutmaq" frazeologizmi ilə yanaşı, "toy toylamaq"frazeologizmi də işlənir ki, bu da ikinci frazeologizmdə hər iki sözün eyni komponentdən yarandığına görə daha qədim olduğunu sübut edir. Məsələn,

Gəlin çıxaq gələn yaza,

Toy toylayaq kor Niyaza ("Düzgülər") [5, s. 116].

Araşdırmamızdan bu nəticəyə gəlirik ki, müxtəlifsistemli dillər olan Azərbaycan və ingilis dillərindəki məcazi mənalı sabit birləşmələrin tərkinində onomastik vahidlərə rast gəlinir. Bu onomastik vahidlərin sabit birləşmələrin tərkibində işlənməsi təsadüfü xarakter daşımır. Onların sabit struktura malik ifadələrin tərkibində işlənməsinin koqnitiv və etimoloji əsasları olur. Bundan əlavə sabit birləşmələrin tərkibində işlənən onimlərdə müəyyən fonetik hadisələr reallaşır ki, bunlar da alliterasiya və assonansdır.

İstifadə edilmiş ədəbiyyat

1. Adilov A. Alliterasiya /Azərbaycan bədii dilinin üslubiyyatı. Oçerklər Bakı: Elm, 1970
2. Əlizadə E. Azərbaycan paremiyalarında antroponimlərin fonik funksiyası. Azərbaycan onomastikası problemlər. II , 1988, s. 43-44.
3. Hacıyev N. Azərbaycan dilində fonetik vahidlərin üslubi xüsusiyyətləri.Bakı: Elm və təhsil, 2016
4. Həbibova S. Frazeologiyada şəxs adları/ Onomastika məsələləri, Bakı, 2000
5. Qədirova G., Pirməmmədova A. İngilis və Azərbaycan dillərinin atalar sözlərinin etimoloji, üslubi və fonetik xüsusiyyətləri / İpək yolu, No.4, 2023
6. Mirzəyeva A. Onomastık vahid tərkibli frazeologizmlərin koqnitiv xüsusiyyətləri // İPƏK YOLU, No.3, 2023, səh. 130-138
7. Шитова Л.Ф. Carry Coals to Newcastle: 350 Geographical Idioms and More. – СПб.: Антология, 2012. – 96 с.

KONVERSİYA MÜASİR İNGİLİS DİLİNDƏ SÖZ YARADICILIĞININ ÜSULU KİMİ

Firuzə Kərimova*

Abstract

Conversion as a method of word-formation in modern English

In linguistics, the phenomenon of conversion, which is characterized as the transition of a word from one part of speech to another without changing its morphological structure and phonetic composition, is considered one of the controversial issues that have not yet been fully explained. Different linguists do not take a unanimous position in explaining this problem in different language materials. So, if adjectives are widely observed in English, this characteristic feature cannot be considered for other languages. . Although the lexical-semantic, morphological-syntactic, semantic-syntactic types of conversion in different world languages are studied separately, some researchers talk about only one or two of them. Also, the object of their research was only one of the named types of conversion in a specific language.

The conversion is attributed to non-linear word processing. It is a word formation method observed mainly in inflectional languages.

Keywords: *conversion, word, method, create, inflection, language.*

Müasir ingilis dilində bir çox yeni sözyaratma üsulları mövcuddur. Ümumiyyətlə, söz yaratma üsulları iki böyük qrupa bölünür: xətti və qeyri-xətti sözyaratma üsulları. Konversiya qeyri-xətti sözyaratma üsuluna aiddir. Cünki bu yolla yaranan leksik vahidlərdə heç bir əlavə söz və şəkilçi morfemdən istifadə olunmur.

"Konversiya latın mənşəli "conversio" sözündən yaranmışdır. Mənası dəyişilmə, çevrilmədir. Dilçilikdə bu hadisə vasitəsilə müəyyən söz əsasının öz fonetik və morfoloji tərkibini dəyişmədən başqa nitq hissəsinə keçməsi ilə yeni sözlərin yaranması başa düşülür" [3, s. 21].

Konversiya müasir ingilis dilində söz yaradıcılığının əsas üsullarından biridir. Bu üsul lüğəti yeni sözlərlə zənginləşdirməq üçün son dərəcə məhsuldar vasitədir. T.İ.Arbekovanın fikrincə, konversiya affikssiz söz yaradıcılığı üsuludur, nəticədə ilkin sözlərlə formaları üst-üstə düşən lakin leksik mənaya görə tamamilə fərqlənən söz əmələ gəlir [5, s. 41].

Məsələn: *The story was filmed* - Hekayə ekranlaşdırıldı; *You must respect your elders* - Böyüklərə hörmət etməlisən.

Qeyd etmək lazımdır ki, konversiya vasitəsilə yeni söz yaradılan zaman təkcə qrammatik deyil, həm də semantik strukturlaşma baş verir. Yeni yaranmış söz əsas leksik vahidin semantika bazasında yaranır. Beləliklə, G.B. Antruşinanın fikrincə, konversiya söz yaradıcılığının morfoloji-sintaktik üsulu kimi nəzərdən keçirilə bilər [4, s. 87-88]. Buradan belə çıxır ki, ilkin sözün mənasına əsasən yeni formalaşmanın mənası başa düşülə bilər. Məsələn: *She reads only glossies and comics* (glossy - parlaq) - O, yalnız parlaq jurnalları və komiksləri oxuyur.

Konversiya əsasən flektiv dillərə xas sözyaratma üsuludur. Məsələn rus dilində konversiya nə qədər məhsuldar sözyaratma üsulu sayılırsa, türk dillərində, o cümlədən Azərbaycan dilidə bir o qədər qeyri-məhsuldar üsul hesab olunur. Lakin Azərbaycan dilçilərində Qətibə Mahmudova, Sevər Orucova, Ruslan Abdullayev qeyri-məhsuldar şəkildə olsa belə Azərbaycan dilində konversiyanın söz yaradıcılığındakı rolundan bəhs etmişlər [1; 2; 3]. Yuxarıda qeyd edildiyi kimi, məhz ingilis dilində xüsusilə geniş yayılmışdır.

Bu söz yaradıcılığı üsulu XIII əsrdən başlayaraq ingilis dilinin tipoloji xüsusiyyətlərindən birinə çevrilmişdir. Konversiya orta ingilis dili dövrünün əvvəlində fleksiya sisteminin dağılması ilə nəticələndi. Quruluşuna görə fərqlənən çoxsaylı isim və feil cütləri bir-birinə bənzədi.

* ***AMEA İ.Nəsimi adına Dilçilik İnstitutu, doktorant. Elek.poçt: k.firuza@mail.ru. Elmi rəhbər:*** *Fil.e.dok. Lalə Qurbanova.*

A.İ.Smirnitskinin iddiasına görə, məhz bir sıra eyni kökdən olan isim və feillərin fonetik tərkibcə üst-üstə düşməsi konversiyanın inkişafı üçün sözyaradıcı model rolunu oynamışdır [7]. Bundan əlavə, bu söz yaradıcılığı metodunun fəaliyyətinin başqa səbəblərini də müəyyən etmək olar.

Birincisi, ingilis dilində nitq hissələrinin morfoloji göstəricilərinin demək olar ki, tamamilə olmamasıdır, yəni nitq hissələrinin morfoloji fleksiyasıdır. Nitq hissələri ya söz əmələ gətirən affikslərə görə fərqlənir, ya da heç fərqlənmir.

İkincisi, N→V (isim - feil) cütlərində konversiya isimdən feil əmələ gəlmə sistemində yalnız üç şəkilçinin olması faktına əsaslanır: müəyyən xüsusi mənaları olan *-ate, -ize, -ify* onlara ümumi mənalı feillərin yaranmasında iştirak etmək imkanı vermir.

İngilis feilinin ümumi kateqorik məna fleksiyasını itirməsi səbəbindən müasir ingilis dilində isimlərdən ümumi feilin əmələ gəlməsi yalnız konversiya yolu ilə baş verə bilər. Bununla yanaşı, hər bir fərdi hal üçün xüsusi ifadə almaqla konversiya cütlərində semantik əlaqələr açıqdır. Üçüncüsü, konversiya modellərindən istifadə etməklə yeni yaranan leksik vahid olduqca sadə olur.

Konversiyanın əsas növləri bunlardır:

verballaşma (feillərin əmələ gəlməsi);

substantivləşmə (isimlərin əmələ gəlməsi);

adyektivasiya (sifətlərin əmələ gəlməsi),;

adverballaşmadır (zərflərin əmələ gəlməsi).

İlkin və alınma sözlərin morfoloji xüsusiyyətlərindən asılı olaraq konversiya prosesi müxtəlif cür reallaşır.

T.İ.Arbekovanın fikrincə, ilkin və törəmə sözlər (yaxud onlardan biri) morfoloji cəhətdən dəyişkən olduqda birinci növ konversiya müşahidə olunur [5, s. 43]. Birinci növün konversiyası zamanı yeni sözün yaranmasının zəruri şərti sözün yalnız leksik mənasının və sintaktik funksiyasının dəyişməsi deyil, həm də onun fleksiya paradiqmasının dəyişməsidir. Birinci növə konversiyanın ən tipik nümunələri verbalizasiya və substantivləşdirmə, eləcə də ilkin əsas sözün isim və ya feil olması halları aiddir. Əgər həm əsas, həm də törəmə sözlər morfoloji cəhətdən dəyişməz olarsa, ikinci növ konversiyadan danışmaq olar [5, s. 43]. İkinci növ konversiya sözün sintaktik funksiyasının və onun leksik mənasının dəyişdirilməsindən ibarətdir. Bu növ konversiya əlaqələri ön sözlər və zərfləri (on, off, in və s.), ön şəkilçi və bağlayıcıları (before, after və s.), əvəzliklər və bağlayıcıları (who, when, why və s.) əhatə edir. Bu halda birinci növün konversiyası tam və ya qismən ola bilər. Tam konversiya ilə yeni yaranan söz digər nitq hissəsinin (sintaktik funksiyada istifadə olunan) bütün xüsusiyyətlərini alır. Belə ki, verballaşdırma zamanı isim və sifətlər hərəkəti bildirməyə başlayır və xəbər yerində işlənir, həmçinin feilin bütün sözdəyişdirici formalarını alır. Məsələn: *They are taping the programme* (Onlar proqramı yazırlar). *The programme has been taped* (Proqram yazılıb). *They'll tape the programme* (Proqram yazılacaq).

"*To tape*" feili "*a tape*" – *maqnit lenti* isimindən konversiya ilə əmələ gəlmişdir. Sifətlərin tam substantivləşməsi ilə yeni yaranmış söz sifətlə təyin oluna bilir, müəyyən və ya qeyri-müəyyən artikllə işlənir, ismin sintaktik funksiyalarını yerinə yetirir və ismə xas olan bütün sözdəyişdirici formalara malik olur. Məsələn: *He is a real criminal* (O, əsl cinayətkardır); *Don't harbour criminals* (Cinayətkarlara sığınacaq verməyin); *The criminal was tracked down* (Cinayətkarın izinə düşülüb).

Qismən konversiya ilə bir söz tam şəkildə başqa nitq hissəsinin bütün xüsusiyyətlərini almır (bu, əsasən, onun semantik xüsusiyyətləri ilə izah olunur). Beləliklə, qismən substantivləşmiş sifətlər və feili sifətlər yalnız təyin artikli ilə işlənir və tək halda feillə uzlaşır (The supernatural is always frightening - Fövqəltəbii həmişə qorxudur); yalnız cəm formasına malikdirlər (casuals - hər gün üçün ayaqqabılar, perennials - həmişəyaşıl bitkilər); cəm feili ilə uzlaşsalar da, cəm şəkilçisini qəbul etmirlər (The wounded were rushed to hospital - Yaralılar xəstəxanaya aparıldı). Qismən konversiya nəticəsində feillərdən əmələ gələn bir çox isimlər yalnız tək formada işlənir: *That was a good laugh* (Bu gözəl gülüş idi).

Müasir ingilis dilində ən çox yayılmış konversiya növü isimlərin verbalizasiyasıdır. Feillərin bir çoxu konversiya yolu ilə isimlərdən düzəlir: *The committee I chair opposes the move* (Mənim rəhbərlik etdiyim komitə aktın qəbuluna qarşı çıxdı). *She felt her eyes tearing* (O, gözlərinin yaşla dolduğunu

hiss etdi). Sadə qeyri-törəmə isimlər, əsasən, daha çox verbalizasiyaya məruz qalır. İngilis dilində bu strukturun demək olar ki, bütün isimləri feilə uyğundur.

Model N→V (İsim – Feil). Bu, ən məhsuldar konversiya modelidir: *honeymoon:* bal ayı - bal ayı keçirmək; *jump:* tullanmaq - atılma. Konversiya yolu ilə əmələ gələn ingilis feilinin bir ifadəyə uyğun gəldiyi cütlərlə təmsil olunur, məsələn, *auksionda sat* (ing. *to auction*), *çantaya qoyun* (ing. to bag), *kitaba yazın* (ing. to book) və s.

Digər flektiv dillərlə, məsələn, rus dili ilə müqayisədə ingilis konversiyası, xüsusən və ilk növbədə, N→V konversiyası semantik əlaqələrin daha çox sərbəstliyi ilə xarakterizə olunur. Əslində, N→V çevrilməsi zamanı ilkin isimlə feil arasında istənilən semantik əlaqə qurula bilər. Model Adj→V (Sifət – Feil). E.N. Bortniçukun vurğuladığı kimi, alınma sifətlər feilə çevrilmir [6, s.103].

Kök sifətlər "olmaq, olmaq və ya kimi etmək" mənasında feil əmələ gətirir, məsələn: *thin* (incə) – *to thin* (incələmək); *slow* (yavaş) – *to slow* yavaşlatmaq; *equal* (bərabər) – *to equal* (bərabərləşdirmək, eyniləşdirmək). Daha mürəkkəb semantik əlaqələrə malik birləşmələr də mümkündür. Beləliklə, *average* "orta səviyyədə inkişaf etmək" deməkdir.

Model V→N (Feil – İsim). Bu model N→V modelindən xeyli zəifdir. Bu modeldə semantik əlaqələr N→V modelinə nisbətən çox sadə və növləri azdır. Qeyd etmək lazımdır ki, tədqiqatların böyük əksəriyyətində konversiya cütlərində törəmənin faktiki istiqaməti, ümumiyyətlə, müəyyən edilmir. Bunu mühakimə etmək üçün heç bir məlumat yoxdur. İlk öncə, ona diqqət çəkilir ki, törədici isimlər, bir qayda olaraq, törəmə – semantik – feillərdən daha geniş məna həcminə malikdir.

I.N.Pyanzinanın fikrincə, məntiqi meyar yalnız nəzərdən keçirilən məhdud sayda sözlərə, əsasən ismin vasitə, alət və s. mənasında olduğu hallara şamil edilə bilər, feil isə bu alətin köməyi ilə yerinə yetirilən hərəkətdir [7, s. 36]. Beləliklə, məlumdur ki, *a hammer* (çəkic) - *to hammer* (döymək, çaxmaq) cütlüyündə əsas olan isimdir, törəmə isə feildir, çünki *hammer* feili ilə işarələnən hərəkəti yerinə yetirmək üçün, ilk növbədə, *hammer* ismi ilə işarələnən obyektin özünə sahib olmaq lazımdır.

I.N.Pyanzinaya görə, semantik-tərif meyarını aşağıdakı mövqenin qəbul edildiyi məntiqlə qismən oxşar hesab etmək olar: törəmə söz və ya onun forması törəmənin tərifində istifadə edilə bilər, lakin əksinə deyil. Məsələn: *look – the act of looking, ride – spell of riding* [7, s. 36-37].

Beləliklə, konversiya affikssiz söz əmələ gətirmə üsuludur və bunun nəticəsində ilkin sözlə bəzi formalarda üst-üstə düşür, bununla da tam fərqli şəkildə söz əmələ gəlir. Söz yaradıcılığının bu növü XIII əsrdən başlayaraq ingilis dilinin tipoloji xüsusiyyətlərindən birinə çevrilmişdir.

Beləliklə, konversiya orta ingilis dövrünün əvvəlində fleksiya sisteminin dağılması ilə nəticələndi. Konversiyanın əsas növləri verballaşma, substantivləşdirmə, adyektivasiya, adverballaşmadır. Eləcə də birinci növ (tam və qismən) və ikinci növ konversiyanı ayırd etmək olar.

Əsas konversiya modelləri N→V, V→N, Adj→N modelləridir. Konversiya cütlərində törəmə istiqamətinin əsas meyarları semantik, məntiqi və semantik-tərif meyarlarıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev R. Türk dillərində konversiya və ya keçid prosesi / R.M. Abdullayev. – Bakı: Nurlan, – 2011. – 197 s.
2. Mahmudova Q.Ç. Müasir türk dillərində sözyaratma üsulları. Bakı: Zəngəzurda, 2021, 190 s.
3. Orucova S. Dildə konversiya hadisəsi / S.A.Orucova. – Bakı: Elm və təhsil, – 2018. – 169 s.
4. Антрушина Г.Б., Афанасьева О.В., Морозова Н.Н. – Лексикология английского языка. – М.: Дрофа, 2001. – 288 с.
5. Арбекова Т.И. Лексикология английского языка. – М.: Высшая школа, 1977. – 240 с.
6. Бортничук Е.Н., Василенко И.В., Пастушенко Л.П. – Словообразование в современном английском языке. – Киев: Издательство при КГУ, 1988. – 213 с.
7. Пьянзина И.Н. Основы лексикологии английского языка. – Нижний Новгород: Издательство ГОУ НГЛУ им. Добролюбова, 2005. – 136 с.
8. Смирницкий А.И. Лексикология английского языка. – М.: Издательство литературы на иностранных языках, 1956. – 260 с.

SOSİAL ŞƏBƏKƏLƏRDƏ "DOST VƏ DÜŞMƏN" KONSEPTLİ İFADƏLƏR

Əfsanə Baxşəliyeva*

Abstract

Expressions with the concept of "friend and enemy" in social networks

The influence of language, and therefore linguistics, on the conceptual picture of the world is obvious. But the word, which is the building block of language and the basic cognitive unit, is created only in the process of acquiring knowledge and its understanding - that is, the Conceptual Landscape of the World also influences the Linguistic Landscape of the World. A number of modern scientists consider the Internet to be a means of written communication. That is, if we take into account that the Internet space is a place where the usual levels of communication are mixed, it includes the written form of speech - live journals, social networks, blogs, as well as some publications on the Internet.

Examples taken from social networks reflect the fact that as the sphere of communication expands, the number of "best friends" of a person increases and true friendship between people weakens. A complete stranger can become a friend on social networks. You don't need to have a special acquaintance for this. The works of some authors note that friendship on social networks falls into the category of weak ones.

Keywords: *social, network, friend, enemy, concept.*

İşarə – formalaşmış mənanın daşıyıcısıdır. Onun əsasında formalaşan dil vahidi lüğətin tərkib hissəsinə çevrilir və konkret, vahid, obyekti deyil, obyektlər sinfinin virtual nümayəndəsini bildirir. Cəmiyyət tərəfindən təsdiqlənmiş yeni bir əlamətin yaradılması ilə əldə edilən müəyyən bir bilik strukturunun obyektivləşdirilməsi. Bu o deməkdir ki, əvvəllər anlaşılmaz, aydın olmayan, qeyri-müəyyən olan bilik indi cəmləşərək əlamətdə möhkəmlənir, yeni forma alır və sistemə inteqrasiya olunur, orada nizamlı bilik kimi saxlanılır. Sosial freym – üç freymdən ibarət bir sistemdə ən yüksək olan koqnitiv emal səviyyəsi, mənanın formalaşmasına dair təklif olunan fərziyyə çərçivəsində ortaya qoyulmuşdur. İstər qavrayış, istərsə də linqvistik cəhətdən yaranmış və vahid bütövlük təşkil edən heterojen yuvaların (*mənimsənilmiş predmetin obyekti, onun əlamətləri, həm dinamik, həm də statik – B.Ə.*) üç freymdən hər hansı birinin məkanda birləşməsi kompozitiv və inteqrativ prinsiplərin koqnitiv dilçiliyin diqqət mərkəzində olan və bütün təzahürlərində dilə nüfuz edən, dil üçün vacib olan inteqrativlik təzahürüdür. Hər üç freym R.Faukonyenin görüşündə inteqrasiya olunmuş mental məkanı təmsil edir ki, bunun sayəsində nüvə konsepsiyasında olan məlumatlar mental məkanda yuxarı və aşağı hərəkət edə bilər: yuxarı, referentdən sosial freymə, konsepsiyanı formalaşdırarkən – konsept və aşağı, sosial freymdən referentə qədər – diskursda hər biri unikal, real kontekstlərdən istifadə edilir. Hər üç freym müxtəlif dərəcədə dinamik və dəyişkəndir. Referent fərdi və sosial freymlər, həcminə görə obyektivləşdirilməsi olduqca çətin olan reallıq fraqmentləri haqqında yenidən işlənmiş formada ətraflı məlumat ehtiva edən müxtəlif səviyyəli mürəkkəb mental təsvirlərdir. Dünyanın konseptual və linqvistik mənzərəsi qarşılıqlı təsir göstərir və bir-birinə qarışaraq mürəkkəb dialektik vəhdət təşkil edir. Təbii dil əsas bilik vasitəsi olduğundan insan həyatı boyu ona davamlı olaraq yiyələnir. Lakin sivilizasiyanın inkişafı ilə daim yeni hadisələr və obyektlər meydana çıxır ki, onlar insanın şüurunda əks olunmalı və adlandırılmalıdır. Dinamik söz yaradıcılığı isə dövrün belə tələblərinə optimal cavab verir. Sistemli aspektdə dünyanın linqvistik mənzərəsinin quruluşu ilə bağlı bizim versiyaya uyğun olaraq, o, dünyanın iki linqvistik təsvirindən ibarətdir – noetik və kateqoriyalaşdırılmış [7, s.70].

Dünyanın noetik linqvistik mənzərəsi – idrak, məlumat və ünsiyyətin obyektivləşdirilməsi vasitəsi kimi xidmət edən nominativ dil vahidlərinin nizamlı sistemi olan dünyanın dil mənzərəsinin bir hissəsidir. Noetik Dünyanın Dil Mənzərəsi nüvə və periferiyadan ibarətdir. Dünyanın noetik, adlandırma şəkilinin nüvəsini əsasən ilkin mənanın leksik vahidləri, ilkin məna, simpleksləri, bütöv şəkildə təmsil edir. Nüvənin tərkib hissələri, əsasən, ətrafdakı reallıqda müəyyən bir nöqtəyə bağlı olan

* ***Bakı Slavyan Universiteti, dissertant. Elek.poçt: afsana.baxsaliyeva@bk.ru. Elmi rəhbər:*** *Prof. İkram Qasımov.*

və ən böyük praqmatik dəyərə malik sərt təyinedicilərdir. Əşyaların təbii məntiqinə görə, linqvistik tərifl ə əldə edilən ən çox rast gəlinən sərt olmayan təyinedicilər də nüvəyə aiddir. Nüvənin tərkib hissələri semantik və ya morfoloji vasitələrlə periferiyanın tərkib hissələrini, derivasiyalı nominasiyalarını yaratmaq üçün əsas rol oynayır. Semantik derivasiya hər hansı bir dilin lüğətini zənginləşdirməyin qısa yolu olub artıq mövcud təyinatın polisemiyasını yaratmaqda mühüm əhəmiyyət kəsb edir.

Ümumi leksik fonda sayca nisbətən az olan alınmalar da noetik Dünyanın Dil Mənzərəsinin periferiyasına aiddir. Kateqoriyalaşdıran Dünyanın Dil Mənzərəsinin assimilyasiya sayəsində alınmalar alıcı dilin faktlarına çevrilir. Dünyanın noetik mənzərəsinin periferiyasının hər üç sahəsi arasında semantik sərhədlər şəffafdır. İki qonşu sahənin qarşılıqlı təsiri ilə yeni birləşmiş leksik vahidlər asanlıqla yaranır, dili zənginləşdirir, detallaşdırır və bununla da hər iki dünyagörüşü: Dünyanın Dil Mənzərəsi və dolayısı ilə Dünyanın Konseptual Mənzərəsi arasında da eyni proseslər gedir. Son zamanlar bildiyimiz kimi, sosial şəbəkələrdə insanların ünsiyyət prosesi çox intensivləşmiş, "dost" və "düşmən" konseptləri sosial şəbəkələrdəki mətnlərdə yeni semantika qazanmışdır. "*Nitq norması müxtəlif ünsiyyət vəziyyətlərində qrammatik birliyin vərdiş və ənənələrini əks etdirən dil situasiya qaydalarıdır*" [10, s. 85].

Müasir dönəmdə dünyanın dil mənzərəsinin ən çox reallaşdığı məkan məhz sosial şəbəkələr, sosial məkandır.

Bir sıra müasir alimlər interneti yazılı ünsiyyət vasitəsi hesab edirlər. Yəni internet məkanının adi ünsiyyət səviyyələrinin qarışdığı bir yer olduğunu nəzərə alsaq, buraya yazılı nitq forması (canlı jurnallar, sosial şəbəkələr, bloglar) ilə yanaşı, internetdəki bəzi nəşrlər də daxil edilir [2; 3; 6].

İngilis dilində *dost / düşmən* cütlüyü konsepsiyasında istifadə edilən "*mate, man, buddy, bloke, pal, bestie, frenemy (frienemy), gooks, enemy, rival, foe, adversary"* kimi sözlər semantik məna qazanaraq "dost-düşmən" konseptlərini ifadə edir.

Bildiyimiz kimi, son illər sosial şəbəkələrə maraq həddindən artıq çoxalmışdır. İnsanlar günlərinin müəyyən qismini məhz sosial şəbəkələrdə keçirir, fikir və düşüncələrini, insanlara, cəmiyyətə olan münasibətlərini mətn, cümlə tipində sosial şəbəkələrdə təqdim edirlər. "*Facebookda dostumdur, instaqramda izləyirəm və yaxud dostluğumdadır*" kimi cümlələrə indi hər iki dildə intensiv şəkildə rast gəlinir. Əslində sosial şəbəkələrdə yazılan mətnlər məişət üsubundadır. Hər bir üslubun tərkibində də mikro üslublar mövcuddur. Fikrimizcə, məişət üslubunun tərkibində yeni bir mikro üslubun yaradılmasına ehtiyac var. Əslində bu üslub yaranıb. Bu üslubun adı "Sosial şəbəkə" üslubudur.

Müasir günümüzdə "dost-düşmən" konseptlərinə sosial şəbəkələrdə, saytlarda daha fərqli anlamlarda rast gəlinir. İngilis dilindəki dost və düşmən konseptləri bu milli dil korpuslarında daha çox izlənilir: (http://corpus.byu.edu), Google Corpus (http: //googlebooks.byu.edu) və Collins University of Birmingham'dan (http://wwwling.arts.kuleuven.be) beynəlxalq dil bazaları.

2004-cü ildə Amerika Birləşmiş Ştatlarında Mark Zukerberq tərəfindən qurulan Facebook sosial şəbəkəsinin yaranması yeni insan münasibətləri dövrünün başlanğıcının əsasını qoydu. Sosial şəbəkələr antonim konseptlərin "dost" VƏ "düşmən" konsepsiyalarının inkişafına ciddi təkan verərək "*dost və düşmən"* leksik vahidlərinin nominativ funksiyasınını genişləndirdi. Bu da insanlar arasında sosial şəbəkə münasibətlərinə ad vermək anlayışlarının yaranmasına səbəb oldu.

Müasir sosial şəbəkələrdə "dost" anlayışı sözün orijinal məna çərçivəsindən çıxmış və leksik mənası daha da genişlənmişdir. A.Vejbitskayaya görə, *"dostluq" ("friendship") sözü İngiltərə-Amerika mədəniyyətində yeni güclü, qalıcı bir əlaqə qurmaq, "yeni insanlarla tanış olmaq" leksik mənasında inkişaf etməkdədir* [5, s.71]. Bunun nəticəsində də "dost və düşmən" anlayışının nominal sahəsinə daxil olan isimlər toplu mənada işlənməyə başladı, məsələn: "*These guys are my best friends!!!" Bunlar mənim ən yaxşı dostlarımdır – istifadəçi qeydləri "Facebook" Adalia Rose 31.07.2016 tarixində. "At the end of High School I got together with a drummer, who is still one of my best friends, and over the summer of' 67 we got into a group situation*" – Ali məktəbim sonunda hələ də ən yaxın dostlatımdan biri olan bir təbilçi ilə tanış oldum, 67-ci ilin yayından biz birlikdəyik – İngiltərə Milli Korpusu [4].

"I'd say I've got five best mates (pause) (unclear) Christopher (pause) Ashley (pause) Lee. Yeah (SP:PS0FR) erm oh who was that other one now, I can never remember his name?" – deyərdim ki, ən yaxşı beş dostum var – Kristofer, Əşli, Li, hmmm, digərinin adı nə idi, ıı, heç vaxt yadimda saxlaya bilmədim – Britaniya Milli Korpusu [4].

Yuxarıda göstərilən nümunələr ünsiyyət sahələrinin genişlənməsi ilə bir insanın "ən yaxşı dostlarının" sayının artdığını, insanlar arasındakı həqiqi dostluq əlaqələrinin zəifləməsini əks etdirir. İnsana tamamilə yad olan bir şəxs sosial şəbəkələrdə dost ola bilər. Bunun üçün xüsusi tanışlığın olması vacib deyil. Bəzi müəlliflərin əsərləri sosial şəbəkələrdəki dostluq əlaqələrinin zəif kateqoriyaya aid olduğunu qeyd edirlər [8; 9].

Materialların təhlili göstərir ki, müasir ingilis dilində dost anlayışının ən çox yayılmış nümunələri bunlardır: *friend, mate, buddy (bud), pal, bestie, BFF (best friends forever)* və s. Bunlardan bəzilərinə nəzər salaq.

Xüsusi lüğət mənbələri olan "Oxford English Dictionary" də, "Merriam-Webster's Dictionary"də dost anlayışının məzmununu əks etdirən aşağıdakı semantik qruplar mövcuddur:

1) "*A person with whom one has a bond of mutual affection, typically one exclusive of sexual or family relations*" [1] – Adətən cinsi və ya ailə münasibətləri istisna olmaqla qarşılıqlı sevgi bağına sahib olan bir şəxs.

2) "*Form of address an acquaintance or a stranger"* – Dostuna və ya tanımadığın birinə müraciət forması.

3) "*A person who supports organization, or country by giving financial or other help"* [1]– Bir qurumu və ya ölkəni dəstəkləyən, onlara maddi və ya digər kömək göstərən bir şəxs.

4) "*A person who is not an enemy or opponent"* [1] – Düşmən və ya rəqib olmayan şəxs.

5) *A contact on a social networking website* – Sosial şəbəkədə əlaqə . Buradan aydın olur ki, "friend" anlayışı müasir mənada "rəğbət", "müraciət forması", "maddi yardım", "təmas, əlaqə" və s. kimi anlayışları ifadə edir və bu konsepsiyanın semantik mərkəzində "rahatlıq, səmimiyyət" komponenti dayanır.

Mate leksemi, "Oxford English Dictionary"yə görə, aşağıdakı mənaları ifadə edir: 1) "friend or companion" (dost və ya yoldaş); 2) "a friendly form of address between men or boys" (oğlanlar və ya kişilər arasında dost münasibət). Verilən ikinci tərcümədə bu ifadənin gender aspektində istifadə edildiyini görə bilərsiniz ki, bu ifadədə də yalnız kişilər arasındakı söhbətlərdə istifadə olunur. Məsələn, "*Tag a mate who needs to see this*" – bunu görməyə ehtiyacı olan dostunu işarələ – 20.01.2017-ci il tarixində UNILAD "Facebook" səhifəsində qeydə alınmışdır. "*Dinner with my best mate...*" − ən yaxşı dostumla nahar- məşhur amerikalı aşpaz Qordon Ramzinin 06.06.2015 tarixində Facebook səhifəsində qeydə alınmışdır.

"Happy Birthday to my mate, Barry Steingard. One of the most extraordinary men I know! Laughing Man #allbehappy" − sevimli dostumun ad günü mübarək olsun, Bəri Steingard. Tanıdığım ən qeyri-adi insanlardan biri! Gülən adam! Xoşbəxt ol! məşhur amerikalı aktyor Hyu Cekmanın 18.01.2016 tarixində Facebook-dakı qeydləri.

Sosial şəbəkələrdə apardığımız tədqiqatlarda görürük ki, kişilər səmimi ünsiyyət zamanı tez-tez "man" müraciət formasından istifadə edirlər. Məsələn, "Hey man! Pick me up" – jey, dost, məni də götür! Facebook istifadəçisi KwanKarl Sustain Sthapitanondanın 17.01.2017 tarixli şərhi; "Hey man, you catch any deer this weekend? Ey dost, bu həftə maral tutmusan? #catchindeers Catchin' Deers" − Bowhunting.com sosial media girişi 01/11/2017.

"Mate" və "*man"* əsasən kişilər arasında müraciət üçün istifadə olunursa, *"bestie"* leksemi ən çox qadın ünsiyyəti zamanı istifadə edilir və "ən yaxşı rəfiqə" mənasını verir. Məsələn, "My gorgeous bestie Nisha Aggarwal and me at a family function!" Mənim qəşəng dostum Nişa Aqarval və mən evdə! - 25.10.2016 tarixli Kajal Aggarwalın Facebook istifadəçi hesabından.

"Everyone wishes a happy birthday to my #bestie @lisgarcia87 it's her birthday today!!! Hər kəs dostuma gözəl ad günü diləyir, bugün onun ad günüdür! Te adoro #Lis #FelizCumpleaños #BirthdayGirl#Pomplunation" − 09.02.2016 tarixli Raquel Pomplun Facebook istifadəçi hesabından.

İsimlərin və substantivləşmiş sifətlərin kiçiltmə, əzizləmə mənasını ifadə edən *-ie,* şəkilçisinin istifadəsindən məntiqi yolla başa düşmək olur ki, bu ifadələr qadın nitqinə aiddir. Məsələn, *girlie, antie, cutie, sweetie* və s. ifadələri qadın nitqi üçün xarakterikdir.

"Buddy" leksik vahidi, Oxford İngilis Lüğətinə görə, Şimali Amerikada populyarlıq qazanaraq "close friend" – "yaxın dost" mənasında son dövrlərdə istifadə edilməyə başlanılmışdır. Maraqlıdır ki, bir-birlərinə ünvanlanan bu qeyri-rəsmi müraciət əvvəlcə "*working companion*" – "iş yoldaşı" (həmkar) mənasında işlənmiş və yalnız bir müddət sonra müasir "dost", "yoldaş" semantikasını almışdır. Məsələn, "*I'll do the same for you Buddy. Don't worry*" . Ey dost, mən də sənə eynisini edəcəyəm, narahat olma!

"*Look on (unclear) you know what I mean, how can you not do that for your favourite friend. Ain't it your best buddy*?" . "*Piano duet (sort of!) with my buddy Mungo Paul Mungeam adventure camera guru and me*". − Qulaq as, bilirsən nə deyirəm və sevimli dostuna necə onu etməyə bilərsən? O sənin ən yaxın dostun deyilmi? Bear Gryllsin 12.22.2016 tarixli Facebook istifadəçi hesabından.

Beləliklə, müasir ingilis dilində "*dost"* konsepti şifahi nitqdə, xüsusilə sosial şəbəkələrdə istifadə edilərkən aşağıdakı semantik mənaları ifadə etmişdir: gender anlamında – *mate, buddy, bestie,* birgə iş, həmkar mənasında – *buddy, friend*, müraciət bildirərək – *man* dil vahidlərində reallaşmışdır.

Dost-düşmən antonim cütlüyünün ikinci tərəfi olan "düşmən" leksik vahidi düşmənçilik, rəqabət münasibətlərini əks etdirərək, "*enemy, foe, frenemy/frienemy, adversary, gook və s."* leksik vahidlərində reallaşmışdır.

Foe ifadəsi rəsmi və bədii üslubda "düşmən və ya rəqib" mənasında işlədilir. Məsələn, "*On the other hand, Tamburlaine isn't one to mince his words, as Bajazeth can testify:' we use to march upon the slaughtered foe, tramping their bowels with our horses hoofs*" [1]. "This world's biggest *foe* is apathy. We all have a call to action" −başqa sözlə desək, O, sözündən qaçan adam deyil, Bajazeth şahidlik edə bilər; biz qətlə yetirilmiş düşmənin üzərindən addımlayıb keçə bilərik, onların bağırsaqları üzərindən atlarımızın dırnaqları ilə keçə bilərik; dünyanın ən böyük düşməni süstlükdür. Biz hamımız hərəkət etməliyik. 24.01.2017 tarixindən etibarən Gallant Girls adlı istifadəçinin "Facebook" səhifəsindən götürülmüşdür.

Foe ifadəsi enemy sözündən yuxarıda göstərilən mənalardan aşağıdakı xüsusiyyətləri ilə fərqlənir. *Enemy* sözü belə məqamlarda işlədilir. Məsələn, *"a hostile nation or its armed forces, especially in time of war"* – müharibə zamanında olan düşmən mənasında işlədilir. Digər bir ifadə olan *"a thing that harms or weakens something else"* ifadəsinə isə – başqa bir şeyə zərər verən və ya zəiflədən bir şey mənasında rast gəlinir. Məsələn, "The German explanation for the invasion of Belgium and Holland on 10 May 1940 − that it had been necessary in order to forestall a breach of neutrality by the enemy" [4]. 10 may 1940-cı ildə Belçika və Hollandiyanın işğalına alman izahatı – düşmən tərəfindən neytrallığın pozulmasının qarşısını almaq üçün lazım idi. "How such as Donald Judd and Robert Smithson, was that they saw' a false and pious rationality' as' the enemy of art" [4]. Necə ola bilər ki, Donald Cad və Robert Smitson sənət düşməni kimi yalnış və mömin rasionallıq görmüş olsunlar. *Adversary* və *opponent* ifadələri isə düşmənçilik mənasında deyil, fikir ayrılığında olmaq semantikasında istifadə olunur. Məsələn, "*someone who competes with or opposes another in a contest, game, or argument*" – *Bir yarışmada, oyunda və ya mübahisədə başqası ilə yarışan və ya ona qarşı çıxan biri.*

Beləliklə, düşmən konsepsiyasının rəsmi ifadə şəkilləri *rəqabət, mübahisə ədavət, zərər* semantik mənalarında işlədilir. Qeyri-rəsmi ifadədə *frenemy / frienemy* ingilis dilində *dost / düşmən* konsepsiyasını əks etdirir və "*an enemy disguised as a friend*" – dost kimi maskalanmış düşmən. "*A person with whom one is friendly despite a fundamental dislike or rivalry*" ifadəsi isə *dost adı altında gizlənən düşmən* mənasında işlədilir.

Gördüyümüz kimi, "*dost və düşmən"* konseptləri *frenemy* ifadəsində birləşib və *düşmənçilik, dostluq, narahatlıq, qıcıqlanma* mənalarında istifadə olunub. Beləliklə, müasir ingilis dilində "dost və düşmən" anlayışı sosial şərtdir, yəni konsepsiya kontekstdən asılı olaraq istifadə sahələrinə görə fərqli sosial mesajlar verir. Semalar konsepiyalarda aşağıdakı kimi fərqlənir: gender anlamında – *mate, buddy, bestie*; birgə iş, həmkar anlamında – *buddy, friend*; müraciət formasında – *man*; rəqabət

anlamında – *opponent, adversary, competitor*; mübahisə, düşmənçilik, zərər verən anlamında – *enemy, foe, antagonist* ifadələrində reallaşır. Düşmən konseptini ifadə edən numünələrə sosial şəbəkələrdə rast gəlinməmişdir.

Təbii ki, azərbaycanlılar da sosial şəbəkələrdən intensiv şəkildə istifadə edirlər. Azərbaycan dilində də "dost" konsepti sosial şəbəkələrdə fərqli anlam kəsb etməyə başlamışdır. Əgər dilimizdəki "dost" anlayışı daha müqəddəs, daha yaxın, doğma, hətta qohumdan, qardaşdan da irəli bir anlam verirsə, sosial şəbəkələrdəki "dost" konseptinə heç vaxt həyatda görmədiyimiz insanlar da aid ola bilərlər. Feysbukda dost olduğumuz insanla həyatda heç bir münasibətimiz olmaya da bilər. Sosial şəbəkələrdə statuslarımızı bəyənən, paylaşımlarımıza rəy bildirənləri insanları dost siyahısına salırıq. Lakin əslində azərbaycanlıların təfəkküründə "dost" anlayışı daha dərin köklərə malikdir. Beləliklə, azərbaycanlı sosial şəbəkə istifadəçiləri "dost" leksik vahidini tam fərqli konseptdə işlətməkdədirlər.

Şərti bilikləri ehtiva edən sosial freym dil istifadəçilərinə gələcək sözün konseptual skletini verir, onun sabit invariantını təmin edir, bütün dil ictimaiyyəti tərəfindən qəbul edilir və yaranmış sözün reallaşdırılmasında saysız-hesabsız vəziyyətlərdə onun variantlarına çevrilir. Sonuncu həyat qazanmış olan real dildir ki, yalnız şərti ortaq məxrəc – sosial freym və onun əsasında formalaşan dil əlaməti sayəsində öz şəxsiyyətini saxlaya bilir.

İstifadə edilmiş ədəbiyyat

1. Oxford Advanced Learner's Dictionary, 8th edition by Paragon Software Grouphttp[electronic resource]: / www.macmillandictionary.com
2. Артемова, А.Ф. Имена собственные в сленге / А.Ф.Артемова, О.А.Леонович // – Москва, Иностранные языки в школе, – 2013. № 2. – с. 56-59.;
3. Барышников, П.Н. Морфология технологической сказки: интернет вещей и социальные дистанции // Социология власти. – 2015. Т. 27. № 1. – с. 37-54.;
4. Британский национальный корпус (BNC): [электронный ресурс] / http://corpus.byu.edu/bnc/
5. Вежбицкая, А. Понимание культур через посредство ключевых слов. Пер. с англ. А.Д.Шмелева / – Москва: Языки славянской культуры, – 2001. – 288 с.
6. Донскова, О.А. Английские афоризмы в электронном дискурсе // – Москва, Актуальные направления научных исследований XXI в.: теория и практика, – 2015. Т. 3, № 1 (12). – с. 301-304.
7. Кубрякова, Е.С.Обеспечение речевой деятельности и проблема внутренного лексикона // – Москва: Наука, Человеческий фактор в языке и порождение речи. АН СССР, Институт языкознания, – 1991. – с. 272-279.
8. Степанов, Ю.С Смена «культурных парадигм» и её внутренние механизмы // – Харьков, Философия языка: в границах и вне границ / Ю.С.Степанов, – 1997. – с. 45-50.;
9. Степанов, Ю.С. Константы. Словарь Русской культуры / – Москва: Школа "Языки русской культуры", –1997, – 824 с.
10. Чиков, М.Б. Еще раз о системе, норме и узусе // Вестник Нижегородского государственного лингвистического университета им. Н.А.Добролюбова. – 2007. № 1. – с. 84-87.

ORTA MƏKTƏBLƏRDƏ OXU VƏRDİŞLƏRİNİN İNKİŞAFINA VERİLƏN BAŞLICA TƏLƏBLƏR

Aynurə Süleymanova*

Abstract

The main requirements for the development of reading habits in secondary schools

Nowadays one of the problems we face is the poor development of reading skills in students. Many students can not read the text with facility and give a speech correctly. The reason for this is that reading materials are not used enough in junior classes and students are not given the opportunity to express their opinions freely. According to the new learning technologies, more attention should be paid to the activity of the students during the lesson, in other words, teacher should play the role of a guide-facilitator. In this article, we approach these issues and discuss the ways of forming reading skills in students and the main requirements for reading. Students who are able to keep requirements for the reading have a fluent, clear oral speech. As a result, they don't avoid to share their thoughts on some topics.

Keywords: *reading, reading instruction, reading habits, correct reading, conscious reading.*

Giriş. Ana dilimiz olan doğma Azərbaycan dili xalqımızın milli mənəvi sərvəti, bütün dünya azərbaycanlılarının həmrəyliyinin təməli, milli dövlətçiliyimizin başlıca rəmzlərindən biridir. Doğma dilimiz həmçinin şüurumuzun və milli-mədəni dəyərlərimizin inkişafını təmin edən ən qüdrətli vasitə rolunu oynayır. Azərbaycan ədəbi dili və ədəbiyyatının yaradıcılarına, onu milli varlıq kimi özündən sonrakı nəsillərə çatdıranların hər birinə bizim borcumuz və ehtiramımız sonsuzdur. Ana dilimizə məhəbbətin əsasında başlıca olaraq onu dərindən bilmək, mükəmməl bir nitq mədəniyyətinə yiyələnmək, onu formalaşdırmaq durur. Nitq mədəniyyətini formalaşdırmaq üçün nitq normalarını düzgün bilmək, düzgün qaydalara əməl etmək başlıca şərtlərdəndir. "Azərbaycanda nitq mədəniyyəti məsələlərinin təbliği və tədqiqi işlərinə gəlincə onu demək lazımdır ki, bu sahədə bir çox irəliləyişlər baş vermiş olsa da görüləsi olanlar daha çoxdur" [1, s. 11].

Əsas hissə. Nitq mədəniyyətinə yiyələnmək üçün şagirdlərimizdə oxu vərdişlərinin erkən yaşdan inkişafına başlamaq lazımdır. İbtidai sinifdən başlayaraq Azərbaycan dili dərslərində oxu vərdişləri həm düzgün, həm də sürətli texnika ilə həyata keçirilməlidir.

Orta məktəblərdə Azərbaycan dili fənninin tədrisində başlıca məqsəd şagirdlərin nitq bacarıqlarını təkmilləşdirərək doğma dilimizdə düzgün oxu qabiliyyətinə, nitq mədəniyyətinə, səlis danışığa yiyələndirməkdir. Şagirdlərin şifahi və yazılı nitqinin inkişaf etdirilməsinin məzmunu özünü fənnin məzmun xətlərində əksini tapmışdır. Bilirik ki, oxu bacarığı Azərbaycan dilinin əsas məzmun xətlərindən üçüncüsüdür. Azərbaycan dili fənni digər bütün fənlər arasında körpü rolunu oynayır. Buna səbəb Azərbaycan dili dərslərində öyrədilən dinləmə, danışma və oxu bacarığı yüksək olan şagirdlər digər fənlərdən də uğur qazana bilər.

Oxu şagirdlərin nitqini, özünüifadə bacarıqlarını (şifahi və yazılı şəkildə) inkişaf etdirir, söz ehtiyatını artırır. Oxu təlimi həm də anlayaraq, düzgün, sürətli və ifadəli oxu vərdişləri qazandırır, məzmunu nəql etmə, təhlil etmə, ona öz münasibətini bildirmə, mətndə verilənləri həyatla əlaqələndirmə və s. kimi bacarıqlar formalaşdırır.

Bir sıra tədqiqatlar bunu sübut edir ki, oxu savadına yiyələnmək çətin bir prosesdir. Bu çətin prosesin uğurlu, müvəffəqiyyətli olması üçün bir neçə qaydaya əməl etmək vacib sayılır.

- İlk olaraq sözlərdəki səsləri fərqləndirmək;
- Yalnız səsləri deyil də, hərfləri də anlamağı öyrənmək və hərf birləşmələrini görmək, səslərin tələffüzünü uyğunlaşdırmaq;
- Sözdəki səsləri tam bütöv şəklində tələffüz etmək;
- Sözü hər hansı əşyanın, əlamətin və ya hərəkətin ifadəsi kimi anlaya bilmək.

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: aynuresuleymanovaa545@gmail.com. Elmi rəhbər:*** *Dos. Əhəd Cavadov.*

Burdan belə qənaətə gəlirik ki, haqqında danışacağımız oxu texnikası eşitməyə, görməyə, sözün tələffüzünə, təhlilə və sözün mənasına əsaslanan bir prosesdir. "Oxu texnikasının formalaşdırılmasında eşidərək qavramanın inkişaf etdirilməsinin əhəmiyyəti böyükdür. Çünki səsləri yaxşı fərqləndirə bilməyən uşaq, görmə qavrayışı mükəmməl inkişaf etsə də, sadə sözləri oxumaqda çətinlik çəkir" [4, s. 5].

Oxu təkcə şagirdlərin nitqini inkişaf etdirmir, oxu həmçinin şagirdlərin dünyagörüşünə, ətrafa olan münasibətinə, yaşıdlarına qarşı olan münasibətinə də təsir edir.

Oxunun keyfiyyətli olub-olmaması şagirdlərin oxu vərdişlərinə necə və hansı yollarla yiyələnməsindən birbaşa asılıdır. Oxu zamanı şagirdlər bir-birindən fərqli olaraq kimisi səsli oxuya üstünlük verir, kimisi səssiz oxuya xalq dilində desək "ürəyində oxumaq"-a üstünlük verir. Oxunun səsli və ya səssiz olmasından asılı olmayaraq oxu təlimi bir sıra tələblərə cavab verməlidir ki, bunlar aşağıda qeyd olunanlardır:

a) Düzgünlük
b) Şüurluluq
c) ifadəlilik
d) optimal sürətlilik.

Əgər biz şagirdlərdə oxu vərdişlərini formalaşdırmaq, təkmilləşdirmək istəyiriksə, mütləq oxu bu verilən tələblərə cavab verməlidir.

Düzgün oxu texnikası uşaqlara oxumağı və düşünməyi, oxumağı və hiss etməyi, oxumağı və müstəqil, sərbəst şəkildə biliklər əldə etməyi öyrədir. Şagirdlər oxuya verilən tələblərin hər birinə yerli-yerində əməl edərək oxunu təşkil etsələr onlarda səlis və aydın nitq formalaşar. Həmçininn sosial mühitdə öz fikirlərini ifadə etməkdə çətinlik çəkməz, aydın izahlarla əsaslandırmağı bacararlar.

Oxu vərdişlərinin qarşısına qoyduğumuz bu tələblər hamısı qanunauyğun haldır. Belə ki, oxunun qarşısına qoyulan oxunun düzgünlüyü şüurluluqla tənzimlənir. Əgər oxu texnikası düzgün həyata keçirilərsə mətnin məzmunu şagirdlər tərəfindən şüurlu dərk olunar və bu zaman mətn üzərində işləyən şagird təqdim olunan suallara daha dəqiq və məqsədəuyğun cavablar təqdim edər. Buna yeddinci sinif Azərbaycan dili dərsliyində təqdim olunmuş bir mətn üzərində nəzər salaq. V bölmə olan "Dəyərlərimiz" bölməsində ilk mətn-"Həsrət" mətninin oxusu zamanı düzgün və diqqətli oxu şüurluluğa, doğru qavramaya kömək edir. mətn hissələrə bölünərək oxunur və mətnin hissələri arasındakı suallara şagirdlər tərəfindən müxtəlif cavablar təqdim olunur. Təqdim olunan mətndə əsas obraz heyvan obrazı olan atdır və onun öz yurdundan, sahibindən necə uzaq düşməsindən, həsrət çəkməsindən bəhs olunur. İlk hissənin oxusundan artıq şagird birinci suala cavab verə bilər:

1. Haqqında danışılan obraz barədən nə deyə bilərsiniz? [3, s. 104]

Suala cavab zamanı şagirdlərdə şifahi nitqin də nə dərəcədə ifadə etmə qabiliyyəti olduğunu görə bilərik. Buna müxtəlif versiyalar təqdim olunduqdan sonra ikinci hissənin oxusuna başqa bir şagirdlə davam edilməsi daha məqsədəuyğun sayılır. Bu zaman şagirdlərin hamısının dərsdə aktiv iştirakını, həm də növbəti hissəni "mən oxuyacam" düşüncəsi ilə hadisələri daha diqqətli izləməsini təmin etmiş olarıq. Bu hissədəki sual da oxu zamanı təqdim olunur və fərqli versiyalar söylənilir.

2. "Atın vətən həsrəti çəkdiyini göstərən məqamları şərh edin" [3, s. 105].

Qeyd olunan suala şagirdlər oxu zamanı at obrazı haqqında formalaşmış fikirlərini şərh etməklə davam edə bilərlər.

Beləliklə, oxu zamanı verilən tələblərə bir-biri ilə əlaqəli şəkildə əməl olunur və bir tələb digərini tamamlayır.

İndi isə bizə oxu üçün təqdim olunan tələblərə ayrı-ayrılıqda nəzər salaq və hər birinin ayrılıqda xüsusiyyətlərini öyrənək.

Düzgünlük dedikdə sözlərin ədəbi tələffüz qaydasına uyğun deyilməsi, sözlərin aydın, anlaşıqlı tələffüzü, vurğunu yerində demək, yazıdakı durğu işarələrinin tələblərini gözləmək, cümlələrdə hər hansı sözü buraxmaq və ya başqa söz əlavə etməmək, kəkələməyə, pəltəkliyə yol verməmək kimi xüsusiyyətlər nəzərdə tutulur.

Şifahi nitqin (oxunun) ən başlıca tələblərindən biri sözlərin düzgün vurğu altında deyilməsidir. Biz bilirik ki, vurğunun üç növü var:

- ✓ Heca vurğusu
- ✓ Məntiqi vurğu
- ✓ Həyəcanlı vurğu.

Vurğunun şifahi nitqimizdəki rolunu şagirdlərə göstərmək üçün məşhur natiqlərimizin çıxışlarını videolent yazısı kimi təqdim etmək məqsədə uyğundur. Məsələn, şagirdlərin hər birinin dillər əzbəri tanıdığı Ulu öndər Heydər Əliyevin çıxışlarının dinlənilməsi bu işdə uğurlu addım olar. Şagirdlər vurğunun xüsusi işarəsini bilməli, həmçinin intonasiyanın, fasilənin fərqləndirici işarələrini və bədii mətnlərdə şərti işarələrlə qeydlər aparmağı bacarmalıdırlar.

Şagirdlərin oxu vərdişlərinə yeni yiyələndikləri dövrdə oxunun aşağı sürətlə aparılması vacibdir. Lakin sonradan artıq oxu sürəti artırılmalıdır. Oxunun normal sürətlə oxunması ifadəliliyi və məzmunun sürətli başa düşülməsini təmin edir. Şagirdlərdə oxu sürətini artırmaq üçün saniyəölçənlə ölçərək yarış təşkil etmək olar.

Oxunun şüurluluğu dedikdə şagirdlərin oxuduğu mətnin məzmununun mənimsənilməsi nəzərdə tutulur. Şagirdlər oxuduğu mətni daha şüurlu qavramaq üçün diqqətli oxumalı, xüsusi məqamlara nəzər yetirməlidirlər.

Oxunun əsas keyfiyyətlərindən biri də onun ifadəliliyidir. İfadəlilik anlayışın dərinləşməsi, həm də emosiyanın inkişafı üçün əhəmiyyətlidir. Şagirdlər ifadəli oxu zamanı vurğunu gözləməli, oxu zamanı nəfəsini düzgün idarə etməli, sözləri düzgün və aydın tələffüz etməlidir.

Nəticə və elmi yenilik. Beləliklə, əgər şagirdlərdə oxu vərdişlərini formalaşdırmaq istəyiriksə oxunun tələblərinə düzgün riayət etməyi onlara öyrətməliyik. Həmçinin şifahi nitqin inkişafı üçün onlara daha çox oxu materiallarının verilməsi məqsədə uyğundur. Dərs zamanı mətnlərin oxusunda şagirdlərin aktivliyini təmin etmək üçün fasiləli oxudan istifadə daha məqsədəuyğundur.

Yalnız dərs materiallarının deyil, şagirdlərə bədii əsərlərin oxusunun verilməsi də bu işdə başlıca rola malikdir. Belə ki, Azərbaycan dili dərslərində təqdim olunmuş mətnlərin tədrisi zamanı həmin mətnin məzmununa uyğun seçilmiş bir bədii əsər şagirdlərə əlavə oxu materialı kimi tapşırıla bilər. Əgər dərslikdə oxu üçün təqdim olunan material şeirdirsə, bu zaman həmin şeirin əzbər danışılmasını tapşırıq kimi vermək olar. Bu zaman şeirin səsləndirilməsində düzgün oxu tələblərinə necə riayət olunduğunu asanlıqla görə və burada olan qüsurları düzəldə bilərik.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı: Elm və təhsil, 2013, 287 s.
2. Ümumi təhsil müəssisələrinin 7-ci siniflər üçün Azərbaycan dili fənni üzrə dərslik, Bakı: Altun kitab, 2022, 176 s.
3. https://azkurs.org/muhazire-10-oxu-teliminin-metodikas.html?page=3
4. https://www.tipii.edu.az/noduploads/document/oxu-talimi-muallimlar-ucun-vasait.pdf

MƏTN DİLÇİLİYİNDƏ NİDALAR

Aysu Ağayeva*

Abstract
Exclamations in text linguistics

One of the less studied sections of language is special parts of speech. However, exclamations, which have gained sufficient functionality in the language, are one of the special parts of speech and are considered as a group of words of main interest in modern linguistics. Both in general linguistics and in Azerbaijani linguistics, there are very few research works on exclamations and they continue to remain controversial. Exclamations do not express a concept, do not have an independent lexical meaning, do not act as a part of a sentence and do not answer any question. It is almost impossible to imagine a live spoken language without an exclamation. An exclamation is indispensable in bringing the expressed idea to attention with all its living elements. It is possible to clarify the function of exclamations in the expression of text linguistics, which is one of the main directions of modern linguistics, in the connection of its components. Nida performs different content in different types of connection of text components. The nuance of the meaning expressed by him is clearly evident.

Keywords: *exclamation, special part of speech, emotionality, text syntax, text components.*

Giriş: Nidalar emosionallıq, hiss-həyəcan ifadə edən sözlərdir və dildə kifayət qədər işləklik qazanmasına baxmayaraq, nitq hissəsi kimi qiymətləndirilməsi müəyyən qədər mübahisəlidir. Müasir dilçiliyin aktual məsələlərindən biri olan nidalar əsas nitq hissələri ilə köməkçi nitq hissələrinin arasında bir mövqe tutur. Bəzi dilçilər ənənəvi olaraq nidaların köməkçi nitq hissəsi olması fikrini müdafiə etsələr də, leksik məna ifadə etməyən bu söz qrupu köməkçi nitq hissələrindən fərqli olaraq emosionallığa işarə edir.

Subyektiv modallığa xidmət edən söz qruplarından biri olan nidalar məfhum adlandırmaq funkiyasına malik deyil. Lakin nida digər söz qruplarından fərqli olaraq işləndiyi mövqedə hər hansısa izaha ehtiyac duymur.

Nidalar müasir dildə subyektin duyğularını, coşğunluq və həyəcanını, istək və arzularını adlandırmadan, bilavasitə emosional surətdə ifadə etmək üçün ən canlı və zəngin vasitələrdən biridir (K.Hacıyev). Dildə insanın hiss və duyğularını ifadə etmək funksiyasını layiqincə yerinə yetirən nidalar digər qrup sözlərdən fərqli olaraq hansısa səs formasına və ya təqlidinə əsaslanmır. Ümumiyyətlə insanın keçirdiyi hissləri dolğun şəkildə səsli ifadə edir. İfadə etdiyi fikrin məzmunundan asılı olaraq nidalar dildə sabitləşmişdir. Ən əsası isə nidaların milli xüsusiyyətlərə malik olduğunu xüsusilə diqqətə çatdırmaq lazımdır:

Aman! Şu qan gölündə günəşi kimdir boğan?!
Sevda yollarımızda nə işıq, nə işılğan,
Əzablı ruhlar kimi hava qaranlıqlaşır (M.Müşfiq).

Nidaların ifadə etdiyi məna rəngarəngliyi imkan verir ki, bu söz qrupunun linqivistik xüsusiyyətləri barəsində az və ya çox dərəcədə mülahizələr irəli sürülsün. Morfologiyanın vahidi kimi çıxış edən nidalar dilin sintaktik yarusunda mühüm əhəmiyyətə malikdir. Belə ki, cümlənin məqsəd və intonasiyaya xidmət edən növlərindən biri nida cümləsidir. Bu cümlə növünü formalaşdıran əsas xüsusiyyət fikrin emosional ifadə olunmasıdır:

Burada belənçik gözəl can üstündə, orada o, iblis Pəri ilə kef eləyir. Tfu belə etibara, belə kişiliyə! (C.Cabbarlı)

Cümlənin qrammatik cəhətdən təşkil olunmasında nidalar xüsusi əhəmiyyətə malikdir. Danışan ifadə etmək istədiyi fikri sadəcə bir nida ilə səsləndirə bilər. Beləliklə, dinləyən üçün danışanın keçirdiyi hiss və duyğular aydınlaşa bilər. Məhz bu səbəbdən nida cümləyə ekvivalent kimi qiymətləndirilir.

* ***Bakı Dövlət Universiteti, Azərbaycan dilçiliyi kafedrasının magistrantı. Elek.poçt: agayevaaysu70@gmail.com. Elmi rəhbər:*** *Prof. Zemfira Şahbazova.*

Nida işləndiyi cümlənin ümumi mənasını aydınlaşdırır, izah edir və inkişafına təkan verir. Bu baxımdan nidanın cümlənin əvvəlində, ortasında və ya sonunda gəlməsi xüsusi əhəmiyyət kəsb edir. Emosionallığa xidmət edən və xüsusi nitq hissəsi olan bu söz qrupu sadəcə cümlənin təşkilində deyil, daha böyük dil vahidlərinin əlaqələnməsində və bir-birinə bağlanmasında iştirak edir. Mətn dilçiliyinin komponentlərinin əlaqələnməsində nidalar fəal iştirak edir.

Əsas hissə: Uzun müddət sintaksisin tərkib hissəsi kimi yalnız söz birləşməsi və cümlə tədqiq edilmişdir. Bu istiqamətdə olan mübahisələr cümlənin bitmiş fikir ifadə etməsi ilə bağlı fikir ayrılıqlarına səbəb olmuşdur. Bir qrup dilçilər ənənəyə sadiq qalaraq cümlənin bitmiş fikir ifadə etdiyini və sintaksisin ən böyük vahidi olduğu fikrini müdafiə edirlər. XX əsrin ortalarından yeni bir istiqamət formalaşmağa başlayır ki, cümlədə ifadə olunan fikir heç də bitkinlik ifadə etmir, özündən sonra gələn cümlələrdə bu fikir davam etdirilə də bilər. Bu səbəblə sintaksisin ən böyük vahidi mətndir və mətn cümlələrdən təşkil olunmuşdur. Yəni cümlə mətnin orta vahididir.

Fikrin nisbi bitkinliyini ifadə edən mətn ifadə texnologiyasına əsaslanır. Mətnin təşkil edilməsində müxtəlif dil ünsürləri iştirak edir ki, bir-biri ilə zəncirvari əlaqələnən bu vahidlər dilin müxtəlif səviyyələrini əhatə edir. Dili təşkil edən ən kiçik vahiddən başlamış ən böyük vahidi də əhatə edən əlaqələr əsasında təşkil olunan məzmunlu birləşmə bütövlükdə mətndir və forma ilə məzmun vəhdətində aparılan tədqiqat, hər şeydən əvvəl tələb edir ki, üslubi təhlil məzmunun tərtibi, təşkilini mütləq şəkildə nəzərə alsın.

Dil vahidlərindən biri kimi qiymətləndirilən mətnin əsas xüsusiyyəti məna tutumunun olmasıdır. Mətni araşdıran dilçilər ənənəvi olaraq onu 3 yerə bölüb təsnif etmişlər və bu bölgü aşağıdakı kimidir:

1. Nəqli mətn;
2. Təsviri mətn;
3. Psixoloji mətn.

Mətnin hər üç formasının bir-biri ilə sıx və qarşılıqlı əlaqədə olması inkar edilə bilməz. Bir mətnin məzmununda nəqletmə varsa, təsviri və psixoloji məqamlar da həmin mətndə özünə yer tapmaqdadır. Sadəcə olaraq, hansının daha qabarıq ifadə olunması mətnin bölgüsünün formalaşmasına gətirib çıxarmışdır. Ümumilikdə isə nəqletmə daha çox üstünlük təşkil edir.

Nidalar dilçiliyin morfologiya bölməsində öyrənildiyinə görə belə bir fikir mövcuddur ki, hiss-həyəcan ifadə edən bu nitq hissəsi qrammatik xüsusiyyətlər daşımır. Ümumiyyətlə, demək olar ki, nidaların sintaktik xüsusiyyətləri istər bizim dilçiliyimizdə, istərsə də dünya dilçiliyində tədqiq edilməmişdir. Nida dilçilikdə, dilin leksik və qrammatik sistemində müstəqil mənalı sözlər kimi özünə yer tapmamışdır. Bu baxımdan mətn dilçiliyindən danışarkən makromətndə nidanın açar söz kimi çıxış etməsi və ya məhsuldarlıq qazanan vahid kimi dəyərləndirilməsi doğru olmaz. Lakin nidanın ifadə etdiyi mənanı nəzərə alaraq deyə bilərik ki, mikromətnlərin təşkil edilməsində və məzmununun aydınlaşdırılmasında nida özünəməxsus əhəmiyyətə malikdir.

Nida ifadə olunan fikrin ümumi məzmunu ilə bağlı olur. Müstəqil intonasiyaya malik olan bu sözlər söyləm gücünə malikdir. İşlədilən nidanın bildirdiyi hiss və həyəcan fikrin davam etdirilməsinə və sonrakı inkişafını müəyyən etməyə imkan verir. Nümunə olaraq deyə bilərik ki, qəm, kədər, məyusluq ifadə edən nidadan sonra sevinc, şadlıq ifadə edən fikir davam etdirilə bilməz. Lakin mətn texnologiyasındakı yerindən danışarkən, nidanın makromətn və mikromətndəki funksiyasını dəqiqləşdirmək lazım gəlir.

Nə gördüm, qaçır tülkü nisbət qoşun,
Özün də görəydin gələrdi xoşun!
Haray basdım, ax, vay, aman, qaçmayın!
Davam eyləyin bir zaman, qaçmayın! (M.Ə.Sabir)

M.Ə.Sabir yaradıcılığından gətirilmiş yuxarıdakı nümunədə üç nida işlənmişdir: ***ax, vay, aman***. Bu nidalar mətnin ümumi məzmununa aid olub, semantikanı qəm, kədər, məyusluq üzərində kökləyir. Bir-birilə məna çaları baxımdan yaxın olan nidalar müəllifin sənətkarlığı nəticəsində ardıcıl, yanaşı işlənmişdir. Mənanı daha da dərinləşdirmək, daha doğrusu, qüvvətləndirmək sənətkar təxəyyülünün nümunəsi kimi qiymətləndirilə bilər.

Danışan düşdüyü situasiyadan asılı olaraq ifadə etdiyi hiss-həyəcanı uzun müddət davam etdirə bilməz. Ümumi emosionallığın tərkibində müxtəlif emosional ünsürlər özünə yer tapmaqdadır. Ona görə də nidanın maktomətnin göstəricisi kimi araşdırılması mümkün deyil. Məsələn, C.Məmmədquluzadənin "Ölülər" tragikomediyası Kefli İskəndərin mövcud cahilliyə və bu cahilliyinin əsas qurucusu, səbəbkarı olan kütləyə nifrəti üzərində qurulmuşdur. Əsər makromətn nümunəsidir və əsərin müxtəlif hissələrində İskəndərin baş verən hadisələrə etirazı, qarşıdurması öz ifadəsini tapmışdır. Lakin bütün əsər boyu baş qəhrəman eyni emosiyanın ifadəçisi kimi çıxış etmir. Şeyx Nəsrulla ilə danışarkən nifrət, atası və ətrafındakı kişilərlə danışarkən istehza, anası və bacısı ilə danışarkən isə məyusluq, heyifsilənmək hissi daha qabarıq əks olunmuşdur:

İskəndər *(qapıdan başını içəri uzadıb). Əlbəttə, axşam elə biliblər ki, arvad ölüb, amma demə sən diri imiş! Xa...xa...xa!..* (C.Məmmədquluzadə)

İskəndər *(çırtmaq çala-çala oxuyur və oynayır).*

Bir qız sevmişəm doqquz yaşında...
Sürmə gözündə, rasix qaşında.
Ay can! Ay can! Ay can!.. (C.Məmmədquluzadə)

Nida mətn komponentlərinin məntiqi əlaqələnməsinin hər üç növündə - zəncirvari, paralel və qarışıq növündə müxtəlif tezliklərlə işlənmək imkanına malikdir.

Mətn komponentlərinin zəncirvari əlaqələnməsində nida, adətən, şeir dilində fəallıq göstərir. Bu əlaqələnməyə diqqət yetirdikdə belə bir qənaətə gəlmək mümkündür ki, nida həmin zəncirvari əlaqədə emosionallığın ifadəçisi kimi çıxış edir. Bunun əsas səbəbi ondan ibarətdir ki, danışan baş verən hər hansısa hadisənin təsirindən daha dərin bir emosiyaya qapılır və bu emosiyanı bir mikromətn boyu saxlamağa çalışır:

Hər kəs bilir həyatın sonu ölümdür,
Ah, bu qəmli dəyişmə yaman zülmdür.
Şerim! Bu gülünc oyun bəllidir yarın,
bizi də bəklər,
Sən də öl mənim kimi, fəqət məzarın
olsun ürəklər! (M.Müşfiq)

Məntiqi əlaqələnmənin daha çox rast gəlinən növlərindən biri paralel əlaqələnmədir, dildə daha tez-tez təsadüf edilir. Nidanın qrammatik xüsusiyyətləri və sintaktik əhəmiyyəti paralel əlaqələnməyə daha çox imkan verir. Bu əlaqələnmə növü üçün müvaziliyin söykəndiyi və tələb etdiyi təkrarlanma prinsipi dayanır. Belə ki, eyni bir nida müxtəlif cümlələrin fərqli yerlərində işlənməsinə paralel əlaqələnmə yaradır:

Nerdə məni gül qoynunda doğuran,
Xəmirimi göz yaşıyla yoğuran,
Beşiyimdə "layla balam" çağaran,
Azərbaycan, mənim baxtsız anam oy,
Neçə bir il həsrətinlə yanam, oy?.. (A.İldırım)

Mətn komponentlərinin qarışıq növü üslubi aspektdən xüsusilə seçilir. Belə ki, bu əlaqələnmə ilə qurulan mətnlərin izahı sübut edir ki, qarışıq əlaqələnmə psixoloji amillərlə bilavasitə əlaqədardır. Ümumiyyətlə, nidaların mətn komponentlərinin əlaqələnməsində olan əhəmiyyətindən bəhs edərkən qeyd etməliyik, burada nida hiss və duyğuların ifadəçisi olduğu üçün istənilən əlaqələnmədə danışanın psixologiyası ilə bağlıdır. Burada müxtəlif məna ifadə edən nidaların bir mətn daxilində sıralanması əsas rol oynayır. Danışan bir mətnin daxilində müxtəlif məzmuna və səs tərkibinə malik olan nidalardan ardıcıl istifadə edir. Bu zaman danışanın nitqi kifayət qədər zəngin olur və məntiqi baxımdan bu nidalar bir-birini tamamlayır:

Ax, a Kürüm, gözümün qarası,
Bağrına bas qardaşın Arazı,
Aman, Xəzərə ax onunla qoşa sən,
Onun ləpələrilə yaşa, sən! (Ə.Kürçaylı)

Mətnlərdə nida xüsusi əhəmiyyətə malikdir, o səbəbdən verilən mətnlərdən nidaları çıxarsaq, cümlələr emosionallıqdan məhrum olar. Əlbəttə ki, bu faktı əsas götürərək nidaları cümlənin mahiyyətinə nüfuz etməyən əhəmiyyətsiz ünsür kimi qəbul etmək yanlış olar. Həmçinin, belə bir nəticəyə gəlmək olmaz ki, nidalar cümlədə bu və ya digər cümlə üzvünün ayrılmaz hissəsinə çevrilir, onunla birlikdə bir cümlə üzvü kimi çıxış edir. Nida işləndiyi cümlənin məzmununu tamamlayır və ona məna çaları, emosionallıq əlavə edir:

Xanımın dünyaya gəldiyi günə daş düşsün! Aman, aman, Allah, yandım! Allah məni rüsvay elə! Allah, məni oda yandıranı cəhənnəm odunda yandır! (Ə.Haqverdiyev)

Nidaların mətn texnologiyasındakı əhəmiyyətindən danışarkən daha bir nüansa diqqət yetirmək lazım gəlir. Təkcə bizim dilimizdə deyil, bütün dillərdə müxtəlif səs tərkibinə malik nidalar bədii dildə, mətndə eyni məhsuldarlıqla işlənmir. Əvvəla burada zaman ünsürü xüsusi əhəmiyyət kəsb edir. Xüsusi nitq hissəsi olan nidalar müstəqil mənaya malik olmasalar da, dildə söz kimi çıxış edir və buna uyğun olaraq köhnələ bilir və ya əksinə yeniliklər qazanaraq neologizm kimi çıxış edə bilir.

Ümumi dilçilikdə "Nidalar nəzəriyyəsi" də nidaların qədim tarixə malik olduqlarını deməyə imkan verir. Belə ki, tarixi kateqoriya olan nidalar dilin daxili qayda-qanunları ilə birbaşa əlaqədardır. Xalqın məişəti, düşüncə tərzi, mədəniyyəti ilə bağlı olan hiss-həyəcan ifadə edən nidalar tarixi inkişaf prosesində köhnəlir, daşlaşır, inkişaf edir və ya yenilənir.

Tarixin müxtəlif mərhələlərində məhsuldar olan digər sözlər kimi nidalara diqqət yetirildiyi zaman kifayət qədər dəyişikliyin mövcudluğunu müşahidə edə bilərik. Qədim yazılı abidələrin, şifahi dil nümunələrinin dilində müasir dildə mövcud olan sözlərdən – nidalardan fərqli dil vahidləri işlənmişdir. Qeyd etmək lazımdır ki, mətndən asılı olaraq həmin sözlərin hansı nitq hissəsinə aidliyi müəyyən qədər mübahisələr yaratmışdır. Belə ki, daha çox nida və vokativ söz sərhəddində özünü göstərən bu sözlərə türklərin qədim yazılı abidəsi kimi bu gün bütün dünyaya səs salan "Kitabi-Dədə Qorduq"da rast gəlmək mümkündür:

Əlünə girmişkən, mərə kafir, öldür məni, yetür məni!

Müasir dilimizə də nəzər yetirdiyimiz zaman çox sayda olmasa da, daha çox gənc kütlə tərəfindən istifadə edilən xarici mənşəli nidalarla rastlaşırıq. Belə ki, həmin nidalar hazırda dilimizin lüğət tərkibinə daxil edilməyib və belə demək mümkündürsə, Azərbaycan dili qayda-qanunlarına tabe olmayan bu tipli "parazit" sözlərin dilin lüğət tərkibinə daxil edilməsi yolverilməzdir: *ok, yuh, vauv* və s.

Nida milli xüsusiyyətləri özündə ehtiva edir, daha çox xalqın düşüncə tərzi, həyat şəraiti, mədəniyyəti ilə bağlı olur. Bu səbəbdən də keçmişdən süzülüb gələn ənənələri davam etdirdiyimiz kimi emosiyalarımızı da bütün reallığı ilə ifadə edirik və bu da özünü nitqimizdə aydın büruzə verir. Baş verən hadisə ilə əlaqədar olaraq müxtəlif xalqların nümayəndələri eyni hiss və duyğuların daşıyıcısı kimi çıxış edə bilər, amma eyni münasibət ifadə olunmaya bilər.

Nəticə və elmi yenilik: Son olaraq deyə bilərik ki, müasir dilçiliyin əsas istiqamətlərindən biri olan mətn sintaksisinin tərkib hissələrinin əlaqələnməsində nidaların əhəmiyyəti inkar edilə bilməz. Ümumiyyətlə, nida istər bədii dilin, istərsə də danışıq dilinin əvəz edilməyən söz qruplarından biridir. Belə ki, əvvəldə də qeyd etdiyimiz kimi leksik mənaya malik olan sözlərin böyük əksəriyyətini əvəz edəcək və ya izah edəcək dil vahidi tapmaq mümkündür. Lakin hiss və duyğuların ifadəçisi olan nidaları əvəz edəcək, hətta aydınlaşdıracaq dil vahidi mövcud deyil. Nidalar dilin emosional qabığının əsas təzahür formasıdır. Bu baxımdan nidanın dildəki yerini dəyişdirmək mümkün deyil.

İstifadə edilmiş ədəbiyyat

1. Abdulla K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: MTM – İnnovation, 2016, 306 s.
2. Ağakişiyev Ə. Dildə nidanın linqivistik təhlili. Bakı, 2012, 138 s.
3. Hacıyev K. Azərbaycan dilində xüsusi nitq hissələri. Bakı: Çaşıoğlu, 1999, 164 s.
4. Hacıyev K. Azərbaycan dilində nida. Bakı: Nurlan, 2005, 215 s.
5. Kazımov Q. Azərbaycan dilinin tarixi sintaksisi. Bakı: Elm, 2019, 608 s.
6. Novruzova N. Mətn sintaksisi. Bakı: Təhsil, 2002, 184 s.

HÜSEYN CAVİDİN DİLİNDƏ TÜRK DİLİNƏ MƏXSUS FONETİK XÜSUSİYYƏTLƏR

Arzu Quliyeva*

Abstract

Phonetic features of Huseyn Javid's language belonging to the Turkish language

The article is called Turkish phonetic features in the language of Hussein Javid. Here the Turkish words found in the language of H. Javid's works and their phonetic features are examined. The Turkish language, like the Azerbaijani language, belongs to the Oghuz group of Turkic languages. Therefore, there are a number of similarities between these languages. however, as an independent language, Turkish has a number of phonetic differences. The article examines all these issues in a comparative way.

Keywords: *Hussain Javid, phonetics, language, Turkish, research.*

Giriş. XX əsr Azərbaycan ədəbiyyatı tarixinin özünəməxsus inkişaf mərhələsi olmuşdur. Bu mərhələ özünün ideya, məzmun dərinliyinə və yüksək sənətkarlıq səviyyəsinə görə seçilir. Yeni ictimai, siyasi-sosial şəraitdə qədim ənənələri davam etdirən və yenilikçi addımları ilə fərqlənən dəyərli sənətkarlarımızdan biri də Hüseyn Caviddir. H.Cavid Türkiyədə - İstanbulda təhsil almış və burada oxuması onun yaradıcılığına, əsərlərinin dilinə çox təsir etmişdir. O, əsərlərini türk dili (şairin zamanında sözü gedən dil Osmanlı türkcəsi adlanırdı) ilə Azərbaycan dilinin qarşılıqlı əlaqədə olduğu bir dillə qələmə almışdır.

Azərbaycan dili ilə türk dili geneoloji və tipoloji cəhətdən qohum dillərdir. Bu iki dili eyni bir dil ailəsində, eyni dil qrupunda birləşdirən əsas əlamət Azərbaycan və türk dillərinin qrammatik quruluşu və əsas lüğət fondunda fərqlərdən daha çox oxşar xüsusiyyətlərin olmasıdır. Lakin bu dillərin qrammatik quruluşlarını, eləcə də lüğətlərini bir-birindən fərqləndirən xüsusiyyətlər əlbəttə ki vardır.

Əsas hissə. Türk və Azərbaycan dillərinin fonetikasına nəzər yetirdikdə əsaslı bir fərqin olmadığını görmək mümkündür. Buna baxmayaraq hər iki dilin fonetikası həm leksika, həm morfologiya sahələri ilə birlikdə uzun və keşməkeşli inkişaf yolu keçmişdir. Bunun nəticəsində türk dilinin fonetikasını Azərbaycan dilinin fonetikasından fərqləndirən xüsusiyyətlər ortaya çıxmışdır. Görkəmli mütəfəkkir Hüseyn Cavidin əsərlərində də bu fərqlərə rast gəlmək olar. İndi isə tək-tək bu fərqləri nəzərdən keçirək.

Söz əvvəlində qapalı saitdən öncə "y" samitinin işlənməsi hadisəsinə diqqət edək. "Cingiltili "y" samiti Orxon-Yenisey abidələrində söz əvvəlində üstün mövqedə olmuşdur" [12, s. 146]. Bu fonemin türk dillərində ilkinliyi məsələsi ilə bağlı tədqiqatçıların fikirləri müxtəlif olmuşdur. Türkoloqların bir qismi- V.V.Radlov, B.A.Serebrennikov, E.R.Tenişev, V.A.Boqoroditski türk dillərində söz əvvəlində y səsini ilkin hesab etsələr də, digərləri- Q.İ.Ramstedt, N.N.Poppe, A.M.Şerbak, S.Y.Malov və b. tədqiqatçılar isə sonrakı hadisə hesab etmişlər. Qeyd edək ki, Hüseyn Cavid dilində anlautda *y* foneminin işlənməsi müasir türk dili üçün xarakterik xüsusiyyətdir. Məsələn:

Dəmin ilham alırkən şeirə bənzər hər məqalından, Keçər **yıllar**, xəbər tutmam sevincindən, məlalından [9, s. 37]; Barışın, son gecəmizdir barışın, Hər kimin **yıldızı** parlarsa yarın [9, s. 13]; Seyrə çıqmış da saraydan qızlar, Haydı **yüzlər** divara! [9, s. 35]; **Yucadır** hər biri bizdən bin qat [9, s. 62]; Sardı bütün çevrəmi əqrəb, **yılan,** Hər biri bir vəhşi öküzdən yaman [9, s. 75]; Xəyal içində bəşər daima səadət arar, Həqiqətin **yüzü** lakin, gülümsəməz, ağlar [5, s. 47].

Yuxarıda yazıçının dilindən seçilən nümunələrdə söz əvvəlində qapalı saitdən əvvəl "y" foneminin işlənməsi (yıllar, yıldız, yüzlər, yuca, yılan, yüzü) nə Hüseyn Cavid dövrü Azərbaycan ədəbi dili, nə də müasir dilimiz üçün səciyyəvidir. Düzdür, söz əvvəlində qapalı saitdən əvvəl "y" samitinin aktiv işlənməsi hallarına klassiklərimizin-Nəsimi, Füzulinin və s. dilində də rast gəlmək olar. Həmçinin Kaşğarinin Divanında və "Kitabi-Dədə Qorqud"da da bu cür sözlərlə qarşılaşırıq. Müasir Türkiyə türkcəsində bu vəziyyət qalsa da, Müasir Azərbaycan dilində "y" samiti qapalı saitdən əvvəl

* ***Bakı Dövlət Universiteti, Türkologiya kafedrasının magistrantı. Elek.poçt: arzuquliyeva104@gmail.com. Elmi rəhbər:*** *Dos. Firəngiz Kərimli.*

söz əvvəlində artıq işlənmir. Elbrus Əzizov bununla bağlı yazır: "Müasir türk dilləri içərisində söz önündə qapalı saitdən əvvəl y-nın sıfır səsə uyğun gəlməsi Azərbaycan dili üçün səciyyəvidir" [3, s. 82-83]. Hüseyn Cavid dilindəki bu fakt məhz türk dilinin təsiri ilə baş vermişdir.

Türk dili ilə Azərbaycan dili arasında qarşılaşdığımız bir fonetik fərq də səs əvəzlənmələridir. Səs əvəzlənmələrini iki qrupa ayırmaq olar:

1. Samit səs əvəzlənmələri;
2. Sait səs əvəzlənmələri.

q>x əvəzlənməsi

H. Cavidin dilində işlənən q>x əvəzlənməsi ilə bağlı nümunələri nəzərdən keçirək:

Arqa olsun da gərək bir-birinə, **Çıqalım** bəlkə səadətli günə [9, s.13]; X a c ə N i z a m: Bunu **vaqtilə** sən açdın gerçək, Yüksələn düşkünə yardımçı gərək [9, s. 14]; Ə b u T a h i r: Gəliniz, minbərə **çıqmışdır** imam, Saray ərkanı bu gün burda tamam [9, s. 14]; Ə b u T a h i r: Cənnət istərsin əgər, camiyə var, **Çoq** saray qızları gəlmiş...[9, s. 15]; S a b b a h: Nə **çıqar**?..[9, s. 15]; **Baq**, gələn kimdir? [9, s. 15]; Qapını açıb **baqar**, heyrətlə [9, s. 15].

Bu nümunələrdən (arqa, çıqalım, vaqtilə, çıqmışdır, çıqar, çoq, baq) də aydın olur ki, Hüseyn Cavid söz ortası və sonundakı x fonemini dövrünün Azərbaycan ədəbi dili normalarından kənara çıxaraq, q (türk dilindəki k) samiti ilə əvəz etmişdir. Bəzi tədqiqatçılar q>x əvəzlənməsi hadisəsini Azərbaycan dilində olan "x, ğ" səslərinin türk ədəbi dilində olmaması ilə izah etmişlər.

Azərbaycan dilini tarixilik baxımdan daha dərin və diqqətlə tədqiq edən Hadi Mirzəzadə bu halla bağlı yazır: "Azərbaycan dilində sonu "q" ilə bitən sözlər kar tələffüz edilir, adi "q" səsindən fərqlənir. Müəyyən tarixi inkişaf dövrü keçən ədəbi dilimizi əks etdirən yazılardan məlum olur ki, sözlərin sonunda gələn "q" səsi çox zaman x səsi ilə verilmişdir" [10, s. 2].

Müasir Azərbaycan dilində yuxarıdakı sözlər "x" samiti ilə (çıxmışdır, bax, vaxtilə, baxar, çıxar, çox) yazılır və tələffüz edilir. T.Hacıyev XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinə məxsus nümunələrdə q səsinin x mövqeyində işlənməsini belə izah edir ki, bu hadisə klassik ədəbi dil ənənəsinin təsiri ilə baş verir və anoloji vəziyyət ədəbi dilimizin əvvəlki dövrlərində də müşahidə edilmişdir. Müəllif belə hesab edir ki, o dövrün ədəbi tələffüz tələbi söz sonunda cingiltiləşmə tələb etmişdir [4, s. 116].

b>m əvəzlənməsi

Bu samit fonemlərin hər ikisi cingiltilidir. Onları bir-birindən fərqləndirən xüsusiyyət isə *m* foneminin burun sonoru olmasıdır. Müasir türk dili üçün xarakterik olan bu əvəzlənmə ilə Orxon-Yenisey abidələrində, həmçinin "Kitabi-Dədə-Qorqud"-da qarşılaşırıq. Əzizxan Tanrıverdi qeyd edir ki, *b>m* əvəzlənməsi *m>b* əvəzlənməsi şəklində "Kitab"da ismin hal şəkilçilərini qəbul etmiş "bu" işarə əvəzliyində özünü qabarıq göstərmişdir [12, s. 153].

Yuxarıda qeyd etdiyimiz əvəzlənmə Azərbaycan dili üçün klassikləşmiş olsa da, müasir türk dili üçün aktual olan hadisədir. Məsələn: Ağlama, hiç kimsə qıymamış **bana**, Düşmanım qanlı taleyimdir, ana![6, s. 48]; Güldükcə günəş **bən** də gülərdim, Şən könlümü azadə dilərdim [9, s. 48]; Ah, mərhəmət! Ey, sevgili İsa! Qurtar onu, **bin** cürmü də olsa...[8, s. 49]; Qanpolad! Sən nə tez unutdun **bəni**? Xayır, yalnız bıraqmam əsla səni [6, s. 51].

Nümunələrdə işlənən bana, bən, bin, bəni sözləri Azərbaycan dilində m fonemi ilə yazılır və tələffüz edilir (mənə, mən, min, məni).

M.Kaşğari oğuz, qıpçaq və suvarların m-nı b fonemi ilə əvəz etdiklərini qeyd etmişdir. Elbrus Əzizov isə şivələrimizdə işlənən bu əvəzlənmə ilə bağlı yazır ki, "Kitabi-Dədə Qorqud" eposunun formalaşdığı dövrdə Azərbaycan dilində *mən* variantının üstünlüyü qədim yerli tayfaların, *bən* isə sonralar gəlmiş oğuz-səlcuq tayfalarının dil xüsusiyyəti olmuşdur [3, s.104]

d>t əvəzlənməsi

Müasir türk dilində Azərbaycan dili ilə müqayisədə söz sonunda karlaşma hadisəsinin daha qüvvətli olduğu məlumdur. Buna uyğun olaraq Hüseyn Cavidin əsərlərindən seçdiyimiz nümunələrə diqqət yetirək: Adəm evladı **qol-qanat** açaraq, çarpışır yerdə göydə od saçaraq [5, s. 74.]; Baq, iştə hər **bulut**, Söylər unut onu, Çünki hiçdir sonu [7, s. 80].

Nümunədəki sözlərin (qol-qanat, bulut) sonunda *t* foneminin işlənməsi Azərbaycan dili üçün xarakterik deyil. Lakin d-t paralelliyinə tarixən yanaşdıqda "Kitabi-Dədə Qorqud"da bəzi sözlərin hər iki fonemlə bitməsinə aid nümunələr görmək mümkündür. Orxon-Yenisey abidəsində isə *t* fonemi ilə verilən sözlərlə qarşılaşırıq.

e>ö əvəzlənməsi

Türkiyə türkcəsinə xas olan digər bir xüsusiyyət isə sözlərdə **e>ö** sait əvəzlənməsidir. Məsələn, Alp Arslan, saray ərkanı, saraylı xanımlar və yavərlər önlərində şərab qədəhləri olaraq **zevqə** dalmışlar [9, s. 44]; M ə c l i s d ə k i l ə r: Binlərcə yaşa, ey yılmaz, **Şevkətli**, böyük xaqan![9, s. 44]; **Tevbələr** olsun, daha içməm, yetər, Bən bilirim orda nələr var, nələr? [9, s. 74]; Şu **levheden**, şu gözəl çöhrədən ibarətdir, Bən istərim o təravətlə daimi yaşamaq...[9, s. 52]; Bunu gördükdə qomşu **devletler**, Memleketler, zavallı millətlər; Həp boyun bükdü, türkə yalvardı [9, s. 73]; Adəm **evladı** qol-qanat açaraq, Çarpışır yerdə, göydə od saçaraq [9, s. 74].

Yuxarıda fərqləndirdiyimiz sözlər (zevq, şevkətli, tevbə, levhe, devlet, evlad) müasir Azərbaycan dilində *şövkətli, dövlət, lövhə, övlad, zövq* şəklində işlənir.

ü>i və i>ü əvəzlənməsi

Saitlər sistemində qarşılaşdığımız digər bir Türkiyə türkcəsinə xas olan əvəzlənmə ü>i və i>ü-dir. Məsələn,

Bütün qadınlığı təsmim edən, əzib bitirən, Çoluq-çocuqlu, müşəvvəş həyat **için** daim [5, s. 37]; Nədir, bilməm, günahım, məst ikən gözlər **visalından**, Bənim məhrum olan, ey nazlı afət, gül cəmalından [9, s. 37]; Qurnaz **tilki** [9, s. 44]; Sən **küçülsən** də böyüksün, hətta Qopsa zülmət, yenə parlar o zəka! [9, s. 41].

Bu nümunələrdəki sözlər müasir Türkiyə türkcəsində olsa da, Azərbaycan dilində *üçün, vüsal, tülkü, kiçilsən* şəklində özünü göstərir.

Bu səs dəyişməsinin Türkiyə türkcəsinə məxsusluğu haqqında məlumata türkoloq Fərhad Zeynalovun "Türkologiyaya giriş" əsərində rast gəlmək olar [13, s. 127].

Bu hadisə dodaqlanma əlamətinin yaranması və itməsi, yəni labiallaşma və delabiallaşma adlanır. Azərbaycan dialektlərində də həm labiallaşma ilə, həm də delabiallaşma ilə qarşılaşırıq. Sadəcə dialektlərimizdə deyil Azərbaycan yazılı abidələrinin dilində də öz əksini tapmışdır [3, s. 140].

o>a əvəzlənməsi. Bu səs əvəzlənməsi *av* birləşməsində özünü qabarıq şəkildə göstərmişdir. Bu hadisəyə tarixi baxımdan yanaşdıqda Azərbaycan dili şivələrində *a* saitinin o saitinə keçməsi orta əsrlərdə özünü göstərir. Bu dövrdə tərkibində *av* səs birləşməsi olan sözlər müxtəlif şivələrdə, bəzən isə eyni bir şivədə həm av, həm də *ov* şəklində istifadə olunmuşdur [3, s. 129]. *Av* səs birləşməsi *ov* səs birləşməsinə görə daha qədimdir. Müasir Azərbaycan ədəbi dilində və ümumxalq dilində av forması yox, *ov* forması xarakterikdir. Hüseyn Cavid dilindəki nümunələrə nəzər yetirək:

Bizə yaqlaşdımı, bəsbəlli, yaqar, O **alav** səndəki gözlərdə də var [9, s. 36]; Güldü bahar, oldu çəmən laləzar, **Avladı** hər aşiqi bir işvəkar [9, s. 71].

Nümunədəki sözlər (alav, avladı) Azərbaycan ədəbi dilində o (alov, ovladı) ilə yazılır. Qeyd edək ki, 1-ci nümunədəki **alav** sözü yazıçının dilində dəfələrlə öz əksini tapmışdır. Müasir türk dilində bu söz "alev" şəklində olsa da, ədibin dilinə türk dilinin təsiri ilə *ov* səs birləşməsi *av* şəklində əksini tapmışdır. Bu səbəbdən də H.Cavidin əsərlərində alov sözünün həm *alev*, həm də *alav* şəklinə rast gəlirik.

Azərbaycan dilinin Naxçıvan qrupu, Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli şivələrində o>a səs uyğunluğu geniş yayılmışdır [3, s. 58]. M. Məmmədov və M. Ergin *av* səs birləşməsinin Cənubi Azərbaycan şivələrinin əsas xüsusiyyətlərindən olduğunu qeyd etmişlər.

a>ə əvəzlənməsi

Hüseyn Cavidin əsərlərində qarşılaşdığımız maraqlı bir əvəzlənmə isə **a>ə** əvəzlənməsi olmuşdur. Burada yazıçının Azərbaycan və türk dillərinin fonetikasından xüsusiyyətləri qarşılaşdırdığını görürük. Nümunələrə diqqət yetirək:

Qızarmış **tazə** əkmək, **tazə** qaymaq, Çabuq gəl, durma gəl, fürsətdir ancaq [9, s. 26]; H a c i b Bu **saət** [9, s. 42]; Biz də az-çoq biliriz, etmə **məraq**, Hər kəs er-gec yeyəcək böylə dayaq [9, s. 33];

Yapacaq olsa **rəsədxanə** bizə, Şan verir fənnilə tariximizə [9, s. 45]; Qarşında aman bulmaz Ən qorqulu bir düşman [9, s. 45].

Yuxarıdakı nümunələrdən göründüyü kimi müasir Azərbaycan dilində *a* saiti ilə işlənən sözlər (saat, maraq, rəsədxana) yazıçının dilində *ə* hərfi ilə verilmişdir. Dilimizdə *ə* saiti ilə işlənən sözlər (*təzə, düşmən*) burada *a* saiti ilə verilmişdir. Bu türk dilində *ə* saitinin müstəqil fonem olmaması ilə bağlıdır. Belə ki, müasir türk dilində *ə* saiti yazıda istifadə olunmur, lakin tələffüzdə bu fonemdən istifadə olunur. M. Ergin yazır: "Osmanlı sahəsində qalın tələffüz olunan qısa vokallı yabançı kəlmələr Azəri türkcəsində incə şəkilləri ilə söylənməkdədir..." [2, s. 90]. Burada tədqiqatçı qalın tələffüz olunan sait kimi a fonemini, incə vokallı sait dedikdə isə ə səsini nəzərdə tutmuşdur.

Yazıçının dilindəki bu xüsusiyyət onun Türkiyədə təhsil alması və yaşaması ilə bağlı olsa da, bu xüsusiyyətə Azərbaycan dilinin dialektlərində də rast gəlmək olar. *a>ə* dəyişməsi Azərbaycan dilinin cənub və şimal-şərq şivələrində geniş yayılmışdır [3, s. 122].

Şivələrimizdə mövcud olan bu xüsusiyyətə uyğun olaraq tədqiqatçılar (Ə.Dəmirçizadə, M.Ergin, F.Zeynalov, S.Əlizadə) göstərmişlər ki, "Kitabi-Dədə Qorqud"da işlənən bəzi sözləri həm "a", həm də "ə" fonemi ilə oxumaq mümkündür.

Qeyd edək ki, bu səs dəyişməsi ilə sonrakı dövrlərdə də yazıçılarımızın (Füzuli, Yusif Məddah və b.) yaradıcılığında qarşılaşırıq.

Türkiyə türkcəsinə məxsus digər özəllik isə demək olar ki, geminantların, yəni qoşasamitli (eynicinsli) sözlərin işlənməməsidir. Burada istisnalar da özünü göstərir. Samitlə bitən sözə samitlə başlayan şəkilçi artırdıqda (eller, yıllar) və "anne", "elli" kimi sözlər istisna haldır. Müasir Azərbaycan dilində belə sözlər olduğu kimi də istifadə olunur. Hüseyn Cavidin əsərlərindən nümunələrə baxaq :

Rəmzi ilə Xərabati yavaş **adımlarla** getmək üzrə ikən Xəyyam sarıqsız və əbasız olaraq, saçları dağınıq, arıq və solğun çöhrə ilə qarşıdan çıqar [9, s. 27]; Bu sırada qara, gur **saqallı** bir sıra müridlər və xocalar içəri soqulurlar [9, s. 72]; **Doquz** yaşında zəki,uslu bir çocuq [5, s. 63]; **Səkiz** gün oldu ki, artıq xəbər yoq Ənvərdən [5, s. 63].

İşarələdiyimiz sözlər (adımlarla, saqallı,doquz,səkiz) müasir Azərbaycan ədəbi dilində qoşasamitli sözlər şəklində (addım, saqqal, doqquz, səkkiz) istifadə olunur. Türk dilinin Anadolu şivəsində geminantlarla qarşılaşırıq. Bəzi sözlərdə isə istisna hal kimi qalmışdır: Həyatı, nəşəsi, ümmidi tək bir **annəsi** var [5, s. 63].

Metateza

Metateza hadisəsi fonetik hadisədir və səslərin yerdəyişməsidir. Türk dillərində (türk, türkmən, qaqauz) işlənən sözlərin bəziləri metatezaya uğrayaraq Azərbaycan dilində işlənir. H. Cavidin əsərlərində də leksik vahidlərin türk dilində işlənən formalarına rast gəlirik. Məsələn,

Şeyda isə digər tərəfdə, pəncərə önündə, **öksürüb** inildiyor, hər üçü **dutsaq** qiyafətindədir [6, s. 267]; O bir öksüz, o bir soluq **yapraq**..[5, s. 62].

Nümunələrdə fərqləndirilən sözlər müasir Azərbaycan ədəbi dilində *öskürük, dustaq, yarpaq* şəklində yazılır və tələffüz edilir.

Qeyd edək ki, müasir ədəbi dilimizdə metateza demək olar ki, müşahidə edilmir [1, s. 233].

Nəticə və elmi yenilik. XX əsrin görkəmli söz sənətkarlarından biri olan Hüseyn Cavid əsərlərində həm yenilikçi fikirləri ilə, həm də xalqın tarixi xüsusiyyətlərini özündə cəmləməsi ilə seçilmişdir. Hüseyn Cavidin əsərlərinin dili hər zaman diqqət mərkəzində olmuş və tədqiqata cəlb olunmuşdur. Məlahət Babayeva, Çinarə Rzayeva və başqaları onun yaradıcılığını poetik, leksik-semantik cəhətdən tədqiq etmiş olsalar da, Hüseyn Cavidin əsərlərində fonetik xüsusiyyətlərlə bağlı tədqiqat aparılmamışdır. Hal-hazırda Türkiyə-Azərbaycan Universitetinin yaradılması, türk dövlətləri ilə ölkəmizin yaxın əlaqələrinin olması və bu əlaqələrin daima inkişaf etməsi görkəmli ədiblərimizin yaradıcılığında olan türk dilinə məxsus dil faktlarının araşdırılmasını şərtləndirən əsas səbəblərdəndir.

Hüseyn Cavidin əsərlərində türk dilinə məxsus fonetik xüsusiyyətləri tədqiq edərkən bir neçə istiqamətə diqqət yetirdik: türk dilinə xas olan söz əvvəlində qapalı saitdən əvvəl y samitinin işlənməsi, delabiallaşma, labiallaşma, karlaşma hadisəsi və s. H.Cavidin dilində fonetik hadisələr içərisində ən çox özünü göstərən metateza hadisəsi də diqqətimizi cəlb etdi. Digər tədqiqatçılara əsaslanaraq bunların səbəblərini şərh etməyə çalışdıq. Qeyd edək ki, Hüseyn Cavidin dilində çoxlu

sayda türk dilinə məxsus dil faktlarının olması onun İstanbulda təhsil alması və orada yaşaması ilə birbaşa əlaqəlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Axundov A. Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 1984, 392 s.
2. Ergin M. Azeri türkçesi. 2. baskı. İstanbul: 1981, 263 s.
3. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: Elm və təhsil, 2016, 348 s.
4. Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. II hissə, Bakı: Maarif, 1987, 293 s.
5. Hüseyn C. Əsərləri. I cild. Bakı: Elm, 2005, 303 s.
6. Hüseyn C. Əsərləri. II cild. Bakı: Lider, 2005, 352 s.
7. Hüseyn Cavid. Əsərləri. III cild. Bakı: Lider, 2005, 304 s.
8. Hüseyn Cavid. Əsərləri. IV cild. Bakı: Lider, 2005, 256 s.
9. Hüseyn C.Əsərləri. V cild. Bakı, Lider, 2005, 288 s.
10. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: 1990, 250 s.
11. Rəsulov Ə.A., Rüstəmov R.Ə. Türk dili. Dərslik. Bakı: Bakı Universiteti, 2007, 308 s.
12. Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 2017, 538 s.
13. Zeynalov F. Türkologiyanın əsasları. Bakı: Maarif, 1981, 345 s.

TURFAN ABİDƏLƏRİNİN TƏSNİFİ VƏ TƏDQİQİ TARİXİ

Gülmirə Əliyeva*

Abstract

History of classification and study of Turfan monuments

Turfan monuments are monuments belonging to the Uyghur Turks found in East Turkestan, that is, in the territory of China. Thanks to these monuments, we have obtained a lot of information about the Uighur Turks. The article provides information on how Turfan monuments are classified in Azerbaijan. There is no consensus on which monuments are meant by the monuments of East Turkestan or Turfan. This article addresses such issues. Some researchers mean all monuments found in East Turkestan by Turfan monuments, while some researchers mean Turfan monuments and monuments found near Turfan city. For example, although A.Rajabli mentions the "Altun Yaruk" monument as a monument of Turfan in Azerbaijan, A.Shukurlu, N.Khudiyev do not mention this monument as a monument of Turfan. In addition, the article provides information about when these monuments were studied, who studied them, and how they were studied in Azerbaijan.

Keywords: *Turfan monuments, East Turkestan, Uighur turks, research, history.*

Giriş. Turfan abidələri Şərqi Türküstanda yaşayan uyğur türklərinə məxsus abidələrdir. Bu abidələrdə uyğur türklərinin tarixi, mədəniyyəti, əlifbası, dili, ədəbiyyatı, məşğuliyyəti və s. haqqında çox geniş məlumatlar qorunub saxlanmışdır. Aşkara çıxarılan hüquqi sənədlər bizə uyğurların hüququ, iqtisadiyyatı haqqında müxtəlif məlumatlar verir. Uyğur abidələrinin böyük bir qismi demək olar ki, Turfan əyalətində tapılmışdır. Türkologiyada Turfan abidələrinin təsnifi haqqında fikir müxtəlifliyi vardır. Turfan abidələri dedikdə tədqiqatçılar təkcə Turfan əyalətində tapılan abidələri deyil, ümumilikdə Şərqi Türküstanda tapılan bütün abidələri nəzərdə tuturlar.

Əsas hissə. Turfan abidələrinin təsnifi və bu abidələrə hansı abidələrin, mətnlərin daxil olması ilə bağlı Azərbaycan dilçiliyində fikirlər müxtəlifdir. N.Xudiyev Orxon-Yenisey abidələrini tapıldığı əraziyə görə qruplaşdırır və 5 qrup göstərir: 1.Orxon abidələri; 2.Yenisey abidələri; 3.Şərqi Türküstan abidələri; 4.Orta Asiya abidələri; 5.Şərqi Avropa abidələri. Şərqi Türküstan abidələrinə isə daxil edir: "Turfan vahəsindən tapılmış 4 kitabə, Dunxandan tapılmış bir neçə fraqment, Mirandan tapılmış 53 sətirdən ibarət üç vərəq və "Falnamə" [2, s. 375].

Şərqi Türküstan abidələrinin təsnifini N.Xudiyev 4 qrupda vermişdir. "Müxtəlif dinlərə sitayiş edən uyğurlar daş kitabələrini və digər abidələrini də müxtəlif əlifbalarda yaratmaq məcburiyyətində olmuşlar. Hindistan ətrafında yaşayan, budda dininə sitayiş edənlər brahma-hind əlifbasından, xristian dininə tapınanlar uyğur əlifbasından, atəşpərəstliyi qəbul edənlər isə mani əlifbasından istifadə etmişlər. Bəzi uyğur qəbilələri isə göytürk əlifbasından yuxarıdan aşağıya doğru yazılan soqda əlifbalı yazıya keçmişdilər. Bu səbəbdən də uyğur abidələri daşıdığı dini məzmuna görə qruplaşdırılır:

1. Mani dini məzmunlu uyğur yazılı abidələri.
2. Xristian dini məzmunlu uyğur yazılı abidələri.
3. Budda dini məzmunlu uyğur yazılı abidələri.
4. Dini məzmun daşımayan uyğur yazılı abidələri" [2, s. 36].

Yaxşı olardı ki, Turfan abidələri Orxon-Yenisey abidələrinin tərkibində deyil, müstəqil abidələr şəklində verilsin. Bizə artıq məlumdur ki, Orxon-Yenisey abidələri VI-VII əsrlərə aiddir və bu abidələr tapıldığı əraziyə görə adlandırılır. Orxon çayı Monqolustan ərazisində, Yenisey çayı isə başlanğıcını Monqolustan ərazisindən götürür və Rusiyanın ən böyük çaylarından biridir. Turfan mətnləri isə Çin ərazisindən tapılıb və əksəriyyəti VIII-X əsrə aid edilir. Bəzi abidələrin isə tarixi məlum olmasa da dil xüsusiyyətlərinə görə VIII əsrdən çox-çox əvvələ aid edə bilərik. Turfan mətnlərinin bəzilərinin isə yazılma tarixi müəyyənləşdirilməmişdir.

* ***Bakı Dövlət Universiteti, Türkologiya kafedrasının magistrantı. Elek.poçt: qummus99@gmail.com. Elmi rəhbər:*** *Prof. Məhərrəm Məmmədov.*

Ə.Şükürlü isə Şərqi Türküstan abidələrini Orxon-Yenisey abidələrinə deyil, Göytürk abidələrinə aid edir. Göytürk abidələri dedikdə Ə.Şükürlü bu abidələri nəzərdə tutur: "1.Şimal-qərb və cənubi Monqolustan yazılı abidələri; 2.Yenisey yazılı abidələri; 3.Lena-Balkan yazılı abidələri; 4.Altay yazılı abidələri; 5.Şərqi Türküstanda tapılan yazılı abidələr; 6.Şimali Qırğızıstan və Qazaxıstan yazılı abidələri; 7.Fərqanə, Ala və Şimali Toxarıstanda tapılan yazılı abidələr; 8.Şərqi Avropada tapılan yazılı abidələr" [9, s. 23-30]. Şərqi Türküstanda tapılan abidələri isə 2 qrupda göstərir. I. Kağız üzərində yazılan abidələr; II. Müxtəlif əşyalar üzərində yazılan abidələr. Kağız üzərində yazılan abidələrə daxildir: "1) Toyok abidəsi. Bu abidədə Göytürk əlifbasının bəzi yazı işarələri mani yazı işarələri ilə qarşılaşdırılmışdır; 2) Sehrkarlıq məzmunu daşıyan Turfan yazılı sənədləri; 3) Budda dini məzmunu daşıyan uyğur abidəsinin arxasında göytürk əlifbası ilə yazılmış kiçik mətn. Bu abidəni bəzən London mətni kimi də tanıdırlar; 4) Miran şəhərində tapılmış naməlum yazılı abidədən 4 qısa mətn parçaları; 5) "Irk bitik" abidəsi; 6) Dunxanda tapılmış naməlum mətnin parçası" [9, s. 28-29]. Müxtəlif tipli əşyalar üzərində yazılmış abidələrə isə bu abidələri daxil edir: "1) Dunxanda qaya içərisindəki oyuqda tapılmış 8-ci budda dini məbədində divari yazılmış abidə; 2) Yar-Xotoda dağ kahasındakı budda dini məbədinin divarında qrafiklə yazılmış abidə; 3) Şərqi Türküstanda tapılmış güzgü üzərindəki yazı; 4) Turfanda kahada tikilmiş budda dini məbədində divarda qrafitlə yazılmış abidə. Bu abidəni ilk dəfə Çin alimi Fenşey 1960-cı ildə çox aşağı səviyyədə çapdan buraxdırmışdır" [9, s. 29].

Ə. Şükürlünün uyğur abidələrinə verdiyi təsnif N. Xudiyevin təsnifi ilə üst üstə düşür. Ə.Şükürov və A.Məhərrəmov isə uyğur abidələrini fərqli şəkildə təsnif etmişlər:

1. Manixey dini məzmunlu uyğur yazılı abidələri;
2. Xristian dini məzmunlu uyğur yazılı abidələri;
3. Budda dini məzmunlu uyğur yazılı abidələri;
4. Qədim uyğur hüquq sənədləri.

Bəllidir ki, uyğurlar müxtəlif dinlərə sitayiş etmişlər. Bununla əlaqədar olaraq uyğurlar müxtəlif əlifbalardan istifadə ediblər. Ə. Şükürlü yad əlifba ilə yazılan, daha doğrusu Çin heroqlifləri ilə yazılan qədim uyğur yazısı abidələrini uyğur abidələri kimi qeyd etmir. "Uyğur qəbilələri, bəllidir ki, tapındıqları dini etiqadların müxtəlifliyi, düşdükləri tarixi-ictimai şəraitlə bağlı olaraq müxtəlif əlifbalardan istifadə etmişlər. Çin heroqlifləri ilə yazılmış qədim uyğur yazısı abidələrini uyğur dili ilə oxumaq mümkün olmadığına görə onları uyğur dili abidəsi kimi öyrənməyə heç bir əsas yoxdur. Hindistana yaxın olub budda dininə sitayiş edən bir qrup uyğur qəbiləsi brahma - hind əlifbasından istifadə etmişlər. Bu əlifba fonetik (sillaboqrafik) yazı olduğuna görə uyğur mətnlərini qədim uyğur dilində oxumaq mümkündür" [9, s. 34]. Ə.Rəcəbli isə Ə.Şükürlünün bu fikri ilə razılaşmır və bu abidələri qədim uyğur dili abidələri kimi qəbul edir. "Bəzi tədqiqatçılar səhv olaraq əlifba məsələsini dil və din məsələsi ilə qarışdırıb guya yad əlifba ilə yazılan uyğur mətnlərinin uyğur dilinə heç bir aidliyi olmadığını iddia edirlər. Tamamilə səhv fikirlərdir, çünki Çin heroqlifləri ilə yazılmasına baxmayaraq, bunlar qədim türk yazılı abidələridirsə, onları qədim uyğur dili abidələri kimi də qəbul etmək lazımdır" [7, s. 47].

Ə.Rəcəbli qədim uyğur əlifbası ilə yazılmış uyğur abidələrini 5 qrupda göstərir: 1) Mani dini məzmunlu qədim uyğur yazısı abidələri; 2) Xristian dini məzmunlu qədim uyğur yazısı abidələri; 3) Burhan dini məzmunlu qədim uyğur yazısı abidələri; 4) İslam dini məzmunlu qədim uyğur yazısı abidələri; 5) Dünyəvi məzmunlu qədim uyğur yazısı abidələri. Ə.Rəcəbli Şərqi Türküstan abidələri ilə Uyğur yazısı abidələrini əvvəl ayrı başlıq altında göstərir. Şərqi Türküstan abidələrinə Tun-huanq məbədində tapılan, kağız üzərində yazılan 4 əlyazmanı, hansı ki, bu əlyazmalardan biri "Irk-bitig" abidəsidir, Toyot vadisində tapılan Turfan abidəsini, Toyok abidələrini daxil edir. Bundan başqa Turfanda binanın divarında tapılan 4 mətni əlavə edir. "Maytrısimit", "Altun Yaruk", "Xuastuanift" abidələrini isə Uyğur yazısı abidələri adı ilə verir [5]. Amma Ə.Rəcəbli sonra Miran abidələrini də Turfan abidələrinə daxil edir və Şərqi Türküstan abidələrinin siyahısını daha da genişləndirir. Və son nəticə olaraq Ə.Rəcəbli Turfan abidələrinə Şərqi Türküstanda tapılan bütün abidələri daxil edir. Həmçinin "Altun yaruk", "Xuastuanift", "Maytrısimit" abidələrini də daxil edir.

Turfan abidələri dedikdə, təkcə Turfan şəhərində tapılan abidələr deyil, bütün Çin ərazisində tapılan abidələr nəzərdə tutulursa, yuxarıda adı çəkilən bütün abidələri Şərqi Türküstan abidələri kimi

qeyd edə bilərik. Çünki Turfan abidələri dedikdə, yanlız Turfan şəhərində tapılan abidələr nəzərdə tutulur. Amma bu abidələrin bəzisi Dunhuang şəhərində tapılmışdır. Turfan şəhəri Turfan əyalətində, Dunhuang şəhəri isə Çinin Qansu əyalətində yerləşir. Yaxşı olardı ki, bu abidələr tapıldığı əraziyə görə adlandırılsın. Şərqi Türküstan abidələrini 2 qrupda göstərə bilərik:

I. Turfan əyalətində tapılan abidələr: "Maytrısimit", "Xuastuanift", "Bögü xan şərəfinə mətn", "Xaqana ərz", "Tan tenri", "Mədhiyyə", "İlahi", "Ölümün təsviri", "Cəhənnəmin təsviri", "Böyük ilahi", "Erip", "Samandabanı", "Avita tanrı", Xətm duaları, "Xəyal". "Turfanda tapılan bu şeir Berlində T III M 197 və 195 şifri ilə qeyd edilmişdir" [7, s. 324], "Süan Tzsyanın bioqrafiyası", "İblis Adavaki haqqında hekayət", "Səkkiz yükmən", "Kuanşi im pusar", "Sehrkarların sitayişi", hüquqi sənədlər və İslam mühitində yazılan əsərlər və şeirlər.

II. Qansu əyalətində tapılan abidələr: Miran abidələri, "Kalyanamakara Papamkara" və ya "İki qardaşın hekayəsi" [8, s. 149], "Altun Yaruk", "Irk bitig" və ya "Falnamə", manixeyn mətnləri.

"Xuastuanift" abidəsinin isə əlimizə orijinalı deyil 3 nüsxəsi gəlib çıxmışdır. "1. London nüsxəsi (Manixey yazısı ilə) 2. Berlin nüsxəsi (manixey yazısı ilə), 3. Leninqrad nüsxəsi (uyğur yazısı ilə). Hər üç nüsxə ayrılıqda natamamdır. Berlin nüsxəsi 1907-ci ildə Turfanda A.Qrünvedel tərifindən tapılmış, 1911-ci ildə macar alimi A.Lekok tərəfindən Berlində nəşr edilmişdir. London nüsxəsi 1907-ci ildə A.Steyn tərəfindən Dunxanda tapılmış, 1911-ci ildə yenə də A.Lekok tərəfindən Londonda nəşr edilmişdir. Leninqrad nüsxəsi A.A.Dyakov tərəfindən Turfan yaxınlığında 1908-ci ildə tapılmış, V.V.Radlov tərəfindən 1909-cu ildə Peterburqda nəşr edilmişdir" [7, s. 130]. Bu nüsxələrdən 2 sini Turfan mətni, birini isə Dunhuang mətni kimi qeyd edə bilərik.

"Irk bitig" və ya "Falnamə" abidəsi Turfan abidəsi hesab olunur və Turfan şəhərində deyil, Çinin Qansu əyalətindən tapılmışdır. Ə.Şükürlü bu abidənin Dunhuangda tapıldığını qeyd edir: "Şərqi Türküstanda Tun-huanqdakı məbəddən ingilis alimi Steynin tapdığı bu 104 səhifəlik kitabça Çin kağızında yazılmışdır" [7, s. 39]. Göybəy Uluç da Dunhuanqdan tapıldığını qeyd edir: "Irk Bitigi, Macar əsilli tədqiqatçı Aurel Stein, 1907-ci ildə Çinin Qansu əyalətindəki Dunhuanq şəhərində yerləşən Bin Buda Mağaralarında tapmışdır" [10, s. 7]. Ə.Rəcəbli də Dunhuangda tapıldığını yazmışdır: "Bu əlyazmanı macar tədqiqatçısı Aurel Steyn I907-ci ildə Şərqi Türküstanda Tun-huanq budda monastrında tapmışdır" [6, s. 517].

"Irk bitig" Turfan abidələrindən hesab olunsa da əslində bu abidə Qansu əyalətindən tapılmışdır. Ona görə də bu abidəyə Turfan abidəsi deyil, Dunhuanq abidəsi demək daha uyğun olardı. "Altun Yaruk" abidəsi isə Turfanda tapılsa da tədqiqatçıların çoxu bu abidəni Turfan abidəsi hesab etmirlər. Ə.Rəcəblinin fikrincə isə "Altun Yaruk" abidəsi Turfan abidələrinə daxildir.

Türkiyə dilçiliyində Şərqi Türküstandan tapılan bütün Uyğur abidələri Turfan abidələrinə aiddir.

Berlində Hamburg Universitetində tədqiqatçı, türkoloq olan Simone-Christiane Raschmann Şərqi Türküstanda tapılan bütün uyğur abidələri Turfan abidələri adlandırır. Simone-Christie Raschmann "What do we know about the use of manuscripts among the Old Uighurs in the Turfan region?" (2014) adlı məqaləsində Turfan abidələri haqqında geniş məlumat verir. "Berlin Turfan kolleksiyasının Qədim Türk bölməsi böyük müxtəlifliyə sahib Turfan mətnlərinin əsas hissəsini təşkil edir. Müxtəlif ölçülü 8000 vərəqdən ibarət bu kolleksiya "Berlin Brandenburgische Akademie der Wissenschafte" qurumunda və "Asiatische Kunts, Berlin Dahlem" şöbəsində saxlanılır. Bu mətn qalıqlarının çoxu Soğut yazısı əsasında əmələ gələn Uyğur yazısı ilə yazılmışdır, ancaq bəzi hissələr Runik, Mani, Nesturi, Soğut, Brahmi və ya Tibet əlifbası ilə yazılmışdır. 2000-8000 arası türk fraqmentləri uyğurların özlərinin hazırladıqları kağızlara yazılmışdır. Mətnlərin sol vərəqləri və hətta kənarları daha çox Çincə, bəzən isə Soqd, Süryani, Tibet və Monqol dillərində yazılmışdır" [4, s. 523-541]. Qətibə Quliyeva Turfan abidələrini-mətnlərini Şərqi Türküstan abidələri adlandırır [3].

Turfan abidələri dedikdə, həm Turfan əyalətində tapılan abidələri həm də geniş mənada Şərqi Türküstanda tapılan abidələri nəzərdə tutulur.

Uyğur xalqı və onun dili, yazısı, tarixi, abidələri XIX əsrdə öyrənilməyə başladı. Bu sahədə ilk tədqiqatçı məşhur şərqşunas, türkoloq, tarixçi Mirzə Kazım bəydir. M.Kazımbəy 1841-ci ildə

“Uyğurlar haqqında tədqiqat” adlı əsərini nəşr etdirir və bu əsərlə Rusiyada uyğurşunaslığın əsası qoyulur.

Rusiyada Şərqi Türküstan abidələrinin araşdırılmasında, tapılmasında V.V.Radlovun, D.A.Klementsin, N.P.Prejevalskinin, V.İ.Roborovskinin, P.K. Kozlovun, S.Y.Malovun və başqalarının xüsusi xidməti olmuşdur.

Akademik V.V.Radlovun uyğur abidələri ilə bağlı olan fəaliyyətini xüsusi qeyd etmək lazımdır. V.V.Radlov 1899-cu ildə D.A.Klementsin tapdığı 2 uyğur yazısı abidəsini nəşr etdirir. 1909-cu ildə mani dini məzmunlu abidə olan “Xuastuanift” abidəsinin transkripsiyasını tərcüməsi ilə birlikdə nəşr etdirir. S.Y.Malov ilə birlikdə “Altun Yaruk” abidəsinin Qansu əyalətində tapılan nüsxəsini 1913-1918 ci ildə Sank-Peterburqda nəşr etdirirlər. “Qryunvedelin ekspedisiyasının (1902-1903-cü il) tapdığı abidələri V.V.Radlov tədqiq etməyə başlamış, onun ölümündən sonra bu işi S.Y.Malov davam etdirmiş və “Uyğur dilinin abidələri” kitabına daxil etmişdir” [2, s. 35]. “V.V.Radlov 1910-cu ildə uyğur dilinə Çin dilindən tərcümə edilmiş “Tşastvastik” adlı kitabəni nəşr etdirir. Qədim uyğur dilinin araşdırılmasının da təməlini V.V.Radlov qoymuşdur. 1909-1912-ci illərdə onun qədim uyğur yazısı abidələri dilinin qrammatik quruluşunun tədqiqinə həsr edilmiş bir neçə məqaləsi nəşr edilmişdir” [7, s. 44-45]. S.Y.Malov V.V.Radlovun nəşr etdirdiyi “Xuastuanift” abidəsini 1951-ci ildə yeni adda- “Manixeylərin peşmanlıq duası” adı ilə yenidən nəşr etdirir. Hətta S.Y.Malov Çində ezamiyyətdə olarkən “Altun Yaruk” abidəsinin bütöv nüsxəsini tapıb.

Avropada isə XIX əsrin sonu XX əsrin əvvəllərində Şərqi Türküstana 4 böyük elmi ekspedisiya təşkil edilir. Bu ekspedisiyalar Alman Turfan ekspedisiyaları adlanır. I ekspedisiya 1902-1903-cü illərdə təşkil edildi və bu ekspedisiyaya prof.A.Grünvedel rəhbərlik edirdi. II ekspedisiya 1904-1905-ci illərdə təşkil edirdi A.von Le Coq rəhbərlik edirdi. III ekspedisiya 1906-1907-ci illərdə təşkil edildi və prof.A.Grünveld rəhbərlik edirdi. IV ekspedisiya isə 1913-1914-cü illərlə təşkil edildi və rəhbər A.von Le Coq idi. Bu ekspedisiyalar nəticəsində Şərqi Türküstanda ümumilikdə 20 müxtəlif dildə 40.000 mətn fraqmenti tapılmışdır. “Süryanca, Soqdca, Türkcə olan Xristian mətnləri əsasən Turfan vahəsinin Bulayiq və Kurutka kəndlərindən tapıldı. Manixey mətnləri Xoçodakı köhnə məbəddən, Bezeklik və Toyuq kəndlərindən tapıldı. VIII əsrə aid Qarabalqasun yazılarından başqa, uyğur manixey mətnlərini qalıqları X-XI əsrlərə aiddir, Turfan vahəsi və Dunhuanqdan tapılıb. Xristian əlyazmaları isə böyük ehtimal ki, XII-XIII əsrlərə aiddir və bu əlyazmalar Xoço, Bulayiq, Kurutka və Qaraxotoda tapılıb. Buddist ədəbiyyatı tamamilə fərqli bir mənzərə təqdim edir. X əsrdən XIV əsrə qədər olan bütün dövrlərdə Buddist əsərləri oxunmuş, köçürülmüş, tərcümə edilmiş və dəyişdirilmişdir” [1, s. 10-11].

1904-cü ildə ilk Turfan ekspedisiyasının möhtəşəm nəticələri ilə geri qayıtmasından qısa müddət sonra Etnologiya muzeyinin müdiri vəzifəsini icra edən F.V.K.Müller ilk türk manixey mətnini redaktə etdi. 1908-ci ildə F.V.K.Müller xristian dini məzmunlu “Sehrkarların sitayişi” və budda dini məzmunlu “Altun Yaruk” abidələrindən götürdüyü parçaları “Uyğurika” adlı kitabda nəşr etdirir. 1904-cü ildə K.Foy türk manixey mətnlərinin dilini tədqiq etməyə cəhd etdi. A.von Le Coq 1911-1922-ci illərdə manixey dini məzmunlu uyğur mətnlərini ilə bağlı 3 cildlik “Türkische Manichaica aus Chotscho” əsərini nəşr etdirdi. Villi Banq 1930-cu ildə tələbəsi Annemarie von Gabain ilə birlikdə A.von Le Coqun tərcümə etməyə cəsarət etmədiyi "Mani Ataya Böyük Himn" manixey mətninin hissələrini yenidən redaktə etdi. Bu mətni A.von Gabain 1958-ci ildə, V.Vinter və L.V.Clark isə 1982-ci ildə yenidən nəşr etdirdi. 1929-cu ildə V.Banq və A.Gabain “Türkische Turfantexte” tədqiqatını 10 cilddə çapa hazırladılar. Əsərin faksimilesini A.Gabain nəşrə hazırlamışdır. Sonralar Rahmeti Aratda bu abidələrin nəşrinə öz töhfəsini verdi. (VI-VII cild). Ümumiyyətlə, Turfan abidələrinin araşdırılmasında türk alimi Rahmeti Aratın xidmətləri böyükdür.

Nəticə və elmi yenilik. Bu mövzu Azərbaycan Türkologiyasında ilk dəfə tədqiqata cəlb olundu. Tədqiqat nəticəsində Turfan abidələrinə daxil olan abidələr araşdırıldı və bu abidələrin sayı müəyyənləşdirildi. Həmçinin Turfan abidələrinin yalnız tədqiqi deyil, həm də təsnifi barədə olan müxtəlif fikirlər də məqalədə qeyd edildi. Təkcə Azərbaycanda deyil, həmçinin digər ölkələrdə Turfan abidələri ilə bağlı yazılan əsərlər, məqalələr və aparılan araşdırmalar nəzərdən keçirildi.

Nəticə olaraq, Şərqi Türküstan abidələri, Turfan abidələri və Uyğur yazısı abidələri əslində eyni abidələrdir.

İstifadə edilmiş ədəbiyyat

1. Berlin-Brandenburg Academy of Sciences and Humanities. Turfan Studies. Berlin: Druckerei zu Altenburg, 2007, 40 s.
2. Xudiyev N. Qədim türk yazılı abidələrinin dili. Bakı: Elm və təhsil, 2015, 596 s.
3. Quliyeva Q. Doğu Türkistan abideleri: Türk dünyasının manevi ve tarihi serveti gibi // Uluslararası Asya ve Kuzey Afrika çalışmaları kongresi, N-38, Ankara, 2007, s. 667-675
4. Raschmann S.C. What do we know about the use of
5. manuscripts among the Old Uighurs in the Turfan region? // Eurasian studies, N-12, Leyden, 2014, s. 523-541
6. Rəcəbli Ə. Qədim türk yazısı abidələrinin dili, I hissə, Bakı: Nurlan, 2006, 648 s.
7. Rəcəbli Ə. Qədim türk yazısı abidələri, I cild, Bakı: Nurlan, 2009, 568 s.
8. Rəcəbli Ə. Qədim türk yazısı abidələri, III cild, Bakı: Elm və təhsil, 2010, 664 s.
9. Rəcəbli Ə. Qədim türk yazısı abidələri, IV cild, Bakı: Elm və təhsil, 2010, 500 s.
10. Şükürlü Ə. Qədim türk yazılı abidələrinin dili. Bakı: Maarif, 1993, 336 s.
11. Uluç G. Irk Bitig: qədim Uyğur dilində yazılmış fal kitabı. Bakı: Türkcəsi Varkən Topluluğu Yayınları, 2013, 120 s.

M.F.AXUNDZADƏNİN ƏSƏRLƏRİNİN DİLİNDƏ MONOLOJİ VƏ DİALOJİ NİTQİN CÜMLƏ STRUKTURU

Nəzrin Baxşalıyeva*

Abstract

Text Complex Sentences in Monology and Dialogic Speech in the Language of M.F.Akhundzade's works

He dependence between the components of subordinate complex sentences, the meaning relationship between the components of independent complex sentences plays a key role in the formation of a single syntactic structure. Complex sentences that turn into a whole complex can form a complete text when appropriate. Some texts observed in the language of M.F.Akhundzade's dramatic works are interesting from this point of view. M.F.Akhundzade, who tries to show the character's individual qualities and reveal his character with his unique speech style, wrote real speech - monologic and dialogic speech. Heydar Bey's monologue in the comedy "Sarguzeshti-Mardi-Khasis" is a syntactic whole as a microtext in revealing the character of the character, and its components have an interesting semantic-syntactic connection.

Keywords: *monologue speech, dialogical speech, microtext, syntactic binding, semantic meaning.*

Giriş. Monoloji və dialoji nitq ünsiyyət prosesinə aid olub, nitqin vəhdət təşkil edən vahidləridir. Monoloji və dialoji nitqə müxtəlif dövrlərdə poeziyamızın dilində rast gəlinmişdir. Bədii nəsr dilinin yaradıcısı kimi Mirzə Fətəli Axundov bədii nəsrə, ədəbi dilə monoloji və dialoji nitqi gətirərək daha da canlandırdı. M.F.Axundovun dram əsərlərindəki monoloji və dialoji nitq cümlə sintaksisinin təhlili üçün yeni imkanlar açaraq maraqlı faktlar ortaya çıxarır. M.F.Axundovun yaradıcılığında, monoloji və dialoji nitqdə cümlənin bütün tiplərindən, sadə və mürəkkəb cümlələrdən istifadə olunmuşdur.

Əsas hissə. M.F.Axundovun əsərlərində işlənən monoloji və dialoji nitq nümunələrində sadə və mürəkkəb cümlə tiplərindən geniş istifadə olunmuşdur. Dialoji nitqdə sadə cümlələrdən istifadə olunması da nitqin sadəliliyini, canlılığını ifadə etmişdir. "Mürafiə vəkillərinin hekayəti" əsərində Səkinə xanım və Əziz bəy arasındakı dialoqu nəzərdən keçirək. "Səkinə xanım. Nə danışırsan? Vazeh danış görüm mətləbin nədir? Anlamıram nə deyirsən? Əziz bəy. Necə anlamırsan? Məgər sənin xəbərin yoxdur? Dünən Ağa Həsən malikütüccarın və kəndxudanın və Molla Bağırın arvadını bibin yanına elçin göndərib, səni xastkarlıq edibdir. Səkinə xanım. Bibim boş söyləyibdir. Kimdir onun sözünə baxan! Əziz bəy. Xeyr, bu sözlər ilə mən sakit olmanam. "Bu dialoji nitq nümunəsində həmsöhbətlərin arasında olan narahatçılıq ifadə olunmuşdur, verilən sadə cümlələr sual və nida cümləsi şəklində verilərək fikri daha təsirli göstərmişdir. Əziz bəyin dilində işlənən söz-cümlə öz daxili fikrini ortaya çıxarmışdır. Dialoji nitqdə sual cümlələrində yaranan sual intonasiyası Əziz bəyin təəcübbünü də ifadə etmişdir. Bu da dialoji nitqin təsir gücünü artırmışdır.

Mürəkkəb cümlələrin növləri olan tabeli mürəkkəb cümlələrin komponentləri arasındakı asılılıq, tabesiz mürəkkəb cümlələrin komponentləri arasındakı məna əlaqəsi vahid sintaktik strukturun formalaşmasında əsas rol oynayır. Bütöv bir kompleksə çevrilən mürəkkəb cümlələr yeri gələndə tam bir mətni təşkil edə bilir. M.F.Axundzadənin dram əsərlərinin dilində müşahidə olunan bəzi mətnlər bu baxımdan maraq doğurur. Personajın özünəməxsus danışıq tərzi ilə onun fərdi keyfiyyətlərini göstərməyə, xarakterini açmağa çalışan M.F.Axundzadə real nitqi – monoloji və dialoji nitqi yazıya gətirmişdir.

"Sərgüzəşti-mərdi-xəsis" komediyasında Heydər bəyin monoloqu obrazın xarakterinin açılmasında mikromətn olaraq bir sintaktik bütövdür və tərkibindəki komponentlər maraqlı semantik-sintaktik bağlılığa malikdir. Monoloqdakı cümlələrin ardıcıllığını saxlayaraq mətni hissə-hissə

* ***Bakı Dövlət Universiteti, Türkologiya kafedrasının magistrantı. Elek.poçt: baxsaliyevanzrin98@gmail.com. Elmi rəhbər:*** *Dos. Sevda Sadıqova.*

araşdıraq. I hissə: Pərvərdigara, bu necə əsrdir? Bu necə zəmanədir? Nə at çapmağın qiyməti var, nə tüfəng atmağın hörməti var! Sabahdan axşamadək, axşamdan sabahadək arvad kimi dustaq alaçığın içində oturasan. Dövlət dəxi haradan olsun, pul haradan olsun? [5, s. 121]. Mətn ritorik suallarla başlayır və bu sualın özlüyündə cavabı var: heç də yaxşı əsr, yaxşı zəmanə deyil. Bunun səbəbi isə sonrakı 3 cümlədə açıqlanır. Eynizamanlı birləşdirmə əsasında qurulan bu cümlələrdə təkrirlərdən istifadə olunmuşdur. Nə inkarlıq bağlayıcısı isə əvvəlki cümlənin "var" predikativ sözünü "yoxdur" anlamına gətirmişdir (at çapmağın qiyməti yoxdur, tüfəng atmağın hörməti yoxdur). "Sabahdan axşamadək, axşamdan sabahadək arvad kimi dustaq alaçığın içində oturasan" cümləsi isə predikativ təkrirdən xilas olaraq həmcins zərfliklərlə işlənmişdir. Bu hissənin sonu yenə də ritorik sualla bitir və cavabı özündədir: "dövlət (var-dövlət), "pul" yoxdur, heç olmayacaqdır da. Emosionallığı artırmaq məqsədilə istifadə olunan təkrir və suallar, "yoxdur" anlamının əvvəldə və sonda ortaya çıxması mətnin bu hissəsini bir sintaktik bütövə çevirə bilir. Bu monoloqda fikrin bir nəfər tərəfindən ardıcıl , geniş şəkildə təqdimi verilmişdir. Burada sual və nida cümlələrindən istifadə olunaraq, obraz öz daxili hisslərini, emosionallığını, təsirliliyini ortaya çıxarmış olur.

II hissə. Ah keçən günlər! Keçən dövrlər! Hər həftədə, hər ayda bir karvan çapmaq olurdu, bir ordu dağıtmaq olurdu. İndi nə karvan çapmaq olur, nə ordu dağıtmaq olur. Nə Qızılbaş döyüşü var, nə Osmanlı döyüşü var. Əgər qoşuna getmək istəsən də, gərək ancaq çılpaq ləzgilərin üstünə gedəsən. Əgər yüz min zəhmətlə birisini dağların dəlik-deşiyindən çıxartsan, bir dağarcıq, bir kürkdən başqa əlinə bir zad düşməyəcək. Hanı Qızılbaş və Osmanlı döyüşü ki, tamam Qarabağı qızıl-gümüşə boyadı? Aslandüzün çapqınından indiyədək də çox evlər abaddır. Əmiraslan bəyin övladı genə dünən də Ağcabədi bazarında dədələri Osmanlıda qəsb etdiyi gümüş rəxtlərdən satırdılar. Bir belə döyüş olsun, hamıdan irəli dəstə başında gedən mən ollam! Bir hünər göstərrəm ki, Rüstəmi-dastan da göstərməmiş ola! Mənim işim budur! [5, s. 121-122]. "A keçən günlər! Keçən dövrlər!" adlıq cümlələri təəssüf və kədər bildirən "ah" nidasının, intonasiyanın və təkririn köməyi ilə monoloqun yeni bir hissəsinin başlanğıcını göstərir. Bununla belə bu adlıq cümlələr özündən əvvəlki və sonrakı mətni eynizamanlı sadalama intonasiyası, təkrir, ritorik sual və "yoxdur" anlamı ilə bir araya gətirir. I hissənin əlaqələnmə tərzinə diqqət yetirək: 1) Heydər bəy hansı keçən günlər, hansı keçən dövrlər üçün heyifsilənir? – Hər həftədə, hər ayda bir karvan çapmağın, bir ordu dağıtmağın mümkün olduğu keçən günlər, keçən dövrlər üçün. 2) Keçmiş və indi qarşılaşdırması: amma indi karvan çapmaq olmur, ordu dağıtmaq olmur; Qızılbaş döyüşü yoxdur, Osmanlı döyüşü yoxdur; tamam Qarabağı qızıl-gümüşə boyayan Qızılbaş və Osmanlı döyüşü artıq yoxdur. 3) Belə bir döyüş olarsa, Heydər bəy nə iş görər? – hamıdan irəli dəstə başında gedər və Rüstəmi-dastanın göstərmədiyi hünəri göstərər. II mətnin əvvəlində eynizamanlı birləşdirmə əlaqəsinin olması və oradakı fikirlərin ümumi şəkildə qarşılaşdırılması diqqəti cəlb edir. Bunun ardınca əgər, -sa da, -sa bağlayıcı vasitələri ilə şərt və qarşılaşdırma məzmununu yaradan tabeli mürəkkəb cümlələr işlənir. Bu cümlələr vasitəsilə camaatın sosial durumunun heç də yaxşı olmadığı nəzərə çatdırılır. "Hanı Qızılbaş və Osmanlı döyüşü ki, tamam Qarabağı qızıl-gümüşə boyadı?" sintaktik vahidi sual cümləsi şəklində qurulan təyin budaq cümləli tabeli mürəkkəb cümlədir. Bundan sonra gələn 2 sadə cümlə semantik cəhətdən bu cümlə ilə əlaqələnir və onun komponentləri kimi çıxış edir. II mətnin son cümləsi (Mənim işim budur!) həm monoloqun bu hissəsinin yekunu kimi səslənir, həm də "budur" sözünə xəbərin qəlibi kimi yanaşma imkanı verib özündən əvvəlki fikri birdaha xatırlatmış olur: Belə bir döyüş olsun, hamıdan irəli dəstə başında gedən mən ollam! Bir hünər göstərrəm ki, Rüstəmi dastan da göstərməmiş ola! Bu monoloji nitqdə qarışıq tipli cümlələrdən, yəni nəqli, sual və nida cümlələrdən istifadə olunmuşdur. Fikri daha təsirli çatdırmaq üçün monoloji nitqi nida cümləsi ilə başlamışdır. Daxilən özünün keçirdiyi hissləri və narahatlığı emosinal dillə ifadə etmişdir. Həmçinin monoloji nitqə oxuculara ətraflı şəkildə hadisəni açmış olur. Bu da monolji nitqin özünəməxsus xüsusiyyətidir.

Dialoji nitqdə semantik-sintaktik bağlılığın hansı şəkildə olduğunu müəyyənləşdirmək üçün "Hekayəti-xırsi-quldurbasan" əsərindən bir parçaya nəzər salaq: Bayram. Ağa, təqsirli mənəm, bir ərzimə qulaq asın. Divanbəyi. Necə təqsirlisən? Nə danışırsan? Bayram. Ağa, Tarverdini mən öyrədib quldurluğa göndərdim. Divanbəyi. Niyə? Bayram. Ondan ötrü ki, mənim sevgilimi istirdi əlimdən alsın. Divanbəyi. Yoxsa sənin sevgilin budur? (Pərzada işarə edib). Bayram. Bəli, budur, başına

dönüm! Tarverdi. Ağa, başına dönüm, məni yoldan çıxartdılar. Mən bir fəqir dinc adamam. Mənə dedilər ki, qorxaqsan; mən də qorxumdan ki, mənə ürəksiz deməsinlər, quldurluğa getdim. Divanbəyi.Axmaq, sənə qorxaq deyəndə nə olacaq idi ki, özünü xataya saldın? Tarverdi. A başına dönüm, onda mənə qız gəlmirdi. Bu qız ki, görürsən, mənim əmim qızı və mənim deyiklimdir. Mənə dedilər ki, əgər bir qoçaqlıq eləməsən, ad çıxarmasan, heç vaxt bu qız sənə arvad olmayacaq. Mən də yerdən oldum, quldurluğa getdim, qəzadan köpək oğlunun ayısına rast gəldim. Divanbəyi. Bayram, sən çox pis iş eləyibsən! Amma çünki mərdliklə təqsirini iqrar elədin, mən sənin günahından keçirəm. Amma bundan sonra belə iş eləmə! Kamalov, qızdan soruş ki, bu oğlanların hansına getmək istirsən? Dilmanc qızdan soruşur. Pərzad (dilmanca). Divanbəyiyə ərz elə ki, mən heç vaxt Tarverdiyə getmənəm. Əgər məni ona verməli olsalar, Çəksiz özümü öldürrəm! Semantik-sintaktik əlaqə baxımından Bayram→Divanbəyi dialoqunda tabeli mürəkkəb cümlənin komponentlərinin parçalandığını görmək mümkündür. Divanbəyinin dili ilə verilmiş sual cümlələri çıxarılarsa, Bayramın ifadə etdiyi cümlə belə alınar: "Ağa, təqsirli mənəm, Tarverdini mən öyrədib quldurluğa göndərdim, ondan ötrü ki, mənim sevgilimi istirdi əlimdən alsın". Bu qarışıq tipli mürəkkəb cümlədir. "Ağa, təqsirli mənəm" hissəsi baş cümlədir. Qalan hissə isə baş cümləyə intonasiya ilə bağlanan səbəb budaq cümləsidir. Budaq cümlənin tərkibində üç komponent işlənmişdir. 1-ci komponent – "Tarverdini mən öyrədib quldurluğa göndərdim" baş cümlədir. 2-ci ("istirdi") və 3-cü ("mənim sevgilimi əlimdən alsın") komponentlər isə birlikdə yenə səbəb budaq cümləsi yaradır (mənim sevgilimi əlimdən almaq istədiyi üçün). Bu səbəb budaq cümləsinin tərkibində isə inversiyaya uğramış tamamlıq budaq cümləsi (mənim sevgilimi istirdi əlimdən alsın – istəyirdi ki, mənim sevgilimi əlimdən alsın) işlənmişdir. Deməli, bu dialoqda əsas fikir Bayrama məxsusdur. Divanbəyi isə yardımçı rolu oynayır. Dialoji nitq isə iki şəxs arasında növbələşən , canlı danışıq və ünsiyyətdir. Bayram-Divanbəyi dialoqunda hər iki tərəf biri danışdıqda digəri dinləyir, cavab verir, bu da dialoqun özünəməxsus xüsusiyyətidir. Dialoji nitqdə monoloji nitqdən fərqli olaraq əvvəlcədən deyiləcək fikirlər düşünülmür, nitq zamanı həmsöhbətlər fəal olur. Burada Divanbəyinin dilində işlənən sual cümlələri, Bayramın dilində işlənən nida cümlələri dialoqda vahidlik , fikirdə vəhdət yaradır. Dialoji nitqdə dil normalarına riayət olunması ilə yanaşı, normal intonasiyanın olması da vacibdir. Dialoji nitqdə yarımçıq cümlələrdən də istifadə olunması digər həmsöhbətin fikrinin daha geniş söyləməsinə gətirib çıxarır. Dialoji nitqdə iştirakçılar hadisəni ətraflı danışaraq öz münasibətlərini bildirmiş olurlar. Bu xüsusiyyətlər də dialoji nitqə məxsus xüsusiyyətlərdir.

M.F.Axundzadə personajların dili ilə müxtəlif xarakterlər yaratmışdır. Dil, cümlə quruluşu, fikrin ifadə tərzi oxucuya çox mətləbləri, mənəvi keyfiyyətləri aşılamış olur. "Hekayəti-xırsi-quldurbasan" əsərində Bayram→Pərzad dialoqunda da diqqəti cəlb edən məqamlar var: Bayram. Bəs necə gərək olsun? Sən gedəsən Tarverdiyə arvad olasan, mən də qıraqdan baxam?! Pərzad. Bəs nə qayırım? Bir yol göstər, mən elə edim. Bayram. Çox yaxşı, əgər mən bir hiylə qayıram ki, Tarverdi aradan çıxa, sən azad qalasan, ona razısanmı? Pərzad. Bəşərti ki, Tarverdini öldürmək olmaya (5, s. 73). Bu mikromətndə biri digərini tamamlamaq cəhətdən cümlələrarası koheziya çox güclüdür. Dialoqun semantik-sintaktik təhlilinə diqqət edək. "Bəs necə gərək olsun" komponenti mübtədası çatışmayan baş cümlədir. "Sən gedəsən Tarverdiyə arvad olasan, mən də qıraqdan baxam" bütövlükdə mübtəda budaq cümləsidir. Həmçinin budaq cümlə ikikomponentlidir: ardıcıl zamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlədir. Pərzadın "Bəs nə qayırım?" sualı semantik baxımdan 2 mahiyyət daşıyır: birinci ritorik sual olub özündən əvvəl Bayramın nitqi ilə verilmiş fikrə cavabdır (Səni bir kənarda qoyub, Tarverdiyə arvad olmaqdan başqa çarəm yoxdur); ikincisi, qrammatik sualdır ki, Bayramdan məsləhət istəyir. Bu, sonrakı cümlədə daha açıq şəkildə göstərilir (Bir yol göstər, mən elə edim) və həmin cümlə ilə əlaqə qurulur. "Bir yol göstər, mən elə edim" cümləsi maraq doğuracaq bir quruluşa malikdir. Belə ki, bu ikikomponentli tabeli mürəkkəb cümlənin tərəfləri bir-biri üçün həm baş, həm də budaq rolu oynaya bilir: a)1-ci komponent təyini çatışmayan baş cümlə (Necə bir yol göstər?), 2-ci komponent baş cümlənin çatışmayan təyini (mənim edəbiləcəyim); b) 2-ci komponent tərzi-hərəkət zərfliyi çatışmayan baş cümlə (mən necə edim?), 1-ci komponent baş cümlənin çatışmayan tərzi-hərəkət zərfliyi (sənin göstərəcəyin tərzdə). Pərzadın fikrinin bu şəkildə ifadə olunması dialoqun qarşı tərəfində məmnunluq, arxayınlıq yaradır və bu fikrə münasibət olaraq "Çox

yaxşı" ifadəsi işlədilir. Ardınca isə çarəsiz qalmış Pərzada yol göstərilir: "... əgər mən bir hiylə qayıram ki, Tarverdi aradan çıxa, sən azad qalasan, ona razısanmı?" Bu ikiqütblü, dördkomponentli qarışıq tipli tabeli mürəkkəb cümlədir. 1-ci qütb tamamlıq budaq cümləsi (tərkibində 3 komponent vardır), 2-ci qütb tamamlığı "ona" qəlibi ilə ifadə olunmuş baş cümlədir. Budaq cümlə mürəkkəb quruluşludur: 1-ci komponent (əgər mən bir hiylə qayıram) təyini "bir" qəlib sözü ilə ifadə olunmuş baş cümlə, 2-ci və 3-cü komponentlər birlikdə (Tarverdi aradan çıxa, sən azad qalasan) "ki" bağlayıcısı ilə baş cümləyə bağlanmış təyin budaq cümləsidir. Həmçinin 2-ci və 3- cü komponentlər səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlədir: 2-ci komponent səbəbi, 3-cü komponent nəticəni bildirir. "Əgər" bağlayıcısı -sa şərt şəkilçisi ilə deyil, -a arzu şəkli əlaməti ilə birlikdə cümlənin ümumi məzmununa şərt anlayışı vermişdir. 4-cü komponentdəki "ona" qəlibi əvvəlki 3 komponentdən yaranan "göstərilən şərtlərə"əlavəsinə ehtiyac yaradır: ona göstərilən şərtlərə razısanmı? Həmin şərt anlayışı Pərzadın dili ilə tamamlanır: Bəşərti ki, Tarverdini öldürmək olmaya. Bu cümlə həm də özündən əvvəlki cümlələrin bir komponenti kimi çıxış edir və cümlələrdəki fikri semantik cəhətdən tamamlayır: Tarverdinin aradan çıxması və mənim azad olmağım üçün qurulan hiyləyə bu şərtlə razıyam ki, Tarverdini öldürmək olmaya. Deməli, "bəşərti ki" Pərzadın nitqində ifadə olunmamış baş cümlənin qəlib sözü, "Tarverdini öldürmək olmaya" şərt budaq cümləsidir. Bu dialoji nitqdə də sual cümlələrindən istifadə olunaraq daxili narahatlığı, ortaya çıxacaq problem ifadə edir. Dialoqda qadın nitqinin ifadə olunması ilə M.F.Axundov həmin dövrdə qadının cəmiyyətdə heç bir söz sahibi olmamasını da göstərmişdir. Yarımçıq cümlədən istifadə olunması da həmsöhbətlər arasında olan fikrin tam anlaşılmasına gətirib çıxarır. Bu dialoji nitqdə də həmsöhbətlər arasında problem ətraflı müzakirə edilir, problemin həlli ortaya çıxır. Bu da dialoji nitqi monoloji nitqdən fərqləndirir.

Nəticə və elmi yenilik. M.F.Axundovun dram əsərlərində verilən dialoji nitq nümunələri əsərin əsas tərkib hissəsidir və bədii dialoq adlanır danışıq dilinə çox yaxındır. Burada şifahi danışıq dilinə məxsus yığcamlıq, sərbəstlik, axıcılıq və emosionallıq əks olunur. Dialoji nitq nümunələri obrazların xarakterinin özünəməxsusluğunun aydın və tamamilə üzə çıxarılmasında xüsusi əhəmiyyət kəsb edir. Monoloji nitq nümunələri isə bir şəxs tərəfindən hadisənin ətraflı, müfəssəl şəkildə təhlilini verir və rabitəli şəkildə ifadə edir. Monoloji nitq nümunələrində oxucuların diqqətini cəlb etmək üçün nida və sual cümlələrindən məharətlə istifadə olunmuşdur. Elmi yeniliyi bundan ibarətdir ki, dram əsərlərində olan dialoji və monoloji nitq münunələri müasir dillə səsləşərək həmin dövrdən nitqin növlərinin inkişaf etdiyini göstərmiş olur.

İstifadə edilmiş ədəbiyyat

1. Abdulla K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: MTM, 2016, 360 s
2. Abdullayev Ə.Ə. Aktual üzvlənmə və mətn. Bakı: Xəzər Universiteti, 1998, 190 s
3. Abdullayev, Ə.Z. Müasir Azərbaycan dili IV hissə sintaksis. Bakı: Şərq-Qərb, 2007, 424 s.
4. Abdullayev Ə.Z. Sintaksisin aktual məsələləri (tabeli mürəkkəb cümlənin tədqiqi). Bakı: ADU, 1987, 84 s.
5. Axundzadə M.F. Əsərləri [3 cilddə]. Bakı: Şərq-Qərb, 2005, 296 s.

TÜRK DİLİNDƏ QADIN GEYİM ADLARININ SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Nuray Fətiyeva*

Abstract

Semantic features of women's clothing names in Turkish

The article is called "Semantic features of women's clothing names in Turkish". In the article, the names of women's clothes are given in the Turkish language, which reflect the socio-political, cultural, economic situation of different periods, the religious-philosophical beliefs and psychological tendencies of the people living in this period. The meaning, explanation, period and etymology of these names are given. Examples of Turkish literary works where these words are used are given. Some of these words are observed in dialects of the Turkish language and dialects dialects of the Azerbaijani language. Some of these words are used in Mahmud Kashgari's work "Divanü lügat-it-türk" and in the epic "Kitabi-Dada Gorgud".

Keywords: *Turkish, culture, names of women's clothes, names of outerwear, names of headwear, semantic analysis.*

Giriş. Qədim zamanlardan etibarən geyinmək, örtünmək, bəzənmək üçün istifadə olunan, insanların həyatında mühüm bir yeri olan geyimlər günümüzə qədər müəyyən dəyişikliklərə uğrayaraq gəlmişdir. Ancaq nə qədər dəyişikliyə uğrasa da, hər bir dövrə məxsus geyim növləri arasında qırılmaz bir bağ vardır. Məxsus olduğu xalqın, toplumun mədəniyyətindən izlər daşıyan və bu mədəniyyətin bir parçası olan geyimlər sosial kimliyin bir hissəsidir, onun konkret göstəricisidir. Biz geyim adları vasitəsilə bir xalqın sosial və mədəni həyatı, dünyagörüşü, psixoloji meyilləri və dini-fəlsəfi inancları haqqında məlumat əldə edə bilərik. Ən azı geyimlər qədər önəmli və həlledici olan digər bir məsələ onların adlarıdır.

Əsas hissə. İnsanlar üçün qədim zamanlardan bu yana yemək-içmək, sığınacaq ilə birlikdə geyim də təməl ehtiyaclar sırasında olmuşdur. İnsanoğlu var olduğu andan etibarən özünü və ətrafını tanımağa çalışmışdır. Bunun nəticəsində bədənini qorumaq, örtmək və gizləmək məqsədilə geyinmək ehtiyacı hiss etmişdir. Buna görə də insanların yaşadıqları coğrafiya ilə yanaşı onların həyat tərzləri də geyim biçimlərinin yaranmasına və formalaşmasına təsiri olmuşdur. Qədim zamanlardan bu günümüzə qədər müəyyən toplumların geyimlərində görülən dəyişmə və çeşitlənmələr, yəni təbiət, mövsüm şərtlərinə uyma, dini-fəlsəfi inanclar, inzibati qaydalar, iqtisadi şərtlər, psixoloji meyillər, insanın mövcud olduğu cəmiyyət və ona uyğunlaşmasının təmin edilməsi kimi amillər rol oynamışdır. Bütün bunlar hər bir millətin özünəməxsus geyim növlərinin formalaşmasında da önəmli faktorlar hesab olunur.

Türk xalqlarının mədəniyyətində geyimin xüsusi bir yeri var. Qədim türklərin köçəri həyat yaşamaları ilə bağlı olaraq onlarda daha çox dəridən hazırlanan geyimlər əsas idi. Ancaq köçəri həyat tərzindən oturaq həyata keçdikdən sonra iqtisadi yaşam əkinçilik üzərində qurulmağa başlayır. Beləcə, dəri ilə bərabər toxunma parçalardan da geyimlər hazırlanır. Artıq qədim türklər yetişdirdikləri bitkilərdən, bəslədikləri və ovladıqları heyvanların (qoyun, quzu, keçi, sığır, ayı, qaban və s.) yunundan, dərisindən hazırladıqları geyimdən istifadə edirdilər.

Qədim zamanlardan müasir dövrümüzə qədər hər bir toplumun geyim tərzi dəyişərək təkmilləşmiş və daha müasir bir formaya düşmüşdür. Buna baxmayaraq yenə də qədimdə istifadə olunan geyimlər günümüzdə də istifadə edilir. Ancaq bu geyimlər yalnız özəl və rəsmi günlərdə geyilir və milli geyim hesab edilir. Bu milli geyimlər fərqli ornament xüsusiyyətlərinə malikdir.

Türk qadın geyimlərinin forması, rəngləri, motivləri və naxışları türk xalqının həyata baxışını əks etdirir. Qadın geyimləri, bədənə və ayaqlara geyilən geyimlər taxılan zinət əşyaları ilə bir bütünlük yaradır.

* ***Bakı Dövlət Universiteti, Türkologiya kafedrasının magistrantı. Elek.poçt: nurayfatieva@gmail.com. Elmi rəhbər:*** *Prof. Elbrus Əzizov.*

Məlum olduğu kimi, türk sənətinin mənşəyi Orta Asiyadır. Osmanlı geyim mədəniyyəti Orta Asiya mədəniyyətinin davamı hesab olunur. Türklər Anadoluya gəldikləri zaman müxtəlif sivilizasiyaların inkişaf etdirdiyi toxunma və emal mühiti ilə qarşılaşmışlar. Səlcuqlar dövründə isə toxuculuq sənətində böyük irəliləyişlər əldə etmişlər. Anadoluda türk qadın və qızlar öz adət-ənənələrinə sadiq qalaraq öz geyimlərini, cehizlik əşyalarını rəngli və parıltılı ipək saplarla naxış salaraq bəzəyirdilər, İstanbulda naxış vurularaq işlənən bu cür parça və əşyalar türklər tərəfindən Qərb ölkələrinə hədiyyə olaraq da göndərilmişdir.

Osmanlı dövlətində milli qadın geyimləri xüsusilə 19-cu əsrin sonuna doğru tamamilə Avropa təsirinə məruz qalmışdır. Qadın geyimlərindəki dəyişikliklərdə keçid dönəmi yaşanmış, geyimlər milli özəlliklərini qoruyanlar, milli və qərb təsirinə məruz qalanlar və qərb tərzi olmaqla üç mərhələdən keçmişdir.

Geyimlərin materialı və istifadəsi qədər onların adları da önəmlidir. Biz türk qadınlarının geyim adlarını fərqli qruplara ayırıb onları bu cür adlandıra bilərik: üst geyim adları, baş geyim adları və ayaq geyim adları.

Türk qadın üst geyim adlarına *abdestlik, bolero, bindalli, bedennûr, bedenkâr, bluz, çepken, çevre, çintiyan, delme, elbise, eldiven, entari, etek, fanilla, ferace, fistan, gömlek, hırka, manto, maşlah, malakof, mintan, kaftan, kalensüre, kıvrak, korse, kürk, pardesü, yağmurluk, zıbın* və s. kimi sözləri misal göstərmək olar.

Bu geyim adlarının bir neçəsinin semantik təhlilini nəzərdən keçirək.

Bedennûr - qısa ətəkli bir samur kürkün. Zəngin təbəqənin gəncləri tərəfindən və hərəmlərdə gənc qızlar tərəfindən geyinilirdi. Bu söz ərəb dilindəki *bədən* və "aydınlıq və parlaqlıq" mənasını verən *nûr* sözlərinin birləşməsindən yaranmışdır [1, s. 127].

Bindallı - Üzəri qızılı saplarla çiçəklər, budaqlar və motivlər işlənmiş olan, əsasən, bənövşəyi məxmərdən örtük və ya paltar. Bu geyimin adı da məhz üzərindəki budaq ornamentlərinə görə *bin dal+lı*, yəni "min budaqlı" adlanmışdır [1, s. 150].

Ceket - Bədənin yuxarı hissəsinə köynək və ya sviter üzərinə geyinilən, beldən bir-iki qarış aşağı enəcək qədər, qollu, öndən düyməli geyim. Türk dilinin lüğət tərkibinə daxil olduğu ilk zamanlarda *caket* formasında istifadə olunmuşdur [1, s.187]. "Hayrullah Bey bir şarkı mırıldanarak *ceketini* çıkararak içeriye girdi" (Reşat Nuri Güntekin) [5, s. 528]. Bu söz fransız sözü *jackette* sözündəndir. Anadolu türkcəsinə Tənzimat dövründən sonra Avropaya gedən türklərin ceket-pantolon geyinmələri ilə birlikdə keçib [4, s. 54].

Çepken - Köynəyin üzərinə geyinilən, qolları boş və yarıqlı, adətən yaxasız, qızılı saplarla işlənmiş, belə qədər uzanan qısa paltar [1, s. 224]. Bu söz noqay dilində *şekpen , şepken*, qaraqalpaq dilində *şekben , şekpen , şekmen* şəklində, şor dilində *şekpen* , başqırd dilində *sikmen* şəkillərində işlənir. Bu leksem türk dilindən fars dilinə *çapkan* olaraq keçmişdir [3, s. 69].

Çintiyan - İçi astarlı qadın şalvarının adıdır. Bu sözə türk dilinin şivələrində *çintan, çentiyan* formalarına da rast gəlmək olar [1, s. 236]. "Anadolu ağızlarında *çinti, şinti* olaraq da istifadə olunur. Bəzi tədqiqatçılara görə, ərəb dilindəki "qadın şalvarı" mənasını verən *şintiyan* sözü türk dilindən alınmışdır. Suriyada da istifadə olunur. Türk dilindən serb dilinə *çiftijane, cintijane, civtijane* şəklində keçmişdir" [3, s. 94].

Eldiven – Əlləri xarici təsirlərdən qorumaq üçün geyinilən dəri, yun, pambıq parça və ya rezindən hazırlanmış əl geyimi, əlcək [1, s. 336]. "Bu biçare *eldiven*, birdenbire ateş almış gibi öyle bir dehşetle elini çekmesi vardı ki..." (Reşat Nuri Güntekin) [5, s. 371]. Hasan Eren bu söz haqqında yazır: "Ələ geyinilən parça və ya dəridən hazırlanmış əl geyimidir. Türk yerli ağızlarda *elcek* və ya *ellik* formasında işlənir. Türkmənlər də "eldiven" mənasında *əllik* sözünü işlədir. Balkarlar *kolluk* və *kolkap*, qaraqalpaqlar *kolqap,* noqaylar *kolqap* və *kolqapşık* sözlərini istifadə edirlər. Bəzi türk dialektlərində *meley* istifadə olunur. Altay dilində *peley* forması istifadə olunur. Bu adlar moğol dilindəki *begelei* sözündəndir" [3, s. 132].

Entari - Uzun paltar, düz və bəzəksiz qadın geyimi. Keçmişdə kişilər tərəfindən də geyilirdi [11, s. 102]. Köhnə mətnlərdə rastlanan və bu gün xalq dilində rast gəlinən *entâri* sözünün ilkin forması anteridir [1, s. 59]. "Baktım, odaya sarı basma *entarili*, yeşil krep başörtülü bir kadın giriyor"

(Reşat Nuri Güntekin) [5, s. 187]. Bir çox mənbələrdə bu sözün ərəb mənşəli olduğu göstərilir. Güllü Karanfil isə yazır: "V.V.Radlovun lüğətində an sözü Altay, uyğur və qırğız dillərində "ovlana bilən hər hansı bir heyvan" mənasında olan termin kimi qeyd olunmuşdur. Ortaq türk sözü olan "dəri" mənasında *teri/deri* demək olar ki, bütün türk dillərində işlənir. Görünür, *anteri* sözü bu iki sözün birləşməsi ilə əmələ gəlmişdir: *an+teri*, yəni "heyvan dərisi" [6, s. 313].

Etek - Bu sözün bir çox mənası var ki, onlardan biri də beldən aşağı geyilən paltar, ətək mənasındadır [1, s. 357]. "Zavallı Munise, pembe kordelasından, kısa *etekli* lacivert entarisinden, siyah çoraplarından hevesini alamadı" (Reşat Nuri Güntekin) [5, s. 246]. Bu söz Azərbaycan dilində *ətək,* türkmən, noqay, qaraqalpaq, qazax, qırğız dillərində *etek,* Altay, şor, tuva dilində *edek*, xakas dilində *idek* şəklində işlənir, çuvaş dilində ətəyə *arak, arka* deyilir. Türk dilindən Suriya ərəb dilinə keçmişdir [3, s. 140]. *Ətək* sözü hətta XI əsr abidəsi olan Mahmud Kaşğarinin "Divanü lüğat-it türk" əsərində də işlənmişdir: *ətək* "ətək" [7, s. 136].

Fanila - Paltar hazırlanmasında istifadə olunan pambıqdan, yaxud yundan hazırlanmış parça və bu parçadan hazırlanmış pambıq və ya yun paltar [1, s. 368]. "Kalın *fanila* yakalar içine sakladığı nazik boynuna haberi olmadan kar doldurur, o, soğuktan kızarmış dudaklarıyla titrer ve renkten renge girerken neşeden çıldırırdım" (Reşat Nuri Güntekin) [5, s. 253]. İtalyan sözü olan *flanella* sözündəndir. Alman dilində *flanel,* fransız dilində *flanelle*, ispan dilində *franela*, fars dilində *flânel*, ərəb dilində *fanilleh* şəklindədir [4, s. 120].

Ferace - Əvvəllər qadınların bayıra çıxarkən geyindiyi, boyun altına yığılan, çiyinlərə doğru açılan, arxadan yerə qədər düşən, geniş yaxalı üst geyimi. Yaşmaqla birlikdə geyinilirdi [1, s. 375]. "Kınalı saçlarının üstüne yeşil bir yemeni örtmüş, arkasına *ferace* biçiminde koyu bir yeldirme giymişti" (Reşat Nuri Güntekin) [5, s. 216]. "Ərəb dilində "açmaq, yarmaq, fərahlamaq" mənasında olan *ferc* məsdərindən gələn sözün əsli *fereciyye* olub "önü açıq fərah geyim" deməkdir" [13].

Fistan - müxtəlif növlərdə olan qıvrımlı və ornamentli qadın paltarı [1, s. 388]. Bu söz türk dilinə yunan dili vasitəsilə italyan dilindən alınmışdır. İtalyan dilindəki *fustaqno* sözündəndir. Həmçinin, italyan dilindən ərəb dilinə də keçmişdir. Ərəb dilində *fustan* şəklindədir. Balkan dillərində də geniş şəkildə istifadə olunur [3, s. 146].

Gömlek - Paltarın altına geyinilən pambıq, ipək və ya neylon parçadan olan köynək. Həmçinin, gödəkçə və ya jilet altında geyinilən, bədənin yuxarı hissəsini örtən geyim də belə adlanır [1, s. 428]. "Arkasında mor çizgili sarı atlastan bir yelek, yahut *gömlek* vardı" (Reşat Nuri Güntekin) [5, s. 308]. Azərbaycan və türkmən dillərində *köynək,* tatar dilində *könqnek*, şor dilində *küynek*, tuva dilində *xöylenq* şəklində işlənir [3, s. 160]. Bu lüğəvi dil nümunəsi Mahmud Kaşğarinin "Divanü lüğat-it türk" əsərində də işlənmişdir: *könqlək* "köynək" [9, s. 305]. Biz bu sözə "Kitabi-Dədə Qorqud"da da rast gəlirik: "Vardı, *könləgi* qana-quna baturdı, Bayındır xanın öninə gətürüb bıraqdı" [10, s. 62].

Hırka - Ərəb sözü olub, xüsusilə paltar üzərinə geyinilən, gödəkçə boyunda yun və ya pambıq parçadan hazırlanmış, öndən açıq, uzunqol paltar [1, s. 503]. "Dostum, sizin bahsettiğiniz sağlam kıymetler ancak bir lokma, bir hırka yaşamağa razı olanlar içindir" (Ahmet Hamdi Tanpınar) [12, s. 362]. Latın dilində cilicium (kilikya) yunundan, yəni keçi yunundan hazırlanan üst geyimdir. İlk zamanlarda gəmiçilər və kişilərin geyindiyi qalın paltar olan *cilicia* sonralar hər kəs tərəfindən geyinilən bir geyim olmuşdur. Ərəb dilindəki *kerâke, kerrâke, h(x)ırka*, türk dilindəki *kürk, kerik,* fransız dilində *caraco*, ingilis dilində *cloak* sözləri *cilicia* sözü ilə eyni mənadadır. İndi cilicia-cilice-carica-caraco-kerâke-kerik-kürk-hırka sözlərində söz kökü əlaqəsini görə bilirik [4, s. 163].

Maşlah - qol yerləri yarıq, uzun, geniş, xəfif və geyinilməsi asan olan qadın üst geyimi [1, s.776]. Ərəb dilində "soyunma, geyimini çıxarma" mənasını verən *şalh* sözündən götürülmüşdür [14].

Kaftan - Əsasən bəzəkli və bahalı parçadan, uzunluğu dizə yaxud topuxa qədər olan, önü açıq, bəzilərinin qolları yarıya qədər yarıqlı, astarsız yüngül üst geyimi. Bu söz fars dilində "döyüşçü geyimi"ni bildirən" *haftân* sözündəndir. Bu sözün mənşəyi mübahisəlidir [1, s. 603]. "Bəzi tədqiqatçılara görə, sözün kökü fars dilindəki "halqa" mənasını bildirən *hift,* bəzilərinə görə isə *kaftan* olmalıdır. Türk dilində "f" səsinin olmaması, M. Kaşğari "Divanü lügat-it-türk" əsərində kaftan sözünün mənşəyini bildirmədiyini nəzərə alsaq, bu sözün fars mənşəli olması fikri daha doğrudur" [4,

s. 185] Bu söz həmçinin "Kitabi-Dədə Qorqud"da da işlənmişdir: "Vardılar, Beyrəgin *qaftanı* varmış, buña verdilər" [10, s. 69].

Pantolon - italyan sözü olan "pantalone" beldən topuğa qədər olan və ayaqlara keçirilmə sürəti ilə geyilən paltardır [1, s. 975]. "Artık *pantolonunu* falan düşünmeyerek dallardan birine oturdu" (Reşat Nuri Güntekin) [5, s. 52]. Reşat Ekrem Koç qeyd edir ki, *külot* kəsim, golf kəsim, çarliston, blucin, kot kimi adlarda olan pantolon kəsimləri müxtəlif dövrlərdə dəbdə olmuşdur. "Bu geyimin italyan komediya aktyoru olan, geyindiyi uzun ayaqlı geyimin adındandır" [4, s. 260].

Zıbın - Əsasən xalq dilində işlənir. Qış vaxtı paltarın altından geyilən pambıq parçadan qısa köynəyin adıdır [1, s. 1387]. İtalyan mənşəli *jubon* sözündəndir: jubon – zubun – zıbın. Burada j>z səs dəyişməsini görə bilərik. Xalq şivəsində zıbın da deyilir. Bu söz zıbun/zubun şəklində XV əsrdən bəri Anadoluda işlənir [4, s. 405].

Türk qadın **baş geyim adlarına** *arakçin, başörtü, bone, çarşaf, duvak, fanila, eşarp, kaşbastı, pelerin, şal, tartma, tülbent, yaşmak, yazma, yeldirme* və s. kimi sözləri misal göstərmək olar.

Qadın baş geyim adlarının bir neçəsinin semantik təhlilinə nəzər salaq.

Arakçin - Gəlinlərin geyindikləri bəzəkli, ornamentli baş geyimi, tac. Yaxud təri özünə çəkməsi üçün çalmanın altında geyinilən baş geyimidir. Ərəb dilində *arak* "tər", fars dilində *çin* "toplayan" deməkdir [1, s. 62].

Bone - Parçadan tikilmiş baş geyimidir. Fransız sözü *bonnet* sözündəndir. Fransız dilindən türk dilinə keçmişdir [1, s. 160].

Duvak - Gəlinlərin saçlarına taxılan üzlərini örtəcək şəkildə aşağıya doğru sallanan parça və ya tüldən olan geniş örtük [1, s. 310]. "Etekleri yere değen beyaz ipek elbiseler, gelin *duvaklarına* benzeyen kucak kucak tüller örtünerek İsa Peyğamber'e nişanlanırlardı" (Reşat Nuri Güntekin) [5, s. 37]. İ.Z. Eyyuboğlunun yazdığına görə, Anadolu türkcəsində XIV əsrdən bu yana, xüsusilə yazılı ədəbiyyatda işlənən *duvak* sözünün *dutuk, tutuk* şəkillərinə rast gəlinir. *Dutuk, tutuk* sözləri ilə yaxın məna daşıyan *duvak, örtü, yaşmak, peçe, perde* sözləri də işlənir. Sanskrit dilində "duman, sis" mənası verən *dhumah* sözünün kökü olan *dhum* ilə türk dilində "örtmək, qapamaq" mənası verən *tumak* sözünün kökü *tum* arasında əlaqənin olduğu görünür [4, s. 95]. Bu söz həmçinin "Kitabi-Dədə Qorqud"da da işlənmişdir: "Vay, al *duvağım* iyəsi! Vay, alnum-başım umurı!" [10, s. 61].

Eşarp – Fransız sözü olan *echarpe* sözündən olub qadınların başlarına və ya boyunlarına bağladıqları dairəvi, yaxud uzun parçadır [1, s. 355]. "Alaca eşarbını, küçük çantasını o kadar rahat tutuyordu, öyle içten memnun gülüyordu ki ..." (Ahmet Hamdi Tanpınar) [12, s. 345]. Bu söz türk dilinə yaxın dövrlərdə geyim materiallarının xaricdən alınması nəticəsində daxil olub. Xalq dilində *boyun atkısı, başörtüsü* də deyilir [4, s. 114].

Kaşbastı - Qaşların üstündən keçərək başı çevrə kimi sarıyan bağ. Əvvəllər baş ağrısı zamanı bağlanırdı, sonradan gündəlik qadın geyiminə daxil olmuşdur. Sözdəki *-tı* hissəsi qəlibləşmiş keçmiş zaman şəkilçisidir: *kaş bas+tı* [1, s. 637].

Tülbent - Pambıq iplikdən toxunmuş çox yumşaq, zərif və nazik parça və bu parçadan hazırlanmış baş örtüsü, bu cür adlanır. "tüldən hazırlanan örtü" mənasını verir: *"tül örtü"*. Əsasən Anadolu türk dilində işlənir [4, s. 341]. "Kendilerinden kaçmak için saçlarımı Hatice Hanım'ın yeşil *tülbentiyle* örttüğüm delikanlı talebelerimi takdim edeyim" (Reşat Nuri Güntekin) [5, s.232].

Yaşmak - Qadınların fəracə ilə birlikdə geyindikləri, başla birlikdə üzü, ağzı gizləyən örtünün adıdır. "yaş+ -mak". *Yaş* sözü "gizləmək, saxlamaq, örtünmək" mənasındadır. *-mak* şəkilçisi isə feildən isim düzəldən şəkilçidir. H.Erenə görə, bu söz sonradan türk dilindən ərəb dilinə də keçmişdir [3, s. 443]. Bu söz, həmçinin "Kitabi-Dədə Qorqud"da da işlənmişdir: "Ərə varalıdan bərü dəxi qarnım doymadı, yüzüm gülmədi; ayağım başmaq, yüzüm *yaşmaq* görmədi" [10, s. 22]. Türk dilində *yaşmak* sözündən düzəlmiş *yaşmaklamak* feili də işlənir. "Mevlitleri o okur, gelinlerin yüzüne yazar, sekeratta bulunan has taların ağzına son zemzem damlasını o akıtır, kadın cenazelerini o yıkayıp *yaşmaklarmış*" (Reşat Nuri Güntekin) [5, s. 215].

Yeldirme - Qadınların rahat gəzmək üçün paltarın üstündən, baş örtüsü ilə birlikdə geyindikləri, qolları və bədəni geniş, yüngül üst geyimi [1, s. 1348]. "*Yeldirmeleri* getirmek için

ahretlik kızlar koşuşuyorlardı" (Reşat Nuri Güntekin) [5, s. 533]. Bu söz "yeldə dalğalanmaq, tələş etmək" mənası verən *yeldir* sözünə *-ma* şəkilçisi əlavə etməklə düzəlmişdir [15].

Nəticə və elmi yenilik. Beləliklə, tədqiqatda qədim zamanlardan müasir dövrümüzə qədər müəyyən təsirlərə məruz qalaraq dəyişmiş və daha da təkmilləşmiş türk qadın geyim adlarının keçid mərhələləri göstərilmiş, türk qadın geyim adları araşdırılmışdır. Bu adlar, əsas etibarilə İlhan Ayverdinin "Misalli Büyük Türkçe Sözlük"ündən seçilmiş və hər birinin semantik xüsusiyyətləri izah olunmuş, həmin sözlərin işləndiyi bədii əsərlərdən nümunələr də verilmişdir. Bundan əlavə, bəzi məqamlarda Mahmud Kaşğarinin "Divanü lüğat-it türk" əsərində və "Kitabi-Dədə Qorqud"da işlənmiş olan sözlərlə müqayisələr də aparılmışdır.

Mahmud Tezcan, Reşat Ekrem Koçu, Zeki Tez, Güllü Karanfil, Bahaeddin Ögel və başqaları türk geyim adlarını, bu adlarda gizlənmiş mədəniyyəti, tarixi tədqiq etmişlər. Məqalədə bu tədqiqatlar nəticəsində yazılmış əsərlər, məqalələr və elmi işlər nəzərdən keçirilmiş və ümumiləşdirilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Ayverdi İ. Misalli Büyük Türkçe Sözlük (A-Z). İstanbul: Kubbealtı Neşriyyatı, 2010, 1411 s.
2. Erden A. Anadolu Giysi Kültürü. Ankara: Duman Ofset, 1988.
3. Eren H. Türk Dilinin Etimoloji Sözlüğü. 2 baskı, Ankara: Bizim Büro Basım Evi, 1999, 512 s.
4. Eyuboğlu İ. Z. Türk Dilinin Etimoloji Sözlüğü. İstanbul: Sosyal Yayınlar, 1988, 406 s.
5. Güntekin R. N. Çalıkuşu (roman). İstanbul: İnkilap Kitabevi, 541 s.
6. Каранфил Г. Бытовая лексика гагаузского языка/ Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri, II c., Bakı, 2008, 293-328 s.
7. Kaşğari M. Divanü lüğat-it-türk. I cild, tərcümə edən və nəşrə hazırlayan R.Əskər, Bakı: Ozan, 2006, 512 s.
8. Kaşğari M. Divanü lüğat-it-türk. II cild, tərcümə edən və nəşrə hazırlayan R. Əskər, Bakı: Ozan, 2006, 400 s.
9. Kaşğari M. Divanü lüğat-it-türk. III cild, tərcümə edən və nəşrə hazırlayan R. Əskər, Bakı: Ozan, 2006, 400 s.
10. Kitabi – Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Tərtib edəni: Samət Əlizadə, Bakı: Öndər, 2004, 376 s.
11. Koçu R. E. Türk Giyim, Kuşam ve Süslenme Sözlüğü. Sumerbank Kültür Yayınları, 1969, 255 s.
12. Tanpınar A. H. Saatleri Ayarlama Enstitüsü (roman). Dergah Yayınları, Aralık 2014, 395 s.

İnternet resursları:

13. Sabah sözlük. "Ferace nedir?" https://www.sabah.com.tr/sozluk/islamiyet/ferace-nedir
14. EtimolojiTürkçe. "Maşlah"
https://www.etimolojiturkce.com/kelime/ma%C5%9Flah
15. Nişanyan Sözlük. "Külah". 22.12.2023
https://www.nisanyansozluk.com/kelime/yeldirme

ZƏRFİN YENİ TƏLİM ÜSULLARI İLƏ TƏDRİSİ

Nüşabə Şərifli*

Abstract

Adverb teaching with new teaching methods

The article discusses new teaching methods and the advantages of using them in the teaching process. These methods involve students' active participation in the learning process. Educated people develop the ability to think and reason. They develop in them the skills of cooperation, teamwork, independent expression of ideas, creativity and research. The article also contains information about the advantages of teaching adverbs with new teaching methods. The confusion of the adverb with other parts of speech is discussed and new teaching methods are used to master the meaning and structural types of adverbs. The ways of distinguishing the adverb from other parts of speech are explained. In addition, in the article, we can see examples of tasks in the forms of venn diagram, cluster, table etc. related to the teaching of adverbs with teaching methods.

Keywords: *adverb, method, education, teaching, part of speech.*

Giriş. Zərfin yeni təlim üsulları ilə tədrisindən danışmazdan əvvəl bu təlim üsullarına qısa bir nəzər yetirmək lazımdır. Yeni təlim üsulları hal-hazırda tədris prosesinin əsasını təşkil edir. Hər bir müəllim də bu üsullardan mükəmməl şəkildə istifadə etməyi bacarmalıdır, çünki yeni təlim üsullarından istifadə tədris prosesinin gedişatını sürətləndirir, şagirdlərdə təlimə, öyrənməyə marağı artırır. "Dərsdə, məşğələdə fəallığın maksimum artmasına zəmin yaradır, bununla da təlimin inkişafetdirici aspektini nəzərəçarpacaq dərəcədə gücləndirir" [1, s. 80].

Təlim prosesi zamanı təhsilalanın bilik, bacarıq və vərdişlərini inkişaf etdirmək təhsilin əsas funksiyalarından biridir. Təhsilalanların dərsləri sistemli şəkildə mənimsəmələri üçün onların bilik və yaş səviyyələrinə uyğun müəyyən tədqiqatlar təşkil edilir. Həmin tədqiqatlar isə onlarda fikirlərini sərbəst şəkildə, faktlar vasitəsilə sübut etməklə ifadə etmələrinə, mənimsədikləri nəzəri bilikləri təcrübədə tətbiq etmələrinə şərait yaradır.

Ümumiyyətlə, yeni təlim üsulları dedikdə fəal/interaktiv dərslərdə istifadə olunan metodlar nəzərdə tutulur. Müəllimin pedaqoji mədəniyyətinin göstəricilərindən biri də düzgün metod və üsullardan istifadə edərək dərs prosesini təşkil etməkdir. Müəllimlər bu metodlardan təhsilalanların bilik və yaş səviyyələrinə uyğun şəkildə istifadə edərək dərslərini daha keyfiyyətli keçirə bilərlər. Belə təlim üsulları həm orta məktəb, həm də ali məktəbdə mütəmadi şəkildə istifadə olunur.

Əsas hissə. Nitq hissələri içərisində zərfin tədrisi zamanı müəyyən çətinliklərlə qarşılaşırıq. Bunun səbəbi isə zərfin yaranmasında digər nitq hissələrinin də iştirak etməsidir. Ümumiyyətlə, zərfin yaranması haqqında, zərfin digər nitq hissələri ilə qarışdırılması ilə bağlı müəyyən mübahisəli məsələlər vardır. "Ona görə ki, bu nitq hissələrinə məxsus sözlərin bir qismi tarixən isim, sifət və say olmuşdur" [3, s. 280]. Bu cür sözlər isim kimi əşyanın əlamətini, sifət kimi əşyanın əlamət və keyfiyyətini, say kimi isə əşyanın miqdarını bildirir. Zərf yerində işləndikdə isə hərəkətin tərzini, zamanını, yerini, kəmiyyətini bildirir. "Bunları bir-birindən ayırmaq üçün cümlədəki yerini, daşıdığı vəzifəsini, əşyaya və ya hərəkətə, hadisəyə aid olmasını nəzərə almaq lazımdır" [2, s. 200].

Bu məsələ ilə bağlı Yusif Seyidovun yanaşmasına diqqət yetirmək lazımdır. Dilçi alim qeyd edir ki, dilimizdə əvvəldən yaranmış və başqa nitq hissələrinin tərkibinə daxil olan sözlərdən hərəkətin əlamətini bildirmək məqsədilə də istifadə olunmuşdur. Bu zaman həmin sözlər bəzən qrammatik cəhətdən yeni forma almış, bəziləri isə heç bir forma dəyişikliyi olmadan yeni rolda çıxış etmişdir. Nəticədə, həmin sözlərin bir qismi zərfləşmiş, bir qismi isə əslindən ayrılmadan həm də nitqdə zərfin rolunu oynamışdır. Yusif müəllim nümunə kimi bu sözləri göstərir: *bir* və *çox* sayları *–dan*[2] şəkilçisi qəbul edərək *birdən*, *çoxdan* mənalarında zərf kimi işlənir. *Gecə, gündüz, səhər, axşam, çox, az, yaxşı,*

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: nusabsrifli@gmail.com. Elmi rəhbər:*** *Prof. Hüseyn Əsgərov.*

pis sözləri hərəkətin əlamətini bildirsə də, isim, say və sifət olaraq qalmışlar. *Qaçaraq*, *çaparaq* feili bağlamaları isə vurğusunu dəyişərək zərfə çevrilmişdir [5, s. 356].

"Digər nitq hissələri həm cümlə daxilində, həm də cümlədən xaric müəyyənləşdirilə bildiyi halda, zərfləri başlıca olaraq, cümlə daxilində, aid olduğu sözə əsasən müəyyənləşdirmək olur" [4, s. 313]. Başqa bir fərqləndirmə üsulu kimi sözə isim, sifət, say və zərfin suallını verməklə hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirmək olar. Məsələn: *Gecə qaranlıq idi* - cümləsində *gecə* sözü günün müəyyən hissəsinin adını bildirdiyi və isimin *nə?* sualına cavab verdiyi üçün isimdir. *Karvan gecə yola düşəcək* - cümləsində isə *gecə* sözü zaman mənalıdır və *nə zaman?* sualına cavab verdiyi üçün zərfdir. *Yeşikdə az alma var* - cümləsində *az* sözü *alma* sözünün miqdarını bildirir və *nə qədər?* sualına cavab verdiyi üçün saydır. *Onlar süfrə üstündə az danışırdılar* cümləsində *az* sözü *danışırdılar* feilinin kəmiyyətini bildirdiyi üçün zərfdir.

Hər bir müəllim tədris prosesi zamanı zərf və digər nitq hissələri mövzusunun tam şəkildə mənimsənilməsinə diqqət yetirməlidir. Zərfin tədrisi prosesində onun bütün nitq hissələrindən əmələ gəldiyini təhsilalana düzgün şəkildə öyrətməlidir. Bu zaman isə müəllimin köməyinə yeni təlim üsulları gəlir. Yeni təlim üsulları kimi Venn diaqramı, anlayışın çıxarılması, akvarium, krossvord, debat, klaster, müzakirə, auksion, karusel, cədvəllər və s. üsullardan istifadə oluna bilər. Bu üsullar vasitəsilə həm mövzu mənimsənilir, həm də əməkdaşlıq, fikrini ifadə etmək bacarıqları formalaşır. Yeni təlim üsulları ilə bu mövzu üzrə tapşırıq nümunələrinə baxaq:

Aşağıdakı sözləri venn diaqramında yerləşdirin: *güzgü, gecə, axşam, yaxşı, qəhrəmancasına, səhər.*



Tapşırığa əsasən deyə bilərik ki, *gecə və səhər* sözləri həm isim, həm də zərf ola bilər. Bu sözlər *nə?* sualına cavab verdikdə isim, *nə zaman?, nə vaxt?* sualına cavab verdikdə isə zərf olur. Fikirlərimizi əsaslandırmaq üçün isə nümunələrdən istifadə edə bilərik. Məsələn: *Qışda gecə (nə?) gündüzdən (nədən?) uzun olur. Kəndə gecə (nə vaxt?) getdim. Səhər (nə zaman?) yağış yağırdı. Kəndimizin səhəri (nəyi?) heyrətamizdir. O, qəhrəmancasına (necə?) vuruşaraq şəhidlik zirvəsinə yüksəlmişdir. Güzgüyə (nəyə?) baxıb saçını düzəltdi.* Nümunələr içərisində verilən *yaxşı* sözü isə sifət və zərf kimi işlənir. *Dərslərini yaxşı (necə?) oxuyur. Yaxşı (necə? hansı?) övlad baş tacıdır.*

Zərfin məna növlərini də yeni təlim üsulları vasitəsilə izah etmək olar. Məsələn: Verilmiş sözləri uyğun fiqurlara yerləşdirin: *az, xeyli, indi, irəli, sakitcə, içəri.*



Bu sözləri hansı məna növünə aid olduğunu söz birləşməsi formasında və ya cümlədə işlətməklə müəyyənləşdirə bilərik: Zeynəb *sakitcə (nə tərzdə?)* cavab verdi; *İçəri (hara?)* iki kişi girdi; *İrəliyə (haraya?)* getdim; *İndi (nə zaman?)* xoşbəxtdirlər; Onlar *xeyli (nə qədər?)* yol gəlmişdilər; Bugün *az (nə qədər?)* işlədik.

Klaster (şaxələndirmə) üsuluna aid tapşırıq nümunəsində müəllim lövhədə və ya kağızın ortasına mərkəzi anlayış kimi zərfin məna növləri sözünü yazır, təhsilalanlar da həmin sözlə bağlı ilk düşüncələrini-söz və ya ifadələri qeyd edirlər.

Zərfin məna növləri
sadə, düzəltmə, mürəkkəb olur
4 məna növü var
isim, sifət, say kimi işlənə bilir
yavaş, irəli, çox həmişə,dünən

Başqa bir tapşırıq nümunəsi kimi müəllim zərfin məna növlərinə aid sözləri deyir, təhsilalanlar isə həmin sözün hansı məna növünə aid olduğunu söyləyir.

Zərfin məna növünə aid digər tapşırıq nümunəsinə diqqət yetirək: Verilmiş sözləri cədvəlin müvafiq xanasına yerləşdirin: *həyəcanla, bəzən, asta-asta, aşağı, bir az, yaxınlıqda, xeyli, əvvəl-axır, sakit, dəfələrlə, üzüaşağı, qabaqcadan.*

Məna növü / Quruluşca növü	Tərzi-hərəkət	Zaman	Yer	Miqdar
Sadə	*sakit*	*bəzən*	*aşağı*	*xeyli*
Düzəltmə	*həyəcanla*	*qabaqcadan*	*yaxınlıqda*	*dəfələrlə*
Mürəkkəb	*asta-asta*	*əvvəl-axır*	*üzüaşağı*	*bir az*

Yuxarıda qeyd etdiyim kimi, sözləri düzgün xanalara yerləşdirmək üçün həmin sözləri cümlə və ya söz birləşməsi şəklində işlətmək, yaxud da sual verərək müəyyənləşdirmək olar: *O, çox sakit (nə tərzdə) görünürdü; Həyəcanla (nə tərzdə?) otağa daxil oldu; Asta-asta addımlamaq (nə tərzdə? Nə cür?); Bəzən (nə zaman?) əsəbi görünürsən. Qabaqcadan (nə vaxt?) bu iş sənə tapşırılıb; Əvvəl-axır (nə zaman?) bu işin üstünü açacam; Qızcığaz utananda başını aşağı (hara?) salırdı; Yaxınlıqda (harada?) böyük bir çinar ağacı var; Üzüaşağı (haraya?) çaya tərəf getməliyik; Xeyli (nə qədər?) yol gəldik; Bu sözləri dəfələrlə (nə qədər?) eşitmişik; Bir az (nə qədər?) yorulmuşam.*

Müzakirə təlim üsulu üçün təhsilalanlara aşağıdakı suallarla müraciət oluna bilər:

1. Zaman zərfi ilə zaman mənası bildirən isimləri necə fərqləndirmək olar?
2. Zərfin mənaca neçə növü var?
3. Yer zərfləri ilə məkan mənalı isimlərin fərqləri nələrdir?
4. Zərfin tədrisi zamanı hansı çətinliklərlə qarşılaşa bilərik?
5. Nə üçün zərf digər nitq hissələri ilə qarışdırılır?
6. Zərf düzəldən şəkilçilər hansılardır və bunlara aid nümunələr söyləyin və s.

Orta məktəb dərsliklərinə əsasən deyə bilərik ki, zərflə tanışlıq 6-cı sinifdən başlayır. Zərf şagirdlərin bilik və yaş səviyyələrinə uyğun olaraq sadə və anlaşıqlı dildə verilir. Dərslikdə zərf haqqında ümumi məlumat; quruluşuna görə sadə, düzəltmə və mürəkkəb zərflər, onların yazılışı; zərfin mənaca 4 növü – tərzi-hərəkət, zaman, yer, kəmiyyət zərfləri; zərf və digər nitq hissələri barəsində adlı qaydalar vardır.

Orta məktəbdə zərfin digər nitq hissələri ilə qarışdırılması barəsində çox sadə bir qayda verilib. Müəllim bu cür geniş və çətin başa düşülən mövzunu izah etmək üçün yeni təlim üsullarından mütləq şəkildə istifadə etməlidir. Artıq orta məktəbdə bu üsullarla tanış olmuş ali məktəb tələbələri üçün zərf mövzusu daha geniş şəkildə tədris olunur. Tədris prosesinə zərfin yaranma tarixindən başlayaraq bugünə qədər baş vermiş dəyişikliklər, dilçi alimlərimizin zərfin məna növlərinə verdiyi müxtəlif bölgülər və s. daxildir. Ali məktəbdə morfologiya, ayrıca zərfə aid yazılmış bir neçə kitablar vardır. Auditoriyalarda zərf və onun digər nitq hissələri ilə qarışdırılması, hər hansı bir sözün zərfin məna növlərinə daxil edilməsi və ya nə üçün həmin sözün zərf kimi qəbul edilməsi mövzusu ilə bağlı geniş şəkildə müzakirələr aparıla bilər. Dilçi alimlərin bu istiqamətdə bir-birilərinə zidd olan müxtəlif fikirləri vardır. Onları müzakirə, mühazirə, debat tipli üsullardan istifadə etməklə tədris edə bilərik. Bildiyimiz kimi mühazirə müəllim tərəfindən söylənilir. Hal-hazırda bu üsulu biraz təkmilləşdirib başqa formada istifadə etmək olar. Yəni əvvəlcədən hər hansı bir mövzu üzrə tələbə özü müstəqil şəkildə material toplayır, mühazirə hazırlayıb auditoriyada çıxış edir. Bundan yeni təlim üsulu kimi istifadə oluna bilər.

Nəticə. Yeni təlim üsullarının istifadəsi zamanı müəllim bələdçi rolunu oynayır. Təhsilalanları düşündürən, təfəkkürünü inkişaf etdirən üsullardan istifadə edir. Bu isə onların dərketmə qabiliyyətlərinin inkişafına, tədqiqatçı, yaradıcı kimi yetişmələrinə şərait yaradır. Zərfin tədrisi zamanı yeni təlim üsullarından istifadə edən təhsilalanlar isə müstəqil şəkildə düşünmə qabiliyyətinə, müqayisələr aparmaqla zərf və digər nitq hissələri mövzusunun tam şəkildə öyrənilməsinə, zərfin məna növlərinin düzgün müəyyənləşdirilməsinə nail olurlar.

İstifadə edilmiş ədəbiyyat

1. Əskərov. A.B. Təlim prosesində müasir təlim üsulları ilə tədqiqatların təşkili. SDU, Elmi xəbərlər, c. 14, №3. Sumqayıt: SDU, 2018, 80-85 s.
2. Hüseynzadə. M.H. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı: Şərq-Qərb, 2007, 280 s.
3. Xəlilov. B. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə. Bakı: 2016, 352 s.
4. Kazımov. Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Elm və təhsil, 2010, 448 s.
5. Seyidov. Y.M. Azərbaycan dilinin qrammatikası Morfologiya (üçüncü nəşr). Monoqrafik dərs vəsaiti. Bakı: Bakı Universiteti, 2006, 371 s.

TOPONİMLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ (MİRZƏ İBRAHİMOVUN "PƏRVANƏ" ROMANI ƏSASINDA)

Səidə Tağızadə*

Abstract

Lexical-semantic characteristics of toponyms (Based on the novel "Parvana" by Mirza Ibrahimov)

Toponymy is one of the most important branches of onomastics. This area of onomastics, which studies place names, is always of great interest. In the novel, after anthroponyms, the most used onomastic units are toponyms. The study of these toponyms plays an indispensable role in the study of both Mirza Ibrahimov's creativity and our onomastics. We have also turned to the novel of our writer, approaching from the point of view of poetic onomastics. The semantics of the toponyms used in the novel are distinguished by their richness. Therefore, each of them was touched on separately.

Keywords: *Mirza Ibrahimov, onomastics, toponyms, meaning of words, semantics, lexicon.*

Giriş. Onomastikanın mühüm sahələrindən olan toponimikanın araşdırılması xüsusi elmi əhəmiyyət kəsb edir. Toponimlər birbaşa olaraq xalqın tarixi, coğrafiyası, mədəniyyəti ilə sıx bağlıdır. Ona görə də toponimlərin təqdiqinə son illərdə maraq artmışdır. Toponimlərin yaranma yollarına, mənşəyinə, yayılma areallarına elmi əsərlər həsr edilmiş, maraqlı fikirlər söylənilmişdir. Özündə maraqlı dil faktları ehtiva edən toponimlər dilçilərin diqqətində olmuşdur. R.Eyvazovanın qeyd etdiyi kimi, "Toponimlər aid olduğu dilin lüğət fonduna daxil olmaqlaonun qanunlarına tabedir. Onlar dəyişikliyə az uğradıqlarından bir çox dəyərli faktları bugünədək qoruyub saxlamışlar. Toponimlərin tərkibində bəzən müasir dildə işlənməyən qədim adlara təsadüf edilir. Odur ki, onların yaranma və inkişaf prosesi dilçilik qanunları ilə bağlı araşdırılmalıdır" [4, s. 71].

A.A.Axundov, A.M.Qurbanov, B.Ə.Budaqov, K.Əliyev, T.Əhmədov, Q.Ə.Qeybullayev, S.M.Mollazadə, V.H.Əliyev, N.M.Xudiyev, Q.İ.Məşədiyev, M.Adilov, M.Çobanov, A.Babayev kimi dilçilərin tədqiqatlarında bunlara rast gəlmək olur.

Toponimlərin tədqiqində bir neçə elm sahəsinin maraqları toqquşur. Biz də dilçilik baxımından toponimləri tədqiq edən zaman müxtəlif elmlərə müraciət edəcəyik. Bu elm sahələrinə coğrafiya, tarix, etnoqrafiya və s. aiddir. Toponimlərin tədqiqinin xalqın keçmişinin, tarixinin öyrənilməsində rolu danılmazdır. "İlk növbədə müxtəlif tayfa, xalq adları toponimlərdə əks olunur ki, bu da Azərbaycan xalqının tarixini, mədəniyyətini, uzaq keçmişini öyrənmək işində qiymətli mənbədir" [9, s. 42].

"Pərvanə" romanında real tarixi hadisələrdən bəhs olunduğundan əsərdə xeyli sayda toponimlərə rast gəlmək mümkündür. Əsərdəki toponimlər yalnız Azərbaycanla məhdudlaşmır, həm də dünya hüdudlarını aşır. Məqaləmizdə əsərdə rast gəldiyimiz, Azərbaycan toponimlərinə aid olan onomastik vahidlərin hər birini ayrılıqda tədqiqata cəlb edəcəyik. Əsərdə istifadə olunan toponimlərin hansı tip sözlərdən yarandığını hər birindən bəhs olunduqca vurğulayacağıq. Qeyd edək ki, romandakı toponimlərin böyük əksəriyyəti etnonimlər əsasında əmələ gəlmişdir. Bununla bərabər, hidronim, fitonim və s. əsasında əmələ gələnlər də vardır.

Eyni zamanda toponimlərin semantikasından bəhs edərkən onları tarixin süzgəcindən keçirdəcək, bəzi keşməkeşli tarixi olan yer adlarına toxunacağıq.

Əsas hissə. Toponimlər coğrafi yer adlarını ifadə edən onomastik vahidlərdir. Onlar xalqın tarixi ilə sıx əlaqədə olur. Özündə qədim tarixi şəhər, vilayət, kənd və s. adlarını ehtiva edir. Toponimlərin əmələ gəlməsində dərə, dağ, təpə, şəhər, rayon, meydan tipli sözlər geniş şəkildə iştirak edir.

Onomastik leksikada antroponimlərdən sonra ən zəngin onomastik vahidlər toponimlər hesab olunur. Çünki insanları adsız düşünə bilmədiyimiz kimi, dünyanı da toponimlərsiz təsəvvür etmək mümkün deyil.

* ***Bakı Dövlət Universiteti, Azərbaycan dilçiliyi kafedrasının magistrantı. Elek.poçt: seide.tagizade.00@mail.ru. Elmi rəhbər:*** *Prof. Reyhan Həbibli.*

Antroponimlərdə olduğu kimi, toponimlər də rəsmi sənədlərdə əks olunur. Lakin antroponimlərdən fərqli olaraq, toponimlər insanların istəyindən asılı deyildir. Yəni hər bir kəs istəsə, adını, soyadını, hətta ata adını dəyişə bilir, lakin olduğu kəndin, şəhərin, rayonun adını dəyişə bilmir.

"Azərbaycan toponimiyasının müxtəlif növləri vardır: oykonimlər, xoronimlər, hidronimlər, oronimlər, gelonimlər, drimonimlər, dromonimlər və s." [1, s. 59].

"Pərvanə" romanında təkcə Azərbaycana məxsus deyil, dünyanın bir çox ölkələrinə aid toponimlərə rast gəlinir.

Qazax - oykonim hesab olunan bu onomastik vahid etnonim əsasında əmələ gəlmişdir. Azərbaycanın ən qədim torpaqlarından biri də məhz buradır. Əsərdə baş qəhrəmanın həyatını təsvir etmək üçün istifadə edilib. Həm də baş verən hadisələrin bir qismi burada cərəyan edir. "Ata babası Qazax mahalının məşhur bəylərindən olmuşdur" [7, s. 2]. Coğrafi baxımdan qərb ərazilərimizdə yerləşən bu rayon daxildən Tovuz ilə, xaricdən isə Ermənistan və Gürcüstanla həmsərhəddir. Bu ərazilərdə iki etnik qrup məskunlaşmışdır: qıpçaqlar və qazaxlar. Rayonun adı da qazax tayfasının adından əmələ gəlmişdir. Qazaxla bağlı ilk məlumatlara ərəb mənbələrində rast gəlinir. "İlk dəfə VII əsr hadisələri ilə əlaqədar Kasak (Kasaq) kimi ərəb tarixçisi əl-Kufi (IX) məlumat vermişdir" [3, s. 45].

Qızılhacılı – bu oykonim də etnonim əsasında yaranmışdır. Burada qədim zamanlardan qızılhacılı tayfası məskən salmışdır. Eyniadlı tayfanın adından yaranan bu toponimdən Qazax və Goranboy rayonlarının ərazilərində istifadə olunur. Romandakı hadisələr Qazax rayonundakı Qızılhacılıda baş verir. "Gələcək barədə işləməli olacağı Qızılhacılı kəndi və kənddə yaradacağı məktəb barədəki fikirlər qəribə bir şəkildə, rəngarəng gəbə ilmələri kimi bir-birinə qarışır, gah irəli qaçır, gah geri dönərək xəyallara və xatirələrə çevrilirdi" [7, s. 696].

Qeyd edək ki, Qızılhacılı Qazaxın erməni qəsbkarlarından geri qaytarılan dörd kəndindən biridir. Hər zaman tarixi saxtalaşdırmaqla məşğul olan ermənilər bizə qarşı qərəzli mövqedə olmuşdur. Onlar türk mənşəli toponimləri dəyişib tarixin izlərini itirmək istəsələr də, mərkli planları baş tutmamışdır. Əlbəttə, onların siyasəti hamıya məlumdur. Azərbaycanlıların əsrlər boyu bu ərazilərdə yaşadıqlarını gizlətmək, xalqın keçmişini danmaq, qondarma erməni mənşəli adlar yaratmaq, dədə-baba torpaqlarımıza yiyələnmək və s. Bütün bunlara Qızılhacılı kəndini də misal göstərmək olar. İşğal dövründə mənfur düşmən kəndin adını dəyişdirərək *Berkaber* qoymuşdu.

Şıxlı – bu toponimə respublikada bir neçə rayonun inzibati bölgüsündə rast gəlinir. Belə ki, Ağdaşda, Qazaxda və Füzulidə eyniadlı kəndlər mövcuddur. Bu oykonimin tarixi bağı Qazaxın şıxlı tirəsinə gedib çıxır. Ümumiyyətlə, bu kənd Qazaxın ən tanınmış yerlərindən biri hesab olunur. Azərbaycanın bir sıra görkəmli şəxsləri dünyaya məhz bu kənddə göz açmışlar. Romanda bu toponimdən real hadisələrin təsvirində istifadə olunub. "Nəhayət, gecə yarısı Şıxlı kəndində bir daxmada yaxaladılar" [7, s. 165].

Şamaxı – coğrafi ərazi baxımından inzibati rayonu və eyniadlı şəhəri bildirir. İnzibati baxımından isə Böyük Qafqazın cənub hissəsində Cənubi Şirvan düzənliyini (Qobustana kimi olan ərazini) əhatə etməkdədir. Bəzi mənbələrdə Şamaxının adının tayfa adından əmələ gəldiyi qeydedilir. Bu tayfa adı müxtəlif cür səslənsə də, adətən, kamak tayfası olaraq tanınmışdır. "Şəhərin adı ilk dəfə yunan alimi Klavdi Ptolomeyin (II əsr) "Coğrafi təlimnamə ərzində Samexaya və Kamexaya formasında çəkilib" [3, s. 206]. Şəhərin tarixi ilə bağlı dəqiq məlumat olmasa da, arxeoloji qazıntılar nəticəsində belə fikir vardır ki, artıq e.ə V-IV əsrlərdən Şamaxı ərazisində qədim insanlar məskən salmışdır.

Ümumiyyətlə, qədim zamanlardan Şamaxı bir mədəniyyət, elm mərkəzi kimi daim diqqət mərkəzində olmuşdur. Müxtəlif dövrlərdə Eldənizlər, Şirvanşahlar, Səfəvilər kimi dövlətlərin paytaxt şəhəri mövqeyində çıxış etmişdir. Şamaxının paytaxt şəhər olması ədəbi dilə təsirsiz ötüşməyib. Həmin dövrlər ərzində koyne dialekt rolunu oynamışdır. Şamaxı müasir dövrdə də ziyalı təbəqəsinin çoxluğu ilə seçilən rayonlardan biridir.

"Bu da təbii idi: Çernyayevski Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Şamaxı yaxınlığındakı Mərəzə kəndində anadan olmuşdur"
[7, s. 503].

“Bir bölük külfəti saxlamaq üçün ot və taxıl biçini başlar-başlamaz Şamaxıdan aşağılara Ağsu və Göyçay kəndlərinə, biçinliyə gedər, hər zəhmətə dözərək bir qədər taxılla, yəni ailənin qış ruzisi ilə geri dönərdi” [7, s. 503].

“Bu gün bir şamaxılı mənə dedi ki, 30 il bundan əvvəl Güllübəyim adlı bilikli bir xanım Şamaxıda qız məktəbi açıbmış!” [7, s. 642].

Çox təəssüf ki, hər zaman diqqət mərkəzində olması Şamaxı üçün mənfi təsirsiz ötüşməyib. Ölkəyə yadelli işğalları zamanı ən çox hücüm edilən, dağıdılan, abidələri, mədəni mərkəzləri, elm ocaqları məhv edilən şəhərlərdən başlıcası elə Şamaxıdır. Tarixən 1737-ci ildə Nadir şahın, 1796-ci ildə isə Zubarın yürüşləri, 1918-ci ildəki milli qırğınlar, həmçinin 1667, 1859, 1902-ci illərdə Şamaxıda baş vermiş dəhşətli zəlzələlər buranın tarixinə əfsuslar olsun ki, qara hərflərlə yazılmışdır.

Mərəzə – inzibati baxımdan Şamaxı rayonunun ərazisində yerləşən qədim yaşayış məskənlərindən biri hesab edilir. “Yaşayış məntəqəsi öz adını orada mövcud olmuş *Pirmərəz* (xəstəlik piri) adlı pirin adından götürmüşdür” [3, s. 105]. Çar Rusiyasının əhalinin mənsəbini dəyişmək məqsədilə keçirilən köçürmə siyasəti nəticəsində buraya müxtəlif təriqətlərə, mənsəblərə mənsub olan şəxslər köçürülmüşdür. “1871-ci ildə bizim Mərəzə kəndinin cavan müəllimi Qorski “Qafqaz” qəzetində bir yazı çap etdirmişdi” [7, s. 541].

Araz – bu onomastik vahid dildə üç cür, yəni hidronim, antroponim, oykonim kimi işlədilir. Qeyd edək ki, oykonim olaraq Babək rayonunun ərazisində yerləşir. Əsərdə hidronim şəklində işlədilmişdir:

“Vəfadarın sazının simlərindən qopan səslər... Arazın o tayına, Təbrizin göyərçinlər yuva salmış damlarına, Ərdəbilin Savalan dağlarına gedib çatırdı” [7, s. 94].

“Üçüncü dəfə yığışıb Arazın o tayına - Qaradağ mahalına keçdik” [7, s 368].

Araz çayı coğrafi baxımdan Azərbaycanın, Türkiyənin və Ermənistanın ərazilərindən keçir. Kürün ən böyük qolu olan Araz başlanğıcını Türkiyənin Bingöl silsiləsinin yamaclarından alır və Sabirabad şəhəri yaxınlığında Suqovuşan adlanan ərazidə Kürlə birləşir. Çayın adı qədim zamanlarda Ərəz formasında da işlənilib. Araz sözünün semantikasına gəldikdə deyə bilərik ki, “Ar türk və monqol dillərində “şimal”, “dağın şimal yamacı”, “qərb”, “arxa tərəf” və s. mənalarda işlənir. “Aks, oks” komponenti isə türkdilli xalqların toponimiyasında “aksu, oksu” forması ilə yanaşı işlənərək həm müstəqil, həm də ikinci komponent mövqeyində “axan su, çay” mənalarını ifadə edir. Beləliklə, sonralar Araz formasına düşmüş Araksu hidronimi “qərbdən axan çay” mənasında izah oluna bilər” [2, s. 43-44].

Maraqlı dil faktlarını özündə əks etdirən toponimlərdən biri də *Borçalıdır*. Borçalının semantikası ilə bağlı maraqlı fikirlər mövcuddur. Semantikasına keçid etməmişdən öncə təəssüf hissi ilə qeyd etək ki, Borçalı da coğrafi, inzibati baxımdan bizdən ayrı düşmüş ərazilərimizdəndir. Əlbəttə, belə vəziyyət həmin ərazilərin adlarına da təsirsiz ötüşmür. “Son illərdə Zaqafqaziyada baş verən hadisələr Ermənistan və Gürcüstan ərazisində tarixən mövcud olan Azərbaycan dilinə məxsus toponimlərin kütləvi şəkildə dəyişdirilməsinə səbəb olmuşdur” [5, s. 5]. Borçalını etnotoponim hesab edə bilərik. Toponim semantikası ilə bağlı Müşfiq Çobanlının maraqlı fikirləri vardır. “Borçalı toponiminin etimologiyası da qədim türkdilli tayfanın adı və yerin relyefi ilə bağlıdır. Borçalı toponimi “bor” (bori) və “çalı” (çal, çöl) sözlərinin birləşməsindən əmələ gəlməsi fikrini söyləyənlər də var. Bu fikir də tamamilə ağlabatan deyil. Çünki bu toponimin birinci komponenti qədim türk dillərində “qurd” mənasında işlənən “bori” tayfasının adından götürülüb. Bu da təsadüfi deyil. Birincisi, qurd qədim zamanlarda türkdilli xalqların totemi olub. İkincisi, qədim türklər hələ köçəri həyat keçirdiyi zaman çox döyüşkən və cəsur tayfalar olublar (bu, onların adlarında da əks olunub). Təsadüfi deyil ki, hələ “Kitabi-Dədə Qorqud” dastanında “Qurd üzü mübarəkdir” kimi ifadələr öz əksini tapıb. İndi də xalqımız arasında “Qurd oğlu qurd olar”, “Qurddan olan kəsəyən olar” kimi yığcam və dərin məzmunlu atalar sözləri də var. Güman ki, elə həmin atalar sözləri də öz başlanğıcını və özülünü qurdlar tayfasının adından alıb. Beləliklə, aydın olur ki, “Borçalı” toponiminin birinci komponenti “bori” (qurd) sözü əsasında formalaşıb” [8]. Sözün ikinci komponenti isə “çalı” (çal) qədim türk dilində “təpə” mənasında işlənən “çal” sözü ilə bağlıdır.

Sənan dağı – Borçalı ərazisində yerləşən bu toponimin maraqlı tarixçəsi vardır. Dağın adı antroponimdən yaranmışdır. Sənan dağı və şəhərin adı ərəb tarixçisi Tarik ibn Sənanın adından əmələ gəlmişdir. Sözün hərfi mənası isə "işlək, çalışqan, zəhmətsevər, tərifl ənən, mədh edilən, kəskin" deməkdir. Burada ümumi sözdən xüsusi ad – antroponim yaranmışdır. Həmin antroponim isə yuxarıda qeyd etdiyimiz kimi zamanın tarixi, mədəni və s. tələblərindən irəli gələrək toponimə çevrilmişdir.

"Mülayim, ruh oxşayan yaz günəşinin qızılı telləri Sənan dağının döşündə, gilasaların qızılı qüllələrində, məscidlərin mavi minarələrində oynayırdı".

Xəzər – bu hidronimin yaranmasını xəzərlilər tayfası ilə əlaqələndirilər. Həmin tayfa bizə tarixən "kaspi" olaraq məlumdur. Xəzərin tarixi, etimologiyası, coğrafiyası daim dünya alimlərinin diqqət mərkəzində olmuşdur. Həsən Əliyevin Xəzər sözünün tarixi dəyişimi ilə bağlı fikirlərinə nəzər yetirək: "Qədim Oğuzların adının Ulu Tanrı "Qa" məhfumundan yaranmasını əsas götürsək, heç də yanılmarıq... "Qa" məfhumuna qoşulan "z" səsi cəmliyi, Qu+z və müasir cəm şəkilçisi - "lar". Əgər biz "xəzər" sözünün yaşını nəzərə alsaq, sözdə olan mümkün fonetik hadisələr nəticəsində "qaz" sözünün "xəz" sözünə keçməsi qaçılmazdır. Sözdə "q" səsinin qohum samit olan "x" samitinə, "a" saitinin qohum "ə" saitinə keçməsi tam şübhəsizdir... "Xəzər" sözünün 2-ci hecası Ulu dildən gəlmə "ər" "adam+lar" mənasını bildirir. Bütün Yunan və Roma tədqiqatçıları Xəzər dənizinin adının Ulu dilə mənsub olan "Ka, Qa" Od Tanrısından yarandığını bilərək öz dillərində də bu dənizin adını "Kaspiya", əhalisini isə "Kaspi" adlandırmışlar. Latın dilində "kas" sözü "qaz", sözün 2-ci hecası "pia" –"mömin, səcdə edən" mənasını bildirir.Yəni:Atəşpərəstlər" [6].

"Tikiş maşınını, ağ nöyütü, kibriti ən böyük möcüzə bilən avamlar, Xəzər dənizi ilə Hind okeanı arasındakı böyük bir sahədə yaşayan İlyas bəylər isə sanki kor idilər" [7, s. 622].

Şahdağ – eyniadlı bu dağ Azərbaycanda üç ərazidə mövcuddur: Şirvanda, Ermənistanla sərhəddə, Qusarda. Bu dağın zirvəsi yüksək olduğundan başı hər zaman qarla örtülü olur. Romanda məhz bu xüsusiyyətinə görə bənzətmə məqsədi üçün işlədilmişdir: "Xatırlamayacaq ki, bir günün başı Şah dağın zirvəsi kimi ağappaq nurani bir qoca ayaqlarına yıxılaraq yalvarmışdı" [7, s. 552]:

Qarabağ – azərbaycanlıların qədim ata-baba yurdu olan Qarabağın hərfi mənası "böyük el, oba, tayfa" deməkdir. Eyni zamanda tarixən bizə qarabağ tayfası məlumdur. Qarabağ Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Arxeoloji qazıntılar nəticəsində ilk insana məxsus alt çənə sümüyü bu ərazidə - Füzuli yaxınlığında tapılmışdır. "Mənbələrdə Qarabağ adı 1284-cü ildən məlumdur" [3, s. 17]. Qarabağda min illər boyu müxtəlif tayfalar – albanlar, xəzərlər, utilər, hunlar məskən salmışlar. Yüksək strateji mövqeyə sahib olduğuna görə hər zaman yadelli hücumuna məruz qalmışdır. I Qarabağ müharibəsindən sonra qondarma "Arsax" respublikası yaradılmışdır. Qeyd edək ki, bu toponim elə türk mənşəli sözlərdən ibarətdir: "Ar" – igid və "sak" isə qədim türk tayfa adıdır. Hərb tarixinə adını qızıl hərflərlə yazdıran müzəffər ordumuz sayəsində 44 günlük haqq savaşından sonra qondarma Arsax adı tarixin tozlu səhifələrinə qərq oldu.

Romanda həm hadisələrin cərəyan etdiyi məkan olaraq, həm də təsvir məqsədilə bu toponimdən istifadə edilmişdir:

"Ehh, Nəriman, bizim yerlər yadıma düşdü, burnumun ucu göynədi! Sən Qarabağı görməmisən, onun gözəlliyini deməklə başa gələn deyil, belə havalarda Cıdır düzündə, İsa bulağında, hər qayanın dibində, hər budağın başında bir süfrə açılıb toğlu kababının iyi ərşə qalxır, çalan kim, oxuyan kim!.." [7, s. 485].

"Onlar evləndikdən sonra iş gəlib Səfiqulu bəylə açıq cəngi-cidala çıxsa, Səkinəni və Cəfəri buradan uzaq bir yerə köçürməyə, Gəncədə və ya Qarabağda yerbəyer eləməyi düşünürdü" [7, s. 127].

Zəngəzur – bu adda dağ silsiləsi mövcuddur. Onomastik vahid olaraq mənası bir neçə şəkildə göstərilir. Toponimin adı bu ərazidə məskunlaşan zəngi/zəngə tayfasının adı ilə əlaqədardır. "Oronim zəng/səng (qaya, daş) və zur(uzun) komponentlərindən düzəlib, "uzun qaya, daş" mənasındadır" [3, s. 295]. Fikrimizcə, bu mahalın adı eyniadlı dağın adından götürülüb.

"Sən də mənim xoşuma gəlirsən, – deyib Mikael Nərimanın yanına sallanmış əlini tutub sıxdı. – Mən Zəngəzurdanam" [7, s. 475].

Gəncə – tarixən ən çox adı dəyişən şəhər hesab olunur. Buna görə də mənbələrdə müxtəlif formalarda rast gəlinir: Qandzak, Cənzə, Kirovabad, Yelizavetpol. "Gəncənin adı ilk dəfə 712/713-cü

ildə kəsilmiş metal pul üzərində zərb edilmişdir" [2, s. 197]. Gəncə şəhəri 1804-cü il rus işğalından sonra çarın arvadının şərəfinə *Yelizavetpol* adlandırılmışdır. 1918-ci ildə şəhərin adı bərpa olunsa da, 1935-ci ildə S.M.Kirovun şərəfinə *Kirovabad* şəklində dəyişdirilmişdir. Gəncənin tarixi adı 1989-cu ildən sonra bərpa olunub.

Toponimin mənşəcə etnonimdən yaranması ilə bağlı fikirlərlə rastlaşırıq. Burada məskunlaşan "gəncək" tayfasını vurğulayaraq Gəncənin adının etnonim əsasında yarandığını ehtimal etmək mümkündür. Toponimin hərfi mənasına nəzər yetirdikdə, "geniş" mənasında işləndiyini görürük.

Ümumiyyətlə, "Pərvanə" tarixi roman olduğundan əsərdə real tarixi məkanlara üstünlük verilmişdir.

"Qorxurdu ki, yerindən tərpənə, Tiflisə və ya Gəncəyə gedib çıxmamış yoldaca onu da, uşağı da məhv edələr" [7, s. 71].

"Odur ki, sən tədarükünü gör, günbatan kimi Reyhan xanımla Səkinəni və Gülyanağı buradan çıxart, üzünü Gəncəyə tərəf tut, kəndlərarası get" [7, s. 349].

"Gəncəyə, o biri başı Tiflisə gedən böyük yolun üstündəki təpəlikdə iki atlı göründü" [7, s. 573].

Nəticə və elmi yenilik. Bildiyimiz kimi, poetik onomastika sistemli şəkildə tədqiq edilməmişdir. Bu sahəyə daha çox ədiblərin müəyyən əsərləri, yaxud ümumi yaradıcılıqları əsasında müraciət edilir. Biz də Mirzə İbrahimovun "Pərvanə" romanını tədqiqata cəlb etdik. Əsər zəngin onomastik sistemi ilə seçilir. Romandakı toponimlər maraqlı dil faktlarını, xalqın tarixi, coğrafiyası ilə bağlı məlumatları özündə əks etdirir. Hətta bəzi toponimlər aktuallığı ilə seçilir. Buna Qızılhacılı onomastik vahidi bariz nümunədir. Bu kənd Qazaxın işğal altında olan kəndlərindən biri idi. Azərbaycan diplomatiyasının parlaq qələbəsidir ki, hazırda kənd sülh yolu ilə mənfur düşməndən geri alınmış, keçmiş adı bərpa olunmuşdur.

İstifadə olunan toponimlərin əksəriyyəti etnonimlər əsasında yaranmışdır. Yer adları həm hadisələrin cərəyan etdiyi məkanı bildirmək, həm də bənzətmə və müqayisə məqsədi ilə işlədilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Adilov, M. Paşayev A. Azərbaycan onomastikası / M.Adilov, A.Paşayev // Bakı: Elm. – 2019. – 101 s.
2. Azərbaycan toponimlərin ensiklopedik lüğəti: [2 cilddə] / – Bakı: Şərq-Qərb, – c. 1. – 2007. – 304 s.
3. Azərbaycan toponimlərin ensiklopedik lüğəti: [2 cilddə] / – Bakı: Şərq-Qərb, – c. 2. – 2007. – 304 s.
4. Eyvazova R. Əfqanıstanda türk mənşəli toponimlər / R.Eyvazova // Bakı: Elm. – 1995, – 244 s.
5. Əliyeva R. Azərbaycan toponimləri / R.Əliyeva // Bakı: Qanun. – 2002. – 136 s.
6. Həsən Əliyev. "Xəzər dənizi, Qız qalası, Bakı və Azərbaycan" toponimlərinin etimologiyası (23.11.2023). https://paralel.az/az/article/484710
7. İbrahimov, M. Pərvanə. Bakı: Gənclik. – 1971. – 700 s.
8. Müşfiq Çobanlı. Borçalı – Qədim türk yurdu. (09.24.2013). https://www.anl.az/down/meqale/xalqcebhesi/2013/sentyabr/327380.htm
9. Vəliyeva, T. Mehdi Hüseynin onomastiksası / T.Vəliyeva // Bakı: Zaman. – 1997. – 149 s.

EMOSİONAL KONSEPT LİNQVOKULTUROLOGİYANIN OBYEKTİ KİMİ

Sevda Sadıqova*

Abstract

Emotional concept as an object of linguoculturalism

In recent times, there has been an increased interest in linguoculturalism, which is one of the newly emerging multidisciplinary fields in linguistics. This young field of linguistics considers language not only as a means of communication and understanding, but also as the cultural code of a people. Linguistics is a science that studies the relationship between language and culture. The main task of this science is the study and description of the interaction between language and culture, language and ethnos, language and national mentality. It was created on the basis of the triad of "language, culture, people". The main object of linguistic culture is the concept. Concepts are divided into different groups in terms of subject, emotional, educational, homeland, etc.

The article examines the place of the "fear" emotion in the system of human emotions, its relationship with other emotions, universal and specific features of fear. Fear is one of the dominant human emotions. Primitive man's fear of natural phenomena, fear of war, fear for his own life, fear for the life of his loved ones, fear of the unknown future - all these can be examples that confirm the universality and dominance of this emotion. On the other hand, emotion is a part of national culture, although it is universal, it has some characteristics that are unique to each nation. In particular, the cultural specificity of an emotion is manifested in the fact that the universal characteristics of fear as an emotion are evaluated and interpreted differently by people.

Keywords: *cognitive, fear, concept, emotion, understanding.*

Giriş. Məlumdur ki, XXI əsrdə rəqəmsal texnologiyaların mövcud olduğu müasir cəmiyyətdə insanın daxili aləmini, zehni fəaliyyətini, idrak, şüur və ümumi psixi varlığı dərk etmək, şərh etmək çox mürəkkəbdir. Odur ki, müasir dilçilikdə insan təfəkküründün transformasiyasına müasirlik nöqteyi-nəzərindən, problemin dərk edilməsinin, dünyanı qavrayışın, dərketmənin və dünyagörüşü sisteminin spesifik xüsusiyyətlərinin yeni rakursdan düşünmək zəruriyyəti yaranmışdır. Bu baxımdan humanitar sahələrdə antroposentrik paradiqmanın istiqaməti kök salmışdır. Koqnitiv dilçilik insan, idrak və dil probleminin bir-birilə əlaqəli tədqiq yolu ilə insanın idrak qabiliyyətlərinin yeni cəhətlərini müəyyən etməyə çalışır. İnsanın idrak fəaliyyəti obyektiv aləmin fraqmentlərinin konseptuallaşdırılması prosesi kimi başa düşülür, bunun nəticəsində şüurda reallığın obyektləri, prosesləri və hadisələri ilə əlaqəli psixi varlıqlar haqqında anlayışlar formalaşır. Konseptual əlamətlər dilin semantikasından aşkarlanır. Konsept sözlə bağlıdır, lakin ona bərabər deyil. Konsept mədəniyyət üçün aktual olan bir sıra dil vahidlərində, frazeologizmlərdə, atalar sözləri, məsəllər, mətnlərdə obyektivləşir. Konsepsiya fərd və cəmiyyət tərəfindən ətraf aləmin irrasional emosional-qiymətləndirici qavrayışını ifadə edir. Konsept etnospesifik bir hadisədir. Emosional konsept bir sıra sosial və psixoloji-mədəni amillərlə (etnik mənsubiyyət, ənənələr, hüquqlar, adətlər, stereotiplər, davranış nümunələri və s.) müəyyən edilir. Odur ki, emosional konseptlə emosional anlayış arasındakı fərq həm də ondadır ki, konsepsiya təkcə müəyyən idrak elementlərinin məcmusundan ibarət deyil, həm də konsepsiyanın özü haqqında qiymətləndirici rəngli fikirlər toplusudur.

Əsas hissə. Dil mədəniyyətin mühüm hissəsi , onun dərk edilməsi və ötürülməsinin əsas vasitəsi , milli mentalitetin spesifik xüsusiyyətlərinin daşıyıcısıdır. Lakin dil və mədəniyyətin qarşılıqlı münasibəti məsələsi alimlər tərəfindən birmənalı həll olunmur. Bu məsələyə yanaşmaları bütövlükdə 2 qrupa bölmək olar:

1. Dil və mədəniyyət "məzmununa və funksiyalarına görə üst-üstə düşən müxtəlif mahiyyətlərdir".

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: sadiqovasevda444@gmail.com. Elmi rəhbər:*** *Akad. Nizami Cəfərov.*

2. Dil və mədəniyyətin münasibəti tamın hissəyə münasibəti kimidir. Bu yanaşmada dil mədəniyyətin komponenti və onun aləti kimi dərk edilir. Problemə bu kimi yanaşma öz əksini rus alimi N.İ.Tolstoyun əsərlərində tapmışdır.

Lingvokulturologiya, V.A.Maslovanın qeyd etdiyi kimi, "xalqın dildə əks olunmuş və təzahür etmiş mədəni" hadisələrini tədqiq edir. Bu elmin əsas tədqiqat vahidlərindən biri konsept-mədəniyyətin və dilin insan şüurunda əlaqəsini həyata keçirməyə imkan verən mental vahiddir. Beləliklə, mədəniyyətin baza konseptlərinin təsviri linqvokulturologiya qarşısında duran əsas məsələ qismində çıxış edir. Konseptlər müşahidə edilən və təsəvvür olunan hadisələr rəngarəngliyini nəsə vahid bir şeyə gətirir, onları eyni bir nöqtədə qarşılaşdırır; onlar dünya haqqındakı bilikləri qoruyub saxlamağa imkan verir və konseptual sistemin tikinti elementləri olmaqla, subyektiv təcrübənin cəmiyyət tərəfindən işlənib hazırlanmış müəyyən kateqoriyalar və siniflərə gətirmək yolu ilə emal edilməsinə rəvac verir. Konsept dildə müxtəlif səviyyəli vahidlər, o cümlədən frazeologizmlər vasitəsilə obyektivləşir. Konseptin müxtəlif dillərin materialları əsasında müqayisəli öyrənilməsi onun mahiyyətini düzgün işıqlandırmaq üçün daha məqbul hesab edilə bilər, çünki müxtəlif dilləri bir-birindən fərqləndirən yalnız leksik vasitələr və qrammatik qaydalar deyil, onlardan istifadə edən dil daşıyıcısı üçün hər sözün arxasında açılan "aləm"dir (6 , s. 12) . Müasir dilçilik elmində "konsept" sözünü ilk dəfə rus mütəfəkkiri S.A.Askoldov tətbiq etmişdir. Orta əsrlər dövrünün nominalistləri kimi, S.A.Askoldov da "fərdi təsəvvürü bütün soy həcminin əvəzi" hesab edir. Lakin digər alimlərdən fərqli olaraq ,S.A.Askoldov konsepti fərdi təsəvvürlə eyniləşdirmir və onda "ümumilik, oxşarlıq" görür (5, s. 147). Onun fikrincə, "konsept-düşüncənin törəməsidir, o da düşüncə prosesində eyni cərgədən olan çoxsaylı əşyaları əvəz edir.

Koqnitiv dilçilik çərçivəsində "konsept" dedikdə, insan psixikasında əks edilmiş yaddaş vahidini, mental leksikonu nəzərdə tuturuq. Z.D.Popova, İ.A.Sternin konsepti "qlobal düşüncə vahidi kimi" tərif edir (5, s. 147).

Konsept - insanın mental dünyasında mədəniyyətin əsas özəyidir. Konseptin strukturu üç qatlıdır:

1. Əsas, aktual əlamət
2. Aktual, tarixi əhəmiyyət kəsb etməyən, əlavə, yaxud bir neçə əlavə, "passiv" əlamət
3. Zahiri, şifahi formada təqdim edilən , adətən, tam dərk edilməyən daxili forma (5, s. 148)

Duyğular və onların yaratdığı vəziyyətlər insanın dünya, o cümlədən linqvistik mənzərəsində əks olunur. Dünyanın linqivistik mənzərəsi dil şəxsiyyətlərinin təkcə obyektiv-material deyil, həm də subyektiv-mənəvi dünyalarının bütün cəhətlərini, onların əlaqə və münasibətlərinin bütün müxtəlifliyini əks etdirir (1, s. 34). Dilçilik aləmində emotiologiya problemlərinin öyrənilməsinə getdikcə daha çox diqqət yetirilir. Uzun müddət dilçilik duyğuların davranış proseslərini tənzimləsində, insanın ətrafdakı dünyanı şərh etməsində, qavrayış və nitqinin formalaşmasındakı rolunu nəzərə almayaraq, əsasən dildə intelektual məsələlərlə məşğul olurdu. 1987-ci ildə Berlində Dilçilərin XIV Beynəlxalq Konqresində onlar idrak və emosiya arasında sıx əlaqədən, dilin bu aspektinin öyrənilməsinin böyük linqivistik əhəmiyyətindən danışdılar. Bu dövrdən bu günə qədər emosiyaların dildə əks olunması, sözlərin və mətnlərin emosional xüsusiyyətləri, mətnin emosional mənaları və emosional dominantları, emosional anlayışlar və metaforalarla bağlı çoxlu sayda tədqiqatlar toplanmışdır. Mətn dilçiliyinin problemləri ilə məşğul olan dilçilər hər hansı bir bədii mətnin insanların emosional həyatını məcburi surətdə canlandırdığına diqqət yetirirlər; insanların nitq fəaliyyətinin məqsədi əksər hallarda emosional təmas və ya hisslərə təsir etməkdir. Təbii ki, bədii mətndə duyğular bilavasitə müşahidə olunmur, ancaq maddi, müşahidə oluna bilən və emosiyaların təzahürünə xidmət edən konkret linqvistik əlamətlər vasitəsilə müşahidə olunur. Xarici dildə bədii mətnin emosionallığını öyrənərkən duyğuların təzahürünün mədəniyyətlərarası spesifikliyini nəzərə almaq lazımdır ki, bu da duyğunun özünün ikili təbiəti ilə izah olunur bir tərəfdən ümumbəşəri psixoloji, fizioloji təcrübə kimi, digər tərəfdən isə spesifik, mədəni şəkildə qeyd olunan dərketmə ilə xarakterizə olunan emosional konsept kimi.

Emosiya hissi, psixoloji vəziyyət olub qısamüddətli əhval-ruhiyyə ilə bağlıdır və insanlar üçün ümumi səciyyə daşıyaraq hadisə, həmçinin yaranmış vəziyyətlərin, eləcə də insanlararası münasibətlərin qiymətləndirilməsi, belə faktlara reaksiya nəticəsində meydana çıxır. Emosiya insanda

özünü müxtəlif hisslər kimi göstərir. Emosiyanın 10 əsas növünü ayırmaq olur: 1) maraq; 2) sevinc; 3) təəccüb; 4) dərd; 5) qəzəb; 6) iyrənmə; 7) nifrət; 8) utanma; 9) təqsir; 10) qorxu (4, s. 141).

İnsanın duyğular sistemində qorxunun yerini müəyyən edərək, duyğunun insanın özünə və ətrafındakı dünyaya münasibətini əks etdirən, üz, psixosomatik, davranış dəyişiklikləri ilə xarakterizə olunan və dildə obyektivləşən psixi proses kimi başa düşülməsinə riayət edirik.

Hər bir emosional halın özünün verbal etalon tipləri vardır. Məsələn, mətndə hansı dildə olmasından asılı olmayaraq qorxunu ifadə etmək məqsədi ilə müxtəlif konstruksiyalardan istifadə edilir. Belə konstruksiyalara aşağıdakıları aid etmək olar: 1) qışqırmaq; 2) çığırmaq; 3) ağarmaq; 4) quruyub qalmaq; 5) əsmək; 6) dili əsmək; 7) ayaqları əsmək; 8) dizləri bükülmək; 9) rəngi solmaq; 10) tükləri biz-biz durmaq; 11) ağzı əyilmək; 12) əsməcə tutmaq; 13) tir-tir əsmək; 14) üstündə ölmək və s. Belə konstruksiya və qəliblər müxtəlifsistemli dillərdə bu və ya digər şəkildə işlənir. Deməli, müxtəlif dillərin ifadə vasitələri arasında insana xas olan müxtəlif hal və vəziyyətləri , emosiyanı ifadə etmək üçün mənaca bir-birinə yaxın olan dil vasitələri vardır. Bununla yanaşı, eyni ifadə vasitəsi müxtəlif emosional vəziyyətləri də təsvir edə bilir (4, s. 37).

Emosiya dildənkənar reallıq hadisəsi kimi aşağıdakı prototip əlamətlərlə xarakterizə olunur:

1. Duyğunun baş vermə mənbəyi (səbəbi) 2. Emosiya intensivliyi 3. Emosiyaların xarici təzahürləri 4. Emosiya müddəti (uzunmüddətli və ya qısa müddətli) 5. Duyğunun təbiəti (dərin və ya səthi)

Qorxu hissinin baş vermə mənbəyindən asılı olaraq xarici və daxili olmaqla iki növü fərqlənir. Qorxu müddət meyarına görə təsnif edilərkən qısamüddətli hal kimi qorxu adlanan vəziyyət və qorxu və ya qorxaqlıq kimi tanınan sabit xarakter xüsusiyyəti kimi fərqləndirilir. İntensivlik meyarına əsasən , insan qorxusu qorxudan (qorxunun ən zəif dərəcəsi) çaxnaşma və dəhşətə (emosiyaların ən güclü dərəcəsi) qədər dəyişə bilər. Qorxu bir insanı manipulyasiya etmək üçün bir vasitə kimi istifadə edilə bilər, eyni zamanda birbaşa təhlükə vəziyyətində yaşana bilər, başqa , daha güclü bir duyğu (məsələn, qəzəb) tərəfindən sıxışdırıla bilər. Qorxu həm mənfi (nifrət, aqressiya, ağrı), həm də müsbət (sevgi, maraq, sürpriz) emosiyalar ilə müşayiət olunur. Qorxunun utanc və hörmətlə əlaqəsi bütün dil mədəniyyətləri üçün aktualdır ki, bu da bizə qorxunun sosial növünün bioloji ilə müqayisədə daha böyük əhəmiyyət kəsb etdiyini söyləməyə imkan verir (2, s. 7). Tədqiq olunan emosional konsepsiyanın spesifikliyi ondan ibarətdir ki, qorxu hissi anlayışı universaldır və bununla da ümumi koqnitiv xüsusiyyətlərin mövcudluğunu müəyyənləşdirir. Emosional konsept "qorxu" bütün insan elmləri ilə əlaqəli çoxölçülü bir fenomen hesab olunur:psixologiya, sosiologiya, siyasət, dilçilik və s. "Qorxu" linqvistik anlayışının milli şüurun strukturu kimi təhlili müqayisə edilən dillərin strukturlarında əksini tapan onun başa düşülməsinin etnik spesifikliyini müəyyən etməyə imkan verir.

Nəticə və elmi yenilik. Bu mövzu Azərbaycan dilçiliyində ilk dəfə tədqiqata cəlb olundu. Lingvokulturologiya XX əsrin sonlarında meydana çıxmağa başladığına görə dilçiliyin bu gənc sahəsi geniş tədqiq edilməmişdir. Azərbaycan dilçiliyində bir sıra konseptlər araşdırılmış, lakin emosional konsept məsələsinə toxunulmamışdır. Tədqiqat nəticəsində "qorxu" emosional konseptinin həm bütün dil mədəniyyətləri üçün universal olan, həm də spesifik xüsusiyyətləri, müxtəlifsistemli dillərdə ifadə vasitələri müəyyənləşdirildi.

İstifadə edilmiş ədəbiyyat

1. Воронеж Леонид Валерьевич. Концепм "страх" в русском и немецком языках Москва, 2005, 16 s.
2. В Ведение. Некоторые направления собрименной концептологи З.Д. Попова, И.А.Стернин основные церты семантико-когнитивного подхода к языку Москва s.2000, 54 s.
3. Кириллов Наталья бладимировна кончептуализация з моции страха в раэноструктурных языках цебоксары - 2007 , 28 s.
4. Abbasəliyeva R. "Dildə ekspressivlik və emosionallığın verbal və qeyri-verbal ifadə vasitələri. Bakı, 2018, 160 s.
5. Əhmədova S. Koqnitiv linqvokulturologiyada "ailə konsepti" anlayışı // lingivistika problemləri, cild 2, No 1, 2021, s. 142-152
6. Əhmədova Ü. Müxtəlifsistemli dillərdə "qadın" konseptinin linqvokulturoloji xüsusiyyətləri. Bakı, 2018, 28 s.

RƏNG KOMPONENTLİ FRAZEOLOJİ VAHİDLƏRİN ANTROPOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ RƏNGLƏRİN RƏMZİ MƏNASI

Şirin Cəfərli*

Abstract

Anthropological Characteristics of Phraseological Units with Color Components and the Symbolic Meaning of Colors

This article is devoted to the study of phraseological units that contain the element of color determination in the semantics of languages and their anthropological correlation. Phraseological units are an integral part of any language. They reflect the history of the nation, various cultural events, the history of language development, and the national character.

As a result of our research, it was found that gray and blue phraseological units are less common. Similarities and differences are observed within the phraseological combinations of different colors. The analysis showed that phraseological units with a color component are used more often in the description of a person's appearance and physical condition. From the conducted research, it became clear how diverse and expressive the color component phraseological unitsin the Russian and English languages are, how similar and different they are from each other.

Keywords: *phraseological units, color terms, symbolism, color, semantics, culture.*

Giriş. İnsanlar ünsiyyət zamanı fikirlərini daha dolğun ifadə etmək üçün frazeoloji vahidlərdən də istifadə edirlər. Nitqin daha axıcı olmasına xidmət edən frazeologizmlər obrazlı vahidlərdir. Frazeoloji vahidlər hər zaman xalqın fikirlərini,sosial sistemini, ideologiyasını dolayı yolla əks etdirir [8, s. 127]. Frazeologizmlərdən istifadə dilin emosionallığında xüsusi rol oynayır. Onlar müəyyən anlayışı ayrı-ayrı sözlərdən daha təsirli əks etdirir. Frazeologizmlər bir sıraüslublarda istifadə olunsa da, əsasən, onun istifadəsi bədii üslubda xüsusi bir rola malikdir. Yazıçı bədii əsərində öz duyğularını oxucuya tam şəkildə çatdırmaq üçün frazeoloji vahidlərdən istifadə edir. Yazıçı və şairlərin əlində frazeologizmlər surətlərin danışığını fərdiləşdirmək, tipikləşdirmək üçün əsas vasitələrdən birinə çevrilmişdir.

Əsas hissə. Frazeologizmlərlə bağlı çoxlu tədqiqat əsərləri yazılsa da, hələ də frazeologizmlərin sərhədi tam dəqiq müəyyənləşməmişdir. Bu məsələ ilə bağlı fərqliliklər tədqiqatçılar arasında fikir ayrılıqlarına gətirib çıxarmışdır. Həm Azərbaycan dilçiliyində, həm də nəzəri dilçilikdə frazeologiya termini həm geniş, həm də dar mənada başa düşülür. Bu barədə H.Həsənov yazır: "Frazeologiyanın həcmi ilə meydana gələn fikir ayrılığı tədqiqatçıların, onların əsas əlamətlərinə sabitlik və məcazilik baxımından yanaşmaları, "frazeologiya" terminin geniş və ya dar mənada işlədilməsi ilə bağlıdır. Tədqiqatçıların bu qrupu frazeologiyaya bütün frazem səviyyəli birləşmələri və cümlələri, digər bir qrupu isə ancaq sözün ekvivalentli işlənən birləşmələri və cümlələri daxil edir [2, s. 259].

Frazeologizmlər bir sıra xüsusiyyətlərinə görə, o cümlədən, tərkibindəki komponentlərin semantikasına görə müxtəlif qruplara bölünür: bitki adları ilə bağlı olan frazeoloji vahidlər, rəng komponentli frazeoloji vahidlər, somatik frazeoloji vahidlər və s. Bu barədə M.Mirzəliyeva yazır: "Ayrı -ayrı frazeoloji vahidlərin semantik quruluşunun araşdırılması nəticəsində bir daha aydın olur ki, komponentlər arasındakı münasibətlər olduqca mürəkkəb diferensialaşma formada, daxilən isə ziddiyyətlidir [4, s. 78].

Rəng insan həyatında böyük əhəmiyyətə malikdir. İnsanların əhvali- ruhiyyəsi, duyğuları, hətta fiziki rifahı belə müəyyən qədər rəngdən asılıdır. Ən geniş yayılmış elmi tədqiqatlardan biri də psixoloqların rəng sahəsində apardıqları araşdırmalardır.

Dilçilər və etimoloqlar bir çox dilləri tədqiq edərək belə nəticəyə gəlirlər ki, rəng adlandırma sistemində bir sıra universal xüsusiyyətlər var.

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: sirinceferli02@gmail.com. Elmi rəhbər:*** *Dos. Cavanşir Muradov.*

“Xalqın mədəniyyəti, tarixi, sosial həyatı, adət-ənənələri və s. dildə öz əksinitapır” [1, s. 100]. Rəng adlarını tədqiq edən alimlər belə nəticəyə gəliblər ki, bu və ya digər xalqın rənglərə münasibəti, rənglərin insan həyatındakı rolu və s. məsələlər dil materialında, daha dəqiq desək, frazeoloji vahidlərdə, atalar sözləri və məsəllərdə, əfsanələrdə, rəvayətlərdə və s. öz əksini tapmışdır. Frazeoloji ədəbiyyatlara nəzər saldıqda, hər hansı bir dilin frazeoloji sistemində rəng adları ilə formalaşan frazeologizmlərin mühüm yer tutduğunu görərik.

Beləliklə, rəng bir çox elm sahəsində tədqiqatçıları məşğul edən ən maraqlı problemlərdən biridir. Dilçilər üçün rəngi dünyanın təsviri çərçivəsində öyrənmək maraqlıdır. A.Xlorenkonun “mədəniyyət mənalar dünyasıdır” fikrinə əsaslanaraq, rənglərin də mənasının olduğu qənaətinə gələ bilərik. İnsanın rəng dili, “rəng şüuru”var ki, bu da öz təbiətinə görə milli mədəniyyətlə ayrılmaz şəkildə bağlıdır [11, s. 56]. Rəng simvollarının sayı olduqca məhduddur. Bu baxımdan ən çox istifadə olunan “əsas rəng”lər bunlardır: ağ, qara, qırmızı, mavi, yaşıl, sarı, bənövşəyi. Bu siyahı xüsusi mədəniyyətlərdən asılı olaraq dəyişə bilər. Belə ki, bu rənglərin “əsas” kimi təsnif edilməsinə imkan verən ciddi meyarlar yoxdur və bunu etmək cəhdləri də uğurlu olmayıb. R. M. Frumkina qeyd edir ki, danışanın psixikasında nə fiksasiya prosesi, nə də bu proses zamanı yaranan əlaqələr danışan tərəfindən həyata keçirilməsə də, dil vasitəsilə sabitləşən rəng dünyasının sadəlövh mənzərəsi mövcuddur. Lakin onlar natiq tərəfindən dəqiq tanınmır, çünki onlar artıq danışdığı dildə təsbit olunublar və bütövlükdə dil vasitəsilə təzahür edirlər [10, s. 42].

Əsas rəng terminlərinin sayının son dərəcə az olmasına baxmayaraq, qeyd etmək lazımdır ki, mədəniyyətin inkişafı ilə insan qavrayışı üçün əlçatan olan təmiz monoxromatik rənglərin sahəsi genişlənir. İngilis dilində istifadə olunan “blue” rəngi üçün müxtəlif dillərdə iki təyinat var. Məsələn: Azərbaycan dilində “göy” və “mavi”, rus dilində “синий” və “голубой” və s.

Çox vaxt rəngləri isti və soyuq olmaqla 2 qismə də ayırırlar. İsti rənglərə sarı,qırmızı, narıncı, qəhvəyi və onlardan alınan rəng çalarları aid edilir. Bu rənglər insana odu, alovu, Günəşi, səhraları xatırladır. Soyuq rənglər isə şaxtanı, qarı, buzu,dənizi xatırladır. Bu rənglərə ağ, göy, mavi, bənövşəyi, yaşıl və onların çalarlarını aid etmək olar.

İnsan hisslərinə rənglərin təsiri hələ qədim zamanlardan müşahidə edilmişdir. Belə ki, insanlar miflərdə, xalq nağıllarında, müxtəlif dini və mistik təlimlərdə “rəng dili”ni oxumağın vacibliyini vurğulayırdılar. Məsələn, dini məzmun daşımayan “Irk bitig” (“Falnamə”) abidəsi qədim uyğur abidəsidir. Abidədə hər hissənin əvvəlindəiçi qırmızı rənglənmiş qara dairələr vardır. Dairələrin sayı birdən dördə qədərdir. Fala baxdıran şəxs zəri 3 dəfə atarmış. Hər dəfə düşən rəqəmə uyğun “Falnamə”nin səhifələrindəki dairələrə baxılar və fala baxanın niyyətinin yaxşı və ya pis olduğu söylənilərdi. Hələ bugünədək abidədə içi qırmızı rənglənmiş qara dairələrin ifadə etdiyi rəmzi məna müəyyən edilməmişdir [3, s. 28].

İstənilən rəng bir söz kimi oxuna və ya işarə, simvol kimi şərh edilə bilər. Dilçilikdə simvol mücərrəd bir anlayışın şərti işarəsi kimi xidmət edir. Demək olar ki, bütün mədəni xalqlar rəngdən simvol kimi istifadə etməyin rahatlığını fərq etmişlər. Sivilizasiyaların mövcudluğu və inkişafının müxtəlif şərtlərinə əsaslanaraq, müxtəlif xalqlar arasında eyni rənglər müxtəlif hadisələri simvollaşdırır. Bununla belə, Avropanın simvolizmində ümumi qəbul edilmiş klassik xalq ənənəsi var. Dilimizdə işlənən frazeoloji birləşmələrdə rast gəlinən rənglərin rəmzi mənalarına nəzər salaq:

Frazeoloji birləşmələrin tərkibində qara rəng daha çox mənfi mənanı ifadə edir, əksər hallarda bədbəxtlik, ölüm rəmzi hesab edilir: qaş qaraldı [5, s. 72], bayramı qara gəlmək [5,s.161], dünya gözünə qara görünmək [5, s. 308], qanıqaralmaq [5, s. 528], qara bağlamaq [5, s.533], günü qaralmaq [5, s. 413], qara basmaq (gözə görünmək) [5, s. 533], əlini ağdan qaraya vurmamaq [5, s. 352], qara günə qalmaq [5, s. 533], qara qəpiyə dəyməz, qara yaxmaq (böhtan atmaq), qara siyahıya salmaq [5, s. 534], qəlbiqara olmaq [5, s. 547].

Ağ məsumluq, təravət, aydınlıq, sərinlik rəmzidir: ağ bayraq qaldırmaq (məğlubiyyətini etiraf etmək), ağ böhtan, ağ eləmək (həddi keçmək) [5, s. 40], ağ günə çıxarmaq, ağ olmaq, ağ yalan demək, üzü ağ çıxmaq [5, s. 41].

Frazeologizmlərin tərkibində az işlənən yaşıl rəng təbiətin, baharın rəmzidir: Dağlar yaşıl don geydi; Ağaclar yaşıl rəngə büründü; Həyatına hər zaman yaşıl işıqyansın.

Boz rəng qeyri-adi gözəlliyə sahib olsa da, göstərişli və parlaq deyil. Bu rəngqeyri-müəyyənlik rəmzi kimi istifadə olunur, nəzərləri çox da cəlb etmir. Boz rəng darıxdırıcı rəng kimi hesab olunur. Boz rəng komponentli frazeoloji vahidlər:üzüboz olmaq [5, s.784], boz sifət göstərmək [5, s.206].

Qırmızı rəng ən isti rənglərdən sayılır. İnsan psixikasına çox güclü emosionaltəsir göstərə bilir. Bu rəng insana həyəcan verir, bir növ enerji partlayışına səbəb olur. Qırmızı rəng insan fiziologiyasında da öz əksini tapa bilir. İnsan utananda, qəzəblənəndə qızarır. Qırmızı rəng komponentli frazeoloji vahidlərə nəzər yetirək: qırmızı danışmaq (sözü üzünə birbaşa demək), həyatı qırmızı xətlə keçmək (keşməkeşli həyat sürmək) [5, s. 553], qıpqırmızı qızarmaq [5, s. 552], şeytana qırmızı papış tikmək, qırmızı yaylıq bağlamaq və s.

Yer üzünə işıq, istilik ötürən günəşin rəmzi olan sarı rəng insana müsbət əhvali-ruhiyyə bəxş etsə də, insan psixikasına yaxşı təsir göstərmir. Bu rəng komponentli frazeoloji vahidlərin sayı azdır: sarı simə toxunmaq (vurmaq) - həssas nöqtəyə, incə məqama toxunmaq; sarı simə vurmaq (könlünə toxunmaq) [5, s. 597].

Rənglər içərisində ən sakit təsir bağışlayan rəng mavi(göy) rəngdir. Mavi rəng səma, sakitlik, sevinc rəmzidir. Bayrağımızdakı mavi rəng türkləşmək ideyası ilə bağlıdır. Bundan əlavə, orta əsrlərdə islam dinində olan türkdilli xalqların yaşadığı ərazilərdə saysız-hesabsız qədim abidələr tikilmişdi. Bu abidələrin əksəriyyəti göy rəngdə olmuşdu. Bu baxımdan göy rəng həm də qədim zamanlardan simvolik mənadaşımışdır. Türklərin göy rəngə üstünlük verməsi ilə bağlı başqa bir izaha nəzər yetirək: Göytürk dövlətinin (552-744-cü il) adında göy elementi işlənib. Burada göy“ulu” mənasını ifadə edir. Bu rəng komponentli frazeoloji vahidlərin də sayı məhduddur: gününü göy əskiyə bükmək (gününü qara eləmək) [5, s. 413], abrını göy əskiyə bükmək (abır vermək) [5, s. 19], diriliyini göy əskiyə bükmək [5, s. 295].

Rus və ingilis dillərində istifadə olunan rəng komponentli frazeoloji vahidlər də kifayət qədərdir. Rəngin simvolizminə əsaslanaraq, rəng təyinatlarının simvolik mənalarının semantik mikrosistemləri formalaşır [9, s. 5].

Rənglərin simvolik mənalarının aşağıdakı mikrosistemləri fərqləndirilir:

1) «хороший» - белый, «никакой» - серый, «плохой» - черный; “yaxşı” – ağ, “yox” – boz, “pis” – qara;

2) «разрешающий» - зеленый, «предупреждающий» - желтый, «запрешающий» - красный “icazə verən” – yaşıl, “xəbərdarlıq” – sarı, “qadağan edən” – qırmızı;

3) «революционный» - красный, «контрреволюционный» - белый “inqilabçı” – qırmızı, “əks-inqilabçı” – ağ;

4) «нежный, слабый, радостный» - розовый, «безмятежный» - голубой “zərif, şən” – çəhrayı, “sakit” – mavi.

Buradan bir sıra nəticələr çıxara bilərik:

- Bir çox mədəniyyətlərdə ağ rəng insanın yaxşı keyfiyyətlərini simvollaşdırır: nəciblik, mülayimlik, dinclik (Белый голубь, белый флаг, white dove, whiteflag, ağ göyərçin, ağ bayraq). Həmçinin bu rəng sülhün simvoludur [7, s. 100].
- Tədqiq olunan bir çox dillərdə sabit birləşmələrin böyük qismində istifadə olunan qara rəng bir çox mədəniyyətlərdə matəm mənasında, bədbəxtlik ilə əlaqələndirilir, problemi simvollaşdırır (черная тоска, черная полоса, qara melanxolik, qara zolaq; look on the black side (of things), qara tərəfə (şeylərə) baxmaq, yəni bir şeyə kədərli, bədbin tərəfindən baxmaq) [7, s. 104].
- Yaşıl rəng “icazə verən” mənasından əlavə olaraq, rus və ingilis dillərində başqa simvolizmə də malikdir. Bu, gəncliyin, sadəlövhlüyün, həyat sevincininsimvoludur. Həmçinin yaşıl rəng ümidi, sevinci simvollaşdırır (as green as grass, ot kimi yaşıl – gənc, təcrübəsiz) [6, s. 115].
- Rus dilində sarı rəng “dəlilik” mənası ilə güclü şəkildə əlaqələndirilir. Bəzənsevincsiz olmağa, bəzən də xəstəliklərə aid edilir.
- Qırmızı rəng həyəcan zamanı sinir sistemlərinin gərginləşməsi nəticəsində üzə qanın yığılması, qızarması fizioloji prosesinin özəlliyini əks etdirir. Qırmızı rəng “yaxşı”, “parlaq” mənası ilə yanaşı, frazeoloji vahidlərin bir hissəsi kimi “gözəl” (красная девица - qırmızı qız,

красный как рак - lobsterkimi qırmızı) mənasında da işlənir [6, s. 102].

- Mavi rəng sonsuzluğu, əbədiliyi, həqiqəti, sədaqəti, saflığı, iffəti, mənəvi və intellektual həyatı (голубая кровь - mavi qan, синяя птица - mavi quş) simvollaşdırır [7, s. 113].
- Boz imtinanın, təvazökarlığın, melanxoliyanın, laqeydliyin rəngidir. Rus dilində çox vaxt "boz adam" ifadəsindən istifadə olunur, mənası "mədəniyyətsiz insan" kimi başa düşülür.

Yuxarıda yazılanlardan belə nəticəyə gələ bilərik ki, rəng insanın dünyanı qavramasında mühüm rol oynayır, müəyyən assosiasiyalara səbəb ola bilir. Müxtəlif dillərdəki rəng terminlərinin semantik quruluşundakı fərqlər milli- mədəni xüsusiyyətlər və müəyyən bir dildə rəngin simvolizmi ilə əlaqədardır. Çünki hər bir xalqın dünyagörüşündə "insan" anlayışı əsas məhfumdur. Frazeoloji vahidlərin kəmiyyət cəhətdən üstünlük təşkil etməsi məhz bununla izah olunur.

Rəng işarələri olan frazeologizmlər öz mənalarında insanın mənəvi keyfiyyətlərinə, xarici görünüşünə, fiziki quruluşuna, hərəkətlərinə yönəldilmişdir. Bir şəxsin təsviri nümunəsindən istifadə edərək rəng komponentli frazeoloji vahidlərin istifadəsini öyrənmək üçün 296 frazeoloji vahid təhlil edilmişdir. Onlardan 35-i ingilis dilində "qara" komponentli, 30-u isə "ağ" komponentlidir (Cədvəl 2). Rus dilində isə "qara" komponentli 60, "ağ" komponentli 54 frazeoloji vahid var (Cədvəl 1). Bu frazeoloji vahidlər 3 qrupa bölünür:

1. İnsanın zahiri görünüşü ilə bağlı ifadələr;
2. İnsanın hərəkətləri ilə bağlı ifadələr;
3. İnsanın xarakterinə aid ifadələr;
4. İnsanın peşəkar mənsubiyyəti ilə əlaqəli ifadələr;

Cədvəl 1. *Rus dilində "rəng" komponenti olan frazeoloji vahidlərin ümumifaizi:*

Rəng	İnsanın zahiri görünüşü ilə bağlı ifadələr	İnsanın hərəkətləri ilə bağlı ifadələr	İnsanın xarakterinə aid ifadələr	İnsanın peşəkar mənsubiyyəti ilə əlaqəli ifadələr
Yaşıl (зеленый), qırmızı (красный), qara (черный), ağ (белый)	36%	28%	23%	13%

Cədvəl 2. *İngilis dilində "rəng" komponenti olan frazeoloji vahidlərin ümumi faizi:*

Rəng	İnsanın zahiri görünüşü ilə bağlı ifadələr	İnsanın hərəkətləri ilə bağlı ifadələr	İnsanın xarakterinə aid ifadələr	İnsanınpeşəkar mənsubiyyəti ilə əlaqəli ifadələr
Yaşıl (green), qırmızı (red), qara (black), ağ (white)	39%	24%	23%	14%

Rus və ingilis dillərində rəng komponentli frazeoloji vahidlərin istifadə tezliyini hesablayaraq aşağıdakı nəticələri əldə etmək olar:

1. Bütün frazeoloji vahidlərin əksəriyyəti insanın xarici görünüşünün və fiziki vəziyyətinin təsvirində həm rus, həm də ingilis dilində olur, 75% təşkil edir;
2. Hər iki dildə ən az bir şəxsin peşəkar mənsubiyyətinə aid frazeolojivahidlərə rast gəlinir (Cədvəl 3).

Cədvəl 3. *Rus və ingilis dillərində "rəng" komponentli frazeolojivahidlərin ümumi faizi:*

Rəng	İnsanın zahiri görünüşü ilə bağlı ifadələr	İnsanın hərəkətləri ilə bağlı ifadələr	İnsanın xarakterinə aid ifadələr	İnsanın peşəkar mənsubiyyəti ilə əlaqəli ifadələr
Yaşıl, qırmızı, qara, ağ	75%	52%	46%	27%

Nəticə. Sonda qeyd etmək lazımdır ki, rəng simvolizmi milli xüsusiyyətlərlə çox sıx bağlıdır və mentaliteti ifadə etmək vasitəsidir. Rəng terminlərindən istifadə etməklə əmələ gələn frazeoloji vahidlərin nisbətən çoxluğu və onların yüksək məhsuldarlığı göstərir ki, rəng terminləri frazeoloji fəaliyyət potensialı yüksək olan leksemlər qrupuna daxildir. Təhlil göstərdi ki, insanın zahiri görünüşünün və fizikivəziyyətinin təsvirində rəng komponentli frazeoloji vahidlərdən daha çoxistifadə olunur. Burada frazeoloji vahidlərin dildə istifadəsinin bütün cəhətləri nəzərdən keçirilməmişdir, yalnız xüsusi maraq doğuran sahələr araşdırılmışdır. Aparılan araşdırmadan rus və ingilis dillərində olan rəng komponentli frazeoloji vahidlərin nə qədər müxtəlif və ifadəli olduğunu, onların bir-birindən nə qədər oxşar və fərqli olduğunu aydın təsəvvür etmək olar.

İstifadə edilmiş ədəbiyyat

1. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978.
2. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası, Bakı Universiteti, 2001, 399 s.
3. Xudiyev N. Qədim türk yazılı abidələrinin dili. Bakı: Elm və təhsil, 2015, 596 s.
4. Mirzəliyeva M. Türk dilləri frazeologiyasının nəzəri problemləri. Bakı, Azərbaycan Ensiklopediyası, 1995, s. 14-65.
5. Vəliyeva N.Ç. Azərbaycanca-İngiliscə-Rusca frazeoloji lüğət. 2006, 863 s.
6. Гвоздарев Ю.А. Рассказы о русской фразеологии. - М. 1988. 320 с.
7. Лаенко Л.В От семантики цвета к социальной языка (на материале английских и русских прилагательных, обозначающих цвет): автореф. дис. канд. филол. наук. Воронеж. - М. 1988. 232 с.
8. Ларин Б.А. Очерки по фразеологии // История русского языка и общее языкознание: Избранные работы. М.: Просвещение, 1977. с. 125-143.
9. Смирнитский А.И. Лексикология английского языка. - М.Академия, 2005.208 с.
10. Фрумкина Р.М. Цвет, смысл, сходство. Аспекты психолингвистического анализа. - М.: Наука, 1984. 174с.
11. Хлоренко А.Т. Основы культурологии. М. 2009. 184с.

THE LACUNA OF "RELIGION" IN CHINESE LANGUAGE CULTURE

Shen Youqi*

Abstract

The concept of "faith" is also a cultural phenomenon, which creates additional interest in the study of this concept from the point of view of various sciences. Despite the fact that research on this concept has been conducted in Russian linguistics, however, this topic remains poorly studied in Chinese linguoculture.

This work is devoted to the analysis of the linguistic features of the "religion" theme, the consideration of lacunae with the "religion" component as a symbol and the identification of the features of the Chinese language picture. The subject of the study in this work is the lacunary element "religion". The purpose of this work is to identify, classify, and describe the lexical means of the lexeme "religion" in texts. The material of the study was the data of a sample from dictionaries of Chinese languages.

Keywords: *Chinese language, faith, linguistic features, lacunary element.*

İntroduction. In the Chinese linguistic picture of the world, the phenomenon of "faith" is a little-studied phenomenon. If in the consciousness of a Russian-speaking person, the religious awareness of "faith" occupies a rather significant semantic position, then in the consciousness of the Chinese this position extends to a stratum of the population, at least partially educated against the background of the Buddhist religious tradition. However, despite the predominance of atheistic ideology in the state, the millennial culture of the Chinese nation retains many reflections of the philosophical views of Confucianism, Taoism, Moism, as well as formed with the Chinese specifics of Buddhism.

The world surrounding a person is represented in the lexical composition of the language. This interdependence represents the main material of cognitive science research. For each person, ideas about the world around them can develop in different ways, which indicates a difference in linguistic semantics. In the process of language formation, the influence of the cultural environment in which the language is formed occurs. Conventionalization takes place in it, that is, an unspoken collective agreement of the speakers in expressing their thoughts. The thinking of different national groups it differs, which directly affects the language semantics.

The concept covers a large number of lexical units, and also affects the meanings of different concepts that have a common semantic field. The concept is reflected in the language in phrases, stable expressions, and texts. Linguistic units act as a code that contains a sensual and rational form of cognition of the phenomenon described by the concept. The human spiritual and cultural environment is filled with concerts, the transmission of which is reproduced through generations, accumulating a rich cultural layer."

V.V.Malyavin's monograph "Chinese Civilization" argues that the mystical halo inherent in the ancient Chinese Empire was not just a relic of past eras. It was consciously developed by the top of the ruling elite. The ethical teachings of early Confucianism were especially associated with cosmological theories due to the efforts of the ideologists of the Han dynasty, especially the scientist Dong Zhongshu, one of the advisers of Emperor Wu-di [2].

Confucian ethics substantiates the special position of man in the universe and at the same time his responsibility for the fate of the world. At the same time, cosmology establishes a correspondence between politics and cosmic rhythms. According to Professor V.V. Malyavin, Dong Zhongshu argued that each dynasty corresponds to the domination of a certain world element, and that the change of dynasties is determined by the cycle of the elements. This doctrine represents a significant departure from the idea of the "heavenly conduct" of the Zhou dynasty, which had no time limits [2].

* ***Baku State University, Faculty of Philology, Master's student. E-mail: 18524746474@163.com. Elmi rəhbər:*** *Fil.f.dok. Aytən Muradzadə.*

The main part.

FORTUNE TELLING IN ANCIENT CHINA:

In ancient times, Chinese monks and priests did not have official authority to challenge the long-standing Mantic traditions rooted in the imperial state. At all times, the Chinese Empire has adhered to mantic practices at all levels. Decrees and other official statements constantly took into account favorable and unfavorable dates, times, events and omens. The state defined certain days as "suitable" or "unsuitable" for various state affairs, and officials used fortune-telling in various civil and military situations. For the emperor, giving up divination meant giving up his claim to the kingdom and giving up the role of mediator between Heaven and Earth.

Supernatural, spiritual essence can be considered as a set of means and methods, rules of interaction between the living and inanimate, mental and physical. The combination of these aspects determines a person's worldview. By about 300 BC, most Chinese thinkers accept the general idea that the purpose of human activity is to align with natural patterns of change in the universe [3]. Let's look at specific examples:

Silver and gold paper (bó) is used to create sacrificial inscriptions and fortune-telling symbols.

Hieroglyphic divination (cèzì) is a method of prediction based on Chinese characters.

The "Eight trigrams" (bāguà) are special divination symbols in Chinese culture.

The results of divination on the bones or shells of turtles (bǔcí) are the results of predictions obtained using special symbols.The "spiritual" concerns of fortune-tellers did not exclude conducting empirical research. For example, divination on wind, rain and clouds, as well as other types of Chinese predictions, although associated with belief in supernatural forces, are closely intertwined with meteorology. Proponents of numerological systems use mathematics for cosmological calculations in order to determine a favorable time and place. In general, elements of the "natural sciences" of their time can be found in geomantics.

八字 bāzì "bangzi": These data were used by astrologers to determine a person's fate, character, and career. To do this, the basic astrological data such as the year, month, day and hour of birth were first determined, after which calculations were carried out according to ancient Chinese methods. The horoscope served as a tool for predicting the future and helped people understand their strengths and weaknesses, as well as make the right decisions to improve their lives.

Hieroglyphic divination (chāizì) is the practice of divination based on Chinese characters.

The search for happiness (qiúqián) is fortune–telling using special tags.

The use of traditional writing brought the belief that words written on paper or other medium have a special magic. Thanks to this form of writing, the riches of China's spiritual culture, rooted in ancient times, were preserved. Hieroglyphic writing, accessible only to a select circle of people, possessed its own mysterious magic and preserved it over the centuries.

BUDDHIST TEMPLES AND THEIR ATTENDANTS:

Buddhist terms reflect the national-specific concepts that are present in the language of each nation. Due to their uniqueness, the translator faces difficulties in translating these terms into another language. If they are left untranslated, this can lead to a loss of clarity, accessibility of the text and, in the case of a literary work, damage to artistic value. Therefore, some of these terms are translated, and usually the word that most accurately conveys the meaning and function of a foreign language term is used. Let's look at some of them:

The monastery is a place of residence for Buddhist nuns.

A Buddhist nun (比丘尼 bǐqiūní) is a woman who has devoted herself to Buddhist teaching.

The Buddhist Temple (刹 chà) is a sacred place of worship for Buddhist followers.

A place for contemplation in a Buddhist temple (禅堂 chántáng) is a room where believers retire for meditation and reflection.

The temple of the patron God of the city (Chénghuáng miào) is a sacred structure dedicated to the guardian spirit of the city.

A place of religious rites (道 d dàochǎng) is a place where ceremonies of a Buddhist or Taoist cult are held.

A Taoist nun (道 d dàogū) is a woman who has devoted herself to the spiritual practice of Taoism.

The Taoist Temple (道 d dàoguàn) is a place of worship for followers of Taoism.

The Taoist monastic name (dàohào) is the name that a monk takes upon joining the Taoist brotherhood.

A Buddhist temple (梵宫 fàngōng) is a sacred building where Buddhist religious rites are held.

A Buddhist monastery (梵刹 fànshā) is a place of residence for Buddhist monks.

The guardian deity (jīngāng) is a spiritual being who protects believers.

A follower of Buddhism who has not taken vows (居士 jūshì) is a person who follows the teachings of Buddhism, but is not a monk.

The Buddhist Monastery (兰若 lánruò) is a place of worship and seclusion for Buddhists.

A monk-attendant at a Buddhist temple (庙祝 miàozhù) is a person who performs the duties of caring for a Buddhist sanctuary.

A Buddhist monastery or temple (伽蓝 qiélán) is a place where believers gather for worship.

The term for Buddhist and Taoist temples (sìguān).

The spiritual head of the Taoist religion (天师 tiānshī) is the highest spiritual authority in Taoism.

It should also be noted that often the worship of the Buddha is reflected in lacunae denoting religious prayer and some kind of worship:

Meditation (dzuò) is the practice of sitting in a contemplative pose among Buddhists;

Worship (cháobài) is the act of prostrating;

Bowing (Dǐnglǐ) is also the act of bowing to the ground;

The abbot (fāngzhang) is the abbot of a Buddhist temple;

The folding of the palms (héshí) is a gesture of greeting in Buddhism;

The Liturgy (jìwén) is a speech in honor of the deity;

Prayer (niànfó) is an expression of gratitude to the Buddha;

Immersion in contemplation (rùdìng) is a state of concentration;

Taking monastic vows (shòujiè) is taking monastic vows. The language system serves to facilitate communication, not to reflect thought processes. Words and expressions in a language reflect only those concepts that are considered important for communication in a given language community. They are used to exchange information. If a concept is not mentioned, this does not mean its absence in the minds of native speakers, but rather indicates its insignificance for communication in a given culture (the reasons for this insignificance may be the subject of linguistic and cultural research).

When it is necessary to discuss a concept that has not previously been explicitly named in the language within the framework of a specific communicative situation, there is a need to create a new term that can be descriptive or situational. This is called an occasional nomination, and there are many examples of such cases.

Conclusion: The concept of "faith" has been little studied in the Chinese language tradition, which was one of the reasons for our research. The phenomenon of "faith" has been of interest to mankind for centuries and millennia. In order to comprehend this complex phenomenon, we must, in turn, follow the manifestation of "faith" through the prism of human consciousness, as well as the prism of consciousness of individual cultural and linguistic groups.

Through consideration of the concept of "faith" in Chinese language culture, it is possible to determine the understanding of the Chinese about what the concept of "faith" means to them and whether it has the same meaning as in our minds.

To study the concept of "faith" in the Chinese language, the hieroglyph "Yun " was taken. To determine the possible semantic fields of the lexeme " EN", the meanings given in the dictionary entry

were analyzed. Among them, "确实" – reliable, "信用" – trust, "相信" – trust, as well as "信" –" to believe, to confess were highlighted.

In the minds of the Chinese, the concept of "faith" is primarily perceived as confidence, belief in something that expresses the concept of "信""

The spiritual life of modern Chinese is represented by the most widespread religious teachings of Buddhism, as well as the philosophical views of Confucianism and Taoism. These religious and philosophical teachings had a great influence on the cultural thinking of the Chinese, which can be said with confidence based on the studied phraseological units of the Chinese language with the hieroglyph "信".

List of used literature

1. Voropaev N.N., Ma Tianyu, Deng Tse, Ivanov S.M. Modern Russian-Chinese dictionary. More than 30,000 words. Publishing house: Oriental Book, 2012, 384 p.
2. Malyavin V.V. Chinese civilization. - M.: AST, 2000. - 632 p.
3. Esedov, A. (2011). Kafkaslarda Azeri Türk Edebiyatının Yeni Aşaması: Doğu deneyiminden Batı deneyimine. TURANSAM: Turan Stratejik Araştırmaları Merkezi Dergisi, 9, 73–75. http://www.turansam.org
4. Asadov, A. (2021). Organizational issues of work on world literature samples in primary schools. Journal of Preschool and Primary Education, 236(3), 81–93.
5. Asadov, A. (2021). The role of world literature in shaping students' planetary thinking. Azerbaijan Journal of Educational Studies, 697(4), 111–119.
6. Najafov R. (2021). On the philosophical study of the origin of irrational knowledge in Eastern peripatetic philosophy: “revelation, dream and inspiration”: in the context of the philosophical views of Shihabeddin Yahya Suhrawardi, Abulhasan Bahmaniyar and Al-Kindi. Science, Education and Innovations in the Context of Modern Problems. 8(3), 48-67.
7. Usalko V. O. Mantics as an integral part of the religious and philosophical culture of China / V. O. Usalko. — Text : direct // Young scientist. — 2011. — № 12 (35). — Vol. 1. — pp. 204-207. — URL: https://moluch.ru/archive/35/4009/
8. Yuan Lin lin The problem of classification of lexical lacunae in the linguocultural aspect (on the example of Chinese and Russian languages) // BGZH. 2018. No.4 (25). URL: https://cyberleninka.ru/article/n/problema-klassifikatsii-leksicheskih-lakun-v-lingvokulturologicheskom-aspekte-na-primere-kitayskogo-i-russkogo-yazykov

ЛАКУНЫ «ЦВЕТА» В СИСТЕМЕ КИТАЙСКОГО И РУССКОГО ЯЗЫКОВ

Шен Юци*

Abstract

The article provides a comparative analysis with the color component in Russian and Chinese. Based on specific facts, the differences in the linguistic picture of the world of the two peoples are revealed, as well as the national character, features reflected in vocabulary and phraseology.

The article analyzes the linguistic features of the color spectrum; the consideration of color as a symbol and the identification of similarities and differences in the semantics of the Chinese and Russian languages.

The work uses the method of component analysis, which allows to identify common features in the semantics of the Russian and Azerbaijani languages, means reflecting their lexical features.

Keywords: *color vocabulary, Russian, Chinese, vocabulary, symbols, language signs.*

Введение. Как известно, процесс формирования цветовой знаковой системы часто происходит непроизвольно и незаметно для людей, так как эти ассоциации и символические значения цветов укоренены в их культурное наследие и традиции. Они передаются из поколения в поколение и могут изменяться со временем, отражая изменения в обществе и культуре. Эта универсальность и национально-специфичность символического значения цвета имеет значение в различных областях, таких как дизайн, реклама, маркетинг и психология. Правильное использование цвета может вызывать желаемые эмоции и ассоциации у людей, а неправильное - противоположные.

В соответствии с В.В. Малявиным, концепция "системы пяти первоэлементов" в китайской философии и науке представляет собой основополагающую категорию, обозначающую универсальную классификационную схему. Согласно этой схеме, все основные аспекты мироздания - как пространственно-временные, так и двигательно-эволюционные - имеют пятичленную структуру. Изначально символы и числа были тесно связаны с религиозными убеждениями и имели формальный характер. С тех давних времен пять элементов мирового цикла (вода, огонь, дерево, металл, земля) имели множество ассоциаций, включая связь с различными цветами. Изучение значения цвета в культуре показало, что использование цвета для передачи информации основано на ассоциациях, которые имеют несколько уровней: общие природные ассоциации, влияние культурных традиций народа и, наконец, цветовые ассоциации, связанные с личными переживаниями и впечатлениями [13].

Китайская культура насыщена символами. Одной из самых древних систем символов является учение о пяти первых элементах. Пять первоэлементов – это вода, огонь, дерево, металл и земля, их соответствуют цвета: черный (хэй), красный (чи, хун), сине-зеленый (цин), белый (бай) и желтый (хуан).

В русском и китайском языках цветообозначения являются одной из важных лексических групп, которая отражает культуру народа в полной мере. Цветообозначения как в русском, так и в китайском языке обладают разнообразными эмоциональными и культурными коннотациями. Семантические различия цветообозначений в первую очередь связаны с различиями в картинах мира представителей русской и китайской культур, со сложившимися историко-культурными, религиозными, климатическими и другими особенностями.

В китайском языке система цветообозначений соотносится с семиотической, философско-мировоззренческой картиной мира. В основу лексической базы цветообозначений китайского языка входит древняя мифологическая система, состоящая из пяти элементов - метафизических представлений мироздания, которым соответствует определенный цвет.

* ***Бакинский государственный университет, факультет филологии, магистрант. Электронная почта: 18524746474@163.com. Elmi rəhbər:*** *Fil.f.dok. Aytən Muradzadə.*

Основная часть. Таким образом, при изучении экстракультурных и экстраязыковых лакун, существующих внутри разных культур и языков в ходе анализа русско-китайского и китайско-русского словарей нами были выявлены следующие лакуны, обозначающие цвета, рассмотрим конкретные примеры:

1. Общие наименования:

黄色 (huáng sè) – желтый

橘色 (jú sè) – оранжевый. В отличие от русского, где оранжевый цвет ассоциируется с небесным огнем и божьей благодатью (религиозное влияние), то в китайском языке оно связано с благодатью и урожаем, осенью (апельсиновый — 热带橙 (rè dài chéng); медовый — **蜜橙** (mì chéng)).

绿色 (lǜ sè) – зеленый.

白色 (bái sè) – белый. В отличие от русской, в китайской культуре белый цвет ассоциируется со скорбью и является траурным цветом. Также во время похорон дается специальный «белый конверт» (**白包**) в форме материальной помощи.

红色 (hóng sè) – красный

黑色 (hēi sè) – черный. И в русском, и в китайском языке черный цвет ассоциируется с углем, сажей и смолой (**煤黑** (méi hēi); 铁黑 (tiě hēi); **土黑** (tǔ hēi); **墨黑** (mò hēi).

棕色 (zōng sè) – коричневый

灰色 (huī sè) – серый. В русской культуре серый цвет ассоциируется с заурядностью и повседневностью, в китайской же со сдержанностью

2. В китайском языке:

巧克力色 — qiǎokèlìsè — шоколадный

象牙色 — xiàngyásè — цвет слоновой кости

草绿色 — cǎolǜsè — травянисто-зелёный цвет, цвета хаки

卡其色 — kǎqísè — хаки/защитный цвет

靛蓝色 – diànlánsè – цвет индиго

咖啡色 – kā fēi sè – цвет кофе

牛仔色 – niú zǎi sè – цвет джинсы

柿子橙— shì zǐ chéng – цвет хурмы;

辣椒红 — là jiāo hóng – цвет паприки/перца чили

暗紫 — àn zǐ – цвет грозовых туч, темно-лиловый

茶绿 — chá lǜ – цвет зеленого чая

海洋蓝 —yuè guāng lán – цвет морской волны

玉石白— yù shí bái – цвет белого нефрита.

彩虹色 — cǎi hóng sè – радужный.

玫瑰红 – méi gūi hóng – оттенок красной розы

Очень интересным является цвет **豆沙色** (dòu shā sè) оттенок пасты адзуки, сладкой пасты из красных бобов. Наблюдается некая схожесть с английской цветовой номинацией mauve «розовато-лилово-коричневый оттенок». В Китае является очень популярным оттенком помады.

В китайской цветовой палитре также существует номинация **青 – цин, в зависимости от контекста, обозначающая четыре различных оттенка:**

Следует также отметить некоторые китайские фразеологизмы с компонентом цвета.
С положительной коннотацией:

紫气东来 (zǐ qì dōng lái) — «пурпурный ветер, дующий с востока»;

红红火火 (hóng hóng huǒ huǒ) — «красный — красный, огонь — огонь»;

花花绿绿 (huā huā lǜ lǜ) — «множество оттенков на зеленом»;

红男绿女 (hóng nán lǜ nǚ) — «парни в красном, а девушки в зеленом».
С отрицательной коннотацией:

青黄不接 (qīng huáng bù jiē) — «желтое и зеленое несовместимы»;

颠倒黑白 (diān dǎo hēi bái) — «говорить прямо и ясно»;

戴绿帽子 (dài lǜ mào zǐ) — «носит зеленую шляпу»;

白璧无瑕 (bái bì wú xiá) — «белая яшма без изъяна», считается идеальной, чистой, совершенной и непорочной;

唇红齿白 (chún hóng chǐ bái) — «красные губы и белые зубы», аналогично "кровь с молоком" в русском языке, означает здорового и красивого человека.

Заключение. В ходе исследования нами выявлено:

1. Как и в русском, так и китайском языке для придачи основному, базовому оттенку некой интенсивности используются номинации: **深** (shēn) «темный» и **浅** (qiǎn) «светлый».

2. И в русском, и в китайском языке для обозначения определенных оттенков цветов используются сложные слова (в русском языке чаще написание через дефис).

3. В китайском языке четыре цветовые номинации обозначаются двумя лексемами **紫色** (zǐ sè) – фиолетовый, пурпурный; 蓝色 (lán sè) – синий, голубой. Следует отметить, что обе номинации обозначают близкие по оттенку цвета. Изначально голубой и синий в восприятии китайцев не выделялись как отдельные цвета, а сливались с зеленым.

4. В ходе исследования нами выявлено, что в русском языке достаточно много пустот при описания определенного оттенка цвета. Всего нами было выделено 15 русских лакун. Например: **柿子橙**— shì zǐ chéng – цвет хурмы; **辣椒红** — là jiāo hóng – цвет паприки/перца чили; **暗紫** — àn zǐ – цвет грозовых туч; **茶绿** — chá lǜ – цвет зеленого чая.

Таким образом, формирование цветовой знаковой системы связано с историческими и культурными особенностями народа, а символические значения цветов являются результатом взаимодействия между субъективным и интерсубъективным восприятием цвета в различных культурах. Цвет является ключом к миру человеческого познания. Цветообозначения делают язык более ярким и эмоционально насыщенным. Изучение символики цвета в разносистемных языках позволило выявить сходства и различия цветовой картины в китайском и русском языках. А также понять культурные особенности в языке китайского и русского народа, что расширило знания о традициях и обычаях двух стран.

Список использованной литературы

1. Большой китайско-русский словарь. Shanghai Foreign Language Education Press. 2012.
2. Гао Ш. Лакуны в китайском и русском языках: сопоставительный анализ // Сборник научных трудов Ангарского государственного технического университета. – 2020. – Т. 1, № 17. – С. 299-302.
3. Лу Чуньюэ, Глазачева Н.Л., Быкова Г.В. Межкультурная коммуникация: Россия – Китай (словарь лакун) / под ред. И.А. Стернина. Благовещенск: Изд-во БГПУ, 2012
4. Малявин В.В. Китайская цивилизация. - М.: АСТ, 2000. - 632 с.

РАССКАЗ А.П. ЧЕХОВА «СМЕРТЬ ЧИНОВНИКА» В ПЕРЕВОДЕ НА КИТАЙСКИЙ ЯЗЫК: АНАЛИЗ ЛЕКСИЧЕСКИХ НЕСООТВЕТСТВИЙ

Ванг Юхонг*

Abstract

The translation of A.P. Chekhov's works into Chinese is a rather difficult object of research. The popularity of Chekhov's work in China contributed to the fact that his works began to be translated into Chinese at the beginning of the XX century.

The purpose of this work is to identify and describe lexical inconsistencies in the translation of A.P. Chekhov's story "The Death of an Official" into Chinese. Russian Russian and Chinese dictionaries, a thesaurus, and data obtained by continuous sampling from A.P. Chekhov's short story "The Death of an Official" in Russian and Chinese were used as the research material.

The Chinese translation reproduces the ideological, thematic and artistic originality of this translation, reflects the theme of servile consciousness, pejorative attitude towards oneself in the face of higher ranks.

Keywords: *Chinese translation, A.P.Chekhov, "The Death of an Official", lexical inconsistencies, Russian.*

Введение. Как известно, произведения А.П. Чехова широко известны массовому читателю и долгие годы популярен в Китае как один из мастеров русского слова. Перевод произведений А.П. Чехова на китайский язык представляется собой довольно сложным объектом исследования. Популярность творчества А.П. Чехова в Китае способствовало тому, что его произведения начали переводить на китайский язык еще в начале XX века. Известный историк, драматург Го Можо отмечал, что язык чеховских произведений очень близок восточному слогу своей лаконичностью, легкостью, а также своеобразной философией. По его мнению восточный народ, а особенно китайцы «любят что-то лирическое, что-то глубокое и богатое содержанием, но не страдающее тяжеловесностью; любят вкус, который похож на вкус зелёного чая, к лёгкой пряности которого примешивается некоторая терпкость; любят скромные тона, меланхолию...» [2, с. 200].

Цель данной работы состоит в выявлении и описании лексических несоответствий при переводе рассказа А.П. Чехова «Смерь чиновника» на китайский язык. Материалом исследования послужили данные толковых, двух-, трехъязычных словарей русского и китайского языков, тезауруса; данные, полученные методом сплошной выборки из рассказа А.П. Чехова «Смерть чиновника» на русском и китайском языках.

Рассказ «Смерть чиновника» – произведение А.П. Чехова, посвященное теме «маленького человека». Исследования о происхождении рассказа "Смерть чиновника" предлагают несколько версий:

А) По одной из них события разворачиваются в Большом театре и автор узнал об этом от управляющего императорскими театрами.

Б) Другая версия утверждает, что А.П. Чехова вдохновил Жемчужников Алексей, известный юморист, который являлся любителем розыгрышей. По слухам, этот шутник наступил на ногу одному важному лицу, а затем извинялся перед ним и проявлял излишнюю вежливость.

В) Третья версия связана с событием, произошедшим в Таганроге в 1882 году, на родине писателя. Работник почты после конфликта с начальством пытался извиниться, но его не поняли и не приняли. В итоге он совершил самоубийство.

* ***Бакинский государственный университет, факультет филологии, магистрант. Электронная почта: 614959709@qq.com. Elmi rəhbər:*** *Fil.f.dok. Aytən Muradzadə.*

Вне зависимости от источника вдохновения, А.П. Чехов воплотил этот сюжет в своем гениальном рассказе, написанном за менее чем два дня. Первоначально произведение было опубликовано в 1883 году в журнале "Осколки" под псевдонимом А. Чехонте.

Цель рассказа заключается в том, чтобы распознать в себе признаки поклонения власти и искоренить их, именно для этой цели А.П. Чехов утрирует многие ключевые аспекты повествования, используя иронию и гротеск. Проблемы современного общества, остро и актуально представленные автором, становятся явными в жанре короткого рассказа.

Китайский перевод воспроизводит идейно-тематическое и художественное своеобразие этого перевода, отражает тему раболепского сознания, уничижительного отношения к себе перед лицом высших чинов.

Основная часть: При обратном переводе в название произведения с китайского языка переводчик использует китайское название «**一个文官的死**» (обратный перевод – «Смерть государственного служащего), т.е. вместо лексемы чиновник (**公**务员), присутствующей в лексиконе китайского языка, переводчик использует раскрытое значение слова.

Обратимся к другим примерам:

1. Оригинал: «В один прекрасный вечер не менее прекрасный экзекутор, Иван Дмитрич Червяков, сидел во втором ряду кресел и глядел в бинокль на «Корневильские колокола». Он глядел и чувствовал себя на верху блаженства».

Перевод: **在一个挺好的傍晚，有一个也挺好的庶**务官，名叫伊万·**德米特里奇·切**尔维亚科夫，**坐在**戏院正厅第二排，举起望远镜，看《哥纳维勒的钟》。**他一面看**戏，一面感到2.**心**旷神怡。**可是忽然**间…… (обратный перевод – В очень приятный вечер был тоже очень приятный (генерал по имени Иван Дмитрич Червяков), который сидел во втором ряду главного зала театра и поднял бинокль, смотря «Колокола Корнервиля». Во время просмотра спектакля он чувствовал себя расслаблено и счастливо). В этом предложении слово ***экзекутор*** переведено на китайский язык как «офицер» (служащий/сотрудник», не обязательно военный), хотя следовало бы перевести как «судебный исполнитель» - **法警**. Фразеологический оборот «на верху блаженства» здесь переведен как «расслаблено и счастливо/чрезвычайно, несравненно счастливый», в китайском языке эквивалентом данного фразеологизма не отмечено, вместо этого используется выражение «乐不可支» (ничего не могу с этим поделать).

2. Оригинал: «Но вдруг... В рассказах часто встречается это «но вдруг». Авторы правы: жизнь так полна внезапностей! Но вдруг лицо его поморщилось, глаза подкатились, дыхание остановилось... он отвел от глаз бинокль, нагнулся и... апчхи!!! Чихнул, как видите. Чихать никому и нигде не возбраняется»

Перевод:

可是忽然间……**在小**说里常常可以遇到这个“**可是忽然**间”。**作者**们是对的：生活里充满多少意外的事啊！可是忽然间，他的脸皱起来，眼珠往上翻，呼吸停住……**他取下眼睛上的望**远镜，低下头去，于是……**啊嚏！！！**诸位看得明白，他打了个喷嚏。不管是谁，也不管是在什么地方，打喷嚏总归是不犯禁的。 (обратный перевод – Но вдруг ..... часто можно встретить это "но вдруг" в повестях. Авторы правы: Жизнь полна неожиданностей! Но вдруг лицо его сморщилось, глаза закатились кверху, дыхание остановилось ..... Он убрал телескоп от глаз, опустил голову и ..... Ах-чу! Как видите, он чихнул. Кто бы это ни был и где бы он ни находился, чихать всегда не возбраняется). Здесь слова из оригинала - «**жизнь так полна внезапностей»** - переведены как «**作者**们是对的：生活里充满多少意外的事啊！», т.е жизнь полна неожиданностей!

3. Чихают и мужики, и 7. полицеймейстеры, и иногда даже и 8.тайные советники. Все чихают. Червяков нисколько не 9. сконфузился, утерся платочком и, как вежливый человек, 10. поглядел вокруг себя: не 11. обеспокоил ли он кого-нибудь своим чиханьем? Но тут уж пришлось 12. сконфузиться. Он увидел, что старичок, сидевший впереди него, в первом ряду кресел, старательно вытирал свою лысину и шею перчаткой и бормотал что-то. В старичке Червяков узнал 13. статского генерала Бризжалова, служащего по 14. ведомству путей сообщения.

Перевод:

庄稼汉打喷嚏，7.警长打喷嚏，有时连8.**达官**贵人也在所难免。人人都打喷嚏。**切**尔维亚科夫9.**毫不慌**张，掏出小手绢擦擦脸，而且像一位讲礼貌的人那样，10.举目看看四周：他的喷嚏是否11.溅着什么人了？但这时他不由得12.**慌**张起来。他看到，坐在他前面第一排座椅上的一个小老头，正用手套使劲擦他的秃头和脖子，嘴里还嘟哝着什么。切尔维亚科夫认出这人是13.**三品文官布里扎洛夫将**军，他在14.**交通部**门任职。(обратный перевод: .Чихать никому и нигде не возбраняется.. мужики чихал, 7. начальник полиции чихал, а иногда даже 8.высокопоставленные сановники и родовитая знать. Все чихают. Червяков 9. без паники достал маленький носовой платок, чтобы вытереть лицо, и как вежливый человек, 10. Поднимите глаза и оглянитесь вокруг : не 11.забрызгал ли кого-нибудь его чих? Но в этот момент он не мог не 12. запаниковать. Он увидел старичка, сидевшего в первом ряду перед ним, который усердно вытирал перчатками лысину и шею перчаткой и бормотал что-то. Червяков узнал в этом человеке генерала Бризалова, гражданского служащего 13. третьего ранга, работавшего в транспортном департаменте.

Как видно из дословного перевода, особую сложность представляет пласт слов, отражающих административную терминологию, так как оба героя являются чиновниками, например: такие формы слов как «**полицеймейстеры»** переведены на китайский язык, как 警长打喷嚏 (начальник полиции), **тайные советники** – **达官**贵人也在所难免 (высокопоставленные сановники и родовитая знать); **статского генерала** – **三品文官布里扎洛夫将**军 (гражданского служащего третьего ранга). Данные лексические единицы отсутствуют в китайской языковой реалии, таким образом переводчик передал данные термины альтернативными понятиями.

Анализ приведенного отрывка показывает, некоторые нудачно использованные, рассмотрим конкретные примеры:

поглядел вокруг себя – 举目看看四周 – «поднял глаза и оглянитесь вокруг»

не обеспокоил ли он кого-нибудь своим чиханьем? – 他的喷嚏是否 溅着什么人了？- не забрызгал ли кого-нибудь его чих?

Но тут уж пришлось сконфузиться – 但这时他不由得 **慌**张起来 – Но в этот момент он не мог не запаниковать.

Это означает то, что переводчик искажает динамичность текста и за счет множественных компонентов формы выражения лишает его выразительности. Снижение экспрессии ведет к снижению коммуникативной эффективности текста, что в свою очередь лишает его художественной силы выразительности. **4.** В А.П. Чеховской прозе важная каждая деталь, поэтому нужно внимательно относится к воспроизведению в переводе мельчайших деталей, особенно в диалогической речи:

Оригинал «— Извините, ваше — ство, я вас «Я его обрызгал! — подумал Червяков. — Не мой начальник, чужой, но все-таки 16. неловко. Извиниться надо».

Червяков кашлянул, подался туловищем вперед и зашептал генералу на ухо:

—17. Извините, 18. ваше —ство, я вас обрызгал... я нечаянно...

— Ничего, ничего...
— Ради бога, извините. Я ведь... я не 20. желал!
— Ах, сидите, пожалуйста! 21.Дайте слушать!

“**我的**喷嚏溅着他了！”**切**尔维亚科夫15.**心想**，“**他**虽说不是我的上司，是别部门的，不过这总16.**不妥当**。应当向他赔个不是才对。”

切尔维亚科夫咳嗽一声，身子探向前去，凑着将军的耳朵小声说：

“务请18.**大人**17.**原**谅，我的唾沫星子溅着您了……**我出于无心**……”
“**没什么，没什么**……”

“**看在上帝份上**，请您原谅。要知道我……**我**20.**不是有意的**……”

“**哎**，请坐下吧！21.让人听嘛！” (обратный перевод: - Мой чих забрызгал на него! Червяков 15. думая в своем сердце: "Хотя он и не мой начальник, он принадлежит к другому отделу, но это все-таки 16.неуместно". Я должен извиниться перед ним”
Червяков кашлянул, наклонился вперед, наклонился к уху генерала и прошептал：
“Пожалуйста, 17.простите меня, 18.милорд, я вас забрызгал... я нечаянно..”
”Ничего, ничего..."
- Ради Бога, пожалуйста, прости меня.Ты знаешь, я..я 20.нечаянно...”
“ Эй, пожалуйста, сядь!21. Пусти послушать!

В данном переводе допущена серьезная ошибка на уровне понимания контекста, поскольку фраза "ты пойми" подразумевает обращение только к сверстникам, близким или друзьям, и никак не к лицу высокого положения, каким является Бризжалов в данном случае.

В русском языке употребление обращений «вы» и «ты» обладает значительной культурной и психологической загруженностью. Слово «ты» применяется при обращении к близким людям, лицам низкого статуса или в неуважительной манере. С другой стороны, слово «вы» используется для выражения уважения или в формальных ситуациях. Выбор между обращениями «вы» и «ты» в русском языке связан с соблюдением языковых норм или может зависеть от тактичного подхода говорящего.

В китайском языке также существуют нюансы в использовании обращений «вы» и «ты». Местоимение «вы» в китайском языке обозначает исключительно уважение и не имеет формы множественного числа, характерной для «ты». Обращение посредством слова «вы» применяется по отношению к старшим или почитаемым личностям, особенно в письменной форме. Слово «ты» в свою очередь чаще употребляется среди молодежи.

При передаче лексических единиц оригинала переводчик зачастую использует или описательный способ, или же подбирает соответствующие эквиваленты из китайского языка, например: “**他会**认为你在公共场合29.举止不当 – ведешь себя неподобающим образом на публике, (в оригинале: держать не умеешь).

7. Генерал состроил 33. плаксивое лицо и махнул рукой.
— Да вы просто смеетесь,34. милостисдарь! — сказал он, скрываясь за дверью.
«Какие же тут насмешки? — подумал Червяков. — Вовсе тут нет никаких насмешек! Генерал, а не может понять! Когда так, не стану же я больше извиняться 35. перед этим фанфароном! Чёрт с ним! Напишу ему письмо, а ходить не стану! Ей-богу, не стану!»

Китайский перевод:

“**大人！倘若在下胆敢打**搅大人的话，那么可以说，只是出于一种悔过的心情……**我不是有意的**，务请您谅解，大人！”

将军做出一副哭丧脸，挥一下手。

“**您**简直开玩笑，34.**先生！**”**将**军说完，进门不见了。

“这怎么是开玩笑？”**切**尔维亚科夫想，“**根本不是开玩笑！身**为将军，却不明事理！既然这样，我再也不向这个35.**好**摆架子的人赔不是了！去他的！我给他写封信，再也不来了！真的，再也不来了！”

Дословный перевод:

“Милорд！ Ежели я осмеливаюсь беспокоить, что это просто из чувства раскаяния... Я не это имел в виду, пожалуйста, прости меня, милорд!”

Генерал сделал 33. печальное лицо и махнул рукой.

- Вы шутите, 34. господин! После того, как генерал закончил говорить, он вошел в дверь и исчез.

“Почему это шутка?" Это вовсе не шутка!“ - подумал Червяков. Генерал, а не может понять! Когда так, не стану же я е извиняться я перед этим 35. важничаньем!

Кроме того, при переводе не было полностью передано значение слова "милостисдарь", которое было переведено как "ваше-ство". В XIX веке в России "ваше-ство" использовалось исключительно в обращении подчиненных к начальству, поэтому неприемлемо, чтобы генерал, каким является Бризжалов, обращался к исполнителю таким образом.

Слово «фанфарон» переведено китайским переводчиком как «важничаньем», хотя его значение в русском языке «Тот, кто выставляет напоказ свои мнимые достоинства; хвастун».

В сюжете прослеживается как сатирический, так и драматический оттенок. Хотя ситуация с извинениями чиновника кажется забавной, его собственная неуклюжесть и глупость делают его образ удручающим. Но, когда в итоге Червяков умирает, это придает происходящему трагический оттенок: смех превращается в горе, а ирония сменяется ужасом. Этот контраст между трагическим и комическим подчеркивает, насколько страшной является смерть героя, который утратил свое человеческое достоинство, став лишь марионеткой в системе чиновничьего мира.

Конфликт между Червяковым и генералом Бризжаловым представляет собой внутреннюю борьбу персонажа, чьи действия кажутся непонятными и несовместимыми с моральными устоями. Проблема, затронутая в рассказе, связана с деградацией общества и подчинением перед теми, кто занимает более высокое социальное положение, что остается актуальным и в наше время. Несмотря на то, что генерал должен был бы выступать в роли антиподичной фигуры, А.П. Чехов меняет стереотипы, преподнося генерала как позитивного и здравомыслящего персонажа, в то время как Червяков оказывается трусливым, неуверенным в себе, навязчивым и непоследовательным, что делает его поведение и стремления загадочными.

Рассказчик иногда проявляет свою личность через комментарии и эмоциональную оценку происходящего. Динамичность и выразительность произведения обусловлены лаконичностью и точностью, присущими стилю А.П. Чехова.

Заключение. Исследование показало, что при переводе рассказа А.П. Чехова «Смерть чиновника» на китайский язык была утеряна значительная часть коммуникативного эффекта из-за переводческих ошибок. Анализ ошибок показал их влияние на исходный текст, так как автор использовал приемы для передачи исторического контекста, литературного стиля и индивидуального почерка. Поэтому основным приоритетом для переводчика должно быть сохранение этих аспектов.

Как и многие юмористические рассказы А.П. Чехова, "Смерть чиновника" не только смешна, но и печальна, и даже страшна. Смерть главного героя придает рассказу не только комический, но и трагический эффект.

Подводя итоги анализа перевода рассказа А.П. Чехова на китайский язык, можно сказать, что достижение максимального коммуникативного эффекта не всегда является возможным. При переводе возникают различные неточности, связанные как с формой оригинала, так и с содержанием текста.

Список использованной литературы

1. Большой китайско-русский онлайн-словарь [Электронный ресурс] // Китай и китайский язык для профессионалов и любителей [сайт]. URL: https://bkrs.info/slovo.php?ch
2. Го Можо. А.П. Чехов на Востоке // Го Можо. Кипящая похлёбка. Владивосток: Изд. ДВФУ, 1947. С. 200
3. Мельникова О. Н., Белодед В. А. Об особенностях перевода произведений А. П. Чехова на китайский язык // Libri magistri, 2020. № 2. С. 33-44.
4. Цао Цзинхуа. Собрание сочинений переведенных произведений [Текст] / Цзинхуа Цао. - Пекин: Изд-во Пекинского ун-та; Хэнань: Хэнаньское изд-во образования, 1992. - Т. 9. - 481 с.

TRANSLATION OF A.P.CHEKHOV'S WORKS INTO CHINESE: A BRIEF OVERVIEW

Wang Yuhong*

Abstract

This study focuses on the identification and analysis of lexical discrepancies in translations of works by A.P.Chekhov. The works of A.P.Chekhov are a difficult object of study. Preserving all aspects of the original containing historical and national context in translation is a difficult task. According to experts, it makes sense to keep in translations only those elements that will help the reader to feel the peculiarities of someone else's cultural environment, that is, those that can be regarded as "carriers of the national and historical context. The purpose of the article is to identify and characterize the linguistic features of translations of the works of A.P.Chekhov into Chinese.

Keywords. *A.P.Chekhov's works, translation, Chinese, Russian, overview.*

İntroduction: Literary translation requires the translator not only to accurately convey the meaning and style of the original, but also to recreate its artistic value. The transmission of elements, metaphors and images is important to preserve the artistic integrity of the work. When translating literary texts, it is especially important to be able to delve into the mentality and culture of the author in order to correctly convey his creative idea. It is also important to keep in mind that different languages and cultures may have different styles and traditions that are not always easy to convey when translating.

It is interesting to see how the work of A.P.Chekhov, it is so deeply embedded in the cultural context, continues to influence literary development far beyond the borders of his homeland. In China, where cultural exchanges with the West are becoming increasingly active, Chekhov's works probably represent not only a literary heritage, but also a valuable resource for understanding and adapting Western literary traditions.

Problems of interpretation may include cultural differences that affect the perception of the historical context, subtle nuances in language and cultural associations that A.P.Chekhov could use in his works. However, these difficulties also present an opportunity for creative reinterpretation and adaptation, which promotes dialogue between different literary traditions and enriches the cultural heritage of both countries.

Chekhov's stories began to be translated during Chekhov's lifetime, and they are being translated over and over again. This happens not only in order to bring the language closer to the modern model, but also because each new generation of translators, each new translator finds something of his own, close to himself, and highlights important points in his own way. With age, Chekhov becomes more and more relevant; he does not lose his importance, but on the contrary, readers (on the widest geographical and temporal scale) approach him more and more. In his conceptual sphere, all the basic concepts are "highlighted", representing not only the basic human values - "life", "love", "freedom", "man", "the world around" and others, but also the problems associated with these concepts.

The study of the perception and translation of Chekhov's works by Chinese researchers probably helps not only to better understand Chekhov's work itself, but also to enrich the Chinese literary tradition through interaction with such a significant literary heritage.

The policy of reform and openness has brought a unique ideological freedom to literary and artistic circles. Free from ideological shackles, people's creative aspirations have gradually shifted from reflecting political sentiments to satisfying individual artistic demands. Time inevitably influences the revision and interpretation of Chekhov's works in China. New interpretations of Chekhov's drama are emerging, and its unique aesthetic value and relevance resonate with Chinese readers and viewers. A.P.'s objective and calm attitude. Chekhov's love of characters, the complex

* ***Baku State University, Faculty of Philology, Master's student. E-mail: 614959709@qq.com. Elmi rəhbər****: Fil.f.dok. Aytən Muradzadə.*

world, saturated characters and subtle melancholic humor in his plays are increasingly attracting Chinese audiences.

The main part: It should be noted that when translating A.P. Chekhov's story "The Death of an Official" into Chinese, a significant part of the communicative effect was lost due to translation errors. The analysis of errors showed their influence on the source text, as the author used techniques to convey the historical context, literary style and individual handwriting. Therefore, the main priority for the translator should be to preserve these aspects.

When analyzing the influence of context and discourse on the artistic works of A.P. Chekhov "Chameleon" and "Thick and Thin" in the aspect of Chinese translation, it should be noted that translators play an important role in conveying this interaction between context and discourse so that readers can truly feel the artistic depth of the works. A.P. Chekhov masterfully used his skills to create satirical images that reflected real relationships between people. His subtle irony and skillful interaction of context and discourse make his works eternally relevant and interesting to readers of all times.

During the transition of Chinese ideology and culture, many new intellectuals entered the historical scene, who became an important force in spreading socially progressive ideas. Chinese writers and translators were actively engaged in artistic translation, while continuing their literary activities. Their translations and works complemented each other. Among the translated and introduced into the Chinese society of foreign literary works, Russian works of art occupied a leading position in terms of scale and influence.

In the process of deeper study by Chinese playwrights of foreign plays, realistic dramas by A.P. Chekhov, containing elements of a new style, attracted special attention, which led to an increase in the scientific study of the translation of Chekhov's dramaturgy.

It should be noted that the translation of foreign plays into Chinese played an important role in the development of Chinese drama and literature in general. Thanks to the efforts of translators and researchers, Chinese readers began to appreciate foreign dramatic works, which helped to broaden their horizons and cultural horizons. Such actions allowed us to bring a fresh look at the Chinese literary tradition and make it more open to the influence of Western culture.

For example, the play "Uncle Vanya" by A.P.Chekhov, translated into Chinese, has become one of the symbols of this cultural exchange. She allowed Chinese viewers and readers to immerse themselves in the world of Russian literature and philosophy, expanding their ideas about human relations and the inner world of the characters. Such works have played a significant role in the formation of modern Chinese culture and drama.

His works are indeed replete with many inner worlds of the characters, their individual views of the world and various ways of perceiving reality. A.P.Chekhov was able to create deep and complex images that often turn out to be symbolic and multidimensional.

Chekhov's plays and short stories often describe everyday situations and ordinary people, but through the prism of their inner world and emotions, he reveals the deep philosophical and psychological aspects of human nature. His works intertwine the tragic and the comic, the real and the symbolic, which makes them so rich and universal.

Chekhov's work, being filled with the author's worldview and observations of life, becomes not only a reflection of the reality of his time, but also a kind of guide to understanding human nature and its eternal themes.

The domestication strategy is often used to compensate for lexical deficiencies that are not conditioned by the cultural realities of the source language. In Chinese, there are similar designations such as ("daughter's grandson"), ("sister's son"), etc., which are not expressed in one word, as in Russian. Therefore, when translating the title of Anton A.P. A.P.Chekhov's play "Uncle Vanya", Li Ni resorted to a simple replacement of the Russian word "uncle" with the Chinese "uncle" (father's brother), which is justified and constructive.

The translation of the title of the play "Uncle Vanya" into Chinese as "万尼亚舅舅" has a deep meaning, reflecting the cultural characteristics of both Chinese society and the plot of the play itself.

The use of the hieroglyphs 舅舅, denoting "uncle on the mother's side", emphasizes the importance of family ties and kinship relations, which play a key role in Chinese culture.

The hieroglyph 舅舅, consisting of the elements 臼 and 男, adds its own meaning to the name. The symbol 臼, which is usually associated with a mill or a grinding mortar, can symbolize hard work or effort, and 男 stands for a man. Thus, the name "万尼亚舅舅" can convey the image of a man immersed in family problems and conflicts, which is the central theme of the play " Uncle Vanya ".

This translation takes into account not only linguistic aspects, but also cultural nuances, which makes it deeper and more meaningful for the Chinese audience.

It is noted that the choice of one or another method of modifying the linguistic and cultural component of a text is often based on determining the nature of the lacunar unit: 'the motivation for its appearance, its relation to the appropriate linguistic level, the range of connotations of the linguistic element and the influence of other factors on the functioning of the linguistic unit' [2, p. 12-15].

It should also be noted that such units of lacuna as implicit/explicit, lexical/grammatical, formal/nominal, motivated/unmotivated and empty/complimentary may or may not favor a particular strategy, depending on the following features of the lacuna. Lacunae, as a rule, are multidimensional as a set of formal and meaningful properties [5, p. 205] and, therefore, affect various levels of the target language in the process of resolving lacunae.

Conclusion: This research paper touches on important aspects of the analysis of literary works, especially in the context of translation into other languages. By analyzing the motives and characteristics of the characters, you discover the relationship between the various elements of the plot, which helps to reveal the depth of the work.

Noting the problems of translating works is an important step, especially when working with such rich texts as Chekhov's works. Cultural and linguistic differences can make it difficult to convey nuances and context. Raising this issue in your work allows you to emphasize the importance of proper understanding and interpretation of the text for both researchers and ordinary readers.

List of used literature

1. The Great Chinese-Russian online dictionary [Electronic resource] // China and the Chinese language for professionals and amateurs [website]. URL: https://bkrs.info/slovo.php?ch
2. Voynich. V. Strategies of linguistic and cultural adaptation of a literary text in translation: abstract. Dissertation candidate of Art History. Philological sciences: 02/10/19. Perm, 2010. 20 p.
3. Esedov, A. (2011). Kafkaslarda Azeri Türk Edebiyatının Yeni Aşaması: Doğu deneyiminden Batı deneyimine. TURANSAM: Turan Stratejik Araştırmaları Merkezi Dergisi, 9, 73–75. http://www.turansam.org
4. Asadov, A. (2021). Organizational issues of work on world literature samples in primary schools. Journal of Preschool and Primary Education, 236(3), 81–93.
5. Asadov, A. (2021). The role of world literature in shaping students' planetary thinking. Azerbaijan Journal of Educational Studies, 697(4), 111–119.
6. Najafov R. (2021). On the philosophical study of the origin of irrational knowledge in Eastern peripatetic philosophy: “revelation, dream and inspiration”: in the context of the philosophical views of Shihabeddin Yahya Suhrawardi, Abulhasan Bahmaniyar and Al-Kindi. Science, Education and Innovations in the Context of Modern Problems. 8(3), 48-67.
7. Chekhov. P. The complete works [text] / Per. Zhu Lun. - Shanghai: Yiwen, 1997. - Vol. 1. 11. The play. - 477 p .
8. Chekhov.P. The complete works [text] / Per. Zhu Lun. - Shanghai: Yiwen, 1997. - Vol. 1. 12. The play. - 478 p .
9. E. Shelestyuk. V., Gritsenko E. D. On Florentinization and domestication in translation and the possibilities of their linguistic assessment // Bulletin of Chelyabinsk. state University. 2016. № 4 (386)

MÜRƏKKƏB MƏZMUNLU SADƏ CÜMLƏLƏRDƏ FEİLİ TƏRKİBLİ XÜSUSİLƏŞMƏ VƏ BƏDİİ XİTABLARIN ROLU

Lamiyə Cəfərova*

Abstract

Verbal specialization and the role of artistic addresses in simple sentences with complex content

In the article, the role, position, and acting as a means of expanding it in simple sentences with complex content were discussed in detail through examples.

As we know, the concept of sentence is studied in modern linguistics in two aspects: communicative (actual-functional) and constructive (traditional-formal). Communicative aspect mainly studies the types of the sentence according to the purpose of expression, actual membership of the sentence and specialization of the members of the sentence. The concept of specialization is related to the communicative function of the sentence. Specializations play an important role in simple sentences with complex content. Specializations with verb content take the main position among them.

Addresses are among the means of expanding a simple sentence, especially artistic addresses should be mentioned. Artistic addresses are used only with verb-adjective composition in the compositions, enriching and completing the content of a simple sentence.

Keywords: *simple sentence, verb formations, content complexity, specializations, artistic speech.*

Giriş. Mürəkkəb məzmunlu sadə cümlə dedikdə məzmunu mürəkkəb lakin forması sadə olan cümlələr nəzərdə tutulur. Cümlənin məzmun etibarilə genişlənməsi o demək deyil ki, o, mürəkkəb cümləyə çevrilir. Bildiyimiz kimi, sadə cümlələrin ilkin forması baş üzvlərdən birinin və hər ikisinin iştirakı ilə yaranan formadır. Bu cümlələr müxtəsər cümlələrdir. Baş üzvlərin ikinci dərəcəli üzvlər ilə genişləndirilməsi əsasında geniş cümlələr formalaşır. Beləliklə, müxtəsər və geniş cümlələr bir sıra vasitələrlə - feili tərkiblərlə, xüsusiləşmələr, əlavə konstruksiyalar, ara sözlər və ara konstruksiyalar, həmcins üzvlər və xitablarla struktur-semantik baxımdan daha da zənginləşdirilir və nəticə etibarilə genişləndirilmiş sadə cümlələr yaranır.

Ümumiyyətlə, genişləndirilmiş cümlələr mahiyyətinə görə sadə və mürəkkəb cümlələr arasında bir keçid təşkil edir və bu tip cümlələr predikativlik imkanlarının kəmiyyətinə görə mürəkkəb cümləyə yaxınlaşsa belə bu dəyişiklik keyfiyyətə keçə bilmədiyinə görə sadə cümlə tipində qalır.

Sadə cümləni genişləndirən vasitələr bütövlükdə eyni xarakterə malik deyildir və onların içərisində xüsusiləşmiş tərkiblərin vasitəsilə qurulan cümlələr orta mövqedə qərarlaşır. Xüsusiləşmiş tərkiblər yarımpredikativ cümlələr olsa da, onların işləndiyi cümlələr adi sadə cümlələrdən daha çox predikativliyə malikdir. Qeyd etmək lazımdır ki, həmcins üzvlü sadə cümlələr sadə cümlələrə, ara sözlərin işləndiyi sadə cümlələr isə mürəkkəb cümlələrə yaxınlıq təşkil edir.

Əsas hissə. Azərbaycan dilçiliyində mübahisəli mövzularından biri olan xüsusiləşmələr cümlə üzvləri və onlar ilə əlaqəsi olmayan sözlər arasında mövqe tutan qrammatik kateqoriyadır. "Xüsusiləşmə cümlə səviyyəsində baş verən mürəkkəb semantik-sintaktik hadisədir" [3, s. 231].

Cümlə üzvləri içərisində xüsusiləşmələrin əhəmiyyətli dərəcədə rolu var. Dilimizdə həm xüsusiləşən, həm də xüsusiləşməyən cümlə üzvlərini işlədirik. "Cümlə üzvlərinin bir qismi xüsusi quruluş və mənaya malik olub, cümlənin qalan qismindən intonasiya və fasiləyə görə ayrılır ki, bu cür ayrılmaya da xüsusiləşmə deyilir" [1, s. 186]. Cümlə üzvlərinin hər biri eyni dərəcədə xüsusiləşə bilmir. Belə ki, bəzi cümlə üzvlərinin xüsusiləşməsinə daha çox, bəzilərinə isə daha gec təsadüf edirik. Cümlə üzvləri içərisində ən çox xüsusiləşən tamamlıqlar və zərfliklər, mübtəda, xəbər və təyindir. Hətta əlavələrin də xüsusiləşdiyini görmək mümkündür.

Dilimizdə işlənən xüsusiləşmələrin bir sıra tipləri var ki, onların içərisində ən çox diqqəti cəlb edən feili tərkiblərin xüsusi qrammatik şəraitə düşərək xüsusiləşməsidir.

* ***Bakı Dövlət Universiteti, Azərbaycan dilçiliyi kafedrasının magistrantı. Elek.poçt: lamiya.cafarova1122@gmail.com.***
Elmi rəhbər: *Dos. Fikrət Əlizadə.*

"Məlum olduğu üzrə, genişlənmiş üzvlərin bir qismi cümlənin adi mürəkkəb üzvü vəzifəsində işləndiyi halda, digər qismi xüsusiləşmiş üzv vəzifəsi daşıyır" [1, s. 186]. Xüsusiləşmələr dilimizdə müxtəlif şəraitlərdə meydana gəlir. Feili bağlama, feili sifət və məsdər tərkibləri qoşma və qoşmalaşmaqda olan sözlər ilə bağlanaraq xəbərlə əlaqəni zəiflədir. Bu zaman xüsusi intonasiya və fasilə ilə tələffüz edilir və cümlənin digər qalan hissəsindən fərqlənərək xüsusiləşir. "Sürüdən aralanan *kimi* kürəyi işə saldılar" [12, s. 9]. Verilmiş nümunədə feili sifət tərkibi *kimi* qoşması ilə birlikdə işlənərək xüsusiləşmə yaratmışdır.

Xüsusiləşmələrin yaranmasında iştirak edən leksik-qrammatik vasitələr sırasında *xüsusən, xüsusilə, hətta, o cümlədən* və.s modal sözlər də verilir. Bu sözlər cümlədə xüsusiləşmiş üzvdən əvvəl gələrək fasilə ilə həmin üzvü özündən əvvəlki hissədən ayırır. "Məsələn, dəfələrlə vüzəranı xain və tamahkar deyə təhqir edib, *hətta* şəxsi xüsusunda da bir qədər söylənibsən" [6, s. 88]. "Bu cür xüsusiləşmiş üzvlərə dəqiqləşmiş xüsusiləşmiş üzvlər də deyilir" [2, s. 178].

Feili tərkiblərin qoşma və qoşmalaşmaqda olan sözlərlə əlaqəyə girib xüsusiləşdiyi zaman iştirak edən qoşmalara və qoşmalaşmaqda olan sözlərə *başqa, savayı, qeyri,* özgə, *baxmayaraq, kimi, halda, əvəzinə, sonra, fərqli olaraq, asılı olaraq və s.* Daxildir. "Cahandar ağanın qəzəbi oğlundan ötəri narahat olan bir atanın hirslənməsindən *başqa* bir şey deyil" [12, s. 273].

Bildiyimiz kimi feili sifət tərkibləri adi halda təyin, substantivləşərkən xüsusiləşməyən mübtəda və tamamlıq rolunda çıxış edir. Feili sifət tərkibləri zərf və qoşmalarla birləşərək cümlənin qalan hissəsindən məna və intonasiya baxımından ayrılaraq xüsusiləşir. Bu zaman feili sifət tərkibləri xüsusiləşmiş zaman, tərzi-hərəkət zərflik vəzifəsində işlənir. Tərzi-hərəkət zərfliyi rolunda: "Söhbət zamanı qocalar bəhsə-bəhsə düşmüş *kimi* qarağat demilərinə güc verir, sümürürdülər" [9, s. 79]; Zaman zərfliyi rolunda: "Gurultunu eşidən *kimi* qeyri-ixtiyari geri çəkildi, toz yatandan sonra isə uçurumun dibi ilə axan qıjıltılı boz-bulanıq suya dəhşətlə baxdı" [12, s. 8].

Halda sözü qoşmalaşmaqda olan söz kimi işləndikdə aid olduğu feili sifət tərkiblərinin qarşılaşdırma zərfliyi kimi xüsusiləşməsinə səbəb olur: "Qız darıxdığından, doqqaza doğru getdi və gözləmədiyi *halda* Şahnigarla qarşılaşdı" [12, s. 79]; "Osip cücə kimi islanmış *halda* evə gəldi" [12, s. 121].

Əgər bu tərkiblər birbaşa xəbərə yanaşırsa, onunla xəbər arasında başqa sözlər işlənmirsə, bu zaman xüsusiləşmə baş verməz. "Bundan sonra Mələk mənə yazıq, yetim bir uşağa baxan *kimi* baxmazmı" [12, s. 18].

Məsdər tərkibləri qoşmalarla işlənərək, cümlənin xəbərindən uzaqlaşır və fasilə ilə cümlənin qalan hissəsindən ayrılır və xüsusiləşmiş səbəb, məqsəd, qarşılaşdırma mənasında olan zərfliklər kimi formalaşır. Aşağıda verilən nümunələrin əksəriyyəti *əvəzinə* sözü ilə işlənmişdir, çünki bu söz daha çox məsdər tərkibləri ilə işlənərək xüsusiləşir. Oğluna toy eləyib gəlin gətirmək *əvəzinə,* özü eşqə düşmüşdü" [12, s. 11]; "Şamxal vaxtsız gəlməyinə bir bəhanə tapmaq *məqsədi ilə* əlavə etdi" [12, s. 28]; "Gülüb oynamaq *əvəzinə* niyə qaşqabağını tökür" [12, s. 77]; Uşağına tərbiyə vermək *əvəzinə* camaatın əxlaqına dil uzadır; "Mən yenə də qonşuluq borcumu gözləməyib, kəndinizi basıb qızınızı güclə almaq *əvəzinə,* dübarədən sizə məktub göndərdim" [6, s. 71].

Baxmayaraq sözü ilə işlənən məsdər və feili sifət tərkiblərinin hər ikisi qarşılaşdırma mənalı xüsusiləşmiş zərfliklər əmələ gətirir. Məsələn, "Xəstə olmağına baxmayaraq, həkimlərin məsləhətini pozan, canını dişinə tutub bu müşavirədə iştirak edən Məlikzadə, mübahisələr axıra çatan zaman əlini qaldırıb çıxış üçün söz aldı" [9, s. 241]; "Mehman içəriyə daxil olub anasına salam verdi, yorğun-əzgin olmağına baxmayaraq, Züleyxaya müraciət edib qaşqabaqlı gəlini dilləndirmək istədi" [9, s. 56]; "Nə isə, kələfin ucunu itirib vurnuxdular, vurnuxdular, bütün söz-söhbətlərinə baxmayaraq, üzə açılışıb Şükrana ciddi bir söz deyə bilmədilər" [8, s. 184]; "Alnından axan qana baxmayaraq, sanki Şükran həyata dönmək üçün yuxuya getmişdi"[8, s. 191].

Bəzən belə tərkiblərdə feili sifət və məsdər ixtisara düşərək yeni bir forma əmələ gəlir. Bu zaman *baxmayaraq* sözü ismə birləşir və cümlə daxilində yenə də xüsusiləşmiş qarşılaşdırma mənalı zərflikləri yaradır. "Məhtaban mühitinin amansız məkrlərinə *baxmayaraq* yenə də həyat istəyirdi" [8, s. 30]; "Xarici xanımın cidd-cəhdlərinə *baxmayaraq* Məhtabanın ürəyi dəqiqədən-dəqiqəyə daş

yüklənən kimi ağırlaşır, qəfəsə salınmış yaralı quş kimi döyünür, az qala sinəsindən çıxıb qaçmaq istəyirdi" [8, s. 62].

Feili bağlama tərkibləri birbaşa feili xəbərlə yanaşı işləndikdə xüsusiləşə bilmir. Bu səbəbdən feili bağlama tərkibi ilə xəbər arasında başqa sözlər iştirak edərkən feili bağlama tərkibi cümlənin qalan hissəsindən ayrılaraq xüsusiləşir. Əsasən xüsusiləşmiş zaman və qarşılaşdırma mənalı zərfliklər əmələ gətirir. Atanla atamı deyincə, özünlə özümü de (Atalar sözü); "Mehman bunları bildikdə qəti və sərt hərəkət edir" [8, s. 11]; "Baş ittihamçı Mehmanı rayona işə təyin edərkən belə deyir: Düzünü desəm bizim canımızı lap xirtdəyimizə yığıblar" [8, s. 10].

Bir sıra xüsusiləşən tərkiblər də vardır ki, onlar *əksinə olaraq, fərqli olaraq, asılı olaraq, yanaşı olaraq, müvafiq olaraq, əlaqədar olaraq* sözlərilə təşkil edilir və cümlədə tərzi-hərəkət zərfliyi rolunda iştirak edir. "Səhnədə bəzən bolqar əsgərləri, bir kaç türk əsgəri, bəzən *əksinə olaraq*, atışaraq-vuruşaraq keçirlər" [6, s. 165]; "Hövsələsini yeyə bilməyən Ərdahaq atasından *fərqli olaraq*, nə isə ayrı cürə israr edirdi" [8, s. 77].

Xitablar da sadə cümlələrin genişlənməsində iştirak edir. Xüsusilə də bədii xitablar feili sifət tərkibləri ilə işlənərək, sadə cümlələri məzmun cəhətdən genişləndirir.

"Cümlədə müraciət məqsədi ilə işlədilən sözlər xitab adlanır" [1, s. 216]. Xitablar cümlə üzvləri ilə qrammatik cəhətdən bağlı olmur, aid olduğu cümlə üzvləri ilə yalnız mənaca əlaqələnir, ismin adlıq halında işlənir və heç bir suala cavab vermir. Xitabların işlənməsində əsas məqsəd müraciət edilən şəxsin diqqətini cəlb etmək, onu hərəkətə gətirmək, çağırmaqdır. Müraciət məqsədilə işləndiyi üçün xitablar məzmunca II şəxsdə, formaca isə III şəxsdə olur.

Bildiyimiz kimi, xitablar quruluşuna görə sadə və mürəkkəb olur. Nəzərə almaq lazımdır ki, xitabların quruluşu ilə cümlə üzvlərinin quruluşu arasında fərqlilik vardır. Belə ki, sadə xitablar bir üzvə uyğun gəldiyi halda, mürəkkəb xitablar iki üzvə, yəni mübtəda və onun təyininə uyğun gəlir. Bu səbəbdən də sadə xitablara müxtəsər xitablar da deyilir:

Bu dünyada başımdan nələr keçdi, gözəlim,
Gəl, unutdur dərdimi, gəl, bərabər gözəlim [10, s. 137].

"Mürəkkəb xitablar bəzən aydınlaşdırıcı sözlər vasitəsilə genişləndirilmiş olur" [4, s. 10]. Bu zaman xitablar cümlənin ifadə etdiyi fikrə bərabər fikir ifadə edir. Bu növ xitablardan bədii ədəbiyyatda çox istifadə olunur. "Siz, ey könülləri cansız muncuqlar kimi alver malına döndərilmiş, mənimsənmiş gəlinlər, qızlar! Mən bu gün… bütün əski varlığa qarşı üsyan bayrağı qaldırıram" [6, s. 325]. Genişləndirilmiş xitablar daha çox dinləyənin bir sıra keyfiyyətlərini nəzərə çarpdırmaq məqsədilə işlədilir.

Bəzən bir şeirin bir neçə misrası tamamilə feili tərkibli xitablardan ibarət olur:

Siz ey paslı dəmirlərdən canlı motor yapanlar!
Siz ey məftil və heçlikdən elektrik tapanlar!
Siz ey yerin mərkəzinə uzun yollar salanlar!
Siz ey sonsuz fəzalarda dəmir qanad çalanlar!
Siz ey keçmiş yaşayışa ağır balta vuranlar!
Siz ey dəmir qollar ilə eyni həyat quranlar [7, s. 280]!

Qeyd etmək lazımdır ki, genişləndirilmiş xitabların böyük əksəriyyəti feili sifət tərkibləri ilə ifadə edilir və geniş xitab qrupları yaranır.

Gəl, gəl ay evi yıxılmış,
Tez gəl, ay evi yıxılmış [46, s. 49].

"Ey məndən dərdlərinə çarə istəyən füqarəyi-kasibə! Siz o vaxt bu əziyyətdən, bu zillətdən xilas olarsınız ki, çərxi-fələk sizə çönə" [5, s. 116]. "Siz də sağ olunuz ay mənsiz seyrə çıxan cavanlar" [5, s. 219].

Tərkiblər ya xitabdan əvvəl gələrək onun təyini olur, ya da xitabdan sonra gəlib onun əlavəsi olur:

Sən, ey başladığım bu uzun şer!
Yadda qalacaqmı barı bir sözün [59, s. 278]?

Müxtəlif əşya və varlıqları bildirən xitablar məna xüsusiyyətlərinə görə üç qrupa ayrılır. 1) insan adlarını ifadə edən bədii xitablar:

Başına döndüyüm, qurban olduğum,
Ey güli-xəndanım, nədən ağlarsan (Aşıq Qərib);

"Ey mənə çoçuq ikən qəsdən öylə yanlış tərbiyə verən ixtiyar vəzir. Yenə də məni elə çoçuq sanırsan" [5, s. 156];

Sən ey meymun sürüsündən insanlığa yüksələn!
Sən ey kühüllərdən çıxıb tunel üçün dağ dələn!
Sən ey coşqun dalğaları beton töküb saxladan!
Sən ey sudan od çıxaran, Arazlar toxdadan [7, s. 280].

2) Başqa canlı varlıqların adlarını bildirən bədii xitablar:

"Ötüş, ötüş ey mənim tək möhnəti-yardan fəğan eyləyən bülbül, ey həmdərd rəfiqim" [5, s. 217]. Ey uzaqlardan gələn incə nəğməli quşlar, sizə bircə sözüm var [11, s. 47].

3) Cansız əşya və mücərrəd anlayışların adlarını ifadə edən xitablar:

Siz ey çəmənlərdə gülən çiçəklər!
Bu sakit ahəngi pozan küləklər [10, s. 171]!

"Ey səhərin ətir saçan, layla deyən sabah yeli" [10, s. 253]!

İnsana mürəciətlə işlənən bədii xitablarda əsas məqsəd dinləyicinin diqqətini cəlb etməkdirsə, digər canlı və cansız varlıqları bildirən xitablar ifadənin təsir gücünü artırır.

"Ey ulu babalardan bizə xəbər verən dost, Vidadini, Vaqifi, Ələsgəri görən dost" [11, s. 32]! "Sən ey vəhşətindən feyz alan insan" [10, s. 47]!

Nəticə və elmi yenilik. Nəticə etibarilə onu deyə bilərik ki, mürəkkəb məzmunlu sadə cümlələrin genişlənməsində iştirak edən vasitələr rəngarəngdir, lakin xüsusiləşmələri və bədii xitabları xüsusilə qeyd etmək lazımdır. Verdiyimiz nümunələrdən də aydın olur ki, istər xüsusiləşmələr istərsə də bədii xitablar sadə cümlələrdə feili tərkiblər ilə ifadə olunaraq, onu məzmunca zənginləşdirir.

Qeyd edək ki, xüsusiləşmələr və xitablar cümlənin həcmini genişləndirsə də, mürəkkəb cümləyə yaxınlaşdırsa da, onu sadə cümlə strukturundan çıxara bilmir. Hər bir dil elementi müəyyən informativ yük daşıdığına görə onların hər biri cümlədə semantik-qrammatik imkanlara sahibdir. Bu səbəbdən də sintaksisə dair aparılan tədqiq və araşdırmalarda ilk növbədə sadə geniş cümlə strukturu öyrənilir, sonra isə sadə cümləni genişləndirən vasitələr tədqiq edilir və dilçilikdə sadə cümləni genişləndirən vasitələrlə əlaqəli bir sıra mübahisə doğuran məsələlər hələ də öz həll yolunu tapmamışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev Ə, Seyidov Y, Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Şərq-Qərb, 2007, 424 s.
2. Xəlilov B. Müasir Azərbaycan dili. Bakı: Adiloğlu, 2017, 428 s.
3. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Təhsil. 2007, 496 s.
4. Esedov, A. (2011). Kafkaslarda Azeri Türk Edebiyatının Yeni Aşaması: Doğu deneyiminden Batı deneyimine. TURANSAM: Turan Stratejik Araştırmaları Merkezi Dergisi, 9, 73–75. http://www.turansam.org
5. Asadov, A. (2021). Organizational issues of work on world literature samples in primary schools. Journal of Preschool and Primary Education, 236(3), 81–93.
6. Asadov, A. (2021). The role of world literature in shaping students' planetary thinking. Azerbaijan Journal of Educational Studies, 697(4), 111–119.
7. Najafov R. (2021). On the philosophical study of the origin of irrational knowledge in Eastern peripatetic philosophy: "revelation, dream and inspiration": in the context of the philosophical views of Shihabeddin Yahya Suhrawardi, Abulhasan Bahmaniyar and Al-Kindi. Science, Education and Innovations in the Context of Modern Problems. 8(3), 48-67.
8. Seyidov Y. Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər. Bakı: ADU, 1958, 74 s.
9. Axundov S.S. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb. 2005, 448 s.
10. Cabbarlı C. Əsərləri. II cild. Bakı: Şərq-Qərb. 2005, 360 s.
11. Cabbarlı C. Əsərləri III cild. Bakı: Şərq-Qərb. 2005, 368 s.

12. Rəhimov S. Seçilmiş əsərləri. I cild. Bakı: Şərq-Qərb. 2005, 288 s.
13. Rəhimov S. Seçilmiş əsərləri. II cild. Bakı: Şərq-Qərb. 2005, 312 s.
14. Səməd Vurğun. Seçilmiş əsərləri. I cild. Bakı: Şərq-Qərb. 2005, 264 s.
15. Süleyman Rüstəm. Seçilmiş əsərləri. III cild. Bakı: Şərq-Qərb. 2005, 256 s.
16. Şıxlı İ. Seçilmiş əsərləri. II cild. Bakı: Şərq-Qərb. 2005, 400 s.

SEMANTİK CƏHƏTİN OMONİM SƏCİYYƏLİ NİTQ HİSSƏLƏRİNİN MÜƏYYƏNLƏŞMƏSİNDƏ ROLU

Ellada Mahmudova*

Abstract

The Role of the Semantic Aspect in the Determination of Parts of Speech with Homony Characteristics

In the modern Azerbaijani language, as we know, there is homonymy of words. Although the spelling and pronunciation of these words are the same, the difference in meaning is homonymy. When the meanings are different, it is clear that the parts of speech are also often different. But there is also the idea that each word should belong to only one part of speech. In this case, we already see that the expression of homonymy is also refuted in a way. İn this time, a question arises: If indeed each word belongs to only one part of speech, then which meaning should we take as the leading meaning and which part of speech should we take as the leading part of speech to which the word belongs? In general, in Turkology, including Azerbaijani linguistics, along with its other problems, homonymy of speech parts, analysis of its lexical-semantic structure is one of the issues of special interest. We find this case mostly in adjectives and adverbs among the main parts of speech, but this case is not less in other parts of speech. This article deals with the semantic determination of those words that have homonyms according to the parts of speech.

Keywords: *Modern Azerbaijani language, semantics, main parts of speech, suffixes, homonymy.*

Giriş. Türkologiyada, o cümlədən Azərbaycan dilçiliyində onun ayrı-ayrı problemləri ilə yanaşı, nitq hissələrinin omonimliyi, onun leksik-semantik quruluşunun təhlili xüsusi maraq doğuran məsələlərdən biridir. Azərbaycan Respublikasının qəbul etdiyi qanunlarda ümumi hazırlanmış qanunda bu məsələlər ümumi şəkildə işıqlandırılmışdır. 2012-ci il 29 may tarixli 2240 nömrəli sərəncamları ölkədə dil siyasətinin uğurla həyata keçirilməsində mühüm fəaliyyət sənədləridir. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" (bundan sonra–Dövlət Proqramı) həmin sərəncamlardan irəli gələn məsələlərin həllinə yönəldilmişdir.

Əsas hissə. Türkologiyada, o cümlədən Azərbaycan dilçiliyində omonimlərdən bəhs olunmuş əsərlərdə omonimliklə bağlı bir sıra mübahisəli məqamlara yer verilmiş, omonimlərin bir qisminin sözün çoxmənalılığı nəticəsində əmələ gəldiyi qeyd edilmişdir. Hazırki dilçilik ədəbiyyatında qeyd olunduğu kimi, omonimlərin yaranması aşağıdakı amillərlə əlaqədardır:

1) Çoxmənalı sözün mənaları arasındakı məcaziliyin artması, çalarlıqlardan birinin əsas mənadan uzaqlaşması;

2) Təsadüfi fonetik uyğunluq;

3) Tarixən sözlərin dəyişib şəkilcə eyniləşməsi;

4) Alınma sözlərin təsadüfi oxşarlığı ilə

Bunlar da mənşəyi etibarilə iki asas hissayə bölünür:

1. Mənşəcə məna yaxınlığı olmayan omonimlər. Bunlar etimoloji cəhətdan bir-birindən ciddi surətdə fərqlənir. Şübhəsizdir ki, rəng bildirən "sarı" sifəti ilə yön, səmt bildirən "sarı" qoşması arasında heç bir semantik alaqə yoxdur. Belə sözlər omonimlərin mənşəcə qohum olmayan və ciddi surətdə fərqlənən növünə daxil edirlir. Bu tipli omonimlərə bədii üslubda da tez-tez rast gəlirik. Məsələn: Sifət və feil: Al

Sifət:

Nə gözəl yaraşıb, al yanağına,
Nazikdir dəyməsin əl yanağına.

* ***Bakı Dövlət Universiteti, III kurs bakalavriat. Elek.poçt: mahmudovaellada4@gmail.com. Rəyçi:*** *Prof. Tofiq Hacıyev*

Zülfü buxağına gül yanağına,
Nə bənövşə bənzər, nə lalə [8]

Feil:

Qadanı mən alım, gəl, gəl
Başına mən dönüm, tez gəl
(Süleyman Abdullayev "Qadan mən alım")

2. Mənşəyinə görə məna yaxınlığı olan omonimlər. Bunlar sözün çoxmənalılığı ilə əlaqədar yaranan omonimlərdir. Omonimlərin böyük mübahisəyə səbəb olan qismi də bu qrupa daxil olanlardır. Lakin Azərbaycan dilinin zəngin leksik tərkibi omonimlərin bu əsasında yaranan nümunələrindən bəhs etmək imkanı yaradır. Deməli, çoxmənalılığın əsasında yaranan omonimlərlə çox mənalı sözlər arasında, bir tərəfdən, şərti də olsa, müəyyən əlaqə tapmaq mümkündür, digər tərəfdən, onlar özünəməxsus xüsusiyyətlərə malik olan, biri digərindən fərqlənən müxtəlif leksik semantik kateqoriyalardır.

Bugünkü günümüzdə müəyyən söz qrupları var ki, müxtəlif mənalarda, fərqli funksiyalarda işlənə bilir. Belə olduqda hansı sözün müstəqil, hansının törəmə olduğu barədə mübahisəli məsələlər yaranır. Bildiyimiz kimi, bununla bağlı problem kimi qarşı-qarşıya qoyulan iki fikir mövcuddur:

1) Hər bir söz yalnız bir nitq hissəsinə aid olmalıdır;

2) Eyni bir söz müxtəlif nitq hissəsinə aid ola bilər.

İkinci variantda gördüyümüz fikir əslində bəzi müvafiq lüğətləri, xüsusən izahlı lüğətləri əhatə edən bir fikirdir. Birinci fikrə qaldıqda isə bu fikir araşdırması çox çətin olan bir prosesin məsuhuludur. Bu məsələ bir növ problemin kökünə, onu yaradan səbəblərə yönəldilmiş araşdırma tələb edir. Həmçinin bu məsələnin şərhi bizə problemin həllində yaxından kömək olur: Hər bir söz yalnız bir nitq hissəsinə aiddirsə, onda biz hansı mənanı aparıcı məna və hansı nitq hissəsini sözün aid olduğu aparıcı nitq hissəsi kimi qəbul etməliyik? Belə ki, hər bir sözün yalnız bir nitq hissəsinə aid olduğu fikrini irəli sürürüksə, bu zaman həmin müxtəlif kataqoriyalı sözlərin ciddi araşdırmasını aparıb, bu sözlərin kökündə hansı nitq hissəsi durduğunu tapmalıyıq. Sözün başlanğıc mənası, yəni ilk işləndiyi məqam və şəraitə baxmalı, ilkin olaraq hansı mənada işlədilibsə, ona uyğun olaraq həmin sözün aid olduğu nitq hissəsi qrupunu müəyyənləşdirməliyik. Biz bu problemə daha çox əsas nitq hissəsi olan sifət və tərzi hərəkət zərflərində rast gəlirik. Bu problemin yaranma səbəbi xalis olmayan zərflərin, başqa predmetə xas olan sözlərin leksik mənasını mənimsəməsidir. Məsələn: yaxşı, pis, gözəl və s.

Bunlar müvafiq lüğətdə bildiyimiz kimi, ikili nitq hissəsi kimi verilir. Lakin diqqətlə baxdıqda biz həmin sözlərin əşyaya aid atributiv məna daşıyan sözlər olduğunu görürük. Fikrimizi "yaxşı" sözü üzərində izah edə bilərik:

1.Yaxşı söz; 2. Yaxşı danışır.

Birinci misalda gördüyümüz kimi, "yaxşı" sözü sifətin funksiyasını yerinə yetirir, yən açıq-aydın görünür ki, əşyanın keyfiyyətini bizə açıqlayır. Lakin ikinci misalda biz zahirən "yaxşı" sözünün feilə aidliyini görürürük. Amma nəzərə almalıyıq ki, cümlədə tamlıq yoxdur, yəni cümlədə ellipsis var. Əgər müvafiq sözü bərpa etsək, belə alınır: "yaxşı söz danışır"- buradan asanlıqla görürük ki, əgər cümlə tam formada olarsa, əslində, belə bir müəmma yaratmaz. Buradan belə bir nəticə çıxartmaq lazımdır ki, həmin sözlər nitq hissəsi kimi sifət olduğu halda, cümlə üzvü kimi təyinlə yanaşı, zərflik də ola bilər.

Müqayisə zamanı digər müasir dillərə, məsələn, ingilis dilinə nəzər saldıqda ciddi fərqlərlə rastlaşırıq. Nümunə olaraq qeyd edə bilərik ki, Azərbaycan dilində "yaxşı" sözü nitq hissəsi baxımından mübahisəli məsələyə çevrilib. İngilis dilində isə bu problem çox da ciddi deyil:

Sifət kimi-good; 2. Zərf kimi-well.

Gördüyümüz kimi, hər iki sözün mənası eyni olsa da, biri sifət kimi, digəri zərf kimi qəbul edilib:

1. Good job-yaxşı iş; 2. To read well-yaxşı oxumaq.

Burda feilin zərfdən əvvəl işlənməsi bu dilin qrammatikası ilə bağlı olan bir haldır.

Müasir Azərbaycan dilindən başqa bir nümunə ilə misal göstərək, məsələn: Sıx sözü:

1. Sıx meşə; 2. Sıx görünür

Birinci misalda biz sözün düzgün və yerində işləndiyini gördüyümüz halda, ikinci misalda sifətin zərf mövqeyinə malik olduğunu görürük. Burada da əslində ellipsis mövcuddur. Cümlə "Sıx vəziyyətdə görünür" şəklində olsa, bu zaman açıq-aydın " sıx" sözünün "vəziyyət" sözünü izah etdiyini və feilə aid olmadığını görərik.

Bir maraq doğuran söz də "cəld" sözüdür. Bu söz hazırki günümüzdə həm sifət, həm də zərf kimi qəbul edilir, yəni bu söz həm fərdin fəaliyyətinin əlamətini, həm də prosesin sürətini vermək funksiyalarında müxtəlif kontekstlərdə istifadə edilə bilər. Lakin "Hər bir söz yalnız bir nitq hissəsinə aiddir" fikrini nəzərə alsaq, bu zaman dilçilər arasında problemin yaranması qaçılmaz olur. Bu söz haqqında iki mübahisəli fikir var. Bunlardan birincisi "cəld" sözünün zərf kimi qəbul edilməsidir. Bu hala nəzər salaq:

1. Cəld oğlan; 2. Cəld qaçır.

Bir fikrə əsasən, ikinci nümunədə zərf öz funksiyasını yerinə yetirərək feilə aiddir və zərf olmaqla yanaşı, cümlə üzvü kimi zərflik funksiyasını yerinə yetirir. Lakin birinciyə diqqətlə baxdıqda görürük ki, söhbət "oğlan"ın hərəkətinin tərzindən gedir. Əlavə olaraq qeyd edilir ki, burda da ellipsis var. Əslində "cəld qaçan oğlan" formasında olmalıdır. Bu versiyaya əsasən deyə bilərik ki, "an" feili sifət şəkilçili söz burada tərkib yaradıb və əslində "cəld qaçan" ifadəsi birlikdə bir cümlə üzvü olmalıdır, yəni təyin funksiyasını ikisi birlikdə daşıyır. Bu o demək deyil ki, "cəld" sözü "oğlan" sözünün yanında işləndiyi üçün ona sırf sifət deməliyik. Sifətə bənzəsə də, bu söz, sadəcə, təyin rolunu oynadığı üçün bizə elə gəlir. Bu izahdan belə qənaətə gəlirik ki, "cəld" sözü zərfdir.

Digər fikrə görə "cəld" sözü sifətdir. Belə ki, cəld bir xarakter kimi götürüldükdə insana xasdır və onu izah edir. Bu fikri "cəld hərəkət edən" birləşməsi ilə izah edə bilərik. Bizə məlum olduğu kimi, mürəkkəb söz birləşmələrində əgər müvafiq söz subyektə, obyektə və ya materiyaya aiddirsə, bu zaman həmin müvafiq söz cümlə üzvü kimi təyin olur. Əgər müvafiq söz hərəkətə aiddirsə cümlə üzvü olaraq zərflik funksiyasını yerinə yetirir. Nümunədə "cəld" sözü "hərəkət" sözünə aiddir, "hərəkət" sözü isə işlənmir. Bu da həmin ifadənin sifət olduğunu müəyyənləşdirir. "Cəld qaçır" nümunəsinə gəldikdə isə onların fikrincə "cəld qaçmaq" anlayışı yoxdur, bu ifadənin əvəzinə "sürətlə qaçır" ifadəsi işlənməlidir.

Bu günlərdə tez-tez rast gəlinən bir halı da qeyd etmək lazımdır ki, bu "-la, -lə" və "-lı, -li" şəkilçilərinin bir-birini əvəzləməsi halıdır. Belə ki, Müasir Azərbaycan dilinə aid qrammatika əsərlərində hər bir nitq hissəsinin yaranmasına xidmət edən xüsusi leksik şəkilçilər mövcuddur. Bu şəkilçilərin düzgün və yerində işlənməsi nitq hissələrinin fərqləndirilməsində yaxından iştirak edir. Bu şəkilçilərdən biri də sifət düzəldən "-lı, -li" şəkilçisi və zərf düzəldən "-la, -lə" şəkilçiləridir. Məsələn: "Cəsarətli" və "cəsarətlə" sözləri:

1) Cəsarətli qız; 2) Cəsarətlə danışır.

Qeyd edilən nümunələrdə hər iki şəkilçi öz funksiyasını düzgün yerinə yetirir. Lakin hazırki günümüzdə biz "cəsarətli danışır" formasına da rast gəlirik. Bunun belə işlənməsi və həmçinin zərf kimi qələmə verilməsi yanlışdır. Çünki qrammatikamızın morfologiya şöbəsində zərf düzəldən "-lı, -li" şəkilçisi yoxdur. Bu hal xalqın dilində yanlış şəkildə təzahür tapmış bir haldır.

"Sürətli" və "sürətlə" sözləri:

1) Sürətli maşın; 2) Sürətlə gəlir.

Eyni problem burada da rastımıza çıxır. "Sürətli gəlir" versiyasına indi daha çox rast gəlirik. Hətta bu məqamda demək olar ki, "-lı, -li" şəkilçili formalı söz tədricən üstünlük qazanır.

Omonimlərdə nitq hissəsinə görə semantik müəyyənləşdirmə problemi yalnız sifət və zərfdə deyil. Qeyd etmək lazimdır ki, əlamət və keyfiyyət bildirən sözlərin bir qismi isimlə omonimlik təşkil edir. Belə omonimlər iki yolla əmələ gəlir:

1. Sifət- isim. 2. İsim- sifət.

S.Cəfərov bu xüsusda yazır: "Sözün çoxmənalılığından omonimləşmə yolu ilə yeni sözlərin (məfhumların) əmələgəlma prosesi isim və sifətlərdə fəal rol oynayır. Belə bir proses eyni nitq hissəsi dairəsində qala bildiyi kimi, bu dairədən kənara da çıxa bilər. Başqa sözlə desək, sözün çoxmənalılığından omonimləşmə prosesində isimdən yenə də isim və ya sifətdən yenə də sifət əmələ

gələ bildiyi kimi, isimdən sifət, sifətdən isim və sairə əmələ gələ bilər. Bu proseslər öz xüsusiyyətlərinə görə, əlbəttə, bir-birindən fərqlənir" [1].

Azərbaycan dilinin omonimlərində əsas yer tutan bu xüsusiyyət rus dilində yoxdur. Çünki rus dilində hər bir nitq hissəsinin özünəməxsus morfoloji əlaməti (sonluq) var və bu hal eyni kökdən meydana çıxan müxtəlif nitq hissələrini fərqləndirir. Məsələn: "jelez" söz kökü "-o" sonluğunu qəbul edib isim, "-nıy" sonluğunu qəbul edib sifət olur.

Jelezo- isim; Jeleznıy- sifət.

Sifət-isim omonim köklərin bir qismi sifətlərin substantivləşməsi ilə yaranır və bu lüğət tərkibində isim kateqoriyasına məxsus mənaların artmasında mühüm rol oynayır.

Dilimizdə bu halın baş verməsinin səbəbi ismin atributivləşməsi, sifətin isə substantivləşməsi halıdır. Hətta görkəmli dilçilərimiz belə, bəzi hallarda bu səbəbdən sözlərin hansının sifət, hansının isim olması barəsində fərqli fikirlər söyləyirlər. Məsələn, Ə. Dəmirçizadə "Dəmir qapı" söz birləşməsində "dəmir" sözün sifət olduğunu qəbul edirdi. O bu fikri deyərkən, sözün sintaktik vəzifəsini nəzərə alaraq demişdir. Göründüyü kimi, burada "dəmir" sözü təyindir. Müxtəlif sözün təyin olmasını əsas götürərək onun sifət olduğunu iddia edirlər. Doğrusu isə budur ki, "dəmir" sözü isimdir. Çünki o "nə?" sualına cavab verən əşyadır. Bu birləşmədə sadəcə olaraq "dəmir" sözü atributivləşib.

Lüğət tərkibinə daxil olan bəzi sözlərin bir neçəsini bu baxımdan araşdırarkən şəkilçilər də bizə kömək olur, məsələn "tanış" sözündə zahirən iki nitq hissəsinin suallarına cavab verir, sifət və isim. Lakin söz yaradıcılığı bölməsindən bizə məlumdur ki, "-ış" şəkilçisi feildən isim yaradan şəkilçidir: tanı+ış=tanış. Deməli, bu söz isimdir.

"Dahi" sözü fikrimcə, sifətdir. Belə ki, şəxs bildirən isimlərlə münasibətdə "dahi" sözü "böyük" sözü ilə nisbi sinonimlik təşkil edir. Sinonimlik bölməsindəki qaydalarda da qeyd olunur ki, sinonimlər eyni nitq hissəsinə aid olmalıdır, yəni burdan aydın olur ki, "dahi" sözü sifətdir.

B.T.Abdullayev bu mövzuda da omonim sözlər haqqında belə bir fikir söyləyir: "Omonimlərlə çoxmənali sözləri fərqləndirmək üçün bəzən sinonimlərdən də istifadə edilir. Əgər iki sözün sinonimi olan sözlər öz növbəsində bir-birinin sinonimi olmazsa, deməli, haqqında danışılan həmin iki sözün müxtəlif mənaları deyil, omonimdir" [1].

Bunlarla yanaşı, isim və feil versiyaları da mövcuddur. Buna nümunə olaraq köç sözünü misal göstərə bilərik.

Köç (isim)- Bir yerdən başqa yerə köçən insan qrupu.

Köç (feil)- Yaşayış yerini dəyişmək, bir yerdən çıxıb başqa yerə getmək, daşınmaq.

Bu sinkretik səciyyəli sözün mənası hərəkət bildirdiyindən, fikrimcə, ilkin olaraq "köç" feili yaranmış, sonradan bu ad həmin prosesin adı kimi formalaşmışdır.

Bu problem yalnız əsas nitq hissələri arasında deyil. Həmçinin əsas və köməkci nitq hissələri arasında da mövcuddur. Məsələn:

Tərəf (isim)- Bu tərəf qaranlıqdır.

Tərəf (qoşma)- Evə tərəf gəlir.

Doğru (sifət)- Doğru sözə zaval yoxdur.

Doğru (qoşma)- Evə doğru get.

Tək (sifət)- Tək əldən səs çıxmaz.

Tək (ədat)- Tək sən bunu bilirsən.

Tək (qoşma)- Məntək olmaz səni sevən.

Özgə (sifət)- Özgə adam bunu etməz.

Özgə (qoşma)- Səndən özgə kimim var?

Əvvəl (zərf)- Əvvəl gəldim.

Əvvəl (qoşma)- Səndən əvvəl mən varam.

Bizi maraqlandıran suala burada cavab axtardıqda, şübhəsiz, bunu qeyd edə bilərik ki, birinci əsas nitq hissələri yaranıb. Köməkçi nitq hissələri əsas nitq hissələrindən törəyib. Hətta araşdırmalar nəticəsində müəyyən olub ki, şəkilçilər özü də sözlərdən yaranıb. Bəzi sözlər dildən çıxıb və ya dilin inkişafı zamanı ixtisarlaşaraq şəkilçiyə çevrilib.

Nəticə. Bütün omonimlər ancaq təsadüfi fonetik hadisənin nəticəsi deyildir. Onların bir qismi da keçmiş çoxmənalılığın ayrılması nəticəsində əmələ gəlir. RA.Budaqov bu münasibətlə yazır: çoxmənalılıqla omonimlər arasında müəyyən əlaqə vardır. Bu əlaqə və münasibətlər tək-tək sözlərdə deyil, bütün sözlərdə tarixi inkişafin nəticəsidir. N.M. Şanski də omonimlərin bir qisminin sözün leksik mənasının dəyişməsi nəticəsində yaranması fikrinin tərəfdarıdır. O yazir ki, sözün leksik-semantik üsulla yaranması dedikdə, bu və ya digər sözün məzmunca dəyişməsi, yeni məna və məzmunların alınmasi başa düşülür. Sözün mənası genişlənir. Sözün semantik inkişafi dilin lüğət tarkibini zənginləşdirir. Yeni yaranan məna ilə yanaşı əvvəlki mənalar da yaşayır və onlar dildə eyni dərəcədə fəal ola bilir. Doğurdan da, dilimizdə olan sözlərin omonimlik cəhətdən rəngarəngliyi müvafiq lüğət tərkimizi zənginləşdirir. Amma hər bir sözün yarandığı gündən olan ilkin mənası onun əsas mənası olaraq qalır və fikrimcə, dildə nitq hissəsi problemini yaradır.

İstifadə edilmiş ədəbiyyat

1. Klara Rzayeva. Azərbaycan dilində sifətin çoxmənalılığı. Bakı: Şərq Qərb, 2015, 128 s.
2. Sənubər Abdullayeva. Müasir Azərbaycan dilində zərf. Bakı: Maarif, 1991,122 s.
3. Qara Məşədiyev. Müasir Azərbaycan dilində nitq hissələrinin sematikası. Bakı: Elm, 1998, 106 s.
4. Yunis Məmmədov. Azərbaycan dilində sözlərin leksik-semantik inkişafı. Bakı: ADPU nəşri, 1987, 83 s.
5. Musa Adilov, Zemfira Verdiyeva, Firəngiz Ağayeva. Azərbaycan dilinin semasiologiyası. Bakı: Elm, 2019, 304 s.
6. Azərbaycan Filologiyasının aktual məsələləri. Bakı: BDU, 2014, 422 s.
7. M.P.Vaqif əsərləri. Bakı: Şərq Qərb, 2004, 264 s.

MƏHƏMMƏD FÜZULİNİN "LEYLİ VƏ MƏCNUN" ƏSƏRİNİN DİLİNDƏ ƏVƏZLİKLƏR

Vüsalə Rizvanova*

Abstract

Pronouns in "Leyli and Majnun" by Mohammad Fuzuli

Our poets and writers played a great role in the development of our language as a literary language, and the role of one of our genius poets, Muhammad Fuzuli, is undeniable. Academician Tofig Hajiyev. He considers Muhammad Fuzuli the founder of our literary language. The fact that his works are both difficult and comprehensible in the language distinguishes his works. It is as if the genius poet thought about who would read his works and wrote them in his mother tongue in terms of language and style. One of his works is "Leyli and Majnun". In the article, we paid attention to the pronouns in the work "Leyli and Majnun". It is possible to find different pronouns in each of Fuzuli's works. In the work "Leyli and Majnun", it can be said that all types of meanings of substitution are used. We find more interrogative pronouns used in the work. In the interrogative pronouns used in the work, we can see the q-h parallel, which is characteristic for that period. In which until the 18th century, h was not used (only in Dirili Gurbani's poems), the q variant was active instead. The words blood, blood, and blood used in the work can be cited as an example.

Keywords: *language, Fuzuli, pronouns, Leyli and Majnun, work.*

Giriş. Azərbaycan dili qədim və zəngin tarixə malik bir dildir.Dilimizin ədəbi dil kimi inkişafında şair və yazıçılarımız böyük rol oynamışlar.Dilimiz məhz onların əsərlərində inkişaf etmiş, ədəbi dil səviyyəsinə qalxmışdır. Ana dilli ədəbiyyatımızın zənginləşməsində İzzədin Həsənoğlu, Nəsimi, Xətai kimi şairlərimizin rolu olduqca böyükdür. Doğma dilimizi yüksək zirvəyə qaldıran şairlərimizdən biri Məhəmməd Füzuli olmuşdur. Yazıb yaratdığı əsərləri ilə dilə xidmət edən Füzuli dilimizin ən yüksək zirvəsini fəth etmişdir. Akad. Tofiq Hacıyev yazır: "*Dil Füzuli sənətinin açarıdır. Dili ilə şairin sənət xəzinəsinin sirr və hikmət qapıları açılır. Füzuli özü deyirdi ki, "Ərşin altında Allahın xəzinələri var ki, şairlərin dili bu xəzinələrin açarıdır"* [1, s. 4].

Əvəzliklərin bölgüsü. Nitq hissələri arasında əvəzliklər xüsusi rol oynayır. Əvəzliklər tarixən qədim və işlənmə tezliyinə malik nitq hissəsidir. Əvəzlik haqqında müxtəlif fikirlər mövcuddur.Bəzi tədqiqatçılar əvəzliyi "boş sözlər"adlandırırlar.

1. Birinci qrup dilçilər əvəzliyi köməkçi nitq hissəsi adlandırmışlar. F.İ.Buslayev, P.Y.Skorik və başqaları.

2. İkinci qrup dilçilər əvəzliyi nitq hissəsi kimi qəbul etmir və onu digər köməkçi nitq hissələri içərisində əridirdilər.

3. Üçüncü qrup dilçilər əvəzliyi müstəqil nitq hissəsi kimi qəbul edirlər. İ.Qiqanov, M.Kazımbəy, İ.A.Belyayev və başqalarını göstərmək mümkündür.

Əvəzliyin məna növlərinin bölgüsü,sayı haqqında dilçilik tarixində bir sıra fikirlər olmuşdur.

1. M.Kazımbəy əvəzliyin yeddi növünü (şəxs,işarə,nisbət,sual, qeyri-müəyyən,yiyəlik, qayıdış) qəbul edir.

2. L.Budaqov əvəzliyin beş növünü qeyd edir (şəxs, işarə, qayıdış, nisbi, ki ilə işlənən və hallana bilən əvəzliklər).

3. A.N.Kononov əvəzliyin altı, X.Kamilova 7 növünü qeyd edir. N.Z.Hacıyeva da əvəzliyin 7 növü olduğunu qeyd etmişdir.

Füzulinin "Leyli və Məcnun "əsərində işlənən şəxs əvəzlikləri. Əvəzliyin məna növlərindən biri şəxs əvəzliyidir. Şəxs əvəzlikləri tarixən də, müasir dövrdə də işlənib. Şəxs əvəzlikləri bunlardır :*mən,sən ,o, biz, siz, onlar.* Əvəzliyin bu növündən bəhs edən E.Benvenist yazır: "Bu forma və anlayışların özlərinin unikallığı əvəzlik problemini həm ümumiyyətlə dil problemi,həm də konkret dillərin problemi kimi qoymağa təhrik edir" [3, s. 30]. Şəxs əvəzlikləri ona görə bu adla adlandırır ki,

* ***Bakı Dövlət Universiteti, II kurs bakalavriat. Elek.poçt: rizvanli0707@gmail.com.Elmi rəhbər:*** *Dos. Mehriban Əlizadə.*

bu qrupa daxil olan sözlər şəxs və kəmiyyət anlayışını özündə əks etdirir. Əvəzliyin bu məna növünə aid olan əvəzliklər sözü əlavə izah olmadan kəmiyyət, şəxs, canlı və cansız baxımından əvəz və təyin edir. Başlıqda verdiyimiz kimi "Leyli və Məcnun" əsərində işlənən əvəzliklərə nəzər salaq.

1. *Key qədrlə qibleyi qəbail,*
Səndən qamunun muradı hasil.

Və yaxud

2. *Gər mən isəm, nəsən sən, ey yar,*
Vər sən sən isə, mən bəyəm məni zar.

3. *Hali dilim ona ərz eylə,*
Billah, necə gördünsə söylə.

Verilən nümunələrə nəzər yetirsək 1 ci nümunədə **sən** şəxs əvəzliyi, 2 ci nümunədə isə **mən və sən** şəxs əvəzlikləri, 3cü nümunədə oo şəxs əvəzliyi işlənmişdir. 2 ci nümunəyə baxsaq, şəxs əvəzliyinin beytə bədii çalarlılıq qatdığını görə bilərik. "Leyli və Məcnun" əsərində tarixən işlənmiş **bən** əvəzliyinə rast gəlmirik.

Füzulinin "Leyli və Məcnun" əsərində işlənmiş işarə əvəzlikləri. Əvəzliyin məna növlərindən biri işarə əvəzliyidir. İşarə əvəzliyi heç bir nitq hissəsini əvəz etmədən isimlərin əvvəlində gələrək onu sifət kimi əlamət və keyfiyyətinə görə deyil, digərlərindən ayırmaq, fərqləndirmək cəhətdən müəyyənləşdirir [3, s. 52]

Əsərdə işlənmiş işarə əvəzliklərinə nəzər salaq:

1. *Əvvəl nə idi bu aşinalıq,*
Axır niyə eylədin cüdalıq.

Və yaxud

2. *Noldu sənə böylə məst olubsan,*
Qəm daminə paybəst olubsan.

3. *Eyb ilə çəkilməsəydi adım*
Billah bu idi həmin muradım.

Verilmiş nümunələrdə **bu, böylə(belə), həmin** işarə əvəzlikləri işlənmişdir.Böylə işarə əvəzliyi bu gün Türkiyə türkcəsində olduğu kimi işlənir.

Füzulinin "Leyli və Məcnun "əsərində işlənən sual əvəzlikləri. Sual əvəzlikləri şəxs və əşyanı sual tərzində ümumi halda ifadə edir. Digər növlərdən fərqli olaraq, sual əvəzliyinin əvəz etdiyi söz özündən sonra işlənmiş cavab cümləsində öz əksini tapır [3, s. 78] Əsərdə verilmiş sual əvəzliklərinə nəzər salaq.

1. *Qanğı sözü etiqadım olsun*
Sənə necə etimadım olsun.

2. *Məndə dəxi necə mənlik olsun*
Məndən məni istəyən nə bulsun.

3. *İnsafmıdır bu?Qanı insaf?*

4. *Netdim sənə qəsdi canın etdin.*

Verilmiş nümunələrdə **qanğı, necə, nə, qanı, netdim** sual əvəzlikləri iştirak etmişdir.

1-ci nümunədə işlənmiş qanğı əvəzliyi bu gün dilimizdə hansı əvəzliyi kimi işlənir. 2-ci nümunədə işlənmiş qanı əvəzliyi bu gün dilimizdə hanı əvəzliyi kimi işlənir.

3-cü nümunədə işlənmiş netdim sual əvəzliyi bu gün dialektlərimizdə olduğu kimi, ədəbi dildə isə nə etdim kimi işlənir.

Füzulinin əsərinə diqqət yetirdik də, biz o dövr üçün xarakterik olan q-h paralelini görə bilərik.Məlum olduğu kimi dövr üçün q variantı daha aktual və aktiv olmuşdur. Onun üçün əvəzliklərdə də q variantı işlənmişdir.

Gər lalə isən nə dağdansan?
Vər susən isən,nə bağdansan?

Verilmiş beytdə fikrimcə, **nə** sual əvəzliyi **hansı** sual əvəzliyi mənasında işlənmişdir.

Füzulinin "Leyli və Məcnun "əsərində işlənən təyini əvəzliklər. Təyini əvəzliklər əlamət, keyfiyyət, miqdar bildirən leksik vahidləri əvəz edir və ya onları işarə edir. Azərbaycan dilində təyini əvəzliklər çox zaman "**ümumi əvəzliklər "a**dı altında qeyd olunur [3, s. 111].

1.*Kimsəki özündən ola qafil,*
Bir özgəyi bilməyə nə qabil?
2.*Hər sübh gedərdi məktəbə şad,*
Məktəb də olurdu qəmdən azad.

Verilmiş nümunələrdə **öz, hər** təyini əvəzlikləri işlənmişdir.

Füzulinin "Leyli və Məcnun "əsərində işlənən qeyri-müəyyən əvəzliklər. Qeyri-müəyyən əvəzliklər predmetlər, əlamətlər, miqdar və şəraitin qeyri-müəyyənliyini bildirir. Nitqdə onlar predmet sinfinə aid dominantlara uyğunlaşaraq, öz dominant xarakteristikalarını ən ümumi şəkildə bildirirlər [3, s. 129].

Məhəmməd Füzulinin " Leyli və Məcnun " əsərində qeyri -müəyyən əvəzliklərə nəzər salaq.

1.*Kim aldı əlindən ixtiyarın,*
Kim eylədi tirə ruzigarın.
2.*Ardınca qoşun-qoşun uşaqlar,*
Əhvalına kim gülər,kim ağlar.

Hər iki nümunədə **kim** qeyri-müəyyən əvəzliyi işlənmişdir.

Nəticə:

1. Məhəmməd Füzuli ədəbi dilimizin banisi hesab olunur.
2. Məhəmməd Füzuli əsərlərində əvəzliklərin bütün növləri işlənmişdir.
3. "Leyli və Məcnun"əsərində əvəzliklər işlənmişdir.
4. Füzulinin "Leyli və Məcnun" əsərində tarixən işlənmiş **bən** əvəzliyi yoxdur.
5. Füzulinin "Leyli və Məcnun "əsərində işlənmiş **qanğı, qanı ə**vəzlikləri müasir dövrdə işlədilən hansı, hanı əvəzlikləridir ki, o dövrün tələbinə uyğun olaraq q-h paraleli vardır.
6. Əsərdə işlənmiş **böylə** əvəzliyi bu gün dilimizdə belə formasında işlənir.
7. Tofiq Hacıyevin bu fikrinə istinadən qeyd edirik ki, Məhəmməd Füzuli ədəbi dilimizin banisidir.

İstifadə edilmiş ədəbiyyat

1. Hacıyev T. Füzuli: Dil sənətkarlığı 1994, 72 s.
2. Füzuli M. Seçilmiş əsərləri. II cild. 2005, 335 s.
3. Şahbazova Z. Azərbaycan dilində əvəzliklərin morfologiyası. 2007, I hissə. 171 s.

"KİTABİ-DƏDƏ QORQUD" ABİDƏSİNDƏ İŞLƏNMİŞ ZƏRFLƏRİN QURULUŞCA NÖVLƏRİ HAQQINDA

Nuridə İsmayılova*

Abstract

"Kitabi-Dada Gorgud", our mother monument, gives us enough material to conduct research at different levels of the Azerbaijani language. The article deals with issues related to the structure of the adverb, which is the main part of speech, by taking examples from monuments. This is given in some modern language. As in descriptive grammars, "Book" is given for each type of meaning in addition to the structure of adverbs. It has been specially emphasized that the adverbs in the epic are sufficiently marked for this classification. Some special attention has been given to the adverbs formed within solid, hard, spreading, uru, and also within adverbs. It has been explained why Yamsılamas express themselves in such a way. The low number of adverbs of place both in the modern language and historically is due to the presence of nouns with a spatial meaning. The article contains some ideas of linguists such as T. Hajiyev, H. Mirzazade about the structure of adverbs. The correction for each type of meaning was made separately with which adverbial suffixes are formed. This allows readers to work with the morphological system of the modern Azerbaijani language.

Keywords: *"Kitabi-Dada Gorgud", adverb, structure, meaning, example.*

Giriş. "Kitabi-Dədə Qorqud" dastanındakı zərflərin quruluşu haqqında müxtəlif tədqiqatlarda müəyyən qədər məlumat verilmişdir. Təsviri qrammatikaya aid mənbələrdə digər nitq hissələrindən fərqli olaraq zərflərin quruluşca növlərindən bəhs olunarkən hər bir məna növü üzrə ayrıca təsnifat aparılır. Bu da quruluş məsələsinə daha sistemli nəzər salmağa kömək edir. Tarixi qrammatikaya aid kitablarda isə zərfin quruluşu məsələsinə bütövlükdə nəzər salınır, daha sonra mənaca növlər qeyd olunur. Fikrimizcə, "Kitabi-Dədə Qorqud" dastanında işlənən zərflərin quruluşca təsnifatını mənalar üzrə vermək üçün kifayət qədər material var. Bu bölgünü aparmaqla zərf yaradıcılığında iştirak edən vastitələrin məna növləri üzrə necə qruplaşdığı müəyyən edilə bilər. Dastanda işlənən zərflər müasir Azərbaycan dilinin morfoloji sistemində olduğu kimi, mənaca dörd cür, hər məna növü də quruluşca üç cür olur.

Sadə tərzi-hərəkət zərfləri. At ayağı **külük**, ozan dili **çevik** olur [7, s. 27]; ...**arqurı** yatan Ala dağdan təbər aşa [7, s. 28]; Yelisi qara Qazılıq atun **bütün** bindin [7, s. 30]; Hecasınlayın **düz** oqunsa, yasin görkli [7, s. 21]; Gəldik, ol kim, dolduran topdur, dəpidincə yerindən **uru** durdı [7, s. 23]; Yaxşı yigitlər ilə **eş** yort! [7, s. 125]; Əlhasili, ordı bunun ucından **qatı** incindilər [7, s. 126] və s. Abidədə işlənmiş sadə tərzi-hərəkət zərflərinin sayını artırmaq da olar. Burada bir neçə məqama diqqət çəkmək istəyirik. Dastanın lüğətində abidədə işlənmiş *qatı* zərfinin mənası belə verilir: *sərt, möhkəm* [7, s. 344]. Abidədə eyni mənada *bərk* sözü də işlənmişdir: Balçağından ol qılıcı **bərk** tutdı [7, s. 131].

Azərbaycan dilinin izahlı lüğətində hər iki söz sifət kimi qeyd olunur [1; 2].

Maraqlıdır ki, abidədə *qatı* sözü dəfələrlə işləndiyi halda, *bərk* sözü çox az işlənmişdir. Amma müasir dövrdə *qatı* sözü, ümumiyyətlə, zərf kimi işlənmədiyi halda, *bərk* sözü zərf kimi işlənir. Görünür, dastanın dilində bir neçə dəfə işlənməsinə baxmayaraq, *bərk* sözü ümumxalq dilində zərf mənası ilə geniş işləndiyi üçün bu gün də müasir Azərbaycan dilinin morfoloji sistemində zərf kimi mövcuddur, hətta zərf yaradıcılığında da iştirak edir: bərk – bərkdən. *Qatı* sözü isə ümumxalq dilində zərf kimi çox işlənmədiyi üçün müasir dildə yalnız sifət mövqeyində işlənir.

Dastanda geniş şəkildə işlənən sadə tərzi-hərəkət zərflərindən biri də *uru* zərfidir. Gəldik, ol kim, dolduran topdur, dəpidincə yerindən **uru** durdı [7, s. 23]; Qalqubanı yerimdən **uru** durdum [7, s. 121]; **Uru** durdı, tavladan bir şahbaz at çıxardı [7, s.148]; Oğlan sərmərdi **uru** durdu. [7, s. 151]; Yigitlərim, yerünüzdən **uru** durun [7, s. 167].

* ***Bakı Dövlət Universiteti, bakalavriat. Elek.poçt: nurideismayilova2004@gmail.com. Rəyçi:*** *Prof. Sənubər Abdullayeva.*

Nümunələrin sayını artırmaq olar. Lakin hamısında bir ortaq cəhət var ki, *uru* zərfindən sonra *durmaq* feili işlənir. Uru sözünün mənası abidənin lüğətində yuxarı, ayağa (durmaq) kimi göstərilir [7, s. 363]. H.Mirzəzadə isə sözün mənasını *dik, cəld* kimi göstərir. M.Kaşğarinin "Divanü-lüğat-it-türk" əsərində urun sözü göstərilir. Mənası dikilmək, dikəlmək, qalxmaq [4, s. 609]. Deməli, *uru* sözünün kökündə *urun* feilinin qalığı vardır. Zərflərin digər nitq hissələrindən təcrid olunaraq yarandığını nəzərə alsaq, *uru* zərfinin məhz *urun* feilindən yarandığını düşünmək mümkündür.

Abidədə işlənmiş düzəltmə tərzi-hərəkət zərfləri bu şəkilçilərlə düzəlmişdir: -la^2, -ın^4, -lıq^4+-la^2, -ar^2, -sız^4. Bu şəkilçilərdən –ın^4, -ar^2 şəkilçiləri müasir dövr üçün zərf düzəldən şəkilçi olaraq arxaikləşmişdir.

Dilək ilə bir oğul **güclə** buldum [7, s. 31]; **Qamın** aqan yügrək sudan bir oğul aqıtdınsa, degil mana! [7, s. 31]; Gəlübən Qazanın qızın **ərliklə** alan, Oğuzun aq saqallu qocaları görəndə ol yigidi təhsinləyən, al mahmuzı şalvarlı, atı bəhri xotazlı Qaragünə oğlı Qara Budaq **çapar** yetdi [7, s. 49]; **Dəstursuzca** Bayındır xanın yağısın basan, altmış bin kafirə qan qusduran, ağ-boz atının yelisi üzərində qar durduran Qəflət qoca oğlu Şir Şəmsəddin **çapar** yetdi [7, s. 49]; **Dizin** çökdi, aydır [7, s.62]. Dirsə xan **yayan**, bunlar **atlu** yüridilər [7, s. 33].

Mürəkkəb tərzi-hərəkət zərfləri. Qanlu quyruq üzüb **çap-çap** yudan[7, s. 41]; Qaranqu axşam olanda **vaf-vaf** ürən; Acı ayran tökiləndə **çap-çap** içən [7, s. 42]; Bu yana Şökli Məlik kafirlərlə **şin-şadman** yeyüb-içüb otururdı [7, s. 44]; Qırq günə dəkin **sıravardı** geyəgüz. Mərə, bazirganlar varın **iqlim-iqlim** aran… [7, s. 63]; **Yapa-yapa** qarlar yağsa, yaza qalmaz [7, s. 20]; Qolca qopuz götürüb, **eldən-elə, bəgdən-bəgə** ozan gəzər [7, s. 21].

Nümunələrdən də göründüyü kimi, daha çox eyni sözün təkrarı ilə düzələn mürəkkəb tərzi-hərəkət zərfləri abidənin dilində geniş yer tutur. Təqlidi sözlər vasitəsilə yaranan *vaf-vaf, çap-çap* kimi zərflər diqqət cəlb edir. Bu yolla düzələn mürəkkəb zərflərə yalnız tərzi-hərəkət məna növündə rast gəlirik. Bu, təsadüfi deyil. Akad. Tofiq Hacıyev yazır: "Həm canlı dil, həm də qədimlik elementlərindən biri kimi yamsılamalar diqqəti cəlb edir. Abidənin dilində bunlar həm söz yaradıcılığında kök kimi iştirak edir, həm də tərz, ton vermək üçün feilə xidmət göstərir. Bu ikinci cəhət daha çox üslubi-ritmik keyfiyyətlə bağlı olduğundan (əsərin bədii nitq abidəsi olduğunu nəzərə alırıq) daha çox maraq kəsb edir. Məlumdur ki, adətən belə təqlidlər təqlid üstdə qurulan felin ilk hecasının alınıb, açıqdırsa, müvafiq samit artırılıb təkrar edilməsi ilə düzəlir və feilin mənasına intensivlik, sürəklilik verir. Məsələn, gurlamaq – gur-gur gurlamaq, zarımaq – zar-zar zarımaq və s. Bu təqlidlər tərz-hərəkət zərfi mövqeyindədir. İlk yarandığı dövrdə ancaq müvafiq feil səmtində işlənən bu təqlidlər sonrakı abstraksiya nəticəsində qrammatikləşir, əsası sayılan feildən təcrid olunur, məhvərindən uzaqlaşır. Beləliklə, konkret tərz-hərəkət zərfinə çevrilir və semantikası uyğun gələn (demək, şəkli vacib olmur, məna əsas götürülür) hər bir feillə işlənir [3, s. 120]". Deməli, bu zərflər məhz feildən təcrid olunaraq yaranmışdır. Bu cür zərflərin yalnız tərzi-hərəkət məna növündə işlənməsi səbəbsiz deyil. Tərzi-hərəkət zərfləri məhz terminin adından da göründüyü kimi, hərəkətin tərzini, əlamətini bildirir. Hərəkət özü də əlamətdir. Deməli, tərz elə hərəkətin özündə əks olunur. Yəni *vaf-vaf ürən* demək olar, amma *vaf-vaf içən* və ya *çap-çap ürən* deyə bilmərik. Məhz bu cür feillərdə hərəkət özü öz tərzi haqqında müəyyən anlayış yaradır. Buna görə də zaman, yer, kəmiyyət zərflərindən fərqli olaraq tərzi-hərəkət zərflərində bu formaya rast gəlirik.

2. Zaman zərfləri. Sadə zaman zərfləri: **Genə** toy edib atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı [7, s. 24]; Qatı qəzəb edərəm **şimdi** sana! [7, s. 26]; **İmdi** incinmə, xanım, **əvvəl** anun əlin öpdügümüzə [7, s. 55]; **Daim** duran cabbar Tanrı, Baqi qalan səttar Tanrı [7, s.98];

Düzəltmə zaman zərfləri: Bir **yazın**, bir **güzin** buğayla buğrayı savaşdırarlardı [7, s.27]; **Nagahandan** Qaracıq çobanın üzərinə altı yüz kafir qoyıldı [7, s. 38]; Çaqmaqluca çobanları **dünlə** yügürdən… [7, s. 41]; Dolamac yollarını Qadir qorsa, **dünlə** yortam [7, s. 106]; **Əzəldən** yazılmasa, qul başına qəza gəlməz [7, s. 19] Oğul, **sabah** varub, **öylən** gəlmək olmaz. **Öylən** varub **axşam** gəlmək olmaz [7, s. 104].

Abidədə işlənmiş *öylən* zərfi, fikrimizcə, düzəltmə zərfdir. Bu zərfdəki –n şəkilçisi *yazın, güzin* zərflərindəki zərf düzəldən şəkilçidir, sadəcə *öylə* sözü saitlə bitdiyi üçün şəkilçinin ilk saiti ixtisar

olunub. *Öylə* sözü Kaşğari lüğətində günorta mənasında qeyd olunmuşdur [4, s. 419]. *Öylən* sözündə zaman mənası daha qüvvətlidir.

Mürəkkəb zaman zərfləri: Xanım, **bu gün** Bayındır xandan buyruq şöylədir kim, oğlı-qızı olmayanı Tanrı Taala qarğayıbdır, biz dəxi qarğarız, demişdir [7, s. 25]; **Bu gün-yarın** qanda isə, gəlür [7, s. 31]; **Qışda-yazda** qarı-buzı ərinməyən Qazılıq dağına gəldi çıqdı [7 s. 31]; **Dün** bucuğında Qazan bəgin ordusına gəldi [7, s. 37]; Sudan keçdi, **bu gəz** bir qurda tuş oldı [7, s. 41].

Mürəkkəb zaman zərfləri daha çox defislə və ayrı yazılır. Biz ayrı yazılanları mürəkkəb deyil, tərkibi adlandırmağı düzgün hesab edirik.

3. Yer zərfləri. Sadə yer zərfləri: Buğa oğlana sürdi, **gerü** gəldi [7, s. 27]; **Qarşu** yatan Ala dağdan bir oğul uçurdunsa, degil mana[7, s. 31]; Oğlan **anda** yıqıldıqda Boz atlu Xızır oğlana hazır oldı [7, s. 32]; **İlərü** vardı, pay dilədi [7, s.56]; Haman bəni qapudan **tışarı** eylə, mədəd! [7, s.60]; **Yuqarıdan** tamaşa edərdi [7, s. 107].

Düzəltmə yer zərfləri: Ağzı böyük xümrələr **ortalığa** salınmışdı [7, s. 78].

Bəzi tədqiqatlarda *–dan*^{2} şəkilçisinin zərf düzəltdiyi qeyd olunur: "Dastanın dilində *-dan*^{2} şəkilçisi müxtəlif mənalı zərflər yaratmışdır. *Yuqarısından* öygə ilə həmlə qıldı; *Əzəldən* yazılmasa, qul başına qəza gəlməz [6, s. 331]". Fikrimizcə, *-dan* şəkilçisi *yuqarısından* zərfində zərf düzəltməyə xidmət etmir, sözə çıxışlıq hal məzmunu verir, yəni çıxışlıq hal şəkilçisidir. Amma *əzəldən* sözündə *-dan*^{2} sözdüzəldici funksiya yerinə yetirdiyi üçün zərf düzəldən şəkilçi hesab etmək olar.

Mürəkkəb yer zərfləri: Bərə çoban, **irağından-yaqınından bərü** gəlgil! [7, s. 39]; **İrağından-yaqınından** gəlişdilər [7, s. 117].

Düzəltmə və mürəkkəb yer zərfləri abidədə nisbətən azlıq təşkil edir. Bu, təxminən müasir Azərbaycan dilində də belədir. Məkandan xali heç bir şey olmadığını nəzərə alsaq, bəlkə də, bu, qəribə görünə bilər. Amma dilimizdə kifayət qədər məkan mənalı isim var ki, bunlar yerləri (məkanları) adlandırmada zərflərdən çox işlənir.

4. Kəmiyyət zərfləri. Sadə kəmiyyət zərfləri: "Qalın Oğuz imrəncəsi, canım oğul!" - deyübən **çoq** ağladı [7, s. 76]; Qazan **ğayət** səxt oldı [7, s. 154]. "Qardaşımdan ayrıldım!" deyü **çoq** ağladı, zarlıq qıldı [7, s. 129]; Ağ saqallu qocaları **çoq** ağlatmışam. [7, s. 133]; Mən Qazanın nemətini **çoq** yemişəm [7, s. 166]. "Zərflərin bir qismi hərəkətin miqdarını, əlamətin dərəcəsini bildirir [5, s. 371]". Abidədəki *ğayət* zərfi də dərəcə, digər kəmiyyət zərfləri isə miqdar bildirir.

Düzəltmə kəmiyyət zərfləri: Oğuz bəgləri **birin** gəlüb, yığnaq olmağa başladı [7, s. 24].

Mürəkkəb kəmiyyət zərfləri: **Üç kərrə** ağzından iqrar eylədi [7, s. 59].

"Kitabi-Dədə Qorqud"da kəmiyyət zərflərinin quruluşca hər 3 növü az işlənmişdir.

Nəticə. Beləliklə, "Kitabi-Dədə Qorqud" abidəsindəki zərflərin quruluşu ilə bağlı bu nəticələrə gəlirik:

1. Abidədəki zərflər dastanın yarandığı dövrlərdə Azərbaycan dilinin morfoloji sistemindəki zərfləri tədqiq etmək baxımından kifayət qədər material verir.
2. Zərflərin məna və quruluşca növləri müasir Azərbaycan dilinin morfoloji sistemindən ciddi şəkildə fərqlənmir

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cildə. I cild. Bakı: Şərq-Qərb, 2006, 744 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cildə. III cild. Bakı: Şərq-Qərb, 2006, 672 s.
3. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: Elm, 2012, 476 s.
4. Kaşğari M. Divanü lüğat-it-türk. Dörd cilddə. IV cild. Bakı: Ozan, 2006, 752 s.
5. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Elm və təhsil, 2010, 448 s.
6. "Kitabi-Dədə Qorqud" dastanının qrammatik tədqiqi (fonetik; morfoloji və sintaktik təhlil). Bakı: Elm, 2018, 492 s.
7. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.
8. Qazi Bürhanəddin. Divan. Bakı: Öndər, 2005, 728 s.
9. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Azərbaycan Universiteti, 1990, 376 s.

QRAMMATİKANIN HİSSƏLƏRİNİN YARANMA ARDICILLIĞI

Nəcibə Qurbanova*

Abstract

Sequence of parts of grammar

Grammar consists of 2 equal parts- morphology, syntax. There are different, controversial opinions about the fiirst appearance of morphology or syntax. In linguistics,it is discussed under the heading "part of speech and part of sentence problem". Basically, 2 ideas are opposed:

1. Parts of speech were formed as a result of the morphologization of the part of the sentence.
2. Sentence parts are formed from parts of speech

According to the first group of linguists, human speech consists of non-membered sentences, sentences are broken up in the process of development, these parts are processed at the place of the sentence member. Since there are many supporters of this idea, it has been accepted in linguistics.

Since there is an interaction between morphology and syntax, it is difficult to say which part came first. But we must say that first morphology and then syntax arose. Language units develop from small to large, from simple to complex. We can give the example of the first human speech,when a child begins with small units when developing language.

Keywords: *grammar, morphology, syntax, parts of speech.*

Giriş. Dil ayrılmaz 2 tərkib hissədən: lüğət tərkibi və qrammatik quruluşdan təşkil olunmuşdur. Sözlər dilin qrammatikasının ixtiyarına keçdikdə dil şəkli alır. Qrammatika sözü ilk dəfə Əflatunun "Kratil" əsərində işlənmişdir. "Qramma" - hərf, yazı, "tike"- elm anlamını ifadə edir. Zaman keçdikcə sözün mənası, işlənmə dairəsi genişlənir və "ana dilində danışıq qaydalarını öyrənmək" mənası qazanır. Qrammatika anlayışı dil haqqındakı elm tarixində həmişə eyni anlamda işlənməyib. F.de Sössürə görə, dilçiliyin əsası qrammatika ilə qoyulmuşdur. "Qrammatikanın yeganə məqsədi düzgün formalarla yanlış formaları fərqləndirmək üçün qaydalar tərtib etmək idi", - deyərək o, klassik qrammatikadan bəhs edirdi [4, s. 127] Qrammatika dilçilik termini olaraq 2 mənada işlədilir:

1. Dilin qrammatik quruluşu 2. Elm mənasında

Dilin qrammatik quruluşu dedikdə müəyyən qaydalar əsasında əsasında dəyişməsi, müəyyən üsullarla söz birləşməsi, cümlə daxilində birləşməsi nəzərdə tutulur. Qrammatik quruluşun səciyyəvi xüsusiyyətləri mövcuddur:

- Fikri maddi dil cildinə salan əsas vasitədir.
- Dildəki prosesləri idarə edir.
- İbtidada bəsit olur, tədricən inkişaf edərək zənginləşir.
- Dilin digər sahələrinə nisbətən sabit olur, az dəyişkəndir.

Qrammatika 2 bərabər hüquqlu hissədən- morfologiya, sintaksisdən ibarətdir. Hissələrin hər birinin özünəməxsus tədqiqat obyekti, sahəsi var. Bu obyekt, sahələr bir-birindən əsaslı surətdə fərqlənsə də, eyni zamanda bir-birilə əlaqədardır. Morfologiya və sintaksisin əlaqə, obyektinin müəyyənləşdirilməsində də fikir müxtəlifliyi özünü göstərmişdir. Bu fikir ayrılığına həm ümumi dilçilik, həm də Azərbaycan türk dili qrammatikalarında rast gəlirik. "Qrammatika dili ifadə vasitələri sistemi kimi öyrənir" deyərkən F.de Sössür qrammatika daxilində morfologiya, sintaksisi birləşdirməyi nəzərdə tutur.

Morfolgiya, yoxsa sintaksisin ilk meydana gəlməsi haqqında müxtəlif, mübahisəli fikirlər mövcuddur.

Dilçilikdə "nitq hissəsi və cümlə üzvü problemi" başlığı altında bəhs olunur. Əsasən, 2 fikir qarşı-qarşıya qoyulmuşdur:

1. Nitq hissələri cümlə üzvünün morfolojiləşməsi nəticəsində yaranıb.
2. Nitq hissələri hərəkətə gələrək cümlə üzvlərini yaradır.

* ***Bakı Dövlət Universiteti, bakalavriat. Elek.poçt: ncibqurbanova@gmail.com. Rəyçi:*** *Dos. Fikrət Şiriyev.*

Düzdür, məsələyə tənqidi, neytral münasibət bildirən dilçilər də mövcuddur.
Dilçilikdə belə sual yaranmışdır ki, həqiqətən, nitq hissələri cümlə üzvlərinin morfolojiləşməsi nəticəsində yaranıb? Bu sualın yaranması təsadüfi xarakter daşımır. Bunun həm təbii-obyekiv, həmçinin subyektiv səbəbləri mövcuddur. Bu səbəblər bir-biri ilə sıx şəkildə əlaqədar olaraq biri digərindən yaranmışdır.

Birinci qrup dilçilərin fikrincə, insan nitqi üzvlənməyən cümlələrdən ibarət olub, cümlələr inkişaf prosesində parçalanıb, bu parçalar cümlə üzvü yerində işlənib. Nitq hissələri həmin cümlə üzvünün qəliblərinə uyğun müəyyənləşib. Bu fikirdən belə nəticəyə gəlmək olar ki, ilk olaraq cümlə, cümlə üzvü yaranıb, nitqin sonrakı mərhələsində sintaktik konstruksiyalar parçalanaraq sözlərə bölünmüş, nəticədə nitq hissələrinin meydana gəlməsinə zəmin yaratmışdır. Cümlə üzvləri sintaksis, nitq hissələri morfologiyanın predmeti hesab olunduğundan belə qərara gəlirik ki, ilk olaraq sintaksis, daha sonra morfologiya yaranmışdır. Bu fikri irəli sürərkən sanki inkişaf yolu mürəkkəbdən sadəyə doğru təsvir olunmuşdur, böyük vahidlər parçalanaraq kiçik vahidlərə bölünüb. Bu qəbildən olan dilçilərin yanaşmasına diqqət yetirək.

Akad. N.Y.Marra görə, dilin ilk mərhələsində nitq hissəsi olmayıb. İnsan nitqi ümumi, polisemantik mənalar ifadə edən,cümlə yerində işlənən sözlərdən ibarətdir. Belə cümlə şəklində olan sözlərdən tədriclə adlar, sonra feil və başqa söz növləri yaranmışdır [2, s. 70]. Marr tərəfindən qüvvətləndirilən, davamçıları tərəfindən ehkam kimi qəbul edilən bu mülahizələrin müəyyən tarixi var. Belə mülahizələr sintaksisdən morfologiyaya,sintaktik anlayış ilkinliyini üzə çıxarıb. Nitqin bütün texnikası sintaksisdən başlayıb.

Peşkovski yazır ki, nitq hissələri cümlə üzvü kimi hazırlanmışdır [2, s. 71] A.A.Şaxmatov qrammatikanın ağırlığını sintaksis üzərinə keçirir və belə hesab edir ki, hər bir morfoloji dəyişmə sintaktik fonda reallaşdığına görə o dəyişmələr sintaksisə aiddir [2, s. 71].

Keçən əsrin sonlarında alman alimi Delburq "Hind-german dillərinin müqayisəli sintaksisi" əsərində(alman dilində) fikrini lakonik şəkildə izah edib: "Bugünkü morfologiya dünənki sintaksisdir" [2, s. 71]. F.de Sössür daha irəli gedərək morfologiyanın müstəqilliyini inkar edir. "Linqvistik nöqteyi-nəzərdən morfologiyanın özünün real tədqiqat obyekti yoxdur" [2, s. 71]. Peşkovskinin sintaksis təəsüfkeşliyi həddini aşır. O,sintaktik başlanğıcı qəbul etməklə kifayətlənmir,belə hesab edir ki, "Dildə absalyut qeyri sintaktik kateqoriya yoxdur [2, s. 71].

Müasir dilçilərdən B.P.Ardentovun fikrincə, nitq sintaksisdən başlanır və ifadədən ayrı-ayrı sözlər, morfemlər, səslər ayrılmışdır. Morfoloji kateqoriyalar sintaksisdə hazırlanmış,ayrılmışdır. Morfoloji kateqoriya donmuş, daşlaşmış sintaktik kateqoriyadır [2, s. 72].

Akad. Vinoqradov dil məsələsinə daha real yanaşmışdır. Morfoloji kateqoriyaların sintaktik fonda yetişdiyini qəbul edir.

V.Vinoqradov "sintaksisdə olmayan və vaxtı ilə olmayan heç nə morfologiyada yoxdur" [2, s. 72].

Marrçılar morfologiya və sintaksisə dair fikirkəri nitq hissələri və cümlə üzvü başlığı altında öyrənmişlər. Məsələn, Marr predikat və feili qarşılaşdırır. Onun fikrincə, feil adlanan nitq hissəsi dil tarixində sonrakı hadisədir [2, s. 72]. Belə hesab edir ki, predikatda birinci və ikinci şəxslərin göstəriciləri əks olunduqdan sonra feil forması yaranır. Meşşaninov Marrın fikrinə istinad edərək bir daha təsdiqləyir. Əslində,eyni fikri öz ifadəsində təkrar etmişdir."Predikativ əvvəl meydana gəlib, cümlə üzvüdür. Feil isə nitq hissəsidir. Predikat xüsusi forma aldıqdan ,bu forma hərəkət,hal ifadə edən söz qrupunda möhkəmləndikdən sonra feil əmələ gəlib" [2, s. 72]. Meşşaninov hətta belə ifadə işlətmişdir: "Predikat feili əmələ gətirmişdir" [2, s. 72] Bu nəzəri istiqamətə istinadən Meşşaninov kitablarından birinin adını "Члены предложения и части речи" qoymuşdur. Diqqət etmək kifayətdir ki,kitabı "Части речи и члены предложения" ("Nitq hissələri və cümlə üzvləri") deyil," Члени предложения и части речи" ("Cümlə üzvləri və nitq hissələri")adlandırmışdır. Kitabın belə adlandırılmasından müəllifin məsələyə yanaşması aydın olur. Meşşaninovun dil sərhədləri tanımayan, insan nitqi materiallarına əsaslanan "Nitq hissəsi və cümlə üzvü" kitabı cümlə üzvünün birinciliyi ideyasına əsaslanır. Həmin kitabdan bir cümlə nümunə: "çoxillik tədqiqatlar Marrın fikrinin təsdiqinə gətirir ki, cümlə üzvlərinin ayrılması nitq hissələrinin əmələ gəlməsinə gətirib çıxarmışdır". Bu ideya

alimin sonrakı illərdə yazdığı əsərlərdə də özünü aydın şəkildə göstərir (“Глогол”, ”Грамматический строй урартского языка”, ”Нормативное и ерготивное предложение”).

V.M.Jirmunski də bu istiqamətin nümayəndələrindən biridir. Onun fikrincə,dillərin hamısında nitq hissələri ilə cümlə üzvləri arasında az və ya çox dərəcədə müvazilik mövcuddur. O yazır:”Tarixi – genetik nöqteyi- nəzərdən nitq hissələri morfolojiləşmiş cümlə üzvüdür” [2, s. 73]. 1945-ci ildə yazdığı “Развитие категории частей речи в тюркских языках по сравнению с европейскими языками” əsərdə əsaslı danışıb. 1968-ci ildə qələmə aldığı “О природе частей речи и их классификации”əsərində fikirlərini davam etdirib. Bu əsərlərin hər ikisi dəyişiklik edilmədən 1976-cı ildə nəşr olunmuş “ Обшее и германское языкознание”kitabına daxil edilmişdir. V.M.Jirmunski türk dilləri materialına da istinad edərək qeyd etmişdir ki,flektiv hind-Avropa dilləri ilə iltisaqi türk dillərinin müqayisəsi də belə bir problemi qoymağa əsas verir ki,nitq hissələrinin mənbəyi cümlənin hissələrinə əsaslanır [2, s. 73].

O.S.Axmanova heç bir qeydə ehtiyac duymadan “nitq hissələri” terminin qarşısında belə yazır:” morfolojiləşmiş cümlə üzvləri” [2, s. 74] A.Y.Mixneviç dilçi T.Milevskinin fikri ilə razılaşaraq qeyd edir ki,nitq hissələri” hərəkətdən qalmış cümlə üzvüdür”. Savçenko isə bu mülahizəni həll edilmiş məsələ şəklində təqdim edir. O yazır: Çoxdan məlumdur ki,nitq hissələri cümlə üzvlərinin morfolojiləşməsinin nəticəsi olan söz siniflərıdir [2, s. 74].

Treşenko samadey dili materialına əsaslanaraq Jirmunskinin fikri ilə razılaşır ki,tarixi baxımdan nitq hissələri cümlə üzvlərindən əmələ gəlib [2, s. 74].

Morfologiya və sintaksis, nitq hissələri və cümlə üzvləri münasibətləri haqqında fikirlər uzaq tarixə aid deyil, müasir dövrdə də məsələ həllini tapmamışdır. Krasuxinin 1990-cı ildə bu mülahizəni dəstəkləyərək alman alimi Delbürqün “bugünkü morfologiya dünənki sintaksisdir”- fikrini bəyənməsi bunu sübut edir.

İkinci mülahizəyə görə,ilkin olaraq nitq hissələri olan sözlər yaranmış,birləşərək cümlə üzvünü,o da öz növbəsində cümlənin yaranma materialını təşkil etmişdir. Yəni birinci morfologiya, daha sonra sintaksis yaranıb. Bu fikirlə səsləşən dilçilərin görüşlərinə nəzər salaq.

Bir çoxları,o cümlədən, V.V.Vinoqradov sintaksisdən morfologiyaya doğru inkişafı ciddi şəkildə tənqid etmişdir.Bəzi alimlər məsələyə neytral yanaşaraq dəqiq fikir bildirmirlər. Onlardan biri də Sunikdir. Nitq hissələri haqqında xüsusi monoqrafik əsər yazan O.P.Sunik məsələnin qoyuluşu ilə razılaşmır və qeyd edir ki,nitq hissələrinin və ya cümlə üzvlərinin hansının hansından əvvəl gəlməsi haqqında suallara dəqiq cavab vermək mümkün deyil,çünki suallar düzgün qoyulmamışdır [2, s. 75]. Sonra müəllif özü təsdiq edir ki, söz üzvlənməyən cümlədən ayrılan zaman eyni halda həm nitq hissəsi, həm də cümlə üzvü ola bilərdi. Görünür ki,nitq hissələri də cümlə üzvləri kimi qədimdir [2, s. 75]. S.Y.Yaxontov yazır: belə düşünməyə heç bir əsas yoxdur ki,cümlə üzvləri nitq hissələrindən əvvəl əmələ gəlmiş,yaxud əksinə [2, s. 75]. P.S.Pospelovun da fikrinə görə,”Nitq hissələrinə morfolojiləşmiş cümlə üzvləri kimi baxmaq olmaz” [2, s. 75].

Nitq hissələri və cümlə üzvü arasında əlaqələrin tənqidinə, qəbul edilməməsinə əsaslanaraq bu mülahizələrin əsassız olduğunu söyləmək yanlış hesab olunar. Əvvəla, morfoloji dəyişmələr nitq fəaliiyəti üçündür. Morfoloji kateqoriyalar nitqdə sözlərin dəyişmə formalarının ümumiləşdirilərək konkret sözlərdən ayrılıb formalar sistemində hərəkətsizləşməsidir. Morfoloji kateqoriyalar sintaksisdə, sintaktik sistemdə hərəkətə gəlir. Müasir vəziyyətdə nitq hissələri bütün daxili kateqoriyaları (hər bir nitq hissəsinin özünəməxsus kateqoriyaları ilə) birlikdə müstəqil dil sahəsi qəbul olunur. Nitq hissələrindən bəhs edərkən onlar təcrid olunmuş vəziyyətdə götürülür,nitqdəki fəaliyyətləri xatırlanmır. Nitq hissələrin cümlə üzvlərinin morfolojiləşməsi prosesində yaranmasını mücərrəd nəzəri cəhətdən qəbul etmək olar,lakin bu hadisəni praktik olaraq izləmək,təsəvvür etmək çətindir. Nitq hissələri cümlədən asılı olmayaraq sərbəst şəkildə də mövcuddur. Dilin lüğət tərkibini təşkil edir, sözlərin müxtəlif meyarlara əsaslanan bölgüsüdür. Nitq hissələri morfologiyanın müstəqil tədqiqat obyektləridir. Nitq hissələrinin müəyyən rola girməsi nəticəsində cümlə üzvləri yaranır. Bu halda, nitq hissəsindən cümlə üzvünə doğru inkişaf yolu görünür. R.Budaqovun dediyi kimi,nitq hissələri cümlə sistemində özlərini təkrar etmir,onlar cümlənin xüsusiyyətindən asılı olaraq,müəyyən transformasiyaya uğrayırlar [2, s. 76].

Morfoloiya,o cümlədən nitq hissələrinin tədqiqi tarixində əksər dilçi tərəfindən qəbul edilməyən yeganə bir fikir də mövcuddur. Q.İ.Tiraskolski təklif edir ki,nitq hissələri qrammatikanın müstəqil bölməsi kimi götürülsün və ayrıca adla qrammatikanın indiki hissələrindən əvvəl verilsin [2, s. 76].

Birinci yanaşma tərəfdarları çoxluq təşkil etdiyindən qəbul edilmişdir ki, ik sintaksisin predmeti cümlə üzvü meydana gəlmiş, parçalanması nəticəsində nitq hissələri yaranır. Lakin morfologiyanın, sonrakı mərhələdə sintaksisin yaranması inandırıcı görünür. Bu mülahizəni bir neçə sübutla əsaslandırmaq mümkündür.

Əvvəla, dilçilər billdirir ki,insan nitqi üzvlənməyən cümlələrdən təşkil olunmuş,cümlələr parçalanaraq üzvləri yaradıb. Lakin bu fikirlə razılaşmaq düzgün hesab olunmur. İlk insan tipini nümunə olaraq göstərək. Tarixdən məlum olduğu kimi, üst paleolitdə "ağıllı insan" ın meydana gəlməsi, şüurun inkişafı nəticəsində səsli nitq yarandı və əlverişli ünsiyyət vasitəsi oldu. İnsanlar birdən-birə mürəkkəb dil vahidləri yarada bilməz,ilkin olaraq qırıq-qırıq səslər, bəsit sözlər istifadə olunmuşdur. Yəni dilin əsasını təşkil edən danışıq səslərinin yaranması üçün danışıq üzvləri formalaşmış, insanlar sadə dil ünsiyyətinə keçmişlər [1, s. 264]. Sonradan bu dil ünsiyyəti getdikcə mürəkkəbləşmə və zənginləşmə prosesinə qədəm qoymuşdur. Heç bir şübhə ola bilməz ki, ibtidai icma dövründəki dillər müasir dillərlə müqayisədə çox bəsit olmuşdur. Bunun başlıca səbəbləri ibtidai icma quruluşunda siniflərin olmaması, yazının yoxluğu,dövlətin yaradılmaması və s. idi [1, s. 265].

Növbəti nümunə körpə uşağın dil açmasıdır ki, nitqdə səslər yaranır,öz növbəsində sözlər, birləşmələr və cümlələr yerini alır. Nitq vahidləri kiçikdən böyüyə, sadədən mürəkkəbə doğru yaranır.

Fonetika, morfologiya, sintaksisin predmetinə diqqət yetirsək, ardıcıl olaraq fonem, morfem, söz birləşməsi və cümləni,hətta mətni öyrənir. Ali məktəblərdə bu fənlərin tədrisinə də nəzər salsaq tədqiqat obyektinin kiçikdən böyüyə doğru inkişafı ilə bağlıdır. Ən kiçik dil vahidi fonem, ən kiçik mənalı vahid isə morfem hesab olunur. Bütün morfemlər fonemlərdən təşkil olunmuşdur. Ümumi dilçilikdə də dil vahidləri kiçikdən böyüyə doğru inkişaf edir və bu vahidəri öyrənmə baxımından qrammatikanın tərkib hissələrinin ardıcıllığını söyləmək olar.

İstifadə edilmiş ədəbiyyat

1. Afad Qurbanov. Ümumi dilçilik, II cild (2cilddə), Bakı: Elm, 2011, 532 s.
2. Yusif Seyidov. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı: Bakı Universiteti, 2006, 371 s.
3. Qəzənfər Kazımov. Azərbaycan dilinin qrammatikası.
4. Qismət Cəfərov. Ümumi dilçilik etüdləri. Bakı: Elm və təhsil, 2020, 168 s.
5. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı: Şərq-Qərb

MEĞRİ ŞİVƏLƏRİ VƏ TÜRK DİLLƏRİNDƏ ƏVƏZLİKLƏR

Zəhraxanım Rəhimova*

Abstract

In my article on "Pronouns in Megri dialects and Turkic languages", I tried to draw the attention of readers to the differences and similarities in the section of pronouns, which is one of the main parts of speech of interest in the Megri dialects of western Azerbaijan and Turkic languages in general.

Keywords: *pronoun, dialects, Turkic languages, research.*

Giriş. Meğri rayonu Ermənistan Respublikasında 9 sentyabr 1930-cu ildə yaradılıb. Rayon mərkəzi Meğri (Meqri) şəhəridir. Bu yerin adı qədim mənbələrdə Mehri kimi göstərilir. Mehri toponimi isə Mehranilər sülaləsinin banisi Mehranın adı ilə əlaqləndirilir. Hətta şəhərin Mehran tərəfindən salındığı da güman edilir. Meğri kəndində hal-hazırda 65 ailə məskunlaşmışdır. Meğri adının etimologiyası ilə bağlı müxtəlif fikirlər var. Məsələn, Meğri rayonunun keçmiş adının "Mığrı" olduğunu bildirirlər. "Mığrı" sözünün mənası – "quruyan, az sulu çöl çayı olan dərə" dir. Tanınmış şair-publisist Hidayət öz ana yurdu Mığrı rayonunun adını türk soylu "mığır" tayfalarının adı ilə əlaqələndirir. Faiq İsmayılovun fikrincə, Mehri rayonunun keçmiş adının "Mığrı" olması həmin bölgənin yerli əhalisinin azərbaycanlı olduğunu təsdiqləyir (12, s. 144).

Ümumilikdə, Qərbi Azərbaycan şivələrinə Çəmbərək, Karvansaray, Basarkeçən, Böyük Qarakilsə, Dağ Borçalısı, Barana, Ağbaba, Dərələyəz, İrəvan, Zəngibasar, Qarakilsə, Meğri, Qafan şivələri daxildir.

Musa Urudun fikrincə, "Azərbaycan dili şivələrinin təsnifinə ayrıca Zəngəzur şivəsi daxil edilə bilər. Belə ki, XIX əsrdə, XX əsrin əvvəllərində Azərbaycanın inzibati ərazi vahidlərindən biri də Zəngəzur qəzası olmuşdur. Eyni zamanda "Zəngəzur toponimləri" elmi dövriyyədə yetərincə işlədilir. Zəngəzur şivəsinə Laçın, Qubadlı, Kəlbəcər, Zəngilan, Qərbi Azərbaycanın Meğri, Qafan, Sisyan, Gorus şivələri daxil edilə bilər" (12, s. 144).

Əsas hissə. Əvəzlik əsas nitq hissələri arasında özünəməxsus əlamətlərə malik olmaqla digər nitq hissələrindən fərqlənir. Əvəzlik isim, sifət, say, bəzən zərf və hətta nadirən özünü də əvəz edə bilən nitq hissəsidir. Nəticədə, əvəzlik hansı nitq hissəsini əvəz edirsə onun xüsusiyyətlərini qəbul edir.

Buludxan Xəlilovun yazdığına görə, "əvəzliklərin tarixi qədimdir. Xüsusilə, şəxs və işarə əvəzlikləri qədimliyi ilə seçilir. Mənsubiyyət və şəxs şəkilçiləri şəxs əvəzliklərindən əmələ gəlmişdir. Mən şəxs əvəzliyindən -am, -əm şəxs şəkilçisi, -ım, -im, -um, -üm mənsubiyyət şəkilçisi; sən şəxs əvəzliyindən isə -san, -sən şəxs şəkilçisi və -ın, -in, -un, -ün mənsubiyyət şəkilçisi törəmişdir (4, s. 138). Əvəzliyin yaranma tarixi 6 min il bundan öncəyə məxsusdur. İlk dəfə bu nitq hissəsi şumerlərin dilində işlənmişdir" (6, s. 3).

Şumer dilində və türk dillərində işlənən əvəzliklərə ümumi nəzər salsaq, görərik ki, elə də çox fərq yoxdur. İslam Sadıqın dediyi kimi, "Şumer və türk dillərində işarə və şəxs əvəzliklərinin yazılışı və tələffüzü demək olar ki, eynidir. Şumer dilindəki şəxs əvəzliklərinin türk dilindəkindən əsas fərqi üçüncü şəxsin sosial aktiv və sosial passiv şəxslərə bölünməsidir. Cəmdə və təkdə digər əvəzliklər yalnız fonetik baxımdan fərqlənir. Üçüncü şəxsin təkinin a səsilə ifadəsi qədim türk dilindəkinin eynidir. Qədim türk dilində o hərfi olmadığına görə, üçüncü şəxsin təki a və u səslərilə ifadə olunub. Şumer dilində işarə əvəzlikləri e (o) və bu (bi) şəkillərindədir. O işarə əvəzliyinin e səsilə ifadəsi Şumer dilində o hərfinin yoxluğu ilə bağlıdır. Bu işarə əvəzliyi isə hər iki dildə eynidir" (9, s. 376).

"Şəxs əvəzlikləri I şəxsin təkində ma -e, ma; cəmində me (n) de (n), me, II şəxsin təkində za-e, za, ze; cəmində me (n), ze (n), III şəxsin təkində e -ne//a-ne; cəmində e-ne-ne//a-ne-ne formaları ilə düzəlir.

* ***Bakı Dövlət Universiteti, Tələbə Elmi Cəmiyyətinin sədri, III kurs bakalavriat. Elek.poçt: rehimovaz2004@gmail.com. Elmi rəhbər***: *Fil.f.dok. Ramil Bayramov*.

Şumer dilində işarə əvəzlikləri: ne-en, ne-e, ne, -hur, -bi – "bu" işarə əvəzliyi mənasında işlədilir. -ri, -se, -e – "o" işarə əvəzliyi mənasında istifadə olunur.

Sual əvəzliklərindən aba (kim?) bəzən isə (hansı?) sual əvəzliyi kimi işlənir. Bu sual əvəzliyi şəxslərlə bağlı verilən suallarda və eyni zamanda keyfiyyətlə bağlı suallarda istifadə olunur. Ana (nə?), (hansı?); ana-ese (niyə?, nə üçün?); ana-gim (necə?)" (14, s. 62-65).

Şəxs əvəzlikləri – I və II şəxsin təki: mən, sən; III şəxsin təki: o

cəmi: biz, siz cəmi: onlar

III şəxsin cəmi göründüyü kimi sadəcə -lar cəm şəkilçisini əlavə etməklə yaranır: o+lar=onlar

Şəxs əvəzlikləri hallana bilir.

I və II şəxslərə -lar, -lər şəkilçiləri əsasən artırılmır. Amma istisna hallar var. Bu istisna hallar daha çox mətndə məna çalarını qüvvətli etmək üçün istifadə olunur. Sizlər, bizlər deyiləndə böyük bir toplumu, ayrılmış və qeyri-müəyyən bir toplumu bildirir.

Bəlkə qulu olaq, nökəri olaq,
Bəlkə Tərtər olaq, Həkəri olaq,
Namusun haqq-hesab çəkəni olaq
Yoxsa hər dönüşlə soyumaz ürək,
O torpaq bizləri götürməyəcək! (13, s. 304)

"Meğri şivələrində III şəxsin təki və cəmində işlənən əvəzliklər bir qədər fərqlənir. Belə ki, III şəxsin təki və cəmi Vartanizor, Ernəzir, Maralzəmi kəndlərində "o", "olar", Aldərə və Lehvaz kəndlərində ikivariantlı "o//u", "olar//ular", Şivanizor kəndində "u", "ular", Nüvədi kəndində isə "u", "ula`r" şəklində işlənir. Meğri şivələrində şəxs əvəzliyi III şəxsin cəmində özünü ollar//ullar şəklində də göstərir"(5, s. 238). U forması isə həm Şimal qrupunda, həm də Şərq (Quba, Bakı dialektlərində) və Cənub (Ordubad) dialektinin Kotam kənd şivəsində, Ermənistan SSR-nin Sisyan və Meğri rayonları şivələrində) qruplarında özünü göstərir" (8, s. 233).

Digər şivələrdə, eyni zamanda III şəxsin cəmində işlənən əvəzliklər arasında onnar, unnar, holar, honnar (Dərbənd, Qax, Şəki, Zaqatala, Naxçıvan, Çəmbərək)

Türk dillərindən qaqauz türkcəsində "onnar", türkmən, qazax və noqay türkcəsində "olar", özbəkcədə "ular", tatar türkcəsində isə "alar" formaları mövcuddur (Ahmet.B.Ercilasun, Türk lehçeleri grameri).

İşarə əvəzlikləri – "Qədim türk yazılarında işarə əvəzlikləri iki sözdən "bu" və "ol" əvəzliklərindən ibarət olmuşdur" (10, s. 113).

Müasir dilimizdə isə işarə əvəzliklərinin bu növlərinə rast gəlinir: o, bu, elə, belə, həmin.

"Bu işarə əvəzliyi yaxın məsafə üçün işlənir və bütün türk dillərində müştərəkdir" (7, s. 110).

Əhmədəli Əliyevə görə, "meğri şivələrində işarə əvəzlikləri bu şəkildə yaranır: o // u və bu işarə əvəzliklərinin əvvəlinə "ha" işarə ədatının artırılması yolu ilə: habu // habı, hao // hau və s" (5, s. 243-244).

Ol nə dağdır, onu lalə bürüməz?
Ol nə dağdır, yaz-qış qarı əriməz?
Ol kim idi, ölməz, itməz, qarımaz?
Ol kim idi, qədəriyə gəzər hey (3, s. 16).

"Digər yaranma üsulu isə o // u və bu işarə əvəzliklərinə III şəxsin təkində işlənən xəbərlik şəkilçisinin -dı (dır), -du (dur) və xəbərlik şəkilçisindən sonra ha nidasının artırılması yolu ilə: buduha // bıdıha, oduha // uduha // udıha və s.

Başqa şəkildə o // u, bu işarə əvəzliklərinə -dır, -dur xəbərlik şəkilçisi, a nidası və na ünsürünün artırılması yolu ilə: budurana // bıdırana, odurana // udurana // udırana və s.

Ha, hay, ho, hao, u, habı, havı, habu, həblə, helə, həbelə, ilə (Şəki, Qax, Zaq., Meğri, Dər., Nax., Təbriz və s.)" (8, s. 228).

Türk dillərində işarə əvəzliklərinin işlənmə üsulları: başqırd türkcəsində bıl, şul, ul, üşü, tigi, bınaw anaw, anaq; tuva türkcəsində bo, ol, doo, döö, (duu // düü); xakas tütkcəsi pu, tiği, ol; qaraqalpaq türkcəsində bul, sol, ol, usı, ana, anaw formaları işlənir. Özbək dialektlərində bundək, bundəi, bunək, ənə formaları da işlənir (Ahmet.B.Ercilasun, Türk lehçeleri grameri).

Sual əvəzlikləri – kim, nə, hara, neçə, nə qədər, hansı, nə cür, haçan, nə zaman, nə səbəbə və s. Kim və nə əvəzlikləri işlənmə mövqeyinə görə isim kimi kəmiyyət, hal, mənsubiyyət şəkilçiləri qəbul etmə funksiyasına malikdir.

Mən sayım, sən sadala,
Gör kimlər şeir yazır.
Mühəndislər, polislər,
Həkimlər şeir yazır.
Bunu bildim, tanıdım,
Ta kimlər şeir yazır?!
Elmdən yorulanda
Alim də şeir yazır (15).

Bəzi sual əvəzlikləri vasitəsilə sadəcə cavab almaq məqsədilə sual cümləsi qurulmur. Cavab tələb etməyən sual cümlələri ritorik sual cümlələri adlanır.

Əcəb bilsəm, bəni şeyda qılan kim?
Bana bu eşq odun peyda qılan kim?
Əcəblərəm, əcəb qaldum ilahi
İman əhlin dutub tərsa qılan kim? (İzzəddin Həsənoğlu, "Kim" qəzəli)

"Meğri şivələrində işlənən sual əvəzlikləri kim, nə, neçə, nə cür, nəxərtə, nətəːr, hara, hayana, nə vax//ha vax, hanki, həyana və s. Bu sual əvəzliklərinin yalnız bir qismi isim kimi hallanır" (5, s. 245).

Alçalar, ay alçalar,
Balam havax əl çalar? (2, s. 353)

"Qədim yazılı abidələrdə sual əvəzliklərinin kim/kem və nə sözlərindən ibarət olmuşdur. Göytürk yazılarında işlənən kantan – hardan, haradan formasında işlənsə də, klassik ədəbiyyatda bu əvəzliyin kandan, handa, xanda fonetik variantlarına da rast gəlinir" (10, s. 114).

Digər şivələrdə sual əvəzliklərinin həncəri (necə), neşin//neşın (niyə), nəblə//nəblənə (nə qədər), handa (nə vaxt), nəhəl (hansı) və s. variantlarına da rast gəlinir.

Türk dillərində - qaraqalpaq türkcəsində kim, kimler, ne, neşewi (neçəsi), qayda (haraya), qaysısı (hansı); qırğız türkcəsində kançoo (nə qədər), emne (nə), neçesi (nə qədəri) və s.; çuvaş türkcəsində kam (kim), min (nə), hişi (hansı), tem (nə) və s. (A.B.Ercilasun, Türk lehçeleri grameri)

Qeyri-müəyyən əvəzliklər – Kimi, kimisi, kimsə, kim isə, hər kim, filankəs, biri, birisi, hər biri və s.

"Meğri şivələrində kim, kimisi, kimsə, biri, bəzi, bəzisi, hamı//hammı, başqa, heş kim, filan-beşməkən, homu//hommu//hammi və s" (5, s. 246).

Toy düyüsünü sel aparıf,
Toy mağarını yel aparıf,
Toy düyüsünü sel aparıf,
Toy mağarı yasında quruluf,
Xanəndəsi də molladan olan filankəs (2, s. 347).

Türkiyə türkcəsində adam, insan, kimse, herkes, cümlesi, falan, filan, (öbürü, biri, birisi, bazısı, başkası, gerisi, çokları, öteki, tümü və s. sifətlərə, sual əvəzlikləri və zərflərə yiyəlik hal şəkilçisini artırmaqla yaranır. Altay türkcəsində onçoloru/onçozı (hamısı), kajı la kiji (hər kəs), birüzi/kem de (biri, birisi), bir kezigi (bir qismi) və s. (A.B.Ercilasun, Türk lehçeleri grameri)

Qayıdış əvəzlikləri – "öz əvəzliyinə mənsubiyyət şəkilçilərinin artırılması ilə düzəlir. Meğri şivələrində də qayıdış əvəzliyi öz sözünün sonuna müvafiq mənsubiyyət şəkilçilərinin artırılması ilə düzəlir" (5, s. 241).

Talıbam, gəzirəm dəstimdə çəlik,
Can ağrısı fələk verib üstəlik.
Öz-özümü girləyirəm hələlik,
Gözüm kəsmir, uzaqları görmürəm (3, s. 199).

“Qayıdış əvəzliyinin işlənməsinə görə Nüvədi şivəsinin digər şivələrdən fərqləndirən cəhət mənsubiyyət şəkilçisində “ü” dodaq saiti əvəzində “i” damaq saitinin işlənməsidir. Meğri şivələrində qayıdış əvəzliyinin II şəxs təki ismin yiyəlik, yönlük və təsirlik hallarında n səsini itirərək, burun saiti ilə işlənir: öz u, öz a:, öz i, öz o: və s” (5, s. 241).

Türkmən türkcəsində “ööz” əvəzliyinin mənsubiyyətə görə dəyişməsilə, krım-tatar türkcəsində “öz” və “kendi” sözləriylə, qaraçay-balkar türkcəsində “kesi, kendi” sözləriyə yaranır. (Ahmet.B.Ercilasun, Türk lehçeleri grameri)

Nəticə. Yazılanlardan belə bir nəticəyə gəlmək olar ki, istər türk dillərində, istər meğri şivələrində işlənən əvəzlik formaları bir-biriylə oxşarlığını büruzə verir. Əlbəttə, bu o demək deyil ki, fərqli cəhətlər yoxdur. Əslində bu əvəzliklər mahiyyət baxımından eynidir, amma ifadə olunma baxımından fərqlidir. Məsələn türk dillərində sual əvəzliklərinin naşey, nesoy, nica, kimsey, kaysı; işarə əvəzliklərinin sol sonın, sona, sosı, munav; şəxs əvəzliklərinin ol onın, siz sizin və s. formaları işləkdir. Lakin bu formaların heç biri meğri şivələri, eləcə də digər dialekt və şivələrdə müşahidə olunmayıb.

İstifadə edilmiş ədəbiyyat

1. Ercilasun A.B. Türk lehçeleri grameri. Akçağ.
2. AMEA Folklor İnstitutu. Qərbi Azərbaycan folkloru. I cild. Bakı, 2023.
3. Azərbaycan Aşıqlar Birliyi. Qərbi Azərbaycan Aşıqları (poeziya antologiyası). Bakı, 2023.
4. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə. Bakı, 2016.
5. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı: Elm. 2003.
6. Esedov, A. (2011). Kafkaslarda Azeri Türk Edebiyatının Yeni Aşaması: Doğu deneyiminden Batı deneyimine. TURANSAM: Turan Stratejik Araştırmaları Merkezi Dergisi, 9, 73–75. http://www.turansam.org
7. Asadov, A. (2021). Organizational issues of work on world literature samples in primary schools. Journal of Preschool and Primary Education, 236(3), 81–93.
8. Asadov, A. (2021). The role of world literature in shaping students' planetary thinking. Azerbaijan Journal of Educational Studies, 697(4), 111–119.
9. Najafov R. (2021). On the philosophical study of the origin of irrational knowledge in Eastern peripatetic philosophy: “revelation, dream and inspiration”: in the context of the philosophical views of Shihabeddin Yahya Suhrawardi, Abulhasan Bahmaniyar and Al-Kindi. Science, Education and Innovations in the Context of Modern Problems. 8(3), 48-67.
10. Qurbanova G. Oğuz dillərində əvəzliklər və onların yaranmasında rolu. Bakı: Kooperasiya, 2016.
11. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Azərbaycan Universiteti, 1990.
12. Bayramov İ. Azərbaycan dialektologiyası. Ankara, 2022.
13. Sadıq İ. Tanrı dili, Şumer dili, Türk dili. Bakı, 2020.
14. Xudiyev N. Qədim türk yazılı abidələrinin dili. Bakı, 2015.
15. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 2008.
16. Urud M. Zəngəzur. Bakı, 2005.
17. Rüstəmxanlı S. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004.
18. Канева И. Т. Шумерский язык. Санкт-Петербург, 2006.
19. https://www.anl.az/down/meqale/edebiyyat/2018/iyun/595170.htm

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ ORFOQRAFİK SƏHVLƏR

Məlahət Cəlilova*

Abstract

Spellıng mıstakes ın mass media

The issue of spelling is an actual problem in modern linguistics. Spelling rules are violated ın various writing samples. Attention should be paid to this problem. İt's important. This problem exist mostly ın mass media sources. This is unacceptable in mass media used by all People. It is not correct inappropriately writing in literary language, abbreviate letters, and write with pronunciation on various news sites. it is possible to eliminate these mistakes. For this, it is important to read scientific and artistic works, use orthographic and orthoepic dictionaries

Keywords: *spelling, literary language, linguistics, Word, dictionary.*

Giriş. Orfoqrafiya sözlərin bütün qrammatik formaları üçün vahid yazı qaydalarını müəyyən edir və bu səbəbdən yazılı ədəbi dilin inkişafında orfoqrafiya mühüm rol oynayır. Orfoqrafiya normalarının pozulması oxunun çətinləşməsinə, fikir dolaşıqlığına və bir çox hallarda isə hətta düzgün olmayan anlaşmaya gətirib çıxarır.

Əfsuslar olsun ki, müasir dövrümüzdə kütləvi informasiya vasitələrində də orfoqrafik yazı qaydalarının pozulduğunu müşahidə edirik. Qəzetlərdə, əsasən də, xəbər saytlarında bu fonetik normanın pozulması aktual problemə çevrilib.

Məlum olduğu kimi, mətbuat- qəzet, jurnal, xəbər saytları publisistik üslubda təzahür edir. Publisistik üslub məlumat vermək, kütlələrə təsir göstərmək məqsədi daşıyır. Bu üslubun tələbinə əsasən,məlumat aydın, anlaşıqlı və təsirli olmalıdır. Lakin, orfoqrafik normalar pozulduqda bu tələbləri yerinə yetirmək də çətinləşir.

Son 20 ildə publisistik üslub digər funksional üslublarla müqayisədə son dərəcə çevik inkişaf yolu keçmişdir. Sürətlə artan mətbuat vasitələri müxtəlif olduğu üçün burada təzahür edən dil də müxtəlifliyi ilə seçilir. Dilə gətirilən yeniliklər oxucunun və ya dinləyicinin nitq mədəniyyətinin yüksəlməsinə xidmət edir.

Xəbər saytlarında orfoqrafik səhvlər olan nümunələrə nəzər salaq:

1. Vitse-prezident institutu həm effektiv, operativ ola bilər və ***məhsulliyətli*** idarə etmə orqanı yarana bilər.

https://baku.ws/politics/42093

Nümunədən göründüyü kimi, söz tələffüz formasında yazılıb və tələffüzdə də **səsartımı** müşahidə olunur. Burada sözün düzgün yazılışı "məsuliyyətli" olmalıdır.

2. Fransanın ***məhşur*** markası "Dior" məhkəməyə verilib.

https://news.milli.az/interest/1117666.html

3. O, bir müddət əvvəl Azərbaycan ordusunda xidmət keçib və ***təxris*** olunduqdan sonra ANS telekanalında fəaliyyətini davam etdirib.

https://axsam.az/news/25580-bernardo-gece-klubunda-dava-saldi

Loru danışıq dilində istifadə olunan **yerdəyişmə** fonetik hadisəsi hər iki nümunədə aydın şəkildə görünür. Sözdə iki sait yanaşı işləndiyi üçün onlar qarşılıqlı olaraq öz mövqelərini dəyişiblər. Qeyd edim ki, birinci sözün düzgün yazılış forması "məşhur", digərinin isə "tərxis"dir.

4. Dünya ölkələri prezidentlərinin şəxsi ***aşbazları*** Hindistanın paytaxtı Dehlidə keçirilən qurultayda bir araya gəliblər.

https://sputnik.az/20161026/dunya-lider-bash-ashbaz-407495719.html

Əslinə qalsa, bu sözün düzgün yazılışı mübahisəlidir. Belə ki, "aşpaz" və "aşbaz" sözləri arasında leksik məna fərqi vardır. Professor Ramazan Siracoğlu qeyd edir ki, "aşpa(ə)z" aş bişirən, "aşbaz" aş

* ***Bakı Dövlət Universiteti, II kurs bakalavriat. Elek.poçt: celilovamelahet685@gmail.com. Rəyçi:*** *Prof. Reyhan Həbibli.*

sevən deməkdir. Bir fars dili mütəxəssisi kimi R.Siracoğlunun təhlil etdiyi bu söz Azərbaycan dilinin orfoqrafiya və izahlı lüğətlərinə "aşpaz" formasında daxil edilib.

5. Müzakirələrdən sonra ***lahiyə*** II oxunuşla qəbul edilib.

https://sputnik.az/20211220/sabir-rustemxanli-qanun-yaradiciliginda-hec-meni-yada-salmayiblar-437418235.html

Ərəb dilindən dilimizə keçmiş bu söz "layihə" formasında yazılır və [la:yihə] kimi tələffüz olunur.

6. Üstəlik sürücünü təlimatları bilməməkdə ***itdiham*** edir. (https://news.milli.az/society/547665.html)
7. Xəstəliyin əlamətləri yüksək temperatur, ürəkbulanma, ***səpgi***, baş və bel ağrısıdır (https://oxu.az/world/739944)

Söz daxilində iki kar samit yanaşı gəldikdə ikincisi cingiltili qarşılığına keçir. Lakin burada bir məqam var ki, birinci nümunədə "ittiham" sözündə kar samitlər eynicinsli, ikinci nümunədə "səpki" sözündə müxtəlifcinslidir.

8. Çünki, evlərə görə verilən ***konpensasiya*** ilə elə "Kubinka"nın yerində ev almaq mümkün deyil (https://sputnik.az/20230409/bakinin-qedim-mehellesi-tarixe-qovusur---fotovideo-453543747.html)

Ümumiyyətlə, kombayn, kömbə, pambıq, kombinat, kompüter, kompas sözlərinin yazılışında ilk hecasında **m** samiti yazılır. Bəzi sözlər də vardır ki, yazılışında ilk hecasındakı samit **m** şəklində tələffüz olunmasına baxmayaraq **n** yazılır: şənbə, qənbər, zənbil, günbəz və s. sözlər bu kateqoriyaya aiddir.

9. Nigar Şabanovaya Rövşanədən ***ismarıç***: İşiniz gücünüz yoxdur?! (https://www.instagram.com/reel/Cqu11hkIWXg/?utm_source=ig_web_button_share_sheet&igshid=MzRlODBiNWFlZA==)
10. Paytaxt yeni həftəyə yenə ***tıxaçla*** başladı.

https://qafqazinfo.az/news/detail/paytaxt-yeni-hefteye-yene-tixacla-basladi-399658

Burada da sözlər tələffüz formasında yazılmışdır. "İsmarıc" sözünün son samiti kar qarşılığına keçmişdir. "Tıxac" sözünə isə samitlə başlanan şəkilçi artırıldığı üçün sözün son samiti karlaşmışdır.

11. Adıçəkilən şəxs bağça müdirlərindən pul yığmaqla ***məktəbə qədər tərbiyə*** müəssisələrinin qazlaşdırılması işlərinə də cəlb edilib (https://baku.ws/incident/176483)

Nümunədə 2 söz səhv yazılmışdır. Birinci söz bitişik yazılan mürəkkəb sifətdir. Digər sözün düzgün orfoqrafik yazılışında bir y samiti olduğu halda 2 y yazılmışdır. Tələffüz zamanı da bu söz [tərbiyə] kimi tələffüz olunur. Yəni, burada səsartımı həm orfoqrafik, həm də orfoepik normanı pozmuşdur.

12. ***Nəhayyət***, onlar üzgünlükdən həlak ola bilərlər (https://kayzen.az/blog/sa%C4%9Flam-h%C9%99yat-t%C9%99rzi/7146/qidalanma.html)

Bu söz orfoqrafiya lüğətlərinə "nəhayət" kimi daxil olmuşdur. Adətən, tərkibində -iyyat2 şəkilçisi işlənmiş sözlər qoşa y ilə yazılır.

13. Oğlunu ***hərbiçi*** kimi görmək istəyirmiş (https://news.milli.az/showbiz/1107703.html)

Söz daxilində 2 samit yanaşı işləndiyi üçün tələffüz zamanı saitartımı baş verə bilir. Lakin, düzgün orfoqrafik yazılışda "hərbiçi" yox, "hərbçi" yazılmalıdır.

14. Diqqət çəkən ***məmaqlardan*** biri də uşaq ***baxcalarına*** işçilərin götürülməsi ilə bağlıdır.

https://baku.ws/incident/176483

Burada da hər iki sözün yazılışında kobud orfoqrafik səhvə yol verilib. Birinci sözdə hərflərin yeri dəyişdirilib (məqam). Digər sözdə isə ç samitinin yerinə c yazılmışdır.

15. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ***sədir*** müavini təyin olunub.

https://axar.az/news/gundem/736060.html

16. İndiki ***dövürdə*** insanlar qızıl vaxtlarının dəyərini bilmirlər, əvvəllər televizor, kompüter olmayan vaxtlarda insanlar daha çox kitab oxuyurdular.

https://dalidag.az/karusel/126-biz-niye-kitab-oxumaliyiq.html

Hər iki nümunədən göründüyü kimi iki müxtəlifcinsli samit yanaşı işləndiyi üçün tələffüz zamanı arasına sait daxil olmuşdur.

17. Bu, artıq ***normotiv*** tələbdir.

https://yenisabah.az/yayda-metro-gece-1-e-kimi-isleyecek

Bu söz "norma" sözündən əmələ gəldiyi üçün düzgün yazılış forması "normativ" olmalıdır.

18. Sonra tədbirdə çıxış edən muzeyin qurucusu Şeyx Faysal bin Qassim Al Tani öz ürək sözlərini ifadə edərək bu cür ***eksponantları*** muzeydə sərgiləməkdən məmnunluq hissi keçirdiklərini qeyd edib.

https://axsam.az/news/142347-qeterde-azerbaycan-gusesinin-acilis-merasimi-kecirildi-fotolar

Nümunədə səhv yazılmış sözdə **səsartımı** hadisəsi baş versə də əslində, bu həm orfoqrafik, həm də orfoepik normalara ziddir. Çünki sözün düzgün yazılışı "eksponat"dır. Tələffüz zamanı isə [ekspanat] olur və səsfərqləşməsi baş verir.

19. Axşam.az xəbər verir ki, 2003-cü ildən hərbi sahədə çalışan kapitan İsmayılov, əvvəl bölük komandiri, daha sonra isə Qərargah rəisi kimi ***fəaliyət*** göstərib.

https://axsam.az/news/125400-o-seklin-qehremani-video

"Fəaliyyət" sözündə -iyyat2 şəkilçisi işləndiyi üçün tələffüz zamanı səsdüşümü hadisəsi baş verir: [fəaliyət]

20. Milli.Az Trend-ə istinadən xəbər verir ki, külək və sel şəhərin bütün istiqamətlərində özünü çoxsaylı fəsadlarla ***biruzə*** verib.

https://news.milli.az/incedent/1130579.html

Yenə də loru danışıq dilinin təcəssümü olan **dissimilyasiya** hadisəsi bu nümunədəki sözdə də baş vermişdir. Sözün düzgün yazılış forması "büruzə"dir.

21. İran adlanan ölkənin casus və ***şaiyə*** şəbəkəsi, mediaya sızmış nüfuz müvəkkilləri, dini təhsil və turizm sahəsində "ixtisaslaşdırılmış" əlaltıları Azərbaycanın konstitusion dövlət quruluşuna, milli-mənəvi dəyərlərinə qarşı, sözün əsl mənasında savaş açıblar və bir çox vətəndaşlarımızın səmimi hislərindən sui-istifadə etməklə, zəif iradəli, siyasi baxımdan kamil olmayan şəxsləri təsir altına almaqla, Azərbaycanda geniş təsir imkanlarına malik olan "yumşaq güc" formalaşdırmaq istəyiblər.

https://news.milli.az/politics/1102789.html

Yazılışında kobud səhvə yol verilmiş sözlərdən biri də "şayiə" sözüdür. Bu sözdə tələffüz zamanı səsdüşümü hadisəsi baş verir.

Nümunələrdən də göründüyü kimi xəbər saytlarında ciddi şəkildə orfoqrafik pozuntulara yol kombayn verilib. Bəs bu səhvləri aradan qaldırmaq üçün nə etməli?

Sözlərin yazılışı zamanı səhv etməmək üçün bu orfoqrafik qaydalara diqqət edək:

1. saitli alınma sözlər **a** və ya **o** ilə deyilməsinə baxmayaraq **o** ilə yazılır: Avtomat, poeziya, , polkovnik və s.
2. Qəbir, zehin, qədir, əsil, şeir, ətir, isim, cisim kimi sözlər tələffüzdə olduğu kimi 2 heca ilə yazılır.
3. Kombayn, kömbə, pambıq, kombinat sözlərini çıxmaq şərti ilə ilk hecasındakı **n** samiti həm **n**, həm də **m** şəklində tələffüz olunmasına baxmayaraq **n** yazılır: şənbə, qənbər, zənbil, günbəz və s.
4. Qoşasamitli təkhecalı sözlərin sonunda samitlərin hər ikisi yazılır: xətt, sirr, fənn, haqq, zidd, hiss, küll və s.
5. Iki sait arasında gələn qoşa samitlər olduğu kimi yazılır: klassik, vassal, libretto və s.

Onu da qeyd edim ki, sözdə təkcə hərf səhvi etmək və ya sözü tələffüz şəklində yazmaq yox, həm də onun bitişik, ayrı və ya defislə yazılmasında da səhv etmək orfoqrafik səhv sayılır. Məsələn,

- Sosial şəbəkə istifadəçiləri kinoteatrlarda nümayiş etdirilən filmlərdəki tərcümə və dublyaj problemlərini, ***alt yazılardakı*** (subtitr) kobud səhvləri qabardırlar.

https://sputnik.az/20230723/kinoteatr-sebekeleri-izleyicileri-narazi-salan-kobud-sehvlerin-sebeblerini-aciqladilar-457045694.html

Bitişik yazılan və bir vurğu altında deyilən mürəkkəb isimlərdən biri də altyazı sözüdür.

- Bununla belə, Pentaqon rəhbəri Lloyd Austin bildirib ki, "Kiyevin ***əks hücumu*** davam etdirmək üçün kifayət qədər gücü var" (https://sputnik.az/20230729/usq-nin-real-hucumu-qacilmaz-olaraq-sona-catir-457253461.html)

Bir qayda olaraq, birinci tərəfi **qeyri**, **əks**, **külli**, **eks**, **vitse**, **kontr**, **ober** sözlərindən ibarət olan mürəkkəb sözlər defislə yazılır. Məsələn, qeyri-adi, ober-leytenant, külli-ixtiyar və s.

- Ötən gün səhər saat 09:00 radələrində əsgər ***yola salma*** mərasimində avtoxuliqanlıq hərəkətləri edərək görüntüləri sosial mediada paylaşan Astara rayon sakinləri Dövlət Yol Polisi əməkdaşları tərəfindən saxlanılıblar (https://baku.ws/incident/193435)

Bu nümunədəki söz də bitişik yazılan mürəkkəb isimdir. "Yolasalma" yazılır və bir vurğu altında deyilir.

Nümunələrdə ardıcıl olaraq sözlər alt yazılardakı- altyazılardakı, əks hücumu- əks-hücumu, yola salma-yolasalma şəklində yazılmalıdır.

Bu məqalədə deyilənlərdən və göstərilən nümunələrdən belə nəticə çıxarmaq olar ki, yazı insanların mədəniləşməsində və daha savadlı olmalarında mühüm rola malikdir və onun ən böyük qiyməti ictimailəşdirici xarakterindədir. Belə ki, insan cəmiyyətlərinin mədəni əlaqələrini daha da sıxlaşdıran, insanların fikirlərini, mədəni zənginliklərini ortaqlaşdıran ən yaxşı və ən münasib vasitə yazıdır. Məhz buna görə də, yazıda orfoqrafik səhvlər etməmək çox vacib şərtdir. Xüsusilə də, KİV-də.

Yazılı nitqdə səhvlərə yol verməmək üçün orfoqrafik qaydaları bilmək və onlara əməl etmək lazımdır. Sözlərin düzgün yazılışı üçün orfoqrafik lüğətlərdən istifadə etmək olar. Bununla yanaşı, istər yazılı, istərsə də şifahi ədəbi dilin inkişafında məktəb təhsilinin, mütaliənin, elmi əsərlərin oxunmasının da rolu böyükdür.

İstifadə edilmiş ədəbiyyat

1. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I hissə. Fonetika, orfoepiya, orfoqrafiya Bakı: Şərq-Qərb, 2007, 256 s. səh. 115-122, səh. 212-214, səh. 220-221
2. Güvən nəşriyyatı. Azərbaycan dili. ŞƏRQ-QƏRB-2016. Səh. 205, 212, 218
3. Hacıyeva İ. Nitq mədəniyyəti. Dərs vəsaiti, təkmilləş. 2-ci nəşri. Bakı, 2014, 242 s. səh. 63-65
4. Həsənov H. Müasir Azərbaycan dilinin fonetikası. Dərslik, Bakı: Təfəkkür, 2004, 306 səh. s. 92, s. 253, s. 257
5. Xəlilov B. Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya. Bakı: Nurlan, səh. 231-232, səh. 235
6. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili [2 cilddə], I cild. Bakı, 2003. 450 s. səh. 166-168, səh. 173.
7. Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyəti və Ritorika. Bakı: Nurlar, 2014, 400 s. səh. 63-64

İnternet resursları:

1. Azleks/ orfoqrafiya https://orfoqrafiya.azleks.az/
2. Göyyallı X. / Bir daha "aşbaz" sözünün yazılışı haqda https://modern.az/az/news/217964/bir-daha-asbaz-sozunun-yazilisi-haqda

ƏŞYALARIN ADLANDIRILMASINDA TƏFƏKKÜRÜN TƏSİRİ

Zərintac Şükürzadə*

Abstrakt

The ınfluence of thınkıng on names of objects

The article talks about the relationship between language and thinking in human life. It is impossible to imagine human life without language. Language is a universal system for expressing human thought. Language and thought are two inextricably linked types of human activity as a social being. In the article, this main problem of psycholinguistics - the topic of language and thinking was touched upon, and their inseparable, mutual relationship in human life was noted. Also, the issues of the relationship between word and concept, object and its name were discussed, scientific ideas were involved in a comparative study, and certain results were obtained.

Keywords: *language, thinking, concept, object, communication, civilization, development.*

Giriş. Psixolinqvistika – dil və psixologiyanın qovuşmasında meydana çıxan müasir dilçilik istiqamətidir. İnsanın nitq fəaliyyətinin öyrənilməsi məqsədilə psixologiya və dilçiliyin birləşdiyi elmi istiqamət psixolinqvistika adlanır. Dilin fəaliyyəti ilə bağlı nə varsa, psixolonqvistikanın predmeti sayıla bilər. Müasir dilçiliyin banisi Ferdinand de Sössür (1857-1913) tərəfindən elmə gətirilən terminlərdən istifadə edərək psixolinqvistikanın obyektinə bunları aid edə bilərik: lange (dil), parole (nitq) və dil ilə nitqi bir araya gətirən langage (nitq fəaliyyəti) [2, s. 34]. Buna baxmayaraq, psixolinqvistikanın obyekti haqqında ilk fikirləri tanınmış alman alimi Vilhelm fon Humboldt (1767-1835) söyləmişdir : "Dili ölü məhsul (Erzeugtes) deyil, yaradıcılıq prosesi (Erzeugung) hesab etmək lazımdır". Və sonra Humboldt əlavə edir: "Dil fəaliyyətin (Erqon) məhsulu deyil, elə fəaliyyətin özüdür. (Energeia)" [2, s. 35].

Əsas hissə. Psixolinqvistika ilk növbədə eksperimental bir elmdir. Psixolinqvistik eksperimentlər üçün bəzən çox incə və zəhmət tələb edən onlarla üsul işlənib hazırlanmışdır. Psixolinqvistika nisbətən yeni yaranan elm olsa da, onun problemlərinin kökü dərin qatlardan gəlir: "İnsanların dediyi ixtiyari söz onların təfəkküründə hansı obrazı yaradır? Bu obraz, ümumiyyətlə, bizim dediyimiz sözlə əlaqəlidir, yoxsa biz bunu təbii olaraq, ixtiyari deyirik? Təfəkkür dili, yoxsa dil təfəkkürü yaradır? Əgər bütün insanlar üçün ümumi təfəkkür mövcuddursa, nə üçün bütün xalqlar üçün ümumi dil yoxdur? [1, s. 265].

Bu kimi suallara elmi yanaşmalar olsa da, filosofların, təbiətşünasların, yazıçı və şairlərin təfəkkür və dilin bir-birinə bağlı olması haqqında söylədiklərinə nəzər salmaq çox faydalıdır.

Beynəlxalq səviyyədə tanınmış alim, nisbilik nəzəriyyəsinin yaradıcısı Albert Enşteyn riyaziyyatçı Jak Hadamara yazdığı məktubda qeyd edir: "Sözlər və ya dil, yazıldığı və tələffüz edildiyi kimi mənim düşüncəmdə heç bir rol oynamır. Təbii ki, bu elementlərlə onlara uyğun gələn məntiqi anlayışlar arasında müəyyən əlaqə var. Lakin bunları tapmaq çox çətindir" [5, s. 45].

XX əsrin ən yaxşı opera ifaçılarından biri Boris Xristov milliyyətcə bolqar idi. Lakin müğənni uzun illər İtaliyada yaşamış, "La Skala" teatrının solisti olmuşdur. O, müsahibələrinin birində etiraf edir: "Mən italyan dilində danışanda italyan dilində düşünürəm. Mən bolqar dilində danışanda bolqarca düşünürəm".

Polşa kino rejissoru Xristofor Zanussi deyir: "Dil də mentaliteti müəyyən edir. Mən bir neçə xarici dildə danışıram və görürəm ki, bir dildən digərinə keçəndə bir az başqa cür düşünməyə başlayıram" [5, s. 47]. Və nəhayət, antik müəlliflərdən Kvintilian yazır: "Mən nə yazacağımı hələ bilmirəm. Düşüncəm məndə bir təşviş yaradır, o hal-hazırda ağlımı, qəlbimi, bildiyim hər şeyi başqalarına çatdırmaq istəyi kimi mövcuddur. Düşüncəm məndə yaşayır, amma bunun ifadəsi üçün hansı yolları tapacağı hələ məlum deyil" [5, s. 50].

* ***Bakı Dövlət Universiteti, III kurs bakalavriat. Elek.poçt: sukurzadzrintac@gmail.com. Rəyçi:*** *Prof. Sənubər Abdullayeva.*

Göründüyü kimi, A.Enşteyn dil və təfəkkür arasında əlaqənin olduğunu qəbul etsə də, onu tapmağın çətin olduğunu düşünür, X.Boris dilin tamamilə düşüncəyə təsir etdiyi fikrindədirsə, X.Zanussiyə görə dil mentaliletlə əlaqəlidir, Kvintilian isə düşüncənin dildən daha əvvəl mövcud olduğunu, lakin onun dil ilə ifadə olunduğu qənaətindədir.

Dillə düşünmək nə demək olduğunu, dilin təfəkkür prosesində hansı rolu oynadığını, burada hansı dil vahidlərinin iştirak etdiyini (səslər, sözlər, söz birləşmələri..) araşdırmaq psixolinqvistikanın əsas problemlərindən biridir (Asadov, A. 2021).

Məsələn, kimdənsə adının nə olduğunu soruşuruqsa, yaxud, saatın neçə olduğu ilə bağlı suala cavab veririksə, burada dil nə dərəcədə şüurlu, yaxud avtomatik istifadə olunur? Əgər avtomatik istifadə olunursa, bu bütöv bir xalqın, millətin, yoxsa ayrı- ayrı insanların dilidir?

Məlumdur ki, burada ciddi elmi araşdırmalar tələb edən problemlər var. Dilçilər uzun müddət bu problemlərin həlli ilə məşğul olmuş, bir sıra nəticələrə gəlmişlər. Biz də həmin nəticələri göstərməyə çalışaraq öz qənaətlərimizi təqdim edəcəyik. Öncə adlandırma prosesindən danışaq.

Rusiyada nəşr olunan E.İ.Qolanovanın "Adlar necə yaranır" kitabı aşağıdakı sözlərlə başlayır: "Ətrafımızda, dünyada hər şeyin adı var" [3, s. 6]. Şübhəsiz, İnsan bu dünyada yaşasa da, o, həm də, ikinci, paralel dünyada – söz dünyasında yaşayır. Deməli, hər bir obyektin öz adı var. Hətta, biz bu və ya digər xüsusi obyektin adını bilməsək də, dünyada bu adı bilən başqa insanlar mütləq vardır... Əslində, insan bu sahədə çox seçicidir: belə ki, o yalnız özünə ən yaxın olanı, özünün ən çox ehtiyac duyduğu şeylərin adını daşıyır. Belə bir misal gətirək: Bir nəfər mağazadan bir cüt ayaqqabı aldı. Ayaqqabılar tanınmış şirkətdən olsa da, çox keyfiyyətli görünsə də, ikinci gün qüsur ortaya çıxdı. Ayaqqabının bağları üçün olan dəliklərin metal halqalarından biri düşdü. O fikirləşdi: "Mən öz fikrimi necə ifadə edim? Axı, ayaqqabının bu hissəsi nə adlanır? Ətrafımızda mini-eksperiment keçirməyə çalışdıq. Mən 10 nəfərdən, tanışlarımdan xahiş etdik ki, ayaqqabının bu hissəsinin necə adlandığını desinlər. Nəticədə 60-dan çox müxtəlif ad əldə edildi. Onlardan bəziləri dəfələrlə təkrar olunsa da, o həlqənin adını bircə nəfər belə olsun çəkmədi. Bəlkə də, həmin əşyanın ümumi adının olmaması bu vəziyyətə gətirib çıxardı. Lakin, belə bir sual yaranır: Əgər o əşya varsa, nə üçün onun adı yoxdur? Yaxşı, deyək ki, ayaqqabı hissələri çox spesifik bir şeydi və biz onların necə adlandığını bilməyə bilərik. Bəs, öz bədənimiz? Biz onu nə qədər tanıyırıq? Gəlin özümüzdən soruşaq: Burun və dodaq arasındakı yer necə adlanır? Barmaqlarımızın hər birinin adını bilirikmi? Yoxsa, sadəcə, birinci, ikinci, orta barmaq? Ağız deyəndə biz hansı orqanı nəzərdə tuturuq?

Sözsüz ki, ad qoymaq dərk etmək üçün zəruri şərtdir. Təfəkkürdə obrazı yaradılan hər şeyə ad vermək mümkündür. Ad anlamaqdır. Söz dünyada hər şeydən güclüdür, o , əsrləri, minillikləri bir - birinə bağlayan, ağlasığmaz əlaqələri nəsildən-nəsilə daşıyan xüsusi bir koddur (Asadov, A. 2021). Təfəkkür – düşüncə isə əlimizdə olan ən sirli şeydir. O bizim daxili dünyamızı əks etdirən ən mücərrəd məfhumdur. Söz məhz düşüncədə doğulur. Elə tədqiqatımızın əsas məqsədi də söz və düşüncə arasındakı əlaqə məsələlərinə toxunmaqdır. Dünya dilçiliyində ənənəvi olaraq, bu məsələ üç formada izah edilir:

- Təfəkkür lap kökündən sözsüzdür, təfəkkür ilə söz arasında heç bir əlaqə yoxdur. Dil dedikdə yalnız ünsiyyətə xidmət edən vasitə nəzərdə tutulur.
- Təfəkkür həm şifahi, həm də qeyri-verbal formada təzahür edilə bilər. Burada həm leksik, həm də qeyri-leksik faktorlar rol oynayır. Birinci hissəsnin nitqlə əlaqəsi olsa da, ikinci hissə (qeyri-verbal) tamamilə nitqdən ayrılır
- Mənşəyinə görə bütün düşüncə vasitələri dil ilə bağlıdır. Sözlər sadəcə boş səs yığını deyil, onlar əsrlər boyu formalaşan yaddaş, düşüncə və təxəyyülün məhsuludur [6, s. 46].

Fikrimizcə, təqdim olunan yanaşmalardan üçüncü mövqe daha doğrudur. Sözlər elə universal vasitədir ki, onları saxlamaq və nəsildən-nəslə ötürmək mümkündür. Dil cibdə və ya kisədə aparılmır, o təfəkkürdə daşınır. Çünki dilin özü məhz şüurda yaşayır. Vqotskiyə görə, bəşər tarixinin ilk vaxtlarında dildə bu və ya digər anlayışla bağlı bir neçə sözlər olmuşdur. Bu anlayışlardan hansının seçilməsi və bunun nə üçün baş verməsi ilə bağlı elm aləmində müxtəlif və qeyri-müəyyən fikirlər olsa da, alimə görə, bu sadəcə kollektiv seçimin məhsuludur. Yəni, tarixin müəyyən dönəmində insan tamamilə spontan olaraq bu və ya digər əşya ilə bağlı konkret hansısa adı işlədir və bu ad kollektivin

istifadəsinə verilərək, bu günümüzə gəlib çatır.

Lakin bizə görə bu prosesin həyata keçirilməsində daha önəmli fakt isə "görmə amilidir". İnsan gördüyü əşyanı adlandırır. Sözün həqiqi mənasında əşyanın varlığını dərk edən insan onu adlandırmağa ehtiyac duyur, çünki ünsiyyət üçün adlandırma zəruri şərtdir. Və əlbəttə, bu fikirdən yola çıxaraq qeyd edə bilərik ki, insan ilk növbədə özünə ən çox lazım olan, özünün daha çox istifadə etdiyi əşyaları adlandırmışdır. Dilçilik ədəbiyyatlarında belə bir aksioma da mövcuddur ki, dildə ilk olaraq maddi əşyaların adı, daha sonra mücərrəd anlayışlar haqqında adlar meydana gəlmişdir. Deməli, bu fikir dediklərimizi bir daha təsdiq edir (Asadov, A. 2021).

Buradan bir sual ortaya çıxır: "Əgər insanlar ilk olaraq, gördükləri əşyaları adlandırmışlarsa, o zaman söz ilə onun şüurda yaratdığı məna arasında nə kimi əlaqə vardır?" Bu suala belə cavab verə bilərik:

Deyə bilərik ki, söz ilə məfhum arasında mütləq əlaqə olub-olmamasına dair dilçilik ədəbiyyatlarında, istərsə də fəlsəfi əsərlərdə müxtəlif fikir ayrılıqları vardır. Bizim fikrimizcə, əşya və məna arasında əlaqə var. Lakin bu əlaqə şərtidir. Çünki mənasız sözün dillə heç bir əlaqəsi yoxdur. Dilçilik obyekti olması üçün səs bir məna kəsb etməlidir. Amma söz və əşya arasında oxşarlıq yoxdur. Şərti dediyimiz bu əlaqə insanın şüuru ilə müəyyən zaman kəsiyində qurulur. İnsan ilk olaraq əşyaya müəyyən, spontan bir ad verir, əvvəl bu ad əşyaya yad olsa da, zaman keçdikcə beyində həmin əşyanın qeyri- təbii nümayəndəsi kimi formalaşır. Təbii olan əşyanın özüdür, onun beyində inikası sözlər vasitəsilə əmələ gəlir. Həmin ad zamanla əşyanın maddi varlığını mənimsəyir və getdikcə əşyaya bağlanır. Bu əlaqə ona görə təzahür edir ki, söz təfəkkürün maddi cildidir, sözlər simvolik olaraq təfəkkürün məzmununu ifadə edir. Adlar insanın özü tərəfindən, zəruri ehtiyac kimi icad edilir.

Lakin göstərilən mülahizələri qəbul etməyən çoxlu dilçilər var. Bununla belə, biz müasir, kifayət qədər inkişaf etmiş bir sivilizasiyada yaşasaq da, dünyada bu sivilizasiyadan təcrid olunmuş xeyli sayda qəbilələr var. Güney Afrikada, Hindistanda yaşayan azsaylı qəbilələri bura aid edə bilərik. Bu qəbilələrin hər biri yalnız özlərinin başa düşdüyü, məhdud arealda işlənən fərqli dillərdə danışırlar. Buna maebu, N|uu, bantu və başqa dilləri misal göstərə bilərik. Həmin dillərdə danışan insanlar sivilizasiyanın inkişafından geridə qalsalar, təcrid edilmiş mühitdə yaşasalar da, onların şüursuz, yaxud təfəkkürsüz olduqlarını söyləmək doğru deyil. Onda, belə bir sual yaranır ki, həmin insanlar ətrafda gördükləri əşyalara (burada əşya şərti mənada işlənir) necə ad veriblər? Bu adlar əşyanın mənası ilə bağlıdırmı? Cavab birmənalıdır: Xeyr, aparılan araşdırmalar zamanı qəbilə nümayəndələrinin heç biri əşyaların adları arasındakı fərqləri onun mahiyyəti ilə əlaqələndirə bilmirlər. Onlar qeyd edirlər ki, bu adlar əşyalardan birini digərindən fərqləndirmək üçün verilir, necə ki bir insanı digərindən fərqləndirmək üçün onlara fərqli adlar verilir (Esedov, A. 2011).

Zənnimizcə, çox az, primitiv inkişaf səviyyəsinə sahib olan dildə əşyalara verilən adlar onun mahiyyəti ilə əlaqəli olmur. Hər bir dilin daima inkişaf etdiyini, yeniləndiyini nəzərə alsaq, müasir dövrdə insanların əksəriyyəti tərəfindən danışılan, böyük xalqlara məxsus, inkişaf etmiş dillər də tarixən nə zamansa bu cür primitiv bir dönəm yaşayıb. Biz o dönəmdən danışırıq ki, həmin vaxtda hardasa elə ilk sözlər yaranıb. Deməli, dilin ilkin inkişaf mərhələsində yaranan sözlər əşya ilə birbaşa məna əlaqəsində olmayıb, bu sadəcə spontan deyilmiş, adlandıraraq həm ünsiyyətə, həm də fərqləndirməyə xidmət edən səslərdən ibarət olub. Lakin zamanla, dilin sonrakı tarixi inkişaf mərhələlərində hər bir dildə mövcud olan sözlər həmin dil daşıyıcısının təfəkküründə obrazlaşıb, məna yükü qazanıb və beləcə söz ilə onun mənası arasında bizim şərti hesab etdiyimiz əlaqə formalaşıb. Bunu edən təfəkkürdür, bu məhz təfəkkür vasitəsilə nəsillərə miras qalır, daşlaşır, öz məna yükünü formalaşdırır və bəzən bu formalaşma prosesində mənanın daralması, genişlənməsi, "korlanması" və başqa hallar yaranır.

Söz ilə onun daxili mənası arasındakı şərti əlaqə sadəcə semantik əlaqə baxımından da məhdudlaşmır, burada həm də assosiativ, psixi əlaqə vardır. Məsələn, biz qol deyəndə bədən üzvünü nəzərdə tuturuq. Bu. V. fon Humboldtun nöqteyi-nəzərindən baxanda sözün ilk semantik mənasıdır [4, s. 67]. Lakin sonralar düşüncənin mücərrəd transformasiyası nəticəsində hazır sözlər müxtəlif psixi, sosiativ, emosional (ağacın qolu, çayın qolu, qol (imza), qol qoymaq və s.) mənalar kəsb etmişlər. Bura omonim, sinonim, antonim kimi dil hadisələri aiddir. Məsələyə daha dərindən baxanda bir daha

aydın olur ki, əslində sadəcə dil hadisəsi olaraq öyrəndiyimiz antonimlik, sinonimlik, polisemiya kimi hadisələr tam mənası ilə həm də psixi hadisələrdir.

Dil və təfəkkürün hal- hazırda mövcud oıan əlaqəsini aşağıdakı mərhələlər şəklində formalaşdığını düşünmək olar:

Cəmiyyətin inkişafının başlanğıc mərhələsində sadəcə ünsiyyət vasitəsi olan dil, sonralar təfəkkür proseslərinə aid edilır və vizual- obrazlı, tam yeni, psixi və assosiativ əlaqələr meydana gəlir. Yazının kəşfi və onun inkişafı təfəkkürün dilə olan təsirini intensivləşdirmiş, onun ifadə vasitəsi olmaq etibarilə dilin imkanları daha da artmışdır. Qeyd etməliyik ki. bu proses müasir dövrdə də davam edir. Sosial norma və qaydalar, kollektiv seçimi, dilin qısalığa, lakonikliyə olan meyli və s. amillər dilin imkanlarını olduqca genişləndirmiş, onu cəmiyyətdə ən universal vasitəyə çevirə bilmişdir. Müasir dövrdə təfəkkürün dilə olan təsirini sözlərin mənalarının genişlənməsində, dilin həm leksik, həm də frazeoloji tərkibinin kəmiyyətcə artımında, təfəkkürün ən parlaq kəşfi olan süni intellektin dilində, sintaktik vasitələrin aydınlaşmasında və differensiyasında görmək mümkündür. Nəhayət, bu fikirlərimiz sadəcə şəxsi qənaətlərimizdir. Məşhur rus alimi Bulqakovun dediyi sözlərlə fikirlərimizi sona çatdırmaq istəyirik: "Dil və təfəkkür arasında əlaqə insan və onun kölgəsinə bənzəyir. Lakin burada hansının insan, hansının onun kölgəsi olduğu məlum deyil" [5, s. 100].

Nəticə. Araşdırmanın nəticəsi olaraq, belə qənaətə gəlirik ki, təfəkkür vahidləri ilə dil vahidləri arasında birbaşa əlaqə yoxdur. Bu, şərti, sonradan qazanılan, təfəkkürün və dilin inkişaf mərhələlərində formalaşan əlaqədir.

İstifadə edilmiş ədəbiyyat

1. A.Axundov. Ümumi dilçilik. Bakı: Şərq-Qərb, 2006, 280 s.
2. Cəfərov N. Ümumi dilçilik. (Dərslik). Bakı: Təhsil, 2023, 216 s.
3. Esedov, A. (2011). Kafkaslarda Azeri Türk Edebiyatının Yeni Aşaması: Doğu deneyiminden Batı deneyimine. TURANSAM: Turan Stratejik Araştırmaları Merkezi Dergisi, 9, 73–75. http://www.turansam.org
4. Asadov, A. (2021). Organizational issues of work on world literature samples in primary schools. Journal of Preschool and Primary Education, 236(3), 81–93.
5. Asadov, A. (2021). The role of world literature in shaping students' planetary thinking. Azerbaijan Journal of Educational Studies, 697(4), 111–119.
6. Najafov R. (2021). On the philosophical study of the origin of irrational knowledge in Eastern peripatetic philosophy: "revelation, dream and inspiration": in the context of the philosophical views of Shihabeddin Yahya Suhrawardi, Abulhasan Bahmaniyar and Al-Kindi. Science, Education and Innovations in the Context of Modern Problems. 8(3), 48-67.
7. Голанова Е. И. Как возникают названия: Кн. для учащихся ст.
8. Гумбольдт В. фон. Избранные труды по языкознанию. М.: Прогресс, 1984. 400 с.
9. Норман Б.Ю. Основы психолингвистики: курс лекций. Б.Норман. Минск: БГУ, 2011, 131 с.
10. Леонтьев А.А. Основы психолингвистики. М.: Смысл, 1997, 287 с.

QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNİN LEKSİKASINA DAİR MÜXTƏSƏR QEYDLƏR

Yeganə İsgəndərova*

Abstract

Brief notes on the lexicon of western Azerbaijan dialects

The article is devoted to the study of the lexical-semantic features of the vocabulary of West Azerbaijani dialects. If we consider that currently not a single Azerbaijani lives in the territory of West Azerbaijan, which is called the Republic of Armenia, then the importance of the research becomes clear once again. Also, one of the important works carried out within the framework of the concept of return to Western Azerbaijan in recent times is the study of the dialects of this area.

The names of flowers, herbs, medicinal plants and fruits and vegetables have their own lexical features in Western Azerbaijani dialects. Different words included in these lexical groups are used in these dialects. At the same time, words denoting many cultural, spiritual, ethnographic concepts contained in dialects attract attention. In addition to this group of words, the study of many lexemes used in daily life and their historical traces, which are used by our compatriots for thousands of years, which are included in the lexicon of West Azerbaijani dialects, names of food, words expressing the concept of hinship,is of scientific interest.

Keywords: *Western Azerbaijan dialects, vocabulary composition of dialects, generalizations, differentiations and variants in dialects.*

Giriş. Dialektologiya ilə məşğul olan alimlərimiz Qərbi Azərbaycanın bir sıra ərazilərinin dialekt və şivələrini araşdırsalar da, bəzi bölgələrin dialektoloji sərhədlərinin müəyənləşdirməkdə fərqli baxşlar irəli sürmüşlər. Lakin bir çox dilçilər Qərbi Azərbaycan şivələrinin Azərbaycan dialekt və şivələr sistemi daxilində öyrənilməsinin tərəfdarıdır. Bəs Qərbi Azərbaycan haradır?

Qərbi Azərbaycan hazırki ölkəmizin qədim torpaqları olub, indi isə Ermənistan Respublikası adladırılan ərazini əhatə edir. Qərbi Azərbaycan coğrafi məhfum kimi 1988-ci ildən etibarən, yəni azərbaycanlılar tarixi etnik torpaqlarından qovulduqdan sonra işlədilməyə başlamışdır. Tarixən indiki Ermənistan ərazisində sak, kimmer, şirak, quqar, oğuz, baharlı, bayandur, qacar, peçeneq, qazax, əfşar, xalac, şamlı, ustaclı, ayrım, qarapapaq, muğanlı, qapan və b. qədim türk tayfaları yaşamışdır. Qərbi Azərbaycanin köklü sakinləri də məhz azərbaycanlılar olmuşdur. Ermənilər bu ərazilərə 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsindən sonra İrandan, Türkiyədən və digər xarici ölkələrdən köçürülüb yerləşdirilmişdir. Bunu Qərbi Azərbaycan ərazisindəki Azərbaycan dili əsasında yaranmışdır toponimlər də təsdiq edir. Eyni zamanda bir məsələni də qeyd etmək yerinə düşər ki, indi Ermənistan Respublikası adlandırılan Qərbi Azərbaycanda azərbaycanlılar erməni vəhşiliyinin qurbanı olmuş, zaman-zaman öz atababa torpaqlarından deportasiya olunmuşlar. Bütün bunlara baxmayaraq, ölkəmizin müxtəlif yerlərində məskunlaşmış Qərbi azərbaycanlılar öz milli dəyərlərini, adət-ənənələrini qoruyub saxlamış, hər bölgənin özünəməxsus şivə xüsusiyyəti mühafizə olunmuş, assimiliyasiyaya məruz qalmamış, hətta dövrümüzə qədər gəlib çatmışdır.

Əsas hissə. Qərbi Azərbaycan şivələri özünəməxsus dialekt xüsusiyyətləri ilə Azərbaycan dili şivələri içərisində aparıcı yer tutur. Qərbi Azərbaycan şivələrinə indiki Ermənistanın Ağbaba, Dağ Borçalısı (Barana, Böyük Qarakilsə, Calaloğlu, Kalinino, Hamamlı), Qərbi Zəngəzur (Qafan, Gorus, Meğri, Qarakilsə), Göyçə (Kəvər, Basarkeçər, Çəmbərək), Karvansaray, Dərələyəz (Paşalı, Keşişkənd), İrəvan, (Vedi, Zəngibasar, Əştərək) şivələri daxildir.

Qərbi Azərbaycan şivələrinin, əsasən, iki yarımqrupu müəyyənləşdirilmişdir:

1. Qərb şivələri: Çəmbərək, Karvansaray, Basarkeçər, Böyük Qarakilsə, Dağ Borçalısı (Çalaloğlu Kalinino) Ağbaba, Quqark rayon ərazilərinin şivələri;

2. Cənub şivələri: Dərələyəz, İrəvan, Zəngibasar, Vedibasar, Qarakilsə, Meğri, Qafan rayon şivələri.

* ***Bakı Dövlət Universiteti, SABAH qruplarının tələbəsi. Elek.poçt: iskenderovayegana@gmail.com. Elmi rəhbər:*** *Müəl. Pərvin Eyvazov.*

Qərbi Azərbaycan şivələrinin tədqiqinə XX əsrin ikinci yarısından başlanmış və üç qrupa bölünmüşdür: 1. Qərbi Azərbaycanın, yəni indiki Ermənistan ərazilərindəki şivələrin ümumi şəkildə tədqiqi; 2. Qərbi Azərbaycanın ayrı-ayrı bölgələrinin şivələrinin tədqiqi; 3. Konkret bir kəndin şivəsinin tədqiqi.

Qeyd etmək lazımdır ki, Qərbi Azərbaycan şivələrinin leksikası zənginliyi, qədimliyi ilə seçilir və diqqəti cəlb edir. Bu şivələrdə tarixin qədim qatları ilə səsləşən sözlər dilimizin qədim tarixi üçün əhəmiyyət daşıyır. Qərbi Azərbaycan şivələrində Orxon-Yenisey abidələri, "Kitabi-Dədə Qorqud" dastanı, M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsəri ilə səsləşən kifayət qədər sözlər qorunub saxlanmışdır.

Qərbi Azərbaycan şivələrindən verilən numunələrə nəzər salaq:

Ağbağır sözü Qərbi Azərbaycanın Çəmbərək şivəsində ağciyər mənasında işlənir.

Ağcamaya sözü Dərələyəz, Vedi və Zəngibasar şivələrində ağappaq (kök, gözəl, yaraşıqlı qadın haqqında işlədilir.)

Ağırramax sözü Çəmbərək şivəsində əzizləmək, hörmətlə qarşılamaq mənasını bildirir.Bu söz **ağırlamağ** formasında "hörmət göstərmək" mənasında İraq-türkman ləhcəsində işlənir.

Ağırtaxtalı sözü Çəmbərək və Kalinino şivələrində birinci mənada özünü ağır aparmaq; ikinci mənada isə vüqarlı, sözünün, hərəkətinin yerini bilən mənalarını bildirir. Bu söz Gəncə dialektində isə vüqarlı mənasında işlənir.

Ağız sözü Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray, eləcə də Vedibasar şivəsində yenicə doğmuş inək, camış və qoyunun ilk südü mənasını xarakterizə edir. Ağız sözünə M.Kaşğarinin "Düvanü-lüğət-it-türk" əsərində *ağuc* formasında işlənmişdir və lüğətdə göstərilir ki, ağuc "ağız südü", "inək və ya qoyun doğandan sonra ondan sağılan ilk süd" mənasını bildirir. *Ağız* Şəki, Zaqatala şivələrində "qaramalın doğandan sonra ilk südü", Ağdaş, Qax, Zərdab şivəsində və Şəki dialektində həm də "yeni doğan qaramalın ilk südündən bişirilən yemək" (pendir kimi olur) mənalarını ifadə edir.

Axarramax sözünə Vedibasar və Zəngibasar şivələrində geniş rast gəlinir ki, məhz bu şivələrdə yuyulmuş qab-qaşağın üstünə təmiz su tökmək mənasını bildirir.

Anarı-bəri sözü Çəmbərək şivəsində o tərəf-bu tərəf, ora-bura mənasında işlənir. Arı sözü isə Gəncə, Qazax dialektlərində, Şəmkir, Tovuz şivələrində "o tərəf, o yan", "o biri tərəf", "kənar" mənalarını bildirir. M.Kaşğarinin lüğətində anqar sözü işlənib. Həmin söz "ona" əvəzinə işlənən bir sözdür.

Avdıx sözünə Ağbaba şivəsində qatıq suyunun qarışığından hazırlanan sərinləşdirici içki mənasında rast gəlinir. Məs: Piçin vaxdı avdıxsız işdəməx′ olmur ha.

Ayama sözünə Dərələyəz şivəsində ləqəb mənasında rast gəlinir. Məs: Burda ayaması olmuyan adam tapmazsan.

Ayanda-sayanda sözü isə Meğri şivəsində hərdənbir, ayda-ildə mənasında istifadə olunmuşdur. Məs: Haspulat ayanda-sayanda gəler Əldəriyə.

Ayna Çəmbərək, Vedi və Zəngibasar şivələrində pəncərə sözünə ekvivalent kimi işlənmişdir. Məs: Kalvayı çiyninə kürkü salıf aynadan qapıdakı atdara baxırdı.

Balboranı sözü Hamamlı şivəsində balqabaq mənasını daşımışdır.

Bazburtdu sözünə, əsasən, Çəmbərək, İrəvan şivələrində rast gəlinir və boy-buxunlu, gözəgəlimli mənalarını təmsil edir.

Beddam olmax sözü Çəmbərək şivəsində biabır olmaq mənasını daşımışdır. Məs.: Uşaxların yanında lap beddam olmuşam, ay Hasanalı.

Bekara sözü Çəmbərək və Vedibasar şivələrində boş, lazımsız şey ifadə etmişdir. Məs: Xəlil kişinin barmağını pışqı aparmışdı. Soruşanda deyirdi ki, bekaradı, heş nə yoxdu.

Bərradayı sözünə Vedibasar şivəsində birbaşa olaraq rast gəlinir və mənası avara, işsiz-gücsüz tənbəl deməkdir.

Binəli sözü Ağbaba, Çəmbərək, Kalinino şivələrində yer almış və həmişə, daima, həmişəlik, bir qayda olaraq mənalarını bildirmişdir. Məs.: Bunnarı binəli bavam görürdü.

Birədili sözünə Çəmbərək şivəsində bir dəfəyə, bir dəfəlik mənalarında yer verilmişdir. Məs: Bu işi birədili qurtarmax lazımıydı.

Boğaz olmax sözü Çəmbərək şivəsində asılı olmaq mənasını ifadə etmişdir.

Boğazcıl sözünə Basarkeçər şivəsində qarınqulu mənasında rast gəlinir.

Bordax sözünə Basarkeçər, Çəmbərək, Dərələyəz, Kalinino, Vedi, Zəngibasar şivələrinin hamsında rast gəlinir və kök heyvan, kökəldilmiş, bəslənmiş heyvan mənalarını daşıyır.

Cəncəl sözünə Çəmbərək, Vedi, Zəngibasar şivələrində çətin adam mənasında yer verilmişdir.

Cinnətməx' sözü Çəmbərək, Vedi və Zəngibasar şivələrində əsəbiləşdirmək, hirsləndirmək mənalarını xarakterizə etmişdir.

Cumcuma: Cumcuma olmax sözünə Vedi şivəsində başdan-ayağa islanmaq mənasında rast gəlinir. Məs.: Alı cumcuma su olmuşdu.

Cuna sözünə Basarkeçər, Çəmbərək, Kalinino, Vedi şivələrinin hamısında rast gəlinir və tənzif mənasını daşıyır.

Cincilim sözünə daha çox Çəmbərək şivəsində rast gəlinir. Qərbi Azərbaycan əhalisi arasında yabanı yeməli bitki mənasənda ot adı olaraq bilinir və işlənir.

Cingöz sözünə Çəmbərək, Vedi, Zəngibasar şivələrində ilk məna olaraq xırda gözlü (adam); ikinci məna olaraq hiyləgər gözlu rast gəlinir.

Çalxeyçi sözünə Vedi, Zəngibasar əhalisi arasında xəbərçi, araqarışdıran, sözgəzdirən mənalarında muraciət olunmuşdur.

Çayan sözü Böyük Qarakilsə,Vedibasar şivələrində əqrəb sözunun ekvivalenti kimi istifidə olunmuşdur.

Çəlçö:r eləməx' sözü Basarkeçər şivəsində geniş formada istifadə edilmiş və ölçüb-biçmək, götür-qoy etmək mənasını bildirmişdir.

Çımxırmax sözünə Çəmbərək, Kalinino, Vedi, Zəngibasar şivələrinin hamısında ilk mənada qışqırmaq, kobud cavab vermək; ikinci mənada isə söz qaytarmaq; acıqlanmaq kimi işlənmişdir.

Çim sözünə Ağbaba, Çəmbərək şivələrində çoxlu mənasında rast gəlinir. Məs: (çim yağlı \ çim duzlu)

Çözələməx' söz Çəmbərək, Əştərək, Meğri, Vedi, Zəngibasar şivələrində əhali arasında açmaq (ipə aiddir) mənasını daşımışdır.

Dadıxmax sözünə Çəmbərək, Dərələyəz, Meğri, Qəmərli, Zəngibasar şivələrində xarab olmaq, pis, xoşa gəlməyən dad vermək mənası yüklənmişdir. Məs: Qaymağı küpdə o qədər saxlamışdılar ki, artıx dadıxırdı.

Daldey sözü Barana, Çəmbərək, Kalinino əhalisi tərəfindən gizli, məxfi yer, kənar yer mənasında geniş istifadə edilmişdir.

Əl damı sözü Çəmbərək şivəsində ev əşyalarının bir hissəsinin qoyulduğu əlavə tikiliyə verilən ad olmuşdur.

Danqa sözü Vedibasar və Zəngibasar şivələrində yekə, böyük, iri mənasında istifadə olunmuşdur.Məs:Ətin içinə danqa sümükləri qatıb uşağın əlinə vermişdi.

Nəticə. Yuxarıdakı örnəklərdən göründüyü kimi, Qərbi Azərbaycan şivələrində işlənən leksemlər qədim tarixə malikdir. Azərbaycan ədəbi dilinin, o cümlədən şivələrin lüğət tərkibində öz əski izlərini saxlayan belə qədim sözlər dilimizin zənginliyini göstəricisidir. Və türkcəmizin söz varlığı təhlil olunan zaman Qərbi Azərbaycan ərazisindəki müxtəlif dialekt və şivələr də tədqiqatlardan kənarda qalmamalı, dilimizin tarixi-müqayisəli şəkildə öyrənilməsi zamanı bu şivələrin də lüğət tərkibinə müraciət olunmalıdır. Çünki Qərbi Azərbaycan bütöv Azərbaycanın bir tərkib hissəsi olmuşdur və bütün bu ərazilər əbədi, əzəli Azərbaycan torpağıdır! Heç şübhəsiz ki, Qərbi Azərbaycan həm də doğma dilimizin qədim ünsiyyət coğrafiyasıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007 (s. 78)
2. Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası. Bakı: Elm və təhsil, 2011 (s. 17)
3. Əhmədov B. Azərbaycan dilinin qısa etimoloji lüğəti. Bakı: Mütərcim, 1999
4. Kitabi-Dədə Qorqud (tərtib edənlər: F. Zeynalov, S. Əlizadə). Bakı: Yazıçı, 1988 (s. 54)
5. Mahmud Kaşğari. Divani-lüğət-it- türk. Tərcümə edən: R. Əskər. I c. Bakı: Ozan, 2006

ƏDƏBİYYATŞÜNASLIQ

БУНИН И БАНИН

Эльмира Фараджуллаева*

Abstract
Bunin and Banin

İn this article we told about the granddaughter of the millionaires Musa Nagiyev and famous Asadullayev Shamsi, about the daughter of Minister of the Democratic Republic of Azerbaijan, Mirza Asadullayev, about Azerbaijani writer lived in France-Asadullayeva Ummulbanu (some sources Umm Al-Banu) (Banin). In Banin's personal agenda writed in french language it was discovered some fascinating facts about winner of the Nobel Prize for literature, Ivan Bunin. We have translated this facts and present to your attention.

Keywords: *French-Azerbaijani literary relations, translation, diary, Banin.*

Введение. «Когда я 13 июня 1946 года я вошла в комнату Тэффи, Бунин не без труда встал с кресла, предназначенного для почётных гостей…Весь он был царственно величав;этому способствовало выражение лица… либо надменное, либо агрессивное, либо и то и другое сразу. Надменность эту он натягивал на себя,как некую тогу,призванную показать дистанцию, отделяющую гения от простых смертных.Но стоило гению немного разойтись, а к этому его быстро приводил его кипучий темперамент,и тога слетала как ветошь... Должна признаться, что мне нравилась его надменность,я даже восхищалась ею - она напоминала мне мою первую любовь: князя Андрея Болконского,холодного и гордого героя «Войны и мира»…".

Так описывает Банин свою первую встречу с великим Буниным в Париже в произведении «Последний поединок Ивана Бунина».

Главная часть. Умм – эль - Бану (литературный псевдоним-Банин) родилась в 1905 году в Азербайджане. И по линии отца, будущего министра торговли Азербайджанской Демократической Республики, и со стороны матери умершей во время родов, Банин являлась внучкой миллионеров-нефтепромышленников Мусы Нагиева и Шамси Ассадуллаева. Судьба Банин, выдающейся женщины эпохи разрушений и становлений, воистину необычна и богата. Получив в родительском доме блестящее по европейским стандартам образование (английский, русский, французский, немецкий, музыка, литература), Банин тем не менее подчиняется восточной традиции ранних браков и в 15 лет выходит замуж за влиятельного человека. В 1924 году в возрасте 19 лет она покидает Родину, разводится с нелюбимым мужем и эмигрирует в Париж. Именно Париж становится второй родиной Банин - связано ли это было с великолепным знанием французского языка, или какой – то удивительной химической реакцией произошедшей в ней, неким симбиозом восточного и западного мышления, ясно одно - Париж Банин полюбила навсегда и безоглядно.

Жизненные перипетии эмиграции не особенно удручали Банин- Париж помогал ей выживать легко и радостно. Будучи натурой очень энергичной и деятельной Банин бралась за любую работу - продавщица, секретарша, манекенщица, переводчица (кстати блестящие переводы на французский язык Достоевского, а также с английского и немецкого), журналист.

В литературу Банин пришла довольно поздно, лишь в 1942 году вышел её первый роман «Нами». За ним в 1945 году выходит роман «Кавказские дни» и сразу неожиданный успех. Её общества начинают искать многие литературные жемчужины той эпохи. Сартр и Юрсенар,

* ***Бакинский государственный университет, заведующий кафедрой немецкого и французского языков, доктор философии по филологическим наукам, доцент. Электронная почта: elmirafarajulayeva@hotmail.com.***

Казандзакис и Юнгер, Элюар и Триоле. Она становится известной среди русских писателей – эмигрантов - Иван Бунин, Тэффи, Мережковский, З.Гиппиус, Куприн, М.Цветаева.

Заключение и научные инновации. Впервые Умм-Эль-Бану увидела Бунина на фотографии в гостях у Тэффи, снимавшей комнату на соседней улице. В ее квартире повсюду стояли, висели, лежали фотографии. Одна из них заинтересовала Банин - на ней был снят худощавый "занятный господин", стоявший у окна и глядевший вдаль с мечтательным видом. "Кто это? Писатель?" - поинтересовалась она у Тэффи. "Как, вы не знаете?! - воскликнула та. - Посмотрите на надпись, это же наш великий Иван Алексеевич Бунин!" Бунин был очарован восточной красотой Банин. Называл ее то " шемаханской царицей", то "черноокой газелью". Спустя два месяца после знакомства он подарил ей свою фотографию - в мягкой шляпе, надвинутой на глаза, выражение лица мечтательное и надменное, усталое и ироничное. Под фото вечным бунинским пером выведено: "Что перед этим ваш немецкий писатель?" (своеобразное проявление ревности по отношению к Эрнсту Юнгеру), а на обороте - "Позвольте, Джаным, сказать словами Карла Ивановича из "Детства" Толстого: Помните близко, Помните далеко, Помните еще и навсегда Как верен я любить умею!

Ив.Б., 18 августа 1946 года, Париж". Неслучайно, что именно Толстого цитирует Бунин в своем обращении к Банин. "Нас с Иваном Алексеевичем объединяла любовь к Льву Толстому, - говорила Умм-Эль-Бану. - В юности он считал себя его учеником. Бунин говорил, что как только слышал имя Толстого, его душа воспламенялась, ему сразу хотелось писать. Он снова верил в литературу. На столике у изголовья умирающего Бунина лежал томик Толстого. Он перечитывал "Войну и мир" 50 раз. Мы всегда говорили о Льве Николаевиче с великой любовью за радости, которые он нам доставил..." В гостях у Банин Бунин садился в кресло, они пили чай и говорили о литературе. Его возмущало, что она пишет на французском, а не на "родном русском". Когда он сердился (а это с ним случалось часто), то стучал по полу тростью и громко кричал. Бунин подарил Банин две свои книги: сборник рассказов "Речной трактир", изданный на русском языке в Нью-Йорке в 1945 году, и "Избранные стихи". На первой книге сразу две дарственные надписи: одна по-французски: "Мадам Банин от ее покорного слуги Бунина 15.VI.46. Париж", вторая - по-русски: "У одного человека сердце ушло из рук, и он сказал ему: "Прощай!" - слова Саади о человеке, плененном любовью".

Впервые Умм-Эль-Бану увидела Бунина на фотографии в гостях у Тэффи, снимавшей комнату на соседней улице. В ее квартире повсюду стояли, висели, лежали фотографии. Одна из них заинтересовала Банин - на ней был снят худощавый "занятный господин", стоявший у окна и глядевший вдаль с мечтательным видом. "Кто это? Писатель?" - поинтересовалась она у Тэффи. "Как, вы не знаете?! - воскликнула та. - Посмотрите на надпись, это же наш великий Иван Алексеевич Бунин!" Бунин был очарован восточной красотой Банин. Называл ее то " шемаханской царицей", то "черноокой газелью". Спустя два месяца после знакомства он подарил ей свою фотографию - в мягкой шляпе, надвинутой на глаза, выражение лица мечтательное и надменное, усталое и ироничное. Под фото вечным бунинским пером выведено: "Что перед этим ваш немецкий писатель?" (своеобразное проявление ревности по отношению к Эрнсту Юнгеру), а на обороте - "Позвольте, Джаным, сказать словами Карла Ивановича из "Детства" Толстого: Помните близко, Помните далеко, Помните еще и навсегда Как верен я любить умею!

Ив.Б., 18 августа 1946 года, Париж". Неслучайно, что именно Толстого цитирует Бунин в своем обращении к Банин. "Нас с Иваном Алексеевичем объединяла любовь к Льву Толстому, - говорила Умм-Эль-Бану. - В юности он считал себя его учеником. Бунин говорил, что как только слышал имя Толстого, его душа воспламенялась, ему сразу хотелось писать. Он снова верил в литературу. На столике у изголовья умирающего Бунина лежал томик Толстого. Он перечитывал "Войну и мир" 50 раз. Мы всегда говорили о Льве Николаевиче с великой любовью за радости, которые он нам доставил..." В гостях у Банин Бунин садился в кресло, они пили чай и говорили о литературе. Его возмущало, что она пишет на французском, а не на "родном русском". Когда он сердился (а это с ним случалось часто), то стучал по полу тростью

и громко кричал. Бунин подарил Банин две свои книги: сборник рассказов "Речной трактир", изданный на русском языке в Нью-Йорке в 1945 году, и "Избранные стихи". На первой книге сразу две дарственные надписи: одна по-французски: "Мадам Банин от ее покорного слуги Бунина 15.VI.46. Париж", вторая - по-русски: "У одного человека сердце ушло из рук, и он сказал ему: "Прощай!" - слова Саади о человеке, плененном любовью".

Использованная литература

1. Anar. Fransa görüşləri. "Bakı" qəzeti, 9 yanvar 1985-ci il.
2. İsmayılov R. Dostluq telləri (Fransa- Azərbaycan ədəbi əlaqələri). Bakı, 1982.
3. Abutalıbova N. Azərbaycan-Fransa mədəni əlaqələri. "Qobustan" incəsənət toplusu, № 3 (75), 1987.
4. Abutalıbova N., Quliyev Q. İztirab etüdü. “Azərbaycan” jur., № 12, 1987, s. 161-163.
5. Üm-əl-Banin. İvan Buninin son höcəti (Sənədli povest). "Azərbaycan" jur.. № 12, 1987 (rus dilindən çevirən M. Sərvər).
6. Banin (Ümmülbanu). Qafqaz günləri. Bakı, Yazıçı, 1992 (Fransız dilindən tərcümə edəni və ön sözün müəllifi Hamlet Qocayev).
7. Ümmülbanu yaradıcılığı: Fransa-Azərbaycan ədəbi əlaqələri kontekstində. Arzu Yolçuyeva

БАНИН И ЕЕ ДНЕВНИК-РОМАН «Я ВЫБРАЛА …ОПИУМ» В ИСТОРИЧЕСКОМ КОНТЕКСТЕ

Азельма Гасанова*

Abstract

Banin and her diary-novel "I choose...opium" in a historical context

In this article, the author turns to the work of the French-speaking writer Umm el-Banu Asadullayeva, known under the pseudonym Banin. In a diary-journal published in 1959 entitled "I chose ... opium," Banin describes the story of his conversion to Catholicism, the inner journey of his soul in search of God. The article makes an attempt to understand and analyze the events in her life that prompted this decision. Growing up without a mother, Banin was raised by a German governess, a believing Christian, Fraulein Anna, who had a strong influence on her in early childhood. She also received a European home education in Baku with two governesses: a French woman and an English woman. Devastating unrequited love for a cold, inaccessible man whom she idolizes... loneliness, depression...

Keywords: *conversion, catholicism, choise, opium, Banin.*

Вступление. Изучать литературное наследие писателя невозможно не принимая во внимание исторический контекст, в котором жил и творил этот писатель. Сегодня уже нет нужды долго представлять франкоязычную писательницу Банин (1905-1992)... Ее настоящее имя Умм-эль-Бану Асадуллаева, она младшая дочь Мирзы Асадуллаева, одного из министров Первой Азербайджанской Демократической Республики и внучка двух нефтяных магнатов : Мусы Нагиева и Шамси Асадуллаева. Гонимая революцией из своей страны, она приезжает в Париж в 1924 году и остается во Франции до самой смерти в 1992 году. В пятидесятилетнем возрасте она принимает католичество и публикует дневник-журнал, где она пытается обьяснить мотивы, причины побудившие ее сделать этот шаг. Об этом событии в жизни писательницы ничего не написано в нашей стране по разным причинам, которые будут показаны ниже. Предметом нашей статьи будет исследование и разбор различных факторов и мотивов побудивших Банин к принятию католицизма, по книге «Я выбрала ... опиум». Книга была написана в период с 1952 по 1959 и издана в издательстве «Editions Stock » в 1959 году. Затем она была несколько раз переиздана на французком языке, а также переведена на разные языки, среди которых и итальянский, и даже японский. Принимая во внимание тему данного произведения : мусульманка по рождению решает принять католичество, описывает в дневнике-журнале свой сложный жизненный путь, который привел ее к этому решению и пишет о своих сомнениях, можно понять успех, который имела эта книга в Европе. К сожалению, эта книга не переведена ни на азербайджанский, ни на русский языки.

Основная часть. В Азербайджане на сегодняшний день читающие люди знакомы с тремя произведениями этой франкоязычной писательницы азербайджанского происхождения. Во-первых это «Кавказские дни», автобиографический роман, принесший ей славу в европейских литературных кругах и до сих считащийся ее самым удачным творением. Во-вторых, это продолжение к этой книге, «Парижские дни», более романизированный и потому менее автобиографичный. Эти два ее произведения были переведены на азербайджанский язык переводчиком Гамлетом Годжа в 1992. И в издательстве Ганун вышел перевод на азербайджанский язык ее первого романа «Нами». Великолепный перевод на русский язык Кавказских дней и Парижских дней был сделан выпускницей Парижского университета Paris-Sorbonne 1, переводчицей, поэтом и писателем Ульвией Ахундовой в 2004 году и опубликован в издательстве Азернешр.

* ***Бакинский государственный университет, доцент кафедры немецкого и французского языков. Электронная почта: azelmah@gmail.com.***

Умм-эль-Бану Асадуллаева родилась в 1905 году в Баку и потеряла мать в день когда появилась на свет. Ее воспитывала гувернантка, которая была для нее и ее трех сестер как мать и настоящий ангел-хранитель. Фройлен Анна вырастила этих четырех девочек, растратив себя до последней капли и пожертвовав своей жизнью. «Она была одним из тех редкостных существ, которые умеют давать, не требуя награды», так Банин пишет о ней в Кавказских днях, вспоминая о своем детстве и считает его самым счастливым, еще и потому что ее воспитывала эта «святая женщина» (7, с. 10-11).

В книге «Я выбрала ... опиум», изданной в 1959 году издательством «Edition Stock », Банин описывает историю свого обращения в католицизм. Книга написана в форме дневника, охватывающего приблизительно период с 1952 по 1957. Автор описывает внутреннее путешествие своей души в поисках Бога, с «безжалостной искренностью», пытаясь понять себя и анализируя события в своей жизни, подтолкнувшие к этому решению. Героиня книги, это женщина, которой 47 лет, и ее обуревает человеческая страсть, лишившая ее какого-либо смысла, чтобы жить дальше, настолько что она заледенела до глубины души. Это история одинокой женской души, живушей в конфликте с собой и ищущей абсолюта. Она сама задает себе вопросы, чтобы лучше понять, будучи явным атеистом, агностиком, как и что именно ее толкнуло к этому шагу, почему она выбрала именно католичество, а не православие, почему она не осталась в Исламе, религии ее предков. « Слабость или благодать: что из них толкает меня к католичеству? Или благодать прокралась сквозь мою слабость? Как мне узнать себя в этих зарослях неясных чувств, переплетающихся в моей душе? И почему бы не довольствоваться просто Богом, отдельно от какой-либо конкретной религии? Я знаю, что мне могли бы сказать: стадное чувство толкает меня к религиозной общине. Почему бы тогда мне не остаться в Исламе, религии моих предков; но, видимо, меня привлекает именно христианство, эта паутина абсурда» (4, с. 87).

В своем дневнике-рассказе, она несколько раз подчеркивает тот факт, что это решение было вызвано неким зовом свыше. «Никто меня ни о чем не просит, никто не пытается меня насильно переубедить, но я терзаюсь так, словно некий властный зов заставляет меня откликнуться. Зов, возникший в моем воображении, вне всякого сомнения. Но несмотря на то что, я тщетно пытаюсь перебрать все причины моего беспокойства: стадный инстинкт, критический возраст, воображение и не знаю еще что: я не остаюсь глухой к этому призыву, отголоски которого преследуют меня даже во сне» (4, с. 87).

В этом дневнике она рассказывает практически всю свою жизнь.
«Я приехала во Францию, изгнанная революцией с Кавказа : я знаю, какой бесконечный вред она причинила, и скорблю об этом, но, со своей стороны, я ей обязана тем что прекратились для меня мучения регулярного образования, а также, прежде всего, у меня появилась возможность покинуть свой родной город, где, даже будучи еще совсем молодой, я уже чувствовала себя не совсем уютно в мусульманской среде, к которой меня не совсем располагало европейское образование, которое хотел нам дать отец» (4, с. 11).

Гонимая революцией с Кавказа, она приезжает во Францию в 1924 году, в девятнацатилетнем возрасте, где первые годы Банин и ее семья имеют возможность жить относительно благополучно, благодаря продаже имеющихся драгоценностей. Но вот они быстро исчерпаны, и для Банин наступает эпоха «высокой моды». Как и все молодые женщины из эмиграции, у которых была подходящая внешность, она работает какое-то время манекенщицей, а позже, пробует себя в других профессиях : преподает языки, музыку, работает секретаршей-машинисткой. В одной из глав в этом дневнике-исповеди, рассуждая о современном Аде, она с таким мастерством и точностью описывает Бюро-Офис, где она работала на испытательном сроке, что можно как в фильме представить как это происходило :
« Одним из аспектов современного ада является ОФИС. Если бы мне пришлось выбирать ад, во что бы то ни стало, я предпочла бы даже ад среди нищих-бродяг... Все что угодно было бы, кажется, предпочтительнее ОФИСА, этой "бумажной машины"... Я считала дни, потом часы, которые разделяли меня до конца испытательного срока. В крошечной комнате нас было пятеро

и мы печатали, разговаривали, отвечали на телефонные звонки, передвигались на фоне густого дыма, усиленного сильным запахом пота. В этом пространстве в четыре квадратных метра последовательно, а иногда и одновременно, открывались три двери, впуская сотрудника, взволнованного своими проблемами добросовестного работника, или самого начальника, взволнованного своими проблемами большого начальника, и все это происходило с головокружительной скоростью. Добавлю, что мы остерегались открывать окна, боясь сквозняков, так что дым, волнение, пот и шум нам подавались в сгущенном виде. Но больше всего меня ужасала легкость с которой все эти люди плавали, как рыбы в воде, в этой невыносимой и душной атмосфере. Короче говоря, я покинула это феерическое место с радостью в сердце да и еще с 36 000 франков в кармане... » (4, с. 97-98).

В 29 лет, Банин выходит во второй раз замуж за француза-агностика, архитектора по фамилии Тийе (Thillet), родители которого были католиками и которые очень радушно ее приняли. Она несколько лет даже носит фамилию Thillet этой католической семьи. И даже свою первую книгу « Нами » издает под именем Банин Тийе. «Но несмотря на эту католическую семью, Христос оставался для меня далекой фигурой, где-то в центре легенды, которая когда-то перевернула миры. Я читала Евангелие так же, как и читала Коран – эти обе книги были мне интересны с образовательной точки зрения. А потом прошли годы, полные драм и страстей. Но прежде всего, речь идет об *одной* страсти, которая довела меня до грани полного дисбаланса... И тогда началась «это дело». Как? Когда? У меня есть точка отсчета – это дневник, который я веду скудно, плохо, без малейшего литературного интереса. Но слава Богу ! Именно благодаря этому дневнику я смогу потом реконструировать весь этот медленный путь, продвижение, нет, не к милости и благодати, в которые мне так трудно поверить, а скорее всего путь, чтобы заполнить пустоту, путь, который стал для меня моим последним шансом: если бы я его упустила, мне оставалось бы только «утопиться в безумии или покончить самоубийством» (4, с. 12).

В книге «Я выбрала ...опиум», в записях от 15 августа 195 ..., Банин очень колоритно пишет о том, как в 1942 году, несколько лет спустя после семейной жизни в браке, в городе Тулуз, она решает оставить мужа, и вернуться в Париж, в свою студию на улице Лористон: «Я покидала Тулузу, мужа, стабильное и даже почетное «социальное положение», чтобы отправиться в приключение, полное неопределенностей, но как раз именно этим для меня привлекательное. Ах, как мне надоели и мой муж, и даже я сама, так плохо и неудачно переодевшаяся под буржуазную «жену главного архитектора департамента», и сама Тулуза, застроенная кирпичом, вонючая, с явно выраженным акцентом, который всегда мне не нравился. Я уходила оттуда, словно бы во дворец, двери которого один за другим должны были открыться для новых представлений. Я заранее была согласна на все: конечно же, на победы (в которые я верила) и на поражения (от которых отказывался мой инстинкт счастья). Разумом я знала, что могу пережить нужду, болезнь и, наконец, смерть; но я ждала только счастья. И кроме того, сказала я себе, все лучше, чем застой, в котором я проживала уже больше года» (4, с. 58-59).

Последующие за этим событием годы, а именно следующие тринадцать лет, с 1942 по 1955, Банин считает самыми яркими, плодотворными и значительными в своей жизни: «Эти тринадцать лет были самые полные, самые богатые в моей жизни. Были изданы наконец-то мои жалкие каракули. Прежде всего, это первая книга, публикация которой показалась мне величайшим ослепительным моментом в моей жизни. Потом другие, а именно Кавказские Дни, которые имели большой успех. Я стала участвовать в литературной жизни, познакомилась с издателями, писателями, знаменитыми и неудачливыми, сумасшедшими и мудрыми. Избавившись от всех ограничений и помех, я испытала абсолютную свободу и использовала ее с решительностью, сознательно мстя Исламу, который беспощадно связывал моих предков-женщин» (4, с. 62).

В жизни Банин происходят много драм и событий. Но неожиданно появляется увлечение, и даже страсть. В ее жизни появляется необычный, глубокий, интересный человек.

Она с ним общается, переписывается, но это всего лишь дружеские письма. Этот интеллектуал по отношению к ней холодный и недоступный человек. Она называет в дневнике этого человека X, но содержание, записи, даты, однозначно указывают на то, о ком идет речь. Это Эрнст Юнгер, писатель, философ … волею судьбы и исторических событий оказавшийся в те годы в Париже… В этих дневниках она много пишет о своей опустошающей любви к этому человеку. Она сравнивает его с Адрианом Леверкюном, героем Доктора Фаустуса, которому Дьявол запрещает любить, так как любовь согревает. «Твоя жизнь должна быть холодной – и поэтому ты не имеешь права любить кого-либо». «С чувством ужаса я перечитываю теперь свой дневник, который, тем не менее, лишь несовершенно отражает состояние души, продолжавшееся в течение многих лет. Вместо того, чтобы любить, я боготворила. Но обычно идолы не заставляют страдать своих поклонников, тогда как мой был моим мучителем... «Я промерзла до глубины души. Я борюсь с этой любовью, как рыба, пойманная в сети. Я ищу спасения и не могу его найти... » (4, с. 11)

Эта страсть приводит ее на край полной неуравновешенности, она погружается в атмосферу черной неврастении, она раздавлена чувством абсурда и абсолютной никчемностью своего существования… Здесь надо непременно сказать о том что, судьба никогда не была к ней благосклонна : она не получила свою долю материнской любви, так как ее мать умерла при родах, затем она тщетно искала ее то у фройлен Анны, своей германоязычной няни-гувернантки, то у красавицы мачехи Амины, то в очередных своих влюбленностях… Она очень подробно сама об этом рассказывает в Кавказских днях.

Страсть, увлечение этим неординарным человеком, длились ровно 9 лет… И вот, в один день, насытившись этим страданием, она решает порвать отношения со своим идолом и кумиром X. И в этом одиночестве, безысходности и отчаянии у Банин была одна лишь защита : ходьба. « Я часами шагала одна по Парижу. И весь этот феерический мир вокруг меня… казался лишь декорацией, в которой единственной реальностью были лишь страдания моего сердца»… (4, с. 15).

День своего знакомства с этим человеком она описывает в нескольких своих произведениях. Потом, в своих дневниках « Записки ни о чем. 1971-1992», изданных частично в 1994 году, после ее смерти, в литературном журнале L'œil de bœuf, мы видим что она каждый год будет отмечать эту дату, 2 апреля, как особый день в своей жизни... Она называет этот день «Предначертанный и комичный». Этой встрече Банин со своим идолом и кумиром мы посвятим отдельную статью. Этот великий человек, сохранивший с ней даже после разрыва дружеские ровные отношения, посредством писем, приглашений, подарков, оказавший большое влияние на нее и на ее творчество и проживший 102 года, (он умер в 1998 году, шесть лет спустя после Банин) по всем параметрам заслуживает того, чтобы их отношения были бы представлены в отдельности. Страсть к этому человеку возникла у нее в первый день их знакомства, час спустя, сразу же после его ухода. Но это была любовь без взаимности и длилась она 9 лет. По ее собственному признанию, она любила лишь призрак, дух этого человека... Много раз она была на грани самоубийства, не видя никакого смысла в своем существовании. Но каждый раз ей не хватало смелости сделать это... Порывая со своим идолом, она думает о том, что не лучше ли пойти в монастырь, стать невестой Христа и посвятить себя Богу, чем безответно любить призрак, дух. Эта страсть, из которой она должна была каким то образом выйти, заменить чем-то другим, наполнить пустоту и была, на наш взгляд, одной из причин ее прихода в религию, в католичество.

Следует также особо подчеркнуть, что Банин, не имеющая никаких университетских дипломов и получившая только лишь домашнее образование в Баку, в своей семье, с самого детства и до последних дней своей жизни была «человеком читающим». Ей надо было понять почему она делает этот выбор и обязательно осознать этот шаг. Она многое взвешивает и пространно рассуждает приводя различные аргументы.

« Мой случай был особый; я познакомилась с Евангелием только уже будучи взрослой. Мне было около тридцати, когда я впервые прочитала его, только ради расширения моего

культурного кругозора. Можно считать запоздалым это образование и будем правы. Но я **самоучка**, и, к счастью, революция случилась как раз в нужный момент, не позволив мне продолжить учебу. Родившись в мусульманской семье на Кавказе, я была воспитана немкой-лютеранкой, которая из застенчивости не говорила со мной о своей религии, я знала лишь крошечную информацию о христианстве, то есть практически ничего. Об исламе, впрочем, едва ли чуть больше. У меня было смутное понятие о религиозности; был Аллах, от которого все зависело, и Мухаммед, его Пророк. Особенно хорошо я знала праздники, когда мы ели даже больше, чем обычно; и трагические события: поминовение резни Хусейна и Хасана, когда толпы фанатиков с криками раздирали себе лицо и тело. Ни мой разум, ни мое сердце не находили в этом ничего, что могло бы меня вдохновить и возвысить. И поэтому, это меня совсем не воодушевляло» (4, с. 10-11).

Банин много читает о христианстве, пытается понять истоки этой религии, критически оценивает прочитанное. В ее дневниках очень много иронических, критических замечаний. Ирония есть во всем, что она пишет, будь то о себе, об окружающих ее людях, о событиях которые с ней происходят. Ирония – это визитная карточка Банин. Она много рассуждает о разнице между католичеством, православием и протестанством. Очень забавно и с юмором она рассказывает о разных священниках, с которыми она встречалась и как они относились с недоверием к ее желанию перейти в христианство. И больше всего их смущает то, что она обязательно хочет получить крещение. Но общаясь с различными священнослужителями, она всем им искренне говорит, что душой и сердцем она хочет принять эту веру, но ее разум не верит в историю христианства и считает, что христианство несет на себе отпечаток абсурда.

Принимая католичество, она непременно хочет получить крещение. И наконец, когда ей сообщают, когда и в каком Аббатстве ее будут крестить, она очень счастлива, потому что в ее глазах это «потрясаюшее» событие. Но тут же она добавляет: «Я не ожидаю от крещения никакого внутреннего преображения, ни какого-либо просветления и еще меньше улучшения своей сущности ... Мое обращение в католичество похоже на строение, которое я медленно и мучительно возводила под ироническим взглядом Банин-атеиста» (4, с. 213).

Можно предположить, что одной из веских причин обращения Банин в католицизм было все-таки сильное влияние в раннем детстве на нее гувернантки, фройлен Анны. В автобиографическом романе «Кавказкие дни» Банин пишет, что «почти все, что было чудесного в моем детстве, было связано с ней», с фролейн Анной: «меня воспитывала святая женщина, прибалтийская немка, моя гувернантка, моя мама, мой ангел-хранитель, которая отдала нам свое здоровье, растрачивая себя с нами до последней капли, которая познала с нами слишком много горестей и слишком мало радостей, которая лишь жертвовала собой, ничего не прося взамен». Фройлен Анне «удалось в лоне фанатично мусульманского семейства, в городе все еще совершенно восточном, создать и поддерживать атмосферу Рождества с его сладкими песнопениями золотоволосых малышей, с Новогодней елкой и рдеющими ангелами, с пирожными, отяжелевшими от крема и сентиментальностью». И удивительное совпадение, именно в тот год, когда она принимает католицизм, она узнает от сестры Сураи о смерти фройлен Анны (4, с. 35), которая прожила 20 лет в их доме в Баку и была верующей христианкой.

Другой причиной, могло бы быть какое-то косвенное влияние ее второго замужества, когда она жила в католической семье в Тулузе. В дневнике-журнале она рассказывает о родителях мужа, с радушием принявших ее в семью. И Библию она впервые читает в период проживания в Тулузе, в этой католической семье.

По мнению самой Банин, самой главной причиной ее обращения в религию было желание после опустошающей страсти к своему идолу, которого она боготворила почти 10 лет, заполнить пустоту в своей жизни, обрести что то возвышенное.

Ее несчастливая жизнь, одиночество, отчаяние, меланхолия, невроз и частые депрессии также способствовали и толкали ее на поиски душевного равновесия, которое она могла бы обрести в вере в Бога. «Моя жизнь подходит к концу, а я так и не познала счастья. Хорошо,

скажет мне кто-нибудь: но ведь это удел большинства людей... Не только я сама не была счастлива, но, самое главное, я не сумела никого сделать счастливым». Ее критический возраст, связанная с этим глубокая депрессия, ей было под 50, когда она принимает это решение, видимо также сыграли свою роль в ее повороте к религии.

Следует также отметить немаловажное значение того факта, что публикация этой книги принесла ей какой-то финансовый доход. Она сама об этом неоднократно пишет. Тем более, что эта книга неоднократно переиздавалась и переводилась на разные языки. Банин в основном зарабатывала литературным трудом, иногда делала литературные переводы с русского и с немецкого на французский. Она также получала пособие от Французского государства. Она считала, что не приспособлена ни к какому другому виду работы, кроме как литературному труду.

Многочисленные читатели, прочитав «Я выбрала ... опиум», спрашивали у Банин: А что **потом**? В продолжение к этому дневнику-журналу она напишет книгу «Потом», опубликованную также в издательстве «Stock »в 1961 году. В этой книге она пытается ответить на вопрос, такая ли она как раньше? Что в ней изменилось после принятия христианства? Подробный анализ этой книги Банин мы попытаемся сделать в другой статье.

Заключение. Таким образом, в 1959 году Банин обращается в католицизм, принимая крещение. Невозможно пытаться понять ее этот шаг, если не принимать во внимание исторический контекст и все обстоятельства ее жизни: гувернантка-немка, европейское воспитание, одиночество, частые депрессии, отсутствие семьи, ее сложный характер, круг общения в Париже, отсутствие постоянной работы и финансового дохода, неумение приспосабливаться... В творчестве Банин тема христианства занимает особое место. Из одиннадцати опубликованных ею книг, четыре посвящены этой теме. Но несмотря на это, в конце своей жизни, в своих неизданных дневниках «Записки ни о чем», в записях от 28 марта 1988 года, почти тридцать лет спустя после принятия христианства, она задает себе вопросы, выражая сомнение : «Вчера, Вербное воскресенье, после нескончаемой скучнейшей мессы от которой хотелось плакать, я вернулась домой ... в противоречивых чувствах, почему я пошла на эту мессу, не имея ни малейшего желания? Непонятное чувство долга ? Что осталось от моих Христианских порывов, устремлений ? Привязанность к духовной красоте веры, которой я завидовала и восхищалась у настоящих верующих»?...

Использованная литература:

1. Banine. Jours caucasiens. France : Gris banal, éditeur. 1985, 257
2. Banine. Nami. France : Editions Gallimard. 1942,(réédition numérique)
3. Banine. Jours Parisiens. France : Editions Gallimard. 1990, 209
4. Banine. J’ai choisi l’Opium. France : Edition Stock, 1959, 219
5. Banine. Après. France : Edition Stock, 1961,179
6. Banine. La France Etrangère. France: Edition S.O.S., 1968, 298
7. Банин. Кавказские дни. Баку: Азернешр, 2006, 263

CEYMS COYSUN "SƏNƏTKARIN GƏNCLİK PORTRETİ" ƏSƏRİNDƏ MODERNİST TƏRBİYƏ ROMANININ XÜSUSİYYƏTLƏRİ

Gilə Hüseynli*

Abstract

The characteristics of a modernist bildunsgroman in James Joyce's novel "A portrait of the artist as a young man"

In the thesis, the development path of the bildungsroman from the Enlightenment period to the modern era and the change of the model of the novel in the context of the change of the cultural paradigm are investigated. The modernist bildungsroman focuses on typical experiences, as we can see in the example of J. Joyce's novel "A portrait of the artist as a young man" - the experience of the artist, an exceptional person. The character in the analyzed novel suffers from existential pain and cannot understand the changed world. Various representations of mythology are relevant for the modernist bildungsroman. One of the most common themes is the return to the origin of culture or the personal experience of the image, and by applying this technique, Joyce tries to restore the lost integrity of the surrounding world with the sensitive consciousness of the modernist individual.

Keywords: *modernism, bildungsroman, individual, transformation, artist.*

Giriş. Əsasını maarifçilik dövrü alman ədəbiyyatından götürən və Azərbaycan ədəbiyyatşünaslığında tərbiyə romanı kimi ifadə olunan bildunqsroman janrının araşdırılmasının əhəmiyyətini ötən əsrdə cəmiyyətimizdə baş verən köklü dəyişikliklər müəyyən edir. Sosial-iqtisadi islahatlar ictimai sistemin əsaslı şəkildə dəyişməsinə, eləcə də sosial və mədəni problemlərin kəskinləşməsinə səbəb oldu. Qloballaşma nəticəsində mədəni köklərin itirilməsi müasir cəmiyyət üçün qarşısıalınmaz davamlı və aktual prosesə çevrildi. Nəzərə alsaq ki, müasir dövrdə ən çətin ictimai problem şəxsiyyətin sosial və mədəni böhranı məsələsidir, bu mövzunun müasir ədəbiyyatda hansı aspektdə işlənməsi xüsusi maraq doğurur.

Bildunqsroman janrında yazılan əsərlərdə mədəniyyət məhdud mənada dəyərləri yaradan, yayan və qoruyan sistem, mənəvi formalaşma prosesi kimi təqdim edilir. Fərd mədəniyyətə əvvəlki və indiki nəsillərin mədəniyyətləri ilə sosial qarşılıqlı əlaqə prosesində yiyələnəndikdə onun şəxsiyyəti formalaşır.

Tərbiyə romanı geniş mənada fərdin yetkin həyata başlamasını və uyğunlaşmasını təsvir edən janr formasıdır. Uşaqlıqdan gəncliyə və yetkinliyə keçid ritualı, böyümənin ilk fizioloji aspektlərinin yaşanması, ilk mənəvi ağrı, ölümün dərk edilməsi, xeyirlə şərin fərqinin idrakı, ümumilikdə dünyanın mürəkkəbliyinin kəşfi bildunqsroman janrında baş obrazın formalaşmasının əsas məqamlarıdır.

XX əsrin əvvəllərində tərbiyə romanı janrın klassik nümunələrilə müqayisədə dramatik transformasiyaya məruz qalaraq yeni xüsusiyyətlər, keyfiyyətlər qazandı və beləliklə, müasir bildunqsroman özündə bir neçə roman növünü birləşdirməyə başladı: avtobioqrafik roman, sənətkar haqqında roman, ailə saqası və tərbiyə romanı. Bütün əsrin xülasəsini ifadə edən ən görkəmli nümunələr arasında Ceyms Coysun "Sənətkarın gənclik portreti" və Marsel Prustun "İtirilmiş zamanın axtarışında" əsərlərinin adlarını qeyd etmək olar. Bu romanlar ona görə xüsusi əhəmiyyət kəsb edir ki, onlar təkcə insanın deyil, sənətkarın formalaşmasını əks etdirir.

Roman janrının belə dəyişməsi həm ictimai, həm də elmi şüurda baş verən dəyişikliklərlə şərtlənirdi. Xüsusilə, Darvinin təkamül nəzəriyyəsi mövcud nizamın sabitliyi anlayışını alt-üst etdi [6]. Ədəbi və tarixi kontekstlər əsrin əvvəllərində roman janrının təkaümülünə böyük töhfə verdi. Bu dövrdə yazılan tərbiyə romanları yeni dəyərlərin axtarışına yönəlmişdi. Bu romanlarda ənənəvi tərbiyə anlayışına yenidən baxıldı, baş obrazın mənəvi və intellektual inkişafında mühitin rolu azaldı. Bu, xüsusilə, sosial məsuliyyətin şəxsi tərbiyə üzərində qələbə çalmağa meyilli olduğu ingilis bildunqsromanına aid xüsusiyyət idi.

* *Azərbaycan Dillər Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent. Elek.poçt: gilehuseynli@gmail.com.*

Müasir bildunqsromanın xarakterik xüsusiyyətlərindən biri də təhkiyə çərçivəsində modernist estetikanın əsas əlamətlərinin baş obrazın şüurunun dərin psixoloji qatları ilə birləşərək təqdim edilməsi ilə səciyyələnir. XX əsrin tərbiyə romanlarında əsas diqqət hadisənin məcrasına və nəticələrinə deyil, hər addımda xarici təsirlərə məruz qalan həssas obrazın inkişafının konkret mərhələsinə yönəlib.

Müasir bildunqsroman mövcud dünyaya deyil, fərdin daxili dünyasına daha çox diqqət yetirdiyindən bu romanların quruluşu mürəkkəb deyil, çünki süjet müxtəlif hərəkətlərdən deyil, hisslərin vəhdətindən ibarətdir. Həmçinin onu da qeyd etmək lazımdır ki, baş obrazın mənəvi yüksəlişinə kömək edən tərbiyəçi siması modernist bildunqsromanda yoxdur.

XX əsrin əvvəllərində bildunqsroman ənənələri Ceyms Coysun "Sənətkarın gənclik portreti" romanında davam və inkişaf etdirilmişdir. Romanın adı artıq janra yeni yanaşmadan xəbər verir. Coys oxucunu inkişaf edən hekayənin dinləyicisi deyil, bir növ portretin izləyicisi təyin edir. Biz təkcə baş qəhrəman Stiven Dedalusun həyat tarixini oxumuruq, həm də sənətkarın portretini görürük. "Portret" modernizm dövründə tərbiyə romanının inkişafında yeni mərhələni təmsil edir. Qəhrəmanın ruhani inkişafı və ruhani yezuit mühitinin təsirindən qurtuluşu, sənətdə özünü tapmaq cəhdi, ailə münasibətlərinin pozulması öz məni ilə münaqişə fonunda göstərilir.

Əsas hissə. C.Coysun "Sənətkarın gənclik portreti" əsəri sosial həyata böyük təsiri olan katolik kilsəsinin təsirinə məruz qalan müasirliyin aktual məsələlərindən bəhs edir. Qreqori Kasl "Modernist bildunqsromanı oxumaq" kitabında Coysun sosiallaşma proseslərini tənqid edərək onun təkamül dəyərlərini daha tənqidi şəkildə şərh etdiyini iddia edir [6, s. 30]**.**

Əsərdə hadisələr XIX əsrin 80-90-cı illərində İrlandiyada cərəyan edir. Baş qəhrəman Stiven Dedalusun uşaqlıq, yeniyetməlik və gənclik illəri təsvir olunan əsər üçüncü şəxsin dilindən nəql olunsa da avtobioqrafik səciyyə daşıyır. Romanın əsas xarakteri olan Stiven Dedalus Coys kimi Dublində doğulub, onun oxuduğu məktəblərdə təhsil alıb. O, Coysun uşaqlıq və gənclik illərində başına gələn hadisələri, qarşılaşdığı problemləri yaradıcı şəxs ola bilmək üçün verdiyi mübarizələrin oxşarını yaşayan qəhrəmandır. Buna görə də, Stiveni Coysun prototipi hesab edə bilərik. "...Ceyms Coys bioqrafik məqamları bədii yaradıcılığın və təxəyyülün vəhdətində yeni üslub, özünəməxsus təhkiyə formasında, orijinal süjetlə təqdim edir. Bununla da, hər hansı ictimai hadisənin insan şüurunda necə qavranılmasını, hansı düşüncə və hissləri formalaşdırmasını, insanın isə bütün bunları nə qədər anlayıb-anlamadığını ifadə etmiş olur" [5].

Yazıçının bütünlüklə insan problemini qabartdığı "Sənətkarın gənclik portreti" "bildunqsroman" alt janrı sayılan Künstlerromana aiddir. Belə ki, sənətkarın kamilləşməsini əks etdirən bu tip romanlarda bədii və estetik problemlər şəxsiyyət problemləri ilə bir-birinə qarışır, mütləq konkret insan təsvir edilmir, ümumiyyətlə insan təbiətinin sirləri araşdırılır. Coysun əsəri özünə bənzər modernist ənənəyə uyğun müstəsna bir sənətkara diqqət yetirir. Coys kimi Stiven təhsil təcrübələri ilə yaşayır və eyni zamanda özünü müşahidə edir, fikirlərini hər şeyi bilən təhkiyəçi texnikasından kənar şəkildə, "şüur axını" vasitəsilə ifadə etməyi bacarır.

"Şüur axını" modernizm cərəyanında aparıcı rol oynayan yazı üslubu texnikası sayılır. Ədəbiyyat sahəsində istifadə olunana qədər psixologiyanın əsas anlayışlarından biri hesab olunurdu. Bu anlayış termin olaraq amerikalı filosof və psixoloq Uilyam Ceymsə aiddir. İnsanın şüurundakı ən xırda məqamları canlandıran daxili monoloqu əks etdirən "şüur axını" məktəbinin yaradıcısı isə Ceyms Coys hesab olunur.

Ümumiyyətlə, Stivenin uşaqlıq xatirələri kortəbiidir və oxucuda birmənalı olmayan hisslər oyadır. Gənc Stiven sadəcə şair deyil, onun düşüncələri dərindir; daxili dünyası onu əsil şairin çatmalı olduğu kamilliyə doğru getməyə onu vadar edir. Coys şairin daxili formalaşması prosesini açmaq üçün konkret "şüur axını" texnikasından istifadə edir: xatırlama, təəssürat, hadisələrin özünəməxsus ifadə olunması.

Romanda mənasız təsvirlər yoxdur, hər şey şüur qanunlarına tabedir. Coys baş obrazın şüurunun daxili mexanizmini açır, Stiven Dedalusun şüurunun içindən keçərək ətraf aləmi göstərir. Həyatın ənənəvi təsvirindən kənara çıxan müəllif obrazın daxili aləminə diqqət yetirir. Stiven Dedalusun mənəvi inkişafı ardıcıl şəkildə deyil, dayanmış baxışlarda nümayiş etdirilir. Xarici dünya

obrazın ətrafında gördüyü hər şeyi uzaqdan və səbirlə izləyən gözləri ilə göstərilir. Əsasən sosial, psixoloji, mənəvi təkamülə istinad edən Coys XIX əsrin tərbiyə romanı ənənəsini "Sənətkarın gənclik portreti" əsərində davam etdirir [7].

Bununla belə, o, insanın daxili aləminə nüfuz edərək, onun xarici dünya ilə münasibətinin yeni mənzərəsini təqdim etməklə bildunqsromanda yeni bir tendensiya yaratmış oldu.

Yarımavtobioqrafik roman olan "Sənətkarın gənclik portreti"nin süjeti baş obraz, gənc şair Stiven Dedalusun həyatının ən parlaq və ən yadda qalan dövrlərini əks etdirir. Baş qəhrəmana bu adın verilməsi heç də təsadüf deyil. Belə ki, Coys yaradıcılığının ilk dövrlərində bu adı təxəllüs kimi istifadə edərək hekayələrini çap etdirmişdi. 1904-cü ildə o, "Qəhrəman Stefan" ("Stefan Hero") adlı əsər yazmağa başlayır. Bu, onun həyatından olan hadisələrlər əlaqədar idi. Əsər Coysun gənclik illərindəki xatirələri ilə bağlı idi, lakin, bu əsərin qəbul olunmaması onu məyus edirdi. Əsər bu formada heç vaxt nəşr olunmadı. Romada olduğu müddətdə "Qəhrəman Stefan" əsərini yenidən, 5 hissəli formada işləyir. Əsərdə məhz qəhrəmanın şəxsiyyət kimi formalaşmasına diqqət çəkmək üçün adını "Sənətkarın gənclik portreti" qoyur (Asadov, A. 2021).

Qeyri-adi baş obrazın bir sıra mifoloji və ədəbi simvollardan ibarət olan adının mənası xüsusilə diqqəti çəkir. İlk ad bütpərəstlər tərəfindən öldürülən ilk xristian şəhidi Müqəddəs Stefandan (yunan dilində "çələng" və ya "tac" deməkdir) gəlir və sənətkarın şöhrətini simvollaşdırır. Dedalus adı Stiven Dedalusun əcdadı və mənəvi müəllimi hesab etdiyi Girit labirintinin mifoloji yaradıcısına istinad edir [4]. Bununla belə, Stiven sənətkardan daha çox şairdir, bu, onun içindəki labirintdə, ruhundadır.

Ətrafdakı reallığın satirik mənzərəsi rəssamın tənha və hamının xəyanət etdiyi daxili dünyasının yarandığı fon kimi təqdim edilir. Stiven Dedalusun dünyaya poetik baxışını ifadə etmək istəyi müasir İrlandiya mədəniyyətinin bütün kilsə və sosial strukturları ilə toqquşur. Baş verən hadisələr uşaq olan Stiven üçün anlaşılmazdır, qəribə görünür və və onun həssas gənc ruhunu yaralayır. Onun insanlar və dünya haqqında təsəvvürlərini dəyişsə də, ümumilikdə o, həyatın zərbələrinə tab gətirə bilir, şəxsiyyət kimi formalaşır. Bu uğur onun özünə olan güclü inamından qaynaqlanır.

Coys azyaşlı uşağın, daha sonra isə gərgin daxili həyatı olan gəncin psixologiyasına məharətlə nüfuz edir. Özünü evdəki qayğısız mühitdən, sərt nizam-intizam və yaşıdlarının kobudluğu ilə qarşılaşdığı xoşagəlməz kollec mühitindən qorumaq üçün Stiven öz dünyasını yaradır. Onun təxəyyülü həm poetik, həm də narahatedici obrazlarla doludur və bu, onun təbiətin səslərini, qoxularını və rənglərini özünəməxsus şəkildə dərk etməsinə kömək edir. Yalnız tək olanda və ya xəyali dostlarının yanında olanda o, özünü xoşbəxt hiss edir (Asadov, A. 2021).

Stiven Dedalus intellektual cəhətdən məktəb yoldaşlarından daha yetkindir. Bəzən o, hətta onların qəzəbli ifadələrindən və axmaq zarafatlarından inciməyərək onlara laqeyd yanaşır: "O, ona axmaq və ədəbsiz görünən şeylərdən incimirdi, çünki bu sözlərin beynindəki macəraya heç bir təhlükəsi olmadığını bilirdi: və onun üzü rəqibinin yalançı təbəssümünü əks etdirirdi" [3, s. 68].

Kollecdə oxuyan zaman Stiven bütün asudə vaxtını "yazılarına keçməzdən əvvəl beynində mayalandırdığı zarafatları və kobudluqları ilə seçilən təhrik edici yazıçıları oxumağa həsr edir" [3, s. 69]. O, esse yazmağı ən vacib vəzifələrdən biri hesab edir, onun üçün oxumaq və yazmaq, xüsusən Bayronun poeziyasının böyük əhəmiyyəti var. Şeir yazmağı ilə onu başqalarından fərqləndirən Coysun bu addımını müəllifin Stivenin həssaslığını və nevrotikliyini vurğulamaq cəhdi kimi şərh etmək olar. Ümumilikdə, Stiven tipik bir insan deyil - bu, romanın ötürdüyü əsas modernist mesajlardan biridir. Modernist bildunqsroman qeyri-tipik, müstəsna fərdi təsvir etmək məqsədi daşıyır. Poeziya bu kontekstdə müstəsnalığın və seçilmişliyin göstəricisi kimi başa düşülməlidir.

Stivenin ruhu ağlının yadda saxlamalı olduğu hər şeyi udur. O, yetkinləşir, böyüyür, kişi olur: "Onun ağlı digərlərindən daha yaşlı görünürdü: onun ağlı kiçik yer üzündəki ay kimi başqalarının mübahisələrindən, sevinc və təəssüflərindən soyuq şəkildə uzaqlaşmağı üstün tuturdu. Digərlərində olduğu kimi Stivendə nə həyat, nə də gənclik həyəcanı var idi" [3, s. 83-84]. Tədricən Stivenin bədəni yetkinləşdikcə cismani fikirlər onu təqib etməyə başlayır, narahat edir və qorxudur: "O, başqası ilə günah işlətmək, başqa bir varlığı onunla günah işlətməyə məcbur etmək və birlikdə günaha sevinmək istəyirdi" [3, s. 87].

Stiven Dedalusun təkamülünün kulminasiyası köhnə dini mənliyi, dinin sərtliyi ilə və hələ formalaşmaqda olan yeni mənliyi arasındakı daxili ziddiyyəti təbii qəbul etdikdə baş verir. O, sosial normalara uyğunlaşmaq istəmir. Onun təkamülü dini təcrübəyə və keşiş olmaq haqqında düşüncələrə dalmaqdan (o, insanlara faydalı ola biləcəyini hiss edir və bu ideallara əməl etməməyin günah olduğunu düşünür) və köhnə şəxsiyyətini itirməkdən ibarətdir. Hələ də bilmədiyi dini mərasimlərin qapılarının üzünə açılacağı fikri ona cazibədar görünür. Lakin Stiven tezliklə başa düşür ki, o, azad ruhunu ciddi Yezuit nizam-intizamına tabe edə bilmir. O başa düşür ki, Yezuit qaydaları ilə onu qaranlıq nizamlı həyat gözləyir, onun taleyi isə hər cür sosial və dini bağlardan qaçmağa meyillidir (Asadov, A. 2021).

Əsərin müəyyən mənada avtobioqrafik olmasını səciyyələndirən elementlərdən biri C.Coysun özünün dindən uzaqlaşması və kilsəyə kəskin münasibəti faktı ola bilər. Ceyms Coys bir məktubunda qeyd edir: "6 il əvvəl mən dərin nifrət hissilə katolik kilsəsindən uzaqlaşdım. Mənim təbiətim orada qalmağıma imkan vermədi. Mən səfil həyat sürərəm, lakin qürurumdan dönmərəm" [2, s. 14].

Romandakı mənəvi tənhalıq obrazın uşaqlıq, yeniyetməlik və gənclik çağına kimi təkamülündəki əsas xarakterik xüsusiyyətdir. Romanın son fəslində əsas mövzu davam edir və əsər boyu mövcud olan problemlər – ailə, din, siyasət, incəsənət – Stiven Dedalusun beynində dağılır. O, nəhayət, bu məsələlərə əsl münasibətini anlayır və ölkəni tərk etmək qərarına gəlir. Həyatın, sənətin bu və ya digər formasında tənhalığın, sükutun və sürgünün "zirehində" müdafiə olunduğu qədər tam və açıq şəkildə özünü ifadə etmək istəyir. Onun mənəvi rahatlığı fiziki yox, daxili səyahətdən doğan təkamülün nəticəsi kimi təsvir edilir. Stiven Dedalusun dinlə qarşıdurması səyahət sınaqlarının metaforası kimi şərh edilə bilər. Həqiqi səyahət yalnız hara gedə biləcəyini bildikdən sonra baş verir. Coysun romanında ənənəvi tərbiyə romanlarından fərqli olaraq daxili məkanın tədqiqi "real" məkanların kəşfindən əvvəl baş verir. Müəllif əsas diqqəti obrazın daxili sınaqlarına - şüuraltının dərin "yarıqlarında" baş verən dəyişikliklərə yönəldərək çağdaş insanın fasiləsiz, dəyişən şüurunu təmsil edir. Ard-arda daxili monoloq və "şüur axını"ndan ibarət olan roman insanın intensiv daxili həyatının tədqiqi hesab oluna bilər (Asadov, A. 2021).

Beləliklə, əsərdə baş obraz Stiven Dedalusun mənəvi böhranının şahidi oluruq. Bir vaxtlar coşqun katolik olan Stivenin ruhani dönüş və ya katarsis keçirərək eyni dərəcədə ehtiraslı bir sənətkara çevrilməsi unikal bir dəyişiklik hesab olunur. Fərdi dəyişim mənəvi böhranda gizlənir - transformasiya, dini "təməl" şəxsiyyətin estetik bir şəxsiyyətə çevrilməsini nəzərdə tutur. Bu fərdi ritm dini elementdən bədii elementə çevrilmə ritmidir. Sənətkar özü açıq şəkildə nümayiş etdirir ki, dini aləmi, demək olar ki, heç nə itirmədən də estetikaya köçürmək olar. Xristianlığın doqmatik nöqtələri estetikanın mənşəyi və əsaslarına çevrilir.

Coysun konsepsiyaları reallıqdan uzaqlaşmağı ifadə edir və Stiven Dedalus yeni dünyagörüş piramidasını modelləşdirir. Həyatın, sənətin, insan münasibətlərinin, hisslərin bütün sahələrində hökm sürən kobudluğa Stivenin estetik cavabı real dünyadan imtina kimi görünür. Ətraf mühitdən ayrılmaq baş obrazda mövcud təzyiqlərindən azad olaraq öz dünyasını yaratmaq həvəsini oyadır. Bununla Coys öz cəmiyyətini və dövrünü təqdim edir (Esedov, A. 2011).

Nəticə və elmi yenilik. Bildunqsromanın əsas məqsədi mədəni dəyərləri, sosial davranış normalarını çatdırmaq və oxucunu cəmiyyətə uyğunlaşdırmaqdır. Bununla belə, modernist tərbiyə romanlarındakı sosial və mədəni dəyərlər saxtadır. Məhz bu səbəbdən baş obrazın təkamülü həqiqi mədəni dəyərlərin yaradılmasını təklif edir. Bildunqsromanın modernizm dövründəki dəyişikliyinin əsas göstəricisi baş obrazın təkcə şəxsi böhrandan deyil, həm də mədəni böhrandan çıxış yolu axtarması ilə səciyyələnir. Bu baxımdan modernist tərbiyə romanı sosial institut kimi özünəməxsus funksiya qazanır.

Maarifçilik diskursunda daha çox üstünlük verilən əvvəlcədən müəyyən edilmiş ictimailəşmə modernist bildunqsromanda fərdi özünüdərketmə cəhdi ilə əvəz olunur. Klassik tərbiyə romanlarının filister qəhrəmanı əvəzinə, modernist romanda, xüsusən də C. Coysun "Sənətkarın gənclik portreti" əsərində təkcə fərdin böhranı deyil, həm də ümumilikdə mədəni böhranı aradan qaldırmaq məqsədi daşıyan sənətkar obrazı görürük. Modernist romanın süjeti xarici aləmdən baş obrazın daxili dünyasına keçir və obrazın mənəvi həyat prosesləri maddiləşir, ikinci dərəcəli obrazlar kollektiv təhtəlşüurun

arxetiplərinə çevrilir. Baş obrazın təkamülü birmərhələli başlanğıc aktını deyil, bütün həyatı əhatə edən fərdiləşmə prosesini təmsil edir.

Modernist tərbiyə romanlarında müəllif hermenevtik özünütəfsir strategiyası ilə məşğul olur və təhkiyəçi obraz vasitəsilə həyati əhəmiyyətli mədəniyyət problemlərinə diqqət yetirir. Beləliklə, oxucu mədəni böhranın yaratdığı şəxsi suallara cavab tapa bilir. Şüur axını, düşüncənin haçalanması, ellips/flaşbeklər kimi modernist üsullar vasitəsilə ilə bəşəri problemlər əyani şəkildə göstərilir. Buna görə də, belə nəticəyə gəlmək olar ki, bildunqsroman harmonizasiya funksiyasını yerinə yetirir: o, cəmiyyətlə insan arasında vasitəçi rolunu oynayır, rasionalizm "qaydaları" olmadan yeni, absurd və anlaşılmaz dövrdə fərdi yaşamaq üçün zəruri olan bilik və bacarıqlarla təmin edir. Əvvəllər təsvir olunmayan təcrübələrə diqqət yetirən modernist tərbiyə romanı institut funksiyasına malik olduğundan subyektiv vasitəçilik ilə sosial və mədəni kimliyin formalaşması üçün yeni sosial funksiyalar yerinə yetirdi.

İstifadə edilmiş ədəbiyyat

1. Castle G. Reading the Modernist Bildungsroman. Gainesville: University Press of Florida, 2006, 336 p.
2. Ellmann R. James Joyce. Oxford University Press,1983, 887 p.
3. Joyce J. A Portrait of the Artist as a Young Man. New York/London: W. W. Norton & Company, 2007, 528 p.
4. Leonard G. "When a Fly Gets In Your I: The City, Modernism, and Aesthetic Theory in A Portrait of the Artist as a Young Man.", /Advertising and Commodity Culture in Joyce (pp.175-208) Gainesville: University of Florida Press, 1998, 264 p.
5. Esedov, A. (2011). Kafkaslarda Azeri Türk Edebiyatının Yeni Aşaması: Doğu deneyiminden Batı deneyimine. TURANSAM: Turan Stratejik Araştırmaları Merkezi Dergisi, 9, 73–75. http://www.turansam.org
6. Asadov, A. (2021). Organizational issues of work on world literature samples in primary schools. Journal of Preschool and Primary Education, 236(3), 81–93.
7. Asadov, A. (2021). The role of world literature in shaping students' planetary thinking. Azerbaijan Journal of Educational Studies, 697(4), 111–119.
8. Najafov R. (2021). On the philosophical study of the origin of irrational knowledge in Eastern peripatetic philosophy: "revelation, dream and inspiration": in the context of the philosophical views of Shihabeddin Yahya Suhrawardi, Abulhasan Bahmaniyar and Al-Kindi. Science, Education and Innovations in the Context of Modern Problems. 8(3), 48-67.
9. Məmmədova C. Ceyms Coysun yaradıcılığının əsas ideya istiqamətləri. Elmi baxış. 1(16) 2020 / https://www.anl.az/down/meqale/dunya_ebaxis/2020/1/766122(meqale).pdf
10. Moretti F. The Way of the World: The Bildungsroman in European Culture. New York/London: Verso, 2000, 274 p.
11. Thomas C. "Stephen in Process/Stephen on Trial: The Anxiety of Production in Joyce's Portrait." // NOVEL: A Forum on Fiction, Vol. 23, No. 3 (Spring, 1990), pp. 282-302 (21 pages) Published By: Duke University Press

ABŞ ƏDƏBİYYATINDA ORİYENTALİZM: QƏRB KONSEPSİYALARI

Nuranə Nuriyeva*

Abstract

Orientalism in USA Literature: Western Conceptions

Starting from the 19th century, the American literature revealed its national identity by moving away from the European literature in terms of form and content. Thus, as a result of the influence of this new outlook, the concepts of history, literature, philosophy, and science went to another level. Of course, the political, social and cultural consequences of such a crisis have been discussed for many years in many fields of science, and various scientific results have been obtained to date. American literature was also able to get out of the "cultural crisis" caused by a period between Western and Eastern civilizations. In this regard, Matthew H. Pangborn's enlightened orientalism and Edward Said's "Orientalism" and the conflict between East and West, as well as the place and role of American orientalism in this concept, are studied as the main object of analysis.

Keywords: *Orientalism, E.Said, USA literature, concept, Sufism.*

Giriş. Müstəqil Azərbaycanın qurucusu olan görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev xalqımızın ədəbi-bədii irsinə xüsusi diqqət ayırırdı. Onun peşəkar siyasətçi kimi fəaliyyətində bədii ədəbiyyat faktorununda xüsusi yeri var idi. Belə ki, ədəbiyyata xalqın milli-tarixi varlığı ilə yanaşı tərəqqisinin, dünyaya çıxışının əsas amillərindən biri kimi baxmış, onun davamlı inkişafı və ədəbi əlaqələr sferasındakı roluna xüsusi diqqət vermişdir. Bu baxımdan bu gün ədəbi əlaqələr müstəvisində ABŞ ədəbiyyatında oriyentalizmin öyrənilməsi məsələsi də mühüm əhəmiyyət kəsb edir.

Edvard Said "Oriyentalizm" adlı kitabında Şərqi müasir Qərbin qurucu elementi kimi təsvir etməsi mədəniyyət tarixinin davamlı konsepsiyalarından biridir. Oriyentalizm haqqında tezis XIX əsrdə Qərbin "Şərqi", xüsusən də "Yaxın Şərqi" İslama qədərki dövrdə yüksək mədəniyyətə malik olan yer kimi təqdim etməsilə başlayır. Belə ki, Qərb bu mədəniyyətin səriştəsiz İslam dövlətlərinin təsiri nəticəsində tənəzzülə uğradığını iddia edir. Bu əsassız düşüncədən Qərb dünyası sonralar imperializm və xristianlığın Asiyaya yayılmasına haqq qazandırmaq üçün istifadə etdi. 1775 və 1830-cu illər arasında isə bir qrup ingilis dilli yazıçı və sənətçi, İspaniyanı şərqşünasların yazdığı kimi bir mədəni trayektoriyaya sahib dövlət olaraq təsvir etdilər [3, s. 13].

Tarixən Şərq mədəniyyətlərinin öyrənilməsi mənasını verən oriyentalizm neytral termin olaraq işlənilirdi. Edvard Saidin "Oriyentalizm" (*Orientalism, 1978*) kitabının nəşrindən sonra isə daha çox onun təyin etdiyi şəkildə istifadə olunmağa başlanıldı (Asadov, A. 2021). Bu termin daha geniş mənada həm akademik tədqiqat, həm də Şərq mədəniyyətlərinə ekzotikləşdirilmiş stereotip kimi baxan sənət anlamında götürülür. Belə ki, Edvard Said bu ikisi arasındaki fərqi qəbul etməkdə bir o qədər də maraqlı deyildi. Bu baxımdan o, oriyentalizmə daha geniş şəkildə, ikinci məna verdi: "Oriyentalizm "Oriyent" və (çox vaxt) "Oksident" arasında aparılan ontoloji və qnoseoloji fərqə əsaslanan düşüncə tərzidir" [3, s. 2]. Orientalizmin bu anlayışı "elmi" əsərlərdən kənara çıxaraq, incəsənət, ədəbiyyat, siyasi nəzəriyyə, fəlsəfə və Şərqlə Qərb arasında mühüm fərq yaradan digər sahələri də əhatə edir. Bu cür oriyentalizm Şərqin Qərb üzərində və ona qarşı olan təmsillərinə əsaslanır. Beləliklə, Edvard Said orientalizmi özünün nəzəri və tarixi cəhətdən ən mürəkkəb formasında bir güc diskursu olaraq göstərdi (Esedov, A. 2011).

Əsas hissə. Oriyentalizm bir konsepsiya olaraq Metyu H.Penqbornun "Maarifçi Oriyentalizm amerikan düşüncısində, 1770-1807" (*Enlightenment Orientalism in the American Mind, 1770-1807*) kitabının əsasını təşkil edir. Bu kitab Qərbin özlərini şərqli "Özgələrdən" ayırmaq və kimlik formalaşdırmaq məqsədilə zamanında istifadə etdiyi və hələ də istifadə etməyə davam etdikləri bir vasitədir. Edvard Said, 1978-ci ildə yazdığı "Oriyentalizm" kitabı ilə bu sahədə bir dönüş dövrü yarada bildi və bu araşdırmasında oriyentalizmin, Şərqi heçə sayaraq Qərb dəyərlərini müdafiə edən

* ***Azərbaycan Dillər Universiteti, Xarici ölkələr ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru.***

Elek.poçt: nurananuri@mail.ru.

bir kolonial missiya olduğuna aydınlıq gətirdi. Onun oriyentalizm haqqındakı dəyərləndirməsi, əsasən XIX əsrin sonları və XX əsrin əvvəllərində Avropanın qlobal kölələşdirməyə yönəlik istismar müəsisəsi və XX əsrin ortalarına qədər davam edən dəyər mirası ilə bağlı Qərb dünyagörüşü olduğu fikrinə əsaslanır. Halbuki oriyentalizm XVIII əsrdə də geniş yayılmışdı. O, başlanğıcda sonralar olduğu kimi, aqressiv şəkildə aşağılayıcı xarakter daşımasa da, yenə də Qərbin şəxsiyyət yetişdirməsində mühüm rol oynadı. Tədqiqatçı M.H. Penqborn özünün "Maarifçi oriyentalizm" kitabında XVIII əsrin sonundakı Amerikan oriyentalist ədəbiyyatını yüksək qiymətləndirir. Çünki, Amerika yazıçıları öz müqəddəratını təyin etmək uğrunda mübarizədə Şərq və Şərqlilərdən düşmən kimi istifadə edirdilər [2].

M.H.Penqbornun tədqiqatında əsas məqam onun Amerika oriyentalist ədəbiyyatının sarsıdıcı iqtisadi bum şəraitində çiçəkləndiyini etiraf etməsidir. O, qeyd edir ki, "XVIII əsrdə amerikalılar tükənməz görünən enerji ehtiyatlarından, sıx meşələrdən alınan ağacdan, yelkənli gəmilərin inkişafı ilə əldə edilən külək enerjisindən, Atlantik okeanının sahillərini bağlayan su dəyirmanlarından, inkişaf edən nəhəng neft sənayesindən və qəddarcasına insan kölələşdirmə sistemindən faydalanırdılar. Bu da nəticədə, külli miqdarda sərvət toplanmasına, həyat səviyyəsinin yüksəlməsinə və dəbdəbəli malların idxalının artmasına səbəb oldu" [2].

M.H.Pengborn həmçinin bildirir ki, bolluqdan yaranan oriyentasiya pozğunluğu Amerika yazıçılarını Amerika kimliyini yenidən dəyərləndirməyə gətirib çıxardığından onlar bunu çox vaxt oriyentalizm adı altında edirdilər. Bu səbəbdən də əsərlərində adətən, ziddiyyətli mədəniyyəti qiymətləndirən qərbli və ya şərqli səyyah olurdu; bəzən bir amerikalı Şərqə və ya əksinə bir şərqli Amerikaya səyahət edərdi. Hər iki halda, qarşılıqlı əlaqə bu mədəniyyətləri bir-birinə qoyurdu ki, amerikalılar özlərini Şərqin güzgüsü vasitəsilə əks etdirə bilsinlər. M.H. Penqbornun kitabının böyük bir qismi Amerika oriyentalist mətnlərinin hər bölümdə uzun-uzadı təhlillərindən ibarətdir. Birinci təhlil, bəzi tədqiqatçıların ilk Amerikan romanı hesab etdiyi, Filip Freno və Hyu Henri Brekenricin tələbə olarkən qələmə aldığı "Ata Bombonun Məkkəyə həcc ziyarəti"nə (*Father Bombo's Pilgrimage to Mecca*, 1770) getməsini ələ alan hekayətdir (Najafov, R. 2021). Burada əsərin absurd baş qəhrəmanı olan Ata Bombonun səyahəti satirik şəkildə təqdim olunur. Belə ki, bir kabus, Bombonu Lusiandan ədəbi oğurluq etdiyi üçün günahlandırır və kəfarət olaraq ondan İslamı qəbul etməsini və Məkkəyə həcc ziyarətinə getməsini istəyir. M.H. Penqborna görə Bombo bolluq (yemək, içki, evlər, gəmilər və s.) arasında ehtiyatsız və ağılsızcasına dolaşan "həyatdan heybətli dərəcədə böyük" bir personajdır [2, s. 86]. Beləliklə, Bombo həddindən artıq istehsal böhranı dövründəki erkən Amerikanın mənəvi boşluğunu və acgözlüyünü təmsil edir.

M.H. Penqborn daha sonra Piter Markonun "Pensilvaniyada əlcəzairli casus" (*The Algerine Spy in Pennsylvania*, 1787) əsərini təhlil edir. P.Marko əsərini Filadelfiyaya səyahət edən uydurma əlcəzairli casus Mehmet təxəllüsü ilə qələmə alır. Bu şəxs Amerikadakı səyahəti ilə bağlı reportajını silsilə məktub şəklində vətəninə yollayır. Məktubunun birində Mehmet amerikalıların kommersiya və təmtəraqlı yaşamaq istəyinin gözlərini tutduğunu qeyd edir və bu səbəbdən də filadelfiyalıların aralarında casus olduğunu görmədiklərini bildirir. P.Marko kitabını əlcəzairli dəniz quldurlarının 1785-ci ildə Amerika ticarət gəmilərini zəbt etdikləri bir ərəfədə nəşr etdirmişdir. Məhz bu hadisədən sonra Amerika ştatları birləşərək öz hərbi-dəniz donanmasını yaratmışdır.

Royal Taylerin "Əlcəzairli əsir" (*The Algerine Captive*, 1797) əsərinə də müraciət edən M.H. Penqborn Amerikaya səyahət edən bir həkimin həyat hekayəsini analiz edir. Daha sonra müəllif XIX əsrin ən önəmli amerikalı elm adamlarından biri olan Benjamin Sillimanın "Şahkulenin məktubları" (1801-1802) əsərini təhlil edir. Bu əsərdə Amerikanın sosial-siyasi həyatını müşahidə edən Silliman Amerika coğrafyasının təbii torpaqlarının bolluğunu və zəngin potensialını təsvir etmək məqsədilə kənar bir səs olaraq uydurma hindli filosofu Şahkulendən - Şərqli obrazından istifadə edir.

Son olaraq M.H. Pengborn Vaşinqton İrvinqin qardaşı Uilyam İrvinq və yeznəsi Ceyms Kirk Poldinqlə birgə yaratdıqları "Salmaqundi" (1807-1808) satirik jurnalını tədqiq edir. Burada bir neçə uydurma personajın təxəllüsləri arasında ərəb əsilli Mustafa Rab-əl-Dab Kəli Xanın güman edilən məktubları dərc olunur. "Salmagundi" jurnalının müəllifləri Mustafa adından istifadə edərək Nyu-Yorkun tənəzzülə uğramış lüks mədəniyyətini işıqlandırırlar.

M.H.Penqbornun kitabı bu gün bəzi məqamlarda aktual görünür və Birləşmiş Ştatatların müəyyən sosial və iqtisadi dəyişikliklərə getməsi şəxsiyyət məsələlərini ortaya çıxarır. İnsanlar mütəmadi olaraq bu dəyişikliklərin işığında özlərini kimlik baxımından yenidən müəyyənləşdirmək məcburiyyətindədirlər. Bu da daha əvvəlki mütəfəkkirlərin ABŞ-ın qurulmasında istifadə etdikləri metodları yenidən nəzərdən keçirmək üçün faydalıdır. Kitabın əsas çatışmazlığı isə M.H.Penqbornun arqumentlərinin qeyri-şəffaflığında özünü göstərir və daha çox sözçülükdən ibarətdir (Asadov, A. 2021).

M.H.Penqbornun kitabı XVIII-XIX yüzillikdəki Amerika tarixnə, ədəbiyyatına və oriyentalizmə bir yeni baxış olsa da, əsaslı şəkildə Edvard Saidin oriyentalizmindən fərqlənir və onunla müqayisədə sosial-siyasi baxımdan zəif qalır. Edvard Saidin kitabına nəzər salsaq görərik ki, o, oriyentalizmi bir-birinə bağlı üç mənada işlədir: 1) Elmi disiplin olaraq Oriyentalizm, 2) Mahiyəti Şərq-Qərb ayrımına dayanan bir düşüncə tərzi olaraq Oriyentalizm və 3) Siyasi ideologiya olaraq Oriyentalizm. Fransız nəzəriyyəçisi Mişel Fukonun əsərindən təsirlənən bu üçüncü oriyentalizm anlayışı Şərq haqqında biliklərin qurulmasını, Şərqin təsvirlərinin dövriyyəsini, bilik və təmsilin Şərq üzərində hakimiyyətlə əlaqəsini vurğulayırdı. Şərqi tanımaq və təmsil etmək ona hakim olmaq demək idi. Beləliklə, Edvard Saidə görə oriyentalizmin diskursu ilə müstəmləkəçilik təcrübəsi arasında təbii əlaqə var idi. Bəziləri Edvard Saidi oriyentalizmin bu üç anlayışında ən yaxşı halda gərginlik və ən pis halda ziddiyyət olduğuna görə tənqid edirdilər. Lakin hind klassik dillərinin sistematik şəkildə öyrənilməsinin təşəbbüskarı və oriyentalizmin atası hesab olunan dilçi alim Ser Vilyam Cons (1746-1794) kimi keçmiş ənənəyə sahib bir sıra oriyentalistlər bu ikisi arasındakı fərqlilikdən çox bənzərliyi vurğulamağa üstünlük vermişdilər [1].

XIX əsrdən başlayaraq amerikalıların Asiya ilə tanışlığı bir sıra mübadilə yolu ilə olmuşdur. Edvard Saidin əsərini əsas götürərək Amerika oriyentalizminin inkişafını akademik və reprezentativ oriyentalizm və oriyentalistlərin güc diskursları baxımından üç sahədə tədqiq etmək olar. ABŞ-da ilk dəfə akademik oriyentalizmin inkişafı Hindistandakı ingilis şərqşünaslarının əsərlərinin ölkəyə gətirilməsindən sonra başlamışdır. Sonralar Vilyam D.Uitni kimi amerikalılar Amerika oriyentalizmini Avropadakı rəqibləri ilə eyni səviyyəyə qoydular. Onu da qeyd edək ki, Ralf Uoldo Emerson və Henri Devid Toro Asiyanı Amerika materializmi və təfəkküründən fərqli olaraq Şərq mistisizmi və düşüncə ölkəsi kimi təsəvvür edirdilər (Asadov, A. 2021). Nəhayət, 1893-cü ildə Dünya Dinlər Parlamenti Amerikanın mədəni üstünlüyünə dair iddiaları gücləndirmək məqsədilə Şərqi əks etdirən rəsimlərdən istifadə etdi. Bütün bu nümunələr vasitəsilə oriyentalizm din və irq arasındakı sərhədi məhv etdi. Belə ki, Şərq həmişə ağdərili xristian Amerika ilə müqayisədə irqi və dini baxımdan aşağılığı təmsil edirdi. Bu baxımdan da din və irqi birləşdirməklə onların bir arada öyrənilməsinin nə anlama gəldiyini bilmək məqsədilə oriyentalizm diskursun bir nümunəsi olaraq təqdim edlir. İngilis yazıçısı Redyard Kiplinqin "Kim" əsərindəki Ağ Adam obrazını təhlil edərkən Edvard Said, irqin Şərqi Qərbdən ayıran bir sıra kateqoriyalardan biri olduğunu etiraf edir. Hətta onun ədəbiyyatda, ilk nəşr olunan kitabı, "Cozef Konrad və bədii bioqrafiya" (*Joseph Conrad and the Fiction of Autobiography*, 1966) əsəridir. Bununla o, akademiyada hökmran olan müstəmləkəçi diskursa meydan oxumuşdu. Məhz Cozef Konradın "Qaranlığın ürəyi" (*Heart of Darkness*, 1899) romanı onun incəsənət, mədəniyyət, tarix, filologiya və fəlsəfədə müstəmləkəçilik düşüncə tərzini şübhə altına aldığı gələcək intellektual təşəbbüslərinin əsasını təşkil etdi.

Qeyd edək ki, Oriyentalizmin gücünün geniş yayılmış bir hissəsi bir-birindən asılı olan ən azı üç fərqli çalışmaya istinad edir: akademik intizam, düşüncə tərzi və Şərqlə işləmək üçün korporativ institut. Gizli (*Latent*) və Açıq (*Manifest*) Oriyentalizm, müvafiq olaraq onun ideoloji və siyasi aspektlərini təsvir edən iki xəttidir. Gizli Oriyentalizm Şərq haqqında fikirlər və şüursuz fərziyyələr toplusudur, ancaq Açıq Oriyentalizm isə onunla real dünya arasındakı qarşılıqlı əlaqəsinə istinad edir. Oriyentalizmin üç komponenti vardır ki, Edvard Saidə görə, həmçinin gizli (*latent*) orientalizm üç geniş xüsusiyyətdən ibarətdir: Rasizm, Etnosentrizm və Seksizm [6, s. 58]. Buna görə də gizli oriyentalizm Qərbin Şərqlə bağlı məşhur baxışını müəyyən etdiyi üçün cəmiyyət daxilində oriyentalist diskursun ayrılmaz bir hissəsi kimi mövcuddur (Asadov, A. 2021).

Sosial və bədii mədəniyyətdə oriyentalizm ideologiyası "Qərb və Şərq" dixotomiyası ilə

bağlıdır. Görkəmli ingilis tarixçisi Arnold Toynbinin konsepsiyasına görə, bu qarşıdurmanın hərəkətverici qüvvəsi "Çağırış və Cavab" sxemi ilə yanaşı, "zaman və məkanda təmaslar"dır [7, s. 106]. Bu cür təmaslar sənət əsərlərində Şərqin real deyil, xəyali, ideallaşdırılmış dünyasını formalaşdırır. Belə ki, avropalı alimlər (məsələn, F. Bekon) "Şərqin gizli xristianları" hesab etdikləri müsəlman alimləri İbn Rüşd (*Averroes*) və İbn Sinanın (*Avisenna*) Qərb elminin inkişafında böyük təsiri olduğunu bildirirdilər.

Əfqan və şotland əsilli sufi mütəfəkkiri İdris Şahın (1924-1996) sufizmlə bağlı kitabları da Qərb oriyentalizminin öyrənilməsi baxımından əhəmiyyətlidir. Qərb ədəbiyyatında oriyentalizmi fərqli şəkildə təqdim edən ilk kitablar onun "azlıqların inancları" adlandırdığı tədqiqatları idi. İdris Şahın ilk kitabı 1956-cı ildə nəşr olunan "Şərq sehri" (*Oriental Magic*) və bunun ardınca 1957-ci ildə nəşr olunan "Sehrli İfşa: sehrbazların kitabı" (*The Secret Lore of Magic: Book of the Sorcerers*) başlıqlı əsərləri ədəbi sferalarda maraq oyatsa da, lakin Qərb dünyasında ona şöhrət qazandıran "Sufilər" (*The Sufies*) kitabıdır. Müasir klassika hesab olunan iyirmidən çox dilə tərcümə edilmiş "Sufilər" əsəri Robert Qreyvs, Ted Hyuz, C.D.Selincer və Doris Lessinq kimi məşhur yazıçılar tərəfindən yüksək dəyərləndirilmişdir. İdris Şahın "Sufilər" əsəri müasir auditoriya üçün nəzərdə tutulmuş təsəvvüf haqqında indiyə qədər yazılmış ən sanballı araşdırma hesab olunur. Onun bu əsəri İslamla yanaşı İslama qədərki qədim hikmət ənənəsini də ehtiva edir. Sufilər minilliklərdir ki, həm Şərq, həm də Qərbə çox az məlum olan, bəlkə də ölçüyəgəlməz dərəcədə təsiri olan mistik təlim və həyat tərzini müdafiə edirlər. Bu "praktik fəlsəfənin" əsasını məntiqə və intellektə həddən artıq etibar etməkdənsə, həyata bələdçi kimi intuisiya və təcrübənin formalaşdırılması təşkil edir. Sufilər inanırlar ki, bütün dini və fəlsəfi sistemlərin arxasında gizli ənənə onlara aiddir (Najafov, R. 2021).

1964-cü ildə "Sufilər" əsəri Robert Greyvs tərəfindən yazılan çox geniş bir müqəddimə ilə *Doubleday* nəşriyyatı tərəfindən nəşr olunur. İdris Şahın adı keçən kitabında dünyanın bir çox böyük mütəfəkkirlərinin, o cümlədən Şərq korifeylərinin: Cəlaləddin Rumi, Ömər Xəyyam, İbnül Arabi, Əl-Qəzzali, Sədi Şirazi və Fəridəddin Əttarın həyatını əhatə edən ən tanınmış sufi ustadlarının həyat və yaradıcılığından bəhs edilir. Müəllif kitabında qeyd edir ki, Qərbin bir çox ən böyük ənənələri, ideyaları və kəşfləri əsrlər əvvəl fəaliyyət göstərən sufi ariflərinin təlimləri və yazıları ilə bağlıdır. O, Tampliyerlər, Rozenkreyserlər ordeni (Qızılgül və Xaç ordeni), Rocer Bekon, İoann Kresta, Raymon Lulli, Frensis Börton, Cefri Çoser və Vilyam Şekspirin əsərləri vasitəsilə VII əsrdən sonra sufizmin Qərb sivilizasiyasına və ənənələrinə təsirini qeyd edir. Maraqlıdır ki, "Sufilər" əsərində İdris Şahın eyni mövzuya aid digər kitablarında olduğu kimi müəllifin təsəvvüf şərhini ənənəvi İslamla eyniləşdirə biləcək terminologiyadan istifadə etməməsi də diqqət çəkir (Esedov,A. 2011).

İdris Şah "Sufilər" əsərində yazır ki, Əbu Həmid əl-Qəzzalinin "*Təhafut əl-fəlasifə*" (Filosofları inkar) əsəri katolisizmin apologetləri tərəfindən qismən tərcümə edilərək müsəlman və xristian məktəblərinin əleyhinə işlənmişdir. Əsərin Qərbin əlinə keçən hissəsində fəlsəfənin problemləri qabaqcadan nəzərdən keçirilmək üçün hazırlanmışdı. Eyni zamanda İdris Şah Qəzzalini anlamaq və onun sufi dünyagörüşünü dərk etmək üçün mütləq onun əsərlərini tam şəkildə oxumağın vacibliyini vurğulayır. Belə ki, Qəzzalinin əsərini şərh edən İbn Rüşd belə onu öz sxolastik metodları ilə inkar etməmişdir.

"Sufilər" əsərində İdris Şah, bu günə qədər müəmmalı şəxsiyyəti ətrafında polemikaya yol açan Şekspirin fars dilindən tərcümədə "ixtiyar müdrik" mənasını verən "Şeyx Pir" olduğunu və 1348-ci ildə təsis olunan Nəcabətli Bant ordeninin (*The Most Noble Order of the Garter*) Kral III Edvardın sarayında sufi ritual-rəqsi (Dərviş rəqsi-səmazənlər) nəticəsində yarandığını ehtimal edir. Böyük Britaniyanın ali cəngavər ordeni olan bu mükafat dünyada ən qədim mükafatlardan biri sayılır [4].

Robert Qreyvs yazır: "Bu kitab nə ziyalılara, nə digər ortodoks mütəfəkkirlərə, nə də onun özünə ünvanlandığını dərhal dərk edə bilməyən kəslərə ünvanlanmamışdır" [4, s. XXII].

Amerika ədəbiyyatına güclü təsir göstərmiş sufi dünyagörüşü "Sufizm və Amerika ədəbiyyatı sənətkrları" (*Sufism and American Literary Masters*) esselər kitabında müxtəlif aspektlərdən tədqiq olunur. Kitabın redaktoru Mehdi Əminrəzəvi qeyd edir ki, bu sufi təsirləri çox vaxt "Şərq" anlayışına, əsasən də hindlilərə aid edilir və islami köklərə malik olduğu qəbul edilmir [5]. Kitabda XIX yüzillikdən bu günə kimi təsəvvüf elementlərini əsərlərində işləyən Ralf Uoldo Emerson və Uolt

Uitmanın qarşılaşdıqları sufi fikirlərindən, Henri Vodsvort Longfello, Herman Melvil, Mark Tven, Henri Devid Toro, və digər kanonik fiqurlar da daxil olmaqla yaradıcılıqlarındakı təsəvvüf elementləri müxtəlif müəlliflər tərəfindən təhlil olunur.

Elmi yenilik. İndiyə qədər Amerika ədəbiyyatında oriyentalizmlə bağlı ümumi səciyyəvi mülahizələr söylənilsə və təqdimat-tanışllıq məqsədi daşıyan fikir və qənaətlər irəli sürülsə də problemin elmi həlli məhz bu məqalədə gerçəkləşmişdir. Görkəmli Amerika şərqşünası Edvard Saidin və M.H.Penqbornun Amerika oriyentalizminə müraciətinin səbəbləri, mövzu və janr əhatəsi, bəhrələndiyi yazılı və şifahi qaynaqlar, Şərq tarix və mədəniyyətinə, islami dəyərlərə münasibəti, Şərq motiv, obraz və süjetlərinin bədii-üslubi manera və tarixi kolorit ifadə edən vasitə kimi istifadə üsulları və Qərb konsepsiyaları bu araşdırmada qismən də olsa tədqiq olunaraq müasir elmi-nəzəri prinsip və meyarlarla dəyərləndirilmişdir.

Nəticə. Şərqin öyrənilməsinin missioner fəaliyyət səviyyəsinə yüksəldiyi XIX yüzillik Avropa və Amerika xristian dünyasındakı uzaqmənzilli strateji maraqlar dairəsində dövrün görkəmli yazıçıları Vaşinqton İrvinqin, Edqar Allan Ponun əsərlərində bədii-estetik düşüncəylə yanaşı həm də tarixi-siyasi missiyanın ifadəsi olaraq tarix içində yer alır.

Onu da qeyd edək ki, akademik təhsildə və sənətdə stereotiplərin mədəni uçurumları daha da gücləndirə biləcəyini söyləyən Edvard Said, onların siyasətə təsirlərini də çox yüksək qiymətləndirməkdə haqlı idi. Baxmayaraq ki, stereotiplərin təsirili ola bilməsi üçün hər şeydən əvvəl Qərb ilə Şərq arasındaki mədəni ayrı-seçkiliyin mövcudluğu da mütləq idi. Bu baxımdan da ayrı-seçkilik insan psixologiyası və coğrafi məkan olaraq müəyyən edildi. Edvard Said Yaxın Şərqdəki müstəmləkəçilik üsul-idarəsini yaxından müşahidə etmişdi.

İstifadə edilmiş ədəbiyyat

1. Curley, Thomas M. (1998). *Sir Robert Chambers: Law, Literature, & Empire in the Age of Johnson*. University of Wisconsin Press. p. 353. Retrieved July 17, 2019.
2. Pangborn, H. Matthew. *Enlightenment Orientalism in the American Mind, 1770-1807*, New York, 2018, 282 p.
3. Esedov, A. (2011). Kafkaslarda Azeri Türk Edebiyatının Yeni Aşaması: Doğu deneyiminden Batı deneyimine. TURANSAM: Turan Stratejik Araştırmaları Merkezi Dergisi, 9, 73–75. http://www.turansam.org
4. Asadov, A. (2021). Organizational issues of work on world literature samples in primary schools. Journal of Preschool and Primary Education, 236(3), 81–93.
5. Asadov, A. (2021). The role of world literature in shaping students' planetary thinking. Azerbaijan Journal of Educational Studies, 697(4), 111–119.
6. Said, Edward. *Orientalism*, New York: Vintage Books, 2003, 368 p.
7. Shah, İdries. *The Sufies.* (Introduction by Robert Graves) Anchor Books Doubleday & Company, Inc.Garden City, New York. 1964, 502 p.
8. *Sufism and American Literary Masters*. Edited by Mehdi Aminrazavi Foreword by Jacob Needleman SUNY series in Islam, 2015, 311 p.
9. Najafov R. (2021). On the philosophical study of the origin of irrational knowledge in Eastern peripatetic philosophy: "revelation, dream and inspiration": in the context of the philosophical views of Shihabeddin Yahya Suhrawardi, Abulhasan Bahmaniyar and Al-Kindi. Science, Education and Innovations in the Context of Modern Problems. 8(3), 48-67.
10. Varisco, Daniel, M. *Reading Orientalism*: *Said and the Unsaid*, Seattle and London: University of Washington Press. 2008, p.58
11. Тойнби А. Постижение истории. – М.: Прогресс, 1991. с. 106-180

NƏSRULLAH MƏRDANİNİN "SETIĞ-E SOXƏN" ستیغ سخن ADLI MƏNZUM TƏZKİRƏSİ

Nüşabə Əlizadə*

Abstract

Nasrullah Mardanin "Setiğ-e soxan" ستیغ سخن a verse tazkirah called

Nasrullah Mardani informed during his speech at the scientific conference of his students. Later, in 1367, when Hafiz's jubilee was held in Shiraz, he won everyone's attention and applause with his speech at the meeting attended by the masters of art.

Tazkiras have an important role in studying the history of Iranian literature and culture. Nasrullah Mardani also used up to a thousand poet's works and more than one hundred and fifty tazkiras in his tazkirah "Setig.

Keywords: *Persian literature, vocabulary, artists, modern times, cultural history, scientific research, and war.*

Giriş. Fars ədəbiyyatı dünyanın ən qədim və zəngin tarixinə malik olan bədii söz sənətinin xəzinələrindən biridir. Hələ ədəbiyyatın bir elm kimi təşəkkül tapmadığı dövrlərdə ağıl-zəka sahibləri zövqlərinə uyğun gələn, ruhlarını oxşayan şeir parçalarını qeyd etmiş, bu söz sənətinin yaradıcıları haqqında qısa da olsa – məlumatı tərtib etdikləri müntəxəbatlara salmışlar. Bir müddətdən sonra dünyanın müxtəlif kitab xəzinələrində qorunub saxlanan əlyazmalar ilə bərabər zövq əhlinin, katiblərin tərtib etdiyi bu cüng, bəyaz və təzkirələr ədəbiyyatının tarixi təkamül yolunu izləmək üçün bir mənbə rolunu oynamağa başladılar. Keçmiş dövrlərin müxtəlif təzkirələrində verilən məlumatlar ədəbiyyat elminin faktlara, sənədlərə arxalanan nəticələrini əldə etmək üçün imkan yaratdı. Çox maraqlı ədəbi hadisə kimi müasir İranın yazıb-yaradan çox istedadlı şairlərindən biri Nəsrullah Mərdaninin yazdığı "Setiğ-e soxən" adlı mənzum təzkirəsini qeyd etmək lazımdır. "Setiğ-e soxən" mənzum təzkirəsinin meydana gəlməsi haqda belə yazırlar ki, Mərdani ilk dəfə bu əsər barəsində Mazandaran tələbələrinin konfransında çıxışı zamanı məlumat vermişdir. Sonralar isə 1367-ci ildə Hafizin Şirazda yubileyi keçirilərkən söz-sənət ustadlarının iştirak etdiyi məclisdə öz çıxışı ilə hamının diqqətini və alqışını qazanmışdır.

Əsas hissə. İranın ədəbiyyat və mədəniyyət tarixini öyrənmək üçün təzkirələr mühüm əhəmiyyətə malikdirlər: bəyazlar, cünglər, divanlar, tarixi traktatlar, xatirələr və s. yazılı mənbələrin tədqiqatının böyük əhəmiyyəti vardır. İran alimi Əhməd Gülçin Mənaninin göstərdiyinə görə XVIII-XIX əsrlərdə təqribən 220 təzkirə yazılmışdı ki, bu da fars-tacik ədəbiyyatı tarixinin bütün X-XVII əsrlər boyu yazılmış təzkirələrinin sayından çoxdur. Məşhur və məlum təzkirələrdən Məhəmməd Qufinin "Lübabül əlbab", Nizami Əruzinin "Çəhar məqalə", Lütfəlibəy Azərin "Atəşkədə"-si, Rzaquluxan Hidayətin "Məcmə-ol füsəha" (Fəsahətlə danışanların məclisi), "Riyazül arifin" (Arifələrin bağı), Hülakü Qacarın "Xərabət" və b. əsərlərini göstərmək olar. Bu təzkirələrin hər biri müəyyən dövrün tarixi hadisələrini və həmin dövrdə yazıb yaradan

* ***Bakı Dövlət Universiteti, Orta şərq dilləri və ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: nushali@mail.ru***.

sənətkarları haqqında məlumat verir. Lakin Nəsrullah Mərdaninin "Setiğ-e soxən" təzkirəsi kimi bir əsər İran ədəbiyyatı tarixində olmayıb.

Belə bir mənzum əsərin yazılması müəllifdən böyük istedad, geniş və hərtərəfli elmi hazırlıq tələb edir. Xüsusi qeyd etməliyik ki, yalnız xalqına, onun mədəni-ədəbi irsinə olan sonsuz məhəbbət bu işin icrası üçün əsas şərtlərdən biri olmuşdur. Nəsrullah Mərdani öz yaradıcılığı, fəaliyyəti ilə bu cəhəti dəfələrlə sübut etmişdir. Onun İran İslam İnqilabı, İraq-İran müharibəsi şəhidlərinə həsr etdiyi şeirlər, yazdığı qəzəllər belə səmimiyyətin, məhəbbətin rəhni kimi səslənir. Nəsrullah Mərdani "Setiğ-e soxən" təzkirəsində 2000 mindən artıq sair və 150-dən artıq təzkirədən bəhs edir, onların adlarını nəzmlə oxucusuna çatdırır. Mərdani sonra ayrılıqda hər bir göstərilən ad haqda məlumat verir, hansı mənbələrdən istifadə etdiyini göstərir. Nəsrullah Mərdani bu əsəri yazmaq üçün 195 mənbədən istifadə etmişdir. Mərdaninin əsəri bir elmi tədqiqat işi təsirini bağışlayır.

Nəsrullah Mərdani lirik bir şair kimi güclü təbə malik olduğundan, hətta elmi mövzuda qələmə aldığı "Setiğ-e soxən" əsəri çox oxunaqlı, rəvan və cəlbedicidir. Mənzumə tərcibənd şəklində yazılmış 11 beytlik 27 bənddən ibarətdir. Mərdaninin "Setiğ-e soxən" əsəri xalqının mədəni-ədəbi irsinə meyl və məhəbbətini nümayiş etdirir.

"Setiğ-e soxən" belə başlayır.

Sən ey şeir, ey ruhun və işığın sevinci
De, varlığın nədir doğru ya yalan

Gah işığım kimi başdan-ayağa yalan
Gah, həqiqətdə qərib qabmısan
Gah atəşfəşan kimi qaynayırsan
Gah axar suyun ruhu kimi mülayim

Sənin ilk Şəhidin Bəlxdən idi
Ki Hənzələ kimi onun kamı acı idi
Sənin qələbəndən sübhün zühurunda
Bədii əruz gəldi Buşəkurdan
Səndən şahlara layiq şah himni
"Heyf, heyf cəvanlığa" oxudu.

N.Mərdani on beş il belə bir mənzuməni yazmaq arzusunda olmuş və nəhayət onu oxucularına təqdim etmişdir. Mənzumə 27 bənddə, hər biri 11 beyt olan, cəmi 297 beytdə, mütəqarib bəhrində, məsnəvi formasında, lakin tərcibənd kimi qələmə alınmışdır. Qeyd olunmalıdır ki, "tərci-məsnəvi" şəklində əsər Mərdaniyə qədər fars poeziyasında olmamışdır. Məcmuənin əvvəlki dörd bəndi müqəddimə kimi verilmiş, uzun illər boyu fars şeirinin yüksəliş və enişi göstərilmişdir. Bu mənzumədə fars şeiri yaranandan müasir dövrə qədər olan müddətdə farsca yazan iki min şairin adı çəkilir. Onu da diqqətə çatdırmaq lazımdır ki, öz yaşayıb yaratdıqları dövrə uyğun barmaqla sayılan şairlərin sıra ilə adları çəkilməklə, sonrakı beytlərdə eyham və işarələrlə başqa adlar da çəkilir və son dörd beytdə də yüz əllidən çox təzkirə və ya ədəbi əsərin adı çəkilir. Şair şeirini "to" –sən deyə müraciətlə qələmə aldığından, sanki oxucusu ilə həmsöhbət olduğunu göstərir və bir beytin sonunda "tərcih" dayanacağında nəfəsini

dərib yenidən hakim mühitdən yeni üfüqlərə üz tutur. N.Mərdani yaradıcılığında müharibə mövzusu xüsusi yer tutur. N.Mərdaninin nəşr olunmuş bütün kitablarında Vətən müharibə, şəhidlik mövzularına müraciət olunur: "Səmənd-e saeqe" – "Köhlən at" kitabında "Məcmue-ye şėr-e cəng" – "Müharibə şeirləri məcmuəsi" yarımbaşlığı vardır. Bu kitaba N.Mərdaninin müharibə mövzusu şeir və qəzəlləri daxil olunmuşdur. Bunlardan "Səf şekən" – "Səf pozan" bahadırlar, "Səmənd-e saeqe" – Köhlən at, "Şərab-e huş" – "Huş şərabı", "Səvaran-e səhər" – "Səhər süvariləri", "Cəng cəngəst" – "Müharibə müharibədir", "Xunname-ye xak" –"Torpağın qan məktubu", "Gomşodeqan" – "İtkinlər", "Namaze eşq" – "Eşq namazı", "Tüluyi biağaz" – "Başlanğıcsız doğuş", "Xake adəmxar" – "Adamyeyən torpaq", "Nəfəse suxte" – "Yanmış nəfəs" "Sepid miayəd" – "Səhər gəlir", "Zəmzəm xun" – "İran zəmzəmi", "Azan-e eşq" – "Eşq azanı" və s. əsərləri göstərə bilərik. Bu qəzəllərdə Vətənin azadlığı uğrunda müharibələrə gedən cəsur el övladlarının qəhrəmanlığı tərənnüm edilir. Şairlərin adı da məzmundan xəbər verir. Nəsrullah Mərdaninin "Yəlan-e səfşeken" şeirlərində əfsanəvi cəngavərlərin, qorxmaz döyüşçülərin cəng meydanlarında göstərdikləri şücaət təsvir edilmişdir.

Ey səfqıran bahadırlar, qurbanınız əfsanə oldu,
Sizin müharibə meydanlarınızda dəmir dağ suya döndü.
Tək birimizin çaxması (sədası) ruzigarın qırmızı tufanı
Nərələriniz silsilə güldən nur axını.

Şair İran ictimai-siyasi həyatında baş verən hadisələrin mərkəzində durur və öz şair-vətəndaş münasibətini yazdığı əsərlərdə bildirirdi. Şairin yaradıcılığına diqqət yetirsək yazmağa başladığı vaxtdan bir neçə kitabın müəllifi olan N.Mərdaninin lirik bir şair kimi güclü təbə malik olduğunu görürük. Onun lirikası bir çox sahələri əhatə edir: məhəbbət lirikası, vətən lirikası, vətənpərvərlik lirikası, həyata, yaradana məxsus lirika və sairə.

Mərdani klassik irsə, xüsusilə Hafiz yaradıcılığına diqqət və böyük məhəbbətlə yanaşı, ondan bəhrələnən şairlərdən biri idi. Təsadüfi deyil ki, dünya Hafizşünaslığının mərkəzi şurasının üzvü kimi fəaliyyət göstərən Mərdani Hafizə olan baxışlarını "Hafiz əz nerah-e Mərdani" (Hafiz Mərdani baxışından) adlı əsərdə bəyan etmişdir.

Çox qəribə olsa da, bütün dünyada Hafiz dühasına, Hafiz şeiriyyətinə olan məhəbbət onun bəzi həmvətənləri tərəfindən başa düşülməməsi fikri ilə təzad təşkil edir. N.Mərdaninin "Qanun-e eşq" əsərinə ön sözü yazan doktor Qulamhüseyn İbrahimi Dinaninin "Qosmære-ye xəyal" (Xəyal genişliyi) adlı yazısında Hafizə müasir şairlər tərəfindən olan bu münasibəti göstərir və N.Mərdaninin bu baxışlardan fərqli olan Hafiz vurğunluğunu xüsusi qeyd edir. Doktor Qulamhüseyn İbrahimi yazır ki, bir neçə il əvvəl bu ölkənin ən böyük şairlərindən biri ilə görüşdüm. Bu görkəmli şair şeirdə bacarıqlı və sövk sahibi olmaqla yanaşı islami elmlər və biliklərin çoxu ilə də tanış idi. Ancaq təəccüb doğuran bu idi ki, o Hafizin şeirlərini heç bir vəchlə bəyənmir və əminliklə deyirdi ki, bu şairin şeirlərində fikir yoxdur. Bəlkə də bu müasir şairin Hafiz haqda dedikləri fikirləri başqaları da bölüşdürür. Çünki bir dəstə şəxs Hafiz qarşısında təvazökarlıqlarını izhar etməklə onu böyük şairlər zümrəsinə daxil edirlər, lakin əslində bu tayı-bərabəri olmayan şairin fikir dünyasına yol tapmırlar. İslami alimlər deyiblər ki, bəzi işlər zühurun şiddətindən gizli qalır. Elə bil ki, Hafizin şeirlərindəki fikirlər də

həmən işlər kimi aydınlığını gizlətmişdir.

N.Mərdani yaradıcılığını yüksək qiymətləndirən doktor Q.İbrahimi bu şairin müsbət cəhətlərindən biri kimi Hafiz şeirinin məğzini, dərinliyini duyması ilə izah edir. Doktor Q.İbrahimi Hafizin təkcə öz dövründə deyil, sonrakı əsr və qərinələr boyu da tənha qaldığını söyləsə də, N.Mərdani kimi bir sənət fədaisi şair dühasının şeydası olmasını böyük fəxr və təskinliklə bildirir.

Nəsrullah Mərdani səf pozan bahadırların cəsurluğunu, fədakarlığını təsvir etdikdən sonra vətən torpağının varislərinə tanrı ruhunu xatırladır: bu həmin qərinələrin ağır yuxusundan bəndələrini oyadan günəşdir. Əlbəttə, inqilabdan sonra qalib gəlmiş və ağır inqilab sonrası çətinliklərlə üzləşən xalqa o zaman ideoloji istiqamət verən dini rəhbərə şeirdə simvolik işarə vardır. Oxucu bu günəşin simaslnda xalqı ağır sınaqlardan çıxaran, onu mübarizəyə, qələbəyə ruhlandıran dini rəhbər Ayətulah Xomeynini görür.

Nəsrullah Mərdani ağır xəstəlikdən 1373 – (2005)-ci ildə vəfat edir və Kazerunda dəfn olunur.

İstifadə edilmiş dəbiyyat

1. “Setiğe Soxən” təzkirəsində. 1371, Tehran.

"KİTABİ-DƏDƏ QORQUD"UN TÜRKMƏN VARİANTININ "BAMSI BEYRƏK" BOYUNDA DASTAN MOTİVLƏRİ

Vüsalə Nəsibova*

Abstract

Motives of the Turkmen version of the epic "Kitabi-Dede Gorgud", used in the story "Bamsi Beyrek"

The Dresden copy of the epic "Kitabi Dede Gorgud", consisting of 12 stories, has been known to us since 1815, and the Vatican copy, consisting of 6 stories and a preface, since 1952. At the International Symposium on the "World Cultural Heritage of Dede Gorgud", held at the Turkish University of Bayburt on April 25–27, 2019, Professor of the Aegean University Metin Ekici announced that the third copy of the epic "Kitabi-Dede Gorgud", which consists of 13 stories, the 13-th story of which is "How Salur Ghazan killed the seven-headed dragon", has been found. Depending on the area where the newly discovered copy was found, the researchers named it "Gunbed manuscript of the book of Dede Gorgud", "Turkestan copy", "Turkmen-Sahra".

In the story "How Salur Ghazan killed the seven-headed dragon" the events are concrete, the name "Azerbaijan" is mentioned for the first time, and Ghazan Khan is shown as an outstanding personality of Azerbaijan.

The title of the story "Bamsy Beyrek" in the original Turkmen text is "Bamsy Birek". Ata Rakhmanov, a student at the Dashoguz Pedagogical Institute, compiled this story from the words of 94-year-old Gurban Kilych Chakanoglu, who lived in the village of Dyshki, Kalininsky district, Dashoguz region in the 1940s-1950s. This story matches with the story "Son of Bayburan Bamsi Beyrek" of the Dresden copy and "The History of Bamsi Beyrek" of the Vatican copy. Traditional epic motives are clearly expressed in the story "Bamsi Birek" of the Turkmen version of the epic "Kitabi-Dede Gorgud".

Keywords: *epic, Turkish epic thinking, copies, manuscript, version, story.*

Giriş. "Kitabi- Dədə Qorqud" dastanının Türkmən variantı əlyazmasının tapılmasını ilk dəfə Türkiyə tədqiqatçısı, professor Mətin Ekici bəyan etmiş, əlyazmanı "Dədə- Qorqud" dastanının üçüncü nüsxəsi kimi təqdim etmiş, soylamalardan və "Salur Qazanın yeddibaşlı əjdahanı öldürməsi" adlandırdığı yeni bir boydan ibarət olduğunu və bu yeni boyu "Dədə Qorqud" dastanının 13-cü boyu olduğunu göstərmişdir. 3-cü nüsxə haqqında məlumatları Mətin Ekici 2019-cu ilin aprel ayında keçirilən "Dünya Kültür Mirası Dede Korkut Uluslararası Sempozyum"unda açıqladıqdan bir müddət sonra əlyazmanın iki müxtəlif nəşri çap olundu. Əlyazma İranın Türkmən Səhra bölgəsində yaşayan əlyazmalarla zəngin kitabxanası ilə məşhur olan Vəli Məhəmməd Xocaya məxsusdur. 31 vərəqdən ibarət olan üçüncü Türkmən Səhra nüsxəsində boylarda baş ve rən hadisələr Drezden nüsxəsinin 12-ci boyunda baş verən hadisələrdən əvvəl baş verir, çünki bu boylarda İç Oğuzla Dış Oğuz düşmən deyildir, yağılara qarşı birlikdə savaşırlar.

"Salur Qazanın Yeddi başlı Əjdahanı öldürdüyü boy"da hadisələr konkretdir, ilk dəfə olaraq Azərbaycanın adı çəkilir və Qazan xan Azərbaycanda görkəmli şəxs kimi göstərilir.

Coğrafi əhatə dairəsinə görə Türkmən Səhra nüsxəsi yer adlarının daha açıq və dəqiq ifadə olunması ilə fərqlənir. Burada Azərbaycan ərazisinə aid olan Təbriz, Ərdəbil, Həmədan, Naxçıvan, İrəvan, Qəzvin, Xalxal, Şamaxı, Dərbənd şəhərlərinin, Kür, Araz çaylarının, Şahdağ, Savalan dağlarının, Qars, Sürməli qalalarının adı çəkilir. Burada da "Kitabi-Dədə Qorqud" boylarından bildiyimiz alp ərənlər vəsf edilmiş, tərifləmiş, yüksək ehtirama layiq igidlər kimi tərənnüm olunmuşdur.

Əsas hissə. "Bamsı Beyrək" boyunun Türkməncə orijinal mətndə adı "Bamsı Birəkdir". Bu boyu Daşhavuz Müəllimlər İnstitutunun tələbəsi Ata Rahmanov 1940-1950-ci illər ərzində Daşhavuz

* ***AMEA Folklor İnstitutu, Mifologiya şöbəsinin boyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: vusala.nasibova1221@gmail.com.***

vilayətində Kalinin rayonunun Dışkı obasında yaşayan 94 yaşlı Qurban Kılıç Çakanoğlunun dilindən toplamışdır. Bu boy Drezden nüsxəsində olan "Bayburanın oğlu Bamsı Beyrək boyu" və Vatikan nüsxəsində olan "Hekayəti Bamsı Beyrək" boyuna uyğun gəlir. "Kitabi-Dədə Qorqud dastanı"nın Türkmən variantının "Bamsı Birək" boyunda ənənəvi dastan motivləri aydın şəkildə özünü göstərməkdədir. "Bamsı Birək" boyu "Dədə Qorqud" datanının ən zəngin motivli boylarındandır. Burada doğulmaqdan evlənməyə qədər, övlad sahibi olmaqdan ölməyə qədər insan ömrünün müxtəlif dövlərinə aid müxtəlif motivlər öz əksini tapmışdır. "Kitabi-Dədə Qorqud" dastanının əvvəlki nüsxələrindən bizə məlum olan boylarda rast gəldiyimiz bir sıra motivlər, sabit ifadələr, oxşar hadisələr bu nüsxədə də özünü aydın şəkildə göstərməkdədir.

Övladsızlıq motivi: Oğuz elində vətənpərvərlik, yurd sevgisi ailədən, övlad- valideyn münasibətlərindən başlayır. Oğuz elində ailənin özünəməxsus qayda -qanunları mövcuddur. Oğul atadan qəhrəmanlıq, igidlik öyrənər, oğul nəslin, soyun davamçısıdır, ər oğul atanın baş ucalığıdır. Övladsız ata, oğulsuz ata Oğuz elində faciədir, oğul atanın adını davam etdirəndir, Oğuz elinə atanın adını layiqincə ucaldan ər oğul gərəkdir."Halk anlatılarında çocuksuzluk aksiyonun gerçəkləşməsi için önemli ve zorunlu bir motif olarak karşımıza çıkar. Çocuksuzluk, her şeye sahip olan soylu ailenin aciz oluşunu ve mutsuzluğunu ön plana çıkartır. Çocuksuzluk genellikle erkek çocuğun yokluğundan kaynaklanır (2, s. 144). "Bamsi Birək" boyunda övladsızlığın Oğuz elində necə tənə gördüyünü, cəzalandırıldığını Bayandır xanın qurduğu məclisdə aydın görürük. "Bayandır Hanın karşısında oğlu Garapudak yanına yaslanmakda, ayakta durmakta idi. Hanın sağında Salır Kazanın oğlu Oraz, solunda da Gazılık Kocanın oğlu Yeğenek vardı. Baybörü Bey hali görür, ah çeker, gücenir, ağlamaya başlar" (1, s. 69).

Oğuz elində övladı olan Tanrının sevdiyi bəndəsi, sonsuz olan isə Tanrının qarğadığı bəndəsi sayılır. Bayandır xanın da ildə bir dəfə məclis təşkil etməsi, bəylərin alqışlarla, dualarla övladsız Oğuz bəyinə Tanrıdan övlad diləməsi Oğuz elinin birliyinin, bütövlüyünün rəmzidir, nəslin artması, soyun davam etdirilməsi Oğuz eli üçün çox mühümdür: "Bayandır xanın Qalın Oğuz elinin inkişafında, oğuz tayfalarının artıb-çoxalmasında maraqlı olması qabarıq şəkildə ifadə olunmuşdur"(3, s. 45).

"Ey benim dayanağım Han Kazan! Ben niçin ağlamayayım. İlde ortağım yok, kara taşta kiymetim yok, tanrı beni lenetlemiş. Bir zürriyet vermedi. İşte onun için ağlıyorum. Oğlu olmayanın soyu devam etmez (1, s. 69).

"Bamsı Birek" boyunda ənənəvi olaraq Oğuz bəylərinin Baybura bəyə və qızı olmayan Baycan bəyə dua etdiklərini, tanrının bəylərin duasını eşidib hər iki bəyə övlad verməsinin şahidi oluruq. Tanrıya alqış, dua, övlad diləyi Oğuzların varlığın və əbədiyyətin Tanrıya məxsus olmasına inamı ilə bağlı idi.

Qəhrəman oğul motivi: Tanriya dua,nəzir- niyaz, qurbanvermə ilə dünyaya gələn oğulun qəhrəmanlıq, ərlik, igidlik göstərməsi Oğuz elində cox vacib şərtlərdən biri idi. Oğul qəhrəmanlıq, şücaət göstərdikdən sonra ona ad verilər, igid kimi qəbul olunar, elin qəhrəmanı hesab edilərdi."Baybörünün oğlu on beş yaşını doldurur. Akıllı, ahlaklı, güclü bir yigit olarak yetişir. O vakitlərdə bir oğlan öz hünərini, güc kuvvetini göstermezse, düşmanı yenmezse ona isim koymazlardı" (1, s. 70).

Ata üçün igidlik göstərməyən oğul üz qarası, utanc,kor-pesmanlıq sayılırdı. Oğuz atasının ən vacib vəzifəsi qəhrəman oğul yetişdirməkdir. Bu səbəbdəndir ki, dastanda atanın oğlu üçün ən gözəl silahi, atı, libası, hətta elin ən gözəl qızını arzulaması ilə sıx qarşılaşırıq: "Baybörü düğünü bitincə satıcıları yanına çağırır. O, satıcılara:

Sizlər Rum ilinə gidin de benim oğluma uyğun silah, əşya, at gətirin der" (1, s. 70).

Dastanda oğulun qəhrəmanlıq göstərməsi üçün, adətən, bir səbəb, məqam yetişər. " Bamsı Birək" boyunda da Rum elinə geden tacirləri Oğuz elinə geri dönərkən quldurlar talan edər, mallarını əllərindən alar, özlərini də əsir götürürlər. Tacırlərdən biri xilas olmağa müvəffəq olar, Baybörünün oğlundan kömək diləyər: "O anda Baybörünün oğlu kırk yiğidi ilə birlikdə haydutlara saldırır. Onları bitki sapı gibi yere serer. Tüccarları kurtarır, eşyalarını sa geri alır (1, s. 71).

Sınaq motivi: Oğuz elində qəhrəmanın sınağı baş kəsib, qan tokməklə sıx bağlıdır.Sanki qəhrəmanın sınağı onun uşaqlıqdan yeniyetməliyə keçidinin sübutudur. Qəhrəmanın sınaqdan qalib çıxması onun Oğuz elində statusunu, yerini, nüfuzunu, hətta adını müəyyən edir. Anadan olan oğula məs igidliyinə, qəhrəmanlığına uyğun xüsusi ad qoyulardı. "Bamsı Birek" boyunda da Baybörü bəyin oğlu da qəhrəmanlıq göstərib tacirləri quldurlardan xilas edir, igidlik göstərir və beləliklə ad almağa layiq olduğunu sübuta yetirmiş, atasının, ailəsinin, soyunun başını ucaltmış, oğulluq vəzifəsinin öhdəsindən layiqincə gəlmiş olur. "Tüccarların başkanı: Bu sizin oğlunuz ise kusura bakmayın.Bizler onun önünde baş eğmeye hazırız. Eger bu delikanlı olmasa idi biz şu anda esirlikte olurduk. Haydutlar bize saldırdı,esir aldı. Bu koç delikanlı bizleri haydutlardan kurtardı, der. Baybörü Bey:

Nasıl yani? Benim oğlum düşmanltı yendi mi, intikam mı aldı, il halkına iyilik mi yaptı, namusunu korudu mu, diye sordu. Tüccarların hepsi birden:

Tıpkı öyle oldu. Bu koç delikanlı bizleri kurtardı, il halkının namusunu korudu, intikam aldı, diye cevap verdiler" (1, s. 72).

Adqoyma motivi: Adqoyma Oğuz eli üçün çox vacib və anlamlı bir mərasimdir. Qoyulan ad igidin gələcəyini, taleyini, el arasında statusunu, mənafeyini təyin edir, qoyulan ad igidin qəhrəmanlığı, igidlik,ərlik sınağı ilə birbaşa əlaqəli olur, Oğuz igidi adını qanı bahasına qazanır, ona verilən ad göstərdiyi şücaəti əks etdirir. Adqoymadan sonra oguz igidinin həyatının yeni mərhələsi başlayır, o artıq müstəqil bəy hesab olunur, elin hormətli igidi sayılırdı:

"Koç yiğit, beydir özü,
Açık, sade olsun sözü" (1, s. 73).

"....ad vermə və bəylik istəmə. Bunlar bir-birləri il bağlı olsa da, qəhrəmanın inisiasiyasının ardıcıl mərhələləridir: oğlan əvvəlcə igidlik göstərdiyinə görə ad, daha sonra bu adın ona verdiyi sosial-siyasi statusa uyğun olaraq bəylik alır" (4, s. 41). İgidə verilən ad hec vaxt unudulmur, igid qalan həyatını bu adla yaşayır, İgidə ad verilməsi çox əhəmiyyətli bir hadisə olduğu üçün xüsusi mərasim təşkil olunur, bütün el yığılır, elin ağsaqqalı Dədə Qorqud gəlib igidə ad qoyub xeyir-dua verərdi. "Bamsı Birek" boyunda Baybörü Bəy oğlunun göstərdiyi igidliyə cox sevinir, bu həm də atanın öz atalıq borcunu layiqincə yerinə yetirməsi, baş ucalığı, eli üçün namuslu, düşmən çəpəri oğul böyütməsi deməkdir, bunun üçün də Baybörü Bəy elinə, obasına xəbər salır, məclis qurur:

"Sözümü dinle, Baybörü Bey,
Halkına hep başını eğ.
Dua etti, bahtını açtı,
Kaygı, dert senden kaçtı.
Oğlun senin ünlendi,
İl halkı yine toplandı.
Onun yaşı uzun olsun,
Başı sağ salim olsun.
Yolda yürüyüş yaptığında,
Düşman ile cenk ettiğide,
Hazır olsun her daim,
Bakınsın etrafna.
İl halkına sahip çıksın,
Düşmanını tanısın.
Sen öyle yap, "Bamsım" diye
Dua ederiz isim koyup.
Adı onun "Bamsi" olsun,
Daima bahtlı olsun" (1, s. 73).

Qırx say motivi: 40 sayına yalnız "Kitabi-Dədə Qorqud" dastanında deyil, bir çox folklor nümunələrində rast gəlirik. Folklorda 40 sayına yeni doğulmuş uşağın qırxının çıxması, yeni ana olmuş qadının yanına qırx gün bir iki nəfərdən başqa girib-çıxanın olmaması, rəhmətə getmiş insanın qırx mərasiminin keçirilməsi, nağıl və dastanlarda qəhrəmanların ustadlardan qırx sirr öyrənməsi, qırx quldur, qırx otaqlı ev, qırx gün, qırx gecə toy, "Kitabi Dədə Qorqud" dastanlarında anasının Buğacı

qırx qızla axtarması, Buğacın yarasının qırx günə sağalması, Qazan xanın anasının, xanımının qırx incəbelli qızla əsir götürülməsi və s.

Dədə Qorqud dastanının Türkmən boylarının "Bamsı Birek" boyunda da qırx sayına rast gəlirik: "Yağmacı haydutlar bir yerde saklanmış, yağmaladıkları eşyaları paylaşırlardı. O anda Baybörünün oğlu kırk yiğidi ile birlikte haydutlara saldırır. Onları bitki sapı gibi yere serer" (1, s. 71).

"Bu at ve silahlar zaten benim, der. Kırk yiğidi ile birlikte atlanır ve evine döner (1, s. 72).

"Baybörü bey il halkını ağırlamak için kırk deve, kırk boğa, kırk koyun, kırk koç, kırk horoz kestirdi. Kırk horozu pilava kattırır" (1, s. 72).

"Bamsı birek, günlerin birinde boz ayğıra biner, bütün eşyalarını alır, kendinin kırk yiğidi ile birlikte ava çıkar" (1, s. 72).

"Ondan sonra kırk atlı düşman onun peşine düşer, amma yakalayamaz" (1, s. 85).

Folklorda müxtəlif məqamlarda qarşımıza çıxan qırx sayı çoxluq, bəzi məqamlarda isə bolluq və bərəkət mənasını bildirir. "Yükləndiyi anlamlarla birlikte kullanılan ve taşıdığı çeşitli değerleri mitolojik dönemlerden ve kutsal dinlerden alan kırk hazırlama ve tamamlama sayısı göreviyle karşımıza çıktığı gibi aynı zamanda çokluk bildirme ifadesi olarak da kullanılmıştır" (5, s. 95).

AT motivi: At sürət, sədaqət, qələbə, döyüş, xilaskarlıq, murad, qeyrət rəmzidir. Ata bu mənaların yüklənməsinə atalar sözlərində, nağıllarda, inanclarda, dastanlarda sıx rast gəlirik. At qəhrəmanın gücü, dostu, xilaskarı, qardaşıdır. "At Oğuz igidi üçün zərbə qüvvəsi, həm də sədaqətli yoldaş, qardaşdır, Oğuz igidi yaralandıqda atının quyruğu kəsilir, öldükdə isə atı oldürülür və s" (6, s. 18).

"Kitabi dədə Qorqud" dastanında qəhrəmanlar atla sıx bağlı, vəhdətdədir. Qəhrəmanın qəhrəmanlığı onun at minməsi, döyüşməsi, igidlik gostərməsi ilə ölçülür. İgidin atı xüsusi seçmə atdır, sanki qəhrəmanlığının yarısıdır, tamamlayıcı amilidir: "Baybörü düğünü bitince satıcıları yanına çağırır. O satıcılara: Sizler Rum iline gidin de, benim oğluma uyğun silah,eşya. At getirin, der" (1, s. 70).

"Kitabi Dədə Qorqud" dastanının hər boyunda ata xüsusi münasibətin, sevginin, dəyərin şahidi oluruq.dastanda at güc, dost, qardaş, oğul kimi qiymətləndirilir. Ata olan sevgi, xüsusi diqqət "Bamsı Birek" boyunda daha qabarıqdır. Bamsı Bireyin atı Boz ayğırdır: "Bayandır Han ondan Bamsı Bireke sağ tarafından yer gösterir, Baybörü bey ise, tüccarların getirdiyi boz ayğırı, altı kanatlı gürzü, sert telli yayı, eğri kılıncını oğluna takdim eder. İl halkı bunu tebrik eder" (1, s. 74).

Oğuz igidi atından ayrı təsəvvür edilmir, at igidin yol göstərənidir, igid atının belində deyilsə başına bir iş gəlmişdir. Yeri gələndə at qəhrəmanın sirdaşıdır, yol göstərənidir. "Bamsı Birek boyu"nda Əsirlikdə olan Beyrək qaçarkən sürüdə atını tanıyır, atı da Beyrəyi tanıyır. Beyrəyin düşmən əlindən qaçarkən öz atına rast gəlib öz atı ilə qaçması atla qəhrəmanın ayrılmazlığını, atın xilaskar, qəhrəmanın igidliyinin tamamlayıcısı olmasının sübutudur:

" Atım, atım, ey atım!
Anla sözüm, ey atım!
Kendimi üzürine atayım,
Sonra evime yetişeyim.
Alnın benzer tek meydana
Anla sen sözü söyleyeni.
İşığa benzer gözlərin
Açılsın senin yüzlerin,
İpek gibi yelen senin,
Naziktir ince tenin,
Kolanın sanki kamıştan,
Senin soyun sanki ermişlerden,
Sırtına al sen beni,
Canı dilden seviyorun seni,
Başıma bir şey geldiğinde,
Gel doğrudan benim yanıma (1, s. 84).

Bamsı Birek Dede Qorqud dastanlarında əsas qəhrəmanlardan biridir. Qazan xana yaxın olan qəhrəmanlardandır. Soyuna elinə sadiqdir. "Bamsı Birek" dastanın ən uzun boylarındandır, bu boyda dastan ənənələrinin əksəriyyəti qorunub saxlanmışdır.

Nəticə. Beləliklə, Kitabi-Dədə Qorqud dastanının türkmən əlyazmasının Vatikan və Drezden nüsxələri ilə həm oxsar, həm fərqli əlamətləri vardır. Bu nüsxədə əvvəlki nüsxələrdən fərqli şəxslər, parçalar mövcuddur.

İstifadə edilmiş ədəbiyyat

1. Dede Korkut Destanının Türkmenistan boyları. Prof. Dr. Necati Demir. İstanbul, 2020
2. Metin, Doku ve konteks bakımından Bey Böyrekin Safranbolu eş metni, İbrahim Gümüş, Uluslararası Sosyal Araştırmalar Dergisi, Cilt:11, Sayı: 60, Yıl: 2018, s. 144
3. Həbibbəyli İ. "Kitabi-Dədə Qorqud": yazılı epos və ya epopeya. Bakı: Elm, 2020, s. 45
4. Dədə-Qorqud"eposu, I kitab, Qəhrəmanın ölüb dirilməsi, Bakı, 2022, s. 41).
5. Kırk sayısının halk edebiyyatı ürünlerinde kullanımı üzerine bir inceleme. A.Ü. Türkiyyat Araştırmaları Enstitüsü Dergisi Sayı 41, Erzurum 2009, s. 95
6. Dədə Qorqud kitabı"nda at kultu, Əzizxan Tanrıverdi, Bakı: Nurlan, 2012, s. 18

ABŞ ƏDƏBİYYATININ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA TƏDQİQİ VƏ TƏDRİSİ MƏSƏLƏLƏRİ

Arif Əsədov*

Abstract

Research and teaching issues of 20th century American prose in Azerbaijani literary studies

In the 20th century, American literature gained a fundamental position in world literature with its ideas and rich content features. At the beginning of the century, E.Hemingway, F.S.Fischerald, T.Woolf, W.Faulkner, C.D.Salinger, at the end of the century, J. Kerouac, Emily Dickinson, Kurt Vonnegut, at the beginning of the 21st century, Dan Brown, Khalid Huseyni, Jeffrey Yevgenides, Jonathan Safran Foyer and the name of the others was loved in the field of world novels. Today, all over the world, the works of American writers, known and unknown, are bought, read, and films are made based on them. It is important that the works of those writers be translated into Azerbaijani, studied and not only taught in secondary general education schools, but also included in scientific school programs. The article reflects these issues.

Keywords: *American literature, world literature, study of American literature, teaching of world literature, literature of foreign nations.*

Giriş. Dünya ciddi qlobal dəyişikliklər və yeni intellektual, rəqəmsal inkişaf mərhələsindədir. Hər gün milyardlarla sayda ölçülən informasiya dünyanın bir yerindən digər yerinə sürətlə axır, müxtəlif datalar meydana gəlir, emal edilir, yeni paradiqmalar müəyyənləşir. İnsanların əvvəlki dövrdən fərqli baxışları, yanaşmaları ortaya çıxır, dördüncü sənaye inqilabı hər kəsin həyatına müxtəlif forrma və məzmunda təsir edir.

Yuxarıda qısa olaraq qeyd etdiyimiz sosial-iqtisadi, virtual məngənədə humanitar düşüncənin xüsusi parçası olan ədəbiyyatşünaslıqda modern kultro-sosial reallıqdan doğan çağırışları dəstəkləyəcək yeni yanaşmalar, tədqiqatlar zərurətə çevrilir. Belə zəruri ehtiyaclardan birini də dünyanın qabaqcıl ədəbi fikri olan ABŞ ədəbiyyatının Azərbaycan dilinə tərcümə edilməsi, Azərbaycanda tədqiq edilməsi, nəticələrin əks olunduğu materialların böyüyən nəslə ötürülməsi təşkil edir.

Təcrübə taixinə nəzər salanda görürük ki, XVII əsrdə Avropa təfəkkürünün daşıyıcısı olan amerika ədəbiyyatı sonradan A.Brədstrit, E.Teylor, C.Vulman, B.Franklin, V.İrvinq, C.F.Kuper, R.V.Emerson, H.D.Toro, U.Vitman, H.V.Lonqfello, N.Hotorn, H.Melvill, E.A.Po, H.Biçer-Stou, S.Klimens (Mark Tven), H.Ceyms, S.Kreyn, T.Drayzer, O.Henri, C.London, T.Eliot, R.Frost, U.Stevens kimi simalarını meydana çıxardı. XX əsrdə ABŞ ədəbiyyatı özünün ideya və zəngin məzmun xüsusiyyətləri ilə dünya ədəbiyyatında əsaslı mövqe qazandı. Əsrin əvvəllərində E.Heminqueyin, F.S.Fisceraldın, T.Vulfun, U.Folknerin, C.D.Selincerin, ortalarında Y.O`Neylin, R.Louellin, S.Platın, A.Qinsberqin, C.Əşberinin, T.Vilyamsın, R.V.Ellisonun, V.Nabakovun, C.Apdaykın, əsrin sonlarında C.Keruakın, Emili Dikkinsonun, Kurt Vonnequtun, XXI əsrin əvvəllərində Den Braunun, Xalid Hüseyninin, Cefri Yevgenidesin, Conatan Safran Foyerin və digərlərinin adı dünya roman sahəsində sevilərək çəkildi. Bu gün dünyanın hər yerində adıçəkilən və çəkilməyən amerikalı yazıçıların əsərləri alınır, oxunur, onlar əsasında filmlər çəkilir. Həmin yazıçıların əsərlərinin Azərbaycan dilinə tərcümə olunması, tədqiq edilməsi və təkcə bununla kifayətlərilməyib, müvafiq olaraq orta ümumtəhsil məktəblərində tədris edilməsi, ali məktəb proqramlarına daxil edilməsi vacibdir.

Əsas hissə. Azərbaycan ədəbiyyatşünaslığında ABŞ ədəbiyyatının akademik səviyyədə araşdırılmasının tarixi qədim deyil. XX əsrdə ABŞ ədəbiyyatı nümayəndələrinin əsərlərinin dilimizə tərcümə olunması, geniş oxucu kütləsinin bu ədəbi nümunələrlə tanışlığı istər-istəməz elmi araşdırmaların yaranmasına təkan vermişdi. İlkin mərhələdə ABŞ ədəbiyyatı haqqında, əsasən, bədii-

* ***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, elmi işçi, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: arif_alim@mail.ru.***

publisistik yazılar yazılmışdı ki, bunlar da əsası etibarı ilə ABŞ yazıçı və şairlərinin həyat və yaradıcılığını özündə əks etdirən, "sosialist realizmi" prinsiplərinə uyğun, kapitalist istismarının ağırlıqlarını təsvir edən bədii əsərlərin təhlili xarakterli idi. Bunlar daha çox Amerika kapitalist həyatının tənqidindən ibarətdir.

Azərbaycanın siyasi müstəqillik qazanmasından sonra ABŞ ədəbiyyatına həsr olunmuş geniş elmi tədqiqatların meyada gəlməsi üçün əlverişli şərait yarandı.

1992-ci ildə T.Əliyeva filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün "Azərbaycan-Amerika ədəbi əlaqələri" (C.F.Kuperin əsərləri Azərbaycan dilində) adlı dissertasiya yazdı.

1996-cı ildə Zeydulla Abdulla oğlu Ağayev "Azərbaycan-Amerika ədəbi əlaqələri" adlı doktorluq dissertasiyasını müdafiə etdi (2). Bu tədqiqat işi Azərbaycan-Amerika ədəbi əlaqələrini, qarşılıqlı ədəbi-mədəni münasibətləri, tərcümə məsələlərini əhatə edir. Dissertasiyada ABŞ-də Azərbaycan mövzusunun işlənməsi, ABŞ ədəbiyyatının Azərbaycan dilinə tərcümə olunma tarixi, ABŞ ədəbiyyatının formalaşması kimi mühüm məsələlər tədqiq edilir.

ABŞ ədəbiyyatı ilə bağlı aparılan tədqiqatları arasında 1997-ci ildə Nuranə Məcid qızı Nuriyevanın filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün yazdığı "Teodor Drayzer və Azərbaycan" adlı elmi işi də vardır (11). Dissertasiyada T.Drayzer yaradıcılığının Azərbaycan ədəbi-mədəni mühitində inikası, xüsusən də tərcümə ədəbiyyatındakı yeri öyrənilir, "Kerri bacı", "Cenni Herhardt", "Dahi", "Amerika faciəsi" və "Qasırğa" kimi əsərlərinin dilimizə tərcüməsindəki adekvatlığın səviyyəsi müəyyənləşdirilir.

1998-ci ildə Səkinəxanım Fazil qızı Vəliyeva filologiya elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün "Heminquey və Azərbaycan" adlı dissertasiya müdafiə edir.

Dissertasiyada E.Heminquey irsinin Azərbaycan ədəni-mədəni mühitindəki yeri müəyyənləşdirilir. Bu məqsədlə E.Heminquey yaradıcılığı ilə bağlı respublikada çap olunmuş materiallar əsasında Azərbaycan ədəbi-mədəni mühitinin yazıçıya münasibəti araşdırılır və bu münasibətin inkişaf istiqamətləri təsvir edilir.

2003-cü ildə Səidə Fərrux qızı İsmayılova "Ernest Heminqueyin yaradıcılığında ictimai və tarixi kolorit" adlı dissertasiya müdafiə etmişdir (5). Həmin elmi iş sonradan monoqrafiya şəklində də nəşr olunmuşdur.

2004-cü ildə Kəklik Xamməd qızı Gözəlova "Müasir Amerika nəsrində müharibə və sülh problemi" adlı namizədlik dissertasiyası yazmışdır (13).

Tədqiqat işi müasir Amerika nəsrində müharibə və sülh probleminə aid əsərlərin tədqiqinə həsr edilmiş, tədqiqatçı problemə müasir nöqteyi-nəzərdən yanaşmışdır. "Sovet ideoloqları faşizmin darmadağın edilməsində amerikan əsgərinin rolunu qəsdən azaltdıqları üçün müharibəyə aid Amerika romanlarının tərcüməsi zamanı əsas diqqət müharibədə iştirak edən amerikalıların qəhrəmanlığının əks etdirildiyi əsərlərə deyil, "itirilmiş nəslə" və ya müharibə əleyhinə çıxan pasifistlərə həsr edilmiş romanlara yönəldilirdi. Kommunist ideologiyasına qarşı çıxan antisovet ədəbiyyatını tərcümə etmək mümkün deyildi: sovet ədəbiyyatşünasları belə əsərləri yalnız tənqid etməklə kifayətlənirdilər" (13, s. 26).

2005-ci ildə Səkinəxanım İsmayılovanın "Ernest Heminquey: tarixə realist baxış" adlı monoqrafiyası işıq üzü görmüşdür (6).

Monoqrafiyada istedadlı yazıçının həyat və yaradıcılığı ardıcıl araşdırılır. Tədqiqatçı Heminqueyin yaradıcılıq prinsiplərini müəyyənləşdirməyə çalışır, onun XX əsrin ən səciyyəvi ədəbi üslublarından birinin yaradıcısı olduğunu qeyd edir. Bu üslubun müəyyən xüsusiyyətlərinin ondan sonra da ədəbiyyatda bu və ya digər dərəcədə özünə yer tapdığını izah edir (Asadov, A. 2021).

2005-ci ildə Elxan Qasım oğlu Şirinov filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün "XX əsr Amerikan nəsrində Uilyam Folknerin hekayələrinin yeri" adlı dissertasiya yazmışdır (12).

Dissertasiyada Folkner hekayələrinin bir neçəsi təhlil edilir, hekayələrin yazıldığı vaxtda dünya ədəbiyyatında əsas mövzu olan insanın daxili böhranı problemlərinə toxunulur, mövzu ilə bağlı Heminquey hekayələrinin bir qismini təhlil edilir.

Müəllif tədqiqatında ABŞ ədəbiyyatında hekayə janrının inkişaf tarixi, onun mövzu, ideya və təhkiyə tipinin tarixi inkişaf prosesində formaları, müxtəlif müəlliflərin hekayənin imkanlarından

istifadə etmələrini diqqətlə öyrənir, XX əsrdə bu janrın ən tanınmış və istedadlı nümayəndələrinin əsərlərini müqayisə edir.

Azərbaycan -ABŞ ədəbi əlaqələri haqqında olan digər elmi iş 2007-ci ildə Məmmədova Xumar Şəmsi qızının filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün yazdığı "Azərbaycan ədəbiyyatı çağdaş Amerika elmi-ədəbi mənbələrində" adlı dissertasiyadır (9). Elmi işin uğurlarından biri burada Şimali və Cənubi Azərbaycanın paralel olaraq çağdaş ABŞ alim və yazıçılarının əsərlərində tədqiqinə həsr olunmasıdır. Dissertasiyada Azərbaycan ədəbiyyatı məsələlərinin çağdaş Amerika müəllifləri tərəfindən qələmə alınması məqsədləri araşdırılır. Müəllif bu yolla xalqımıza münasibətin real mənzərəsini canlandırmaq, ingilisdilli oxucuların Azərbaycan ədəbiyyatı və mədəniyyəti haqqında aldıqları informasiyalar vasitəsilə ölkəmizə qarşı haqsızlıqların dünya ictimaiyyətinə çatdırılması səviyyəsini dəqiqləşdirmək, ziddiyyətli məqamlara aydınlıq gətirmək istəyir (Asadov, A. 2021).

2008-ci ildə Riza Əlixan oğlu Xəlilov "Tomas Vulfun yaradıcılığında XX əsr Amerika reallığının təcəssümü" adlı tədqiqat işi hazırlamışdır (16).

Dissertasiyada T.Vulfun yaradıcılığında avtobioqrafizmin xüsusiyyətləri işıqlandırılır, avtobioqrafizmin milli ədəbiyyatımızdakı səciyyəvi cəhətləri təhlil edilir, yazıçının zamanların qırılmaz əlaqəsi ideyası ilə bağlı olan, səbəb və nəticə münasibətləri ilə şərtləndirilən, özündə keçmişin və gələcəyin elementlərini, onun təzahür formalarını təcəssüm etdirən zaman konsepsiyasının spesifik xüsusiyyətləri araşdırılır. Elmi işdə Azərbaycanda T.Vulf yaradıcılığının öyrənilməsi məsələləri də ətraflı təhlil edilir.

2002-ci ildə Sabitova Aynur Zakir qızı "Harriet Biçer Stounun yaradıclığında Amerikanın sosial ziddiyyətləri" adlı fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmişdir (15).

Dissertasiyada XIX əsr ABŞ ədəbiyyatında özünü göstərən ictimai ziddiyyətlər araşdırılır, bu dövrdə baş verən müxtəlif ictimai-siyasi hadisələrin ədəbiyyatda əksi tədqiq edilir. Eyni problemlərin H.Biçer-Stounun yaradıclığında təzahür forması da müəyyən edilərək yazıçının "Tom dayının daxması" romanı əsasında ətraflı təhlil edilir.

2005-ci ildə Sevinc Sabir qızı Rəcəbova "Uolt Uitmenin yaradıcılığında Amerikan romantizmi" adlı dissertasiya müdafiə etmişdir (14).

Dissertasiyada ABŞ ədəbiyyatının formalaşması tarixinə nəzər salınır, ABŞ ədəbiyyatında romantizmin əsas xüsusiyyətləri araşdırılır, U.Uitmenin (1819-1892) həyatı yolu tədqiq edilir, onun yaradıcılığında romantizmin təzahür xüsusiyyətləri işıqlandırılır. Dissertasiya Amerika romantizminin ən görkəmli nümayəndələrindən olan U.Uitmenin yaradıcılığının Azərbaycan ədəbiyyatşünaslığında ilk geniş tədqiqidir (Esedov, A. 2011).

2006-cı ildə Şəhla İsaxan qızı Abdullayeva "Con Apdaykın "Rabbit Anqstorm" tetralogiyasının poetikası" adlı elmi iş hazırlamışdır (1) .

Dissertasiya müasir ABŞ ədəbiyyatının canlı klassiki sayılan Con Apdaykın proqram xarakterli "Rabbit Anqstorm" tetralogiyasının poetikasının araşdırılmasına həsr edilmişdir. Burada C.Apdayk müasir Qərb ədəbiyyatının əsas simalarından biri kimi qiymətləndirilir. Dissertasiyada C. Apdaykın "bəli və amma" ironik konsepsiyası və tetrologiyanın poetikasında onun təzahür formaları nəzərdən keçirilir. Struktur tərtibatın əsas prinsipi kimi paralellik aşkar olunur. Elmi işdə həmçinin tetralogiyanın üslub sistemi nəzərdən keçirilərək təhlil olunur, tetrologiyanın poetikasında xronotopın spesifikası açıqlanır.

2008-ci ildə Aygün Cahan qızı Məmmədova "XIX-XX əsr realist ədəbiyyatında satirik publisistika və pamfletin təcəssümü" (Mark Tven və Cəlil Məmmədquluzadənin yaradıcılığı əssasında) adlı dissertasiya müdafiə etmişdir (8). Dissertasiyada ABŞ tənqidi realizminin banisi olan Mark Tvenin yaradıcılığı ilə Mirzə Cəlilin yaradıcılığı müqayisəli şəkildə tədqiq olunur.

Tədqiqat işində Mark Tven yaradıcılığının yeri və mövqeyi də araşdırılır. ABŞ ədəbiyyatının formalaşmasında misilsiz xidmətləri olmuş bu yazıçının yaradıcılığı respublikamızda ilk dəfə olaraq bu dissertasiyada ayrıca tədqiq edilir. "…Mark Tvenin ilk əsərləri keçən əsrin əvvəllərində Azərbaycana "gəlmiş" (türk dili vasitəsilə "Milyon funt sterlinq bank bileti" satirik hekayəsi dilimizə tərcümə olunaraq 1910-cu ildə Bakıdakı "Orucov qardaşları mətbəəsi"ndə çap edilmişdir), sonrakı illərdə isə yazıçının çoxsaylı kiçik həcmli əsərləri, o cümlədən ən populyar romanları ("Tom Soyyerin

macəraları", "Heklberri Finnin macəraları", "Şahzadə və dilənçi") dilimizə tərcümə olunmuşdur. Xüsusilə onun romanları Azərbaycan dilində təkrar-təkrar çap edilmişdir. Qeyd edək ki, Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra M.Tvenin əsərləri rus dili vasitəsilə dilimizə tərcümə edilmiş, yalnız keçən əsrin yetmişinci illərindən başlayaraq milli mütərcimlərimiz birbaşa orijinalın dilinə müraciət etmək imkanı qazanmışlar" (8, s. 7) .

Dissertasiyada M.Tven və C.Məmmədquluzadənin əsərlərində onların yaşadıqları cəmiyyətin eybəcərliklərini, yarıtmazlıqlarını tənqid üsulları və formaları müqayisəli şəkildə təhlil edilir. Müəyyən edilir ki, Mark Tvenin və Cəlil Məmmədquluzadənin müraciət etdikləri satirik publisistika, pamflet və felyeton janrları onların yaşadıqları dövrün siyasi-ictimai durumunun tələbləri əsasında ortaya çıxıb və hər iki yazıçının əsərləri yaşadıqları cəmiyyətə realistcəsinə tənqidi baxışın bədii yekunu olmuşdur (Asadov, A. 2021).

Daha bir tədqiqat işi 2009-cu ildə Ceyran Manaf qızı Quliyevanın "ABŞ ədəbiyyatında adi adamın faciəsinin bədii təsviri" (Erskin Kolduell və Albert Maltsın əsərləri əsasında) adlı dissertasiyadır (7).

Tədqiqatçı öz təhlilləri əsasında onu da müəyyən edir ki, mətnaltı mənadan başlıca tənqid obyektinin hakim dairələr olduğu düşünülsə də, bu müəlliflərin əsərlərində həmin ünvana yönəldilmiş heç bir gileyə və ya etiraza rast gəlinmir. "E. Kolduellin və A.Maltsıın ədəbi qəhrəmanları yalnız öz acı taleyini yaşayan köməksiz insanlardır. Onlar iş axtara-axtara Amerikanı dolaşır, evsiz-eşiksiz səfil həyatı yaşayır, öz ağır əməklərini sahibkara qəpik-quruşa satmağa məcbur olur, bir çox hallarda isə cinayət törətməyə məcbur edilirlər" (7, s. 140) .

İlhamə Mayis qızı Məmmədovanın 2010-cu ildə ərsəyə gətirdiyi dissertasiya işi "Müasir ABŞ və Azərbaycan ədəbiyyatında detektiv janrın yeni çalarları" adlanır (10). Dissertasiyada müasir ABŞ və Azərbaycan ədəbiyyatında detektiv janrın xüsusiyyətləri və ədəbi nümunələr tədqiqata cəlb edilmiş, detektiv ədəbiyyatın əhatə dairəsi müəyyənləşdirilmiş, bu janrın yeni çalar və istiqamətləri üzə çıxarılmış, ABŞ və Azərbaycan yazıçılarının detektiv janrında qələmə aldıqları bədii əsərlərin şərhi verilmişdir (Asadov, A. 2021).

Tədqiqatçı ABŞ və Azərbaycan ədəbiyyatlarında detektiv janrının müxtəlif cəhətərinin oxşar olmasını da vurğulamışdır. Tədqiqatçı belə bir nəticəyə gəlir ki, müasir ABŞ və Azərbaycan detektiv yazıçılarının əsərlərində hadisələrin cərəyan etdiyi məkanlar baxımından müəyyən oxşarlıqlar vardır. "Məsələn, Artur Heyli və Çingiz Abdullayev zaman etibarı ilə bir qədər fərqli dövrlərə aid olsalar da, onların yaşadıqları məkanları minlərlə kilometr məsafə ayırsa da, hər iki müəllifin cəngəllik mövzusuna toxunması böyük maraq doğurur. Qeyd olunduğu kimi, "Axşam xəbərləri" romanında əhvalatlar Peru cəngəlliklərində baş verir. Çingiz Abdullayevin "Etiraf vadisi" əsərində də əsas əhvalatlar İndoneziya adaları yaxınlığında olan cəngəllikdə vaqe olur" (10, s. 129).

2013-cü ildə Gülər Səyyaf qızı Həsənova "Bədii tərcümə və Azərbaycan-ABŞ ədəbi əlaqələri" adlı monoqrafiya yazmışdır. Monoqrafiya tədqiqatçının "Çağdaş Azərbaycan-ABŞ ədəbi əlaqələrinin inkişafında bədii tərcümənin rolu (1991-2005-ci illər)" adlı dissertasiyası əsasında hazırlanmışdır.

G.Həsənovanın monoqrafiyası giriş, iki fəsil, nəticə və ədəbiyyat slyahısından ibarətdir. Əsər ABŞ-Azərbaycan ədəbi əlaqələrinin araşdırılması, xüsusilə bu sahədə tərcümələrin yeri və rolunun öyrənilməsi baxımından kifayət qədər əhəmiyyətə malikdir. Gənc alim ABŞ-də nəşr olunan "Azerbaican İnternational" jurnalının fəaliyyətini ardıcıllıqla işıqlandırır, bu dərginin Azərbaycan ədəbiyyatı və mövzusunun ABŞ-də yayılması və təbliği işindəki müstəsna rolunu vurğulayır. Bundan əlavə, elmi işdə istedadlı Azərbaycan yazıçısı Mir Cəlal Paşayevin 1998-ci ildə ABŞ-də "Azerbaican İnternational" jurnalının "Azerbaican literature" seriyasından dərc olunmuş "İclas qurusu və başqa qısa hekayələr" kitabı haqqında maraqlı və gərəkli elmi fikirlərini qeyd edir (Asadov, A. 2021).

2013-cü ildə Yusif Əsgər oğlu Əliyev filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Ernest Heminqueyin yaradıcılığında insanın bədii dərki" adlı dissertasiya hazırlamışdır (3).

Elmi işdə Heminqieyin ABŞ-da, Rusiyada və Azərbaycanda araşdırılması məsələləri işıqlandırılır. Tədqiqatşı Ernest Heminqueyin bir sənətkar kimi insanı öyrənməsini, yaxud öyrənib əxz etdiklərini müvafiq insan obrazında təcəssüm etdirdiyini vurğulayır. "Bu bədii obrazları xülasə etməli olsaq, belə bir ilkin nəticəyə gələ bilərik ki,Heminqueyin insan anlayışı, yaxud insan obrazı bütün

gücü, enercisi bir nöqtəyə cəm edilmiş varlıq formasıdır və tədqiqatçıların artıq təsdiq etdikləri kimi,

ona qalib gəlmək mümkün deyildir. Heminqueyin yaradıcılığında, məhz onun kəşf etdiyi bədii obrazda bütün ümumi keyfiyyətlər insanın genetik yaddaşından, ailəsindən irəli gəlirdi. Bir nəsildə, bir ailədə on illər boyu doğulan insanların qanında axan ehtiras, onların hiss və duyğuları bəzən hansısa fərddə ifadəsini tapır. Heminquey böyük, qlobal mövzulara müraciət edib "kiçik insan" problemini aşkarladı, kiçik insanın daxilində yatan nəhəng enercini kəşf etdi" (3, s. 9).

1. 2014-cü ildə bu məqalənin müəllifinin "Yeni Amerika nəsri və Azərbaycan ədəbi-nəzəri fikri" adlı elmi işi BDU-nun Dünya ədəbiyyatı kafedrasında hazırlanaraq AMEA-nın Ədəbiyyat insstitunda müdafiə edilir. 2017-ci ildə isə "ABŞ-Azərbaycan ədəbi əlaqələri: yeni nəsr" (4) adlı monoqrafiyası nəşr edildi. Tədqiqatda XX əsrdə ABŞ və Azərbaycan ədəbiyyatının formalaşması, onun yaranmasına təsir edən amillər araşdırılır, tədqiq edilir.

ABŞ ədəbiyyatı haqqında tədqiqatlar hazırda müxtəif Ali təhsil mərkəzlərində davam etdirilir.

2022-ci ildə Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasının doktorantı Səbinə Əsgər qızı Zeynalovanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi "Emili Dikkinsonun təbiət şeirlərində antropomorfizm" mövzusunda dissertasiya müdafiə etmişdir.

Mənsurə Ağayeva 2022-ci ildə Azərbaycan Dillər Universitetində "Uilyam Folkner və Azərbaycan ədəbiyyatı" mövzusunda dissertasiyanı müdafiə etmişdir.

Leyla Elşad qızı Qocayevanın filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi "Kurt Vonnequtun yaradıcılığında Amerika gerçəkliyi" mövzusunda dissertasiya 2022-ci ildə müdafiə etmişdir.

Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında Turanə Madar qızı Abdullayeva "Yeni dövr Amerika uşaq ədəbiyyatı (1970-1990-cı illər)" mövzusunda dissertasiya 2022-ci ilin əvvəllərində müdafiə etmişdir (Asadov, 2021).

Gülnar Mirsəlim qızı Rzayeva filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi "Cek Keruakın yaradıcılığında kontrkulturanın bədii təzahürü" adlı dissertasiya 2024-cü ildə müdaiə etmişdir.

Yeqzar İsfəndiyar oğlu Cəfərlinin Bakı Mühəndilslik Universitetində hazırladığı "Den Braunun bədii mətnlərində gerçəklik və onun postmodernist strukturu ("Da Vinçi şifrəsi", "Cəhənnəm", "Mələklər və şeytanlar" romanları əsasında)" mövzusunda dissertasiyası 2024-cü ilin aprelində müdafiə edilmşdir. Dissertasiya ABŞ ədəbiyyatının müvafiq dövrünün, Den Braun yaradıcılığının Anarın "Ağ qoç qara qoç", K.Abdullanın "Yarımçıq əlyazma", Ş.Ağayarın yaradıcılığı ilə müqayisələri əks olunmuşdur.

2024-cü ilin aprel ayında Azərbaycan Dillər Universitetində Qismət Rüstəmov "Cefri Yevgenides və Conatan Safran Foyerin nəsrində identiklik axtarışları" mövzusunda dissertasiya nmüdafiə etmişdir. Tədqiqatçı burada ABŞ ədəbiyyatında kimlik məsələrini araşdırmışdır (Esedov, A. 2011).

Nəticə və elmi yenilik. Müasir dövrümüzdə informasiya texnologiyalarının genişlənən imkanlarından istifadə etməklə dünyanın bütün ədəbi-mədəni nailiyyətlərini, o cümlədən, yeni ABŞ nəsri nümayəndələrinin də yaradıcılıq nümunələrini, onların ədəbi-mədəni görüşləri haqqında məlumatları çox asanlıqla əldə etmək, dilimizə çevirmək olar. Azərbaycan internet məkanında da bir çox ədəbiyyat və sənət məsələləri ilə bağlı fəaliyyət göstərən saytlarda ABŞ ədəbiyyatı nümayəndələri haqqında neçə-neçə bədii-publisistik məqalələr yazılmışdır.

Bütün bunlar respublikamızda xarici ədəbiyyatın öyrənilməsi, mənimsənilməsi, vaxtında oxuculara çatdırılması üçün çox mühüm əhəmiyyətə malik faktlardır.

Bu tədqiqatların, onların nəticələrinin ali və orta məktəblərdə proqram və standartların tələblərinə uyğun tələbələrə, şagirdlərə çatdırılması zərurətdir, şagirdlərdə, yeniyetmələrdə, tələbələrdə planetar düşüncənin inkişafı üçün xüsusi bir imkandır.

Beləliklə, ümumiləşdirmə apararaq qeyd edə bilərik ki, yeni ABŞ nəsri nümayəndələrinin yaradıcılığı haqqında ölkəmizdə müəyyən elmi tədqiqatlar olsa da, onların nəticələrinin təbliği, tədrisi işini qənaətbəxş hesab etmək mümkün deyil.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayeva Ş. "Con Apdaykın "Rabbit Anqstorm" tetralogiyasının poetikası". fil. e. n. al. dər. almaq üçün təq.ed.dissertasiyanın avtoreferatı, Bakı: ADU, 2006, 20 s.

2. Ağayev Z. Azərbaycan - Amerika ədəbi əlaqələri. fil. elm. doktoru alimlik dər. almaq üçün dissertasiya, Bakı: 1996, 329 səh.
3. Esedov, A. (2011). Kafkaslarda Azeri Türk Edebiyatının Yeni Aşaması: Doğu deneyiminden Batı deneyimine. TURANSAM: Turan Stratejik Araştırmaları Merkezi Dergisi, 9, 73–75. http://www.turansam.org
4. Asadov, A. (2021). Organizational issues of work on world literature samples in primary schools. Journal of Preschool and Primary Education, 236(3), 81–93.
5. Asadov, A. (2021). The role of world literature in shaping students' planetary thinking. Azerbaijan Journal of Educational Studies, 697(4), 111–119.
6. Əliyev Y. Ernest Heminqueyin yaradıcılığında insanın bədii dərki. Fil.elm üzrə f.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Naxçıvan, 2013, 29 s.
7. Əsədov A. ABŞ-Azərbaycan ədəbi əlaqələri: yeni nəsr. Bakı: Xan, 2017, 120 s.
8. İsmayılova S. "Ernest Heminqueyin yaradıcılığında ictimai və tarixi kolorit". Bakı: 2003, 128 s.
9. İsmayılova S. Ernest Heminquey; tarixə realist baxış. Bakı: "Victory" mətbəəsi, 2005, 144 s.
10. Quliyeva C. "ABŞ ədəbiyyatında adi adamın faciəsinin bədii təsviri" (Erskin Kolduell və Albert Maltsın əsərləri əsasında) fil. e. n. al. dər. almaq üçün təq.ed.dissertasiya, Naxçıvan: 2009, 153 s.
11. Məmmədova A. "XIX- XX əsr realist ədəbiyyatında satirik publisistika və pamfletin təcəssümü" (Mark Tven və Cəlil Məmmədquluzadənin yaradıcılığı əssasında), fil. e. n. al. dər. almaq üçün təq.ed.dissertasiya, Bakı: ADU, 2008, 127 s.
12. Məmmədova X. Azərbaycan ədəbiyyatı çağdaş Amerika elmi-ədəbi mənbələrində. Fil. elm. nam.a.al. ü.təq.ed. dis., Naxçıvan: 2007, 157 s.
13. Məmmədova İ. "Müasir ABŞ və Azərbaycan ədəbiyyatında detektiv janrın yeni çalarları", fil. e.
14. n. al. dər. almaq üçün təq.ed.dissertasiya, Naxçıvan: 2008, 133 səh.
15. Nuriyeva N. Teodor Drayzer və Azərbaycan. fil. elm. nam. al. dər. almaq üçün təqdim edilmiş dissertasiya, Bakı: 1997, 155 s.
16. Şirinov E. XX əsr Amerikan nəsrində Uilyam Folknerin hekayələrinin yeri. fil. elm. nam. al. dər. almaq üçün təqdim edilmiş dissertasiya, Bakı: 2005, 119 s.
17. Гезелова К. Проблема войны и мира в современной Американской прозе, дис. на соис. ученой степени канд. фил.наук., Баку: 2004, 134 ст.
18. Раджабова С. Американский романтизм и творчества Уолта Уитмена, дис. на соис. ученой степени канд. фил.наук., Баку: 2005, 167 ст.
19. Сабитова А. Сочиальные противоречие Америки в произведениях Гарриет Бичер-Стоу, дис. на соис. ученой степени канд. фил.наук., Баку: 2002, 168 ст.
20. Халилов Р. Воплошение Американской действительности начала XX века в творчества Тоьас Вулфа, автореферат дис. на соис. ученой степени канд. фил.наук., Баку: 2008,32 ст.

MÜASİR LATINAMERİKAN ROMANI: YENİ TİPLİ MƏDƏNİ ŞÜUR FORMASI KİMİ

Vüsalə Mirzəyeva*

Abstract

The modern Latin American novel: as a new type of cultural consciousness

Latin American literature is a multilevel process based on conflicting interracial interactions at different stages of historical development. Towards the end of the 20th century, this process began to take a more rigid stance. These include the Spanish and Portuguese literature in "Ibero-American literature" as artistic examples of the 16th-19th centuries, composed of all the Romance languages of the continent - English, Dutch, French, Creole, and Hindu folklore. However, Latin American literature considered the significant cultural event in the history of world civilization, differs in that it belongs to an autonomous and qualitatively different cultural process. The recognition of specific features of this literature in the context of intercontinental relations is the main objective of the analysis.

Keywords: *Latin American literature, magical realism, A.Kofman, "new novel", mythopoetics.*

Giriş. Qitə (Amerika) ədəbiyyatını təsvir etmək üçün istifadə olunan anlayışlar sistemi, onun formalaşmasının natamamlığını əks etdirən qeyri-sabitlik və mobillik ilə xarakterizə olunur. Onu, müstəmləkəçilik dövründə Avropa ədəbiyyatı qrupunun tərkib hissəsi də hesab etmək olar. Bununla belə, sivil ənənələri ya rədd və yaxud da təhrik olunmuş formaya salan ABŞ, Kanada, Avstraliya ədəbiyyatından fərqli olaraq, latınamerikan ədəbiyyatı avtonom və keyfiyyətcə fərqli mədəni prosesə aiddir. Qarşılıqlı təsir amili, bu tip ədəbiyyatın inkişaf tipinin xüsusiyyətləri, ideologiyası və poetikası üçün həlledicidir. Ədəbiyyat, sözün əsl mənasında Latın Amerikasının ümumi mədəni prosesində son dərəcə mühüm rol oynayan, onun mənəvi özəyini, mədəni formalaşma proseslərinin fəlsəfi və estetik kvintessensiyasını təşkil edən amildir. İdeoloqem və mifoloqemlərdən ibarət konseptual-metaforik "kod"a əsaslanan yeni tipli mədəni şüurun mahiyyəti və tarixi dinamikası, bu ədəbiyyatı dünya mədəniyyətinin müstəqil hadisəsi kimi dəyərləndirilməsini mümkün etdi.

Latınamerikan romanı fərqli vektor üzərində, xaosdan harmonikliyə addım təməlləri üzərində quruldu. Əgər Qərbi Avropa şüuru üçün arxaik mif son nəticədə dünyanı rasional əsaslarla nizamlamağın mənasızlığını təsdiq edirdisə, Latınamerikan romanı mifi, tarix və nisbi müasirliyi yeni nizamda birləşdirməyə çalışırdı. Genezisində belə şərtlərin xronotopa çevrilməsi cəhdi duyulan latınamerikan romanı, yeni şüur tipi üçün bütün sərhədləri açdı. Beləliklə, yeni şüur tipinin əsas xüsusiyyətlərindən biri, antik dövrdən XX əsr fransız "yeni" romanı, absurd teatrına qədər bütün mövcud təcrübəyə müxtəlif mədəniyyət və dil konsepsiyaları ilə birgə inteqrasiyadır.

Əsas hissə. Latınamerikan romanı anqlosakson ənənənin marjinal fenomenlərinə, Şərq fəlsəfəsinə, fransız, rus ədəbiyyatına istinadlar edərək yeni bədii şüurun əsas mahiyyətini ortaya qoydu. "Yeni roman"nın yaradıcıları ənənəvi roman (telluristik roman, sosial roman) haqqında tənqidi və mənfi fikirlər söyləyirdilər. Varislik qanunlarına mənfi münasibət bəsləyir, müasirliyə can atırdılar. Yeni roman ənənəsi kontinumunun yaradılması istiqamətində soy kökü və kimlik axtarışına çıxmaq kimi tələblə üzləşirdilər. Ənənəvi assimilyasiya həm kortəbii şəkildə, həm stereotiplərin, xalq mədəniyyəti elementlərinin, folklorun "mədəni şüursuzluq" sferasında sublimasiyası kimi baş verirdi. Bir çoxlarının yaradıcılığında bu əlaqələr asanlıqla fərqlənirdi. Daha qüdrətliləri, milli mədəniyyətinin müxtəlif təbəqələrini, (kreol, hindu) həm tarixi, həm də müasir folklor, filoloji, antropoloji tədqiqatlar səviyyəsində məqsədyönlü şəkildə mənimsəyirdilər. Asturiya mifologiyası, Astek, İnk, Maya-Kiçe, Çibça, Keçua folkloru (A.Karpentiyer, M.Asturias, Xose Lesama, E.Sabato, Q.Q.Markes), xristian mifologiyası və ritualizmi, xalq məişət mövhumatları və hindu xalqlarının mifologiyası və folklor elementlərinin sintez olunduğu katolik irsi dəyərlər (Xuan Rulfo) bir çox sənətkarların əsərlərinin ən mühüm konstruktiv sütunu kimi qəbul edilirdi. Bütün bu zənginlik, "Yeni dünya"nın "ümumi"

* ***Azərbaycan Dillər Universiteti, Xarici ölkələr ədəbiyyatı kafedrası, filologiya üzrə fəlsəfə doktoru. Elek.poçt: v.mirzeyeva@inbox.ru.***

təsvirlərinin əks olunduğu, fəth dövrü İspan mədəniyyəti ilə ziddiyyət təşkil edən, lakin müstəqil olmağı bacaran avtoxton mədəniyyətin nümunəsi – "yeni roman"ın ən mühüm xüsusiyyəti oldu.

Yeni şüur tipi latınamerikalının müasirliyə doğru yönləndirilməsinin mahiyyətini təşkil edir. Oktavio Pasın təbiriycə desək, "Biz ilk dəfə olaraq bütün bəşəriyyətin müasiri olduq" [2, s. 174]. M.Baxtinin sözlərinə diqqət yetirək: belə bir şüur üçün əsl tarixilik "zaman"dır. "Zaman", şüuru dəyişdirən və yeni bədii keyfiyyət yaradan başlanğıcdır [3]. Söhbət empirik yox, bədii zamandan gedir. Bədii zaman üçün müasirlik mədəniyyət tarixinin indiki zamana ötürülməsidir. Fərqli zaman prioritetlərinin latınamerikan romanında aktuallığı yeni tip şüurun, bu isə özü-özlüyündə yeni romanın əsasını qoydu. Bədii kəşf sayılan bu yenilik Latın Amerikası mədəniyyətinin formalaşmasında ən mühüm hadisə kimi qəbul edildi. Yeni bədii ənənənin formalaşmasında ilk addım, məkanın bədiiləşməsi, daha sonra isə məkanla zamanın unikal və ziddiyyətli vəhdəti səbəb olmuşdur. Yəni, çoğrafiyanın tarixə çevrilməsi faktı inteqral məkan-zaman reallığı haqqında biliklərə yol açdı. Bütün bu hadisələri özündə ehtiva edən yeni roman konsepsiyası inkişaf etməyə başladı. "Yeni romançılar" məkanı zamanla birləşdirərək, M.Baxtinin ifadə etdiyi latınamerikan mədəni xronotopunu yaratdılar. Parçalanma, dəyişkənlik, polifoniklik latınamerikan mədəni reallığının hüdudlarını müəyyən etdi. Eyni zamanda bütövlüyə, tammərkəzçiliyə can atan yeni romançılar müasir zaman və tarix anlayışını ümumiləşdirərək arxaiklik ilə və novatorluğu inteqrativ şəkildə bir araya gətirdilər. Məkan-zaman vəhdəti xronotop şəklində insan-torpaq, insan-kosmos münasibətlərinin təkrarlandığı və yaxud məkanların paralel şəkildə əvəzləndiyi mifopoetik orjinallığın hökmranlıq etdiyi telluristik nəsrdə daha aydın sezilirdi.

"Yeni roman"da zaman, məkanı və onun bir çox növlərini qarşılıqlı şəkildə hərəkətə gətirən aktiv vasitədir. Bu zaman növlərinin mədəni variantlarının çoxluğu xronotopik münasibətlərin dəyişkənliyini müəyyən edir. Zaman növlərinin müxtəlifliyi haqda A.Kofman qeyd edirdi ki, " ...keçmişə müraciət edən, dövrü, təkrarlanan, "donan" gələcəyə çevrilə bilən zaman, "yeni" kəşfdir. O həm də mövcud dəyərlərin sintezində müasirliyi dərk etməyə çalışır. Özündən əvvəlki avtoxton təcrübəni – qədim, şərq və xristian miflərinin esxatoloji və mütərrəqqi xronotopu polemik məqsədlərlə, transformasiya edərək "karnaval", misterik, həmçinin müasir dövr Qərbi Avropa mədəniyyətinin yaratdığı xronotop variantlarda (avanqardizm, modernizm, sürrealizm, absurdizm, neo-avanqardizm) toplayır və realizə edir [4].

Qərbi Avropa mədəniyyətində rast gəlinən fərd şüurunun çevrilməsi variantları Latın Amerikası romanı tərəfindən obyektiv reallığa çevrilir. Reallıq növləri isə bu romanda kollektiv varlığın yenidən yaradılması üçün emal mənbəyi kimi xidmət edir. Latın Amerikalı yazıçılar poststrukturalizm və postmodernizmi qabaqlayaraq, sonralar Qərbi Avropa nəzəriyyəçilərinin kəşfinə çevrilmiş sonsuz dəyişkənliyin, transformasiyanın konseptiv strukturlarını yaradırlar. A.F.Kofman latınamerikan romanına məxsus "məkan və zamanın inteqrasiyası" problemini keçmişi və gələcəyi simvolik indiki zamanda birləşdirən" məqam kimi görür. Venesuelalı Arturo Uslar-Pietrinin məkanın zamana görə dəyişikliyindən bəhs edən esseləri və kitabları Avropa oxucusuna qədər yol tapdı. "Yeni" roman impulsiv olaraq, kollektiv şüursuzluğa, folklor, qeyri Avropa və irrasional mənbələrə, arxaik, qeyri-sivil "orijinal dil" axtarışına, rasionalist və pozitivist klişelərə, eksperimental ilklərə, "möcüzəyə", ontoloji əsaslara, mif və mifologiyaya müraciət edərək "yeni dünya"nın və insanın yaradılmasında avanqard və modernist mədəni-bədii konstruktivizm prinsiplərinə yiyələndi. Bu yeni tarixi-mədəni kimliyin formalaşmasında avanqard və sürrealist ənənələrlə Avropalı deyil, "Amerikalı" kontekstində "özümüzü görmək məharəti idi" [1, s. 70]. Avtoxton mədəniyyətin inkişafında "Qvatemala əfsanələri", "Maya xalqları" kitabının "Popol Vux" dastanı" kimi epik Amerika salnamələri, "Biz salnaməçiyik – gecikmiş doğuşlarıq" anlayışının (P.Neruda Nobel nitqi 1971) mənasını və əhəmiyyətini başa düşmək imkanı verir. Bu salnamələrinin başqa bir vacib komponenti "möcüzə" duyğusunun mənbəyi müxtəlif dini, esxotoloji, ənənəvi misli görünməmiş hadisələrin təsviri ilə zəngin, hindu mifləridir. Başqa sözlə, Avropa təcrübəsiylə naməlum reallığı birləşdirənlər "Yeni dünya"nın ilk "total" şəkillərinin yaradıcıları – Amerika salnaməçiləri, ilk mifyaradanlardır.

XX əsr yazıçıları üçün "yaradıcı arxetip"i tapmaq dünyanı öyrənmək və estetik mövqe inkişaf etdirməyin yoludur. Bu təcrübə konseptual olaraq A.Karpentyer tərəfindən əsaslandırılmış, daha

sonralar isə Q.Q.Markes bunu özünəməxsus şəkildə təkrarlamışdı. "Amerika baxışına" uyğun gələn adekvat arxetip, avanqard linqvistik konseptuallıqla bağlı olan "yeni dünya"nın "ümumi" metaforik obrazına çevrilməli və onun vasitəsiylə həyatın dərk edilməsi nəzərdə tutulurdu. Tipoloji cəhətdən bu, Avropa təfəkküründün, xüsusən də avanqard təcrübə ilə paraleldə dünyanın ilkin mənzərəsinin yenidən yaradılmasına cəhd idi.

Avropa təcrübəsinin (avanqard ənənəsinin) Latın Amerikası kontekstində yenidən kodlaşdırılmasının nəticələrini ümumiləşdirməklə, Latın Amerikası bədii aləminin fundamental prinsiplər sistemi yaradıldı. Mifopoetik konstruksiya kimi təyin olunan bu sistemdə arxatipik və müasir qütbləri bir araya gətirməyin, kosmoduyumun, polivariantlığının fərdi yollarını kəşf etmək lazım gəlirdi. M.Asturias, L.Borxes, Lesama Lima, X.Kortasar, M.Varqas-Lyosa, K.Fuentes, J.Amado, Guimaraes Rosa və başqaları mifoloji obrazın yaradıcıları və ya konstruktorları kimi öz arxaik və müasir Avropa mədəniyyəiti arasında bədii və fəlsəfi mətnin qurucuları idilər. Onların şüurunda Latın Amerikası reallığı və mədəniyyətinin qütbləri birləşmiş, nisbət və irrasionallıq, tarix və mif, yazı və şifahi variantlarla arxaik və müasir reallığın müxtəlif məkan-zaman qatlarıdır.

Müxtəlif reallıqları əlaqələndirmək cəhdi, bədii kombinatorikanın yeni versiyasının axtarışı ilə nəticələnirdi. Buna görə də mifopoetik konstruktivizmi təcəssüm etdirməyin yolu avanqard poetikanın oyun prinsiplərinin ehtiva edildiyi kombinator poetikanın prinsiplərindən keçir. Sözügedən prinsiplər ilk dəfə Borxesin yaradıcılığında xüsusilyə aydın müşahidə olunurdu. Mifopoetik kosmik məkan onun hekayələrinin bədii və fəlsəfi məkanı idi. Sanki Tanrı rolunu oynayan yazıçı onu müxtəlif "məkan və zamanla oyunlarda" təkrar oynatmağa çalışırdı. Bu xüsusiyyət latınamerikan romanını Qərbi Avropa nümunələrindən kəskin fərqləndirir. Qərbi Avropa romanı dünyanın rasional, antroposentrik mənzərəsini təqdim etməkdən yorulmuşkən yeni variantı – fərdin şüurunun sonsuz dəyişkənliyini göstərməyi kəşf etdi. Luis Borxes, Migel Asturias, Alexo Karpentyer kimi bir çox "yeni" romançılar Avropa modernizminin kəşf etdiyi subyektiv məkan-zaman münasibətlərinin birləşmələrini obyektiv reallığa "ötürərək" sonsuz birləşmə və çevrilmələrdən ibarət mifopoetik, "sehrli" dünyanı yaratdılar. Yeni ədəbi kanonlar mifopoetik konstruksiya və kombinator poetika variantlarının kəşfinə doğru irəliləyirdi. Sürrealist qavramalar vasitəsiylə dünyanı dərk etməyin epik yolu yarandı. Məsələn, M.A.Asturias "Mais adamlar" (1949) romanında yuxu ilə reallığı element kimi birləşdirməyə müvəffəq oldu. A.Karpentyer Avropa və afroamerikan dünyagörüşünü üzləşdirərək, sehri şüurun üst qatına, reallığın bir hissəsinə çevirməyi bacardı. "Bu dünyanın səltənəti" (1949), A.Karpentyer nəzəriyyəçi və yeni bədii dünyagörüşü konsepsiyasının yaradıcısı kimi çıxış edərək Latın Amerikası ənənəsi ilə Avropa ənənəsi arasındakı fərqi, onun fərqli ontologiyasını təsdiq etməyə çalışırdı. Mifik təfəkkür ilə Avropa dünyaduyumunun simbiozundan yaradılan dünyanın latınamerikan modelinin reallığı başdan-başa magik elementlərə büründü. Arqument olaraq Amerika salnaməçilərinin fikirləri ilə uzlaşan bu reallıq, "yeni dünya"nın həqiqətən də yeni, hər şeydə fərqli olduğunu əsaslayan prinsiplərlə üst-üstə düşürdü.

Reallığın iki növü – Avropa və Latın Amerikasında "ecazgar reallıq" konsepsiyasının fərqləndirən iki əsas inkişaf dinamikası mövcuddur: zəif və tükənmiş Avropa ilə bütün səviyyə və mərhələlərdə dəyişikliyin mövcud olduğu yəni "möcüzə" yaratmağa ehtiyac duyulan çoşğulu Latın Amerikası reallığı ... Avropa fonunda Latın Amerikasını identifikasiya edən yeni bədii-fəlsəfi "utopiya"ya ənənəvi esxatoloji komponent də daxildir. Tələtümlü sosial, ictimai proseslər yeni – ecazgar reallığın mahiyyətini aydınlaşdırdı. "Ecazkar reallıq, reallıqdakı möcüzələrdən başqa bir şey deyildir, o, insanın mahiyyətini anlamaqdan ötrü "insanda və onun rafında baş verən dərin və davamlı dəyişikliklərdən ibarətdir [5, s. 226]. Möcüzəvi reallıq konsepsiyası "yeni roman" yaradıcılıarı arasında birləşdirici funksiyanı daşıyır. Yeni nəsil yazıçılari öz sələflərinin təcrübəsinə əsaslanaraq, mifopoetik reallığın "hər şeyi əhatə edən" imicini yenidən yaratmaq yollarını axtarırdılar. Möcüzəvi reallıq konsepsiyasının varisi Qabriel Qarsiya Markes ideoloji və yaradıcı həmrəylik kimi ümumilik kontekstində "Biz hamımız bir böyük Latın Amerikası romanı yazırıq" söylədi [6].

XVI əsr Amerika salnamələrindən başlanğıcını götürən "yeni roman"ının möcüzəviliyi, reallığı mifləşdirmə cəhdindən irəli gəlir. Çox vaxt ispan dilində yazılmış XVI əsr hindu salnamələrində olduğu kimi mifoloji başlanğıc, dünyanın Asturiasda olduğu kimi hər dəfə fərqli, görünməmiş

mənzərəsini kəşf edir. Qədim ənənələrə malik, dini-mifoloji dünyagörüşünə və bu səviyyəyə uyğun estetik sistemlərə əsaslanan ədəbiyyatlardan fərqli olaraq, yeni mifolojiləşmənin əsasını müasir dövrün Avropa mədəniyyətindən qaynaqlanan, lakin öz problemlərini həll etmək üçün transformasiyaya uğrayan fəlsəfi, ideoloji və bədii komplekslər təşkil edir. Latın Amerikası mədəniyyətinin bir hissəsi olan ənənəvi mifologiyanın xüsusiylə də xristianlıq mövzusunda arsenal (Antik dövrdən XVI əsrdə Xristianlığın reformasiyasına, yerli hindu miflərinin komponentlərindən və sonrakı mərhələdə Afrika miflərinə qədər) konseptual, metaforik Latın Amerikası mədəniyyətinin "şifrəsinin" əsasını təşkil edir. Qeyd etdiyimiz iki xətt üzrə qarşılıqlı əlaqə və qarşıdurma, XX əsr latınamerikan ədəbiyyatının ən böyük nümayəndələrinin yaradıcılığının təməl hissəsinə çevrilir. Xose Eustasio Rivera, Migel Anxel Asturias, Xose Lesama Lima, Xuan Rulfo, Alexo Karpentiyer, Qabriel Qarsia Markes, Karlos Fuentes, Mario-Varqas Lyosa kimi yazıçılar klassik mövzular və "Yeni dünya" tarixindən götürülmüş epik obrazlardan ibarət müxtəlif real və irreal birləşmələr üzərində dünyanın latınamerikan modelini yaratmağa müvəffəq olmuşlar. Bu ənənə polemik şəkildə düşünülmüş "yeni roman" üçün əhəmiyyətlilik kəsb edir. Latınamerikalı "yeni romançılar" Avropa modernizminin kəşf etdiyi subyektiv münasibətləri obyektiv reallığa "caladılar" və sinkretik birləşmələrdən ibarət sirli, möcüzələrlə zəngin mifopoetik, "magik" dünya yaratdılar. Magik dünya rasionalist təfəkkürün mütləq hakimliyini inkar etmək və daha həyati əsaslara bağlanan reallığın mifik-mistik modelini yaratmaq məqsədi güdür. Vahid süjet və vəziyyətlərə uyğun modellər yaratmaqla yeni, fərli tərzdə poetik dünyanı qurmaq mümkündür. "Magik realizm" təkcə latınamerikan nəsrinin yenilənməsinə deyil, dünya ədəbiyyatında fərqli bədii şüurun inkişafına şərait yaratdı. Yeni bədii prinsiplərin uğurlu tətbiqi nəticəsində "yeni Latın Amerikan romanı" aparıcı janra çevrilərək XX əsrin 60-70-ci illərindən faktiki olaraq dünya ədəbiyyatına öz yaradıcılıq prinsiplərini diktə etməyə başladı. Sehrli realizmin ideoloji əsası hindu və ya afroamerikalının mifoloji və arxaik şüuruna çığır açan Latın Amerikası reallığı və mədəniyyətinin orijinallığını müəyyən etmək və təsdiqləmək istəyi təşkil edirdi. Latınmamerikan romanını müəyyən mifoloji sxem əsasında izah etmək həddindən artıq asandır, bir növ əsərin özü buna imkan yaradır. Bu prosesdə qəribə bir şəkildə romanın oyatdığı magik hisslər öz-özlüyündə ortaya çıxır. Bu romanı hər hansı bir mifoloji qəlibə salmaq, mifopoetik konstruksiyasını yaratmaq, əsasən oxucunu magik dünyaya daha yaxınlaşdırmaq deməkdir.

Elmi yenilik. Dünya ədəbiyyatında latınamerikan bədii şüuru eləcə də magik realizm fenomeni ilə bağlı ümumi səciyyəvi mülahizələr fikir və qənaətlər irəli sürülmüşdür. Bu ədəbiyyatın Qabriel Qarsiya Markes, Migel Asturias, Alexo Karpentyer, Xuan Rulfo və s. kimi görkəmli nümayəndələrinin əsərləri həm oxucu kütləsi, həm də bədii-estetik fikir tərəfindən rəğbətlə qarşılanmışdır. Paradoksal olsa da, belə bir münasibət latınamerikan romanının və eləcə də bu romanın yazılma metodunun geneoloji və struktur xüsusiyyətlərinin dərindən və hərtərəfli şəkildə araşdırılması Azərbaycan ədəbiyyatşünaslığında arxa plana keçirmişdir. Bu baxımdan, tədqiqatın başlıca elmi yeniliyi yeni latınamerikan romanının hələ kifayət qədər araşdırılmamış poetik xüsusiyyətlərinin, onun mədəniyyətlərarası əlaqə prinsiplərindən formalaşmasının özünəməxsusluğunun araşdırılması ilə bağlıdır. Təqdim olunan məqalədə, latınamerikan romanının estetik prinsiplərindən həm Amerika, həm də dünya ədəbi mühitində yeni mədəni şüurun formalaşması kimi iddialar irəli sürülür və ilk dəfə olaraq elmi prinsiplər əsasında tarixilik və mifoloji müstəvidə təhlil olunur.

Nəticə. Beləliklə, latınamerikalı sənətkarların əsərlərindəki "yeni mifik dünya" modelini təhlil edərkən belə nəticəyə gəlmək olar ki, dünyanı bütöv şəkildə ehtiva etməyə çalışan müəllif, mifi və əfsanəni real həyat hadisələri ilə əlaqələndirməsi müxtəlif hadisələri bir-birinin vasitəsiylə izah etmək məqsədi güdürdü. Özünün fantastik, illüziyalarla dolu təxəyyülünə qapılaraq, müəllif mifoloji elementlərlə zəngin magik reallığı həqiqi reallıq kimi qəbul edir və onu bu formada da təqdim etməyə hazırdır. Onu da qeyd etmək lazımdır ki, yeni şərait magik reallığı sübut etmək üçün əlverişli və misli görünməmiş imkanlara malik idi. Latın Amerikası müxtəlif irqlərin, sivilizasiyaların və inancların qaynayıb-qarışdıqları məkan kimi, bu bölgədə "magik realizm"in formalaşması üçün münbit zəmin rolunu daşıyırdı. Ibtidai-mifoloji təsəvvürlər sisteminə söykənən dünyaya özünəməxsus baxış üsulu – magik realizm metodu formalaşdı. Bu üsulla yazılmış əsərlərdə bir sıra aparıcı xüsusiyyətlərin –

gerçəklik və uydurmanın, adilik və ecazkarlığın, yazılı nümunə və folklorun üzvi vəhdətdə birləşməsinə imkan verildi.

İstifadə edilmiş ədəbiyyat

1. López Alvarez L. Conversaciones con M.A. Asturias. Madrid, 1974, 80 s.
2. Paz O. El laberinto de la soledad. México: Fondo de Cultura Económica, 1959.
3. Бахтин М.М. Формы времени и хронотопа в романе. Очерки по исторической поэтике Бахтин М. М. // Вопросы литературы и эстетики. Москва: Художественная литература, 1975, с. 234-407
4. Кофмана. Ф. Латиноамериканский художественный образ мира. Москва: Наследие, 1997, 320 с.
5. Осповат Л. Писатели Латинской Америки о литературе. Москва: Радуга, 1982 г.
6. Г.Гарсия Маркес, М. В. Льоса. Диалог о романе в Латинской Америке / https://noblit.ru/node/1461 (30.04.2024)

VİKTOR HÜQONUN ƏSƏRLƏRİNDƏ ŞƏRQ MOTİVLƏRİ

Elmira Süleymanova, Mətanət Allahverdiyeva*

Abstract

Eastern Motives in Victor Hugo's creation

The article thoroughly examines how Eastern motifs influenced Victor Hugo's works within the Romanticism movement of 19th-century Europe, shaped by the aftermath of the French Revolution. Despite not being a revolutionary writer, Hugo poetically depicted contemporary societal struggles, reflecting French society's upheavals. It delves into Romanticism's philosophical ideals of idealism and defiance of norms, exploring how writers like Hugo portrayed aspirations for freedom amidst societal constraints. The article also discusses the interplay between realism and Romanticism, showcasing writers' navigation of these literary currents. Additionally, it acknowledges Romanticism's impact on European literature and cultural movements, highlighting the diversity within the movement. Hugo's exploration of Eastern motifs adds complexity to his works, reflecting his interest in cross-cultural exchange. Overall, the article emphasizes Hugo's significant role in French and European literature, as he captured the spirit of his time and inspired future generations with his insights and storytelling prowess.

Keywords: *French Revolution, romanticism, 19th-century Europe, cultural movements, idealism, eastern motifs, literary currents, universal ideals, literary analysis*.

Giriş. Tədqiqatın elə əvvəlində xüsusi vurğulamaq istərdik ki, bötövlükdə romantizm (yeni qollar fərqələndirilmədən) çox geniş sosial-siyasi təbiətə malik olmuşdur. Onun meydana gəlməsi və sonrakı inkişafı və təkmilləşməsi dövrü, dövrlər arasında məlum olduğu kimi, Avropa'nın ictimai həyatında iz buraxan hadisələrlə əlamətdar idi.

XIX əsr Fransız romantik ədəbiyyatı üçün tarixi zəmin ictimai inkişafın yeni mərhələsi oldu ki, onun başlanğıcını 1789-1793-cü illərin məşhur inqilabi hadisələri təşkil etmişdir. Məlumdur ki, Büyük Milli İnqilab Fransız "feodalizm"ini darmadağın etdi və burjuaziyanın heç bir Avropa ölkəsində olmayan birmənalı hökmranlığının təməlini qoydu. "Baş qaldırmaqda olan proletariatın burjuaziyanın hökmranlığına qarşı mübarizəsi də burada başqa ölkələrə məlum olmayan kəskin formada çıxış edir" [229, s. 259].

Fransa'nın tarixi inkişafının özünəməxsusluğu cəmiyyətin dərin və hərtərəfli tənqid imkanını və dünyaya məzlumların mövqeyindən baxmaq bacarığını agah etmişdir. Bu, XIX əsrin 1-ci yarısının ən səmimi yazıçılarının yaradıcılığında aydın müşahidə olunur. Üstəlik, xalq kütlələrinin həmin dövrdə yaşadığı səngimək bilməyən mübarizəsi, Fransada ədəbi prosesin strukturunu formalaşdırırdı. Bu mübarizə romantizmin inqilabi hərəkatla doğrudan və birləşdirilmiş şəkildə əlaqəli olan siyasi, sosial-külturoloji və mənəvi-axlaqi təcrübəsini təsvir edirdi. Bu cərəyan ictimai yüksəliş dövrlərində özünü xüsusilə təkidlə büruzə verdiyindən, onun əsrin birinci yarısında inkişafının düyüm mərhələlərinin 1830 va 1848-ci illər inqilabları olması tamamilə təbii və qanunauyğun haldır.

Fransız romantizminin digər bir qanadı daha mühafizəkar, qoruyucu-liberal istiqamət idi. Dövlətdəki sol qüvvələrin xeyrinə kiçik bir haşiyəyə kimi çıxmaqla, Viktor Hüqo da bu qanadı təmsil edirdi. Lakin bu, heç də demək deyil ki, onun əsərlərində inqilabın, yaxud ümumiyyətlə, sosial motivlərin təsviri yoxdur (burada yazıçının yalnız "Safillər" epopeyasını xatırlamaq kifayətdir).

Əsas hissə. 1. Viktor Hüqo'nun Əsərlərində Şərq Motivləri. Romantizmin bu qanadında xüsusi rolu, əlbəttə, mühafizəkar romantizm oynayırdı və bunu Viktor Hüqo ilə əlaqələndirməmək mümkünsüzdür. O, əsasən inqilabi şair və yazıçı olmasa da, günün hadisələrinə, adı çəkilən cərəyan daxilində operativ reaksiya verə bilirdi. Üstəlik, poetik forma sayəsində Viktor Hüqo'ya şifahi ənənəyə nüfuz etmək o qədər də çətin deyildi. Bu isə kifayət qədər önəmli idi, çünki, qoruyucu-liberal qrupların təmsilçilərinin nə səmərəli mətbuat orqanları, nə də nüfuzlu nəşrləri yox idi. Viktor Hüqo poeziyası öz

* ***Bakı Dövlət Universiteti. Elek.poçt: esuleymanovabdu@gmail.com; matanat.elish@bk.ru.***

ideya-emosional mündəricə və məzmununun Fransanın xalq kütlələrinin əhval - ruhiyyəsilə səsləşməsi, şair-romantiklərə marağını ilə, onların mövqeyini tanıması ilə yaşayırdı.

Bu sosial-siyasi çalarlara diqqət yetirməyimiz ona görə əhəmiyyətlidir ki, bir qələm sahibi kimi, belə bir ideya-emosional gərginlik Viktor Hüqo'ya "Şərq" mövzulu əsərlərində daha çox xas olmaqdadır. Onun yaradıcılığının bu cəhəti nəzəri baxımdan dissertasiyanın son paragrafında açıqlanacaq, elmi aydınlıq üçün isə onun daha dərin təhlili isə ikinci fəslin müvafiq bölməsində aparılacaqdır.

Burada həm də dövrün siyasi hadisələrinə reaksiyanı vurğulamaq çox önəmlidir, çünki onlar fransız romantizminin müxtəlif qanadlarında son dərəcə sürətli və ardıcıllıqla ifadə olunmuşdur.

Beləliklə, fransız burjua inqilabı, sonra isə onun ardından gələn Napoleon müharibələri və milli-azadlıq hərəkatları qitəni sarsıtdı. İnqilabın silib atdığı siniflərin ideoloqları onun doğurduğu real həqiqətdən üz döndərir, onu hazırlayan ideologiyanın əleyhinə çıxış edirdilər.

Qeyd edək ki, Fransada romantizmin inkişafının hərəkətverici qüvvəsi kimi maarifçiliyin meydana gəlməsinə XVIII əsrdə mütləqiyyətə, monarxiyaya son qoyulması, klassisizm ədəbi cərəyanının yaranmağa başlaması zəmin yaratmışdır. Fransa tarixinə maarifçilik əsri kimi daxil olmuş XVIII əsr Böyük Fransq burjua inqilabını yetişdirdi. Bu dövrdə ənənəvi cəmiyyətin, iqtisadi-siyasi mühitin dəyişməsi, yeni ədəbi cərəyanların yaranması və inqilabın müstəsna hadisələri ilə əlaqəli olmuşdur. Bu hadisələr maarifçilik ideologiyasını da təsir etmiş və onun inkişafında təkan vermişdir [51, s. 3].

Bu da təsadüfi səciyyə daşımırdı. “Fransız maarifçilik ideologiyası burjua xarakter daşıyaraq azadlıq və ədalət, ümumxalq və hətta ümumbəşəri cəhdi ifadə edirdi. Bu maarifçilik ideologiyası əxlaqın əsası kimi şəxsi maraqların rolu ilə əlaqələnirilirdi və sosial mənafelərin nəzəriyyəsinin necə anlaşılması haqqında təlimlər təklif edirdi. Şəxsi maraq əsasında iqtisadiyyat qurulması da bu ideologiyada önəmli bir yer tuturdu ki, bu da etik aspektlərə malik idi” [50, s. 44].

O dövrün tənqidçi və ədəbiyyatşünasları, şair, yazıçı, və dramaturqları, filosofları və digər ictimai-siyasi xadimləri, bir ağızdan fransız inqilabının ümumi nəticələrindən narazılıqlarını bildirirdilər. I Napoleonun apardığı və az qala bütün Avropanı əhatə edən aramsız müharibələr, o cümlədən, bir-birinin ardınca baş verən inqilabi çıxışlar nəticəsində uzun müddət mövcud olmuş, qədim siyasi strukturlara məxsus dövlətlərin yıxılması və siyasi idarəçilik sistemlərinin dəyişdirilməsi, kütləvi qırğınlar və repressiyaların baş verməsi sadə Avropalılarda bir növ ümidsizlik və küskünlük əhval-ruhiyəsini doğurmuşdu. Çünki, nə inqilabi dəyişikliklər, nə də Napoleonun apardığı təntənəli hərbi yürüşlər nə Avropanın, nə də Fransanın sadə xalq kütlələrinin ümumi iqtisadi-siyasi və sosial-ictimai vəziyyətində müsbət bir ciddi dəyişiklik yaratmamışdı.

Bələ ki, əvvəllər feodal hakimlərin, kralların, hersoq və xüsusi ərazi sahiblərinin əlində cəmləşdirilən əksər imtiyaz və üstünlüklər, torpaq sahələri və maddi-iqtisadi imkanlar indi də əsasən kapitalistlərin, böyük burjuvaların nümayəndələri, tacir və şirkət sahiblərinin əlində cəmləşdi. Sadə xalq nümayəndələrinin ümumi iqtisadi vəziyyətində müsbət bir dəyişiklik baş vermədi, və əksər xalq kütlələri yenə də yoxsul olaraq qaldılar. Üstəlik, sürətlə yoxsullaşan və böyük kapitalistlər tərəfindən sıxışdırılaraq kiçik torpaq sahələrini itirən kəndlilər, aclıqdan ölməmək üçün kütləvi şəkildə şəhərlərə axın etdilər və kapitalistlərin təklif etdiyi ağır şərtlərlə ucuz işçi qüvvəsi kimi çox cüzi bir məbləğə işləməyə başladılar.

Bundan başqa, qitədə baş verən kütləvi hərbi toqquşmalar nəticəsində məhsuldar qüvvələrin ana sütununu təşkil edən gənc kişilərin müharibədə öldürülməsi və ya şikəst edilməsi həm sadə vatandaşların həm də ümumilikdə ölkələrin maddi-iqtisadi vəziyyətinin pisləşməsinə gətirib çıxardı. Nəticədə də ilk vaxtlar Böyük Fransa İnqilabından ümidlənən sadə avropalılar bu ümidlərinin də puça çıxdığını görüb bir qədər ümidsizləşdi və adi həyatda əldə edə bilmədiyi xoşbəxtliyi bədii həyatda axtarmağa başladılar ki, bu da o dövrki Avropa cəmiyyətində və ədəbiyyatında romantik hisslərin və ruhiyyatın, yaxud romantizmin yaranması ilə nəticələndi. Bu ümidsizlik ilk vaxtlar bir sıra romantik yazıçıların yaradıcılığında da geniş tərzdə əks olunmağa başladı ki, XX əsr ədəbiyyatşünaslığında bu cür romantikləri əsərlərində əks olunan bədbinliyə görə “mürtəce romantiklər” adlandırmışlar. Böyük

Fransız romantiki Viktor Hüqonun da yaradıcılığının müəyyən bir dövründə mürtəce romantizmə məyllərinin olduğu hiss olunur.

Lakin Avropada Böyük Fransa İnqilabının və iri müharibələrin baş verməsi cəmiyyətin hayatına birtərəfli qaydada təsir göstərməmiş, bir sira müsbət tendensiyaların da yaranmasına səbəb olmuşdur. Məhz Böyük Fransa İnqilabının nəticəsində, Avropada təhkimçilik hüququ birdəfəlik aradan qalxmış, feodalizm öz hakim siyasi quruluş olmaq imtiyazından əbədilik məhrum olmuş və sadə avropalların hər bir üzvü bir sıra siyasi-iqtisadi va sosial-mədəni, o cümlədən, seçib-seçilmək kimi hüquqlar əldə edərək özünü sözün əsl mənasında insan kimi hiss etməyə başladı ki, bu da cəmiyyətdə müsbət əhvali-ruhiyyənin, pozitivliyin yaranmasına səbəb oldu. Bütün bunlar ədəbiyyatda, o cümlədən həmin dövrdə geniş yayılmış romantik ədəbiyyatda öz bədii əksini tapdı. Bu səbəbdən də romantik yazıçılar sözün əsl mənasında iki cəbhəyə, yaxud hissəyə - fransiz cəmiyyətini keçmiş patriarxal məişətə, az qala Orta əsrlərə dönməyə səsləyən mürtəce romantiklərə və demokratik kütlələrin maraqlarını fəal şəkildə ifadə edən mütərəqqi romantiklərə bölündü.

2. Viktor Hüqonun yaradıcılığında şərq motivləri. Yaradıcılığının sonrakı dövrlərində xalqların milli-azadlıq hərəkatının alovlu müdafiəçisi, müstəbidliyi və istilaçı müharibələri ifşa edən Viktor Hüqo da özünün möhtəşəm yaradıcılığı ilə romantizmdə mütərəqqi istiqaməti yaradanlardan biri oldu. Onun ideyaları açıq inqilabi formada ifadə olunmasa bela, Şərqə də kifayət qədər yer ayırdığı erkən poeziyasının novator ruhu, eləcə də Fransada yeni tipli romantikanın bədii metodu Avropanın müxtəlif milli ədəbiyyat təmsilçiləri olan şair və yazıçıların sonrakı nəsilləri tərəfindən dəstəkləndi və həqiqi mənada inkişaf etdirildi. Bu fikir bir çox ədəbiyyatçılar tərəfindən dəstəkləndi. Məsələn, təxminən eyni tarix dövranında analoji fikirləri Fransa şairləri, yazıçıları, mədəniyyətşünasları, sənətşünasları, görkəmli ziyalı və ictimai xadimləri Piyer Beranje və Oqust Bartelemi də söyləmişdilər. Şairlərdən Lui-Aqat Berto, Jan-Pyer Veyra, Şarl Jil, Güstav Lerua, Aleksis Dalles, dünya şöhrətli nəğmkar-şair Ejen Potye və bir çoxları da, əsasən, bu ideyaların tərəfdarı idilər.

Müasir Fransız tənqidçi-ədəbiyyatçı və filosoflardan bəziləri, həmçinin Jak Derrida, Jan Liotar kimi şəxslər, bu fikri dəstəkləyirlər. Lakin fikrimizcə, paragrafda toxunulan məsələlərin axarına uyğun olaraq, rus tənqidçisi və romantizm tədqiqatçısı V.Q.Belinski'nin romantizmin təbiətinə dair fikirlərini misal gətirmək daha əlverişlidir. Belinski, Orta əsrlər ruhlu romantizmi və "yeni romantizmi" ayırd edirdi. Bu iki növ arasındakı sərhədi Belinski, hər şeydən əvvəl, ideal və gerçəkliyin nisbəti məsələsinin həllindən asılılıqda nəzərdən keçirirdi. "Orta əsrlər ruhlu" romantizm üçün məkan sanki iki dünyaya bölünür - həqarətli "bura" və qeyri-müəyyən, sirli "ora". Onun fikrincə, bu, həm də ideal və gerçək bir dünyadır, onların arasında isə yeni romantizm üçün uçurum yerləşir. Həyatın iki əks sahili - bura va ora - tarixi inkişafın, tarixi həmişəyaşarlığın vahid real səmasında birləşərək harmoniya yaradır.

Nəzəri-fəlsəfi yanaşmada, "birinci halda, romantiklər reallıqdan uzaqlaşaraq, 'burada' əlçatmaz olan ideala can atırlar. İkinci halda, romantik şair hazırki reallıqla kifayətlənmədən ürəyində daha yaxşı mövcudluq idealı bəsləyərək, bir fikirlə yaşayır və nəfəs alır - təbiətin ona bəxş etdiyi vasitələrlə bu idealın həyata keçməsinə köməkçi olmaq" [105, s. 171].

Viktor Hüqonun yaradıcılığı böyük rus tənqidçisinin bölgüsünə maksimal dəqiqliklə uyğun gəlir. Məlumdur ki, fransız şairi və yazıçısı həmişə aktiv romantik sayılırdı və özü haqqında deyirdi ki, o, "yazını bir əllə yazır, mübarizəni iki əllə aparır".

Nəticə və elmi yenilik. Həqiqətən, Viktor Hüqo bütün Qərbi Avropanı təlatümə gətirmiş nəhəng hadisələrin müasiri olduğundan, daim bu və ya digər siyasi doktrina va fəlsəfi mühakimələri insan həyatı ilə nisbətdə götürür, onların humanist yaxud mənfi mahiyyətini açırdı. Nəticədə Viktor Hüqo sənətində siyasi ideyalar yayınıq xarakterini itirərək, estetik ahəng kəsb edir, insana münasibətdə gözəl yaxud eybəcər, faciəvi yaxud komik hadisələr kimi qəbul olunur.

Heç şübhəsiz ki, Viktor Hüqonun yaradıcılığı fəal fransız romantizminin tacı oldu. O, özü dəvamlı yaradıcı fəaliyyəti dövründə sədaqətlə xidmət etdiyi romantizmin məzmun və mahiyyətini belə müəyyənləşdirirdi: "Romantizm incəsənətdə liberalizmidir. İncəsənətin azadlığı, cəmiyyətin azadlığı - ardıcıl, məntiqli düşünən ağılların yekdilliklə can atmalı olduqları ikiqat məqsəd məhz budur" [107, s. 11, s. 151].

Məhz bu səbəbdən, klassik elmə sadiq şair kimi, Viktor Hüqo öz yaradıcılığında fəal sürətdə romantik poetikanin imkanlarını sınaqdan keçirməyə başlayır. Yazıçının patetik odaları, tədricən, klassisizmin ən yekrəng stilistik ştamplarından təmizlənir. Məsələn, odalara üzvi səkildə balladalar əlavə olunur. Çox vaxt Viktor Hüqo onları Orta əsrlər mövzularına, qədim əfsanə və xalq inanclarındam götürdüyü fantastik motivlərə həsr edirdi. Bununla bağlı romantizm üçün doğma olan iddia - dünyəvi, adi həyatda fantaziyaya yer olmaması ilə bağlı fikir də möhkəmlənir.

Qeyd edək ki, "realizmlə romantizm bir-birindən fərqləndiyi kimi aralarında müştərək cəhətlər də yox deyil. Təsadüfi deyil ki, dünya ədəbiyyatı klassiklərindən bir çoxunun yaradıcılığında romantizm və realizm keyfiyyətləri üzvi surətdə birləşir. Bəzən eyni bir yazıçı həm realizm, həm də romantizm metodu əsasında qüvvətli əsərlər yazır; yaradıcılığının bir dövründə romantik, o biri dövründə realist olan sənətkarlar da var" [36, s. 185].

İstifadə edilmiş ədəbiyyat

1. Abasov A. Klassiklər həmişə müasirdir // Nurlan, Bakı, 2009, s. 380
2. Abdullayeva Y.A. Quliyev Q. XX əsr ədəbiyyatında modemizm. Bakı: Mütərcim, 2005, 108 s.
3. Ağayev Ə. Əsrin tərənnümü // Bakı: Yazıçı, 1980, s. 231
4. Babayev B.M. Ədəbiyyat məsələləri // Müəllim, Bakı, 2015, s. 277
5. Babayev B.M. Romantizm və bədii xarakter problemi: Monoqrafiya // Bakı: Şirvannəşr, 1998, s. 90
6. Babazadə B.H. Bədii ədəbiyyatda pafos. Bakı: Bakı Universiteti, 2007, 60 s.
7. Bağırov A. Y.E.Bertels və Azərbaycan ədəbiyyatı. // Elm: Bakı, 2007, s. 132
8. Bayram A. Qərb ədəbiyyatı Azərbaycan filoloji fikrində. Bakı: Nurlan, 2006, s. 199

MÜDRİK KƏLAMLAR VƏ DÜNYA XALQLARININ ATALAR SÖZLƏRİ ARASINDAKI OXŞAR XARAKTERİSTİKALAR

Mətanət Allahverdiyeva[*], Elnarə Yunusova[†]

Abstract

Wise word and among the proverbs of the people of the world similar characteristics

In the article under the heading "similar characteristics between wise sayings and proverbs of the peoples of the world", one can find similarities between proverbs and sayings of wise people of different cultures of the world. These similarities are an expression of universal realities arising from human experience. For example, basic concepts such as nature, family, justice, friendship are expressed in a similar way in most cultures. This shows that people have common values and experiences and that these values are reflected in different cultural contexts. In addition, in ancient times and in Islamic culture, the concept of "wise saying" is mentioned. Although the role of the wise word has changed in modern times, there is still talk of its existence. The names of some areas in which wise.

Keywords: *Wise sayings, proverbs, thoughts of the wise, phraseology and fixed phrases.*

Giriş. "Müdrik kəlam" anlayışı tarix boyu bir çox mədəniyyət və cəmiyyətlərdə mövcud olmuşdur. Bu anlayış ümumiyyətlə yaşlı, təcrübəli və müdrik insanları təsvir etmək üçün istifadə edilən ifadədir və ümumiyyətlə cəmiyyətdə hörmət qazanan və ya liderlik rolunu alan insanlara aiddir. Müdrik sözlərin tarixi bəşər tarixinə və müxtəlif mədəniyyətlərə gedib çıxır və hər mədəniyyətdə fərqli şəkildə yaranmışdır. Qədim dövrlərdə bir çox sivilizasiyaların müdrik adamları olub. Məsələn, Qədim Yunanıstanda filosoflar müdrik adamlar hesab olunurdu və çox vaxt gənclərə rəhbərlik edirdilər. Çində Konfutsi kimi mütəfəkkirlər və müdriklər cəmiyyətin bələdçiləri olaraq görülürdülər. Orta əsrlər Avropasında kilsə rəhbərləri və alimləri hikmət və hidayət mənbəyi hesab olunurdular. İslam mədəniyyətində "müdrik kəlam" anlayışı da önəmlidir. İslam peyğəmbəri Məhəmmədin həyatı və sözləri müsəlman icmaları üçün hidayət mənbəyi hesab olunur. Bundan əlavə, islam mütəfəkkirləri, alimləri və dini liderləri cəmiyyətin hidayət olunmasında və dini təlimlərin izahında mühüm rol oynadılar. Müasir dövrdə hikmətli sözün rolu dəyişsə də, hələ də mövcuddur. Bu gün dərrakəli sözlər akademiya, biznes, siyasət, dini liderlik və bir çox başqa sahələrdə mövcuddur. Bu insanlar çox vaxt öz təcrübə və biliklərini bölüşməklə gənc nəsillərə yol göstərir, cəmiyyətin müxtəlif problemlərinin həlli yollarını təklif edirlər. Ağıllı sözlərin tarixi bəşəriyyətin müdriklik axtarışında və biliklərin ötürülməsində dərin köklərə malikdir. Mudrik sözləri ümumiyyətlə qoca, təcrübəli və müdrik insanları ifadə etmək üçün işlədilən ifadədir. "Müdrik" sözü müdriklik, fərasət, sağlam düşüncə kimi müsbət keyfiyyətləri ifadə etdiyi halda, "kələm" sözü yaşlı və müdrik insanları ifadə edir. Müdrik insan adətən həyatın çətinliklərindən təcrübələrlə dolu bir keçmişə malikdir və bu təcrübələrdən gəncləri və ya cəmiyyəti istiqamətləndirmək üçün istifadə edir. Onların məsləhətləri çox vaxt dərin fikir və müdrikliklə doludur və gənc nəsillər üçün bələdçi ola bilər. İntellektual sözlər cəmiyyətin mədəni və sosial quruluşunun mühüm bir hissəsidir və çox vaxt hörmət və heyranlıqla qarşılanır. Ağıllı sözlər çox vaxt müxtəlif sahələrdə fəaliyyət göstərir və cəmiyyətin müxtəlif təbəqələrində təsirli ola bilir. Müdrik sözlərin tez-tez işlədildiyi və ya təsirli olduğu bəzi sahələr bunlardır:

Sosial Məsləhət və Rəhbərlik: Alimlər tez-tez gənclərə və ya cəmiyyətin digər təbəqələrinə rəhbərlik etmək, məsləhət vermək və təcrübələrini bölüşmək üçün sosial məsləhət və bələdçilik sahəsində işləyirlər.

Təhsil: Məktəblərdə, universitetlərdə və ya özəl təhsil müəssisələrində tez-tez tələbələrə akademik və həyati bacarıqlara rəhbərlik edən dərin məktəblərə rast gəlmək olar.

[*] ***Bakı Dövlət Universiteti, Alman və fransız dilləri kafedrasının baş müəllimi. Elek.poçt: metanetallahverdiyeva2206@gmail.com.***

[†] ***Bakı Dövlət Universiteti, Alman və fransız dilləri kafedrasının müəllimi. Elek.poçt: elnarayunusova77@gmail.com.***

Mentorluq: İş dünyasında müdrik sözlər tez-tez gənc mütəxəssislərə və ya yeni sahibkarlara mentorluq etmək, karyeralarını istiqamətləndirmək və uğur qazanmalarına kömək etmək üçün istifadə olunur.

Mədəni və Dini Rəhbərlik: Bəzi mədəni və ya dini icmalarda müdriklər liderlik rollarını öz üzərinə götürür və cəmiyyətin ehtiyaclarına uyğun olaraq rəhbərlik edir.

Hüquq və Ədliyyə Sistemi: Hüquq və ədliyyə sistemlərində təcrübəli hüquqşünaslar və ya hakimlər öz gənc həmkarlarına və ya hüquq fakültəsi tələbələrinə mentorluq etməklə onların peşəkar inkişafına töhfə verə bilərlər.

İncəsənət və Ədəbiyyat: Ədəbiyyat, incəsənət və ya mədəniyyət sahələrində təcrübəli yazıçılar, rəssamlar və ya mədəniyyət liderləri gənc istedadlara mentorluq edir və onların istedadlarını inkişaf etdirməyə kömək edirlər. Bunlar dərrakəli sözlərin ümumiyyətlə, lakin məhdud deyil, təsirli olduğu sahələrdən yalnız bir neçəsidir. Hər bir cəmiyyət və mədəniyyət hikmətli sözləri fərqli şəkildə işlədə bilər və ya onlardan fərqli rollar gözləyə bilər. Müdrik sözlərin çoxlu nümunələri var və onlar tarix boyu müxtəlif mədəniyyətlərdə və sahələrdə təsirli olublar. Ağıllı sözlərə bəzi nümunələr:

1. ***Konfutsi (Kong Qiu):*** Qədim Çində yaşamış Konfutsi bir çox insanlar üçün hikmət və hidayət mənbəyi olmuşdur. Konfutsi Çin mədəni və əxlaqi dəyərlərini dərindən öyrənməklə cəmiyyətin nizamını və rifahını təşviq edirdi. Onun təlimləri Çində uzun müddət üstünlük təşkil edən və hələ də təsirli olan Konfutsiçilik kimi tanınır.
2. ***Sokrat:*** Qədim yunan filosofu Sokrat müdriklik axtarışı və sorğu-sual əsaslı təlimi ilə tanınır. Sokratın təlimləri, xüsusilə gənclər üçün Sokratik metod bir çox fəlsəfi düşüncə məktəblərinə ilham verdi.
3. ***Mahatma Qandi:*** Hindistanın müstəqillik mübarizəsində mühüm rol oynayan Mahatma Qandi dinc müqavimət və sosial dəyişikliklər üçün mübarizə apardı. Qandi ruhlandırıcı lider kimi tanınır və passiv müqavimət fəlsəfəsi ilə bütün dünyada nüfuz sahibi idi.
4. ***Martin Lüter Kinq Jr.:*** İrqi ayrı-seçkiliyə qarşı mübarizə aparan və ABŞ-da vətəndaş hüquqları hərəkatına rəhbərlik edən Martin Lüter Kinq dinc etiraz və vətəndaş itaətsizliyi ilə tanınır. Kinqin rəhbərliyi irqi ayrı-seçkiliyə qarşı mübarizədə mühüm rol oynadı.
5. ***Mövlana Cəlaləddin Rumi:*** İslam dünyasının mühüm mistik şairi və mütəfəkkiri Mövlana Cəlaləddin Rumi insanlara mənəvi axtarışlarında yol göstərmişdir. Ruminin əsərləri məhəbbət, tolerantlıq, sülh və mənəvi oyanış mövzularına dərindən nəzər salır.

Bu müdriklərin hər biri öz dövründə öz cəmiyyətlərinə təsir etmiş, gələcək nəsillərə yol göstərən mühüm şəxsiyyətlərdir. Onların təlimləri və rəhbərliyi bəşər tarixində dərin izlər qoyub. Müdrik alimlərinin dini baxışı, ümumiyyətlə, dinin təlimləri, əxlaqi dəyərləri və mənəvi hidayətləri üzərində qurulur. Bu sözlər dini mətnlərin təfsiri, ruhani əməllərin həyata keçirilməsi, ictimai həyatın dini prinsiplərə uyğunluğu kimi məsələlərdə hikmət təklif edir. Hikmətli sözlərin dini baxışı ilə bağlı bəzi əsas məqamlar bunlardır:

1. ***Dini təlimlərin təfsiri:*** Ağıllı alimlər müqəddəs mətnlərin və dini təlimlərin mənasını dərindən araşdıraraq cəmiyyətə izah edirlər. Bu şəxslər dini mətnlərin müasir həyatla necə əlaqəli ola biləcəyini və bu günün problemlərinə necə tətbiq oluna biləcəyini araşdırırlar.
2. ***Əxlaqi Rəhbərlik:*** Ağıllı sözlər əxlaqi dəyərləri vurğulamaqla cəmiyyətin etik və əxlaqi standartlarını yüksəltmək məqsədi daşıyır. Dinin əxlaqi təlimləri üzərində dərindən düşünərək, insanlara doğru ilə batili ayırmağa kömək edirlər.
3. ***Ruhani İnkişaf və Təcrübələr:*** Ağıllı kəlamlar mənəvi həyat tərzini təşviq edir və mənəvi inkişaf üçün praktiki məsləhətlər verir. Bu insanlar ibadət, dua, meditasiya və mənəvi axtarışlar kimi mənəvi təcrübələrin əhəmiyyətini vurğulayır və inanırlar ki, bu təcrübələr insanlara daxili rahatlıq tapmağa və onların mənəvi inkişafını möhkəmləndirməyə kömək edə bilər.
4. ***Sosial Ədalət və Empatiya:*** Ağıllı sözlər sosial ədalətin və empatiyanın vacibliyini vurğulayır və cəmiyyətin imkansız qruplarına kömək etməyə və onların hüquqlarını qorumağa çağırır. Bu insanlar dinin insanlıq və xeyirxahlığa önəm verdiyini vurğulamaqla sosial ədalətə nail olmağa çalışırlar.

Müdrik alimlərinin dini baxışı ümumiyyətlə dini təlimlərin dərindən araşdırılması, mənəvi təcrübələrin təbliği və sosial ədalətin təmin edilməsi kimi dəyərlərə əsaslanır. Bu sözlər dinin insan həyatına necə rəhbərlik etməsində, cəmiyyətin mənəvi-əxlaqi inkişafına töhfə verməsində mühüm rol oynayır. Müdrik insanlar düşüncəli və dürüstdürlər. Onlar, biliklərinin həddini anlayır, alternativ yolları nəzərdən keçirir və dünyanın daim dəyişdiyini unutmurlar. Dilçilikdə frazeologiyanın növlərinin müxtəlif olması haqqında çoxlu sayda ziddiyyətli rəylər və fikirlər olsa da, frazeoloji vahidləri yaradan sabit söz birləşmələridir. Atalar sözü, zərb-məsəllər, aforizmləri də sabit söz birləşmələrindən fərqləndirmək lazımdır. Sərbəst söz birləşməsi ilə frazeoloji birləşmə arasındakı əsas fərq sonuncunun idiomatik olmasıdır. Frazeologiyanın əlamətlərindən başlıcası ondan ibarətdir ki, burada təsirlilik, obrazlılıq, ifadəlilik naminə komponentlərinin məcazi mənada olmasıdır. Söz hər hansı bir müəyyən mətndə təsirli ifadə vasitəsi kimi işlədilə bilər, lakin frazeoloji obrazlı vahidlərdir.

L.M.Cəfərova yazır ki, atalar sözləri təkcə özləri obrazlı olmayıb, həm də əhatəsində iştirak etdiyi söz və cümlələrə bir təbiilik verir, onların anlamca inteqrasiyasını təmin edir. İstər şifahi, istərsə də yazılı nitqdə yeri gəldikcə atalar sözlərindən çoxlu istifadə olunur. Bu isə onların danışıq prosesində funksional mövqeyini sözlər qədər gücləndirir [3, s. 34]. T.Məhərrəmova qeyd edir ki, atalar sözləri şifahi xalq ədəbiyyatının ən zəngin janrlarından biridir. Atalar sözlərinin mənşəyi, kimin tərəfindən və nə zaman, harada deyildiyi konkret olaraq məlum olmasa da, hər bir atalar sözünün öz dövrünün məhsulu olduğu və müəyyən bir hadisə ilə əlaqədar yarandığı aydındır. Bu danılmaz bir faktordur ki, bütün atalar sözləri həyati hadisələrlə yaranır və zaman keçdikcə, daha doğrusu, öz mənşəyindən uzaqlaşdıqca ümumiləşir və öz həqiqi mənasını tamamilə itirir [4, s. 117]. Ən böyük hikmətləri ən sadə dildə anladan atalar sözləri ucsuz-bucaqsız bir aləmdir. Fikrin daima canlı olması üçün atalar sözlərində istifadə edilir.

Azərbaycan şifahi xalq ədəbiyyatında ifadə olunan atalar sözləri Dünya xalqlarında işlənən atalar sözlərinin mənası fərqli ola bilər. Müxtəlif xalqların fərqli həyat şəraiti fərqli ifadə formalarına gətirir.

Dünya xalqlarından atalar sözləri
Ağıl kişiyə sərmayədir.
Ağaca baltanı vurublar, "sapı bədənimdədi" - deyib.
Adət qanun deyildir, amma qanun kimi hökmü var.
Adı yalandan qəssab olanın evi it görməz.
Adam yanıla-yanıla alim olur
Adamı "igid" deyib candan elərlər, "comərd" deyib - maldan.
Abır istəsən çox demə, sağlıq istəsən çox yemə.
Bütün qızlar yaxşıdır, bəs pis arvadlar haradan gəlir?
Büdrəməyən adam uzaq yol gedər.
Büdrəmək yıxılmağın qarşısını ala bilər.
Bu aysberqin görünən hissəsidir.
Bəbir heç vaxt ləkələrini dəyişməz.
Bir neçə yumurta qırmadan omlet bişirmək olmaz.
Biz misallar üzrə deyil, qanunlar üzrə yaşayırıq.
Bir dəfə xəyanət edən həmişə edər.
Bir şeir həzz ilə başlar hikmət ilə bitər.
Bir insan xəyal qurmağı dayandırdıqda ölməyə başlayır.
Bəzi adamlar meşədən keçirlər və odun görmürlər.
Bəzən yaxın olanı tapmaq üçün uzun bir yol qət etməlisən.

Canavarlarla döyüşərkən onlardan biri olmamaq üçün diqqətli olun.
Cəhalət hər pisliyin kökü və gövdəsidir
Cəhalət ilə dahilik arasındakı fərqin nə olduğunu bilmək istəyirsən? Dahilinin limitləri var, ancaq cəhalətin heç bir limiti yoxdur.
Daha uzağa tullanmaq istəsən, bir neçə addım geri getmək məcburiyyətindəsən. Bu gün, dünəndən qidalanaraq sabaha yol alır.
Dostlarınızı yaxın, düşmənlərinizi daha yaxın tutun.
Durğun sular dərindən axır.

"Atalar sözü" və ya "atalar sözləri" çox vaxt keçmişdən gələn və cəmiyyətin təcrübələrini, hikmətlərini və ya nəsihətlərini ehtiva edən ənənəvi ifadələrdir. Bu sözlər ümumiyyətlə nəsildən-nəslə ötürülür, cəmiyyətin mədəni irsini formalaşdırır və əməli həyatda bələdçilik edir. Atalar sözləri dilin zənginliyini və mədəni dəyərlərini əks etdirən mühüm elementdir. Atalar sözləri adətən qısa və yığcam şəkildə ifadə edilir və çox vaxt metafora, bənzətmə və ya təbiət hadisələrindən istifadə etməklə məna verilir. Bu sözlər çox vaxt ümumbəşəri həqiqətlərə və ya sosial normalara istinad edir və praktiki həyatda rast gəlinən situasiyalarda rəhbər ola bilər.

Atalar sözləri bir çox mədəniyyətlərdə fərqli versiyalara malik ola bilər və hər mədəniyyətdə fərqli məna kəsb edə bilər. Bu sözlər cəmiyyətin tarixinin, dəyərlərinin və təcrübələrinin izlərini daşıyır və ümumiyyətlə ictimaiyyət arasında geniş istifadə olunur. Məsələn, "Bir damcı göl olar", "Şeytan tələsər" kimi atalar sözləri əməli həyatda mühüm dərslər verir, hikmətli nəsihətlər ehtiva edir. Atalar sözləri insanları ləyaqətli, mərd, qeyrətli, söz və əməli bir, sözünə əməl edən, bacarmadığı işi öhdəsinə götürməyən insanlar olmağa çağırır. Atalar sözləri cümlədə və ya danışıq prosesində didaktik vəzifə daşıyırlar. Beləliklə, hər bir atalar sözü ünsiyyət prosesində müəyyən bir məqsəd daşıyıb, vəzifə yerinə yetirirlər. Bunlarda insanların həyat təcrübəsindən alınan nəticələr, tərbiyəvi təsiredici, düşündürücü və s. müsbət keyfiyyətlər vardır [1, s. 36]. Məsələn, Öyüdverici - başqasından qeybət edən, səndən də başqasına qeybət edəcəkdir; məsləhətverici funksiya - qara səni basınca sən qaranı basma və s. Atalar sözləri müəllifin nitqi ilə yanaşı işlədilir. Əsasən bədii əsərlərdə müəlliflər atalar sözü və məsəllərdən öz fikirləri ilə əlaqəli şəkildə istifadə edirlər. Belə hallarda müəllif bu folklor materialından istinadedici bir mənbə, bir eyham kimi istifadə etmək məqsədini güdür. Lakin bu, atalar sözü və məsəllərin nə quruluşunu, nə də məzmununu dəyişir.

Atalar sözlərinin mənasını başa düşmək və aydınlaşdırmaq üçün bir neçə müxtəlif üsul və strategiyadan istifadə etmək olar. Bu sözlərin mənasını izah etməyin bir neçə yolu var:

Kontekstin başa düşülməsi: Atalar sözlərinin hansı kontekstdə işlədildiyini başa düşmək vacibdir. Sözün işlədildiyi vəziyyət çox vaxt sözün mənasını daha yaxşı anlamağa kömək edə bilər. Sözün hansı vəziyyətdə və ya mövzuda istifadə olunmasından asılı olmayaraq, bu vəziyyət və ya mövzu ilə bağlı məsləhət və ya reallıq ola bilər.

Metaforaların təhlili: Atalar sözlərində tez-tez istifadə olunan metafora və ya bənzətmələr var. Bu metaforaları təhlil etmək bizə sözün əsl mənasını anlamağa kömək edə bilər. Metaforaların hansı reallıqlara və ya vəziyyətlərə istinad etdiyini müəyyən etmək bizə sözün mənasını daha yaxşı anlamağa kömək edə bilər.

Tarixi və mədəni kontekstin tədqiqi: Atalar sözlərinin hansı cəmiyyətdə və ya mədəniyyətdə yarandığını və hansı tarixi və mədəni şəraitdə istifadə edildiyini anlamaq deyimlərin mənasını daha yaxşı anlamağa kömək edə bilər. Unudulmamalıdır ki, atalar sözləri müəyyən sosial və ya mədəni kontekstin dəyərlərini, normalarını və ya təcrübələrini əks etdirir.

Müqayisəli Tədqiqat: Oxşar və ya əks atalar sözlərini müqayisə etmək bizə hər birinin mənasını daha yaxşı anlamağa kömək edə bilər. Müxtəlif mədəniyyətlərdə və ya dillərdə oxşar mövzulara toxunan müxtəlif atalar sözləri həmin mövzunun universal və ya mədəni xüsusiyyətlərini göstərə bilər.

Peşəkar resurslardan istifadə: Atalar sözlərinin mənalarını izah edən və ya şərh edən kitablar, lüğətlər və ya onlayn resurslar var. Bu mənbələrdən istifadə edərək, müəyyən bir atalar sözünün mənasını daha yaxşı başa düşə və aydınlaşdıra bilərik.

Bu üsullardan hər hansı biri və ya bir neçəsi atalar sözlərinin mənasını aydınlaşdırmağa kömək edə bilər. Bununla belə, bəzi atalar sözləri çox qatlı ola bilər və tək izahla məhdudlaşmır, ona görə də

müxtəlif aspektlərdən dəyərləndirilməyə ehtiyac ola bilər. “Müdrik kəlam” və “əcdad deyimi yəni atalar sözləri” anlayışları oxşar əsasda hikmət, hidayət və təcrübə mübadiləsini nəzərdə tutsa da, müxtəlif mədəni və dil kontekstlərində istifadə olunur. Bu terminlər arasındakı əsas fərqlər bunlardır:

1. ***Mədəni mənşə və dil:*** Türk və Altay mədəniyyətlərində “Müdrik kəlam” ifadəsi ümumiyyətlə işləndiyi halda, Azərbaycan və ətraf türk dillərində “əcdad sözləri” ümumiyyətlə işlədilir. Buna görə də bu terminlər müxtəlif mədəni və linqvistik kontekstlərə aiddir.
2. ***İfadə üslubu:*** “Müdrik kəlam” ümumiyyətlə yaşlı və ya təcrübəli insanların hikmətini ifadə etmək üçün istifadə olunan bir termindir. Bu şəxslər tez-tez cəmiyyətdə hörmətli mövqe tuturlar və gənc nəsillərə rəhbərlik etmək üçün öz bilik və təcrübələrini bölüşürlər. “Əcdad deyimi” termini ümumiyyətlə atalar sözləri, deyimlər və xalq müdrikliyi vasitəsilə çatdırılan ənənəvi müdrikliyə aid edilir. Bu sözlər ümumiyyətlə nəsildən-nəslə ötürülür və cəmiyyətin mədəni irsini təşkil edir.
3. ***Əhatə dairəsi:*** “Müdrik kəlam” ümumiyyətlə ayrı-ayrı insanların təcrübələri və hikmətləri üzərində dayansa da, “ata-baba deyimləri” daha geniş mədəni və sosial məzmuna malikdir. Ata-baba deyimində çox vaxt ictimai normalar, əxlaqi dəyərlər, əməli həyat məsləhətləri var.
4. ***Nəql üsulu:*** “Müdrik kəlam” ümumiyyətlə fərdlər arasında birbaşa ünsiyyət yolu ilə ötürüldüyü halda, “əcdad deyimləri” ümumiyyətlə yazılı və ya şifahi şəkildə nəsildən-nəslə ötürülür.

Nəticə olaraq qeyd edək ki, “müdrik kəlam” və “atalar sözləri” müxtəlif mədəni və linqvistik kontekstlərdə işlənən, lakin oxşar əsasda hikmət, hidayət və təcrübə mübadiləsini ifadə edən məfhumlardır.

İstifadə edilmiş ədəbiyyat

1. Bayramov H.A. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978, 175 s.
2. Cəfərova L.M. Bədii mətnin struktur-semantik təşkilində sabit söz birləşmələrinin rolu. Fil.e.dok.avtoreferatı. Bakı, 2013, 49 s.
3. Kitab=Dünya / https://az.wikiquote.org/wiki/%C4%B0ngilis_atalar_s%C3%B6zl%C9%99ri. (20.04.2024)

F.S.FİTSCERALDIN "NƏVAZİŞLİ GECƏ" VƏ P.SAFANIN "DOQQUZUNCU CƏRRAHİYYƏ PALATASI" ROMANLARININ PSİXOLOJİ ASPEKTDƏN MÜQAYİSƏSİ

Filiz Demirci*

Abstract

The psychological aspects of F. Scott Fitzgerald's "Tender Is the Night" and Peyami Safa's "9. Outpatients Pavilion" novels are compared

In classical modern literature, the works of established writers like F.S. Fitzgerald and P. Safa are mirrors reflecting the technological, economic, political, historical, and ideological contexts of their times. The psychological analysis novel 'Dokuzuncu Hariciye Koğuşu' is written as an autobiographical diary. It criticizes those who admire the West and addresses the East-West divide. 'Tender is the Night' is written with a modernist novel approach and makes comparisons between Americans and Europeans. It characterizes the people of the era as the 'Jazz Age generation' and synthesizes the consequences of technological advancements. It speaks of the influx to Europe due to its advancements and features psychiatric clinics, entertainment centers, and the social life amid ongoing wars as ornaments of the novel. In this narrative, while America is seen as sickening, Europe appears as healing; the American dream continues to be dreamt. With internal monologues and flashbacks, the novel emphasizes the era's insecurity through the dynamics between the individual and the external world".

Keywords: *sick child, inner self, science-medical novel, Tender is the night, PTSD.*

Giriş. XX əsr dünya ədəbiyyatına ümumi olaraq nəzər saldıqda elm və sosial təkmilləşmələrin cəmiyyət və insan həyatına, dolayısı ilə bədii ədəbiyyata birbaşa təsir göstərdiyini görürük. Müharibələrin iqtisadi, sosioloji və psixoloji nəticələri ilə texneloji inkişaf "Müasir həyat böhranlarını" əmələ gətirmişdir. Bu şəraitdə öz hərəkətini davam etdirən bədii ədəbiyyat "Müasir roman" növü ilə fərdin daxili aləmi, şüuraltı və uydurmaları ilə məşğul olaraq fantastik roman məhsulları vermiş, əhatə etdiyi mövzular və verdiyi mesajlarla dövrü incələmişdir.

Bədii ədəbiyyat içində tibb sahəsinin psixologiya və psixiatriya bölmələrindən qidalanan "psixoloji roman" texnoloji irəliləyişlərlə genişlənmiş cəmiyyətə və şəxsiyyətə dərindən təsir etmişdir. Sosial həyatın güzgüsü olan ədəbiyyat əsrin əvvəllərində çoxşaxələnərək geniş yayılan psixiatriya klinikaları hekayələri ilə xəstəliklərin səbəb-nəticə və müalicə üsulları mövzuları ilə tibb elminə böyük ölçüdə töhfə verməkdədir.

Ətraf mühit şəraitinə bağlı olaraq hər dövrdə təmiri çətin olan psixoloji travmalara səbəb olan müharibəyə bir çox bədii əsərdə tez-tez rast gəlinir. Prof. Cəlil Nağıyev "Qərbi Avropa ədəbiyyatı" adlı əsərinin ön sözündə "… dolayısı ilə iki dünya savaşına səbəb olan fərdlərin və toplumların özgələşməsi və özündən özgələşməsi məhz orta əsrlər intibah qarşıdurmasının-növbələşməsinin nəticəsi kimi meydana gəlmişdir:müəyyən görmək bucağından Qəribə Avropa mədəniyyətinin elminin ruhu mənəvi mövcudluğunun bugünkü durumu bu tarixi mərhələ ilə bağlıdır " [2, s. 4-5]. ifadələri ilə Avropa sivilizasiyasının bugünkü vəziyyətinin səbəblərindən birini ortaya qoymaqdadır. Millətin və fərdlərin keçdikləri mərhələləri dəyərləndirmək yolu ilə olduqları nöqtədəki bugünkü təcrübələrini ifadə edərkən sənət və ədəbiyyatda naturalizm, modernizm, sürrealizm (gerçeküstüçülük), ekspressionizm (dışavurumculuk), kubizm kimi sənət cərəyanları meydana çıxmışdır.

Ədəbi cərəyanlarla yanaşı yüksələn fərdi həssaslığ, fərdin daxili dünyasının ifadəsi "Psixoloji roman" janrının əsas mövzusuna çevrilməyə başlamış, daxili aləm təsvir edilərək xarici aləmlə bağlı mesajlar verilmək istənmişdir. İstər həkim olan yazıçıların əsərləri, istərsə də xəstələrin öz həyatlarından kəsimləri qələmə alması "tibbi-fenni roman" anlayışının növlərdən biri olaraq qəbul edilməsi məcburiyyətini ortaya qoymuşdur. Bu çərçivədə müzakirə edəcəyimiz iki əsərdən biri F.Scott

* ***Bakı Dövlət Universiteti, Dünya ədəbiyyatı kafedrasının doktorantı. Elek.poçt: filizdemirci@hotmail.com. Elmi rəhbər:*** *Prof. Cəlil Nağıyev.*

Fitsceraldın "Nəvazişli gecə" (Tender is the night) digəri isə Peyami Safanın "Doqquzuncu cərahiyyə palatası"-dır.

İyirminci yüzilliyin ilk yarısında Amerikan ədəbiyyatının yaradıcı yazıçılarından biri olan F.S.Fitscerald və Cümhuriyyət dövrü Türk ədəbiyyatının öncü yazıçılarından olan Peyami Safa fərqli coğrafiyalarda demək olar ki, eyni dönəmlərdə lakin başqa siyasi və iqtisadi şəraitlərdə romanlarını qələmə almışdırlar. Hər iki yazıçı da əsərlərinə şəxsi həyatlarından kəsimlər qatmış olsalar da, həyatlarını idarəetmə şəraitləri bir yana ideolojik mövqeləri çox fərqlidir.

F.S.Fitscerald ilə P.Safanın ictimai həyatda və sekulyar* dünyada yol alma tərzləri sahib olduqları iqtisadi, fiziki şəraiti, peşəsiylə bağlıdır. Hər iki müəllifin müqayisəsi Şərq-Qərb xüsusiyyətlərini ortaya qoyulması kimi olacaqdır. "Doqquzuncu cərahiyyə palatası"-nın müəllifi Peyami Safanın atası şair İsmayıl Safa yazıçının hələ 2 yaşı olarkən dünyasını dəyişir. Böyük qardaşı və anasıyla İstanbulda yaxınlarının köməkliyi ilə çətin iqtisadi şəraitdə böyüyən Peyami Safa təhsilinə ara versə də özü-özünü yetiştirir. Fransız dilini öyrənir, müəllim və dövlət qulluqçusu olaraq işləyir. 1918-ci ildə qardaşı ilə birlikdə "İyirminci əsr" qəzetini nəşr etdirir. Qəzet və jurnallardan daha çox pul qazanmaq üçün yazılar yazır. Mistik və fəlsəfi baxışlara üz tutan gənclərdən söhbət açır.

Əsas peşəsi jurnalistika olan Safa dövrünün ziyalıları ilə bəzən pozitivist, mistik, materialist, milliyətçi, mühafizəkar, anti-kommunist, korporativ müzakirələr aparır [7]. Atatürk Ensiklopediyasında Peyami Safadan belə bəhs edilir: "Peyami Safa əsərlərinin sayca çoxluğu, mövzu zənginliyi, düşüncə quruluşuv, üslubu ilə türk ədəbiyyatının və fikir dünyasının önəmli adlarından biridir. Bioqrafiya, esse, tənqid, lətifə, hekayə və roman kimi bir çox janrda; dil, ədəbiyyat, fəlsəfə, musiqi, psixologiya, siyasət, sosiologiya və tibb kimi müxtəlif sahələrdə məqalələr qələmə almışdır. Əsil məşhurluğunu qazandığı roman və düşüncə əsərlərində öz adından istifadə etməklə bərabər, Bedia Servet, Bedii Nuri, Bir Muharrir, Cingöz Recai, Çömez, Hafta, Mi-Fa, P. S., Peyami, Peyman, Safiye, Serazad, Sərvər Bədi və Türk Düşüncəsi təxəllüsləriylə də yazları vardır" [7].

Cingöz Recai obrazını fransız yazıçısı Moris Leblancın "Arsen Lupen" obrazından ilhamlanaraq yaratmışdır. Sərvər Bədi təxəllüsünü isə daha çox "Mədəniyyət həftəsi" jurnalında istifadə edir.

Berna Moran "Türk romanına tənqidi bir baxış" kitabında Peyami Safanın Şərq-Qərb münaqişəsini əsərlərində ön plana çəkdiyini müdafiə etməkdədir.

Hələ doqquz yaşındaykən sağ qolunda sümük vərəmi yaranan müəllif bütün gəncliyində bu xəstəliklə mübarizə aparmışdır. Fiziki zəifliyi və içində olduğu şəraiti yazıçının həyat fəlsəfəsini müəyyən edir. Avtobioqrafik əsəri "Doqquzuncu cərahiyyə palatası" xəstəliklə mübarizə apardığı illərin ifadəsi kimidir.

F.S.Fitscerald (1896-1940) P.Safanın əsərlərindəki Şərq-Qərb münaqişəsinə bənzər bir müqayisəni "Nəvazişli gecə"(Tender is the night) romanında, F.S.Fitsceraldın Amerikalı-Avropalı yanaşmasında görürük. Müəllif yaşadığı dövrdəki ehtişamı və israfçılığı "Caz dövrü" tərifi ilə ifadə etmişdir. İrlandiya əsilli amerikalı yazıçı Fitscerald romanlar ilə yanaşı, ssenari və qısa hekayə yazıçısıdır. P.Safa kimi zaman-zaman keçimini təmin etmək üçün yazır. Artur Mizener yazısında F. S.Fitsceraldı belə təsvir edir: "Fitscerald çox da uğurlu olmayan aristokrat bir atanın və dinamik kəndli bir ananın yeganə oğludur. Katolik aristokrat ailəsi yazıçının təhsilinə önəm vermiş, erkən yaşlarından məktəb qəzetində yazmağa başlamışdır. I Dünya Müharibəsinə qısa müddət iştirak etmiş Fitzgerald əsərlərində insanların müharibədən necə təsirləndiyini müşahidə edərək laqeydliklə təsvir etməkdədir" [8].

İrland kimliyi ilə özü kimi yazıçı olan həyat yoldaşı Zelda ilə yaşadığı təlatümlü həyat arasında ilişib qalması yazdığı dramlarda ziddiyyət olaraq ortaya çıxır. Həm varlıq-yoxluq arasındakı dalğalanmalar yaşaması həm də Amerikalı-Avropalı ayrımı, bunları əsərlərində tipik surətlərlə canlandırması, determinist† prinsiplərlə naturalizmin cəmiyyəti fərdin laboratoriya mühitindəymiş kimi incələməsi müəllifin əsərlərində yenilikçi olaraq görünməsinə şərait yaratmışdır. Müdafiə etdiyi müasir həyatı "modernist" roman anlayışı ilə oxucuya çatdırmışdır. Zelda ilə yaşadığı zəngin həyat I Dünya

* Sekulyar: daha çox dünyəvi həyata fokuslanan düşüncə sistemi; dünyanın maddi halı; çoxluğa uyğun olma vəziyyəti

† Determinizm: eyni şəraitdə, eyni səbəblər, eyni nəticəni doğurur.

Müharibəsindən sonra da aktual olaraq qalır. Amerika xəyalı fərdiyyətçi, kişiyönümlü, sahiblənici, idealist, macəraçı, xəyalpərəst personajlarını təmsilən yazıçı intellektual orijinal obrazlar ortaya çıxarmışdır

Romanlarında Birinci Dünya Müharibəsindən sonra yaşanan modernist hərakatlar, anti-ənənəçilik, Avropaya axın edən varlı amerikalıların həcv edilməsi mövzu olaraq işlənir. Alkoqolizm, müharibədən sonra yaranan travmalar əsərlərində satirik bir şəkildə oxucuya çatdırılır. Romanda psixiatriya klinikaları, psixoloji müalicələr Avropada elmi inkişaf olaraq göstərilir. 1920-ci illər nəslini Amerika-Avropa müqayisəsi içində tənqid etməkdədir. Avropanın ənənəviliyi, şərqə yaxınlığı, Amerikan xəyalının təsirini itirməsi Avropaya axınları artırır.

Modernist yazıçı olan Fitscerald vahid tək reallığı müdafiə edən ənənəvi roman anlayışına qarşı çıxır, "Lakin müasir roman qəti və birölçülü reallığı rədd edir…" Müəllif "Nəvazişli gecə" romanında dəyişən yeni üsul və fəlsəfə ilə ənənəvi süjet və tip fenomenini müasirləşdirmiş, romanın sonunda baş qəhrəmanı və onun həqiqətlərini yüksəldərəkən Dik obrazının peşəsindəki uğurunu sübut etmişdir.

"Doqquzuncu cərahiyyə palatası" və "Nəvazişli gecə"romanlarında baş qəhrəmanların müqayisəsi: Burada müzakirə edəcəyimiz əsas obrazlar "Doqquzuncu cərahiyyə palatası"-nın adı çəkilməyən baş qəhrəmanı ilə Xlüzhet və "Nəvazişli gecə" romanındakı Nikol və Dikdir. "Doqquzuncu cərahiyyə palatası"-nın "xəstə uşağı" tək başına mübarizə aparan, histrionik[*] şəxsiyyət pozğuntusu keçirməyə qədər çatan bir həyat hekayəsi ilə ortaya çıxır: "mən də o müayinə otağının və neçə müayinə otaqlarının qarşısında ilərlə gözlədim. Mənim yanımda böyüyüm də yox idi. Tək başıma dəmir barmaqlıq qapıdan içəri girərdim, doqquzuncu cərahiyyə palatası şöbəsinə doğru hətta ağacların da sağlamlığına həsəd apararaq addımlayardım, şüşəli qapıların qəribə bir bəyazlıqla gözlərimə vuran və içimdə qorxu ilə qarışaraq yuvarlanan parıltılarını arasından o dəhlizə girərdim və tək başıms bir küncdə oturardım, tərpənməzdim, susardım, gözləyərdim. Qorxudan büzüşərdim və rəngimin solduğunu hiss edərdim" [6, s. 9].

Xəstəliyinə görə özünə yazığı gələn uşaq küskündür, tez yıxımlar yaşayar, daxili söhbətlərə aparar. Burada müəllif şüur axını texnikası ilə psixosintez təhlillər aparmışdır. Ziqmund Freydin "Psixoseksual inkişaf nəzəriyyəsi"nə uyğun bir sevgi yaşamasına baxmayaraq müstəqil və özügüvənlidir. Peyami Safa kimi fikirlərini yaxşı ifadə edir. Ətrafını və cəmiyyəti realist bir üsulla müşahidə edərək, xaricdən baxan gözlə bir təcrübəni dəyərləndirirmiş kimi şərh edir. Anası ilə birlikdə yaşadığı gecəqondu məhəlləsindən olan zəngin qohumu Paşanın malikanəsində yaşadığı mədəniyyət ziddiyyəti səbəb-nəticə əlaqələri ilə müəyyən edilmişdir.

Qəhrəmanın xəstəliyi ona tibbi təcrübələr öyrətmiş, sosial münasibətlərini və həyatdakı mövqeyini gücləndirmişdir. Xəstəlik travmaları ilə mübarizə apararkən oxucuya da yol göstərir.

Xətri sayılan zəngin bir Paşanın qızı Xlüzhet ise əsərdəki Şərq-Qərb qarşıdurmasında Qərbə meyillii olan gəncləri təmsil edir.

Osmanlının son dövrlərində İstanbulun da iqtisadi, siyasi və sosial çöküşünün nəticəsi olaraq ortaya çıxan mədəni pozğunluğun məhsulu kimi göstərilən laqeydlik, eqoizm və nümayişkaranəlik Xlüzhet obrazında üzə çıxır. Milli mənlik hissləri və düşüncəsindən uzaq olmaq, qərb məktəbi heyranlığı əsas personajla Xlüzhet arasındakı divarlardan biridir. Xlüzhet sürülən səfanı, xəstə uşaq Anadolu insanının müharibələrdən yorğun düşən Osmanlı təbəəsinin timsalıdır. Xlüzhet olan eşqi onu həyata bağlayır. Bu güclə dərin travmalar keçirsə də çətin müalicəni qəbul etməsi yaşının üstündə bir yetkinliyə sahib olduğunu göstərir. Qeyri-mümkün xəyallar quran, aldanmalar içindəki xəstə uşaq qarşısında sıradan, inamlı, axına tabe olan bir gənc qız vardır. Psixoloji çöküntülər içindəki gəncin ruhi müalicəsinin, fiziki xəstəliyinin sağalmasına, xəstə-həkim, xəstəxana-xəstə münasibətlərinin mühüm töhfəsi göz önünə sərilməkdədir. Eyni münasibət "Nəvazişli gecə" (Tendre is the night) romanındakı Nikolun psixolojik xəstəliyinin sağalma prosesində də görülməkdədir.

Xəstələrinə şəxsi olaraq, fərdiləşdirilmiş maraq göstərən həkim Dr.Dayver. klinikasını da buna uyğun qurur: "Xəstələri müalicə məqsədilə məşğuliyyətlə qurduğu ergoterapiya[†] atelyesi üç dənə idi və tək bir dam altında toplanmışdı. Dr.Dayver səhər müayinəsinə buradan başlayardı. Günəş işığı

[*] Histrionik şəxsiyyət pozuntusu: hadisələri şişirtmə; daimi diqqət tələbi; eqoist olma; emosional vəziyyətində natarazlıq:
[†] Ergoterapiya: auitizm və hiperaktivlik kim psixolojik xəstəliklər yaşayanların peşə öyrənərək həyata fokuslanması

ilə dolan olan dülgərlik emalatxanasında çölə talaşların və dağılmış taxta torun qoxusu yayılırdı" [3, s. 235].

Xəstə olan Nikol olsa da, əsərdə hər iki personaj da dərin psixoloji qatlara sahibdir. Nikol varlı bir ailənin kövrək üzvüdür. Psixi sağlamlıq problemləri onun xarakter quruluşunu və münasibətlərini formalaşdıran Dik isə uğurlu bir psixiatr olaraq başladığı hekayədə karyerasında və şəxsi həyatında eniş-yoxuşlar yaşayır. Nikolun sağalma prosesi ilə Dikin karyerasındakı çöküşlər iç-içə keçmişdir. İnsan psixologiyasının dərinlikləri sevgi, aludəçilik və iqtidar dinamikaları ilə oxucuya təqdim edilərkən, çöküş mövzusu personajların psixoloji partnyorlarında xəstənin sağalması ilə əlaqələndirilir. Gözəl, zərif, zəngin Nikol uşaqlığında məruz qaldığı cinsi zorakılıq travması səbəbiylə ömürü boyu psixiatrik yardım alır. Yazıçı Nikolun həm qurban, həm də həyata tutunmağa çalışan bir döyüşçü kimi təsvir edir.

Uğurlu, xarizmatik psixiatr Dik Dayverin həkim rolu zaman içində Nikolun orbitinin təsiri altına girməsiylə zəifləyir. Əksinə, Nikol bu prosesdə güclənir. İqtisadi cəhətdən həyat yoldaşının ailəsindən aslı hala gəlməsi peşə etik dəyərləri ilə ziddiyyət təşkil edən Dik alkoqolizmin təsiri altında getdikcə sosial münasibətləri pozulan bir insana çevrilir. Bu səbirlə, müvəffəqiyyətlə xəstəni sağaltmağın əvəzi kimidir.

Baş qəhrəman Nikolun zehinsəl vəziyyəti, daxili konfliktləri, daimi təşviş, gərginlik və qorxu hissi içində olması narahatlıq pozğunluğu ilə izah edilmiş və ədəbi əsərdə yoğrularaq təsirli bir şəkildə oxucuya təqdim edilmişdir. Yenə travmatik təcrübələrdən qaynaqlanan kabuslar, xatirələr və emosional reaksiyalar travma sonrası stress pozğuntusu ilə izah edilə bilər. Münaqişəli davranışları, emosional reaksiyaları şəxsiyyət pozuntusudur. Rozmarilə xəyanəti müqabilində reaksiyası və reaksiyasızlığı mürəkkəb daxili dünyasının göstəricisidir.

Xlüzhet və Nikol həm həyat tərzi baxımından, həm də həyatdakı mədəni səviyyələri və mövqeləri baxımından tamamilə fərqlidirlər. Fəqət ikisi də onlara tutqun insanların həyatına dərindən təsir etmişdirlər.

Xlüzhet xəstə uşağa həyata tutunma iradəsi və qətiyyəti vermişdir, Nikol isə müvəffəqiyyətli bir həkimin xəstələnməsinə səbəb olaraq bu tənəzzülün üzərində yüksəlmişdir. Bu yüksəliş Dik obrazının peşəkar uğurudur.

Hər iki mənada insan təbiətinin mürəkkəbliyi və müxtəlifliyi kəşf edilir. "Nəvazişli gecə" əsərində xəyanət, qisas, insan dayanma gücü, əzmkarlıq və qətiyyət kimi mövzular ələ alınır. Hər iki əsərdə də dərin xarakter analizləri və fərdin şüurunun mürəkkəbliyi baxımından bənzərlik daşıyır. Əsərlərdə personajların daxili aləmlərinə səyahət edilərkən, insanın mənəvi və emosional təcrübələrinə dair mühüm fəlsəfi sualları da sorğulayır.

Nəticə etibarilə "Nəvazişli gecə" və "Doqquzuncu cərahiyyə palatası" roman qəhrəmanlarının şəxsi tragediyaları sosial gözləntiləri ziddləşərək fərdin cəmiyyətdəki yeri, şəxsi kimliyini qorunması cəhdi dərin psixoloji perspektifdən ələ alınmaqdadır.

Hər iki əsərin zaman, məkan və sənət anlayışı baxımından müqayisəsi. Müəllif əsərində gənc bir xəstənin imkansız eşqinə sosial-iqtisadi məhrumiyyətlərə baxmayaraq həyata tutunma, özünə yer tapma mübarizəsini mövzu olaraq işləmişdir. Əsas ideya isə insanın yaşadıqlarından təcrübə qazanması, verilən nəsihətlərə ciddi yanaşaraq özünə bir yol çəkməsidir. Baş qəhrəmanın dilindən cəmiyyətdə meydana gələn pozulmalar ənənəvi dəyərlərdən qopmalar, varlı-kasıb ayrımı, Şərq-Qərbin qarşıdurması oxucuya mesaj kimi çatdırılır.

F.S.Fitscerald "Nəvazişli gecə" romanında kariyerasının zirvəsinə yüksələn bir psxiyatrın həyatını xəstə bir qadına həsr etməsini və çöküşünü ələ almaqdadır. Yazıçı varlı amerikalıları Birinci Dünya müharibəsi dövründə Avropada gəzdirərkən Avropa ilə Amerikanın iqtisadi, mədəni, sosial, elmi inkişaf cəhətdən fərqliliklərini ortaya qoymaqdadır. Nikol və Dik evliliyinin müalicənin bir parçası olması, klinik müalicənin davamı olaraq xəstəyə həyatın reallığını yaşayaraq göstərməsi aşkar olaraq oxuyucunun nəzərinə çatdırılır. Həyat yoldaşların bir-birinə xəyanəti əxlaqi çöküşün normallaşdırılaraq fərdlərin azad yaşaması müzakirəsinin önünü açır. Qadın və kişi bərabərliyi içində qadına da eyni səhvi etdirir. Əsərdə istədiyi ilə birlikdə olan, mənafelərini müdafiə edən qadınlardan tez-tez söhbət açılır.

"Doqquzuncu cərrahiyyə palatası" əsərindəki Xlüzhet varlı bir həkimlə evlənərək Almaniyada məskunlaşır. Hər iki əsərdəki xəstə psixologiyasının səbəbləri fərqlidir. İnci Enginün P.Safanın bir psxoloji analiz roman ustası olduğunu qeyd edir. Yazıçı şəxsi əxlaqı, vicdan əzabını, tənhalığı, əlilliyi, faydalı olmağı psixiatr titizliyi ilə sintezləyir.

1915 müharibə illərinin pessimist rakursundan xəstə bir gəncin dünyanı mühakimə etdiyi görülməkdədir. Daxili konfliktlər, şüur axını, Berna Moranın təbirincə desək, xəstə olaraq xəstəxana və xəstəliyin izahında öz yerini tapır. Enginün, "Peyami Safanın arxa planda dəhşətlə davam edən müharibədən çox bəhs edilməsə də vətən ilə ana sevgisi xəstəxana qoxusunu və qorxusunu boğmaqdadır" deyə qeyd edir. Roman Cümhuriyyət dövründə müəllifin mədəni bilikləri ilə qələmə alınsa da, 1915-ci ildə 15 yaşlı uşaq pəncərəsindən, gündəliklər şəklində, avtobioqrafik hekayə texnikasından istifadə edilərək yazılmışdır.

Məkan olaraq yoxsulluğu təmsil edən gecəqondu, xəstəliyi təmsil edən xəstəxana, sağlamlıq, zənginlik, firavanlıq, hüzur və eşqi təmsil edən Erənköydəki malikanə seçilmişdir.

"Nəvazişli gecə" əsərində Fransız Rivyerası yüksək sosial-iqtisadi vəziyyəti, zənginliyi, geriliyi, yüksək cəmiyyəti və əyləncəni təmsil edir. Eyni zamanda, pulun verdiyi gücün qazandırdığı əxlaqi pozğunluqla çöküş anarxik bir meyl ilə artan əyləncə hissi də yenə bu bölgədə meydana çıxır.

Milliyətçilik hərəkatlarının Avropanı sarması, müharibənin acı nəticələri müəllifin travmaları ilə qarışır. Avstriya başlanğıc dövrünü, İsveçrə isə xəstəliyi, müalicəni, Dikin uğurunu və Nikolun sağalmasını təmsil etməkdədir. İtaliya isə aşağı təbəqənin, ənənələri, həyat mübarizəsinin, üz-göz olmağın, marginallaşdırmanın yeri kimidir. Rivyerada başlayan Dik və Nikolun macərası yenə Riyierada Dikin vidalaşması ilə başa çatır. Yazıçının həyat yoldaşı Zelda Nikol qədər şanslı deyildir. Əsər bəlkə də Fitsceraldın özü ilə hesablaşması, günah çıxarmasıdır. Eyni zamanda, dərindən-dərinə müharibəni səbəb-nəticə əlaqələri ilə araşdıraraq psixoloji təhlillərdə müharibə sonrası iqtisadiyyatı unikallaşdırır.

Nəticə. XX əsrin əvvəllərində Avropada psixiatriya klinikalarının artması axının rutini kimi göstərilir. Peyami Safa fiziki sağalmanın mənəvi sağalma gətirdiyini iddia edir və bunu böyük bir titizliklə ideoloji düşüncələri ilə qarışdıraraq metaforalarla oxucuya çatdırır. Hər iki əsərdə xəstəxana mühitinin, xəstəyə yanaşma tərzinin önəmi ədəbi üsullarla hekayə dadında, zövqlə oxuna biləcək şəkildə öyrədilir. F. S.Fitscerald isə müalicə etmənin, tibii texnikaların ətraf mühit və bədii şəraitdə tətbiq edildikdə uğurlu olacağını təhlillər və təsvirlərlə isbat edir. Tibbi biliklərin verilməsi fenni roman növündə psixologiya və ədəbiyyatın əhəmiyyətini göstərir.

İstifadə edilmiş ədəbiyyat

1. Nağıyev C. Qərbi Avropa ədəbiyyatı (Orta əsrlər və İntibah dövrü). Bakı: Elm və təhsil, 2019, 520 s.
2. F.S Fitzgerald. Burktur gece, İstanbul: Everest yayınları, 2013, 410 s.
3. Köseoğlu N. Peyami bey. İstanbul: Ötüken nəşriyyat, 2016
4. Moran B. Türk Romanına Eleştirel Bir Bakış: Peyami Safa'nın romanlarında ideolojik yapı. İstanbul, 2021, 219 s.
5. Peyami S. Dokuzuncu Hariciye Koğuşu. İstanbul: Ötüken yayınlar, 1968, 112 s.
6. Yıldırım T. Edebiyatımızda Müstear İsimler. İstanbul:Selis kitaplar, 2006
7. https://ataturkansiklopedisi.gov.tr/
8. https://www.britannica.com/biography/F-Scott-Fitzgerald

AZƏRBAYCAN TƏNQİDİNDƏ ƏDƏBİ İCMAL JANRI

Gülşən Zeynalova*

Abstract

Literary review genre in Azerbaijan criticism

One of the interesting forms of modern literary criticism is the literary review genre. It is noted that the main task of the literary review genre in theoretical literature is to show the main direction and character of literature in a certain period. Literary review is a type of summary writing, which mostly tries to create a general picture of the period in question.

It is possible to find a large number of examples of the literary review genre in the Azerbaijani theoretical-aesthetic thought, as in world literature. Although the first examples of the genre belong to Firidun Bey Kocherliv and Seyid Huseyn, in later times Hanafi Zeynalli, Ali Nazim, Mehdi Huseyn, Yashar Garayev, Shamil Salmanov and other authors tried their hand at this type of critical writing. Individual examples of the literary review genre can be found in literary process books and textbooks such as Azerbaijani literature.

Keywords: *criticism, genre, overview, summary, literary process.*

Giriş. Xülasə xarakterli yazı növü olan ədəbi icmallarda ciddi elmi axtarışlardan daha çox müraciət olunan dövrün, ədəbi növün və ya janrın ümumi mənzərəsinin yaradılmasına çalışılır, statistik məlumatlara yer verilir. Müəyyən bir dövrün ədəbiyyatının təhlil obyektinə çevrildiyi, hər hansı janrın konkret zaman kəsiyində xülasəsinin verildiyi, yaxud hansısa mətbuat orqanının bədii məhsullarının sistemli şəkildə araşdırıldığı tənqidi yazı forması olan ədəbi icmal tədqiqatçıdan ədəbiyyatın ümumi inkişaf qanunauyğunluqlarından, başlıca problemlərindən, mövcud cərəyan və axınlardan xəbərdar olmağı tələb edir. Ədəbi icmal müəllifi, eyni zamanda ədəbi prosesi tam və müntəzəm şəkildə izləməlidir. Qeyd olunur ki, ədəbiyyatın müəyyən dövrü, janrların təkamülü və xronoloji görünüşü haqqında əsaslı məlumat almaq üçün məhz bu janra istinad olunur [6, s. 42]. Onu da qeyd etmək lazımdır ki, ədəbi icmal resenziya janrı ilə qarışdırılmamalıdır.

Əsas hissə. Azərbaycan ədəbiyyatşünaslığında çoxlu sayda ədəbi icmal olsa da, tənqidin əksər növləri kimi bu janr haqqında da nəzəri məlumat azdır. Janrla bağlı məlumata klassik irsin tədqiqatçısı Əziz Mirəhmədovun "Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət"ində heç bir məlumata rast gəlmədik. Professor V.Sultanlının "Azərbaycan ədəbi tənqidi" adlı kitabında kiçik məlumat verilmişdir.

Dünya ədəbiyyatşünaslığına nəzər saldıqda isə bir sıra tənqidçinin maraqlı fikirləri ilə tanış olmaq mümkündür. Məsələn, Belinskinin fikrincə, ədəbi icmalın əsas vəzifəsi müəyyən bir dövrdə ədəbiyyatın üstünlük təşkil edən istiqamətini, ümumi xarakterini göstərməkdir. Digər rus tənqidçisi Krılov isə janr haqqında "Rus ədəbi tənqidinin nəzəriyyəsi və tarixi" adlı əsərində belə yazır: "İcmalların mövzusu formaca müxtəlifdir: hansısa janrın və ya istiqamətin inkişafı, bədii ədəbiyyatın və ya tənqidin icmalı və s. Belinskidən sonra bu janr öz bütövlüyünü, konseptuallığını itirmiş, resenziya-felyeton, problem-tematik resenziya-sikl şəklində təcəssüm tapmışdır. 1870-1880-ci illərdə əvvəllər (xüsusən 1820-1830-cu illərdə) belə məşhur olan illik rəylərin sayı getdikcə azalır, onlar öz yerini aylıq və həftəlik rəylərə verir. Bu tendensiyalar 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində tənqiddə davam edir" [7, s. 112].

Azərbaycan ədəbi tənqidində ədəbi icmal janrının ilk örnəklərinə Firidun bəy Köçərli və Seyid Hüseynin yaradıcılığında rast gəlinir. Bununla yanaşı Hənəfi Zeynallı, Əli Nazim, Mehdi Hüseyn, Məmməd Arif, Məmməd Cəfər, Yaşar Qarayev, Şamil Salmanov və digər tənqidçilər bu janrın maraqlı nümunələrini yaradan müəlliflər hesab olunur. AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun ardıcıl şəkildə nəşr etdirdiyi "Ədəbi proses" kitabları da ayrı-ayrı ədəbi növlər üzrə illik icmalları əhatə etməkdədir. Bu ədəbi proses kitablarında müəyyən olunmuş ilin və ya illərin mənzərəsi təsvir olunur, ədəbi prosesin mövcud vəziyyətindən bəhs edilməklə yanaşı həm də onun gedişatından

* ***Bakı Dövlət Universiteti, doktorant. Elek.poçt: gulsenz@bk.ru. Elmi rəhbər:*** *Prof. Vaqif Verdiyev.*

və vəzifələrindən söz açılır. XX əsrin yetmiş-səksəninci illərində meydana çıxmış "Ədəbi proses" nəşrlərində isə Azərbaycan ədəbiyyatı dərsliklərdə və ədəbiyyat tarixlərində olduğu kimi dövrlər və mərhələlər şəklində deyil, konkret illər üzrə araşdırılıb ümumiləşdirilmiş və təhlil edilmişdir ki, bu da yeni elmi hadisə və xüsusi elmi mərhələ hesab olunur [3, s. 2].

Akademik İsa Həbibəylinin XX əsr Azərbaycan "Ədəbi proses" hərəkatının favoriti adlandırdığı tənqidçi Yaşar Qarayev də ədəbi icmal janrına müraciət etmiş, dramaturgiya ilə bağlı ədəbi icmal hazırlamışdır. Onun bu janrda yazdığı "Dramaturgiya" adlı əsərində müharibə əleyhinə yazılmış pyeslərdən bəhs olunmuşdur. Müharibə mövzusunda yazılmış əsərlərdən danışarkən müəllif belə əsərləri tragediya adlandırır və bu "insani tragediya"nın etiraslı publisistika ilə incə lirizmin, geniş epik təsvirlə dərin psixologizmin vəhdəti zəmnində əks olunduğunu bildirərək belə əsərləri bütövlükdə qəhrəmanlıq və mərdlik dramaturgiyası adlandırır: "Lakin onun əsasında adamlarımızın mənəvi böyüklüyünü, öz doğma vətəni uğrunda yenilməz mübarizəsini, ümumxalq hünərinin görünməmiş miqyasını əhatə edən qəhrəmanlıq başlanğıcı dayanır. Bu əsərləri bütövlükdə qəhrəmanlıq və mərdlik dramaturgiyası adlandırmaq olar" [4, s. 468]. Ədəbi icmalda İ.Qasımovun "Dairəni genişləndirin", "Dinsizin tövbəsi", Nəbi Xəzrinin "Qütb ulduzu", Rüstəm İbrahimbəyovun "Təmas" və s. əsərlər haqqında qısa məlumat verilməklə yanaşı Bəxtiyar Vahabzadənin "Dar ağacı", "Fəryad" pyesləri geniş şəkildə təhlil olunur.

Ədəbi icmal janrının müxtəlif nümunələrinə Müasir Azərbaycan ədəbiyyatı dərsliyində də rast gəlmək mümkündür. Dərsliyin "Poeziya", "Nəsr", "Dramaturgiya" kimi hissələri məhz bu janrda qələmə alınmış örnəklərdir. Kitabın Cəlal Abdullayev tərəfindən yazılmış birinci cildinə daxil olan "Poeziya" hissəsində yeni dövr poeziyasının xüsusiyyətləri təsvir edilmiş, M.S.Ordubadinin, C.Cabarlının, A.Şaiqin, Ə.Nəzminin onun inkişafında mühüm rolu olduğu göstərilmiş, Hacı Kərim Sanılı və Əhməd Cavad haqqında ayrıca bəhs olunmuşdur. İcmalda mürəkkəb və ziddiyyətli ömür yolu keçmiş şair H.K.Sanılının ictimai həyatdakı rolundan, bədii yaradıcılığından və elmi-pedaqoji fəaliyyətindən danışılmışdır. Poema ustası kimi bəhs olunan H.Sanılının "Aran köçü", "Zülmün sonu", "Novruz və Gulnara", "Turut qaçaqları" adlı poemalarından bəhs olunmuş və bu da yazıçı haqqında təsəvvür yaradılmışdır.

Azərbaycanın görkəmli şairi Əhməd Cavadın tərcümeyi-halı barədə də qısa məlumat verilmiş, I Dünya müharibəsinin yaratdığı əhval-ruhiyyələrin onun yaradıcılığına təsir etməsindən bəhs olunmuş, şairin yurduna bağlı sənətkar olması və bu səbəbdən də şeirlərində işçilər, kəndlilər, zəhmət adamları, ilk növbədə qadınların iftixarla tərənnüm olunması vurğulanmışdır. Eyni zamanda şairin tərcüməçilik fəaliyyətindən də danışılmışdır.

C.Abdullayev "Tənqid və ədəbiyyatşünaslıq" adlı icmalda 1991-2005-ci illərdə ədəbi tənqidin fəal olduğunu bildirmişdir. Müəllif yeni yaranan əsərlərin adlarını çəksə də, artıq Yaşar Qarayev kimi tənqidçilərin yetişmədiyini vurğulayır: "Lakin təəssüf hissi ilə deməliyik ki, sırf tənqidlə məşğul olan, özünü və iradəsini bu çətin, lakin şərəfli tənqidçilik işinə həsr etmiş şəxslərə az rast gəlirik. Doğrudur, ara-sıra dövrü-mətbuat səhifələrində tələm-tələsik imzaları ilə görünənlər vardır, lakin hələ ki onlar Yaşar Qarayev kimi tənqidçilərlə müqayisə edilə bilməzlər" [5, s. 456]. Bununla yanaşı müəllif müstəqillik dövründə bədii ədəbiyyatın da yetərli inkişafının olmadığını təəssüf hissi ilə qeyd etmişdir.

Professor Vilayət Quliyev də ədəbi icmal janrında qələmini sınamış müəlliflərdən biridir. "Ədəbi proses 81-82" kitabının nəsr hissəsi ona məxsusdur. Burada hekayə janrından, onun xüsusiyyətlərindən danışılmış həmin illərdə bu növdə yazılmış əsərlər tənqid edilmişdir. Müəllif icmalda əsərləri sadalamaqla kifayətlənməmiş, eyni zamanda bədii cəhətdən təhlil etmiş, yeri gəldikcə nəzəri təhlillərini bölüşmüşdür.

İcmalın giriş hissəsində müəllif qeyd edir ki, 1981-ci ili yeni ədəbi mərhələnin başlanğıcı hesab edərək bu ildə qələmə alınmış nəsr nümunələrini nəzərdən keçirərkən o, əsasən "Başlanğıc öz mənbəyini hardan alıb, haraya istiqamətlənib?", "Bünövrə nəyin üzərində ucalmağa başlayır?", "Yeni mərhələ əvvəlki ədəbi onilliklərdən-yetmişinci illər ədəbiyyatından uzaqlaşdıqca, özünəməxsus cizgilərlə, ştrixlərlə təzahür edə bilibmi?", "Nəsrin başlıca marağı, diqqəti hansı istiqamətə yönəlib?" və s. sualları diqqət mərkəzində saxlamışdır. Müasir Azərbaycan nəsrinin diqqət mərkəzində duran problemlərinin hər şeydən əvvəl hekayə janrında öz əksini tapdığını yazan müəllif bu hekayələrdə

mövzu dairəsi geniş, hadisələr, xarakterlər müxtəlifliyini, insani münasibətlərin təhlilinin verilməsi ortaq cəhət kimi səciyyələnir. İcmalda xalq yazıçısı Elçinin "Baladadaşın ilk məhəbbəti", "Dolça", İ.Məlikzadənin "Talisman", "Toy güzgüsü", "Böyük adam", A.Məsudun "Tutuquşu", X.Xəyalın "Yevgenya Dmirtiyevna" və s. hekayələrdən bəhs edir. Azərbaycan hekayəçiliyi ənənələrindən danışarkən müəllif vurğulayır ki, milli hekayənin həmişə yerli, lokal hadisələrlə kifayətlənmədiyini, imkan daxilində beynəlxalq həyata, böyük ictimai hadisələrə də cəsarətlə müdaxilə etdiyini vurğulayan müəllif təəssüf hissi ilə qeyd edir ki, son illərdə qələmə alınan bəzi hekayələrdə bu ənənə unudulmuşdur. İcmalda təhlil olunan hekayələrə, tənqidi münasibət də aydın görünür. Məsələn, müəllifin "V.Babanlının "Mərc" novellası da janrın poetikasına sənətkarlıqla əməl edilməməsinə misal ola bilər" və ya "Pis mənada hadisəçilik Ş.Təhməzbəyovun "Tale ulduzu", Ə.Bağırovun "Kişilik", L.Məmmədovun "Ümid" hekayələri üçün də səciyyəvidir" [1, s. 21] cümlələri bu fikri təsdiq etmişdir. Son nəşr olunan hekayələri təhlil edərkən satirik hekayə ənənəsinin unudulması da müəllifin diqqətindən yayınmamışdır.

V.Quliyev 1981-ci ildə çap olunan roman və povestləri mövzu dairəsinə, bədii inikas sahələrinə görə iki yerə bölür: tarixi mövzularda yazanlar və müasir mövzulara diqqət yetirmiş, bu günün adamlarının-müasirimizin sosial-fərdi portretini yaratmağa, onun ETİ dövrünün təzadlı şəraiti ilə daha da mürəkkəbləşən psixologiyasını bədii tədqiqat obyektinə çevirməyə çalışanlar.

Xalq yazıçısı S.Rəhimovun "Ana abidəsi", İlyas Əfəndiyevin "Geriyə baxma, qoca" romanları, "Üçatılan" povesti, Ç.Hüseynovun "Labüdlük" povesti haqqında kiçik məlumat verən müəllif tariximizin mürəkkəb və ibrətamiz səhifələrinin əhatə olunduğu Əzizə Cəfərzadənin "Bakı-1501", Ç.Bərgüşadın "Siyrilmiş qılınc" romanlarından ətraflı bəhs etmişdir.

Ə.Cəfərzadənin "Bakı-1501" romanından danışarkən V,Quliyev yazır ki, müəllif Azərbaycanın görkəmli şair və dövlət xadimi Şah İsmayıl Xətayinin həyatından və onun qüdrətli Azərbaycan dövləti yaratmaq uğrunda mübarizəsindən bəhs edən romanda həmin dövrün mənzərəsini yaratmaq üçün məlum tarixi simalarla kifayətlənməmiş, bədii fantaziyanın məhsulu olan obrazlara da geniş yer vermişdir. O, bildirir ki, əsərdə Şah İsmayıl Xətayinin həyatı haqqında danışarkən təxəyyüldən geniş istifadə edildiyi üçün ciddi tarixi roman üslubunun sərhədlərini aşılmış, bu da macəraçılıq meyllərinin ortaya çıxmasına səbəb olmuşdur: "Zənbil içində keçən bir gün fəslindən başlanan macəraçılıq romanın Aytəkin-İbrahim xəttində daha da güclənir və əsərin tarixiliyini zəiflədir" [1, s. 28]. Müəllif ümumiyyətlə bu romanda tarixi qəhrəmanların psixoloji cəhətdən bitkin, tamamlanmış portretinin yaratmaq meylinin zəif olduğunu düşünür.

Vilayət Quliyev C.Bərgüşadın Babəkin başçılıq ediyi Xürrəmilər hərəkatına həsr olunmuş "Siyrilmiş qılınc" romanını da tarixə müraciət baxımından bədii cəhətdən zəif hesab edir, Ə.Hacızadənin "Əfsanəsiz İllər", S.Qədirzadənin "Müqəddəs yalan", S.Azərin "Günəşə sarı gedirəm", Ə.Əmirovun "Ağca, Qaraca, Balaca və Sonra gələn" və başqa müəlliflərin əsərlərindən bəhs edərkən yazır ki, yazıçılar günün aktual tələblərinə uyğun əsərlər yaratmağa çalışsalar da, həyat faktlarının diqqətlə öyrənilməməsi, bədiiliyin yüksək tələblərinə əməl olunmaması nəticəsində bu əsərlər bəzi hallarda müəllif niyyətinin yüksək bədii ifadəsinə çevrilə bilmirlər: "Həqiqi sənət əsəri yaratmaq üçün istedadla yanaşı həm də böyük yaradıcılıq zəhməti, həyati dərk və hərtərəfli idrak da eyni dərəcədə lazımdır" [1, s. 44].

Tənqidçi Elnarə Akimova da ədəbi icmal janrında qələmini sınayan müəlliflərdən biridir. Onun "İlin poema yaradıcılığı (Janrın qürubu yoxsa ədəbi laqeydliyimiz?!)" adlı yazısı "Ədəbi proses-2013" kitabında nəşr olunmuşdur. Poema janrının sonuncu dəfə 1977-ci ildə müzakirə olunduğunu yazan müəllif çağdaş dövrdə bu janra müraciət olunmadığını qeyd edərək bunun səbəblərini araşdırmış, 30-40-cı illərə nisbətən poema janrına müraciətin azalmasının səbəblərini belə izah etmişdir: "Zənnimcə, gənclərin daha çox, roman janrına meyl edib, poemaya keçmişin qalığı kimi yanaşma laqeydliyindən bu gün gənc yazarlar bir neçə şeirdən sonra özlərini daha iri forma olan poema janrında deyil, birbaşa nəsrdə, özü də nəsrin daha geniş janrı sayılan romanda sınayırlar. Ona görə çağdaş ədəbiyyatımızda roman axını yaşanmaqdadır" [2, s. 59]. Çağdaş dövrdə daha çox orta və qocaman yaş senzinə mənsub olanların poema janrına daha çox müraciət etməsini yaşlı nəslin texnikanın yeniliklərindən bir qədər uzaq olmaları ilə əlaqələndirmişdir. İcmalda Ədalət Əsgəroğlunun "Xocam Xocalı" poeması, gənc şair

Ələmdar Cabbarlınnın "Kəlbəcər tacıdır Azərbaycanın", Z.Yaqubun "Şuşa şikəstəsi", Saday Şəkərlinin "Azadlıq şərqisi yaxud cənnətdən qovulanlar" poemaları haqqında qısa məlumat verilmişdir. Fikrət Qocanın "Cənnətdən qovulanlar" poeması haqqında yazmışdır ki, burada müasir insanın həyat fəlsəfəsinə, dünyada baş verən proseslərə qlobal münasibət olsa da, poemanın sonluğu bir qədər bəsitdir. Kamal Abdullanın "Nar çiçəkləri" adlı şeirlər kitabına daxil olan dörd poema "Dədə Qorqud: mənlik deyil, "Ümid qaldı sabaha", "Dədə Qorqud: mən nə edim", "Bəkilin xatunu: Dilim, dilim vay dilim..." haqqında mülahizələr söyləmişdir. Fikrət Qocanın "Şəhidlər xiyabanı" poemasını siyasi pamflet üslubunda yazılmış əsər kimi qiymətləndirən tənqidçi Vaqif Bəhmənlinin "Diaqnoz" poemasının müasir zamanın gedişinə və onun gətirdiyi yeniliklərə fərdi poetik üslubla yanaşan əsər olduğunu vurğulamışdır. Müəllifin fikrincə, Qələndər Xaçınçaylının cəmiyyət kultunun deformasiyasını göstərməyə yönələn "Gözləmə" poemasında mövcud cəmiyyətin qüsurları dəqiq və ətraflı şəkildə təsvir olunsa da, qoyulan problemlərə yanaşma əsərdə olduqca bəsitdir.

İcmalın sonunda Elnarə Akimova son illərdə poema janrında qələmə alınan əsərlərdə müşhidə etiklərini belə ümumiləşdirmişdir: Poema janrına müraciət əvvəlki dövrlərə nisbətən azalmağa başlayıb; müasir poemalarda sujet xətti demək olar ki, yoxdur; poemalarda daha çox Qarabağ hadisələrinin bədii təcəssümünə yer verilir ki, bu mənada mövzu qıtlığı yaşandığı açıq-aşkar görünür; xarakterin yaradılmaması, obrazlılıq, dil axıcılığının olmaması və s.

Nəticə və elmi yenilik. Ədəbi tənqidin müasir janrlarından biri olan ədəbi icmal müəyyən dövrün ədəbiyyatının ümumi mənzərəsinin əks olunduğu xülasə xarakterli yazı növüdür. Həm dünya nəzəri-estetik fikrində, həm də Azərbaycan ədəbiyyatşünaslığında ədəbi icmal janrında xeyli sayda nümunə mövcud olsa da, nəzəri məlumat azdır. Məqalədə bu məsələyə xüsusilə toxunulmuş, ayrı-ayrı kitablarda mövcud olan janrın nəzəriyyəsinə dair yazılar dəyərləndirilmişdir. Bundan əlavə, Azərbaycan ədəbiyyatşünaslığında ədəbi icmal janrında yazılmış nümunələr təhlilə cəlb olunmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Ədəbi proses 81-82 . – Bakı: Elm, – 1987. – 302 s.
2. Ədəbi proses 2013 . – Bakı: Hədəf, – 2014. – 239 s.
3. Həbibbəyli, İ. Ədəbi proses hərəkatı: icmal tənqidindən monoqrafik dərinliyə // Ədəbiyyat qəzeti. – 2018, 2 iyun. – s. 2-4.
4. Qarayev, Y. Seçilmiş əsərləri: [beş cilddə] / Y.Qarayev. – Bakı: Elm, – c. 5. – 2016. – 727 s.
5. Müasir Azərbaycan ədəbiyyatı (dərslik). – Bakı: Bakı Universiteti, – c. 1. – 2007. – 504 s.
6. Sultanlı, V. Azərbaycan ədəbi tənqidi / V.Sultanlı. – Bakı: Nurlar, – 2019. – 312 s.
7. Крылов, В.Н. Теория и история русской литературной критики – В.Н.Крылов. – Казан: Изд-во Казан. ун-т, – 2011. – 124 с.

MAGİK REALİZM ÜNSÜRLƏRİNİN SOSİAL MÖVZULU ƏSƏRLƏRDƏ YERİ VƏ ROLU (QARAQANIN "MƏLƏK" ROMANI ƏSASINDA)

İlahə Əhmədova*

Abstract

The place and role of elements of magic realism in works with social theme (based on novel "Angel" by Qaraqan)

There are examples of national prose that can not be considered works written in the style of magical realism, but certain unusual, mystical images can be found in them. Although the literary direction and theme are different, one of the examples containing magical details is the novel "Angel" by Elkhan Zeynalli. The research object of the article is the manifestation of this mystical-theological being in fiction, in the example of the image of the angel in the mentioned novel. In national literature, including Azerbaijani folklore, they are presented as beings with special powers, purity, holiness, who can bless and protect. But different cultures have their own interpretations of these magical creatures. In magical realism, the depiction of angels creates a connection between reality and the supernatural, adding an element of magic and wonder to the story. The question of what role that magical image plays in the work with a social theme constitutes the scientific innovation and relevance of the article.

Keywords: *modern Azerbaijani prose, Elkhan Zeynalli, magical realism, novel, angel.*

Giriş. Ədəbiyyatda "qeyri-adi"nin "tamamilə adi" hala gətirildiyi bir üslub kimi ortaya çıxan magik realizm, xəyal dünyası ilə konkret dünya arasındakı sərhədi aradan qaldıraraq təxəyyülün sərbəst hərəkət edə biləcəyi yeni imkanlar sahəsi yaradır. "Fantastik realizm" və ya "mistik realizm" kimi də tanınan ədəbi üslub reallıq vəziyyətini şübhə altına almaq əvəzinə, qeyri-adi olanı konkret reallığa inteqrasiya etdirir. Beləliklə, real həyatdan alınmış görüntülər sirli və sehrli bir dünya daxilində yeni yozumlar qazanır. Lakin bəzi nümunələr də vardır ki, magik ünsürlər digər məzmunlu əsərlərin tərkibində üzə çıxır.

1925-ci ildə alman tənqidçisi Frans Roh (1890-1965) gündəlik və adi mövzuları daha gözəçarpan çalarlarla təsvir edən rəssamların əsərlərini ifadə etmək üçün Magischer Realismus (Sehrli Realizm) konsepsiyasını təqdim etdi [6]. Rohun ədəbiyyata yanaşmasını tətbiq etmək üçün real obyektləri (gözlə görünənləri) ədəbi obrazlara (xəyal gücü ilə görünənlərə) çevirən fiziki və mədəni prosesləri qəbul etmək lazımdır [8]. Bu kontekstdə, Günterin fikrincə, terminin ədəbiyyata keçidi Rohun Artur Rimbaud və Emil Zolyaya olan sevgisindən irəli gəlir [2]. Beləcə, magik realizm bir termin olaraq incəsənətdən ədəbiyyata adladı, bəzi janrların tərkib hissəsi kimi qələmə verildi və nəhayət, ayrıca bir istiqamətə çevrilərək dünya ədəbiyyatında müəyyən ədəbi cərəyanın yaranmasına belə səbəb oldu.

Zəngin folklora: mistik obrazlar və hadisələrlə dolu dastanlara, sehrli nağıllara, miflərə, əfsanələrə malik Azərbaycanın müasir ədəbiyyatında da magik realizm üslubunda yazılmış nümunələr az deyildir. Onların bəzilərini sırf magik realizm nümunəsi kimi təqdim etmək mümkündür, bir çox roman və hekayələr isə tam olaraq bu istiqamətdə yazılmasa belə, daxilində magik detallar gizlətməkdədir ki, bunlardan biri də "Mələk" romanıdır.

Müasir Azərbaycan ədəbiyyatının gənc nümayəndələrindən biri Qaraqan ləqəbi ilə tanınan Elxan Zeynallıdır. O, 2007-ci ildə, cəmi iyirmi yaşında Azərbaycan Yazıçılar Birliyinə ən gənc üzv kimi qəbul edilmiş, həmin il işıq üzü görən və içərisində müəyyən mistik detallar nəzərə çarpan "A" romanı bestsellerə çevrilmişdir. 2008-ci ildə Azərbaycanda "İlin gənci" adına layiq görülmüş Qaraqan on romanın, bir neçə hekayənin müəllifi olmaqla yanaşı xüsusi idealogiyaya malik digər yaradıcılıq fəaliyyətləri ilə də məşğuldur.

Bu məqalənin konkret təhlil obyekti olan əsər isə yazıçının "Mələk" romanıdır. "Otuzyaşlı uşağın" hekayəsi kimi oxucuya təqdim edilən bu kiçik romanının üslubunu müəllif özü fantastika-

* ***Bakı Dövlət Universiteti, doktorant. Elek.poçt: akhmadovailaha@gmail.com. Elmi rəhbər:*** *Prof. Vaqif Verdiyev.*

dram-faciə adlandırır. İnsanüstü, qeyri-real və qismən teoloji varlıq hesab edilən mələk obrazı bu romana magik ab-hava gətirir, lakin mövzu özü cəmiyyətdəki reallıqları kifayət qədər, hətta qədərindən də artıq, bütün çılpaqlığı ilə əks etdirir. Əsərin təhkiyəsi, cümlələrin estetikliyi hədsiz güclüdür. Romanın bütün hissələri bir-biri ilə sıx məna bağlılığı olan başlıqlarla adlandırılmışdır.

Yağışlı noyabr gecəsində köhnə bir binanın sonuncu mərtəbəsində tənha yaşayan cavan oğlan evin damından qəfil möhkəm bir səs eşidir; *"Yuxusuz bir adamı yuxusuzluq yuxusundan oyadacaq qədər özgə bir gurultu idi bu"* [3, s. 5]. Dama çıxanda orada yaralı birinin köməyə ehtiyacı olduğunu görüb onu evinə gətirir və səhər otağa girəndə bunun adi bir insan deyil, özündən iki dəfə böyük, bəmbəyaz, ecazkar qanadlara, uzun gümüşü saçlara, mavi iri gözlərə və ilahi bir gözəlliyə malik mələk olduğunu görür. Keçən gecə çaxan güclü şimşək onun qanadını yaralamışdı. Beləcə, müəllifin xəyal gücü ilə bəzədilmiş, həqiqi Bakıda heç vaxt yaşanmayacaq sehrli bir hekayə başlayır.

Bir ədəbi istiqamət kimi magik realizm üslubunda yazılmış əksər romanların oxşar cəhətlərini sadalayarkən onlarda: a) konkret bir baş qəhrəmanın olmaması; b) müxtəlif özünəməxsus personajlar yığınının əsas obrazlar kimi çıxış edə bilməsi; c) olduqca şaxələnən süjet xətti; d) konkret bir insanı yox, bütün cəmiyyəti mövzu obyektinə çevirməsi, bütöv bir xalqın iç üzünü, mistik mənbələrə köklənən şüuraltısını əks etdirməsi və s. kimi kateqoriyalar nümunə göstərilə bilər. Qeyd olunan spesifik nüanslardan yalnız sonuncusu "Mələk"də mövcuddur: burada konkret baş qəhrəman var və üstəlik, bu heç də mələk deyil, yanına mələk göndərilən sadə cavandır; romanın süjet xətti o qədər də şaxəli deyil və xronotop qətiyyən geniş hesab edilə bilməz – bütün hadisələr eyni şəhərdə və bir ili belə tam olaraq əhatə etməyən zaman çərçivəsində baş verir. Lakin romanın mövzusu məhz bütün cəmiyyətə xitab edir.

Dini inanclarından və ya inancsızlığından asılı olmayaraq, bütün insanların təsəvvüründə müəyyən bir mələk obrazı vardır. Bu romandakı mələk qız öz ilahi gözəlliyi, saflığı ilə xəyallardakı müvafiq obrazın eynisidir. O danışa bilmir, insani duyğulardan azaddır, ağlasığmaz dərəcədə məsumdur və Allah sözünü eşidəndə, ya da haradasa azan səsləndiyini duyanda baxışlarını aşağı endirib bütün varlığı ilə vəcdə gəlir: həm qorxur, həm işıq saçır. Lakin günlər keçdikcə qonağı olduğu oğlandan gülümsəməyi öyrənir; qərəzsiz şəkildə, insanların məhrum olduqları saflıqla, sırf maraqdan böyüyən gözlərini oğlana dikərək onun heç anlamadığı sözlərini öz dodaqları ilə yamsılamağa çalışır və gülür. O, sadəcə süd içə bilir, yalnız qəddar insanlar onu incidəndə hayqırkən dil açır. Bu cür kiçik detallarla əfsanəvi varlığa real toxunuşlar edilməsi romanı həm maraqlı, həm də daha təsirli edir.

Bütün əsərlərin ayrılmaz hissəsi olan mənfi və müsbət personajlar bu romanda da mövcuddur. Lakin belə bir fərqlilik var ki, mələk özü müqəddəs bir varlıq sayıldığı üçün, onu "yaxşı/pis" kimi insani keyfiyyətlərə aid etmək olmaz deyə burada sadəcə bir yaxşı obraz mövcuddur – baş qəhrəman; pis personajlar isə bir yox, bir neçə nəfərdir – mələyi oyuncağa çevirən, əldən-ələ keçirən varlılar, məmurlar və özünü hamıdan üstün bilib maddi zənginliklərindən əlavə, bir də mələk kimi mənəvi bir varlığa sahib olduqları üçün öyünmək eşqinə düşən cəmiyyətin digər "ali" şəxsləri. Lakin romanda personajların xarakterik xüsusiyyətlərinə görə təyin olunmuş kateqoriyalar bununla yekunlaşmır. Burada daha bir kateqoriya da var – daha pis personajlar, onlar isə xalqın adi nümayəndələridirlər. Çünki bir neçə ay boyunca varlıların əşyatək istifadə edib alçaltdıqları, təhqir edib, ləkələyib öz həzlərinə görə şiddət göstərdikləri mələk sıravi xalqın əlinə düşəndə isə cəmi üç dəqiqə ərzində, sözün hərfi mənasında zərrə-zərrə qoparılaraq məhv edilir. Adi xalqın cənginə keçmiş mələyin saçlarından, bədənindən tutmuş, geyiminə, qanadlarına qədər didik-didik edilməsi, kiçik hissələrə parçalanması Qabriel Qarsia Markesin "Patriarxın payızı" adlı romanından bir epizodu xatırladır. Burada əsərin baş qəhrəmanı olan generalın ölmüş anası Bendisyon Alvarado tabutda ikən gözlərini açır, yenidən nəfəs alır və hətta simasına xüsusi bir nur yayılaraq gülümsəməyə başlayır. Bu da onun mələyə çevrilərək müqəddəs bir şəkildə geri qayıtması kimi qarşılanır. "*Möcüzə! Möcüzə! Möcüzə!" – deyə beşcə dəqiqə qabaq lal-kar olan adamlar çığırışdı, camaat hücum çəkib tabutun qapağını xıncım-xıncım sökdü, mərhumənin bədənini az qala tikə-parça elədi, çünki hər adam tabutdan yadigar kimi nə isə götürmək istəyirdi: odur ki, bir batalyon əsgər göndərməli olduq ki, ağlı başından çıxmış kütləni birtəhər sakitləşdirsinlər*" [5, s. 173]. Hər iki nümunədə də eyni şəkildə, mələk sırf müqəddəs, xilasedici varlıq

kimi qəbul olunduğu üçün məhv edilir. Bu, insanların iç üzünün ifşası, sanki müəyyən magik detalın köməyi ilə məhz reallığın özünün açıqlanmasıdır.

Qaraqanın romanının gedişatında mələyin satıldığını, qaçırıldığını, təhlükədə olduğunu bildirmək, bu işə bir çarə tapmaq üçün baş qəhrəmanın əvvəlcə məscidə, sonra məhkəməyə, daha sonra isə ölkədənkənar quruma müraciət edib, hamısından oxşar və eyni zamanda özünəməxsus tərzdə rədd cavabı alması romandakı reallıq səviyyəsini əks etdirən incə detallardan daha biridir.

Məqalənin başlanğıcında qeyd edilən romandaxili başlıqların məntiqi ardıcıllıqla adlandırılması diqqəti xüsusi cəlb edir. Belə ki, "Duman" adlanan dördüncü bölümdə mələyin satılması ilə başlanan havanın tutqunlaşmış görüntüsü, əslində, cəmiyyətin ümumi vəziyyətinin getdikcə bulanıqlaşması və qaralmağa doğru getməsidir [3, s. 63]. Yeddinci bölüm olan "Palçıq"da qanadlara malik saf varlığın, mələyin ayağına zəncir vurularaq divarlar arasına, bahalı geyimlərin içinə həbs edilməsi hər yerin palçığa, çirkə bulaşmasını, bilavasitə hər kəsin ruhuna, vicdanına ləkələrin düşməsini əks etdirir [3, s. 82]. "Dolu" adı verilmiş onuncu bölümdə mələyin ölümündən (öldürülməsindən) sonra dəhşətli şəkildə yağan doluya görə göydən yerə ölü qarğaların tökülməsi, onların küçələr boyu hər yeri çirkli qana, leş yığınına döndərməsi, insanların addım izlərinin, ayaqlarının, bəzən sürüşərək yıxılanda bütövlükdə özlərinin çirkaba – günaha – bulaşması öz əksini tapır [3, s. 109]. Sonuncu, on ikinci bölümün "Bürkü" adlandırılması da əbəs deyil. Mələyin məhv edilməsi ilə Tanrının bu millətdən üz çevirməsi, yarım il boyunca şəhərdə bir saniyəlik belə küləyin əsməməsi, yağışın yağmaması ilə lənət məfhumu simvolizə olunur. *"Lakin ikicə şey bu şəhərdə heç müzakirə olunmur. Birincisi, Mələk hadisəsi. Sanki insanlar bundan utanır və qorxur, sanki unutmaq istəyirlər, ya bütün bu Mələk hadisəsinin bir yalan, bir yuxu olmasına inanmaq istəyirlər. Bir də ki, bu bürkü. Təbiətin Bakıdan küsdüyünü bu millət heç dilinə belə gətirmir"* [3, s. 127].

Romanın yeganə müsbət personajı, bütün əsər boyunca ancaq vicdanla hərəkət etməyə, mələk yanında ikən onu həssaslıqla, hətta özündən belə qorumağa çalışan, mələk pis insanların əlinə düşəndə onun xilas olunması üçün əlindən gələn hər şeyi etməyə can atan, mələk öldürüləndən sonra isə günlərlə, aylarla özünə gələ bilməyən, gözyaşları içində vicdan əzabı çəkən, insanların iç üzünü görüb hər kəsdən üz çevirən cavan oğlan romanın birinci bölümü olan "Yağış"ın son cümləsində qeyd edir: *"Və mən heç vaxt seçilmişlərdən olmayacağam"* [3, s.12]. Epiloqda isə müəllif öz nağılını bu cümlələrlə bitirir: *"Mələk bilirdi. Bilə-bilə ki ölümə gedir, bilə-bilə ki bu insanlardan ancaq nifrət və əzab görəcək, o, yenə də gəlmişdi. Bu sonuncu insan üçün, pəncərə qarşısında ağlayan sonuncu vicdanlı insan üçün. Onun inanması, müqəddəsliyə inanması və insan xislətini anlaması üçün!"* [3, s. 131]

Qaraqanın "Mələk" romanı kiçikhəcmli roman olsa da, kifayət qədər mənalı və oxucunun vasitəsilə cəmiyyətə vacib mesajlar ötürməyi bacaran nəsr nümunəsidir. Mələk burada çox uyğun konkekstdə – hadisələrə mükafatlandırıcı və ya cəzalandırıcı təsir göstərmək gücünə sahib bir müqəddəs kimi deyil, ilahi ədalət, inam və iman naminə özünü fəda edən varlıq kimi təqdim olunmuşdur.

Dünya ədəbiyyatında da mifik varlıq olaraq mələklərə bir çox magik realizm istiqamətli əsərlərdə rast gəlmək olur. Onlardan ən maraqlısı Qabriel Qarsia Markesin 1968-ci ildə qələmə aldığı "Nəhəng qanadlı qoca kişi" (isp. *Un señor muy viejo con unas alas enormes)* hekayəsi hesab oluna bilər. Yazıçılar arasında öz adını dünya ədəbiyyatına, sözün əsl mənasında, "magik realizm"lə yazdıran Markes "The Atlantic"ə müsahibəsində "Sürrealizm küçələrdə dolaşır!" açıqlamalarını vermişdi [6]. Özünəməxsus qələmə, əvəzsiz yazı tərzinə malik, Nobel mükafatlı müəllifin üslubunun orijinallığı Kolumbiyada hər an reallaşması gözlənilən, onun yerli toxumasına kök salmış fövqəladə hadisələrin gündəlik həyatın adi bir hissəsi kimi qələmə verilməsindən qaynaqlanır. Məhz buna görə də Markezin yaratdığı mələk obrazı, əslində, sosial aspektdən qoparılmamışdır. Buradakı mələk obrazı ilə Qaraqanın "Mələy"i arasında bəzi oxşarlıqlar olsa da, daha çox ciddi müxtəliflikər vardır.

Bu hekayədə də üç günlük möhkəm yağışdan sonra evin həyətində qəribə bir varlıq peyda olur. Lakin o adət etdiyimiz mələk təsəvvüründən xeyli fərqlidir: keçəl başında bir-iki tük, ağzında bir-iki çürük diş var, qanadları acınacaqlı vəziyyətdədir, əksər tükləri tökülüb, əməlli-başlı bir kabusa oxşayır, o, qəribə ləhcəli dənizçi səsi ilə anlaşılmaz nələrsə donquldanır, növbəti günlərdə isə bəlli olur ki, bu

qoca kişi mələyin yeganə yeyə bildiyi şey badımcan püresidir. Ev sahibləri və qonşuların müzakirəsindən sonra güc-bəla ilə inanırlar ki, bu, bir mələkdir və belə təxmin edirlər ki, günlərdir qızdırma içində yatan evin körpəsini aparmağa gələrkən dənizin üstündə fırtınaya düşüb, yaralanıb – onun çirk içində, islanmış, yosunlara bulaşmış qanadları da sanki bu fərziyyəni sübut edir. Bu hekayədə də mələk pul qarşılığında sərgilənir, lakin bir müqəddəs kimi qarşılanmır, tamaşa etməyə gələnlər daha çox bir sirk heyvanı kimi onunla əylənir, bəzən ona qarşı kobudluq edirlər. Bu qoca kişi mələyin normal mələk obrazları ilə uyğunlaşan yalnız bir ortaq cəhəti var – səbirli, təmkinli olması. Sadəcə bir dəfə – öküzləri damğalamaq üçün istifadə olunan qızğın dəmiri ölmüş zənn edərək ona batıranda həmin insanları söyüb qışqırmağa, aləmi dağıtmağa başlayır və bundan sonra onu incitməməyə xüsusi diqqət göstərirlər. Tərsliyi, dinməzliyi ilə məşhur olan qoca kişi mələk bütün başqa ölümlülərdən fərqli olaraq yalnız ailənin kiçik övladı ilə yola gedir, onun bütün dəcəlliklərinə səsini çıxarmadan dözür. Hətta ikisi eyni vaxtda suçiçəyi çıxarır.

Bütün bu xırda, lakin hədsiz dərəcədə maraqlı detallarla hekayə başdan-sona magik realizmə bürünür. Bir müddət sonra ətrafdakı insanların maraq obyekti olmaqdan çıxan qoca kişi mələk sanki evin bir üzvünə çevrilir, lakin ona sadəcə artıq yük kimi baxılır. Bu mələk istər daxili, istərsə də xarici heç bir müqəddəsliyə malik deyil. Başlanğıcda bir çox çarəsiz insan şəfa diləmək üçün mələyin yanına üz tutur: uşaqlığından bəri ürəyinin döyüntülərini sayan, artıq ədədlərin çatışmadığından şikayətlənən yazıq qadın, ulduzların səsindən yata bilmədiyini deyən yamaykalı, oyaq olanda etdiyi işləri yuxulu ikən pozmağa çalışan bir lunatik və başqaları [4, s. 15]. Bir müddət keçəndən sonra isə insanlar daha ondan heç bir möcüzə yaratmasını gözləmirlər, çünki o bunu bacarmır. Məsələn, yanına gətirilən cüzamlı xəstə sağalmaq əvəzinə, əksinə, yaralarından günəbaxanlar fışqırmağa başlayır, ya da gözləri açılsın deyə ona pənah aparan kor kişinin sadəcə yeni üç dişi çıxır.

Bu hekayənin sonunda mələk ölmür – qış boyunca xəstə yatan, öləcəyi zənn edilən qoca kişi mələyin, əksinə, günəşin ilk isti şüaları ilə qanadlarında yeni cod lələklər peyda olur və o, bir səhər dənizin üstü ilə uçub gedir. Qəribə olan məqam isə budur ki, mələyin onları tərk etməsi evdə sevinclə qarşılanır, çünki beləliklə, dərdlərindən biri azalmış olur [4, s. 20]. Böyük magik realizm müəllifinin bu hekayəsinin timsalında sanki Latın Amerika xalqlarının mövhumatlarını və əfsanələrini təhlil edərkən, bizim üçün reallığın normal olaraq bilmədiyimiz ölçülərini görmək imkanı yaranır [1].

Markesin bu heç bir təsəvvürə sığmayan, qəribə mələk obrazı, əslində, Qaraqanın təsvir etdiyi mələk obrazından qat-qat daha adi, daha uyğunsuzdur, çünki ona heç bir məna yüklənməyib, onun insanları riqqətə gətirmək, ən azından, öz gözəlliyi, saflığı ilə göz oxşamaq kimi bir məcburiyyəti yoxdur. Buna görə də "Mələk" içərisində mistik varlıq yer almış sosial mövzulu roman, "Nəhəng qanadlı qoca kişi" hekayəsi isə magik realizm nümunəsidir.

Nəticə. Magik realizm, əslində, reallığın gizlədilməsi, təhrif olunması, bəzədilməsi deyil. Burada əsas hadisələrin məntiqi və psixoloji izahı olmur, müəllif reallığı köçürmür, sadəcə hadisələrin arxasındakı sirri aşkara çıxarmağa çalışır. Magik realizmi fantastik, psixoloji, sürrealist ədəbiyyatla əvəz etmək və ya səhv salmaq mümkün deyil. Burada nə fantastikadakı kimi xəyali motivlərdən istifadə edilir, nə utopik dünyalar yaradılaraq faktlar gizlədilməyə çalışılır, nə də personajların psixologiyası analiz edilir. Bu səbəbdən magik realizm nümunələrindən əlavə, həmçinin bir çox sosial məzmunlu əsərlərdə də süjet xəttini əhatə edən hadisələrin daha yaxşı və təbii şəkildə anlaşılması üçün magik detallardan istifadə edilir.

İstifadə edilmiş ədəbiyyat

1. Chanady B.A. Magical Realism and The Fantastic Resolved versus Unresolved Antinomy. New York: Garland Publishing, 1985.
2. Guenther I. Magic Realism New Objectivity, and the Arts During the Weimar Republic. Durham: Duke University Press, 1995, s. 31-57.
3. Qaraqan. Mələk. Bakı: Qanun nəşriyyatı, 2012, 132 s.
4. Marguez G. G. İyi kalpli Erendira. İstanbul: Can yayınları, 2019, 144 s.
5. Markes Q. Q. Patriarxın payızı. Bakı: Qanun nəşriyyatı, 2014, 320 s.

6. Özcan R. E. Büyülü gerçekçilik nedir: kapıları aralayan bir ihtimal daha var / https://kayiprihtim-com.translate.goog/dosya/buyulu-gerceklik-nedir-ozellikleri/?_x_tr_sl=tr&_x_tr_tl=en&_x_tr_hl=en&_x_tr_pto=sc
7. Özsevgeç Y. Büyülü gerçekçi kurgu üzerine / https://www.researchgate.net/profile/Yildirim-Oezsevgec/publication/283847920_Buyulu_Gercekci_Kurgu_Uzerine/links/5bcf3161299bf1a43d9b1e8b/Bueyuelue-Gercekci-Kurgu-Uezerine.pdf?origin=publication_detail&_tp=eyJjb250ZXh0Ijp7ImZpcnN0UGFnZSI6InB1YmxpY2F0aW9uIiwicGFnZSI6InB1YmxpY2F0aW9uRG93bmxvYWQiLCJwcmV2aW91c1BhZ2UiOiJwdWJsaWNhdGlvbiJ9fQ
8. Zamora L. P., Farris W. B. Magical Realism Theory, History, Community. Durham: Duke University Press, 1995.

ELÇİN HÜSEYNBƏYLİNİN HEKAYƏ YARADICILIĞINDA QADIN VƏ CƏMİYYƏT MƏSƏLƏSİ

İlahə Səfərzadə*

Abstract

The issue of women and society in Elchin Huseynbeyli's story creation

The article is devoted to the analysis of female characters in the stories of E.Huseynbeyli. The specific works of the author are included in the analysis and the role of female characters in the society is investigated in a comparative way. It is shown that literature has played an important role in the formation of society throughout history, and women's images have also played an important role in this process. Female figures in literature are often seen as a reflection of social norms and gender roles. The presence of memorable female characters in prose contributes to the fight for gender equality by showing that women can be strong, independent, and effective. The diversity of images emphasizes that women's lives and experiences cannot fit into one mold and emphasizes their understanding of their identity as individuals. At the same time, she inspires young girls and women where appropriate, giving them the courage to discover their potential and shape their lives. The mentioned issues are justified by giving specific examples from the author's stories.

Keywords: *woman, character, society, literature, story.*

Giriş. Ədəbiyyat real həyatla əlaqəli şəkildə yaranır, inkişaf edir. Bu cəhətdən nəsrdə yaranan qadın obrazları da xalqın yaşayış tərzini özündə ehtiva edərək yazıçının təxəyyülündə yeni bir mahiyyət qazanır. Hərdən insanların özlərinin içində olduğu mövcud şəraiti dərk edib fərqinə varmalarına xidmət edərkən, bəzən də həyatın başqa bir tərəfinə güzgü tutar, onları hadisələrə başqa yöndən də baxmağın mümkün olduğuna inandırmaqla yanaşı, həmçinin düşüncələrdə inqilab etmək kimi xüsusiyyətlərə belə sahib ola bilər.

Qeyd edək ki, bədii əsərlərdə qadın obrazlarına məxsus xarakterlərin yaradılması və ən əsası necə yaradılması məsələsi hər zaman olduğu kimi, bu gün də öz əhəmiyyətini qoruyub saxlamaqdadır. Belə ki, bədii ədəbiyyatla məşğul olanların, demək olar ki, əksəriyyəti əsərlərində həmin problemə toxunmuş və öz yazıçı münasibətini bildirməyə çalışmışlar, hazırda da bu tendensiya bu və ya digər formalarda davam etdirilir. Bu isə o deməkdir ki, mövcud istiqamətdə çoxşaxəli tədqiqatların aparılması üçün zəngin materiallar ortaya çıxır.

Məhz haqqında bəhs etdiyimiz E.Hüseynbəyli də öz hekayələrində qadın və cəmiyyət məsələlərini özünəməxsus şəkildə təqdim etməyə çalışmışdır. Biz isə bu yazımızda həmin məsələnin qoyuluşunu qadın obrazların simasında açmağa çalışacağıq.

Əvvəlcə isə, mövcud problemlə bağlı, ümumiyyətlə, ədəbiyyatşünaslıqda özünü göstərən müəyyən məqamlara diqqət çəkməyi məqsədəuyğun hesab edirik. Belə ki, "… Qadın məsələsi sahəsində XX əsrdə bir çox ölkələrdə, o cümlədən Azərbaycanda müəyyən işlər görülmüş, qadınlarla kişilərin bərabərliyi, seçki, təhsil, əmək hüquqlarına dair qanunlar dövlət səviyyəsində verilmişdir...

Amma qadınların sosial vəziyyəti sahəsində hələ görüləsi işlər çoxdur. Qadın problemi, qadınların hər zaman üzləşdiyi maneələr, çətinliklər, ev, ailə, cəmiyyət qayğıları tükənən deyildir" (1, s. 10). Bu baxımdan ədəbiyyat öz üzərinə çox böyük bir məsuliyyət götürür. Müasir yazıçıların əsərlərindəki qadın obrazlar insanlarda qadının şəxsiyyət olaraq özünü dərk etməsinə xidmət etməli, həyatın onlara qaranlıq qalan tərəflərinə işıq tutaraq üfüqlərini genişləndirməlidir. Fikrimizcə, prototipləri real həyatdan götürülmüş obrazların yaradılması bu baxımdan daha səciyyəvidir. Ədəbiyyatda qadın çox vaxt müəyyən bir dinamikadan asılı təsvir edilir, onların həyat tərzi başqasının yaşayış qanunlarının çərçivəsində nizamlanır. Çağdaş Azərbaycan ədəbiyyatının nümayəndələrinin də əsərlərində qadın xarakterinin yaradılması məsələsi ədəbiyyatın insanı tərbiyələndirmək, müasir dövrün çətinlikləri ilə üz-üzə qalan zaman onları dəf edərək yenidən həyata tutunmağın öhdəsindən

* ***Bakı Dövlət Universiteti, doktorant. Elek.poçt: ilahe.safarzadeh@gmail.com. Elmi rəhbər:*** *Dos. Məti Bayramlı.*

gəlmək məsələsində daha yaradıcı obrazlara müraciət etmək arzuolunan olduğu qədər, həm də labüd məsələlərdən biridir.

"Genderin müxtəlif akademik fənlərə daxil olması bir sıra elmlərdə yeni istiqamət yaratdı. Qeyd etmək lazımdır ki, bu proses ədəbiyyatşünaslığa da toxunmuşdur. Bu gün ədəbiyyatda gender aspektini nəzərdən keçirən bir sıra tədqiqatlar mövcuddur ki, bunun nəticəsində "gender ədəbiyyatşünaslığı" termini yarandı. Bu tədqiqatların müəllifləri qadın, qadın mənşəyi, qadın obrazları haqqında təsəvvürlərin fərqləndirici cəhətlərini qeyd edərək, onların dünyagörüşü, mədəni dəyərlərlə əlaqəsini (nisbətini) göstərə bildilər" (4, s. 50). Göründüyü kimi, ayrıca tədqiqat sahəsi kimi dəyərləndirilən qadın və onların cəmiyyətdəki mövqeyi məsələsi ədəbiyyatşünaslığı düşündürən əsas məsələlərdəndir. Azərbaycan ədəbiyyatşünasılığında da bu məsələ hər zaman diqqət mərkəzində olub, müəyyən əsərlər yazılıb indi də öz aktuallığını itirməyib.

Elçin Hüseynbəylinin hekayələrinin qadın qəhrəmanları. Elçin Hüseynbəyli Azərbaycanın müasir bədii nəsrinin inkişafında, yeni ədəbi nəsrin formalaşmasında mühüm rolu olan yazıçıdır. Əsərlərinin forma və məzmun müxtəlifliyi ilə bərabər, obrazlarda qeyri-adi hərəkətlər və fərqli situasiyalar ideyanın dərk olunmasına kömək edir. Yaratdığı bütün qadın obrazlarını bir-birindən fərqləndirən cəhətlər və taleləri ilə təsvir edir. Yazıçı obrazların təsviri ilə onların səslərini eşitdirə biləcəkləri məkan yaradır, eyni zamanda gender normalarını sorğulayaraq transformasiya və tərəqqi üçün platforma təqdim edir.

Onun hekayələrinin əksəriyyətində qadına kişinin gözü ilə baxılır, qadınların həyat hekayələri və duyğuları bu prizmadan dəyərləndirilir. "Qız və sevgi", "Dezodorant qız", "Mən Cekonu sevirəm", "Şimallı gəlin", "Qatarda", "Məzar gəlini", "Oyun", "Qara çadralı qadın" və s. kimi hekayələrində müxtəlif qadın obrazları vasitəsilə cəmiyyətin, xüsusən də kişilərin qadına olan baxış bucağı dəyərləndirilir.

Yazıçının "Qız və sevgi" hekayəsi skamyada oturub çarəsizcə ağlayan qızın təsviri ilə başlayır. Sanki kiməsə ürəyini açmaq istəyirmiş kimi ona yaxınlaşıb niyə ağladığı ilə maraqlanan kişiyə öz həyat hekayəsini danışmağa başlayır. Məlum olur ki, qız şəhərə təhsil almaq və işləmək üçün gəlir və xəyallarını reallaşdıra bilir. Amma sevgi mövzusunda bəxti gətirmir. Belə ki, müdiri qızın ona olan xoş münasibətindən sui istifadə edərək onu sevgisinə inandırır. Nəticədə qız hamilə olsa da, uşağını tələf etdirmək məcburiyyətində qalır, həmçinin qaçınılmaz ayrılıqla üzləşir.

Yazıçı gənc qızları sevgi məsələlərində daha diqqətli olmağa çağırır, xüsusən də hər hansı bir kişinin dəstəyinə ehtiyac duyduğu üçün bunu sevgi olaraq dəyərləndirib sonradan peşman olacaqları yanlış qərarlar vermələrinə diqqət çəkməyə çalışır. O, qadının azadlığına və özünü tapmağına tərəfdar çıxarkən, eyni zamanda bunun ənənəvi cəmiyyət dəyərlərinə və bu dəyərlərin qadına biçdiyi rola sahib çıxaraq reallaşacağını ifadə etməyə çalışır.

Müəllif eyni zamanda hekayənin qəhrəmanı olan qızı ona "sən mənim dünyamsan" deyən kişinin nəvazişindən xoşhallanmağa ehtiyacı olan zərif cins nümayəndəsi kimi təqdim edərkən "mən onun həyatında birinci idim", - deyərək, rəqabətçi, eqoist tərəflərini də vurğulamaq dilemması qarşısında qalır.

Qadının doğru inkişafı bacarmamağı onlara müsbət yöndə yol göstərəcək qadın modelinin olmamağından da meydana çıxa bilər. Cəmiyyət ağıllı qadının kənarlaşdırılmağa və həyatda məğlubiyyətə uğramağa hazır olduğunu düşünür. Buna görə də qadın xarakterlər daxili dünyalarındakı əsl üzlərilə kənar aləmə göstərdikləri sima arasındakı məsafəni anladıqdan sonra duyğusal gərginlik yaşaya bilirlər. Bu vəziyyətin arzuolunmaz həqiqət olması qadınlar üçün daha çox müqavimət yaradan xüsusiyyət də ola bilir. Hekayədəki qız da başına gələn fəlakətdə özünün günahkar olduğunun bir növ fərqinə varır. Bu səbəbdən, problemini öz yaxın ətrafı ilə deyil, daha çox ilk dəfə gördüyü və bir daha görməyəcəyi adamla bölüşməyi üstün tutur.

"Ümumilikdə kişilər ictimai və əxlaqi təcrübələrini gerçək həyatlarında yaşaya bilərlər. Fəqət qadınlar "romantik aşiq" deyilən daxili dünyaları vasitəsilə xarici dünyanı tanımaqdadırlar. Qadınlar üçün cəmiyyətlə birbaşa təmas qura bilən ictimai təcrübələrin imkanları çox sərhədli olmaqdadır. Bu səbəbdən qadınlar üçün "eşq" demək bir növ "dünya" deməkdir. Qadınlar eşqlə dünyanı və gerçəyi tanımağa başlayarkən azadlıq və canlılıq gözləyə bilərlər, amma axtarışın sonu boşluq və yoxluq ola

bilər. Eşqdə təcrübə sahibi olmaqla özlərini inkşaf etdirməyə fürsət tapmaqları ilə bərabər qarşısında qatı adətlərin divarının olduğunu anlayarlar" (5, s. 210).

E.Hüseybəylinin "Dezodorant qız" hekayəsi ətirlə bağlı təqdim edilən reklamda gördüyü qadına heyranlıqla baxan kişinin xəyalları ilə başlayır. Aydın olur ki, kişi hər dəfə bu reklamı görəndə qadını onun füsunkar baxışları və cazibədar görünüşündən təsirlənərək öz xəyal dünyasında yüksək mərtəbəyə yerləşdirir. Təsadüfən onun tanışı qarşısına çıxır və qızın şəklinə belə diqqətlə baxdığını görəndə onu tanıdığını deyir. Həmin qızla necə tanış olduğunu ona danışmağa başlayır. Danışıqdan aydın olur ki, o, tanışı vasitəsilə reklam agentliyi ilə əlaqə saxlayır və nəhayət, qızı tapmağa müvəffəq olur. Lakin bəlli olur ki, bu qız qeyri-əxlaqi həyat tərzi sürən bir qadındır. Kişi onunla ünsiyyət zamanı bu qadın ona öz ruhi problemlərindən danışır. Uşaqkən ölən bacısının ruhunun ona keçdiyinə inanır. Həmçinin bu qız cismən özündən zövq almadığını, özünün fərqində olmayan zavallı bir xarakterə sahib olduğunu qeyd edir. Nəhayət, hekayə məyus sonluqla bitir.

Yazıçı hekayədə problemin qoyuluşunu qadının görünüşü ilə iç dünyasının vəhdət halında olması prinsipinə diqqət çəkməyə çalışır. Qadının içində olduğu vəziyyətə baxılanda onun daxili qərəzini meydana gətirən və dünyayla qarşıdurmasının səbəbi olan amillərdən biri də xarici görünüşünün ona xoşbəxtlik deyil, daha çox yanlış qərarlar verməsinə səbəb olan amil kimi şərtləndirilir. Belə ki, dezodorant qızın xarici görkəminə baxan insanlar hər biri öz xəyalında ona istədiyi xarakteri yükləmişdir. Amma gerçək taleyini öyrənən insanın baxış bucağından asılı olaraq o daha da gözəlləşə, ya da tamamilə gözdən düşə bilər. Cəmiyyətin əxlaq normalarının xaricində olan həyat tərzi qadını iç dünyasında daha böyük uçurumun həndəvərinə gətirməkdədir.

Elçin Hüseynbəylinin "Mən Cekonu sevirəm" adlı hekayəsi isə müasir dövr avam qadınının ümumiləşmiş tipidir. Belə ki, o işləyib cəmiyyətdə öz yerini tutmağa çalışmayan, bəsit xəyallarla yaşayan, başqaları tərəfindən idarə olunmağı sevən evdar qadındır. Yazıçı hekayədə obrazı öz dili ilə ifşa metodundan istifadə edir, bununla da onun saf, eyni zamanda yüngül təfəkkür tərzinə malik olmasını gülüş obyektinə çevirmiş olur. Burada həmçinin qızın tərbiyə edilməsində valideynlərin mühüm roluna da diqqət çəkir. Müəllif hekayədə valideynləri qız övladlarına qarşı həssas olmağa çağırır, eyni zamanda cəmiyyət üçün daha güclü iradəyə sahib xarakterlərin yetişdirilməsinin vacibliyini onların diqqətinə çatdırır.

Cəmiyyət tərəfindən qadından öncəliklə analıq funksiyasını daha mükəmməl şəkildə yerinə yetirmək üçün qarşılıqsız fədakarlıq etməsi gözlənir. Bu fədakarlıq qadının öz həyatını yaşamağına mane olan amildir. Romantik eşq qadının yaşamı dərk etməyinə və şəxsiyyət axtarışına girməyinə səbəb olmaqla yanaşı, həmçinin cəmiyyətdə qadının ictimailəşməyinə əngəl də yarada bilər.

Yazıçının "Qatarda" adlı hekayəsində isə qadına sevgili, ruhən kişini tamamlayan obraz gözü ilə baxılır. Hekayənin qəhrəmanı öz vaqonunda tək qalmaq istədiyi üçün iki nəfərin yerinə bilet almışdır. Çöldəki səs-küyü eşidib çıxanda məlum olur ki, qadın qatara biletsiz minib. Kişi öz vaqonundakı yeri ona təklif edir və nəticədə onların arasında səmimiyyət yaranır. Birlikdə keçirdikləri zaman az olsa da, o, yavaş-yavaş həmin qadına aşiq olduğunu hiss edir. Sonradan məlum olur ki, onun hissləri qarşılıqsız deyilmiş. Göründüyü kimi, hekayə qadına yanaşma tərzi baxımından mənəvi-əxlaqi dəyərləri aşılamaqdadır.

Nəticə. Qadın obrazları ədəbiyyat üçün böyük əhəmiyyət kəsb edir və bir çox cəhətdən dəyərlidir. Onların rolları gender normalarını sorğulamaq üçün platforma yaratmaqla bərabər oxuculara empatiya yaratma imkanı verir. Bədii düşüncədə qadın obrazının yaradılması problemi çox mühüm məsələlərdən biridir. Elçin Hüseynbəylinin hekayələrindəki qadın obrazları xarakterin inkişafı və dərinliyi baxımından da önəmlidir və araşdırılması ədəbiyyatşünaslığın qarşısında duran məsələlərdən biridir.

İstifadə edilmiş ədəbiyyat

1. Gəncəli S. "Qadın, gözəllik, ülviyyət". Bakı: Azərbaycan, 2001, 335 s.
2. Hüseynbəyli E. "Gözünə gün düşür". Hekayələr. Bakı: Yeni poliqrafist, 2018, 332 s.
3. Hüseynbəyli E. "O gözəllər ki vardı…". Hekayələr. Bakı: Mücrü, 2022, 148 s.
4. Qafarova S. Gender və Filologiya. Dərs vəsaiti. Bakı: Mütərcim, 2009, 144 s.
5. Eunkyunq Oh. XX yüzil Türkiyə və Koreya romanlarında qadın. Bakı: Nurlar, 2020, 240 s.

"MANAS" DASTANINDA QƏDİM TÜRK MƏDƏNİYYƏTİ

Jalə Nağıyeva*

Abstract

Ancient turkish culture in the epos "Manas"

The article is dedicated to the "Manas" epos, which has an important role for kyrgyz literature, and especially to the investigation of the ancient turkic culture that is manifested in this epos. It is shown that the turks have an ancient history, as well as a rich worldview, way of thinking, and traditions. İt is from the point of view of reflecting the traditions of the kyrgyz turks that the epos "Manas" is a rich source. "Manas" is not only a great epos of heroism, but also important in terms of promoting turkish morals, thought, traditions, lifestyle and similar cultural issues. Manas, the protagonist of the saga, is an unusual character. His unusualness began from the day he was born and continued until the end of his life. The worldview of shamanism is also reflected in the epos. Such issues are explained in the article and justified with examples.

Keywords: *"Manas" epic, kyrgyz literature, shaman, Turk, myth, hero.*

Giriş. Türklər qədim və zəngin tarixə malik ulu bir xalqdır. Uzun illər köçəri həyat yaşamış türklər bədii nümunələr yaratsalar da, onları yazıya almamışlar. Bu səbəbdən oturaq həyata keçdikdən sonra bu xalqların folklor nümunələrinin toplanması çətinlik törətmişdir. Türklərin folklor nümunələri digər xalqlara nisbətən daha gec yazıya alınıb elm aləminə tanıdılsa da, çoxşaxəliliyi və zənginliyi baxımından heç də geridə qalmır. Hətta süjet oxşarlığına əsasən deyə bilərik ki, Avropa xalqlarının folklor nümunələrinin bəziləri türklərdən təsirlənərək yaranmışdır. Ağız ədəbiyyatı örnəkləri türklərin qədim dünyagörüşü, məişəti, həyat tərzi haqqında məlumat almaq üçün ən vacib arxiv materiallarıdır. Hər bir xalqın ədəbi tarixi onun mifik dünyagörüşündən qaynaqlanan dastanlardan başlayır.

Əsas hissə. Dastanın yaranması üçün cəmiyyət və fərd bir-birinə qarışmalı, arada konflikt olmalıdır. Təzadların formalaşması üçün isə təkan mütləqdir. Türk dastanlarının təşəkkülü əcdad kultuyla əlaqələndirilir. Türk dastanları əcdadların üstünlüklərini, qəhrəmanlıqlarını danışmaq, bunu gələcək nəsillərə ötürmək məqsədi ilə ortaya çıxmışdır. Dastanın təməlini yaradan arxaik inanclar və tarixdə yaşananlardır. Dastanda yer alan şəxslərin əksəriyyəti tarixdə yaşamış olur. Arxaik dastanların tərkibində mifik ünsürlər və motivlər çoxluq təşkil edir. Adətən dastandakı şər qütbündə dayanan obrazlar yeraltı mənşəli olur. Dastan boyu biz qəhrəmanın həmin qüvvə ilə mübarizəsinin şahidi oluruq. Qəhrəman və düşmən arasında olan təzadlıq mifologiyadan keçmiş xüsusiyyətlərdəndir. Düşmən qüvvə ilə olan mübarizə qəhrəmanı dinləyicinin gözündə ucaldır. Bu süjet eyni zamanda dastanı durğunluqdan coşğunluğa doğru inkişaf etdirir. Düşmənin məğlub edilməsi isə dastanın kulminasiya nöqtəsi sayılır. Dastanın süjeti ölçülü və ahəngli bir təhkiyəyə malikdir.

Bu baxımdan "Manas" dastanı qırğız ədəbiyyatı üçün önəmli rol oynayır. Bu dastanda qədim qırğız dünyagörüşü əks olunmuşdur. Qırğızların dünyagörüşündə şamanizm, əcdad ruhlarına tapınma aparıcı elementlərdən olub nağılların süjet konstruksiyasını təşkil edir. Sonrakı dövrlərdə isə Şamanizm İslam dininin təsirinə məruz qalmış, bəzən də onun tərkibinə qarışmışdır. Bu mifik obrazlar həm reallıq, həm də əfsanəvilik cizgiləriylə zəngin olur. "Manas" dastanında iştirak edən bəzi obrazlar mifik xüsusiyyətlərə malikdir ki, bunun kökləri Şamanizmə gedib çıxır. Mancuriyadan olan Sanamar adlı şəxs sehrbazlıq qabiliyyətinə malikdir. O, döyüş zamanı sehr oxuyaraq özünü altı adam edə bilir. Bu zaman onun gücü daha da çoxalır və düşmənini məğlub edə bilir. Kuyanis adlı sehrbaz isə əfsun oxuyaraq su ilə dolu şüşələri bir anda zəhərə çevirə bilir. Bu obrazlar xarici görkəmcə heç bir demonik varlığa bənzəmirlər, lakin onlar sahib olduqları bu mifik qüvvəni şər üçün istifadə edirlər. İnsan kimi təsvir olunan bu varlıqların sehrbazlıq güclərini necə qazandıqları barədə dastanda danışılmır. Lakin, zənnimizcə, bu, əsasını Şamanizmdən alan, ruhlarla əlaqədə olduqdan sonra qazanılan bir gücdür.

* ***Bakı Dövlət Universiteti, doktorant. Elek.poçt: jalakhalilova@yahoo.com. Elmi rəhbər:*** *Prof. Səhər Orucova.*

Qırğız folklorunda yeraltı, xtonik dünya ilə bağlı olan obrazlardan biri də tafaaldır. Tajaal böyük, qəddar, qaniçən mifik, demonik bir varlıqdır. Bu heyvan qorxunc dişləri ilə səbəbsiz yerə insanlara hücum edib onları öldürür. O, dişisini başqa heyvanlardan qoruyur. Peyda olduğu yerlərdə qorxu yaradır. O, yaralandığı halda daha aqressiv və vəhşi olur. Tajaalın xoş olmayan bir xüsusiyyəti də səsidir.

Bu səs əsəbi nərilti ilə it hürməsinin qarışığını xatırladır. Tajaal çox səs-küylü heyvandır. O, meşədə özünə yem axtararkən çıxardığı səslər bütün əraziyə yayılır. Azərbaycan folklorunda Tanrının transformasiyası, elçisi, türklərin ata və ana əcdadı yaxud bələdçisi kimi Boz qurdla canavar başlı Tajaalın heç bir əlaqəsi yoxdur.

Bu cür obrazlar dastana rəngarənglik gətirir, qəhrəmanın çıxdığı yolda püxtələşməsi üçün lazım olan yardımçı obrazlardır. Adətən dastanın kulminasiya nöqtəsi qəhrəmanın bu şər qüvvələri məğlub etdikdən sonra yetişir. Demonik varlıqlarla mübarizə aparıb qalib olan qəhrəman həyatında yeni mərhələyə qədəm qoyur.

Mif mətnlərində ilkin əcdad, mədəni qəhrəman kimi təsvir olunan personajlar dastanlara keçid edən zaman sərkərdə, tayfa başçısı, övliya və ata obrazına çevrilirlər. Demiurqlar dastanlara transformasiya olunanda ən çox dəmirçi qismində çıxış edirlər. Türk xalqları arasında dəmirçilik xüsusi sənət növü kimi qəbul edilir və dəmirçilərə hər zaman hörmətlə yanaşılır. "Manas" dastanında bu motivə rast gələ bilərik. Bu dastanda dəmirçilik ehtiramla vurğulanır və ən şərəfli sənət növü kimi xatırlanır. Manas xan Yoloy xanı məğlub edib onun qızlarını əsir aldığı zaman bu qızlardan birini öz dəmirçisinə alır. Beləliklə də, dəmirçiyə minnətdarlıq hisslərini ödəmiş olur. Qırğızların məşhur dastanında yer alan bu motivə bir çox türk xalqlarında da rast gəlmək mümkündür. Əvvəla, bu ondan irəli gəlir ki, türklər hərb sənətini gözəl bilən xalqdır və mahir dəmirçiləri də döyüşdə lazım olan alətləri hazırlamağa qadirdilər. Qədim türk eposlarından olan "Ergenekon" dastanında dəmirçinin köməyi ilə tayfa öz yurduna qayıda bilir. "Koroğlu" eposundakı Dəmirçioğlu obrazını və Misri qılıncı hazırlayan dəmirçini də xatırlamaq lazımdır. Eyni zamanda Türklərdə belə də bir inanc mövcuddur ki, ilk dəmirçi yer üzünə Tanrı tərəfindən göndərilmişdir.

Azərbaycandan toplanmış mif mətnlərinin bir çoxunda yumru, hamar olan
daşın suya qoyulduğu anda yağış yağdırmağa başladığı deyilir. Bunu edənlər kəndin ən yaşlıları olardı. Ən çox isti və quraqlıq zamanlarda insanlar bu daşın yardımı ilə əkinlərini suvararmışlar. Müəyyən qədər istifadədən sonra bu daşlar öz funksiyasını itirib adiləşir. "Manas" dastanında Niskara və Muradıl kimi obrazlar bu daşın köməkliyi ilə güclü yağış yağdırıb müharibədə üstünlük əldə etməyə nail olurlar. Onlar dastanda eyni zamanda həm Yada daşının istifadəçisi, həm də sehrbaz kimi təqdim olunurlar. Mif mətnlərindən dastanlara keçmiş bu motiv İslamiyyətdən sonra da öz əlamətlərini bir qədər dəyişmiş şəkildə göstərir.

Qırğız dastanlarında iştirak edən qəhrəmanın atributlarından biri hesab olunan at obrazı çoxşaxəli və geniş mövzudur. Onlar döyüşdə və qəhrəmanın şəxsi həyatında ən önəmli yerlərdən birini tutur. Dastanlarda qəhrəmanla eyni səviyyədə dayanan atların əlamətləri ən az personalın özü qədər vacibdir. "Kitabi-Dədə Qorqud" dastanında təsvir olnumuş at obrazları qəhrəmanı səciyyələndirən əlamətlərdən ən əsasıdır. Türklər qədim dövrlərdə köçəri olduqlarından atlar onların həyatında önəmli yer tuturdu. Bəzən qeyri-adi xüsusiyyətlərə malik olanlar qəhrəmanın getdiyi o dar yolda hər zaman ona yardım edir.

"Manas" dastanındakı təkgözlü div Madıkanla bağlı əhvalat digər dastanlardakı süjetlərdən bir qədər fərqlənir. Burada alp kimi təsvir olunan bu obraz müharibə zamanı döyüşə daxil olur, ordu ilə vuruşur. Madıkan göy rəngli buğaya minir və heç vaxt onsuz mübarizəyə daxil olmur. Onun göy buğası da mifik xüsusiyyətlərə malikdir. Buğanın alnında tək buynuzu olduğu və atdan belə tez qaçdığı bilinir. Madıkanın döyüşdə məğlub olması səbəblərindən biri kimi onun buğasının ölümü də götürülə bilər. O, bir çox alpları öldürdükdən sonra buğasının başını kəsib məhv edir. Gücü bir az zəifləyən Madıkanı məğlub etmək daha da asanlaşır. Lakin bu div dayanmadan mübarizə aparmağa davam edir və daha sonra Manas onun başını kəsərək öldürür. Göründüyü kimi, Madıkan oğuzların Təpəgözündən bir çox xüsusiyyətləri ilə fərqlənir.

Qırğız türklərinin "Manas" dastanında qədim türklərin adət-ənənələri də özünü göstərir. Bu dastanda qədim oyunlar haqqında da məlumat əks etdirir (5, s. 331). Manasla dostlarının "ordo" oyunu oynadığı göstərilir: "Cocuqlar artıq böyümüşdülər. Onlar ordo (xan qərərgəkini ələ Veçienək, üçün savaş oyunu) oyunu oynayırdılar. Sonra qazandakı əti çıxarıb yeməyə başladılar" (5, s. 331).

Dastanın başqa bir hissəsində Manasın "aşıq-aşıq" oynadığı qeyd edilir: "Manas yurd saldığı yerdə aşıq oynayırdı. Elə bu zaman böyük bir karvan gəldi. Karvanda çinli, kalmık, tırqot və sart vardı. Karvanbaşı olan çinli ilə kalmık, sart ilə tırqot Manası saymadan onun qərargahına keçdilər. "Ey, dəvəni çək!" dedilər kənarda duranlar. Əylənməkdə olanlar da bağırdılar. Altı çin mühafizi boynuna ipək sarılı, altun taxıh dəvəni yedəklərinə almışdılar. Xanın dəvəsini təkcə kalmık və çinlilər deyil, hamı tanıyırdı. Bu dəvəyə kimsə "çıt" deyə bilməzdi. Xanın adamı ilə xanın dəvəsinə kəc baxanlar ölümlə cəzalandırılırdı.

Xanın adamları söz eşitmədən dəvələrinin ovsarından tutub çin dilində nəsə danışaraq qərargahı keçdilər. Bu əsnada aslan Manas əlindəki aşığı kənardakı aşığa vurdu. Aşıq sıçrayıb uçaraq önündəki dəvənin ayağına ox kimi sancıldı, dəvə yerə sərildi. İkinci aşıq öndəki eşşəyin ayağına saplandı və o da yıxıldı" (5, s. 46). Dastanın digər bir yerində müxtəlif oyun adları çəkilir və Manasın bu oyunları düz altı gün oynadığı qeyd edilir:

"Bahadır Manas uca dağlara baxıb, yamyaşıl vadilərə, ördək və qazlara, at ayağı dəyməyən otlara, ucaboy çinarlara, heyvanları bol olan Talasa boylanıb buraların yurd salmaq üçün çox gözəl yer olduğunu düşündü. Ceyranı qoyun sürüsü kimi çox olan geniş düzəngahda çadır qurdurub satranc, toğuz korqol, topdaş, aşıq-aşıq oynamaqla altı gün əyləndi" (5, s. 140). "Manas" dastanında qırğızların aşıq-aşıq oynamaları dəfələrlə qeyd olunur, hətta bu oyun üçün böyük mükafatlar da qoyurlar:

"Manasın qırx bahadırı iki yerə ayrılıb, dörd qısrağı mükafat qoyub aşıq-aşıq oynayırdı. Düşərgədə Kırqılın çığır-bağır eşidilirdi" (5, s. 227). Göründüyü kimi, bu dastan qırğız xalqının simasında bütün türk xlaqlarına məxsus olan bir sıra adət-ənənələri özündə ehtiva etdirir. Belə ki, dastana nəzər yetirərkən biz türk xalqlarına məxsus həyat tərzini, dünyaya baxışı, düşüncə tərzini, məşğuliyyəti aydın şəkildə duyuruq. Dastanda təhkiyə yolu ilə təsvir edilən hadisələr, demək olar ki, türk xalqlarının bütün yaşantılarını, mədəniyyət nümunələrini özündə cəmləşdirir. Bu isə tarixilik baxımından önəmli faktlardır.

Nəticə. Araşdırma zamanı əldə etdiyimiz fikir və qənaətləri aşağıdakı kimi qruplaşdıra bilərik:

- "Manas" dastanı qırğız xalqının simasında, demək olar ki, bütün türk xalqlarına məxsus mifoloji dünyagörüşü özündə əks etdirir, həmçinin bununla bərabər, abidə də onlara aid olan qədim ənənələri, koqnitiv dərki də görmək, hiss etmək mümkündür.

- "Manas" dastanında qədim türk mədəniyyətinin izləri özünü göstərməkdədir. Belə ki, araşdırmalardan aydın olur ki, türklər qədim tarixə malik olmaqla yanaşı, zəngin dünyagörüşə, düşüncə tərzinə, adət-ənənələrə sahibdir. Bu baxımdan dastan zəngin bir mənbədir.

- Dastanın əsas qəhrəmanı kimi tanınan Manas maraqlı və qeyri-adiliyi ilə diqqət çəkən bir obrazdır. Onunla bağlı cərəyan edən hadisələrə nəzər salarkən bunu aydın şəkildə görmək mümkündür.

- Dastanda türklərin tarixən şamanizm dünyagörüşünə malik olduqları da özünü göstərir.

- "Manas"da yer alan mühüm məsələlər onun hər dövr üçün aktuallığını şərtləndirir. Yəni bu əsər tarixən nə qədər araşdırılmaya cəlb olunsa da, yenə də onun tədqiqinə ehtiyac duyulur.

İstifadə edilmiş ədəbiyyat

1. Cəfərov N. Qədim türk ədəbiyyatı. Bakı: AzAtaM, 2004, 322 s.
2. Cəmil A. "Manas" eposu və türk dastançılıq ənənəsi, Bakı: Elm, 2002, 204 s.
3. Qafarlı R. Mifologiya 6 cilddə, TI cild, Bakı, 2019, 454 s.
4. Qasımova F. Türk mifologiyasında mədəni qəhrəman problemi. Bakı: Elm və Təhsil, 2012, 164 s.
5. Manas dastanı. Bakı: Nurlan. 2009, 290 s.
6. Маничкин Н.А. Киргизский эпос и шаманизм и сказительство (тезисы). Центр типологии и семиотики фольклора Российского государственного гуманитарного университета, 200, с. 5-10

TÜRKMƏN ŞEİRİNİN GÜNƏŞİ - MƏHTİMQULU FƏRAQİ

Məleykə Mirzəli*

Abstract

The article describes the life and creativity of Mahtimgulu Faragi, who left an indelible mark on Turkmen poetry. The poetic world of the poet is valued not only within the framework of Turkmen poetry, but also as a common Turkic literary heritage. Also, the contribution of the poet's creative qualities to the Turkmen literary language is discussed, and the poet's love for the Turkic language is shown with examples. In the end, the Azerbaijani theme in the poet's work is shown with examples, and the studies and publications related to M. Faraghi in Azerbaijani literary studies are mentioned.

Keywords*: Mahtimgulu Faraqi, Turkmen literature, 18th century, literature of Turkic peoples, standard language.*

Giriş. Özbək ədəbiyyatında Əlişir Nəvai, Azərbaycan ədəbiyyatında Məhəmməd Füzuli, qazax ədəbiyyatında Abay Kunanbayev, qırğız ədəbiyyatında Çingiz Aytmatov hansı zirvədədirsə, türkmən ədəbiyyatında da Məhtimqulu Fəraqi həmin zirvədədir. M.Fəraqi türkmən ədəbiyyatına doğmuş bir günəş kimidir. Sanki Fəraqi qaranlıq çökmüş mühitə özü ilə birgə aydın bir səma bəxş etmiş oldu. Məhtimqulu nəinki türkmənlərə, nəinki oğuzlara, nəinki türk dünyasına, ümumən, dünya ədəbiyyatına lirik hisslər və bəşəri ideyalarla gəlmiş fitri istedad sahibidir. Məhz bu səbəblərdir ki, nəhəng poetik ədəbi irs qoymuş Məhtimqulunun adı Şərq ədəbiyyatının Firdovsi, Nizami, Hafizi, Sədi Şirazi kimi dühalarının, Qərb ədəbiyyatının isə Dante, Şekspir, Bayron, Puşkin kimi klassiklərinin adları ilə yanaşı çəkilir.

Şair "Durqın dedilər" adlı şeirində istedadının ona vəhy vasitəsilə gəldiyini, yuxudaykən sirli bir məkanda müqəddəs insanlarla söhbətləşdiyini deyir. "Oldum giryana" adlı şeirində isə şair yaşarkən "Dayim dastan olar aləmdə adın" fikrini misralara düzməklə sanki "söz"ə razılıq vermişdir. Tanrı vergisi olan bu istedadın əsərlərdəki surəti şairin yox, şeirin dil açıb sözə qüvvət verməsidir. Şairin "Oyan dedilər" adlı şeirində də onun istedadı ilə bağlı fikirlər öz əksini tapmışdır:

Oyanıb qəflətdən, açdım gözümü,
Ərənlər ayağna sürtdüm üzümü,
Öyrətdilər, haq söylədim sözümü,
"Səksən min kəlamı bəyan" , – dedilər [9, s. 183].

XVIII-XIX əsr türkmən ədəbiyyatı D.Azadi, N.Əndəlib, M.Fəraqi, S.Seydi, Q.Zəlili, M.Kəminə, M. Nəfəs kimi söz ustadlarının yaradıcılıqları ilə rəngarəng bir mənzərə sərgiləyir. Lakin etiraf deyil, bütün mənalarda təsdiqini almış bir fakt kimi qeyd etməliyik ki, nəinki həmin əsr, hətta ondan əvvəlki və ondan sonrakı əsrlərdə belə türkmən poeziyasında Məhtimqulu Fəraqini ötən yazar olmamışdır.

Həyat yolu. Məhtimqulu Fəraqi 1724-cü ildə Türkmən elinin Ətrək bölgəsində məskunlaşan göklən boyunun, gərkəz tayfasının, qışıqlar tirəsində bir şair ailəsində dünyaya göz açmışdır.

Yurdum Ətrək, elim göklən,
Mən bir sevgili yar gözlərəm.
Can şəhrinə düşdü talan,
Qüvvət verən pir gözlərəm [5, s. 102].

Buxara və Xivə şəhərlərində mədrəsə təhsili alan M.Fəraqi sonradan yenə öz məmləkətinə dönmüşdür. Özünə Fəraqi təxəllüsünü götürən şairin həyatı başdan-başa kədərlə yoğrulmuş kimi görünür. Həm yaşadığı dövrün ağır ictimai-siyasi səbəblərindən doğan möhnət hissi, həm də eşq acısı və ailə üzvlərini itirmək, övlad dağı yaşamaq onun taleyinə yazılmış ən ağrılı yazılardır.

İlk həyat yoldaşını itirən Məhtimqulu sonralar Mənqli (Meŋli) adlı bir qıza könül verir. Amma qız üçün tələb olunan başlıq pulunu verə bilmədiyi üçün qızı ona deyil, başqasına verirlər. Həm aşiq,

* ***Bakı Dövlət Universiteti, doktorant. Elek.poçt: maleyka.mirzali@bsu.edu.az. Rəyçi:*** *Prof. Füruzə Ağayeva*

həm aşıq olan Fəraqi bu dərddən yanıb qovrulur. Sonralar qardaşının vəfatından dolayı atasının israrı ilə dul olan gəlinləri ilə izdivac qurur. Bu izdivacdan doğulan iki oğul bala – Sarı və İbrahim də 7, 12 yaşlarında vəfat edirlər. O, acılarını bu şəkildə ifadə edir:

...Məhtimqulu qılar fəryad,
Mənim əhvalıma heyhat,
Fələyin əlindən ey dad,
Mənim bağrım qara qıldı [5, s. 132].

Atasını, sevimli anasını, qardaş-bacılarını, öz doğma balalarını itirmiş şairin ömrü sanki "ayrılıq" fəsilləri ilə cəm olub. Məhz buna görə, xüsusən də sevimli validəsini itirdiyi üçün özünə "ayrılıq, hicran, həsrət" mənalarını verən "fəraq, firaq" sözünü təxəllüs götürüb. O, "Bəxtim qaradı" adlı şeirində taleyin ona gətirdiyi qəm-qüssəyə qarşı kədərli bir üsyan havası çalır:

Bu nə bəla, bu nə həsrət, nə qovğa,
Rəhm edən olmadı, bəxtim qaradır.
Nalə etsəm, ərzim yetməz o Xudaya,
Rəhm edən olmadı, bəxtim qaradır... [5, s. 132]

Dövrün ictimai-siyasi şəraiti də şairin yaradıcılığından yan keçməmişdir. Onun şeirlərində tez-tez "qızılbaş", yaxud "İran şahları" deyə xatırlanan hökmdarlar Səfəvilərin son çağlarına, Nadir imperiyasına, Qacarlar dönəminə təsadüf edir. Türkmən elinin həmin dönəmdə yaşadığı siyasi olaylar Fəraqinin qələmi ilə də əks olunmuşdur. O, savaşlar səbəbindən bir çox köçlərə məruz qalan, ağır günlər görən cəfakeş türkmən xalqını birliyə, ittifaqa səsləmişdir. Şairin yaradıcılığına sirayət edən ünsürlərdən görürük ki, azad, müstəqil Türkmən dövləti qurmaq ideyası onun başlıca qayəsi olmuşdur:

Yomut, göklən təsib edib özündən,
Çıxdı qoşun, önü-ardı bilinməz.
Sığmayıb çıxdı Dəşti-səhra düzündən,
Gedən yolu, qonan yurdu bilinməz [3, s. 88].

Yaradıcılığı. Məhtimqulu külliyatının məşhur tədqiqatçısı, türkmən professor A.Aşırovun fikrinə görə, şairin 700-ə qədər şeiri və 10-a yaxın poeması, yəni ümumilikdə, təxminən, 15 min misra həcmində ədəbi irsi günümüzə gəlib çatıb. M.Fəraqi (1724-1807) 83 illik ömür yolunu başdan-başa ədəbi miras yaratmağa həsr edib desək, yanılmarıq. O, lirik, didaktik, satirik, fəlsəfi, dini mövzulardakı əsərləri ilə yanaşı, həmçinin təbiət və heyvanlara həsr olunmuş əsərləri ilə də rəngarəng irs qoymuş və düha imzası yaratmağı bacarmışdır.

Şairin ədəbi irsində məhəbbət lirikası özəl bədii boyalarla işlənmiş və tablo kimi mənzərə yaratmışdır. Əslində, şair tam olaraq iç dünyasını güzgü misali əks etdirir. Lakin burada bir sənətkar işi görüb elə süsləmələr aparır ki, orijinal təbii bənzətmələr ortaya çıxır. Məsələn bir şeirində şair qeyd edir ki, aşiqlər onun eşq odunu görsə, öz eşq atəşlərini unudar:

Görsə aşiqlər bu odu, unudar öz atəşin,
Çıxar dağu-daşlar üstə, Məcnunu tapmaz düzündən.

Yaxud başqa şeirində şair mum başında dolanan pərvanəni əlində tutduğu eşq atəşinə dəvət eləyir:

Əldə tutub eşq, mən pərvanəni dəvət eləyir,
Ələm ilə hasıl olsam, pünhan eylər, nə əşrətdir?

Görünür, şairin nakam məhəbbəti poeziyasına təsirsiz ötüşməyib. Eşq odunda yanan şairin çox sevib, amma qovuşa bilmədiyi Mənqlinin adını da əsərlərində görmək mümkündür. Bu barədə bəzi rəvayətlər də vardır. Guya qızın əsl adı Yanqıberdi olmuşdur. Məhtimqulu isə öz şeirlərində qızı aləmdən gizləmək üçün əsl adını yazmamış, onu Mənqli (türkm. Meŋli, az. Xallı) adlandırmışdır.

Mənqlixanım aldı getdi cismim içrə canımı,
Sormadan iqbalı fələk yapdı hicran donumu,
Bir nakəsə bəxş eyləmiş fələk Mənqli xanımı,
Dəydi başa, getdi huşum, neyləyim, biçarəyəm [8, s. 208].

Şairin yaradıcılığının əsas qismini milli ideyaların əks olunduğu əsərlər tutur. Müstəqillik carçısı olan vətənpərvər şair bu əsərlərinin hər birində demək olar ki, xalqı ittifaqa, dövlətçiliyə

səsləmişdir. Şairin "Türkmənin" şeiri bu mövzuda olan şah əsəri hesab oluna bilər. Şair ilk bənddə qurulmasını istədiyi Türkmən elinin coğrafi sınırlarını belə göstərir:

Ceyhun ilə Bəhri Xəzər arası
Çöl üstündən əser yeli türkmənin.
Gül qönçəsi, qara gözüm qarası
Qara dağdan ener seli türkmənin [4, s. 11].

Növbəti bəndlərin birində isə əsas ideya-emosional yükü vurğulamışdır. Şair burada göstərir ki, cümlə vətənsevərlərin qəlbi bir amal üçün atsa, qarşıdakı bütün maneələr əriyər. Əgər bütün türkmən xalqı bir süfrədən yesə (yəni bir olsa), onda türkmənin iqbalı yüksələcəkdir:

Könüllər, ürəklər bir olub başlar,
Dartsa yığın ərir torpaqlar, daşlar.
Bir süfrədə təyyar qılınsa aşlar,
Qalxacaqdır ol iqbalı türkmənin [3, s. 151].

Bu mövzuda şairin "Türkmənin binası", "Yıxmayan ərdən", "El yaxşı" və s. kimi şeirləri də vardır. Bozqır yovşanın ətri duyulan "Türkmənin binası" şeirində tayfaları, boyları, tirələri, uruqları açıq şəkildə birliyə çağırır:

Təkə, yomut, yazır, göklən, ahal eli bir olub,
Eyləsə bir yerə yürüş, açılar gül laləsi [4, s. 13].

Məhtimqulu və Türkmən ədəbi dili. Türkmən ədəbiyyatını dar çərçivədən çıxarıb yeni ədəbi formalarla, janrlarla zənginləşdirən Məhtimqulu yaradıcılığı bir başqa missiyanı da qarşısına məqsəd qoymuşdur. Bu missiya türkmən ədəbi dili ilə bağlı idi. XVIII əsrdə türkmən dili hələ də klassik poeziyadan qaynaqlanan ərəb, fars dillərinin təsirində idi. Üstəlik, dildəki çağatay elementləri də arı oğuzcanı qarışıq dil etmişdi. Məhtimqulu türkmən dilinin təmizliyi, saflaşdırılması uğrunda öz yaradıcılığı ilə böyük xidmət göstərmişdir. O, türkmən ədəbiyyatını klassik kitab dilindən qurtarır və əvəzində xalq danışıq dilini, xalq şeiri formasını gətirir. O, xalqın anlayacağı dildə yazaraq həm də bir növ hər kəsi oxumağa səslədi. Həmin ədəbiyyatı oxuyan xalq isə Məhtumqulunun təlqin və tərənnüm etdiyi ideyalarla tanış oldu. Bu şeirlərdə öz arzu, istək, düşüncələrini görən xalqda birlik, dövlətçilik, müstəqillik, azadlıq ideyaları baş qaldırdı. Beləcə, böyük bir missiyaya dildən başlayan Məhtimqulu doğma xalqı qarşısında böyük və əvəzsiz xidmət göstərdi.

Arı türkcəni hər dildən üstün tutan Məhtimqulu hətta Tanrıya üz tutub, onu həmişə saf türk dilində danışanlara tuş etməsini rica edirdi:

Qadir biləndən daş etmə,
Naqadirə yoldaş etmə,
Dil bilməz bəla tuş etmə,
Sadə dil olsun – türkanə [5, s. 25].

Şair evlənmək istədiyin qızın sahib olacağı özəllikləri sadalayarkən belə türkcə danışmasını diləyir:

Boyu uzun, pəs olmasın,
Həddən aşa məs olmasın,
Ağılsız, nakəs olmasın,
Sadədən olsun – türkanə [8, s. 192].

Məhtimqulu yaradıcılığında Azərbaycan. XXI əsrin həqiqi mənada "Türk əsri (TURK TIME)" çağırışı zirvəsindən, həm də əməldə görünən türk dünyası pəncərəsindən baxdıqda Məhtimqulu yaradıcılığının və əsərlərini yazdığı dilin ortaq türk ədəbi mirası olduğunu söyləyə bilərik.

Məhtimqulu Fəraqi bir şəxsiyyət kimi ümumtürk kontekstində dəyərləndirilməlidir və dəyərləndirilir də. Bu mənada şairin ən çox tədqiq olunduğu və öyrənildiyi məmləkətlərdən biri və başlıcası Azərbaycandır. Şairin yaradıcılığında keçən Azərbaycan toponomik vahidləri (yer adları) və etnik ünsürlərin zənginliyi də araşdırmalardan kənarda qalmayıb. Məsələn, o, "Yaylaqları var" adlı şeirində Nuxadan (Şəkidən) böyük mehr-məhəbbətlə bəhs etməkdədir:

Səfər edib getsək Nuxa mülkünə,
Könül istəyən tək yaylaxları var.

Seyran etsək qönçəsinə, gülünə,
Bağçasında bülbül oylaxları var [5, s. 142].

Şairin "Gələndir" adlı şeirində isə Qarabağın adını böyük islam şəhərləri ilə yanaşı çəkdiyini görürük:

Qəndahar, Kərmanşah, Gürgən, Qarabağı,
Şahlar yığılıb, seyri-İsfəhana gələndir [10, s. 404].

Bunlardan əlavə, "Qocalan günlər" adlı şeirində isə ömrünün sonunda Təbrizə getmək istədiyini bildirməsi onun Azərbaycana olan rəğbətini göstərir:

Güvənmədim oğul-qıza,
Əlimə almadım cıza,
Xəyal var – getsəm Təbrizə,
Qədəmim qarşılan günlər [9, s. 101].

Tədqiqatçıların fikrinə görə, Məhtimqulunun əsərlərindən anlamaq olar ki, o, Azərbaycana səfər etmiş, Nuxada, Şirvanda, Təbrizdə olmuşdur.

Şairin yaradıcılığında bizim üçün başqa maraqlı nüans isə onun Azərbaycan şairləri ilə oxşar ədəbi örnəklərinin olmasıdır. Onun özündən öncəki Azərbaycan şairlərinin yaradıcılığına dərindən bələd olduğu və onlardan bəhrələndiyini əsərlərindən görürük. Bu cərgədə Nizami Gəncəvi, Xaqani Şirvani, Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Qurbani kimi söz ustadlarının adını sadalaya bilərik. Həmçinin çağdaşları olan Xəstə Qasım, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Qasım bəy Zakir imzalarının yaradıcılıqları ilə ötüşən ortaq məqamlar və ötən əsrimizin poeziya bayraqdarları olan Məhəmmədhüseyn Şəhriyar, Səməd Vurğun, Əli Kərim və başqalarının Məhtimqulu mirasına baş vurması diqqət cəlb edir.

Şairin yaradıcılığı ilə daha çox ortaq özəlliklər barındıran Azərbaycan şairi isə Molla Pənah Vaqifdir. Hər ikisinin saf türkcəyə baş vurması, dillərimizi xəlqiləşdirməsi ən ümdə xüsusiyyətləridir. Onların hər ikisinin ilhamı kökünü çox dərin qatlardan alan xalq ədəbiyyatından qaynaqlanırdı.

Türkmən şairinin Azərbaycan ədəbi irsinə rəğbəti və Azərbaycan yazarlarının türkmən şairindən bəhrələnməsi iki qardaş el arasındakı ədəbi-bədii körpünün sarsılmaz bağları kimi dəyərləndirilməlidir. Şübhəsiz ki, əsrlər ötdükcə bu bağlar daha da möhkəmlənmişdir.

Məhtimqulu Azərbaycan ədəbiyyatşünaslığında. Əsərləri Azərbaycanda keçən əsrin ortalarından günümüzədək təkrar-təkrar tərcümə və nəşr edilən Məhtimqulu Fəraqinin Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun fondunda da XIX əsrə aid iki əlyazma divan nüsxəsi mühafizə edilir. Bunlardan əlavə, şairin XIX əsrə aid daşbasma üsulu ilə hazırlanmış bir divanı da qorunub saxlanır. 2014-cü ildə şairin 290 illiyi çox geniş miqyasda qeyd edilərkən Azərbaycan akademik heyəti də həm Bakıda qeyd edilən beynəlxalq konfranslarda, həm də Aşqabadda iştirak etmiş, Azərbaycanda mühafizə olunan divan nüsxələrinin fotosurətlərini Türkmənistan Elmlər Akademiyasına təqdim etmişlər.

Şairin yaradıcılığının Azərbaycanda tərcümə, tədqiq və tərtib işlərinə könül verənlərinin cərgəsində Əmin Abid, Salman Mümtaz, Ramazan Qurban, İsa Həbibbəyli, Firuzə Ağayeva (Əhmədova), Əliyev Məmməd, Ramiz Əskər, İsmixan Osmanov, Töhfə Talıbova və başqalarının adını çəkə bilərik.

Bu məqamda Bakı Dövlət Universitetinin Filologiya fakültəsində dərs aldığım müddətdə "Türk xalq ədəbiyyatı" kursunu bizə tədris edən professor Firuzə Ağayevanı daha dəqiqliklə xatirimizə gəlir. Elmlər doktorluğu dissertasiyası mövzusu Fəraqidən olan (XVIII əsr türkmən şeiri (Məxtimqulu Fəraqinin yaradıcılığı əsasında) professorun Məhtimqulu ilə bağlı 4 monoqrafik əsəri, 40-a yaxın elmi məqaləsi nəşr olunmuşdur. Həmçinin 2014-cü ildə məhz bu fəaliyyətinin qarşılığı olaraq Türkmənistan Prezidenti Qurbanqulu Berdimühəmmədov tərəfindən "Magtymguly Pyragy" medalı ilə təltif edilib.

2024-cü il şairin Türkmən şeirinin səmasına günəştək doğuşunun 300-cü ildönümüdür. Son söz olaraq deyə bilərik ki, Məhtimqulu kimi şəxsiyyətlər türk dünyasında heç vaxt işığı sönməz şəxslər cərgəsindədir.

İstifadə edilmiş ədəbiyyat

1. Ağayeva F. XVIII əsr türkmən şeiri (Məxdumqulu Fəraqinin yaradıcılığı əsasında). Filol. e. d-ru a. dər. al. üçün təq. ed. dis. Bakı, 2011, 248 s.
2. Əliyev M. Məhtimqulu Fəraqi şeirinin poetikası. Bakı: Elm və təhsil, 2018, 118 s.
3. Fəraqi M. Divan. Bakı: Elm və təhsil, 2015, 741 s.
4. Fəraqi Məhtimqulu. Seçilmiş əsərləri. Bakı: Elm və təhsil, 2014, 600 s.
5. Həbibbəyli İ., Osmanlı İ. Məhtimqulu Fəraqi və Azərbaycan. Bakı: Elm və təhsil, 2019, 284 s.
6. Osmanlı İ. Görkəmli türkmən şairi Məhtimqulu Fəraqinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında. Bakı: Elm və təhsil, 2017, 310 s.
7. Osmanlı İ., Talıbova T. Azərbaycanda Məhtimqulu Fəraqinin ədəbi irsinin nəşri və tədqiqi. Bakı: Elm və təhsil, 2018, 102 s.

Türkmənce

8. Magtymguly. Eserler әygyndysy. Әki jiltde. I jilt. Зapa taәәarlan: Annagurban Aєyrov; redaktor: R. Godarow. Aєgabat: "Ylym" neşirýatı, 2013, 544 s.
9. Magtymguly. Eserler ýygyndysy. Әki jiltde. II jilt. Çapa taýýarlan: Annagurban Aєyrov; redaktor: R. Godarow. Aşgabat: "Ylym" neşirýatı, 2013, 544 s.
10. Magtymguly. Saýlanan eserler. N.Aşyrowun we G.Kulyýewin redaksiýasy bilen. Aşgabat: Türkmenistan Döwlet neşirýaty, 1957, 532 s.

AZƏRBAYCAN NAĞILLARINDA QADIN OBRAZI

Gülyaz Hümmətzadə*

Abstract

In the Turkish world, family and women have an important place. A woman is the basic pillar of the family, an inseparable element of the society as a mother, companion, lover. In the article, the image of women in a number of examples of fairy tales of both the nations of the world and the Turkic world has been studied. Many studies on the discussed topic have also been addressed. The female figure is one of the archaic themes reflected in folklore. Various views on relationships are presented to women: social approach, psychoanalytical approach, etc. Women, as well as in society, are depicted in many ways in fairy tales: selfless, submissive, beautiful, patient, hypocritical, terrible, etc. Each of them touched on issues related to the fact that they are purposefully unspoken designations to fit women into molds and deprive them of their freedom.

Keywords: *epic character, verbal literature, tales of Azerbaijan, character of women, gender equality*.

Giriş. Azərbaycan folklorşünaslığında nağıllar demək olar ki, bir sıra janrlar kimi bir çox hallarda tədqiqat obyekti olmuşdur. Nağıllar şifahi xalq ədəbiyyat nümunələri içərisində ən geniş yayılmış, zəngin və bir o qədər qədim tarixə söykənən janrlardan biridir. "Nəqletmə" sözündən əmələ gələn nağılların məzmunu əsasən xeyirxahlıq, yaxşılıq, gözəllik və s. kimi əməllərin təbliğinə həsr olunuşdur. Epik növün əsas janrlarından olan nağıllar özünəməxsus xüsusiyyətlərinə görə digər janrlardan seçilir. Nağıllar özünəxas dil-üslub xüsusiyyətlərinə sahibdir. Nağıllar daha çox xalqın dilindən alındığı üçün dili sadə, anlaşıqlı olur. Nağıl yaradıcılığı olduqca mürəkkəb bir prosesdir. Nağıllar çox zaman mənsur formada olur, başlıqları olmur və nağılı danışan ya da toplayıb nəşr edən tərəfindən adlandırılır. Xalq ədəbiyyatının müxtəlif janrlarına (atalar sözləri, məsəl, dua, bəddua və s.) da nağıl daxilində rast gəlinir. Nağıllarda yaxşılıq, gözəllik və s. kimi əməllərin təbliği müxtəlif motivlər əsasında həyata keçir.

Nağıl tədqiqatçılarından E.V.Pomerantseva belə hesab edir ki, folklorun başqa janrlarından fərqli olaraq nağıl quraşdırılmış uydurmadır və ona uydurma kimi baxmaq lazımdır [17, s. 137].

Görkəmli tədqiqatçı V.Y.Propp isə nağılın əsas əlamətini belə qiymətləndirir: "...Nağılların əsas əlaməti hələ Belinski tərəfindən təyin edilmişdir. Bu əlamət ondan ibarətdir ki, danışılanın gerçəkliyinə nə söyləyən, nə də qulaq asan inanmır. İlk baxışdan adama elə gəlir ki, bu əlamət əhəmiyyətli deyil, belə ki, o, öz-özlüyündə nağılın xarakterini təyin etmir. Hətta adama elə gəlir ki, bu, nağılın əlaməti deyil, bu, dinləyicinin inanıb-inanmamasından asılıdır. Amma bütün bunlar belə deyil. Nağılın bünövrəsini xəyal, uydurma təşkil edir və bu əlamət, əsasən, nağılların poetikasını əhatə edir" [18, s. 47].

Hənəfi Zeynallının görüşü isə belədir: "Nağıllar onları yaratmış olan insan cəmiyyəti qədər qədimdir" [4, s. 7].

Əsas hissə. Nağıl qəhrəmanlarına gəldiyimiz zaman isə Oruc Əliyev bildirir: Nağıl qəhrəmanları müsbət xüsusiyyətlərin – ağılın, qorxmazlığın, dözümlülüyün, zirəkliyin, doğruçuluğun daşıyıcısı kimi əks olunurlar. İnsanları haqsızlıqlardan qorumaq istəyi onların ən aydın səciyyəvi xüsusiyyətləridir [9, s. 44].

Nağıllarda əsas fiqurlardan biri də qadındır. Nağıllarda qarşımıza çıxan qadınlar müxtəlifliyi ilə seçilirlər. Nağıllarda hər cür şəxsi və əxlaqi dəyərə sahib qadınlara rast gəlmək mümkündür. Qəhrəman qadın tipajından küpəgirən qarı obrazına qədər qadın obrazının təzahür etdiyi nağıllar insan təfükküründə düşündürücü izlər buraxır. Nağıllarımızda qarşılaşdığımız qadın fenomenləri əsasən üç kateqoriyada qiymətləndirilir:

1. Müsbət qadın fenomeni

* *Azərbaycan Tibb Universiteti, müəllim. Elek.poçt: gulyaz.hummetzade@gmail.com*.

2. Mənfi qadın fenomeni
3. Hər iki kateqoriyaya da daxil olan qadın fenomeni

İnsan dünyaya ayaq basandan qadın və kişi olaraq bu həyatı birlikdə yaşamağa başlamış və böyük bir yol qət etmişlər. Bu böyük zaman çərçivəsi ərzində isə yaşadıqları cəmiyyətlər tərəfindən qadına olduqca fərqli, müxtəlif, rəngarəng, müsbət və mənfi formalarda münasibətlər göstərilmişdir.

Platona görə, "dünyaya gələnlər insanlar arasında həyatlarını yaxşı yaşamayan, şər əməllərlə keçirən, dünyaya təkrar gəlməsi ilə varlıq tapan" qadın, idealizm nöqteyi nəzərindən maddə, yəni "həqiqəti olmayan" varlıqdır. Buna görə də, qadın, maddə kimi "sistemsiz, özü haqqında məlumatı (biliyi) olmayan" cinsdir. İdea olaraq kişi qadın qarşısında həqiqəti olan, biliyi olan gerçək varlıqdır [7, s. 1-5].

Ancan yuxarıdakı fikirdən sonra Türk, o cümlədən Azərbaycan mədəniyyətində qadına münasibətin olduqca yüksək olduğuna şahidlik edirik. Bu bir milli iftixar hissi deyil, tarixi obyektivliyin təzahürüdür. Azərbaycan dilində dişi cinsi ifadə edən qadın sözü qədim türk dilində katun şəklində keçir. Xatun mənasında hörmət və izzət ifadə edən kəlmə də eyni sözün fərqli tələffüzündən ibarətdir. Kəlimə Göy Türk kitabələrində kat-un formasında hökmdar xanımını ifadə edir [15, s. 336-337].

Tarixən qadınlar da kişilər kimi at minib ox atmış, qılınc oynatmış, döyüşlərdə iştirak etmişdilər. Qadın obrazları müxtəlif heyvanlarla, qolu güclü igidlərlə, pəhləvanlarla, xalqa zülm edən padşahlarla döyüşüb qalib gəlmiş, hətta xalqın istəyi ilə dövlət idarəçiliyinin başına keçərək onların mənafeyinə uyğun ədalətli siyasət yeritmişlər. Yaradılmış folklor nümunələrinin böyük bir qismində qadınlar bu vəzifələri yerinə yetirmək üçün əksər vaxtlarda kişi paltarından, nüfuzundan istifadə etmişlər. Paltarlarını dəyişib özlərini qarşı cinsin nümayəndəsi kimi təqdim etməkdə əsas məqsəd qarşıya çıxacaq maneələri aradan qaldırmaq olmuşdur.

"Nuşapərinin nağılı"na müraciət etdikdə: Qəndəhar padşahı çox əzazil, zalım və zülmkar bir şah idi. Camaata qan ağladırdı. Nuşapəri ocaqların sönməsinə səbəb olan, qızları zor ilə hərəmxanalara dolduran darğadan intiqam alır. Bütün əzilənlər, zülmə, zülmkara qarşı nifrət bəsləyənlər pəhləvan paltarı geymiş bu qızla birlikdə mübarizə edirlər. O, özünü Əhməd adlandırır və Qəndəhar ordusu ilə Firəng ordusunun hücumuna məruz qalmış ölkənin qoşunlarına sərkərdəlik edirdi.

"Nardan qızın nağılı"nda Qoquz padşahdan hamı qorxur. Qoquz padşahın da zülmünə son qoyacaq qəhrəman böyüyür. Bu, Nardan xanım adlı bir qızdır. Şahın ordularını məğlub edən Nardan xanım axırda şahın özü ilə üz-üzə gəlir. "Qoquz özü meydana girib, Nardan xanımla qılıncbaqılınc gəldi. Gördülər ki, qılıncdan bir şey çıxmadı, əl atdılar toppuza. Baxıb gördülər ki, toppuzdan da bir şey çıxmadı, başladılar güc eləməyə. Əl atdılar bir-birinin kəmərlərinə, heç birinin gücü çatmadı. Axırda Nardan xanım lap təngə gəldi. Əl atıb tutdu Qoquz padşahın kəmərindən, nərə çəkib götürüb çırpdı yerə, çıxdı sinəsinə, başını kəsib keçirdi nizəsinin başına". "Qara Vəzirin nağılı"nda da Mələk xanım belə bir qəhrəmanlıq göstərib xalqı zillətdən xilas edir.

"Dədə-Qorqud" dastanında qədim türklərin qadına və anaya münasibətini açıqlayan boylardan biri olan "Qazan-xan boyu"nda sözü gedən məsələyə münasibət çox təsiredicidir. Bu barədə tatar tədqiqatçısı yazır ki, " nə bizə məlum məşhur qədim mənbələrdə, nə də müasir ədəbiyyatda öz qoca anasının xilası üçün bütün var dövlətini, xanımını, qız və oğlanlarını qurban verməyə hazır olan Qazan kimi bahadıra rast gəlinmir" [16, s. 158].

"Dədə Qorqud" dastanında "qızlar üzüaçıq və azaddırlar, lakin yad oğlan gördüklərində yaşmaqlanırlar". Bu qədim abidədə "qızların zorla ərə verilmədiyi, könül verərək evləndikləri" qeyd edilir.

"Dədə Qorqud" dastanında dörd qrup qadından bəhs edilir və onların hər birinə bir ad verilir: solduran sop, tolduran sop, nicə söylərsən bayağıdır və evin dayağı. Bu dörd qrupa daxil olan qadınların hər birinin xüsusiyyəti də izah edilir.

Solduran sop: sabah yuxudan qalxıb, əl-üzünü yumadan süfrə başına oturub, əli belində gəzib "evi xaraba qalan bu ərə getdiyimdən bəri qarnım doymadı, üzüm gülmədi, üzüm yaşmaq, ayağım başmaq görmədi, nə olaydı da bu ər öləydi və varlı birinə gedəydim" deyən qadınlar kimi düşünülür. Tolduran sop: qapı-qapı gəzib, qiybət edib söz gəzdirən, evinə baxmadıqları üçün qonşularını ittiham

edən qadınlardır. Nicə söylərsən bayağıdır: əri evdə olmadığı zaman qonağı gəlsə, onu doyurmasa və "evdə un yox, ələk yox, dəvə dəyirmandan gəlmədi" deyib bahanə axtaran, nəsihət dinləməyən və ərinə axrasını dönən qadınları ifadə edir. Evin dayağı: belə qadınlar bir qonağı gəlsə və əri də evdə olmasa qonağı yedirib içirən, onu xoş göndərən qadınlara uyğun xüsusiyyətlər sadalanır [8, s. 76].

Nağıllarda təsvir edilən qadınlar da türk dastanlarında oluğu kimi çox zaman apardığı mübarizədə ərlərinə dayaq olur və döyüş meydanında öz ağıllı məsləhətləri ilə onlara hər zaman kömək edirlər. Onlar həyatlarını qurarkən atalarının istəklərinə tabe olmur, ata isə ailənin başçısı olması hüququndan istifadə edir. Nağıllarda çox zaman padşah qızlarının üçüncüsü ya bir mehtər, bağban oğlunu, ya da kasıb bir oğlanı sevir və ona ərə gedir. Onun üçün də başqa diyarlara üz tutmağa məcbur olur. Belə nağıllarımıza misal olaraq "Nərgiz", "Həsən Qara" kimi nağılları göstərmək olar. Bu nağılların hər birində qızların ağıllı məsəhətləri, ərlərinə sadiq və yol göstərənliyi ilə onlar xoşbəxt olurlar.

Azərbaycan nağıllarının bir qismində gözəl qızlar divlər tərəfindən qaçırılır, əjdahalara qurban verilir. "Məlikməmməd" nağılı da bu tipli nağıllardandır. Gözəl qızlar div tərəfindən qaçırılmış və padşahın kiçik oğlu tərəfindən xilas edilmişdir.

Dastanlarda həm mənfi, həm də müsbət forması ilə qarşılaşdığımız qarı obrazı köməkçi obraz kimi nağıllarda da əks olunur. Qarılar nağılların çoxunda çoxbilmiş, hiyləgər, uzaqgörən kimi təsvir edilir. Köməkçi obraz kimi görünsə də Ulu Anadan transformasiya olunduğu düşünülərək həm xeyir, həm də şər qüvvəni özündə cəmləyib.

Cəlal Bəydili tərtib etdiyi lüğətdə qarını demonik obrazlar sırasında verib: "Mifoloji zəmində təşəkkül tapmış nağıl obrazı kimi göstərilir" [6, s. 217].

"Cantiq" nağılında səfər zamanı evinə qonaq olunan qarı obrazının da ümumiləşmiş surətini görürük. Pulagir olan qarılar haqqında danışdığımız nağılda da eyni formada verilmişdir. "Qarı nənə pulu görəndə dedi: – Bıy, sizə canım qurban, yerim də var, yurdum da var. Bir gecə olmasın, on gecə olsun, yerə nə gəlib. Allah sizin kimi qonaqlardan gündə bir otuzunu mənə yetirsin" [5, s. 7]. Bu nağılın əvvəlində bir qız üçün təhlükəli yola əl atmaması üçün yalvaran ata nağılın sonunda onun gəlməsini böyük bir yığıncaqla qeyd edir.

Cantiqin sirrini öyrənən qarı onun ölümünə səbəb olur: "Bəli, nə başını ağrıdım, gecənin bir yarısı Cantiq də, Pəri xanım da şirin yuxuda yatmışdılar. Qarı yavaş-yavaş Cantiqgilə tərəf gəldi. Yavaşca onun döşündən damarı götürüb dəryaya atdı" [5, s. 10].

"Gül Sənavərə neylədi, Sənavər gülə neylədi" [2, s. 93-110] nağılında qəhrəmanın daşa döndərilməsi onun əsas sınaqlardan keçməsindən sonra baş verir. O, yolunun üstündə dayanmış bir qarı ilə qarşılaşır. Küpəgirən qarı oğlanı daşa döndərir.

"Kəl Həsənin nağılı","Cəlayi vətən", "Reyhanın nağılı" və s. nağıllarda qəhrəman xeyirxah qarı obrazını görürük. Bu nağıllarda qarı qəhrəmanlara yol göstərir, onlara məsləhətlər verir.

Nağılların digər bir qadın obrazı pərilərdir. Pəri qızları həm yardımsevər, həm də gözəl olurlar. Bir sıra nağıllarda pəri qızları oğlanı sınaqdan çıxarıb onun igid olub-olmamasını, ağlını yoxlayır, sədaqətli bir gənc olduğunu gördükdən sonra onunla əhd-peyman bağlayır, özü də axıra kimi bu qəhrəmana sədaqətli qalır. "Hatəmin nağılı"nda [1, s. 23-59] bu motiv aydın əks olunmuşdur. Gözləri tutulmuş şahın böyük və ortancıl oğlanlarının ataları üçün dərman gətirmək cəhdi uğursuz olur. Kiçik qardaş İbrahim həkimin və Hatəmin məsləhət və köməyi ilə Gülüstani-İrəmə çatır, öz cəsarət və hünəri ilə pəri qızı Mələkxatının rəğbətini qazanır. Onlar əhd-peyman bağlayırlar. Pəri qızı atasının gözünün dərmanını tapmaqda ona kömək edir, İbrahimin xeyirxah köməkçisi olur. Paxıl qardaşlarının İbrahimi öldürmək istəyini bilən Mələkxatın onun dadına çatır.

V.Jirmunski qeyd edir ki, "qəhrəmanlaşdırılan evlilik səfərlərinin ən qədim formaları patriarxal-qəbilə cəmiyyətindəki ekzoqam münasibətlərlə bağlıdır" [10, s. 109].

Nağıllarda qadın obrazları zərifliklərini gizlətmək üçün kişi qiyafəsindən istifadə edir. "Nardan qızın nağılı"nda Nardan xanım xalqa zülm edən, yeni doğulmuş qız uşaqlarını oğurlayaraq öldürən qatilləri cəzalandırmaq üçün pəhləvan paltarı geyinib, silah qurşanır, heç kim onun qız olduğunu bilmir... Qoquz padşahın torpağına gəlib meydanda bir nərə çəkir. Qoquz padşah adam göndərir nərə çəkən kimdir. Nardan onun başını vurur, gələn pəhləvanları, qoşunları qırıb qurtarır. Axırda Qoquz

padşahla vuruşur, nərə çəkib onu çırpır yerə, başını kəsib keçirir nizəyə. Camaat Qoquz padşaha lənət oxuyub, Nardan xanımı özlərinə padşah tikdilər" [3, s. 153-161] S.Rzasoy yazır ki, kişilərin qadın paltarı geyməsi, qadınların isə kişi paltarı geyməsinin kökləri arxaik ritual-mifoloji görüşlərə gedib çıxan travestik statusdəyişmə ritualıdır.

M.H.Təhmasib yazır: "Öz şərəfini, namusunu qoruyan, bu yolla min bir müsibət çəkən, hətta gözləri önündə oğlanları öldürülsə də, yenilməyən, alçalmayan qız surəti türk xalqları içərisində daha çox yayılmışdır. Dastanın ona yaxın olan variantların hər birində süjet, kompozisiya əsasən eynidir" [14, s. 40].

Bəzən nağıllarda qarşılaşdığımız qadın qəhrəmanlar sıradan və adi insanlar olsa da, öz ağılları, qətiyyətləri və inamları ilə dövrün ən güclü, hətta "Üç Bacı" nağılında olduğu kimi Səfəvilər dövlətinin adil hökmdarı olaraq ad çıxartmış və xalq tərəfindən "cənnətməkan" sifəti ilə tərif edilən Şah Abbası belə öz iradələrinə ram edirlər [13, s. 185-186].

"Hatəm" adlı nağılda əslində yoxsul təbəqə içərisindən çıxmış şahzadə qız Hatəmdən dəfələrlə səxavətli və yoxsulların qayğısına qalan olur. Hatəm yeddi qapıdan gümüş qablarda yemək paylayırdısa, qız qırx qapıdan qızıl nimçələrdə yemək paylayır və acları, yoxsulları yedirdir. Bu motiv nağıllarda qadının dövlət işlərindəki rolunu göstərən əsas cəhətlərdəndir.

Bəzən də nağıllardakı qızlar və qadınlar "Günəş nurlu və gözəllikləri" ilə təsvir olunurlar [11, s. 43-44; 114-115].

Nağıl dünyasının gözəl qızlar üçün təqdim edilən seçimlərdən biri də varlı bir oğlanla ailə qurması haqqına sahib olmaqdır. Bir qadın nə qədər gözəlsə o qədər dövlətli biri ilə evlənib rahat ömür keçirə bilər.

Xalqların istək və arzularına uyğun olaraq kimsəsiz, yetim qızlar padşah oğluna, padşah qızları isə el içindən çıxmış sadə peşə adamına nişanlanır, bəzən nişanlı qız sehirli qüvvələr tərəfindən qaçırılır. Qəhrəmanın macarələri nəticəsində xilas edilir.

"Üç bacı" nağılında üç yetim qızdan söhbət gedir. Lakin şifahi epik ənənədə olduğu kimi burada da böyük və ortancıl bacı xəyənətkar və paxıl olur. Nağılda deyilir ki, bir dükançının üç qızı var idi. Onların anaları ölür. Ataları gedib bir arvad alır. Bu kişi gündə gedib tikan yığıb gətirir və satıb puluna çörək almaqla ailəsini dolandırırdı. Ona görə ki, əsaslı səbəb gətirmədən o, ərinə deyir ki: "Gündə evə getirdiyin iki girvənkə əppəkdir, onu da qızların basıb yeyir. Ya məni boşa, qızlarını saxla, ya da qızlarını boşla, məni saxla"

"Məlikməmməd" tipli nağıllarda da böyük və ortancıl qardaşları nümunə kimi götürsək onların mənfi obraz və yalançı qəhrəman kimi xeyiri yox, şəri təmsil etməsini müşahidə edirik. Mahmud Kazımoğlu qeyd edir ki, "Şərin təmsilçisi olan bu obrazlar, nağıl poetikasına görə, ölümə, ən azı məğlubiyyətə məhkumdur. Bu o deməkdir ki, nağılın sonunda əsl qəhrəman ortaya çıxmalı və yalançı qəhrəman öz cəzasına çatmalıdır. "Məlikməmməd" tipli nağıllar məhz bu cür başa çatır" [12, s. 15-23].

Nağıllarda qadın – ana obrazı əsasən müsbət xüsusiyyətlərə sahib olan xarakterdir. Yoldaşı və övladları üçün hər cür fədakarlığı edən, cəfa çəkən obrazdır. Ögey ana isə nağıllarda mənfi obraz olaraq qarşımıza çıxır və əsas qəhrəmanın evdən uzaqlaşmasına səbəb olur. Ögey ana süjeti folklorşünaslıqda ənənəvi, gəzərgi adlandırılan süjetlər sırasındadır. Azərbaycan folklorunda ögey ana süjeti üzərində qurulmuş nağılların ən məşhuru "Göycək Fatma" nağılıdır. "Zalım ögey ana" nağılı çox məşhur nağıldır. Burada zülmə dözən ögey qız sonradan şah arvadı olur. Ögey ana ilə qızı isə məhv olurlar. Ögey qız çox vaxt ögey ananın qurbanı kimi nağıllarda baş qəhrəman olur. Ögey qızın nağıllarda tutduğu yer kiçik qardaşa uyğundur. Tədqiqatlara əsasən, nahaqdan qovulmuş ögey qız obrazı digər nahaqdan qovulmuş qadın obrazlarını – atılmış arvad, kiçik qız, kiçik arvad və s. sıradan çıxartmışdır.

Nağıllara ümumi şəkildə baxsaq fədakar, cəsur, ağıllı, əxlaqlı, sehirli, əxlaqsız, passiv, aktiv, qısqanc, yalancı və s kimi xüsusiyyətləri daşıyan qadın obrazları ilə qarşılaşırıq. Ancaq bu qadın obrazları da özlərində olan və ya olmayan xüsuiyyətlərə görə cəmiyyəti tərbiyələndirməkdədir.

Nəticə. Hər bir xalqın şifahi yaradıcılığında nağıllar mifologiyanın əsas mətn qaynağıdır. Ailənin təməlini qoyanlardan biri kimi qadın Azərbaycan nağıllarında əsas sütun funksiyasını yerinə yetirir. 100 il öncə Şərqdə azad səsvermə hüququ qazanan Azərbaycan qadını tarixin bütün

zamanlarında haqsızlığa, nadanlığa qarşı fədakarcasına mübarizə apardığını tədqiq etdiyimiz şifahi xalq örnəklərində də müşahidə edirik. Nağıl və dastan kimi epik növün böyük janrlarında rastladığımız qadın obrazlarını müqayisə etdikcə tipoloji amillərin əsas yükünün qadın obrazlarının üzərinə düşdüyünü də görürük. Uşaqlardan padişahlara qədər uzanan kişi qəhrəmanlarının qarşısında daha zəngin xarakterlərə malik qadın obrazları yer alır. Sadəcə nağıllarda qadın fenomenleri passiv və aktiv formalarda qarşımıza çıxır. Mübarizə aparan, fədakar ana, sevgili, bacı, yoldaş aktiv dərəcədə nağıllarda boy göstərir. Fəqət bir çox hallarda qadın kişi fiqurunun qarşısında dura biləcək qədər güclü ola bilmir. Nağıllardakı bir qadın obrazları istər ata, istər ağ atlı oğlan fiqurunun qərarlarına hörmət edir, düşünmədən onun qərarlarına itaət edirlər. Bir çox nağıllarda gender bərabərliyini görə bilmirik.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan nağılları. 5 cilddə, II cild (Tərtib edən: Ə.Axundov). Bakı: Azərb. EA, 1961
2. Azərbaycan ədəbiyyatı inciləri: Nağıllar / Tərtib edəni N.Seyidov. Bakı: Yazıçı, 1985, 508 s.
3. Azərbaycan nağılları. Beş cilddə. V cild. Bakı: Çıraq, 2004, 336 s.
4. Azərbaycan nağılları. Beş cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 360 s.
5. Azərbaycan Folkloru külliyatı, III cild /Tərtib edənlər: H.İsmayılov, O.Əliyev/ Nağıllar(III kitab), Bakı: Səda, 2006, 400 s.
6. Bəydili C. (Məmmədov). Türk mifoloji sözlüyü. Bakı: Elm, 2013, 418 s
7. Çimen Ünsal, Platonda Kadın, Akdeniz Üniversitesi Sosyal Bilimler Enstitüsü Yüksek Lisans Tezi, Antalya 2005
8. Dede Korkut Kitabı, Hazırlayan Muharrem Ergin, Ankara: TDK Yayınları, 2008, c. I
9. Əliyev O. Azərbaycan nağılları: janr, süjet və obraz problemləri. Bakı: Elm və təhsil, 2019, 304 s.
10. Jirmunski V. Xalq qəhrəmanlıq eposu. Bakı: Azərbaycan Tərcümə Mərkəzi, 2017, 432 s
11. Kitabi-Dədəm Qorqud əla lisani-taifeyi-oğuzan, Tərtib edən Səmət Əlizadə, Bakı: Yeni Nəşrlər Evi, 1999
12. Motif Akademi Halkbilimi Dergisi / 2011-2 (Temmuz-Aralık) (Azerbaycan Özel Sayısı-II), s.15-23 Nağıllarda Əsl Qəhrəman Və Yalançı Qəhrəman Paraleli / M. Kazımoğlu (16)
13. Seyidov Mirəli, Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı: Yazıçı, 1989
14. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsirlər). Bakı: Elm, 1972.
15. Tanişev E.R., Sravnitelno-istoriçeskaya qrammatika tyurkskix yazıkov, (Leksikia), Moskva: Nauka 2001, s. 297;
16. Бигиев М.Д., Избранные труды в двух томах. Женшина в светесвященных аятов Благародного Корана. Казань 2006, 256 с
17. Померанцева Э.В. Сказки / Русское народное творчество. Москва: Высшая школа, 1966, с. 137-173.
18. Пропп В.Я. Фольклор и действителность. Москва: Наука, 1976, 327 с.

HÜSEYN CAVİDİN "ŞEYX SƏNAN" FACİƏSİNDƏ MÜHİT VƏ KONFLİKT

Hülya Ağasıyeva*

Abstract

Environment and conflict in Huseyn Javid's "Sheikh Sanan" tragedy

Throughout his work, Huseyn Javidi made people think about the destiny and he never tired of looking for ways to lighten the heavy burden on the shoulders of humanity. One of the ways to solve problems for the great thinker artist was to eliminate the differences and sects that were artificially created by different ideologies. The basis of romantic tragedy in Azerbaijani literature was laid by Huseyn Javid's work "Sheikh Sanan". As in every work belonging to Javid's creativity, in his tragedies, he tried to reflect the problems of society, time, and people in the person of the heroes he created, not individual persons. The expression of this idea of Javid can be seen not only in "Sheikh Sanan", but in his entire work. "Sheikh Sanan" is definitely a part of his creation in terms of creating a concept. "Sheikh Sanan" is a work written purely from the standpoint of Sufism. Here, the hero's grades and the last moment he reaches constitute the main plot line of the work. The conflict is between the hero's line of moral ascension and his repelled ego. The function of the images in the work and the expressions they use create complete darkness and confusion without knowing the images and expressions of Sufism, its system of views and sects.

Keywords: *Huseyn Javid, Sheikh Sanan, environment, sufism, conflict.*

Giriş. Hüseyn Cavidi bütün yaradıcılığı boyu insanın taleyi düşündürmüş və sənətkar bəşəriyyətin çiyinlərinə düşmüş ağır yükü yüngülləşdirmək yollarını axtarmaqdan yorulmamışdır. Böyük mütəfəkkir üçün problemlərin aradan qaldırılması yollarından biri də insanlar arasında sonradan müxtəlif ideologiyalar tərəfindən süni şəkildə yaradılmış fərqliliklərin, təriqətlərin aradan götürülməsi idi. Azərbaycan ədəbiyyatında romantik faciənin əsası Hüseyn Cavidin "Şeyx Sənan" əsəri ilə qoyulmuşdur. Cavid yaradıcılığına mənsub olan hər bir əsərdə olduğu kimi onun faciələrində də tək-tək şəxslərin deyil, yaratdığı qəhrəmanların simasında cəmiyyətin, zamanın, insanların problemlərini əks etdirməyə çalışmışdır. Cavidin bu ideyasının ifadəsi təkcə "Şeyx Sənan"da yox, bütöv yaradıcılığında izlənilir. "Şeyx Sənan" onun yaradıcılığında konsepsiya yaratmaq baxımından tamın müəyyən bir hissəsidir. "Şeyx Sənan" sırf sufizm mövqeyindən yazılmış əsərdir. Burada qəhrəmanın keçdiyi dərəcələr və yetişdiyi son məqam əsərin əsas süjet xəttini təşkil edir. Konflikt qəhrəmanın mənəvi yüksəliş xətti ilə dəf olunan nəfsləri arasındadır.

Əsas hissə. Hüseyn Cavid "Şeyx Sənan" faciəsini 1912-1914-cü illərdə yazmış, əsər ilk öncə 1915-1916-ci illərdə Bakıda müxtəlif qəzetlərdə nəşr edilmiş, 1917-ci ildə isə kitab formasında çap edilmişdir. Əsərin mövzusu Yaxın Şarq xalqlarının folklorunda geniş yayılmış və ilk dəfə XII-XIII əsrlərin İran sufi şairi Fəridəddin Əttarin "Məntiqut-teyr" (Quşlarm söhbəti) poemasında müstəqil ədəbi süjet kimi qələmə alınmışdır. Hüseyn Cavid də öz əsərinin mövzusu kimi məhz bu süjeti əsas götürmüş, ancaq, təbii ki, onu öz ədəbi estetik qayəsinə uyğunlaşdırmışdır. Allah sevgisi-ideologiyası Hüseyn Cavid yaradıcılığının təməlini təşkil edir ki, bu da Cavid dilində "əbədi məhəbbət ən böyük din" şəkilində öz təzahürünü tapmışdır. Hüseyn Cavidin qələmə aldığı əsərlərində bu məhəbbət ya özünün kulminasiya nöqtəsinə qədər yüksəlir və ülviləşir, ya da qəhrəmanların iradəsinin kamilləşməməsi səbəbi ilə ilahi qaynaqdan ayrılaraq bəşəriləşir. Sevgi nə qədər ki, ülvidir o qədər əzəmətli olur. Elə ki, sevginin istiqaməti dəyişir, ilahi qaynaqdan ayrılaraq bir insana tərəf yönəlir məhz o zaman bu sevgi bəşəriləşir- yəni ölümlü olur [1, s. 89].

Timuçin Əfəndiyevin dediyi kimi: "Hüseyn Cavidin poeziyası da, dramaturgiyası da onu düşündürən ictimai-mənəvi məsələlərin bədii ifadəsidir. Bu məsələlərə toxunmaqla Cavid yaşadığı dövrə, həyata münasibətini bildirir, fikrini məşğul edən hadisələri romantik sənətin prinsipləri mövqeyindən canlandırırdı. Və həmişə də mütərəqqi idealları, humanist qayələri əks etdirirdi [2, s. 39].

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: agasiyevahulya@gmail.com. Rəyçi:*** *Dos. Mətanət Həsənova.*

Belə ki, sənətkarın mütərəqqi ideyalarını özündə ehtiva edən "Şeyx Sənan" faciəsinin əsas qahramanı mistik bir obraz kimi deyil, canlı, daim inkişafda və dəyişməkdə olan xarakter kimi yaradılmışdır. Əsərin əvvəlində qəhrəman haqqında yığcam, lakin kifayət qədər dolğun məlumat əldə etmək mümkündür. Şeyx Sənan otuz yaşında, xoşsima bir insandır. Bu dövrlərdə Şeyx Sənan yalnız Böyük Eşq obrazının təmsilçisi idi. Böyük Eşqlə Böyük Aşiqin daxili münaqişəsinin başlanmasının təməli Sənanın yuxusu ilə başlayır. Daha doğrusu bu yuxunun yozulması ilə. Şeyx Kəbir müridini çox yaxşı tanıyır, ona görə də onu xəbərdar edir: "Səni alçaldan ehtiras olacaq!" deyir.

Diqqət yetirdiyimiz zaman Şeyx Kəbir Sənana səni alçaldan qadın olacaq demir. Sənanı qadınlara deyil, ehtiraslara qarşı ehtiyatlı olmağa səsləyir. Çünki, hisslərinin əsiri olan insan yüksələ bilməz. Sənan isə ehtirasının səbəbkarı olacaq qadınlardan qaçmaqla məsələni həll etdiyini zənn edir. Hisslərinə hakim olmaq əvəzinə özünə əzab verir, təbii hislərini cilovlamağa çalışır və zahidliyi tərcih edir. Allahın müəyyən etdiyi hədləri aşan kimsə isə yalnız özünə zülm etmiş olur. Belə ki, Sənan özünə süni maneələr yaradaraq onlarla mübarizə aparır, hisslərini idarə edə biləcəyini düşünür. Zahirdə bəlkə də bunun öhdəsindən yaxşı şəkildə gəldiyi düşünülə bilər. Amma Cavid onun daxili ziddiyyətlərini çox gözəl şəkildə ifadə edə bilmişdir. Mən ehtirasa düşmənəm dediyi anda Xumar onun gözlərinə görünərək dediklərini ona təkzib elətdirirdi. Qadınlardan qaçmağa çalışan, onlardan qaçdığını söyləyən Sənanın qəlbi basqa bir sevda ilə çırpınırdı. Daxili tələbatı ona güc gəlir, xəyalında yaşatdığı ideal qadın indi yalnız yuxularında deyil, oyaq halda da onun gözlərinə görünməklə əslində Sənanı hislərinin əsirinə çevirirdi. Xəyalında ona hakim olan, görüntüləri ilə onu valeh edən Xumara qovuşa bilməmək qəhrəmana daha çox acı və iztirab verirdi. Şeyx Sənanın başının üstünü qara bulud kimi almış Xumar sevgisi ondan əl çəkmək istəmir, onu Tiflisə sürükləyirdi.

Bu əsərdə iki eşq-ilahi eşq və dünyəvi eşq qarşılaşdırılmışdır. Yeri gəlmişkən qeyd edək ki, Şeyx Sənanın xristian-gürcü gözəlini sevməsində də müəyyən bir simvol və romantik kinayə var. Belə ki, xristian kilsəsi monastırlardakı rahiblərə qadın məhəbbətini qadağan etmişdi. Cavid də, qadın məhəbbəti kimi ali bəşəri duyğunu rədd edən, hələ bu azmış kimi, qadınları bütün bəlaların səbəbi "elan edən" bir müsəlman şeyxini məhz bu duyğunu rədd etməyi sistemli bir dini proses halına salmış xristian kilsəsi vəsitəsilə cazalandırır, başqalarına ibrət göstərir.

Daha sonralar "İblis" faciəsində yer alan demonizm problemi burda hələ ilkin rüşeym halındadır. İblisin "Mən Qərbdə rahib oluram, Şərqdə abid" fikrinin təsdiqini "Şeyx Sənan" da Şeyx Mərvan, Şeyx Naim, Papasın, Simonun simasında görürük. Şeyx Mərvan həm qısqancdır, həm də üsyançı. Sənanın həm kamilliyinə, həm də camalına qibtə edir və onu gözdən salmağa çalışırdı. Hətta öz qüsurlu yaradılışına da üsyan edirdi. Onunla məsləkdaş olan Şeyx Naim onun zahiri qüsurunun batinindən qaynaqlandığını üzünə deyirdi. Şeyx Naimin əqidəsi Şeyx Mərvanınkı kimi qüsurlu deyil. Ancaq yenə də idrak əhli deyil və buna heç can da atmır.

Papas obrazında İblisin başqa bir xisləti ilə qarşılaşırıq: təkəbbürlük, özündən razılıq. Buna görə də Papas Sənanı hər an alçaltmağa səy göstərir. Çünki, Sənan ondan daha üstündür. Sənan arxasınca Məkkədən Qafqaza qədər gələn müridlərin liderdir. Sənan İslam dininin təbliği üçün böyük bir məsafə qət etməkdən çəkinməmişdir. Sənan etiqadına sadiqdir. İslam dininin yayılması üçün, insanlar arasından təriqətlərin, dini ayrı-seçkiliyin aradan qaldırılması üçün yorulmadan çalışır. Və təbii ki, qarşısında daha kamil və əqidəli bir din təbliğçisini görən Papasda qisas hissi baş qaldırır. Papası əslində Xumarın taleyi heç maraqlandırmır, onu yalnız düşündürən ondan daha üstün keyfiyyətlərə malik olan Sənanı alçaltmaqdır.

İblis bir oyun oynayır. Sənanın maksimalist, məqsədinə nail ola bilmək üçün sonuna qədər çarpışan biri olduğunu bildiyindən onu açıq oyuna dəvət edir. Sənanın faciəsi isə əslində bu dəvəti qəbul etməyindədir. Yəni, Sənanın faciəsi-eşqlə etiqad arasında qalmasından doğur və bu qeyri-sabit vəziyyət ona əzab verir, ruhunu sıxır, son nəticədə isə məhvə doğru, uçuruma doğru sürükləyir. Sənan kamilliyə can atsa da kamil ola bilmir. Çünki, əslində kamillik yalnız yaradıcıya məxsusdur. Ondan kənarda kamil ola biləcək bir varlıq yoxdur. Amma bununla belə Sənan arzuladığı mükəmməlliyi qismən də olsa, əldə edə bilmək üçün hər zaman orta nöqtəni qoruyub saxlamalı, tarazlığı pozmamalıydı. Sənan isə inandığına doğru bütün iradəsilə can atan, onu bu yoldan saxlaya biləcək hər şeyə arxa çevirən bir qəhrəmandır. Elə ona görə də o, özünə süni maneələr yaratmaqla ruhuna əzab

verir. Təbiətin əksinə getməyə çalışır. Bu eşqin qarşısında dayanmağa gücü yetməyəndə isə məhv olur. Bu məhvi onun ölümü, uçuruma atılması ilə deyil, arzuladığı tarazlığı qoruyub saxlaya bilməməsindən doğur.

Maksimalist olduğundan etiqadında bir yanlışlığa yol verməmək üçün onu alçaldacaq ehtirasın qaynağı olan qadınlardan qaçan Sənan elə maksimalistliyi səbəbiylə də eşqində qalib olmaq üçün böyük səy göstərir. Əsərin sonrakı gedişindən də məlum olur ki, əslində Sənan qəlbində etiqadı qoruyub saxlamışdır. Lakin, zahirdə istəyinə nail olmaq, qələbə qazanmaq, idealında yaşatdığı Xumara qovuşmaq naminə Papasın əlindən şərab alıb içir, xristianlığın atributu olan xaçı boğazından asır, Quranı atəşdə yandırmağa razı olur və donuz çobanı olmaq şərtini qəbul edir. Bütün bunlar Sənanın maksimalistliyindən irəli gələrək eşqində də kamilliyə can atdığı üçün idi. Serqonun təklif etdiyi şərabı "adətim səncə bəllidir, yahu" deyərək içməkdən imtina edən Sənan Papasın da etiraf etdiyi kimi "yenə də əvvəlki tək Quran oxuyur, namaz qılır, islama qarşı hörmət başlayır". Bütün bu söylənilənlər Sənanın dindən uzaqlaşaraq küfr yoluna qədəm qoymadığını deməyə əsas verir. O, sadəcə olaraq etiqadda ifrata vardığı kimi, eşqində də ifrata varır.

Seyx Sənanın faciəsi həm də bir faciə qəhrəmanı kimi mühiti ilə konfliktə girməsindədir. Mühiti bir orqanizm kimi qiymətləndirsək, Şeyx Sənan orada yad cismə çevrilir və yad cisim isə, təbiidir ki, etirazla qarşılanmalı, mühit tərəfindən inkar və məhv edilməlidir [6, s. 137]. Eyni hadisə Sənanın da başına gəlir. Sənan onu əhatə edən mühitə görə daha əqidəli idi. Onu əhatə edən mühit isə onun canını sıxırdı. Onu əhatə edən təqlidçilərdən qaçmağa, daha zəkalı, düşünən, dərk edən və inandığına əməl edən məsləkdaşlar aramağa çalışır. Elə buna görə də dini təbliğ etmək üçün böyük bir missiyaya başlayır. Sənan bu yolla yeni əqidə yoldaşları tapa biləcəyini ümid edir. Sənan Dərviş, Özdəmir, Oğuz kimi qəhrəmanların simasında axtardığını həqiqətən də tapır. Sənanın missionerlik fəaliyyəti ilə gəlib çıxdığı Qafqazda İslam dini onu əhatə edən Ərabistanda olduğu kimi, hələ adətləşməmişdi. Adət dinin, əməlin əsl mahiyyətini unutdurur. Sənanı əhatə edən şeyxlərin əksəriyyəti isə zahiri atributlarla kifayətlənərək, ibadətin əsl mahiyyətini unutmuşdular. Namaz əhli ibadətdən öncə əhli ibadət olmalıdır. Şeyx Mərvən kimiləri isə ibadətin feli hissəsinə diqqət kəsilərək əsl mahiyyətindən uzaqlaşmış, düşünən idrak əhlinə qarşı düşmən mövqeyi tutmuşdurlar.

"Şeyx Sənan" faciəsi Cavidin insan və yaradılış haqqında olan fəlsəfi fikirlərinin davamı kimi xüsusi maraq doğurur. Şeyx Sənanın yaşadığı Mədinə mühiti onun üçün həqiqi bir cənnətdir, onun gözünə görünən cənnət lövhələri isə şeytan vəsvəsəsindən başqa bir şey deyildir. Və Şeyx Sənanın faciəsi bundadır ki, o, həqiqi dəyərlə saxta dəyəri, ilahi məhəbbətlə şeytani məhəbbəti bir-birindən ayırd edə bilmir [3, s. 19].

Gözəl gürcü qızı Xumara aşiq olduqdan sonra Sənanın daxilində şeyx və aşiqin amansız mübarizəsi başlanır. İlk baxışda Aşiq Sənan Şeyx Sənana qalib gəlir. Böyük din təəsübkeşi Şeyx Sənan öz eşqi yolunda etiqadından imtina edir, onu eşqinə qurban verir. Hüseyn Cavid bunu maksimum həddə, hətta psixoloji inanılmazlıq həddinə çatdırmaq üçün dramatik kolliziyanı az qala ifrat dərəcədə gərginləşdirir - Şeyx şərab içir, Quranı yandırmağa razılıq verir, donuz otarır. Əslində isə Böyük Din təmsilçisi Böyük Aşiq təmsilçisinə sevgisinin sübutu üçün güzəştə gedir. Sənan etiqadına sadiq qalaraq eşqi üçün ondan tələb olunan qurbanları verməkdən çəkinmir. Bütün bunları düşünərək edir. Şeyx Sənan bilir ki "Hökmü-Quran ilələbəd ucalır, yaxılan həp kağız, mürəkkəbdir". O, iman əhli olduğu üçün Quranın Yaradıcı tərəfindən qorunduğuna yəqinlikə əmindir, kitaba deyil kəlama dəyər verir. Kitabı müqəddəsləşdirib daşıdığı kəlamı unudanlara kiçik bir dərs verir. Quran bir kağız parçası deyil, Quran yaşam qanunudur. Kitabı yandırmaqla bu qanunların hökmünü silmək mümkün deyil. Sənanın donuz otarmağa razılıq verməsinin başqa bir mənası var. Z.Əkbərov Hüseyn Cavidin "Seyx Sənan" faciəsini tədqiq edərkən bu məsələyə sufi düşüncə tərzi ilə yanaşmağı tövsiyyə edir: "Sənanın donuz otarması epizodu da sufiyanə-mistik mənada başa düşülməlidir. Bizcə, donuz mənəvi cəhətdən təkmilləşmə prosesi keçirən sufi mürşidinə mane olacaq nəfsin rəmzlərindən biri kimi işlədilmişdir. Şeyx Sənan öz məhbubu olan Allahına çatmaq üçün bir müddət nəfsi-əmmarəsini (donuzu) güdməli, dinə müğayır, pis əməllərdən çəkinmək üçün öz iradəsinə hakim olmalı idi" [3, s. 20].

Z.Ələkbərovun yuxarıda söylədiyi fikirlə isə bir sıra tədqiqatçılar razılaşmışlar. Belə ki, burada əsas amil Sənanın maksimalistliyidir. Etiqadında kamil olmağa çalışan Sənan eşqdən imtina etdiyi

kimi, təbiilik qarşısında məğlub olanda da eşqdə kamil olmağa cəhd göstərir. Ona təklif olunan hər rəzalatə bir aşiq düşüncəsi ilə yanaşır. Bütün bunlar Sənan kimi maksimalist bir aşiqin sevgi etiraflarıdır.

H.Cavidin bədii yaradıcılığında əsaslandığı metodoloji prinsiplərdə klassik şərqin rasionalist filosofları kimi din və fəlsəfə bir-birindən ayrılmırdı. "Şeyx Sənan"da Şeyx Kəbirin dili ilə söylənən aşağıdakı misralar, eyni zamanda, Cavidin özü üçün də əsas idi.

Feyləsufanə ruha malik olan
Hərgiz ayrı yaşamaz tanrıdan [5, s. 19].

"Şeyx Sənan" əsəri Şərq sufi ədəbiyyatının ənənəvi mövzularından birində yazılmışdır. H.Cavid "Şeyx Sənan" da təsəvvüfi bir eşqlə haqqa qovuşmağın məqam ardıcıllıqlarını süjeti əlaqələndirən əsas həlqələrə çevirmişdir. Həmin daşlaşmış elementlərə, yeni poetik don geydirən H.Cavid "Şeyx Sənan"ı təsəvvüf təməlimdən uzaqlaşdırmır, əksinə, əsrin başlanğıcında bu əsəri ilə bütün dərəcələrdən keçidini və çıxdığı yolu başa vurduğunu göstərərək, sufizm haqda poetik yolla məlumat verir.

Əsərin ilk pərdəsindən mürşidinin qızı Zəhranın Şeyx Sənan haqqında narahatlıqları ilə rastlaşırıq. O, Şeyx Əbuzərdən Sənanın yənə də xəstələnib-xəstələnməməsini soruşur. Şeyx Əbuzərin verdiyi cavabdan artıq Sənanın sufiyanə vəziyyətlərə düşməsi aydınlaşır:

Qoşuyor hər səhər biyabanə,
Həm də əsla qarışmaz insanə,
Hal pəjmürdə sanki bir məcnun [5, s. 9].

Təsəvvüf poeziyasında gecə, zülmət anlaşılmayan sirr, həqiqəti örtən hicab mənasında, məcnun isə haqq aşiqi anlamında işlənir. Sənanın gecələr uyumaması, biyabana qaçması, qaranlığın, sirrin içinə girib onu qaldırmaq cəhdini, məcnunluğu isə həqiqətə çatmaq üçün eşqə, cəzbəyə düşməsini bildirir. Zəhranın sözlərindən Sənanın zahiri gözəlliyi ilə batini kamilliyinin bir-birini tamamladığını öyrənirik.

Təsəvvüfdə zahir batinin məcazıdır. Sufilərin dəyərləndirmələrinə müvəfiq olaraq Sənanın Zəhraya nisbətdə bir elə nəsil-nəcabtə malik olmaması ona alçaqlıq gətirmir. Sənan və Zəhra qarşılaşdıqda Zəhra onun verdiyi vədlərə xilaf çıxmasından gileylənir. Sənan ondan ayrılmağın qeyri-mümkünlüyünü söyləyir. Zəhranın (sufizmə görə cismani, zahiri, məcazi, ötəri eşqin) Sənana sarıldığı bir vaxtda (cəhalət, bəsirət gözünün örtüyü) qalxır, "təbii mələk qiyafətində olan Xumar görünərək Sənanı yüksəklərə (əbədi, həqiqi, ilahi eşqə) səsləyir:

Şeyx, gəl, gəl! Sevimli Sənan, gəl!
Sana layiq deyil, o yer, yüksəl! [5, s. 27].

Bəsirət gözünün açılışı ilə həqiqətin görünməsi sufi dünya görüşünün əsas prinsiplərindən biridir. Sufizmin əsasında dayanan daxili göz və qulaq İslam dininin əsas müddəaları da yaxından səsləşir. İslama görə, insanı başqa yaranmışlardan ayıran düşüncə "batin rəsulu" olaraq yaradanı ona tanıdır. İnsanın "zahir rəsulu" Peyğəmbər (s) Allahdan gələn hökmləri vəhy yolu ilə alıb bizə çatdırır. Təsəvvüfdə batin rəsulu mənasında bəsirət gözunə geniş yer verilir. Çünki, onsuz nə Tanrını, nə də onun zahir rəsulunu dərk etmək qeyri-mümkündür. Xumarı görən Sənan təsavvüfdə vəcd hal, kimi mənalandırılan "bayılma" keçirir. Məcnunə, pəjmürdə hallara düşən Sənanın vəziyyətini anlamayanlar onun tövhidə şübhə etməsini, inanmadığını söyləyirlər. Əslində isə, əsərdə təsəvvüfə uyğun olaraq tövhid mərhələlərlə verilib. Şeyx Nəim və Şeyx Mərvan Şeyx Sənanın xaliqi görməyincə pərəstiş etməyəcəyini söyləməsini küfr kimi qiymətləndirərək, zahiri biliklərə şübhə ilə yanaşmasını həqiqətdən uzaqlaşması kimi səciyyələndirirlər. Şeyx Kəbir isə Sənanın vəziyyətini haqqa doğru cəzbə düşmə, mərifət dərəcəsinə doğru yüksəlmə kimi dəyərləndirir.

Bu baxımdan Sənanın vəcd halı onun Tövhid yolunda "elm-əl-yəqin" pilləsindən, "ayn ol-yəqin"ə keçididir. Dərvişin hansı məqamda olduğunu mürşidi bilir, ona lazımi yol göstərir və məqamları sıxıntıya düşmədən keçməsinə yardımçı olur. Şeyx Sənanın da küfrə düşmədiyini. Tövhid yolunda daha yüksək məqama daxil olduğunu mürşidi Şeyx Kəbir görür və ona lazımi məsləhətlər verir. Şeyx Kəbir Sənana həqiqət yolunda qarşıya çıxan hicabı özündən uzaqlaşdırmağı, nəfsinə, maddi olana ötəri baxıb, üstün gəlməyi məsləhət görür. Mürşidi Sənana əgər alçalsa yalnız qadına qarşı olan ehtirası ilə alçalacağını söylədiyi an Sənan cavab verir ki, "Sevdiyim yalnız eşqi-ruhani..." [5, s. 27]. Lakin bu anda gözünə görünən Xumarın xəyalına üz tutub deyir:

- Aman!...

Mən şaşırdım. Saqın, inanma! [5, s. 28].

Bu epizoddan Sənanın gözünə görünənin həqiqi mahiyyətini qədərincə dərk etmədiyi, sınaqlara ehtiyacı olduğu görünür. Ona görə də müəllif onun başqa hisslərdən uzaqlaşaraq ilahi eşqə çatması üçün müəyyən bir zamanı ayırır. Birinci və ikinci səhnə arasında keçilən on il çətin ibadət və ziyarətlə məcazi eşqdən həqiqi eşqə keçid müddətidir. "Eşq sevginin son həddə varmasıdır. Sufilər eşqi iki növə ayırırlar: Eşq-i məcazi, eşq-i Həqiq. Yəni keçici eşq, həqiqi eşq" [7, s. 35]. Əks cinsə qarşı olan sevgi həqiqi eşqin məcazi hesab olunduğu üçün ötəri mahiyyət daşıyır və həqiqi eşq üçün keçid hesab olunur. Bu mənada Şeyx Sənanın Zəhraya olan eşqi məcazi, Xumara vurğunluğu isə həqiqi eşqdir. Lakin başlanğıcda vəcdlə Xumara doğru can atan Sənan özü hələ bunu dərk edə bilmir. Ona görə də onun növbəti keçəcəyi yollar zəruriləşir.

Belə ki, 10 il sonra susuz səhrada – Məkkə yolunda təsvir olunan Sənan kəramət sahibi, övliya kimi tanınsa da, hələ Həqiqət mərhələsinə çatmamışdır. Bu mərhələdə də Sənan üçün hələ bir çox qaranlıqların, aydınlaşmamış məqamların qaldığının şahidi oluruq. O, "qadın fəlakətindən" qorunmaq üçün özündə qadınlara qarşı nifrət tərbiyə etməyə çalışır, bütün dəhşətlərin səbəbkarının qadın olduğunu düşünərək onu "doğub-doğurduğu" üçün günahlandırır, qadını insanı "haqdan ayrı salan" bir varlıq kimi qiymətləndirir. Sənanın daxili təlatümlərini göstərməklə bərabər, artıq qadın gözəlliyinə, ülviyyətinə qarşı da özündə ilahi bir münasibət tərbiyə etdiyini aydınlaşdırır. O, məcazi eşqdən uzaqlaşaraq həqiqi eşq dairəsinə daxil olur.

Onu Zəhradan ayırdıqdan sonra Qafqazda bir dağ ətəyində görürük. Peyğəmbərə ilahi vehylər Hərra dağında çatdığı kimi Sənan da həqiqi eşq məkanına qaranlıq gecələrin qoynuna qaçdıqdan susuz səhralardan keçdikdən sonra gəlib yetişdiyi Qafqaz dağlarında çatır. O burada xəyala daldığı vaxt musiqi sədaları altında oxunan bir mahnı eşidilir. Belə qeyri-adi bir məqamda Sənan ağ geyimli, nurani bir dərvişlə rastlaşır. Dərviş təsəvvüflə bağlı bir obraz olmaqla, həm də təsəvvüfi əlamətlər daşıyır kütləyə dəli, kar, lal, adamayovuşmaz görünür. Sənan dərvişin ruhundakı pərişanlığı və tərəddüdləri hiss edir:

Sənanla Dərvişin rastlaşması səhnəsi, onların dialoqu tədqiqatçıların "Şeyx Sənan"ın din və təriqət əleyhinə yazıldığını, təsəvvüfü tənqid etdiyini əsaslandırmağa çalışdıqları zaman söykəndikləri əsas məqamdır. Təsəvvüfdə divanəlik ilahi eşqə düşmə, pərvanə özünü nura doğru atıb, nurda varlığını yox etmə mənasındadır. Şeyx də vaxtilə Sənanın keçdiyi məqamları keçmişdir, ona görə də "babam heyrət, anamdır şübhə..." deyir. Pəjmürdəlik və divanəlik sufilikdə aləmin seyrinə və dərkinə yönəldilmiş yaxın anlayışlardır. Şəriət və təriqətdən kənar olub, həqiqət istədiyini söyləyən Dərviş, təsəvvüfi mənada məqamca Sənandan qabaqdadır, çünki Sənan onunla qarşılaşdığı vaxt hələ təriqəti başa vurub, həqiqətə çatmamışdı. Təriqət keçilən olsa da, həqiqətə çatdıran zəruri bir yoldur "Şəriətdən, təriqətdən kənar" olub, həqiqət aramaq şəriət və təriqətin inkarı yox, fərdin ilahi varlığa doğru dayanmadan can atmasıdır.

Sənan əsər boyu bir neçə dəfə öz ağlı ilə hərəkət etməyə çalışır, seçim imkanı əldə edir. Ağıl ilə eşq arasındakı bu ziddiyyət də qəhrəmanın daxili psixoloji sarsıntılarına səbəb olur. Ancaq dəliliklə aqillik bir-birini əvəz etdikcə qəhrəmanın xarakteri təkamül edir, o sanki röyadan ayılaraq həqiqətin təmiz ruhunun gözləri ilə seyr edir. Beləliklə də, Sənan özü ilə adi insanlar arasındakı fərqi anlayır, bir şəxsiyyət olaraq müdrikləşdiyini dərk edir.

Sənanın Xumarla birlikdə uçuruma atılması - onun bu cəmiyyətdən qaçmasının bir formasıdır. Ziddiyyətlər, ixtilaflar, ədavətlər, qətl və qarətlər, qırğınlar içində çırpınan bəşəriyyətdən qəhrəmanın qaçması- bütün bu qeyri-insani sifətlərə bir etiraz, barışmazlıq əlaməti kimi romantizmdə geniş yayılmış ideya-estetik vasitələrdəndir.

Uçurumdan Kür çayına atılmış aşiqlərdən biri - Xumar həlak olur, o biri – Sənan isə sağ qalaraq, təbii ki, sevgilisini xilas etməyə çalışır, onu qucağına alıb sudan çıxarır. Bir fədakar aşiq-qəhrəman kimi Şeyx Sənanın səciyyələndirilməsində bu səhnənin böyük bədii funksiyası vardır. Lakin bir azdan sonra məcnunluq yenə üstün gəlir və Sənan eşq yolunda öz canını qurban verərək kamala çatmış olur.

Nəticə. Sənanın ölümü heç də faciə kimi mənalandırıla bilməz. Bu aşiqin kamala çatması, Dərvişin dili ilə desək, ilahi mərtəbəyə yüksəlməsidir. Əsərin sonunda Papasla Ümumun dialoqu da bu

nikbin sonluğu nəzərə çatdırmaq bədii funksiyasını daşıyır. Yəni, tamaşaçı-oxucu şüurunun dərinliklərində bilir ki, iki aşiqin vüsala çatmadan dünyadan vaxtsız getməsi, cahil və nadanlarla qeyri-bərabər mübarizədə həyatlarını itirməsi əslində faciədir. Ancaq müəllif öz nikbinliyi ilə sübut edir ki, bu faciə deyil və əslində bütün insanlar eşq etiqad dilemması qarşısında tarazlığı pozmasaydılar dünyanın özü də cənnətə dönərdi. Demək, Sənanla Xumar Cavidin öz sənət dünyasında yaratdığı cənnətin ilk sakinləri kimi xoşbəxtdirlər və onların ölümü yalnız insanların yaxınlaşmasına və ziddiyyətlərin aradan qaldırılmasına xidmət göstərir. Beləliklə, eşq və etiqadın toqquşmasında "kamil eşq" qalib gəlir ki, bu da "məhəbbətdir ən böyük din" deyən Cavidin ideya-estetik konsepsiyasına tamamilə uyğun gəlir. Bu konsepsiyanın basqa bir bədii teoremlə sübutunu Hüseyn Cavidin ən böyük əsərlərindən biri olan İblis faciəsində görürük [4, s. 43].

İstifadə edimiş ədəbiyyat

1. Əfəndiyev T.İ. Hüseyn Cavidin ideyalar aləmi. Bakı: Yazıçı, 1985, 205s.
2. Əfəndiyev T.İ. Romantik dramaturgiyada tarixilik və bədiilik: (Fil. elm. nam. dis. almaq üçün elmi məruzə). Bakı, 1999, 85 s.
3. Əkborov Z.A. Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm. 1977. 148 s.
4. Əlioglu M (Vəliyev) Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr. 1975, 215.
5. H.Cavid. Əsərləri, 4 cilddə, III c., Bakı: Yazıçı, 1984, 377 s.
6. Qarayev Y.V.Tənqid: problemlər, portretlər. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1976, 212 s.
7. Abdülbaki G. 100 Soruda tasavvüf. İstanbul: Gerçek yayınevi, 1969, 222 s.
8. Əliyev K. Azərbaycan romantizminin poetikası. Bakı, 2006,160 s.

FİRİDUN BƏY KÖÇƏRLİNİN AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNİN İNKİŞAFINDA ROLU VƏ PEDAQOJİ-METODİKİ FƏALİYYƏTİ

Fidan Abdullayeva*

Abstract

The role and pedagogical-methodical activity of Firidun bay Kocharli in the development of the history of Azerbaijan literature

In the article, the ideas of national independence prevailed in the educational history of Azerbaijan, in the teaching of Azerbaijani literature and language, in the development of our education in the late 19th and early 20th centuries, our famous educators - Firidun bey Kocharli, Nariman Narimanov, Farhad Aghazade, Rashid Efandiyev, Najaf bey Vazirov, etc. activity is mentioned. The role of Firidun Bey Kocharli in the development of the history of Azerbaijani literature, pedagogical and methodical activities are highlighted. In addition, the work "Balalara hediyye" was analyzed. The work done by Mr.Firidun for the enlightenment of our people has been done.

Keywords: *Literary language, teaching literary language, educator-scientist, "Azerbaycan edebiyyati", "Balalara hediyye", didactic issues.*

Giriş. Respublikamız müstəqillik qazandıqdan sonra təhsil, təlim-tərbiyə sahəsində bir sıra mütərəqqi işlər həyata keçirilmiş, yeni vəzifələr irəli sürülmüşdür. Azərbaycan məktəbi dünya mədəniyyət xəzinəsinin inciləri ilə yanaşı xalqımızın elm, mədəniyyət, incəsənət sahələrində qazandığı nailiyyətləri, tariximizi, ənənələrimizi gənc oğlan və qızlara mənimsədən təlim-tərbiyə mərkəzlərinə, Azərbaycan mənəviyyatının, Azərbaycan milli psixologiyasının, dünyagörüşü sisteminin qorunub saxlanıldığı və nəsildən-nəslə ötürüldüyü məbədə çevrilmək imkanı əldə etdi. Həmin dövrdə təhsil sistemində müstəqil dövlət quruculuğunda yaxından iştirak etməli olan milli ruhlu kadrlar hazırlamaq, vətənini sevən, onun mənafeyi ilə yaşayan vətəndaşlar tərbiyə etmək kimi tarixi vəzifənin öhdəsindən gələ bilmək üçün zəruri, düşünülmüş islahatçılıq hərəkatı həyata keçirilməli idi.

1993-cü ilin iyunundan bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də tənəzzülün, təhlükəli dağıdıcılıq hallarının qarşısı alındı, milli təhsil sisteminin bərpası və yeni şəraitin tələblərinə uyğun olaraq daha da inkişaf etdirilməsi üçün əlverişli siyasi, iqtisadi, hüquqi, əxlaqi-mənəvi mühit yarandı.

Əsas hissə. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra digər sahələrdə olduğu kimi, təhsil sahəsində də böyük irəliləyişlər özünü göstərdi, təhsilin inkişafı prioritet məsələyə çevrildi. Bu sahədə uğur əldə edib yüksəlməyi qarşısına məqsəd qoyan çox sayda pedaqoqlar, müəllimlər, alimlər var idi ki, onlar bir çox uğurlara imza atdılar. Bir cəmiyyəti təhsilsiz, cəhalət içərisində təsəvvür etmək o cəmiyyətin sonu deməkdir. Azərbaycan da demokratik və hüquqi respublika olmaqla, vətəninin ənənə və azadlıq amalına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq, ümumbəşəri və milli dəyərlərə də hörmət göstərməyi bacaran müstəqil, özünü daim inkişaf etdirən, fəal vətəndaş yetişdirməyi qarşısına məqsəd qoyub. Milli müstəqilik ideyaları Azərbaycanın təhsil tarixində, xüsusən də, ana dilimiz olan Azərbaycan dilinin tədrisi tarixində mühüm üstünlük təşkil etmişdir. XIX əsrin sonu, XX əsrin əvvəlləri ədiblərimizin yaradıcılığında ən vacib problem olaraq səsləndirilən vətəndaşlıq, humanizm, xəlqilik, elmilik kimi məsələlər xalqı bu yolda silahlandırırdı [4, s. 4].

Azərbaycan dilinin tədrisi bugünkü səviyyəyə gəlib çatması üçün olduqca mürəkkəb bir yol keçmişdir . Ədəbi dilimizin formalaşması bu dilin tədris olunmasına şərait yaratmışdır. Tarixi sələflərimiz hesab olunan Nəcəf bəy Vəzirov, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Abdulla Şaiq, Rəşid bəy Əfəndiyev, Abbas Səhhət, Firudin bəy Köçərli, Fərhad bəy Ağazadə və başqaları yaşadığı dövrdə millətinin maddi-mənəvi, elmi yüksəlişində, ölkənin təhsil səviyyəsinin yüksək səviyyəyə qalxmasında böyük rol oynamışlar. Onların məhz doğma dilimizdə yazıb-yaratması ana dilinin inkişafını da təmin edərək ədəbixəzinəmizi zənginləşdirmişdir [4, s. 5].
Xalqımız müstəqilliyini qazandıqdan sonra təhsilə olan münasibət müsbət yöndə dəyişmişdir. Təhsil

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: fidan19abdullayeva@gmail.com. Elmi rəhbər:*** *Dos. Rəhilə Quliyeva.*

sisteminin ümumi məzmunu, təhsil standartlarının müəyyən olunması və buna uyğun təhsilalanların səviyyəsi, təhsil nəticələri təhsil sisteminin keyfiyyəti olaraq anlaşılır. Təhsilin nəticələri yalnız tədris prosesi zamanı əldə olunan bilik və bacarıqlar deyil, eyni zamanda cəmiyyətin inkişafına münasibətini göstərən şəxsi keyfiyyətlərdir.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra təhsil sahəsində aparılan islahatlar da diqqətəlayiqdir. Təhsil məzmunuda yeni dəyişikliklər edildi, bir çox yeni məktəblər istifadəyə verildi, dərsliklər, proqramlar tərtib olundu. 1999-cu ildən etibarən təhsildə qəbul olunan İslahat Proqramı işlərin daha sürətlə yerinə yetirilməsinə şərait yaratdı. Bu İslahat Proqramının məqsədi təhsil səviyyəsinin qaldırılması, yeni dərslik və proqramların tərtibi, təhsildə maddi-texniki bazanın təkmilləşdirilməsi məsələləri idi.

Müasir Azərbaycan ədəbi dilimiz mürəkkəb inkişaf yolu keçmişdir. Azərbaycan ədəbi dilinin inkişaf mərhələləri belə göstərilir:

I. Dövr Azərbaycan ədəbi dilinin formalaşması və inkişafı (V-XVIII əsrlər)

II. Dövr Azərbaycan ədəbi dilinin tam sabitləşməsi (XIX əsr)

III. Dövr Azərbaycan ədəbi dilinin geniş inkişaf yolu.

III.dövr özü də bu mərhələlərdən ibarətdir:
1-ci mərhələ- 1901-1920
2-ci mərhələ- 1921-1950
3-cü mərhələ- 1951-1980
4-cü mərhələ- 1981-1990
5-ci mərhələ- 1991-ci ildən etibarən [3, s. 39]

XX əsrin əvvəllərində müxtəlif istiqamətlərdə fəaliyyət göstərən Azərbaycan ədəbi tənqidini düşündürən bir sıra məsələlər var idi, hansı ki, buraya daha çox realizm, xəlqilik, klassik irsə münasibət daxil idi. Məhz bu dönəmdə nəşr olunan "Həyat", "Təkamül", "İrşad", "Tərəqqi", "Açıq söz", "Azərbaycan" və digər mətbuat orqanlarında tənqid və ədəbiyyat məsələlərinə yerverilmişdir.

XX yüzilliyin başlanğıcında Azərbaycan nəzəri-estetik fikrinin keçdiyi tarixi inkişaf yolu, onun əhəmiyyəti, istiqamətləri görkəmli Azərbaycan mütəfəkkiri Firidun bəy Köçərlinin ədəbiyyatşünaslıq fəaliyyətində yer almışdır. Qələminin müqəddəs vəzifəsi daima xalqının rifah və xoşbəxtliyi üçün xidmət etmək olan Firidun bəy yazıçı, publisist, ictimai xadim olmaqla Azərbaycan tarixində dərin iz qoymuş şəxslərdəndir. 57 il ömür sürməsinə baxmayaraq, millətinin maariflənməsini, mədəni tərəqqiyə yüksəlməsini, cəhalət və savadsızlığın aradan qaldırılmasını qarşısına məqsəd qoymuş və öz amalına 40 illik yaradıcılıq dövründə çatmışdır.

Dövrün ədəbiyyatşünaslıq araşdırmaçısı Yusif Vəzir Çəmənzəminli görkəmli ədəbiyyatşünas Köçərlininin Azərbaycan ədəbiyyatı ilə bağlı tədqiqat işlərinin nəçri ilə bağlı məsələlərin təxirəsalınmaz olduğunu qeyd etmişdir: "Ədəbiyyatımızı müntəzəm şəklə salmaq və onu sistem halında hər kəsə tanıtmaq çox əhəmiyyətli məsələdir. Bu sahədə yigirmi ildən bəri çalışmasilə və nizama salmasilə məşhur Firidun bəy Köçərlinskidir.

Firidun bəy ən müqtədir, ən sevimli ədiblərimizdəndir. Bu şəxs ədəbiyyat tariximizi yazmaqla keçmişimizə yeni ruh, yeni həyat bağışladı. Şairlərimizin ruhlarını canlandıraraq həyati-fikrimizi təbii yoluna saldı. Çox heyf ki... Onun çox az əsərləri oxuculara çatmış, ən kədərlisi isə "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" əsəri hələ də çap olunmamış olaraq qalıb" [5, s. 27].

Ümumiyyətlə, realist bədii nəsrdə, dramaturgiya sahəsində Cəlil Məmmədquluzadənin, satirik şeirdə Mirzə Ələkbər Sabirin, milli musiqimizin yüksəlişində dahi sənətkarımız Üzeyir Hacıbəyovun misilsiz rolu olubsa, gördüyü işlərlə Azərbaycan ədəbiyyatı tarixi elmini zirvələrə qaldıran da məhz Firidun bəy Köçərli olub.

XIX əsrin ikinci yarısından başlayaraq Rusiya İmperiyasının ucqarlarında, o cümlədən Azərbaycanda çarizmin yeritdiyi ruslaşdırma və ayrıseçkilik siyasətinə qarşı, habelə milli dünyəvi məktəb uğrunda mübarizə güclənirdi. XIX əsrin sonlarından başlayaraq, Azərbaycanda maarifçilik ideyası və təşəbbüsünün başında duran milli mətbuatımızın banisi Həsən bəy Zərdabi və onun ətrafında toplanmış dövrün digər mütərəqqi ziyalıları "Əkinçi" qəzetinin demək olar ki, hər bir

nömrəsində xalqı cəhalətə, geriliyə qarşı mübarizəyə səsləyir, xalqa - maarif, mədəniyyət və məktəb deyərək öz səslərini ucaldırdılar. XIX əsrin II yarısında Azərbaycanda milli şüurun oyanmasında və onun formalaşmasında, maarifçilik hərəkatının yaranmasında, mütərəqqi fikrin inkişafında Həsən bəy Zərdabi və onun" Əkinçi" qəzetinin böyük xidməti olmuşdur. Xalqın qəflət yuxusundan ayılmasında, maarif, elm, mədəniyyət meydanına qədəm qoymasında qəzetin rolunu yüksək qiymətləndirən xalqımızın digər mütərəqqi ziyalısı Firidin bəy Köçərlinin "İqbal", "Kaspi", "İrşad", "Kavkaz", "Zaqafqaziya" və başqa qəzetlərdə dərc etdirdiyi məqalə və materialları bu məqsədə xidmət edirdi.

Ziyalı ailəsində dünyaya göz açan Köçərli dövrün ziyalısı və pedaqoqu Aleksandr Qriqoryeviç Çernyayevskinin təklif və dəvəti ilə Zaqafqaziya Müəllimlər Seminariyasına gələrək öz taleyini seminariya ilə bağlayır. Bir müddət Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin təlimatçısı, daha sonra isə bu seminariyasının nəzdində açılmış Qazax Qori Müəllimlər Seminariyasının müdiri vəzifəsinə seçilmişdir. Çarizmin xalq maarifi sahəsində yürütdüyü mürtəce siyasətlə əlaqədar olaraq seminariyanın Azərbaycan bölməsi Azərbaycandan uzaqda, Gürcüstanın Qori şəhərində açılmışdır. Lakin bölmənin çar hakimiyyəti tərəfindən açılmasına baxmayaraq, onun yaradılması müsəlman-azərbaycanlı müəllim kadrlarının hazırlanmasında mühüm mərhələ təşkil etmişdir. Qori Seminariyası öz mövcudluğu və fəaliyyəti ilə Azərbaycanda xalq məktəbinin, təhsilvə mədəniyyətin inkişafında müstəsna rol oynamışdır. Bölmənin açıldığı ilk vaxtlarda burada təhsil almaq istəyən tələbə sayının çox az olması şöbənin gələcək varlığına şübhə yaradırdı. Bu səbəbdən rus pedaqoqu Çerniyayevski bölməninfəaliyyətini davam etdirmək məqsədi ilə axtarışlara başlayır və onun bu axtarışları nəticəsiz qalmır. Şuşadan Firidun bəy Köçərli, Səfərəlibəy Vəlibəyov, Baba bəy Səfərəlibəyov, Lənkərandan Teymur bəy Mahmudbəyov, Teymur Bayraməlibəyov, Qazaxdan İsmayıl ağa Vəkilov, Məmmədağa Şıxlinski, Şəkidən Rəşid bəy Əfəndiyev Çernyayevskinin ümidlərini doğruldur və həmin tədris ocağında təhsilalmaq şansı qazanırlar. 1879-cu ildə Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinə Firidun bəy Köçərli ilk azərbaycanlı şagirdlərin sırasında sonralar məşhur pedaqoq kimi yetişmişdir.

Azərbaycan ədəbiyyatı tarixini sistem halına salmaq ideyası Firidun bəy Köçərli tərəfindən irəli sürülmüşdür. Ədəbiyyat tariximizdə Mirzə Fətəli Axundzadə hər nə qədər maarifçiliyin təbliğatçısı olaraq tanınsa da, çoxəsrlik Azərbaycan ədəbi irsini ardıcıllıq və elmilik prinsipləri ilə toplayıb nizama salan da Firidun bəy olmuş və "Azərbaycan ədəbiyyatı" əsərini ərsəyə gətirmişdir. O, hələ İrəvan gimnaziyasında müəllimlik etdiyi zamanlarda bu əsəri yazmaq fikrinə düşmüş, Nizami, Füzuli, Zakir kimi klassikləri olan bir ədəbiyyatın sistemli araşdırılmaması onu belə bir axtarışa sövq etmişdir. Hətta dünya xəzinəsinə qatqısı olan Azərbaycan yazıçılarının özlərinin də klassiklərin yüksək yaradıcılığını danması halları onda daha böyük məsuliyyət hissi yaradırdı. Köçərlinin A.S.Puşkinin "Balıqçı və balıq" adlı nağılının tərcüməsinin resenziyasında Eynəli bəy Soltanov Vaqif, Zakir, Nəbati və başqalarının əsl mənada ədəbiyyatı olmadığını qeyd etmişdir. Bu məsələ ətrafında düşünən Firidun bəy Köçərliyə görə, əgər dahi bir sənətkar qonşu xalqların ədiblərinin yaradıcılığını yüksək qiymətləndirib təqdir edirsə, bəs nə üçün öz ədəbiyyatımızı belə gözardı edə bilir?

Firidun bəy Köçərli bu suallara yalnız tədqiqat zamanı cavab tapa bilir ki, hər dövrdə milli şairlərimiz olsa da, məəttəəssüf, onların qədri nə öz zamanlarında, nə də bu dövrdə bilinir [1, s. 175].

"Artıq aydın olur ki, F.Köçərli bütün həyatını Azərbaycan ədəbiyyatı tarixi materiallarının toplanmasına sərf edərək ədəbiyyatşünaslığımıza müasir ədəbiyyat tarixçiliyi meyarları gətirib. Böyük səbir və təmkinlə milli ədəbiyyatşünaslıq ənənəsi yaradıb və onun gələcək inkişaf istiqamətini müəyyənləşdirib, ədəbiyyat tariximizin metodoloji quruculuğunun əsasını qoyub." Bu sözləri Bəkir Nəbiyev Firidun bəy Köçərli haqqında yazdığı ilk monoqrafiyası olan "Görkəmli tənqidçi və ədəbiyyatşünas" (1963) yazısında qeyd etmişdir: "Əsası böyük Azərbaycan yazıçı-dramaturqu və filosofu, Azərbaycan mədəniyyəti üçün Qərbə ilk "nəfəslik" açanlardan biri olan Mirzə Fətəli Axundzadə tərəfindən qoyulmuş Avropa tipli ədəbiyyatşünaslığın məhz Firidun bəyin əsərləri ilə daha da dolğunlaşması vəsistemli xarakter alması, Azərbaycan elm tarixində mühüm bir hadisədir" [5]. Bu qənaətə gəlirik ki, Firidun bəy Köçərli ilk dəfə olaraq Azərbaycan ədbiyyatşünaslığı sahəsində klassiklərimiz başda olmaqla, yazıçı, şair, sənətkarlarımızın böyük əksəriyyətini əhatə edən ədəbiyyat

tarixi yazıb ərsəyə gətirmişdir.

Firidun bəy tənqidçi olmaqla yanaşı, həm də püxtələşmiş folklorşünas idi. Folklor nümunələrini toplamaqla o, xalqımızın milli-mənəvi dəyərlərinə, tarixinə, keçmişi, bu günü, gələcəyinə də sahib çıxmışdır. Onun topladığı nümunələr yalnız milli mətbuatımızda deyil, xarici ölkələrin mətbuatında da çap olunurdu. Folklorşünaslıq, xüsusilə də, uşaq folkloru ilə yaxından maraqlanması onun ədəbiyyat xəzinəmizə daha qiymətli bir əsər – "Balalara hədiyyə"ni bəxş etməsi ilə nəticələndi. 1912-ci ildə nəşr etdirdiyi bu kitab uşaq ədəbiyyatının ilk nümunəsidir. Doğrudur, Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov, Abdulla Şaiq və başqaları uşaq ədəbiyyatının dəyərli nümunələrini yaradıblar. Lakin onları bir arayatoplamaq, sistemləşdirib dərslik kimi hazırlamaq Köçərlinin ən böyük uğurlarındandır. Böyüklərdən fərqli olaraq, uşaqların həyatı qavraması, onların dünyaya baxış bucağı fərqlidir. Bunu nəzərə alaraq Firidun bəy kitabında toxunduğu mövzuları heyvanlar üzərindən təsvir etmiş, hətta heyvanlarla bağlı illistürasiyalara da yer vermişdir. Hər yazdığı kiçik nağıl və ya təmsilə uyğun təsviri sənət nümunələrinə yer ayırması da kiçik yaşlı uşaqların rəsmə olan böyük marağı, mətndən çox rəsmi daha incəliklərinə qədər izləməsi ilə bağlıdır. "Keçmişdə şan və qüvvət sahibi olan türk milləti öz məişətinə, ayin və adətinə dair yaratdığı qisim-qisim nağıl və hekayələr, gözəl mənzumə və bayatılar, hikmətamiz məsəllər,atalar sözləri, nazik mənalı müəmma və tapmacalar, balalar qəlbi açan düzgülər və yanıltmaclar, heyvanat qisminə məxsus sayaçı sözləri mürur ilə xatirələrdən çıxıbdır və bu halda unudulmaqdadır. O millət ki öz tarixini, dolanacağını, Vətənini və dilini sevir, bu qism əsərləri kəmali şövq və diqqətlə cəm edib ziqiymət sərmayə kimi saxlayır və balalarının ilk təlim və tərbiyəsi onları öyrətməklə başlayır" [2, s. 3].

Bu kitabı oxuyan istər azyaşlıların, istərsə də böyüklərin xoşhal olacağını isə Firidun bəy belə açıqlayır: "Kiçiklər ona görə dərsliyi sevəcək ki, kitab onların dünyasından seçmələrlə zəngindir. Böyüklər isə nümunələri hər oxuduqca öz uşaqlıq illərinə qayıdacaq, xatirələri yenidən onları öz ağuşuna alacaqdır."

Görkəmli pedaqoq "Balalara hədiyyə" kitabında uşaqların psixologiyasını, yaş xüsusiyyətlərini, anlayıb-qavrama səviyyələrini də nəzərə alıb sadə, axıcı süjet xətti olan nümunələr seçib toplamışdır. Bunları oxuduqca körpələrin şadlanacağından əmindir.

1912-ci ilin may ayında İsabəy Aşurbəylinin "Kaspi" mətbəəsində çap olunmuş 102 səhifəlik "Balalara hədiyyə" kitabı iki hissədən ibarətdir və özündə 75 kiçik həcmli didaktik əsər cəmləşdirmişdir. Pedaqoq uşaqların yaş səviyyəsini nəzərə alaraq birinci hissəyə 49, ikinci hissəyə 26 didaktik kiçik həcmli nümunə yerləşdirmişdir. Müxtəlif formalı nümunələr- nağıllar, məsəllər, yanıltmaclar, tapmacalar uşaqlar üçün həm sadə və başa düşülən tərzdə, həm də fəhmlərinə yaxın tərtib olunmuşdur.

Dərslikdə bizi ilk olaraq, şifahi söz sənətinin toplanmasının vacibliyi vəəhəmiyyətindən bəhs edən müqəddimə qarşılayır. Növbədə ilk kiçik həcmli, bir neçə dialoqdan ibarət "İt və pişik" hekayəsi dayanır. Ümumiyyətlə, yazıçı heyvanlar üzərindən uşaqlara müsbət və mənfi sayılan keyfiyyətləri izah edir, insanların həyatda mənfi münasibət qazanmalarının səbəbləri və yaxud pis insanların etdiyi xoşagəlməz hərəkətləri heyvanlar vasitəsi ilə izah edir. Çünki uşaqlar elə bir mürəkkəb psixologiyaya sahib olurlar ki, onları hər an istənilən istiqamətə yönəltmək mümkündür:

"İt dedi:

1. Mən heç qocalmazdım, amma məni pişiyin dərdi qocaltdı.Dedilər:
2. Niyə bəs?

Dedi:

3. Çöllərdə qalıb, dalını ayaza verən mən oluram, gecələr sabaha kimi yatmayan, evi- eşiyi qoruyan mən oluram, amma elə ki istəyirəm, başımı qapıdan içəri uzadam, bupişikciyəz əlini uzadıb üzümü-gözümü cırmaqlayır."

Elə bu kiçik nümunəyə uyğun məsəllər, tapmacalar kitabda yerləşdirilib. Tapmaca: - "Bizdə bir kişi var,

Xor-xor yatışı var."

Məsəl: "İt it ilə dalaşdı, yolçunun işi avanda düşdü", "İtin axmağı qaysabadan pay umar", "İt hürər, karvan keçər."

Firidun bəy Köçərlinin qruplaşdırdığı “Pıspısa xanım və Siçan bəy”, “Göyçək Fatmanın nağılı”, “Ərincək it”, “Xoruz və padşah” və s. kimi nağıl, alleqorik hekayələr öz dövrü üçün sağlam ideya və məzmun daşıyırdı. “Ərincək it” alleqorik hekayəsi bu baxımdan maraqlıdır.

“Qış olanda it deyir:

4. Yaz olaydı, özümə bir çul toxuyaydım.Elə ki yaz gəlir, it tənbəlləşib deyir:
5. Eh, kim əyirib, kim toxuyacaq?!”

Ardınca verilən bir neçə məsəl: “Bu günün işini sabaha qoyma.”, “Əldən qalan əlli il qalar”, “Qalan işə qar yağar.” uşaqları əməyə alışdırmaq, hər işin vaxtında yerinə yetirilməsinin vacibliyini izah edir.

Nümunələrə uyğun tapmacaların hazırlanması uşaqların əqli və zehni inkişafı üçün çox əhəmiyyətli hesab olunub. Kitabın sonunda 45 tapmacanın da cavabı yer alıb.

Ustadımız Köçərli təkcə bunlarla qənaətlənməyib kitabda bayatılara, laylalara, sayaçısözlərə, nəğmələrə də yer verib. Qasım bəy Zakirin “Durnalara xitab” qoşması vətənə məhəbbət, vətən həsrəti hissləri ilə dolub daşır. Layla nümunələrində analarınöz körpələrinə olan sevgiləri, onlarla bağlı arzu və istəkləri, xəyal və düşüncələri öz əksini tapır. Firidun bəy deyir ki, necə ki, laylalarda ananın öz övladına sevgisi yer alır, sayaçı sözlərdə də öz qoyunu və ya keçisinə edilən xoş tərifl ərlə qoyun becərənlər də münasibət bildirir. Əgər, ana övladını “balam” deyə səsləyirsə, qoyunsahibi “nənəm” deyə xitab edir. Kitabda verilən uşaqların hafizəsini gücləndirmək, nitqini inkişaf etdirmək, tələffüz vərdişlərinə yiyələndirmək üçün yanıltmaclar da çox vacibdir. “Bazarda nə ucuz? Mis ucuz, küncüt ucuz, duz ucuz.”

Qasım bəy Zakirin “Dəvə və eşşək”, “Tülkü və qurd”, “Tülkü və şir”, İvan Krılovun “Tülkü və üzüm” təmsilləri uşaqların tərbiyəsinə, əxlaqına, dünyagörüşünün formalaşmasına və kamilləşməsinə kömək edir.

Nəticə. Uzun müddət Azərbaycan məktəblərində dərslik kimi istifadə olunan “Balalara hədiyyə” əsəri ilə F.Köçərli uşaqların psixologiyasının, dünyagörüşünün formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərib. Vətənini, xalqını və dilini böyük bir məhəbbətlə sevən F.Köçərli vətənpərvər bir ziyalı kimi "Balalara hədiyyə" kitabında həm yazılı ədəbiyyatdan, həm də şifahi xalq yaradıcılığımızdan dəyərli örnəklər verməklə milli oyanış, maarif və mədəniyyətin yüksəliş məsələsini ön plana çəkib. Firidun bəy Köçərli bu əsəri ilə Azərbaycan folklorşünaslığına yeni ruh, yeni nəfəs gətirib, onu yeni ideya-bədii keyfiyyətlərlə zənginləşdirib. Deməli, F.Köçərli qabaqcıl bir pedaqoq kimi folkloru cəmiyyətdə gənc nəslin tərbiyəsi və savadlanması üçün mühüm vasitələrdən biri hesab edib.

İstifadə edilmiş ədəbiyyat

1. Köçərli F. Azərbaycan ədəbiyyatı. I cild (2 cilddə). Bakı, 2005, 560 s.
2. Köçərli F. Balalara hədiyyə. Bakı: Şərq-Qərb, 2013, 172 s.
3. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild (2 cilddə). Bakı, 2019, 464 s.
4. Məmmədova A. Azərbaycan dilinin tədris tarixi. Bakı, 2011, 137 s.
5. Müasir Azərbaycan ədəbiyyatı. Bakı: Bakı Universiteti, 2007, 504 s.

İnternet resursu

6. http://milliarxiv.gov.az/az/firudin-bey-kocerli [26.04.2024]

POSTMODERN SPEKTRDƏ ÇƏNLİBEL METAFORASI

Aliyə Allahverdiyeva*

Abstract

Chanlibel metaphor in the Postmodern spectrum

Postmodernism is one of the literary directions that carries the spirit of modern times, its active attitude to the archetype of thought, to myth, underlies the fundamental features and its essence. In Azerbaijani literature, we can give examples of works that approach myth on the postmodern border (borderlessness) such as Anar's "White ram, Black ram", Elchinin's "Head", Kemal Abdulla's "Unfinished manuscript", Parviz Jabrail's "In a foreign language", Ilgar Fahmi's "The Fox of Chanlibel" trilogy. In the trilogy "The Fox of Chanlibel", I.Fahmi takes a different path from other postmodern works, in fact he transcends the boundaries of the postmodern and approaches the epic by holding on to the spiritual bond. The distinctive features of the work involved in the study from the epic, the conflict between the palace environment and Chanlibel, reflected in the novel, are dealt with and involved in a comparative analysis. There are two main reasons for justifying chanlibel as an archetype. If one of them is based on the harmony of nature and man, then the other realizes the myth of the ideal state. Eastern and Western postmodernism diverge at the level of different interpretations of the aspect of life, the so-called identification of different moral and aesthetic values undermines the spirit of the original text. The role of myth in the life of society and the individual, the emptiness and absurdism that mythlessness can bring are put forward as final savings.

Keywords: *Azerbaijani literature, Chanlibel, folklore, postmodernism, deconstruction, archetype.*

Giriş. Postmodernizm müasir dövrün ruhunu daşıyan ədəbi istiqamətlərdən biridir, onun düşüncə arxetipinə, mifə aktiv münasibətinin təməlində cərəyanın özül xüsusiyyətləri, mahiyyəti dayanır. Azərbaycan ədəbiyyatında da mifə postmodern sərhəddə (sərhədsizlikdə) yanaşan nümunələr vardır, bunlara Anarın "Ağ qoç, qara qoç", Elçinin "Baş", Kamal Abdullanın "Yarımçıq əlyazma", Pərviz Cəbrayılın "Yad dildə", İlqar Fəhminin "Çənlibel tülküsü" trilogiyası kimi əsərlər misal çəkilə bilər. İ.Fəhmi "Çənlibel tülküsü" üçlüyündə digər postmodern əsərlərdən ayrılan bir yol tutaraq, əslindəysə postmodernizmin sərhədlərini aşaraq, eposa mənəvi bağa tutunaraq yanaşır. Tədqiqata cəlb edilən əsərin dastandan fərqli cəhətləri, romanda əksini tapan saray mühiti ilə Çənlibel qarşıdurması ələ alınaraq, müqayisəli təhlilə cəlb edilir. Çənlibelin arxetip kimi əsaslandırılmasının iki əsas səbəbi vardır. Bunlardan biri təbiət və insan harmoniyasına əsaslanırsa, digəri ideal dövlət mifini reallaşdırır. Şərq və Qərb postmodernizmi həyata baxış aspektinin fərqli interpretasiyası səviyyəsində bir-birindən ayrılır, fərqli mənəvi, estetik dəyərlərin qondarma eyniləşdirilməsi orijinal mətn ruhuna xələl gətirir. Mifin cəmiyyət və fərdin həyatındakı rolu, mifsizliyin gətirə biləcəyi boşluq və absurdizm son qənaət kimi irəli sürülür.

Folklor və postmodernizmin əlaqə və əlaqəsizliyi

Bəşəriyyət tarixi və qoca anarxist

"Ölülərin də yaşayanları tez-tez təqib etməsindən daha başa düşülən bir şey yoxdur"

Jak Derrida

Kanonların büttək sındırıldığı qloballaşan dünyada postmodernizm adlı fenomen sekulyarizasiyanın fərqli bir müstəvidə yansımasıdır. Mənəvi bir hal kimi xarakterizə edilən bu üslubun varoluş səbəbi ikinci dünya müharibəsindən sonrakı deqradasiya hesab edilsə də, əslində həmin ədəbi istiqamət intibahdan bu yana bütün əsas cərəyanların özülü xüsusiyyətlərini özündə unifikasiya edən mikroteleskopik baxış şəklidir. Bu qoca anarxist də reallığa söykənir, ancaq onun reallığı xaosmosdur(xaos və kosmosun vəhdəti).

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: aliya.allahverdiyeva53@gmail.com. Rəyçi:*** *Prof. Vaqif Verdiyev.*

İlk dəfə Rudolf Panvizin əsərlərində diqqət çəkən postmodernizmin nəzəriyyəsi Jean François Liotar, Duqlas Kellner, Stiven Best, Mişel Fuko, Çarles Olsan və s. tədqiqatçılar tərəfindən araşdırılıb və müəyyən dərəcədə sistemləşdirilsə də, tədqiqatlara ehtiyac hələ də pik səviyyədədir. Epistemoloji fəlsəfəyə söykənən bu bədii-fəlsəfi metod struktur psixoanaliz, semiotika, kollaj, montaj, fraqmentallıq, dekonstruksiya, ironiya kimi ünsürləri cəm edir.

Post və modern kəlmələrinin qovuşuğu ilə ifadə olunan bu anarx istiqamətin təməl problemlərindən biri də modernizmlə əlaqəsidir ki, İqtlon, Arnold Toynbi, Çarlz Olsan onu modernizmə qarşı cərəyan olmasını vurğulayırsa, J.F.Liotar, F.Ceymisson, Y.Habermas modernizmin bir təkamülü olduğunda iddialıdırlar. Postmodernizmin nəzəriyyəsini sistemləşdirən kifayət qədər araşdırma aparılsa da, sanki ironiyadan həyat bulmuş bu baxış tərzini cild-cild kitablara belə sığışdırmaq mümkün deyil kimi görünür. Modernizm ekzistensial sancını tablolaşdırdıqdan sonra problemin həlli yolu kimi də düşünülə bilər postmodernizm. O bizə təkcə inandıqlarımıza deyil, buna paralel nəyə inanmaq istədiyimizə, axtardıqlarımıza da şübhə edə bilməyi öyrədir. Mahiyyəti etibarilə hə ilə yox arasında bərqərar, konkretlikdən uzaq, ideyalar kollajı olan postmodernizm haqqındakı fikirlərin hər birində doğruluq payı vardır.

Yeni dövr salnaməsində iyirmi əsrlik bir yol qət etmiş bəşər nəslinin bir mənada aldanışını ifadə edən bu yanılğı fəlsəfəsi Kopernik, Darvin, Freyddən sonra insanoğlunun fikir və inanış (inamsızlıq) təkamülündə zəncirin növbəti halqası təki sıradaki qara dəliyi açmış olur.

Təməl əsası ontoloji, ekzistensialist problemlərə köklənən modernizmdən ayrılaraq, postmodernizm epistemolojiyə söykənir ki, bu da uzun müddət fəlsəfədə yer edinən nəzəri və empirik biliyə deyil, yalan-doğru qarşıdurmasını müdafiə edən gerçəklik fəlsəfəsinə dayanır. Müəlifi inkar etməklə mətni ön plana çəkən bu ədəbi-fəlsəfi cərəyan bəşəriyyətin mif yaddaşından imtina etmir, müəyyən əsaslarla ona yeni çərçivədən baxmağı bacarır. "Postmodern durum" kitabında J.F.Liotar mədəniyyətlərin post-sənaye, postmodern çağa girərkən bilginin status dəyişdirdiyini analiz edir, deməli, əslində dəyişən bilginin özü deyil, funksiyasıdır. Hesab edə bilərik ki, bu, postmodern olanın mifə yanaşmasında açar hissədir. Yunqun da xatırlatdığı kimi, miflər kütləvi şüursuzluğun məhsuludur, yəni arxetipin. Sirr deyil ki, tarixə sərkərdəlik, insan düşüncəsinə padşahlıq edən, özlüyündə mistik bir şüura sahib təhtəlşüur, təbiri caizsə, incəsənətin böyük partlayış anı, bəşəriyyətin bişdiyi ilkin şorbadır. Məhz bu məqamda düşünə bilərik, niyə mif?!

Kainatın mif qavramasında primitivliklə yanaşı, dərin bir əzəmət, hökm də bərqərardır. Hamımızın bildiyi və aşina olmadığı *mif mədain xərabalıqlarından daha artığıdır.* Arxaya baxmasaq da, keçmiş kölgətək həmişə bizimlədir, günün-ömrün fərqli vədələrində o bizimlə yanaşı addımlaya, hətta bizdən əvvələ də keçə bilir. Bu mənada mif sadəcə keçmiş deyil, varoluş anımız, gələcəyə atılan kəməndimizdir.“Nəyi istəyəcəyini bilə bilərsən, ancaq nəyi istəyəcəyini istəyə bilməzsən” Artur Şopenhauer. Kim bilir, bəlkə də, əsrlərin, minillərin gələcəyi artıq bizi gözləyir, oysa böyük ümidlərlə onilliklərə doğru ciddi-cəhdlə hazırlaşırıq. Dünyaya kosmos səviyyəsindən baxan və böyük bir xaosa tamaşaçı olan postmodernistlər nə qədər mümkünsüz görünsə də, bu problemi təhtəlşüurda arxetipik rol üstlənərək davranış, hiss və düşüncələrimizə hökm-fərman verə bilən mifə ironik planda yanaşaraq, kökündən həll etmək istəyirlər.

Cəmiyyətdəki dayaq nöqtələrini itirən insan üçün şübhə yeganə sığınacaq halına gəlir və beləcə xalis postmodernist əsərlərdə mifin dağıdılması, dekonstruksiya ön sıraya keçir.

Azərbaycan ədəbiyyatında arxetiplər mif, postmodernizmlə bağlı sistemli araşdırmalar edən Elnarə Qaragözova postmodernist əsərləri: 1) postmodernist elementlərlə seçilənlər, 2) klassiklərin arxetipinə müraciət olunanlar, 3) mif, folklor süjetini dekonstruksiya edənlər, nəhayət, 4) müasir mətnlərə yanaşanlar qismində dörd qrupda analiz edərək, üçüncü tip əsərlərin həm də əsas mətni kanonlaşdırmasını qeyd edir [18, s. 47]. Zamanın mandalasında səyahət edən mif çağımıza yeni bir pəncərədən daxil olur, bəşəriyyətə keçmiş, bu gün və sabahından-mandalasından xəbər verir.

Çağdaş Azərbaycan ədəbiyyatında folklora, tarixə postmodernist yanaşmanın bir çox uğurlu örnəkləri sırasına Anarın "Ağ qoç, qara qoç”, Elçinin “Baş”, Kamal Abdullanın "Yarımçıq əlyazma", Pərviz Cəbrayılın “Yad dildə”, İlqar Fəhminin "Çənlibel tülküsü” ədəbi layihəsi (trilogiyası), Şərif

Ağayarın "Haramı", Aqşin Yeniseyin “Göləqarğısancan”, Nərmin Kamalın “Aç, mənəm” Kəramət Böyükçölün "Çöl" və s. nümunə çəkilə bilər.

Anar "Ağ qoç, qara qoç" əsərində nağıl süjetini dekonstruksiya edərək, çoxplanlı bir mətn ərsəyə gətirməklə ağ və qara qoçun timsalında günümüzün işıqlı və qaranlıq tərəflərini qiyaslayır, nağıl qəhrəmanı Məlikməmməddən dövrümüzün jurnalist qəhrəmanı Məlik Məmmədlini yaradır.

Elçinin “Baş” romanında postmodern ruh knyaz Sisianovu Derjavanın Don Kixotu kimi təqdim etməklə gözübağlı inanacağımız həqiqətlərin bir insan xronometrajına sığmayacaq qədər etibarsız olduğunu yada salır.

K.Abdulla "Yarımçıq əlyazma"da həm "Kitabi-Dədə Qorqud" dastanına , həm də Xətainin timsalında tarixə postmodernist yanaşır. Yazıldığı vaxtdan mübahisələr doğuran əsər bu gün də ədəbi dairələrdə birmənalı qarşılanmır.

Müəllif dastan qəhrəmanlarına postmodern çərçivədə yanaşaraq, günümüzün sıravi insanı deyə biləcəyimiz, əslindəysə, cəmi zamanın yer adamına çevirir, Dədə Qorqudun müdrikliyini alıb nur daşına bağışlayır, Xətayini isə şair və hökmdar deyə iki hissəyə ayırır.

İlqar Fəhmi isə daha fərqli yol tutaraq, "Koroğlu" dastanı əsasında "Çənlibel tülküsü" adlı trilogiya yazır. Elə bir polifonik roman ərsəyə gəlir ki, tədqiqatçılar onu gah magik, gah detektiv, gah da yarımtarixi postmodernist əsər adlandırırlar. "Çənlibel tülküsü" layihəsi hər biri müstəqil süjetə malik "İlk sui-qəsd", "Qarğa yuvası", "Kölgədə əqrəb" adlı üç kitabdan ibarətdir ki, bunu da yarımtarixi detektiv seriyası hesab etmək olar.

Mifdən gerçəkliyə. “Çənlibel tülküsü” trilogiyasının adından da bəllidir ki, dastandakı obrazların dekonstruksiyasında ön plana çəkilən Keçəl Həmzədir. Həmzə hiylə və ağıldan ibarət özgünlüyünü qoruyur, əksər posmodern obrazlardan fərqli olaraq, dastandakı yarımmənfi insandan müsbətə çevrilir. Bu məqamda ədəbiyyatşünas-tənqidçi Elnarə Akimovanın "Ölən dünyam" povestində yer alan Keçəl Xondulu obrazı haqqındakı fikri yada düşür. Zəmanənin "Cahandar ağa"larını Keçəl Xondulların əvəz etdiyini vurğulayan tənqidçi keçəl obrazlarının ədəbiyyatda ümumiləşmiş halda neqativ yüklü simvolik qəhrəman olduqlarını qeyd edir. Belə bir halda yazıçı nəinki dastanda, həm də mif yaddaşında dekonstruksiya yaradır. Romanda Koroğlu ilə Həmzənin arasından su keçmir, bütün əsas qərarlar onunla məşvərət edilir. Ancaq müəllif Həmzəyə verdiyi üstünlüyü sanki dastandakı Çənlibeldən, daha doğrusu, Koroğludan alır.

Dastanın mifik tül pərdəsindən arınan qoç Koroğlu obrazına ehtiyatla yanaşan yazar bir çox araşdırmacıların fikirlərinin əksinə onu qorxaq kimi təsvir etmir, ancaq bu onun acizanə təsvirinə də mane olmur. Eposdakı misri qılınc, qırat, dürat, qoşabulaq kimi magik, fantastik elementlərə romanda təsadüf edilmir ki, bunu da İ.Fəhminin bir fəndi hesab etmək olar. Müəllif "Sən kimsən, Səfəvi" publisistik məqalələr toplusunda Şah İsmayılın milli etnik yaddaşdakı seçkin rolundan bəhs edərək , onun heç bir mübaliğəyə (digər xalqlardan fərqli olaraq) lüzumu olmadığını vurğulayır, bu fikir romanda gerçəkliyinə qovuşur. Müəllif Çənlibeli real boyalarla təsvir edir, nəticədə heç bir əlavə boyaya gərək olmadığını vurğulamış olur. Diqqətəşayandır ki, romanda magik ünsürlər kifayət qədərdir; Molla Həbibin mərcan dənəli təsbehi, qarğalar, yuxu, tərsa qızı və s.

Dastandan fərqlənərək, Koroğlu yeri gəldikdə siyasətlə, yeri gəldikdə fiziki güclə Çənlibelə qalxan olur, qəzəbləndikdə o da tədbiri əldən verir [18, s. 61]. Bununla belə dövranının əsas şücaəti sayılan igidlik, cəsarət, ədalətlilikdə təbəqəsinin... ən yaxşısı olmaqda davam edir. Əsərin müasirliyini şərtləndirən amillərdən biri də ondadır ki, hiyləsiz Çənlibel "Çənlibel" ola bilmir. Koroğlu da "Çənlibelin tülküsünə" möhtacdır. Eposdan fərqli olaraq, səfəvilərin təsviri, Molla Həbib, Qara Mahmud, "Əqrəb" və s. kimi əlavə detallara da yer verilir ki, bunlar da mətni çağdaş roman kimi rekonstruksiya süzgəcindən keçirmiş olur. Üçlük sanki dastanın növbəti “seriyaları” qismində çıxış edərək, Çənlibelin qurulması, osmanlılarla müharibə, Həmzənin qıratı qaçırması kimi hadisələri xatirə qismində təqdim edir. Trilogiyada Osmanlı əsas təhlükə mənbəyi hesab edilmir, təhlükə hər hissənin sonuna qədər detektivsayaq əsərlərdəki kimi naməlum qalan və sonda oxucunu öz xüsusunda məxsusi düşündürən xırda, xırdalığı ilə də genişləyən halqa yaradan fəlsəfi problem səviyyəsinə qalxır.

Səfəvi sarayı, Çənlibel komaları...

Romanda saray mühiti və Çənlibel, saray əyanları və dəlilər arasındakı antiparalel xətlər nəzərləri ovsunlayır, oxucunu ilk oxunuşdan bir qarşılaşdırmaya sövq edir.

Əvvəla, şah sarayının hakimiyyətində dini bir ideya vardır, hökm-fərman da zorakılığa əsaslanır. Çənlibel isə kontrast bir mövqedə dayanaraq, xalqın azadlıq ideyasını təmsil edir. Şah və əyanlar qarşılaşdırılmayan iki ayrı qütbdür, əyanlar şahın fikir-hiss sabitqədəmliyinə inanmır, şah daim əyanlarını sınağa çəkir. Müəllifin "Şahnamə" pyesində Şah Abbasın simasında bu nəzəri fikirlər praqmatik bilik səviyyəsinə qalxır. Çənlibel isə utopik bir ölkəni xatırladır, mərdlik və ədalətin avtonomiyası altındakı utopizm.

Şah Abbasın məxfi dəsturundan xəbər tutduqda Həmzə bir an Koroğlu üçün də bu cür hakimiyyət şablonu yarada biləcəyini düşünür: "Mürşüdqulu xanın söylədiklərini Həmzə paşaların, xanların saraylarında sülənən vaxt çox görmüşdü, elə lazım olsaydı, onun özü də Koroğluyçün bu tövr dəstur yaza bilərdi. Hərgah lazım olsaydı. Amma lazım deyildi, çün nə Çənlibel dəlilәri qızılbaş əmirləriydilər, nə də Koroğlu Şah Abbas idi. Koroğlunun koroğluluğu da elə ondaydı ki, bu dəsturda yazılanlardan çox uzaq idi və bəlkə də, Çənlibel asimanın altında yeganə yer idi ki, insanları tamam alayı yolla bir yerə yığmaq, öz ətrafında saxlamaq mümkün idi. Əcayibi buydu ki, Koroğlu Çənlibeli nə Müaviyə, nə də Əli yoluyla idarə edirdi, yox, o elə Koroğlu yoluyla idarə edirdi ki, bunu da cümlə cahanda onun özündən başqa kimsə bacarmazdı".

Şahmat dünyanın fizika, siyasət, hökmranlıq qanunları qarşısında aciz kürə olduğunu simgələyən metaforik oyun arxetipidir, ilk hissədə Koroğluya şətrənc oyununu öyrədən tacir onun bütün dünyanın sorğu-sualsız səcdə etdiyi ehkamlara qarşı çıxaraq, öz qanunlarını yaratmasına etirazını bildirir, axı Koroğlu da dünyada tək-tək rast gəlinən qəhrəmanlardan idi, o qəhrəmanlar ki cəmiyyət mifindən ayrılaraq, qarşılarındakı qaranlıq meşədə yaşayacaqları macəralar qarşısında nervrozluğun astanasında dayanan fərdlərdir.

"Koroğlu, belə olmaz, fil belə getmir. Bu at deyil axı... -Bəs necə gedir?! -Bayaq göstərdim axı, bax belə, ancaq çəpəki. Oyunun qaydası belədir. Koroğlu əsəbiləşdi, özünü saxlaya bilməyib tacirin üstünə çımxırdı".

Əsəri mütaliə etdikcə sövq-təbii oxucuda Çənlibelin mənfi planda dekonstruksiyasıı gözləntisi olsa da, bu reallaşmır, nəticədə saray və Çənlibelin ümumi plandakı sərhədlərinin yazar tərəfindən bilərəkdən kəskinləşdirilməsi fikri gündəmə gəlir. Şah Abbas müaviyə yoluyla hakimiyyət sürür, onun dəsturunda ilk cümlə nökər-naibinə bağlanmamaqdırsa, Çənlibel sərkarı dəlilərindən ötrü canını pərvanətək oda da ata bilər. Qarşılığındaysa əyanlar-şah nökərçələri fürsət düşdükdə xəyanət, devrimcilik etməkdən boyun qaçırmazlar, bu fikir dəlilərin ağıllarının tozlu cığırlarına belə yol tapmaz, bəlkə də, tapmaq istəməz.

Çənlibel arxetipsayağı (Və ya folklor ədəbiyyatın arxeoloji əsası kimi)

Elə bil eyni oyun bir yerdən başqa yerə köçürülüb və hər yerdə oyunçular öz yerli paltarları ilə köhnə oyunu oynayırlar.." J.Kempell.

Teleskopik baxış atdıqda folklorun adi qəhrəmanların tragikomediyası olduğu ortaya çıxar ki, bu da təbiətlə bəşər arasında balanslaşdırılmış nöqtə, qızıl orta harmoniyasıdır. Necə ki sentimentalizmdə ən adi insan hisslərinin ədəbiyyata dəvəti, təbiətin təsvirdən daha geniş mövqe qapması ədəbiyyatın həyata qayıdış manifesti hesab edilə bilər. Həm epik yaddaşda, həm roman təfəkküründə Çənlibel təbiət qoynunda igidlər oylağı kimi tərənnüm olunur, hər nə qədər nəsrdə dəlilər arasında bir xətakar olduğunu görmək istəsək də, müəllif xalq yaradıcılığına göstərdiyi sayğıdan, ya nədənsə məkanın idealına sadiq qalmaq yolunu tutur. Digər bir tərəfdən ədəbiyyatda utopik dünya, ideal, ədalətli dövlət konsepsiyası Çənlibel xəttində milli kimlik mərhələsinə qədəm qoyur. Geniş müstəvidə Firdovsi, Nizamidə oxuduğumuz idealla qarşılaşdıra, Anarda (Ağ qoç, qara qoç) oxşar motivlər tapa biləcəyimiz Çənlibel ideal toplum adına nələri çıxdaş, qəbul etdiyimizi bir daha nəzərdən keçirməyi tələb edir.

Çağdaş panoromada Çənlibel utopizmi. Veriləcək ilk sual: trilogiya postmodernist əsər, ya postmodern elementlərlə seçilən cəhd romanıdır? Müəllif mif yaddaşında nə kimi yenilik yaratmış, ən təxirəsalınmazı isə "mətn dünyadır" (və ya əksinə) prinsipinə nə dərəcədə sadiq qalmışdır?

Sonuncudan başlasaq, "dünya mətndir" prinsipinə görə əsərin müəllifi inkar edilir ki, bu da nəticədə poliideyalılığa, əslində isə ideyasızlığa gətirib çıxarır. Başlıca məqsəd isə yekdillikdən, vahidlikdən qaçışdır. Əgər hər hansı mətnə müəllifinin çərçivəsində baxsaq, söz yox ki, onu birtərəfli qavrayacağıq. Bəs İlqar Fəhmi necə, buna nail ola bilir?

E.Qaragözova əsərə həsr etdiyi ayrıca məqalədə diqqətçəkən bir nüansa toxunur. Əsərin qəhrəmanları Bakı şivəsində danışır, söyüş söyür, saray əyanlarına xas ərəb-fars ifadələrini istismar edir. Müəllifini az da olsa tanıyan oxucu, sözsüz, mətndə onu tapacaqdır. Çənlibel Bakı-Şirvan bölgəsindən uzaq olduğundan (Əsərdə qeyd olunduğu kimi Ordubada bir günlük məsafədə) linqivistik cəhətdən də uyğunsuzluq yaranır. Lakin burada tarixi-linqivistik cəhəti bir kənara qoyarsaq da, bakı şivəsində danışan yazıçı yenə mətni dünya səviyyəsinə qaldıra bilmir. Daha bir məqam əsərdəki dini motivlə bağlıdır. Dini qat üç aspektdən postmodernizmə yad və zərərli elementdir.

Əvvəla, müəllifinin siluetini gizləndiyi pərdənin arxasından bəlli edir. İkincisi, dini motiv vahid ideya ətrafında qapalı dairə yaradır. Yuxarıda trilogiyanın hissələrinin müstəqil əsər sayıla biləcəyini vurğulamışdıqsa da, bu fikir onların süjet xəttinə uyğun gəlir, ideya cəhətdən isə konkretlik adlı daxili mərəzi daşıyır. Bu və ya digər ideyaya sahib olmaq "ölüm ancaq mənfi qəhrəmanlar (günahkar bəndələr) üçündür" deməklə eyni mənzilə varır, axı mənfi qəhrəman anlayışının özü də mücərrəd və absurddur, bu azmış kimi ölüm də nə cəza, nə də mükafatdır. Ədəbiyyat əzəli və əbədi sevgisi həyata can atmaq, yaxınlaşmaq, qovuşmaq və onda ərimək kimi dörd mərhələli bir oyun olduğundan getdikcə ona daha çox bənzəyir, bunu da ayna funksiyası adlandırırlar. "Happy end" tipli, hə ilə yoxun kəskin ayrıldığı, xeyir və şərin düşmən sanıldığı klassik əsərlərdən fərqlənərək, postmodernizm həyatın özü kimi liberal ana donunda peyda olur. Romanın hər üç hissəsinin qayəsi "kiçik düşmən yoxdur" və ya "kiçik daş da baş yarar" atalar sözünə uyğun gəlir, buna müvafiq olaraq qeyd edilə bilər ki, dastanda əsas konflikt Osmanlı xotkarı, paşalar və Çənlibel arasında idisə, trilogiyada onların yalnız adı çəkilir, əsas təhlükə mənbəyi isə fikrə gəlməyəcək qədər kiçik (böyük) və naməlumdur. Elə bu səbəbdən Koroğlunu düşmənlə qılınc çalan deyil, əli-qolu bağlı Həmzənin hiyləsinə, təbiri caizsə, tülkülüyünə möhtac görürük. "İlk sui-qəsd"də Koroğlu az qalsın İnanc xanımın məkrinə qurban gedəcək, "Qarğa yuvası"da Qara Mahmud Koroğlunu hörmətdən salıb Çənlibeldən qovacaq, "Kölgədə əqrəb" hissəsindəysə Çənlibel Şah Abbas tərəfindən xaraba qoyulmaq təhlükəsi ilə üz-üzə qalacaqdı. "Qarğa yuvası" romanında Molla Həbib ümumiləşdirici obraz kimi çıxış edərək, Qara Mahmudun peydasını Çənlibel dəlilərinin özlərinə hədsiz arxayınlığı ilə bağlayıb, allahın qəzəbinə tuş gəldiklərini vurğulayır. Heç nə deyilsə də, axı məğrurluq yeddi ölümcül günahdan biridir. Eyni fikir "Ilk sui-qəsd"də qalada çaparı gözləyən Həmzə tərəfindən də səsləndirilir. "Zəhrimar mığmığalar. Bu yay gələndə Çənlibeldə bu həşəratların əlindən gecələr bir hovur yatmaq olmurdu. Həmzə də, elə o biri dəlilər də mat-məəttəl qalmışdılar. Aya, dağ yeri hara, mığmığa hara? Görünməmiş iş idi...

Həmzənin yadına Koroğlunun da dişlənməkdən qıpqırmızı olmuş sifəti düşdü. Qeyri-ixtiyari onun qarasınca deyindi ki, "Paşalara, xanlara qan uddurur, amma dırnaq boyda cücülərlə bacarmır. Birdən Həmzənin ağlına gəldi ki, bəlkə, Allah bu həşəratları da elə o səbəbdən xəlq eyliyib ki, nərəsiylə paşaları şalvarına doldurmağa məcbur edən Koroğlu kimi oğlanlar çox da yuxarıdan getməsinlər. Başa düşsünlər ki, Allahın yaratdığı çıqqılı həşərat da onlardan güclüdü".

Üçüncü prizmadan baxmaq üçün postmodernin doğum səhnəsini xatırlamaq gərəkəcək, cahan savaşlarının səbəb olduğu mənəvi çöküşdən də əvvəl Nitsşenin "allah öldü" aforizmi qərb mədəniyyətinin ruhsal obrazını gözümüz önündə canlandırır: " Tanrı öldü. Tanrıdan geriyə bir ölü qaldı. Və onu biz öldürdük. Özümüzü necə təsəlli edəcəyik, biz qatillərin qatili? Nəydi bıçaqlarımızın altında ölümünə qan tökən, dünyanın sahib olmuş olduğu bu ən qutsal və ən qüdrətli şey: bu qanı kim siləcək üzərimizdən? Hansı su bizi təmizləyəcək? Hansı kəffarə bayramlarını, hansı müqəddəs oyunları icad etməyimiz gərəkəcək? Çox böyük deyilmi bizə bu əməlin yücəliyi? Sırf ona layiq görünmək üçün bizim də tanrı olmağımız gərəkməzmi? "

Mənşə etibarilə qərb cərəyanı olan postmodernizmin təbiətindəki xaos da məhz buradan qaynaqlanır, bəşəriyyətin şüurlu və şüuraltı həqiqət qəbul etdiyi bir göz qırpımında dəyərini itirir, bəs indi necə? Nəyin həqiqət olmasını iddia edəcək cəsarətimiz olacaqmı?

İlqar Fəhmi yaradıcılığında qırmızı xətt kimi keçən dini ideya bizim üçün allahın hələ ölmədiyini büruzə verir. "Aktrisa"da Lalə və Rüfət Hüseynzadə, "Akvarium"da Sahib və Axund qarşıdurması ateizm və teizmi simvollaşdırırsa, "Çənlibel tülküsü"də bu, romanın canına, qanına hopur. Qərb postmodernizmi üçün isə bunlar kafi sayıla bilməz.

Obrazlarının iç dünyasını sanki arafda yerləşdirən müəllifin, bəlkə də, heç bir əsərində bütünlüklə işıqdan məhrum insan tapmaq mümkün deyil. Nə aktrisa Lalə, nə yazıçı Rüfət (Aktrisa), nə Sahib, Axund (Akvarium), nə Şah Abbas (Şahnamə), nə də adı çəkilməyən digərləri müsbət və mənfi qütblərinə ayrılmayacaq qədər dünya, yer adamlarıdır. "Çənlibel tülküsü"də də istər osmanlı paşasının qızı İnanc xanım, istər Qara Mahmud, istərsə də "Əqrəb" və onun əlaltıları oxucuda nifrət oyatmır, əksinə onların psixoloji durumu incə məqamlarla açılır. Qəhrəmanlarına ata şəfqətilə yanaşan yazarın psixoanalizmdən məharətlə faydalandığını da inkar etmək olmaz.

Postmodern əsərlərdə müsbətdən mənfiyə doğru bir dəyişim, sanki aysberqin su altında qalan qaranlıq tərəfini göstərməyə meyil varsa da, İ.Fəhmidə qaranlıq olanın işıqlı cəhətini gözlər önünə sərməyə aşkar təmayül hiss olunur, bu isə həm yazarın yaradıcılığını ümumiləşdirən məxsusiyyət, həm də postmodernin bilinən gerçəkliyi tərs köşə təqdimi ilə bağlı səbəbiyyətdir. Zəmanənin və saray insanının etibarsızlığını fəhm edən Həmzə əməli, sözü bir Koroğlu kimi igid qəhrəmana pənah aparmağın dürüstlüyünü sövq-təbii duyur, şüuraltında ilkin kod yaddaş-arxetipinə qayıtmış olur.

Çağdaş ədəbiyyat tarixi-əfsanəvi şəxsiyyətlərin universallığını saxta yücəlik kimi qələmə verməklə onları təkyönlü epizodikləşdirməyə məruz buraxır. K.Abdulla İsgəndərfəşan Şah İsmayıl Xətaini hökmdar-piri mürşid kimi təqdim edərək, şairlik kimi ruh-könül işini Xızıra həvalə edir, bununla da tanrılardan elitlərə, elitlərdən müqəddəslərə, müqəddəslərdən kiçik adamlara, kiçiklərdən artıqlara, azmışlara, ruhu zülmət basmışlara meydan verən ədəbiyyat nağıldan təmsilə keçid zamansallığının qədəmlərini möhkəmlədir.

"Çənlibel tülküsü"də bu istiqaməti Koroğlu, dəlilər, Həmzə xəttində izləyirik. Eposda Koroğlu həm şair xislətli aşıq, həm yenilməz qəhrəmandırsa, əsərdə onu oxuyub-yazma bacarığı belə olmayan Çənlibel sərkarı kimi tanıyırıq. Buna rəğmən o, Həmzəylə bütünləşərək, qılınc və qələmin labüdlüyünü kəhanət təkin xatırladır. Kitabdakı obrazların dəlilləri dağ ayıları kimi təsəvvür etmələri onların birxətli təsvirinə dəlalət edir.

Həmzə folklor süjetində daha çox fəndgir, hiyləbaz kimi yaddaşlara hopursa, yazılı ədəbi örnəkdə ağıllı-dərrakəli insan kimi varlığını ətə-qana doldurur, ta ki Şah Abbas dərviş Mustafa bəyə "Mənə yetişən əxbara görə axır vədələrdə yaman aşina olmusan o keçəllə. Əfsus, səd əfsus ki, zənnimdə yanıldım, güman edirdim ki, sən o keçəllə bahəm olsaz, sənin əqlinlə onun fənd-feli birləşsə, bütün nihani mətləbləri əyan eylərsiz" dedikdə Mövlanənin "Məsnəvi"də hiyləni nəfsə tay tutaraq, ağıldan ayırması xatırlanır, əql şərq fəlsəfəsində müdrikliyi simgələyir ki, bilgəliklə nəfs bir qazanda qaynamaz iki qoç başı misalı tarix boyu çəkişmədədir.

Şərq alatoranlığında

"Bizsə qürub edən bu günəşin son şüalarını sübh şəfəqi zənn edirik.." V.Hüqo

Şərqdən doğulan günəşlə qərbdə batan günəş eyni günəş olmadığı kimi şərq və qərb mədəniyyəti, ədəbiyyatı da inkişaf tempi, aura və yaşamı interpretasiya cəhətindən bir-birindən olduqca fərqlənir. Qərb orta əsrlər təbədüllatları, iyirminci əsr girdablarından sonra bir iç batış dönəminə daxil olur ki, bu da, təbii olaraq, düşüncə və inam sarsıntısı kimi dadaizm, sürrealizm, ekzistensializm, modernizm, nəhayət postmodernizm və s. ədəbi istiqamətlərinə cığır açır, beləcə bir-birinin davamı sayıla biləcək ədəbi axın formalaşır.

Şərq isə buna bənzər bir mərhələni satirik ədəbi hərəkatda yaşayır, lakin geniş fonda kainat, insan həyatının mənası kimi cavabsız suallar okeanına baş vurmadan. Ardıylaca SOSrealizm bataqlığı şərqi növbəti letargiyasına aparır. Ötən əsrin son yarpaqlarında nəfəsi duyulan yeni tendensiya, ədəbi istiqamətlər müasir ədəbiyyatımızı bir xəstəlik kimi ağuşuna alır. Məhz xəstəlik...

Bilgəlik yaşanmışlığın övladıdır, o, praktik və nəzəri biliyin bütünüdür.

Kempellin dili ilə desək, mədəniyyətimizin formalaşması və dini düşüncəmiz üzərində coğrafiyanın təsiri çox böyükdür. Ədəbiyyat məxsus olduğu xalqın ruhunu, sözünü yaşadan bağça

kimidir, onun mahiyyəti dəb deyil ki, hər mövsüm dəyişə. Geyim, hər növ tərz, üslub fərqli mədəniyyətlərdən borc alına bilər, lakin ədəbi ruh borc verilmir, xalqın özü ilə birgə doğulur.

Bir çağdan digərinə keçid nihilistik tutuma malik olur, buradakı nihilizm isə yaşantı, mənəvi durumla bağlıdır. Postmodern çağ nizama malik xaotik ruhanilikdir, elə ki milli ədəbiyyatımız, cəmiyyətimiz bütünüylə bu ruhaniliyi yaşaya bilmədi, postmodernizmi övladlığa götürən Şərq onu özününküləşdirməyi bacarmalı, nəinki Avropanın yolunu təkrarlamalı.. İlqar Fəhmi yaratdığı üçlüklə orijinal postmodernizm ruhuna xələl gətirəcək kənaraçıxmalara (qüsurlara) yol verir ki, bu da şərq postmodernizmi deyə biləcəyimiz bir qolu ayırmağı gərəkdirir. Miflərimizin subliminal mesajlarının açılması onları kortəbii inkarına qalxan ola bilər. Beləcə İ.Fəhmi kimi yazıçıların yaradıcılığında yeni istiqamətlər olduğundan fərqli mahiyyət daşıya, oxucunu yanılda bilir, bu isə dünya ədəbiyyatında şablon formalarla tanış olan oxucu üçün daha orijinal yazı texnikasıdır.

Nəticə və elmi yenilik. Sonuc əvəzinə kəhanət. *"Sənətkarın funksiyası ətraf mühitin və dünyanın mifolojiləşdirilməsidir" J.Kempell*

Öncə mifimizi yaratdıq, dünya daha yaşanılır hala gəldi...

Gündəlik həyatından kitablardakıtək təsir alan, mənalandıran nə qədər insan vardır? Yazıçılar da bir ömrə sığan mənasızlığa anlam yükləyən, kainatın mistik-avtoritar nizamına qarşı qiyam açan fərdlər deyilmi? İlk şərhçi-şamanlardan bu günə kainat dünya gözümüzdə nə dərəcədə fərqli görünür? Mif suda batan insanın saman çöpünə bənzəmirmi? O təkcə bizim dünyaya açılan pəncərəmiz deyil, həm də təbiət, kosmosla dərin bağımızı yaradan kor düyündür. Gecə və gündüzü işıq və zülmət, xeyir və şər kimi mənalandırdıq, həyata qayıdışı ilan və ağacla simgələdik, hətta dağıdıcı güclərimizi də mifə dayandırdıq. Həqiqət və yanlışın bir addımda qovuşduğunu unudarcasına yolumuzu itirdik, mifsizləşdiyimizi sandıq, oysa bu da yeni miflər imiş.

Sapiensin Neandertal üzərindəki tarixi qələbəsi mifin onları bir araya gətirməsiylə baş tutmuş, bu gün də açıq və gizli şəkildə təbliğ olunan birlik olmaq mifinə dayanırdı. Hər çağın, hər iqlimin öz mifi vardır, J.Kempellin dediyi kimi, mif dünyanın nəğməsidir, ağlımıza gələn ən dərin fikirlər də bu nəğməni hərdənbir duymağımızla bağlıdır. Ən başa qayıtsaydıq, hər şeyə bir anlam yükləmədən, kainata mif toru hörmədən davam edə bilərdikmi..? Boşluq və absurdizm divarının o biri üzündə nə var? Bəlkə də, dünya özü də bir mif yumağıdır..?

İstifadə edilmiş ədəbiyyat

1. Akimova Elnarə. Yeni təfəkkür və ədəbi tənqid, Bakı: MBM, 2012, 280 s.
2. Akimova Elnarə. Yeni dünya həqiqətləri, Ədəbiyyat qəzeti, 5 dekabr 2015, 9s.
3. Allahquluyeva Mehriban. İlqar Fəhminin "Qarğa yuvası" romanı postmodern roman təhkiyəsində, Filologiya məsələləri, 2018, N^{0}4, s. 102-104
4. Çetişli İsmayıl. Batı edebiyatında edebi akımlar, Ankara: Akçağ, 2022, 315 s.
5. Əliyev Rəhim. Ədəbiyyat nəzəriyyəsi, Bakı: Mütərcim, 2008, 360 s.
6. Fəhmi İlqar. Aktrisa, Bakı: Adiloğlu, 2006, 160 s.
7. Fəhmi İlqar. Akvarium, Azərbaycan, 2006, N^{0}5, s. 56-125
8. Fəhmi İlqar. İlk sui-qəsd, Bakı: Xan, 2017, 125 s.
9. Fəhmi İlqar. Kölgədə əqrəb, Azərbaycan, 2008, N^{0}1, s. 13-64
10. Fəhmi İlqar. Qarğa yuvası, Bakı: Yurd NPB, 2008, 308 s.
11. Fəhmi İlqar. Sən kimsən, Səfəvi, Bakı: Xan, 2015, 188 s.
12. Fəhmi İlqar. Son reportaj, Azərbaycan, 2016, N^{0}1, s. 86-115
13. İsmayılova Nargis. İlqar Fəhmi və postmodernizm, Ədəbiyyat qəzeti, 20 fevral 2021, 12 s.
14. Jameson Frederic. Postmodernizm, İstanbul: Alfa, 2022, 468 s.
15. Kamal Nərmin. Umberto Eko və postmodernizm fəlsəfəsi, Bakı: Qanun, 2008, 204 s.
16. Kempell Jozef. Mifin gücü, Bakı: Qanun, 2022, 352 s.
17. Qaragözova Elnarə. XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında arxetipin yeni formaları, Bakı: Mütərcim, 2018, 141 s.
18. Qaragözova Elnarə. Postmodernizm, Bakı: Xan, 2021, 77 s.
19. Liotar Jean François. Postmodern durum, Ankara: Bilgesu, 2019, 127s
20. Teymurova Şəbnəm. İlqar Fəhminin "Qarğa yuvası romanınına ümumi bir baxış, Filologiya məsələləri, 2012, N^{0}10, s. 438-443

ƏDƏBİYYATIN PSİXOLOGİYA ELMİ İLƏ MÜNASİBƏTİ

Aysel Ağabalayeva*

Abstract

Literature and psychology are two fields of science that study the human spirit. While psychology examines human behavior and its causes, literature describes and expresses human behavior through artistic works. In this article, the interaction of two social science fields that study human behavior is analyzed. Currently, the current issues of both fields of science and the special importance of human psychology in the literature are discussed. and especially literature, psychology, philosophy, sociology, and philology from the fields of social science that try to study it comprehensively have solved the issue of human existence from the past to the present. Later, each of them independently took up and studied another aspect of man.

Keywords: *literature, psychology, personality, writer, work of art.*

Giriş. Ədəbiyyat duyğu və düşüncələrin estetik formada ifadə edilməsi sənətidir.Əsas məsələnin bununla bağlı olması insandan ayrı düşünülə bilməz. Ədəbiyyat insanı və onun həyatını qələmə alarkən,bu sırada psixologiya insanı incələyən və anlamağa çalışan elm sahəsidir. Bu iki sahə bir-biri ilə qarşılıqlı vəhdət təşkil edir. İnsan düşünmə və məntiqi təfəkkür bacarıqlarına sahib, duyğuları olan canlıdır. Həm psixoloji, həm bioloji varlıq olan insan bədii və elmi ədəbiyyatda diqqət mərkəzində dayanır. Psixologiya və ədəbiyyatda insan və insan münasibətləri mərkəzi yer tutur. Psixologiya ilə insanın indiki vəziyyəti, keçmişi, qayğıları, mənəvi şüuru və dəyərlərindəki dəyişikliklər araşdırılır. Ədəbiyyatda insanları təsvir edərkən onun psixoloji proseslərdən keçməsi estetik və zərif şəkildə çatdırılır.Müəllif öz reallıq qavrayışını nəzərə alaraq bizə insanın fərqli aspektlərini göstərir və insanı anlamağımıza kömək edir.İnsan psixologiyası və ədəbiyyat qarşılıqlı şəkildə düşünülmüş və bədii əsərlərin ortaya çıxmasında psixologiyadan yararlanmışdır.

Əsas hissə. XIX əsrin sonlarına doğru psixologiya elmi bütün dünyada öz təsir gücünü artırdı və ədəbiyyat sənətinə də dərindən təsir etdi. Bundan əvvəl müxtəlif sənət cərəyanları ilə başqa məqamlara diqqət yetirən yazıçılar əsərlərində realizm cərəyanının təsiri altında insan davranışını və davranışın altında yatan psixoloji amilləri dərk etməyə diqqət yetirmişlər. Bu psixologiyanın bu təsirlərini bu gün bir çox ədəbi əsərlərdə görmək mümkündür.

Rus ədəbiyyatının ən böyük adlarından biri olan Dostoyevski hələ psixologiya elmində ciddi bir inkişaf olmadığı bir vaxtda "Cinayət və cəza" əsəri ilə bu sahədə böyük təsir göstərmişdir.

Türk ədəbiyyatında realizm cərəyanının təsiri ilə Mehmet Rauf ilk psixoloji əsəri olan "Eylül" romanını yazdı.

Azərbaycan ədəbiyyatına lirik-psixoloji üslubu gətirən İlyas Əfəndiyev ilk hekayələrindən başlayaraq qəhrəmanlarının səmimiliyi ilə seçilir. "Necə varsa, elə də görünən", özünün yaradıcılıq metodu ilə ədəbiyyatımızın unudulmaz simalarından birinə çevrilən müəllifin zəngin nəsri "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost", "Sarıköynəklə Valehin nağılı", "Üçatılan", "Geriyə baxma, qoca" romanlarını, "Kənddən məktublar", "Aydınlıq gecələr", "Torpağın sahibi", "Qaçaq Süleymanın ölümü", "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" povestləri və bir-birindən maraqlı, ibrət dolu hekayələri özündə ehtiva edir.

Yazıçı hər bir obrazın daxili aləmini, hiss və duyğularını, əxlaqi psixoloji vəziyyətini ustad sənətkar qələmi ilə təsvir edir. Obrazların daxili aləminə nüfuz etmək, onların mənəvi-əxlaqi keyfiyyətlərini və ülvi hisslərini yüksək bədii dillə oxuculara çatdırmaq İlyas Əfəndiyev yaradıcılığınının ən önəmli xüsusiyyətlərindəndir.

"Ədəbiyyatşünaslıqda psixologizm bir bədii üsul kimi (roman, povest, hekayə, ssenari, dram) ədəbi janrlarda bədii ifadə vasitəsi kimi işlənərək mahiyyətcə yeni forma alıb.

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: aysel.aghabalayeva@gmail.com. Elmi rəhbər:*** *Dos. Elçin Məmmədov.*

İlyas Əfəndiyev nəsrinin ən səciyyəvi cəhətlərindən biri ondakı psixologizmdir, insanların daxili aləmini, onların mənəvi dünyasındakı ziddiyyətləri nəsrin obyektinə çevirməsidi" [3].

"Xalq yazıçısının gəncliyimizdə əlimizdən qoymadığımız "Körpüsalanlar", "Söyüdlü arx" və başqa əsərlərini oxuyanda aldığımız mənəvi güclə tez böyümək, həkim, müəllim, mühəndis olmaq, arzularımızın ardınca Azərbaycanın ucqar kəndlərində çalışmaq istəyi ilə tutuşub yanırdıq. Çünki onun qələmə aldıqları o qədər təbii, o qədər inandırıcı və o qədər səmimi, real və real olduğu qədər də romantik idi ki..." [2].

Yazıçı qəhrəmanın mürəkkəb təbiətini işıqlandıra bilmədiyi təqdirdə onun zahiri hərəkətləri ilə daxili aləmi arasında birbaşa əlaqə axtarmaq çətinləşir, O zaman yazıçı inikas formasını dəyişir,insanı dünyada göstərmək prinsipindən daha çox,dünyanı insanda göstərmək prinsipindən çıxış etməli olur.

"Müasir Azərbaycan nəsrində psixologizmin inkişafını və tədrici dərinləşməsini şərtləndirən, psixologizmi ünsür, element yox, bir prinsip, sistem səviyyəsində araşdırmağa imkan verən cəhətlərdən biri odur ki, gerçəkliyi personajların subyektiv qavrayışında əks etdirmək meyli güclənir" [1, s. 165].

Bədii əsərlərin ən önəmli özəlliklərindən biri realist bir formaya sahib olmasıdır. Bədii əsərlərdə yer alan ünsürlər,realda olan və olmayan hadisələr obrazlı təxəyyül vasitəsi ilə danışılır. Əsərlər yazıçının həyat və yaradıcılığını, psixoloji vəziyyətini bilmədən mükəmməl dərəcədə təhlil edilə bilməz. Yazıçıların yaşadığı sosial mühit, həyatı dərketmə səviyyəsi, sıxıntıları və xarakteri yazdığı əsərə təsir edir.

Psixoloji əsərlərdə müəllifin şəxsi dünyası,yaşadıqları yazmış olduğu əsərdə obrazların psixoloji analizi zamanı iz daşıdığını görürük. Sənətkarın qələmə aldığı əsərlərdə yaradılan qəhrəmanlara özündən bir pay verməsi yüksək ehtimal daxilindədir. Ədəbi əsərlər müəllifin iç dünyası, ruh halını da özündə birləşdirir.

Hər hansı bir əsəri oxuyarkən yazıçının ruh dünyası haqqında bizdə təəssürat yaranır. Lakin bu hər zaman yazıçının öz psixoloji halını olduğu kimi qələmə aldığı mənasına gəlmir. Bəzən o, duyğu və düşüncələrini dəyişdirərək də əsərə ötürə bilir.

Yazıçı dünyanı təsvir etmə şəklinə görə bizdə bəzən dünyanının reallıqlarından gizlənmə ehtiyacı duyurur. Ədəbiyyat azadlıq, qaçış dünyasıdır. Ədəbiyyat sərhədsizdir. Hansı dildə yazılır yazılsın,qarşı tərəf onda bir anlam,bir məna tapacaq. Bu sanki ortaq sıxıntıları,dərdləri olanların ortaq dilidir. Əsəbiyyat özümüzü və başqalarını dərk etmək üçün əvəzolunmaz xəzinədir.

Psixologiyanın ədəbiyyatdan ayrılması mümkün deyildir.Fəqət,hər mövzu və əsərə psixoloji zehniyyətlə baxsaq,ədəbiyyat əsərindən alacağımız ləzzəti itirə bilərik. Orada bir dünya var,sən isə onu real dünyanın baxış bucağından sorğulayırsan. Bəzən orada baş verənləri məntiqi cəhətdən qəbul etməyib gərəksiz adlandırırsan. Əsərin hansı məqsədə xidmət etdiyini anlamaq üçün realist yanaşmanı bir kənara atıb, bu dünyadan uzaqlaşmaq gərək olur.

Bu zaman bədii əsər bizdə fərqli hisslər,fikirlər yaradır.Onun həqiqi mahiyyətini anlayır,psixoloji təhlilini aparmış oluruq.

Hər obrazın fərqli dünyası var. Necə ki, həyatda da insanları olduğu kimi qəbul ediriksə,əsərdə yaradılan hər obrazın da fərqli psixikaya sahib olduğunu qəbul etməliyik.Qəhrəmana mənfi və ya müsbət obraz kimi birmənalı mövqe bəsləmək yalnışdır.Bədii əsərlərdə də real həyatda olduğu kimi qəhrəmanların da keçmiş yaşantıları nəzərə alınmalıdır.Onun hansı ailə,cəmiyyət daxilində yetişdiyinə bələd olmalıyıq.

Nə üçün hər hansı bir obraz bizdə xoş emosiyalar yaradarkən,bəzi obrazlar ikrah,nifrət və ya qəzəb hissi oyadır?Deməli,müəllif yazıçılıq məqsədini bu şəkildə doğrulda bilirmi?Oxucuda mənfi və ya müsbət təəssürat yarada bilməsi o əsəri uğurlu qılan səbəblərdən biridir.Bu kimi əsərlərdə insan həyatı üçün vacib,ibrətamiz ideyalar,nəticələr çıxarılır.Doğrunu və yalnışı,xeyir və şəri ayırd edir,yer verilən hadisələri gerçək həyatla qarşılaşdırır,ondan dərs alacağımız şəkildə dərk edirik.

Bədii əsərlərdə olan bütün məsələlər önəmli detaldır.Bu səbəbdən məsələlərə qarşı səthi deyil,dərin yanaşmalıyıq.Həqiqi mahiyyətini anlamaq üçün psixoloji analizini aparmalıyıq.

İstər sevinc,istər hüzn dolu əsər olsun,hər bir halda ədəbiyyat əsəri hər zaman psixoloji ruhda yazılır.Bunun səbəbi ədəbiyyat təbiətinin psixoloji quruluşda olmasından irəli gəlir.Elə bir ədəbiyyat əsəri yoxdur ki,insana özünü göstərməsin,oxuyan onda özünə aid bir cümlə tapmasın,özünü görməsin.

Ədəbiyyatın özəyində davranışın və davranışlara rəhbərlik edən daxili proseslərin ifadəsi dayanır.Karl Qustav Yunq ədəbiyyat və psixologiy arasındakı münasibəti bir yandan sənət əsərinin,digər yandan sənət əsərini ortaya çıxaran yaradıcılığın açıqlanması olaraq görür.

Sənətçi və sənət əsəri bir-birindən ayrı müstəqil funksiya daşımır.Sənətçi varlığını sənət əsərinəşsənət əsəri də sənətçiyə borcludur.Əsər öz müəllifinin ruhi,rehni,psixoloji izlərini daşıyır.Ədəbiyyat əsəri yazıçının iç dünyasının,xarakterinin təzahürü şəklində ortaya çıxır.Bu kimi əsərlər fərqli psixoloji müddətlərdən keçərək ortaya çıxır.Yazıçı gördüklərini,eşitdiklərini öz zehnindən və hiss dünyasından süzərək yazıya alır.Dünyagörüşü və dərketmə səbiyyəsinə görə öz üslubunu yaradır.Yazıçı sadəcə öz yaşanmışlıqları üzərindən məsələrə baxmalı deyil,digər insanların daxili aləminə enməli,yaxşı müşahidəçi olmalıdır.

Yazıçınnın psixologiya ilə əlaqəsi yüksək fərqindəlik bacarığına sahib olmasıdır. S.Sveyqin dediyinə görə sənətçi kənardan sıradan biri kimi görünür:

“Bir yataqda yatır,bir masada yemək yeyir,mənim,sənin kimi,hamımız kimi geyinir.Küçədə onun yanından keçərik.Bəlkə məktəbdə eyni sırada əyləşirik.Xarici görünüşü bizdən fərqli deyil.Fəqət birdən-birə bu insan heç birimizin etmədiyi bir şeyi etmişdir.Hamımızın tabe olduğu qanunu yıxır,zamanı yenir,;çünki bizlər ölür və heç bir iz buraxmadan gedirik,halbuki ondan bir şey qalır.Niyə?Çünki,o heçdən bir şeyin,müvəqqəti olandan əbədinin doğduğu yaradıcılığın ilahi dövrünü keçirmişdir;çünki,o dünyanın ən böyük sirrinə,yaradıcılığın sirrinə enmişdir”.

Odur ki,yazıçı və ya sənətçi əgər fərqli bir duyğu və dərketmə bacarığına sahib olmasa idi,yazmaq üçün bir səbəb olmazdı.

Nəticə. Elmlər arasında ədəbiyyata ən yaxın, ədəbiyyata ən yaxın olan elm psixologiyadır. Bunun səbəbi həm ədəbiyyat, həm də psixologiya insanı, insan davranışını, insanın emosional və psixi proseslərini izləməsidir. Psixologiya təxminən 150 ildir ki, insan davranışı və bu davranışlara səbəb olan psixi və emosional proseslərlə məşğul olan bir elm sahəsi kimi tanınır. Vilhelm Vundta bunu bir elm kimi əsaslandırmaq üçün konkret əsas lazım idi və o, bu konkret əsası insan davranışında tapdı. Beləliklə, psixologiya davranış elmi kimi müəyyən edilmiş və inkişafını davam etdirmişdir. Ədəbiyyatla psixologiyanın ortaq taleyi paylaşdığı nöqtəsinə çatsaqda, bu hələ o demək deyil ki, onlar bir və eyni şeydir. Onların iş üsulları, izahat üslubları və ifadə üslubları tamam fərqlidir. Ədəbiyyat hər şeydən əvvəl sənətdir, psixologiya isə hər şeydən əvvəl elmdir. Bu ikisi arasındakı fərq elmlə sənət arasındakı fərqdir. Ədəbiyyat insanın davranışını öz ekzistensial mühitində təsvir edir, psixologiya isə öz iş metodları çərçivəsində onları səbəb və nəticələri ilə izah etmək istəyir. Bunu edərkən biri subyektiv, digəri isə obyektiv ifadə tərzini mənimsəyər. “Ədəbiyyat psixoloji əsasda mövcuddur və psixoloji proses vasitəsilə yaranır”.Ədəbiyyatda təkcə psixologiya yox, sosiologiya, fəlsəfə də var. Çünki ədəbiyyat insanın duyğularından, ehtiraslarından, daxili proseslərdən və bütün bunların nəticəsində yaranan davranışlardan bəhs edir. İnsanın ağrıları, sevincləri, ziddiyyətləri, axtarışları, sevgi və nifrətləri, şüurlu və şüuraltı halları, rasional və irrasional, tutarlı və uyğunsuz cəhətləri ədəbi əsərdə bütün variant və təfərrüatları ilə öz əksini tapmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı, 2021, 168 s.
2. Əsgərzadə L. Həmişə bizimlə olan ədib. Mədəniyyət. 2017. 4 oktyabr. s. 10
3. Vəfa Xanoğlan, Nizaməddin Şəmsizadə. ”İlyas Əfəndiyev nəsrində psixologizm və polifonizm”. 525-ci qəzet.- 2010.- 1 oktyabr.- S.7.
4. Personality and Individual Differences: Literature in Psychology.Psychology in Literature.Goksen Arasa.1877-0428 © 2015
5. https://avesis.yildiz.edu.tr/yayin/c4d4502a-7d69-4959-bc9b-bd79a25f964e/edebiyat-ve-psikoloji

"SƏRVƏT-İ FÜNUN" ƏDƏBİYYATI VƏ XALİD ZİYA UŞAQLIGİL

Aysel Həsənova*

Abstract

Literature "Servet-i Funun" and Khalid Ziya Usakligil

"Servet-i Funun" literature, which constitutes one of the turning points in the history of Turkish literature, covers the years 1896-1901. One of the most powerful writers of this period is Khalid Ziya Usaklıgil. His novels "Mai ve siyah", "Ask-i memnu", and "Kirik hayatlar", which he wrote during the "Servet-i Funun" period, not only brought him great fame but also contributed to the development of the novel genre in Turkish literature. Khalid Ziya Usaklıgil is considered the founder of modern Turkish novel. In the mentioned works, the author preferred a realistic style, and thoroughly analyzed the psychological state of the characters. There is an inclination towards French literature in his creativity. In the novel "Mai ve siyah", the conflict arising from the contradiction between Ahmed Cemil's desires and reality, forbidden love in the novel "Ask-i memnu", and the collapse of moral values in the novel "Kirik hayatlar" are prominent.

Keywords: *"Servet-i Funun", Khalid Ziya Usaklıgil, writer, psychologism, realism.*

Giriş. 1860-cı ildən etibarən Türkiyə ədəbiyyatının öncülləri Qərbdən mənimsədikləri yenilikləri ədəbiyyata gətirməyə başladı. "Tənzimat ədəbiyyatı" ilə başlayan bu yeniləşmə dövrü "Sərvət-i fünun" ilə davam etdi. "Sərvət-i fünun" və ya digər adı ilə desək "Ədəbiyyati-cədidə"-nin (Yeni ədəbiyyatçılar) təməlində dönəmin sosial-siyasi problemləri və 1860-cı ildən bəri "Tənzimat ədəbiyyatı" ilə birgə gələn "köhnə-yeni", "Şərq-Qərb" qarşıdurması dayanır.

Osmanlı sultanı II Əbdülhəmidin dövründə türklərin çıxardığı bütün qəzetlər bağlanmışdı, yalnız xaricilərin yayımladığı qəzetlərə izin verilirdi. Belə bir vəziyyətdə Rəcaizadə Mahmud Əkrəmin tələbəsi olan Əhməd İhsan Toxgöz Nikolaidis Əfəndinin "Sərvət" qəzetində müxtəlif məqalələr yazmağa başladı. Əhməd İhsanın təşəbbüsləri ilə bu qəzetə əlavə olaraq fənn dərgisi də çıxarılması üçün II.Əbdülhəmiddən lazımi icazələr alındı. Və beləliklə, 27 mart 1891-ci ildə "Sərvət-i fünun" dərgisi yayımlanmağa başlandı. Nəşrə başladığı ilk illərdə səhifələrində daha çox rəsmi xəbərlərə, fransız dilindən tərcümələrə, müxtəlif xarici mətbuatdan götürülən şəkillərə yer verən dərginin taleyi 7 fevral 1896-cı ildən dəyişdi. Belə ki, Rəcaizadə Mahmud Əkrəmin "Məlumat" dərgisində davamlı olaraq tənqid edilməsinə baxmayaraq, onun qarşı tərəfə cavab verə biləcəyi bir ədəbiyyat dərgisi yox idi. Məhz buna görə tələbəsi Tofiq Fikrəti dərgiyə baş redaktor olaraq gətirdi. Tofiq Fikrətin dərgiyə baş redaktor kimi gəlişindən sonra köklü dəyişikliklər həyata keçdi. "Sərvət-i fünun" sözün əsl mənasında ədəbiyyat dərgisi kimi fəaliyyət göstərməyə başladı: onun səhifələrində artıq Avropa tipli poeziya, nəsr və dramaturgiya nümunələri, ədəbiyyatın estetik cəhətlərinə aid müxtəlif məqalələr öz yerini tapdı. "Sərvət-i fünun" ölkənin təkcə böyük ədəbiyyat və mədəniyyət jurnalı olaraq qalmadı, Türkiyə ədəbiyyatının çağdaşlaşmasında və yeniləşməsində çox önəmli xidmətləri olan, özündən sonrakı ədəbi nəslin inkişafında da mühüm dəyərləri ehtiva edən bir mətbuat orqanına çevrildi. "Dərgidə "Poeziya", "Ədəbi müsahibələr", "Həyat və kitablar" kimi çox maraqlı bölmələr yer alırdı" [1, s. 5].

"Fənlərin zənginlikləri" anlamına gələn "Sərvət-i fünun" dərgisi ətrafına yeni ədəbiyyat yaratmaq istəyən gənclər toplaşdı. Onların sırasında Cənab Şəhabəddin, Hüseyn Suad, Əli Əkrəm Bolayır, Faiq Əli Ozansoy, Süleyman Nəsib, Əhməd Rəşid, Cəlal Sahir kimi şairlər, Xalid Ziya Uşaqlıgil, Məhməd Rauf, Hüseyn Cahid Yalçın, Əhməd Fikrət Müftüoğlu, Səffət Ziya, Əhməd Şueyb kimi yazarlar var idi. 1896-cı ildən 1901-ci ilə - dərginin bağlanmasınadək sürən qısa bir dönəmdə Türkiyə ədəbiyyatında önəmli dəyişikliklərə səbəb olan "Sərvət-i fünun"çular çağdaş türk ədəbiyyatının yaranmasında, onun şeir, roman, hekayə, tənqid kimi bir çox sahələrinin inkişafında böyük rol oynadı.

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: aysel.hasanova.bdu@mail.ru. Rəyçi:*** *Prof. Ramiz Əskər.*

Əsas hissə. "Sərvət-i fünun" dönəminin ən böyük nasirlərindən biri, şübhəsiz ki, Xalid Ziya Uşaqlıgildir. Türk ədəbiyyatının ilk böyük roman ustadı olan Xalid Ziya 1866-cı ildə İstanbulun soylu ailələrinin birində dünyaya göz açmışdır. İlk təhsilini məhəllə məktəbində alan Xalid Ziya daha sonra Fateh Hərbi Rüşdiyyəsində oxumuş, lakin müharibədən dolayı ailəsi ilə İzmirə köçmək məcburiyyətində qalmışdır. Burada İzmir Rüşdiyyəsində təhsilini davam etdirmiş, fransız dilini öyrənmiş, fransız ədəbiyyatı ilə yaxından tanış olmuşdur.

1886-cı ildə birlikdə çalışdığı Tofiq Nevzat bəy ilə "Xidmət" adlı qəzet çıxararaq əsərlərini burada çap etdirməyə başlayır. Onun hələ "Sərvət-i fünun"a qatılmadan öncə qələmə aldığı ilk əsərləri - "Səfilə" (1886-87), "Nəmidə" (1888), "Bir ölünün dəftəri" (1890), "Fərdi və şükərası" (1894), kimi romanlarını və hekayələrini qələmə alması ədəbiyyata böyük bir şəxsiyyətin gəlməsindən xəbər verirdi. İlk üç əsər "Xidmət" qəzetində hissə-hissə çap edilmiş qısa romanlar olsa da, "Səfilə" romanı əxlaq çərçivəsindən kənar əsər kimi qiymətləndirilmiş və uzun müddət kitab halında çap edilməmişdir. Bu romanda gənc, məsum bir qızın – Məzlumənin çəkdiyi iztirablar, aldadılması və pis yola düşməsi anladılır.

1896-cı ildə Rəcaizadə Mahmud Əkrəmin təşəbbüsü ilə "Sərvət-i fünun"a qatılan Xalid Ziyanın şöhrəti daha da artdı. Onun ən çox səs salan romanlarından olan "Mavi və qara"nın (1896) "Sərvət-i fünun" səhifələrində yer alması onu "Ədəbiyyati-cədidə"nin, şübhəsiz, ən böyük nasirlərindən biri ünvanını qazanmasına səbəb oldu.

İlk böyük türk romanı kimi qəbul edilən "Eşq-i məmnu" 1898-1900-cu illər ərzində "Sərvət-i fünun"da hissə-hissə nəşr edildi. "Artıq başqa mətbuat orqanlarından da çoxlu sifarişlər alan ədib xeyli miqdarda hekayələrini, ədəbi-tənqidi məqalələrini də çox rahatlıqla çap etdirmək imkanı əldə etmişdi" [1, s. 181]. 1901-ci ildə Hüseyn Cahidin "Ədəbiyyat və hüquq" başlıqlı yazısına görə "Sərvət-i fünun" dərgisi bağlananda Xalid Ziya "Qırıq həyatlar" romanı üzərində işləyirdi. Ümumilikdə, ədib "Sərvət-i fünun" dönəmində "Mavi və qara", "Eşq-i məmnu", "Qırıq həyatlar" romanlarını, "Bir izdivacın tarixi", "Bir memorandumun son yarpaqları" kimi hekayələrini qələmə almışdır.

"Sərvət-i fünun"çuların hekayə və romanlarında bir sıra ortaq özəlliklər görə bilərik. Onları belə təsnif etmək mümkündür:

1) Fransız ədəbiyyatına, xüsusən O.Balzak, Q.Flober, E.Zolyaya meyillilik;
2) Realizm, simvolizm və naturalizm cərəyanlarından təsirlənmə;
3) Əsərdə konfliktlərin yazıçının deyil, obrazların baxış bucağından verilməsi;
4) "Sənət sənət üçündür" anlayışının hakimliyi;
5) Əsərlərin dilinin ağır olması, ərəb-fars ibarələri ilə yanaşı, fransız sözlərinin də əsərlərə gətirilməsi;
6) Obrazların psixoloji təhlilinə önəm verilməsi, daxili təlatümlərinin geniş təsviri;
7) Romanlarda qəhrəmanların, əsasən, Avropada təhsil görmüş, ziyalı ailələrə məxsus olması, hekayələrdə isə "kiçik adam"lara yer verilməsi;
8) Romanlarda İstanbulun Bəyoğlu, Boğaziçi, Ərənköy kimi zəngin səmtlərinin seçilməsi, hekayələrdə isə Anadolu həyatından bəhs edilməsi;
9) Sevgi, melanxoliya, pessimizm kimi duyğuların əks olunması və.s

"Sərvət-i fünun" dönəminin məşhur nasiri kimi Xalid Ziyanın da sözü gedən dövrə aid əsərlərində bu xüsusiyyətlər özünü göstərir. Ədibin "Mavi və qara" romanı "Sərvət-i fünun" ədəbiyyatının, bir növ, manifesti səciyyəsi daşımaqla yanaşı, qərb roman estetikasının tələblərinə uyğun yazılmış ilk müasir türk romanı kimi qiymətləndirilir. Bu səbəbdən yazıldığı vaxtdan bəri bir çox ədəbiyyatçı və ədəbi tənqidçilərin diqqətini çəkmiş, təkcə sevgi romanı olaraq deyil, həm də dövrün sosial-mədəni vəziyyətini əks etdirmək və "Sərvət-i fünun" nəslinin yazı qayəsini anlamaq baxımından da önəmlidir. Əsərin mərkəzi obrazı Əhməd Cəmil özü də "Sərvət-i fünun" nəslinin nümayəndəsidir. Onun arzuları, ümidləri, sevgisi, poeziya sənəti ilə bağlı düşüncələri əsərdə önəmli yer tutur. Romandakı əsas məsələ baş qəhrəmanın gerçəkləşməyən arzuları və bundan doğan məyusluğudur.

"Mavi və qara" əsərinin adı əslində, onun problematikasının iki əsas dayağını simvolizə edir: mavi – Əhməd Cəmilin arzu və ümidləri, qara – onun gerçəkləşməyən xəyalları. Müəllifin "Qırx il" adlı xatirə əsərində qeyd etdiyi kimi, "Əhməd Cəmil mavi xülyalar içində yaşamaq üçün yaradıldığı halda, qara bir uçuruma yuvarlanacaq" [7, s. 463].

Əsərin qəhrəmanı Əhməd Cəmil xoşbəxt bir ailədə böyümüşdü. Mülkiyyə məktəbində təhsil almış və burada Hüseyn Nəzmi ilə səmimi dostluq münasibətləri qurmuşdur. Məktəbdə oxuduğu vaxtdan şeirə, ədəbiyyata böyük həvəs göstərən Əhməd Cəmil bu dünyaya qapılır. Yalnız atası dünyasını dəyişdikdən sonra gerçək həyata dönür, ailənin tək dayağı olur, ədəbi həyəcanının yerini dolanışıq dərdi alır. Kitabların tərcüməsi və zəngin ailələrin uşaqlarına dərs keçməklə işə başlayan Əhməd Cəmil daha sonra qəzetdə çalışır.

Çalışmaqla bərabər gələcək planları quran Əhməd Cəmilin bu arzuları arasında yazdığı şeirləri nəşr etdirmək, məşhur və zəngin olmaq, dostu Hüseyn Nəzminin bacısı Lamiyə ilə evlənmək vardır. Bunlarla yanaşı onu bacısı İqbalın taleyi də düşündürür. Bacısının əri Vəhbi bəyin onların evinə yerləşməsi ilə Əhməd Cəmil, sanki, öz evinə yadlaşır, evdən uzaq qalmağa çalışır. Bacısının evliliyindən bir neçə ay keçməsinə baxmayaraq, onun gününün heç də xoş keçmədiyini, xoşbəxt olmadığını görür. Və ən sonda Vəhbi bəyin bacısını döyməsi, bunun nəticəsində əvvəl övladını itirməsi və sonra İqbalın ölümü ona ağır zərbə vurur, bütün həyatını alt-üst edir. Bədbəxt taleyin qurbanı olan İqbal XIX əsr fransız romanının təsiri ilə türk ədəbiyyatına daxil olan saf, məsum bacı obrazının tipik bir nümunəsidir.

Ədəbi məclisdə şeirlərinin bəyənilməməsi, haqqında yazılan tənqidi məqalə, redaktorluqdan çıxarılması kimi amillər onu tək ümid yeri olan ədəbiyyat dünyasından ayırır. Lamiyənin başqası ilə nişanlanması isə onun mənəvi uçurumunu daha da dərinləşdirir.

Ümidsizliyə qapılan, həyata dair bütün marağını itirən Əhməd Cəmil anası ilə birlikdə gəmi ilə yaşadığı yeri tərk etdikdə o, hətta intihar etmək istəyir. Lakin anasının səsi onu son anda ölümün pəncəsindən qurtarır.

Xalid Ziya "Sərvət-i fünun" yazarı kimi əsərlərində obrazlarının psixoloji dərinliklərini də məharətlə açmışdır. Belə ki, Əhməd Cəmilin atası dünyasını dəyişdikdə onun keçirdiyi psixoloji sarsıntıları müəllif incəliklə təsvir etmişdir: "Əhməd Cəmil o müsibətə uğradıqdan sonra cansız bir ruh oldu, sanki bütün duyğu qabiliyyətləri məhv olmuşdu. Artıq davam edə bilmədiyi məktəbə tək gedib gəlirdi, ruhunun ən səmimi həmdəmi olan sevimli şairləri belə hörmətə layiq görmürdü. Hüseyn Nəzmi ilə dostluqdan da əvvəlki kimi həzz almırdı. O yalnız bir şeydən həzz alırdı: sükut" [8, s. 67]. Həmçinin, Əhməd Cəmilin pessimizmi, intihar cəhdi kimi motivlər "Sərvət-i fünun" dönəmində yazılan digər əsərlərin motivləri ilə səsləşir. "Xalid Ziya Əhməd Cəmilin həm sevgi, həm də xəyal dünyasını birgə vermək istəmişdir. Fəqət onun Lamiyəyə olan eşqi gizli qaldığı üçün romanda sevgi ön plana çıxmır" [2, s. 60].

"Mavi və qara" romanında "Sərvət-i fünun" ədəbiyyatı üçün xarakterik olan bir məsələyə də rast gəlirik: Qərb, xüsusilə, fransız ədəbiyyatına meyillilik və bunu fransız ədəbiyyatının məşhur nümayəndələri və onların əsərlərinin adını çəkməklə önə çıxarmaq. Bunlar arasında Rasin, Kornell, Sara Bernar, Munet Sulli, Pol Verlen kimi fransız yazıçı, şair, ədəbiyyatşünas və teatr aktrisaları var idi.

Xalid Ziyanın mövzusunu yasaq eşqdən götürdüyü, 1898-1900-cu illərdə "Sərvət-i fünun" dərgisində hissə-hissə yayımladığı "Eşq-i məmnu" ("Yasaq eşq") yazarın realist romanıdır. İlk yetkin türk romanı qəbul edilməklə yanaşı, bəzi ədəbi tənqidçilər "Eşq-i məmnu"nu ilk realist türk romanı olaraq da qiymətləndirir. 1900-cu ildə kitab halında nəşr olunan bu əsər dilinin ağırlığı səbəbi ilə müəllif tərəfindən 1939-cu ildə sadələşdirilərək yenidən nəşr olunmuşdur.

Romanda İstanbulun zəngin, sayılıb-seçilən iki ailəsi və onların həyatlarının birləşməsi – qırx beş yaşlı Adnan bəylə iyirmi iki yaşlı Bihtərin evlənməsi, bu evliliyin başqalarına, xüsusilə, Adnanın qızı Nihala təsirləri və ən əsası Adnanın qardaşı oğlu Bəhlul ilə Bihtərin yasaq eşqi təsvir olunmuşdur. Bu mənada əsərin adı onun mövzusunu əks etdirir. Digər "Sərvət-i fünun" romanları kimi "Eşq-i məmnu"da da obrazların daxil aləmi, psixoloji vəziyyətləri incəliklə işlənmişdir. Roman cəmiyyətə deyil, şəxsiyyətə və şəxsiyyətlərarası münasibətlərə yönəlmişdir. Əsərin ana obrazları Bihtər, Bəhlul və Nihal bir sevgi üçbucağı əmələ gətirir ki, onlar arasında yaranan bu mürəkkəb konflikt nəticədə faciəyə - Bihtərin intiharı, Nihalın dərin depressiyaya düşməsi və Bəhlulun baş götürüb çıxıb getməsinə səbəb olur. "Əhməd Həmdi Tanrıpınar "Mavi və qara və Eşq-i məmnu" başlıqlı məqaləsində bu əsəri şahmat oyununa bənzədir" [5, s. 278]. Necə ki, şahmat oyunu bütün daşlarla kompleks şəkildə

oynanılır, eynilə "Eşq-i məmnu" romanı da bir qəhrəman üzərində deyil, bütün obrazların zəncirvari əlaqələnməsi ilə ərsəyə gəlmişdir.

Cəmiyyətdə birmənalı şəkildə qəbul edilməyən yasaq eşq ədəbiyyata yeni gələn mövzu deyil, bundan əsrlər öncə də yazıçı və şairləri düşündürürdü. Bu baxımdan Xalid Ziyanın "Eşq-i məmnu" romanını XIX əsrdə Qustav Floberinin qələmə aldığı "Madam Bovari" əsəri ilə müqayisə etmək olar. Hər iki əsərdə həyat yoldaşına xəyanət edən və sonda intihar edən qadın obrazını görürük. Doğrudur, Bihtər daha varlı həyat üçün Adnan bəylə evlənib, daha sonra romantik arzuları üçün Bəhlulla ərinə xəyanət etsə də, Madam Bovari - Emma sırf daha yaxşı həyat yaşamaq, zəngin olmaq və qadın ruhundan anlayan bir kişi ilə birlikdə olmaq üçün əri Çarlsı aldadır. Lakin hər iki əsərdə ailə dəyərlərinin heçə sayılması, zəngin yaşama meyllilik, arzulanan həyatı yaşaya bilməmək məsələləri qabardılmışdır.

Xalid Ziyanın "Sərvət-i fünun" dönəminə aid olan sonuncu romanı "Qırıq həyatlar" adlanır. "Əvvəlcə "Sərvət-i fünun" dərgisində çap edilməyə başlansa da, dərginin bağlanması səbəbindən müxtəlif aralıqlarla "Yüksəliş" və "Vaxt" qəzetlərində çap olunur" [9, s. 164]. 1924-cü ildə kitab olaraq nəşr edilmiş, 1944-cü ildə isə Xalid Ziyanın özü tərəfindən dili sadələşdirilərək yenidən yayımlanıb. "Sərvət-i fünun" dönəmində yazılmağa başlanmasına baxmayaraq, "Qırıq həyatlar" romanı onun digər romanlarından fərqlənir. Belə ki, "ədib burada "Mavi və qara" ilə "Eşq-i məmnu"nun bəzən gərəyindən çox olan bəzəkli, pafoslu üslubundan, şeir və xəyal dünyasında yaşayan obrazlarından uzaqlaşmış, sadə bir ifadə tərzinə və cəmiyyət həyatının gerçəkliyinə dönmüşdür" [3, s. 72]. Həmçinin Xalid Ziya bu əsərində "Sərvət-i fünun" romanları üçün xarakterik olan "elmə, biliyə yüksək qiymət vermək" məsələsinə yer vermişdir. "Ömər Behiç elmi "insanlığın gələcəkdəki möhtəşəm günəşi" olaraq görür" [6, s. 395].

Romanın mərkəzi surəti Ömər Behiçdir. Süjet idealist bir xarakterə sahib olan Ömərin həyatı, evliliyi və əxlaq dəyərlərinin içində olduğu tragedik vəziyyətlə birgə çöküşü üzərində qurulub. Ədib digər əsərlərində olduğu kimi Ömərin psixoloji vəziyyətini dərin, əhatəli təsvir etmişdir.

Ömər Behiç üçün ailə olduqca müqəddəsdir, hər cür pislikdən, kədərdən, iztirabdan qaçıb sığına biləcəyi yerdir: "Onun üçün ən böyük səadət insanın öz evinin qapısını bağlayıb kilidlədikdən sonra özünü həyatdan, dünyanın xaosundan polad bir səddlə ayrılmış görmək idi. Və bu, yalnız öz evində mümkün ola bilərdi" [6, s. 37]. Doğrudur, o xəyalındakı arzuladığı ailəni qurur – hər baxımdan ideal bir həyat yoldaşı kimi gördüyü Vədidə ilə evlənir və bu ailə tablosu kənardan mükəmməldir. Lakin Ömərin daxili təlatümünün və faciəsinin səbəbi onun basdırmağa çalışdığı duyğuları və bütün mənliyi ilə qəbul etdiyi əxlaqi dəyərlər arasında olan çatışma, ziddiyyətdir. Onun cismən ehtiyac duyduğu eşq və ehtiras da insana aid duyğulardır, sədaqət, dürüstlük də. Və nəticədə bu savaşın məğlubu olur – Neyyirlə yasaq eşq yaşayaraq ailəsinə, dəyərlərinə, bir sözlə, özünə xəyanət edir. Qızı Leylanın ölümünü bu günahın cəzası olaraq görən Ömər sonda ailəsinə dönsə də, bu həyat yoldaşı Vədidəyə olan sevgisindən deyil, vicdanından irəli gəlirdi.

Xalid Ziyanın digər romanlarında olan qadın surətləri ilə müqayisədə fədakar qadın obrazı Vədidənin timsalında canlanır. Vədidə obrazı əsərdəki əxlaqsız münasibətlər, məhv olmuş dəyərlərlə qarşı-qarşıya qoyulan, vicdanın və əxlaqın nümunəsi olan bir qadındır. Ərindən şübhələnsə də, onun laqeydliyini görsə də, səbr edir, ailəsini dağıtmamaq adına hər şeyə dözür.

Vədidə ilə tam əks mövqedə duran Neyyir isə öncələr zəngin olmasına baxmayaraq, daha sonra bədxərcliyinə görə sərvətini itirən bir qadındır. Ömər Behiçlə də münasibəti eşq üzərindən deyil, şəxsi mənafeyi – istəklərini reallaşdırmaq, xərclərini ödətmək üçün başlamışdır. Əxlaq dəyərləri olduqca aşağı olan bu qadın Ömər Behiçlə yanaşı, başqa kişilərlə də münasibət yaşayır, hətta misirli zəngin bir adamla ilə evliliyə hazırlaşanda belə Ömər Behiçlə münasibətlərini davam etdirə biləcəklərini düşünür. Əslində Neyyir anası Sahirə xanımın yolunu davam etdirərək bizə "Anası gəzən ağacı balası budaq-budaq gəzər" məsəlini xatırladır. Sahirə xanım da ərinə davamlı olaraq xəyanət edən bir qadın kimi tanınır. Bu baxımdan Neyyir – Sahirə xanım və Bihtər – Firdevs xanım münasibətləri arasında oxşarlıq görə bilərik: xəyanət edən anaların xəyanət edən qızları.

Ömər Behiçin qızı Leyla əsərdə simvolik obraz səciyyəsi daşıyır. Belə ki, Ömər Behiç həkim olmağına baxmayaraq, Neyyirlə yasaq eşqə dalıb qızının xəstəliyini görmür. Leyla uşaq olsa da, sanki,

atasının kirli ruhunu görüb ona soyuq davranır və xəstəliyinin ən ağır vaxtlarında anasına sığınır. Bütün bunlar əslində Ömər Behiçə yanlış yolda olduğunu söyləyir və içindəki susmuş vicdanını oyatmağa çalışırdı.

Nəticə və elmi yenilik. "Sərvət-i fünun" cəmi 5 il fəaliyyət göstərməsinə baxmayaraq, Türkiyə ədəbiyyatı tarixi üçün dönüm nöqtələrindən birini təşkil etdi. Onun, şübhəsiz, ən böyük roman ustadı Xalid Ziya Uşaqlıgil öz əsərləri ilə türk ədəbiyyatını zənginləşdirməklə qalmadı, eyni zamanda onu Qərb ünsürləri ilə inkişaf etdirdi, roman janrının çərçivələrini genişlətdi. Yaradıcılığının XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf etməsinə baxmayaraq, əsərlərində qoyduğu problemlər bu gün də öz aktuallığını qoruyur.

Səksən illik ömrünün təxminən altmış ilini yaradıcılığa həsr edən Xalid Ziya özünə qədərki türk romanında hakim olan Əhməd Midhət ənənəsini – bəsit və çoxşaxəli olmayan roman ənənəsinin yerinə estetik və sənətkarlıq xüsusiyyətləri ilə seçilən, qəhrəmanlarının daxili dünyasına nüfuz edən müasir türk romanını gətirdi. Xalid Ziyadan öncə türk romanına nəzər yetirdikdə görürük ki, meydana gələn əsərlərin Qərb romanına yaxınlığı olsa da, roman janrının tələblərinə tam cavab vermir. Bu baxımdan Xalid Ziyanın əsərləri tam anlamı ilə romanın janr xüsusiyyətləri, estetik meyarlarını ödəyən əsərlər səviyyəsindədir. Lakin önəmli bir faktı qeyd etmək lazımdır ki, sadalanan xüsusiyyətlər ədibin "Sərvət-i fünun"a qatıldıqdan sonra qələmə aldığı əsərlərində özünü daha qabarıq göstərir. "Sərvət-i fünun", əgər belə demək mümkündürsə, Xalid Ziyanı ədəbi zirvəyə aparan yol oldu.

İstifadə edilmiş ədəbiyyat

1. Aydın. A. "Sərvət-i fünun" ədəbiyyatı. Bakı: Təknur, 2013, 264 s.
2. Bakırcıoğlu. N. Z. Başlangıçtan Günümüze Türk Romanı. İstanbul: Ötüken Yayınları, 2006, 296 s.
3. Huyugüzel. Ö. F. Halit Ziya Uşaklıgil. Ankara: Akçağ Yayınları, 2010, 310 s.
4. Kavcar. C. Batılılaşma Açısından Servet-i Fünun Romanı. Ankara: Atatürk Kültür Merkezi Yayınları, 1995, 405 s.
5. Tanrıpınar. A. H. Halit Ziya Uşaklıgil. Edebiyat Üzerine Makaleler. Haz: Zeynep Kerman. İstanbul: Dergah Yayınları, 1977, s. 275-278
6. Uşaklıgil. H.Z. Kırık Hayatlar. İstanbul: Özgür Yayınları, 2014, 326 s.
7. Uşaklıgil. H.Z. Kırk Yıl. İstanbul: İnkılap ve Aka Kitapevleri. 1969, 968 s.
8. Uşaklıgil. H.Z. Mai ve siyah. İstanbul: Kızıl Panda Yayınevi, 2021, 304 s.
9. Yıldırım. A.Ç. Halit Ziya Uşaklıgilin "Kırık Hayatlar" Romanında Trajik Durum. İstanbul: Tarih, Kültür ve Sanat Araştırmaları, cilt 5; sayı 1, s. 158-176.

ƏLİ BƏY HÜSEYNZADƏNİN YENİ MƏDƏNİYYƏT KONSEPSİYASININ ƏSAS TEZİSLƏRİ

Cəmilə Azər qızı Seyid*

Abstract

Main points of new concept of culture of Ali Bey Husseinzade

The article presents Ali Bey Huseynzadeh's concept of culture. It is indicated that Eastern and Western cultures came together in Azerbaijan at the beginning of the twentieth century as a result of socio-political events. As a consequence, intellectuals express their attitude to the issue of culture. The article claims that the basis of Ali Bey Huseynzade's concept of culture is to preserve the national culture and at the same time to enrich it with Western culture. The author assumes that the great thinker Ali Bey Huseynzade's approach to the concept of culture from this standpoint was directly related to his education. The article considers Ali Bey Huseynzade's concept of culture in the context of the history of cultural thought, especially the history of Western cultural thought. Besides, Ali Bey Huseynzade's concept of culture was considered in the context of social and cultural events of time. The scientific significance of the studying of Ali Bey Huseynzade's concept of culture is emphasized. The new concept of culture of Ali Bey Huseynzade is very important from the point of view, on the one hand, of forming the nation's resolve to resist Russian assimilation policy, on other hand, neutralizing the influence of Persian ideological pressure, on the another hand, preventing the Armenian threat to the Turkish presence in Azerbaijan, actualizing national identity issues in the country, as well as Azerbaijan's demand for independence, guiding the creation of a new state model based on democratic principles, connected to the Turkish thought, European values.

Keywords: *Europeanization, culture, symbolism, East, West.*

Giriş. XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan üçün olduqca həlledici və mürəkkəb bir dövr kimi xarakterizə oluna bilər. Həmin tarixi mərhələdə neft sənayesinin inkişafı ilə əlaqədar olaraq Azərbaycan əvvəlki dövrlərdən fərqli sosial-mədəni və iqtisadi münasibətlər şəbəkəsinə daxil olur. Bu fərqli sosial-mədəni və iqtisadi münasibətlər şəbəkəsi Azərbaycan xalqının bir millət kimi konsolidasiyasında mühüm rol oynayır. Son nəticədə neft kapitalı insan kapitalına çevrilərək Azərbaycanın olduqca güclü bir ziyalı elitasının formalaşmasına təkan verir. Belə ziyalılardan biri Əli bəy Hüseynzadə olmuşdur.

Əsas mətn. Əli bəy Hüseynzadə bütün yaradıcılığı boyu daha çox milli məsələlər üzərində düşünmüşdür. O, sözün əsl mənasında mütəfəkkir idi. Bu mütəfəkkirlik özündə fəlsəfəni, dinşünaslığı, filologiyanı, sosiologiyanı, kulturologiyanı və neçə-neçə başqa ictimai-humanitar elm sahələrini birləşdirirdi. Kultrologiya bu sahələr işərisində xüsusilə fərqlənirdi. Əli bəy Hüseynzadənin kulturoloji görüşləri, mədəniyyət konsepsiyası Qərb mütəfəkkirlərinin elmi fikir bazası əsasında formalaşdığı üçün bu konsepsiyanı şərh etməmişdən əvvəl mədəniyyətin Avropada tədqiqi tarixinə qısa bir nəzər salmaq lazımdır.

"Mədəniyyət"in elmi baxımdan tədqiqinin üç yüz ildən artıq tarixi vardır. Elmi ədəbiyyatlarda XVII əsrin ikinci yarısında ingilis alimi Tomans Qobsun və alman hüquqşünası Samuel fon Pufendorfun insanın mövcud ola biləcəyi iki fərqli vəziyyət – təbii vəziyyət (status naturalist) və mədəni vəziyyət (status culturalist) haqqında ideyaları mədəniyyətin elmi baxımdan öyrənilməsinin başlanğıcı kimi qəbul edilir. Daha sonra XVIII əsrin sonuna doğru alman filosofu Qerder İoqann Qotfrid mədəniyyəti tarixi baxımdan öyrənməyə başlamışdır. XVIII əsrdə Avropa maarifçilik hərəkatı dövründə də mədəniyyətin tədqiqi diqqət mərkəzində olmuşdur. Fransada Ş.Monteskyö, F.Volter, J.Russo, Almaniyada Q.Lessinq, İ.Kant, İ.Q.Herder, İtalyada C.Viko, Şimali Amerikada B.Franklin, D.F.Kuper, T.Peyn mədəniyyət problemi ilə ciddi məşğul olmuşlar. Mədəniyyətin araşdırılmasında XIX əsr xüsusilə məhsuldar dövr olmuşdur. Türk alimi Özkul Çobanoğlu "Halkbilimi kuramları və

* ***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Elek.poçt: jamazer46@gmail.com. Rəyçi:*** *Fil.e.dok. Sərxan Xavəri.*

araşdırma yöntemləri tarixinə giriş" kitabında yazır: "XIX əsrə qədər mədəniyyət deyərkən insanın daxilən malik olduğu keyfiyyətlər nəzərdə tutulurdu. Lakin XIX əsrin sonlarında Taylorun araşdırmalarından başlayaraq "mədəniyyət" ifadəsi altında hər hansı bir topluma məxsus olan, insan fəaliyyəti nəticəsində əldə edilən hər şey ifadə edilməyə başladı [1, s. 18].

Nikolas Jornet "Kültür nədir?" məqaləsində Taylorun 1871-ci ildə müəyyənləşdirdiyi mədəniyyətlə bağlı tərifi aşağıdakı kimi təqdim edir: "Mədəniyyət biliklərin, inamların, sənətlərin, dəyərlərin, qaydaların, adət və ənənələrin cəmiyyətin üzvü olan insan tərəfindən sonradan qazanılmış bütün fəaliyyət və vərdişlərin məcmusudur" [6, s. 15].

Görkəmli alim, akademik İsa Həbibbəyli isə mədəniyyəti aşağıdakı kimi şərh edir: "Mədəniyyət – cəmiyyətdə ortaq dəyərlərin və baxışların tarazlı bir səviyyədə yaşadılmasına, qabarma və çöküşmələr arasındakı ziddiyyətlərin, çatların aradan qaldırılmasına əlverişli şərait yaradır. Həm də mədəniyyət amili müxtəlif sivilizasiyalar arasındakı əlaqələrin, yaxınlaşmaların, bəzən isə hətta harmoniyanın təmin edilməsində mühüm rol oynayır" [2, s. 7].

Sərxan Xavəri isə mədəniyyətlə bağlı yazır: "Dünyanın mədəni mənzərəsi rəngarəng və bütövdür. Bu, rasional biliklərin, dəyərlərin, normalar, mənəviyyatlar haqqında təsəvvürlərin, xüsusi bir mədəniyyətə və yaxud digər xalqların mədəniyyətlərinə məxsus mentalitetin məcmusudur. Mədəniyyət bəşəriyyətin müxtəlif etnik qruplarını, bütün sosial təbəqələrini, siyasi dünyagörüşündən, dinindən, konfessional baxışından asılı olmayaraq, bütün zümrələrini birləşdirməyi bacaran vahid mənəvi enerji sahəsi yaratmağa qadir fenomendir. Vahid mənəvi sahənin yaranması isə müxtəlif tərəflər arasında harmonik münasibətlərin, ümumbəşəri mənafe anlayışının yaranması deməkdir" [5, s. 18].

Əli bəy Hüseynzadənin mədəniyyət konsepsiyasının əsasında Şərq-Qərb mədəniyyətləri münasibətləri dayanır. Həmin tarixi dövrdə Əli bəy Hüseynzadə yaradıcılığında kulturologiyanı aktuallaşdıran mühüm amillərdən bri o idi ki, Azərbaycanda Avropa mədəniyyəti ilə Şərq mədəniyyəti qarşılaşmışdır. Milli ziyalı elitası bu qarşılaşmadan irəli gələrək yeni mədəniyyətə münasibətlərini ifadə etməli dilər.Əli bəy Hüseynzadə də kulturoloq olaraq daha çox bu problemlər üzərində baş sındırırdı [3, s. 18]. O, yazırdı ki, biz avropalıların elm və maarif sahəsində əldə etdiyi nailiyyətlərdən bəhrələnməliyik. Onların beyinlərini həzm etməli, lakin mədələrində həzm olunmamalıyıq [4].

Yaşar Qarayev Əli bəy Hüseynzadənin bu fikirləri ilə bağlı yazır: "İslamlaşmaq" kimi "avropalaşmaq" təliminə də "Füyüzat"ın verdiyi təshih bədii-fəlsəfi tərəqqidə yeni mərhələnin ifadəsi idi. Əli bəy türk ziyalısını "yevroposentrizmin funksioneri" olmağa çağırmır, yox, əksinə, sözün əsl mənasında, "avropalaşmağı" ... Avropaya müqavimətin üsulu, forması sayırdı" [7, s. 441].

Yaşar Qarayevin bu fikirlərinin doğruluğunu Əli bəy Hüseynzadənin aşağıdakı mülahizələri də təsdiq edir: "Biz arzu ediriz ki, bizim tərəqqimizə baxıldıqda "türk və müsəlmanlar nə gözəl tərəqqi ediyorlar" denilsin, yoxsa, "türklər, müsəlmanlar irtidad ediyor, firəngləşiyorlar" denilməsin" [7].

Belə milli mövqeyi ilə Əli bəy Hüseynzadə etnik assimilyasiyanın qarşısının alınması zərurətini diqqətə çatdırırdı.

Əli bəy Hüseynzadənin yanaşmasını belə ümumiləşdirmək mümkündür ki, XX əsrin əvvəllərində bu dahi mütəfəkkir bütün türk dünyası üçün modern əsaslara dayalı yeni mədəniyyət konsepsiyası irəli sürmüşdür. Milli kökdən qopmadan, təqlidə yol vermədən, Şərq və Qərb mədəni təfəkküründün sintezini yaratmaq bu mədəniyyət konsepsiyasının əsas hədəfi idi. Yusif Akçura bunu tezislə antitezisin sintezi adlandırır və bildirirdi ki, Əli bəy Hüseynzadə müzakirələrdə iştirak edən tərəflərin tezis və antitezislərini yüksək bir sintez halında birləşdirmək istəmişdir.

Bu baxımdan Azərbaycanın XX yüzilin əvvəllərində meydana gəlmiş milli ideoloji konsepsiyası milli mədəniyyət konsepsiyamızla bir müstəvidə tədqiq olunmalıdır.

Yeni mədəniyyət konsepsiyasının irəli sürülməsində məqsəd XIX yüzildən etibarən "missionerlər əllaməsi" adlandırılan İlminskinin yönəltdiyi rus assimlyasiya siyasətinə qarşı millətin dirəniş əzmini formalaşdırmaq, digər tərəfdən fars ideoloji təzyiqinin təsir gücünü zərərsizləşdirmək, başqa bir tərəfdən ermənilərin Azərbaycanda türk varlığını təhdid etməsini əngəlləmək, ölkədə milli kimlik məsələlərini aktuallandırmaq, eləcə də Azərbaycanın müstəqillik tələbi, türk düşüncəsinə, Avropa

dəyərlərinə bağlı, demokratik prinsiplərə əsaslanan yeni dövlət modelinin yaranmasına istiqamət vermək cəhdi türkləşmək, islamlaşmaq, avropalaşmaq triadasının irəli sürülməsinə zəmin hazırlamışdı.

Peterburq və İstanbul Universitetlərində təhsil alması, təbabəti, riyaziyyatı dərindən mənimsəməsi, hələ Rusiyadaykən Peteburq Universitetinin şərqşünaslıq fakultəsində Jukovskinin mühazirələrini dinləməsi, Rəssamlıq Akademiyasının məşğələlərinə qatılması, İstanbul Universitetində təhsil aldığı illərdə isə XX yüzil türk dünyası üçün həlledici əhəmiyyət kəsb edən proseslərin, tutaq ki, İttihad və Tərəqqi cəmiyyətinin ideya istiqamətini müəyyənləşdirən qurucu insanların ön sıralarında olması ötən əsrin əvvəllərində Əli bəy Hüseynzadənin Azərbaycanda da bu proseslərə istiqamətverici missiya ilə çıxış etməsinə əsas verirdi. Bu mənada onun 1905-ci ildən etibarən Bakıda əvvəl "Həyat" qəzetində, daha sonra 1906-cı ildə "Füyuzat" jurnalında dərc etdirdiyi yazılarda irəli sürülən ideyalar türk düşüncə tarixini tədqiq edən alimlər tərəfindən təkcə məfkurəvi-ideoloji deyil, eyni zamanda, mədəniyyət məsələlərinə yeni baxış kimi səciyyələndirilir və həmin mövzunun araşdırılmasının zəruri edir.

Nəticə və elmi yenilik. Məqalənin əsas elmi yeniliyi və əsas nəticələri ondan ibarətfir ki:

- Əli bəy Hüseynzadənin mədəniyyət konsepsiyası kulturoloji fikir tarixi, xüsusən Qərb kulturoloji fikir tarixi kontekstində nəzərdən keçirilmişdir.
- Əli bəy Hüseynzadənin mədəniyyət konsepsiyası dövrün sosial-mədəni hadisələri kontekstində nəzərdən keçirilmişdir.
- Əli bəy Hüseynzadənin mədəniyyət konsepsiyasının əsasında dünyaya inteqrasiya olunmaqla milli dəyərlərin qorunub saxlanılması dayandığı əsaslandırılmışdır.
- Əli bəy Hüseynzadənin mədəniyyət konsepsiyasına təsir edən əmilləri onun bioqrafiyası kontekstində müəyyənləşdirilmişdir.
- Əli bəy Hüseynzadənin mədəniyyət konsepsiyasının tədqiqinin elmi əhəmiyyəti vurğulanmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Çobanoğlu, Ö. Halkbilimi Kuramları və Araştırma Yöntemleri Tarihine Giriş. Ankara: Akça Yayınları, 2015. 448 s.
2. Həbibbəyli, İ. Birinci Türkoloji Qurultayın dərsləri və müasir çağırışlar // I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq konfransın materialları, Bakı: 14-15 noyabr. 2016. h.1, s. 7-12.
3. Hüseynzadə Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007. 375 s.
4. Hüseynzadə, Ə. "Kasablanka faciəsi və Osmanlı-İran komediyası" // Bakı: Füyuzat, 1907. № 25, s. 386-389.
5. Xavəri S. Milli mədəniyyət: funksional semantika problemləri. Bakı: Sabah, 2018, 220 s.
6. Journet, N. Evrenselden Özele Kültür. İstanbul: İz Yayıncılık, 2009, 422 s.
7. Qarayev, Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı: Elm, 2002, 700 s.

MÖVZU PALİTRASI, TARİXİ DUYUM VƏ JANR ÖZƏLLİKLƏRİ

Fidan Vahid*

Abstract

Subject palitra, historical sense and genre characteristics

The work "Fathali Fathi", created on the border of a classic historical and an alternative novel, represents a new stage in the work of Chingiz Huseynov, is the pinnacle of the author's early works in search of history-fate and a touchstone for his other novels. Against the backdrop of the fate of the hero of Mirza Fathali's work, the author approached the traditional theme from a new position, breaking genre boundaries, and managed to create a syncretic historical novel. Although the work is rich in historical facts, the reader again hears these documents through the eyes of the author. The novel "Fathali Fathi", which researchers consider the first work in Azerbaijani literature, where the problem of the writer and history, the writer and the empire is reflected in all its nakedness, despite the fact that it was written in a difficult period from a political point of view, is a documentary fantasy, which is not subject to modernity and brought Chingiz Huseynov world fame.

Keywords: *historical novel, syncretism, fantasia, interpretation, national color.*

Giriş. Klassik tarixi romanla alternativ roman hüdudlarında yaranan "Fətəli fəthi" əsəri Çingiz Hüseynov yaradıcılığında yeni mərhələ təşkil edərək müəllifin əvvəl yazdığı əsərlərində özünü göstərən tarix-tale axtarışlarının zirvəsi, digər romanları üçün məhək daşıdır. Müəllif əsərin qəhrəmanı Mirzə Fətəlinin taleyi fonunda ənənəvi mövzuya yeni mövqe ilə yanaşmış, janr çərçivələrini sındıraraq sinkretik tarixi roman yaratmağa nail olmuşdur. Əsər tarixi gerçəkliklərlə zəngin olsa da, oxucu bu sənədləri müəllifin gözü ilə yenidən duyur. Tədqiqatçılar tərəfindən Azərbaycan ədəbiyyatında yazıçı və tarix, yazıçı və imperiya probleminin bütün çılpaqlığı ilə əksini tapdığı ilk əsər kimi qiymətləndirilən "Fətəli fəthi" romanı siyasi baxımdan çətin dönəmdə yazılmasına baxmayaraq, mövcud zamana boyun əyməyən və Çingiz Hüseynova dünya şöhrəti qazandıran sənədli fantaziyadır.

"Dünənki ömür bu gündə, bu günkü ömürsə, həm dünəndə, həm də sabahda yaşayır..." Fətəli Fəthi

Ömrünün az qismini vətəni Azərbaycanda keçirən, dünya ədəbiyyatında tanınan və dəyərləndirilən araşdırmacı-yazar, fikir adamı Çingiz Hüseynov çoxşaxəli yaradıcılığında tarixi mövzuya və şəxsiyyətlərə yanaşma tərzi ilə diqqət çəkir. İndiyə qədər əsərləri otuzdan çox türk xalqlarının dilinə tərcümə olunaraq yayılan yazıçı bütün yaradıcılığı boyu bu mövzuya sadiq qalmış, təkrarsız sənət örnəkləri yaratmışdır. Təsadüfi deyildir ki, araşdırmaya cəlb olunan "Fətəli fəthi" romanına bir çox tənqidçilərin baxış müxtəlifliyi maraq doğurur.

Çingiz Hüseynovun ikidilli (rus və Azərbaycan) orijinal əsəri olan və müəllifin "sənədli fantaziya" adlandırdığı, işğalçı sovet rejiminin can verdiyi dövrdə, ötən əsrin qürubunda Azərbaycan tarixi roman janrının əsas ideya yükünü və yenilikçi forma xüsusiyyətlərini özündə daşıyan "Fətəli fəthi" böyük mütəfəkkir Axundovun həyat və taleyinə bədii-fəlsəfi baxış yaradan örnəklərdən biridir. Azərbaycan ədəbiyyatının, ümumən Şərq ədəbi-düşüncəsinin inkişafında müstəsna rolu olan, tarixin dönüş nöqtəsi hesab edilən on doqquzuncu əsr hadisələrinin canlı şahidi Mirzə Fətəli Axundovun bədii ədəbiyyata obraz kimi gəlişi bu romanla başlamamış, ona qədər və daha sonra yazıçılar hər üç ədəbi janrda əsərlər meydana qoyaraq ədibə çoxyönlü baxışı zənginləşdirmişlər. Tarixdən bu yana, Əlisa Nicatın "Gəncəli müdrik" romanı, Hüseyn Arifin "Ürəklər birləşəndə" poeması, Əbdürrəhim bəy Haqverdiyev "Xəyalat", Mikayıl Rəfili "Səbuhi", Şəfaət Mehdiyev "Mirzə Fətəli", Arif Mədətovun "İdrak işığında" pyesləri, Əli Kərimin "Qarlı qış axşamında" şeiri və digər ədəbi örnəklərdə Mirzə Fətəli ruhu duyulur. Axundzadə obrazına Azərbaycan ədəbiyyatında bu qədər geniş qayıdışın başlıca səbəblərindən biri uzun illər Tiflisdə çar məmuru kimi çalışan Mirzə Fətəlinin həyatı ilə bağlı kifayət

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: huseynovafdn2002@gmail.com. Rəyçi:*** *Prof. Vaqif Verdiyev.*

qədər arxiv materiallarının varlığı, öz qələmdaşları, dostları və Avropada təhsil alan oğlu Rəşidlə mütəmadi məktublaşmasıdır.

Tarixin tozlu rəflərindən qurtularaq dilindən qıfılı götürülən sənədlər fonunda Azərbaycanın yaşadığı dramatizmi Axundzadə taleyindən keçirən, baş verən olayların qəhrəmanın mənəvi və ruhi aləmində yaratdığı köklü dönüşümləri ustalıqla canlandıran Çingiz Hüseynovun bu əsərinə münasibət birmənalı olmamışdır. Bir çox tədqiqatçılar romanın tarixi mövzuda yazıldığını qəbul etsələr də, janr məsələsində zaman-zaman fərqli meyillər özünü göstərir. Yavuz Axundov romanın daha çox fəlsəfi-psixoloji məzmunu ilə diqqət çəkdiyini vurğuladığı halda, tənqidçi Həsən Quliyev dramatik roman, tədqiqat-roman, roman-etiraf, pritça adlandırmağın daha doğru olacağını bildirir və əsəri Azərbaycan tarixi roman ənənəsində yeni söz kimi mənalandırır. Ədəbiyyatşünas Rəşid İsmayılov da "Fətəli fəthi" fantaziyasında geniş istifadə olunan şərtilik meyarını əsas götürərək onu sadəcə tarixi əsər adlandırmağın düzgün olmadığını vurğulayır. Tədqiqatçıların janrla bağlı fikir ayrılıqları müəyyən mənada yazarın "İzahat" hissəsində vurğuladığı "olanı olan kimi yazdım, olmayanı ola biləcək kimi" fikrindən qaynaqlanır. Çingiz Hüseynovun təsvir predmetinin yalnız tarixi fakt və hadisələr olmadığını, bədii xayala burada daha böyük "hüquqlar" verildiyini öz tədqiqat işində əsaslandıran Təyyar Salamoğlu isə Varfolomeyev bölgüsünə əsaslanaraq, əsəri tarixi-romantik tipdə yazılmış tarixi-bioqrafik roman növünə aid edir. Bu fikir ayrılıqlarının digər bir səbəbi isə əsərin daxili quruluşu ilə bağlıdır.

Belə ki, "Fətəli fəthi" özülündə ayrı-ayrı sahələrin və eləcə də janrların xarakterik xüsusiyyətlərini daşıyan postmodern sinkretik tarixi romandır. Əsərdə "müxtəlif bədii priyomlardan – fantastika, yuxu, qrotesk, simvol və s." [1, s. 220] geniş istifadə olunmuşdur. Yazar memarlıqdan şəbəkə üsulunu, musiqidən leytmotivi, dilçilikdən nidaları, sualları, tarixdən susqun sənədləri, romandan təxəyyülü, həyatdan qəhrəmanları və özündən Cadugəri alaraq əsərində əridib "sehrli iksir" yaratmağı bacarmışdır**.** "Şərti üslub və bədii təsvirdə yeni formalar axtarışı Çingiz Hüseynovun yazıçı dəst-xəttini həmişə fərqləndirmişdir. Ona məxsus "daxili nitq" və "ucadan düşünmə" üsulu bu dəfə də gərgin dramatik fikirlərin gözlənilməz dalğaları ilə, publisist passajlarla, bədii hipotezlərlə zəngindir" [11, s. 169]. Qeyd etməliyik ki, bəzi səbəblər üzündən azərbaycan alimləri tərəfindən hələ ki hərtərəfli araşdırmaya cəlb olunmayan "Fətəli fəthi" dünya miqyasında janrın bənzərsiz nümunəsi kimi dəyərləndirilir.

Hər nə qədər mübahisəli görünsə də, romana verilən tərifl ər içərisində onu digər janrlardan ayıran başlıca özəllik kimi mətnin süjetində xalqın iştirakı məsələsi əsas götürülür. Çingiz Hüseynov də yabançı mühitlərdə yaşayıb yaratmasına baxmayaraq, qan yaddaşı ilə bağlı olduğu Azərbaycan toplumunun etnoqrafiyasını, folklorunu, ruhunu özündə oluşduran, hər qatında milli nəfəs duyulan, iblis Əjdaha dövrünün siyasi panoramını qəhrəmanının "düşüncə selində" təsvir edən mükəmməl roman yaratmağa nail olmuşdur. Lakin ideyanın oxucuya ötürülməsində ənənəvi metodlardan istifadə etməmiş, əsərin zahirini yox, batini quruluşunu – alt qatını zənginləşdirərək, mifoloji ünsürlərin bilinməz gücü ilə əsrarlı roman dili yaradır. Romanın "Cadugərlə söhbət" hissəsində Fitilbörk əjdəhasından söhbət düşən zaman Axundzadə sadə dillə Xasay xanı inandırmağa çalışır ki, biz istəsək, çar Rusiyasını məhv edə bilərik, necə ki, bircə sözü ilə Cadugər Parisi dağıtmışdı. Elə bu anda zamanda yolculuq edən oxucu Fətəlinin uşaqlıq xatirəsi ilə qarşılaşır, bir payız günü, Fətəli həyətdə oynayan zaman qonşu evdə qadınlar sirkə tuturlar. Axund Ələsgər Fətəliyə tapşırır ki, bu küpələrdən ehtiyatlı olsun, onları sındırmasın. Uşaq Fətəlini atasının sözləri düşündürür, axı o hara bu irilikdə küpü sındırmaq hara? Amma birdən əlindəki balaca daşı atmaqla iri küpə çatlayıb sınır və ətrafa sirkənin iyi yayılır. Əslində, Çingiz Hüseynov burada "sirkə nə qədər tünd olsa, öz qabını çatladar" atalar sözünü iki zaman arasında paralel apararaq zahirən tünd, daxilən isə çürüyüb rəngini itirən çarlığın aqibətinə işarə edir. Və ya romanın irəliləyən səhifələrində Axundzadənin yandırdığı kağız-kuğuzların külündən nə isə yaranacağına qəti inamı, küllərindən yenidən doğan Zümrüd quşu əfsanəsi ilə görünməz bağlarla əlaqələndirilir. Eləcə də, Sisianovun ölümə məhkumluğunun qurd kimi ulayan it motivi ilə bağlanması...

Roman boyunca yazar kiçik detallara dərin mənalar yükləyir. Lakin əsərin mükəmməlliyini şərtləndirən başlıca cəhət bədii təxəyyülə əsaslanaraq, tarixi interpretasiya cəhdidir. Müəllif ciddi elmi

araşdırmalarla mümkün olan bütün qaynaqları sərf-nəzər etmiş, tarixə sənədlərin gözüylə aydınlıq gətirmişdir. "Bu əsərdə ilk dəfə olaraq yazıçı və tarix, yazıçı və imperiya, yazıçı və hakimiyyət, yazıçı və xalq problemi bütün çılpaqlığı ilə qoyulmuşdur" [4, s. 109]. Bilindiyi kimi, tarix və roman hər zaman bir-biri ilə qarşılıqı mənbə "alış-verişi" aparan yaxın sahələr kimi tanınır. Türkiyə professoru Şerif Aktaş iki sahə arasındakı fərqə diqqət yönəldərək tarixçini fotoqrafa, roman ustasını isə rəssama bənzədir. Material eynidir, fərqi yaradan görmə bucağıdır. Bu baxımdan, "tarixi romanda sənədlilik qanunauyğun haldır. Lakin sənədi oxumaq, tilsimini qırmaq, açmaq – bu sənətkar işidir. Sənəd çox vaxt həqiqətin mahiyyətini açmır, əksinə gizlədir. Tarixi romanda isə o, təsvir olunan dövrün ab-havası, psixologiyası, əhval-ruhiyyəsi haqda təsəvvür yaratmağa müəllifə kömək etməlidir" [1, s. 220]

Faktların və tarixiliyin özündə də bir şərtilik vardır. Çünki tarix birmənalı deyil: yaşanılan, kağız parçalarında əks olunan və tarixən hakimlər tərəfindən quraşdırılan tarix arasında böyük fərqlər vardır. Buna əsasən də, taleyinə qürbətdən-qürbətə ömür yolu yazılan Çingiz Hüseynov əsrin faciəvi hadisələrinə analitik münasibətini tarixi mövzu vasitəsilə nəql etmiş, olayların siyasi kökünü roman nəsrinin inandırıcı dramatizmi ilə göstərməyə çalışmışdır. Yazar tarixi özduyumla Fətəli mühitini dövrü ilə həmahəngləşdirərək, bəzi yazılmayan olaylara da bədii don geyindirməyi ustalıqla bacarmışdır. Çünki müəllif üçün başlıca mövzu siyasi hadisələr yox, onun qəhrəmanında doğurduğu mənəvi dəyişmə və dərketmədir. İdrak və yaddaş arasındakı mühüm bağın önəmini dərindən anlayan yazar tarixə biganəliyin gələcəyə yönəlik məğlubiyyət və əbədi milli məhrumiyyət olduğunu həm yaşamında, həm də əsərlərində sübut edir. Tənqidçi Rüstəm Kamal da romanı yüksək dəyərləndirərək onu iç (səs) yaddaşın təcrübəsi kimi mənalandırır. Beləliklə, Axundzadənin əsərin sonunda yaşadığı fərdi tragizmi bütöv xalqın faciəsi kimi ümumiləşmiş, şəxsiyyət-mühit qarşıdurması millət-tarix kontekstində mənalandırılır.

"Fətəli fəthi" digər tarixi romanlardan fərqli olaraq vahid süjet xəttinə malik deyil. Bir-birinin davamı olaraq 3 hissəyə bölünən əsər, hər fəslin daxilində də ayrı-ayrı bölümlərə ayrılmışdır ki, hətta bu müstəqil adları olan yarım bölümlər də öz daxilində müstəqil süjetlərə şaxələnir. Burada hadisə inkişafında bəzən bir söz, hadisə bənzərliyi özgürlük qazanır və süjet içində süjet yaranır. Məsələn, II fəsildə Fətəli şahın ağlasığmaz edamlarına paralel Çingiz Hüseynov neçə-neçə tarixi faciəni xatırlayır və süjetə uğurla düyünləyir: Qərbdə Filipp şahın öz ailəsini öldürməsi, Şah Abbasın bəzi tayfaları yer üzündən silməsi, monqolların kəllədən qalaları, körpəlikdən süd əvəzinə qan içən Həccacın vəhşilikləri və s. Həmin fəsildən başqa nümunəyə nəzər salaq. Axundzadə öz əsəri üçün Fətəli şahın həyat yoldaşına ad düşünərkən bir anda pərdə onun otağında enib Qafqazın sıra dağlarına səfər edir, elə bu anda gözü qarşısında dağlılar, Hacı Muradla Səlma xatunun dialoqu canlanır. Çingiz Hüseynov həm də əsərdə fikir içində fikirlər yaradır. Öz obrazının simasında əsərdə ad seçiminin əhəmiyyətinə sətiraltı toxunur. Axundzadə bu məsələyə çox həssaslıqla yanaşır, çünki böyük ideallar uğruna yazılan əsərlərdə hər bir detal vahid məqsədə xidmət edir. "Ad bir növ əsərin bütün informasiyasını özündə cəmləşdirir, irəlicədən oxucuda əsərin ideya istiqaməti, problematikası, qəhrəman xarakteri, taleyi haqqında xəbər verir" [15, s. 96]. Bu yerdə fransız yazarı Floberin öz əsərləri barədə dediyi fikirləri də xatırlamış oluruq: "Mənim kitabımda yersiz heç bir təsvir yoxdur, hər bir detal qəhrəmanlara, hadisələrə yaxından və uzaqdan təsir edir".

Yuxarıda qeyd olunduğu kimi, bir çox məziyyətlərinə görə indiyə kimi Azərbaycan ədəbiyyatında mövcud olan tarixi əsərlərdən seçilən, klassik tarixi romanla alternativ roman hüdudlarında yaranan "Fətəli fəthi" sənədli-fantaziyasına Floberin dünyagörüşündən yanaşsaq, təsvirlərin fərqli yozumları baxımdan düşündürücü sonuclar əldə edilir. Axundzadənin yaratdığı cadugər obrazını dekonstruksiya edərək "adında "ibn", fars "zadə", "türk "oğlu", "viç", tapılan, atadan və ata yurdundan məhrum kosmopolit obraz yaradan müəllif öz qəhrəmanını səhnəyə belə "gətirir": "Cadugər yorğan-döşək yığılan yük yerinin önündən asılan və üstündə narın çiçəkləri olan çit pərdənin arxasından çıxdı". Bu gəliş təsadüfi deyil. İlk baxışdan adi çit adlandırılan pərdə, əslində, gələcəyin pərdəsi idi. Məhz romanın ilk səhifələrindən cadugər bütün gələcəyi təfsilatı ilə bilirdi. Onun dili ilə söylənən: "Sən hökmən bu dünyaya gəlməli idin, necə ki, gəldin də", – fikrini Fətəlinin dünyaya gəliş səbəbini zəmanin ona müntəzir olması ilə bağlayır, taleyin hökmü adlandırır və yaşanılan, gələcəkdə görəcəyi bütün hadisələri alın yazısı adlandırır. Zaman-zaman ortaya çıxan və əsas təhkiyəçiyə

ideyanın çatdırılmasında yardım edən yanağı xallı Cadugər, həm də yaxşı bir siyasətçidir. Bu Güney Azərbaycanla bağlı Fətəli ilə etdiyi söhbətdə aydınlaşır: Cadugərin "özü də necə ayrılıq?! Qılıncla kəsib ikiyə bölüblər diyarı, qanlı-buurlğanlı Araz sərhəd olub, necə keçəsən? Sualına Fətəli yanıqlı-yanıqlı düşünür və bunun mümkünlüyünə tam inam göstərir, özünün də dediyi kimi, çünki onun atası bir dəfə bunu bacarmışdı, otaylı butaylı ailəsinin birləşdirə bilmişdi, deməli xəyal mümkünsüz deyildi. Əsərin sonunda müəllifin oxucusuna ünvanladığı fikir də bunu sübut edir: ümid telləri qırılmazdır, səslər eşidilməkdə, deyilən deyilməkdədir, həm o tayda həm də bu tayda...

Mövzunun işlənməsinə sosialoji aspektdən yanaşdıqda da bəzi özünəməxsusluqlar görünür. Bir əlində medal, digərində qələm təsvir olunan Axundzadənin yaşadığı tarixi mərhələnin siyasi-ideoloji uçurumları fonunda qəhrəmanın mənəvi sarsıntıları qabardılsa da, tarixi faktları dərindən bilməyən oxucu üçün zaman qeyri-müəyyənlik və hüdudsuzluq qazanır. Roman janrında etnoqrafik zamanın müəyyənləşdirilməsi üçün əsas sayılan geyim tərzi, obrazların nitqi, yemək kültürü, adət-ənənələr, inanclar, bir sözlə yaşam tərzinin hərtərəfli təsvirinə "Fətəli fəthi"də rast gəlinmir ki, bu da dolayısıyla müəllif ideallarının çatdırılmasında bir üsul kimi diqqət çəkir. Milli düşüncə ilə yaşayan Azərbaycan ziyalılarının və fikir adamlarının əsrlər boyu dönə-dönə ümidlərini yabançı və saxta mühitə bağlayaraq aldanması, yalançı nicatı gözləyə-gözləyə sönən faciəli taleyini ümumiləşdirən Çingiz Hüseynov öz əsərini konkret bir mərhələ ilə məhdudlaşdırmamış, keçmişə, gələcəyə qırılmaz tellərlə bağlayaraq əbədiyyət qazandırmışdır. Və nəticədə hər dövrün oxucusu "Fətəli fəth"ində bir az özünü görəcək, səhvlərindən kimliyini tanıyacaq...

Sosial mənzərə ilə zamansızlıq qazanan müəllif əsər boyu təbiət və məkan təsvirlərinə də yer ayırmamaqla oxucusu üçün nəhayətsiz genişlik yaradır. Maraqlıdır ki, mövzu dairələri bir-birindən kəskin fərqlənsə də, əksər romanlarda janrın həcmə verdiyi imkanlarla müəllif təbiət təsvirlərinə sətirlər, səhifələr həsr edə bilir, çünki pyes üçün səhnə dekoru nədirsə, roman üçün də təsvir eyni mahiyyəti daşıyır, yəni birbaşa mövzu-ideya ilə əlaqəlidir. "Fətəli fəthi"də isə bu təsvirlər görünmür. Əsər boyu əsas məkan Qafqaz diyarıdır, lakin müəllif heç bir halda təbiət təsvirlərinə yer vermir. Həcmcə ən kiçik hekayəsində belə düşündürücü söz oyunu quraraq ahəngdar bədiilik yaradan Çingiz Hüseynovun bu yanaşması bir neçə cəhətdən oxucunu düşündürür:

1. Müəllifin öz qəhrəmanı ilə eyni düşüncədə olması və uzun illər yetərincə mədh olunan Qafqazın "gül-bülbül" metaforalarından imtina edərək oxucunun diqqətini onun faciəvi taleyinə mərkəzləşdirmək.
2. Bölünən Azərbaycanın parça-parça torpağında qara daşlar göyərməz, bərraqlığa alışmış namütənahi dəniz dalğalanmaz, küskün durnalar vüsal nəğməsi ötə bilməzdilər... Beləliklə, Şimal pəhləvanının müstəmləkə əsarətində olan bir ölkənin solğun günlərini qabartmaq.
3. Klassik romanlarda məkan statik mövqe durumunda olsa da [16, s. 66], müasir mərhələdə ədəbiyyatın öz tələbindən doğan yeni düşüncə yanaşması ilə hərəkətlilik qazanmaqda, təsvirlər bilavasitə mənanın altqatına nüfuz edərək fikri qüvvətləndirməyə xidmət etməkdədir. Bu baxımdan, yazar xarici aləmin təqdiminə xəsisliklə yanaşmış, oxucunu qəhrəmanının iç dünyasında, kəsik-kəsik xatirələr və psixoloji yaşantılar səpkisində gerçək səyahətə cəlb edə bilmişdir. Deməli, olaylara Fətəlinin daxili aləmindən nüfuz etmək cəhdi.
4. Və nəhayət, romanı hipertekstuallıq səviyyəsinə qaldırmaq istəyindən doğan sərhədləri dəqiq cızılması mümkün olmayan hüdudsuz məkan qavrayışı yaratmaq.

Roman boyu maraqlı təhkiyə üsulları ilə Axundov şəxsiyyətini olduğu yerdən daha yüksəklərə qaldıran, bitib-tükənməyən xəyallar və ümid qığılcımları ilə yaşadan münəccim müəllif sonluğu məhz qəhrəmanı Bakıxanovun dilindən söylədiyi "mənim bu günüm, sənin gələcəyindir, Fətəli" fikri ilə iflasa uğradır. İkinci cahan müharibəsindən sonra "SSRİ-də müşahidə olunan idelogiyanın xətrinə tarixin təhrif edilməsinə, saxtalaşdırılmasına qarşı etiraz, kənar torpaqlarda yaşayan xalqların, o cümlədən Azərbaycanın "Rusiyanın tərkibinə könüllü daxil olması" fikrinin çürüklüyünü göstərmək, bu birliyin könüllü birlik yox, Lermontovun yazdığı kimi "qanlı tabeçilik" olduğunu bütün əsər boyu yeri gəldikcə təlqin edən zamana və məkana sığmayan böyük yazar sovet dövründə yazmasına baxmayaraq, "Fətəli fəthi" ilə quruluşu da iflasa uğradır...

Əsarət zəncirləri ilə sıxılıb-boğulan bir toplum üçün bu hissi yazıya daşımaq çox çətindir əslində. Ağrılıdır, eyni əsərdə həm özünü, həm də cəlladını yaratmaq. Əzabdır, alın yazın ilə aldanışının sərhəddini çizmək... Eyni səhifələrdə bitib-tükənməyən ümidlərini yazıb, irəlidə öz əllərinlə yıxıb dağıtmaq. Keçmişini işğal senzurasında yandırıb, millətinə ölüm hökmü oxumaq, Yaradan olsan belə, gələcəyi cızanda qələmi sındırmaq...Çətindir, düşüncə və hissləri havasız mühitə məhkum olunan Vətəndə özgürlük nəğmələri bəstələmək. Bu və başqa səbəblərdəndir ki, Azərbaycan ədəbiyyatında **əsarət və hürriyyət** aparıcı mövzuya çevrilə bilməmişdir. Çingiz Hüseynov isə bir çox yazarlardan fərqlənərək yaradıcılığı ilə bu boşluğu doldurmağa çalışmış "Fətəli fəthi" romanında çar Rusiyası ya da Sovet rejimini yox hər daim cildini dəyişən kölə düşüncəsinin (düşüncəsizliyin) yaddaqalan obrazını yaratmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Axundlu Yavuz. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər(1930-2000), Bakı: Adiloğlu, 2005, 550 s.
2. Aktaş Şerif. Roman sanatı ve roman incelemesine giriş, Ankara: Akçağ, 1991, 163 s.
3. Bourneur Roland ve Quellet Real. Roman dünyası ve incelemesi (Çeviren: Dr. Hüseyin Gümüş), Ankara: Kültür Bakanlığı, 1989, 250 s.
4. Müasir Azərbaycan ədəbiyyatı (Ali məktəblər üçün dərslik). İki cilddə, II cild, Bakı: Bakı Universiteti, 2007, 564 səh.
5. Dino Güzin. Tanzimatdan sonra edebiyatta gerçekliğe doğru (birinci kısım), Ankara: Türk Tarih Kurumu basımevi, 1954, 55 s.
6. Əsgərov Bəxtiyar. Azərbaycan tarixi romanlarında gerçəklik və bədii təxəyyül, Bakı: Elm və təhsil, 2015, 278 s.
7. Güven Deniz. Ayla Kutlunun romanlarında anlatım teknikleri (yüksek lisans tezi), Konya:2007, 105 s.
8. Hüseynov Akif. Sənət meyarı, Bakı: Yazıçı, 1986, 315 s.
9. Hüseynov Çingiz. Fətəli fəthi, Bakı: Alatoran, 2015, 536 s.
10. Hüseynov Çingiz. Seçilmiş əsərləri, Bakı: Kitab klubu, 2018, 434 s.
11. Qarayev Yaşar. Meyar-şəxsiyyətdir, Bakı: Yazıçı, 1988, 451 s.
12. Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan, Bakı: Sabah, 1996, 712 s.
13. Quliyev Həsən. Həqiqətə arxalansaq, Azərbaycan jurnalı, 1989,№4, s.184
14. Quliyev Qorxmaz. Dəlidən doğru xəbər. Bakı: Mütərcim, 1999, 158 s.
15. Quliyev Qorxmaz. Xüsusidən ümumiyə, Bakı: Elm və təhsil, 2016, 317 s.
16. Özdenören Rasim. Ruhun Malzemeleri, İstanbul: İz yayıncılık, 2009, 219 s.
17. Salamoğlu Təyyar. Müasir Azərbaycan romanı: janr təkamülü (XX əsrin 80-ci illəri), Bakı: Nafta press, 2007, 152 s.
18. Salamoğlu Təyyar. Müasir Azərbaycan romanının poetikası, Bakı: Elm, 2005, 280 s.
19. Sultanov Kazbek. Çingiz Hüseynov yaradıcılığına baxış, Ədəbiyyat qəzeti, 1 may, 2009 s. 4
20. Şəmsizadə Nizaməddin. Roman və tarix, Bakı: Elm və təhsil, 2023, 255 s.
21. Tekin Mehmet. Roman sanatı, Ankara: Ötüken, 2016, 231 s.

CÜMHURİYYƏT DÖVRÜ VƏ ƏZİZ NESİN

Ləman Əliyeva*

Abstract
Republican period and Aziz Nesin

One of the most prominent representatives of the Republican literature in Turkey is Aziz Nesin, who is regarded as one of the talented masters of satire in 20th-century Turkish literature. His satirical stories and humorous novellas both entertain and provoke thought. In his works, he critiques social and political issues such as injustice, oppression, and unfairness prevalent in society, often creating storylines from the most mundane events. Despite facing political pressures and being imprisoned and exiled multiple times due to his oppositional stance, he gained great fame during his lifetime and elevated to the level of literary school. He continuously published writings in various media outlets, never relenting in his struggle. His pen served his homeland and people's happiness. Aziz Nesin never refrained from his country, humor, or his pen. The foundation he established in 1972, the Nesin Foundation, stands as the greatest testament to this.

Keywords: *The period of Republican, Aziz Nesin, writer, satire, novel.*

Giriş. Türklər dünyanın ən qədim və qüdrətli xalqlarından sayılır. XX əsr türk ədəbiyyatının görkəmli nümayəndəsi olan Əziz Nesinin təbirincə desək, "hər bir millətin böyüklüyü onun əhalisinin çoxluğuna və ərazisinin genişliyinə görə yox, onun tarix və mədəniyyətinin qədimliyi, zənginliyinə görə müəyyənləşdirilir" [2, s. 3]. Bu baxımdan türklər əsrlər boyu öz tarixi və mədəniyyətinə görə birinciliyini dünya xalqları arasında sübut etmişlər.

XX əsr Türkiyə tarixində keşməkeşli dövr kimi xarakterizə olunur. 1914-cü ildə I Dünya müharibəsi başlayır. Tarixçilər və siyasətçilər Türkiyənin bu illərdəki durumunu "xəstə insan"a bənzədirlər. Çünki Almaniya ilə ittifaqda olmasına rəğmən, Türkiyə müharibədə məğlub olur. İstanbul ingilis-fransız orduları tərəfindən işğal olunur.

1920-ci il aprelin 23-də Ankarada Böyük Millət Məclisi açılır. Mustafa Kamal Atatürk bu məclisin sədri və baş komandan seçilir. İstilaçı ingilis, fransız və yunan ordularına qarşı vuruşan xalq bu mübarizədə qalib gəlir. Lozanna sülh sazişi imzalanır və 1923-cü il oktyabrın 29-da Türkiyə Cümhuriyyəti elan olunur.

Hər bir xalqda olduğu kimi Türkiyə ədəbiyyatının da özünəxas xüsusiyyətləri var. XIX-XX əsrlər Türkiyə ədəbiyyatının ən çətin və ziddiyyətli dövrü hesab edilir. Bu, real bir faktdır ki, ölkədə baş verən siyasi-ictimai məsələlər həmin ölkənin mədəni və ədəbi həyatına təsirsiz ötüşmür. Həmin dövrdə ədəbiyyat sahəsində fəaliyyətə başlayan "Sərvət-i fünunçular", "Fəcr-i atiçilər", "Gənc qələmlər" və "Cümhuriyyətçilər" birliyinin üzvləri Türkiyənin Milli dövr ədəbiyyatına aid qiymətli nümunələr yaradırlar. Milli dövr ədəbiyyatı 3 mərhələyə bölünür: 1. 1920-1950-ci illər; 2. 1950-1980-ci illər; 3. 1980-ci illərdən başlayaraq bu günə kimi davam edən ədəbiyyat. 1950-ci illərdən ədəbiyyata kənd mövzusu daxil olur. Satira iki dəfə "Qızıl palma" mükafatı almış və şöhrət qazanmış Əziz Nesinin simasında görkəmli nümayəndə qazanır.

Əsas hissə. Əziz Nesin 1915-ci il dekabrın 20-də Heybəliadada, özünün də qeyd etdiyi kimi, "Çanaqqala müharibəsinin ən təlaşlı dövründə" yoxsul ailədə dünyaya göz açıb. Əsl adı Məhmət Nüsrətdir. Əziz Nesin 1925-ci ilə kimi ibtidai məktəbə rəsmi şəkildə yazdırılmır. 10 yaşında imtahan verərək məktəbin 3-cü sinfinə qəbul olunur. Bir qədər sonra təhsilini "Darüşşəfəqə"də davam etdirir. Bu məktəbdə atası olmayan uşaqlar oxuyurdular. Xatirələrindən məlum olur ki, atası sağ olduğu üçün özünü günahkar hiss edən Nesin bir müddət sonra məktəbdən qaçır və bir də oraya geri dönmür.

Əziz Nesinin uşaqlığı ağır şəraitdə keçmişdir. Atası Əbdüləziz əfəndi bağban çalışırdı. Ailə çətinliklə dolanırdı. Əzizin üç yaşlı bacısı baxımsızlıqdan xəstələnir, ayaqları tutmur. Ona sümük xəstəliyi - "raxit" diaqnozu qoyulur. Yaşadıqları şərait göz önündə olduğundan təbiidir ki, həkim

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: lamanalyva20@gmail.com. Rəyçi:*** *Dos. Kəmalə Nəcəfova.*

çağırmaq, dərman almaq, xəstəxanaya getmək ailə üçün əlçatmaz idi. Ona görə də türkəçarələrə üz tuturlar. Anası aldığı məsləhətlərə görə, qızını hər axşam qucağında Qasımpaşa ilə Bəyoğlu arasında yerləşən Çürüklük qəbiristanlığına aparardı. Əziz Nesin sonralar xatirələrində bu barədə yazır: "Anam bacıma başa salmışdı ki, sağalması, əvvəlki kimi yeriyə, qaçıb-oynaya bilməsi üçün belə bir şey edəcək və lazım idi ki, onu qəbiristanlıqda qoyub getdikdən sonra ağlamasın. Bacım ağıllı, gözəl qız idi... Bir dəfə də olsun, nə anam dönüb geriyə baxdı, nə də qəbir daşının yanında qalan üç yaşlı bacım ağladı..." [3, s. 32].

Qışa kimi bu cür davam edir. Bir gün atası evdən əlində kiçik bir tabutla çıxır. Əziz gülür və zənn edir ki, bu bir oyundur; bacısını yenidən qəbiristanlığa aparacaqlar və bu dəfə ordan sağlam qayıdacaq. Lakin belə olmur. Anası ağlayaraq yanına gəlir, onu öpür və "Bacın öldü, buna gülməzlər!" - deyir. Həmin gündən hər şeyə ümidini itirən balaca Nesin illər sonra "Məni yumorist edən bəlkə də həyatım olub. Çünki mən buraya göz yaşları içindən gəlib çıxmışam" söyləyəcəkdi.

"Darüşşəfəqə"də təhsil aldığı illərdə anası vərəm xəstəliyinə tutulur. 1927-ci il 15 sentyabrda – 12 yaşında anasını itirir. Çox təəssüf ki, o vaxtlar qadınların şəkil çəkdirməsi günah hesab edildiyindən anasının tək bir fotoşəkli də yoxdur.

1928-ci ildə "Vəfa" orta məktəbinə gedir, lakin dərslərdən geridə olduğuna görə sinifdə qalır. Lakin sonrakı illərdə anasının onun təhsili ilə bağlı arzularını xatırlayıb dərslərini daha da yaxşı oxuyur və müvəffəqiyyət qazanır. Əvvəlcə Hərbi Liseyə, daha sonra Hərb Məktəbinə daxil olur. 1937-ci ildə məktəbi bitirir. Antimilitarist ruhlu olmasına baxmayaraq, uzun müddət zabit olaraq xidmət edir. Həmin dövrdə çoxlu əsgər yetişdirir və bu, Nesinə fərəh hissi yaşadır.

Lakin 1944-cü ildə hərb sahəsində onun haqqında edilən şikayətdən cəzalandırılır, heç bir halda özünü müdafiə etmir və işdən uzaqlaşdırılır. Onun üçün ayrılmış pensiyadan da imtina edir.

Bildiyimiz kimi, Osmanlı imperiyasında soyad istifadə etmək məcburiyyəti yox idi. Bəzi insanlar adlarının yanında soyad əvəzinə ata-babalarının (Məhməd Həsən oğlu kimi), yaşadıqları yerin adını (Mövlanə Cəlaləddin Rumi kimi), "oğlu" mənasını verən "zadə" sözünü (Sami Paşazadə Sezai kimi) və s. işlədirdilər. Qadınların adı isə heç oxunmazdı. Onların, xüsusən, ziyalı qızların adına ailə quranadək atalarının, ailə qurandan sonra isə həyat yoldaşlarının adı əlavə edilirdi, məsələn, Xalidə Ədib kimi.

Əziz Nesinin qeyd etdiyi kimi, Mustafa Kamal Türkiyəyə mədəni sivilizasiya gətirmişdir. Atatürkün türklərə bəxş etdiyi yeniliklərdən biri də məhz soyad qanunu olmuşdur. Bu, 21 iyun 1934-cü ildə qəbul olunmuş və hər bir türk vətəndaşının qarşısına soyad məcburiyyəti qoyan qanundur. Qanun iyul ayında qüvvəyə minmiş və yalnız 2003-cü ildə qadınlara da aid edilmişdir. Eyni zamanda seçilən soyadlar türkcə olmalı, gülüş və təhqir ifadə etməməli idi.

Soyad qanunu çıxandan sonra Türkiyə Cümhuriyyəti vətəndaşları da müəyyən müddətə kimi soyad seçməli idilər. Əziz də atasının təklifi ilə ailə üzvləri üçün soyad axtarışına çıxır. Elə bir soyad tapmaq istəyir ki, həm gözəl və mənalı, həm də özünəməxsus olsun. Nəhayət ki, tapır: Kıral. Bu soyad iki məna ifadə edir: həm kral, həm də qır və al. Lakin "Son poçt" qəzetində verilmiş soyad siyahısında bir neçə nəfərin bu soyadı götürdüyünü görür və fikrindən daşınır. Hətta sonralar buna görə utandığını da qeyd edir: "Mən də "Kıral" soyadını özümüzə seçərkən qırıb almağa, kral olmağa gizli həsəd duyurdum. Bu özünü adi hissetmə duyğusunun üzə çıxması idi. Düzünü deyim ki, "Kıral" kimi soyad seçdiyim üçün utandım" [3, s. 79].

Yeni soyad axtarışına çıxan Əziz onun da mənalı və təvazökar olmasını istəyirdi. Bu yolda onu təəccübləndirən məsələ bundan ibarət idi ki, insanlar özündə olmayan xüsusiyyətləri ifadə edən soyad seçməyə meyil edirdilər. Məsələn, cılız və aciz biri "İgidər", "Polad", türk olmayan biri "Türkmən", "Türkər", tənbəl biri "Üşənməz" soyadını götürürdü. Məhmət Nüsrət də bu fikirlərlə "Nesin" soyadını götürür. Bu seçimini belə açıqlayır: "Məni hər kəs "Nəsən?" sualı ilə çağırdıqca mən də özümün nə olduğum haqqında fikirləşməli olacaqdım. Nəsən? Bəli, mən nəyəm? Nə olduğumu düşünməliyəm" [3, s. 79].

1944-cü ildə də babasının adını təxəllüs götürür və yazdığı "Dost xətri" hekayəsini "Millət" dərgisində bu imza ilə dərc etdirir.

Əziz Nesinin ədəbiyyata gəlişi poeziya ilə bağlıdır. Onun ilk şeirləri 1939-1943-cü illərdə "Yeddi gün" qəzetində çap olunmağa başlanmışdır. Həcv xarakterli kəskin tənqidi şeirləri "Əziznamə" kitabında toplanmış və nəşr edilmişdir. Bu şeirləri də ümumi xarakterik xüsusiyyətlərinə görə Mirzə Ələkbər Sabirin "Hophopnamə"sinə yaxındır.

1940-cı illərin ortalarından başlayaraq müxtəlif mətbuat orqanları ilə əməkdaşlıq edir – "Qaragöz" jurnalında yazıçı, redaktor kimi çalışır, "Tan" qəzetində yazılar yazır. "Partiya qurmaq və partiyanı vurmaq" müstəqil şəkildə çap olunmuş ilk əsəri olur. "Şənbə" adlı həftəlik dərgi çıxarır. Bir müddət sonra "Tan" qəzeti bağlanır.

Əziz Nesinin satirası əsl realist sənət nümunəsidir. O təkcə müasir cəmiyyətin real tərəflərini əks etdirmir, həm də sosial problemlərlə mübarizəyə istiqamətlənib. Qələmə aldığı hekayələrdə Türkiyənin ictimai ziddiyyətləri ("Hansı partiya qalib gələcək", "Kor döyüşü"), dini cəhalət ("Necə hacı oldum"), istismarçı həyat tərzi ("İş adamı", "Əgər mən qadın olsaydım"), dövlət qulluğunda məsuliyyətsizlik, savadsızlıq, xalqa xidmət göstərməyə həvəssizlik ("Bir qəzet filan tarixdə necə bağlandı") və s. mövzularını tənqid hədəfi seçmişdir. Adı çəkilən sonuncu hekayədə savadsız, jurnalistikadan bixəbər olan bir şəxsin fərqli mətbuat orqanlarında işə düzəlib, sonradan hamısından öz qüsurlarına görə qovulması və hətta bir qəzetin bağlanmasına bais olmağından bəhs edilir.

Yaratdığı müsbət qəhrəmanlar isə daha çox sənətkarlar, işsiz və yoxsul obrazlardır ("Meydan saatları", "Yoxsulluğa eşq olsun!", "Satış məsələsi" və s.). Yumoristik hekayələrində sadə və zəhmətkeş insanlara dərin rəğbəti, onlarda nəcib keyfiyyətləri görmək istəyi ifadə edilir.

Əziz Nesinin hekayələrinin adı da özünəməxsusluğu ilə seçilir. Məsələn, "Taxtalı köydən məktublar", "Damda dəli var", "Adamı zorla dəli edərlər", "Şaxta baba həbs edildi" və bu kimi başqa hekayələrin adı oxucunun diqqətini cəlb edir, marağına səbəb olur.

II Dünya müharibəsindən sonra Türkiyə yeni münasibətlər dünyasına daxil olmaqda idi. Bu dönəmin ədəbiyyatında satira da kökdən dəyişəcəkdi. Cümhuriyyət satirası özünün çiçəklənmə dönəmini 1946-1950-ci illərdə yaşayırdı. Buna nümunə kimi "Marko Paşa" hərəkatını göstərmək olar.

1946-cı ildə Əziz Nesinin Səbahəddin Əli, Rüfət İlqaz və karikaturaçı Mim Uykusuz ilə birgə çıxardığı "Marko Paşa" adlı həftəlik satirik qəzet türk ədəbiyyatının mütərəqqi tendensiyalarının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. "Marko Paşa"nın tutduğu sosial istiqamət heç də təsadüfi deyildir, belə ki qəzetin redaktoru Səbahəttin Əlinin yaradıcılığı üçün sosial problemlər, türk həyatının geniş təsviri, iş və kənd həyatından olan qəhrəmanlara müraciət və s. xarakterik idi. Bu baxımdan Əziz Nesinin də Səbahəddin Əli ilə əməkdaşlığı bütünlüklə səmərəli və məhsuldar hesab oluna bilər.

"Marko Paşa", "Bizim Marko", "Məlum Paşa" kimi fərqli adlarla tez-tez bağlanıb yenidən dərc olunan qəzet iqtidardakı partiya ilə açıq şəkildə mübarizə aparan ilk satirik mətbu orqanı idi. "Marko Paşa"nın varlığı böyük narahatlıq yaratmış və TBMM-də müzakirəyə qoyulan mövzulardan birinə çevrilmişdir. Qəzetdə dərc olunan ədəbi materiallar siyasi xarakter daşıdığından tez-tez təhdidlərə məruz qalsa da, öz mübarizəsindən geri dönmür. Nəticədə dekabrın 16-da xeyli insanın da həbs olunub işgəncələrə məruz qaldığı "Böyük həbslər" qəzetin bağlanma səbəbi olur. Nəhayət, Əziz Nesin 1947-ci ildə azadlığa buraxılır və yanvarda "Marko Paşa" yenidən çap olunur.

Trumen doktrinası əleyhinə yazdığı "Haraya gedirik" adlı məqaləsinə görə həbsdə çətin şəraitdə saxlanılır, sürgünə göndərilir. 1948-ci ildə Bursada sürgündə olarkən gizlincə çıxarılan yazılar yazır. Sentyabrda bağlanan "Marko Paşa"nın əvəzinə "Məlum Paşa" qəzeti buraxılır. Mətbuatda işi bir müddət uğurlu olsa da, yenidən həbs edilir. İngiltərə şahzadəsi Yelizaveta, Misir kralı Faruq və İran şahı Rza Pəhləvi onu məhkəməyə verirlər. Nesin yeddi ay müddətinə həbs olunur.

Əsrin 50-60-cı illərində türk ədəbiyyatında novella janrının inkişafı geniş miqyas almağa başladı. Mütərəqqi yazıçılar sırasında dayanan Əziz Nesin, Orxan Kamal, Yaşar Kamal, Səid Faiq, Bəkir Yıldız və başqaları əsərlərinin mövzusunu xalq həyatından götürürdülər. Bir qayda olaraq, həmin hekayələr də satirik xarakter daşıyırdı.

1950-ci ildə Politserin "Fəlsəfə dərsləri" kitabının ön sözünü fransızcadan tərcümə etməsi iddiası ilə 16 aylıq həbsə və 16 ay nəzarət altında saxlanmağa məhkum edilir. Maraqlısı o idi ki, Əziz Nesin fransızca bilmirdi.

1954-cü ildə dövrün ən önəmli mətbuat orqanı hesab edilən "Ağbaba" dərgisində fərqli təxəllüslərlə yazılar dərc edir.

Böyük şöhrət qazanmış Əziz Nesin, nəinki Türkiyənin, eləcə də dünya satirik ədəbiyyatının istedadlı nümayəndəsi kimi tanınır. "Qazan mərasimi" adlı hekayəsinə görə İtaliyada yumoristik hekayə nominasiyasında "Qızıl Palma" mükafatına layiq görülür. 1957-ci ildə həmin mükafatı "Fil Həmdi" hekayəsi üçün alır.

Veymar və Berlindəki antifaşist yazarlar toplantısına qatılır. Almaniya, Rumıniya, Bolqarıstan, SSRİ, Kiyev, Polşa, Tiflis və Finlandiyaya səfərlər edir. İki dəfə Bakıda olan müəllif haqqında yazıçı Qılman İlkin öz xatirələrində yazır: "1967-ci ilin iyun ayında Türkiyədən üç nəfər yazıçı Azərbaycana qonaq gəlmişdi: Əziz Nesin, Yaşar Kamal və şair Məlih Cövdət Antay. Yazıçılar İttifaqında görüş zamanı Mirzə İbrahimov məndən xahiş etdi ki, şəhərdə onları müşayiət edim. İki-üç gün ərzində qonaqlarla aramızda möhkəm ünsiyyət yarandı. Dostlaşdıq. Əziz Nesinin ürək açıqlığı daha çox xoşuma gəlirdi. O, Bakıda qaldığı günlər içərisində gördüyü yaxşı şeyləri ağız dolusu tərifləyir, duyduğu nöqsanları isə qonaq olmasına baxmayaraq, açıq-açığına tənqid etməkdən çəkinmirdi..." [1, s. 29]

Əziz Nesin dram janrına 50-ci illərdə müraciət edir. Hələ 50-ci illərin ortalarında 8 pyes yazır və elə ilk vaxtlardan ədəbi tənqidin diqqətini cəlb edə bilir. Bu əsərlərində psixoloji, novator və sosial elementlər öz əksini tapmışdı.

60-cı illərin sonu, 70-ci illərin əvvəlləri Nesin pyeslərinə görə müxtəlif mükafatlar alır, 1971-ci ildə isə 5 pyesi Ankara və İstanbul teatrlarında tamaşaya qoyulur.

1955-ci ildə Kamal Tahirlə birgə yaratdığı "Düşün" nəşriyyatı bilinməyən səbəblərdən 1962-ci ildə yanır. Həmin ildə "Zübük" dərgisi nəşr olunmağa başlayacaqdı, lakin Nesin atası Əbdüləziz əfəndini itirir. Sonralar atası ilə sağlığında çox da yaxın olmadığı üçün təəssüfləndiyini vurğulayır.

Əziz Nesinin cəmiyyətə bəxş etdiyi ən dəyərli irs 1972-ci ildə yaratdığı Nesin Vəqfi olmuşdur. Qırx kitabından gələn gəlirlə açdığı vəqf hər il bəlli sayda yoxsul və kimsəsiz uşaqların baxımı, təhsili ilə məşğul olurdu.

Müəllifin yaradıcılığında əsas yer tutan janrlardan biri də roman janrıdır. Romanlarında işıqlandırdığı mövzular, təsvir etdiyi xarakterlərlə cəmiyyəti əks etdirə bilmişdir. "Zübük", "Yaşar nə yaşar, nə yaşamaz", "Surnamə", "Futbol kralı" və s. əsərləri bu baxımdan Türkiyə ədəbiyyatında roman janrının qiymətli nümunələridir.

1966-1974-cü illərdə "Qızıl Kirpi", "Qızıl Timsah", "Lotos", "Hitar-Petar" mükafatlarını və Mətbuat Şərəf kartını alır. 1974-cü ildə Türkiyə Yazarlar Birliyinin sədri seçilir, 1989-cu ilə kimi bu vəzifədə çalışır.

"Bəs onu bu qədər populyar, əsərlərini isə bu qədər canlı və duzlu edən nədir? Hər şeydən əvvəl öz ölkəsini ürəkdən sevməsi və onun həyatını dərindən bilməsi, xalqına rəğbət, onun düşmənlərinə nifrət bəsləməsidir. Buna görədir ki, Əziz Nesinin gülüşü boğazdan gələn yüngül hırıltı deyil, ürəkdən qopan acı bir qəhqəhə təsiri bağışlayır. Bu gülüş yalnız güldürmür, eyni zamanda öldürür; birini öldürür, minini güldürür" [4, s. 4].

Onun yaradıcılığı üçün səciyyəvi olan xüsusiyyət vətəndaşlıq, vətənpərvərlik hissidir. Çünki onun qələmi həmişə vətəni və xalqının səadəti üçün çalışmış və əsərlərində də hər zaman vətənpərvər yazıçının coşqun nəfəsi duyulmuşdur.

1983-cü ilin noyabr ayında Əziz Nesin sağ tərəfindən insult keçirir, danışa bilmir. İki-üç gün müalicə olunduqdan sonra sol əli ilə yazmağa davam edir. 1984-cü ildə yazdığı bir yazıya görə məhkəməyə verilir. Ürək əməliyyatı üçün ABŞ-a getməli olduğu halda, pasport ala bilmir.

Əziz Nesinin siyasi və ədəbi fəallığı, aldığı mükafatlar, sözsüz ki, bunlarla bitmir. 1995-ci ildə sonuncu mükafatlarını - Orxan Apaydın Demokratiya və Sülh Mükafatını və Xirosima Fondu Mükafatını alır.

Elə həmin ilin 15 iyununda yuxudan "şiddətli ürək ağrısı ilə" oyanır. İyun ayının 30-da fundamentalistlərə qarşı təşkil etdiyi konfrans üçün Çeşməyə gedir. 1990-cı ildə Pir Sultan Abdal tədbirləri çərçivəsində Sivasa gedən Əziz Nesin Madimak qətliamından xilas olanlardan biri idi. Ancaq bu qətliamda ölkənin bir çox ziyalı şəxsləri yaşamını itirir. Əziz Nesin isə 1995-ci il 6 iyul tarixində

həyatla vidalaşır. Vəsiyyətinə uyğun olaraq, Əziz Nesinin cənazəsi heç bir dini mərasim keçirilmədən, məzardaşı qoyulmadan Nesin Vəqfinin həyətində dəfn olunmuşdur. Həyətin hansı tərəfində dəfn edildiyini isə yalnız bir neçə yaxını bilir. Özündən sonra başqalarına nümunə olacaq layiqli bir həyat, qiymətli əsərlər və ən əsası, Nesin Vəqfini yadigar qoymuşdur.

Nəticə və elmi yenilik. Əziz Nesin Türkiyə ədəbiyyatında öz mövqeyi olan sənətkarlardandır. Yazıçının əsərləri maraqlı mövzuları, yığcam süjeti və lakonik dili ilə diqqəti cəlb edir. Eyni zamanda satira ustasının bu əsərləri yalnız əyləncə xarakteri daşımır, həm də insanı düşünməyə vadar edir. Təqib və həbslərə baxmayaraq, bütün həyatı boyu yaradıcılığı ilə vətənə xidmət etmişdir. Əsərlərində qoyduğu problemlər Türkiyənin işıqlı gələcəyi üçün idi. Satiralarında qoyduğu ictimai-siyasi problemlər indi də cəmiyyətdə aktuallığını qoruyub saxlayır. Odur ki, Əziz Nesinin həyatına və yaradıcılığına bu gün yenidən nəzər salmaq zərurəti yaranır.

İstifadə edilmiş ədəbiyyat

1. Qılman İ. Türk yazıçıları Bakıda. Bakı: AzAtaM, 2007, 40 s.
2. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı: Elm və Təhsil, 2017, 632 s.
3. Nesin Ə. Belə gəlmiş, belə getməz / Bioqrafiya, gündəlik və xatirələr. Bakı: Xan, 2016, 216 s.
4. Nesin Ə. Hekayələr. Bakı: Uşaq və gənclər ədəbiyyatı, 1962, 150 s.

AKUTAQAVA NOVELLALARININ İDEYA MƏZMUNU

Kamil Əliyev*

Abstract

Idea content of Akutagawa's novellas

In this research work, information about the literary outlook and novelistics of Akutagawa Ryunosuke, who is considered the genius of 20th century Japanese literature, is reflected. For this, the work was prepared based on the analysis of his works. The research work is relevant because the literature of the Far East is often neglected and not deeply researched. Here, the main goal was to analyze the position of the writer in Japanese and world literature, his unique style and creativity. Since there has not been any serious research on Akutagawa's work until now and the writer has not been fully investigated, the present research has a scientific innovativeness. One of the main aspects of research work is that it can be used in writing dissertations, conducting scientific research and research, in addition to organizing lectures and seminars. As a result, the research paper includes a comprehensive study of the author's creativity and its analysis.

Keywords: *Akutagawa Ryonuseke, Japanese literatur, Novel, Literature, idea.*

Giriş. Bu elmi işdə xx əsr yapon ədəbiyyatının dahisi hesab olunan Akutaqava Rünoskenin novellistikası barədə məlumat öz əksini tapmışdır. Bunun üçün onun əsərləri üzərində aparılmış təhlillər əsasında iş hazırlanmışdır. Uzaq şərq ədəbiyyatı diqqətdən çox vaxt kənarda qaldığı və dərin araşdırma aparılmadığından tədqiqat işi aktuallıq kəsb edir. Burada əsas məqsəd yazıçının yapon və dünya ədəbiyyatında mövqeyi, özünəməxsus üslubu və yaradıcılığının təhlili olmuşdur. İndiyə kimi Akutaqava yaradıcılığı ilə bağlı hər hansı ciddi araşdırma aparılmadığından və yazıçı tam şəkildə araşdırılmadığından mövcud tədqiqat işi elmi innovativliyə malikdir.

Əsas hissə. Akutaqava yaradıcılığına geniş bir nəzər saldığımız zaman onun yaradıcılıq zirvəsi sayılan, haqqında qızıl mükafata layiq görülmüş film çəkildiyi də ədəbiyyat tarixində bəlli olan "Rasyomon" (1916) əsəridir. Dünya tarixində ilk dəfə bir müəllif belə bir süjetdən istifadə edirb. Bu əsər Akutaqava yaradıcılığının, ədəbi dünyagörüşünün ümumi açmasıdır. Əsərdə meşədə baş vermiş bir qətl hadisəsindən söhbət gedir. Bu qətl hadisəsinin bu və ya digər şəkildə canlı və ya "qulaq" şahidi olmuş şəxslərin həmin qətllə bağlı öz versiyaları təsvir olunur. Təbii ki, bu cür bur süjet xəttinin tamamilə mükkəmməl bir məqsədi var idi, bu da Akutaqavanın "Əslində, obyektiv baxış bucağı deyilən şey yoxdur, hər şey subyektivdir" fikrini çatdırması üçün yazmış olduğu əsərdir və ya ən azından, bu qənaətə gəlmək olar. Çünki, Hər zaman belə bir düşüncə olmuşdur ki, bədii əsərlərdə "üçüncü şəxs" əsərə müdaxilə edir. Lakin, burada müəllif başqa bir üsula əl atmaqla professional şəkildə öz fikrini çatmışdır. Maraqlısı budur ki, Əsərin sonunda həqiqətin ortaya çıxması üçün mərhumun "ruhu" çağırılır və orada o öz dilindən gerçəklər söylənilir. Burada əslində hər zaman tək bir gerçəyin olduğu və onun əvvəl axır oraya çıxacağı fikrini mənimsəmək və ya bu nəticəni müəllifin dini inancları ilə bağlamaq arasında üstünlük, məncə birinciyə verilməlidir. Düzdür, biz qeyd edirik ki, ömrünün ilk qələm tutan çağlarında yazıçı folklora, klassik yapon ədəbiyyatına, buddizmlə bağlı materiallara müraciət edir, amma sonralar onun realizmə "qayıtdığının" da fərqindəyik. Əslində "Rasyomon" və "Sıx meşədə" əsərləri ədəbiyyat təcrübəsinə baxdığımız zaman həmişə bir yerdə təhlil edildiyini, eyni zamanda çəkilmiş filmin belə iki əsər əsasında çəkildiyini bilirik. Buna səbəb burada mərkəzdə qoyulmuş problemin bir neçə baxış bucağından təqdim olunması və "Subyektivlik" ideyasının tam çatdırılmasına xidmət etməsilə bağlıdır deyə güman etmək olar.

Akutaqavanın əsərlərini oxuyanda asanlıqla onun şərq-qərb sintezinin məhsulu olduğunu görürük. Belə ki, bunu əsərdəki adlardan, müəllifin vurduğu eyhamlardan, müraciət etdiyi mənbələrdən bu, aydın duyulur. Məsələn, Akutaqavanın şərq mədəniyyətinə məxsus yaşıl çay yerinə tez-tez kofe və ya isti şokolad içdiyini, obraz adlarının bəzilərini qərbdən götürdüyünü, qərb, rus və yunan

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: ka643653662@gmail.com. Rəyçi:*** *Prof. Cəlil Nağıyev.*

ədəbiyyatından atributlar istifadə ediyini, nümunə gətirdiyini görürük. Məsələn, "Köhnə bir dosta məktub" əsərinin sonunda Empedokl və onun bioqrafiyasından söhbət gedir [1, s. 8].
1916-cı ildə qələmə alınmış "Burun" əsəri onun vicdan anlayışı ilə bağlı fikirlərini əks etdirir. Heian dönəmində yaşayan bir buddist rahibi başqalarından fərqləndirən bir özəlliyi var ki, bu da burnunun çox yekə olmasıdır. Bütün problem bu məsələ üzərində qurulmuşdur. Burada əsasən, humanizm, vicdan və eqoizmin müakirəsi haqqında müəllif fikirləri əks olunmuşdur [2, s. 37].

Raşomon əsərinə baxdığımız zaman bu əsərin xx əsrin əvvələri yapon cəmiyyətinin və ölkənin vəziyyətini izah edir. Müəllif burada qismən də olsa, tarixi reallığı əks etdirmişdir. Buradakı məsələ gənc oğlanın tərk edilmiş bir yerdə aclıqla mübarizəsi, ölüm qarşısında insan psixologiyasının necə dəyişməsi, çoxlu sayda ikili fikir qarşıdurmalarından ibarətdir.

Buradakı müzakirə edilən bir digər məsələ də xeyir və şər tandemidir. Həmin gənc oğlan ən yuxarıya məbədə çatanda bir yaşlı qadının oraya yığılmış meyidlərin saçını yolub yığdığını görür. İlk öncə buna inanmır, sonra daha diqqətlə baxanda kənarda öləziyən tonqalın işığı sayəsində bunu açıq şəkildə görür. Qarı durmadan meyitin saçını yolurdu. İçində bir dəhşət olan gəncin qorxusu qarı saçı yolduqca azalırdı. [3, s. 19]. Qadın onu gördükdən sonra oradan qaçmaq istəyir, oğlanı qapının ağzından itələyib keçmək istəyir. İçində "hər nə qədər mənə aidiyyəti olmasa da, meyitin saçını yolmaq günahdır" deyə düşünməyə başladı və içindəki nifrət alışıb yandı. Əgər kimsə ona "acından ölmək yaxşıdır yoxsa, oğurluq eləmək?" sualını versə, tərəddüdsüz birincini seçərdi. Sonra nökər qarının əynindəki kimanonu çıxardır və yoxa çıxır. Burada əvvəlki hissələrdə də qeyd etdiyimiz kimi hər zaman insan psixologiyasına maraq salan müəllifin özünəməxsus araşdırmalarından biridir. Əsər 1916-cı ildə yazılıb, "Sıx meşədə" əsəri ilə birləşdirilərək filmi 1950-ci ildə Akira Kurosava tərəfindən səhnələşdirilmişdir. əhəmiyyəti [4].

İkinci əsər isə 1922-ci ildə işıq üzü görən "Sıx meşədə" əsəridir. Bu, Akutaqavanın ən yaxşı 10 əsəri siyahısına salınmış qısa hekayələrindən biridir. Əsərin Rasyomonla adının çox zaman birgə hallanmasının səbəbi əsərin ideyasının, orada çatdırlan fikrin oxşarlığı və süjetin eyni prinsiplər əsasında qurulmasıdır. Hər iki əsərdə qarşılaşdırılan fikirlər, "xeyir və şər" motivi, fərqli baxış bucaqları və ən əsası da hər bir fikrin yanlış və ya doğru olmasının oxucu öhdəliyinə buraxılması Akutaqavanın ədəbi "silahı" hesab edilə bilər.

Burada baş vermiş bir qətl hadisəsi, onu görən və ya gördüyünü iddia edən şəxslər, onların fikirləri ifadə olunur. Bu, xüsusi əhəmiyyətli bir cəhətdir ki, Akutaqava subyektivlik və obyektivlik anlayışları üzərinə bir fikir yeridir. Onun fikrincə "hər şey subyektivdir, obyektiv olan heç nə yoxdur". Ən sonda gələn qətlə yetirilmiş Samurayın fikirləri isə bütün problemi aradan qaldırır. Zənnimcə bu, Akutaqavanın dünyagörüşünə əsasən, "Həqiqət bir gün mütləq üzə çıxır" fikri ilə bağlı ola bilər. Çünki, Yapon ədəbiyyatında "Reallığa qayıdış" məhz Akutaqava ilə başlamışdı.

` Əsərda ardıcıl olaraq polis məmuru, buddist rahib, həbsdən bəraət alan, Takomarunu (Qatil) yaxalayan Homen, sonradan itkin düşmüş Masaqonun anası olduğu müəyyənləşən yaşlı qadın və sonra Takomarunun, sonra Masaqo, ən son isə mərhumun çağırılmış ruhunun söylədikləri yer alır. Heç bir obraz hadisənin birbaşa şahidi deyil və dedikləri də bu və ya digər dərəcədə tam reallığı əks etdirmir. Biri mərhumun qılıncla, biri xəncərlə öldürüldüyünü, biri kəmərini tapdığını, o biri onun belə bir əşyası olmadığını məhkəmə qarşısında ifadə edir. Takomaru hilə ilə Samurayı aldadır, onu güya ucuz qiymətə tapdığı xəzinəni satmaq adı ilə kənara aparır, əl-qolunu bağlayır, Samurayın gözü önündə xanımına təcavüz edir. Bundan sonra dediyinə görə qız onu qucaqlayır və bu işdən sonra ancaq bir nəfərə aid olacağını, Takomarudan onu öldürməsini istəyir. Takomaru "mərdlik" edib Samurayın qollarını açır və onunla dueldə onu öldürür. Bu, qatilin tam ifadəsidir.

Ən son hissədə Samurayın ruhunun çağırılması mərhələsidir ki, burada o bütün gerçəyi-Takomarunu sevməyə başladığını, ondan Samurayı öldürmək istədiyini, Takomarunun bunu biləndə onu vurub yerə yıxdığını, ardınca Samuraya qızı öldürüb öldürməməsini soruşduğunu deyir və sonra qızın bunu eşidib ordan qaçdığını deyir. Takomaru isə təhqir olunmuş Samurayın qollarını açır və oranı tərk edir. Samuray isə özünü öldürür. Göründüyü kimi fərqli versiyalar var və əsl həqiqət həqiqətlər içindən çıxa bilmir [5].

Əvvəlki fəsildə Akutaqavanın ilk başlarda yazdığı əsərlərdə mifologiyaya, klassik yapon ədəbiyyatına müraciət etiyini söyləmişdik. Sıx meşədə əsərində o "Monoqatari Kenji" əsərində 29-cu cildin 23-cü hekayəsindən yararlanmış və buradakı "Xanımına Tanbaya kimi yoldaşlıq edən əli bağlı adam" adlı əsərdən istifadə etmişdir. Eyni zamanda Robert Brouninqin "Üzük və kitab", həmçinin "Ay işığı yolu" əsərindən də bəhrələnmişdir [6].

Əsərdə işığın simvolizmi xüsusi işlənmişdir, xüsusən də filmdə. Filmdən də, araşdırmaçıların fikrindən də belə qənaət əldə olunur ki, günəş burda "şərin" simvolu, digərlərinə görə isə xeyirin simvoludur. Niyəsinə nəzər salsaq, Masaqo üzünə gün işığı düşdüyü zamana qədər Samuraya sadiqdirsə də, ondan sonra o, Takomaruya təslim olur. Əsas dilemma da burada yaranır. Son olaraq qeyd edilməlidir ki, Rasyomon və Cəngəllikdə əsərləri tarixi və psixoloji əhəmiyyətli əsərdir [7].

Bu iki əsərə nəzər yetirdiyimiz zaman görürük ki, Akutaqava modernizmin mükkəmməl nümunələrini yaratmışdır. Əsərlərin hansı cərəyana məxsus olduğunu müəyyən etmək çətin məsələdir. Misal üçün, haqqında danışdığımız hər iki əsərdə həm insanın daxili aləminin təsviri baxımından naturalist təsvirlər, digər yandan simvolizm ünsürləri özünü göstərir. Lakin heç biri tam da deyil, bu da sərhədləri aşmaq və sərhədsiz olmaq baxımından modernizmə aiddir.

Akutaqava əsərlərinin bir çoxunu tarixi əhəmiyətli əsərlər təşkil edir, belə ki, o, qədim və orta dövr yapon ədəbiyyatınadan götürdüyü fabulaları müasir dövrlə, müasir insanın düşüncələri, hərəkətləri və psixologiyası ilə əlaqələndirmişdir [8**,** s. 24].

"Xeyir və şər" motivi Akutaqava əsərlərində çox istifadə olunmuşdur. Belə ki, haqqında danışdığımız hər iki əsər, bununla bərabər "Hörümçək ipi", "Kappa və ya suda yaşayanlar ölkəsində" əsərlərində də bu motivi görürük. Belə ki, Azərbaycan ədəbiyyatında N.Gəncəvinin sözügedən motivlə eyniadlı əsəri ilə bərabər yaradıcılığında da bu motiv geniş surətdə istifadə olunmuş, dəfələrlə müraciət edilmişdir. Əsərlərdə eyni zamanda yapon əxlaq fəlsəfəsi də öz əksini tapmışdır. Akutaqava "Cavan oğlanlar və Ölüm", "Cəngəllikdə", həmçinin "Kappa" əsərində də əxlaqi məqamları ifadə etməyə çalışıb. Məsələn, istər qeyd edilən birinci, istərsə də ikinci əsərdə qadın-kişi münasibətlərində əxlaq özünü göstərir. Belə ki, oxuduqlarımızdan bəlli olur ki, Yapon təfəkküründə qadın onu haqq edənindir. Bunu Masaqonun da dilindən eşidirik ki, bu utanc qarşısında o yaşaya bilməz, Düzdür, əvvəl təcavüzə məruz qalanda Takomarunu, bunu bacarmayanda isə özünü öldürmək istəyir, amma bacarmır. Sonra da, ona sahib olanlar qarşısında seçim edir: "Kim güclüdürsə, mən onunam". Bu fikir öz-özlüyündə isə Akutaqava yaradıcılığının, dünyagörüşünün bir ifadə formasıdır. Biz onun "Etiraf", "Ölüm" əsərlərində də zəif-güclü qarşıdurması, "Güclü olan haqlıdır" fikrini mənimsədiyini görürük. Bu da dövrün tələbi və onun yaşadıqları ilə bağlı idi.

Dini inanclar, xüsusən də buddizm və xristianlıq Akutaqava yaradılığında özünə yer tapmağı bacarmışdır. Bu inanclar, onların arasındakı fərqli cəhətlər, qərb mədəniyyətini dərindən öyrənmiş Akutaqavaya xristianlığın təsiri.. Bunlar heç biri təsirsiz ötüşmürdü.

"Hörümçək sapı" və ya "Hörümçək toru" əsəri 1918-ci ildə yazılmışdır. Burada cənnətdə təsvir olunan budda tək-tənha gəzərkən lotus gülləri üzərini örtmüş gölə nəzər salır və cəhənnəmi, oradakı zülməti, əzab çəkənləri görür. Burada o, Konata adlı bir qulduru da görür və bu quldur dünyada ikən çox pisliklər etmişdi. Budda onu cənnətə gətirmək istəyir. Buna səbəb isə, Konata yol keçərkən ayağının altındakı hörümçəyə mərhəmət edir və onu öldürmür. Maraqlısı müəllifin düşüncə tərzidir. Nəhəng günahlar işləmiş bir adamı bir heyvana etdiyi mərhəmətə görə bağışlamaq istəyir. Yəqin ki, buddizmdəki bağışlanmanın nə dərəcədə yüksək bir anlayış olduğu qənaətinə gəlmək səhv olmazdı. Budda elə oradaca gölün yanında hörümçək görür. Onun sapını göldən üzüaşağı- cəhənnəmə buraxır. Konata bu ipi görür və dırmanmağa başlayır. O, elə hesab edir ki, artıq cəhənnəmdən qurtulacaq. Lakin çox keçmir ki, oradakı bütün zülüm çəkənlər dırmanmağa başlayır və Konata hər nə qədər bu ipin ona aid olduğunu qışqırsa da, heç kəs onu dinləmir və ip qırılır. Budda buna təəssüflənsə də, yenə də başqa nəsə edə bilməyəcəyini anlayır və tək-tənha dolanmağa davam edir. Burada qoyulan fikir budur ki, günah işləyən cəzasını mütləq çəkməlidir. Buna görə deyirik, Akutaqavanın "reallığa" qayıdışı məhz bu mərhələdədir.

Tədqiqatçıların əksəriyyəti heç də əsassız olmadan bildirirlər ki, Akutaqava bu əsəri Dostoyevskinin "Karamazov qardaşları" əsərindən bəhrələnərək yazmışdır.

"Sandzu çayı" və "İynə dağı" əsərdə adı çəkilən mifoloji anlayışlardır. Belə ki, "İynə dağı" cəhənnəmdə olan dağlardan biridir. "Sandzu çayı" isə cəhənnəmə getməzdən öncə ölənlərin üzüb keçdiyi çaydır. Qeyd etmək lazımdır əsəri müəllif öz təxəyyülünə əsasən yazmışdır. Yapon ədəbiyyatında belə bir süjet yoxdur.

1920-ci illərdən etibarən, xüsusən də, "Cəngəllikdə" əsərini yazdıqdan sonra yazıçı manerası dəyişməyə başlayır. Bu dövrə qədər o, "Qocalıq", "Düşən başın hekayəsi", "Şagirdin ölümü", "Kesa və Morito", "Payız", "Nankinli peyğəmbər və ya Nankinli İsa", kimi əsərləri 1914-1922-ci illər arasında yazdı. Bura qədər yazdığı əsərlərdə daha çox yapon həyatından, cəmiyyət və oradakı problemlərdən müəllif söz açırdı və bununla yanaşı, hər zaman əsərlərində gördüyümüz intihar motivi kəskin şəkildə özünü büruzı verir.

Daha bir məsələ var ki, O da istedad mı şizofrenliyə, xəstəliyə aparıb çıxarır, yoxsa psixi pozğunluqlar insanda istedad yaranmasında rol oynayır? Jan Jak Russo etirafları və ya Stefan Zvayqın həyat hekayəsi, Cek Londonla Akutaqava arasındakı oxşarlıq.. Oxuduqca belə insanların həyatındakı uğurların təsadüfi olmadığı qənaətinə gəlirik, lakin bu istedadın özündə belə normaya sığmayan nələrinsə olduğunu görürük. Akutaqava sonralar "Cəhənnəm əzabı" (1918) əsərini yazdı. Bu onun ilk əsərlərindəndir ki, öz gələcək taleyi barədə xəbər verir. Bu, təəccüblü olsa belə, onun əsərlərində öngörmə ünsürlərinə rast gəlmək normal hal idi. Akutaqavanın bir çox əsərlərini tərcümə edən rus tərcüməçisi Arkadi Struqatskiy yazıçının valeh olduğu bir sıra əsərləri ilə bağlı ilə yazırdı : "Bu hekayələr heyrətamiz bədii dəyəri olan əsərlərdir. Onun tərəfindən açıq allogizmin ən yüksək bədii səviyyəyə qaldırılması ədəbiyyatda tamamilə nadir hadisədir" [9]. Bəli, biz rahatlıqla deyə bilərik ki, onun fitri istedadı onun daxilindəki ziddiyətlərə bədii don geydirməsinə imkan verəcək səviyyədə idi. 1920-23-cü illər yazıçı yaradıcığınln növbəti bir mərhələsi idi və bu dövrdə o, daha çox cəmiyyətdəki sosial ədalətsizliyi və əxlaqi cəhətdən yaranmış cahilliyi tənqid edirdi. Onun bu dövr yaradıcılığı Azərbaycan ədəbiyyatından M.F.Axundzadə, C.Məmmədquluzadə kimi görkəmli simaları xatırladır. Çünki cəmiyyət həyatı, əxlaqi məsələlər, ölkənin ümumi durumu kimi mövzular oxşar tənqidi hədəflərdir. Müəllif bu dövrdə "General", "Ağca", "Tanrıların istehzası" kimi əsərləri bir birinin ardınca durmadan yazırdı və əsərlər çap olunurdu.

Tanrıların istehzası əsəri İtaliyadan Yaponiyaya gəlmiş xristian keşişin buradakı fəaliyyətindən bəhs edir. Xristianlıq və buddizm, onların özünəməxsus cəhətləri qarşlaşdırılır və Yaponiyada aparılan "Xristianlaşdırma" ilə bağlı yazılmış tarixi əsərdir. Əsərin qəhrəmanı Orqantiono 1570-ci ildə İtaliyadan Yaponiyaya gəlib vaizlik etmiş, Yezuitlər ordeninin üzvü tarixi şəxsiyyətdir. O, burada bağda gəzərkən sakura ağacına baxır və özünü qəribə hiss etməyə başlayır. Buranın təbiət və iqlimini çox sevsə də, nədənsə buradan getmək istəyir. Burada hansı inancın daha güclü olacağına dair bir müzakirə əsas məsələdir. Düzdür, xristianlığı qəbul edənlərin sayı 10 minlərlədir, Lakin Orqantino hələ də şübhə içindədir: "Mən qalib gələ biləcəyəmmi?". Qaibdən gələn səs ona məğlub olacağını deyir. Bundan sonra O, huşunu itirir və yapon tanrıların söhbət etdiyi məqam onun gözünə görünməyə başlayır. Burada belə bir haşiyəyə çıxmaq lazım gəlir ki, mifologiyadan çox geniş istifadə olunmuşdur. Əsərin davam edən hissəsində ayılan Orqantinonun yanına yaşlı bir qoca gəlir, onlar söhbət etməyə başlayır. Qoca ona deyir : "Bəsdir ovsun elədin. Sən bura səma Tanrısının inancını yaymağa gəlmisən. Amma vaxtilə bura Konfutsi, Men-Tszı, Çjuan-Tszı" gəlmişdi. Onlar heroqlifi gətirmişdilər. Noldu? Çin bizi özünə tabe edə bildimi?!". Orqantino nə qədər Deus güclü tanrıdır desə də, qoca ona reallıqla hesablaşmalı olduğunu və qalib gələ bilməyəcəyini söyləyir. Məhz onun gözünə görünən hallusinasiyalar da ona qalib gələ bilməyəcəyini deyirdi. Kakinamoto Hitomaronun "Tanabata" (VIII əsr) əsərinə də müraciət olunur. Müəllif bunu qocanın dilindən verir və buradakı "Naxırçı və Toxucu qadın ulduzlar"ın sevgili olmasından bəhs edir. O, daha sonra Hindistandan gələn Siddhartha haqqında danışır və onun da Yaponiyanı ram edə bilmədiyini vurğulayır. Nəhayət, Budda da eyni taleyə boyun əyməli olmuşdu. Əsərdə bu xalqın canına buddizmin hər şeydən çox işlədiyini və heç nəyin onları dəyişdirə bilməyəciyini söyləyirdi. O, burada xüsusi bir məqama diqqət yetirir ki, burada önəmli olan budda Dayniti-Nyurayı xalqın çoxu bilir, amma ilahə Ohirumemutini heç kim tanımır. Bu o deməkdirmi ki, Ohirumemutinin önəmi yoxdur?. Bu isə yapon xalq inancına bir işarədir ki, kimin nə ilə gəlirsə gəlsin, xalq inancı hər şeyin fövqündə durur. Yaponların gücünün vurub dağıtmaqda yox,

yenidən yaradıb qurmaqda olduğunu qocanın dilindən eşidirik. Burada yunan mifologiyasında tanrı Hermesin oğlu qüdrətli Panın, onun nə vaxtsa yenidən zühur edəcəyinə inamın da şahidi oluruq. Orqantino bu məlumatların bu qocada haradan olduğunu heyrətlə soruşur. Burada sanki qoca bir növ onun prototipidir. Çünki o, qərbə getmədən onun mükkəmməl bilicisi olmağı bacarmışdı. Qoca Deusunun qalib gələ bilməyəcəyini, Deusunun artıq adi bir şəxs kimi yaponların arasında dolaşdığını və onun qalib gəlməsinin mümkün olmadığını vurğulayaraq alaqaranlıqda əriyib yox olur. Çünki, o, "kim ki Yaponiyaya gəlib, biz onu özümüzünküləşdiririk" deyir. Burada, Akutaqavanın prinsipi üzə çıxır. Əvvəlki fəsillərdə dediyimiz kimi, qərbi yamsılamadı, onu şərqə caladı, ortaya yeni bir istiqamət çıxardı. Bu əsər isə həmin fikrin məntiqi sübutudur. Ən sonda isə müəllif Orqantinonu "Uruqan" deyə sələyir və bəlli olur ki, o, qalib gələ bilməyib. Lakin Məğlubiyyəti ilə bağlı da dəqiq söz söylənmir. Uruqan isə Orqantinonun tarixdəki həqiqi adıdır. Göründüyü kimi burada müəyyən qədər tarixi hadisələrə də eyham vardır. Belə ki, Amerikalılar 1854-cü ildə Yaponiyanı "məcburi şəkildə" Kəşf edirlər və xristianlıq burada yayılmağa başlayır. Möhkəm inancları və ruhları olan yapon xalqı isə ondan əvvəlkilərə boyun əymədiyi kimi buna da boyun əymir. Beləliklə, Xristianlıq və Buddizm dini inanclarının mübarizəsində müəllif öz inancını da əks etdirməklə heç nəyin onların inancından güclü ola bilməyəcəyi məsələsini vurğulayır. Əsər tarixi roman təsiri bağışlayır.

İnanc məsələsindən danışarkən "Bisey necə inanırdı", "Tanrı Aqni", "Nankinli peyğəmbər" əsərlərini misal göstərmək olar. 1920-ci illərdə yazılmış bu əsərlərdə motivlər bir-birilə əlaqəlidir. Belə ki, həyat, inanc, din üçbucağı ətrafında müzakirələri və ilahi məqamları Akutaqvanın dilindən eşidirik. "Bisey necə inanırdı" əsərində körpünün altında oturan Biseyin gözlədiyini görürük. Amma O, kimi və ya nəyi gözləyir, bilinmir. M. Babayeva öz məqaləsində yazır ki, əsərin sonunda "sevgili" sözündən istifadə edilibsə də, bu, hər hansısa bir qadın obrazı üçün istifadə olunmayıb. Bu əsərin əsas mahiyyəti, ölümü gözləməkdir. Bisey burada ruhunu "Mavi Aya və səma"ya təslim edir və səssiz-səmirsiz ruhu göylərə qalxmağa başlayır. Əsərin mahiyyətində öldükdən sonra da həyatın öz axarında davam etdiyini göstərməyə çalışıb. O, insanın həyatı boyu ölümü gözlədiyini, bu qorxuyla yaşadığını və ancaq öldükdən sonra ruhunun azadlığa qovuşacağını, öz sevgilisinə qovuşacağını dilə gətirir. Ölümün insanın əbədiləşməsi üçün bir "son" olduğunu, özünə qaytardığını bildirməyi çox qeyri-adi yolla çatdırmağı bacarmışdır. Yazıçı bəşəriyyəti saflaşmağa, öz ruhunu cilalamaq və onu təmiz saxlamağa çağırır. O, madiyyatın, ənənələrin qurbanına çevrilmək istəmir və ruhun zamanla aşınmalarına baxmayaraq zamanla əbədiləşdiyini demək istəyirdi və buna görə sonda yazırdı: "Sonralar,Çox minilliklər keçdikdən sonra bu ruha yenidən insan həyatı yaşamaq fürsəti verildi. O ruh indi məndə yaşayır. Necəyəmsə, elə. Ona görə də, heç bir işə yaramıram, gecə də, gündüz də xəyallarla yaşayıram və "yaxşı" bir şeyin gələcəyinə ümid edirəm. Necə ki, Bisey qürub çağı öz sevgilisini gözləyirdi" [10, s. 147]. Müəllifin gələcəyə ümidlə baxdığını, hər şeyin yaxşı olacağınını ümid etdiyini görürük. Önəmli məqam isə ondan ibarətdir ki, burada onun intihara meyli açıq aşkar duyulur və öz proobrazını yaratmış olduğunu desək, yəqin ki, yanılmış olmazdıq.

Maraqlı olan isə, bu əsəri oxuduqca, yadımıza klassik Azərbaycan ədəbiyyatı düşür. Çünki, ölümdən sonrakı həyat, ruhun ölümdən sonra öz "sevgilisinə" qovuşması, Allaha (Burada Tanrı) qovuşmaq arzusu, dünyadakı ruhların çirkaba bulaşması, cəmiyyətdən uzaqlaşmaq istəyi, tənhalıq, hamısı aydın duyulur və istər-istəməz N. Gəncəvi, M.Füzuli kimi dühalarımızı göz önünə gətirməyə bizi vadar edir. Bu, qismən "Vəhdəti-vücud" fəlsəfəsini özündə ehtiva edir. Düzdür, Akutaqavanın yaradıcılığında "intihar" düşüncəsi çox sıx işlədilən motivdir, lakin nəzərə almaq lazımdır ki, intiharın arxasında duran səbəb çox ilahidir.

Akutaqavanın bu əsəri Samuel Bekketin "Qodonu gözləyərkən" əsərinə çox bənzəyir. Belə ki, Bisey nəyi gözlədiyini bilmədiyi kimi, Estraqon və Vladimir də nəyi gözlədiklərini, niyə gözlədiklərini, hətta gözlədikləri "nə və ya kim"-dən nə istədiklərini də bilmirlər. Həmçinin, təsvir olunan məkanda çarmıxa çəkilmiş İsa məsihin portretinin olması, onların da gözləyənə qədər "özlərini asmaq" istəməsi də ayrıca diqqətəlayiq məqamdır. Biseydən fərqli olaraq onlar intihar etmək niyyətində deyillər, sadəcə vaxtın keçməsini istəyirlərsə də, qorxduqlarından etmirlər. Amma Biseyin niyyəti bəlli idi. O, intihar etməkdə idi. Hər iki əsərdə obrazların gözlədikləri "şey" bəlli deyil və mənəvi mahiyyət daşıyır. Əsər romantik hekayə üslubunda yazılıb. Akutaqava yaradıcılığının zirvə

nöqtəsi isə 1924-1927- ci illərdəki yazdığı əsərlər daxildir. Bu dönəmdə yazdığı əsərlərdə o daha çox insanın bitib tükənməz daxili aləmi, psixologiyasından, müəllifin öz dünyagörüşü və etiraflarından, onun ziddiyətli fikirlərindən bəhs edən məsələlərdən yazırdı. Bu əsərlər sırasında 1923-1927 ci illər ərzində yazdığı "Kappa", "Cücənin sözləri", "Köhnə bir dosta məktub", "Dişli çarxlar", "Səfehin həyatı" əsərləri daxildir. Burada ən çox diqqəti çəkən məqamlar içərisində isə onun daha çox intihar niyyətini açıq şəkildə ifadə etməsi və öz fikirlərini açıq formada dilə gətirməsidir.

"Kappa"da o, 23 nömrəli palatada xəstə yatan bir obrazın kappaların ölkəsinə səyahətindən danışılır. Burada, bir çox obrazlar var ki, müəllifin onları müxtəlif insanların prototipi olaraq yaratdığı mübahisəli deyil. Bir meşənin içi ilə tamamilə dumanlıqdan keçdikdən sonra bir evə gəlir, bu ev dağın zirvəsində yerləşir. Bu evin damına bir qapı açılır və o qapıdan keçdikdən sonra kappaların ölkəsinə gəlir. İlk başlarda burada yaşamaq onun üçün çətin olsa da, sonradan o, geri qayıtmaq istəmir.

Həyatımız üçün lazım olan düşüncələr, bundan üç min il əvvəl tükənmiş ola bilər. Bizlər yalnızca köhnə odunları yeniden tutuşdururuq." Öz qanunları içində, olması lazım olduğu kimi həyat sürən kappaların dünyasına anidən sızan maraqlı bir cüt gözün dəliliyə gedən tragik hekayəsi… Qəhrəmanımız, günün birində bir kappanı təqib edərkən dünyadan çox fərqli bir şəkildə idarə olunan Kappalar Diyarı'nda özünü tapır . İçine düşdüyü bu yeni cəmiyyətə və gətirdiyi qaydalara uyğunlaşmağa çalışır. Lakin hər nə qədər dilini, mədəniyyətini ve adətlerini öyrənməyə çalışsa da, bir müddət sonra mövcud toplumun reallıq anlayışına zidd olduğunu anlayır. Öz dünyasına getmək üçün girdiyi qurtuluş yolu isə onu sonsuz bir beyin çılğınlığına aparır. Həyatı boyunca genlərində gizlənən dəlilikten qorxan Japon qısa hekayələrinin atası olaraq ad salmış Akutagava, otuz beş yaşında intihar etmədən qısa bir müddət əvvəl qələmə aldığı bu əsərində, mövcud dövrdəki insanların həyatlarına baxış bucağını, əyləncələrini, ölümə duyduqları qorxu, ailə quruluşunu, siyasətlərini, kapitalizmi və daha neçə şeyi tənqidi bir dillə qınayır [11]. Burada xəstə obrazı isə müəllifin özüdür.

"Səfehin həyatı"nda isə öz obrazını yaradan Akutaqava burada həm öz taleyindən və həyatından danışır, həm də əsas qorxusu və bu qorxudan, xəstəlikdən qurtulmaq üçün əl atdığı son yolun- intiharın gedişatından danışır. "Köhnə bir dosta qeydlər" adlı əsərində isə intihardan çox qısa zaman öncəki hadisələri nəql edir. Ümumən hekayələrin əsas mahiyyəti birinci dünya savaşı sonrası yapon cəmiyyətinin panoramını verir, cəmiyyətin əhvali- ruhiyyəsini təsvir edir [40].

Nəticə. Ümumi olaraq, məqalədə əsas diqqətə alınmış məsələ Akutaqava yaradıcılığına ümumi nəzər salmaq, onun əsərlərində çatdırılan əsas ideyalar, onun məzmunundan yaranan fikirl və onun geniş ifadəsi olmuşdur. Yaradıcılığının ilk çağlarından ömrünün sonuna yaxın yazdığı əsərləri də daxil olmaqla yazıçının düşüncə tərzi, fikir və ideyaları tədqiq edilmişdir.

Elmi yenilik. Azərbaycan ədəbiyyatında,ümumən, Akutaqava, eləcə də yapon ədəbiyyat çox da diqqət mərkəzində olmadığından bu mövzularla əlaqəli çoxsaylı material və araşdırma yoxdur. Buna görə də, mövzu ilə əlaqəli materiallara ciddi ehtiyac duyulur. Mövcud tədqiqat işində bu məsələyə toxunulmuş, Akutaqava yaradıcılığı, xüsusən də, novellaları və onların təhlili ciddi əhəmiyyət daşıyır. İndiyə kimi bu mövzularda bir neçə məqalə və bir monoqrafiya yazılmışdır. Bu araşdırma, kitab və məqalələr də hal-hazırda yaşanan ehtiyacları ödəməyə fokuslanmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. O.E.Zeynep. Bir Budalanın Yaşamı. Sel yayıncılık, 2022, 119 s.
2. V.E.Ali. 3 sıradışı japon yazarın eserlerinde Türkiye imgeleri // Ankara üniversitesi, Tarih-Coğrafya fakültesi, №53, 2013, s. 1-8
3. Cabbarlı N. Akutaqava Rünoske: Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2011, 563 s.
4. Babayeva M. Akutaqavanın dünyası // Kaspi qəzeti, Bakı, 2016, s. 24
5. Ramizoğlu R. Tanrıların istehzası. Bakı : Azərbaycan Tərcümə Mərkəzi, 2015, 350 s.
6 https://ru.wikipedia.org/wiki/%D0%90%D0%BA%D1%83%D1%82%D0%B0%D0%B3%D0%B0%D0%B2%D0%B0,_%D0%A0%D1%8E%D0%BD%D0%BE%D1%81%D0%30._BA%D1%8D
7. https://musavat.com/news/akutaqava-ucun versiya_50438.html
8. https://en.wikipedia.org/wiki/In_a_Grove
9. https://en.wikipedia.org/wiki/In_a_Grove
10. https://www.google.com/amp/s/www.azadliq.org/amp/24657482.html
11. https://alinino.az/product/kappa?lang=en

CƏLİL MƏMMƏDQULUZADƏNİN YARADICILIĞINDA ƏLİFBA MƏSƏLƏSİ

Madər Əliyeva*

Abstract

The alphabet problem in the creation of Jalil Mammadguluzade

For ages, our intellectuals struggled for our language and alphabet. For that purpose, they strived the enlightenment of our nation by various means. Mirza Jalil's stance to alphabet in his works, articles and columns and the importance of new alphabet in the progress of our people were represented in this article. At the same time, it was analyzed in this article that how and with what kinds of methods Jalil Mammadguluzadeh criticized those who were against the new alphabet. Furthermore, great writer touched political issues caused by new alphabet in his works and these issues were analyzed in the article.

Keywords: *alphabet problem, latin script, column, militant intellectual.*

Giriş. Azərbaycan ədəbiyyatında kiçik hekayənin böyük ustadı kimi tanınan, "Molla Nəsrəddin" jurnalının redaktoru, müəllim, xalqın milli-mənəvi tərəqqisində mühüm rolu olan Cəlil Məmmədquluzadə 1869-cu ildə Naxçıvan qəzasında anadan olmuşdur. Həmin dövrdə Naxçıvanın mədəniyyət və ədəbiyyatın beşiyi olması Cəlil Məmmədquluzadənin bir ədib, müəllim kimi formalaşmasında mühüm rol oynamışdır. Mirzə Cəlil Naxçıvanda müəllimlik edərkən məktəbdəki problemlərlə yaxından tanış olmuş, əsərlərində bu məsələlərə toxunaraq xalqın savadlanmasında müstəsna rol oynamışdır. Bu problemlər, xüsusilə də, əlifba problemi ədibi daim düşündürmüşdür. Hekayələrində, məqalə və felyetonlarında, habelə dram əsərlərində bu məsələni hər dəfə önə çıxararaq öz sözünü demiş və daim onu həll edəcək yollar axtarışında olmuşdur. Cəlil Məmmədquluzadə redaktoru olduğu "Molla Nəsrəddin" jurnalında da əlifba məsələsi haqda dəfələrlə danışır, ana dilində yazıb danışmağı özünə ar bilənlərə müraciət edir və onları digər dillərin əsarətindən qurtularaq ana dilini qorumağa çağırır. Digər yenilikçi ziyalılar kimi o da latın qrafikasının tərəfdarlarından idi. Ziyalı mövqeyindən çıxış edərək düşünürdü ki, ərəb qrafikası yazıda da, oxuda da bir sıra çətinliklərə yol açır. Öz xatirələrində də ədib yazır: "Bu heroqlifləri məhv edib onu latın əlifbası ilə əvəz etmək lazımdır." Onun bu barədə yuxarı dairələrlə, digər qəzet redaktorları ilə danışığı da ürəkaçan nəticə vermirdi. Böyük mütəfəkkir bu məsələni əsərlərində geniş şəkildə təsvir edir.

Əsas hissə. Ədib "Dil" (1908) adlı felyetonunda ərəb qrafikasının çətinliyindən gülünc şəkildə bəhs edir. Felyetonda "Anama de ki, Fatmanın oğlu oldu" [2, s. 275] yazılmağına baxmayaraq "oldu" sözünün "öldü" oxunulması ilə iğtişaş düşür. Bu da əslində ərəb əlifbasının nə dərəcədə mühüm problemlər doğurduğunu göstərir.

Eyni məsələyə bir daha toxunan yazıçı "Ticarətimiz ya elə hürufatımız" adlı felyetonunda da bu əlifbanın gətirdiyi çətinlikləri aydın şəkildə əks etdirir. Felyetonda iki dostun məktublaşmasından söhbət gedir. Məktubda Kərbəlayi Həsən dostundan yüz körük istəyir, lakin ərəb əlifbasının çətinliyindən məktubdakı "körük" sözü fərqli mənalarda - "kürk, kürək" mənasında başa düşülür. Bu da ərəb qrafikasının bizim dil üçün uyğun olmadığını göstərir.

"Əlifba" (1913) məqaləsində isə Mirzə Cəlil arnaudların ərəb qrafikasından latın qrafikasına keçmək istəklərini təqdir edərək deyir: "Onlar bilirlər ki, nə qədər ərəb hürufatilə yazı-pozu eləyirlər, mətbuatı tərəqqi tapmayacaq, milli ədəbiyyatları puç olacaq, dilləri hörmətdən düşəcək və axırda özləri də arnaudluqdan çıxıb, qeyri bir güclü millətə qarışıb, yox olacaqlar; necə ki, bizlər və bizdən də savayı sair müsəlman qardaşlar" [2, s. 531]. Bu sətirlərlə Mirzə Cəlil xalqa onu çatdırmağa çalışır ki, əgər bu əsarətdən qurtulmasaq, bizim də aqibətimiz digər millətlər kimi olacaq - öz müstəqilliyimizi itirib tarixdən silinəcəyik. Ədib həmçinin məqalədə xalqın bəzi nümayəndələrinin öz dilindən "iyrəndiyini" də vurğulayır: "Qardaş, zarafat deyil ki, dilimizdən iyrənirik, vəssalam!" [2, s. 532].

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: mader97529@gmail.com. Elmi rəhbər:*** *Prof. Mətanət Abdullayeva.*

1926-cı ildə keçirilən I Türkoloji Qurultayda əlifba məsələsinə də toxunularaq yeni əlifba rəsmi şəkildə təsdiq edildi. Bu xəbərə ən çox sevinənlərdən biri də elə bizim görkəmli yazıçımız Cəlil Məmmədquluzadə olmuşdur. O, əlifba barəsindəki bu yenilikdən öz felyeton və məqalələrində bəhs edərək bəzi məsələləri gün üzünə çıxarmışdır. Mirzə Cəlil elə "Təzə əlifba" (1924) felyetonunda bu məsələyə toxunaraq təzə latın əlifbasını "dadlı aşa" bənzədib deyirdi: "Adam bir çanax dadlı aşı qabağına qoyub yeyəndə gərək bilə ki, bu aş harada bişib və kim bişirib" [3, s. 157]. Bu misraları yazmaqda məqsəd təzə əlifbanın yaradıcılarının, bu yolda hər şeylərini fəda edən ziyalılarımızın tanınması idi. Bu əlifba uğrunda böyük səy göstərən yazıçımız və onun yoldaşlarının qiymətləndirilməməsi onu bu misraları yazmağa vadar edir: "Bir vaxt var idi ki, yeni hürufatçıları az qalırdılar adam içindən qovub çıxardalar,bir vaxt var idi ki, onların adını vətən xaini qoymuşdular, amma indi gəl gör. Bu yeni əlifbanın üstünə indi o qədər müştəri tökülüb ki, heç bilmirsən bişirən kimdi, düşürən kimdi. Hətta dünən küçə ilə keçərkən gördüm təzə qonaqların bir neçəsi qollarını çırmayıb düşüblər nimçənin üstünə" [3, s. 157]. Ədib yeni əlifbanın böyük səs-küyə səbəb olduğunu, "təzə qonaqlar" dedikdə isə həmin qurultayda iştirak edən və digər millətlərdən olan iştirakçıları nəzərdə tutaraq onların yeni əlifbaya münasibətini təsvir etmişdir.

Qurultaydakı digər məsələ də başqa xalqların, xüsusilə də, ingilislərin bizim yeni əlifbamıza bəslədiyi münasibətdir ki, Mirzə Cəlil bu barədə "Latın hürufatı və ingilislər" (1926) adlı məqaləsində danışır. Molla Nəsrəddin jurnalının 46-cı nömrəsində çap olunan bu əsərdə əslində əlifba məsələsinin də siyasi bir məsələ olduğunu, əgər bizim yeni əlifba siyasətə uyğun gəlirsə o zaman yaxşı qarşılanacağını vurğulayır və deyir ki: "İngilislər üçün dünyada yaxşı şey və pis şey yoxdur; o yerdə ki, onların politikası icab edir, orada yaxşı işə də onlar yaxşı deyə bilərlər, pis işə də yaxşı deyə bilərlər" [3, s. 291]. Belə güman edirəm ki, yazıçı bu misralarında sadəcə ingilisləri yox, bizi öz müstəmləkəsi altına salan rus hökumətini də tənqid edir və düşünürdü ki, rus hökumətinin əlifba məsələsində siyasi cəhətdən maraqları olmasa onlar da bizim yeni əlifbanı yaxşı qarşılamayacaqdılar.

Əsrlər boyu ömür sürən ərəb əlifbasının qəlizliyinə görə millətin geri qalmağını, savadlana bilməməyini dramaturq "Eşit, inanma!" (1927) adlı felyetonunda tənqid etmişdir. Felyetonda əvvəlcə belə bir sual qoyulur: "nə yol ilə və nə vasitə ilə kəndlilərin qəzet oxumağını artıraq və onlar üçün nə cür, nə tipdə qəzet icad edək ki, kəndlilərə hal-hazırda çıxan qəzetlərdən artıq əlverişli olsun" [3, s. 309]. Bu sualdan sonra isə ilk olaraq ərəb hürufatındakı yazıların nə qədər əlverişsiz olduğundan bəhs edilir. Doğrudur ki, bizim klassiklərimiz əsrlər boyu bu əlifbadan istifadə etmişlər, lakin bu əlifbanın artıq köhnəldiyi, yeni dövrlə ayaqlaşmadığı, xalqın savadlanmasında yetərsiz olduğu maarifçilər tərəfindən dəfələrlə qeyd edilmişdir. Cəlil Məmmədquluzadə də burada bir daha bu faktı ortaya qoyur, ərəb hürufatına qarşı latın hürufatını irəli sürür. Bu fikirlə əslində savadsız və xalqı cəhalətdə saxlayan mollalar ilə özünü və digər maarifçiləri qarşı qarşıya qoyaraq yazır: "Əgər birisi Quranı ala əlinə və ona and içə-içə deyə ki, ərəb hürufatlı millətlər arasında kəndlilərin, yaxud şəhərlilərin içinə çox miqdarda qəzet və jurnal yeritmək üçün bir çarə tapa bilər,- eşit, inanma!" [3, s. 309]. Beləliklə "Qəzet və jurnallar latın əlifbası ilə yazılarsa xalq o zaman savadlanar və aydınlığa çıxar" fikri bir daha təsdiqlənir. Ədib digər maarifçilər kimi latın əlifbasının bir gün aparıcı əlifba olacağından çox ümidlidir. İşıqlı gələcəyimizi sanki əvvəlcədən görən böyük mütəfəkkir əsərində qətiyyətlə və qürur hissi ilə o günlərin gələcəyini bildirir. Yalnız felyeton və məqalələr deyil, həmçinin nəzmə də müraciət edən Cəlil Məmmədquluzadə nəzm əsərlərində də əlifba məsələsinə yer vermişdir. Molla Nəsrəddin jurnalının 1917-ci ilin, 10-cu nömrəsində onun "Əlifbaya" (1917) adlı şeiri dərc olunmuşdur:

Ey aləmi-islamə çalan yarə, əlifba!
Ey hər iki aləmdə üzü qarə, əlifba!
Bəsdir bu qədər ömr eləyibsən, a utanmaz,
Qanmırsan özün, yoxsa sanırsan bizi qanmaz?
Qəflətdən ayılmazmı, cəhalətdən usanmaz,
Sən zənn eləyirsən bizi yatmış və oyanmaz?
Sanma ki, tapılmaz bizə bir çarə, əlifba,
Rədd ol başımızdan belə finnarə, əlifba! [1, s. 162].

Mirzə Cəlil şeirdə ərəb əlifbasına müraciət yolu ilə əslində bu əlifbanın davamçılarını satira atəşinə tutaraq xalqa "qanmaz" kimi baxdıqlarını, onları cəhalət, zülmət içində saxladıqlarını kəskin şəkildə ifşa edir. Xalqının qaranlıqdan çıxmağını arzulayan ədib bu köhnə əlifbanın yolu ilə gedənlərə səslənərək bu cəhalətə son qoyacağını və çarə tapacağını vurğulayır. Şeirin sonrakı misralarında da ərəb əlifbasındakı hərflərin bizim dilimizə uyğun olmadığını, müxtəlif çətinliklər törətdiyini bu şəkildə ifadə edir:

Hanı yarayan şivəmizə səndə hürufat?
"Sad" mı bizə lazımdı və ya nöqtəli bir "zad"
"Zal"a, "zay"a, "tay"a, "sey"ə, "ayın"a, "hey"ə qal mat.
Yığ bu zibili müştəri tapsan mən ölüm sat!
Sat nisyə də olsa, ya verə parə, əlifba!
Rədd ol başımızdan belə finnarə, əlifba! [1, s. 162].

Şair bu misralarda səkkiz ərəb hərfindən bəhs edir ki, bu hərflərin bizim dilimizə yaramadığını qətiyyətlə söyləyir. Tək bu şeirlə kifayətlənməyən Cəlil Məmmədquluzadə "Deyirəm dərsi-əlifbey sizə" şeirində də bu dərsi tədris edən mollaların tədris üsullarının da ərəb əlifbası kimi köhnəldiyini, artıq yeni üsullarla, yeni əlifba ilə tədrisin vacibliyini önə sürür.

Nəticə. Həmin dövrdə dilimizə, əlifbamıza, soykökümüzə olan biganə münasibətlərə baxmayaraq qəhrəman xalqımızın ən böyük yazıçılarından olan Mirzə Cəlilin ömrünü bu məsələlərə sərf etməyi hər kəsə böyük örnək olmalıdır. Yazıçı düşünürdü ki, indi olmasa belə nə vaxtsa bu xalq oyanacaq və öz haqqını tələb edəcək. Əgər biz bu gün öz əlifbamızda, öz dilimizdə kitablar yazıb oxuyuruqsa, bütün bunları Cəlil Məmmədquluzadə kimi görkəmli şəxsiyyətlərimiz sayəsində edə bilirik. Mirzə Cəlil cismən olmasa da ideyaları indi də yaşayır və daim yaşayacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı: Maarif, 1966, 330 s.
2. Məmmədquluzadə C. Əsərləri: dörd cilddə. II cild. Bakı: Öndər, 2004, 583 s.
3. Məmmədquluzadə C. Əsərləri: dörd cilddə. III cild. Bakı: Öndər, 2004, 479 s.
4. Orucova A. Cəlil Məmmədquluzadənin şeir yaradıcılığı. Naxçıvan, 2017, 191 s.

ƏLİQULU QƏMKÜSARIN FELYETONLARINDA ƏSAS TƏNQİD HƏDƏFLƏRİ

Sevinc Vəliyeva*

Abstract

Objectıves of crıtıcısm ın Alıgulu Qamkusar's columns

Aligulu Gamkusar, one of the prominent thinkers of the 20th century, created valuable works on a wide range of topics through his unique creativity. The main targets of criticism in the poet's works were false religious figures, pro-European and pro-Russian people who deny the existence of our mother tongue and try to alienate it, and the administration that is unable to manage the country and causes suffering to the population. One of the events that deeply shook the poet was the difficult life of our people, people's disinclination to education and enlightenment. Because, according to Gamkusar, it is not enough to write an effective, sharp satirical work in order to wake up the people from the sleep of heedlessness, the masses reading these works must also be inclined to develop. Sometimes the poet complains about the neglect of our nation and expresses his regret in his poems with bitter laughter.

Keywords: *"Molla Nasraddin", Aligulu Gamkusar, columns, superstition, mother tongue, method-management.*

Giriş. Azərbaycan ədəbiyyatının dəyərli və ölməz sənətkarlarından, "Molla Nəsrəddin" jurnalının görkəmli müəlliflərindən olan Əliqulu Nəcəfov Qəmküsar 1880-ci ildə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan şəhərində anadan olmuş, uşaqlıq və gənclik illərini bu şəhərdə keçirmişdir. XX əsrin əvvəllərində Azərbaycan tənqidi-realist ədəbiyyatının ən görkəmki nümayəndələrindən biri kimi tarixə adını yazdıran Əliqulu Nəcəfov publisistikanın və milli satirik şeirin bacarıqlı yaradıcılarından biridir. Əliqulu Qəmküsar 1918-ci ilə qədər öz yazılarını gizli imzalarla dərc etdirmişdir. İslam Ağayev qeyd edir ki, şair "Culfalı", "O taylı", "Ə.Q", "Sevdayi", "Cüvəllağı", "Cüvəllağı bəy", "Sarsaqqulu bəy", "Simurğ", "Öz şairimiz", "Ləndəhür", "İmzasız" imzaları ilə dərc edilən əsərlər şairə məxsus olmuşdur. Bundan əlavə o, "Əliqulu Naxçıvani", "Əliqulu", "Əliqulu Nəcəfov", "Əliqulu Nəcəfzadə" imzaları ilə də yazılarını dərc etdirmişdir. Lakin ömrünün son iki ilində Qəmküsar, ümumiyyətlə, gizli imzalardan istifadə etməyib.

Əsas hissə. Qəmküsarın müraciət etdiyi mövzular, əsasən, dövrün ictimai-siyasi vəziyyəti, fanatizm, mövhumat, cəhalət və avamlığın tənqidi, ana dili problemi kimi məsələlər olmuşdur. Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir kimi Qəmküsar da xalqı cəhalətdə saxlayan, onun maariflənməsinə qarşı olan din xadimlərinə düşmən kəsilmiş, Cüvəllağı bəy, O taylı, Xadimi-millət, Simurğ imzaları ilə dərc etdirdiyi satira və felyetonlarında bu əsarət dünyasına nifrətini əks etdirmişdir. Şair din xadimlərinin xalqa yaşatdığı əzab-əziyyəti, bu şəxslərin din pərdəsi adı altında törətdiyi fəlakətləri ürək ağrısı ilə dilə gətirirdi. Bu cəhətdən Qəmküsarın satiraları nəinki ideyası, eyni zamanda bədii ədası, ruhu, üslubu ilə də Sabirin satiralarını davam etdirirdi.

Qəmküsarın yaradıcılığında mövhumatın və dini fanatizmin, ruhaniliyin tənqidinə həsr edilmiş əsərləri, o cümlədən felyetonları silsilə təşkil edir. 70 il xalqımızı dinsiz, imansız etmək üçün yorulmadan çalışan sovet sistemi bir çox görkəmli ədibimizi ateist, dinsiz adlandırır, əsərlərinin isə dinə qarşı yazılmış olduğunu sübut etməyə səy göstərirdi. Bu faşist imperiya nəinki hökmranlıq illərinə, həmçinin qədim dövr şair və ədiblərimizin belə yaradıcılığına nəzər yetirərək antidin mövqe aparmış, onları da arsızcasına bolşevikləşdirmişdi. Amma bunu da qeyd etmək lazımdır ki, sənətkarın əsas tənqid hədəfləri mollalar, din xadimləri olsa da, o, heç vaxt dinə qarşı mübarizə aparmamış, onu tənqid etməmişdir. Nəinki Əliqulu Qəmküsar, digər mollanəsrəddinçi şairlər də yazılarında, çıxışlarında dinin elmi cəhətdən izahını verməyə çalışmış, din xadimlərini doğru yola səsləmişlər. Şair "Ənasiri-ərbəə", "Çirk", "Ah keçən günlər", "Rədd", "Statistika", "Məkkə", "Şeytan fəhləsi", "Babı", "Şəriətdə Şərm yoxdur", "Qara bayram", "Pələng ili", "Əshabi-Kəhf" kimi felyetonlarında yalançı ruhaniləri, din xadimlərini, onların pul qazanmaq üçün isifadə etdikləri ayinləri və dini mərasimləri

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: veliyeva1453@gmail.com. Rəyçi:*** *Dos. Məhərrəm Vəliyev.*

kəskin şəkildə tənqid edir, hətta bəzi hallarda təhqir də edərək, onların əlində oyuncağa çevrilmiş avam xalqının halına acıyaraq gülürdü. O, uşaqların körpə vaxtından mədrəsələrə göndərilməsi, burada dinin dərinliklərini öyrənmək əvəzinə mollalar tərəfindən yalan-yanlış məlumatlar verilməsini kəskin şəkildə tənqid edirdi. Şair satirik dillə qeyd edirdi ki, nə qədər uşaq, körpə varsa, hamısının başını çırtmaq lazımdır ki, bu adətləri öyrənsinlər, sonra özlərini yarsınlar. Burada yarmaq ifadəsini aşura zamanı müsəlmanların özlərini döymələri, zincirləmələri və balta ilə başlarını yarmalarına işarə olaraq vermişdir. Şair burada axundları, mollaları kinayəli bir şəkildə igid, yar olaraq adlandırır. Qəmküsar bu cür kəskin xitabları ilə avam, yoxsul xalqı qəflət yuxusundan oyatmağa çalışırdı. Şair insanın zehnini, psixologiyasını zəhərləyən, elm və maarifin düşməni olan ruhanilərin, din xadimlərinin, ümumilikdə, bütün mütrəce qüvvələrin maarifə, elmə, məktəbə olan bədnam münasibətlərini, ruhanilərin din pərdəsi altında həyata keçirdikləri hiylə və fırıldaqların mahiyyətini açıb xalqa göstərmək və gözünü açmaq istəyirdi. Ariflərin hər zaman din xadimləri tərəfindən təhqir edilməsi, alimlərin dinsiz, allahsız adlandırılmasını da şair qeyd etmədən keçməmişdir. Saxtakar din xadimləri öz fikirlərini, yalanlarını sadəcə cahil, avam kütləyə dinlədib, onları inandıra bilirdi. Ona görə də, savadlı kütlənin çoxalması onların əleyhinə bir hadisə olardı.

Şair "Çirk" felyetonunda müsəlmanların avamlığına acı-acı gülərək qeyd edir: "Belə ki, bu ilin ərzində şəhərimizin hamı müsəlman övrətləri balaca şüşələr götürüb Axundgildən pul ilə o mücərrəb davadan alıb hansı bir qızdırmalının canına və hansı boğazı gəlmişin boğazına sürtdülərsə, filfövr şəfa tapıb, canları bidin və laməzhəb rus həkimlərinin əlindən qurtardı...Allah ki bu cür böyük nemətləri bizə ehsan buyurub, daha biz niyə pullarımızı xarici həkimlərə verək?...Xudavəndi-aləm bu cənablara ömür versin ki, öz şəfa tərini və köynəyinin çirkini heç kəsdən müzayiqə eləmirlər" [5, s. 97].

Şair felyeton və satiralarında xalqa min cür yolla cəfəng sırıyan qubalı Molla Hacı Babanı, naxçıvanlı Molla Zülənamanı, Mir Sufid, Mir Hüseyn ağanı, Mir Mürtəza, Ağ Seyidi və digər ruhaniləri, mollaların əməllərini xalqa açıqca göstərməyə çalışırdı. O, xalqın maariflənməsi və cəhalətdən qurtulması üçün var gücü ilə mübarizə aparır, cəhalət quyusunda olan xalqın elmə, maarifə can atmamasından şikayətlənirdi.

Əliqulu Qəmküsarın felyetonlarında toxunduğu əsas məsələlərdən biri də ana dili məsələsi idi. Qəmküsar ana dilimizin saflığı uğrunda həqiqi bir millətçi, vətənpərvər kimi iştirak etmişdir. "Molla Nəsrəddin" jurnalının 1907-ci il 4 noyabr tarixli 41-ci nömrəsində nəşr edilmiş "Qatış-bulaş" felyetonu jurnalın dilimizi qorumaq üçün çağırışına cavab idi. Bu yazıda şair öz ana dilinə xor baxan, dilimizi yad sözlərlə çətinləşdirən nankor adamları tənqid atəşinə tutmuşdur. Şair burada Sərkər Molla əmiyə öz bacarığını tərifləyən "alim"i satirik gülüş hədəfinə çevirir. Məqalə yazmaq istəyən dırnaqarası alimə görə, insanların onu başa düşməsi vacib deyil, özünün fəziləti bəlli olsun, kifayət edər. Bu səbəbdən də, üç dili-türk, fars və ərəb dillərini qatış-bulaş edərək, məqaləsində hər üç dildən istifadə etmək qərarına gəlir:

"Sərkər Molla əmi, özümü tərif eləmək kimi çıxmasın, mən üç dildə: türk, ərəb, fars dillərində alim olmuşam. İndi sənin fikrincə mən bu dillərin hansında məqaləmi yazsam mənim üçün fəziləti daha çox olar....Yaxşısı elə budur ki, mən məqalədə hər üç dili bir-birinə qatış-bulaş edim...camaat başa düşür düşsün, düşmür düşməsin. Mənə deyən lazımdır ki, camaat ilə nə işin var, sən öz fəzilətinə çalış" [5, s. 95].

Ana dili uğrunda aparılan mübarizədə sadəliyi əsas götürən digər qələm yoldaşları kimi, Qəmküsar da aydın, canlı, sadə xalq dili ilə açıb göstərmiş və xalqı öz azadlığı uğrunda mübarizə aparmağa çağırmışdır. O, kəskin satirik ruhlu felyetonlarında ana dilini yad kəlmələrlə dolduranlara, təhsil almaq üçün xarici ölkələrdə bir neçə il yaşadıqdan sonra öz ana dilini bilərək unutmağa çalışanlara, əcnəbiləşməyə çalışanlara qarşı mübarizə aparmış, bu insanları ustalıqla ifşa etmişdir.

Qəmküsarın istər ana dilini, istərsə də milli, siyasi maraqlar aspektindən diqqəti cəlb edən əsərlərindən biri də 1911-ci ildə qələmə aldığı "İrəvana səyahətim" felyetonudur. Burada sənətkar Azərbaycanın ən qədim şəhərlərindən biri olan İrəvanın ictimai-siyasi, mədəni və məişət həyatından bəhs edərək, ürək yanğısı ilə xalqın yaşayışını, cahilliyini, çəkdiyi əzab-əziyyəti göstərmiş, xalqı cəhalət quyusunda əsir edən mollaları, din xadimlərini kəskin tənqid atəşinə tutmuşdur. Sənətkar öz ana dilini unudan, özünü avropalılara oxşatmağa çalışan, xalqın taleyi ilə maraqlanmayan, öz milli

mənsubiyyətini danan dırnaqarası intiligentlərə kinayə ilə gülmüş, bu şəxslərdə millət yanğısı olmadığını vurğulamış, əzəli düşmənimiz olan ermənilər tərəfindən qədim tarixə malik abidələrimizin sökülüb, dağıdıldığını göstərərək həyəcanını ifadə etmişdir:

"Qısacası, İrəvan, nə İrəvan! Tərif eləməklə başa gəlməz. Maşallah, o qədər intiligent və arpazavonnı insanlar var ki, hamısı başdan ayağa qraxmala qərq olmuş, manjetli, əldə trost, gözdə eynək səhərdən axşama kimi bulvarda gəzirlər və rusca elə danışırlar ki, rusun babası da belə danışa bilməz, bunların hamısını keçdikdən sonra, həmçinin bu şəxslərin şayani-heyrət təəssübləri və millətpərəstlikləri də var. Belə ki, İrəvanda İran vaxtından qalan bir Sərdar imarəti və Sərdar məscidi var, darmadağın edib ayaqyolu düzəldiblər ki, məhv olsun, izi silinsin" [5, s. 105].

Buradan göründüyü kimi, Qəmküsar xalqını xor görənləri, onun fəziləti üçün çalışmayanları tənqid hədəfinə çevirmişdir. Bundan əlavə, "Babı" adlı felyetonunda da bu məsələyə toxunaraq dində edilən duaların, danışılan sözlərin ərəb dilində olmasından və digər xalqların, məsələn, amerikalılar üçün bunun həddindən artıq çətin olduğunu qeyd edir:

"Adam babı etməyi üçün ərəb və fars dilini öyrətmək lazımdır. Zarafat deyildir ki, ildə on doqquz ay var, bu on doqquz ayın on doqquz da adı var, hamısı da ərəbcədir. Amerikalı adam müsəlman deyildir ki, bir ildə otuz gün gündüz ac qarnına oyanıb gecənin bir yarısı yuxudan oyansın, hey yesin, qarnını doldurduqdan sonra "allahümmə, ənni, əsəlükə, min baha ikə,babha" oxuyub ayların adını əzbərləsin, çünki müsəlman milklətinin işi asantdır, xüsusən də, şiə, iranlı öyrəşib bunlara, indiyə kimi min cür dini qəbul edib" [5, s. 114].

Qəmküsarın dil haqqında olan yazıları öz dövrünə görə böyük əhəmiyyətə malikdir. O, ana dilinin təmizliyi, sadəliyi və saflığı ideyasını səylə müdafiə edərək, "Molla Nəsrəddin" ədəbi məktəbinin dil və üslubuna, həqiqətən, sadiq olduğunu nümayiş etdirmişdir.

İran inqilabı və Səttarxan hərəkatı Əliqulu Qəmküsarın yaradıcılıq fəaliyyətində ən çox müraciət etdiyi mövzulardan biridir. Şair mətbuat orqanlarındakı çıxışları ilə Təbriz inqilablılarının mövqeyindən çıxış edərək, onları müdafiə edir, düşmənlərini isə kəskin tənqid atəşinə tutur, azadlığın düşməni kəsilən Şərq müstəbidlərinə kinayə ilə gülürdü. Birinci Dünya savaşı, oktyabr və fevral inqilabları zamanında görkəmli mütəfəkkir Əliqulu Qəmküsarın yaradıcılığı daha çox siyasi mövzulara meyil edərək, ideya baxımından çox təsirli və aydın olmuş, bu illərdə o, əsil mübariz şair kimi öz çıxışları ilə böyük oxucu kütləsi cəlb etmişdir. Fevral inqilabını mollanəsrəddinçi şairlər böyük sevinclə qarşıladılar. "Molla Nəsrəddin" jurnalında fevral inqilabından dərhal sonra nəşr edilən məqalələrin birində yazılmışdı ki, Rusiya hökumətinin dəyişməsi hal-hazırda bütün dünyaya məlumdur. Hadisənin qısası budur ki, neçə vaxtdır bir dəstə zalım bir yerə yığılıb və özlərinə bir başçı seçib, minmişdilər camaatın boynuna, rahat nəfəs almağa imkan vermirdilər. Nəhayət, elə oldu ki, yazıq camaatın ah-naləsi göylərə qalxdı.

Bəli, zamana keçdi, dövran dəyişdi: hökmdarı hakimiyyətdən endirdilər, vəzirlərini həbsə atdılar və camaat vəkilləri də ixtiyarı öz əllərinə alıb başladılar ölkəni öz üsulları ilə idarə etməyə. Millətlər azad oldu, məmləkətin başının üstündən qara buludlar çəkildi və iki bayram qarışdı bir-birinə.

Şairin müvəqqəti hökumətə olan mənfi münasibəti onun "Qarğalar" felyetonunda olduqca aydın və qabarıq şəkildə verilmişdir. Qəmküsar müvəqqəti hökumətin nümayəndələrini qarğalar adlandıraraq, onları tənqid edir və əməllərini kəskin satirik dillə ifşa edirdi. Xalqın min bir əziyyətlə çalışması, hökumətin isə eyş-işrət içində yaşaması və xalqın vəziyyətinə acımamasını, əksinə, gündən-günə daha ağır şərtlərin yaranmasını ürək ağrısı ilə qeyd edirdi. Bundan əlavə ölkənin başında olan qüvvələrin tez-tez dəyişməsi ilə bağlı vurğulayırdı ki, hardan bilmək olardı ki, bizim müsəlman milləti gündə bir səmtə meyil edib, gah menşevik, gah federalist, gah müsavatçı olacaq. Müəyyən müddət sonra felyeton "Molla Nəsrəddin" jurnalında dərc edilir və şairin elə ilk cümlədən müvəqqəti hökumətə qarşı münasibətini ortaya qoyduğunu görürük:

"Zağ çün şərm nədarəd, ki nəhəd pa bər gül,
Bülbülanra səzəd ər daməni xari girənd" [5, s. 149]

Şair bununla demək istəyir ki, bir zaman ki, qarğanın abır, həyası olmur, gülün üstünə qonur, bu zaman biçarə gülləyrə qalan tək əlac odur ki, tikanın ətəyindən yapışsınlar.

Başqa felyetonlarından birində Qəmküsar müvəqqəti hökuməti hökuməti-nitqiyyə adlandırır və bu hökumətin başçılarının boşboğaz olmasına kinayə ilə gülürdü. "Molla Nəsrəddin" ədəbi məktəbinin qayə və məqsədinə, məsləkinə uyğun olaraq, Əliqulu Qəmküsar köhnəliyi tənqid etmiş, yeniliyi, mədəniyyət və elmi isə yorulmadan təbliğ etmişdir. Şair hesab edirdi ki, xalqı din xadimlərinin təsirindən çıxarmadan, onu xoşbəxt görmək, azadlığa çıxarmaq mümkünsüzdür. Yaradıcılığı boyu yalançı, saxtakar din xadimlərini, mollaları qamçılayan şair 1917-ci ildə bu jurnalda dərc etdirdiyi "İstibdadi-ruhani" felyetonunda qeyd edirdi: "Mütləqiyyəti devirməklə iş bitmir, xalqın bundan daha da dəhşətli düşmənləri-ruhanilər durduqca bu zülm bitməyəcəkdir. Yaxşısı elə budur ki, indi vaxt var ikən başının çarəsinə baxsın. Necə ki, istibdadi-cismanini yıxıb, dağıtdın, istibdadi-ruhanini də dağıt ki, canın birdəfəlik qurtarsın. Yoxsa ki, istibdad elə istibdaddır. O olmasın, bu olsun" [5, s. 147].

Nəticə. Görkəmli mollanəsrəddinçi şairimiz Əliqulu Qəmküsar öz felyetonlarında onu dərindən düşündürən, qəlbini ağrıdan məsələlərə toxunmuş, xalqın ağrı-acısını özününküləşdirmişdir. Şair yalançı din xadimlərinin pul tələsinə çevirdiyi dini mərasimləri, ayinləri öz əsərlərində tənqid etmiş, bu yalanlara inanan sadəlövh xalqı isə oyanmağa, mariflənməyə çağırırdı. Eyni zamanda sənətkar bir qrup felyetonlarında xalqa zülm verən üsuli-idarəni də tənqid etmiş, onları öz üsulu ilə ifşa etmişdir. Qəmküsarın hər zaman önəm verdiyi məsələlərdən biri də ana dili məsələsi olmuşdur. Müəllif "Qatış-bulaş", "İrəvana səyahətim" kimi felyetonlarında ana dilimizin müstəqilliyini, sabitliyini, saflığını təhlükə altında qoyan, onun daxili qanunlarına, ruhuna, zidd, hər cür yad, zərərli təsirlərə qarşı dayanmadan mübarizə aparmış, öz şeirlərində, felyeton və satiralarında ana dilimizin normalarına əməl edərək, onun saflığını, gözəlliyini qorumağa çalışmışdır. Əliqulu Qəmküsarın yaradıcılıq yolu həyatı qədər keşməkeşli olmuş, lakin şair bütün çətinliklərə baxmayaraq, öz mübarizəsindən əl çəkməmiş, xalqımızın maariflənməsi və cəhalət yuxusundan oyanması üçün son nəfəsinə qədər əlindən gələni etmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Ağayev İ. Əliqulu Qəmküsar. Bakı: Elm, 1976, 118 s.
2. Əlimirzəyev X. Klassiklərimizin ideal və poetik sənət dünyası. Bakı: Elm və təhsil, II c, 2009, 667 s.
3. Əlimirzəyev X. Problemlər və xarakterlər dramaturgiyası. Bakı: Yazıçı, 1979, 354 s.
4. Hüseynov F. "Molla Nəsrəddin" və Mollanəsrəddinçilər. Bakı: Yazıçı, 1986, 277 s.
5. Qəmküsar Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 167 s.

UŞAQ ƏDƏBİYYATINDA MƏTBUATIN YERİ: DÜNƏN VƏ BU GÜN

Nərmin Qasımzadə*

Abstract

The place of the press in children's literature: past and present

The child press is chosen for its richness as one of the newest branches of the press. The child press has developed as a separate direction in Azerbaijan after the establishment of press organs. Intellectuals of the early 20th century believed in the success of this branch of the press in the path of education, hence they contributed to the successive establishment of child press organs. This article analyzes the history and development paths of the child press, as well as the current activities of child press organs. Attempts have been made to shed light on issues such as the difficulties facing the press today and the steps that should be taken to address them. At a time when innovation is flourishing, making innovations to increase young people's interest in reading, moving away from schematic texts, prioritizing development-oriented, information-rich texts and articles are considered appropriate.

Keywords: *the press, children's press, literature, "Maktab", "Dabistan", "Goyerçin".*

Giriş. Zəngin tarixi keçmişə malik Azərbaycan mətbuatı inkişafı boyunca novatorluqla yanaşı ənənələrə də sadiq qalmışdır. Milli mətbuatımızın ən böyük qollarından biri də uşaq mətbuatıdır. Azərbaycan uşaq mətbuatı XX əsrin əvvələrində formalaşmağa başlamışdır. Uşaq mətbuatının yaranmasında və inkişafında dövrün bir çox ədibləri iştirak etmiş, gələcəyimizin təminatçısı olan uşaqlar üçün sağlam mühit yaratmaqda əllərindən gələni etmişlər. Bu mətbuat gənc nəslin dünyagörüşünün inkişafına əvəzsiz xidmətlər göstərmişdir. Uşaq mətbuatının qarşısında dayanan əsas məsələ sadəcə informasiya vermək deyildir. Bu mətbuat sayəsində böyük bir qövm tərbiyələnməli, mənəvi cəhətdən zənginləşməlidir. Belə bir ağır missiyanı öz üzərinə götürən uşaq mətbuatı inkişafının hər mərhələsində bunun üçün çalışmış və istəyinə nail ola bilmişdir.

Əsas hissə. 1875-ci ildə "Əkinçi"nin işıq üzü görməsi ədəbi mühitdə yeni bir nəfəs, yeni bir cığırın yaranmasına təkan oldu. "Əkinçi"nin ətrafında toplaşan maarifpərvər ziyalılarımızı yeni üsullu məktəb, yeni tipli dərsliklər, dövrün tələblərinə uyğun uşaq əsərləri yazmaq məsələləri düşündürürdü. "Molla Nəsrəddin", "Zənbur", "Məzəli" və s. kimi realist ideyaları təbliğ edən nəşrlərlə yanaşı bu dövrdə "Dəbistan", "Rəhbər", "Məktəb" uşaq mətbuatı nümunələri işıq üzü görməyə başlayır. Yeni qəzet və jurnalların nəşrinə çalışıldığı bir zamanda "Dəbistan" adlı ilk uşaq jurnalının işıq üzü görməsi də yeni hadisə idi. Böyük maarifçi Əli İsgəndər Cəfərovun təşəbbüsü ilə 1906-cı ildə nəşrə başlayan "Dəbistan" jurnalının çap olunmasında əsas məqsəd uşaqları maarifləndirmək, onlarda biliyə maraq oyatmaq, onları elmin müxtəlif sahələri, o cümlədən Azərbaycan və dünya ədəbiyyatı nümunələri ilə tanış etmək idi. İlk uşaq jurnalı olan "Dəbistanın" nəşrinə başlanması ədəbiyyat dostları üçün həqiqi bayram idi. Həmin günlərdə jurnalın redaksiyasına oxuculardan, şagirdlərdən, mütərəqqi fikirli ziyalılardan təşəkkür məktubları gəlirdi. 1901-ci ildə Bakıda açılmış qız məktəbinin müəllimlərindən biri olan Şəfiqə xanım Əfəndizadə "Dəbistan" jurnalının məktəbli qızlar arasında yayılmasında böyük xidmətləri olmuşdur. Şəfiqə xanım Əfəndizadə Azərbaycan mətbuatında eləcə də gənclərin həyatında baş vermiş bu tarixi yeniliyi belə xatırlayır:

"1906-cı ilin yaz ayları idi. Mən uşaqları başıma yığıb Koroğlu dastanını danışırdım. Birdən qapı açıldı. Əlində əsa, qoca kişi fərəhlə içəri girdi. Onun sevincindən az qala gözləri yaşarmışdı. Uşaqlar Həsən bəyi görən kimi ayağa qalxdılar.

- Oturun, balalar! Bir görün sizin üçün nə gətirmişəm?! - deyib, qoltuğundan bükülü bir kağız çıxardı. Bu "Dəbistan" məcmuəsinin ilk nömrəsi idi.
- Şəfiqə xanım, bu faydalı məcmuədir. Bundan da qızlarımıza oxuyun - dedi" [1, s. 4].

"Dəbistan" məktəbli qızların məcmuəsi oldu. Jurnalın geniş və rəngarəng proqramı var idi. Jurnalın qarşısına qoyduğu əsas məqsəd uşaqların öz hallarına dair gülməli, ibrətamiz hekayələr çap

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: nerminqasimzade2002@gmail.com. Elmi rəhbər:*** *Dos. Səidə Nağıyeva.*

etmək idi. Onların əqil və dərrakələrini gücləndirmək, onlarda gözəl hisslər və təcrübələr yaratmaq məqsədi daşıyırdı" [1, s. 5].

"Dəbistan" jurnalında ayda 1 dəfə təlim-tərbiyə işində ailəyə kömək məqsədi ilə "Valideyinə məxsus vərəqə" adlı əlavə ilə nəşr olunurdu. Burada uşaqların tərbiyə olunması haqqında valideynlərə tövsiyələr verilirdi. Uşaqlara məxsus 2 həftədən bir nəşr olunan "Dəbistan" jurnalı millətimizin tərəqqi və təkamülünə xidmət edən mütərəqqi türk jurnalıdır."Dəbistan" jurnalının da ətrafında dövrün qabaqcıl ziyalıları toplaşmışdır. S.M.Qənizadə, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq jurnal səhifələrində müntəzəm olaraq uşaq ədəbiyyatı nümunələri ilə çıxış edirdilər. Firudin bəy Köçərli dostluğun dəyərini, qiymətini uşaqlara izah etmək üçün Vaqif və Vidadinin dostluğundan bəhs edən gözəl bir məqalə ilə "Dəbistan" jurnalında çıxış edir. "Dəbistan" məcmuəsində yalnız milli ədəbi nümunələr deyil, həmçinin rus və qərbi Avropa klassiklərinin – Lermantovun, Puşkinin, Qorkinin, Tolstoyun ibrətamiz əsərlərindən parçalar uşaqların ixtiyarına verilirdi.

Böyük təşəbbüslərə səbəb olmasına baxmayaraq "Dəbistan"ın ömrü uzun olmadı. Maddi sıxıntılar baxımından "Dəbistan" jurnalı 1908-ci ilin martın 10-da sonuncu nömrəsinin nəşri ilə fəaliyyətini dayandırdı.

Mahmudbəy Mahmudbəyovun təşəbbüsü ilə uşaq mətbuatına yeni nəfəs gətirən "Rəhbər" jurnalının cəmi 5 nömrəsi işıq üzü görməsinə baxmayaraq təlim və təhsilə, uşaqların saf dünyasına göstərdiyi təsirlə bu gün də adından bəhs etdirməyi bacarmışdır. "Dəbistan" və "Rəhbər"dən fərqli olaraq ömrü uzun olan "Məktəb" jurnalı ilk nəşrinə 1911-ci ildə başlamışdır. "Məktəb" jurnalı ilk nömrəsindən başlayaraq yeniyetmələrin təhsil, təlim və tərbiyəsinə xidmət edib. Jurnalın səhifələrində çap edilən əsərlərin əksəriyyətində elmin və məktəbin rolu təqdir olunub. Yeni nəslin tərbiyəsində yeni tipli məktəblərin tərbiyə üsulları inandırıcı boyalarla təbliğ edilib. "Məktəb" jurnalının səhifələrində müəllimlər, ədəbiyyat həvəskarları, maarifpərvər ziyalılarla bərabər, dövrünün tanınmış ədib və şairləri yaxından iştirak edib. "Məktəb" jurnalının ətrafında toplaşan müəlliflərdən S.S.Axundov, A.Şaiq, M.Mahmudbəyov, R.Əfəndiyev, Ə.S.İbrahimov və başqaları məcmuənin səhifələrində iftixarla çıxış etmiş, əxlaqi hekayələri ilə məktəblilərin həyatında rol oynamışlar. Dövrün satira və söz sənətkarı olan Mirzə Ələkbər Sabir 1911-ci ildə dünyadan köçsə də, o ömrünün son gününə qədər xalqının maariflənməsi üçün çalışmışdır. M.Ə.Sabirin ədəbi-bədii irsi "Məktəb"in səhifələrində təbliğ olunub. Yuxarıda adları çəkilən ədiblərlə yanaşı Hüseyn Cavidin, Cəfər Cabbarlının, Əli Nazimin şeirləri və bir sıra yazıları məcmuə səhifələrində çap olunmuşdur. "Məktəb" məcmuəsində toplanan şeirlərdə məktəb və təhsilin uşaqların həyatında rolu, təbiət gözəlləmələri, vətənə məhəbbət, böyüklərə hörmət kimi əxlaqi-mənəvi mövzular əks olunmuşdur. Həmçinin jurnalda dərc olunan hər bir məlumat şagirdlərin gözünü açmağa, onların yaxşını-pisdən, pisi-yaxşıdan ayırmaqları üçün istiqamətlənmiş, bunun yalnız elm yolu ilə əldə edilməsi mümkün olduğu ədəbi-bədii nümunələrlə oxucuların diqqətində saxlanılmışdır. "Məktəb" jurnalının ilk nömrəsində işıqlı gələcəyin carçılarından olan Məhəmməd Hadinin "Şüur" adlı şeiri çap olunmuşdur. Elmsizlik millətin bərbad və pərişan olmasına ən kəskin bir vasitədir deyən şair "Məktəb" səhifələrində aşağıdakı misralarla çıxış edir:

Korluqdan nə yetər aşiqi nur olmalıyıq
Tərk edib səfaləti əhli şüur olmalıyıq.
Açaraq can gözünü eylə tamaşa cahana
Laşüur yaşarsaq bizə əfsus oxuyun [1, s. 26].

Məhəmməd Hadi ilə yanaşı Əli Ülvinin jurnalın 1-ci nömrəsində dərc olunan "Çalışalım" adlı şeiri də maraq doğurur.

Ayrı gəzər çiçək əmər,
Quşlar uçar bir yem arar
Orman rəngdən-rəngə girər

Hər tərəfdə çalışmaq var [1, s. 26] - deyən müəllif təbiət və cəmiyyətdə olduğu kimi heyvanat aləmində də baş verən bu hadisəni nəzmə çəkir, uşaqların tənbəllikdən uzaqlaşması, onlara zəhməti sevdirmək üçün deyir:

Haydi, haydi çalışın!
Çalışmağa alışın

İrəlidə hər birimiz
İş sahibi olmalıdır.
Cənnət kimi hər yerimiz
Sevinc ilə dolmalıdır [1, s. 26].

Bu misralarla şair incə uşaq qəlbinə zəhmətə olan sevgi toxumlarını səpməyə çalışmış, onları gələcəyə səsləmişdir. Jurnal səhifələrində uşaq dünyasına bələd olan, uşaq ruhundan anlayan mütəfəkkirlər didaktik mövzulu hekayələrlə, şeir nümunələri ilə çıxış edirdi. İstər "Dəbistan", istər "Məktəb" istərsə də, bu gün dərc olunan uşaq jurnallarında uşaq psixologiyasına dərindən bələd olan, poetik zövqü formalaşmış sənətkarların əsərlərinə yer verilirdi. Uşaq psixologiyasına, uşaqların yaş xüsusiyyətlərinə hakim olmayan sənətkar uşaqlar üçün əsər yaza bilməz. Bu əsər sixematik və quru alınacaq, uşaqların dünyasına müsbət mənada təsir edə bilməyəcək.

Burada maarifpərvər, xalqının gələcəyi üçün çalışmış görkəmli sənətkar Cəlil Məmmədquluzadənin bir xatirəsi yada düşür. Bir gün cavan qələm sahibi özündən razı halda Mirzə Cəlilə deyir: "Mirzə, necə məsləhət görürsən, istəyirəm ki, mən uşaqlar haqqında bir kitab yazam?"

Gənc qələm sahibinin təkəbbürü Cəlil Məmmədquluzadənin xoşuna gəlmir. O, incə bir yumorla soruşur ki, bala, mən başa düşə bilmirəm, məgər uşaqlardan uşaqlar yazırlar? Mirzənin bu sualının altında dərin məna yatır. Doğrudan da, uşağın diqqətini cəlb eləyən, onu maraqlandıran əsərlər yazmaq üçün ilk növbədə körpələri yaxından tanımaq, onların arzu və düşüncələrini, yaş səviyyələrini bilmək və nəzərə almaq zəruridir. Bir faktı xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan uşaq ədəbiyyatının ilk nümunələrini yaradan, bu ədəbiyyatın formalaşmasında xidməti olan yazıçıların əksəriyyəti ixtisasca müəllim, pedaqoq, tərbiyəçi, maarifpərvər ziyalılar olmuşlar.

Sonralar Sovet hakimiyyətinin Azərbaycanda bərqərar olması bütün sahələrə olduğu kimi ədəbiyyata da təsirsiz ötüşmür. Bu təsir mətbuatdan və onun bir parçası olan uşaq mətbuatından da yan keçmir. Sovet hakimiyyətinin uşaq mətbuatı istiqamətində ilkin addımlar 1926-cı ildə Bakı şəhər komsomol təşkilatının konfransı zamanı bir qrup fəal məktəbli tərəfindən atılmışdır. Onların səyi nəticəsində "Pioner" adlı uşaq mətbu orqanı tarixin səhifələrində özünə layiqi yerini tapdı. Lakin "Pioner" jurnalı Sovet Azərbaycanında yeganə uşaq mətbu orqanı olmadı. Onun ardınca "Azərbaycan pioneri" qəzeti də mətbu orqanlar sırasına qoşuldu. "Dəbistan", "Məktəb" kimi uşaq mətbuatının varisi olan "Azərbaycan pioneri" qəzeti 1938-ci ilin avqust ayının 1-də işıq üzü gördü. Qəzetin müxtəlif illərdə tirajı 400 min, bəzən isə yarım milyonu keçib və ölkənin ən çox tirajlı nəşrlərindən sayılırdı. Qəzet fəaliyyət göstərdiyi illər ərzində uşaqların hərbi-vətənpərvərlik tərbiyəsi ilə bağlı yazılarla müntəzəm çıxış etdi, idman və vətənpərvərlik mövzularında ölkə miqyaslı tədbirlərin təşkilində fəallıq göstərirdi. 1990-cı il 20 yanvar hadisələrindən sonra redaksiya heyətinin qərarı ilə qəzetə "Savalan" adı verilir və bu adla nəşr olunmağa başlayır. Bu gün "Savalan" qəzeti dövlət büdcəsi tərəfindən maliyyələşən 3 qəzetdən biridir.

Hal-hazırda müstəqil Azərbaycanda uşaqlar üçün "Göyərçin", "Tumurcuq", "Elli", "Xurcun", "Bala dili", "Göyqurşağı", "Yuva", "Savalan" kimi qəzet və jurnallar dərc olunur. Bunlardan "Göyərçin" . "Tumurcuq", "Savalan"-ın nəşri dövlət büdcəsi tərəfindən maliyyələşir. Uşaqların sevimlilərindən olan "Tumurcuq" qəzeti digərlərinə nisbətdə daha gəncdir. 1996-cı ildə nəşrə başlayan bu qəzet ilk latın qrafikalı mətbuat orqanı hesab edilir. "Tumurcuq"-un işıq üzü görməsinə xalq şairi B.Vahabzadə və Xalq yazıçısı Anar vəsilə olmuşdur. Qəzetdə türk, ingilis, rus dillərində uşaq ədəbiyyatı nümunələri nəşr edilir. Dərc edilən materialların digər dərsliklərdə olmaması onların sinifdənxaric oxu materialları kimi məktəblilərə təqdim edilməsinə kömək olur. Həmçinin qəzetdə tez-tez folklor nümunələrinə də müraciət edilir.

Bu gün nəşr olunan jurnallardan biri də "Xurcun"-dur. "Xurcun" jurnalı öz rəngərəng tərtibatı ilə digərlərindən fərqlənir. Uşaqlar üçün nəzərdə tutulan bu jurnalda "Xurcunumuzdakı xəbərlər" adlı başlıqda uşaqların diqqətini çəkəcək mədəniyyət xəbərləri dərc olunur. Bununla yanaşı "İzlə" adlı başlıqda isə teatrla bağlı afişalar və məlumatlar əks olunur. Həmçinin "Təqvim yarpağı" adlı səhifədə jurnalın dərc olunuduğu ayda dünyaya gələn görkəmli şəxsiyyətlərin siyahısı verilir ki, bunların hər biri uşaqların yaradıcı və məntiqi təfəkkürünün inkişafına xidmət edir.

Novatorluqla ənənələrin sintezini özündə cəmləşdirən, 1958-ci ildən pərvazlanmağa başlayan "Göyərçin" ədəbi-bədii jurnalı illərin sınağından çıxaraq bu gündə oxucularının görüşünə gəlir. Jurnalın baş redaktoru Rafiq Yusifoğlu müsahibələrinin birində "Göyərçin"-i uşaq ədəbiyyatının sehirli xəzinəsi adlandırır. Həmçinin əlavə edir ki, "Müstəqillik illərində də "Göyərçin" jurnalı əvvəlki illərin ənənələrini qoruyub saxlaya, onu günün tələblərinə uyğun səviyyədə inkişaf etdirə bilib. Bu illərdə "Göyərçin"də uşaq ədəbiyyatı ilə ciddi şəkildə məşğul olan şair və yazıçılarımızın ən yaxşı əsərlərini çap eləməyə çalışmışıq. Dünya uşaq ədəbiyyatı nümunələrinin tərcüməsi və nəşri də diqqət mərkəzində saxlanılıb" [9].

"Göyərçin" jurnalının özünəməxsusluğundan biri də jurnalda uşaqların fərdi yaradıcılığına yer verilməsidir. Yazılarının jurnal səhifələrində dərc edilməsi həssas uşaq qəlbinə bir çıraq olub, onların elmə, ədəbiyyata, yaradıcılığa və ən əsası mütaliəyə olan marağını artırır. "Göyərçin" jurnalının adından bəhs ediləndə bəzən onun haqqında "ikinci əlifba" ifadəsi işlənir. Bu ifadənin işlənməsi əbəs yerə olmamış, jurnalın həqiqətən dərs vəsaiti və əlifba adına layiq olduğunu oxucular da təsdiqləmişdir. Uşaqların oxu vərdişlərinin inkişaf etdirilməsində bu dərginin rolu böyükdür. Jurnalın çapı əsasən I-IV sinifləri əhatə etsə də, uşaqdan böyüyə hər kəsin marağını cəlb etməyi bacarmışdır. Ayda 1 dəfə dərc olunan bu jurnal oxucularının qarşısına hər nüsxədə yeniliklərlə gəlir. "Göyərçin" jurnalının sevilərək oxunmasına səbəblərdən biri də dərginin rəssamlıq işinin uğurlu olmasıdır. Hər səhifəsində ayrı dünya yaradan rəssamlar oxucu zövqünü oxşamaq ənənəsini bu gün də uğurla davam etdirir.

Ayda 1 dəfə dərc olunan jurnalın 1 il ərzində 12 nömrəsi işıq üzü görür. Hər bir nömrədə ayrı-ayrı başlıqlar altında oxucular üçün maraqlı olan nağıllar, şeirlər, məntiqi təfəkkürü inkişaf etdirəcək oyunlar, rəngləmələr nəfis tərtibatla dərc edilir. 2024-cü ilin yanvar ayında işıq üzü görən "Göyərçin"-in birinci nömrəsində jurnalın redaktoru Rafiq Yusifoğlunun "Ay təzə il, xoş gəlmisən" adlı şeiri ilə qarşılaşırıq. Digər səhifələrdə isə Qarabağı dilbər guşələri olan Xocavənd, Ağdərə, Xankəndiyə həsr edilmiş eyniadlı və "Gözün aydın, Qarabağ" adlı şeir oxucuların ixtiyarına verilmişdir. Vətənpərvərlik ruhunda yazılan bu şeirlər məktəbyaşlı uşaqların tərbiyəsində, onlara vətənə məhəbbət hissinin aşılanmasında önəmli addımdır. Dərginin "Sizin sevimli şairləriniz və yazıçılarınız" başlığı altında Azərbaycanın ensiklopedik biliyə malik olan maarifpərvər yazıçısı Abbasqulu Ağa Bakıxanovun 230 illik yubileyinə həsr edilmişdir. İlk olaraq oxuculara Abbasqulu ağa Bakıxanovun həyatı və yaradıcılığı haqqında yığcam məlumat verilmiş, yaradıcılığında yer alan "Uşaq və günəş" adlı şeirdən bir parça və onun "Nəsihətlər" adlı əsərində yer alan çox önəmli nəsihətlərdən bəziləri balaca oxucular üçün dərgi səhifələrində dərc edilmişdir. Xəlil Rzanın "Duz dağı", "Naxçıvana gəl" adlı şeirləri də burada öz əksini tapıb. "Nağıl vaxtı" adlı başlıqda isə Altay xalq nağılı olan "Acgöz meşəxoruzu" və Azərbaycan nağılı olan "Xəbis vəzir" dərc edilmişdir. İbrətamiz və tərbiyəvi əhəmiyyət kəsb edən bu nağıllar uşaqlarda oxuduqları nağılın aid olduğu xalqın həyatı, məişəti, adət-ənənələri, mədəniyyəti haqqında təsəvvür oyadır. Həmçinin dərgidə "Bilik klubu" adlı başlıqda var ki, burada uşaqlara maraqlı ola biləcək faktlar əks olunur. "Göyərçin"-in birinci nömrəsində saat haqqında bilmədiyimiz 20 maraqlı fakt verilmişdir ki, bu da uşaqların dünyagörüşünün inkişafına təkan məqsədi daşıyır. Jurnalın sonlarına doğru oxucular üçün oyunlar, rəngləmələr də verilmişdir. Bütün bunlar balacaların əylənərək öyrənməsi məqsədi ilə edilir.

Nəticə. Uşaqların hərtərəfli inkişafı etməsi üçün ölkənin bütün mətbuat orqanları əllərindən gələni edir, oxucu zövqünü formalaşdırmağa və oxucuları mütaliəyə cəlb etməyə çalışır. Bu zaman ortaya belə bir sual çıxır "Bütün bu edilənlər uşaqların mütaliəyə olan marağını artıra bilirmi?"

Təəssüflə qeyd etməliyik ki, müasir dövrdə istər azyaşlı, istərsə də məktəbyaşlı uşaqları müaliəyə cəlb etmək bu gün o qədər də asan deyil. İnternetdən istifadənin bu qədər əlçatan olması uşaqların saatlarla "vaxt itirib" kitab oxuması və oradan özləri üçün yeni bir məlumat əldə etməsini çətinləşdirir. Uşaqların kitaba, jurnala, qəzetə marağının yaranması ilk olaraq ailədən başlamalıdır. Mütaliəyə maraq ailə və məktəbin qarşılıqlı fəaliyyəti ilə oyadıla bilər. Bununla yanaşı fikrimcə, uşaqlar üçün inkişafetdirici televiziya verilişləri hazırlanmalıdır. Gələcəyin təminatçısı olan uşaqların inkişafı cəmiyyətin hər bir yerində təmin edilməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Bəktaşi.İ.H XX əsr uşaq mətbuatında ədəbiyyat Bakı: 1965, 44 s.
2. https://www.anl.az/down/meqale/sherq/2017/may/543130.htm
3. https://www.anl.az/down/meqale/sherq/2013/yanvar/290549.htm
4. https://medeniyyet.az/page/news/20341/%C2%ABTumurcuq%C2%BB-usaqlarin-sevimli-qezeti-.html
5. https://medeniyyet.az/page/news/20319/Usaq-metbuati:-ne-var-ne-yox.html
6. https://525.az/news/246705-usaq-metbuati-ve-onun-problemleri
7. https://www.anl.az/down/meqale/edebiyyat/2011/yanvar/152757.htm
8. https://yeniazerbaycan.com/Siyaset_e6240_az.html
9. https://edebiyyatqazeti.az/news/incesenet/5764-goyercin-jurnali-sehrli-bir-usaq-edebiyyati-xezinesidir

FRANS KAFKA ƏSƏRLƏRİNİN TƏRCÜMƏ PROBLEMLƏRİ

Nigar İsmayılova*

Abstract

Problems of translation of Frans Kafka's works

First of all, the article talks about the work of Franz Kafka and the translation problems of Franz Kafka's works. The works of the 20th century writer Franz Kafka have been translated into various languages. Since the language of his works is German, some words have several meanings in this language. Franz Kafka masterfully used these meanings: The translation of Franz Kafka's works has its own difficulties. The reasons for these difficulties are clearly explained. The differences that arise during the translation of Franz Kafka's works into different languages are shown with examples in three languages, namely German, Arbaijan and English.

One of the most influential figures in 20th century literature, Franz Kafka made a lasting impact with his surreal and existential writings. His works, written mainly in German, explore complex themes such as alienation, existential anxiety, guilt and absurdity. Translating Kafka's works into other languages poses unique challenges and illuminates the complex relationship between language, culture, and literary translation.

Keywords: *Franz Kafka, translation, problem, style, work.*

Giriş. Franz Kafka 3 iyul 1883-cü ildə Avstriyanın Bohemiya əyalətində anadan olmuş, 3 iyun 1924-cü ildə Avstriyanın Krilenq şəhərində vəfat etmişdir. Franz Kafka Julie Lövi və tacir Hermannın oğludur. Hermann yəhudi qəssab Yakob Kafkanın dördüncü oğludur.

Kafka maksimalist yazısını mümkün olan ən yüksək mərtəbəyə çatmaq mübarizəsini qeyri-mümkünə qarşı mübarizəsi təmsil edirdi. Kafka öz yaratdığı bütün yazılardan, məktublardan daim narazılıq edirdi. Əsərlərinin parça-parça olmağı, başlıq hissələrinin olmama səbəbi budur. Yazmaq onun üçün həm ən gözəl nemət, həm də lənət idi. Bütün yaradıcılıq boyu onun fəaliyyəti məhsuldar və faydasız dövrlərdən, qismən məmnunluq və narazılıq, yüksək qabiliyyət və əlillik dövrlərindən keçmişdir. Kafkanın əsərlərini şərh edən və tədqiq edən insanlar onun əsərlərindən və özündən narazılıq hislərinin səbəblərini müəyyən etməkdə çətinlik çəkmişdirlər. Redaktorlar müəyyən perioddan sonra Kafkanın məhv etmədiyi əsərləri çap etdikdən sonra onun üstündən xətt çəkdiyi əsərləri də çap etməyə başlamışdırlar. Yazmaq Kafka üçün davamlı düşünmək mövzusu idi.

Kafla özünü yazıçı hesab etmirdi. O, yazıçıları mütəmadi olaraq yazan, hətta yazmaqla dolanışığını təmin edən peşəkarlar adlandırırdı. O, ədəbi məhsuallarını həmişə "yazmaq" adlandırırdı. Yazmaq həvəsi onda həyatında can atdığı digər mövzulara qarşı marağını itirməyinə səbəb oldu. Yazmaq fikri onda evlilik, uşaq sahibi olmaq, iş uğur əldə etmək kimi məqsədlərdən uzaqlaşdırdı. Onun ailəsinə olan yaxın təması, işini atmaqda risk edə bilməməsi eyni zamanda da sadəcə yazmaq istəməyi onu ikili həyat sürməyə məcbur etdi. Ofis onun üçün daim işgəncəyə çevrildi.

Kafkanın ədəbi üslubu çox sıx və müəmmalıdır. Onun dili dəqiq, lakin qeyri-müəyyəndir, mürəkkəb metaforalarla və geniş yayılmış qəribəlik hissi ilə doludur. Bu üslub qəribə və ya sürrealist çətinliklər və məntiqsiz və ya kabus ssenariləri ilə xarakterizə olunan Kafkaesk təcrübəsinə xasdır. Onun "Metamorfoz", "Məhkəmə" və "Qala" kimi ən məşhur əsərləri onun bənzərsiz hekayə texnikasının əsas nümunələridir ki, bu da tez-tez oxucuları həm valeh edir, həm də çaşdırır.

Kafkanın mətnləri çox vaxt qeyri-müəyyənlik üzərində inkişaf edir və onun işinin şərh zənginliyinin çoxu bu keyfiyyətdən qaynaqlanır. Tərcüməçilər müəyyən bir şərhə meyl etmədən çoxlu məna qatlarını qorumaq kimi çətin bir vəzifə ilə üzləşirlər. Hər bir dil belə bir tapşırıq üçün müxtəlif alətlər və məhdudiyyətlər təklif edir, bu da tərcüməçinin rolunu təkcə linqvistik deyil, həm də ədəbi problemə çevirir.

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: nigarismayılova2001@gmail.com. Elmi rəhbər:*** *Prof. Cəlil Nağıyev.*

Kafkanın yəhudi mənşəyi və Mərkəzi Avropa təsirləri onun alman yazılarına incə şəkildə toxunmuşdur. Başqa dildə eyni məzmun daşıyan söz və ifadələri seçərkən bu mədəni təbəqə nəzərə alınmalıdır. Məsələn, "Metamorfoz"da Qreqor Samsanı təsvir etmək üçün istifadə edilən "Ungeziefer" alman sözü təkcə həşərat mənasını vermir; o, tarixən alçaldıcı və aradan qaldırılmağa layiq bir şeyə işarə edir, bu nüansa Qreqorun yaşadığı dəhşəti və yadlaşmanı tam qavramaq üçün çox vacibdir.

Əsas hissə. Onilliklər ərzində Kafkanın əsərləri bir çox dillərə tərcümə olunub, hər biri mətnlərə öz ləzzətini və şərh bucaqlarını gətirir. Bunlar arasında Willa və Edwin Muirin 1930-cu illərə aid ingiliscə tərcümələri diqqətəlayiqdir. Bu tərcümələr oxunaqlılığı və zərifliyi üçün təriflənsə də, Kafkanın daha mürəkkəb və ya yöndəmsiz alman ifadələrini hamarlaşdırdığına görə tənqid olunur, onun bəzi qəsdən yöndəmsizliyini və nəsrindəki kəskinliyi sulandırır.

Michael Hofmann və Mark Harmanın daha yeni tərcümələri oxucuları orijinal mətnlərin narahatedici təsirinə yaxınlaşdırmaq məqsədi ilə Kafkanın stilistik qəribəliklərini əhatə edən və vurğulayan versiyalar təklif etməklə bu problemləri həll etməyə çalışıb.

20-ci əsr ədəbiyyatının qüdrətli siması olan Frans Kafka öz ekzistensial və sürreal povestləri ilə dünyada silinməz iz qoyub. Əsasən alman dilində yazan Kafkanın yaradıcılığı özgələşmə, bürokratik absurdluq və insan varlığının çox vaxt kabus kimi görünən incəliklərinin dərin mövzularını araşdırır. Əsərləri bir əsr əvvəl qələmə alınsa da, əsasən müxtəlif dillərə tərcümələri sayəsində dünyanın hər yerindən oxucular arasında rezonans doğurur. Kafkanı tərcümə etmək isə heç də sadə deyil. O, hər bir tərcüməni Kafkanın düşündürücü ədəbi mənzərəsinə bənzərsiz bir pəncərə halına gətirərək, dil dəqiqliyi, mədəni nüans və təfsir dərinliyinin mürəkkəb qarşılıqlı təsirini əhatə edir.

Vasvası quruluşu və müəmmalı məzmunu ilə seçilən Kafka nəsri tərcüməçilər üçün ciddi problemlər yaradır. Onun hekayələri və romanları, xüsusən də “Metamorfoz”, “Məhkəmə” və “Qala” - həm hərfi, həm də metaforik məqsədlərə xidmət edən mürəkkəb hüquqi və bürokratik jarqonlarla zəngindir və oxucuların və alimlərin davam etdirdikləri məna labirintini yaradır. naviqasiya etmək. Kafkanın yazılarının mahiyyəti onun narahatedici qeyri-müəyyənliyi təşviq etmək bacarığındadır. Adi olanı absurdla birləşdirən povestlər vasitəsilə Kafka öz qəhrəmanlarının ekzistensial qorxusunu ələ keçirir, oxucunu psixoloji və situasiya çətinliyi ilə əhatə edir.

O, Kafkanın əsərlərini tərcümə etməkdə çətinlik çəkməsi onun özünəməxsus üslubunu və onları müəyyən edən geniş narahatlıq hissini qorumaq ehtiyacından irəli gəlir. Kafkanın alman dili məşhurdur, təmiz, lakin qeyri-şəffafdır, ritmi və sintaksisi tez-tez birbaşa tərcüməyə ziddir. Onun cümlələri, personajlarının hiss etdiyi psixoloji və ekzistensial ağırlığı əks etdirən gərginliklə dolu bənd ardınca uzana bilər. Bu sintaktik mürəkkəblik sadəcə üslub seçimi deyil, həm də oxucunu mətnin daxili məntiqinə qovuşduran, onun personajlarının keçdiyi dolambaclı yolları əks etdirən povest vasitəsidir. Buna görə də tərcüməçi təkcə dildə deyil, həm də Kafkanın qurduğu labirint strukturlarında naviqasiya etməli, bu üslub çalarlarının qorunub saxlanmasını və ya hədəf dildə uyğun şəkildə əks olunmasını təmin etməlidir.

Bundan əlavə, Kafkanın dildən istifadəsi çox vaxt onun hekayələrinin nəticələrini tam dərk etmək üçün əsas olan daha dərin, mədəni spesifik çalarları daşıyır. Məsələn, Kafkanın yəhudi mənşəyi və 20-ci əsrin əvvəllərində Mərkəzi Avropanın ictimai-siyasi konteksti onun əsərlərinə incə şəkildə nüfuz edir. Onun seçdiyi sözlər və ifadələr digər dillərdə və ya mədəniyyətlərdə birbaşa ekvivalenti olmayan tarixi və ictimai təsirlərlə doludur. Bu mədəni tərcümə sadəcə sözlərdən kənara çıxaraq, Kafkanın müasirlik, identiklik və yadlaşmanın mürəkkəbliklərini əks etdirən povest mühitlərinin öz toxumasına qədər uzanır.

Bu incəlikləri nəzərə alsaq, Kafkanı tərcümə etmək texniki bacarıq olduğu qədər də sənətdir. Hər bir tərcüməçi Kafkanın mətninə ehtiram və qorxu qarışığı ilə yanaşır, yaxşı bilir ki, onların şərhləri bütün dünya üzrə yeni oxucuların Kafkanın dahiliyini necə başa düşəcək və qiymətləndirəcəyinə təsir edəcək. Bu vəzifə çətin olsa da, Kafkanın ədəbi irsini yaşatmaq, ona dil sərhədlərini keçmək və beynəlxalq oxucu kütləsini ilhamlandırmaq və meydan oxumaqda davam etmək üçün çox vacibdir.

Kafkanı tərcümə etməyin çətinliklərini və incəliklərini araşdırarkən biz bədii tərcümənin orijinal mətnə sadiq qalmaqla onu qlobal auditoriya üçün əlçatan və rezonanslı etmək arasındakı incə tarazlığı vurğulayan maraqlı aspektini araşdırırıq. Bu kəşf təkcə Kafkanı anlamaq deyil, dilin mədəniyyət, məna

və kimlik gəmisi kimi daha geniş təsirlərini qiymətləndirmək üçündür. Beləliklə, Kafkanın əsərinin hər bir tərcüməsi sadəcə olaraq onun povestlərini təkrarlamır, əksinə onları yenidən şərh edir, onun ədəbi töhfələri haqqında davam edən qlobal söhbətə töhfə verən yeni fikirlər və perspektivlər təklif edir.

Frans Kafkanı tərcümə etmək, ekzistensial mövzuların və mürəkkəb povest strukturlarının dərin dərinliklərini araşdırmaq üçün adi dil maneələrindən kənara çıxan nəhəng bir problem təqdim edir. Kafkanın mahiyyətcə qeyri-müəyyən və mürəkkəb laylı yazıları orijinal mətnə sədaqətlə hədəf auditoriyanın dil və mədəni həssaslıqlarını tarazlaşdıran tərcümə yanaşması tələb edir. Kəşfiyyatımızın bu hissəsi Kafkanın almancasının dil xüsusiyyətlərinə, tərcüməçilərin strateji seçimlərinə və mədəni kontekstlərin qaçılmaz təsirinə nəzər salır.

Kafkanın alman dilini bilməsi təkcə mükəmməl deyil, həm də üslub baxımından fərqlənirdi. Onun uzunsov cümlələri və iç-içə cümlələri ilə çox vaxt labirint xarakterli nəsri personajlarının psixoloji durumlarını əks etdirən disorientasiya və klostrofobiya hissi yaradır. Məsələn, "Məhkəmə" əsərində baş qəhrəman Josef K. Kafkanın sıx, bürokratik jarqon və həm xarakter, həm də oxucunu eyni şəkildə tələyə salan mürəkkəb dialoqlar vasitəsilə vasvasılıqla qurduğu çaşqın hüquqi kabusu yaşayır.

Dil inkişaf etdikcə və yeni nəsil oxucular Kafkaya gəldikcə, onun əsərlərinin tərcüməsi vəzifəsi uyğunlaşmağa davam edəcək. Gələcək tərcüməçilər təkcə mətn və kontekstual uyğunluğu deyil, həm də Kafkanın mövzularının müasir auditoriya üçün əlçatanlığını nəzərə almalıdırlar. Bu o deməkdir ki, tərcümədə Kafka heç vaxt hazır məhsul olmayacaq, cəmiyyətdə, mədəniyyətdə və texnologiyada baş verən dəyişiklikləri əks etdirən canlı, inkişaf edən dialoq olmayacaq.

Üstəlik, rəqəmsal dövr Kafkanın əsərlərinin tərcüməsi üçün yeni imkanlar və problemlər yaradır. Onlayn platformalar və rəqəmsal nəşrlər onun yazılarının əhatə dairəsini artırır, yeni şərhlər yarandıqca daha tez-tez yeniləmələrə və düzəlişlərə imkan verir. Rəqəmsal alətlər həmçinin tərcüməçilərə işlərində kömək edə bilər, onlara Kafkanın dilinin mürəkkəbliklərini daha dəqiq və dərk edərək idarə etməyə kömək edir.

Nəhayət, Kafkanın tərcüməsi ədəbiyyatın aktual və yeni auditoriya üçün əlçatan olması zərurəti ilə tarixi və mədəni orijinallığın qorunub saxlanmasını balanslaşdırmaq üçün bir məşqdir. Hər bir yeni tərcümə Kafkanın anlayışına laylar əlavə edərək, onun əsərlərinin keçmişin statik qalıqları deyil, canlı, canlı mətnlər olduğunu göstərir. Beləliklə, Kafkanı tərcümə etmək davamlı vəzifəsi təkcə onun irsini qoruyub saxlamır, həm də əsərlərinin hər bir yeni nəsil tərəfindən davamlı olaraq yenidən kəşf edilən və yenidən şərh edilən qlobal ədəbi söhbətin mühim hissəsi olaraq qalmasını təmin edir.

Davam edən bu prosesdə Kafkanın əsərləri mədəniyyətlər və dövrlər arasında körpü rolunu oynayır, ədəbiyyatın orijinal kontekstini aşmaq və ümumbəşəri insan vəziyyəti ilə danışmaq gücünü xatırladır. Tərcüməçilərin çalışqan və düşünülmüş işi sayəsində Kafka təkcə keçmişin yazıçısı kimi deyil, həm də ekzistensial sorğunun və introspektiyanın daimi səsi kimi yaşayır.

Müxtəlif nəşriyyatlar Frans Kafkanın əsərlərini tərcümə edib. Onun xüsusilə məşhur əsərləri dünyanın bir çox müxtəlif nəşriyyatları tərəfindən nəşr edilmişdir. Məsələn, İngilis dili tərcümələri üçün Penguin Classics, Vintage Books, Schocken Books; Fransızca tərcümələr üçün bax Gallimard, Le Livre de Poche; Alianza Redaksiya, İspan tərcümələri üçün Debolsillo; Alman tərcümələri üçün Fischer Verlag və Suhrkamp Verlag kimi nəşriyyatlar mühüm tərcümələr həyata keçiriblər.

Frans Kafkanın bir çox əsərləri Azərbaycan dilinə tərcümə edilərək nəşr edilmişdir . Frans Kafkanın əsərlərini Azərbaycan dilinə "Qanun", "Adiloğlu", "Azərprint" kimi nəşriyyatlar nəşr etmişdir. Frans Kafkanın pritçaları ilk dəfə Azərbaycan dilində 2010-cu ildə "Şərq-Qərb" nəşriyyatının çap etdiyi " Seçilmiş əsərlər"də görünür. Burada Frans Kafkanın yeddi pritçasına rast gəlirik.

2014-cü ildə yazıçının əsərləri "Vəsiyyət" toplusunda çap edilir. Bu kitaba yazıçının "Çevrilmə", "Hökm" novellaları, pritçaları, söhbətləri daxildir. Kitab "Qanun" nəşriyyatı tərəfindən çap edilib.

Frans Kafkanın tərcümə edilən pritçalarından biri "Ev yolu" pritçasıdır. Pritça müxtəlif dillərdə, müxtəlif şəkillərdə tərcümə edilmişdir. Müxtəlif nümunələr əsasında tərcümə fərqlərini görmək mümkündür. Məsələn:

Alman dilində:

"Men seher die Überzeugungskraf der Luft nach dem gewritter! Meine Verdienste erscheinen mir und überweltigen mich, wenn ich mich auch nicht streube" [3, s. 11] (Fırtınadan sonra havanın

inandırıcı gücünə baxın! Mənim ləyaqətim mənə görünür və müqavimət göstərməsəm də məni alt-üst edir.)

İngilis dilində:

"See what a persuasive force the air has after a thunderstorm! My merits become evident and overpower me, though I don't push up any resistance, I grant you" [1, s. 234] (Görün tufamdan sonra havanın nə qədər inandırıcı gücü var! Mənim ləyaqətim üzə çıxır və mənə qalib gəlir, baxmayaraq ki, heç bir müqavimət göstərməsəm ,sizə icazə verirəm.)

Azərbaycan dilində:

"Tufandan sonra havanın inandırıcılıq gücü görünür. Lovğalansam da, xidmətlərim mənə bəllidir və məni çuğlayır" [7, s. 567].

Bu tərcümələr arasındakı fərq bəllidir. Əsas fərq isə alman və ingilis dilində birinci cümlə nida, Azərbaycan dilində isə nəqli cümlə şəklindədir.

Alman dilində:

"İch marschiere und meine Tempo ist das Tempo dieser Gassenseiter , dieser Gasse, dieser Viertels" [3, s. 6] (Mən gedirəm və mənim tempim bu tərəfin, bu küçənin, bu məhəllənin tempidir.)

İngilis dilində:

"I stride along and my tempo is the tempo of all my side of the street, of whole street, of the whole quarter" [1, s. 235] (Mən addımlayıram və mənim tempim küçənin bütün tərəfinin, bütün küçənin , bütün məhlənin tempidir.)

Azərbaycan dilində:

"İrəli addımlayıram, sürətim küçənin bu tərəfinin,bu küçənin,bu məhəllənin sürətidir'' [7, s. 587].

Burada əsas fərq alman dilindəki "dieser" sözündədir. Bu söz almanca "bu" mənasınə ifadə etsə də ingilis dilində tərcümədə "whole", yəni "bütün" sözü istifadə edilmişdir.

Alman dilində:

"Es hilft mir nicht viel, dass ich das Fenster genzlich öffne und dass einem Garten die Musik noch spielt" [3, s. 16] (pəncərəni tam açmağım və hələ də bağda musiqinin səslənməsi mənə çox kömək etmir.)

İngilis dilində:

"İt doesn't help me much to open the window wide and hear music still playing in a garden" [1, s. 231.] (Pəncərəni geniş açıb bağda hələ də çalan musiqini eşitmək mənə çox kömək etmir.)

Azərbaycan dilində:

"Pəncərəni tam açmağım və bağda çalınan musiqi də mənə bir o qədər kömək etmir" [7, s. 587]

Bu tərcümələr arasındakı əsas fərq alman dilindəki "genzlich" sözüdür. Alman dilində bu söz "tam" , "bütov" , "bütövlükdə" mənalarını verir və azərbaycan dilində də "tam" sözü istifadə edilmişdir. İngilis tərcüməsində isə "wide", yəni "geniş" mənasını verən söz istifadə olunub.

Frans Kafkanın azərbaycan dilinə tərcümə edilən digər əsəri "Rədd cavabı" pritçasıdır. Pritça 2006-cı ildə Yusif Savalan tərəfindən tərcümə olunub. Əsərin 3 dildə də, yəni alman, ingilis və azərbaycan dilindəki tərcümə fərqlərinə baxaq. Məsələn:

Alman dilində:

"Also,ich bitte, warum soll ich,ein schones Madsche ,mit

Dia gehn?" [3, s. 15] (Ona görə soruşuram ki, mən gözəl qız, sənlə niyə getməliyəm?)

İngilis dilində:

"So why? Pray, should a beautiful girl like myself go with you?" [1, s. 211] (Elə isə dua et, mənim kimi gözəl bir qız sənlə niyə getsin?)

Azərbaycan dilində:

"Elə isə mən, gözəl bir qız, nə üçün sənlə getməliyəm?" [7, s. 544]

Digər nümunə;

Alman dilində:

"Ja wir haben beide recht und, um uns dessen nicht underleglich bewusst zu werden, wollen wir, nicht wahr, lieber jeder allem nach Hauss gehn" [3, s.4] (Bəlkə ikimiz də haqlıyıq və təkzibedilməz şəkildə xəbərdar olmamaq üçün evə getməyi üstün tuturuq.)

İngilis dilində:

“Yes,we are both right,and to keep us from being irrevobably aware of it, isn’t it better that we rather just go our own way home?” [1, s. 234]

(Bəli, ikimiz də haqlıyıq və bundan dönməz şəkildə xəbərdar olmamaq üçün evə öz yolumuza getməyimiz daha yaxşı deyil mi?)

Azərbaycan dilində:

“Hə, hər ikimiz haqlıyıq və bunu özümüz üçün dəqiq aydınlaşdırmağımızdan ötrü , yaxşısı budur, gəl-elə deyil mi? Hərə öz evinə getsin?” [7, s. 564]

Həm alman, həm də ingilis dilində bu vəziyyətdən xəbərdar olmamaq tərzində tərcümə edilib, lakin azərbaycan dilində situasiyanı “aydınlaşdırmağımızdan ötrü” sözü ilə əvəz edilmişdir.

Nəticə və elmi yenilik. Kafkanın əsərinin qlobal şəkildə qəbul edilməsi onun tərcümələrinin təqdim etdiyi əlçatanlığa çox borcludur. Fərqli şərhlər bəzən tərcümə tədqiqatlarında sədaqətlə şəffaflıq, yerliləşdirməyə qarşı əcnəbiləşmə və tərcüməçinin görünməsi kimi daha geniş mövzuları əks etdirən müxtəlif anlayışlara və elmi mübahisələrə səbəb olur.

Kafkanı tərcümə etmək sadəcə sözlərin bir dildən digərinə çevrilməsi prosesi deyil; mədəni şərh və yenidən yaratma aktıdır. Hər tərcümə Kafkanın insan varlığına dair narahatedici, lakin dərin baxışlarının sındığı bir obyektivdir. Yeni tərcümələr peyda olmaqda davam etdikcə, onlar onun əsərləri ətrafında müzakirəni canlandıraraq, Kafkanın yazısının təkcə ədəbi modernizmin təməl daşı olmadığını, həm də daim inkişaf edən, dillər və mədəniyyətlər arasında oxucularına meydan oxuyan və heyran edən bir povest olduğunu nümayiş etdirirlər.

Beləliklə, Kafkanı tərcümə etmək dil, məna və mədəniyyət arasındakı əbədi rəqsi vurğulayan heyrətamiz bir cəhd olaraq qalır - onun yazılarının qlobal ədəbi kanonda davamlı gücü və sirrinin sübutudur.

Frans Kafkanın əsərlərinin tərcüməsi ona dil və mədəniyyət arasında körpülər quraraq bütün dünyada daha geniş oxucu kütləsinə çatmağa imkan verib. Tərcümələr Kafkanın dərin düşüncələrini və mürəkkəb uydurmalarını müxtəlif dillərdə və mədəniyyətlərdə olan oxucularla bölüşmək imkanı verir. Bundan əlavə, tərcümələr Kafkanın ədəbi irsinin qorunub saxlanmasına və gələcək nəsillərə çatdırılmasına öz töhfəsini verir. Beləliklə, Kafkanın əsərləri təkcə alman dilində danışanlar üçün deyil, həm də dünyanın bir çox müxtəlif dillərini bilən oxucular üçün əlçatan olur.

İstifadə edilmiş ədəbiyyat

1. Frans Kafka. Collected stories. London: Dimension, 1993, 260 s.
2. Frans Kafka. Country doctor. Praqa: Penguin, 1997, 92 s.
3. Frans Kafka. Entlarvung eines Bauernfengers. Vyana:Art Mensh, 2018, 20 s.
4. Frans Kafka. İn the Penal colony. New Yorke: Vintage Books, 2019, 20 s.
5. Frans Kafka. The Burrow. Amerika: Modern Library, 2019, 25 s.
6. Frans Kafka. The Metamorphosis. London: Schuster, 1915, 50 s.
7. Frans Kafka. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2010, 600 s.

FRANS KAFKANIN EKZİSTENSİALİZMİ

Nigar İsmayılova*

Abstract
Franz Kafka's existentialism

The article first talked about Franz Kafka and existentialism in his work, and the influence of existentialism in his literary works. Franz Kafka's works explore the existential issues of man and his relationship with society. In his works, issues such as the search for meaning in human existence, acceptance of identity, and the relationship with a man himself are widely covered. Kafka uses the idea of the inner world of man, being controlled and interfered with by powers. His works create an absurd and surreal atmosphere and reveal the dark side of life that man cannot understand or fear. Existentialism, which emerged in the 20th century, emerged as a new trend in world literature. In general, the effects of existentialism in the works of the German-speaking writer Franz Kafka, and the way it manifests itself in the work of Franz Kafka, are included in the analysis.

Keywords: *Franz Kafka, existentialism, hero, absurdism, alienation.*

Giriş. Ekzistensializm insan varlığı məsələsini araşdıran fəlsəfi araşdırma formasıdır. Ekzistensialist filosoflar insan varlığının mənası, məqsədi və dəyəri ilə bağlı sualları araşdırırlar. Ekzistensialist düşüncədə ümumi anlayışlar arasında absurd dünya və azad iradə qarşısında ekzistensial böhran, qorxu və narahatlıq, həmçinin həqiqilik, cəsarət və fəzilət daxildir. Ekzistensializmə görə varlıq həmişə xüsusi və fərdidir. Varlıq həmişə mənim varlığım, onun varlığı, sənin varlığın mənalarını özündə əks etdirir. Mövcudluq, ilk növbədə, varlıq problemidir. Bir varlıq daim olaraq fərqliliklərlə qarşılaşır və seçim etməli olur.

Ekzistensializm insana bir insanın təzahürü kimi baxan hər hansı bir təlimə qarşıdır. Ruh, şüur, səbəb, ideya kimi idealizmi vurğulayan əksər formalara qarşıdır. İkincisi, o, insanlarda tanınmaq və ya düşünmək üçün onun elementlərində həll edilməli olan bəzi verilmiş və tam reallığı görən hər hansı bir təlimə qarşıdır. Beləliklə, hər hansı bir obyektivizm formasına və ya elmçilik yanaşmalarına qarşıdır, çünki bu yanaşmalar xarici faktın kobud reallığını vurğulayır. Üçüncüsü, ekzistensializm zərurətin istənilən formasına qarşıdır, çünki mövcudluq fərdin imkanlarından ibarət olur, seçir və onun vasitəsi ilə özünü layihələndirir. Dördüncü məqama gəldikdə, ekzistensializm solipizm və idealizmə qarşıdır, çünki başqa varlıqlarla əlaqəli olan varlıq həmişə özündən kənara, həmin varlıqların varlığına doğru uzanır .

1940-cı ildən etibarən ekzistensializm kontinental Avropaya yayılması ilə onun istiqamətləri tabe olduqları maraqların müxtəlifliyinə uyğun olaraq inkişaf etdi.

Frans Kafka 3 iyul 1883-cü ildə Avstriyanın Bohemiya əyalətində anadan olmuş, 3 iyun 1924-cü ildə Avstriyanın Krilenq şəhərində vəfat etmişdir. Frans Kafka Julie Lövi və tacir Hermannın oğludur. Hermann yəhudi qəssab Yakob Kafkanın dördüncü oğludur. Frans Kafkanın bir sıra əsərləri nəşr edilmişdir. Frans Kafkanın ədəbi yaradıcılığına qısa hekayələr və onlardan bir neçə fraqment, üç yarımçıq roman, gündəliklər və yazışmalar daxildir. Naşirlər Frans Kafkanın əsərlərini Frans Kafkanın həyatda olduğu periodda onun könülsüz icazəsi nəticəsində nəşr etdirmişdirlər.

Əsas hissə. Kafkanın hekayələrini yalnız bir neçə oxunuşdan sonra tam dərk etmək mümkündür. Əgər onların sonluqları və ya sonluqlarının olmaması ümumiyyətlə məna kəsb etmirsə, bunu dərhal və ya birmənalı dildə etməyəcəkdir. Bunun səbəbi odur ki, həkayələr onlardan hər hansı birini təsdiq etmədən müxtəlif mümkün mənalar təklif edir. Bu, öz növbəsində, Kafkanın XX əsrin bir çox yazıçıları ilə bölüşdüyü fikrinin nəticəsidir ki, onun öz mənliyi sabit özəyi olmayan çoxillik qarşılıqlı təsirdə olan qüvvələrin parçasıdır.

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: nigarismayilova2001@gmail.com. Elmi rəhbər:*** *Prof. Cəlil Nağıyev.*

Kafkanın dünyası mahiyyətcə xaotikdir və buna görə də ondan konkret fəlsəfi və ya dini kod əldə etmək mümkün deyil. Yalnız hadisələrin özü əsas absurdluğunu üzə çıxara bilər. Kafkanın simvollarını, onların əsl mənalarını aşkar etmək bir qədər çətindir.

Kafkanın ekzistensializmlə əlaqəsi daha mürəkkəbdir, əsasən, ona görə ki, "ekzistensialist" etiketi özlüyündə olduqca mənasızdır. Kafka, şüphəsiz ki, ekzistensialist təfəkkürün bütün növlərinin əsas mövzusuna, yəni absurd kainat qarşısında məsuliyyətli öhdəliyin çətinliyinə heyran qalmışdır. Bütün metafizik göstərişlərdən məhrum olan insan buna baxmayaraq, ölümün hər şeyi mənasızlaşdırdığı bir dünyada əxlaqlı davranmağa borcludur. Öz hərəkətlərinin nəticələrini heç vaxt qabaqcadan görə bilməsə də, yalnız o, əxlaqi hərəkətin nədən ibarət olduğunu müəyyən etməlidir. Nəticədə o, tam seçim azadlığını lənət kimi qəbul etməyə başlayır. Ekzistensialist qəhrəmanların günahı, Kafkada olduğu kimi, onların heç biri digərlərindən daha qanuni və ya dəyərli görünməyən həddən artıq çox imkanlar qarşısında özlərini seçməmələri və öhdəlik götürməmələrindədir.

Kafkanın kabuslu hekayələrində təsvir etdiyi absurdluq onun üçün bütün insan vəziyyətinin mahiyyəti idi. İlahi qanunla insan qanunlarının tam uyğunsuzluğu və Kafkanın uyğunsuzluğu həll edə bilməməsi onun qəhrəmanlarının əziyyət çəkdiyi yadlaşma hissinin köklərindir. Kafkanın qəhrəmanları kainatla nə qədər barışmağa çalışsalar da, öz qurduqları mexanizmə yaxalanırlar. Kafka absurd yadlaşma ilə məşğul olduqca ekzistensializm ilə də məşğul olur. Frans Kafka əsərlərində absurd vəziyyətləri təsvir edərkən insanları təəccübləndirməyin əksinə bəsit şəkildə göstərir. Məsələn, "Metamorfoz" əsərində Qreqorun səhər oyanıb böcəyə çevrilmə absurdizmi sadə şəkildə təsvir edilmişdir. "Qreqor Samsa bir səhər narahat yuxudan oyananda özünü yatağında nəhəng bir böcəyə çevrilmiş" [6, s. 8]. Alwin Baum isə qeyd edir: "Qreqor Samsanın böcəyə çevilmə absurdluğu onun özündə deyil, Qreqor və ailəsi arasında təəccübün olmamasıdır" [1, s. 148].

Kafkanın qəhrəmanları tənhadırlar, çünki onlar yaxşı və şər anlayışının ortasında qalıblar, əhatə dairəsini müəyyən edə bilmirlər və ziddiyyəti həll edə bilmirlər. Hər hansı bir ümumi istinaddan məhrum olan və "qanun" haqqında öz məhdud baxışları ilə dirəyə vurularaq, ətrafdakı dünya tərəfindən eşidilmir, daha az başa düşülür. Mənalı ünsiyyət onları uğursuzluğa düçar edəcək dərəcədə təcrid olunurlar. Tipik Kafka qəhrəmanı kimliyi ilə bağlı sualla qarşılaşdıqda, dəqiq cavab verə bilmədikdə, Kafka şifahi ifadənin çətinliyini göstərməkdən daha çox şey edir. O deyir ki, qəhrəmanı iki dünya arasında, yoxa çıxmış dünya arasında dayanır: bir zamanlar aid olduğu dünya və aid olmadığı indiki dünya arasında. Bu, Kafkanın aydın şəkildə təsvir edilmiş əksliklərdən deyil, sonsuz bir sıra imkanlardan ibarət dünyasına uyğundur. Bunlar heç vaxt müvəqqəti ifadələrdən başqa bir şey deyil və əsla çatdırmalı olduqları şeyi tam şəkildə çatdırmırlar. Kafkanın hekayələrinin müvəqqəti, fraqmental keyfiyyəti belədir. O mənada ki, Kafka dilin ona qoyduğu məhdudiyyətlərin fərqindədir və ədəbiyyatın sərhədlərini sınaqdan keçirir, o, "modern" yazıçıdır. O mənada ki, o, mətnlərinin qrammatik, sintaktik, semantik komponentlərini məhv etmir, ənənəvi olaraq qalır. Kafka bu cür dağıdıcı istəklərdən çəkinir, çünki o, insan düşüncə prosesini uğursuzluğa düçar olana qədər çox təfərrüatı ilə izləməkdə maraqlıdır. O, empirik yanaşmaya borclu olaraq qalır və qəhrəmanlarını "normal" yolu izləyərək dünyanı dərk etməyə ümidsizcəsinə təsvir edir.

Kafkanın qəhrəmanları özlərini eşitdirə bilmədiklərinə, daha az başa düşülə bilmədiklərinə görə heç kimin bilmədiyi macəralara qarışırlar. Oxucuda baş qəhrəmanın taleyindən xəbərdar olduğunu hiss etməyə meyillidir və buna görə də onunla eyniləşdirməyi asan tapır. Hekayədə baş qəhrəmanın taleyini danışa biləcəyi başqa heç kim ümumiyyətlə olmadığından, o, öz problemlərini təkrar-təkrar düşünməyə meyil edir. Bu solipsistik keyfiyyət Kafka bir çox ekzistensial yazıçı ilə bölüşür, baxmayaraq ki, ekzistensialist terminologiya onu "özünü dərketmə" adlandırmağa başlayır.

Kafkanın ekzistensializmi insan varlığının mahiyyətcə mənasız olduğunu eitraf etməklə başlayır. Həyatın heç bir mahiyyəti yoxdur və fərdlərə öz mənalarını yaratmaq qalır. Kafkanın fikrincə, bu həmişə əlçatmazdır və fərd daim onu axtarır. Bu axtarış çox vaxt dünyanın absurdluğunu və dilin varlıq təcrübəsini tam şəkildə ələ keçirə bilməməsi ilə məyus olur.

Kafkanın ekzistensializminin əsas xüsusiyyətlərindən biri onun fərdi yadlaşma və təcrid təcrübəsini vurğulamasıdır. Kafkanın əsərlərində tez-tez başqalarından qopmuş və ətraf aləmdə əlaqə qura bilməyən personajlara rast gəlinir. Bu təcrid hissi fərdin ekzistensial vəziyyətini əks etdirir, çünki

onlar öz varlıq təcrübələrində son nəticə olaraq təkdirlər. Kafkanın əsərləri göstərir ki, fərdlər öz varlıqlarına biganə görünən dünyada məna tapmaq üçün mübarizə apararkən bu təcrid dərin iztirab mənbəyi ola bilər. Kafkanın ekzistensializmi də fərdin güc və hakimiyyətlə əlaqəsinin vacibliyini vurğulayır. Kafkanın əsərlərində iqtidar çox vaxt şəxsiyyətin ehtiyac və istəklərinə biganə, simasız, bürokratik sistemlərlə təmsil olunur. Bu sistemlər fərd öz həyatına təsir etməkdə aciz olduğu üçün acizlik və ümidsizlik hissi yaradır. Kafkanın əsərləri göstərir ki, iqtidar zülm mənbəyi ola bilər və fərd öz azadlığı və muxtariyyətini qorumaq üçün daim ayıq olmalıdı. Kafkanın ekzistensializminin digət mühit cəhəti onun fərdin zamanla əlaqəsini vurğulamaqdır. Kafkanın əsərlərində tez-tez sonsuz təkrar və rutin dövrəsinə düşən personajlar var. Bu təkrarlanma hissi fərdin zaman təcrübəsini əks etdirir, çünki onlar heç vaxt dəyişməyən sonsuz bir indiki zamanda tələyə düşüblər. Kafkanın əsərləri göstərir ki, bu zaman hissi insanı dəyişmə və böyümə imkanından məhrum etdiyi üçün sıxıcı ola bilər. Kafkanın ekzistensionalizmi həm də irrasional və izaholunmazı vurğulaması ilə diqqəti cəlb edir. Kafkanın əsərlərində tez-tez məntiqə və ağıla zidd olan, orientasiya və çaşqınlıq hissi yaradan hadisələr yer alır. Bu, çox vaxt izaholunmaz və irrasional ilə qeyd olunan fərdin mövcud təcrübəsini əks etdirir. Kafkanın əsərləri onu göstərir ki, fərd izaholunmaz və irrasionalı qəbul etməyə hazır olmalıdır, çünki onlar insan təcrübəsinin vacib hissələridir. Nəhayət, Kafka ekzistensializmin dil və ünsiyyət vacibliyini vurğulayır. Kafkanın əsərlərində tez-tez başqaları ilə ünsiyyət qurmaqda çətinlik çəkən, yadlaşma və təcrid hissi yaradan personajlar yer alır. Bu, fərdin dil və təcrübəsini əks etdirir ki, bu da çox vaxt varlıq təcrübəsini tam şəkildə ələ keçirmək üçün qeyri-adekvatdır. Kafkanın əsərləri göstərir ki, fərd dilin məhdudiyyətləri ilə mübarizə aparmağa və öz varlıq təcrübəsini çatdırmaq üçün yeni yollar tapmağa hazır olmalıdır. Sonra Frans Kafkanın ekzistensializmi insan vəziyyətində bənzərsiz bi perspektiv təklif edir. Onun təcrid, güc, zaman, irrasional və dil üzərində vurğulaması onu digər ekzistensialistlərdən fərqləndirir. Kafkanın ekzistensializmi fərdləri varlığın absurdluğu ilə üz-üzə gəlməyə və öz varlığına çox vaxt biganə qalan dünyada məna tapmağa çağıran hərəkatdır.

Ekzistensialist prizmadan baxdıqda, günahkarlıq ölümün qeyri-müəyyənliyi və obyektiv həqiqətin olmaması səbəbindən inkişaf edir. Bu, Kafka personajları arasında açıq-aydın görünən həqiqi məmnuniyyətə nail olmağın qeyri-mümkünlüyünü bildirir. Onların hamısı daha çox şey arzulayır. Günahkarlıq həm də insanların qərarlarını qəbul edərkən seçməli olduğu sonsuz variantlarda özünü göstərir. Onun personajları bu azad iradəni lənət kimi görür. Əməl edə bilməmələri, yaxşını və şəri ayırd etmək üçün verdikləri mübarizə ilə yanaşı, onların heç vaxt yerləşə bilməmələrinə və ya əsaslı hiss etməmələrinə səbəb olur.

"Metamorfoz" novellası 1915-ci ildə nəşr olunub və Kafkanın ən məşhur əsərlərindən biridir. Qreqor Samsa bir səhər yuxudan oyananda özünü demək olar ki, otağının ölçüsündə böcəyə çevrildiyini görən baş qəhrəmandır. Ailəsini maddi cəhətdən dolandırmaq üçün satıcı işləyir. Hekayə açıldıqca aydın olur ki, onun oynadığı yeganə rol sadəcə pul qazanmaqdır, xüsusən də bacısının musiqi məktəbində oxumaq arzusunu həyata keçirə bilməkdir. Bir fərd olaraq onun mürəkkəblikləri ailəsi tərəfindən nəzərə alınmır, nəticədə onlardan təcrid olunur. Bu, onun çevrildikdən sonra keçə bilməyəcəyi bir maneə rolunu oynayan kilidli yataq otağı qapısı ilə təsvir edilmişdir. Kafkanın fikrincə, Qreqor Samsanın "Metamorfoz"da yadlaşmış taleyi heç bir insandan daha pis və ya daha yaxşı deyil. Səyahət edən satıcının əvvəlki həyatı ilə Qreqorun böcək kimi yaşadığı həyat eynidir. Kafka düşünürdü ki, hər gün mübarizə aparmalı olduğumuz qayğılar emosional işgəncədir. Hubben bunu iqtisadi modellər arasındakı ziddiyyətlərlə bağlayır: "Maraqlıdır ki, iqtisadi sistemdə əsas fiqurlardan olan ümidsizlik, Avropada ölüm-dirim mübarizəsi olan satıcıların funksiyası, azad sahibkarlıqda missionerlik mövzularına ilk toxunanlardan biri Frans Kafkadır" [9, s. 87]. Öz qərarları ilə özünə həvalə etdiyi funksiyanı yerinə yetirə bilmədiyi üçün utanc və buna görə də daha dərin bir yadlaşma yaşayır. Qreqor ekzistensial narahatlıqdan əziyyət çəkir, çünki o, həyatın absurdluğunu və mövcudluğu təkbaşına idarə edən daimi mübarizəni dərk edir. Başqaları ilə əlaqə onsuz da onun üçün çətin idi, lakin indi səsi cik-cik və cızıltıya çevrildiyindən ünsiyyət qurmaq qeyri-mümkün olur. O, insan bədəninə qayıtmaq üçün üfüqdə heç bir ümid olmadan öz içinə daha da geri çəkilir. Böcək şəklini alması əvvəlki formasından daha pis görünsə də, Kafka hər ikisini yüksək səviyyədə yadlaşma ilə ölçülən tale kimi qəbul edir. Qreqor transformasiyadan əvvəl otağını tərk edib başqalarının

ətrafındakı dünyaya girə bilsə də, hələ də tənhalıq və tənhalıq həyatı yaşayırdı. Kapitalizmin fəsadları onun ruhunu çoxdan qırmışdı və o, fərdləri pul üçün inandırmağa çalışacağı alətlər kimi görürdü. Onun son ölümünə insanlığını itirməsi, fiziki gücünün sürətlə düşməsi qaça bilmədiyi imkansız vəziyyət səbəb oldu. Kafkanın "Metamorfoz"da və digər yazılı əsərlərində qeyd etdiyi məqam ondan ibarətdir ki, qərarlar yalnız fərdlər tərəfindən verilir və edilən seçimlər onların taleyini müəyyən edir. Bəzi ekzistensialistlər ümidin gücünə inansalar da, Kafka ümidsiz bir varlığı qəbul etməyin tərəfdarıdır və həqiqiliyə üstünlük verildiyi təqdirdə yadlaşmanın qaçınılmaz olduğunu bildirir.

Qreqorun metamorfozundan yaranan münaqişə onun işləyə bilməməsidir. Qreqor özündə dərin utanc hissini yaşayır. "Metamorfoz" əsərində mövcud olan başqa bir ekzistensialist fəlsəfə utanc hissidir. Jan Pol Sartr utanc hissini belə ifadə edir: "Utanc hissi insanın içində gizlənir. Utanc içində mən başqa bir mənliyi yaşayıram" [7, s. 6]. Qeyd etmək lazımdır ki, müəllif Qreqorun çevrildiyi böcəyi təsvir edərkən təfərrüatları izah etmir, əksinə onun təsviri çox qeyri-müəyyəndir, çünki diqqətin daha çox Qreqorun bir insan kimi dəyərinin daha çox işləyə bilmədiyi üçün necə azaldığına yönəldiyini nəzərə alır. Marksist və kapitalist nöqteyi-nəzərdən Qreqor proletariatı təmsil edir, yalnız iş qabiliyyətinə görə qiymətləndirilir. Ona görə də o, artıq fəhlə olmadığı üçün müdiri, hətta ailəsi üçün də dəyərli deyil. Burjuaziya üçün insandan ən önəmlisi onun əməyidir. Deməli, onlara təklif etməli olduğu yeganə şey bu olduğundan, Qreqor indi dəyərsiz idi. Bu vəziyyət münasibətlərdə kapitalizmin yaratdığı insanlıq çatışmazlığını ortaya qoyur. O, indiki böcək kimi faydalı heç nə edə bilmir və ailəsinə yük olur, bu da onun fərqinə varır.

Qreqoru ekzistensial böhrana məcbur edən bu qeyri-adi vəziyyət, onun varlığının başqası üçün heç bir şey ifadə etmədiyini başa düşdü. O, varlığını şübhə altına alır. Beləliklə, onun metamorfozunun bioloji transformasiya olmaqdan daha çox mənası var. Ekzistensializm insanın varlığını və gələcəyinə təsir edən seçimi şübhə altına almaqdır. Bu ekzistensial nöqteyi-nəzər ailənin digər üzvlərinə də aiddir. Qreqor böcəyə çevrildikdən sonra ailə üzvləri yorulmadan işləməyə başlayırlar, çünki borclarını ödəyə bilmək üçün bunu etməli idilər. Onların işləməmək seçimi var idi, lakin daha aşağı standartlara malik daha da aşağı təbəqəyə çevrilmək və onun bir hissəsi olmaq kimi nəticələrlə üzləşməli idilər. Onları bu qərarı verməyə vadar edən sosial şərait idi.

"Ekzistensializm" termini hələ Frans Kafkanın sağlığında işlənməyib, lakin onun yazılarını oxumaq onun inanclarının və varlığının əslində nə qədər ekzistensialist olduğunu ortaya qoyur.

Kafkanın bir neçə məşhur əsəri ekzistensial alleqoriya rolunu oynayır. "Qala"da o, uğursuzluğun qaçılmazlığını, uğura can atmağın mənasızlığını çatdırır. "Məhkəmə" və "Cəzaçəkmə Koloniyasında" əsərləri özgələşmə və şəxsiyyətin itirilməsi ilə nəticələnən həqiqi yaşamamağın nəticələrini araşdırır. "Aclıq artisti" və "Müğənni Cozefina və ya siçan xalqı" özlərinə sadiq qalan, lakin son nəticədə cəmiyyətdən təcrid olunmaqla üzləşən yaradıcı fərdlərini təsvir edir.

Kafkanın ekzistensial mövzuları dərindən tədqiq etməsi bütün əsərlərində görünür, çünki o, insan vəziyyətini və fərdlərin varlığın mürəkkəbliklərində naviqasiya zamanı üzləşdiyi mübarizələri araşdırır. "Qala"da Kafka müəmmalı və əlçatmaz qalaya girməyə boş yerə cəhd edən K. adlı bir adamın qaranlıq obrazını təqdim edir. K.-nin tanınma və qəbul olunmaq üçün amansız axtarışı ilə Kafka insana xas olan uğur və tanınmağa can atmaq meylini vurğulayır, ancaq qaçılmaz uğursuzluqla qarşılaşır və bu cür cəhdlərin mənasızlığını dərk edir.

"Məhkəmə", "Məhkəmə və Cəza koloniyasında" Kafkanın ekzistensializmi tədqiqini daha da dərinləşdirir, diqqəti orijinal yaşamamağın nəticələrinə yönəldir. Atası bir məktub vasitəsilə onu ölümə məhkum edir.

Eynilə, "Məhkəmə"də Kafka hüquq sisteminin absurdluğuna dərindən baxır, belə ki, baş qəhrəman Jozef K. özünü izaholunmaz ittihamlar və zahirən əlçatmaz görünən ədalət torunda tapır. Hekayə gözəgörünməz hakimiyyətin qüvvələrinə qarşı ekzistensial mübarizə üçün güclü bir alleqoriya rolunu oynayır və fərdin varlığına nüfuz edə biləcək hədsiz günahkarlıq və qınama yüküdür.

"Cəza Koloniyasında" əsəri həqiqi yaşamamağın nəticələrini araşdırmaq üçün daha birbaşa yanaşır. Qəddar və qorxunc edam maşını vasitəsilə Kafka cəmiyyət normalarına və ənənələrinə kor-koranə riayət etməyin insanlıqdan kənarlaşdırıcı təsirlərini vurğulayır. Bu əsərdə ədalət, adət-ənənənin

fərdi şəxsiyyətin formalaşmasında rolu və insanın əsl mənliyini tərk etməsinin dəhşətli nəticələri əks etdirilir.

Bu alleqorik rəvayətlər vasitəsilə Frans Kafka insan vəziyyətinin mürəkkəbliklərini və narahatlıqlarını ustalıqla çəkir. Onun əsərləri şəxsiyyət uğrunda mübarizə, orijinallıq axtarışı və fərdlərin ağlasığmaz və laqeyd bir dünya ilə qarşılaşdıqda qarşılaşa biləcəkləri son təcrid haqqında təsirli düşüncələr kimi xidmət edir. Kafkanın yazıları oxucularda rezonans yaratmağa davam edir, onları öz ekzistensial dilemmaları ilə üzləşməyə və insan varlığının əsasını təşkil edən həyəcanverici suallarla mübarizə aparmağa dəvət edir.

Nəticə və elmi yenilik. Nəticə etibarı ilə Frans Kafkanın əsərləri ekzistensialist düşüncəni dərindən araşdıran və insan varlığının mürəkkəbliyini araşdıran mühim mənbə hesab olunur. Kafkanın əsərlərindəki mövzuları tədqiq etməklə insanın ekzistensial təcrübələrini dərk etmək və qiymətləndirmək üçün dərin anlayışı inkişaf etdirmək olar. Frans Kafka öz həyatında yaşadığı atası ilə əlaqədar problemlər onun psixologiyasına təsir görtərmiş və bunu öz əsərlərində əks etdirmişdir. Frans Kafka öz əsərlərindəki qəhrəmanlarının iztirablarında, bir növ öz prototipinin keçirdiyi hissləri əks etdirir.

Frans Kafkanın əsərlərində müzakirə olunan mövzular, ümumiyyətlə, psixologiya, insan təbiəti və sosial dinamika kimi təməl insan problemləridir. Kafkanın əsərlərində elmi və texniki yeniliklərə yönələn məzmun yoxdur. Əvəzində Kafkanın əsərləri daha çox fəlsəfi və psixoloji dərinlik təklif edir, insanın ekzistensial vəziyyəti, yadlaşma, fərdi azadlıq və sosial zülm kimi məsələlərə toxunur. Kafkanın əsərlərindəki yeniliklərə daha çox ədəbi və fəlsəfi sahədə rast gəlinir. Kafkanın əsərlərindəki mövzu və süjetlər çox vaxt ədəbi yenilik hesab edilir. Lakin bu əsərlərin tədqiqi və təsvirii insanın təbiətini, ictimai quruluşunu və fərdin daxili dünyasını anlamaqda mühüm məlumatlar verə bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Alwin Baum. Parable as paradox in Franz Kafka. London: Renascence, 2020, 180 s.
2. Frans Kafka. Collected stories. London: Dimension, 1993, 260 s.
3. Frans Kafka. Country doctor. Praqa: Penguin, 1997, 92 s.
4. Frans Kafka. İn the Penal colony. New Yorke: Vintage Books, 2019, 20 s.
5. Frans Kafka. The Burrow. Amerika: Modern Library, 2019, 25 s.
6. Frans Kafka. The Metamorphosis. London:Schuster, 1915, 50 s.
7. Sartre. Kafka and the universality of the literary work, 2015, 17 s.
8. Frans Kafka. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2018, 360 s.
9. William Hubben. Dostoevski, Kierkeegard, Nietzsche, Kafka. Nyu York: Sciribner, 1997, 192 s.

"QOCA VƏ DƏNİZ" ƏSƏRİNİN FƏLSƏFİ QAVRAYIŞI, ƏDƏBİYYAT DƏRSLİYİNDƏ YERİ

Nübar Məmmədova*

Abstract

Philosophical perception of the work "The old man and the sea", its place in the textbook of literature

Ernest Hemingway is the most truthful American writer of the 20th century. One day, seeing the grief and horror of the war, the writer swore to be "more truthful than truth " for the rest of his life. The article looks at the work of Ernest Hemingway, and most importantly – "The Old Man and the Sea". The analysis of the work" The Old Man and the Sea" is related to the inner philosophical meaning of the work. Therefore, when studying Hemingway's short story "The Old Man and the Sea" in literature lessons in the 9th grade, it is necessary to get acquainted with the biography, life and creative position of the author. Our article contains all the necessary information about the analysis of the work, the topic, problem, series of images, the history of the creation of the story, its place in the textbook. The symbolism and style of the narrative are analyzed together with its deep philosophy. This lesson will help determine the artistic originality of the work, develop willpower, resistance to surrounding difficulties in the image of an elderly hero. The students had to understand that Hemingway's goal was to show realism, avoiding another directional interpretation of the text. Instilling it in students and comparing it with the works passed in our national literature will have a significant impact on the formation of their worldview.

Keywords: *Ernest Hemingway, old man, creativity, sea, symbol.*

Giriş. Məqalədə şərh edəcəyimiz əsər orta məktəb proqramında 9-cu sinifə salınıb. Bu məqalədə ədəbiyyatda tədris olunan əsərin daha ətraflı təhlilinə işıq salınacaq, onun dərslikdə hansı şəkildə yer almasına nəzər yetiriləcək. Araşdırmanın əsas məqsədi "Qoca və dəniz" əsərinin təhlili ilə dünya ədəbiyyatı nümunələrinin tədrisinin metodik əsaslarını göstərməkdir. Ədəbi təhsilin müasir mərhələsində əsas məqsədimiz şagirdləri söz incəsənətinə, milli və dünya ədəbiyyatının zənginliyinə bələd etmək olduğundan bu məsələ aktualdır.

Əsas hissə. Bu sinifdə dərsin təşkilini düzgün qurmaq və tədris etmək üçün, ilk olaraq, əsas məqsədlər, metodlar müəyyənləşdirilməlidir. Əsərin tədrisində əsas məqsədlərə daxildir: E. Heminqueyin tərcümeyi-halı və yaradıcılığının ayrı-ayrı faktları ilə şagirdləri tanış etmək; "Qoca və dəniz" povestini təhlil etməyə hazırlamaq; şagirdlərin yazıçı haqqında araşdırdıqları məlumatlarını öyrənmək; hekayənin fraqmentlərini oxumaq; suallar ətrafında söhbət aparmaq; "Qoca və dəniz" əsərinin fəlsəfi mahiyyətini açmaq; əsərin əsas epizodlarını vurğulamaq və süjetini xarakterizə etmək, ədəbi əsəri verilən illüstrasiyalarla müqayisə etmək bacarıqlarını birləşdirmək; epizodların təhlili; fraqmentlərin ifadəli oxunması; hekayə üçün verilə illüstrasiyalardan başqa şagirdlərin rəsmləri ilə işləmək; şagirdlərin ədəbi əsərin baş obrazı haqqında fikirlərini genişləndirmək; hekayənin problemləri və müəllifin mövqeyi ilə bağlı sualları müzakirə etmək; şagirdlərin ədəbi əsər haqqında yaradıcı şərhlərini dərinləşdirmək; müəllif mövqeyi, fikir, fəlsəfi və mənəvi problemləri araşdırmaq; şagirdlər öyrəniləcək əsərlə, veriləcək tapşırıqlarla təlimin hər üç funksiyasına – təhsilverici, tərbiyəedici, inkişafetdirici nəticələrinə yiyələnməklərinə çalışmaq:

- Təhsilverici: Əsərin bədii orijinallığını və simvol sistemini müəyyənləşdirmək;
- Tərbiyəedici: Əsas qəhrəman - Qoca nümunəsində iradə gücünü, ətrafdakı çətinliklərə qarşı müqaviməti inkişaf etdirmək;
- İnkişafetdirici: Sitat materialından istifadə edərək bədii mətni təhlil etmək, yüksək mənəvi dəyərlər formalaşdırmaq bacarığını inkişaf etdirmək.

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: nubarmemmedova777@gmail.com. Elmi rəhbər:*** *Dos. Elçin Məmmədov*

MMV-da dərsin keçilməsinə 4 saat ayrılmışdır. Hər bir saat əsərin ideya-məzmun xüsusiyyətlərinin açılmasına və tam mənzərənin yaranmasına yönəlmişdir. Əsərin tədrisinə başlayan müəllimin giriş sözü iki dünya müharibəsinin və İspan xalqının müharibəsinin iştirakçısı, ehtiraslı ovçu və balıqçı, həyatının əhəmiyyətli bir hissəsini ABŞ xaricində keçirmiş bir Amerika yazıçısının qeyri-adi imicini yenidən yaratmağa yönəlməlidir. Dərslikdə giriş hissədə verilən epiqraf da müəllifi çox gözəl səciyyələndirir: "Yazıçının vəzifəsi dəyişməzdir. O özü dəyişir, amma onun vəzifəsi olduğu kimi qalır. Bu da ondan ibarətdir ki, həmişə həqiqəti yazasan, həqiqətin nədən ibarət olduğunu başa düşəsən, onu elə ifadə edəsən ki, bu həqiqət oxucunun şüuruna onun öz təcrübəsinin bir parçası kimi daxil olsun" [2, s. 170]. Əsərin tədrisi Heminqueyin müxtəlif fotoşəkillərinin nümayişi ilə müşayiət oluna bilər. Bu şagirdlərin yaddaşında məlumatların daha uzunmüddətli qalmasına kömək edəcək. Ayrı-ayrılıqda, dünya müharibələri və İspaniya vətəndaş müharibəsi ilə əlaqəli yazıçının tərcümeyi-halının həqiqətlərini vurğulamaq lazımdır. Belə ki Heminqueyin müharibədə gördüyü və yaşadığı anlar bir sıra bədii əsərlərində yenidən canlanır. Bununla bağlı olaraq kitab sərgisi də hazırlamaq olar. Onun yaradıcılığında önəmli yer tutan, dünya müharibəsindən bəhs etdiyi "Əlvida, silah!", "Əcəl zəngi" əsərlərinin də ona dünya şöhrəti qazandırdığını demək lazımdır. Heminqueyin tərcümeyi-halı üzərində işləyərkən yazıçının xatirələrinə müraciət etmək məqsədəuyğundur. Məsələn, Amerikalı şair və ədəbiyyatşünas, Heminqueyin dostu Arçibald Makliş deyirdi: "Yazıçılar, adətən, onların yaradıcılığına görə mühakimə olunur, lakin Heminqueyin həyatı onun yaradıcılığına elə bir təzyiq etmişdir ki, tənqidçilər öz fikirlərində ortaq məxrəcə gələ bilmirlər" [4, s. 6]. Yazıçının digər dostu Harri Silvestr söyləyirdi: "Heminquey işləyən, orta sinif nümayəndələrinə yaxın idi və tez-tez onlara heyran qalardı" [4, s. 12]. "Qoca və dəniz" əsərinə görə yazıçı tərəfindən Pulitzer və Nobel mükafatlarının alınması barədə şagirdlərə izahat vermək məqsədəuyğundur. Nobel mükafatı yazıçıya "Qoca və dəniz"də bir daha nümayiş etdirilən bacarığına və müasir nəsrə etdiyi təsirinə görə verildi.

Əsərin oxusuna və analizinə keçməzdən əvvəl şagirdlərə əsərin yaranma tarixi ilə də bağlı məlumat vermək vacibdir. Onlarda artıq ilkin təsəvvürlər formalaşmağa başlayacaq. Müəllim onların nəzərinə çatdırmalıdır ki, bu əsərin ideyası Heminqueydə illərlə yetişirdi. Müəllifin bir vaxtlar Kuba balıqçılarından eşitdiyinə görə yaşlı bir balıqçı dənizə çıxır və bir neçə gün yuxusuz və yemək yemədən nəhəng bir balıqla "döyüşür", ancaq köpək balığı qocanın ovunu yeyir. Balıqçılar onu yarı ağılsız vəziyyətdə tapırlar, köpək balığı isə qayığın ətrafında dolaşır. Bu hekayə "Qoca və dəniz" povestinin əsasını təşkil etdi. Müəllim həmçinin bu povesti süjeti real həyatdan götürülmüş Azərbaycan ədəbiyyatından keçilmiş əsərlə müqayisəyə verə bilər. Məsələn, 7-ci sinifdə keçilən Mirzə İbrahimovun "Azad" hekayəsi Cənubi Azərbaycanda baş vermiş hadisələr əsasında yazılmışdır. Orada Azad və Fərda kimi minlərlə gənclər müstəmləkə şəraitində azadlıq mübarizəsinə qalxmışlar. Bu iki əsərin müqayisəsi üçün Eyler-Venn diaqramından istifadə edərək onların ortaq və fərqli cəhətlərini üzə çıxarmaq olar. Müqayisə ediləcək hər iki əsərin realizmə söykənməsi vacib elementlərdəndir. Digər tərəfdən əsərin oxusundan sonra şagirdlərə povest janrı haqqında da məlumat verilməlidir. Müəllimin izahı və dərslikdə olan məlumatın oxusundan sonra əsəri digər ədəbi növ və janrlarla müqayisə etmək olar. Bunun üçün dərslikdə povesti hekayə janrı ilə növ və janr baxımından müqayisə üçün fərdi şəkildə yerinə yetirilməsi lazım olan tapşırıq verilmişdir. Milli ədəbiyyatımızla dünya ədəbiyyatında yaranan epik növdə olan nümunələri müqayisəyə gətirmək fərqli baxışların və detalların üzə çıxmasına kömək edəcək.

Əsərin sinifdənxaric oxu proqramına salınıb oxunması dərsdə müəllimin rəhbərliyi altında onun dərindən mənimsənilməsinə səmərəli təsir göstərəcək. Dərsdə ixtisarlı mətnin oxu işi başa çatdıqdan sonra şagirdlərə tədqiqatçılardan birinin sözləri üzərində düşünmək təklif edilə bilər: "Hekayənin konkret obrazları geniş simvolik məzmunu əhatə edir, hərəkətin inkişafında, qocanın monoloqlarında hər zaman gizli bir fəlsəfi məna hiss olunur. Balıqçı obrazı bir İnsan simvoluna qədər böyüyür, "böyük balıq" insan həyatının əsl mənasını təşkil edən böyük bir hədəfin simvoludur, köpək balığı isə yırtıcı, pis bir başlanğıcı təcəssüm etdirir. Onunla mübarizədə insan layiqli həyat hüququnu müdafiə edir" [3, s. 218-219]. Şagirdlər onların mübarizəsini əks etdirən hissələri göstərməli, öz fikirlərini bildirməlidirlər. Bundan sonra müəllim fikirləri ümumiləşdirərək qənaəti səsləndirməlidir: "Ümumiyyətlə "Qoca və dəniz" əsərinin qəhrəmanı sərt taleyə qarşı çıxan bir insanın simvoludur.

Vəziyyətin özü də son dərəcə ifadəlidir – təbiətlə, okeanla, ulduzlarla üz-üzə tək bir insan. Əks gələn vəziyyətlərə qarşı mübarizədə qəhrəman məğlub olur, amma buna baxmayaraq insan ləyaqətini təsdiqləyir". Bir daha Santyaqonun böyük balıqla duel epizoduna müraciət edə bilərik. Məşhur fatalizm düşməni ilə mübarizəyə girən qocanın sözlərində səslənir: "– Balıq, onu bil ki, nə qədər canımda can var, səndən əl çəkən deyiləm, – astadan dilləndi" [1, s. 70]. Gücünü son həddə çatdıran Qoca mübarizəni davam etdirirərək "İnsan övladı məğlubiyyət üçün yaranmayıb" deyir: "İnsanı məhv etmək olar, lakin məğlub etmək olmaz" [1, s. 145]. Köpək balığı balığa hücum edərkən Qoca hərəkətsiz qalmır. Yaşlı və cılız olsa da, əlləri yaralansa da, mübarizəni davam etdirir. Bıçaq qırıldıqdan sonra Santyaqo balığını xilas edə bilmir, ancaq məğlubiyyətsiz qalır. Burada müəllifin qəhrəmana münasibətini və onu necə ifadə etməsi məsələsini şagirdlərlə müzakirə etmək vacibdir. Bu məqsədlə mətnin kənarlarında hər hissənin oxusu bitəndə verilən suallar yardımçı olur: "Bu təsvir yazıçının hansı niyyətini ifadə edir?", "Yazıçının qoca balıqçıya münasibətini daha hansı məqamlarda müşahidə etdiniz?" [2, s. 170-173]. Həmçinin şagirdlər sual verə bilərlər ki, hansı səbəbdən qoca və oğlan obrazlarının adları olduğu halda povestdə bu adlar əksərən görünmür? Burada da simvolizmin olduğunu onların nəzərinə çatdırmaq lazımdır. Bu iki nəslin- keçən və gələnlərin, müdrik nəsihətlərin uşaqlara çatdırılmasının simvoludur. Yazıçı öz üslubu ilə bunu əsərdə göstərməyi bacarmışdır.

Qocə və oğlanın obrazlarını səciyyələndirərkən mətndənkənar suallar yardımçı olacaq. Sualların birində qocanın xarici görünüşünün səciyyəsi və onun bizdə yaratdığı təsəvvür soruşulur. Dərslikdə verilən digər tapşırıqda cədvəli doldurараq qocanın xarakterindəki başlıca cəhətləri, yazıçının, digər obrazların və bizim ona olan münasibətimizi yazmaq tələb olunur. Mətndən də göründüyü kimi, qoca arıq idi, yanaqlarını artıq ləkələr bürümüşdü, əlləri isə yarıqlı idi. Buna baxmayaraq, onun mavi gözlərində olan o əzəmət və güc hiss olunur. Santyaqonun xarakterik xüsusiyyətlərinə onun sarsılmaz iradəsi, dözümlülüyü, xeyirxahlığı və dənizə olan böyük sevgisini göstərmək uyğun olar. O ağır həyat yaşasa da, balıq tutmaq işini buraxmır, oğlanı da özü ilə birlikdə aparır, ona balıqçılığın sirlərini öyrədir. Heminqueyin özünün də həyatı ağır olduğundan bu obrazı və onun həyatını bütün incəliklərinə qədər qələmə ala bilmişdir. Digər sualda isə dialoqlar vasitəsilə oğlan haqqında təsəvvürümüzə nələrin əlavə olunduğu soruşulur. Oğlanın öz növbəsində ona çox şeyi öyrədən qocaya sevgi ilə baxdığı, ona hər şeydə kömək etməyə çalışdığı görünür: onun qayğısına qalır, kofe gətirir, balıqlara yem üçün sardin tutur. Valideynlərinin uğursuz hesab etdikləri qoca ilə birlikdə balıq tutmağa qadağa qoysalar da, oğlan onunla birlikdə olmağa can atır. Burada mühüm məsələlərdən biri də odur ki, insan heç vaxt tək qalmamalıdı, qocalıqda da ona kimsə kömək etməlidir və xoş sözlərlə dəstək verməlidir. Oğlan da məhz bu xüsusiyyətlərə malikdir.

Povest bu sözlərlə bitir: "Bu vaxt qoca yuxarıda, öz komasında yenə üzüqoylu uzanıb yatırdı, oğlan da böyründə oturub onun keşiyini çəkirdi. Qoca yuxusunda şirləri görürdü" [1, s. 182]. Əsərin ideyasını, əsərin sonunun mənasının nə olduğunu anlamaq üçün bu sözlərə diqqət yetirmək lazımdır. Lakin dərslikdə əsər ixtisarla verildiyindən bu cümlələr orada yer almayıb, halbuki şagirdləri düşünməyə, vacib məqamlardan birini açmağa kömək edir. Belə ki Santyaqo şirləri hər zaman xəyal edir; onları yuxuda ovlamır, yalnız oyunlarını sevgi ilə izləyir və tamamilə xoşbəxtdir. Bu, onun ömür boyu davam edən cənnətidir, təbiətlə tam birlik qazanmasıdır. Biz şiri bir simvol kimi qəbul edə bilərik. Həmçinin qocaya gələcək həyat vəd olunur: onun təcrübəsi, sevgisi şagirdinə – oğlan Maqolinə keçəcəkdir. Deməli, yaşamağın mənası var, yəni "insan tutunacaq" deməkdir. Qoca xilas olur və indi birlikdə balıq tutacaqlarını, ondan çox şey öyrənməli olduğunu söyləyən bir oğlan onu gözləyir. Bu məsələlər şagirdlərin dünyagörüşlərində yeni üfüqlər açmağa kömək edəcək. Şagirdlər özlərini obrazların yerində düşənərək onların baxış bucağını özlərində sınamağı, fərqli situasiyadan çıxmağın yollarını öyrənərək həyat təcrübəsi ilə tanış olmuş olacaqlar. Bununla bağlı olaraq müəllim şagirdlərə dərslikdə yer alan bu sualı ünvanlaya bilər: "Qoca balıqçının məğlub olmamasının səbəbini nədə görürsünüz?". Bu sualı cavablandırmaq üçün povestin ideyasına nəzər yetirmək lazımdır. Belə ki, povestin sonu müəllifin insanın imkanlarına və gücünə inamı ilə əlaqələndirilir. Buradan da nəticə olaraq əsərin ideyasını şagirdlərə belə verə bilərik: Əsərin əsas ideyası insanı təbiətin özü, onun canlıları və elementləri ilə mübarizədə, eləcə də insanın zəif cəhətləri ilə mübarizəsində göstərməkdir. Müəllif fəlsəfəsinin böyük bir hissəsi povestdə aydın şəkildə verilir: insan müəyyən bir şey üçün

doğulur, onu mənimsəyərək həmişə xoşbəxt və sakit olacaqdır. Təbiətdəki hər şeyin bir ruhu var və insanlar buna hörmət etməli və qiymətləndirməlidirlər – yer əbədidir, onlar isə deyil. Əsərin mövzusu isə insan iradəsinin, xarakterinin, inancının gücünün sınağı, habelə xəyal və mənəvi qələbə mövzusudur. Yalnızlıq və insan taleyi mövzusu da müəllif tərəfindən açıqlanır. Bu mövzunun tam açılması üçün, müəllif qayəsini anlamaq üçün müəllim əsərin ixtisarla oxusunu yetərli hesab etməməlidir. Belə ki bir sıra vacib nüanslar əsərin tam oxusundan sonra açılır. Şagirdlər bu və ya digər dünya ədəbiyyatı nümunələri işə tanış olduqca həmin dövrdə yaranan milli ədəbiyyatımızın nümunələrinin inkişaf prosesini izləyə bilirlər, onları mövzu, obraz baxımından fərqləndirməyi öyrənirlər.

Şagirdlərin müstəqil işində ev tapşırığı olaraq ikihissəli gündəlikdən istifadə etmələri tapşırıla bilər. Gündəlik iki xanadan ibarət cədvəl şəklində olmalıdır. Birinci xanasında şagirdlərə mətndən ən çox təsir edən cümlələr yazılmalıdır. İkinci hissədə isə bu cümlənin yazılma səbəbi göstərilməlidir. Bu xanada onlar öz xatirələrindən və ya assosiasiyalarından nümunə çəkə bilərlər. Dərslikdə 4-cü dərsin yekununda isə verilən ev tapşırığında qoca balıqçının sonrakı taleyinin şagirdlər tərəfindən necə təsəvvür edildiyini yazmaq tapşırılır. Bununla bərabər onlar öz təqdimatlarında internet resurslarından götürülən illüstrasiyaları və ya özlərinin çəkdiyi rəsmləri də istifadə edə bilərlər. Əsərlər bərabər verilən illüstrasiyadakı qoca obrazının onların təqdimatlarında fərqli şəkildə təsviri də yer ala bilər.

Nəticə. Dərs zamanı Ernest Heminqueyin həyatı və "Qoca və dəniz" əsərini araşdırdıq. Əsəri ətraflı təhlil etdik, simvolizm və obrazların xüsusiyyətlərini ortaya qoyduq. Dərs bizə böyük yazıçının mövqeyini yaxşı başa düşməyə və qiymətləndirməyə imkan verir. Belə qənaətə gəlmək olar ki, "Qoca və dəniz" əsəri şagirdləri dünya ədəbiyyatı mənzərəsi ilə yaxından tanış edir. Aşağı siniflərdən fərqli olaraq yuxarı siniflərdə əsərlərin mətninin tam formada verilməməsinə baxmayaraq, əsərin yüksək səviyyədə tədrisinə dərsi düzgün təşkil etməklə nail olmaq olar.

İstifadə edilmiş ədəbiyyat

1. Heminquey E.M. "Qoca və dəniz", s. 182 https://achiqkitab.aztc.gov.az/az/file/view/kitabyurduorg-1477680429-ernest-heminquey-qoca-ve-deniz-1.pdf (20.04.2024)
2. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün ədəbiyyat fənni üzrə dərslik, "Bakı" nəşriyyatı", s.224
3. Луценко Т. М. Зарубежная литература в школе. — Минск, 1973, s.224
4. Хемингуэй в воспоминаниях современников / Редкол.: Н. Балашов, Д. Затонский, П. Палиевский и др.; Сост., вступ. статья, коммент., указатель Б.Грибанова. — М.: Худож. лит.: ТЕРРА, 1994. — 543 с. — («Литературные мемуары»).

QÖVSİ TƏBRİZİ POEZİYASINDA QURAN QİSSƏLƏRİNİN FƏLSƏFİ İNTERPRETASİYASI

Dünya Şəmilova*

Abstract

The philosophical interpretation of quranic stories in the poetry of Qovsi Tabrizi

The literary legacy of Govsi Tabrizi, a revered thinker and poet of the 16th century, resonates with profound moral and spiritual insights. Rooted in the Holy Quran and fueled by divine love, Tabrizi's compositions transcend time, embodying universal significance and enduring relevance. His contributions are integral to the tapestry of classical Azerbaijani literature, serving as a timeless beacon of ethical contemplation. Tabrizi's verses offer invaluable moral guidance, addressing concerns that transcend temporal boundaries and emphasizing the depth of Azerbaijani literary tradition. Like his predecessors, Tabrizi sought to instill moral enlightenment and dissect societal dynamics through his poetry. Drawing upon Quranic narratives and verses, he advocates for equity and justice, urging individuals to navigate life's journey with integrity and purpose. Through his work, Tabrizi engages with existential questions, dispels doubts, and prompts introspection by illustrating Quranic examples. Furthermore, he offers pragmatic solutions grounded in historical precedent to address seemingly insurmountable challenges.

Keywords: *Poetry, Koran, maturity, nurture, mankind*

Giriş. Klassik poeziyamızda ictimai fikrin və ədəbi-estetik düşüncənin təşəkkülündə müstəsna rol oynayan, Təbriz ədəbi mühitinin yetirməsi Əlican Qövsi Təbrizi görkəmli İntibah şairlərindən biridir. Sufi-panteist dünyagörüşünü əks etdirdiyi parlaq yaradıcılıq nümunələrində Füzuli ənənələrini özünəməxsus çalarlarla davam etdirən ədib güclü qələm və parlaq təfəkkür sahibidir. Qövsi yaradıcılığını dəyərli edən amillərdən biri də Azərbaycan şeir dilinin inkişafı tarixində körpü rolunu oynamasıdır: *"Qövsi klassik şeir dilimizin sadələşməsi, xəlqilik elementləri ilə zənginləşməsi yolunda ciddi addım atmışdır. Bu mənada Qövsini bir növ Şah İsmayıl Xətayi ilə müqayisə etmək, onu "XVII əsrin Xətayisi adlandırmaq olar. Belə ki, ədəbi dilimizin (yazılı şeir qolunun) inkişaf tarixindəki mövqeyinə və roluna görə Xətayi Nəsimi ilə Füzuli arasında körpüdürsə, Qövsi Füzulini Vaqiflə birləşdirir"* [13, s. 97].

Şeirlərinin əsas qəhrəmanı insan olan ədib zərgər incəliyi ilə bəşəri tərbiyə konsepsiyasını işləyir və insanları həqiqi mahiyyətlərini dərk etməyə səsləyərək materialist dünyanın ötəsindəki mənəvi zirvədə görməyi arzulayır. Bu cür insan ruhi keyfiyyətlərini gücləndirir və mənəvi dünyanın dəyərlərini daha yaxşı dərk edir. Filosof-şair insanın real və daxili dünyasında qarşılaşdığı mənəvi çətinliklərin geniş təsvirini verdikdən sonra çıxış yolunu göstərməyi də unutmur. O, insanın daxili aləminin tərəqqisi üçün zikir, fikir və mənəvi ibadət kimi praktik mənbələr təklif edir.

Qövsi Təbrizinin fəlsəfi fikirləri, İslamın təsəvvüf sahəsində dərinləşməsinə və əhəmiyyətli şəxsiyyətlərin yetişməsinə təkan vermiş ədəbi məktəbdir. Onun fikirləri İslam düşüncə tarixində önəmli yer tutmaqla yanaşı yaşadığı dövrün və ictimai-sosial toplumun fəlsəfi mühitini də zənginləşdirir. Bütün bu amillər Qövsi Təbrizi yaradıcılığını bir xalqa, coğrafiyaya aid olmaqdan uzaqlaşdıraraq İslam dünyası və bəşəriyyət üçün dəyərli edir.

Həyatı və yaradıcılığı boyunca elm, poeziya, irfan və İslama olan məhəbbəti, insanın ruhi tərəqqisinin mühümlüyünü vurğulayan müəllif yeri gəldikcə şəxsi, lakin obyektiv mənəvi təkamül nəzəriyyələrini əsaslandırmaq üçün Qurani-Kərim qissə və ayələrinə müraciət edir, keçmiş təcrübəni müasir aspektdən praktikləşdirməyin yol və üsullarını müəyyənləşdirir.

Klassik Azərbaycan poeziyasında İslam fəlsəfəsinin önəmli təmsilçilərindən olan Qövsi Təbrizi yaradıcılığında dini, fəlsəfi, bədii, psixoloji, mənəvi, hətta siyasi düşüncələr müxtəlif dövrlərdə və coğrafiyada yaşamasından asılı olmayaraq bütün bəşəriyyətə, insanlığa fərqli ştrixlərlə təqdim edilir.

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: shemilovadunya@gmail.com. Rəyçi:*** *Fil.e.d., Dos. Əzizağa Nəcəfov.*

Fikrimizi əsaslandırmaq üçün müəllifin insanı mənəvi kamillik və inkişafa, ilahi vəhdətə səsləyən, insanın mənəvi axtarışı və təkamülü üçün zəngin mənbə rolunu oynayan poeziyasından nümunələr göstərə bilərik.

Əsas hissə. Qövsi Təbrizi yaradıcılığını əbədiləşdirən mühüm xüsusiyyətlərindən biri də hər dövrün oxucusunun mənəvi tərbiyəsi üçün lovğalıq, hərislik, vəfasızlıq, maddi aləmə bağlılıq kimi mənfi amillər və onların törədə biləcəyi təhlükələrin nəsihətamiz dillə izah edilməsidir. Fəlsəfi görüşlərinin əsaslandırılmasında Qurani-Kərimdən götürülmüş ibrətamiz hekayələr isə əsas ideya-bədii qaynaqlardandır.

Dünyadə həris olma, unut əqlü məaşın
Kim, mur bu vadidə Süleymanə yetişməz [7, s. 127].

Əqli-məaş və əqli-məad olmaqla iki növ əql vardır: *"Xudavəndi aləm bu iki əqli bəni-noi-bəşərə kərmaət edibdir ki, əqli-məaş ilə elmi-əbdanı təhsil edə və əqli-məad ilə elmi-ədyanı"* [5, s. 13]. "Mur" qarışqa, "məaş" yaşayış, həyat deməkdir. "Əqlü-məaş" isə Qurani-Kərimdəki təbiri ilə nəfsi-əmmarə, yəni heyvani istəklərə təhrik edən qüvvədir: *"Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs adama pis işləri əmr edər" (Yusif, 53)* [4] "Həris" ərəb sözü olub bir şeyə həddindən artıq can atan, aludə olan insan deməkdir. Bu cür insan dünya gözəlliklərinin əsiridir: *"Qadınların, uşaqların, yığın-yığın qızıl, gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözlərinə gözəl göstərilmişdir". (Ali İmran, 14)* [4]

XIX əsr fəlsəfəsinin maarifçilik ideologiyası fonunda formalaşan klassik Alman filosofu Fridrix Nitsşe özünün *"Zərdüşt belə deyirdi"* adlı əsərində deyirdi: *"Qardaşlar, öz dünyanıza sığının, bu dünyaya pənah gətirin"* [6, s. 24]. Nitsşe düşünürdü ki, insan sahib olduqca və yiyələnməyi daha çox istədikcə həyatını bunun üzərində qurur, daha da tərəqqi edir. Qövsi Təbrizi isə Nitsşedən fərqli olaraq dünya həyatına təəşşəqlüyü insana eyib tutur. İslam və irfani dünyagörüşündə insanın özünü alçaltması, Allahdan qeyrisinə kölələk etməsi ariflər tərəfindən tənqid edilir. Çünki hər cür bağımlılıq insanı azad olmaqdan mən edir.

Fikrini əsaslandırmaq üçün şair ikinci misrada "Süleyman və qarışqa" qissəsindən misal çəkir: *"Süleymanın cinlərdən, insanlardan və quşlardan ibarət qoşunu toplanıldı. Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və onun qoşunu özləri də hiss etmədən sizi tapdayıb məhv etməsinlər". Süleyman qarışqanın bu sözünə gülümsədi və dedi: "Ey Rəbbim! Mənə ata etdiyin nemətə görə şükürlər olsun"(Nəml, 17-19))* [4]

İnsan beyni insan həyat fəaliyyətini təmin edən və dayanmadan çalışan mexanizmanı xatırladır. Lakin burada incə biz cizgi vardır. Eyni məsələlərin təkrar-təkrar düşünülməsi əsas olanların gözdən qaçırılmasına səbəb olur. Qövsinin məqsədi də bu amili izah etməkdir. O, dünya həyatı ilə bağlı məsələlərdə Allaha güvənməyin mütləqliyini vurğulayır. *"Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər"(Talaq, 3)* [4].

Murun Süleymana yetişməmə səbəbi isə canının dərdinə düşüb, canı bəxş edəndən qəflətdə olmasıdır. Ali İmran surəsi 154-cü ayədə buyrulur: *"Bir qisminiz öz canlarının hayına qaldı. De: "Bütün işlər Allaha aiddir"* [4].

Diyari-eşqdə olmaz böyük-kiçik, Qövsi,
Bu yerdə mur Süleyman ilən barabərdir [7, s. 82].

Qarışqa Süleyman qoşunun əzəmətindən və ehtiyatsızlığından qorxuya düşür. Lakin diyari-eşqdə, yəni Allah qatında Süleymanla qarışqa birdir: *"Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Allah onların qərar tutduqları yeri də, qorunub saxlandıqları yeri də bilir"*. (Hud surəsi, 6-cı ayə) [4].

XX əsr humanizm fəlsəfi görüşlərində insan potensialı qabardılır, hətta insani məsələlərdə fövqəltəbii qüvvələrin varlığı qəbul edilmir. İnanclar həqiqət düşmənləri olaraq, yalanlardan daha təhlükəlidir deyən Nitsşe elə bu səbəbdən *"Zərdüşt belə deyirdi"* əsərində Tanrının öldüyünü elan edir. Hər iki yaradıcılıq qolunun əsas ideyası fövqəlinsan konsepsiyası yaratmaqdır. Yəni Tanrıdan və hər cür avtoritarlıqdan imtina edən insan yalnız öz gücü hedabına həqiqətləri tapa və həyatını idarə edə bilər. İnsan sərbəst və ilkin instinklər dövründəki kimi azad olmalıdır. Lakin qanunsuz və idarəsiz insan fəlakətlər törədər. 17-ci əsrin məşhur filosofu Tomas Hobs *"De Cive"* əsərində qeyd etdiyi və

uzun müddət mübahisələrə səbəb olmuş *"İnsan insanın canavarıdır"* fikri burada öz təsdiqini tapmış olur. Filosofun məqsədi insanı alçaltmaq və ya təhqir etmək olmamış, o həddini aşan azadlığın insanı canavara dönüştürməsindən söz açmışdır.

Öncədən də qeyd etdiyimiz kimi irfani dünyagörüşündə də kamil insan azad insandır və köləlikdən uzaqdır. O sadəcə bir məqamda boyun əyir və bu Tanrı hüzurudur. Lakin bu məqamda insan əyildikcə mənən daha da yüksəlir. Elə bu səbəblə Qövsi yanaşmasında Tanrıya bəslənən ümid mühüm əhəmiyyət kəsb edir, xüsusən mənəvi məsələlərə daha çox fokuslanmaq və dünyəvi məsələlərdə Allaha güvənmək kamillik göstəricisi hesab edilir. Yəni Qərb fəlsəfəsi Tanrıdan, irfan və Qövsi Təbrizi isə dünyəvilikdən uzaqlaşan insanı azad hesab edir:

Can nədir, kimsə onu etməyə cananə fəda,
Ola, ya olmaya bir mur Süleymanə fəda.
Vəchi var, bağrımı cəllad gözün doğrar kim,
Ola hər parəsi bir navəki-müjganə fəda [7, s. 24].

"Vəch" ərəbcə "səbəb", "navəki-müjgan" isə "ox kimi kirpik" deməkdir. "Cananın cəllad gözlərinin bağrımı doğraması səbəbsiz deyil. Hər parçası ox kimi bir kirpiyinə qurban olsun". Şair qarışqanı maddi nemətlərə aludə olan insanlara bənzədir. Bu aludəçilik isə xəsisliyə və qəflətə səbəb olur. Qədim Yunan filosofu Sokrat da tamahkarlığı insana böyük qüsur hesab edərək deyirdi: *"Dünya malına səcdə etmə, əlindən çıxanda kədərlənərsən"* [14, s. 124]. Digər bir şeirində müəllif eyni məsələni müxtəlif qissədən sitat gətirməklə izah edir:

Əvvəlü axır olur dünya sevən dünyaya sərf,
Qarə yer altında həm Qarun nəfəs çağ eyləməz [7, s. 131].

"Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir" (Qassas, 76) [4]. Elə bu səbəblə Qarun ilahi qəzəbə düçar olaraq sərvəti ilə bərabər yerin altına batır. Qövsi bu misalla dünya həyatına aludə olan insanın aqibətinin də Qarundan fərqli olmayacağını izah etməyə çalışır. Şair bu dünyada sərvət sahibi olmağın özünün də çətin bir sınaq olduğunu bildirir: *"Möminlər Bizim onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyərlər" (Ənfal, 3), "Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ" (Tövbə, 34) "Qarunu, Fironu və hamanı da məhv etdik. Həqiqətən, Musa onlara aydın dəlillər gətirdi. Onlar isə yer üzündə təkəbbürlülük etdilər və axırda əzabımızdan qaça bilmədilər". (Ənkabut, 29)* [4]

İrfan və Qərb filosoflarının görüşləri arasında antaqonizm hər zaman ön plandadır. Bu məsələlərdən biri də Qərb fəlsəfəsində tez-tez qarşılaşdığımız "eqoist insan" problemidir. Humanizmin göylərə qaldırdığı və hər şeyi, hətta onu yaradan Tanrını belə aşağıda buraxaraq yüksəltdiyi insan haqlı olaraq eqoist varlığa çevrilir. Lakin eqoizm və lovğalıq da İrfani aspektdə insana yaraşmayan xüsusiyyət hesab edilir:

Hər kim ayağı altına baxmaz qürurdan,
Gərduni-pir anın əlinə tez əsa verir.
Kəm tutma binəvaləri, Yusifdən et qiyas
Kim, ruzigar yaxşılərə az bəha verir [7, s. 83].

"Gərdun" fələk, səma, "pir" ilahi, müqəddəs yer deməkdir. Şair bildirir ki, hər kim yer üzündə təkəbbürlə gəzərsə, ona bəla üz verər və tez yıxılar, qalxması üçün isə əsaya ehtiyac duyar: *"Yer üzündə təkəbbürlə gəzmə. Çünki sən nə yeri yara bilər, nə də yüksələrək dağlara çata bilərsən" (İsra, 37)* [4]. Qövsinin bu fikrinin Quran qissələri ilə digər bir əlaqəsi Kəhf surəsi 32-44-cü ayələrdə bəhsi keçən iki şəxs və təkəbbürlü olan şəxsin bağının aqibəti haqqında hekayədir. Məqalədə lakonikliyi qorumaq üçün hekayənin tam şəklini verməyi məqsədə uyğun hesab etmədik.

"Binəva" fağır, zavallı, "qiyas" müqayisə edərək hökm vermək, "ruzigar" tale, fələk mənalarındadır. "Bəha" yüksək məbləğ, sərvət deməkdir. Şairin ifadə etmək istədiyi mənaya gəldikdə isə Qövsi fağır və zavallılara qarşı etinasızlıq etməməyi, onları əzməməyi Yusif peyğəmbərin hekayəsini misal gətirərək izah edir. Yusif Allahın əziz və dəyərli bəndələrindən idi, lakin quyuya salınmağa, qul bazarında qul kimi satılmağa, uzun müddət qul olaraq çalışmağa, daha sonra zindanın

məşəqqətli işgəncələrinə dözməli olmuşdu: *"Onu dəyərsiz bir qiymətə-bir neçə dirhəmə satdılar. Onlar onu çox qiymətləndirmədilər" (Yusif, 20) "Həqiqətən o Bizim seçilmiş qullarımızdandır" (Yusif, 24)* [4].

Bu məqamda klassik ədəbiyyatımızda çox geniş işlənmiş "bəla" mövzusu ilə qədim Hind fəlsəfəsinin Budda təlimi ilə bağlı olan ziddiyətli fikirləri qeyd etmək yerinə düşər. Bu təlimdəki *"4 nəcib həqiqət"* prinsipinə görə insan dünyaya əzab çəkmək üçün gəlib və əzab heç zaman bitmir.

İrfani düşüncədə isə bəlaya fərqli yanaşma mövcuddur. Məcnunun daha da artmasını dilədiyi irfani bəla irfan yolunun yolçusuna səbr, dözüm, iradə kimi müsbət insani keyfiyyətləri aşılamaqla bərabər, ucaldır və Tanrıya yaxınlaşdırır. Allah dostları bu dünyada ikən kasıblıq, mal itkisi kimi çətinliklərə imtahana çəkilər. Lakin Rəbblərinin nəzəri daim onların üzərindədir və məhz onlar Allah dostlarıdır: *"Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbr edənlərə müjdə ver. Məhz onlar doğru yoldadır". (Bəqərə, 155) "Onlar Allaha yaxın olanlardır" (Vaqiə, 11)* [4].

Gözüm peyvəstə bərqi-əbr tək, vəslin baharından
Əbəs bitablıq, bihudlə giryanlıq mənə qalmış.
Səba peykim, bəla xeylim, külahim şöleyi-ahim,
Səririm məskənət, Qövsi, Süleymanlıq mənə qalmış [7, s. 133].

"Peyvəstə" birləşmiş, bitişik; "bərqi-əbr" soyuq bulud; "vəsl" vüsal, görüşmə anı, "əbəs"-faydasız, "bitablıq" dözümsüzlük, "bihud"-nəticəsiz, "giryanlıq" ağlamaq deməkdir. Şairin gözləri sevdiyinə qovuşacağı günü gözləməkdən bulud tək ağarmışdır. Dözümsülüyü, göz yaşları isə faydasızdır. Bu misralardan Hz. Yusif yolunda ağlamaqdan gözləri ağaran Hz. Yaqubun qissəsini xatırlayırıq: *"Kədərdən onun gözlərinə ağ gəldi" (Yusif, 84)* [4] Yaqubun göz yaşları da nəticəsiz və faydasız idi. Çünki o da Yusifin intizarında həqiqi Məşuqdan qafil olmuş və vüsalı çətinləşmişdi. Öz dünyəvi sevgisini qurban verən Yaqub həqiqi vüsala yetişmişdi. Qövsi dünyəvi eşqləri, nəfsi qurban vermədən həqiqətə qovuşmağın mümkünsüzlüyünü vurğulayır, çünki bir qəlbə iki sevda yerləşməz. Eyni motiv Buddizm fəlsəfəsində də rast gələ bilərik: *"Dünyada zülm, əzab var. Zülmün, əzabların səbəbləri var. Səbəb aradan qaldırılsa, zülm və əzab dayanar"* [11, s. 105]. Səbəblər dünyəvi nəfs, arzu və istəklərdir: *"Əgər arzuya meyl ləğv olunmayıbsa, əzab təkrar-təkrar doğulur"* [11, s. 87].

Klassik Azərbaycan ədəbiyyatında Yusifin gözəlliyi, Süleymanın müdrikliyi kimi qəlibləşmiş motivlər vardır. Yusif peyğəmbərdən sonra ikinci hissədə Süleyman peyğəmbəri xatırlatması da bununla bağlıdır. "Səba"-səhər mehi, "peyk"-məktub, "bəla"-dərd, "xeyl"-at, "külah"-papaq, "sərir"-taxt, "məskənət"-acizlik deməkdir. Süleyman peyğəmbərə Tanrı qatında yüksək elm və qüvvə əta edilmişdi. Qövsi bu barədə yazır:

İnsü cinnü divü dəd vari müsəxxərdir ana,
Zahirən kim, xatəmi-mülki-Süleymandır xəyal [7, s. 155].

"İnsü cinnü divü dəd" insanlar, cin, div və vəhşi heyvanlar, "müsəxxər" tabe edilmiş deməkdir: *"Səhər bir aylıq məsafəni qət edən, günortadan sonra yenə bir aylıq məsafəni qət edən küləyi də Süleymana ram etdik. Biz onun üçün mis qaynağını sel kimi axıtdıq. Rəbbinin izni ilə cinlərin bir qismi onun qabağında işləyirdi."* (Səba, 12) [4]. "Xatəmi-mülki-Süleyman" isə Süleyman peyğəmbərin sehirli üzüyüdür. O bu üzüklə cin və heyvanları idarə edirdi.

Təsəvvüflə bağlı görüşlərdə at nəfsə işarədir. Çünki qaçağan atın cilovu kimi nəfsi də idarə etmək diqqət, güc və əmək tələb edir. Bu səbəblə də nəfsi tərbiyə zamanı ariflər dünyanı səhraya, nəfsi ata bənzədərək bildirirlər ki, atı öldürmək yarı yolda qalmaq, onu ram etmək məntəqəyə varmaq deməkdir. Dərdim atımdır deyən şairin məqsədi bu dərdlərin onu dünya yolunda məntəqəyə çatdıran vasitə olmasına işarə etməsidir. "Ahım başımın papağıdır" deyərkən şair çəkdiyi nalədən şikayət etmir, onun yerinin başının üstü olduğunu bildirir. Hökmdarın taxtı onun şahlığının nişanəsi olduğu kimi, Qövsinin acizliyi də onun aşiqliyinin nişanəsidir. Eşq yolunda başına gələn bəlalara səbr etmək klassik şeir dili ilə desək aşiqi kamilləşdirmişdir. Süleyman müdrik hökmdar, Qövsi isə müdrik aşiqdir.

Dərd əlindən dudi-ahim çün fələk peymalənir,
Yaşınır xurşidi-tabanü Məsiha gizlənir.
Durmıyan, oturmıyan xəlq ilə bilməz kim, neçin

Yer üzündən qaçıban göylərdə İsa gizlənir [7, s. 99].

"Dudi-ah" ahın tüstüsü, "peymanə" qədəh, "yaşınmaq" üzünü məhrəm olmayanlardan gizləmək, "xurşidi-taban" parlaq günəş deməkdir. *"Dünya nədir? Allahdan qafil etmək"* deyən Mövlanın təbiri ilə şərh etsək, dünya ayrılıq yeridir, insan burada aid olduğu vahid bütündən ayrıdır. Nəsimi yazır:

Dünya duracaq yer deyil, ey can, səfər eylə,
Aldanma anın halına andan həzər eylə! [1].

Həm Qövsi, həm də Nəsimi bildirir ki, məhz Allahın yad edildiyi cəmiyyətin insanları mərhəmətli və xeyirxahdır. Allahın unudulduğu cəmiyyətlərin isə mənəvi böhranı qaçınılmazdır: *"Məgər onlar yer üzündə gəzib-dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi? Onlara Allah zülm etmirdi. Onlar özləri özlərinə zülm edirdilər"(Rum, 9); "Allah onları yerli dibli yox etmişdir. Bu ona görədir ki, Allah möminlərin Himayəçisidir. Kafirlərin isə heç bir himayəçisi yoxdur" (Muhəmməd, 10, 11); "Onlar Allahı unutdular, Allah da onları unutdu"(Tövbə, 67)* [4].

Azğınlıq və küfrün tüğyan etdiyi belə cəmiyyətlərdən birində İsa Məsih də məhz nadan insanların əməlləri ucbatından qeybə çəkilmişdir*: "Onlar həm küfr etdiklərinə və Məryəmə böyük bir böhtan dediklərinə görə, bir də "Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!" dediklərinə görə lənətə düçar edildilər. Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər... Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır". (Nisa, 156, 157, 158)* [4].

Ayü gün tək hüsn mə'nisin sən etdin aşkar,
Gərçi hər Yusif onu bir rəng tə'bir eylədi [7, s. 262].

"Hüsn mə'nisi" gözəlliyin mənası deməkdir: *"Mən gizli bir xəzinə (kənz-i məxfi) idim", "İnsanları və cinləri ancaq Mənə ibadət etmək üçün yaratdım" (Zəriyət, 56)* [4]. "Təbir" məna çıxartmaq, yozmaq deməkdir. Bütün Kainat Vacibul-vücud rəngindədir, çünki hər bir mümkünül-vücud onu fərqli formada və rəngdə təmsil edir. Buradan da vəhdəti-vücud fəlsəfəsinin Qövsi yaradıcılığındakı izahını görmüş oluruq. Qurani-Kərimdə buyurulur: *"Siz hara baxsanız Tanrının vəchini, təcallasını görəcəksiniz"* [4].

Qövsi didaktikasını davam etdirərək mövcud cəmiyyətin əxlaqi və mənəvi problemlərinə nəzər salır. O, insanı yüksək qiymətləndirir, çünki onu yaradan Allah da insana yüksək dəyər vermişdir. İnsan Allahın canişini, onun bütün adlarını özündə birləşdirən əşrəfi-məxluqatdır: *"Mən yer üzündə bir canişin bərqərar edəcəyəm" (Bəqərə, 30)* [4]. Bu ada laiq olmaq isə onun əsas vəzifəsidir. Şair oxucusuna bu vəzifəni icra etmək üçün yol göstərir, dəyərli nəsihət və fikirlərini bölüşür.

Nəticə. Yuxarıdakı nümunələrdən də gördüyümüz kimi Qövsi Təbrizi yaradıcılığında Quranın müsbət təsiri danılmazdır. O, Quranı mənəviyyatın əsas mənbəyi və rəhbəri kimi görmüş, onun ilhamı altında fəlsəfi fikirlərini inkişaf etdirmişdir. Quranın mənəviyyat, əxlaq və insanın Tanrıyla əlaqəsiylə bağlı mesajları, Qövsi Təbrizinin fəlsəfi düşüncələrinin ən əlamətdar xüsusiyyətləridir. Şair Quranın mənəviyyatını anlamaq və onun mənəvi mesajlarını insanların həyatına tətbiq etmək məqsədi ilə Quranı təhlil və istifadə etmişdir. Quranın insanın iç dünyasına təsir edən dərin məzmunlu xitabları Qövsi Təbrizinin fəlsəfi fikirlərinə də yansımışdır.

"Onlar iman gətirən və Allahı zikr etməklə qəlbləri rahatlıq tapan kimsələrdir. Bilin ki, qəlblər (ancaq) Allahı zikr etməklə rahatlıq tapar" (Rəd, 28) [4] ayəsini və bu ayənin fəlsəfəsini insanın mənəvi inkişafı üçün məqsəd və əsas formul kimi qəbul edir. Müəllif bütün şeirlərində oxucusunu Qurani-Kərim məsləhət və təcrübəsinin praktik tətbiqinə təşviq edir

Ruhi sükunət və mənəvi rahatlıq tapmaq istəyən oxucusunu irfana dəvət edən şairin yarsdıcılığı çətin və məşəqqətli həyat yolunda insanlığa bələdçilik edən dəyərli mənbə və xəzinədir. Müasir oxucular üçün Qövsi yaradıcılığının əsas mahiyyətləri din və fəlsəfənin vəhdətinə xidmət edən, mənəvi inkişafı dəstəkləyən poeziya nümunələrinin bəşərin mənəvi tərbiyəsinə xidmət etməsi ilə yanaşı müasir dövrün problemlərinin təsvirini və həll yollarını özündə ehtiva etməsidir. Öz yaşam məqsədini tapmağa çalışan və potensialını reallaşdırmağa çalışan insan bu dərin fəlsəfi şeirlədə aşkar və gizli ipucları tapa bilər.

Oxucusunu düşündürərək zövq verən yazıçı onu təfəkkür və refleksiyaya, öz dəyərini və mahiyyətini anlamağa sövq edir, yenilik və tərəqqiyə olan inamı diri tutaraq yeni ideyaların, mədəni dəyişiklərin bərpası və ya qəbulunu asanlaşdırır. Bu aspektdən yanaşdıqda Qövsi şeirləri mədəni dəyərləri qorumağa və onların inkişafına dəstək olur, tolerantlıq və həmrəylik fonunda müxtəlif xarakter və kimliyə sahib olan insanların bəşəri birliyini, qarşılıqlı münasibətlərini, mərhəmət, ədalət, yardımsevərlik, sevgi kimi insani dəyərlərini formalaşdırmasına təkan verir. Müasir dünyanın yaşam tərzində stres, depresiya, yalnızlıq və qeyri-mənəvi, materialist yaşamın digər problemləri ilə mübarizə aparmaq üçün Qövsinin mütərəqqi düşüncələri xilas edici, mühüm faktorlardır.

İstənilən dövr üçün aktual problemləri özündə ehtiva edən klassik Azərbaycan poeziyası, xüsusi ilə onun dahi sənətkarlarının bədii-fəlsəfi görüşləri, novator, innovativ düşüncə təzinə malik unikal tarixi-ədəbi şəxsiyyət Qövsi Təbrizi yaradıcılığının və onun məna çalarlarının araşdırılması, oxuculara daha aydın dildə və müqayisəli şəkildə təqdimi dövrün tələblərindən irəli gələn zərurətdir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Ədəbiyyatı Tarixi: 6 cilddə, II c., Bakı: Elm, 2007, 630 s.
2. Bəlağı S. Quran hekayətləri. Bakı: Kitab Klubu, 2020, 440 s.
3. Bəşir Əhmədov. Azərbaycan dilinin qısa etimologiya lüğəti. Bakı: Mütərcim, 1999, 376 s.
4. Bünyadov Z., Məmmədəliyev V. Qurani-Kərim. Bakı: 1991, 714 s.
5. Faiq Ələkbərli. Azərbaycan türk fəlsəfəsi və ictimai fikrinin inkişaf yolları (XIX yüzil) // "Türküstan" qəzeti, 2023, s. 13
6. Fridrix N. Zərdüşt belə deyirdi. Bakı: Qanun, 2020, 30 s.
7. İmadəddin N. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: Lider, 2004, 376 s.
8. Q. Təbrizi. Seçilmiş əsərləri. Bakı: Lider, 2005, 328 s.
9. Nəcəfzadə A. İ. Etnoorqanologiya. Bakı: Ecoprint, 2016, 304 s.
10. Nəzərova A.H. Fəlsəfə terminlərinin izahlı lüğəti. Bakı: "Elm və təhsil", 2014, 224 s.
11. Şirazi Hafiz. Seçilmiş şeirlər. Bakı: Öndər, 2004, 208 s.
12. Vilhelm Reyx. Budda Dhammapada. Bakı: Başla Kitab, 2013, 108 s.
13. Y. Seyidov, S. Əlizadə. Klassik Azərbaycan şairləri söz haqqında.-Bakı: ADU, 1977, s. 97
14. Zeynalov m. B. Fəlsəfə tarixi (Qərb fəlsəfəsi) Ali məktəblər üçün dərslik. Bakı: Azərbaycan, 2001, 544 s.

İnternet resursu

1. https://edebiyyatqazeti.az/news/poeziya/2701-dunya-duracaq-yr-dyil-y-can-sefer-yle (15.11.2018)

BƏDİİ ƏDƏBİYYATDA PSİXOGENEALOJİ ELEMENTLƏR

Sərvanə Fərəcova (Dağtumas)*

Abstract

Psychogenealogical motives in artistic creation

In the 19th and 20th centuries, theories that greatly contributed to the science of psychology began to emerge. When we examine many of these theories, we reveal a number of points related to the problem of "fate and fate". The main leading methods and theories of this period are psychoanalysis, individual psychology, logotherapy and analytical psychology. Psychological science, especially the theories of Freud and Jung, are reflected in fiction. In addition, it is possible to find examples of the science of psychogenealogy. While genealogy is the science of genealogical relationships, the history and tracing of generations, the science of psychogenealogy that we will focus on examines the relationship of human psychology with genealogical bonds, the mechanisms of the influence of intergenerational traumas, generational curses on a person's destiny, and family secrets. In the article, the main focus is on the examples of psychogenealogy, especially Q.Q. Focused on Marquez's "One Hundred Years of Solitude" and Orkhan Pamuk's "Red Haired Woman".

Keywords: *psychogenealogy, generational curse, family tree, archetype, psychotherapeutic novel.*

Giriş. Psixogenealogiya elmi çili-fransız kinorejissoru, sürreal filmləri ilə məşhurlaşan Aleksandro Kodorovskinin adı ilə bağlıdır. Nəsillərarası travma ilk dəfə Holokost faciəsindən- yəhudi soyqırımından sağ çıxan uşaqlarda müşahidə olunub. Bundan əlavə, köləliyə məcbur edilən afro-amerikalıların, Kaliforniya soyqırımından sağ çıxanların, qaçqınların nəsilləri arasında da nəsillərarası travma müşahidə edilmişdir.

Nəsil lənəti bir nəsildən digər nəsilə keçən vərdiş və ya davranışlardır. Bir nəsildən digər nəsilə əcdadların günahı, lənətlər, dualar, arzular, silsilə intihar və boşanma hadisələri, uğursuz təcrübələr, psixoloji və psixosomatik xəstəliklər ötürülür. Yeddi nəsil öncədən yaşanan "tale" bugün yeddi nəsildən sonra gələn nəsilin hansısa bir üzvündə müşahidə edilə bilər. Bu, zəncirvari bir prosesdir.

Psixogenealogiya elmindən danışarkən "zeyqarnik effekti", (yarımçıq qalan fəaliyyətlərin daha tez xatırlanması) "yubiley sindromu", (travma ildönümləri) "bədən yaddaşı", (travmatik bədən xatirələri) "ailə sədaqəti" kimi anlayışlar da diqqətə alına bilər. Psixogenalogiya elminə görə, insan cinayət törətməyə meyllidirsə, pis vərdişləri varsa, (maddə bağımlılığı, cinsəl istismara meyllilik və s.) bu zaman gen strukturları üzə çıxır, insanın genetik quruluşu buna imkan yaradır. Həmçinin, elm bəzi genlərin cinayətə, mənfi vərdişlərə meylli olduğunu qeyd edir. (dopamin hormonunun artması)

Bununla bağlı digər araşdırma mövcuddur. Məsələn, darvinizmlə bağlı yaranan yevgenika nəzəriyyəsi insanın taleyinə müdaxilə edərək, sağlam nəslin formalaşmasını, irsi xüsusiyyətlərin nəsildən-nəsilə ötürülməsini, insan irqinin təkmilləşdirilməsini təmin edir. Həmçinin, atavizm də darvinizmə əsaslanır. Atavizmin müəllifi hesab olunan İtaliya həkimi və kriminoloqu C.Lombrosonun fikrincə, biokriminoloji nəzəriyyələr insanın cinayət törətməsində genetik və bioloji faktorları əsas götürür. (kriminoloji atavizm) "İnsan iskeletindeki bütün kemikleri bir maymunda, yarasada veya fokta bulunan benzer kemiklerle karşılaştırmak mümkündür" [2, s. 16].

Xristianlıqda hamartiologiya (günah doktrinası) anlayışı mövcuddur. Hamartiologiya yunanca "işarəni qaçırmaq" deməkdir, əbədi və bağışlanmaz günahların, əcdadların günahlarının öyrənilməsi, nəsil lənətləri, qarğışları haqqında elmdir. Xristian inancında "Yeddi ölümcül günah" (təkəbbür, şəhvət, paxıllıq, acgözlük, tamah, tənbəllik və qəzəb) anlayışı mövcuddur. "Yeddi ölümcül günah"a yeddi böyük günah, kardinal günahlar və ya əsas günahlar da deyilir. Hamartiologiya ədəbiyyatda və incəsənətdə geniş yayılıb. Məsələn, Hollandiyalı rəssam İ.Bosx əsasında "Yeddi ölümcül günah və dörd son şey" rəsm əsərini ərsəyə gətirib. O, dörd son şey deyəndə ölümü, cənnəti, cəhənnəmi və

* ***Bakı Slavyan Universiteti, magistrant. Elek.poçt: ferecli404@gmail.com. Elmi rəhbər:*** *Prof. Zenfira Vəliyeva.*

qiyamət gününü nəzərdə tutub. Ədəbiyyatda nəsil lənətləri motivlərinə Sofoklun "Çar Edip", Şekspirin "Romeo və Cülyetta", A.K.Doylun "Baskervillərin iti", Q.Q.Markesin "Yüz ilin tənhalığı" əsərlərində rast gəlinir.

Əsas hissə. Bədii yaradıcılıqda psixogenealoji motivlərə rast gəlmək mümkündür. Yazılı ədəbiyyatda "tale və qismət" motivlərinin işləndiyi ilk nümunə yunan dramaturqu Sofoklun "Çar Edip" faciəsi hesab olunur. Bu faciə əsasını qədim Misir nağılından götürüb. "Çar Edip" faciəsində Edipə bir tale biçilir və yazılan tale gerçəkləşir. Edip atası Layusu öldürür və anası Yokasta ilə evlənir. Beləliklə, insest əlaqə yaşanır və qəhrəman lənətlənir. Qeyd edək ki, insest latınca "natəmiz" deməkdir. Edip öz taleyi ilə mübarizə aparmağa çalışarkən taleyin qaçınılmaz olduğunu anlayır. O, ehtiraslarının, intim arzularının deyil, taleyinin qurbanı olur. Tragik qəhrəman olan Edip həm alın yazısına etiraz edərək, həm də yaşadığı əzabları ifadə edərək gözlərini kor edir, anası isə intihar edir. Edipi faciəli taleyinə aparan yol əslində kamilliyə, özünüdərkə gedən yoldur. O, taleyin hökmü qarşısında aciz bir varlıq olduğunu başa düşür.

Kolumbiyalı yazıçı Q.Q. Markesin "Yüz ilin tənhalığı" romanında karmanın izlərini aydın şəkildə görmək mümkündür. Belə ki əsərdə insest əlaqə adlı yeddi böyük günahlardan birinin qurbanı olmuş lənətli bir nəslin taleyi təsvir olunur, eyni adları daşıyan qəhrəmanların taleləri təkrarlanır və adların üzərinə yığılan karmik borclar nəsildən-nəsilə ötürülür. Qəhrəmanların nəinki taleləri, xarakterləri belə oxşardır, melanxolik və depressiv atmosfer bütöv bir nəslin üzərinə kölgə kimi çöküb. Qəhrəmanların hər birinin sonu kədərli və tənha bitir. Xarakter baxımından obrazlar tənhalığa meyillidir, süst, sentimental, depressiv, melanxolik, introvert, şizoid (şəxsiyyət pozuntusu) xüsusiyyətlərə sahibdir. Psixologiyada buna uyğun qavramlar var: "doğulduğun ev qədərindir", "ailə dizimi", "zəncirlənmiş həyat", "öyrənilmiş çarəsizlik", "nəsil ağacı", "karma".

Ailənin düşüncə və təcrübələrinin uşağa təsiri bir bağ yaradır və bu birlik ortaq şüuru bir araya gətirir. Bu formalaşma, bir və ya bir neçə nəslin daxil olduğu ailə arasında taleyüklü və əlaqəli bağın tikinti blokunu hazırlamaqla ailə dizimini ortaya qoyur. Bizə doğulduğum evdə nə öyrədilirsə, biz də onu təkrar edirik, yəni biz anamızın, atamızın imitasiyasıyıq. Ailəmizin. nəsillərimizin bizdə yaratdığı blokajlardan xilas ola bilməyəndə bu "zəncir" uzana-uzana gedir və biz bu çarəsizliyə alışırıq, onu "alnıma belə yazılıb" deyib bağrımıza basırıq. Romanda da Aureliano fərqində olmasa da nəslin mənşəyindəki təcrübə və travmalar ona miras olaraq, ötürülüb

Ədəbiyyatda psixogenealogiya ilə bağlı digər nümunə müasir ədəbiyyatın məşhur siması, türk yazıçısı Orxan Pamukun postmodernizm cərəyanında yazdığı "Qırmızı saçlı qadın" romanıdır. Yazıçı "Çar Edip" faciəsindən və Firdovsinin "Şahnamə" dastanından bəhrələnərək, sevgi, qısqanclıq, ata-oğul münasibətlərini, Şərq-Qərb motivlərini araşdırmışdır. Psixogenealoji əlamətlərin olduğu romanda qadın mövzusunu müəyyən edən ata-oğul münasibətləri, Akın-Cem-Ənvər üçbucağında, yəni baba-ata-oğul üçbucağında əks olunan irsi xüsusiyyətlər romanın əsas hadisələridir. Cem də atası kimi oğluna atalıq edə bilmir. Cemi həyatı boyu həll edə bilmədiyi travmaları, iztirabları izləyir, içinə basdırdığı duyğuları ona əzab verir. Oğlu Ənvər də atasını tanımadan yazıçı olmaq istəyir. ("yubiley sindromu") Cemlə Ənvər arasındakı şəcərə bağı romanın psixogenealoji tərəflərinə işıq salır. Qırmızı Saçlı Qadın obrazı da detal olaraq istifadə olunur, bu münasibətləri üzə çıxaran əsas vasitə hesab olunur: Akının gənclik sevgisi, Cemin yeniyetməlik sevgisi, Ənvərin anası. Akının həmin qadınla yaşadığı sevgi, bu yarımçıq sevginin tamamlanma cəhdi psixogenealoji əlamətləri üzə çıxarır. Romanda qadının saçının qırmızı rəngdə olması təsadüfi deyil. Rəng görürük ki, qadının taleyinə təsir edir. Daha əvvəllər qırmızı saçlı qadınlar Avropada yandırılırdı, çünki onların ruhlarının şeytana satıldığı mifi vardı.

Sovet ədəbiyyatında psixogenealogiya, nəsil travmaları problemi ön planda deyildi. Sovet insanı cəmiyyət insanı, ateist insanı və xoşbəxt insan idi. O, fabrik, kolxoz qurmalı, özü çalışmalı, öz həyatının məsuliyyətinə özü cavabdeh olmalı idi. Bir sözlə hər şey insanın əlində idi, insan özünə həyat qurmalı, azad bir vətəndaş kimi formalaşmalı idi. Bu dövrdə yazılan əsərlərdə də aydın şəkildə görürük ki, yazıçılar xurafatın əleyhinə idi, insanları elmə səsləyirdilər. Sovet ədəbiyyatında yalnız bir cərəyan mövcud idi: realizm. Sovet ədəbiyyatında faciə janrında yazılmış əsər yox idi.

Sovet ədəbiyyatı dövründə əsər yazarkən, seçimlər fərdi və sərbəst olmurdu. Seçimləri sistem təyin edirdi. Sosrealizm məcburi ədəbi metod kimi hakimiyyətə gətirilmişdi və bu dövrdə yaradıcılığa qədəm qoyan elm adamları sosrealizmə məhkum edilmiş yaradıcı insanlar idi. Yazıçıların, elm adamlarının "xalq düşməni" adlandırılması, repressiyanın həyata keçməsi, çərçivəli ədəbiyyat sovet ədəbiyyatına xas özəlliklər idi.

İsmayıl Şıxlının yaradıcılığının böyük hissəsi sovet dövrünə təsadüf edir. "Kerç sularında", "Dağlar səslənir", "Məni itirməyin", "Ayrılan yollar", "Cəbhə yolları", "Dəli Kür" və bir çox əsərləri bu dövrün məhsuludur. İsmayıl Şıxlının yaradıcılığında alın yazısı, fatalizm ön plandadır. Onun son şah əsəri- "Ölən dünyam" romanı 1995-ci ildə yazılıb və sovet dövrü 1991-ci ildə artıq dağılmışdı. Sovet ədəbiyyatının "şinel"indən azad olmuş "Ölən dünyam" romanında müəllif qəhrəmanlarını taleyin acı sınaqları ilə üzləşdirir. "Mən ev-eşiyi, arvad-uşağı başsız qoyub heç yana gedən deyiləm. İnsan anadan olanda alnına nə yazılıbsa, o da baş verəcək" [6, s. 106].

Nəticə və elmi yenilik. İnsan qarşılaşdığı psixoloji problemlərin, həyatı boyunca onu kölgə kimi izləyən travmalarının taleyinə təsirini azaltmaq üçün nə edə bilər? Biz travmalarımızı yaddaşımızdan silə bilmərik, amma onları idarə etməyi öyrənə bilərik. Nəticədə həmin travmalar, neqativ təcrübələrimiz ya xatırlanmayacaq, ya da xatırlansa da yaşam keyfiyyətimizə əvvəlki qədər mənfi təsir göstərməyəcək. Bununla bağlı bəzi müalicə metodları təklif olunur. Bunlardan biri də şema terapiyadır.

Şema terapiya son zamanlar populyarlıq qazanmış psixoloji müalicə üsuludur. Şema (sxem) uşaqlıqdan başlayan və yaşamımız boyunca təkrarlanan davranışların toplusudur, qəlibidir. Uşaqlığımızda yaşadığımız travmalar yetkişkinlik dövründə təkrarlanır, daha doğrusu biz təkrarlayaraq və təkrar yaşadığımız hadisələrin adını "qismət" qoyuruq. Məsələn, valideynlərdən birinin ölümü, boşanması, evi tərk etməsi uşaqda tərkedilmə şeması yaradır və həmin uşaq yetişkin olarkən, onda tərk edilmə qorxusu yaranır. Bu qorxu həyatı boyu onu izləyir və həyatında fəsadlara yol açır. Nəticədə insan bunu "tale" adlandırır. Bir insan niyə hər zaman qurban rolunda olur? Niyə hər zaman fədakar davranır? Niyə hər zaman tərk edilən, incidilən tərəf olur? Bütün bunların cavabı şemalarda gizlənib. Bunun üçün sxemləri müəyyənləşdirmək və dəyişdirmək lazımdır.

Müasir dövrdə yaranmış digər terapiya üsulu düşüncə gücünə əsaslanan "Theta Healing"dir. Meditasiya texnikası hesab olunan "Theta Healing" insanın düşüncə, hiss və davranışlarını dəyişdirərək şüuraltında olan mənfi inancları, tıxanmaları və maneələri aradan qaldırmağı çalışır. Nəticədə şəxsin taleyində dönüş nöqtəsi yaşanır. Bunun üçün terapiya zamanı Teta dalğalarından istifadə edilir. Bu dalğalar beyindəki xüsusi tezliklərdir, şüuraltına çataraq neqativ hisslərin təsirini neytrallaşdırır.

Son dövrlər Türkiyə ədəbiyyatında Freydin və Yunqun nəzəriyyələrinə əsaslanan bədii nümunələr aparıcı yer tutur. İnsanın başına gələnlər həmin nəzəriyyələrlə əsaslandırılır. Yuxu motivi burada əsas yer tutur. "Yuxugörmənin başlıca özəlliyi onun insanın gerçəkləşmək istəyən istəklərindən yaranmasıdır və bu istəklərin yerinə yetirilməsi də elə yuxugörmənin məzmununa çevrilir" [4, s. 165].

Psixiatr və yazıçı Gülseren Budayıcıoğlunun "Həyata qayıt", "Medalın içi", "Günahın üç rəngi", "Pəncərədəki qız", "Kral itirərsə" psixoterapevtik romanlarının leytmotivini uşaqlıq travmaları və arxetiplər təşkil edir. Bundan əlavə Halid Ziya Uşaklıgilin məşhur "Aşk-ı Memnu" ("Qadağan olunmuş eşq") romanında da Elektra kompeksi, libido, id-supereqo savaşı kimi məsələlər ön plandadır. Qeyd olunan əsərlərdə psixogenealoji motivlərə rast gəlinir.

İstifadə edilmiş ədəbiyyat

1. Dağtumas S., "Yüz ilin tənhalığı" romanında ailə diziminə gedən yol/ https://arqument.az/az/yuz-ilin-tenhalii-romaninda-aile-dizimine-geden-yol/
2. Darwin C. "İnsanın türeyişi". İstanbul: Melisa Matbaacılık, 2023, 279 s.
3. Erdem M.Y. Psikosoybilim bağlamında "Kırmızı saçlı kadın" romanı/ https://dergipark.org.tr/tr/download/article-file/1547011
4. Freyd Z. Psixoanalizlə ilkin tanışlıq. Bakı: Qanun, 2023, 320 s.
5. Sofokl. Tiran Edip. Bakı: Qanun, 2018, 80 s.
6. Şıxlı İ. Ölən dünyam. Bakı: Qanun, 2021, 192 s.

FRANSIZ ŞƏRQŞÜNAS FRANSUA JORJONUN ƏHMƏD AĞAOĞLUNUN AZƏRBAYCANDA MODERNİZM HƏRƏKATINDA ROLU HAQQINDA BƏZİ FİKİRLƏRİ

Aysu Məmmədzadə*

Abstract

Some thoughts on the role of Ahmet Agaoglu in the modernism movement in Azerbaijan in the article of French orientalist François Georgeon

This article is about the French orientalist François Georgeon and his article "Notes on Modernism in Azerbaijan at the beginning of the 20th century." After pointing out the main components of the condition of the Azerbaijanis community towards the end of the nineteenth century - impact of shicism, Ottoman influences, rivalries with the armenians, and aftereffects of the petrol boom in Baku, it lays stress on the cultural and scholastic revival instigated by a handful of writers, journalists, and pedagogues with the support of a few Azerbaijanis manufacturers. François Georgeon presents the historical context in Azerbaijan during his time, then describes the cultural revival in the country and gives as an example the profile of the Azerbaijani modernist intellectual Akhmed Agayev. He also talks about the consequences of the Ottoman period and the development of the Baku oil industry. Francois Georgeon emphasizes that some writers, journalists and educators play a major role in the development of education and culture.

Keywords: *Akhmad Agayev, modernism, 20th century, Francois Georgeon, historical context, modernist intellectual.*

Giriş. XIX əsrin ikinci yarısında rus hökmranlığı və panslavizm təhlükəsi qarşısında Rusiya müsəlmanları islahatlar keçirir, dini, sosial və mədəni qurumların modernləşdirilməsi hərəkatına qoşulur. Bu islahatlar Volqaboyu tatarları arasında başlayır, Rusiya müsəlmanları arasında yayılır və əsrin əvvəllərində Orta Asiyaya çatır. Məhz bu dövrdə, Krım tatar ziyalısı İsmayıl Qasprinskinin başladığı yeni pedaqoji metodların (üsuli-cədid) yayılması vacib və əhəmiyyətli fəaliyyətinin bu islahat hərəkatının adına çevrilməsinə səbəb olur. Bu hərəkatın adı "cədidizm" adlanır və mətbuat orqanı "Tərcüman" qəzeti olur.

XIX əsrin əvvəllərində Rus imperiyasına imteqrasiya olunan, Osmanlı və xüsusən də İran təsirləri altında olan Azərbaycan müsəlmanları öz cəmiyyətlərində müqavimət və modernləşmə məsələləri ilə qarşılaşır.

Fransua Jorjonun məqaləsi üç hissəyə bölünür:

1. Azərbaycanda tarixi kontekst.
2. Mədəni yeniləşmə.
3. Bir modernist ziyalının profili – Əhməd Ağaoğlu.

Öz məqaləsində, Fransua Jorjon iki sualı ortaya çıxardır və onlara cavab verməyə çalışır: 1. Rusiyada İslamın dirçəliş və oyanma hərəkatında Azərbaycanlıların iştirakı nədən ibarət idi? 2. XX əsrin əvvəllərində Azərbaycan müsəlmanları arasında "modernizm" hərəkatından danışmaq olarmı?

Azərbaycanda tarixi kontekst. Fransua Jorjon Azərbaycanın bu dövrdə orjinallığını, şiəliyin hökm sürdüyü müsəlman mühitinə aid olması ilə əlaqələndirir. Rusiya imperiyasında müsəlmanların böyük əksəriyyəti sünni olduğu halda, Azərbaycanda müsəlmanların təxminən 60%-i şiəliyə etiqad edir. Sünnilər əsasən qərbdə İran sərhədi ilə üzbəüz, şimalda isə Dağıstan sərhədinə doğru cəmləşiblər.

Şiəliyin bu çəkisi Rusiya işğalı başlayandan sonra da davam edən İran təsirləri ilə bağlıdır. Ruhanilər və tacir təbəqəsi tərəfindən istifadə edilən fars dili 1840-cı illərə qədər idarəetmə dili, 1870-ci ilə qədər isə məhkəmələrin dili olaraq qalır. Ərəb dili dini sahədə üstünlük təşkil etməyə, fars dili isə

* ***Bakı Dövlət Universiteti, magistrant. Elek.poçt: aysu.memmedzade02@icloud.com. Rəyçi:*** *Dos. Azelma Həsənova.*

tədrisdə istifadə olunmağa davam edirdi. Çar Rusiyasının məktəblərdə həyata keçirdiyi ruslaşdırma siyasəti ilə üzləşən şiə ruhaniləri müsəlmanları, övladlarını ora göndərməkdən çəkindirməyə çalışırdı. Ruslaşmaya qarşı bu müqavimət ruhunun əlaməti olaraq, rus məktəblərində təhsil alanları "kiçik ruslar" kimi ələ salırlar. İran təsirlərinin davam etdirilməsində təhsilə nəzarət edən şiə ruhaniləri əhəmiyyətli rol oynayır.

Azərbaycanda tarixi kontekstin xüsusiyyətlərini izah edən amillərdən biri rus hökmranlığının xarakteridir. Ruslar imperiyanın hər yerində siyasi mərkəzləşməni tətbiq edirlər; qanun və qaydaların, həmçinin, insrastrukturun qurulmasını təmin edirlər.

Ruslar din dəyişdirmə siyasəti aparmasalar da, məktəblərin vasitəsilə ruslaşdırma siyasətinə cəhd edirdilər. Azərbaycan ailələrinin və yeni burjuaziya nümayəndələrinin uşaqları Rusiyaya və ya Qafqazdakı rus məktəblərinə oxumağa dəvət olunurdular. Bundan əlavə, ruslar müstəmləkə idarəsinin rəhbərlərini hazırlamaq üçün təhsil müəssisələri açdılar, burada dərslər rus dilində tədris edilir, bir neçə saat da Azərbaycan dilinin öyrənilməsi üçün ayrılırdı.

Digər tərəfdən, 1896-1904-cü illər istisna olmaqla, ruslar erməni ünsürünə üstünlük verirlər. Azərbaycanda rus-müsəlman münaqişəsi ermənilərin iştirakı ilə daha mürəkkəb hala çevrilir. 1897-ci il siyahıyaalma məlumatlarına görə, ermənilər Bakı quberniyasında əhalinin təxminən 6,3%-ni, Yelizavetpol qubernatorluğunda 33%-ni, İrəvanda isə 53%-ni təşkil edir. Bu dövrdə şəhərdə təxminən 112.000 əhali yaşayırdı. Lakin bu rəqəmlər erməni icmasının iqtisadi və ya sosial çəkisini əks etdirmir. XX əvvəllərində Bakı quberniyasının paytaxt şəhəri olan Bakı, sürətlə inkişaf edən sənaye şəhərə çevrilir. Şəhərin sürətli inkişafı və modernləşməsi neft sənayesinin hesabına baş vermişdi. Azərbaucanlılar və ermənilər arasında olan münaqişələr 1905-ci ildə qanlı toqquşmaların başlamasına səbəb olur.

Azərbaycanda müsəlmanların vəziyyətini xarakterizə edən məsələlərdən biri də Bakı nefti idi. Qədim dövrlərdən bəri çıxarılan neft 1870-ci illərdən etibarən yüksəliş yaşadı: təqribən 14.000 barel olan hasilat 1901-ci ildə 70 milyon barelə yüksəlir. Eyni zamanda, neft hasilatı və emalı sahəsində çalışan işçilərin sayı 1000 nəfərdən 27,500 nəfərə qədər artır. Azərbaycan indi dünya kapitalizminə inteqrasiya olunmağa başlayır. XIX əsrin sonlarında Bakı dünyanın aparıcı neft hasilatı regionu idi. Xəzər dənizindəki yataqlarda Nobel qardaşları kimi xarici şirkətlər işləyirdi. Neftin Bakının inkişafına əhəmiyyətli təsiri olur: XIX əsrin ortalarında 10.000 əhalisi olan şəhər, 1897-ci ildə 112.000, 1913-cü ildə isə 214.000 nəfərə çatmışdı.

Azərbaycan iqtisadiyyatında əsl inqilab yaradan bu neft sənayesi bir neçə nəticə verir. Birincisi, bu, azərbaycanlılarla ermənilər arasında gərginliyi daha da artırmağa, digər tərəfdən, böyük neft sərvətləri əsasən rusların və ermənilərin əlində olduğu halda, 1888-ci ildə neft hasilatı ilə məşğul olan 54 firmadan yalnız ikisi azərbaycanlılara məxsus idi. Buna baxmayaraq, bəzi müsəlmanlar neft emalı prosesində fəal iştirak edirdi. Şəmsi Əsədullayev, Musa Nağıyev, Zeynalabdin Tağıyev kimi ziyalılar Azərbaycanın mədəni inkişafında əsas rol oynayır. Belə ki, onlar məktəbləri, xeyriyyə təşkilatlarını, təhsilin yayılması üzrə birlikləri, kitabxanaları maliyyələşdirirlər. Bütün bu hadisələrdə tək bir ad öz izini qoyur: neftdən, pambıqçılıqdan xeyli sərvət qazanan Zeynalabdin Tağıyev. O, təhsil ocaqlarının və xeyriyyə müəssisələrinin yaradılmasına maliyyə yardımı göstərmiş, Azərbaycanda ilk teatrın əsasını qoymuş, qəzetləri maliyyələşdirmişdir.

Digər tərəfdən, neft sənayesinin inkişafı Azərbaycanın xarici dünyaya açılmasına səbəb olur. Bakı hər yerdən kapitalistləri cəlb edən pioner şəhərə çevrilir. 1884-cü ildə Bakı-Batum dəmir yolu xəttinin tamamlanması, Azərbaycanı Rusiya və Avropa bazarları ilə birləşdirdi və onu İstanbula yaxınlaşdırdı

Mədəni yeniləşmə. Burada Fransua Jorjon, ilk növbədə, Azərbaycan ziyalılarının formalaşması faktına toxunur. XIX əsrin ortalarına doğru təhsilini Rus-Tatar məktəblərində, Rus məktəblərində və hətta universitetlərdə başa vurmuş, rus mədəniyəti ilə tanış olan bəzi Azərbaycanlılar meydana çıxmağa başladı. Çoxları çar hökumətinin xidmətində tərcüməçi, müəllim, jurnalist və s. kimi fəaliyyət göstərməyə başladı.

Bu dövrün əsas ziyalıları arasında Azərbaycan türkcəsində yazdığı pyesləri ilə məşhur olan və ona "Azərbaycanlı Molyer" ləqəbini qazandıran Mirzə Fətəli Axunzadənin (1812-1878) xüsusi yeri vardır. Bundan başqa, tanınmış şair və müəllim olan Seyid Əzim Şirvani (1835-1888), Şamaxı rus

məktəbində, Tiflis gimnaziyasında, sonra Moskva Universitetində təhsil alan, Azərbaycan dilində ilk qəzetin yaradıcısı olan Həsən Məlikzadə Zərdabi (1837-1907) kimi ziyalıların adını çəkmək olar.

Bu ziyalılar öz həmvətənlərinin və həmsöhbətlərinin onları əhatə edən rus və erməni icmalarına münasibətdə geridə qaldığından xəbərdar olur və müsəlmanların mədəni və sosial modernləşdirilməsi məsələsini zəruri hesab edirlər. Bunun üçün onlar şiə ruhanilərinin təsirini azaltmağın lazım olduğunu düşünürlər; Axunzadə komediyalarında mollaları hədəf alır, onların fanatlığını ələ salır. O, dünyəviləşməni təkcə ruhanilərə qarşı mübarizə silahı kimi deyil, həm də sünni və şiələr arasında qarşıdurmaların qarşısını almaqda hesab edir. Axundzadə, biliyin mənimsənilməsini də asanlaşdırmaq istəyirdi. Buna görə də, ərəb əlifbasında islahat layihəsi hazırladı və onu Osmanlı liderlərinə təqdim etmək üçün İstanbula gedərək, latın əlifbası ilə əvəz etməyi təklif etdi.

Azərbaycan ziyalıları da Azərbaycan dilini tanıtmağa çalışırdılar. Axunzadənin yaradıcılığı Azərbaycan türkcəsində ədəbi intibahın başlanğıcını qoyur. Komediyalarını danışıq dilində yazması ona geniş oxucu kütləsi qazandırır. Ə. Şirvani qurduğu müasir məktəbin uşaqları üçün Azərbaycan türkcəsində dərslik yazır; Zərdabi isə "Əkinçi" qəzetini Azərbaycan dilində, sadə dildə, xalq nitqinə yaxın, mümkün qədər çox insana müraciət etmək arzusu ilə nəşr edir.

Azərbaycanlı ziyalılar öz fikirlərini yaymaq üçün dərnəklərdə oxunan şeir kimi ənənəvi vasitələrdən, eyni zamanda teatr, sonra isə XIX əsrin sonlarından etibarən möhtəşəm inkişaf yaşayan mətbuat kimi vasitələrdən istifadə etmişlər. Azərbaycan dilində çıxan ilk qəzet Həsən Zərdabinin 1875-1877-ci illərdə nəşr etdirdiyi "Əkinçi" qəzetidir. Sonrakı illərdə "Ziya", "Ziya-i Qafqaz", "Kəşkül" kimi Azərbaycan dilində bir neçə qəzet nəşr olunur, lakin bir neçə il Azərbaycanca mətbuat ləğv edilir. Buna baxmayaraq, ziyalılar öz fikirlərini rus dilində qəzetlərdə yaymağa davam edir. Azərbaycan mətbuatının inkişafı 1904-cü ildən sonra "Həyat", "Fiyuzat" kimi qəzetlərin nəşrindən sonra başlayır.

Müasir ziyalı təbəqəsinin yaranması ilə yanaşı, Azərbaycan cəmiyyətində ikinci mühüm hadisə məktəblərin modernləşdirilməsidir. Azərbaycan ziyalıları pedaqogikaya çox mühüm yer verirlər. Onlar hesab edirlər ki, cəmiyyətin müasirləşməsi müasir məktəblərin inkişafı ilə başlayır. Digər tərəfdən, bu Azərbaycan ziyalılarının təkid etdikləri başqa bir fikir, məktəblərdə oxumağı və yazmağı ana dilində, Azərbaycan dilində aparılmasıdır. Bu dil məsələsinə gəlincə, məktəblərin modernləşdirilməsinin Azərbaycan və Türk kimliyinin təbliği ilə paralel getdiyini açıq şəkildə görünür.

Qasprinskinin təsirləri Azərbaycanda hiss olunmamışdan əvvəl belə fərdi təşəbbüslər nəticəsində bir neçə "müasir" məktəb açıldı. Hələ 1830-cu ildə Gəncədə müasir məktəb açılmış, onun üçün Azərbaycan türkcəsində dərslik hazırlanmışdır. 1869-cu ildə Seyid Əzim Şirvani Şamaxıda türk, fars və rus dilləri ilə yanaşı, tarix, coğrafiya, hesab və tətbiqi elmlərin də tədris edildiyi müasir məktəb yaradır. Bu məktəbin açılmasından sonra 1880-ci ildə Həbib bəy Mahmutbəyli Bakıda türk, fars və rus dillərinin tədris olunduğu eyni tipli müəssisə açdı. Beləliklə, 1870-1880-ci illərdə Azərbaycanın müxtəlif şəhərlərində müasir məktəblər açılır.

Qasprinski 1883-cü ildə Krımda Baxçasarayda oxumağı və yazmağı öyrənməyin fonetik üsuluna əsaslanan "Cədid" adlı məktəbi açmasıyla yeni mərhələyə qədəm qoyur. Qasprinskinin qurduğu yeni məktəbdə tətbiq etdiyi asan oxuma üsulu getdikcə və qısa zamanda Rusiyanın digər türk bölgələrinə də yayıldı. Bu fəaliyyətilə İsmayıl Qasprinski təhsil və mədəniyyət sahələrində Rusiyadakı türklər və ümumiyyətlə, bütün türklər arasında milli şüurun oyanmasına səbəb oldu. Bu təhsil təcrübəsi ilə ilk maraqlananlar qafqazlılar və azərbaycanlılar oldu. Hətta onlardan bəziləri qurum haqqında məlumat almaq üçün Krıma getdilər. Eyni zamanda, Azərbaycanda azərbaycanlı sənayeçi Tağıyevin maliyyə dəstəyi verdiyi məşhur "Tərcümam" qəzeti nəşr olunur. Bununla da, Qasprinskinin yaradıcılığı, ideyaları azərbaycanlılar tərəfindən tanınmağa başlayır. İsmayıl Qasprinski "Tərcüman" qəzeti ilə, başda Rusiyadakı türklər olmaqla, bütün türk dünyasının milli məfkurəsi, oyanışı üçün bir cığır açmış oldu. 1884-cü ildən etibarən Azərbaycan məktəb sisteminin sözün əsl mənasında modernləşdirilməsinə başlanıldı. 1890-cı ildə İran sərhəddi yaxınlığında, Ordubadda Mehmed Sıtkı Səfəroğlu tərəfindən "Cədid" məktəbi açılır. İran mollalarının müqavimətinə baxmayaraq, məktəb imkanlı ailələr arasında böyük uğur qazandı. Bu uğur 1896-cı ildə Naxçıvanda daha bir eyni tipli məktəbin açılmasına səbəb oldu, əsrin sonuna qədər burada üç müəllim və 93 şagird təhsil alırdı. Bu məktəblər dönüş nöqtəsinə

çevrildi və sonrakı illərdə sürətlə yayıldı. Eyni model əsasında Salyan, Quba, Bakı və Şuşada digər məktəblər də fəaliyyət göstərməyə davam edirdi. Müasir məktəblərin açılması şagirdlərə Azərbaycan dilinin öyrədilməsi üçün dərsliklərin və qrammatikaların yazılması ilə müşayiət olundu.

Bakıxanlı, Axunzadə, Həsən bəy Zərdabi, Seyim Əzim Şirvani və Mirzə Ələkbər Sabir kimi şəxsiyyətlərin şəxsi iştirakı, Z.Tağıyev kimi azərbaycanlı iş adamlarından aldıqları dəstək, Nəşr-i Maarif, Səadət, Nicat kimi xeyriyyə cəmiyyətləri bu məktəblərin uğur qazanmasında əhəmiyyətli rol oynamışdır. 1906-cı ildə və yenidən 1907-ci ildə toplanan Azərbaycan müəllimlərinin böyük qurultayı yeni metoddan istifadənin kütləviləşdirilməsinə qərar verdi.

Bu yeniliklər, xüsusən də öz tənqidlərində dönməz olan mühafizəkar və dindar Azərbaycan dairələrinin ciddi müqaviməti ilə üzləşdi. Şair Sabir "Dərs-i Üsul-i Cədid" adlı şeirində bu tənqidçilərin mürtəce mahiyyətini pisləmiş və cədidçiliyi tərifləmişdir. Lakin 1900-cü illərdə cədidlər üçün ən böyük təhlükə ruhanilərdən və mühafizəkarlardan deyil, assimilyasiya məqsədləri güdən Rusiyanın siyasəti idi. Ruslar Azərbaycanda (Bakıda) orta məktəb, gimnaziyalar (Şuşa və Şamaxıda). və hər şeydən əvvəl "rus-tatar" məktəblərini yaratdılar. Bu məktəblərdən ilki, 1885-ci ildə Bakıda açıldı. 1910-cu ildə isə Bakıdakı 41 ibtidai məktəbdən 10-u "rus-tatar" məktəbi idi. Bu məktəblərin məqsədi, şübhəsiz ki, gənc azərbaycanlıları rus mədəniyyətinə cəlb etmək idi.

Azərbaycanda mədəni oyanışın təsirində Osmanlı İmperiyasının ziyalılarının da xüsusi rol oynadığını qeyd etmək lazımdır. Təhsil müstəvisində bu təsirlər, 1905-ci ildən sonra səriştəli müəllimlərə ehtiyacın kəskin şəkildə hiss olunması, Osmanlıların Azərbaycana türk müəllimləri göndərməyə başlaması ilə formalaşmışdır. Bunlardan birincisi İstanbulda Darüşşafaka məktəbini bitirmiş və Misirdə "Doğru Söz" qəzetinin redaktoru olan Əhməd Kamaldır. Əhməd Kamal 1905-ci il üsyanı zamanı Azərbaycana gələrək "Füyuzat" qəzetində yazmaqla, Bakı yaxınlığında məktəb açaraq, Türkiyədən kitablar gətirməklə ziyalı hərəkatında iştirak edib. Tezliklə onun ardınca gələn Zeynalabdin Tağıyevin dəstəyi ilə Bakıya gələrək, İstanbul liseyinin məzunu olan Cövdət müəllim idi.

Bakıda Cövdət müəllim təhsilin yayılması cəmiyyəti ilə məşğul olur və Azərbaycanın paytaxtında açılacaq ilk müəllim hazırlığı məktəbinin tədris proqramını hazırlayır. Baha Sait kimi digər ziyalılar da, onların yolunu davam etdirirlər. Bu müəllimlərin sayəsində Azərbaycanda Osmanlı mədəniyyəti gücləndi. Azərbaycanlı müəllimlər təkmilləşmək üçün İstanbula yollandı. Lakin Osmanlı töhfələri təkcə tədrislə məhdudlaşmırdı, həmçinin daha geniş mədəni və intellektual sferanı əhatə edirdi.

Bir modernist ziyalının profili – Əhməd Ağaoğlu. XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının yeni nəsli meydana çıxdı. Bu yeni nəsil Rusiya və Osmanlı ziyalılarının təsirləri nəticəsində dünyagörüşləri formalaşan ziyalılar idi. Bu yeni nəsil daha da ağırlaşan sosial problemlərlə ("Ermənistan-Azərbaycan müharibəsi"), 1905-ci ildəki siyasi, sosial münaqişələrlə, sosializmin yaranması ilə üzləşir. Onların arasında Əli Mərdan bəy Topçubaşov (1862-1934), Əhməd Ağayev (1869-1939) və Məmməd Əmin Rəsulzadə (1884-1955) kimi nümayəndələrin adını çəkmək olar.

Onlardan biri, Əhməd Ağaoğlu haqqında danışmaq lazımdır. Əhməd bəy Ağaoğlu 1869-cu ildə Azərbaycanın Şuşa şəhərində dünyaya gəlib. Atası Qarabağın Qurdlareli tayfasındam Mirzə Həsən bəy, anası Sancalı tayfasından Tazə xanım olub.

Əhməd bəy Tiflis gimnaziyasını bitirdikdən sonra – 1887-ci ilin avqust ayında Peterburqa yola düşüb, buradakı Texnologiya İnstitutuna hazırlaşıb. Bütün imtahanlardan uğurla keçsə də, onu yəhudi hesab edən müəllimi cəbr imtahanından kəsib, bununla da Əhməd bəyin Rusiyadakı təhsil həyatı baş tutmayıb. Bu hadisədən qəzəblənən Əhməd bəy Rusiyanı tərk edib və ali təhsil almaq üçün Parisə yola düşüb. O, 1888-ci il yanvarın 8-də Parisə çatıb.

Əhməd Ağaoğlu Sarbonna Universiteti yanındakı Paris Hüquq məktəbinin tələbəsi olub. Burada o, Ceyms Darmstater, Pol Şeffer, Barbye de Meynard kimi tanınmış şəxslərin məşğələlərinə qatılıb. Əhməd bəy eyni zamanda, professor Ernst Renan (1823-1892), "Le Nouvelle Revue" məcmuəsinin naşiri Cülyetta Adamla (1836-1936) da dostlaşıb .1891-1893-cü illərdə "La Nouvelle Revue" məcmuəsində "Fars cəmiyyəti" ümumi başlığı adı altında yeddi məqaləsi dərc olunur. Həmin yazılar aşağıdakılar idi: "Fars qadınları", "Ruhanilər", "Din və dini sektalar", "Teatr və onun xüsusiyyətləri", "Xalq təhsili və ədəbiyyat", "Fars hökuməti və farslarda dövlətçilik duyğusu", "Avropalılar İranda". "La Nouvelle Revue" və "Journal des Debats" məcmuələri ilə bir sırada Əhməd bəy "La Revue bleue

politique et litterairr" qəzetində də iştirak edirdi. Burada onun "Müsəlman dümyası" adlı yazısı çap edilmişdir.

1892-ci ildə şərqşünasların Böyük Britaniya paytaxtında keçirilən IX konqresinə qatılan Əhməd bəy şiəlik məzhəbinin İranın qədim dini təlimlərindən biri – məzdəkəliklə əlaqələrinə dair məruzə ilə çıxış edib. Onun bu tarixi hadisə ilə bağlı xatirələri "Kavkaz"da dərc olunub.

Əhməd bəy 1894-cü ildə təhsilini tamamlayaraq Prisdən İstanbula gəlib, lakin atasının ölüm xəbərini aldıqdan sonra Qafqaza qayıdıb. Tiflisdə məskunlaşaraq, burada fransız dili dərsləri verib. 1896-cı ildə isə Şuşa məktəbinə fransız dili müəllimi təyin olunub. Şuşada dərs deyərkən el arasında ona Firəng Əhməd deyilirdi.

1897-ci ildə Hacı Zeynalabdin Tağıyev Əhməd bəyi Bakıya dəvət edib. O, burada "Kaspi" qəzetinin redaktoru, aparıcı müəlliflərindən biri olub, Əlimərdan bəy Topçubaşov iləsıx əməkdaşlığa başlayıb. Əhməd bəy çox keçmədən Bakı Şəhər İdarəsinin üzvü seçilib. "Axund və İslam" adlı əsərini də bu zaman yazıb. 1901-ci ildə Tiflisdə rus dilində "İslama görə və islamda qadın" kitabı nəşr edilib. O, bu əsərində müsəlman ölkələrində qadınların vəziyyətini qətiyyətlə pisləmiş və bunun fundamental problem olduğunu bildirmişdir. Müsəlman qadınların alçaldılmış vəziyyətinə nə Quran, nə də dini qanunlar cavabdeh deyil. İslam, şübhəsiz ki, Peyğəmbərin zühurundan əvvəl Ərəbistanda acınacaqlı vəziyyətdə olan qadınların vəziyyətində xeyli yaxşılaşma yaratmışdı. Abbasilər dövründə İslamda qadınların vəziyyəti pisləşməyə başladı, - deyə Ağayev izah edir. Eynilə, 1909-cu ildə "Kaspi" qəzetində dərc olunmuş bir sıra məqalələrində Ağaoğlu müsəlman ölkələrində hökm sürən despotizmin İslamın məsuliyyət daşıya biləcəyi fikrini rədd edir. İncəsənət və elm kimi din də, yaxşı və ya pis məqsəd üçün istifadə edilə bilər,- deyə Əhməd bəy qeyd etmişdir.

1905-ci ildə isə Əhməd bəy Bakıda Əli bəy Hüseynzadə ilə birlikdə Hacı Zeynalabdin Tağıyev vəsaiti ilə "Həyat" qəzeti nəşr edilib. 1906-cı ikdə "İrşad", 1907-ci ildə isə türk və rus dilində "Tərəqqi" qəzetlərini nəşr etmişdir.

Ağaoğlu 1906-cı ilin oktyabrında yaradılan gizli "Qafqaz Ümummüsəlman Müdafiə Komitəsi Difai"nin qurucusu olub. Azarbaycan türklərini ermənilərin hücumundan, eləcə də, çar məmurlarmın zülmündən qorumağı qarşısına məqsəd qoyan "Difai" bu yolda kifayət qədər uğurlu fəaliyyət göstərib.

Əhməd bəy 1918-ci ildə yaradılan Azərbaycan Parlamentinə Qarabağdan millət vəkili seçilmişdir. O, 1919-cu ildə Azərbaycanın müstəqilliyinin tanıdılmasını əsas məqsəd kimi qarşısına qoyan, Əlimərdan bəy Topçubaşovun sədri olduğu Sül Heyətinə daxil edilmişdit. Amma, ermənilərin fitnəsi nəticəsində ingilislər onu İstanbulda "ermənilərə zülm etmək" ittihamı ilə günahlandırıb Malta adasına sürgün edirlər. Əhməd bəy adada əsr qaldığı müddətdə xatirələrini, "Üç mədəniyyət" və "Könüısüz olmaz" əsərlərini qələmə alıb.

1921-ci ildə Ankara hökuməti onu Maltadakı başqa əsirlərlə birlikdə ingilis əsirlərinə dəyişdirib. Sürgündən azad olduqdan sonra Əhməd bəy Romadan Azərbaycan bolşevik hökümətinin rəhbəri Nəriman Nərimanova məktub ünvanlayıb. Məktubun cavabında Nərimanov onu vəzifəyə dəvət edib. Nətimanovdan cavab məktubu alanda o, artıq Türkiyədə idi. Əhməd bəy Nərimanova ikinci məktubunda belə yazıb: "*Əsarətdən qurtararaq mənə yenidən can və varlıq vermiş Ankaraya getməyim mənim üçün namus borcudur. Türklük bölünmə qəbul etməyən tamdır. Məqsəd ona xidmətdir. Bu xidmət harada edilirsə, müqəddəsdir, mübarəkdir*"

Beləliklə, Mustafa Kamal paşa ilə isti münasibətlər quran Əhməd bəy öncə Türk Qurtuluş hərəkatına qoşularaq İrşad Heyətinin üzvü, 1921-1923-cü illərdə isə Mətbuat ümum müdiri işləyib. Daha sonra Ankara və Türkiyənin səsini dünyaya yayan yeganə yayım vasitəsi olan "Hakimiyyəti-milliyə" qəzetinin müdiri və baş redaktoru olub. 1925-ci ildə Mustafa Kamal Atatürk Ankara hüquq məktəbini açıb. Əhməd bəy isə burada hüquq fakültəsinin qurulmasında fəal iştirak edib.Bu illərdə Əhməd bəy "Mən kiməm", "Sərbəst insanlar ölkəsində", "İngiltərə və Hindistan", "İran və İnqilabı" kimi əsərləri işıq üzü görüb.

Əhməd bəy İslamda qadının statusu ilə bağlı qeyd edir ki, müsəlmanların maddi, mənəvi və siyasi inkişafı iki məsələdən asılıdır: qadının yüksəldilməsi və əlifba islahatı. Müsəlman dünyasının oyanması və sivil dünyaya daxil olması lazımdır. Bunun üçün cəsur, dəmir iradəli və fədakar fərdlərə ehtiyacı var.

Nəticə. Əsrin əvvəllərində Azərbaycan öz ziyalıları, yazıçıları, jurnalistləri və müəllimləri vasitəsilə Rusiya imperiyası müsəlmanları arasında inkişaf edən islahatçı hərəkatın fəal tərkib hissəsi olmuşdur. İsmayıl Qasprinskinin irəli sürdüyü prinsiplərdən ruhlanan yüzlərlə məktəb açıldı. Azərbaycanda bu islahat hərəkatının əhəmiyyəti 1905-1906-cı illərdə baş vermiş birinci inqilab zamanı azərbaycanlıların fəal rol oynaması ilə tam üzə çıxdı.

Bununla yanaşı, Azərbaycan islahat hərəkatında iştirak etməklə, xarici təsirlərə, neft sənayesinin inkişafına yol açdı. Xüsusilə təhsil səviyyəsində müasirləşmə Qasprinskinin islahatlarından əvvəl başlamışdır.

XIX əsrin əvvəllərində isə Əhməd Ağaoğlu adlı gənc Azərbaycan ziyalısı qadınların emansipasiyası və fərdi rolu məsələsini qaldırmışdı. Beləliklə, Azərbaycan burjuaziyası arasında hakim ideologiyanın tam ifadəsi kimi modernist, maarifçi və liberal İslamın çərçivəsi üzə çıxır.

Fransua Jorjon, araşdırdığımız məqalədə, Əhməd Ağaoğlunun bu hərəkatda rolunu xüsusilə vurğulayır.

İstifadə edilmiş ədəbiyyat

1. Ağaoğlu Əhməd. Seçilmiş əsərləri, Bakı: Şərq-Qərb, 2007, 392 s.
2. Ağaoğlu Əhməd. Üç mədəniyyət. Bakı: 2006, 198 s.
3. Ağaoğlu Əhməd. Şuşa, Peterburq, Paris xatirələri, Bakı, 2019, 123 s.
4. Ağaoğlu Ə. Çapar jurnalı – Bakı, xüsusi buraxılış, 2019, s. 11-15.
5. François Georgeon. Note sur le modernisme en Azerbaidjan au tournant du siècle // Cahiers du monde russe, № 1, Rusiya,1996, s. 97-106.
6. Serge Zenkovsky. Pan-Turkism and İslam in Russia, Cambridge: 1976.

HÜSEYN CAVİDİN "PEYĞƏMBƏR" ƏSƏRİNDƏ SUFİZİM

Ayna Əhmədli*

Abstract

Sufism in Huseyn Javid`s work "Prophet"

Researching of mysticisim in H.Javid`s creativity had been abliterated from the attention. This means that after M.P.Vagif creativity literature took on a new significance and new topics became the main topic of conversation and as a topic the mysticism became of secondary importance. Therefore, in the investigation of the new area of Azerbaijan literature the mysticisim had been abliterated from the attention. In his creativity Huseyn Javid tried to show not only his own way but also the voices of the Right holders. When we compare H.Javid creativity with Nizami`s and Fuzuli`s creativities we can see it easily. When we research his work "Prophet" we see that, the lover beings his mystical way when he sees the Creator`s wonder. In Kurani-Karim and in the creativity of mystical of philosophers it is shown that, the lover can`t speak to God directly. In a word God is ash, the soil of the man is a part of ash. In H.Javid`s work "Prophet" it had been expressed cbarly. In the work "Prophet" the character Shamsa, who draws attention represents both passion and a person who decives to the passion.

Keywords: *Huseyn Javid, The work "Prophet", Sufism, Nizami Gancavi, The Holy Quran.*

Giriş. Sufiizm fəlsəfəsi Azərbaycan ədəbiyyatında daha çox klassik ədəbiyyat üzrə tədqiq edilsə də, müasir dövr Azərbaycan ədəbiyyatında sufizm fəlsəfəsinin izlərini görə bilərik. Təbii ki, bu təsadüf adlandırıla bilməz. Çünki uzun müddət ədəbiyyatımızda hakim olan və minlərlə əsərin əsasında duran bu böyük bir fəlsəfə birdən-birə tamamilə yox ola bilməz. Onun izlərinin ədəbiyyatın klassik mərhələsindən sonra müxtəlif ədəbi yaradıcılıq nümunələrində hələ də qalması normal haldır. Qəbul etmək lazımdır ki, xalqın şüuralıtına nüfuz etmiş, böyük bir varlıq fəlsəfəsinə söykənən ideyalar uzun müddət mədəniyyət və incəsənt nümunələrinin ruhuna hoparaq yaşayacaqdır. Lakin Molla Pənah Vaqifdən sonra ədəbiyyatın yeni ruh qazanması ilə ədəbiyyatda yeni mövzular gündəmə gəlməyə başladı ki, bununla da sufizm fəlsəfəsi ikinci plana keçdi. Bəlkə də, müasir dövr Azərbaycan ədəbiyyatının tədqiqi zamanı əsərlərdə sufi dünyagörüşünün olub-olmamasının öyrənilməsinin diqqətdən kənarda qalmasının səbəbi budur. Bu baxımdan XX əsr Azərbaycan ədəbiyyatında əsərlərinin mövzusu, ideyası, bütövlükdə yaradıcılığı ilə xüsusi yerə malik olan Hüsryn Cavidin bədii yaradıcılıq nümunələrində sufizmin izlərini görə bilərik. Lakin sovet dövrü elmi tədqiqat aparatı bədii əsərləri sovet realizmi aspektindən tədqiq etdiyi üçün Hüseyn Cavidin əsərlərində mövcud olan sufizm ideyaları diqqətdən kənarda qalmışdır. Buna görə də, biz H.Cavidin əsələrinin sufizm aspektindən təhlil və tədqiq edilməsinin daha məqsədə uyğun olduğunu düşünürük.

Əsas hissə. Romantizm ədəbi cərayanının bir nümayəndəsi kimi, bir-birndən qiymətli əsərlər yaradan Hüseyn Cavidin irsi, nəinki XX əsr ədəbiyyatı, bütövlükdə Azərbaycan ədbiyyatında özünəməxsusluğu ilə seçilir. Onun "Mənim tanrım gözəllikdir, sevgidir" ifadəsi yaradıcılığının əsas motivini ortaya qoyur. Hüseyn Cavidin bu ifadəsi müxtəlif cür başa düşülə bilər. Lakin bizim fikrimizcə, bu ifadə orta əsərlər sufizminin əsas məğzini özündə ifadə edir. Belə ki, sufizmdə əks olunduğu kimi Allaha doğru gedən yol-vəhdət yolu eşq yoludur. Allaha qovuşmaq üçün can atan insan ruhu öncə Allahın yaratdığı möcüzəni, yəni insanı dərk etməyə başlayır. Daha sonra bu möcüzədən valeh olan insan möcüzənin yaradıcısını axtarmağa başlayır. İnsanın öncə öz mənivi kimliyini dərk etməsi və Yaradıcısını axtarmağa başlaması vəhdət yolculuğu adlanır. Xülasə, Allaha gedən yol eşqdən başlanır. Həmçinin Füzuli öz yaradıcılığında əks etdirdiyi kimi Allah insanı eşqdən yaratmışdır. Hüseyn Cavidin bu ifadəsi sufizmin qısa devzi kimi ifadə oluna bilər. Yəni burada gözəllik və sevgi Tanrıya verilmiş təyin edici kimi başa düşürük.

* ***Bakı Dövlət Universiteti, bakalavriat. Elek.poçt: aynaehmedli@gmail.com. Elmi rəhbər:*** *Fil.f.dok. Ramil Bayramov.*

Hüseyn Cavid sovet dönəmində yaşamış bir sənətkar olaraq onun yaradıcılığında sətir altı mənalar və dərinliklər çoxdur. Diqqətlə baxsaq sənətkarın hər bir cümləsində zahiri məna ilə yanaşı həm də daxili bir məna və dərinlik var. Bu da sənətkarın böyüklüyündən irəli gəlir. Hüseyn Cavidin əsərlərinin çoxunda sufizmin izlərini görə bilərik. Amma onun "Şeyx Sənan" və "Peyğəmbər" əsərlərində sufizm aydın diqqətə çarpır. Onu da qeyd etməliyik ki, Cavidin sufizmi özünəməxsusluğu ilə seçilir. Bunu "Peyğəmbər" əsərini təhlil edərkən görə bilərik. Burada hər pərdə də sufizmin həm ənənəvi formasını və H.Cavidin buna münasibətini görə bilərik.

Əgər Məhəmməd Füzuli, Nizami Gəncəvi yaradıcılığını diqqətlə izləsək, burada əsas diqqəti şəxsi mənəvi yolçuluq çəkir. Hüseyn Cavid isə bu baxımdan fərqlənir. O, şəxsi mənəvi yolçuluqla bərabər insanları da oyatmağa çalışır. O, fikirlərini açıq-aşkar səsləndirməkdən çəkinmir. Bu baxımdan Hüseyn Cavid Nəsimi ilə eyniləşirdi. Əgər Nizami deyirdisə ki: Onun dənəsi əncir ləzzəti verir, // İçində isə badam ləpəsi var. // Surərpərəstlər üçün surəti qəşəngdir, // Məzmun sevənlər üçün də məğzi vardır. // Bağlı bir mücrüdür içi dürlə dolu,// Gözəl dolğun ibarələr isə onun açarıdır. // Bu dürlərin sapı o başın boynunu bəzər ki, // Açarı ilə mücrünün qıfılını açа bilsin (3, s. 291). Burdan aydın olur ki, Nizaminin əsərlərinin batini bir mənası var və bu məna üstü örtülü şəkildə verilmişdir. Batini məna mistik təcrübəsi olanlar üçün nəzərdə tutulub. Bədii forması isə bütün oxucuların zövqü üçün düşünülmüş bədii estetik örtükdür (1, s. 72-73). Füzulidə sufizim açıq şəkildə diqqəti cəlb etsə də, onun əsərlərindəki mənanı aydınlaşdırmaq asan deyil. Bu həm Füzulinin əsərlərinin dilinin çətinliyində qaynaqlanır, həm də Füzuli fəlsəfəsinin ağırlığından. Yəni Həm Füzuli, həm də Nizami əsərlərindəki mistik təcürəbəni aydınlaşdırmaq bütün oxucular üçün asan olmayacaqdır. Lakin Hüseyn Cavid bir şair, dramaturq kimi xalqı, bütöv kütlələri öz əsərləri ilə oyatmağa çalışırdı. Bunu "Peyğəmbər" əsərində verilmiş bu fikirlə sübut edə bilərik:

"P e y ğ ə m b ə r:
Bəncə dünyada ən sevimli dilək
Ona qoşmaq, onunla birləşmək...
M ə l ə k:
O da mümkün, düşün də haq yolu tut,
Atalardan qalan nə varsa unut!
Yıq xurafatı, əski bütləri qır,
Kim yol azmışsa haqqa doğru çağır.
Mərdivənlər yapıb könüllərdən,
Parla, yüksəl vücudi-mütləqə sən!" (6, s. 144-145)

Bu parçada biz Peyğəmbəri ruhu Allaha qovuşmaq üçün can atan bir aşiq-haqq aşiqi kimi görürük. Lakin Mələk obrazının nitqində Hüseyn Cavidin əsas fikri səslənir. Burda Mələyin dili ilə Cavid demək istəyir ki, əvvəlkilərdən fərqli olaraq sən bu yolculuğa tək başına deyil, bütün insanlarla çıxmalısan. Yəni oyanmış insan digərlərini də oyatmalıdır.

Hüseyn Cavidin bu əsərində, həmçinin yer üzündə yaradılan hər bir şeyin Allahın bir möcüzəsi olduğu deyilir. Eyni ilə sufizmin özəyi də budur ki, eşq yolculuğuna çıxan insan öncə Allahın yaratdığında həqiqəti görməyə başlayır. Daha sonra yaradılışı bir möcüzə olaraq görən mistik yolçu Yaradanı axtarmağa başlayır. Vəhdət yolçuluğu yaradılışın möcüzəsini dərk etməklə başlayır. Hüseyn Cavid bunu əsərində belə ifadə etmişdir:

M ə l ə k
"Onu dərk eyləmək qolay... Ancaq
Ver içindən gələn sədayə qulaq.
Dinlə həp kainatı, seyr eylə,
Hər günəş ondan iştə bir şö'lə...
Hər ufaq zərrə, hər küçük yapraq
Sana söylər bu rəmzi pək parlaq" (6, s. 144).

Bu fikir həm də Qurani-Kərimdə belə ifadə olunur:

"De ki: Yeryüzünü gezin de bakıp görün, nasıl yaratmaya başlamıştır; sonra Allah ahiret yaşayışını da meydana getirecektir; şüphe yok ki Allah'ın her şeye gücü yeter" (9, Ankebut surəsi 20. ayət).

Qurani-Kərimdə də göstərilir ki, insan Allahı dərk edə bilməz, onu dərk etməyə çalışmaq mənasızdır, çünki insan ağlı onu dərk etməkdən acizdir. Allahın möcüzələrini qavramaq üçün onun yaratdıqları görmək, dərk etmək kifayətdir.

Qurani-Kərimdə göstərilir ki, Məhəmməd peyğəmbər batindən gələn xəbərləri birbaşa Allahdan almamışdır. Dörd böyük mələkdən biri olan Hz.Cəbrayıldan almışdır. Həmçinin, sufizmdə də mistik təcrübədən keçmiş olan aşiqlər batini dünya ilə birbaşa əlaqə qurmamış, batini dünya ilə onlar arasında bir vasitəçi olmuşdur. Prof M.Abdullayeva özünün "Klassik poeziya: ezoterik xəzinə" kitabında göstərir ki, Nizami Gəncəvi "İskəndərnamə" poemasının "İqbalnamə" hissəsində ona ilham verən bir şəxs kimi dəyərləndirdiyi Xoylu İmadın adını çəkir. Xoylu İmadın kimliyi elm aləminə hələ məlum deyil. Nizaminin tədqiqatçılarından olan Yevgeni Bertles yazır: "Poemanın əvvəlində Xoylu İmad adlı vəlinemətin adı çəkilir, lakin bu insanın kimliyini müəyyənləşdirmək mümkün olmayıb" (4, s. 239). Bununla biz deyə bilərik ki, Nizamiyə batini aləmdən xəbər gətirən gizli bir ilhamçısı olmuşdur. Yəni, fikrimizi yekunlaşdırsaq, heç bir insan Allahla bir başa danışa bilməz, peyğəmbərlər də ya onunla pərdə arxasından danışıb (Hz. Musa), ya da bir vasitəçi sayəsində əlaqə qurub. Belə deyə bilərik ki, batini dünya ilə maddi dünya (bizim yaşadığımız dünya) arasında bir pərdə var. Pərdə batini dünyanın sirlərini gizlədən bir örtükdür. Belə desək, daha doğru olar pərdə metaforası batini dünya ilə maddi dünya arasındakı sərhəddi ifadə etmək üçün işlədilir. Eyni metaforanı biz Nizaminin "Yeddi gözəl" poemasında "Süleymanın pərdəli sarayı" ifadəsində görə bilərik. Prof. M.Abdullayeva da bu fikirləri öz kitabında (1, s. 74-78) təstiqləyir. Həmçinin, onun fikrinə görə, burada Süleyman peyğəmbərdən danışılır. Pərdəli saray ifadəsi isə batini dünyan anlamında işlənmişdir (1, s. 74-78). Hüseyn Cavidi "Peyğəmbər" əsərində də bu mövzuya toxunulmuşdur:

"P e y ğ ə m b ə r
Ah, şu elmasparələr sərpən
Gecə pək möhtəşəm... fəqət onu bən
Seyrə daldıqca sanki məhv olurum,
Qəlbim oynar da, çırpınır ruhum.
Anlamam bir şu ölçüsüz, şu dərin,
Şu qaranlıq, çiçəkli pərdə niçin?
Bəni yalnız düşündürən şu məal,
Həp bu, yalnız bu, daima bu sual.
Şu siyah çarşaf ən böyük əngəl,
Uça bilsəydim, iştə ən əvvəl
Onu yırtar da, parçalar da həmən
Qavuşurdum o hüsni-mütləqə bən.
Əsərdə peyğəmbərin nitqində söylənən" (6, s. 144)

"Şu siyah çarşaf ən böyük əngəl" ifadəsi batini dünya ilə maddi dünya arasında çəkilmiş pərdəyə işarətdi.

"Peyğənbər" əsərində Mələk obrazının nitqində verilmiş bu parçaya nəzər yetirək:

"M ə l ə k
(*göyə doğru*)
Baq, şu əngin fəza, şu quytu dəniz...
Nə qadar xoş, nasıl gözəl, ləkəsiz...
Uçuşur hər tərəfdə yıldızlar...
Rəqs edər sanki nazənin qızlar.
Həp birər şe'r, sən də bir şair,
Hər tamaşası eşqə aiddir" (6, s. 143).

Burada Mələk peyğəmbərə Allahın yaratdığı möcüzələri, gözəllikləri təsvir edir edir. Sonda "sən də bir şair" fikri söylənir. Burda Hüseyn Cavid şairliyin böyüklüyündən danışır. Belə ki, şairlər də insanlara həqiqəti göstərməyə çalışan şəxslərdir. Bu baxımdan Hüseyn Cavidin bu fikri Puşkinin "Peyğəmbər" şeirində söylədiyi fikirlə səsləşir. Puşkin də eyni adlı əsərində şairlərin Peyğəmbərlər kimi Allah

tərəfindən seçildiyini və insanların gözlərini açan, onları oyatmağa çalışan maarifçi olduqlarını deyir. Hüseyn Cavid də öz əsərində bu fikri səsləndirərək peyğəmbəri şair adlandırır.

Ümumən, toplumda "el-aləm nə deyər" düşüncəsi tarixin hər dövründə mövcud olmuşdur. Qurani-Kərimdə bu düşüncə Allaha şirk qoşmaq kimi qiymətləndirilir. Həm Quran-Kərimdə, həm də sufizmdə göstərilir ki, gerçək azadlıq Allaha qul olmaqdır. Bu haqda Nizami də belə deyir: "Biz sənin damğanı daşıyırıq və damğalı itlərinik//Şahlar şikara damğalı itləri qəbul etməzlər//Yalnız sən bizi qəbul edərsən, Çünki biz sənin bağındanıq" (2, s. 118). Həmçinin o xidməti insan fəaliyyətinin ən yüksək məqam kimi dəyərləndirərək deyir: "Bəsirət sahiblərinin nəzərincə, //xidmətdən gözəl əməl yoxdur" (2, s. 118). Sufizmin özəyində duran əsas ideyalardan biri nəfsini arındıraraq Allahdan başqasına boyun əyməməkdir. İnsanlar adətən yaşam boyu "insanlar nə deyər?", "necə qiymətləndirər?", "bəyənərmi?", "bəyənməzmi?" kimi qayğılarla hərəkət edir. Bununla insanlar öz qəlbində "El aləm bütü" yaratmış olur. El aləm bütü nə deyər düşüncəsi yuxarıda da dediyimiz kimi şirk düşüncəsi və davranışının birbaşa özüdür. El aləm bütünü sındırmağın yeganə yolu Allaha qul olmaqdır. Hüseyn Cavid öz əsərində bunubelə ifadə etmişdir.

"P e y ğ ə m b ə r: (*məczub*)
O yüksək baqışlar, aman,
Nə tatlı, həm nasıl məsrur!
Ümidsiz könlümə hər an
Qönçə əməllər sərpiyor.
Sənin küçük bir lütfünə
Layiq olan hiç susarmı? (*Göyə doğru*)
Bir könül ki, uysun ona;
Gülünc alaydan qorqarmı?" (6, s. 167)

Burada göstərilir ki, Peyğəmbər əhalinin tənələrinə baxmayaraq öz yolundan dönmür və deyir ki, "Bir könül ki uysun ona; Gülünc alaydan qorqarmı?". Bununla Hüseyn Cavid demək istəyir ki, gerçək Allah aşiqi insanların daş qalağına, tənəsinə baxmayaraq yolundan döməz. Eyni ilə Məcnunun əhalinin ona münasibətinə və rəftarına baxmayaraq öz yolundan dönmədiyi kimi.

Sufizmdə göstərilir ki, Allah küll insan da Allahdan qopub gələn cüzzdür. Prof. Mətanət Abudullayeva da özünün "Klassik poeziya: ezoterik xəzinə" kitabında da göstərir və deyir ki, "Quranda yaradılış bir zühurdur (meydan gəlmədir). Kainatda nə varsa, hamsı Allahdandır, onun təzahürləridir. Təsəvvüfdə buna "təcəlli" deyilir. Varlıq təkdir, vahiddir, təzahürləri isə çoxdur" (1, s. 238).

Eyni ilə Şeyx Mahmud Şəbüstəri özünün "Gülşəni-Raz" əsərində göstərir:

"Həqiqət, varlıqdakı surətlərdən biri şəklində ortaya çıxanda
Sən ona söz arasında mən deyirsən" (5, s. 54).

Yəni, Varlıq Allahdır, yaradılan isə (insan və kainat) Allahın güzgüdəki (yoxluqdakı) surətləri şəklində təcalla edir və biz ona mən deyirik. Hüseyn Cavid bunu skletin dilindən belə izah edir:

"İ s k e l e t (*bir guşədən qarşısına fırlar, şiddətli və qəhqəhələrlə*)
Xayır, çəkinmə, get inandır, inan!
İnanmaqla bəxtiyar olur insan.
İnan! Fəqət tapdığın ulu Tanrı
Sən kəndinsin, deyil o səndən ayrı.
Əvət sən o küllün cüz'isin, inan!
Əfsus cüz uzaqdır külli sarmaqdan" (6, s. 168).

Burada həm də "Əfsus cüz uzaqdır külli sarmaqdan" ifadəsi sufizmdəki Vətən konsepsiyasına toxunmuşdur. Belə ki, bütün ezoterik müəlliflər göstərir ki, ruhun vətəni cəbərutdur. Yəni, Allahın dərgahı, ruh maddi dünyada qürbətdədir. Bunu Füzulinin "Hətf Cam" əsərində Neyin vətən həsrətindən nalə çəkməsi buna nümunə ola bilər. Eyni bir bənzətmə Mövlanə Cəmaləddinin yaradıcılığında da əks olunub.

Hüseyn Cavidin "Peyğəmbər" əsərində yaratdığı Şəmsa obrazı bir növ nəsfin cismani halıdır. O, Peyğəmbəri öz gözəlliyi ilə Haqq yolundan çəkindirməyə çalışır. Bu fikri onun bu sözləri ilə təsdiqləyə bilərik:

"Ş ə m s a:
Bən istərim qəlbindəki
Tanrı eşqi unutulsun,
Könlümdə çırpınan sevgi
O eşqin yerinə dolsun" (6, s. 174).

Şəmsa obrazı gözəlliyi ilə insanı valeh edən bir obrazdır. Şəmsa bu gözəlliyindən istifadəedərək Peyğəmbəri öz yolundan döndərməyə çalışırdı. Eyni ilə nəfsin maddi dünyanın gözəllikləri ilə insanın gözünü kor etdiyi kimi. Eyni ilə biz bunu Nizaminin "Yeddi gözəl" poemasında "Kəniz satan şahın hekayəsi" də də görə bilərik. Mətanət Abdullayeva bu hekayənin ezoterik izahını belə verir ki, burada şah eşq yolçusudur. Kənizlər şahın nəfsini oyadan maddi dünyanın sinvoludur. Qozbel qarı isə nəfsin özüdür. Sonda şahın aşiq olduğu gözəl isə qarını saraydan qovaraq şahın nəfsini arındırmış olur. Şahın bu gözələ aşiq olması onu mistik yolculuğa qədəm qoymasıdır. Hüseyn Cavidin Şəmsa obrazı həm qozbel qarı kimi nəfsi simvolizə edir, həm də öz gözəlliyi ilə Peyğəmbəri valeh etməyə çalışmaqala maddi dünyanın aldadıcı gözəlliyini təmsil edir.

Hər bir insanın ruhu Allahdan gəlir. İnsan ruhu daima Allaha can atır. Bir növ vətən həsrəti çəkir. Bu da insanın mənəvi iztirablar çəkməsinə səbəb olur. Bu iztirablardan xəbərsiz olan insanlar bunun çarəsini başqa yollarda axtarır. Bu mənvi iztirablara son verməyin çarəsini maddi dünyanın müxtəlif nemətlərini qazanmaqda görürük. Lakin əldə etdiyim heç nə bunun çarəsi olmur. Bu acıların çarəsi tapılmadıqca nəfsin aldadıcı çarələri insanın gözünü boyayır. Beləliklə nəfsizmiz bizi bu dünyaya bağlayır. Nə zaman ki, insan çəkdiyi acıların səbənini öyrənir o zaman eşq yolculuğuna qədəm qoyur və nəfsini arındırmağa başlayır. Şəmsa obrazı da bu cəhəti aydın şəkildə özündə ehtiva edir. Onun Peyğəmbərə olan eşqi Məcnun Leyliyə, Xosrovun Şirənə olan eşqi kimi arifanə eşqdir. Lakin nəfsi onun eşqinə qalib gəlir. Məcnun Leyliyə olan eşqi Leylinin gözəlliyinə deyil, bu gözəlliyi yaradıanın sənətkarlığıana olan eşq idi. Məcunun bir növ sənət əsərində sənətkarın möcüzəsini görüb aşiq olmuşdu. Buna görə səhrada Leylini qəbul etmir. Çünki o həqiqəti artıq dərk etmişdi, nəfsini arındırmağı bacarmışdı. Lakin Şəmsa nəfsindən arına bilmədiyi üçün həqiqəti dərk etməyi bacarmırdı.

Əsərdə tarixdə ilk xəlifələrdən olan, ilk səhabələrdən Hz.Ömər və Hz.Əlinin surətləri yaradılmışdır. Hz.Ömər Xəttab oğlu, Hz.Əli isə Əbu Talib oğlu adı ilə təqdim edilir. Əsərdə Xəttab oğlu ilk öncə Peyğəmbərin qarşısında durur. Əbu Talib oğlu isə ən başdan Peyğəmbərin yanında olub ona dəstək olur. Əsərin üçüncü pərdəsində Quranla tanış olan Xəttab oğlu İslam haqq din olduğunu qəbul edir və müsəlman olur. Burada Xəttab oğlu Quran Kərim və İslam dini haqqında məlumatı olmadan ona qarşı qərəzli münasibəti onun etdiyi ən böyük səhvlərdən biridir. Lakin sonda səhvini başa düşüb Tövbə etməsi onun insani xüsusiyyətidir (6, s. 205). Bunu belə izah edə bilərik ki, hədislərdə göstərilir ki, ilk insan Adəm peyğəmbər və onun həyat yoldaşı Hz.Həvva cənnətdə yaradılmışdır. Lakin onlar cənnətdən qovulan şeytana uyaraq qadağan olunmuş buğdanı yeyirlər. Buna görə Allah onları dünyaya göndərir. Bu haqqda Qurani Kərimdə Bəqərə surəsinin 36-cı ayətində bəhs olunur (11, s. 7). Dünya göndərilən Adəm etdiyi səhvdən çox peşman olur. Füzulinin "Həqiqətül süəda" əsərində Adəmin peşmanlığı belə təsvir olunur ki, o 40 gün boyunca başını yerdən qaldırmadan göz yaşı tökür. Allah Adəmin həyasından onun peşman olduğunu görüb ona müəyyən kəlimələr öyrədir ki, Tövbə etsin. Adəm peyğəmbərin tövbəsi haqqında Qurani Kərimdə Bəqərə surəsinin 37-ci ayətində göstərilir: "Adəm (tərki-övladan, qadağan olunmuş ağaca yaxınlaşdıqdan sonra) öz Rəbbindən müəyyən kəlmələr öyrəndi, onların vasitəsilə tövbə qıldı və Allah onun tövbəsini qəbul etdi. Allah tövbələri qəbul edən və mərhəmətlidir!" (11, s. 7). Adəm peyğəmbər bundan sonra əhv olunur. Lakin İblis Allahı sevdiyini iddia etdiyi halda onun əmrinə itaət edib insanın önündə əyilmir. Buna görə cənnətdən qovulur və şeytan adlandırılmağa başlayar. Cənnətdən qovulsa da, yenə də səhvini başa düşmür. İnsanın əsas fərqləndirici xüsusiyyəti isə budur. İnsan günah etsə də, sonda səhvini başa düşüb tövbə etməyi bacarır. Lakin bu xüsusiyyət şeytanda yoxdur. Həmçinin sufizmdə də göstərilir ki, haqq aşiqi sevdiyini qürurundan, məfəətindən öndə tutmağı bacarmalıdır. Əks halda

ibadət etsə belə, riya etmiş olur. Bu haqda Mətanət Abudullayeva da özünün "Klassik poeziya:ezoterik xəzinə" kitabında da göstərir ki, sufizmdə qulağı halqalı qul damğalı it metaforaları haqq aşiqinin riya etmədən, mənfəət gözləmədən Allaha sədaqətlə qulluq etdiklərini göstərir. Hüseyn Cavid də "Peyğəmbər" əsərində bu məqama toxunur. Xəttab oğlu öncə yanlış yolda olsa da, sonda etdiyi səhvi başa düşür və bu səhvdən dönməyi bacarır. O, Peyğəmbərə qarşı olan qərəzli münasibətindən dönrək onun hiddətindən istifadə edənlərin gerçək üzünü görür və haqq yoluna gəlir.

Nəticə:

1. Molla Pənah Vaqifdən sonra ədəbiyyat yeni mahiyyət qazandı, bununla da sufizm fəlsəfəsi ikinci plana keçdi. Buna görə də, yeni dövr ədəbiyyatının tədqiqi zamanı əsərlərin sufizm aspektindən öyrənilməsi diqqətdən kənarda qalmışdır.

2. Hüseyn Cavid şəxsi mənəvi yolculuqla bərabər, insanları da oyatmağa çalışır, bir sənətkar kimi bütün cəmiyyəti doğru yola cəlb etməyə çalışır.

3. Sufizmdə olduğu kimi Hüseyn Cavid yaradıcılığında da göstərilir ki, mistik yolçu öncə Allahın yaratdığında onun möcüzəsini görür, daha sonra Allaha yönəlir. Yəni, aşiq mistik yolculuğa yaradılanda Yaradanın möcüzəsini görməklə başlayır.

4. Qurani-Kərimdə və bir çox mistik-filosofun əsərlərində olduğu kimi Hüseyn Cavidin əsərində də göstərilir ki, aşiq Allahla birbaşa danışa bilməz. Aşiq qeyb aləmilə ya bir vasitəçi ilə, ya da pərdə arxasında əlaqə saxlaya bilər.

5. Hüseyn Cavid öz əsərində göstərir ki, gerçək Haqq aşiqi qəlbində "el aləm bütü" -nü yaşatmaz.

6. Sufizmin əsas müddəalarına görə Allah küll insan ruhu isə bu külldən qopub gələn cüzzdür və ruh Allahdan ayrı bu dünyada qürbətdədir. Bu fikir "Peyğəmbər" əsərində əks olunmuşdur.

7. "Peyğəmbər" əsərində Şəmsa obrazı həm aşiqi Haqq yolundan çəkindirməyə çalışan nəfsin, həm də eşq yolçuluğunun başında nəfsin oyununa aldanan insan obrazıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayeva M. Klassik poeziya: ezoterik xəzinə. Bakı: Bakı Universiteti, 2009, 365 s.
2. Nizami Gəncəvi. Sirlər xəzinəsi (Filoloji tərcümə). Bakı; Elm, 1981
3. Nizami Gəncəvi. Yeddi gözəl (Filoloji tərcümə). Bakı: Elm, 1983.
4. Nizami Gəncəvi. İsgəndərnamə (Filoloji tərcümə). Bakı: Elm, 1983.
5. Şeyx Mahmud Şəbüstəri. Gülşəni-raz. Bakı: Nurlan, 2005
6. Hüseyn Cavid. Seçilmiş əsərləri: [5 cilddə], cild 3. Bakı: Lider, 2005.
7. Məhəmməd Füzuli. Əsərləri:[VI cilddə], cild VI. Bakı: Şərq-Qərb, 2005
8. Бертельс Е.З. Низами. Москва: Молодая гвардия, 1947.

İnternet resursları

9. https://www.kuranmeali.com/AyetKarsilastirma.php?sure=29&ayet=20
10. https://makarem.ir/compilation/Reader.aspx?mid=66840
11. https://d1.islamhouse.com/data/az/ih_books/single/az_qurani_Karim_Azarbaycan.pdf

AZƏRBAYCANDA MEMUAR ƏDƏBİYYATI: MÖVZULAR, MEYİLLƏR VƏ ONUN MƏDƏNİ ƏHƏMİYYƏTİ

Aysu İmanlı*

Abstract

Exploring memoir literature in Azerbaijan: Themes, Trends and Cultural Significance

Memoir literature holds a significant place in Azerbaijani literary tradition, offering insights into personal experiences, historical events and cultural indentities. This article examines the evolution, themes and cultural significance of memoir literature in Azerbaijan. Drawing on a variety of memoirs written by Azerbaijani authors analyzes the prevalent themes, narrative styles and socio-cultural contexts that shape the genre. Furthermore, it explores the role of memoirs in preserving collective memory, fostering cultural understanding and addressing socio-political issues in contemporary Azerbaijani society. Memoir literature in Azerbaijan is a vibrant and dynamic genre that reflects the diversity and complexity of Azerbaijani society. Through the exploration of personal narratives memoirists illuminate the human experience, forge connections across generations and contribute to the enrichment of Azerbaijani cultural heritage.

Keywords: *memoir literature, collective memory, cultural significance, national identity, memoir on socio-political problems.*

Giriş. Memuar ədəbiyyyatı - geniş mənada müəllifin gördükləri, şahidi olduğu, yaxud iştirak etdiyi keçmiş hadisələr haqqında yazıları, avtobioqrafiyalar, gündəliklər, qeydlər və s. bu qəbildəndir. Konkret mənada isə memuar ədəbiyyatına o əsərlər daxil olur ki, onlarda sənətin ayrıca bir növü kimi müəlliflər həyatı obrazlı şəkildə əks etdirirlər [4, s. 102].

Memuar ədəbiyyatı təsvir olunan hadisələrin müasiri olan müəllifin keçmişdə iştirak etdiyi hadisələr haqqında qeydlər apardığı ədəbiyyat janrıdır. Xatirələrə həm də "etiraf nəsri"nin bir forması kimi baxılır. Memuar ədəbiyyatının mühüm xüsusiyyəti keçmişin etibarlı rekonstruksiyası iddiasında olan əsərin "sənədli" mahiyyətinə can atmasıdır. Memuarlara qoyulan əsas tələblərə tarixi həqiqətə dəqiq uyğunluq, faktikilik, xronoloji nəql, süjet təhriflərinin və bilərəkdən anaxronizmin olmaması, həmçinin bədii üsullardan istifadə daxildir.

Bu formal keyfiyyətlər memuar ədəbiyyatını gündəlik ədəbiyyata yaxın edir, lakin gündəlik qeydlərindən fərqli olaraq, memuarlar uzaq bir dövrə retrospektiv baxışı və müəllifin toplanmış təcrübəsini nəzərə alaraq hadisələrin yenidən qiymətləndirilməsini ehtiva edir. Etibarlılığı, materialı və bədii ədəbiyyatın azlığı baxımından xatirələr elmi bioqrafik oçerklərə, tarixi nəsr, avtobioqrafik və sənədli tarixi əsərlərə bənzəyir. Bununla belə, memuar ədəbiyyatı ətrafdakı reallığın və müəlliflə bağlı xarici hadisələrin təsvirinə daha çox önəm verməsi ilə fərqlənir.

Memuar ədəbiyyat tarixşünaslıq üçün mühüm mənbə, tarixi araşdırmalar üçün materialdır. Bununla belə, təkrarlanan materialın faktiki dəqiqliyinə baxmayaraq, memuarların mətnləri çox vaxt etibarlılıq baxımından rəsmi sənədlərdən aşağı olur. Ona görə də, tarixçilər xatirələrdə təsvir olunan hadisələri tənqidi təhlil edərək obyektiv tarixi məlumatlarla müqayisə edirlər.

Əgər memuarda təsvir olunan müəyyən bir faktı təsdiq etmək və ya təkzib etmək mümkün deyilsə, tarixçilər bu sübutu hipotetik, yəni, elmi cəhətdən əsaslandırılmış hesab edirlər.

Memuar ədəbiyyatı hadisələrin üstünlüyü, retrospektivliyi, fakta uyğunluğu və sübutların yaxınlığı kimi bir neçə sabit xüsusiyyətlərə malikdir. Lakin bu xüsusiyyətlər janrın saflığına zəmanət vermir, əksinə onun çevikliyini və qeyri-müəyyən sərhədlərini təmin edir. Bəzən memuar xüsusiyyətləri olan əsərlər memuar janrına aid edilmir.

Memuar ədəbiyyatı şəxsi kimlik və özünü kəşfdən tutmuş ictimai-siyasi şərhlərə və mədəni araşdırmalara qədər saysız-hesabsız mövzu və xüsusiyyətləri əhatə edir. Üstəlik, dünya ədəbiyyatındakı memuarlar çox vaxt sosial tənqid və tarixi əksetdirmə vasitəsi kimi xidmət edir,

* ***Azərbaycan Dillər Universiteti, bakalavriat. Elek.poçt: imanliaysu@gmail.com. Elmi rəhbər:*** *Aygün Mirzəxan qızı Hüseynova.*

oxuculara konkret zaman dövrləri, hadisələr və ictimai normalar haqqında dəyərli fikirlər təqdim edir. Memuarçılar öz şəxsi hekayələrini bölüşməklə hökm sürən stereotiplərə meydan oxuyurlar.

Memuar ədəbiyyatının təbiəti. Memuar ədəbiyyatı, şəxsi hekayələrin mürəkkəb tellərini insan təcrübəsinin daha geniş toxumasına toxunan əlamətdar bir janr kimi dayanır. Çox vaxt fərdin həyatı haqqında ətraflı məlumat verən avtobioqrafiyalardan fərqli olaraq, xatirələr müəllifin səyahətini emosional rezonans və introspeksiya ilə işıqlandıraraq konkret məqamları, mövzuları və ya dövrləri araşdırır. Memuar ədəbiyyatının mərkəzində həqiqilik dayanır. İstər zəfərlər, mübarizələr, istərsə də özünü kəşf anları haqqında danışarkən, orijinallıq memuarlara səmimilik hissi aşılayır, əlaqəni və empatiyanı gücləndirir.

Bir çox memuarların müəyyənedici xüsusiyyəti şəxsi inkişaf və transformasiyanın araşdırılmasıdır. Müəlliflər şəxsiyyətlərini və dünyagörüşlərini formalaşdıran mühüm məqamlar, problemlər və aşkarlıqlar üzərində əks etdirərək salnamələr yazır. Özünü kəşf edən bu səyahət vasitəsilə memuarçılar təkcə öz həyatları haqqında fikir təqdim etmir, həm də oxucuları öz inkişaf və dəyişiklik yolları haqqında düşünməyə ruhlandırırlar.

Əksetdirici təbiəti ilə seçilən memuar ədəbiyyatı fərdlərə öz şəxsi təcrübələrini, xatirələrini və düşüncələrini danışmağa imkan verir. Memuar janrı Azərbaycan ədəbiyyatında ədəbi mənzərənin ayrılmaz hissəsi olub, oxuculara ayrı-ayrı tarixi dövrlərdə ayrı-ayrı şəxslərin, icmaların həyatına nəzər salmaq imkanı verib.

Əslində, memuar ədəbiyyatı başqalarının həyatına, təcrübəsinə və duyğularına bir pəncərə təklif edərək, insan hekayətinin mahiyyətini təcəssüm etdirir. Özünün həqiqiliyi, subyektivliyi, emosional rezonansı və povest sənətkarlığı sayəsində xatirələri ovsunlayır və ruhlandırır, oxucuları özünü kəşf və empatiya səyahətinə dəvət edir.

Memuar ədəbiyyatının mədəni əhəmiyyəti. Memuar ədəbiyyatı Azərbaycan cəmiyyətində mədəni yaddaşın qorunub saxlanmasında, nəsillərarası dialoqun təşviqində mühüm rol oynayır. Memuarlar sosial tənqid üçün vasitə rolunu oynayır, mövcud normalara meydan oxuyur və insan haqlarını müdafiə edir.

Bəzi memuarçılar şəxsi səyahətlərə və fərdi mübarizələrə diqqət yetirərkən, digərləri daha geniş tarixi hadisələri və ictimai dəyişiklikləri araşdırmışlar. Azərbaycan memuarlarında istifadə olunan ümumi hekayə üsullarına retrospeksiya, introspeksiya və mürəkkəb duyğu və təcrübələri çatdırmaq üçün simvolik təsvirlərdən istifadə daxildir. Müəlliflər şəxsi hekayələrini bölüşməklə Azərbaycan cəmiyyətinin və onun mübarizəsinin daha dərindən dərk edilməsinə, oxucular arasında empatiya və dialoqun inkişafına töhfə verirlər. Bundan əlavə olaraq, memuar ədəbiyyatı gələcək nəsilləri öz təcrübələri üzərində düşünməyə təşviq etmək potensialına malikdir.

Dünya ədəbiyyatında memuar ədəbiyyatının əhəmiyyətinin tədqiqi. Memuar ədəbiyyatı dünya ədəbiyyatının daha geniş spektrində özünəməxsus mövqeyə malikdir. Bu ədəbiyyat coğrafi sərhədləri və mədəni ayrı-seçkilikləri aşan insan təcrübələrinin, düşüncələrinin anbarı kimi xidmət edir. Memuar ədəbiyyatı dünya ədəbiyyatı mənzərəsində mərkəzi yer tutur, oxuculara başqalarının həyatına nəzər yetirməyə bir pəncərə təqdim edir və hamımızı birləşdirən ümumi insanlığı işıqlandırır. Bu ədəbiyyat bugünkü şöhrətinə qədər inkişaf etməyə və ədəbi mənzərənin konturlarına uyğunlaşmağa davam edir.

Memuar ədəbiyyatının mənşəyi qədim dövrlərə gedib çıxır. İlk nümunələrinə isə, Herodotun "Tarix" əsərində rast gələ bilərik. Lakin XVIII-XIX əsrlərdə avtobioqrafik yazının yüksəlişi, "Franklinin tərcümeyi-halı", Jan Jak Russonun "Etiraflar" kimi əsərləri memuar ədəbiyyatının inkişafında mühüm mərhələ oldu.

Memuar ədəbiyyatı həm cəmiyyətə, həm də ədəbi diskursa böyük təsir göstərmiş, empatiya, anlayış və sosial dəyişikliklər üçün katalizator rolunu oynamışdır.

Azərbaycan ədəbiyyatında memuar. Azərbaycan ədəbiyyatındakı memuar janrını dünya ədəbiyyatındakı ilə müqayisə etsək, hər ikisində də araşdırılan mövzuların çox vaxt şəxsiyyət, mədəni irs, ictimai-siyasi təlatümlər və şəxsi mübarizələrin olduğunu görərik. Ailə dinamikası, ənənələr, müasirliklə adət-ənənənin qarşılıqlı əlaqəsi də xatirələrdə araşdırılan ümumi mövzulardandır.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında, həmçinin ictimai-siyasi həyatında baş verən dəyişikliklərin öyrənilməsi bu gün mühüm əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, bu dövrdə Azərbaycan ədəbiyyatında daha çox memuar janrına müraciət olunur. Mirzə Cəlilin "Xatiratım", A.Şaiqin "Xatirələrim", Y.V.Çəmənzəminlinin "Həyatımın iyirmi ili", M.S.Ordubadinin "Həyatım və mühitim", S.C.Pişəvərinin "Zindan xatirələri", H.Sahirin "Dağınıq xatirələr", Tufarqanlı Hüseynin "Xatirələr", Səmsamın "Sərdari milli haqqında xatirələr", M.Hüseynin "Bir ay bir gün" adlı əsərləri bir daha sübut edir ki, Azərbaycan ədəbiyyatında memuar janrının rolu əvəzsiz və danılmazdır [2, s. 30]. Bunlardan çıxış edərək əminliklə deyə bilərik ki, Azərbaycanda memuar ədəbiyyatının kökü qədim dövrlərə dayanır. Əsrlər boyu Azərbaycan xalqının müxtəlif dövrlərdə, o cümlədən sovet dönəmində, müstəqillik dövründə və müasir dövrlərdə əldə etdiyi müxtəlif təcrübələri əks etdirən yazılı xatirələr ədəbi forma kimi formalaşmışdır. Qədim və orta əsrlər ədəbiyyatında xatirə janrına müraciət etmiş şəxsiyyətlərə Əbülüla Gəncəvi, Nizami Gəncəvi, Xaqani Şirvani və Sam Mirzəni nümunə göstərə bilərik.

Tarix Nizami qədər beynəlxalq bir şair az tanıyır. Onun süjetlərində dünya xalqlarının çox nümayəndələrinin- yunanlaın, ərəblərin, türklərin, rusların, farsların, hindlilərin, çinlilərin, kürdlərin birər obrazlar silsiləsi iştirak edir [1, s. 8-9]. Şairlərin həyat hekayələrindən ibarət məlumatları özündə ehtiva edən təzkirələrdən biri də Sam Mirzənin "Töhfeyi-Sami" əsəridir. Ömrünün sonlarına yaxın yazdığı bu əsərdə dövrünün şairlərindən, daha öncə heç kimin bəhs etmədiyi yazıçılardan, ən əsası isə Şah İsmayıl Xətaidən qeydləri mövcuddur.

Heydər Əliyev memuar ədəbiyyatında. XX əsr II yarısı Azərbaycan ədəbiyyatının memuar nümunələrinin bir çoxu Ulu Öndər Heydər Əliyev haqqındadır. Heydər Əliyev Azərbaycan tarixində ən nüfuzlu siyasi şəxslərdən biridir. Onun həyatı, siyasi karyerası və Azərbaycan tarixinə qoyduğu izlər, bir çox memuarçı tərəfindən ətraflı şəkildə təhlil edilmişdir. Ümummilli lider haqqında yazılmış memuarlar müəlliflərinin baxışlarına görə dəyişir. Bir çoxları onu ölkəsi üçün tərəfdaş və idarəçi bir lider kimi təsvir edir, habelə xalq arasında dəstəyi qazanmış bir şəxsiyyət kimi yad edir. Digər bəziləri isə onun siyasi sistemdəki çoxpartiyalı demokratiyanın inkişafına təsirini vurğulayır və onun hakimiyyət dövründəki insan və cəmiyyət haqları məsələlərinə yanaşımını müzakirə edir.

Azərbaycan yazıçıları Heydər Əliyevin Respublikada apardığı islahat və dəyişiklikləri ilk gündən maraq və sevinclə qarşılamış, buna dəstək vermişlər. Çünki Ümummilli liderin Azərbaycan xalqının tarixi keçmişi, dili, ədəbiyyatı, incəsənəti, elm və mədəniyyətinin öyrənilməsi, araşdırılması, o cümlədən inkişafı yolunda atdığı addımlar, dövləti və beynəlxalq səviyyədə həyata keçirdiyi tədbirlər ədiblərin, yazıçıların, sənət adamlarının, alimlərin, ziyalıların arzularına, ideya və fəaliyyət istiqamətlərinə tamam uyğun gəlir, onları ruhlandırır və birbaşa yol göstərirdi. Bu barədə bugün biz Anarın, Elçinin, İsa Muğannanın, Maqsud İbrahimbəyovun, Vidadi Babanlının, Mövlud Süleymanlının və b. yazıçıların müstəqillik illərində qələmə aldıqları xatirələrdə, memuar yazılarında oxuyuruq [3, s. 1]. Bu memuarlar, Azərbaycanın tarixi və siyasi mənzərəsini anlamaq üçün dəyərli bir mənbə kimi qalır.

Nəticə. Sonda qeyd edək ki, Azərbaycanda memuar ədəbiyyatı ölkənin mədəni və ədəbi irsinin həyati aspektini təmsil edir. Getdikcə daha mürəkkəb və bir biri ilə əlaqəli olan dünyada səyahət edərkən, memuar ədəbiyyatı orijinallığın, empatiyanın və anlayışın çırağı rolunu oynayır. Janr inkişaf etməyə davam etdikcə o, şübhəsiz ki, Azərbaycanda özünüifadə, mədəniyyətin qorunub saxlanması və sosial iştirak üçün vacib bir vasitə olaraq qalacaq və ədəbi mənzərəni zənginləşdirəcək.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan klassik ədəbiyyatı kitabxanası 20 cilddə. IV cild. Bakı: Elm, 1985, 632 s.
2. Əliqızı A. Mühacirətdə yaranmış memuarlar haqqında düşüncələr // Humanitar elmlər seriyası, №2, Bakı, 2007, s. 30-34
3. Əlişanoğlu T. Ümummilli lider Heydər Əliyev memuar ədəbiyyatında // Ədəbiyyat qəzeti, №28, Bakı, 2023, s. 6-7
4. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif, 1978, 200 s.

NAĞILLARDA ÖGEY ANA OBRAZI

Aytac Salahlı*

Abstract

The character of stepmother in tales

Tales have been passed down from generation to generation and have come today with various changes. Tales were created according to the outlook of each people and their dreams about the future. Negative traits are condemned in fairy tales and positive aspects are promoted. In tales characters are created that stand out with their own characteristics. In the examples of folk literature, we see that the mother is appreciated as a sacred being. Only there is a stepmother speed, which is the exact opposite of this image, given in the negative plane. In some tales, she is a character who is cruel, who thinks about herself or her own children, who cares about her comfort and daily life, and who makes the main character difficult with his tricks and measures.

Keywords: *mother, stepmother, literature, negative, tales.*

Giriş. Şifahi xalq ədəbiyyatı nümunəsi olan nağıllar ağızdan-ağıza, nəsildən-nəslə keçərək müəyyən dəyişikliklərlə zəmanəmizə qədər gəlib çatmışdır. Nağıllar hər bir xalqın dünyagörüşünə, zülmə, şərə qarşı mübarizəsinə, gələcəklə bağlı istəklərinə uyğun yaradılmışdır. Bilirik ki, nağıllarda mənfi xüsusiyyətlər pislənir, müsbət cəhətlər isə təbliğ olunur. Onların hər birində bir-birindən fərqlənən, özünəməxsus xüsusiyyətləri ilə seçilən obrazlar yaradılmışdır.

Əsas hissə. Şifahi xalq ədəbiyyatı nümunələrində biz anaya müqəddəs bir varlıq kimi qiymət verildiyini görürük. Məsələn anaya aid "Ananın səbri tükənməz olar", "Ana kimi yar olmaz - vətən kimi dövlət-var", "Ana bala ucundan canını oda yaxar" və s. kimi atalar sözləri mövcuddur [1, s. 34]. "Kitabi-Dədə Qorqud" dastanında qadınların ən dəyərlisi yenə də analardır. Oğuzlar ana haqqını Tanrı haqqına bərabər tuturdular. Anaya verilən dəyərin təcəssümü kimi Qazan xanın evinin yağmalanması zamanı o, bütün var-dövlətindən keçərək əvvəl anasını düşməndən istəyir:

Qoca anamı gətirmisən, ay kafir, anamı ver mənə!

Savaşmadan-vuruşmadan qayıdım geri, dönüb gedim! [4, s. 198].

Ədəbiyyatımızda ana obrazına bu qədər dəyər verilməsi xoş bir haldır. Yalnız bu obrazın tamam əksi olan, mənfi planda verilən ögey ana sürəti də var. Nağıllarımızda o, qəddar, zalım, ya özünü, ya da doğma uşaqlarını düşünən, rahatlığına, gün-güzəranına önəm verən, hiylələri və tədbirləri ilə nağıl qəhrəmanını çətinə salan bir obrazdır.

Ögey ana obrazının iştirak etdiyi nağıl süjetlərində görürük ki, analıq yad qızına zülm edir, ona qarşı dözülməz və sərt münasibət göstərir. Haqsızlığa uğrayan, incidilən qız isə ağlı, xeyirxahlığı, həmçinin sehrli qüvvələrin köməyi ilə sonda xoşbəxt olur. Yenə də nağıla aid olan əsas səciyyəvi xüsusiyyəti görürük: xeyir şər üzərində qələbə qazanır.

Nağıllarda müşahidə edirik ki, gənc övladın anası çox tez dünyasını dəyişir. Bundan sonra evə gətirilən ögey ana cürbəcür fəsadlar törətməyə başlayır, yad qızı (yaxud oğlanı) qəbullanmır, əziyyət çəkmələri üçün əlimdən gələni edir, hiylələrə əl atır. Özünün, yaxud doğma övladlarının yad qəbul etdiyi "övlad"ından ön planda olmasını istəyir. E.İ.Luqovinova nağıllardakı "Ögey ana və yetim qız" süjet tipinin üç əlamətini göstərir:

1) Qəhrəman tipi;
2) Xarakterin sınağa çəkilməsi;
3) Çıxılmaz vəziyyətdən zaman və məkan vəhdətinə görə çıxmaq yolları [7, s. 14].

"Göyçək Fatma"(və onun variantları) mövzumuzla bağlı ən məşhur nağıllardandır. "Kelqırnaq"(türkmən), "Kamçı Sol Purçak"(sarı uyğur), "Dünya gözəli Vasilisa"(rus), "Qızıl iy"(rus), "Çoban qızı"(özbək), "Analıq və ögey qız''(karel), "Balaca-bapbalaca"(rus), "Yonca qarı və

* ***Bakı Dövlət Universiteti, bakalavriat. Elek.poçt: aytacsalahli233@gmail.com. Elmi rəhbər:*** *Dos. Etibar Talıblı.*

qızcığaz”(komi), “Danışan ney”(Anadolu türkləri) və s. Nağıllar da “ögey ana” süjeti üz qurulmuşdur [6, s. 123].

“Zalım ögey ana”, “İki yetim”, “Zalım ögey ana və qızları” nağılları da “Göyçək Fatma” ilə eyni süjetə malik nağıllardır. Sadəcə “İki yetim” nağılında ögey ana obrazı yoxdur, amma onu əvəzləyən qulluqçu qız surəti var.

Adı çəkilən nağıllardan da görə bilərik ki, “ögey ana” süjeti xalq arasında geniş yayılmışdır. Ögey ana məsələsi məişət problemi kimi bir çox xalqlarda yaşandığı üçün, bəlkə də, mövzu xalqlar arasında bu qədər çox vüsət almışdır.

“Göyçək Fatma” nağılında ögey ana Fatmaya öz qızının rəqibi kimi baxır. Elə bu səbəbdən də, doğma qızına da Fatma adı qoyur. Ögey ananın öz qızı fərasətsiz, çirkin olduğu üçün (ona Keçəl Fatma deyirdilər) Göyçək Fatmadan daha üstün olması çətin məsələ idi. Ana da qızını hər yerdə Göyçək Fatma kimi qələmə verməyə çalışır, bunun üçün müxtəlif yollar axtarıb tapırdı və bu tədbirlərdən biri də onu toylardan uzaq tutması idi (Padşahın oğlunun toyuna getməyə icazə verməmişdi). Analıq Göyçək Fatmanın qabağına boş cam qoyur, bir çanaq da darını yerə tökür və deyir ki, mən gələnə kimi darını çanağa yığmalısan, camı isə göz yaşınla doldurmalısan. Ögey ananın bu planı uğursuz olur, çünki Göyçək Fatma toya gedə bilir (sehrli qüvvələrin köməyi ilə), padşahın oğlu ona vurulur. Analıq bunu biləndə Göyçək Fatmanı təndirə salır, öz qızını isə onun yerinə padşahın oğlu ilə evləndirmək istəyir. Lakin bu hiylə də alınmır, padşahın oğlu ilə Göyçək Fatma evlənirlər. Qeyd etmək lazımdır ki, ögey ananın Fatmaya tapşırdığı çətin işləri yerinə yetirməkdə kömək edən inək idi. İnək bu nağılda totem rolunu icra edirdi.

“İki yetim” və “ Göyçək Fatma” nağıllarında oxşar olan məqamlardan biri də birincidə qara qulluqçu qız, ikincidə isə ögey bacı əsas qəhrəmanları dərya kənarına çimmək üçün aparırlar və elə bu vaxt onları itələyib suya atırlar.

“Ağbəniz və yeddi cırtdan” nağılı ilk dəfə 1812-ci ildə alman Qrimm qardaşları tərəfindən toplanmış və çap edilmiş xalq nağılıdır. Pis qəlbli və qısqanc ögey anası tərəfindən ondan daha gözəl olduğu üçün öldürülmək üzrə meşəyə göndərilən bir qızın başına gələnlər bu nağılda öz əksini tapmışdır. Əslində ögey ana nağılda olduqca gözəldir. Biz bunu hər zaman doğrunu söyləyən sehrli güzgü sayəsində dəqiq deyə bilərik. Amma ögey ananın hamıdan gözəl olması Ağbənizin böyüyüb gənc və gözəl bir qız olmasına qədər davam edir. Nağılın sonrakı hissələrində analıq qızı öldürmək üçün yaşlı bir qadın qiyafəsində cırtdanların evinə gəlir və zəhərli bir alma ilə qızı zəhərləyir. Lakin yenə də əsas qəhrəman qalib gəlir (xeyri təmsil edir). Ögey ana isə qızğın dəmirdən hazırlanmış ayaqqabı içində rəqs edərək ölür.

“Üç bacı” nağılında üç yetim qızdan söhbət gedir. Deməli, bir dükançının üç qızı var idi. Onların anaları vəfat edir. Bundan sonra ataları yenidən evlənir. Bu kişi tikan yığır, onları satıb ailəsini dolandırırdı. Burada da biz ögey ananın mənfi rolda çıxış etdiyini görürük: “Gündə evə gətirdiyin iki girvənkə əppəkdir, onu da qızların basıb yeyir. Ya məni boşa, qızlarını saxla, ya da qızlarını boşla, məni saxla” [2, s. 164]. Gördüyümüz kimi analıq atanı iki seçim qarşısında qoyur. Onun üçün nə atanın, nə də ki qızların vəziyyəti vacibdir. Ögey ana yalnız öz rahatlığını düşünür.

Nəticə. Yazı işini bir atalar sözü ilə yekunlaşdırmaq istəyirəm: “Ana uşağa aş gətirər, analıq yaş”.

İstifadə edilmiş ədəbiyyat

1. Atalar sözü. Bakı: Öndər, 2004, 264 s.
2. Azərbaycan nağılları. Beş cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 360 s.
3. Azərbaycan nağılları. Beş cilddə. V cild. Bakı: Şərq-Qərb, 2005, 304 s.
4. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.
5. Risalə. Araşdırmalar toplusu. 14-cü kitab. Bakı: Elm və Təhsil, 2018, 184 s.
6. Rüstəmova G. Azərbaycan uşaq nağılları. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2008, 149 s.
7. Cəfərova Ş. Azərbaycan və rus nağıllarında qadın obrazının tipoloji xüsusiyyətləri. Bakı, 2016.

YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİNİN "QIZLAR BULAĞI" ƏSƏRİ TARİXİ-FƏLSƏFİ ROMAN KONTEKSTİNDƏ

Səyahət Məhərrəmova*

Abstract

Yusif Vazir Chamanzaminli's work "Kizlar Bulaghi" in the context of a historical-philosophical novel

Yusif Vazir Chamanzaminli, known as a great creator of short stories and holding a unique place in the history of Azerbaijani literature, has also gifted our literature with priceless treasures through his novels. The novel "Kizlar bulaghi" by the author is regarded as the first historical-philosophical novel in the history of our literature. In "Kizlar bulaghi", the author has depicted the struggle between tradition and innovation, and expressed his dialect using historical and legendary materials. Various worldviews, religions, and philosophies are intertwined in the work. Although the work is considered a historical novel, it touches upon a number of contemporary problems that trouble people of the modern era. Freedom, equality, living in peaceful conditions, and ensuring the desired life for every nation have become issues relevant for all epochs. The author has created interesting and original characters such as Chopo, Jayniz, Kabusey, Nusha, Shair Milnir, Erdija in the novel "Kizlar bulaghi". The novel also addresses a range of philosophical issues related to life and existence.

Keywords: *novel, philosophy, history, religion, literature.*

Giriş. Ömrü boyu bədii nəsr sahəsində yazıb yaradan Yusif Vəzir Çəmənzəminli sənət və ədəbiyyat aləmində həm tarixi romanlar müəllifi, həm də kiçik hekayələrin böyük yaradıcısı kimi şöhrət qazanmışdır. Görkəmli yazıçı romanlarının hər birində tarixə müracət etmiş, müasir dövrün problemlərini tarixi aspektdən işıqlandırmışdır. Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı" romanı ədəbiyyatımızda xüsusi dəyəri olan əsərlərdəndir, belə ki, "Qızlar bulağı" Azərbaycan ədəbiyyatı tarixində ilk tarixi-fəlsəfi roman olaraq qiymətləndirilir. Roman ilk dəfə "Şuşa Yazıçılarının Ümumittifaq qurultayına" epiqrafı ilə 1934-cü ildə çap olunmuşdur.

Əsas hissə. Romanın "Qızlar bulağı" adlandırılması təsadüfi deyildir. Şifahi xalq ədəbiyyatından bəhrələnən müəllif əsərin adını da şifahi xalq ədəbiyyatından götürmüşdür. Belə ki, xalqımızın dilində geniş istifadə dairəsinə malik olan "qızlar bulağı" anlayışı "yeni inkişaf mərhələsinə qədəm qoymaq" mənasını ifadə edir. Əsərin ümumi ruhu da yeni ictimai quruluşa keçidi, yeniliyi, tərəqqini özündə əks etdirir.

Romanda öz əksini tapan folklor nümunələri, tarixi məqamlar, fəlsəfi fikirlər yazıçının şifahi xalq ədəbiyyatına yaxından bələd olduğunu, tarixi yaxşı bildiyini, əsəri müxtəlif mənbələri araşdırmaqla ərsəyə gətirdiyini göstərir. Ədib romanda təsvir olunan dövrün ruhunu, fəlsəfəsini vermək üçün folklordan, etnoqrafiyadan, "Avesta", "Riqveda" kimi tarixi abidələrdən, bir sıra filosofların əsərlərindən, ibtidai mədəniyyət tarixinə dair yazılan kitablardan, Şərq və Qərb səyyahlarının memuarlarından bəhrələnmişdir. "Qızlar bulağı" romanının tarixiliyi barədə İslam Sadıq haqlı olaraq qeyd edir: "Qızlar bulağı" tarixi romandır. Onu tarixləşdirən də məhz proloqunda verilmiş qaynaqlardan bəhrələnmələrdir. Yazıçı özü "Qızlar bulağı"nı tarixi roman adlandırmış və burada yaxın Şərqin eramizdan iki min il əvvəlki həyatını işıqlandırdığını yazmışdır. Bu tarix gedib Şumer dövrünə çıxır və əsərdəki bir çox süjet, obraz və motivlər Şumer tarixi, ədəbiyyatı, mədəniyyəti ilə qırılmaz tellərlə bağlıdır. Belə motivlərdən biri gənclərin evlənməsinə qoyulmuş qadağalar, onların pozulması və Yel ulusunun yaranmasıdır" [3].

"Qızlar bulağı" romanında tarixə dəqiqliklə, olduğu kimi yanaşılmamışdır, əksinə, tarix yazıçı xəyalı ilə çarpazlaşıb, fəlsəfə ilə birləşib orijinal bir əsərə çevrilmişdir. "Qızlar bulağı" tipli romanlarda tarixiliyə tam halda riayət edilməsini yazıçıdan ummaq düzgün olmazdı" [4, s. 177].

* ***Bakı Dövlət Universiteti, III kurs bakalavriat. Elek.poçt: seyahet15@gmail.com. Rəyçi:*** *Dos. İradə Rəhmanova.*

Əgər romanda tarixiliyə dəqiqliklə əməl olunsa idi, əsərin əsas ideyası, bədii-estetik gözəlliyi oxucuya bəlli olmazdı. Əsərdə müxtəlif dünyagörüşləri bir- biri ilə vəhdətdə əks olunmuşdur. Romanda təlim-tərbiyə, sağlam ailənin təməli, sənətə və sənətkara qiymət vermək, yaşadıqca yaratmaq, əsl məhəbbətin müqəddəsliyi, həyatın mənası, əməyin və musiqinin insan ruhuna təsiri kimi məsələlərə də toxunulmuşdur. Görkəmli yazıçı bu romanında "əsərin içində əsər" üslubundan istifadə etmişdir.

Əhməd ibtidai cəmiyyətə dair məruzə hazırlamaq üçün bir çox kitabları oxumalı idi. "Yel ulusuna" mənsub Çopo adlı biri tərəfindən yazılmış bir əsər onun diqqətini cəlb edir, əsəri oxumağa başlayır və əsərin sonunda isə Əhməd kitabın təsirindən çıxa bilmirdi. Əsər müəllim Kəbuseyin dərsi ilə başlayır. Burada zərdüştlük dininin əsaslarından, "Avesta"dan danışılır. "Mənə ən sadiqlər yaxşı fikirli, yaxşı sözlü və yaxşı hərəkətlilərdir" [1, s. 347] fikri ilə insanları daim yaxşı düşünüb, yaxşı əməl sahibi olmağa səsləyir. Zərdüştlüyə görə dünyada olan bütün gözəllikləri, yaxşı xislətləri Ahura Mazda, pis və çirkin xislətləri isə Əhrimən yaratmışdır. Ahura Mazda və Əhrimən, işıq və qaranlıq daim bir- biri ilə mübarizədədir. Sonda Ahura Mazda Əhrimənə, işıq qaranlığa qalib gələcəkdir.

Əsərdə totemizmin izlərinə də rast gəlirik. Belə ki, şəhərini tərk edən Cəməsb "Xoruz" qəbiləsinin əsasını qoyur, gənclər evlənmək üçün "Qoç" qəbiləsinə gedirlər. Bundan başqa "Quzğun" və "Meymun" qəbilələrinin də adı çəkilir. Bu qəbilələrdə qəbilə üzvləri bir heyvanı totem olaraq qəbul edib, onu müqəddəs sayırlar, adət və ənənələrində də bu totemə aid ayinlər öz əksini tapır. Romanda şamanizmin izlərinə də rast gəlirik. Belə ki, əsərin qəhrəmanı olan Çopo ulusunu yadelli basqınlarından qorumaq üçün qaniçən iskitlərin içərisində özünü şaman kimi qələmə verir. Onun timsalında şamanizmin həmin dövrün həyatındakı rolu barədə təsəvvürlərimiz formalaşır, görürük ki, şaman xaqandan da artıq nüfuza sahib olub, hətta dövlətin işlərinə də qarışa bilib. Əsərdə gənclərin təlim- tərbiyə üsulu da diqqəti cəlb edir. Gənclərin sağlam bədəndə, sağlam ruhda böyüdülməsinə xüsusi önəm verilir, vətənpərvərlik, zəhmətkeşlik, xeyirxahlıq kimi müsbət keyfiyyətlər aşılanır. Əsərdə müəllimlərin, filosofların nitqində həyatın mənası, yaşamağın qayəsi kimi fəlsəfi məsələlərə də toxunulur. Müəllim Xanburabinin "Yaşamaq özü-özlüyündə bir məqsəddir. Yaşamaq yalnız yaşamaq üçündür. Başqa məqsəd təqib etməz. Hər bir yaranan yaşamalıdır, lakin yaşamaq fərdi və xudbini deyil, ictimai olmalıdır. Fərd yaşarkən cəmiyyət içərisində yaşar və fərdi deyil, cəmiyyət faydasına çalışaraq yaşar. Cəmiyyət fərdlərdən qüvvətlidir.." [1, s. 359] nitqində yaşamağın, həyatın müqəddəsliyini duyur, humanizm, insanın öz "mən"ini tərk edib cəmiyyətin mənafeyi üçün yaşamasının necə bir səadət olduğu qənaətinə gəlirik. Təsadüfi deyil ki, əsərin sonunda "səadət nədir?" sualının cavabı məhz elə bu cür cavablandırılır: "Səadət şəxsi "məndən", şəxsi təmayüldən, şəxsi arzudan əl çəkərək ümumi "mən"liyə, ümumi təmayülə və ümumi arzuya xidmət etmək deməkdir" [1, s. 450].

Əsərdə müəllif öz demokratik görüşlərini də qəbilələr arasındakı münasibətdə göstərmişdir. Bu barədə İlkin Elsevər öz məqaləsində belə qeyd edir: "Romanda diqqət çəkən məqamlardan biri də qəbilə quruluşları arasında olan demokratik sistemin mövcud olmasıdır. Təbii ki, bu hal Zərdüşt adət və qayda-qanunlarından bəhrələnir. "Qızlar bulağı" romanında xüsusi olaraq iki qəbilə arasında qayğı vardır. Bunlardan biri "Xoruz", digəri isə "Qoç" qəbiləsidir. "Xoruz" qəbiləsinin oğlanları bahar fəslində "Qoç" qəbiləsinə gedərkən onları xüsusi ayinlər və törənlər vasitəsi ilə qarşılayırlar" [2].

Yeddi Xoruz məbədinə gələn gənclər məbədin hər pilləsində bir ərənin hekayəsini dinləyirlər. Bu hekayələr də əsərin ideyasının açılmasında müstəsna rol oynayır və romana özünəməxsus ovqat qatır. Birinci ərənin hekayəsinin ideyası sənətə və sənətkara qiymət verməkdir. Burada müəllif qaniçən padşahların əməksevər xalqın min bir əziyyətlə yaratdıqlarını bir göz qırpımında məhv etməsinə, günahsız insanlara ölüm hökmü verməsinə tənqidi yanaşır. Qoca Dara ilə Keynəssarın bu dialoqu isə fəlsəfi cəhətdən çox maraqlıdır:

" -Dünyada ən böyük arzu nədir?
-Arzusuzluq!
- Ən böyük həqiqət hankıdır?
-İnkar!
- Ən düzgün yol?

-Şübhə!
- Ən böyük həzz?
-Nisyan!" [1, s. 370] .

Dialoqdan belə nəticə çıxarırıq ki, insanın bütün arzularından, istəklərindən əl üzməsi onu mənəvi cəhətdən ucaldır, məğlubedilməz edir. Ən böyük həqiqəti isə yalanları inkar edərək tapmaq olar. Fəlsəfədə bu inkarı inkar qanunu adlanır ki, bunun sayəsində həqiqəti dərk etmək olar. Ən düzgün yolu isə şübhə ilə tapmaq olar. İnsan heç bir yoldan tam əmin olmamalı, daim şübhə ilə yanaşıb araşdırmalıdır. Ən böyük həzzin isə nisyan olduğunu deyən filosof təkliyə çəkilməyi, tənhalığa qərq olmağı zülmün əsarətində olmaqdan üstün tutur. Təkliyin insan psixologiyası üçün problem olduğuna baxmayaraq, həm də təklik ən böyük azadlıqdır.

İkinci ərənin hekayəsində ərinə xəyanət edən qadınla ərinə sadiq qalan, düşmənlərindən onun intiqamını alıb sonra isə özünü də fəda edən bir qadın qarşılaşdırılır. Hekayədən belə nəticə çıxır ki, birinin səhvinə görə hamını cəzalandırmaq, hamıya qərəzli yanaşmaq olmaz. Üçüncü ərənin hekayəsində müxtəlif və çoxsaylı inanc sistemləri bir-biri ilə qarşılaşdırılır. Təktanrılığı təbliğ edən nəbi çoxallahlı ellin ilə söhbətində onu əzəli və əbədi olan tək tanrını tanımağa, haqq yoluna qədəm qoymağa, fani dünyaya uymamağa səsləyir. Ellin isə təkidlə öz tanrılarını, misirli bir qoca Misir tanrılarını, babilli birisi Babil tanrılarını, həmədanlı tacir isə zərdüştlüyü müdafiə edir. "Yaradılışda ikilik var; bir qüvvə ədalətə çalışan kimi o biri də ədaləti pozur. Mazdanın işığı ilə bərabər Əhrimənin də qaranlığı var" [1, s. 376]. Sonda isə bir bütpərəstin ibadəti göstərilir. Hekayənin mahiyyəti bundan ibarətdir ki, dünyada müxtəlif inanc sistemləri vardır və hər kəs də inanmaq istədiyinə inanır. Ona görə də insanlara inancına görə qərəzli yanaşmaq, onlara öz inancını yeritmək olmaz. Hər insana multikultural yanaşmaq və insanı insan olduğu üçün sevmək lazımdır.

Dördüncü ərənin hekayəsindən çıxan nəticə belədir ki, insan mövhumata, xurafata uymamalı, həyatı ağılla, ayıq-sayıq yaşamalıdır. Beşinci ərənin hekayəsində əsl məhəbbətin müqəddəsliyindən, gənclərin müxtəlif irqlərdən olmasına baxmayaq bir-birinə bəslədiyi saf və təmənnasız sevgidən bəhs olunur. O sevgi ki, nə firon, nə də ölüm onu məhv edə bildi. Gənclərin sevgisi faciə ilə nəticələnir, onlar öz səadətlərinə qovuşa bilmirlər. O yerdə ki, haqsızlıq var, siniflər var, ağa və kölə münasibətləri hakimdir, insanlar arasında bərabərsizlik hökm sürür, orada ən saf sevgi belə xoşbəxt sonluqla bitmir. Altıncı ərənin hekayəsində də müxtəlif fəlsəfi məsələlər əksini tapmışdır. Hekayədən belə nəticə çıxır ki, insanı formalaşdıran cəmiyyətdir, insan düşdüyü mühitin özəlliklərini daşıyır. Hekayədə, həmçinin ana məhəbbətinin müqəddəsliyi, öz övladını xilas etmək üçün ayrılığı belə gözə alması maraqlı motivlərlə əks olunmuşdur.

Yeddinci ərənin hekayəsində qullara edilən işgəncələrin necə ağır nəticələrə gətirib çıxaracağı göstərilir və üsyankar gəncin quldarı öz cəzasına çatdırmasından danışılır. Hekayədə filosofların nitqində eşqə dair müxtəlif fəlsəfi fikirlərigörürük.

"Yaradılışda ən əzəli qüvvə eşqdir.. Lakin eşq nədir? Eşq ruhun zəruri və təbii xəstəliyi deyilmi?

-Yox, Fedr, eşqə xəstəlik demək doğru olmaz. Çünki, eşq ölməz, daima canlı bir qüvvədir. Lakin eşq iki qisimdir: biri göylərdə Afrodit qəlbində bəslənən, o biri yerdə avam arasında dolaşan eşqdir. Göy eşqi heç bir məqsəd təqib etməz, təmiz və yüksəkdir. Bu, bir cinsin eyni cinsə qarşı bəslədiyi hissdən ibarətdir: kişinin kişiyə, qadının qadına. Adi eşq, yəni avam eşqi, övlad törətməyin müqəddiməsidir. Birincisi öz-özlüyündə məqsəd bulan kimi, ikincisi isə məqsəd vasitəsidir" [1, s. 387].

Bu fəlsəfədə eşqə idealistcəsinə yanaşılmışdır, ilahi eşq dünyəvi eşqə qarşı qoyulmuşdur. İlahi eşqdən törəyən insana olan sevgi ucaldılmışdır. Həkim Mimnern isə bu fikirləri inkar edir və onun eşq barədə fikirləri materialist düşüncənin məhsuludur.

"Eşq eyni cinslərin deyil, başqa-başqa cinslərin züriyyət törətmək məqsədi ilə bir- birinə isnişməsindən ibarətdir. İstər insan, istərsə heyvan və bitkilər arasında erkəyin dişiyə, dişinin erkəyə qarşı bəslədiyi arzu əvvəllər xəstə bir hal törədir. Məqsəd uzaqlaşarsa, bu xəstəlik bir az da dərinləşər. Nəhayət, cismi ehtiyac dəf olunduqdan sonra xəstəlik də yox olur. Bir cinsin eyni cinsə qarşı bəslədiyi ehtiras təbiətə qarşı üsyan etməkdən başqa bir şey deyildir!.." [1, s. 388].

Ərənlərin hekayələri dünyanın müxtəlif yerlərində baş vermiş hadisələr kimi təqdim edilir və bu hekayələrlə gənclərə əxlaqi-tərbiyəvi nəsihətlər edilir. İnsanın bir fərd olaraq cəmiyyət arasında öz yerini tutmasında, layiqli vətəndaş olmasında ailə tərbiyəsinin əvəzsiz rolu vardır. Gənclərin əxlaqının gözəlləşməsində ailənin verdiyi təlim- tərbiyə mühüm rol oynayır və onların sonrakı həyatını şərtləndirir. Əsərin əsas qəhrəmanı olan Çoponun ailəsi ilə keçirdiyi son axşam yeməyində atasının nitqində bir- birindən dəyərli nəsihətlər ilə tanış oluruq: "Ancaq həyat tühaf bir şeydir, bunu bil! O, çalışanların və bacaranların malıdır. Çalışmayanlar, acizlər, tənbəllər və acı təbiətlilər həyatda müvəffəq olmazlar" [1, s. 389].

Çoponun atası həyatda qalmağın sirrini zəhmətkeş olmaqda, çalışmaqda görür və övladına da bunu nəsihət edir. Müdrik qocanın ailə qurarkən düzgün seçim etmək haqqındakı fikirləri də maraqlıdır, belə ki, o oğluna öz yarını seçərkən zahiri gözəlliyə aldanmamağı, daxili gözəlliyə önəm verməyi nəsihət edir: "Qızlar bulağında özünə həyat yoldaşı seçərkən zahiri gözəlliyə çox da uyma. Zahiri müvəqqəti bir şeydir; bu gün var, sabah yox ola bilər. Dəruni gözəllik isə sabit və dəyişməz bir qüvvədir. Onu doğru təyin edib seçmək - səadət qapısını bulmaq deməkdir" [1, s. 390].

Müdrik ata oğluna eşqə uymamağı, lakin əgər qəlbində inanca yer verərsə, onda şübhələrə meydan verməməyi məsləhət görür: "Eşq qeyri-sabit bir amil və ələləksər coşmuş ehtiras uydurmasıdır. Eşqə bel bağlamaq ayıqlığa vida deməkdir. Eşq cazibəsinə çox da aldanma! Lakin var deyib, inansan, inamında davam et, şübhələrə meydan vermə. Eşq sönmüş də olsa onu alovlandırmağa çalış. Çünki insan xəyalı olmazsa, həyat məhsulsuz bir səhraya dönər" [1, s. 390]. Çoponun atası oğluna cəmiyyətin mənafeyini öz mənafeyindən üstün tutmağı, ən çətin anında cəmiyyətə sarılmağı nəsihət edir: "İnsan, iradəsinə malik olmaq qüvvəsindən məhrum bir xilqətdir. İradən mühit şəraitinə toxunub əzilərsə, məyus olma, cəmiyyətə sarıl da, şəraiti dəyişməyə çalış. Fərdi acizliyi yalnız cəmiyyət təsviyə edə bilər. Cəmiyyət faydasını həmişə öz fərdi faydandan üstün tut!.." [1, s. 390].

İnsan hisslərinin əsiridir, emosional vəziyyətdə yanlış qərarlar verə bilər. Belə məqamlarda qərarlar verməməli, sakit ağılla düşünməlidir: "İnsan coşar, daşar, bu zaman ağıl yolunu şaşar. O əsnada müəyyən məsələ haqqındakı qərardan çəkin. Salamat yolu yalnız sakit ağıl göstərə bilər!.." [1, s. 390]. Bütün bu nəsihətlərdən aydın olur ki, Çoponun atası insan sərrafıdır, insanın təbiətinə, psixologiyasına yaxşı bələddir. Əsərin ikinci hissəsindəki hadisələr "Qoç" qəbiləsi və "Yel" ulusunda cərəyan edir.

Müəllim Nimradın nitqində müəllimin insan həyatındakı müstəsna rolu qeyd olunur: "Yavrularım, bağban gül bəsləməkdən həzz duyan kimi, müəllim də yetişdirdiyi gənclərin həvəsi ilə yaşar. İldə bir dəfə buraya toplanaraq uzun illər zəhməti ilə əmələ gələn məhsulumuzu tərk edər, yenilərinin yetişdirilməsi ilə məşğul olarıq. Lakin bizləri hissiz, sinirsiz ədd etməyin! Əmələ gətirdiyimiz gəncləri həyat səhnəsinə buraxarkən ürəyimizin bir parçasını qoparan kimi oluruq. Bu daimi kədərə qarşı böyük bir təsəlli buluruq, qəlblərində yandırdığımız həqiqət çırağının əbədi olacağına inanar, iman edərik" [1, s. 394]. Əsərdə zəhmətkeşlik insanı həyata bağlayan, onu bütün canlılardan üstün edən keyfiyyət kimi təbliğ edilir: "Həyat zəhmətin məhsuludur. Zəhmət olmasa, dirilik də olmaz. Zəhmət, yalnız zəhmət əbədiyyəti təmin edər. Bizi heyvanlardan ayıran, bizə zəka bəxş edən, idrakımızı inkişaf etdirən zəhmət deyilmi? Məişətimizi yüngülləşdirən, bizə maddi və mənəvi istirahət verən, biliyi öyrədən zəhmət deyilmi?" [1, s. 395].

Əsərdə gənclər arasında Çopo və Ceyniz xüsusilə fərqlənirlər. Ceyniz üsyankarlığı, yenilikçi ruhu, köhnə adət- ənənələrin mənfi cəhətlərinin əleyhinə olması ilə fərqlənən bir filosofdur. Çopo isə Ceynizə nisbətən mühafizəkar xarakteri ilə seçilir. Çopo adət-ənənələri cəmiyyətin dayağı hesab edir və onları ata-babaların tərbiyəsi kimi qoruyub saxlamağın tərəfdarıdır. Ceyniz isə "mühafizəkarlıq həyata durğunluq verir" deyərək ölü ənənə ilə yaşamaqdansa canlı ağılla yaşamağın üstünlüyünü vurğulamışdır. Əsərdə musiqinin insan ruhuna təsiri də vurğulanır:

"Yalnız ilhamla vücuda gələn musiqi ruhda ahəng doğura bilir. İlham təbiətin bəxş etdiyi imtiyazdır. İlhamlı insanlar mədən daşıyan torpağa bənzərlər" [1, s. 401]. Xəstələri müalicə edərkən təmiz hava, yemək və istirahət kimi musiqinin də önəmli olduğu, xəstə ruha sağlamlıq bəxş etdiyi vurğulanır. Qəbilələrdəki keçmiş çürük alətlərdən biri də qəbilə üzvlərinin bir-biri ilə evlənməsinin qadağan olunması idi. Bu da insanların şəxsi azadlıqlarının, istəklərinin məhdudlaşdırılması deməkdir.

Əsərdə "Qoç" qəbiləsinin üzvlərindən bir-birini saf məhəbbətlə sevən iki gənc Murdad və Nahura köhnə qəbilə ənənələrinə qarşı çıxaraq öz sevgisi uğrunda mübarizə aparmışlar: "Hiss heç bir ağıl və məntiqə tabe olmadan dünyanın davamına səbəb olmuş və olur. Nahura ilə mənim qarşılıqlı hissimiz də əzəliyyətdən doğan və əbədiyyətdə qurtarmayan böyük bir amilin kiçik bir zərrəsidir. Bu zərrəni söndürmək istəyirsiniz? -Qabil deyil, çünki zərrə bizə deyil, biz zərrəyə tabeyik. Əzəldən belə qərarlanmış" [1, s. 406].

Əsərdə adı çəkilən qəbilələrdən fərqli olaraq "Yel" ulusu yenilikçi olması ilə, anarxist səciyyə daşıması ilə fərqlənir. Qəbilə həyatının köhnə adət-ənənələrindən, qayda-qanunlarından bezən gənclər, haqsızlığa, zülmə uğrayan insanlar "Yel" ulusuna pənah gətirirlər. "Yel" ulusunda insanlar sülh şəraitində, azad şəkildə, həmrəylik münasibətində və multikultural mühitdə yaşayırlar. Burada insanlar daim yeniliyə can atır, yeni biliklər öyrənib öz ulusunda tətbiq etmək üçün dünyanın müxtəlif yerlərinə səyahət edirlər. "Yel" ulusunda heç kəsin şəxsi mülkiyyəti yoxdur, əmək iqtidarı olanlar işləməli, ulusu daha da dirçəltməli, quruculuq işləri görməlidir . Müəllif "Yel" ulusunu təsvir etməklə əsərə utopik bir motiv əlavə etmişdir. Digər qəbilələrdən fərqli olaraq bu ulusun adının niyə "Yel" adlandırılması da maraq doğurur. Bu barədə İslam Sadıq yazmışdır: "Nəhayət, Yel adının seçilməyi bir təsadüfdürmü, yoxsa onun hər hansi tarixi köklə bağlılığı varmı? İndiki halda bu suallara düzgün cavab vermək çox çətindir. Ulusun niyə Yel adlandırıldığının düzünü yalnız Yusif Vəzir özü bilirdi" [3]. Əsərdə Çoponun timsalında vətənpərvərlik, vətənin mənafeyini öz şəxsi mənafeyindən üstün tutmaq kimi müsbət keyfiyyətlər də təbliğ olunur. Çopo öz həyatını riskə ataraq vətəninə təhlükə yaradan iskitlərin arasına daxil olub bir sıra tədbirlər görərək həm öz yurdunu yadelli basqınından müdafiə etmiş, həm də iskitləri oturaq həyata, müharibələrdən çəkinməyə və sülh tərəfdarı olmağa çağırmışdır.

Əsər Çoponun sevdiyi Ərdicanın ölümü ilə bitir. Əsərin kulminasiyası qızlar bulağında başladı və orada da hadisələrə yekun vuruldu. Cəsur xanım obrazı olan Ərdicanın ölümü sanki yeni quruluşa keçidin əsasını qoyur, belə ki, Ərdicanın ölümündən sonra Çopo iskitləri qəbilələrə bölür və bu qəbilələrdən birinə "Ərdica" adını verir. Bu isə onu göstərir ki, artıq köhnə adət-ənənə və qanunlar geridə qaldı, totemik inanc sistemi süquta uğradı. Artıq totem yox, insan həyatı müqəddəs hesab olunur. Sonda müəllif əsərin ümumi ideyasına "Səadət nədir?" sualına "Səadət şəxsi "mən"dən, şəxsi təmayüldən əl çəkərək ümumi "mən"liyə, ümumi təmayülə və ümumi arzuya xidmət etmək deməkdir." cavabı ilə yekun vurur.

Nəticə. "Qızlar bulağı" mifoloji ünsürlərlə zəngin, xalqın qədim adət-ənənəsini göstərən və ən əsası fəlsəfi nöqteyi-nəzərdən diqqətəlayiq bir əsərdir. Sülhün, zəhmətin, dinc birgəyaşayışın insan həyatını gözəlləşdirdiyini tarixi-fəlsəfi nöqteyi-nəzərdən əks etdirən "Qızlar bulağı" romanı bu gün də aktuallığı ilə seçilən əsərlərdən biridir və əsərdə qoyulan məsələlər müasir dövrün insanını düşündürür, onun xoşbəxtlik haqqında görüşlərinə işıq salır.

İstifadə edilmiş ədəbiyyat

1. Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. II cild. Bakı: Avrasiya Press, 2005, 664 s.
2. İlkin Elsevər. "Folklor yolunda formalaşan alim" https://moderator.az/az/read/281509/
3. İslam Sadıq. "Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı" romanında şumer motivləri". https://gadtb.com/yusif-v%C9%99zir-c%C9%99m%C9%99nz%C9%99minlinin-qizlar-bulagi-romaninda-sumer-motivl%C9%99ri/
4. Məmmədov K. Yusif Vəzir Çəmənzəminli (həyatı və yaradıcılıq yolu) Azərbaycan SSR EA, Nizami adına Ədəbiyyat İnstitutu. Bakı: Elm, 1981, 262 s.

TÜRK İNANCINDA YADA DAŞI

Zəhra Həsənova*

Abstract

Yada is the part of Turkish culture. Old Turkish civilizations believed that stone brought rain, thunder and snow. Many writers, scientists and travelers saw the miracle of the yada stone with their own eyes and talked about it in their works. We can also provide information about the stone in Chinese sources, in the works of Western and Eastern authors. Beliefs related to the yada stone are preserved today both in the original version and in various forms, undergoing transformation. The rituals held to bring rain in different regions of Anatolia are an example of this. İnformation about the stone can also be found in many literary examples.

Keywords: *yada, stone, rain, beliefs, rituals.*

Giriş. Dünya xalqlarının bir çoxunun dini-mifoloji inancında müqəddəs daş motivi yer alır. Müsəlmanlar "həcərül əsvəd" adlandırdıqları qara daşın cənnətdən endirildiyinə və Məkkə şəhərində Kəbənin yaxınlığında yerləşdiyinə inanırlar. Yəhudi inancına görə isə dünyanın yaradılışında iştirak edən və Qüds məbədinin üzərində yerləşdiyi düşünülən "müəlləq" adlı daş vardır. Sonrakı dövrlərdə Əməvi xəlifəsi Əbdülməlik ibn Mərvan "Qübbət-üs-səxrə" məscidini məhz bu daş üzərində inşa etdirmişdir. Bir çox mənbədə göstərilir ki, bu daş havadan asılı duraraq zamanında peyğəmbər meraca gedərkən qorxmasın deyə Tanrı tərəfindən ona yardım məqsədilə göndərilmişdir. Eyni zamanda xristianlıqda da sehrli daş və onun gücünə inam mövcuddur. İsanın son axşam yeməyində şərab içdiyi kasanın alman şair Volfram fon Eşenbax tərəfindən "Parzival" əsərində "lapis exilis" adlanan bir daşdan hazırlandığı göstərilir və bu daşın cənnətdən qovulduğu zaman Lüsiferin (şeytan) tacından düşdüyünə inanılır. Bu daş vasitəsilə İsanın qabındakı şərab məşhur açıqlamadan sonra qana çevrilir, digər yandan xəstəlikləri sağaltma və yaşamı uzatma kimi güclərə sahibdir [10].

Amerikanın ən qədim yerli sakinləri olan hindilər də insanının yaradılışını daş və ağaclarla əlaqələndirirlər. Malaziya, Avstriya, Afrika torpaqlarında isə daş bolluq rəmzi hesab edilir və bu inancdan qaynaqlanaraq tarlalarda iş zamanı daş basdırırlar.

Buddizmdə dağ kultunun ilahiləşdirilməsi, Buddanın daş üzərindəki ayaq izlərinə sitayiş olunması kimi inanclar bu gün də Hindistanda varlığını davam etdirir. Bütün bu qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, daş birmənalı olaraq ibtidai insan təfəkküründün mövcud olduğu bütün ərazilərdə fərqli şəkillərdə, lakin bənzər sistemdə öz ilahi, sehrli qüvvəsini qoruyub saxlamağı bacarmışdır.

Türklər üçün su, yağış, bitki, daş, ildırım və digər təbiətlə bağlı ünsürlər hər zaman müqəddəs olmuşdur. Qədim türklərin daşla yağış yağdırıb, fırtına çağıra bilmələri haqqında ilk yazılı məlumata Çin mənbələrində rast gəlirik. Belə ki, Tonq sülaləsinin tarixi mətnlərində türklər haqqında belə bir məlumat var: "Türklərin böyük ataları Hunların şimalında yerləşən So sülaləsindən idi: Oymağın başçısı Ananbu idi. Bunlar yetmiş qardaş idi. Birincisi dişi qurddan törəmiş, adı İçjini-nicibu idi. Ananbu və qardaşları doğulandan səfeh olduqları üçün bütün sülalələri yox edildi. Nişibu fövqəltəbii xüsusiyyətə malik idi: yağış yağdırıb fırtına çıxara bilirdi. İki arvadı vardı. Deyirlər ki, biri yaz ruhunun, digəri qış ruhunun qızı idi" [3, s. 1127].

Yada daşı da həm su, həm də daş kultu ilə bağlı olduğundan xüsusi əhəmiyyətə malik idi, bu baxımdan tarixi İslama deyil, ondan çox daha öncəyə gedib çıxır. Daş haqqında ən son Osmanlı mənbələrində dəqiq məlumatlara rast gəlirik, Rus-Osmanlı müharibəsi zamanı da (1768-1774) türklərin yada daşından istifadə etdikləri və bu daşdan son dəfə o zaman istifadə olunduğu qeyd edilir. Yada daşının möcüzəsini gözü ilə gördüyünü qeyd edən ilk şəxs isə böyük türk alimi **Mahmud Kaşğari** olmuşdur. Müəllif "Divanü lüğət it-türk" əsərində yazır: "Yat-bir növ şamanlıq, qamlıq. Müəyyən daşlarla (və ya daş ilə) yağış və qar yağdırılır, külək əsdirilir. Bu türklər arasında məşhur bir

* ***Bakı Dövlət Universiteti, IV kurs bakalavriat. Elek.poçt: zehrahesenova772@gmail.com.Rəyçi:*** *Dos. Afaq Məmmədova.*

şeydir. Mən bunu yağma ölkəsində öz gözümlə gördüm. Orada yay vaxtı bir yanğın baş vermişdi. Bu surətlə qar yağdırıldı və ulu Tanrının izni ilə yanğın söndürüldü" [8, s. 33]. Kaşğarinin bu sözlə bağlı digər qeydlərinə nəzər saldıqda belə məlum olur ki, yada sözünün kökündə yat- feili durur, həmçinin bu sözə -çı şəkilçisi əlavə etməklə yaradılan *yatçı* tarixən "şaman" mənasında işlədilsə də, yadaçılar (yatçılar) şamanlardan fərqli bir statusa malik olan qeyri-adi insanlar idi, bu da Göytürk dönəmindən qalan və türklər arasında yerini möhkəmlətmiş inanc sistemi ilə bağlı olmuşdur. **Əbdülqadir İnanın** qeydlərinə əsasən demək olar ki, yadaçıların bir çoxu olduqca kasıb olmaqla bərabər, əfsun əsnasında "övladım yaşamasın, qadınım yaşamasın, mal-mülküm fəda olsun" deyəcək qədər özlərini bu işə həsr edən qeyri-adi şəxslər idi. Bu ifadədən də anlaşılır ki, yadaçılar övlad sahibi ola, ailə qura bilirdilər, beləliklə şamanlarla daha bir fərqləri ortaya çıxmış olur. Həmçinin şamanlar eyni ritualı icra edib yağış yağdıra bilirdilərsə, əlavə olaraq "yadaçı" ifadəsi meydana çıxmazdı. Bütün bunlar bizə şamanla yadaçının ayrı şəxslər olduğunu deməyə imkan verir.

Daşın mənşəyi ilə bağlı fikirlər əsasən İslam dininin təsiri ilə meydana çıxan rəvayətlərdə öz əksini tapır. Belə ki, fars tarixçisi **Əbu Səid Qardizi** "Zeyn əl-əxbar" əsərində yada haqqında bir rəvayətdən bəhs edir: "Peyğəmbər Nuh əleyhissalam dünyanı dörd oğlu arasında böldüyü zaman türklərin atası sayılan Yafəsə şərq diyarını vermişdi. Nuh peyğəmbər Tanrıdan oğlu Yafəsə istədiyi zaman yağış yağdıra bilsin deyə bir dua öyrətməyini diləyir. Tanrı peyğəmbərin bu duasını qəbul edərək Yafəsə bir dua öyrədir. Yafəs bu duanı unutmamaq üçün bir daşa yazır və həmin daşı boyunundan asır. Türküstana gələn Yafəs bu daşla istədiyi zaman yağış yağdırır. Yafəsin ölümündən sonra daş Oğuz türklərinə keçir,lakin digər türk tayfaları da Yafəsin övladları olduğundan daş üzərində haqq iddia edirlər..." [3, s. 1127]. İslam tarixçilərinin yazdıqlarına əsasən belə nəticəyə gəlmək olar ki, daş Nuh peyğəmbər tərəfindən oğlu Yafəsə**,** sonralar Yafəs tərəfindən Oğuz xaqana verilib, oğuzların əlinə keçdiyindən karluqlar, xəzərlər və digər türk tayfaları daim öz aralarında onu əldə etmək uğrunda savaşıblar. Başqa bir rəvayətə görə, İbrahim peyğəmbər həyat yoldaşı və övladlarını Xorasana göndərən zaman bu daşı susuzluğun qarşısını alsın deyə onlara vermişdir. Sonralar bu daşa sahib olanlar xanlıqlar yaradaraq səltənət sahibi olmuşdular.

Ərəb mütəffəkirlərindən **Əbu Zeyd əl-Bəhdi, İbn Xəldun, əl-Mərvəzi, Əl-Biruni** kimi alimlər də türklər arasında hava şəraitinə müdaxilə edə bilən şəxslər olduğunu, onların dilədikləri zaman yağış yağdıra bildiklərini yazmışdılar [1].

Tarixən həm şifahi, həm də yazılı ədəbiyyat nümunələrində, xüsusən şərq ədəbiyyatında yada daşının adı tez-tez çəkilir. Məsələn, "Köç"dastanın bir hissəsində çinlilərin bu daşın yerləşdiyi dağı (Qutlu dağ, yaxud digər adı ilə Ötükən dağı) ələ keçirərək kiçik parçalara ayırdığı, beləliklə türklərin böyük qıtlıqla üzləşərək köç etməyə məcbur olduqlarından danışılır. "Manas" dastanında Xasayın susuzluqdan əziyyət çəkən insanlara yardım edərək çay daşı vasitəsilə yağış yağdırdığından bəhs olunur. Və ya Çin səfəri zamanı Almanbet adlı qəhrəman yağış yağdırmaq üçün buludları əfsunlayır. Fars şairi **Firdovsi** "Şahnamə"nin bəzi hissələrində türklərin sehrlə məşğul olduğunu, hətta türklər tərəfindən döyüş əsnasında iranlıların üzərinə qar yağdırıldığını yazır. Buna bənzər bir digər mənbə **Yaqut Həməvinin** "Mucəm əl-buldan" əsəridir. Firdovsidən fərqli olaraq Yaqut Həməvi türklərin xorasanlılarla savaşda dolu yağdırdığından bəhs edir. **Əbu Bəkr ər-Razi** "Kitabül-həvvas" əsərində türklərin bu daşdan necə istifadə etdiyini də ətraflı şəkildə göstərir: "Türküstan iki məmləkət arasında yerləşən keçiddir. Bu keçiddən keçmək istəyənlər mindikləri və yüklərini daşıyan heyvanların nal və dırnaqlarının yoldaki təhlükəli daşa toxunmamasına diqqət etməlidirlər. Əgər heyvanın ayağı o daşa toxunsa və ya heyvanın sürətli sürülməsindən dolayı daş zədələnsə anidən hava qaralır və buludlar peyda olur, yağış yağır. Mövsüm qışdırsa, yağış daha şiddətli yağar və yollar bağlanar" [2, s. 6]. Buna bənzər tədbirlər bu gün də bəzi dağlıq ərazidə yaşayan şəxslər tərəfindən alınır. Çobanlar əsasən heyvanları yüksək ərazidə otlamağa aparanda sehrli qüvvəsinə inandıqları daşların, yaxud ərazilərin zədələnməməsi üçün heyvanın ayağına, yaxud nalına müxtəlif qoruyucu vasitələr taxırlar, bununla da baş verə biləcək təbii fəlakətlərin qarşısının alındığına inanırlar.

Yada daşı haqqında istər elmi, istərsə də bədii ədəbiyyatda bu qədər çox yazılması, xüsusən orta əsrlərdə daşın geniş coğrafi arealda tanındığını bizə sübut edir. Üstəlik dövrün kifayət qədər tanınan, elm və istedad sahibi şəxsləri tərəfindən dəqiq məlumatlarla qeydə alınması da onu deməyə

əsas verir ki, belə bir daş həqiqətən də mövcud idi və möcüzəsini əsrlər boyunca qoruyub saxlamağı bacarmışdı. Təsadüfi deyil ki, XV əsr dahi özbək şairi **Nəvainin** "Fəvaidül-kibər" ("Qocalığın faydaları") əsərində də bu daşın adı çəkilir:

Yada taşıga kan teygeç yagın yagın yagkandek, ey saki
Yagar yagmurtek eşkim çün bolur serab alud [7]

XVII əsr şairi və Nizami Gəncəvinin davamçılarından hesab olunan **Nəvizadə Ətayi** bir beytində yada daşından bəhs edərək yazır:

O sağar ki, sihreylər ağladmada
Məgər cövhəri oldu səngi-yada [11].

Daşın harda yerləşdiyi ilə bağlı fikirlər müxtəlifdir. Bir çox tədqiqatçı Türküstan, Çin sərhəddində yerləşən və türklərin məskunlaşdığı ərazilərdə, yaxud yakutlar və digər Sibirdə yaşayan türk xalqlarının əlində olduğunu və hələ də istifadə edildiyini bildirir. Məşhur səyyah **Marko Polo** türklərin idarəsində olduğu zaman Kəşmir vilayətində də yağış yağdırma sənətinin icra olunduğunu yazır. Türklərin bir çoxunun inancına görə yada daşı seçilən heyvanların daxilində olur. Qırğız türklərinə görə qoyunların qarnında, yakutlara görə at, inək, ayı, qurd kimi heyvanların içlərində olur, aralarında ən qüvvətlisi qurdun içindən çıxandır, şamanlar onunla yağış, qar və fırtına yarada bilirlər. Yakutlarda bu ayinlər digərlərindən fərqli olaraq yadaçı yox, şamanlar tərəfindən icra olunur. Bu səbəbdən yakutlarda yadaçılarla bağlı məlumatlara demək olar ki, rast gəlinmir. Daşın görüntüsü ilə bağlı **Füzuli Bayat** "Türk mifoloji sistemi" kitabının ikinci hissəsində yazır: "Yada daşı tünd rəngli, yumruq böyüklüyündədir. Üzərində damar-damar xətlər mövcuddur. Ələ alınanda soyuqluq hiss edilir. Sallayanda sanki daşın içindən səslər gəlir. Üç il istifadə olunduqdan sonra yavaş-yavaş gücü azalır" [5, s. 151]. Lakin sonrakı dövrlərdə ayrı-ayrı türk xalqları arasında daşın görüntüsü ilə bağlı fərqli fikirlər meydana çıxmışdır. Bu fikirlər içində xüsusən diqqəti cəlb edən türk mavisi və ya turkuaz adlandırılan rəngin adının da bu daşla bağlı olmasıdır. Həqiqətən, bir çox mənbədə daşın rəngi yaxın çalarlarda göstərilir. Buna baxmayaraq, yada daşının ağ, qara və başqa bir çox rənglərdə fərqli növlərinin olduğunu deyənlər də az deyil. Daşın xarici görünüşü yerləşdiyi, yaxud tapıldığı ərazinin coğrafi xüsusiyyətləri ilə də bağlı ola bilər və bu səbəbdən geniş ərazilərə yayılan türk xalqlarının hər biri onu özünə uyğun formada və rəngdə təsvir etmişdir.

Daşın funksiyları içində xüsusən diqqəti çəkən şimşəyə qarşı qoruyuculuqdur. Mahmud Kaşğarinin lüğətində bu haqda yazır: kiminq bilə kaş bolsa, yaşın yakmas "kimin üstündə qaş olsa, ona şimşək toxunmaz"(bu daş qədim türklər tərəfindən kaş, yaxud qaş da adlandırılıb). Müəllif əlavə edir ki, bu qaşı bezə sarıyıb oda atdıqda nə bez, nə də daş yanır, yaxud bir kimsə susayan zaman ağzına bu daşı qoysa, susuzluğu gedər [8, s. 33]. **Ziya Göyalp** da bu daş haqqında "qaynar suya atıldıqda qaçmağa, qışqırmağa başlayır, sonra ölür..." fikrini irəli sürmüşdür. Mahmud Kaşğarinin şahid olduğu ritual bir qədər fərqli formada səkkiz əsr sonra məşhur türkoloq **V.Radlov** tərəfindən də müşahidə edilib. Belə ki, Radlov 1861-ci ildə Altay bölgəsində Abakan çayı ətrafında səfər edərkən güclü yağış yağır və bu zaman tur rəhbəri həm də yadaçı olduğunu bildirərək əfsun oxuyur və yağış dayanır [7, s. 75]. Qeyd edək ki, qırğızların mifoloji mətnlərində Abakan-Xan adlı yağmur tanrısı vardır və güman etmək olar ki, bu çayın adı, Radlovun qarşılaşdığı hadisə bir təsadüfdən daha çoxudur. Bu hadisə türkoloqun "Aus Sibirien" adlı Sibir türkləri və onların dinlərindən bəhs etdiyi kitabında öz əksini tapmışdır.

Ərəb dilində *"Həcərülmətər"*, fars dilində *"Səngi-yədə"* olaraq adlandırılan bu müqəddəs daş **"Osmanlı Tarix Deyimləri və Terminləri Lüğəti"**də *"Yəşim maddəsi"* başlığı altında qədim türklər tərəfindən işlədilən yağış daşı olaraq göstərilib [1, s. 864]. Yada sözü müasir türk dillərində də müəyyən fonetik dəyişikliklərə uğrayaraq fərqli variantlarda işlənir, məsələn Altay türklərində *yada,* yakutlarda *sata*, qırğızlarda *cada, yaxud cay taş* və s. **C.Klauson** "An Etymological Dictionary of Pre-Thirteenth-Century Turkish" ("On üçüncü əsr öncəsi Türkcə etimoloji lüğəti") əsərində yat sözünün *"rain stone" (yağış daşı)* mənasına gəldiyini, zamanla müxtəlif tayfaların dilində *jada, cada* formalarında işləndiyini göstərir. Bəzi tədqiqatçılar yadanı cadu (sehr) sözü ilə də əlaqələndirir. Klauson uyğurlar, yakut və digər türk xalqları içində *yatlan, yat* adlandırılan xüsusi mərasimin keçirildiyini, beləliklə yağış və külək yarandığını, bu ritualın yadaçı adlandırılan xüsusi şəxslər

tərəfindən icra edildiyini də əlavə edir [6, s. 883]. Yada daşı inancını yanlış olaraq İran mədəniyyətinə bağlayan tədqiqatçılar da vardır. **S.Malov** *yada* sözünün Avestada işlənən və sehr mənasına gələn *dyata* və qədim fars dilindəki *yatu* sözündən gəldiyini iddia edir. Lakin nədənsə yada daşı ilə bağlı inanclar iranlılararasında çox də məşhur deyildi, hətta bəzi İran tayfalarına görə bu daşı türklər sehr məqsədi ilə istifadə edirdilər. Beləliklə, bu kəlimənin farsca olması, türkcəyə fars dilindən keçməsi fikri özünü doğrultmur. Digər bir fakt da odur ki, ya kökündən gələn və *"yağmaq, yağdırmaq"* mənası ilə işlənən sözlər əski türkcədə mövcud idi və bu gün də müasir türk dillərində *yağ, yağmur, yağış* kimi sözlərin tərkibində özünü qoruyub saxlamışdır [5, s. 151]. Yat sözünün bəzi türk dillərində *"silah, müdafiə olunmaq üçün vasitə"* mənasında da işləndiyini **V.Radlov** öz lüğətində göstərmişdir [12]. Müharibə zamanı türklərin bu daşdan tez-tez istifadə etdikləri, hətta bu səbəbdən **Əl-Biruni** türklərin bu daşı *"qələbə daşı"* adlandırdıqlarını da qeyd etmişdir.

Yada daşı ilə bağlı inanclar bu gün həm ilkin variantda, həm də transformasiyaya uğrayaraq müxtəlif formalarda özünü qoruyub saxlayır. Anadolunun bəzi bölgələrində Çömçə Gəlin oyunu keçirilir. Bu oyun zamanı uşaqlar mahnılar oxuyur, Tanrıya qoç və ya qoyun qurban edərək ondan yağış istəyirlər. Qaziantepdə "Çömçə gəlin nə istər, Allahdan yağış istər" duası ilə kuklalar oynadırlar. Eyni oyun keçən əsrə qədər Azərbaycan ərazisində, Naxçıvanda Çömçəxatun adı ilə keçirilirdi. Azərbaycan türkləri arasında bununla bağlı bir digər inanc da olduqca maraqlıdır. Belə ki, duanı bilən molla və bir qrup şəxs (kənd əhalisi) yüksək bir yerə qalxar, dağın və ya təpənin başından Allaha yalvararaq yağış yağdırmasını istəyirlər. Daşa qurbanlar verilməsi də bir çox bölgələrdə rastımıza çıxır. Hələ əsrlər öncə Nəvai "ona qurban qanı sürtməklə yağış yağar" deyərək daşın qurban tələb etdiyini açıq şəkildə göstərmişdir. Vəd edilən qurban verilmədikdə şəxsin başına müxtəlif fəlakətlər gələ biləcəyinə inanılır. Azərbaycan ərazisində geniş yayılan bir əfsanəyə görə, bir sarvan mal aparan zaman suları bitir, susuzluqdan ölməyə az qalmış bir dağın yanından keçirlər. Bu zaman sarvan əhd edir ki, su tapsalar, dəvələrindən birini qurban kəsəcək, bu zaman qaya yarılır, bulaq axmağa başlayır, hamı doyunca sudan içir, lakin sarvan sözünə əməl etmir, bir bit götürüb öldürür və "bu da sənin qurbanın" deyir. Sözünü bitirməyə fürsət tapmamış özü və sürüsü qara daşa çevrilib dörd bir yana səpələnir [4, s. 97].

Daş zamanla yerini *dağ əyəsi* anlandırdığmız inanca buraxmışdır. Bəzən dua oxunan zaman kiçik daşlar toplanaraq suya buraxılar, təkcə yağış üçün deyil, hava şəraitindən asılı olaraq bəzən yel, külək, qar üçün də dualar edilərdi [5, s. 151]. Bu rituallar zamanı sanki duanın gücünü daha da artırmaq məqsədi ilə şeirlər də oxunardı, nümunə üçün:

Yastan-yastan zəmilər,
Gülü bostan zəmilər.
Tarı bir yağış yetir,
Çıxsın yastan zəmilər.

Bu gün Azərbaycan ərazisində Yağış piri adlandırılan müqəddəs məkanlar da mövcuddur, məsələn Çətəndaş adlandırılan ərazidə, Teyvaz kəndində yerləşən yağmur pirlərini nümunə göstərə bilərik. Qeyd olunan dağ əyəsi ilə bağlılığından çox zaman bu pirlər ya dağın, ya da hər hansı təpənin başında yerləşir [9, s. 115]. İslamla birgə gələn inancına görə, bu ziyarətgahlar dua edən şəxsin səsi Tanrıya daha tez çatsın deyə yüksək ərazidə salınıb, lakin əgər həqiqətən İslam dini ilə bağlı bir ənənədirsə, digər müqəddəs ocaqların da, ən azından böyük bir hissəsinin yüksəklikdə yerləşməsi lazım gələrdi. Bu səbəbdən pirlərin yerləşdiyi ərazinin birbaşa olaraq dağın, yaxud daşın qüvvəsinə olan inancdan qaynaqlandığını söyləmək daha məqsədəuyğundur.

Beləliklə, türklərin ilkin inancında mövcud olmuş yada daşı folklorun və yazılı ədəbiyyat nümunələrinin daxilində, mifoloji mətnlər, oyunlar, nəğmələr vasitəsilə bu günədək özü haqqında kifayət qədər məlumatı qoruyub saxlamaqdadır. Bu daş təkcə türklərin deyil, Çin, ərəb, qərb səyyahlarının, tarixçilərinin diqqət mərkəzində olmuş, bu da bizə qədim türklərin təbiətə olan münasibətini ətraflı olaraq tədqiq etməyə imkan yaratmışdır. Belə nəticəyə gəlmək olar ki, yada daşı və yağış duaları əski türk mədəniyyətinin və dininin ayrılmaz parçasıdır, bu daşla bağlı aparılan hər bir tədqiqat eyni zamanda türklərin tarixi inkişaf yolu, adət-ənənələri ilə bağlı da bir çox bilinməyən, yaxud yanlış bilinən faktların açılmasına zəmin yaradacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Ahmet Öğreten. “Türk Kültüründe ‘Yada Taşı’ ve XVIII. Yüzyıl Sonu Osmanlı-Rus Savaşlarında Kullanılması”
2. Armağan Çakır. “Türk Kültüründe Yada Taşı ve Yadacılık”
3. Ekrem Ayan. “Türk Mitolojisinde Su Kültü ve Yada Taşı”, Türkler Cilt 3. Ankara: Yeni Türk Yayınları, 2002. səh. 1127
4. “Əsatirlər, əfsanə və rəvayətlər”. Bakı: Şərq-Qərb, 2005, səh. 97
5. Fuzuli Bayat. “Türk Mitolojik Sistemi” 2.cilt. İstanbul: Ötüken, 2005. səh.151
6. Gerard Clauson. “An Etymological Dictionary of Pre-Thirteenth-Century Turkish”. Oxford: Clarendon Press, 1972. səh. 883
7. Hikmet Tanyu. “Türk Dinler Tarihinde ve İnançlarında Taşlar” II. Bölüm
8. Mahmud Kaşğari. “Dîvanü lüğət-it-Türk”. Bakı: Ozan, III cild, 2006. səh. 33
9. Məshəti İsmayıl Rüstəm qızı. “Naxçıvan Əfsanələri”. Naxçıvan: Elm, 2008. səh.115
10. Sabri Çağrı Sezgin.”Kutsal Taş Sembolizması”: https://www.musugin.com/2014/12/17/apokaliptik-metinlerde-kutsal-tas-sembolizmasi/
11. ”Tarama Sözlüğü VI”. Ankara: TDK, 1996
12. В.В.Радлов. “Опыт Словаря Тюркских Наречий” том III, част I

ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEVİN "PƏRİ CADU" DRAMI: İDEASI VƏ OBRAZLAR ALƏMİ

Müqəddəs Salahlı*

Abstract

Abdurrahim bey Hagverdiyev's "Peri Jadu" drama:idea and the world of images

Abdurrahim bey Hagverdiyev is one of the realistic writers of Azerbaijan of the 20th century. Along side with his prose works his dramas also take a special place in Abdurrahim bey Hagverdiyev's rich literary heritage. His drama "Peri cadu" stands out among his other dramas due to its symbolic bonds. The novel, which was written in 1901, refers to folclore because of its idea. It results with the tragedy of her and people around her. The effect of myphology is seen in the charactes Pericadu, Shamama cadu, İblis, Acina. The events that start with the revenge thirst of Peri cadu, İblis's help to her ends up with a tragedy. Peri cadu, Kurban, Hafiza xanim become the victim of their own passion.

Keywords: *drama, symbolizm, folclore, mythology, images.*

Giriş. 20-ci əsr Azərbaycan ədəbiyyatında aparıcı rol oynayan realizm cərəyanının nümayəndələrindənbiri, M.F.Axundovun dramaturgiya məktəbinin layiqli davamçısı Əbdürrəhim bəy Haqverdiyev yaratdığı dram əsərləri ilə ədəbiyyatımızda silinməz iz qoymuşdur. O yaratdığı dram əsərləri ilə Azərbaycan ədəbiyyatına rəmzi dram, teyf, nağıl tipli dram, səhnədəintihar, bioqrafik səciyyə daşıyan dram, mənfi qəhrəmanlı faciə kimi yeniliklər gətirmişdir. Ədibin dramaturgiya yaradıcılığına Şuşa, Tiflis, Peterburq mühiti təsir etmişdir. HəmçininAxundov, rus və dünya ədəbiyyatının təsiri Haqverdiyevin yaradıcılığında aydın görünür. Lakin bəzi tədqiqatçılar onun yaradıcılığında Nəcəf bəy Vəzirovun təsirinin olduğunu qeyd edir. Əli Sultanlı yazır: "Cəlil Məmmədquluzadə nə qədər M.F.Axundovla bağlı isə, Haqverdiyev də bir o qədər Vəzirovla bağlıdır. Vəzirov mülkədarlığın məzhəkəsindən başlayaraq onun faciəsini təsvirə qədər gəlib çıxmış, Haqverdiyev mülkədarlığın faciəsindən başlamış və onu axıra çatdırmışdır" [6, s. 241].

Haqverdiyevin dramları mövzusuna görə bir-birinin davamı kimi çıxış edir. "Ə.Haqverdiyevorjinal bədii yaradıcılığı sahəsində ilk addımını da məhz Peterburqda atmış 1892-ci ilin fevralında "Yeyərsən qaz ətini,görərsən ləzzətini" adlı ilk komediyasını,1896-cı ildə isə Azərbaycan dramaturgiyasının incilərindən biri olan məşhur "Dağılan tifaq" faciəsini qələmə almışdır. "Pəri cadu" və "Bəxtsiz cavan" "Dağılan tifaq"ın mövzu etibarı ilə davamıdır" [5, s. 20].

Əsas hissə. "Pəri cadu" dramı Əbdürrəhim bəy Haqverdiyev tərəfindən 1901-ci ildə qələmə alınmışdır.Müəllif bu dramı ilə ilk dəfə ədəbiyyatımıza və səhnəmizə rəmzi dram janrını gətirmişdir. Onun bu addımı ədəbiyyatşünaslıqda birmənalı qarşılanmamış,realist yazıçının simvolizm cərəyanı üslubunda dram qələmə alması zaman-zaman tənqid olunmuşdur.

Simvolizm cərəyanı haqqında məlumat vermək lazım gələrsə,deyə bilərik ki,bu cərəyan 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində avropada meydana gəlmişdir. Naturalizm cərəyanına əks mövqedə durmuş və simvolizmi (ümumiləşdirməni) onun qarşısına qoymuşlar. "Simvolistlərdə insan obrazları həyat faktından daha çox müəyyən ideyaların ədəbi illüstrasiyası kimi verilir" [1, s. 50]. Müəllif əsərdə İblis, Şamamacadu, əcinələr, əcinə təlxək kimi obrazlar yaratsa da, əsərin əsas ideyası real həyatla səsləşir. Əbdürrəhim bəy Haqverdiyevin öz deyimi ilə əsərdə "nəfsi əmmarə"sinin quluna çevrilmiş insanların faciəsindən bəhs olunur. Bu aparıcı ideya və fikri ədibin digər dram əsərlərində də görə bilərik. "Bəxtsiz cavan", "Dağılan tifaq" dramlarının qəhrəmanlarının da faciəsi onların nəfsi ilə bağlıdır. Nəcəf bəy, Hacı Səməd ağa öz çirkin varlanma ehtiraslarına görə məhv oldular, "Pəri cadu" əsərində isə Qurban öz nəfsinə görə xoşbəxtliyindən,səadətindən üz çevirir. Dram əsərinin ideyası ilə yanaşı yaradılan obrazlar da real həyatdan təcrid olunmuş şəkildə təsvir edilmir, hər nə qədər rəmzi, mistik görünsələr də, fövqəltəbii güclərə malik olsalar da, bu obrazlar realdır. İblisanə fikirləri insanoğlu özündə daşıyır, işlərini rahatlıqla həyata keçirmək üçün çəkinmədən yalan danışır,cilddən-

* *Bakı Dövlət Universiteti, III kurs bakalavriat. Elek.poçt: muqaddassalahli@gmail.com. Rəyçi: dos. Jalə Hüseynova*

cildə girir. Mistik güclərini nəzərə almasaq, Şamamacadu, İblis, Pəri cadu və əcinələr real həyatdan götürülmüş obrazlardır. Qeyd edək ki, Əbdürrəhim bəy Haqverdiyev nəsr əsərlərində də bu mövzuya diqqət çəkir, "Xortdanın cəhənnəm məktubları"nda İblis onu öz əməllərinə görə günahlandıranlara cavab verir: "İndi hər bir dünyada törənən bəd əməli mən bədbəxtdən görürsünüz. Doğrudur, məndən yaxşı əməl baş verməz, amma yenə sizi inandırıram ki, dünyada baş verən bəd əməllərin çoxundan nə mənim xəbərim var, nə də mənim övladımın.Gedin öz içinizi axtarın, görün nə qədər şeytanlar taparsınız ki, mən onların əllərinə su tökməyə yaramaram" [3, s. 70].

Tədqiqatçıların bu məsələ ilə bağlı fikirləri müxtəlif və mübahisəlidir. Abbas Zamanovun əsəsrlə bağlı ilk fikirləri müsbət olmamışdır. O,Ə.Haqverdiyevi simvolizm cərəyənanın təsiri düşməyinə görə tənqid edir,buəsəsri onun yaradıcılığı üçün səciyyəvi xarakter daşımadığını qeyd edirdi. "Real səhnələr mövhumi səhnələrin arasında itib batır" [7, s. 125]. Daha sonra bu fikirlərini təkzib edən Abbas Zamanov əsərdəki obraz və hadisələri tamamilə real hesab edir. Görkəmli ədəbiyyatşünas Mir Cəlal Paşayev isə müəllifin "Ayın şahidliyi" və "Pəri cadu" əsərini simvolizm cərəyanı təsiri altında yazıldığını inkar edir,ədibin simvoldan bir ədəbi məcaz,birişarə,vasitə kimi istifadə etdiyini vurğulayır. Əbdürrəhim bəy Haqverdiyevin özü isə "Pəri cadu" haqqında qeydlər" məqaləsində əsəri simvolizm cərəyanı təsiri ilə yazdığını qəbul edir. "Doxsanıncı illərin ortasında simvolizm deyilən bir ədəbiyyat üsulu teatro sahəsinə atıldı.Alman ədibi Hauptmanın "Qərq olmuş çan" sərlövhəli faciəsi mədəniyyət aləminə bir şəşəəsaldı. Bu üsulun Şərq ruhuna xeyli uyğun olması məni artıq həvəsə gətirdi. Və mən Şərq həyatından götürülmüş simvolik bir əsər teatromuzüçün yazmaq fikrinə düşdüm. Nəhayət 1901-ci sənədə "Pəri cadu" nam əsərimi yazdım. Bu neçə ilin müddətində "Pəri cadu"nun səhnədə müvəffəqiyyət qazanmasına səbəb, haman mən dediyim simvolizmin bizim ruhumuza uyğun olmasıdır" [3, s. 332].

Müəllifin adını çəkdiyi alman yazıçısı GerhartHauptmanın "Batmış zəng" (Dieversunkene Glocke) mənzum dramının süjet xətti ilə "Pəri cadu" dramının süjet xətti uyğunluq təşkil edir. "Batmış zəng"dəki Henrix obrazı Qurbanla oxşardır. Lakin onun nağıl qəhramanı olan Rautendele ilə görüşməsi təsadüfən baş verir. Kilsəyə gedərkən gölə düşən HenrixiRautendelesağaldır, o arvadı Maqda və uşaqlarını geridə qoyub Rautendele ilə dağlara köçür. Maqda göldə boğularkən zəng səslənir. Qurban Səliməninlaylay səsini eşidib, xəyalını görüb öncə Pərini öldürür,sonra özü ölür. Henrix də Maqdanın boğulduğu göldən gələn zəng səsləri ilə vicdan əzabı çəkərək Rautendelenin qucağında ölür. Məzmunca "Batmış zəng" dramı ilə bənzəyən dramı,bəzi tədqiqatçılara görə ideyasını "Qırmızı don" nağılından almışdır.

"Pəri cadu" dramında çatdırılmaq istənilən əsas fikir zəhmətlə deyil,asan yoldan zənginlik əldə etmək istəyinin,əlindəkixoşbəxtliyi,səadəti düzgün qiymətləndirəbilməməsinin insanın başına açması,var-dövlət,şan-şöhrət hərisliyinin,mənəm-mənəmlik sevdasının,ən əsası da bunların altında yatan nəfsin fəlakət gətirməsidir. Dramın ideyası "Hər kəs öz əkdiyini biçər". "Sonrakı peşmançılıq fayda verməz". "Çox istəyən azdan da olar" və s. Kimi atalar sözünə uyğun gəlir. "Pəri cadu" dramının ideyası haqqında Əbdürrəhim bəy Haqverdiyevin özü dolğun şərh vermişdir. "Pəri cadu"nunideyası:hər kəsin öz əlinin əməli onun müqəddəratını təmin edər.İnsan,taleyini kənarda axtarmayıb öz-özündə axtarmalıdır.Nəfs-əmmarə dalına düşüb gedərsə bəlalərə uğrayıb fot olar.Nəfsilə mübarizə edib əlinin əməyinə bağlanarsa,axtardığı məqsədə nail ola bilər" [3, s. 332]. Xalq ədəbiyyatının bilicisi həm də, xalq ədəbiyyatı nümunələrinin toplanması ilə yaxından iştirak edən Əbdürrəhim bəy Haqverdiyev bu əsərində şifahi xalq ədəbiyyatında aparıcı xətt olan xeyir-şər, qaranlıq-aydınlıq, yalan-doğru, pislik-yaxşılıq xəttini işləmişdir. Həmçinin o nəfsi-əmmarə ilə əqlin və fikrin qarşıdurmasından söz açır. Bu mübarizə Pəri cadunun fikirlərində özünü aydın göstərir və müəllif Şamama cadunu nəfsin rəmzi hesab edir. Şamama cadunu nəfsin qurbanı hesab edilirsə, əqlin, fikringörstəricisi də Dərviş obrazı hesab edilə bilər.

Nizami Xəlilov "Pəri cadu" əsərində obrazları iki qrupa bölür. Bir tərəfdə dini-mistik qüvvələri, zülmü təmsil edən Pəri cadu, İblis, Şamamacadu, əcinələr, digər tərəfdə Hafizə, Əmrah, Qurban, Səlimə, Niyaz, Rəhim, Sayad. N.Xəlilovun bölgüsünü real və real olmayan,xüsusi sehr və gücə malik olan və olmayan obrazlar qrupunun bölgüsü kimi şərh etmək olar ki,bu zaman ağlımıza əvvəldə söz açılan simvolizm-realizm mübahisəsi yenidən yaranır. Adı realizm cərəyanı ilə sıx bağlı olan

Haqverdiyevin dramındaki obrazları “dini-mistik obraz” başlığı ilə təsnif etmək bir qədər düzgün səslənmir. O bu obrazları real həyatdan almış, mifologiyamızda yer alan əsas xarakterlər ilə əlaqələndirərək qələmə almış, yaratmışdır. Bu təsnifatdan fərqlənən daha bir neçə bölgünü vermək mümkündür, məsələn,əksər əsərlərdə obrazların mənfi və müsbət xaraterli olması ilə əlaqəli bölgü irəli sürülür. “Pəri cadu” dramında bu meyara əsasən təsnifat aparsaq, Pəricadu, Şamamacadu, Qurban, Hafizəxanım, İblis, əcinələr, təlxək mənfi xarakterli qəhrəmanlar cərgəsində, Dərviş, Səlimə, Nizyaz, Sayad, Rəhim, Əmrah isə müsbət xarakterli qəhramanlar cərgəsində yer alar. Dram əsərinin ideyasına uyğun olaraq da bölgü aparmaq olar. Əbdürrəhim bəy Haqverdiyev əsərdə nəfsi-əmmarəsinə uyanların faciəsini qabardır,ona görə də obrazları öz nəfsi-əmmarəsinin qurbanı olmuş və başqasının nəsinin qurbanına çevrilmiş obrazlar olaraq da ayırmaq mümkündür. Qurban, Pəricadu, Hafizə xanım öz nəfslərinə görə can verərkən, Səlimə və övladının faciəsi bu üç obrazın nəfsinin nəticəsi olur. “Pəri cadu” dramında Haqverdiyevin yaratdığı epizodik, hadisələringedişatında aktiv görünməyən, dialoqları çox az,hətta heç iştirak etməyən obrazlara diqqət yetirmək lazımdır. Çünki yazıçı bu obrazları yaradaraq onların dili ilə əsərin ideyasını, digər obrazların xüsusiyyətlərini, iç dünyalarını açır,həmçinin əsərin gedişatında verilən bu fikirlər oxucuda əsərin sonu və obrazlarla bağlı fikir yaradır. Səlimə, Niyaz, Rəhim, Sayad süjet nöqteyi-nəzərindən epizodik, ideya və fikir nöqteyi-nəzərindən isə əsas obrazlardır.

Belə obrazlardan ilk olaraq Dərviş ilə qarşılaşırıq. Dərviş Pəriyə imtiqam almaqla məşğul olmaqdansa, qoca atasına qulluq etməsini, Allahayalvarmasını, səbr etməsini məsləhət görür. Şifahi xaıq ədəbiyyatında və mifologiyada dərviş obrazlarına hər zaman xüsusi hörmət göstərilmişdir. Dərviş hər zaman qiymətli məsləhətlər vermiş, bu məsləhətə əməl edənlər nicat tapmışdır. Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq” dramında da dərviş obrazı yer alır və söylədiyi misralarla Nəcəf bəyi qəflət yuxusundan oyadır. Burada isə ağılı təmsil edən Dərvişin sözləri Pəriyə təsir etmir.

Epizodik obrazlardan biri də Qurbanın odunçu dostu Niyazdır. Nümunə olaraq Niyaz və Qurbanın məşədəki söhbətini gətirə bilərik. Qurban əlində olan səadəti, xoşbəxtliyi, onu qəlbdən sevən həyat yoldaşını, ailəsini düzgün qiymətləndirmir,özünü daha çoxuna layiq bilir. Niyaz isə xoşbəxtliyin mənasını başqa cür anlayır, başqa cür görür, müəllif sanki onun nitqi ilə öz fikirlərini oxucuya çatdırır. “Ay heç zaddan gözü doymayan insan. Dünyanı yeyib “doymadım” deyə-deyə ölən insan” [2, s. 115]. Əsərin ideya və əsas fikri bu sözlərlə əks olunur.

Əsərdə Səlimə obrazı da ön plana çıxmır,amma qısa nitqlərində onun Qurbana olan məhəbbəti, ailəsinə olan sadiqliyi və qayğıkeşliyi görünür və Səlimə obrazına xüsusi rəğbət yaranır. Onun öz canına qıyması ilə hadisələr kulminasiya nöqtəsinə çatır və bundan sonra Qurbanın əsl faciəsi başlayır. Fərqli-fərqli epizodlarda Səlimənin övladına laylay deməsini eşidirik. Əbdürrəhim bəy Haqverdiyevin bu səhnələri yaratması təsadüfi deyildir. Diqqət yetirsək görərik ki, laylayın səsləndiyi səhnələrlə Qurbanın həyatının müəyyən mərhələləri üst-üstə düşür. I laylay üçüncü məclisin əvvəlində səslənir. Qurbanın yolunu gözləyən Səlimə onun üçün narahatdır,Qurbanın əziyyət çəkməsi Səlimənikədərləndirir. Qurban hər nə qədər narazı olsa da, onun sakit və isti ocağı, evi, ailəsi vardır. Qurban hələ Şamama cadu və Hafizə xanım ilə qarşılaşmamışdır. İkinci dəfə laylay Şamama cadunun Qurbanı yoldan çıxarıb Hafizə xanımın yanına apardığı zaman eşidilir. Laylayın səsinə ayaq saxlayıb tərəddüd edən Qurban öz ailəsini vara-dövlətə və gözəl Hafizə xanıma dəyişir. Onun Səlimə və övladını tərk etməsi və burada eşidilən laylay sonun başlanğıcından xəbər verir. Üçüncü dəfə laylay eşidəndə artıq Qurban Hafizə xanımı öldürmüş, Pəri cadu ilə süfrə arxasında şərab içir, əylənir. Gələnlaylay səsi Qurbanı qəflətdən oyadır, artıq Qurban peşmandır,lakin bunun ona heç bir faydası yoxdur. Pəri cadunun da canına qıyan Qurbanı isə Şamama cadu öldürür, sonuncu dəfə səslənən laylay onun dilindən olur. Bu laylay isə Qurbanın sonunu təmsil edir, eyni zamanda onun nəfsinə görə özünün və körpəsinin canına qıyan günahsız Səlimənin yerdə qalmayan haqqını göstərir:

Laylaydedim,yatasan,
Qızılgülə batasan,
Qızılgülün içində
Şirin yuxu tapasan [2, s. 143].

Qurban obrazının adını müəllif təsadüfən belə seçməmişdir. Bu ad onun taleyinə, gələcəyinə bir işarədir. Qurban sadə bir odunçudur. Bildiyimiz kimi Əbdürrəhim bəy Haqverdiyev şifahi yaradıcılığı nümunələri ilə yaxından tanış olmuş,əsərlərində də bu nümunələrdən istifadə etmişdir. Xalq nağılıarında sadə zəhmət adamları ön plana çəkilir, özdüzgünlükləri, ağılları, təmiz niyyətləri ilə fərqlənir, hər zaman da sınaqlardan qalib ayrılırlar. "Kəl Həsənin nağılı", "Ölü Məhəmməd", "Yaxşılığa yaxşılıq" və s. Kimi nağıllarda da odunçu obrazları təsvir edilmişdir. Bu nağılların qəhrəmanları öz ailələrinə qarşı fədakardırlar,onlarpulun,zənginliyin,gücün qarşısında əyilmir,mübarizə aparır və müvəffəq olurlar. Qurban isə bu onlarən əksinə pul və zənginlik qarşısında aciz qalır,nəfsinə uyur və nəfsinin qurbanına çevrilir, ona görə də yazıçı obrazı Qurban adlandırır.

Əsərin əsas qəhrəmanı olan Pəri cadu obrazını N.Xəlilov "Avesta"da təsvir edilən gözəllik ilahəsi Payrikaya bənzədir. Payrika da öz gözəlliyi ilə insanları yoldan çıxarır, Əhrimənə kömək edir. Pəri obrazı qədim Türk mifalogiyasında tez-tez rast gəlinən obrazdır və "pəri" sözünün mənası farscada "görünməyən, gizli güc" mənasını ifadə edir. Göyərçin, ilan, qartal cildinə girə bilən pərilər göyləri gəzə bilir,görünməz olub insanları aldada bilir. Bir çox xalq inam və yaradıcılıq nümunələrində isə pəri gözəllik, xoşniyyət təcəssümüdür. Haqverdiyevin Pərisi isə qeyd olunan hər iki gücdən məhrumdur. O, cəmi kişi tayfasından qisas almaq istəyir, ona köməyə isə İblis və Şamama cadu, əcinələr yetişir. Yəni bu güclər Pərinin özündə olmur.

Obrazlar arasında öz gücü ilə fərqlənən obraz Şamama cadu toxunulmazdır. Təsadüfi deyil ki, İblisin də Pəri caduya təkcə şərti Şamama cadunu incitməmək olur. Sonda Pəri cadu Şamama cadunu təhdid edib qovmanın cəzasını canı ilə ödəyir. Əsərdə insanların qanını içib, ciyərləri ilə bəslənən Şamama cadu Türk mifologiyasındakı al qarısı, albastı, alqanısı, alanası, halanası, küpəgirən qarı obrazları ilə bənzərlik təşkil edir. Al qarısı dağınıq saçlı, uzunboylu, qorxunc görünüşə malikdir və yeni övladı doğulmuş anaların ciyərini yeyir. Bir çox rəvayətlərdə Al qarısı ilə insanoğlunun qarşıdurması təsvir olunur, çox vaxt da insanoğlununqələbəsi, şər qüvvənin təmsilçisi məğlub olur. "Pəri cadu" dramında isə Şamama cadu Qurbanı, Pəri cadunu məhv edir, onun əməlləri Hafizə xanımın da ölümünə yol açır.

Hafizə xanım ona yardım edən İblisi, əcinəsi,güclərіyoxdur, amma daxili çirkinliyi onu digərlərindən heç də geri qoymur. Hafizə xanım obrazı ilə ilk tanış olduğumuz səhnədən onun Rəhimə olan münasibəti daxili aləmindən xəbər verir. Rəhimin sözlərindən bəlli olur ki, Hafizə xanımın var-dövləti ona ərindən miras qalıb. Elə onun hərəkətlərindən, sözlərindən də sonradan varlanmış olduğu görünür və "Kitabi-Dədə Qorqud"da keçən "Qaravaşa don geyündürsən, xanımolmaz" sözləri düşür. Təkcə Rəhimlə olan söhbətləri deyil, Sayad və Əmraha münasibəti, sonradan Səlimə və övladına yazığının gəlməməsi, ölümlərinin belə ona təsir etməməsi bir daha onun mənəviyyatsızlığını sübut edir.

Nəticə. Əbdürrəhim bəy Haqverdiyev "Pəri cadu" dramını yazmaqla ədəbiyyata yeni bir nəfəs gətirmişdir.

1. O, dramı simvolizm cərəyanı təsiri ilə yazsa da, obrazlar və hadisələr real həyatdan ayrılmır, çatdırmaq istədiyi məna həyatidir.

2. Müəllifin yaratdığı obrazlar şifahi xalq ədəbiyyatı nümunələrindən və mifologiyadan təsiriyləyaranmış, amma şifahi xalq ədəbiyyatında ,mifologiyada ifadə etdikləri obrazlardan fərqlənmişlərdir.

3. Obrazların xüsusiyyətləri,onları gözləyən hadisələr,əsərin ideyası və fikri epizodik obrazların nitqində və dialoqlarında əks olunur.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 2008, 360 s.
2. Haqverdiyev Ə. Seçilmiş əsərləri: 2 cilddə. I cild. Bakı: Lider, 2005, 504 s.
3. Haqverdiyev Ə. Seçilmiş əsərləri: 2 cilddə. II cild. Bakı: Lider, 2005. 408 s.
4. Xəlilov N. Xalq təfəkkürü, sənətkar qüdrəti. Bakı: Elm və həyat, 1996, 136 s.
5. Məmmədov M. Əbdürrəhim bəy Haqverdiyevin həyatı və yaradıcılığı. Bakı: Nurlan, 2008, 184 s.
6. Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, 504 s.
7. Zamanov A. Realist sənətkar. "Azərbaycan" jurnalı. No 12. 1953

ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV DRAMATURGİYASININ MÖVZUSU VƏ İDEYASI

Çiçək Hüseynova*

Abstract

Theme and idea of Abdurrahim bey Hagverdiyev's dramaturgy

Abdurrahim bey Hagverdiyev is one of the bright figures of the 20th century Azerbaijani realist literature. Abdurrahim bey Hagverdiyev enriched the 20th century Azerbaijani realist literature with a number of innovations he brought to our drama. In the article,the theme and idea of Abdurrahim bey Hagverdiyev's works: "If you eat goose meat, you will see it's flavor", "Disintegrating alliance", "Unfortunate young man" the world of images is analyzed.The author's dramaturgy was significantly influenced by the environment of Shusha,Tiflis, Petersburg, his personal life, works of our prominent playwrights M.F.Akhundov, N.Vazirov and the dramaturgy of the Russian classic A.N.Ostrovsky.The author managed to touch on topical issues in his dramaturgy, and in some of his dramas, he included mythological images and elements. ("Disintegrating alliance")

Keywords: *Abdurrahim bey Hagverdiyev, drama, theme, idea, dramaturgy.*

Giriş. 20-ci əsr Azərbaycan ədəbiyyatının görkəmli nasir, novator dramaturqlarından biri də dahi sənət fədaisi Əbdürrəhim bəy Haqverdiyevdir. Müəllifin dramaturji yaradıcılığına Şuşa, Tiflis, Peterburq mühiti əhəmiyyətli dərəcədə təsir göstərmişdir. M.F.Axundovun davamçısı olan ədib dramaturji yaradıcılığında rəngarəng obrazlar yaratmışdır. Bu obrazları həyati-rəmzi, zalım-məzlum, real-real olmayan və s. kimi qruplaşdırmaq olar.

Müəllifin yazdığı ilk dram əsəri "Yeyərsən qaz ətini, görərsən ləzzətini komediyasıdır. Ədib bu komediyanı 1892-ci ildə qələmə almışdır. Əsərin əsas mövzusu çoxarvadlılığın tənqididir. Bu mövzuya ədibdən əvvəl Mirzə Fətəli Axundov ("Sərgüzəşti-vaziri-xani-Lənkəran") və ondan sonra Nəcəf bəy Vəzirov ("Yağışdan çıxdıq, yağmura düşdük") müraciət etmişdir. Hər üç əsərdə də hadisələrin süjet xətti və gedişatı fərqlidir. Mirzə Fətəli Axundovun 1851-ci ildə yazdığı "Sərgüzəşti-vəziri-xani-Lənkəran" əsərində vəzir Mirzə Həbibin arvadları - Ziba və Şölə xanımın daim mübahisə etdiyini, sakit ailə mühitinin pozulmasına çoxarvadlılığın səbəb olduğunu görürük. Eyni şəkildə Hacı Mehdinin arvadları - Sənəm və Güllü də münaqişə içərisində olurlar. Bu oxşarlıqlara baxmayaraq,"Sərgüzəşti-vəziri-xani-Lənkəran" əsəri çoxşaxəli süjeti, ortaya qoyduğu problemlər baxımından fərqlənir.Yaltaq dövlət adamlarının ifşası, yeniliklə köhnəliyin mübarizəsi əsərdə əsaslı şəkildə öz əksini tapmışdır. 1895-ci ildə Nəcəf bəy Vəzirovun qələmə aldığı "Yağışdan çıxdıq, yağmura düşdük" əsərində tacir Hacı Qəmbərin başına hava gəlməsi, arvadı Dilbər xanımı atıb, evində illərdir saxladığı azyaşlı qulluqçu Yetərin eşqinə düşməsindən bəhs olunur. Dilbər xanım da Sənəm kimi ərinə sadiq bir qadındır, çətin anlarda onun yanında olmağı bacarır. Müəllif əsərdə kapitalizmin formalaşmağa başladığı bir dövrdə Hacı Qəmbər kimi tamahkar, mənəviyyatsız tacirləri tənqid edir.

"Yeyərsən qaz ətini, görərsən ləzzətini" əsərinin süjeti təkşaxəlidir. Əsərin mövzusu və adı ilə bağlı K.Məmmədov yazır: "Bu ilk komediyaya o, A.N.Ostrovskinin bir çox pyeslərində olduğu kimi, xalq məsələlərindən birinin adını vermişdi: "Yeyərsən qaz ətini, görərsən ləzzətini". Komediyanın mövzusunu hələ Şuşada ikən gördüyü və yaxşı tanış olduğu tacir həyatından almışdı" [5, s. 21]. Burada qeyd etmək istərdik ki, Ə.Sultanlı Haqverdiyev dramaturgiyasının Nəcəf bəy Vəzirov dramlarından qidalandığını düşünür:"Ə.Haqverdiyevin dramaturgiyası N.Vəzirov teatrı təməlində möhkəmlənib inkişaf etdirmişdir. Cəlil Məmmədquluzadə nə qədər M.F.Axundovla bağlı isə, Haqverdiyev də bir o qədər Vəzirovla bağlıdır" [7, s. 241]. Tədqiqatçının da fikirlərini nəzərə alaraq söyləmək lazımdır ki, N.Vəzirov da dram əsərlərinin adlarında xalq məsəllərindən istifadə etmişdir. 1892-ci ilə qədər onun yazdığı "Daldan atılan daş topuğa dəyər", "Sonrakı peşmançılıq fayda verməz","Adı var, özü yox" əsərlərinin adını çəkə bilərik.Ə.Haqverdiyev N.Vəzirovdan təsirlənərək də əsərinin adını xalq məsəli seçmiş ola bilər. Digər tərəfdən qeyd etmək lazımdır ki, ədibin sevərək

* ***Bakı Dövlət Universiteti, III kurs bakalavriat. Elek.poçt: cickhuseynova07@gmail.com. Rəyçi: dos. Jalə Hüseynova***

oxuduğu A.N.Ostrovski öz pyeslərində tacir obrazları yaratmışdı. 1850-ci ildə "Öz adamımızdır-düzəlişərik" əsərində tacir Bolşov, 1859-cu ildə "Tufan" əsərində Dikoy obrazı yer almışdır. Əsərlərdəki üç tacir də oxucuda rəğbət doğurmur. Tacir Bolşov və Hacı Mehdi o öz əməllərinin cəzasını çəkib peşman olurlar, Dikoy isə nə cəza çəkir, nə də peşman olur. Bu amilləri nəzərə alaraq müəllifin əsəri Ostrovskinin əsəri əsasında yazdığını söyləmək olmaz, tacir obrazı yaratmaq istəyini Ostrovskinin tacir pyesləri ilə əlaqələndirmək olar.

Ədibin yazdığı ikinci dram əsəri isə "Dağılan tifaq"faciəsidir.Əsər 1896-cı ildə qələmə alınmışdır.Əsərin əsas ideyası mülkədarların tüfeyli həyatını, onların bir sinif olaraq iflas etdiyini göstərmək olmuşdur. Dram əsəri haqqında müxtəlif tədqiqatçılar ziddiyyətli fikirlər irəli sürmüşlər.Xalid Əlimirzəyev əsər haqda yazır: "Bu əsərlə Ə.Haqverdiyev Azərbaycan dramaturgiyası tarixində ilk mənfi qəhrəmanlı faciənin əsasını qoymuşdur" [2, s. 185]. Yaşar Qarayev isə "Ağa Məhəmməd şah Qacar"əsərini ilk mənfi qəhrəmanlı faciə hesab edir: "Qacar surətini yaratmaqla müəllif tragediyaya fəciliyin yeni formasını, tragik qəhrəmanın və xarakterin yeni bir nümunəsini gətirmişdir. Qeyri-adi dərəcədə müdhiş olduqda mənfi bir məziyyət də tragediyanın predmeti ola bilir" [4, s. 87]. Nəcəf bəyin sondakı peşmançılığını və müəllifin də ona dost kimi yanaşdığını nəzərə alsaq, Yaşar Qarayevin fikri ilə razılaşmalı oluruq. Mir Cəlal da müəllifin Nəcəf bəyə dost münasibət göstərdiyini qeyd edir: "Bunlar hamısı, əlbəttə, mülkədarlıqdan hələ tamamilə üzülməyən gənc Haqverdiyevin niyyəti idi. O, nəcəf bəyləri islah etmək fikrində idi və bunu mümkün sayırdı" [1, s. 203]. Əsərin adına nəzər salsaq, burada da müəllifin mülkədar sinfini nəzərdə tutduğunu görərik. Tifaq-ittifaq, birlik deməkdir. "Dağılan tifaq" dedikdə, ədib Nəcəf bəy, Səlim bəy, Həmzə bəy kimi mülkədarların birliyinin süquta uğradığına işarə etmək istəyir. Bu süqutun həm maddi, həm mənəvi səbəbləri vardır. Bu dövrdə (1880-1890-cı illər) mülkədar sinfi öz yerini burjuaziyaya verirdi, onlar tarix səhnəsini tərk etməyə məcbur idilər. Bu maddi səbəb idi. Mənəvi səbəb isə onların çirkin xarakteri, pullarını qumara, içkiyə xərcləmələri, mənasız həyat sürmələri idi. Bu amillər mülkədar sinfinin iflasını zəruri edirdi. Əsərin əsas obrazlarından olan Nəcəf bəyi əsərin əvvəlindən öz xarakterini büruzə verir, o "dünya beş gündür, beşi də qara" fəlsəfəsi ilə yaşayır, gününü dostları ilə əylənib, qumar oynamaqla keçirir. Bir ata olaraq da oğlu Süleymanın tərbiyəsində özünü günahkar görmür. Süleyman və Nəcəf bəyin ata-oğul münasibətini "Ot kökü üstə bitər" məsəli ilə izah etmək olar. N.Vəzirovun "Ev tərbiyəsinin bir şəkli" əsərindəki Bayraməli bəyin oğulları -Səfdərqulu və Rəsulla münasibəti də əsərdəki ata-oğul münasibətinə oxşardır. Yaxşılığı belə təmənnalı edən şöhrətpərəst Nəcəf bəy ailəsini də xoşbəxt edə bilmir. Nəcəf bəyi ayıltmaq üçün şifahi xalq ədəbiyyatına bələd olan dramaturq Dərviş obrazından istifadə edir. Dərviş obrazı Azərbaycan ədəbiyyatında ikili-mənfi və müsbət kontekstdə təsvir olunmuşdur. İslam dini ilə bağlı "ruhani, yol göstərən, dünya malında gözü olmayan və s. mənalarında işlənmiş, Avropa ədəbiyyatında isə "kasıb, fəqir və təcrid olunmuş həyat keçirən" katolik rahiblərlə eyniləşdirilir. Şifahi xalq ədəbiyyatında, əsasən də, nağıllarda dərviş iki müsbət və mənfi obrazda çıxış edir. Əsərdə Dərviş obrazı müsbət planda işlənilmişdir. İkinci məclisdə, Nəcəf bəyin Nazlı xanımı gözüyaşlı qoyduğu səhnədə o, ortaya çıxır və oxuyur:

Ey əzizim, bir baxın dünya nə ibrətxanədir!
Axırın fikr etməyən aqil deyil, divanədir...

Nəcəf bəy Dərvişin oxumağına dözə bilməyib onu yola salır, çünki onun söylədiklərinin doğru olduğunu bilir. Nəcəf bəyin ilk və son monoloqlanna nəzər salsaq, onların arasında uçurum olduğunu görə bilərik. Ailəsini, mal-dövlətini itirən Nəcəf bəy peşmandır, mənəvi baxımdan çökmüşdür, vicdan əzabı onu məhv etmişdir. Ə.Sultanlı "Dağılan tifaq" əsərini N.Vəzirovun "Müsibəti-Fəxrəddin"i ilə müqayisə edir, Nəcəf bəyə isə bu cür münasibət bildirir: "Nəcəf bəy əliaçıqdır, təlislə buğda, düyü, hətta yabı bağışlayır, qumarbaz və əyyaşdır. Epikürizm və əyyaşlıq onun mühakiməsini, şüurunu kütləşdirmişdir. İkinci tərəfdən Nəcəf bəy nə Rüstəm bəy kimi kor, nə də Cənnətəli ağa kimi kütbeyin deyil. O hərdənbir ayılır, mühakimə edir, boranlı həyəcanlar keçirir, maddi iflasının iztirablarını çəkir, əxlaqsız oğlunun qeydinə qalır" [7, s. 253]. Əsərin mahiyyətinin açılmasında "dağılan tifaq"ın digər üzvləri də vacib rol oynayır. Nəcəf bəyin dostları arasında Səlim bəy və Aslan bəy bir qədər fərqlənir. Səlim bəy "malını yeməyənin malını yeyərlər" fikri ilə yaşayan adamdır. Əsər boyu boşboğazlıq etsə

də, onun doğru fikirlər irəli sürdüyü məqamlar vardır. Birinci məclisdə isə o keçən günləri yada salır, nostalji hisslər keçirir: “Heç keçən günlərdən danışma. Keçən günə gün çatmaz, calasan günü günə” [3, s. 50]. Səlim bəy mülkədar sinfinin sonunun gəldiyini, artıq keçmiş günlərə qayıtmağın mümkün olmadığını dərk edir.Əsərin bu hissəsi özündə müəyyən romantik çalarlar ehtiva edir.Səlim bəyin keçmiş günləri xatırladığı səhnə M.F.Axundovun “Hacı Qara” əsərində Heydər bəyin monoloquna bənzəyir. Hər iki obraz keçən günlər üçün darıxır. Səlim bəy Süleymanın pis vərdişlərini atası ilə əlaqələndirir və bu məqamda haqlıdır: “A kişi, mən imanım, döyməkdən deyil. Mal yiyəsinə oxşamasa haramdır. Ot kökünün üstündə bitər” [3, s. 54]. Aslan bəy hadisələri düzgün dəyərləndirməyi bacarır, Nəcəf bəyin oğlu ilə münasibətinə irad bildirir, ancaq özü də Nəcəf bəy, Səlim bəy ilə dostluq etməklə bu çirkin mühitin bir parçası olduğunu göstərir. Nəcəf bəy məktub yazıb ondan borc istədikdə də ona dəstək olmur. Faciədəki əsas qadın obrazı isə Sona xanımdır. Sona xanımın ikinci məclisin əvvəlindəki monoloqu ilə tipik, hüquqsuz Azərbaycan qadının nümayəndəsi olduğunu göstərir. Sona xanım əsərdə Zeynəblərin,Gülbadamların haqq səsinə çevrilir. Müəllif bununla demək olar ki, o dövrdə aktual olan qadın hüquqsuzluğu probleminə də toxunmuş olur. O həmçinin xoşrəftar, mehriban anadır. M.Məmmədov obraz haqqında yazır: “Həm bir bəy arvadı, həm də ana kimi verilən Sona xanım “Dağılan tifaq” faciəsində ən dolğun, diqqətlə işlənilmiş müsbət surətdir” [6, s. 121]. Ədib əsərdə Sona xanımın yuxusundan rəmzi detal kimi istifadə edərək gələcək hadisələrin gedişatı barədə oxucuya məlumat verir. Müəllif sonda Sona xanımının kölgəsini Nəcəf bəyin gözləri önünə gətirməklə dramaturgiyamızda yenilik yaratmışdır.

Müəllifin növbəti dram əsəri “Bəxtsiz cavan”dir. Əsəri 1900-cü ildə yazmışdır. Dram əsərindəki əsas konflikt köhnəliklə yeniliyin mübarizəsi üzərində qurulmuşdur. Y. Qarayev əsər barədə yazır: “İntihar bədii bir üsul kimi Azərbaycan faciəsinə ilk dəfə bu əsərlə daxil olur” [4, s. 84]. Əsər demokratizmiın gücləndiyi, ancaq köhnə qüvvələrin də tam mövqeyini itirmədiyi bir dövrdə yazılmışdır. Hələ yeni-yeni mütərəqqi meyillərin sabitləşdiyi bu dövrdə müəllif Fərhad obrazını yaradır.Əsərin baş qəhrəmanı olan Fərhadın müəllifin prototipi olması barədə K.Məmmədov yazır: “Müəllifin öz həyat təcrübəsindən istifadə edərək əsər yazması heç də təəccüblü deyildir. Ədib bu pyesdə gənc Fərhadı özünə oxşatmağa çalışmışdır” [5, s. 32]. Fərhadın ailə münasibətləri ilə Ə.Haqverdiyevin ailə münasibətləri arasında həm oxşarlıq, həm də fərq vardır. Fərhadın anası Mehri xanım ölmüş ərinin qardaşı Hacı Səməd ağa ilə evlənir. Ədibin anası da ikinci dəfə evlənir və uşaq yaşlarından müəllif bu səbəbdən problemlər yaşayır. Fərhadın əmisi Hacı Səmədlə münasibəti isə dramaturqun əmisi ilə münasibətinə oxşar deyil. Fərhad öz demokratik fikirləri, ədalət axtarışları, bərabərlik müdafiəsinə qalxması ilə ədiblə oxşardır. Onun intiharı,pessimist təbiəti isə müəllifin prototipi olmadığı fikrini irəli sürməyimizə səbəb olur. Fərhad obrazı M.F.Axundovun Şahbaz bəy, N.Vəzirovun Fəxrəddin obrazının davamıdır. Şahbaz bəyin 19-cu əsrin tərəqqipərvər gənci olduğunu nəzərə alsaq, onun görüşləri hələ ibtidai səviyyədə idi, tam formalaşmamışdı. Fəxrəddinin fikirləri Şahbaz bəydən irəli getsə də, Fərhad qədər ardıcıl deyildi. Fəxrəddin bir sıra istəklərini-bağ saldırmaq, məktəb və xəstəxana açdırmağa nail ola bilir. Fərhad isə istəklərinin heç birini reallaşdıra bilmir. Onun fikirləri nə qədər ardıcıl olsa da, əməldə bu fikirləri həyata keçirə bilmir, tez ruhdan düşür. Fəxrəddin iradəlidir, o, qan davası üstündə ölür, Fərhad isə intihar edir. Hər üç əsərdə tərəqqipərvər obrazlar zahirən deyil, mənəvi qələbə çalırlar. Üç dram əsərində də köhnəlik yenilikdən, mürtəce qüvvələr mütərəqqi qüvvələrdən güclüdür.Ə.Sultanlı Fərhadı Fəxrəddinlə müqayisə edib yazır: “Fərhad Fəxrəddin deyil, Fəxrəddin islahatçıdır. Fərhad isə inqilabçıdır. O özünəməxsus, bitkin, müəyyən sistemli demokratik görüşlərə malikdir” [7, s. 260]. Fərhad yenilik tərəfdarı, eyni zamanda həssas, xalqçı obrazdır. O, təvazökar insandır, kəndliləri içəri dəvət edib əyləşdirir, onların dərdinə diqqətlə qulaq asıb çarə tapmağı özünə borc bilir. İnsanları mövqeyi, tutduğu vəzifəyə görə deyil, xarakterinə görə dəyərləndirməyi bacarır:”Əmimə də və özün də bilginən ki, ayaqdan bulaşan tozu süpürgə ilə təmizləmək mümkündür. Otaq üfunətini pəncərəni bir qədər açıq qoymaqla rədd etmək olar. Amma bir para xəbis qəlbləri basan tozu heç bir süpürgə ilə təmizləmək olmaz. Murdar ürək sahibləri olan vücudların üfunətini dəryalar pak edə bilməz. Bu gələn kişilərin tozlu, çirkli ayaqları çox adamın ürəyindən təmizdir” [3, s. 86]. Müəllif burada həm də kəndlilərin acınacaqlı vəziyyətini əks etdirir. Mülkədar tərəfindən insan yerinə qoyulmayan kəndlinin problemi çoxdur:onların həkimi yoxdur,

barama saxlamağı bacarmırlar, elmdən başları çıxmır deyə qaranlıqda qalıblar. Qaranlığa işıq salmaq istəyən Fərhad əvvəl əmisinə qarşı sərt çıxışlar etsə də, məqsədlərini gerçəkləşdirəcək qədər güclü deyil. Əmisinin onu evləndirməsindən sonra o, bədbinləşir, pessimist düşüncələrə qapılır, fəaliyyətsiz qalır. Həssas təbiəti səbəbi ilə başına gələn hadisələrə dözə bilmir, mürtəce mühitin qüvvəti onu əzir. Ə.Sultanlı Fərhad barədə qeyd edir: "Fərhad bəzi cəhətdən, eyni zamanda Ferdinandı (Şiller "Məkr və məhəbbət") xatırladır. Fərhadın əmisinə etirazları, Ferdinandın atasına etirazlarının eynidir. Fərhad Züleyxa xanımı sevir, halbuki əmisi onu Məcnun bəyin qızı ilə evləndirir. Fərhadın Züleyxa xanıma qarşı sevgisi əsərdə kölgədə qalmışdır. Bu məsələ qabarıq verilməmişdir. Fərhadın etirazları ictimai əməlləri ilə bağlıdır. Ferdinand russoistdir, o, ancaq evlənməkdə bərabərsizlik əleyhinə çıxır. Fərhad demokratdır, o, ictimai quruluşun, geniş mənada, hər bir sahəsində bərabərlik tələb edir. Fərhadın demokratizmi daha müasir, daha dolğun xasiyyət daşıyır" [7, s. 261]. Əsərdə köhnəlik tərəfdarı Hacı Səməd ağanın da obrazı yaradılmışdır. Vekselə pul verən bu mülkədar özünü xalqa səxavətli adam kimi göstərir. Mənfəətcil, qəddar mülkədarın Fərhadın anası ilə evlilik səbəbi də qardaşından qalan mirasdır. Əsərin əvvəlində onun xarakteri Mirzə Qoşunəlinin nitqi ilə onun xarakteri açılır. Pula görə Mirzə Qoşunəli də Hacı Səməd ağanın tərəfinə keçib onunla əlbir olur, Fərhada planlar qurur, Fərhadı evləndirmək ideyası da ona aiddir. Qeyd etmək lazımdır ki, ağa-nökər münasibətinə müəllif "Ata və oğul" əsərində də Hacı Xəlil-Kərbəlayı Qulaməli obrazları vasitəsilə yer vermişdir. Bu əsərdə münasibətlər yaxşılıq, sadiqlik üzərində qurulmuşsa, "Bəxtsiz cavan"da mənfəət, pislik üzərində qurulmuşdur. Hacı Səmədin əsas qorxusu qardaşının mirasını itirmək, xalqın inqilaba qalxmasıdır. Bu səbəbdən Fərhada qarşı tez tədbir görür, onu evləndirir. Onun ölümü də Fərhadın əlindən olur.K.Məmmədov bu obraz haqqında yazır: "Əgər müəllif Dağılan tifaq" faciəsinin qəhrəmanı Nəcəf bəyi dost cəbhəsindən tənqid edirsə, "Bəxtsiz cavan" pyesindəki Hacı Səməd ağanı düşmən cəbhəsindən tənqid edir. Hacı Səməd ağalar Nəcəf bəylərdən fərqlənir. Onlar daha eyş-işrətlə keçinməyin mümkün olmadığını görüb, yeni ideyalarla Azərbaycan kəndinə gəlmiş fərhadlara qarşı mübarizəni gücləndirmişlər" [5, s. 36]. Əsərdə yer alan yeganə qadın obrazı Mehri xanımdır. Mehri xanım da Hacı Səməd ağa kimi köhnəlik tərəfdarıdır. Yeniliyi duya, hiss edə bilmir, Fərhad ilə onun dünyagörüşü tamam fərqlənir. Bunlara baxmayaraq, son ana qədər Fərhadın yanında olur, oğlu həbsdə olarkən belə onu çıxartmaq üçün çalışır.

Nəticə. Əbdürrəhim bəy Haqverdiyev yaratdığı dram əsərləri ilə ədəbiyyat tariximizdə unudulmaz iz qoymuş, gətirdiyi yeniliklərlə Azərbaycan dramaturgiyasına böyük töhfə vermişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Cəlal M, Hüseynov F.XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2018, 560 s.
2. Əlimirzəyev X. Klassiklərimizin ideal və poetik sənət dünyası iki cilddə. Bakı: Elm və Təhsil, 2009, 668 s.
3. Haqverdiyev Ə.Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Lider, 2005, 504 s.
4. Qarayev Y .Faciə və qəhrəman. Bakı: Azərbaycan EA nəşr-tı, 1965, 112 s.
5. Məmmədov K.Əbdürrəhim bəy Haqverdiyev. Bakı, 1955, 193 s.
6. Məmmədov M.Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı. Bakı: Nurlan, 2008, 184 s.
7. Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişaf tarixindən. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, 504 s.

CƏFƏR CABBARLININ YARADICILIĞINDA QADIN OBRAZLARI

Aysun Hüseynzadə*

Abstract

Female characters in Jafar Jabbarli's work

One of the prominent poets, writers and playwrites of Azerbaijan was Jafar Jabbarli. The themes and ideas of his works covered the current problems of the time. One of the urgent issue was women's freedom. The article talks about the characteristics of female characters in Jafar Jabbarli's work. Topics such as the role of women in society, attitude towards women, women's freedom are considered. The main idea is the turbulent life of women, their struggle for their freedom. Jafar Jabbarli tried to reflect all these points in his work. The fact that he named his works after female characters proves this. In the works, he emphasized the importance of women's education, the different way of thinking of an educated woman, the struggle of a woman who can stand on her own feet without depending on anyone.

Keywords: *Jafar Jabbarli, female, character, freedom, struggle.*

Giriş. Ədəbiyyat, xüsusən də klassik ədəbiyyat həmişə ideya dərinliyi, personaj və obrazları ilə seçilir. Qadın personajının, əlbəttə ki, hər hansı bir romanda, hekayədə və ya əsərdə iştirak etməyi mühümdür və əsrdən-əsrə bu obraz hər bir sonrakı nəslin baxışlarından, tərbiyəsindən, eləcə də müəllifin planlarından, ideyaların asılı olaraq dəyişir. Qadınların hüquqları, vəzifələri və davranışları əsrdən-əsrə fərqlənir. Əvvəllər- yüz, iki yüz il əvvəl- qadınlara münasibət indiki münasibətdən fərqli idi, bir çox tarixi hadisələrə və dəyişikliklərə uyğun olaraq ədəbiyyatda qadın obrazı da dəyişdi. Qadın və qadınlıq haqqında müzakirələr, təbii ki, ədəbiyyatda iz buraxmaya bilməzdi. Bu həmçinin Azərbaycan ədəbiyyatına da öz təsirini göstərdi.

Azərbaycan ədəbiyyatında qadın obrazlarına münasibət bir çox mövzu və istiqamətləri təşkil edir. Bunlardan biri də Cəfər Cabbarlının yaradıcılığıdır. Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının görkəmli yazıçısıdır. O, cəmi otuz beş il ömür sürmüşdür, amma buna baxmayaraq böyük ustalıqla bir çox əsərlər yaratmışdır. Onun əsərləri oxucular tərəfindən hələ də böyük maraqla qarşılanır və oxunulur. O, bir çox janrlara müraciət etmişdir və hər bir əsəri böyük məharətlə yaratmışdır. Onun qəhrəmanları özünəməxsus xüsusiyyətləri ilə seçilirdi. Azərbaycanın görkəmli dramaturqu Cəfər Cabbarlı XX əsrin əvvəllərində Azərbaycan xalqının tarixi taleyində əsaslı rol oynayan dramatik hadisələrin, dəyişən dünyanın fonunda ədəbiyyatımıza böyük bir ədəbi irs qoymuşdur [1, s. 93]. Onun Azərbaycan ədəbiyyatında böyük rolu olmuşdur. Cəfər Cabbarlının yaradıcılığında əsas mövzunu qadına münasibət, qadın azadlığı, qadınların təhsil alması məsələləri təşkil edir. Hekayələrinin bir çoxunun qadın adları ilə adlandırılması da bunu sübut edir. O, heç kimdən asılı olmayan, öz ayaqları üzərində dura bilən, təhsilli qadın obrazları yaratmağa çalışırdı. Bəzən də bəzi qadınların acı həyatını təsvir edərək onların çəkdikləri əziyyətləri göstərirdi.

Əsas hissə. Cəfər Cabbarlının "Dilbər" hekayəsinin mövzusu o dövrün aktual problemləri ilə diqqəti cəlb edir. Həsən kişi Dilbərin oxumağını istəyirdi, qızını böyük adam görmək, onunla fəxr etmək arzusunda idi. Lakin Mirzə Kərimin qızını istəməsi, ölmüş atı və altı yüz manat borcunun yadına düşməsi onun bu arzusunu yarımçıq qoyur. Mirzə Kərim Dilbərin oxumağına icazə vermir, ona yalnız Quran oxumağı öyrədir. Dilbər isə gündən-günə solurdu. O, çox böyük arzularla yaşayan obraz idi. Onun düşüncələrində də bu təzahür edilir:

Dilbər atasının yoxsulluğunu xatırlayır oxuyub doktor olacağını, ağ paltar geyinib xəstələrə baxacağını, atasına kömək edəcəyini, qoca atasının başını ucaldacağını düşünürdü [2, s. 276]. Dərsdə belə dinc oturmayan Dilbərin ərə getdikdən sonra səssiz-səmirsiz bir qıza çevrilməsi, günlərlə ağlaması, ona söylənilənlərə boyun əyməsi onun həyatının acınacaqlı vəziyyətə çevrilməsini təsvir edirdi. Sinif yoldaşları ilə rastlaşan zaman onlardan utanıb gizlənməyə çalışması, Molla Gülsümün

* ***Azərbaycan Dillər Universiteti, bakalavriat. Elek.poçt: aysunnhuseynzade185@gmail.com. Elmi rəhbər:*** *Aygün Hüseynova.*

onları başıaçıq görüb "sərxoş ləvəndlər" adlandırması ilə, əslində, Molla Gülsüm timsalında bütün cəmiyyəti göstərməyə çalışırdı. Məktəb yaşında olan bir qızın təhsildən uzaqlaşdırılıb ərə verilməsi onun həyatının faciəyə çevrilməsinə səbəb oldu. Bununla da, Cəfər Cabbarlı pula görə qadınların təhsildən kənarlaşdırılıb yaxşı həyat yaşamaq adı ilə ərə verilməsinə qarşı çıxdığını bildirirdi.

Yazıçının "Aslan və Fərhad" hekayəsi də bir çox mövzuları əhatə edir. Bu hekayədə əsas qadın obrazı Züleyxa idi. Züleyxa qayğıkeş bacı, əzabkeş qadın obraz idi. Əsgərin Züleyxanı istəməsi ilə Aslan bacısının daha yaxşı həyat yaşayacağını, yoxsulluq görməyəcəyini düşünərək ona ərə verir. Lakin Züleyxa gündən-günə solmağa başlayır, çünki Əsgər onu incidirdi. Züleyxa evə qayıtmaq istəsə də, qardaşını düşünür və bu fikirdən daşınır, amma qardaşı Fərhadın mühəndis olub gələcəyini və ona da baxacağını düşünərək bütün əziyyətlərə dözməyə çalışır. Əsgərin onu qovması, övladından ayrı düşməsi, qardaşının kor olması Züleyxanı daha da acınacaqlı vəziyyətə salır. O, qardaşına görə dilənməyə başlayır və bütün bunlara səbəb olan qardaşı Fərhad və Gülzarı öldürmək istəyir, lakin özü qurbana çevrilir. Bu hekayədə digər qadın obrazlardan biri də Gülzardır. Gülzar xəyənatkar obrazdır. O, əvvəlcə əri Aslana xəyanət edir, sonunun ölüm olacağını bilərək Aslanın kor olmasına və qardaşının tutulmasına səbəb olur. Bununla da, ölümdən xilas olacağını düşünərək yaşamağa başlayır, amma bu da çox uzun çəkmir.

"Gülər" hekayəsi də mövzu baxımından o dövrün xüsusiyyətlərini səciyyələndirir. Burada biz qadın hüquqsuzluğuna rast gəlirik. Ondan soruşmadan həyatına qarışılması, onun yerinə qərarlar verilməsi, arzularının nəzərə alınmaması qadına qarşı münasibəti göstərir. Gülər səhnədə çıxış etmək istəsə də, onun bu istəyi nəzərə alınmır, onu susdurmağa çalışırlar. Ümumiyyətlə, Cəfər Cabbarlı teatr səhnəsində Azərbaycan qadınlarının iştirakını arzulayırdı. "Gülər" hekayəsində də onun bu istəyinə rast gəlirik. Lakin dövrün qaydaları buna imkan vermirdi. Çadrasız qadınlar belə az sayda idi. Gülərin nişanlısı özünü maarif adlandırsa da, özü belə buna qarşı çıxır, sadəcə Gülər vasitəsilə bunu ört-basdır etməyə çalışırdı. Sonda qəzəblənərək öz arvadının səhnəyə çıxmağına qarşı olduğunu bildirir və bu onun nitqində də təzahür edir:

Bu mənim nişanlımdır,- dedi.- Mən öz arvadımı nə səhnəyə, nə kinoya, nə də başqa-başqa yerlərə buraxmaram, vəssəlam, şüd-tamam, qurtardı getdi [2, s. 300]. Bu hekayədə də biz qadınların hüquqlarının əlindən alınması kimi məqamlara rast gəlirik.

"Sevil" pyesində də əsas qadın obrazlarından biri də Sevildir. Sevil savadsız, yaşadığı mühitə uyğunlaşan bir obrazdır. Lakin Sevilin çadranı atması, xaricdə təhsil alması onun böyük dəyişim keçirdiyini göstərir. Əslində, Sevilin bu qədər dəyişməsinə səbəb olanlardan biri də Gülüş obrazıdır. Gülüş yaşadığı mühitin əksinə düşünür, buna görə də onu dəli adlandıranlar da vardır. Sevil bu mühitə qarşı çıxır, qadınların azadlığı uğrunda mübarizə aparmağa başlayır. O, "Azərbaycan qadınlığının azadlıq yolu" adlı kitab yazmağa başlayır. Hətta onun adını oxuyanda belə bunu türk qadınının yazdığına inanmırlar, çünki kitabda dərin mənalı, fəlsəfi fikirlər çox idi. Heç yox. Bir türk qadını qiyamətə kimi, belə bir kitab yaza bilməz. O ya fransızdır, ya da hər halda fransızdır [4, s. 43]. Amma bunu yazan da bir türk qadını idi, vaxtilə savadsız, mühitin yetişdirdiyi, çadrasını çıxartmağı belə düşünməyən Sevil idi. Balaşın Sevili gördükdən sonra onu bağışlamasını istəməsi də bizə güclü bir qadının nələrə qadir olduğunu göstərir. Əslində, biz Sevil obrazında ciddi dəyişiklik görürük. Bəzi sözlərin mənasını belə bilməyən Sevil kitab yazacaq dərəcəyə gəlmişdir, bu da onun özünü nə qədər inkişaf etdirdiyini göstərir. Sevil digər qadınlara da nümunə olaraq, onları öz ayaqları üzərində durmağa, heç kimdən asılı olmadan yaşamağa və öz hüquqlarını tələb etməyə çağırırdı. Yazıçı Sevil obrazı vasitəsilə bütün qadınları bu cür görmək istədiyini bildirirdi. Cəfər Cabbarlı Sevilin simasında bütün qadınlara öz azadlıqları uğrunda mübarizə aparmağa səsləyirdi.

"Dilarə" hekayəsi də mövzu baxımından diqqəti cəlb edir. Bu hekayədə əsas obraz Dilarə idi. Dilarə səkkiz yaşında sakit bir qız idi. Bəşir kişi məktəbin qabağında təmiz geyimli, gülərüz uşaqları görür və öz qızını da belə xəyal etməyə başlayır. O düşünür ki, Dilarə də belə geyinsə, bütün qızlardan gözəl olacaq. Müəllimlə danışıb Dilarəni məktəbə yazdırır, çətin vəziyyət olmasına baxmayaraq, ona paltar alır. Dilarəyə söylədikdə onun sevincini görüb özü daha çox sevinir. Lakin bütün çətinliklər ondan əl çəkmir, yolun palçıqlı olması, Dilarənin geyiminin batması, ayağının pis vəziyyətə düşməsi onların bütün arzularını ürəklərində qoyur. O, xəstə yatağında ac uşağına, ağlayan arvadına baxaraq utanır.

Öz-özünə deyir: Ox, səadət nə qədər yaxın idi!.. [2, s. 275]. Yazıçı bu əsəri yazmaqla bəzən yaşadığımız hadisələrin də öz əlimizdə olmadığını göstərir. Övladını oxutmağa çalışan bir atanın sonunun bu cür gətirməsi acınacaqlı bir vəziyyət idi.

"Firuzə" hekayəsində isə digər hekayələrdən daha fərqli obraz yaradılmışdır. Hekayədəki Firuzə obrazı təhsilli, müasir, yenilikçi qadındır. Yazıçı bu hekayədə köhnə həyatla yeni həyatı qarşılaşdırırdı. Bununla da, cəmiyyətin inkişafını göstərirdi. Məmmədin 6 il əvvəl gördüyü şəhərlə indiki şəhər arasında tamamilə fərq olduğunu deməsi də bunu sübut edir. Firuzə isə son kursda təhsil alırdı, həmçinin doktorun yanında köməkçi işləyirdi, bu da qadınların öz ayaqları üzərində durmağa çalışdığını göstərirdi. Firuzə hətta maşın da sürə bilirdi. Bu o dövrün tələblərinin dəyişdiyini artıq inkişaf etdiyini göstərirdi. Hətta Məmmədin də təəccüblənsə belə bunları normal qarşılaması cəmiyyətin nə qədər inkişaf etdiyini sübut edir.

"Solğun çiçəklər" pyesi də mövzu və ideyası ilə seçilir. Bu pyesdə əsas qadın obrazımız Saradır. Sara həm daxili, həm də xarici gözəlliyi ilə diqqəti cəlb edir. O, əmisioğlu Bəhramı sevirdi. Bəhram Saranı sevsə də, axıradək bu sevgiyə sadiq qala bilmir, onun tamahı məhəbbətə güc gəlir və o, acgöz, əvvəlki sevgisinə laqeyd, rəhmsiz bir insana çevrilir, təmiz, saf, ülvi məhəbbət nəfs və tamaha məğlub olur [1, s. 101]. Pul onun üçün daha vacib olduğundan o, Saranı Pəri ilə aldadır. Sara bu pyesdə əzabkeş, sadiq, rəhmli kimi xüsusiyyətləri daşıyan obrazdır. O bütün bu əzab-əziyyətə dözür, sonda isə xəstələnərək ölür. Əslində, Sara özünü Bəhrama görə fəda edir. Sara mülayim, saf biri olduğundan Bəhramın bütün dediklərinə inanırdı və onun üçün çalışdığını düşünürdü. O hələ də, Bəhramın onu buraxmayacağına inanırdı, amma Bəhram Saranın düşündüyü kimi biri deyildi və onun Pəri ilə evlənməyə çalışması Saranı Bəhramı dəyişdiyinə inandırır. Sonda Sara qurbana çevrilərək ölür. Bəhram isə Sara öldükdən sonra peşman olur. Bütün bunların hamısına Pərinin səbəb olduğunu düşünərək onu öldürür. Sara mən müqəssir deyiləm! Mənim ürəyim zəifdir. Məni aldatdılar. Məni hiyləgər Pəri aldatdı. Mənim hiyləyə qarşı silahım yoxdur. Sara, bağışla məni! əmiqızı, bağışla! Mən sənə zülm etdim. Mən xəyanət elədim.. [3, s. 66]. əsərin adından da göründüyü kimi solğun çiçəklər Saranı təmsil edirdi. Sara o çiçəklərə hər zaman qulluq edərək onları yaşadırdı, sonda isə onlara qulluq göstərə bilmədiyindən çiçəklər solmağa başlayır. Sara da artıq sevgisiz qaldığından, aldadıldığını başa düşdükdən sonra solmağa başlayır. Bəhram da solğun çiçəkləri gördükdən sonra Saranın da bu çiçəklər kimi gündən-günə solduğunu anlayır. Ona görə də Pərinin o çiçəkləri tapdamağına imkan vermir. Yazıçı bu əsər vasitəsilə qadınların bir çiçək kimi zərif olduğunu və hər zaman qayğıya ehtiyacları olduğunu göstərməyə çalışırdı. Bir çiçək qulluq görmədiyi zaman solmağa başlayır, qadın da diqqət, qayğı, mərhəmət, sevgi görmədiyi zaman gündən-günə solur.

Ümumiyyətlə, Cəfər Cabbarlının yaradıcılığında qadın obrazları uydurma, fərziyyə deyil. Bir qayda olaraq, real həyatdan ədəbiyyata daxil edilmiş obrazlardır. Çox vaxt müəyyən qəhrəmanlar dedikdə həm ədəbi personajları, həm də real insanları fərq qoymadan xatırlayırıq. O, əslində, bu obrazlar vasitəsilə qadınlara çıxış yolu göstərirdi. Cəfər Cabbarlı yaşından asılı olmayaraq bütün qadın obrazlarını yaratmağa çalışırdı. Buna biz səkkiz yaşında olan Dilarənin hekayəsini, hələ gənc olan Dilbərin hekayəsini nümunə göstərə bilərik. Yaşından asılı olmayaraq hər bir qadın bu dövrdə müəyyən çətinliklərdən keçmişdir.

Qadın obrazına biz təkcə Azərbaycan ədəbiyyatında deyil, həmçinin bir çox ədəbiyyatlarda rast gəlirik. Bu da qadınların bu həyatda vacib rol oynadığını göstərir. Qadın obrazı müxtəlif formalarda ifadə olunur. Qadın obrazı dedikdə, bir ana, bacı, həyat yoldaşı, sevdiyi adamın qayıtmasını gözləyən qəhrəman gözümüzdə canlanır. Bu obrazlar bütün ədəbiyyatlar üçün səciyyəvidir. Hər bir ədəbiyyatda da qadın obrazları müxtəlif xüsusiyyətləri ilə çıxış edir. Çünki bu obrazların yaşadığı mühit, yaşadığı dövr tamamilə fərqlənir. Biz Azərbaycan və rus ədəbiyyatının qadın obrazlarını müqayisə etsək, çox böyük fərqlər olduğunu görərik. Buna səbəb isə bizim qadınların çadralarını atmaqlarına, təhsil almalarına, öz ayaqları üzərində durmalarına pis baxırdılar. Bununla da dövrün və yaşadığı mühitin tələblərinə uyğunlaşan obraz canlandırılırdı. Rus ədəbiyyatında isə güclü, sarsılmaz, döyüşkən obrazların yaradılmasına üstünlük verilirdi. Buna əsasən müharibə dövründə yazılmış əsərlərdə rast gəlirik. Doğulduğumuz, yaşadığımız yer hər bir insanın həyatına təsir edir. Bu real həyatda olduğu kimi ədəbiyyatda da mövcuddur. Çünki ədəbiyyat real insanların yazıçı vasitəsilə əsərlərdə

canlandırılmış obrazlardır və bəzi müəlliflər əsər vasitəsilə insanların gözünü açmağa çalışır və onlara çıxış yolu göstərir. Azərbaycan ədəbiyyatında da Cəfər Cabbarlı bunu etməyə çalışmışdır. Cəfər Cabbarlıya görə qadın güclü varlıq idi. Ona görə qadın istəsə hər bir şeyi bacara bilər.

Nəticə. Cəfər Cabbarlının yaradıcılığı təkcə Azərbaycan xalqının deyil, dünya miqyasında böyük mədəni irsdir. Yazıçının əsərində qaldırdığı məsələlər hələ bəzi ölkələr üçün aktualdır. Cəfər Cabbarlı cəmiyyəti qadına dəyər verməyə və hörmət etməyə çağırırdı. Çünki qadın müqəddəs varlıqdır. Yazıçının fikrincə, xoşbəxt gələcək yalnız savadlı cəmiyyətdədir. Ona görə də qadınların təhsil almasını istəyirdi. Əsərlərində də bu kimi mövzulara toxunmuşdur. Qadınların təhsil almasına qarşı çıxan cəmiyyətin acınacaqlı vəziyyətini göstərməyə çalışırdı. Qızların təhsilini yarımçıq qoyub ərə verdikdən sonra qızların həyatlarının daha pis vəziyyətə düşməsini, qızların gündən-günə solduğunu təsvir edərək erkən yaşda evliliklərə qarşı çıxdığını bildirirdi. O, əslində bütün bunların səbəbini çadrada görürdü. Ona görə cəmiyyətin inkişaf etməsi üçün birinci növbədə qadınlar çadranı atmalıdır. Çünki qadınların teatrda iştirak etməyinə, səhnəyə çıxmağına icazə vermirdilər. Bunu biz "Gülər" hekayəsində açıq-aydın görürük. Özlərini maarif kimi göstərməyə çalışan Gülərin nişanlısı kimilərində hələ də zehnində qadının səhnəyə çıxmağını eyib kimi qarşılayanlar vardır. Lakin Cəfər Cabbarlı Azərbaycan qadınlarının səhnədə çıxış etməyini ürəkdən istəyirdi. O, Sevil kimi obraz yaradaraq qadınlara çıxış yolu göstərirdi. Sevilin çadranı atması, təhsil alması onun özünün və düşüncələrinin necə dəyişdiyini təsvir edirdi. Yazıçıya görə çadra gerilik, savadsızlıq demək idi, ona görə də çadraya qarşı mübarizə aparırdı. Öz ayaqları üzərində duran qadının xoşbəxt gələcəyi olduğunu Sevil obrazı vasitəsilə bildirməyə çalışırdı. Bununla da, Cəfər Cabbarlı öz əsərlərində qadın hüquqsuzluğu, azadlığı uğrunda mübarizə aparan qadın, qadınların təhsilə cəlb edilməsinin əhəmiyyəti kimi mövzulara toxunmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Əhmədov B. Azərbaycan ədəbiyyatı tarixi, II cild, Bakı, 2010
2. Cabbarlı C. Seçilmiş əsərləri, I cild, Bakı, 2005
3. Cabbarlı C. Seçilmiş əsərləri, II cild, Bakı, 2005
4. Cabbarlı C. Seçilmiş əsərləri, III cild, Bakı, 2005

KAMAL ABDULLANIN "SEHRBAZLAR DƏRƏSİ" ROMANINDA PARALEL DÜNYA VƏ MİSTİKA

Nazilə Əzizli*

Abstract

Parallel world and mysticism in Kamal Abdulla`s "Valley of Wizards" novel

The novel "Valley of Wizard" is considered to be the strongest work of Kamal Abdulla. Perhaps this kind of approach is related to the fact that the author reflects Eastern philosophy and Eastern spirit in the novel. In the work, deep philosophical points, spiritual problems, and mystical effect on the reader. The novel, in which mystical stories take place, talks about the harmony between parallel worlds, their presence in secrets, and the fact that the opening of these secrets does not depend on the power of a person`s faith.İn this novel, the issue of the lack of worldly enthusiasm? The meaninglessness of the incomplete society and the human being is raised as a whole. In this work, reality and supernaturalism in the chronotype of dervishes living in the Valley of Wizards, mystical ideas are presented in a postmodern style along different plot lines. There are many works on the themes of revenge, love, forgiveness, and spiritual decay, but Kamal Abdulla revived these important themes in an original poem, in a poetic style.

Keywords: *Kamal Abdulla, Valley of Wizards, mystical, dervish, parallel world, revenge.*

Giriş. "Sehrbazlar dərəsi" romanı Kamal Abdullanın ən güclü əsəri kimi qiymətləndirilir. Bəlkə də, bu cür yanaşma müəllifin romanda Şərq fəlsəfəsi, Şərq ruhunu əks etdirməsilə əlaqədardır. Əsərdə dərin fəlsəfi məqamlar, mənəvi problemlər, mistik akusiyalar oxucuda mistik təsir oyadır. Mistik əhvalatların baş verdiyi roman paralel dünyalar arasındakı ahəngdən, onların sirrlər içində olmasından və bu sirrlərin açılmamasının insanın əqli qüvvəsindən asılı olmadığından bəhs edir. Bu əsərdə gerçəklik və fövqəltəbiilik, Sehrbazlar dərəsində yaşayan dərvişlərin xronotipində mistik ideyalar fərqli süjet xəttləri boyunca verilir. Qisas, məhəbbət, bağışlanma və mənəvi aşınma mövzularına dair əsərlər çoxdur, lakin Kamal Abdulla bu mühüm mövzuları orjinal bir mühitdə, poetik bir stildə canlandırmışdır.

Əsas hissə. Kamal Abdullanın yaradıcıllıq yoluna nəzər saldıqda elm xadimi, türk dilləri filologiyası üzrə mütəxəssis və türk ədəbi irsinin məşhur və rəmzi epik əsəri olan "Kitabi Dədə-Qorqud"un böyük araşdırıcısı kimi böyük mütəfəkkirlə qarşılaşırıq.Yazıçının həm bədii, həm də elmi yaradıcıllığı o qədər tutumludur ki, onu bir yazıda cəmləşdirib təhlilini vermək, şərh etmək mümkün deyil. Kamal abdullanın istər "yarımçıq əlyazma", "Sehrbazlar dərəsi","Casus" əsərlərində, istərsə də digər elmi əsərlərində reallığın inkişafından daha çox şüurun durumunu hiss edə bilərik.Kamal Abdulla yaradıcıllığı onunla fərqlənir ki, onun əsərləri barədə tək Azərbaycan ədəbiyyatşünasları və mədəniyyətşünasları deyil, həm də dünya ədəbi-bədii fikrinin nümayəndələri olan, yaradıcıllıq yolu və istiqaməti müəyyən qədər məşhur olan ədəbiyyatşünaslar fikir bildirmişlər. Onun romanları Azərbaycan və dünya tənqidində postmodern ədəbiyyatın, intellektual nəsrin ən gözəl nümunələri kimi qeyd edilmişdir. Əsərlərinin əksəriyyətində yaddaş probleminin fəlsəfəsi açılır, ənənələr inkar olunmamaqla yeniliklər ön plana çəkilir. Romanları və digər janrlarda yazdığı, müasir dünyanın nəbzini tutan başqa qələm əsərləri şəffaf düşüncə, möhkəm iradə, təmiz şüur və yaddaş məhsulu olduğu üçün Azərbaycanın hüdudlarını çox sürətlə keçərək, ədəbiyyat, sənət qədri bilən, əməyi qiymətləndirən, dəyər verən xarici oxuculara öz dillərində təqdim edilib. Yazıçı əsərlərində hər bir insanın daxilində olan natamamlıq vəziyyəti haqqında, eləcə də araşdırma və özünüanaliz prosesinin bizim bildiymizə və inandığımıza necə təsir edəcəyinə dair oxucu qarşısında dərin suallar qoyur. Xalq yazıçısı, akademik Kamal Abdullanın 2006-cı ildə qələmə aldığı "Sehrbazlar dərəsi" romanı postmodernizm cərəyanı üslubunda, sufi-mistik səpkidə yazılmış ən gözəl nümunələrdən biridir. Müasir Qərb poeziyasında "postmodernizm" anlayışına tez-tez təsadüf edilir.Bu termin barədə

* ***Azərbaycan Dillər Universiteti, bakalavriat. Elek.poçt: nihad.azizli05@icloud.com. Elmi rəhbər:*** *Aygün Hüseynova.*

mübahisə doğuran fikirlər mövcuddur. “Postmodernizm” sözü “modernizmdən sonra gələn” mənasını ifadə edir. Postmodernizm və modernizm siyasi hadisələri bir-biri ilə yaxın olmuş və öz müddəalarını XX əsrin əvvəllərindən formalaşan insan böhranına, əsasən, yaratmışlar.Modernizm cərəyanında mübarizə, barışmazlıq əks olunursa, postmodernizm cərəyanında mübarizədən çəkinmək , böhranla uzlaşma öz əksini tapır. Postmodernizm cərəyanında dünyaya xaos kimi yanaşılır. Bu cərəyanda əsərin başlıca hissəsi sayılan süjetin önəm kəsb etmədiyi ortaya çıxır. Postmodernizm XX əsrin 40-cı illərində formalaşmış və ideyaca “inkarı-inkar” mənasını verən bir cərəyandır. Bu istiqamət modernizmdən sonra formalaşmışdır. Ümumilidə götürəndə, bugünkü postmodernizm rüşeymlərini modernizm əsasında formalaşdırmışdır. Xaos şəraitində dünyanın dərkinin mümkün olmaması postmodernist estetikada böyük rol oynayan “epistomoloji tərəddüd” kateqoriyasının meydana gəlməsinə səbəb olmuşdur. Postmodernizm XX əsrdə mövcud dəyərlərə inancların total böhranı şəraitində determinizm prinsipinin iflasını labüd hesab edirdi cə onun bütün təzahür formalarını tənqidin hədəfinə çevirirdi [5, s. 249].

Modernizmin başlıca cəhəti budur ki, insan Allahı danmır və dərk edirdi ki, öz problemlərini öz səyləri vasitəsilə özü yoluna qoymalıdır. Birinci və İkinci Dünya müharibələri baş verdikdən sonra modernizm prinsipi tam bərkiyə bilmədi, onun əsası sarsıldı. Elə buna görə, modernizm cərəyanının davamı olaraq ondan sonrakı cərəyan kimi postmodernizm formalaşdı. J.F.Liotar 1979-cu ildə qələmə aldığı “Postmodern vəziyyət” adlı əsərində də postmodernizm cərəyanının tərifini belə qeyd edirdi: ”Postmodernizm Avropaya gətirilmiş və orada inkişaf etdirilmişdir. Postmodernizm məzmun baxımından kiməsə görə yeni texnologiyalar çağı, kiməsə görə ətraf-mühit müdafiəçisi və ya “yaşıl ideyalar” tərəfdarı, bəzilərinə görə kütləviləşmə və parçalanma və nəhayət, başqa bir qrupa görə isə yeni bir miflə dağınıq olan toplumun növbəti bütövləşmə cəhdidir” [4, s. 22].

Postmodernizm cərəyanı özündə qeyri-müəyyənliyi əks etdirir. O, pis və yaxşı olan hər şeyə eyni kontekstən yanaşır, yenilikləri, dəyişiklikləri özündə ehtiva edir. Bu cərəyanda hər hansı milli dəyər təsəvvürü mövcud deyil.”Modernizm və postmodernizm roman dünyanın epik cəhətdən təsvirini fərqli şəkildə əks etdirir. Bu cərəyanın düşüncə tərzinin aparıcı xüsusiyyətlərindən biri dünyanın xaos kimi qavranılması – hiss olunması ilə bağlıdır.Aydın məsələdir ki, xaos durumu dünyada sabit dəyər meyarlarını və məna axtarışlarını istisna edir. Əgər modernizm vaxtilə bir bütöv halında olan kainatı hissələrə bölünmüş şəkildə dərk edir, bu tamlığı bərpa etməyə çalışırsa, postmodernizm bunları bərpa etməyin məqsədəuyğunluğunu qəbul etmir. Postmodernist düşüncə tərzi mövcudluğun fraqmentallığını təklif edir: bəşəriyyət xaotikdir və düzənli olmayan elementlərdən təşkil edilmişdir [3, s. 73].

Romanda əsrlərdən bəri bəşəriyyəti narahat edən, insan varlığının daxili dünyasının təzahürünü əks etdirən mövzulardan söz açılmışdır: gerçəklik və xəyal arasında daimi təbəddülatlar, iki dünya arasındakı ədalət, gerçəkliyin əzablarından yaxa qurtarmaq və həll etmək üçün fövqəltəbii qüvvəyə arxalanmaq istəyi, mənəvi-əxlaqi dərslər və s. Romanda əsas problem kimi yaşanmışlara səbəb olan, gerçək yaşamlarında xoşbəxtliklərinə mane olan ağrılı suallara cavab tapmaq məsələsi əks olunmuşdur. Əsərdə bu konfliktin həlli istiqamətində sehrə müraciət edilmişdir. “Sehbazlar dərəsi” insan həyatının klassik ünsürlərinin bütünlüklə əks olunduğu canlı və bir o qədər də real dünyanın təzahürüdür. Məhəbbət və nifrət, qisas və bağışlanma, müəyyən hisslərdən arınaraq “təmizlənmə”, həqiqət axtarışı və s kimi məsələlər romanda müəllifin humanizm dərsinin yazılı formasıdır [1, s. 25].

Ön planda olan qəhrəmanlardan biri Karvanbaşıdır. Onun sadiq köməkçisi, ən etibarlı adamı və yaxın rəfiqi Xacə İbrahimdir. Xacə İbrahim hər daim ağasının qulluğunda duran, istəklərini canla-başla yerinə yetirən, gerçəkliklə fövqəltəbiiliyin arasında əlaqəyə dəstək olmuş personajdır. Keçmişə dair suallara cavab axtaran Karvanbaşı atası Cəlladbaşının ruhuyla görüşmək istəyir. Əsərdə diqqəti cəlb edən başqa personajlar isə şah obrazlarıdır. Türk dünyasında Şərqdə və uzaq keçmişdə mövcud olmuş dövlətin başçısı hesab olunur. Əsərin süjet xətti boyunca gerçəklikdə iki şahdan, ata və oğuldan söhbət gedir ki, onlar arasında əlaqəli olan situasiyalar daima keçmişlə indi, gerçəklə fövqəltəbii konsepdə cərəyan edir. Fövqəltəbii koteksdə isə ön planda iki personaj- Sehrbaz Səyyah və onun mənəvi ustadı Ağ dərvişdir [2, s. 50].

"Sehrbazlar dərəsi" əsl şüuraltılar romanıdır. Vaxtilə "basdırılmış" enerjinin tədricən "püskürüb" hər şeyi kontrola alması prosesi əsərdə ustalıqla verilir. Çevrəboyu hərəkətdə olan simvolik obrazı da bu işdə rupor rolunu oynayır.

Romanın əsas obrazlarından biri ata şahın sadiq xidmətçisi cəllad Məmmədquludur, eynilə oğul şaha sadiq oğlu Karvanbaşı kimi. Məmmədqulunun taleyi tutqundur, xarakteri də bir o qədər ziddiyətlidir. Kamal Abdulla bu bədbəxt obrazı fəqli bir mərtəbə də xəlq edib ki, bu obrazı oxumaqla, şərh etməklə fikir bildirmək, şərh etmək mümkün olmur, bu obrazı ancaq yaşamaq, hiss etmək lazımdır. O, bir cəllad olaraq çox qorxuncdur, qanlı vəzifənin sahibidir. Öz vəzifəsini səylə yerinə yetirir, himə bənddir və bundan xüsusi həzz alır. Sadəcə "vəzifə"sini icra edən biri kimi günahlarından təmizlənməyə və boynundan atmağa çalışsa da nəticə etibarilə onun əlləri xeyli müddət qan içində olmuşdur. Hətta ilk təcrübəsini isə laq uşaq yaşlarında, atasının qatili olan anasının və onun münasibətdə olduğu qonşusunu öldürməklə qazanır, qatil ananın qaniçən oğlu. Onun günahları tək bunlarla yekunlaşmır, uşaqlıq yaşlarının qatili, gəncliyinin cəlladının bir də günahlarla dolu gələcəyi varıydı. Bir zamanlar cəllad saf məhəbbətlə sevir və artıq sakit ömür sürmək istəyir, lakin etdikləri onu rahat buraxmır. Hətta çox kiçik yaşlarında olan körpəsini ana-atasız qoyur. Məmmədqulu ikili personajdır, həmçinin əsərin mərkəzindədir. Çünki o romanın başlıca məqamlarından olan gerçəklə fövqəltəbii arasındakı daimi qarşılıqlı asılılığın rəmzi personajıdır. Onun ruhu belə qorxuncdur və nəticədə onun xarakterindəki ziddiyətlər onu dibsiz quyuya sürükləyir. Məhəbbət və nifrət, sədaqət və xəyanət, günahkar və ruhi sakitlik axtarışı tipli insan mövcudluğu konflikti Kamal Abdullanın ən təqdirəlayiq humanizm dərsidir. Bəşəriyyət bu ikilik üzərində var olmuşdur və davam etməkdədir.

Keçmişin izinin rahat buraxmadığı Karvanbaşı atası Cəlladbaşının ruhunu çağırmağa müvəffəq ola biləcək bir dərviş axtarışına düşür və bu ruh vasitəsilə qaranlıq məqamları aşkara çıxarmaq istəyir. Karvanbaşının beynində dolaşan və onu rahat buraxmayan bütün sualların cavabının atasında olduğunu bilərək, onunla danışmaq istəyir. Beləliklə səyahətə çıxan karvan bir ilin sonunda yenidən obasına qayıdır. Gətirdikləri dərviş Karvanbaşının atası Cəlladbaşının ruhunu çağırmağa müvəffəq olur. Ruh oğlu üçün qaranlıq olan bütün məqamları işıqlandırır, lakin Karvanbaşı sakitləşmir. Çünki onuböyüdən nənəsinin dediklərinə, əsasən, o şahın nəvəsini günahkar hədəfi seçib, ondan intiqam alır, sonra da atasının ruhunun təkidi ilə həyatına son qoyur. Vaxtilə cəllad Məmmədqulu şahın ən sadiq adamı olaraq, onun əmriylə bir mahalı talan edib, viran qoyduğu mahalda bir gəlinə könül verir. Şahın əmrinin əleyhinə hərəkət edərək vəzifəsindən imtina edib, mahalda qalır, beləliklə şahın qəzəbinə tuş gəlir. Oğlu Karvanbaşı da atasının taleyini bölüşür və şahı zəhərləmək istədiyinə görə onun qəzəbinə məhkum olur. Nəticə etibarilə intiqam heç də hər zaman düzgün çıxış yolu olmur. Çünki bu tək Karvanbaşının faciəsi olmur, həm də onun ailəsinin, yaxınlarının, əhatəsinin faciəsinə çevrilir. Yalnız Karvanbaşının gözünün ağı-qarası oğlu dərvişin sayəsində xilas olur.Sehrbazlar dərəsinə uzun bir karvan səyahəti ilə başlayan əsər sonda həmin dərəyə səfər ilə qurtarır. Dərviş uşağı Sehrbazlar dərəsinə gətirir.

-Əlvida ...ağa...

Ruhun bu son sözlərini canını artıq tapşırmış Karvanbaşı eşitmədi.

-Əlvida, oğul!- Ruh dedi.

Cəllad Məmmədqulunun ruhu ona görə sehrbazlara "yaxa" vermirdi ki, gizlənməyə mübhəm yer tapmışdı. Allahdan gəlib Allaha dönəyə, Yaradanı dərk etməyə hansı dini-fəlsəfi yöndən baxsan, eynidir: nirvana, zöhd, batini nurlanma. İnsan İlahiruhun bir zərrəsidirsə, demək, Karvanbaşı Səyyah Mir Həsən ağanı tapıb gətirməklə təkcə atasının əbədi rahatlığına qırıqlıq gətirməmişdi, həm də ilahi ruhi-rəvanlığı pozmuşdu. Simvolik cəhətdən yanaşsaq, Görükməz təpə, qaranlıq təkcə işıq düşməyən yer deyil, həm də sözün bütün mənalarında görünməzlikdir. Kamal Abdulla üçün sirr təbiət hadisəsi, mübhəmlik ilahi düzəndir. Karvanbaşı isə bu nizamı pozdu![2, s. 472].

Səyyah sehrbaz da məqsədsiz, təsadüfən gəlməmişdi ora. Çevrə qapanmalı, Ağ dərvişin müridi ustadına xəyanət borcunu ödəməli idi. Elə ona görə də Karvanbaşının uşağını-Məmmədqulu nəslinin son yadigarını geniş əbasının içində gizlədib girir özünün təkcənəlik vaxtına. Sonra yuxusuna qısılmış uşağı öz əllərində ağ dərvişə təlim edir.

Kamal Abdulla "Sehrbazlar dərəsi" romanında iki cəllad obrazı yaradıb. Məmmədqulu zahirdir, Karvanbaşı batin, Məmmədqulu baş kəsir, qan tökür, Karvanbaşı qisas-intiqam üçün alışıb-yanır. Məmmədqulunun bədbəxtliyi Pərnisədən, onun eşqindən başlayır, Karvanbaşının biçarəliyi şaha xəyanətdən.

Müasir Azərbaycan ədəbiyyatında sufi-mistik ideyaları özündə əks etdirən dərviş, səyyah, şaman və.s kimi obrazlara xüsusi müraciət edilmişdir. Kamal Abdulla "Sehrbazlar dərəsi" romanında dərviş obrazından istifadə edib. Əsərdə fərqli bir süjet xəttində Ağ dərviş barəsində Səyyah Sehrbazla Xacə İbrahimin, digər məqamda Səyyah Sehrbaz, Xacə İbrahim və Karvanbaşı üçlüsünün söhbətində eşidirik. Səyyah Sehrbazı Karvanbaşının atasının ruhunu çağırmaq üçün gətirən Xacə İbrahim və Karvanbaşı onun bu ruhu çağırmaq kimi mistik işi bacara biləcəyindən əmin olmaq üçün öz sualları ilə onu imtahan edirlər. Onun harada yaşadığını və ustadının kim olduğunu öyrənməyə çalışırlar.Səyyah Sehrbaz öz yaşadığı yer və ustadı haqqında geniş məlumat verir. Səyyah Sehrbaz: "Mənim ustadım, İbrahim ağa, Cəziräli əl Zatineyi Ağ dərvişdir. Güman edirəm bu ad da sizlərə yaxşı bəllidir.- Yenə Səyyah Sehrbaz Xacə İbrahim ağanın qəlbində tutduğunu əlüstü duymuş idi".

Əsərin sonrakı hissələrində Ağ dərviş obrazına Səyyah Sehrbazla Xacə İbrahim ağanın söhbətində toxunulur. Onlar Ağ dərvişin şagirdlərinin hansı səbəbdən intihar etməsi məsələsini, intihar sırasında Ağ dərvişin şagirdlərindən birini özlərindən hansı səbəbə uzaqlaşdırdıqlarından söhbət edirlər. Səyyah Sehrbaz Böyük Ruhani Birliyinin qəzəbli və nüfuzlu üzvü Seyid Sarıyla olan söhbətini Xacə İbrahim ağa nəql edir. Seyid Sarı qəmgin bir halətdə Səyyah Sehrbaza Ağ dərvişin yeni bir vücud tapması və dünyaya yenidən gəlməsini bildirir. Ağ dərviş bir gün zühur edəcək, Sehrbazlar dərəsində. Ağ dərvişi necə tapacağı barədə soruşdu. Ayılıb onu yanında görcək o sənə belə deyəcək: "Xoş gəldin..." Sən isə sözü onun ağzından alıb belə davam etməlisən: "Səfa gətirdim." Xacə İbrahim ağa Ağ dərvişin ruhunu qəbul edən şəxsi öyrənmək istəyir. Səyyah Sehrbaz isə Xacə İbrahimdən soruşur:- Sən özün təxmin edə bilmədin?...

Xacə İbrahim ağa təxmin edə bilmədiyini deyir və qəflətən Sehrbazlar dərəsində gördüyü Cavan sehrbaz yadına düşür. İlk dəfə Cavan sehrbaz ona "Xoş gəldin" deyir. Xacə İbrahim ağa isə "səfa gətirdim" deyir. Beləliklə bu söhbətdə Ağ dərvişin kimliyi üzə çıxır.

Kamal Abdullanın əsərdə qeyd etdiyi "təkcənəlik vaxtı" barəsində tədqiqatçılar belə fikir bildirirlər ki: Kamal bu romanı "təkcənəlik vaxtı"na daxil olduğu məqamlarda yazıb. Ona görə də bu "vaxt"ın kosmosunda ölüb yaşamasan, romanı oxuya bilməzsən, çünki sehr var, möcüzə var. Bunu qeyd etmək lazımdır ki, "təkcənəlik vaxtı" ifadəsi Kamal Abdullanın yeni bir filoloji ifadəsidir. Romanda "təkcənəlik vaxtı" yalnız öz sakinlərinə, yəni Sehrbazlar dərəsinin sakinlərinə məxsusdur. Bu sakinlərin hər bir nümayəndəsi dərviş xislətli, xüsusi xislətə sahib sehrbazlardır ki, gerçəklik və virtuallıq sərhədini asanlıqla aşaraq yeni bir dünyaya keçid edirlər. "Təkcənəlik vaxtı"nda çəkilirsən yalnız dünyaya, sən və cisimsiz ruhundan başqa heç kəs olmur. Dünya hər yerdən sovrulub hopur daxilinə və sən zaman və məkan kontekstindən uzaqlaşmış olursan.

Əsərdə diqqəti çəkən mistik məqamlardan biri də əsas məkan kontinuumu olan Sehrbazlar dərəsidir. Bu dərə ni digər yerlərdən, məkanlardan fərqləndirən cəhət isə xüsusi iqlimə sahib olması idi. İlin bütün fəsillərinə rəğmən həmişəyaşarlığa sahib olan bu yer öz yaşıllığı ilə əsərdə sehrbazlardan fərüli olaraq, adi insanların diqqətini, heyrətini cəlb edir. Sehrbazlar dərəsinin bu cür fərqli təbiətə sahib olması barədə ortaya çıxan düşüncələrdən biri də ruhların həmişəyaşarlığı ilə baölıdır. Görükməz təpənin əhatəsində olan bu Sehrbazlar dərəsi tək görkəmi ilə deyil, adı ilə də maraq cəlb edir. Əsərdə sufi-mistik hadisələrlə yanaşı, adlar da xüsusi seçilib. Bu dərədə yaşayan sehrbazların hər biri ruhlarla əlaqədə ola bilmək bacarığı cəhətdən təcrübəli və qabiliyyətlidirlər. Görükməz təpə Allahın təbiətdəki təcəllasıdır. Bir kimsə Görükməz təpə ilə üzüyuxarı çıxmağı bacarmamışdı. Çünki, əsərdə yaranmış təəssüratına görə "bir-iki addım atdıqdan sonra kənardan baxana elə gəlirdi ki, bu adam üzü yuxarı istiqamətdə ayağını boşluqlara basa-basa addımlayır və havanın üstü ilə qalxır".

Nəticə. "Sehrbazlar dərəsi" romanınında dünyəvi şövqündə heçliyi, bütövlükdə yarımçıq toplumun və də insanın mənasızlığı məsələsi qaldırılır. "sehrbazlar dərəsi" "ümumbəşəri" və zaman xaricində mənaaltı daşıyır ki, bu barədə danışmağa fürsət yaradır, hətta buna baxmayaraq, yazıçı əsərin adını roman-fantaziya olaraq şərh edir.Əsərdə insan varlığının xislətini müəyyənləşdirən,

formalaşdıran dünyəvi cəhətləri əhatə edən məsələlərə toxunulmuşdur. Bu əsərin universallığı onun ruhiyyat və materialistik, fövqəltəbii və gerçəkliyi əks etdirən aləm arasında sərhədi incəltməsində dayanır.Baş obraz əslində özünü axtarmağının, ancaq bu yolda səhv etməsinin şahidi oluruq. "Sehrbazlar dərəsi" əsəri təkcə qəhrəmanları ilə deyil, həm də ustalıqla yazılmış yazılış texnikası ilə, paralel inkişafda olan süjet xəttləri və sintaksisi ilə, zəngin teksturası ilə ənənəvilikdən uzaq, təkrarsızdır. Düzdür, əsər postmodernist səpkidə yazılsa da, təkcə postmodernizm cərəyanının relsləri üzərində hərəkətdə yox, həm də intertekstual mahiyyətdədir. Əsər dərin fikir-intellektin uçuş zolaqları ilə zəngindir.

İstifadə edilmiş ədəbiyyat

1. Kamal Abdulla. Sehrbazlar dərəsi. Roman. Bakı, 2006, 224 s.
2. Kamal Abdulla. Kədərli seçmələr. Bakı, 2002, 548 s.
3. Abdulla K. Postmodernizmdən milli özünəməxsusluğa-I yazı. Ədəbiyyat qəzeti.-2019.-27 iyul. -s. 22-23.
4. Quliyev Q. Postmodernizm//Azərbaycan jurnalı, 2005, №9, s. 172-183.
5. Şərifova Salidə.Çağdaş Azərbaycan postmodern romanı.Bakı: Elm və təhsil, 2015, 104 s.

DOSTOYEVSKİNİN "CİNAYƏT VƏ CƏZA" ƏSƏRİNDƏ FƏLSƏFİ VƏ PSİXOLOJİ MƏQAMLAR

Nuranə İbişova*

Abstract

Philosophical and psychological points in Dostoevsky's Crime and Punishment

Dostoevsky`s works are human-oriented and reflect the political, social and psychological atmosphere of 19th century Russia. It contains many philosophical and religious themes. He also frequently used the themes of poverty and morality. In addition, dreams and father-son relationships can often be seen in his works. Most of his works offer insight into the complex socio-political structure of modern Russia. His books have been translated into more than one hundred and seventy languages. Among the most important are Crime and Punishment (1872), The Idiot (1869), The Demons (1872) and The Brothers Karamazov (1880). During his lifetime, sixteen novels and novellas, sixteen short stories, various translations and works in other genres were published. He also wrote more than seven hundreds letters, but some of them are lost.

Keywords: *Dostoevsky, crime, punishment, conscience, remorse.*

Giriş. Tənqidçilərin yüz illərdir "Cinayət və Cəza" romanını ələ alaraq bu əsərə fərqli rakurslardan baxması və hər dəfə yeni şərhlər yazaraq əsərə daha çox dəyər qatması bu məqalənin mövzusunu olduqca aktual edir.

Bir insanı qatil olmağa sürükləyən şey nədir? Xüsusilə də, daha əvvəl heç cinayət işləməmiş və hətta ətrafı tərəfindən yaxşı biri olaraq tanınan insan hansı düşüncələr sonrası belə bir qərar verir? "Cinayət və Cəza" romanı bizi belə bir cinayətin tən ortasına atır. Romanı oxuduğumuz zaman hələ yeni cinayət işləmiş bir insanın daxili dünyasında baş verən psixoloji sarsıntıların şahidi olaraq cinayətin fəlsəfəsini öyrənirik. Əsərin müəllifi Dostoyevski bizə insan təbiəti və vicdan anlayışlarını düşündürür. İnsan öldürmənin bədəlini göstərir və sevgi və mərhəmət dediyimiz davranışların nə qədər xilasedici ola biləcəyini göstərir. Buna görə də bu məqalənin mövzusu "Cinayət və Cəza Fəlsəfəsi"dir.

Əsas hissə. Roman bizə cavan və universitet tələbəsi olan Raskolnikovdan danışaraq başlayır. O, hüquq fakültəsində oxuyur, tək yaşayır və maddi səviyyəsi çox aşağı olduğuna görə universitet təhsili yarımçıq qalmışdır. Eyni zamanda bacısı və anası ilə məktublaşmasından onların da maddi səviyyəsinin aşağı olduğunu görürük. Bacısının sırf puluna görə sevmədiyi bir insanla evlənməsi Raskolnikovun səbir kasasını dolduran son damla olur. Lakin özünün bütün bu problemləri həll edəcək bir planı var. Binalarındakı sələmçi qadını öldürərək onun əşyalarını və pulunu götürməyi düşünür. Bununla da, əlinə ciddi miqdarda pul keçəcək və maddi sıxıntıları sona çatacaq. Raskolnikov günlərlə bu planı beynində canlandırır və dayanmadan özünə bu cinayətin nə üçün məntiqli, hətta lazımlı olduğunu xatırladır. Maddi səbəbləri ilə yanaşı, belə bir gerçək də var ki, sələmçi qadın pis insandır, ətrafı tərəfindən sevilməyən və çevrəsinə nifrət saçan biridir. "Bir yanda mənasız, axmaq, pis, bir qəpiklik dəyəri olmayan, əksinə, ziyankeş nə üçün yaşadığını özü də bilməyən, onsuz da axır-əvvəl öləcək bir qadın var… Bu qadının həyatı bir bitin, hamam böcəyinin həyatından belə daha dəyərli deyil, çünki başqalarının həyatını sömürür" deyir [1, s. 80]. Onu öldürməyin cəmiyyətə fayda verəcəyinə, belə günahkar bir qadının birinin dünyadan əskiləcəyi fikrinə özünü inandırır. Bu cür məntiqli səbəblərinə görə, vicdan əzabı çəkməyəcəyini də düşünür, bir gün cəsarətini toplayıb sələmçi qadını yanında götürdüyü baltayla qətlə yetirir. Sələmçinin bacısı yan otaqdan çıxaraq hadisəyə şahid olur. Raskolnikov onu da qətlə yetirir. Günahsız bir qadının həyatına son verdiyi üçün peşman olur. Çünki Raskolnikovun məqsədi bu deyildi. Sələmçinin bacısını nəzərə almamışdı. Romanın əvvəlindəki bu cinayət hadisənin davamında Raskolnikova çox sərt vicdan əzabı olaraq geri dönəcəkdir. Cinayətdən sonra günahsız olan sələmçinin bacısını öldürdüyü üçün vicdan əzabı çəkdiyini düşünürük. Lakin sonra Raskolnikov problemlərini bəhanə edərək törətdiyi cinayətin əsl məqsədini özü etiraf

* ***Azərbaycan Dillər Universiteti, bakalavriat. Elek.poçt: ibisovanur@gmail.com. Elmi rəhbər:*** *Aygün Hüseynova.*

edəcək. Amma bu əzabdan bəhs etməzdən əvvəl bir problemə fokuslanmaq lazımdır. Raskolnikov kimi öz aləmində yaşayan bir insan və xaricdən baxdığımızda zərərsiz deyə biləcəyimiz biri niyə bu cinayəti işləməyə cəhd göstərmişdir? Maddi və əxlaqi motivinin yanında başqa bir səbəb daha var. Cinayətin əsl motiv və məqsədinin, həmçinin vicdan əzabının səbəbini öyrənmək istəyiriksə, universitet illərində yazdığı məqaləyə nəzər salmalıyıq.

Raskolnikov öz məqaləsində (Hegel kimi) insanları iki yerə bölür: fövqəladə və bəsit insanlarş Bəsit insanlar qanunlara əməl edən, totalitar rejimə boyun əyən, itaətkar insanlardır. Onlar belə yaşamağı xoşlayırlar. Raskolnikov bu insanlara təhqiramiz nəzərlərlə baxmaz. Çünki bu adilik o insanların təbiətidir. Hətta elə yaşamaq məcburiyyətindədirlər. Fövqəladə insanlar, yəni adi olmayan insanlar isə, qanunları, qadağaları tapdalayan və yaxud öz qaydalarını ortaya qoyan insanlardır. Daha yaxşısı olmaq üçün indini yıxmaq istəyirlər. Öz ideallarına çatmaq üçün cinayət işləməkdən, adam öldürüməkdən çəkinməzlər. "Əslində, bu xeyirxah, qurucu, qanun qoyan insanların bir çoxu qatildir, qan tökəndir"; "Cəmiyyət içindən sıyrıla bilən, yəni cəmiyyətə söyləyəcək yeni fikirləri olanların hər biri cinayətkar olmaq məcburiyyətindədirlər. Əks halda cəmiyyətdən sıyrılmalarına ehtimal yoxdur" deyir Raskolnikov [1, s. 323]. Hətta daha da irəli gedərək, fövqəladə insanların cinayət törətməyə haqqı var fikrini müdafiə edir və nümunə olaraq Nyutonu göstərir. Əgər Nyutonun qarşısında onun kəşflərinin yayılmasına mane olan bir qrup insan olsaydı, Nyuton da öz kəşflərinin yayılması üçün o insanları aradan qaldırmağı lazımlı bilsəydi, onda Nyutonun özünə qarşı çıxan insanları öldürmə haqqına sahib olduğunu söyləyir. Hətta bunun bir məsuliyyət olduğunu bildirir. Çünki Nyutonun kəşfləri ilə insanlıq daha da inkişaf edəcək və bunun uğrunda əlinin qana batması lazım gələcəkdi.

Məqaləsində toxunduğu digər nöqtə üstün insanların təbiətidir. Necə ki sıradan insanların təbiəti boyun əyməyə və qaydalara əməl etməyə proqramlıdırsa, eləcə də üstün insanların da təbiəti qaydaları yıxmağa, öz qanunlarını qoymağa və cinayət işləməyə proqramlıdır. Və məqaləsində "Təbiətinə görə bir insan cəzalandırılmalıdırmı?" fəlsəfi sualını ortaya qoyur. Əsərin davamında isə anlayırıq ki, Raskolnikovun əsl məqsədi elə budur: özünün bəsit yox, üstün insan olduğunu göstərmək. Özünün bəsit insan olmadığını və idealları uğruna nə lazımdırsa, edə biləcək qabiliyyətdə olduğunu sübut etməkdir. Lakin sonda qorxduğu şey başına gəlir və işlədiyi bu cinayətə görə vicdan əzabı çəkir.

Raskolnikovun cinayətdən sonrakı halı bizə onun xasiyyəti haqqında bəzi gerçəkləri öyrənməyimizə imkan verir. Birincisi, hadisə öncəsi özünü inandırdığı cinayət motivinin heç də möhkəm olmadığını görürük. Nə maddi, nə də əxlaqi motivləri bu cinayətdən sonra əzab çəkməsinə əngəl ola bilməmişdi. Fəqət Raskolnikova əsl əzab verən məqaləsində də göstərdiyi kimi üstün insan olmadığını anlamasıdır. Öz teoreminə görə, fövqəladə insan olsaydı, belə məntiqli bir cinayətdən sonra vicdan əzabı çəkməməli idi. Vicdan əzabı çəksə belə, bu vəziyyət o insanı əşyaları və pulu oğurlamaqdan, qısacası, hədəfinə çatmaqdan saxlamamalıydı. Lakin Raskolnikov düz əməlli oğurluq belə edə bilmir. Əli-ayağı bir-birinə dolaşır. Oğurladığı kiçik bir hissəni də aparıb basdırır, sonra onları gedib çıxarmağa belə qorxur. Pis bir insanı dünyadan silməyin yaxşı bir əməl olduğunu iddia edir, lakin cinayət sonrası zəifləyir, xəstə düşür və bir neçə gün yataqdan qalxa bilmir. Fövqəladə insan olduğunu göstərmək adına bir cinayət törətmiş, lakin nəticəsi sübuta yetməmiş və uğursuz olmuşdur. Onun bu cəhdi sadəcə cinayət olaraq qalmışdır. Raskolnikov bu vəziyyəti belə etiraf edir: "O ərəfələr öyrənmək istədiyim bir şey var idi: mən də hər kəs kimi bir böcək idim, yoxsa insan idim? Önümə çıxan maneəni aşa bilərdimmi, aşa bilməzdimmi? Gücü yerdən götürməyə cəsarət edə bilərdimmi, edə bilməzdimmi? Titrəyən bir məxluq idim, yoxsa haqları olan bir insanmı? Qoca qarı sadəcə bir xəstəlik idi. Mən qalib gəlmək istədim. Mən bir insan öldürmədim, bir qaydanı, bir prinsipi öldürdüm. Amma üstündən addımlayıb, ötəyə keçə bilmədim, bu yanda qaldım. Təkcə adam öldürməyi bacara bildim. Görünür, bunu belə bacara bilməmişdim" [1, s. 523]. Qısacası, Raskolnikov öz qazdığı quyuya düşmüşdür, onun təbiətində fövqəladəlik yoxdur. O da bir çox insan kimi bəsit biridir, cinayət törədə bilməyə və qanunları yıxa bilməyə uyğun biri deyil. Hətta özünün qeyri-adi insan olub-olmadığını sorğulaması da onun fövqəladə olmadığını göstərir. Çünki öz teoreminə görə üstün olan insanlar belə bir sorğulamaya ehtiyac belə duymazlar.

Dostoyevski obrazların üzləşdiyi, lakin oyaqkən ifadə edə bilmədiyi psixoloji həqiqətləri yuxu sekansları ilə tez-tez göstərir. Baş qəhrəmanın cinayətdən sonra əzab görən ruhunu göstərən çox sayda

kabusa şahid oluruq. Misal üçün, yuxusunda sələmçi qadını yenidən öldürdüyünü görür, amma qadın ölmək əvəzinə, qəh-qəhə çəkir. Bu yuxu Raskolnikovun üstünlüyünü sübut etmək yerinə, törətdiyi cinayətin sadəcə onun normallığını sübut etdiyini və buna görə də əzab çəkdiyini göstərir. Dostoyevski cinayətin real əksləri ilə deyil, cinayətin Raskolnikova əzab verici günahkarlıq hissi ilə başa çıxmağa məcbur etməsi ilə maraqlanır. Həqiqətən də, Dostoyevski diqqəti Raskolnikovun həbs edilməsindən daha çox əsl cəzaya yönəldir. Əsl cəzanın qanundan qaçmağın yaratdığı stress və narahatçılıqdan çox daha dəhşətli və qorxuducu olduğunu göstərir.

Bəs Raskolnikov bu cinayəti digər insanlardan necə gizləyəcəkdi? Əslində, bu əməli törətdiyindən bəri ağıl sağlamlığının ciddi şəkildə pozulmasından və davranışlarını idarə edə bilməməsindən anlayırıq ki, bu cinayəti sonsuza qədər gizlədə bilməsi mümkün deyil. Mütləq Raskolnikov bir yerdə ədalətə təslim olacaq. Buna görə də əsl soruşmalı olduğumuz sual budur: Raskolnikov bu cinayəti necə etiraf edəcəkdi? Qəribədir ki, onu cinayətini etiraf etməyə təşviq edən şəxs nə anası, nə bacısı, nə ən yaxın dostu, nə də bu cinayəti araşdıran məsuliyyətli şəxslər idi. Sonya adında pis yola düşmüş, yoxsul bir sərxoşun qızı Raskolnikovu xilas edəcəkdi. O, qatil olduğunu ilk olaraq Sonyaya etiraf edir. Sonya bu vəziyyətə çox kədərlənsə də, Raskolnikova qarşı sevgi və mərhəmət göstərməyə davam edir. Hətta görüşlərinin birində ona İncildə bəhsi keçən "Lazarusun hekayəsi"ni danışır. Lazarus xəstəlikdən dünyasını dəyişmişdir. Onun yaxınları məzarı başında yas tutarkən İsa da bu məzarın başında peyda olur və bir möcüzə ilə Lazarusu dirildir. Lazarus məzarından çıxır və yeriməyə başlayır. Raskolnikov ateist olduğu üçün bu əhvalatı ciddiyə almasa da, sonradan Sonyanın ona olan mərhəmətinin bu hekayə ilə birbaşa əlaqəsini görür. Çünki Lazarus ilə Raskolnikov bir nöqtədə bir-birlərinə bənzəyirlər. Hekayədə Lazarus fiziki olaraq ölmüş vəziyyətdədir və bir möcüzə ilə həyata qayıdır. Raskolnikov da işlədiyi cinayət ilə öz ruhunu öldürmüşdür. Sonya Lazarusun hekayəsinə inandığı kimi Raskolnikov kimi bir qatilin də itirdiyi ruhunu geri qazana biləcəyinə inanmaqdadır. Lakin bunun bir bədəli var. Sonya Raskolnikovun qurtulması üçün ona nə etməli olduğunu deyir: "Bir dörd yol ağzına get, insanları salamla. Yerə qapan və torpağı öp. Çünki sən ona qarşı da günah işlədin. Və bütün dünyaya tərəf "Mən bir qatiləm" deyə bağır. Yalnız o zaman Tanrı sənə həyatını geri verəcəkdir". Raskolnikov Sonyanın dediyi kimi küçənin ortasında əməlini bağıraraq etiraf edir. Daha sonra polisə gedib təslim olur.

Raskolnikov həbsə girəndə qarışıq hisslər içərisindədir. Bu duyğular arasında özünə olan əsəbi, məğlub olmuşluq hissi və xəyal qırıqlığının yanında uzun müddətdir həsrət qaldığı hüzur duyğusunu da hiss etməkdədir. Çünki artıq bu cinayətin əzabını çəkməyəcəkdi. Durmadan qaçdığı və inkar etdiyi təbiətini, nəhayət, qəbul etmişdi. Və bütün bu dediklərinə baxmayaraq, hələ də onu çöldə gözləyən Sonyanın qəlbində yer tapa bilmişdi.

Nəticə və elmi yenilik. "Fəlsəfi Qurğu" adlandırdığımız janrın bəlkə də ən gözəl örnəyi olan bu kitab mükəmməl hekayə ötürücülüyünə malikdir. Günümüzdəki hər cür hadisədə "Cinayət cə Cəza"nın ayaq izini görmək mümkündür. Çünki bu roman hər insanın içdən-içə etdiyi "Mən əslində kiməm?" sorğulamasını bambaşqa bir səviyyəyə qaldırır. Bir insanın özünə yadlaşmasını, öz təbiətini inkar etməsini, bunun cəzasını necə çəkdiyini, cinayətin nə qədər gizli qaldığını, insanın hara kimi dözə biləcəyini Dostoyevski çox detallı danışır. Çünki olduğumuz insan ilə olmağa çalışdığımız insan arasındakı mübarizəni hamımız veririk. Lakin Dostoyevski bu mücadələyə olduqca fərqli rakursdan baxır. Ya olmaq istədiyimiz insan təbiətimizə uyğun deyilsə? Bəs bunun uğruna öz təbiətimizə qarşı çıxmaq lazım gəlirsə, bunun cəzasını çəkməyə hazırıqmı?

Raskolnikovun özünə yadlaşmasına insanlıq haqqında dərin fəlsəfi fikirlər daxildir. Raskolnikovun hekayəsi sözün əsl mənasında özünü kəşfetmə və qurtuluşun yalnız insanın öz içindəki şeytanlarla üzləşməsi və bütün insanların daxildən bir-birinə bağlı olduğunu qəbul etməsiylə mümkün ola biləcəyini göstərməkdədir.

İstifadə edilmiş ədəbiyyat

1. Fyodor Mihayloviç Dostoyevski. Suç ve Ceza. İstanbul: Kültür yayınları, 2023, 687 s.
2. https://www.aktiffelsefeadana.org/suc-ve-cezanin-felsefi-olarak-incelenmesi/
3. https://www.hukukpolitik.com.tr/2016/11/01/dostoyevskinin-suc-ve-cezasinin-incelenmesi/